**İSA MUĞANNA**

# İDEAL

"LİDER NƏŞRİYYAT"
BAKI-2005

**894.3613 - dc 21**
**AZE**
**İsa Muğanna. İdeal.** Bakı, “Lider nəşriyyat”, 2005, 536 səh.

Xalq yazıçısı İsa Muğanna (Hüseynov) Azərbaycan nəsrinin inkişafında sanballı xidmətləri olan söz sənətkarıdır. Yeni Azərbaycan nəsrini onun, artıq nəsr poetikasının gözəl nümunələrinə çevrilmiş əsərləri olmadan təsəvvür etmək çətindir. Nəsrimizin əsaslı surətdə yeni mərhələyə qədəm qoymasının fəal iştirakçısı olmaqdan daha çox bu nəsrin yaradıcılarından biri kimi fəaliyyət göstərən yazıçını, odur ki, 60-cı illər nəsli öz sələfləri saymaqda tam haqlıdırlar.

İsa Muğanna yaradıcılığının başlıca xüsusiyyəti folklorla, xalqın bədii təfəkkür prinsipləri, estetik və əxlaqi kateqoriyaları ilə dərin bağlılığıdır. Yazıçının, həyatdakı ziddiyyətləri bütün kəskinliyi ilə göstərən “Yanar ürək” romanı özünün ictimai, vətəndaşlıq konsepsiyası ilə, mühüm sosial həqiqətlər barədə söz açmaq cəhdi ilə ədəbiyyatımızın inkişafı üçün çox gərəkli olmuşdur. Bu əsərinin mövzusunu müəllif sonralar “İdeal” romanında bir qədər də dərinləşdirmiş, yeni bədii məzmunda zənginləşdirmişdir.

Təqdim olunan, yenidən işlənmiş şəkli ilə yaxın və uzaq keçmişimizdən tarixi hadisələrin, alim və filosoflarımızın vətənpərvərlik çarpışmalarının əks etdirildiyi “İdeal” əsərində yazıçı Azərbaycan xalqının ulu tarixi kökləri ilə müasir mənəvi problemlərini vahid süjet xəttində ustalıqla birləşdirmişdir.

**ISBN 9952-417-29-0**

© “LİDER NƏŞRİYYAT”, 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# ÖN SÖZ

Fəlakətin həlledici mərhələsi onda başlandı ki, Qrek-Latın quldarlıq qanunları əsasında qurulmuş Vizantiya imperiyası 604-802-ci illərin dünya müharibəsində hərbi qələbələrini daha güclü fatehlik silahı olan Xristianlığın qələbəsinə çevirib, bu dini iki yüz il müddətində öyrənilən müxtəlif dillərin köməyi ilə müxtəlif ölkələrdə müxtəlif variantlarda yaya-yaya, o vaxta qədər planetin əsas – gur yaşayış yerlərində bəşəriyyətin vahid Elm – həqiqət dili kimi mövcud olan OdƏr dilini bir daha rəsmi qadağan etdi; hələ birinci elliminillik tarixdə, sonra isə Yeni tarixdə (Xristianlığın yayıldığı əsrlərdə) hər cəhətdən təhrifə uğradılan, Kainat həqiqətlərindən uzaqlaşdırılan planetimizdə OdƏr dilində Bağ (insanı insana və bəşəriyyətimizi Kainatın OdƏr bəşəriyyətinə bağlayan Bağ) kəlməsi Qrek-Latın dilində təhrif “Boq” sözü ilə əvəz olundu, SafAğ İnsanın (Bağın) Əli – Oğlu mənasında işlənən ƏlAğ kəlməsi Ərəbin təhrif “Əllah” (“Allah”) sözü ilə (təkallahlığla), BağhəmOd (vahid həqiqət Bağı) rütbəsi “Mühəmməd” adı ilə əvəz edildi. Bəşəriyyətimizin yalnız az bir qisminə (təhrif “Muğ”, “Mağ” kəlmələrilə adlandırılan, “atəşpərəst” sayılan gizlin Bağlara) məlumdur ki, dinlərin əsasındakı kitablar, o cümlədən “Bibliya” (“Tövrat” – “Tora”), “Yevangeliya” (“Novıy zavet” – “İncil”) “Quran”da, vizantiyalıların özlərinin məcburən etiraf etdikləri kimi, “Bağ dilində” – “na bojyem yazıke” (yəni OdƏr dili ilə bu dil əsasında yaranmış Tərik – “Türk” dilində) verilmiş kitabların son dərəcə təhrif tərcümələrindən, uydurmalardan, əfsanələrdən ibarətdir. Həqiqətin nə dərəcədə təhrif edildiyi və təhriflərdən necə qlobal – ümumbəşəri fəlakət törədiyi barədə bu müqəddimənin özündə də az-çox təsəvvür vermək üçün bütün açıqlığı ilə deyilməlidir ki, zahirdə biri-birinə düşmən rolu oynayan dinlər, kökü vahid OdƏr bəşəriyyəti olan xalqları dil-şüur və mənəviyyatca ayırmaq, parça-parça ərazilər, sərhədlər daxilində məhdudlaşdırmaq, bəsitləşdirmək, nəticədə vahid Din mərkəzi Vatikanın – gizlin quldarlıq dövlətinin tələblərini təmin etmək məqsədi güdür. Planetimizdə əsrlərdən bəri hökm sürən dini, siyasi qadağalar, saysız-hesabsız “elmi” (“tarixi”, “etnik”) arakəsmələr

(süni psixoloji düşmənliklər) mühitində Kainatdan xəbərsizlik, açıq deyirəm, “sivilizasiya” altında cahillik o dərəcədə qatılaşıb ki, bu cahilliyin yaratdığı labüd “katastrofa” qarşısında indi Vatikan dövlətinin özü də qorxuya düşüb, nisbi proqressiv dairələrin planetdə “bütün dinləri birləşdirmək” təklifini, “həqqi təhrif edən xristianlıq”, “fundamental İslam”, “təriqətlər İslamı”, “Bəhayilik”, “Yəhudilik”, “Buddizm” və sair “dini”, “elmi” “izmlər” əvəzində, mövcud Vahid həqiqəti yaymaq ehtiyacını rədd edə bilmir. Mən sözün əsil mənasında ürək ağrısı ilə, faciə içində bildirirəm ki, əsrlər boyunca Vatikan casuslarının təlimatları əsasında (“öz əlimizlə”) gah açıq, gah da gizlin məhv edilən “Muğ” – Bağ nəslinin təhrif adı (“Muğanna” – “Bizim Muğlar”) altında çap etdirdiyim ƏsƏrlərdəki Bağ həqiqəti – SafAğ Elmi hələ də təhrif “izm”lərin müqavimət səddi arxasındadır. Yeni Zaman – 2000-ci il ərəfəsində sədd dağılmalıdır, təhrif insan məhz SafAğ Elmi sayəsində maariflənməli, saflaşmalı, hər cəhətdən ucalıb OdƏr bəşəriyyətinə – əbədi həyat planetlərinə qovuşmalı, yəni “Yer” – EyƏr (Uca İşıq) planetinə gizlin gəlib gedən İşıq gəmilərinin düşdükləri guşələrə buraxılası halda olmalıdır. Əks halda fəlakət baş verəcək.

* * *

Yaxın və uzaq keçmişimizdən tarixi hadisələr, bədii süjetlər içində verilmiş SafAğ həqiqətlərinin qavranılmasını asanlaşdırmaq məqsədilə mən Əsərlərin hamısını yenidən işlədim. “İdeal”, “Ölüm-dirim” Əsərlərində və bir səhifəlik “Peyğəmbərin möhürü”ndə Elmin əsası verilib; bu üç Əsərlə tanış olmayan oxucu dördüncü, beşinci, altıncı, yeddinci ƏsƏrləri – “qəbristan” – “Gur Ünü”, “İsahəq, Musahəq”, “Məhşər”i (“ƏnŞər-MənŞər”i) dərk edə bilməz. Təkrar edirəm; Əsərlər yalnız burada göstərdiyim xronoloji ardıcıllıqla oxunmalıdır ki, fayda versin.

***Muğanna. 22/VII-1997***

# [illegible]

## 1

Zaman o zamandı ki, bir hissəsi Cənubi Azərbaycan, ikinci hissəsi Şimali Azərbaycan və sair adlandırılan ölkənin bir qismi "super dövlət" SSRİ-nin tərkibində, müharibədən təzəcə çıxıb, yoxsulluq, aclıq pəncəsində sıxılırdı. Amerikadan alınan, camaatın rişxəndlə "tısbağa yumurtası" adlandırıb, ancaq əlacsızlıqdan yediyi kiflənmiş yumurta tozu – "yaiçnıy paraşok" da nemət sayılırdı; taxılı, ətlik heyvanı, yağı, pendiri silib-süpürüb aparmış dördillik ağır müharibədən sonra bu "paraşok" demək olar ki, hər şeyi əvəz edirdi. İran kişmişi isə qənd və ümumiyyətlə şirniyyat yerinə işlənirdi. Buna görə də, Kür boyundakı ucqar rayonların ən ucqar kəndlərindən tez-tez Bakıya gedib-gəlib kisə-kisə "yaiçnıy paraşok" gətirən, o biri tərəfdən Arazın o tayına ayaq açıb, ordan hər dəfə bir at yükü kişmişlə qayıdan Çax-Çux Xalıqın Qonaqlıdakı həyəti bütün həyətlərdən yığnaqlı olmuşdu.

Söyüd şivindən hörülüb, mal peyini ilə suvanıb, əhənglə ağardılmış yöndəmsiz daxmanın qabağındakı hamar palıd kötüyünün üstündə daş-tərəzi görünən kimi bütün kənd oraya axışırdı və bu vaxt Əmirli nəslinin əziz-ərköyün yeniyetməsi Səməd də, əmisi Sultanın, yəni rayon partiya komitəsinin birinci katibi Sultan Əmirlinin "payoku[1]"ndan hər cür nemət dadıb özünü "kişmiş acı" saymadığına baxmayaraq, dərhal o yığnağa tələsirdi ki, yığnağın içində – qarışıqlıqda Xalıqın qızı Gülbənizə göz vursun, Gülbəniz də öz bacılığı Gülgəzə göz vursun, sonra daxmanın xəlvət bir küncündə çöməlib, önlüyünün ətəyini açıb, atasından "çırpışdırdığı" kişmişi Səmədlə Gülgəzin qabağına tutsun ki, Səmədlə Gülgəz onun – Gülbənizin ətəyindən kişmiş yeyə-yeyə, doyunca bir-birinin üzlərinə tamaşa eləsinlər və pıçıldaşa-pıçıldaşa eşiyə, Çax-çuxun nəhəng əllərlə ciblərinə basışdırdığı rəngli pula – göy əl-

---

[1] Yüksək rütbəli işçilərə – məmurlara müftə paylanan ərzaq.

liliklərə, qırmızı otuzluqlara baxa-baxa, "Çax-çux özünə gün ağlasın, biz də özümüzə" – deyib gülüşsünlər.

Bu üç nəfər – iki qız və bir oğlan, cəhalət və işgəncələrlə dolu ölümlü dünyamızın əbədi həyat dünyası Kainatdan ayrılığının səbəblərindən bəhs edən bu fəlakətlər kitabının ilk səhifəsində oynaşan üç anauşağı kimi şeydilər, üçü də bu fikirdə idi ki, Çax-çux Xalıqın kişmişi təkcə onların "ağzını şirin eləmişdi", camaat kişmişin kilosuna altmışca manat verirdi, onlar isə "müftəcə yeyirdilər". Bundan başqa, Gülbəniz Səmədi sevirdi, Səməd Gülgəzi sevirdi, Gülgəz isə hər ikisini sevirdi, buna görə də hər üçünün könlü şaddı, ağızları da şirin.

Səmədin gur, qara, deyilənə görə, mərhum anası Suranın saçlarına oxşayan, dalğalı saçları Gülbənizin ətəyinə doğru sallananda, o biri tərəfdən Gülgəzin qara ipək cığaları sallanırdı. Bu vaxt Gülbəniz qısqanclığını gülüşlə, zarafatla gizlədirdi:

– Ey, ey, saçlarınız görüşdü! – deyib bir əlilə Gülgəzin, o biri əlilə Səmədin başını dala itələyirdi.

Gülgəzin əli bir yandan Gülbənizin önlüyünün ətəyinə uzananda, Səmədin əli də o biri yandan uzanırdı. Bu vaxt Gülbəniz yenə hər şeyi zarafatla gizlədirdi:

– Ey, ey, əlləriniz görüşdü! – deyib bir əlilə Gülgəzin, o biri əlilə Səmədin əlini dala itələyirdi. Sonra saçların, əllərin görüşü təkrar olunub, "dizlərin görüşü", "ayaqların görüşü" də bunun üstünə gəlib, hər üçünün arasında sehrli, sirli ilk gənclik oyununa çevrilirdi və kişmiş qurtarana qədər bu oyun davam edirdi.

Bu günlər Əmirli yeniyetməsi Səmədin ömrünün bəlkə də ən xoşbəxt günləri idi. "Ekspeditor"[2] Xalıqın rəsmi "faktura" – malın siyahısı və qiymətləri ilə mal payladığı və qeyri-rəsmi "çax-çux" – alver elədiyi üç para kənddə, o cümlədən burda – Qonaqlıda hamıya məlumdu ki, Arazın bu tayı ilə o tayının, yəni Sovet Azərbaycanı ilə Cənubi Azərbaycanın arasında "sərhədin açıldığı"[3] gündən indiyə qədər – beş il ərzində bu adamın o taya ayaq döyməyi heç də alver üçün deyil, bu get-gəl Əmirlilərin o tayda – "xarici ölkədəki qohumları" ilə, Təbrizin

---

[2] *Ekspeditor* – satılmaq üçün mal gətirən

[3] "1941-45-ci illər müharibəsi"ndə müttəfiq dövlətlər – SSRİ, ABŞ və İngiltərə arasında müqavilə üzrə Sovet-İran sərhəddi açılmış, Cənubi Azərbaycanda Demokrat Partiyasının başçılığı ilə Şura (Sovet) hakimiyyəti qurulduqdan sonra sərbəst gediş-gəliş başlanmışdı.

Əmir məzarıstanında dəfn olunmuş ataları Məhəmməd Əmirlə, qardaşları Şeyx Ağ Əmir, Şeyx Boz Əmirlə, o şeyxlərin bu tayda – Sovet Azərbaycanında "sinfi düşmən" sayılan məsləkdaşları ilə əlaqədardılar.[4] Palıd kötüyünün üstündə daş-tərəzi görünəndə bütün kənd əvvəlcədən bilirdi ki, Çax-çux yenə "Məhəmməd Əmirdən, şeyx qardaşlardan", o qardaşlardan qalan mülklərdən, var-dövlətdən danışacaq.

Səməd isə öz aləmində idi. Hətta son günlərin böyük, ciddi hadisələri – "o tayda Azərbaycan Demokrat Firqəsinin məğlubiyyəti, yəni "Milli Hökumətin yıxılması" və "Şahın bizimkiləri topa tutması"[5] da bu gur saçlı, möhkəm bədənli, "əziz-ərköyün sədr oğlunun" gur hissiyyatla dolu şadlığına mane olmamışdı. Başqa sözlə, dünyada baş verən hadisələr bu cavana hələ bir o qədər toxunmamışdı və toxuna da bilməzdi. Camaat deyirdi: "Sədr oğlunun Araz aşığındandı, Kür topuğundan", yəni "heç nə vecinə deyildi". Və bu sözlərdə həqiqət vardı.

Gözünü açıb dünyaya baxanda Səməd özünü kandarında çəmənotu və qazayağı bitən, tavanında qaranquşlar uçuşan nəhəng bir otaqda, səhərdən gecə yarıya qədər bu otağa dəstə-dəstə gəlib-gedən camaat arasında "əziz-ərköyün sədr oğlu" kimi, "şəxsən Sultan Əmirlinin dizinin dibində oturan Əmirli yetirməsi" kimi, "ordenli bolşevik Qılınc Qurbanın atının tərkində gəzən" və "yetdiyinə yetib, yetmədiyinə bir daş atan dəliqanlı" kimi görmüşdü. Qonaqlının nəsillikcə alverçi olan və var-dövlətlərini qorumaq üçün həyət-bacalarında çoxlu it saxlayan Qudalı məhləsinin itlərini döyərdi; Əmirlilərə açıq-açığına "düşmənlərim" deyən Qudalı ağsaqqalı Xəlvət Rəhimin atının quyruğunun altına tikan qoyub soncuqladardı; Gülgəzin atası Məmiş Əlləzoğluna "Göbələk Məmiş" deyib qaçışan Qudalı cavanlarını "deşiklərinəcən qovardı", əlinə keçənlərin ağız-burunlarının qanını bir-birinə qatardı; "Qudalı cavanlarının atamanı Qıllı Qeybalı", Qonaqlının partkomu Cəfər əmi-

---

[4] *Sovet Azərbaycanında "batin"* – gizlin şəraitdə SafAğ Elminin tədrisi ilə məşğul olan adamlar həm öz adi adları, həm də "AdıPünhan" adı ilə tanınırdılar. "Əmirli" familiyası altında yaşayanlar ən qədim zamanlardan ərəbcə "Muğanna" nəsli adlanırdılar. Müasir Muğannalar Cənubi Azərbaycanda "Muğani", Sovet Azərbaycanında "Muğanlı", Türkiyədə "Muğlar" adı ilə tanınırlar.

[5] Həmin üç dövlətlə müqaviləyə əsasən İran, Cənubi Azərbaycanı yenidən fəth etmişdi.

[6] *Dantes* – Puşkinin qatili, Rus ədəbiyyatını öyrənən orta məktəb şagirdlərinin nifrət obyekti.

nin – Lüt Cəfərin özündən iyirmi yaş kiçik arvadı Ayna bacının “ora-burasına baxanda” Qeybalını “Dantes[6] köpəyoğlu” adlandırıb “duelə” çağırardı və dueldə sapandına daş əvəzinə mal peyini yığıb Qıllı Qeybalının üz-gözünü, üst-başını batırardı; hesabdar Mürsəl, Qonaqlının məşhur “qəlyanlı qocalar”ından Çürük Aşıqla Xızr Abının əməkgünlərini kəsib, ömürlərini bazarlarda keçirən Qudalılara əməkgünü yazanda Səməd atasının bu işə qarışmağını gözləməyib, mühasibliyə cumardı, “vedomostu”[7] stolun üstündən qapıb Mürsəlin başına çırpardı, “təzədən yaz, köpəyoğlu!” – deyib, ədalət bərpa olunmayınca idarədən çıxmazdı.

Lap uşaqlıqdan başlayıb, hələ də davam edən bu cür dəliqanlılığına görə Qudalı cavanları ona “Dəli Səməd” deyirdilər və yəqin ki, elə haqlı deyirdilər; daim dingildəyib hökmən nə isə eləmək, hətta gecələr çarpayıda da qaynayıb yorğan-döşəyi, balıncı əzişdirib bir-birinə qatışdırmaq heç də adi, normal adam vəziyyəti deyildi və Səməd özü də hiss edirdi ki, ancaq son vaxtlar “Kamal attestatı proqramı”nda imtahan biletlərinin çoxluğundan qorxub kitabların üstünə cumanda, bir də Gülbənizin önlüyünün ətəyindən kişmiş yeyə-yeyə Gülgəzə tamaşa eləyəndə “az-çox adam olurdu”.

1946-cı il dekabrın iyirmi üçünə qədər vəziyyət belə idi.

O qış günü Çax-çuxun “o taydakı şeyx qardaşlar” barədə camaata danışdığı xəbəri, “O Əmirlilər Sovetin düşmənləridilərsə, burdakı Əmirlilər Sovetə dost olarlarmı, ay camaat!” – dediyini qulağı alar-almaz Səməd əlini Gülbənizin önlüyündən çəkib, birbaş idarəyə – atasının kabinetinə yüyürdü və o gün də birinci dəfə eşitdi ki, demə, Sultan əmidən başqa, “Ağ Əmir, Boz Əmir adında şeyx əmiləri” də varmış; haçansa – “İranda məşrutə vaxtı”, Səttar xan üsyanı illərində gəlib-gedərmişlər, Bakının, Gəncənin, Tiflisin, İrəvanın[8] məscidlərində ianə yığıb o taya apararmışlar. Axırıncı dəfə, Şimali Azərbaycanda Şura respublikası qurulanda Nəriman Nərimanovun “Şərqdə müstəmləkəçilikdən, azadlığa çıxmağın yolları” haqqında nitqinə qulaq asıb gediblər, bundan iki il sonra – iyirmi ikinci ildə isə, sonuncu Azərbaycan şahının təxtində oturan təzə Pəhləvi şahının qəzəbinə keçib zindana düşüblər, yeddi-səkkiz il müddətində şaha dəfələrlə məktub yazıb

---

[7] “*Vedomost*” – Kolxozçuların əməkgünlərinə verilən pulun siyahısı.

[8] Əsrin əvvəlində Tiflisdə, İrəvanda da məscidlər vardı, əhalinin əksəriyyəti dindar azərbaycanlılardı. 1918-ci ildə rusların qələbəsindən sonra qədim ƏrEvÜn – o dərcəsi: (*Ər-işıq, Ev, Ün – İşıq Evinin ünü*), indiki “Yerevan” Ermənilərə verilib.

Pəhləvilərlə türklərin eyni millət olduğunu sübut eləməyə çalışsalar da, "millətpərəst qiyamçılar" damğasından qurtara bilməyiblər və nəhayət, otuzuncu ilin qışında iki qardaşın ikisi də bir gündə xəlvəti öldürülüb, "Əmir məzarstanı" deyilən qəbristanda dəfn olunub... Atası Səmədi stolun böyründə oturtdu, özü isə ayağa qalxdı. Boyu elə uca idi ki, stolunun dalından qalxanda başı divarda Stalinin portreti ilə yanaşı durardı və bu vaxt Səməd qalın, bir az yağlıtəhər saçlarında daraq dişlərinin izi qalan, bığı da saçları kimi parıldayan atasının Stalinə necə oxşadığını daha yaxşı görüb, kükrək qürurla coşub dik atılardı. Atası bu hərəkətdən təəccüblənib, "hoppanırsan elə", – deyərdi. Sonra gözucu portretə baxıb dodaqucu gülümsünərdi, "Yaxşı böyüyürsən, oğlum. İşıqlı böyüyürsən, əmma çox hoppanma. Oğul təmkinli olmalıdı", – deyib hər dəfə nəsihət eləsə də, Səməd heç cür təmkin saxlaya bilməzdi. O gün isə, sədr stolunun böyründə, xüsusi xalça üstündə, Sultan əmi kimi, Qılınc Qurban kimi böyük adamlar üçün qorunub saxlanan "qonaq yerində" – kresloda oturduğunu da hiss eləməyib, atası kabinetdən çıxıb gedəndən sonra da kresloya yapışıqlı qaldı.

Qabağında, stolun küncündə üç şəkil vardı. Biri "Əmir məzarıstanı"nda bir cüt yanaşı qəbrin şəkli idi. İkinci, üçüncü şəkillər isə, həmin qəbirlərin başdaşlarının ayrı-ayrılıqda şəkilləri idi. Danışıb qurtarıb kabinetdən çıxanda, atası qapıdan qayıdıb bu şəkilləri buraya atdı və hirsli-hirsli gəzinməyə başlayıb:

– Bax! Bax! – dedi.

– Baban Məhəmməd Əmirin qəbri də o məzarıstandadı, əmilərin Ağ Əmirnən Boz Əmirin qəbirləri də. Adlarını kommunist qoyanlar şeyx adlananları özlərinə düşmən sayırlar, – dedi.

– Aclıq ili[9] gəlib bu tayda qalmasaydıq, rus dilini öyrənib, Leninin kitablarını oxuyub Kommunist Partiyasına daxil olmasaydıq, Sultan əminnən mənim yerimiz də o məzarıstan olardı indi, – dedi. – Cəllad şahın əli çatmadı, bu tayda səlamət qaldıq. İndi özümüz özümüzə cəllad olmuşuq. O taydan şeyx qəbirlərinin şəkillərini gətirdirik, bu tayda kommunist Sultan Əmirliynən kommunist Mədəd Əmirlini çək-çevirə salırıq: "Sinfi düşmənlərimizin qardaşlarısınız!" – filan!.. Bax o şəkillərə, fəxr elə ki, Əmir adınnan adlanan o məzarıstanda qədim nəslin-kökün,

[9] XX əsrin əvvəllərində Cənubi Azərbaycanda (cənuba "Güney" də deyilir) aramsız üsyanlar nəticəsində kütləvi aclıq olmuş və Arazın o tayından bu tayına insan axını gəlib burada məskunlaşmışdı.

Səttar xan, Bağır xan mücahidlərinə haqq-ədalət dərsi deyən şeyx əmilərin var. “Şeyx” kəlməsi qorxutmasın səni. Oxumusan, Lenin deyir: “Religiya opium dlya narodov”. “Din tiryəkdir xalqlar üçün”. Yəni beyinləri dumanlandırır din, real dünyadan ayırır. Əmilərin Ağ Əmirnən Boz Əmir razıydılar bu fikirnən, tez-tez bizim Doktornan, yəni Nəriman Nərimanovnan görüşürdülər. Dini məhz “tiryək” adlandırırdılar. “Mollaların nazıynan oynama, Doktor, – deyirdilər. – Çox hiyləgər məxluqatdı mollalar, bir də ayılıb görərsən elə özün də tiryək çəkirsən”, – gülüşürdülər. “Şeyx” rütbəsinin, din libasının altında gizlənib “Kainat elmi” – “SafAğ Elmi” adlanan böyük elm yayırdılar əmilərin.

Təbrizdə mədrəsəmiz vardı. “Quran”ın tədrisində surələrin oxunuşu, yəni kəlmələrin, ayələrin-cümlələrin ərəbcə tələffüz tərzi, qiraət üsulu qurtarandan sonra mədrəsənin qapılarını bağlayıb “batin”, yəni gizlin “təfsir”ə, yəni şərhə – izaha başlayırdılar.

“Həqiqət Quran”ın kəlmələrində, ayələrində, surələrində deyil, hürufatda, hər bir hərfin əslindədi. Hərfin əsli isə ərəbcə deyil (yazıram bura, oxu): OdƏr dili adlanan dildədi. Məsələn, “Quran”ın ilk surəsinin əvvəlindəki iki hərfə diqqət yetirək:

“Əlif Lam”.

“Əlif – “A” hərfinin əsli – OdƏrcəsi “ƏlEv”di. Mənası: “Evin Əli”.

Bunları da yazıram kağızda, gözünnən görəsən ki, OdƏr kəlmələri, söz daxilindəki söz birləşmələrinin hamısı böyük hərfnən yazılır.[10] Mənа isə izahat tələb eləyir. Necə yəni “ƏlEv” – “Evin Əli”? Kimin evinin əli? Evin də əli olarmı?.. Uzun təfsirdən – şərhdən sonra məlum olurdu ki, “Ev” (hələlik belə bil) Allahın Evidi. Bu Evin Əli, yəni işləyəni, yaradanı isə Allahın Oğludu.

Nə başa düşdün?

Əgər Əli-Oğlu varsa, demək Allah tək deyil və demək, “Quran”dakı “Allah təkdir”, “Allah doğub törəmir” sözləri yalanmış?!

Bax belə təfsir-şərh!

“Lam” hərfinin əslinə – OdƏrcəsinə diqqət yetir:

“Əlim!”

Birinci surənin əvvəlindəki “Əlif Lam” hərflərinin birlikdə mənası nə olur?

---

[10] Yabançı tədqiqatçılar deyirlər: “Qədim Türk dilində hər bir söz hecalardan ibarətdir”. Yəni dilimizin zənginliyini anlamayıblar.

“ƏlEv Əlim!” Yəni “Evin Əli mənim əlimdir”. Hər bir Aləmdə, yəni “Qalaktikada” əhaliyə söz, məna çatdıran, kitab, həqiqət verən Əl-Oğul var.

İndi görək bu “Allah” və ya Ərəbin dilindəki kimi “Əllah” deyilən bu kəlmənin özünün əsli – OdƏrcəsi nədi?

ƏlAğdı!

Yazıram, əyani gör: “ƏlAğ”.

Yəni “Ağ”ın “Əli?” Bəli.

Bəs “Ağ” nədi?

SafAğ İnsandı “Ağ”. Yəni, ən saf İnsan, rusca desək, “Preçistıy”.

ƏlAğın mənası oldu “SafAğ İnsanın əli.

Demək, “Oğul” – ƏlAğ – “Allah” özü kiminsə Əli-Oğludusa, o Oğulun özünün də oğlu ola bilərmi? Əlbəttə! Demək, bir daha aydın olur ki, “Allah” doğub törəmir” demək olmaz. Yəni, “Quran”ın əsas müddəasına – “Lailahəilləllah” – “Allahdan başqa Allah yoxdur” müddəasına inanmaq mümkün deyil. Elə isə, “İslam milləti” deyilən bu qədər əhalini necə inandırıblar? “İslam” dinini necə yaradıblar? Sadəcə olaraq, “Quran”ın əslini yazan kişiynən bütün qohum-əqrabasını qırıblar, qılıncı dirəyiblər boğazımıza: “Kəlmeyi şəhadətini de!” Elə ki, “Lailahəilləllah” demədin, başın getdi bədəndən!.. Nəyə lazım olub bu? Kimlərə lazım olub? Bax, bu sualların cavablarını öyrənəndə, dünyamızın tarixini biləndə hər şey aydın olur və insan, həqiqəti bərpa eləməkdən ötrü mübarizəyə başlayır.

Baban Məhəmməd Əmir, əmilərin Ağ Əmirlə Boz Əmir bax belə işlər görürdülər. Belə adamlara SafAğ Elmi Alimləri deyirlər.

Sözüm çoxdu, oğul. Əmma qısa deyəcəm.

Lenin kimdi? Stalin kimdi? Mir Cəfər Bağırov kimdi? Biz – Sultan, Mədəd adlananlar kimik? İnqilab nədi, kommunizm nədi? Sən hələ heç nə bilmirsən, oğul.

Mir Cəfər Bağırova hamı Mirqəzəb – cəllad deyir xəlvətdə. Niyə? Öyrənməlisən, bilməlisən!

Vəzifəlilər “Kişi” deyirlər ona, “Azərbaycan bolşeviklərinin atası”, “xazeyin” deyirlər.

---

[11] “*KQB*” – Komitet Qosudarstvennoy Bezopasnosti (Dövlət Təhlükəsizlik Komitəsi).

[12] “*NKVD*” – Narodnıy Komissariat Vnutrennıx del (Xalq Daxili İşlər Komissarlığı).

[13] “*RİK*” – Rayon İcraiyyə Komitəsi.

“Kişi” sayılanın “Pers” çağırdığı istəkli bir generalı var. O “Pers”, KQB[11] Xudiyevi, NKVD[12] Gülənovu, prokuror Sayılovu, RİK[13] Ağamalını çəkib dövrəsinə, rayonun bütün aktivi əmilərini nöqsan tutur bizə. “Tərcümeyi-halınızı düz yazmayıbsınız”. “Sinfi mənsubiyyətinizi gizlədibsiniz!”, “Partiyanı aldadıbsınız!..” “Təhlükəli adamlarsınız!..” Siz də “batin”, yəni gizlin işləyənlərdənsiniz, “Pünhan”, “AdıPünhan” deyirlər sizə...” və sairə. Xəlvəti qırğın, sürgün planları düzəldirdilər ki, ümumiyyətnən xalqımızı məhv eləsinlər. Niyə? Lap sadəsini deyirəm sənə: vətənimizə, torpağımıza, varidatımıza sahib olmaqdan ötrü.

Müharibədən qabaq başlanmışdı bu söhbət... Danışıram ki, başımıza bir iş gəlsə, fikirləşmiyəsən ki, görəsən niyə gizlədiblər məndən bu işləri. Körpəydin onda sən, cəmi on yaşın vardı. Xüsusi izahat yazdıq onda ki, dünyanın həqiqətlərini açan “Pünhan” alimlər, el arasında gəzərgi şeyxlər, müridlər, dastanların rəmzlərində Kainatın sirrlərini açan ustad aşıqlar, Alı, Ələsgər kimiləri azalıb, kommunizm üçün təhlükəsiz olublar, yəni siz çox nahaq belə əl-ayağa düşübsünüz. İzah elədik ki, şeyx qardaşlarımızın bir çox fikirləri Leninin fikirlərilə oxşardır. Biz özümüz də sinfi düşmən-filan deyilik, Vətənimizin o tayında olanda bu tayı “xaric” saymırıq, bizə inansanız, çox xeyrimiz dəyər sizə.

Lap cavanlıqdan bir ayağımız Bakıda, o biri ayağımız o tayda, fədailərin arasında olub, oğul. İki qardaş bir qarına ac, bir qarına tox, Doktorumuzun başçılığıynan “Hümmət” Partiyasının pudnan qızılını daşımışıq o taya ki, Səttar xan fədailəri silahsız qalmasınlar çöllərdə. Qohum-əqrəbalarımızı qan içində qoyub qayıtmışıq bu taya ki, lazımıq burda.

Başa düşürsənmi nə deməkdi bu, oğul?

Fədakarlıqdı bunun adı, qəhrəmanlıqdı! Demək olar ki, hər gün “dopros” – istintaq eləyirdilər, çalışırdılar bizim vasitəmiznən təbliğatçı kommunistlər göndərsinlər o taya, SafAğ alimlərimizi axtarsınlar, tapıb qırsınlar – məhv eləsinlər.

Sonra biləcəksən, tariximizdə çox olub belə qırğınlar.

Bil! Başa düş! Yadında saxla. Əmma lal-kar ol, danışma heç kəsə ha! Heç kəsə!

İyirminci ildə Doktorun mandatıynan gəlmişik biz bu rayona, yerli cəmaatnan, Qılınc Qurbannan çiyin-çiyinə, hökumət qurmuşuq. Əsas şeyləri deyirəm sənə. Yazdıq bunun hamısını o vaxt, müharibədən əvvəl, verdik, göndərdilər yuxarıya – Bakıda o “Kişi” deyilən Mirqəzəbin özünə, çünki elə o vaxtdan onun özünün göstərişiynən incidirdilər bizi.

Xəlvətdə özümüz də başa düşürdük ki, Marksın, Engelsin, Leninin "bütün dünya füqərayi-kasıbları, birləşin" şüarıynan heç cür razılaşammırıq. Çünki lap aydın məsələdi ki, dünyamızın xarablığı adamların bir qisminin varlı, istismarçı kapitalist, feodal olmağında deyil; bizim hələ Nizamimizdən əvvəllər də məlum olub ki, dünyamızın xarablığı insanın özünün, yəni bütün bəşəriyyətimizin özünün qanmazlığındandı. Dünyamızın keçmişini bilmir insan. Həqiqətin, yaxşının, pisin nə olduğunu qanmır. Nə iş görürsə, həm özünün zərərinə eləyir, həm də başqalarının. Belə olan halda, yəni kapitalistin, feodalın əlinin altında zillət çəkən füqərayi-kasib ilə birgə istismarçının özü daha qanmazdısa, milləti iki yerə bölməyin nə mənası var?! Qan-qırğın, kin, ədavət daha da xarab eləmirmi insanı?!

Kimə deyə bilərdik bunu, ay oğul?!

Kəndlərdə camaatdan məktub, şahid-filan yığdıq ki, biz ədalətli adamlarıq, kasıb pənahıyıq. Sağ olsun ki, Qılınc Qurban da dil yetirdi. Köhnə bolşevikləri, ağsaqqalları yığdı başına, o "Kişi" deyilənə teleqram vurdu. Sağ qaldıq biz. Çox gizlin elədilər qırğınları, tutquları, sürgünləri.

Müharibə qurtaralı təzədən başlayıblar. Bakını materialnan doldurduqları bəs deyil, indi də Çax-çux Xalıqın atını kişmişnən yükləyirlər ki, "Get kəndlərdə sat, arada da söz yay ki, kişmiş özümün deyil, o taydan Ağ Əmirnən Boz Əmirin oğulları öz əmiləri Sultan Əmirliynən Mədəd Əmirliyə göndərirlər, qorxuram söz çıxar, ləkə gələr Əmirlilərin adına, taqsırı məndə görərlər, öz adıma çıxaram kişmişi, satıram. Pullarını özlərinə verəcəm: Həqiqətən Sultan Əmiyin stolunun üstünə yığın-yığın pul qoyurdu camaatın gözünün qabağında, "Sizə çatacaq", – deyirdi. Başa düşürsənmi? Yəni dövlətlidilər Ağ Əmirnən Boz Əmirin oğulları, dövlətli olduqlarına görə də guya şaha qulluq eləyirlər, o tay, bu tay Azərbaycanın birləşib əsarətdən qurtarmağını istəmirlər.

Əslində, özləri, başda bu Bığlı[14] dəridən çıxartdılar ki, o tay Azərbaycan farsın əlində qalsın, bu tay Azərbaycan Rusun əlində, Borçalı, Başkeçid Gürcüstanın əlində, İrəvan çökəyi, Zəngəzur, Göyçə, Dilican dərəsi Ermənin adına yazılsın... Bil bunları da! Bil! Danışma ha! Lal-kar ol! Xüsusən var-dövlətimiz, mədrəsəmiz-filanımız barədə lal ol! Bayaq dedim, bir də deyirəm, unutma, bizi həməşə varidatın başından aşan sinfi düşmən qələmə verirlər.

---

[14] Stalinin ləqəbi.

– Bil! Uşaq deyilsən daha, onillik qurtarırsan, gör camaatın gözünə necə kül üfürürlər, kor eləyirlər ki, sabahları əminnən mən “ifşa olunanda”, partiyadan çıxarılıb həbsə alınanda ədalətsizlik kimi görünməsin bu, əvvəlcə camaat elə özü desin ki, belə də olmalıydı, şahnan əlaqədəydilər, xalq düşməniydilər!.. Dost da Şura hökumətinin adından danışır, düşmən də. Camaat seçəmmir yaxşını yamandan. Sən seçməlisən! Oğlumsan! Bilməlisən ki, hümmətçi, yəni Nərimanovçu kommunistlər deyirlər bizə. Millətçi deyirlər, əmma millətçi deyilik biz, inşallah, biləcəksən ki, biz bütün bəşəriyyətin qeydinə qalan “Dəlilərdənik”. “Dəli” pis söz deyil. Vaxtı çatanda biləcəksən.

Bir şeyi də açmalıyam sənə. Özlərini Leninçi bolşeviklər adlandıranlar Moskvada kök salıb bizim ara-bərələrimizi casus agentlərnən doldurublar, biz hümmətçiləri xəlvəti qırıblar həmişə. Stalin niyə yol verir belə şeyə? Dedim Stalini də tanımırsan sən hələ. Sultan əmin danışacaq özü sənnən, başa salacaq hər şeyi.

Əmin Sultan indiyəcən evlənməyib. Niyə? Bilirsən?

Qılınc Qurbanın bacısı Qıymat hələ biz Bakıdan gələn vaxtdan vurğundu əminə. Qıymat da bir Qıymatdı. Nə gözəllikdə tayı-bərabəri var, nə də ağılda-kamalda. Əmma evlənmir əmin. Fədai sayır özünü, ailə, oğul-uşaq istəmir. İyirmi ikinci ilə qədər, nə qədər ki, Ağ Əmirnən Boz Əmirin səsi gəlirdi o taydan, hər il gedib Arazın üstündə Culfa körpüsündə fədailərnən görüşürdü, məsləhət verirdi. Kitab paylayırdı. Sirr açırdı: “Əmirlilər deyilik biz. Dünyaya Kainat elmi yayan AdıPünhanlarıq. Muğanna adlanan gizli nəsildənik. Kitabları oxuyun, görün “leninçi kommunist” adlananlar kimlərdi, “Muğanna” adlananlar kimlərdi!.. Çox sirrlər, həqiqət açırdı Sultan əmin fədailərə.

Milli hökumətimiz yıxılsa da, fədailər sağdılar o tayda. Bu taya keçib başqa şəcərəynən-familiyaynan yaşayanlar da çoxdu.

Onlardan dərs alacaqsan sən. Əmma unutma ki, əsil fədailik silahlı mübarizədə yox, şüurlara həqiqət yetirməkdədi! Yəni Şeyx Məhəmməd Əmir, Ağ Əmir, Boz Əmir əməlindədi fədailik.

Çox çətin sözlər deyirəm bu gün sənə, oğul. Belə lazımdı. Çoxunu sonralar dərk eliyəcəksən... Ürəyimə damıb, axıracan atalıq eliyəmmiyəcəm sənə. Başımı yeyəcəklər. Özü də lap tez ola bilər bu iş. Tale özü gətirib səni bu gün bu kabinetə, oğul. Qulaq as. “Vəsiyyət yüngüllükdü” deyiblər. Cəmisi iki şey deyəcəm sənə. Eşit, sonra da otur burda, çıxma heç yana. Peçi qalamışam, istidi otaq.

Otur, burdaca fikirləş, yaddaşına həkk elə sözümü.

Rəhmətlik anayın bir az saxlancı var sandığında. Götürərsən onu, heç kəsə heç nə deməzsən, bilet alıb birbaşa gedərsən Bakıya. Sultan əmin deyəcək kimin yanına getməlisən Bakıda. Generaldı. Ona da “AdıPünhan” deyirik. Sazı sinəsinə alandaca enir-qalxır sinəsi, gözləri dolur: “Koroğlunun çən qalası, ərşə dayanıb naləsi...” “Familiyasını da deyim: Məhərrəmovdu. Bizim bu tərəflərdəndi. Qohumluğumuz da var... Ola bilər Məhərrəmovun özünün də başı əlində olmasın. Lap hambal-lıq elə, əmma oxu, təhsil al! Bu bir.

Çörək dalınca qaçma, bilik dalınca get. Cibini yox, bu sinənin altını doldur ki, eşqin olsun sinədə, eşqnən yaşa bu dünyada, daha Xalıq-malıq kimi titriyə-titriyə, ölə-ölə yox!

Bilikdi eşq. Məarifdi eşq. Dünyəvi, hərtərəfli dərin alimlikdi eşq.

Elm bir də eşq. Budu vəsiyyətim. Vəssalam.

İndi götür bu şəkilləri.

Sultan əmin partbiletinin arasından çıxartdı verdi mənə bu şəkilləri, mən də sənə verirəm. Özü də ümidnən verirəm ki, vaxtı çatanda sən də partbiletiyin arasında gəzdirəcəksən bu şəkilləri.

Eşit, unutma! Leninin köməyinə ehtiyacımız olmasaydı, biz girməz-dik bu partiyaya. Bayaq dedim əsas nöqsanını bu partiyanın: bəşəriyyəti parçalamaq olmaz! Qan tökmək, düşmənçilik yaymaq olmaz! Çox pis olar bunun axırı, oğul. Çox pis! Əmma girdik bu partiyaya. Çünki fikri-fikrimizdən, ürəyi ürəyimizdən Nərimanov vardı bu partiyada. Lazım gələndə Bolşeviklərdən ən nüfuzlu adamları doğru yola çağırırdı. Əs-lində, elə əmilərin də istəyirdilər ki, Bolşeviklərdən ayrılmayaq. Əmma gülürdülər, məsxərəyə qoyurdular ikimizi də: “Bizim şəkillərimizi ya-pışdırın firqə biletlərinizə, həqiqi kommunist olun”, – deyirdilər. Yəni həqiqi kommunizm ayrı cürdü.

İyirmi səkkizinci ilin yazında, axırıncı dəfə o taya gedəndə Qəsri-Qacar zindanında görüşdüm o rəhmətliklərnən.

Yekə, qalın qapısı var o zindanın. O qapıdan sol tərəfdə lap dar dəhliz var. Dəhlizin o başında, deyilənə görə divarın qalınlığı yarım met-rədi. Bilirdim ki, o başdakı lap dar qəfəs kimi yerlərdə saxlanan adamlar sağ çıxmırlar ordan. Buna görə özüm-özümə söz verdim ki, işıqlı sözlər, şad xəbərlər danışacam, heç olmasa beş-on dəqiqəliyə qəmləri dağılsın. Dedim oğlum olub. O rəhmətliklər qoydular sənin adını. İki mənası var “Səməd”in. “Sin”nən, yəni incə “s” hərfiynən yazanda “ehtiyacı ol-

muyan" deməkdi, yəni "azad". "Sat"nan – qalın "s"nən yazanda "əbədi" deməkdi. Ərəbcədi bu. Əsli – OdƏrcəsi SimOddu "Səməd"in. Sim həm Ağ – SafAğ deməkdi, həm də Uca. Od – həqiqətdi. SimOd – Uca həqiqət deməkdi. Yadında qaldımı? Bir də deyirəm: "Səməd"in əsli – OdƏrcəsi SimOddu. Elmimizə görə, "Səməd" – SimOd adı daşıyan adam Uca həqiqətə, SafAğ Elminə qulluq eləməlidi. Elmə qulluq eləmək üçün isə, SimOdun işi cəmaatnan olmalıdı, çünki "cəmaat" kəlməsinin əsli – OdƏrcəsi də SimOddu. Ərəblər Simə, uca olana – Kainata "cəm" deyiblər, həm elə "cəm olan" mənası veriblər, həm ağ, yəni "gümüş", yəni təmiz mənası veriblər, "at" kəlməsini isə qonşuları qreklərdən alıblar. Qrekcə həm "at", həm də "ki" "od" mənasındadı, Yerdəki odalov mənasında, bizim həm Yer odu, həm də Kainat Odu – həqiqət mənasını Qreklər kimi, Ərəblər də unudublar. Bunlar heç. Sonralar dərs keçəcəksən, biləcəksən hamısını. Hələlik bircə bunu yadda saxla ki, "Səməd" – SimOd – Uca həqiqət mənasında olduğuna görə, SimOdnan cəmaat əlbir işləməli, əlbir yaşamalıdı... Əmilərin dedilər böyüyəndə de kimlər qoyublar onun adını, mənanı anlat, bilsin...

Sədr Mədəd ömründə birinci və axırıncı dəfə oğluna bu qədər sirr açdı, "hoppanan" oğlunun necə tərpənməz qaldığını, qızıl-qırmızı ikən necə ağbəniz olduğunu görsə də susmadı, yəqin ki, doğrudan da "ürəyinə damdığına" görə vəsiyyət eləyib, kabinetindən və idarədən çıxdı, o vaxt rayonlarda məsul işçilərə paylanan, biri də gəlib buraya – Qonaqlıya düşən "Villis"ə minib, qəzəbini, kinini motorun gurultusu, nəriltisi ilə bütün kəndə yaya-yaya, Ortayolla üzü aşağı Xalıqın həyətinə sürdü, vurub kötüyü aşırdı, daşı-tərəzini, kişmişi dağıtdı, evlərin, töylələrin, ot tayalarının ara-bərəsində maşının yanınca yüyürə-yüyürə nə isə deyən "dəllal köpəyoğlunu" söyə-söyə yenə Ortayola çıxıb, rayon mərkəzinə tərəf getdi.

Və Səməd bir daha atasını görmədi.

* * *

Kənddən aralanıb meşə yoluna burulanda, dümdüz yerdəcə maşın aşmışdı. Cəmaat uzun, arası kəsilməyən siqnal eşidib hadisə yerinə tökülləndə kişinin hələ nəfəsi üstündə imiş, siqnalı basan da özü imiş. Cəmaatı görüb əlini siqnaldan çəkəndə nə isə demək istəyib. Əmma

“dili yoxuymuş” daha. Sultan əmi xəbər tutub gələndə isə “meyid soyuyubmuş”.

Sultan əmi sarğını açıb, qardaşının gicgahında partlamış yerə baxıb ağlamaq əvəzinə elə hey köksünü ötürürmüş. “Yaran nə dərindi, dadaş” – deyirmiş və hərdən ondan-bundan soruşurmuş ki, niyə danışmırsınız, belə dümdüz yerdə maşın niyə aşıb, necə olub ki, bədənin heç yeri zədələnməyib, təkcə gicgahı bu cür partlayıb-dağılıb?!

Sultan əmiyə heç kim heç nə deyə bilməyib. Ancaq NKVD Gülənovun “zaklyuçeniyasi[15]”ndən sonra aydın olub ki, “Sudüşən yerlə meşənin arasındakı nəmişlikdə Mədəd Əmirli rulu kəskin şəkildə sola burduğuna görə maşın aşıb və aşarkən sağ qapının yuxarı küncü Mədəd Əmirlinin sağ gicgahına batıb, çoxlu qan axmasına və qanaxma nəticəsində ölüm hadisəsinə səbəb olub”.

Bütün bunları Səməd hamıdan sonra bildi. Atasının köhnə yoldaşı, Qonaqlının partkomu Cəfər əmi – Lüt Cəfər onu elə orda – kabinetdə, oddan qızarmış dəmir peçin yanındakı nazik taxtda üzünü qəbirlərin başdaşlarının şəkillərinə söykəyib yatan yerdə tapıb oyatdı.

– Qalx, oğlum... Bədbəxtlik olub... Atan avariyaya düşüb, – dedi.

Sonra qoluna girib, “uzun, arası kəsilməyən siqnal”dan “zaklyuçeniye”yə qədər, hər şeyi yerli-yataqlı danışa-danışa və nədənsə, tez-tez “qəsd işi yoxdu”, “qəsd işi yoxdu”, – deyə-deyə onu hadisə yerinə apardı. Bu vaxt nə maşın orda idi, nə meyid, nə camaat. Qan tökülən yeri torpaqlayıb, dövrəsinə qaratikan yığmışdılar ki, “qanı tapdalayan olmasın”. Qaratikan yığınının yanında bir saqqız ağacının döşünü balta ilə çapıb hamarlayıb, qızmar dəmirlə iri-iri qara hərflər basmışdılar: “Mədəd Əmirli burda həlak oldu. 23 dekabr 1946-cı il”.

Nə qədər ki, yaxınlaşıb yazını oxumamışdı, Səməd elə bil hələ də yuxulu idi, ayaqlarını yerə basdığını da hiss eləmirdi və hətta Cəfər əmi – Lüt Cəfərin qəribə pıçıltı ilə danışdığı təfsilata da bir növ laqeyd idi. Saqqız ağacının üç addımlığında dayanıb o yazını oxuyanda isə birdən-birə boğulmağa başladı.

İçərisi sökülüb gəlib boğazına tıxanmışdı, boğazından qaynar qurğuşun qalxıb dəhşətli ağrı ilə başına-beyninə, gözlərinin çuxurlarına dolurdu, bir şey görməyə qoymurdu. Bu vəziyyətdə hardansa, lap yaxından ayaq səsləri eşitdi. Atasının çəkmələri idi, saqqız ağacının altındakı

---

[15] *Zaklyuçeniye* – hadisə haqqında rəsmi nəticə – rəy.

tapdanmış yerdən o yanda xəzəli, çör-çöpü əzə-əzə, ağır-ağır cırıldayırdı. Səmədin canından alov qalxdı. O an da alov buza döndü... Bu nə deməkdi?! Sağ idi atası?!. Səməd titrəyə-titrəyə, güc-bəla ilə gözlərini açdı. Ağacların qaraltıları arasında, kimsəsizlikdə heç nə görmədi. Sonra lap yaxında Sultan əminin boz kitelini gördü.

Kitelin sağ-solunda Qonaqlının qəlyanlı qocalarından Çürük Aşıqla Xızr Abının qaraltılarını gördü. Sonra qaranlıq çökdü.

Müharibə illərində, gecəli-gündüzlü, aramsız işlərdə yorulub taqətdən düşəndə, hərdən Sultan əmi belə zülmət içində, qardaşının qapısında səslənərdi: “A kolxoz sədri, yenəmi nöyüdün yoxdu? Neyniyək indi? Gözədürtmə oynuyaq, yoxsa bir-birimizin üzünü görmək üçün bir işartı tapaq?” Sədr Mədəd katib qardaşından yaşca böyük – ağsaqqal sayılsa da, dərhal əl-ayağa düşərdi, ya neft tapıb lampanı yandırardı, ya da ocaq qalayardı ki, “doğrudan da heç olmasa gecələr bir-birimizin üzünü görək”. Neft tapılana və ya ocaq qalanana qədər Sultan əmi onu – Səmədi çağırıb “dizinin dibində” oturdardı, nə qədər üzgün düşsə də, gümrah danışardı: “Hə, de görək, qardaşoğlu, harda oxuyacaqsan, nə olacaqsan?” Bu onun hər dəfə təkrar elədiyi daimi sual idi. Səmədin cavabı da daimi idi: “Partiya məktəbində[16] oxuyacam, Sultan Əmirli olacam”. Əmisi ləzzətlə şaqqanaq çəkərdi: “Partiya məktəbinə ağzı qatıqlıları götürmürlər axı, qardaşoğlu. De görüm ağzıyın qatığını necə siləcəksən?” Bu sualın da cavabı çoxdan hazırdı: “Əmimin nəzarəti altında, ikiillik ali-orta institutun tarix fakültəsini qurtaracam. Sonra yenə əmimin nəzarəti altında, əmimin öz yanındaca təlimatçı olacam. Azı üç-dörd il işləyib, bişib-bərkiyəcəm. Sonra elə əmimin özündəncə xasiyyətnamə alacam, o xasiyyətnaməynən ağzımın qatığını silib, girəcəm partiya məktəbinə...” Sultan əmi də, Səməd özü də, atası da yaxşı bilirdilər ki, müharibə illərinin qaranlıq gecələrində dönə-dönə təkrar olunan bu söhbət nə qədər zarafatyana idisə, bir o qədər də ciddi idi, elə ciddiliyinə görə də axırda Sultan əmi mütləq kövrələrdi: “İki qardaşın bircə balasısan sən, qardaşoğlu. Varlığımı sənin yolunda qoyacam, bircə bala!..” “Dədənnən məsləhətləşmişik. Vaxtı çatanda bir sirr açacam sənə. Hələlik bircə bunu bil ki, o Çax-çux Xalıqın-filanın dilində bir kəlmə var: “xəzinə”. Bizdədi o xəzinə, bircə bala, Süleyman peyğəmbərinkidi. Yalan demirəm. Vaxtı çatanda yerini deyəcəm. Ağzıyın qatığını siləndən

---

[16] Marksizm-Leninizm əsaslarını, dialektik, tarixi, fəlsəfi materializmi mənimsəyən “xüsusi hazırlıqlı” partiya kadrları hazırlayan ikillik məktəb.

sonra dünyanın ən varlı bir kişisi olacaqsan, bircə balam. Əmma bir şərtimiz var: dilini dişinnən tut. Xəzinəsi olan adam ağzına qıfıl vurmalıdı ha, bircə balam" – və sairə. O qaranlıq gecələrdə Sultan əmi nələr, nələr danışmışdı! Axırda da hökmən təkrar edərdi: "Varlığımı sənin yolunda qoyacam, bircə balam!"

Çəkmələrin cırıltısı yaxınlaşıb kəsiləndə, Səməd əmisindən yenə məhz o sözləri eşitmək istədi. Səbr, təsəlli mümkündüsə, ancaq o sözlərlə mümkün ola bilərdi. Əmma... Əmma... Bu nə idi belə – Sultan əmi yoxa çıxdı! Sultan əmi əvəzində tamam başqa bir adamın yad-yoğun, nəriltili səsini eşitdi. Bu yad səsin dediyi sözlər də yad idi:

– Meyidin üzünü açma... Xahişimiz bircə budu səndən, açma meyidin üzünü... qəsd işi yoxdu. Özüm şəxsən yoxlamışam, dəqiq müəyyənləşdirmişik. Əmbə açma. O şeyi ki, biz görmüşük, istəmirik sən də görəsən...

Nəyi? Həmin "sağ gicgahda" dərin yaranı?..

Boğula-boğula, qarala-qarala çalışıb bir də baxanda Səməd başa düşdü ki, nə cırıldayan çəkmələr o çəkmələrdir, nə də boz kitel o kiteldir; camaatın "NKVD Gülənov" dediyi milis rəisi Gülənovdu, qəlyanlı qocaların qaraltıları arasında, nəhəng qarnını irəli verib, qıp-qırmızı damarları görünən alma gözləri və dəhşətli-boğucu çaxır qoxusu ilə ilk baxışdan nifrət doğururdu. Əmma bu nifrət yalnız görkəmə görə deyildi, "NKVD Gülənov" açıq-açığına "Əmirlilərə düşmənəm" – deyən adamın – lopa qara bığlı ikən "ağsaqqal sayılan Qudalı Rəhimin ən yaxın dostu, deyilənə görə hətta qohumu idi və üstəlik, Əmirliləri "daprosa" – istintaqa çəkənlərdən sayılırdı; atasının danışdığı "dapros" əhvalatı əvvəllər də ordan-burdan qulağına dəysə də, "ərköyün sədr oğlu" buna, demək olar ki, heç əhəmiyyət verməmişdi. Burada birinci dəfə açıq nifrətlə baxıb, üzünü döndərib getdi.

Ayaqlarının altında yer dəniz dalğası kimi qabarıb onu da qaldırırdı, enib onu da endirirdi, sağa qaçıb onu sola itələyirdi, sola qaçıb onu sağa itələyirdi. Bu cür gedib hardasa uzun, qapalı bir tabut gördü, tabutun qapağının hər küncündə bir mismar işıltısı gördü.

Yönəldi ki, qapağı qaldırsın, açsın, baxsın, qucaqlasın, hönkürsün. Yenə çəkmə cırıldadı, yenə boz kitel bozardı, yenə "açma" deyildi:

– Açma, bircə bala, açma...

Bu dəfəki səs əmisinin səsi idi, boz kitel də əmisinin kiteli idi. Nədənsə əmisi də Gülənovun sözlərini təkrar etdi:

– Qəsd işi yoxdu, – dedi.

Xeyli susub bir də:

– Qəsd işi yoxdu, – dedi.

Əmma Səməd bu səsə tabe oldu, bu kitelə sığındı və eynilə Cəfər əmi – Lüt Cəfərin dediyi kimi tez-tez köksünü ötürən əmisinin hənirində elə bil min il həsrətində olduğu hənir tapıb, o tapıntıdan yapışdı.

O tapıntı ata həniri idi.

Sədr Mədəd Səmədlə bir süfrədə çörək yeyəndə, Səmədlə yanaşı çarpayıda yatanda Səməd elə o hənirlə isindiyini bilməmişdi. "Yetdiyinə yetib, yetmədiyinə bir daş atmağının", "hoppanmağının", "qaynamağının" da elə o hənirdən olduğunu başa düşməmişdi. Hər şeyi indicə, o həniri əmisində tapandan sonra başa düşdü. Gözlənilməz itkinin dərdi gözlənilməz tapıntının sevincinə qarışdı. Hönkürtünün içində südəmər uşaq gülüşünə oxşayan gülüş titrədi. Gülüş yox, Qonaqlıda buna "oxranma" deyirdilər. Bütün günü anadan ayrı, mələr qalıb, axşamlar analarının üstünə cuman körpə quzular, oğlaqlar belə oxranırdılar. Bütün günü "yasli"də göynəyə-göynəyə qalıb, axşamlar analarının məmələrindən qoşa əllə yapışıb titrəyən "yasli" uşaqları belə oxranırdılar. Dərd içində tapdığı xoşbəxtliyi Səmədi o dilsiz körpələr, o quzular, oğlaqlar kimicə oxrandırdı. Duzlu göz yaşlarına qarışan ana südündən nə əmələ gələrsə, Səmədin dərdinə qarışan əmi-ata hənirindən də elə bir şey əmələ gəldi. İndiyə qədər ancaq ad-sanı, şan-şöhrəti ilə fəxr etdiyi əmisini Səməd belə sevdi.

Bu məhəbbət bir saniyədəcə Səmədin qanına-canına hopdu. Başına, beyninə, gözlərinin çuxurlarına dolmuş qurğuşun birdən-birə yumşalıb, əriyib tökülməyə başladı.

Ətrafda uğultu eşidildi: hamı, hamı hönkürürdü.

Sonra birdən hərəkətə gəldilər.

Qapağının hər küncündə bir mismar işıldayan tabutu qaldırdılar, axşamın sazağında nəfəsləri buğlana-buğlana aparıb, Qonaqlının günbatanında, təpə belində, Sura Əmirlinin baş daşı aylı-ulduzlu[17] qəbri ilə yanaşı qazılmış qəbirin yanında yerə endirdilər.

Qəlyanlı qocalardan biri – Xızr Abı quyu kimi qaralan dərin qəbrin baş tərəfində çöməlib hərəkətsiz qaldı, qalan qəlyanlılar – Çürük Aşıq, Təftiş Abbas, Möhsün kişi, bir də bu ətrafdakı üç para kənddə məşhur

---

[17] Baş daşlarında Türk "ay-ulduzu" qadağan edilsə də, Sovet Azərbaycanının hər yerində bu qadağaya riayət edilmirdi.

olan, xəlvətdə "Erməni mollası" ləğəbilə adlandırılan Gülənoğlu Molla tabutun qapağının bir tərəfini qaldırıb, orda – gizlində nə isə vacib iş başladılar.

Səməd hər şeyi görürdü, hər şeyi eşidirdi. Əmma buna nə görmək demək olardı, nə də eşitmək. Çünki Səməd üçün indi dünyada Sultan əmidən başqa heç kəs və heç nə yoxdu. Atası, anası da, o tayda şeyx əmilərinin oğul-uşaqları da, "vaxtı çatanda partbiletin arasında gəzdirmək" üçün pencəyinin qoltuq cibinə qoyduğu şəkillər də – hamı və hər şey ancaq Sultan əmidən ibarət idi.

Qocalar tabutun yanından ayağa qalxıb, qəbrin dövrəsində cərgələnib Sultan əmiyə baxanda, Səməd yenə əmisinin səsini eşitdi.

Yolboyu Sultan əmi qolunu onun boynundan çəkməmişdi. "Ağla bircə bala, ağla", – demişdi. "Ağlıyammıram mən, bircə bala, yaş düyünlənib qalıb, ağlıyammıram, mənim əvəzimdə də ağla", – demişdi. Qəlyanlı qocalar cərgələnib bəri baxanda Səməd böyründə yenə hamanca səsi eşitdi, Sultan əminin birdən-birə rusca danışmağının səbəbini isə, yalnız onun əlində "pravitelstvennaya teleqramma"nı görəndən sonra başa düşdü, buna görə də o teleqramdan yadında cəmi üç kəlmə qaldı: "Prekratite bezobraziye. Stalin".[18]

Kimin üstünə vurulmuşdu teleqram? Bakıya, o "Mirqəzəb"in özünün, yoxsa, "o taydan qəbir şəkli gətirdib bu tayda kommunist Sultan Əmirliynən kommunist Mədəd Əmirlinin çək-çevirə salan"ların üstünə? Bu sual Səmədin beyninə tük kimi toxundu, fikir oyatmadan, iz salmadan keçdi. Beyninə, ürəyinə və bütün varlığına o üç kəlmədən bircəsi hakim oldu – "Stalin".

Sultan əmidən sonra kimlərsə nə isə danışdılar. Sovet sədri Qılınc Qurban, qəlyanlı qocalardan Təftiş Abbas da nə isə dedilər. Qəbir daşlarının aralarında nəfəsi buğlanan, lal-dinməz camaat da dilləndi. "Pers adında bədxah"ın, "Xudiyev dəstəsinin", "doğrudan da bezobraziye"nin barəsində söz deməyən bircə adam qaldı ki, o da "bezobraziye qurbanı olan" sədrin oğlu idi. Qəbristanda, qapağının hər küncündə bir mismar işıldayan tabutun beş addımlığında yox, Səməd indi atasının kabinetində idi, üzünü soyuq şəkillərə söykəyib yatmışdı və yata-yata fikirləşirdi ki, Stalin adı, Stalin teleqramı olan yerdə "Mirqəzəb" kimdir, Pers-mers, Xudiyev-mudiyev kimdir, "bezobraziye" nədir?! Sudüşən

[18] "Əcaibliyə (*biabırçılığa*) son qoyun".

yerdə qaratikan yığını ilə saqqız ağacı da, tabutla Sura Əmirlinin qəbrinin böyründə qazılmış qəbr də taxtın üstündə yuxuya gedib qalan Səmədin röyasıdır, keçib gedəcək, qurtaracaq, hamı, hər şey yoxa çıxacaq, təkcə şəkillər qalacaq, bir də özü; oddan qızarmış dəmir peçin yanında taxtdan qalxıb yenə "qonaq yeri"ndə – kresloda oturub, atasının yolunu gözləyəcək və bir azdan motor səsi eşidiləndə yenə pəncərədən baxıb, Çax-çuxun kötüyünü vurub yıxan, kişmişi dağıdan maşını görəcək.

Əmma röya qurtarmadı. Hər şeyin keçib gedəcəyinə, yoxa çıxacağına Səmədin əməlli-başlı inandığı bir vaxtda, camaatın arasından uzun, qara bir adam çıxdı, hönkürə-hönkürə yüyürüb, tappıltı ilə dizləri üstə düşüb, Sultan əminin çəkmələrini qucaqlayıb yalvarmağa başladı:

– Ayağıyın altında ölüm, bağışla məni! İki qardaşın bircə balasının başına çevir məni, keç günahımdan! Mədəd deyil ölən, mən bəxtiqarayam ölən! Bu rəhmətliyin barəsində heç vaxt pis fikirdə olmamışam. Özün bilirsən, dilimdən nə çıxıbsa, tapşırıqnan olub hamısı. Yoxsa... bu gözəl, bu igid kişinin barəsində hansı köpəyoğlunun dili gələr bir söz desin! Əgər buna əl qaldıran olubsa, başa düşürəm, mənim danışdıqlarım əsasında olub. Öldür məni öz əlinnən! Bağışlayammırsan, öldür! Atamız, rəhbərimiz Stalinin bu cür teleqramından sonra yaşamaq istəmirəm mən, yoldaş Əmirli!..

Çoxdanışan adam, sözlərindən də bilindiyi kimi, Çax-çux Xalıqdı. Sultan əminin qabağında, qəbir üçün yoğrulmuş gilli, qumlu palçığı ovuclayıb üzünə yaxa-yaxa ağlayırdı.

– Qaradı üzüm yanında, yoldaş Əmirli, qaradı! – deyirdi.

– Stalininə də qurban olum, teleqramına da, sənə də! Öldür öz əlinnən! – deyirdi.

Qəlyanlı qocalardan ən cavanı, nəhəng boy-buxunlu Təftiş Abbas çəkib onu Sultan əmidən araladı.

– Çıx get, çıx get! – dedi.

Çax-çuxun beli əyilmişdi. Qolları birə-iki uzanmışdı. Qara, palçıqlı üzündə göz yaşları işıldaya-işıldaya, qıçları bükülə-bükülə uzaqlaşdı, birdən-birə kükrəyən dəhşətli bir şübhədən içərisi alışan Səmədi də elə bil ardınca aparıb, atasının dəfn mərasimindən, hamıdan və hər şeydən ayırdı.

Bu ayrılma Əmirli yeniyetməsi Səməd Əmirlinin ruhi sıxıntısının, mənəvi həyatının başlanğıcı idi.

Əmisinin hələ müharibə illərində, əvvəlcədən proqramlaşdırdığı həyat yolu zahirən eynilə qalsa da, bu yol gözlənilmədən Səmədin içərisinə doğru buruldduğuna görə, Səmədin özündən başqa heç kəs bilmədi ki, kandarında çəmənotu və qazayağı bitən, tavanında qaranquşlar uçuşan Əmirli mülkü ilə vidalaşıb kənddən gedəndə, qapağının hər küncündə bir mismar işıldayan tabutla birgə, o illərdə ikiillik ali-orta institutun auditoriyalarında, yataqxanada, kitabxanada, yeməkxanada o uzun adamın o qara, palçıqlı üzü havadan asılıb bircə gün də Səməddən ayrılmadı. Qırx doqquz-əlli ikinci illərdə o qara üz həyulaya çevrilib, raykomun təlimatçılar otağında məskən saldı, "sezonun işinə nəzarət üçün kolxoza təhkim edilən" Səmədlə birgə əkində, səpində, pambıq yığımında Səmədlə birlikdə çölləri gəzdi, Mədəd Əmirli ilə Sura Əmirlinin qoşa, aylı-ulduzlu qəbirlərinin yanında dayandı. Sonra isə Bakıya getdi, partiya məktəbinin auditoriyalarında, kitabxanada, yeməkxanada, yataqxanada tez-tez görünüb, müharibədən sonrakı bu "quruculuq illərində" sürətlə dəyişməkdə olan dünya ilə Səmədin arasında əməlli-başlı səddə çevrildi.

## 2

Bu illərdə iyirminci-otuzuncu illərin yadigarı "şinel" və müharibənin yadigarı "teloqreyka"[19] yavaş-yavaş sıradan çıxırdı. Kənddə yaxşı maaş alan müəllimlərin, qulluqçuların hamısı, ticarətdə, fermalarda, taxıl, yun, yağ tədarükündə gizlin varlanan adamların isə əksəriyyəti "kitayski makentoş" – plaş geyinirdi və hamı bilirdi ki, makentoşları Çaxçux gətirir... Axşamlar idarəyə gedən, idarədən qayıdan briqadirlərin, manqabaşıların,[20] xeyir-şər yığnaqlarından dağılışan ahıl adamların, hətta həyətlərdə tərpənişən qocaların, qarıların əllərində güclü "mil" işığı uzağı vuran Çin fənəri parıldayırdı. Elektrik işığından məhrum, zülmət küçələrdə, cığırlarda hamı Çin fənəri ilə gəzirdi və hamı bilirdi ki, fənərləri də Çax-çux gətirir, köhnə arvadı Badsəbanın öhdəsinə verib gedir, Badsəba isə hökumət adamı sayılan göyü, yəni kürəkəni Məsimin narazılığına, deyintisinə baxmayaraq malı açıq-açığına ortalığa töküb

---

[19] Əsgərlər üçün qalın üst geyimləri.

[20] Kolxozda hər briqada bir neçə manqaya bölünürdü.

[21] "*Sovetlik*" – kəndləri idarə edən dövlət orqanı.

[22] SSRİ-də fərdi alver qadağan idi.

satır, hətta Qurbanlı sovetliyinin[21] üç para kəndində, o cümlədən burda, Qonaqlıqda da alverçilərə qılınc çəkən Qılınc Qurbandan da ehtiyatlanmayıb, alverindən qalmırdı.[22] Qurbanlı sovetliyi raykomun təlimatçılarından təkcə "Məsimin zonası" – ərazisi olsa da, Sultan əmi bu sakit, qaraqabaq oğlanı "əfəl" saydığına görə hərdən Səmədə "Get o əfələ kömək elə", – deyirdi və bu vaxt Məsimə qoşulub Qonaqlıya gedəndə Səməd, Badsəbanın makentoşları cərgə ilə kəndirdən asıb, fənərləri kilimin üstünə düzüb, həyətdə əməlli-başlı dükan açdığını öz gözləri ilə görürdü, o uzun, qara adamın özünün də hardasa hərlənib-fırlandığını və bu şəxsi dükanı nə isə anlaşılmaz bir sehrlə qoruduğunu sövqitəbii duyurdu, əmma o həyətə nə qədər göz yetirsə də, bir vaxtkı "yaiçni paraşok", kişmiş alverçisini, təzə makentoş möhtəkirini görə bilmirdi. Müəllimlərin, qulluqçuların və rüşvət-filanla gizlin varlanan adamların əyinlərində makentoşları görəndə də Səməd dərhal o qara üzü görürdü, yollarda, cığırlarda, həyətlərdə Çin fənərlərinin projektorsayağı "mil" işıqlarını görəndə də dərhal o qara üzü görürdü, makentoşlar, fənərlər çoxaldıqca o qara üz də çoxalıb, yayılıb aləmi tuturdu, Çax-çux Xalıqın özü isə, o il qəbristandan gedəndi ki, hələ də gözə dəymirdi. Kənddə, rayonda, hər yerdə hamı ilə əlaqədə, ünsiyyətdə idi. Səmədin ayağı dəyən yerlərdə isə, elə bil havadan iy çəkib yoxa çıxırdı, bəd üzü bədəndən ayrılıb, qapağının hər küncündə bir mismar işıldayan tabutun yanında qarala-qarala qalırdı. Odur ki, hətta son iki ildə – Bakıda da Səməd onu unutmamışdı.

İş o yerə çatmışdı ki, əmisinin şoferi – "quşburun" Müslüm "Bircə bala"ya ilk bahar nemətləri – "təzə, duzsuz pendir", "nəhrə yağı" aparıb yataqxanada Səmədin sifətini görəndə qorxuya düşdü: "Bıyy! Xəstəsən-nədi, ay Səmi?!" Səməd bu vaxta qədər necə qapalı gəzib-dolanmışdısa, orda, işgəncələrdən bezmiş kimi, bir az açılışmalı oldu: "Qəbristanda Çax-çux o cür, əmimin ayağına yıxılandan bəri onun sifəti yuxuda da yadımdan çıxmır, ay Müslüm!" – dedi. Heç, yarım saat çəkmədi ki, Qonaqlının nə üçünsə Müslümlə Bakıya getmiş, "Sestra" çağırılan şəfqət bacısı, yəqin ki, Müslümdən hər şeyi öyrəndiyinə görə bircə kəlmə: "Patalogiyadı. O vaxt çox sarsılmısan. Keçib gedəcək" – dedi.

Əmma keçmədi "patalogiya". Çünki bunun həqiqi adı "şübhə" idi.

Yalnız şübhə?

Başqa nə vardı?

Sultan əminin qabağında diz çöküb yalvarandan sonra Çax-çuxun özünün camaat arasında o vaxtkı söz-söhbətlərinə görə, diz çökməyi də, o cür hönkürüb yalvarmağı da ondandı ki, "KeQeBe Xudiyev"ə agentlik eləmişdi, Şeyx qardaşların bu taya qaçan fədai şagirdləriynən Əmirlilərin xəlvəti əlaqələri barədə KeQeBeyə yaxşı-yaman yazıb, kişiləri çək-çevirə salmışdı", xüsusən o kişmiş əhvalatı ilə "sədr Mədədi hövsələdən çıxartmışdı", Mədəd də "maşını sürəmməyib, düppədüz yerdəcə fələyin xərcinə getmişdi". Belə çıxırdı ki, bu müsibətdə Çax-çux Xalıqın bircə günahı vardı, o da "KeQeBe Xudiyevə agentlik eləməyi" idi?

Bəs Səməddən niyə qaçırdı? Niyə belə ardıcıl yayınıb gizlənirdi?!

Bu barədə Çax-çux, əlbəttə, heç kəsə heç nə deməmişdi və deyə də bilməzdi. Çünki Səmədə görə Çax-Çux Xalıq daha böyük günah sahibi idi: cinayət işləmişdi, adam öldürmüşdü. Səməd bunu bütün varlığı ilə hiss edirdi, bütün qəlbi ilə duyurdu, hətta atası maşını nərilti, gurultu ilə sürüb kişmişi, daş-tərəzini dağıdandan sonra Çax-çuxun onu harda, necə, nə ilə vurduğunu da bütün təfərrüatına qədər görürdü.

O təfərrüat hələlik, əlbəttə, xəyaldan başqa bir şey deyildi. Yəni dəlil-sübut, şahid-filan yoxdu. Əmma Səməd yəqin bilirdi ki, içərisini alovlandırıb kürə kimi qaynadan xəyalı nə vaxtsa, hardasa çəkib onu Çax-çuxun üstünə aparacaq, cinayətkarla – qatillə onu qarşılaşdıracaq və o vaxt mütləq bir hadisə baş verəcək; çox ola bilər ki, illərlə gizlənəndən sonra qatil onunla üz-üzə gəlməyə dözməyib, nə isə bir əlamətlə öz daxilini göstərməyə məcbur olacaq və elə o əlamət də kifayət edəcək ki, Səməd hər şeyi onun gözünün içinə desin, yaxasından yapışıb, lazımi yerə təhvil versin, cəzasına çatdırsın.

Əmma Səməd onu da yəqin bilirdi ki, nə qədər kükrəsə də, əvvəlki Səməd deyildi. Vaxtilə Qudalılara qan udduran "Dəli Səməd" üzünü şeyx əmilərinin qəbirlərinin başdaşılarının şəkillərinə söykəyib yatıb, oyanmamışdı. İçərisində "cəhənnəm kürəsi" gəzdirən Səməd isə, əlbəttə, tamam başqa Səməddi və bu Səməd öz kürəsində yana-yana, istər-istəməz düşünürdü ki, Çax-çux Xalıqın bu qədər ardıcıl yayına-yayına sirr saxladığı tamamilə aydındısa, bəs Sultan əmi o sirrə niyə laqeyddi? Hələ hadisə yerində şübhələnib "bəlkə qəsb işidi" dediyi halda, sonra niyə fikrini dəyişmiş, NKVD Gülənovun sözlərini təkrar edən Cəfər əmi – Lüt Cəfərlə birgə o da təkrar edib "qəsd işi yoxdu" demişdi? Sultan əminin də belə deməyinin özündə də nə isə bir sirr yoxdu ki?!

Cavabsız suallar da bir cür "cəhənnəm kürəsi" idi, bu kürəyə düşəndə Səməd qovrula-qovrula qalıb heç yana çıxa bilmirdi.

Ola bilərdimi ki, Səməd ömrü boyu elə-beləcə qovrula-qovrula qalsın, Çax-çux Xalıq da elə o cür – gözdən yayına-yayına, "çax-çux eləyə-eləyə" qocalıb ömrünü başa vursun, sirrini də özü ilə aparıb getsin? Təkcə bu sualın cavabı aydın və qəti idi: YOX! Mütləq görüşməli idilər və o hadisə də baş verməli idi.

Əmma iş elə gətirdi ki, nə görüş Səmədin təsəvvüründəki kimi oldu, nə də hadisə. Əvvəlcə yenə Sestra gözlənilmədən yenə yataqxanada görünüb, "Mədəd əmi rəhmətə gedəndə Sultan Mamedoviç özü də çox sarsılmışdı. Əmma keçdi-getdi. Səninki də keçəcək. Çətini Xalıqnan görüşüb kəlmələşənə qədərdi", – dedi. Sonra "Sestra" ilə sözləşmiş kimi, o uzun, qara adam özü göründü...

* * *

...Səməd üçün son dərəcə gözlənilməz görkəmdə – başında yaşıl vilyur şlyapa, damağında gümüşə tutulmuş trubka, səhər ertə Bakının sərnişin vağzalının qələbəliyində birdəncə zühur etdi, həm də yayınmaq, gizlənmək əvəzinə trubkasını camaatın başı üzərində tüstülədə-tüstülədə özü Səmədə yaxınlaşdı və salamsız-kəlamsız, müqəddiməsiz-filansız, birbaşa soruşdu:

– Xəbərin varmı, əmin evlənib?

Çax-çuxun üzü qara məxmər kimi işıldayırdı. Gözləri bir cüt Çin fənəri idi – iri, dəyirmi, par-par yanırdı.

– Eşitmədinmi, qadası?.. Deyirəm əmin evlənib.

Səməd özünü itirmişdi.

– Sultan əmi?.. Necə yəni evlənib?!

– Hm, bildim elə təəccüblənəcəksən... Məktəb uşaqları elə bilirlər, müəllim nə çörək yeyir, nə su içir, nə də ayaqyoluna-zada gedir... Əlli yaş nədi ki kişi olandan ötrü! Evlənib də!

– Qıymat?

– Yox, Qıymat deyil... Qıymat heç yadına da düşməyib... Qız başqasının istəklisiymiş. İşin bu tərəfi qəlizdi bir az. O oğlannan düşmənçilik

---

[23] Yalnız tək-tək kolxozları "milyoner kolxoz" adlandırıb, hər yerdə təbliğ edib, "Sovet kəndlisinin firavan yaşadığına" nümunə göstərirdilər.

olmasa yaxşıdı... Hə... Çoxdan görüşmürdük biz sənnən, qadası. Vaqonda gələcəm yanına. Hökmən!.. Cavan oğlansan, nə bilirsən nələr olur bu dünyada!.. Gələcəm. Hə... Tez-tez görüşəcəyik bundan sonra. Hə...

Fənərlər qapandı, trubka tüstülənə-tüstülənə uzaqlaşdı, bir də on saatdan sonra, sarsıntılı, çaşqın Səməd çamadanını bağlayıb düşməyə hazırlaşanda, gəlib kupedə tüstüləndi.

– Sən çatırsan... Kəndə getmirəm mən... Sədr Mədəddən sonra yaman dəyişib camaat. Müharibənin qatı vaxtı o rəhmətlik azı on manat paylatdırardı əməkgününə.[23] Bizim Qudalıların ağsaqqalı Rəhimin iki arvaddan on qızı işləyirdi. Ayda hərəsi üç yüz manat qoyurdu Rəhimin qabağına. O aclığın-gicliyin içində əməlli-başlı dolanırdı camaat, mən kimi çax-çuxnan baş girəliyənləri də dolandırırdı, hə... Elə deyil indi. Qatıqsatan, alçasatan olub hamısı. Manatı manatın üstünə qoyurlar. Bir qəpikləri çıxanda canları çıxır. Əmbə kənddən ayağımı kəsməmişəm hələ. Hə... Gəldim deyim ki, mayda olub o iş, dörd ay bundan qabaq. Deyirlər elə birdən-birə evlənmək fikrinə düşüb. Müslümü çağırıb, şoferini, deyib Sultan Əmirli deyiləm mən daha, arşınmalçıyam, gedək axtaraq bir Gülçöhrə tapaq gətirək bu evə... Müslüm elə bilib zarafat eləyir. Sonra görüb yox, iş ayrı cürdü. O gördüyün zəhmli-zabitəli Sultan Əmirli qəşəng geyinib-gecinib, oturub maşında, "Sür, – deyib, – gözüm harda kimi tutdu, maşına basıb gətirəcəyik zaksa!"

Əmbə uğuru xeyir olmayıb, səhər dediyim kimi, başqasının istəklisini tutub gözü, yarıxoş, yarızor gətirib, elə o günü də kəbin kəsdirib. Qəribə işdi, hə? Təəccüblüdü?

Nə qəribədi, qadası, nə təəccüblüdü. Çox əcaib bir məsələ var bu evlənmə söhbətinin altında. Qaş-qabağını nə qədər sallasan da, mən bir az da çərənləməliyəm ki, o əcaib məsələnin heç olmasa bir qismi çatsın sənə. Hə.

Mənim kürəkənim Məsim orda işləyir, bilirsən, əmiyin yanındadı hələ. Qızım Gülbəniz də, bilirsən, gedib-gəlir ora. Demək istəyirəm ki, az-çox xəbərdaram mən əmiyin işlərindən... Keçən il Stalin öləndə yataqxanadan bir həftə çıxmayıbsan eşiyə, oturub içib, içib ağlayıbsan. Bax, onda hesab elə ki, əmini ağlayıbsan. Stalin ölən günü əmin də ölüb, qaraltısı qalıb stolun dalında, hə! Yadındadımı o "Molniya" teleqram?" "Prekratite bezobraziye". Qırmızı qələmnən yoğun, qırmızı xətt çəkmişdi o iki sözün altından, qoymuşdu stolunun şüşəsinin altına. Məsim deyir, hətta Bakıdan gələn böyüklər də səslərini çıxardammırdılar onun

qabağında. Dillənən olanda o dəqiqə barmağı dirənirmiş o iki sözün üstə, hamı lal olurmuş. Gülənov nədi, Sayılov nədi, rəhmətlik Mədədin "Mirqəzəb" dediyi Kişinin özü də o saatca yumşalırmış, gülümsünürmüş: "Həqiqətən sultan olmusan, Sultan Mamedoviç! Hətta məni də öz təbən saya bilərsən, Sultan Mamedoviç!" Hə, gör kim təbəymiş əminə – Mirqəzəb! Elə böyütmüşdü onu o teleqram!.. İndi elə deyil. Hakimiyyəti, hökmranlığı qurtarıb əmiyin, qadası. Gündə bir ziyalı öldürülür rayonda. Özü də elə o cür: sağ gicgahdan iti çəkicnən vururlar deyirlər. Kimlərdi o usta qatillər? Hamısı eyni cür vurur ki, guya çox adamın yox, tək adamın işidi. Körpə uşaq da başa düşür ki, nə isə gizlin kompaniyadı bu, qırğındı. Qırx səkkizinci – əlli birinci illərdə Sibirə, Qazaxıstana sürülən azərbaycanlılar ordan Moskvaya şikayət yazırlar, əvəzində burdakılar bədbəxt olurlar. Öz aramızda qalsın ha! Siyasi məsələdi. Dilindən çıxar, səni də birtəhər eliyərlər! Hə... Əmin susur. Heç cınqırını da çıxartmır! Niyə, bilirsən? Çünki tüpürüb hər şeyə! Keyfindədi! Hə... Özü də yaxşı bilir ki, bu gün-sabahlıqdı. Uzaqbaşı, konfransacandı. Bir-iki aya başlanır rayonlarda hesabat-seçki konfransları. Bizimki oktyabrda olur həmişə. Deməli ikicə ay qalıb. Yeşikdən çıxmıyacaq əmin o seçkidə. Tək vəzifəsi yox, özü də yeşikdə qalacaq. Bəs nə! O cür adamlar elə vəzifəynən nəfəs almırlarmı, qadası? Nəyi var axı onun vəzifədən başqa? Evində oturduğu stul da dövlətindi. Bəs nə! Fikir verməyibsən?! Ayağının altına saldığı xalçanı qaldır bax astar üzünə, orda da birka var: "İnventar RKP".[24] Nə inventar, heç o ev də özünün deyil. Revkomun[25] qəza komitəsi olurmuş vaxtıynan o bağın içindəki binada. Yeşikdə qalan günün sabahısı təzə katib çağırıb deyəcək: "Zəhmət çək, çıx o evdən". Ordaca yatacaq ürəyi. Bəs necə? Belədi bu vəzifəlilər, qadası. Vəzifəsi var – adamdı, yoxdu qurtardı, tamam oldu ömrü. Əmin təzə qanır bunu. Elə buna görə də ac canavara dönüb indi, əlinə keçəni basır ağzına, kam alır bu dünyadan. Nədi yediyi, kimin qismətidi? Fikir vermir, udur! Fikir versəydi, başqasının adamını arvad elərdimi özünə?! Belədi indi əmin, qadası. Otuzca yaş kiçikdi deyirlər özündən o gözəl. Sürüdə əmlik təki bir şeymiş, canavar ağzına keçib, hə... Görəcəksən o gözəli. Onda biləcəksən kimdi başına and içdiyin əmin! "Əcaib məsələ" dediyim elə o gözəlnən bağlıdı.

---

[24] "Rayon partiya komitəsinin əmlakı".
[25] İnqilab komitəsi.

İndiyəcən bir kəlmə də demək olmurdu onun barəsində. Katib deyildi ha, yarımallahıydı o teleqramdan sonra. Xudiyevi, bilirsən, elə teleqram gələn günü qovdu rayondan, o heç. Bir töhmət Gülənova yapışdırdı, birini prokuror Sayılova, birini də RİK Atamalıya. O vaxtdan orqan-zad yoxuydu rayonda. Bir o teleqramıydı stolun üstə, bir də Sultan Əmirli. "Prekratite" deyib ayaqlayırdı hamını.

Məni necə ayaqladı, bilirsən? Büro iclasına çağırdı. Getdim gördüm yeddi nəfər büro üzvündən altısı cərgəynən oturub divarın dibində. Əlləri dizlərinin üstə, gözləri bərələ qalıb, quruyublar, elə bilirsən nəfəs də almırlar. İstədim him-cimnən soruşum Gülənovdan ki, məni niyə çağırtdırıb bu "həqiqətən sultan olan Sultan"? Gördüm dirigözlü ölüb o gördüyün heyvərə nəçənnik, mənim üzümə baxmaqdan da qorxur. RİK Atamalıya baxdım, o da ölmüşdü dirigözlü. Həmişə Sultanın böyründə, yumşaq kresloda oturan "fəhlə sinfinin nümayəndəsi"ndən başqa heç kəs baxmadı üzümə. O da elə qanlı-qanlı baxdı ki, elə bil atasını öldürmüşdüm. Hə!.. Əlahəzrət "sultan olan Sultanımız" ayaq üstəydi. Yumruqları stolun, şüşənin üstə. Pırpız qaşlar çatılı. Gözlər qan çanağı. Başladı ki, "RİK sədriynən, milis rəisiynən əlbir olub rayonun bütün mağazalarına gələn malları hökumət qiymətinə kürüyüb aparırsan, bədbəxt əhaliyə iki qat artıq qiymətə sırıyırsan! İş o yerə çatıb ki, partiya komitəsinin bürosu məşğul olur sənin işinlə. Öz iştirakınla rəy soruşuram, qulaq as" Rəyi isə, bilirsən ki, "fəhlə sinfinin nümayəndəsi" deyir həmişə. Döşündə bir qatar dəmir-dümür, o uzun-hoqqar fəhlə "fatihə" oxudu mənə: "Rayonumuzun müdrik və ədalətli rəhbəri Əmirli yoldaşın qısa, lakin çox aydın məlumatı əsasında prokuraturaya verilməlidi bu iş!" Qılınc Qurban malı yüklədi belimə, eşşək kimi saldı qabağına, milisə qədər piyada apardı: "Əmirli yoldaş tapşırıb ki, bu eşşəyin palanını alın, özünü də qovun ticarət sistemindən..."

Məsimnən Gülbənizi qoşdum bir-birinə, yolladım yanına ki, buyruq quluyam mən, Xudiyev elə buyururdu, o ayrı cür buyursun, nə oyun açır-açsın başıma, əmbə çörəyimi kəsməsin. Yalvardım ki, bir parça vaxtımdan daşda-tərəzidədi əlim, ayrı şey gəlmir əlimdən... Eşitmədi. Ayaqladı!.. Bədbəxt hardan biləydi ki, orqandanam mən, "zasekreçenniyəm"![26] Lazım gələndə lazımi adamlara göstərirəm üzümü. Aydın oldumu?!

---

[26] Hərtərəfli məxfiləşdirilmiş (agent).

Məsələ ayrı cürdü, qadası. İcazə ver, nəzər-diqqətinə çatdırım ki, sənin özüyün də vəziyyətin yaxşı deyil. Əmiyin evinə getməməlisən sən. Niyə? Orasını demiyəcəm indi. Yaxşı olar ki, düşüb burdan birbaş gedəsən bizim Məsimgilə. Mən bilirdim ki, sən bu il qurtarırsan məktəbini. Qohumum var mənim orda. Sizin də qohumunuzdu ata tərəfdən. Hə, tanıyırsan. Professor Məhərrəmov Məhərrəm Abbasoviç. Hə. Onu da bilirdim ki, təyinnamən öz rayonumuzadı. Dünən partiya uçotundan çıxıbsan, ordan da gedib bilet alıbsan bu altıncı vaqona. Gör iş nə yerdədi ki, vaqonunu da öyrənmişəm. May ayından indiyəcən fikrim-zikrim sənnəndi, qadası. Niyə? Orasını da demiyəcəm indi. Bircə şey deyirəm hələlik: getmə o evə!

Gülbənizə bir neçə dəfə tapşırmışam bu dörd ayda, bəzi sözlər deyəcək o sənə. Bilirəm, şübhən var mən sarıdan, yaxşı-yaman fikirləşirsən. Soruşma hardan bilirəm. Bax, birinci kərədi belə üz-üzəyik, əmbə səni mən sənin özündən də yaxşı tanıyıram, qadası! İçərin qaynayır sənin. Düşmən görükür gözünə. Qan düşməni... Hesablamışam, bu gün düz yeddi il səkkiz aydı beləsən. Rəhmətlik Mədəd maşını o cür sürüb bizim həyətdə kişmişi dağıdanda idarədəydin sən, pəncərəni açıb baxırdın. Yaman söydü məni rəhmətlik, yaman hədələdi. Sonra da getdi elə iş gəldi başına... Deyirlər elə o vaxtdan başlanıbmış bu qırğın – terror. Lap belə müharibədə qırırmışlar ey bizimkiləri! Qırx səkkizinci ildə ermeniləri xaricdən bizim İrəvana – Göyçəyə-zada köçürdəndə, deyirlər, planlaşdırılıb Moskvada ki, azərbaycanlı-türk deyilənin dünyadan bir şey qananı səlamət qalmamalıdı. Tuturlar, sürürlər, qırırlar!.. Sən uşağıydın onda... Atan əmbə qananlardan, görənlərdəniydi. Elə ona görə də elə oldu. Budu açığı. Hə!.. İnan, sevinmədim.. Həyətdəydim onda mən. Oturub, podpolkovnik Xudiyev Aron İsayeviçə lənət deyirdim. Xudiyev çağırtdırmışdı axı onda Mədədi rayona. Doprosamı, tutmağamı, nə bilim, allah bilir. Şübhəsiz, bilirmiş Mədəd. Çünki hirsliydi yaman. Heç nədəncə güdaza getdi rəhmətlik. Heç nədəncə! Gülbənizi göndərdim xəbər eləsin sənə. Getdi gəldi ki, "yatır. Qıymadım oyadım". Açığı, çox qorxurdum səndən, qadası. Yaman dəliqanlıydın o vaxt. Nə danım, qızı da elə ona görə göndərdim ki, gedib öz gözünnən görəsən necə olub o bədbəxtlik, qəsd işidi, yoxsa avariyadı?.. Sən qınama məni, can şirin şeydi, qadası, o müsibətin içində öz canımın qeydinə qaldım. Gülbəniz, deyirəm, oyatmamışdı. Özüm getdim. O şəkilləri gördüm, qorxu aldı canımı, dabanı üstə qayıtdım. O vaxtdan qaçırdım səndən. Yeddicə il gündə bir

evdə yatdım Qudalı məhləsində. Keşikçim olmuyanda yuxu getmirdi gözümə. Mürgülüyən kimi görürdüm gəldin... Danışılası şey deyil. Allah heç kəsə göstərməsin mən çəkəni... Sən Bakıya gedəndən sonra bu iki ildəcə adam sifətinə düşmüşəm. Sən də dəyişibsən, şükür, necə deyərlər, inteligent olubsan. O Səməd hara, bu hara? İndi söhbət eləmək olar sənnən, hə. Məni sən elə "Çax-çux" təki tanıyırdın. Savadım-zadım haqqında təsəvvürün yoxdu. Bir az dedim, vaxtı çatanda biləcəksən hər şeyi, inşallah.

Çox şey deyəcəm mən sənə, qadası.

O avariya günü bir yaradı, bu gün yeddi il səkkiz aydı qövr eləyir o yara bu sinədə. Vaxtı çatıb, kəsib atmalıyam daha yaranı. Bu gün danışsaq, bu gün atacam, sabah danışsaq, sabah atacam. Onda özün görəcəksən, kimlər vururlar bu yaranı, necə vururlar, nə üçün vururlar. Bir az dedim bayaq. Əmbə hər şeyi açmaq olmur. Zəmanə çox dəyişib, qadası. Kim qarantiya verə bilər ki, bu plaskart vaqonun ora-burasına səs yazan şey-mey qoyulmayıb?! Xüsusi gələcəm yanına, xəlvət bir guşədə danışaq, açım töküm sənə bu zəmanənin iç üzünü. Hə. Əmbə, dediyim kimi, əvvəlcə Məsimgilə gedəsən gərək. Gülbəniznən kəlmələşəndən sonra o şəkk-şübhələrin hamısını özün çıxardıb tulluyacaqsan ürəyindən, özün axtarıb tapacaqsan məni, danışmaq istiyəcəksən hökmən.

Kənddə olacam. Getmiyəcəm heç yana. Oturub səni gözlüyəcəm. Həm də çax-çuxum var orda bir az. Kişinin çax-çuxu olanda köhnə arvad da xoş baxır üzünə. Elə onun yanında qalıram indi, Badsəbanın daxmasında.

Dörd otağım var Bakıda. İyirmi səkkiz aprel küçəsində. Qismət olacaq, inşallah, görəcəksən. Qonşum da elə Məhərrəm Abbasoviçdi. Köməkləşib şərait düzəltmişik ikimizə də. Əmbə Badsəbanın o cırıq daxmasını min elə şəraitə dəyişmərəm. Ağzımın dadı da ordadı, can rahatlığım da. Səhv eləmirəmsə, sən özün də meylliydin o cırıq daxmaya. Görürdüm, qadası, görürdüm hər şeyi. Bizim Gülbəniz çox istəyirdi sənin xətrini. Nə danım, açığı, mən özüm də ayrı göznən baxırdım sənə. Sonra o cığalı qız gəldi ortalığa. Əlləzoğlunun Gülgəzi, qaraçı gözəli. Bir dəfə istədim risq eləyim açım sənə ki, o Göbələk Məmiş deyilənə yazmaq, oxumaq öyrədiblər "mekbez"də – savad kursunda, donos yazandı, ev yıxandı o cırtdan kişiciyəz, alma onun qızını. Sonra gördüm lap pis çıxır axı, – ata qızına elçilik eləyir. Danışmadım onda. Nə isə... Bağışla, çox açıqlıq eləyirəm. Məcburam da, neyləyim! Hə!.. Oturub gözlüyəcəm.

Bax, bir də deyirəm, Gülbəniznən danışandan sonra özün başa düşəcəksən ki, mənnən də danışmalısan hökmən. Təkrar eləyirəm, çox şey deyəcəm mən sənə, qadası. Sirnən doludu bu sinə. Əslində, bir də elə buna görə qaçırdım səndən. Çünki əminə aiddi sirrin çoxu, əmin də ki, elə yarımallahıydı. Nə qədər səndən qorxurdum, hesab elə ki, beş o qədər ondan qorxurdum. Sənə sirr açsaydım, o saat gedəcəydin onun üstünə, çünki çox dəhşətli sirrdi, qadası. Açsaydım, əmin yapışacaydı yaxamdan ki, de görüm Səməd hardan bilir qəsd işidi?! Odu ki, qaçırdım, qadası. Hə!..

Mayda o iş olanda birinci elə mən bildim ki, başqasının istəklisini gətirib evinə o yarımallah, başa düşdüm ki, axırı çatıb daha, sənnən görüşmək olar indi. Hə. O vaxtdan bu günü gözləyirdim. Avqustun iyirmi üçüdü bu gün. Yadında saxla: iyirmi üç avqust, min doqquz yüz əlli dördüncü il, axşam saat səkkiz. Stansiyada dayanhadayanda, altıncı vaqonun kupesində Çax-çux Xalıq sənə deyir: "Gözün elə şeylər görəcək ki, bu gün, ömründə görməyibsən! Qulağın elə sözlər eşidəcək ki, ömründə eşitməyibsən!" Falçı sözü deyil bu. Əsasım var. Çətin gündü bu gün səndən ötrü, qadası. Ata gözündə gördüyün əmin düşəcək gözündən, adamlıqdan çıxacaq, murdar əskiyə dönəcək nəzərində. Dözümlü olmalısan bu gün. Çox dözümlü!.. Bir dəfə sınıbsan. Bir də sınsan düzəlməzsən. Odu ki, unutma məsləhətimi: qabaqca, deməli, Məsimgilə getməlisən, Gülbəniznən görüşməlisən hökmən. Sonra da, deməli, məni görməlisən. Gözlüyəcəm ha!..

Trubkanın qətran iyi və qatı tüstüsü ilə birgə, kupeyə anlaşılmaz və anlaşılmaz olduğu qədər də dəhşətli xof dolub, Səmədin sinəsini tutub nəfəsini daraltmışdı. İllərlə səndən gizlənən, şəksiz-şübhəsiz qatil, belə birdən-birə, belə sərbəstcə üzə çıxıb, atasının müsibətindən sonra ata əvəzi əziz əmini də böyük müsibətlər gözlədiyini xəbər verib, "gözün elə şeylər görəcək ki bu gün, ömründə görməyibsən" deyirdisə, "falçı sözü deyil bu, əsasım var" deyirdisə və sən bu adamın doğrudan da nəyəsə əsaslandığını duyurdunsa, bundan necə xoflanmayasan?!

* * *

Çax-çuxu kupedə qoyub düşməyə tələsəndə Səmədə aydın olan bircə bu idi ki, o əvvəlki üzü palçıqlı adam, o cinayətkar – qatil yoxa

çıxmışdı, yaşıl şlyapanın altında qara məxmər üzünün qətiyyəti ilə, dəyirmi fənər gözlərinin cəsarəti ilə tamam başqa hisslər oyadan, "sinəsi sirlə dolu", çoxbilən bir adam peyda olmuşdu və bu adam, bildiyinin yüzdə birini də açmayıb, hər şeyi nədənsə sonrakı görüşə – Badsəbanın daxmasına saxlayıb, ancaq bunu lap aydın demişdi ki, Səməd öz doğma, əziz əmisini, ata əvəzi himayədarını heç də yaxşı tanımırdı, əmisinin ətrafında baş verən hadisələrdən xəbərsizdi və bilmirdi ki, "Stalin ölən günü əmisi də ölüb, stolun dalında qaraltısı qalıb", üstəlik, dörd ay bundan əvvəl – may ayında başına nə gəlibsə, necə sarsılıbsa, "Sultan Əmirli deyiləm mən daha, arşınmalçıyam" deyib, "Gedək axtaraq bir Gülçöhrə tapaq gətirək bu evə" deyib, əmma uğuru xeyir olmayıb", "Gülçöhrə əvəzinə kiminsə – "başqasının istəklisini" gətirib!.." Qətran iyi ilə, tüstü ilə birgə sinəsini tutub Səmədin nəfəsini daraldan da, əslində elə bu evlənmə xəbəri idi ki, "canavara dönüb" və "dünyadan kam alır" sözləri ilə birləşib onu tamam çaşdırmışdı.

Necə yəni "canavara dönüb?!"

Sultan əmi hara, belə bayağı sözlər hara?!

Sultan Əmirlini Sultan Əmirli eləyən elə bu deyildimi ki, "özünü fədai sayıb", "oğul-uşaq istəməyib", "həm gözəllikdə, həm də ağıldakamalda tayı-bərabəri olmayan Qıymatı" da ailə səadətindən məhrum qoyandan sonra məhz fədai kimi yaşamışdı. Bu barədə atasından eşitdiyindən əlavə Səməd özü də yaxşı bilmirdimi ki, əmisinin ailə ilə bərabər şəxsi ev-eşikdən də imtina eləyib, "inventar RKP" içində qalmağının böyük, ciddi səbəbi vardı?

Nə olub, nə baş verib ki, saç-saqqalının ağaran vaxtında "birdənbirə" "dünyadan kam almaq" xəyalına düşüb?!

İnsanın "birdən-birə" bu dərəcədə metamorfozaya uğraması mümkündürmü? Əgər metamorfoza yoxdursa, bəs Sultan Əmirlini "Sultan Əmirli deyiləm mən daha" deməyə vadar edən nədir? Bəlkə heç deməyib? Nəyə görə təsdiq olunmalıdır ki, Sultan əminin dilinə, təfəkkürünə bu qədər yad-yabançı "arşınmalçı" məhz onun öz dilindən çıxıb? Bu kəlmə ilə birgə bu evlənmə əhvalatının özündən də anekdot iyi gəlmirmi və elə anekdot iyindən məlum deyilmi ki, Çax-çuxun dili ilə düşmən danışır? Belə çıxmırmı ki, Xudiyev rədd olub rayondan getsə də, Xudiyevin dəstəsindəkilərin "hərəsinə bir töhmət yapışdırılsa"da, "bezobraziye" heç də fəaliyyətdən qalmayıb, vaxtilə Əmir məzarstanından qəbirlərin başdaşılarının şəkilləri vasitəsilə ittihamnamə düzəltdiyi

kimi, indi də başqa cür bir vasitə ilə – qadın filanla, “başqasının istəklisi” ilə ittihamnamə düzəldib? Azmı olub belə şeylər? Hələ müharibədən əvvəl Qudalıların ağsaqqalı Rəhim, Cəfər əmi – Lüt Cəfəri partkomluqdan çıxartdırmağa çalışanda, Qudalılar Cəfəri möhkəm içirdib, otaqda tək qoyub, yanına qarmonçu Şənbə – gəzəyən Şənbə adında bir qız salmışdılar və taxtda Şənbə ilə yanaşı lüt-üryan yatan Cəfəri camaata göstərib: “Baxın görün kimdi böyüyünüz”, – deyib kişini hörmətdən salmışdılar. Doğrudur, Cəfər əminin adının böyründəki “lüt” kəlməsi köhnə şeydi. Hələ iyirminci ildə, Bakıdan təzə gəldiyi vaxtlar “dünya inqilabı”ndan danışanda “proletariat” əvəzinə “lümbülümlüt proletariat” deyirmiş. Bir ay hər gün belə danışıb, ayın axırında – maaşını alan günü kəndin ortasında, yığnaqda deyib: “Kim lap lümbülümlüt proletardırsa, əlini qaldırsın”. Maaşını əllərini qaldıranların arasında tən bölüb paylayıb. Deyiblər: “Özünə bir şey qalmadı axı”. Deyib: “Sanadım. Düz otuz nəfərsiniz. Arvadım yox, uşağım yox, hər gün birinizin evində qismət kəsəcəm, heç kəsə zor düşmüyəcək, otuz günün tamamında təzə maaşımı yenə sizə paylıyacam”. Sonra gülüb, utananda həmişə boynunu qaşıyıb yerə baxdığı kimi, onda da boynunu qaşıya-qaşıya: “Ayna adında bir yetim gözəliniz var burda, onu mənə alsanız, daha hər gün birinizin qapınızda oturmaram”, – deyib və elə o günü Aynadan söz alıblar ki, “Get, ay qız. Belə insan yoxdur dünyada...”. Hələ o vaxtdan partiya özəyi katibi Cəfər Qaryağdı oğluna “Lüt Cəfər” deyirmişlər. “Aləmi bəzər, özü lüt gəzər” deyirmişlər və Cəfər əmi özü də bu lütlüyü ilə fəxr edirmiş. Şənbə əhvalatı “lüt” kəlməsinin mənası ilə birlikdə partkomun özünü də birdən-birə dəyişdirmişdi. Və Səməd gözünü açıb dünyaya baxanda o dilavər kişinin əvəzinə, tez-tez dili-dodağı əsən, susqun, sınıq, çoxuşaqlı bir adam görmüşdü. Yadında idi ki, Şənbə əhvalatından atası da çox pozulardı: “Cəfəri yox, Qudalılar partiya təşkilatını soyundurublar”, – deyərdi. “Cəfərin adı Lüt qalandan bəri elə bilirəm sağ əlimi kəsiblər, solaxay işləyirəm”, – deyərdi.

Müharibə başlananda Lüt Cəfər hamıdan əvvəl ərizə verib, “körpələrini sədr Mədədə tapşırıb” könüllü getdi, özünün dediyi kimi, “dörd qabırğasını qospitalda qoyub, dörd orden-medalnan qayıtdı”, əmma adı elə “Lüt” qaldı. İndi gündə bir aşxanada qarmon çala-çala, qarmonu kimi özü də köhnələn Şənbə ilə birgə Cəfərin “Lüt” adı da köhnəlib, camaat arasında saysız-hesabsız ləqəblərə qarışıb, daha bir o qədər söz-söhbətə səbəb olmasa da, həqiqət belə idi ki, bircə “lüt” kəlməsi

Qonaqlının partkomunu ömürlük ləkələmişdi. Bu “arşınmalçı” kəlməsi elə o “lüt”ü xatırlatmırdımı? Əgər Çax-çux Xalıq evlənmə əhvalatını da dildə-ağızda olan bir əhvalat kimi danışırdısa, belə çıxmırdımı ki, bu “arşınmalçı” da dildə-ağızda idi və indi haralardasa, kimlərsə Sultan əminin uca adı əvəzində, “arşınmalçı” deyirdilər?! Bundan da belə çıxmırdımı ki, “bezobraziye” doğrudan da fəaliyyətdə idi?! Qara məxmər üzün o cür qətiyyəti, dəyirmi fənər gözlərin o cür parıltısı da açıq-aydın göstərmirdimi ki, “zasekreçennıy” Çax-çux Xalıq yenə hamanca “KeQeBe Xudiyev” dəstəsinin – Gülənovun, Sayılovun, RİK Atamalının himayəsində idi, “həmişəki qaydadaca çax-çuxunu eləyə-eləyə” “çax-çux” altında hamanca işini – agentliyini davam etdirirdi? Belə olmasaydı, vaxtilə Sultan əminin qabağında diz çöküb, “Stalininə də qurban olum, teleqramına da” deyib hönkürtü ilə aman diləyən rəzil adam indi bu qədər cürətlə “hakimiyyətdən, hökmranlıqdan” danışardımı, Sultan Əmirlinin oğul əvəzi yetirməsinin gözünün içinə “hökmranlığı qurtarıb”, “axırı çatıb” deyə bilərdimi? Bütün bunlardan aydın deyildimi ki, metamorfozaya uğrayan Sultan əmi deyil, onun düşmənləri idi, səbəbi isə bu idi ki, “dörd ay bundan əvvəl, mayda olan işlə” – evlənmə əhvalatı ilə indi nə isə daha əsaslı ittihamnamə düzəltmişdilər? O “gözəl” doğrudan da “başqasının istəklisi” idisə, üstəlik, “özündən otuzca yaş kiçikdisə”, deməк, Sultan əminin adına ləkə yaxılmışdı?! Elə ləkə ki, Sultan Əmirlinin bu dəfə mütləq “yeşikdə qalacağına” dəstə üzvlərinin hamısını, o cümlədən Çax-çux Xalıqı da inandırmışdı? Elə bu inama görə deyildimi ki, Çax-çux, nəhayət, üzə çıxıb qorxusuz-hürküsüz danışmağa başlamışdı?! “Axırı çatıb?!”

Qatardan Səməd belə təlatümlü düşdü.

### 3

Ürəyinin çırpıntısı necə idisə, addımlarının sürəti də elə idi.

Vağzal meydançasından küçəyə çıxıb, şəhərin dəmiryolla paralel uzanan bu yeganə geniş küçəsində kazarmasayağı alçaq, boz binaların – rayon idarələrinin səkilərində dəstə-dəstə dayanmış çesuyça[27] kostyumlu, “səbət” şlyapalı adamlardan birinin də üzünə baxmayıb, tutqun qaşqabaqla, ağızucu salam verə-verə keçdi.

---

[27] *Ağ ipəksayağı parça* – kostyum, don – əllinci illərin kütləvi dəbi.

Heç kəslə görüşmək istəmirdi. Heç kəslə danışmaq istəmirdi. Bir rayonda ki, "bütün aktiv" Xudiyev dəstəsinin səsinə səs verib, ömürlərini mübarizələrdə keçirmiş kommunist qardaşları "əmir törəmələri", "şeyx qardaşları" adlandırıb, "sinfi mənsubiyyətinizi gizlədibsiniz", "xariclə əlaqəniz var, təhlükəli adamlarsınız" – demişdi, bir rayonda ki, hətta Stalinin teleqramından sonra da o dəstəyə meydan verilirdi və "bezobraziye" yenidən Sultan Əmirlinin üstünə ayaq alırdı, o rayonun hər axşam bu səkilərdə baş-başa verib saatlarla məxfi pıçıldaşan "fəalları" ilə görüşməyin bir mənası vardımı?

Təlimatçı işlədiyi illərdə Səməd bu adamları gah kəndlərdə – təhkim olunduqları təsərrüfat üstündə, gah iclaslarda, müşavirələrdə, gah da elə bu səkilərdə müşahidə eləyib, həmişə acı təəssüf hissi ilə görmüşdü ki, xüsusilə qırx səkkizinci ildə tutqular, sürgünlər başlananda bu adamlar "əsli o taydan olan" raykom katibi ilə üz-üzə gələr-gəlməz nə qədər quruyub-qapanırdılarsa, Gülənovla, Sayılovla və ya RİK Atamalı ilə rastlaşanda bir o qədər yumşalıb-açılışırdılar, – xüsusi hörmətlə qoşa əl uzadıb görüşüb hal-əhval tuturdular, toya-şana, xeyrə-şərə çağırıb yaxınlaşmağa, əlaqədə-ünsiyyətdə olmağa can atırdılar. Səməd əmindi ki, bu çesuyça geyimli adamlar indi Çax-çux Xalıqa da qoşa əl uzadırdılar, ondan "kitayski makintoş", "kitayski termos" və sair ala-ala, şübhəsiz, "şeyx törəməsi" Sultan Əmirli barədə yeni söz-söhbətlərə qulaq asıb, hər axşam bu səkilərdə bir-birinə ötürürdülər və yəqin ki, indinin özündə cərgələnib Sultan Əmirlinin qardaşı oğluna tamaşa eləyəndə də elə o barədə pıçıldaşırdılar. "Fəallar"ı Səməd belə tanıyırdı və Mədəd Əmirlini "güdaza verib" indi də o biri qardaşı güdaza verməyə hazırlaşan çesuyçalılara kinini heç də gizlətmək istəmirdi. Odur ki, düz keçdi.

Geridə – stansiyada parovozun qışqırtısı eşidildi. Vaqonlar dartınıb taraqqataraq saldı. Kazarmasayağı uzun, alçaq, boz binalar boyunca əks-səda – quru, sərt tıqqıltılar axıb uzaqlaşdı. Səməd hiss etdi ki, tüstü ilə dolu kupe qatardan üzülməkdə, ayrılmaqdadır. Çax-çux indi də "sirlə dolu sinəsi" ilə həyulaya çevrilib yaxınlaşır ki, sözünün axırında dediyi o müəmmalı sözləri təkrar etsin: O evə getmə... "O evə getmə..." Gəlib çatdığı, cəmisi yüz addım irəlidə o doğma evin üfüqdən rəng çəkib qırmızı çalan qızarttaq darvazasını gördüyü bir vaxtda nəinki dayanmaq, azacıq tərəddüd eləmək də Sultan Əmirlinin uca adını təhqir kimi bir şey olardı. Bütün sirlərin açarı o qızarttaq dəmir darvazanın arxasında, sərin, ətirli bağ içindəki ikimərtəbəli ağ daş evdə idi. Odur ki, raykomun alçaq,

boz binalardan kəskin seçilən qırmızı tuf daş binasının həyətində ikinci katib Əziz Mayılovla üçüncü katib Məleykə bacını görüb, salamlaşıb, keçən il rayonda təcrübədə olduğu aylardan indiyə qədər onlarla görüşmədiyinə baxmayaraq, bu əziz adamların yanında da dayanmadı.

* * *

Darvazanı açıb, çaylaq daşları ilə döşənmiş, kənarlarına qırmızı kərpic düzülmüş cığıra ayaq basar-basmaz, səbirsiz boylanıb, bağın dərinliyində fasadı ağaran evə baxanda isə elə bir aləm gördü və elə bir səs eşitdi ki, hətta tüstülü kupenin birdən-birə peyda olub cığırın üzərində havadan asılı qaldığına və Çax-çuxun indi daha ciddi xəbərdarlıqla "Getmə... Əvvəl Gülbəniznən görüşməlisən hökmən" dediyinə də əhəmiyyət vermədi.

Sıxlıqdan ağaclarının budaqları bir-birinə pərçimlənmiş bağdakı toranlığın arxasında, evin üst mərtəbəsində altı pəncərənin altısı da taybatay açıqdı. Soldakı tək pəncərənin dalında yataq otağının tünd qəhvəyi divarlarından başlamış, bina boyunca uzanan yetmiş kvadratmetrlik zalın – yemək otağının açıq qəhvəyi divarlarının künclərinə qədər, hər yer üfüqün parıltısına bürünmüşdü. O parıltının içində, raykomun qonaq evinin qarovulçusu və bufetçisi Seyid kişinin sarı samovarı buğ püskürürdü. Əmma Seyid kişinin arvadı Xeyrə arvadın əvəzinə indi orda – samovarın yanında qırmızı xalatlı, qırmızı qıymaçalı, zərif bir qadın dayanıb, bir ucunu çiyninə atdığı dəsmalla stəkan-nəlbəki silirdi.

Qıymat?! Yox, Qıymat deyildi.

"Saçının birini ağ, birini qara hörüb gözləyən" o uca qadın indi xeyli yaşlı olmalı idi, hörükləri də ağ olmalı idi. Bunun boyu alçaraqdı, hörükləri isə qara idi. Əmma bu da tanışdı, Qonaqlıların "durnaboğaz" dedikləri uzun boynu, aşağıya doğru meylli çiyinlərinin yatımı, ümumiyyətlə, duruşu-tərpənişi kimi isə, lap yaxın, hətta doğma adamı xatırladırdı. O qədər yaxın, o qədər doğma ki, elə bil Ayna bacı idi, "Lüt ərimi yemlədim, sizi də yemləyim", – deyə-deyə gəlib, kandarında çəmənotu və qazayağı bitən, tavanında qaranquşlar uçuşan mülkdə "rəhmətlik Suranın samovarını" qaynatmışdı, işləməkdən codlaşmış barmaqlarından təkcə çeçələ barmağına düşən üzüyü ilə stəkan-nəlbəkini çıqqıldada-çıqqıldada silib qurtarıb indicə sədr Mədədlə ərköyününü səsləyəcək, "Gəlin, a

yetimlər, çay hazırdı" – deyəcəydi. Ya da elə bil Gülbənizdi, Gülgəzi qabaqlayıb özünü içəri salmışdı, "Ayna bacının başı qarışıqdı bu gün, gələmmiyəcək". Bir də ki, bilirsən özüm gedəcəm nər Səmədimizə, a bacı, incimə! – deyib qımışıb, eşikdən boylanan bacılığına yanıq verə-verə, sədr Mədədlə dəliqanlısına qulluq eləyirdi.

Səmədin gördüyü adam bu idi – öz ata yurdundan, doğma kəndindən, məhrəm bir elqızı.

Eşitdiyi isə çox qəribə, qəfil, bəlkə də heç bir əsası olmayan gur sevinc və xoşbəxtlik səsi idi, öz içərisində birdəncə qaynamağa başlamışdı: Çax-çux da rədd olsun, KeQeBe Xudiyev-filan da, dəstəsi də, o dəstənin səsinə səs verən agent "fəallar" da! Sultan Əmirli evlənib, lap yaxşı eləyib! Əlinin içindən gəlib! Sultan Əmirli deyəndə, məgər daşdır, dəmirdir-nədir, Sultan Əmirli? İnsan deyilmi?! Sevə bilməzmi?! Təkliyin əzab-əziyyətlərini azmı çəkib, subaylığın məhrumiyyətlərini azmı görüb ki, bundan sonra da görsün?! Könlü azmı qubarlı olub ki, bundan sonra da olsun?! Yaşasın Sultan Əmirli ki, o tay-bu taylı vətən müsibətlərinin içində, bu qədər düşmən arasında özündə qüdrət tapıb, belə bir elqızı gətirib evinə! Bu elqızı Sultan əminin həyatını, şübhəsiz, tamam dəyişdirib, bundan sonra da dəyişdirəcək, ömrünü uzadacaq, düşməni xar edəcək!

Bəs "özündən otuzca yaş kiçik?!"[28] yəni lap cavanca qızcığaz?! Üstəlik, "başqasının istəklisi?!", "əcaib məsələ?!". Bu sözlərdə elə bir şey yoxdursa, tüstülü kupe yolu niyə kəsib? Qara həyula niyə belə təkidlə təkrar edir ki, "Əvvəl Gülbəniznən görüşməlisən hökmən?!"

Səməd bu barədə düşünmədi. Daha doğrusu, düşünmək istəmədi. Üfüqün parıltısından səhnə kimi işıqlanmış otaqda, buğ püskürən samovar yanında doğma, məhrəm elqızına bircə baxışdan kükrəmiş sevinci, xoşbəxtliyi ilə vurub kupeni dağıtdı, həyulanı "sirlə dolu sinəsi", qətran iyi, xofu-filanı ilə birgə qovub, illərin uzaqlığında qalmış "Dəli Səməd"in yerişini xatırladan zərbli addımlarla, dabanlarını cığırın çaylaq daşlarına döyəcləyə-döyəcləyə evə yönəldi.

Gözü yuxarıda – otaqda idi. Vaxtilə, təlimatçılıq illərində bu evdə gördüyü həyatı, məişəti indi daha aydın görürdü. O nə həyatdı, nə məişətdi ki, ad-sanı bütün ölkəyə yayılmış Sosialist Əməyi Qəhrəmanı Əmirli yoldaş gecə saat birdə, ikidə, bəzən hətta üçdə, dörddə evə qayı-

[28] Bu cür evlənmək əxlaq qaydalarını tapdalamaq, "nümunəvi sovet adamı", raykom katibi üçün isə böyük əxlaqsızlıq sayılırdı.

danda öz əli ilə kirəqaz yandırardı, üstəlik, "Bircə bala"dan dönə-dönə üzr istəyib, "Bağışla, səni yuxudan elədim, bir bax gör o səbətdə yumurta qalıbmı", – deyərdi! Yorğunluqdan, üzgünlükdən, qayğanağı nimçəyə boşaltmağa belə ərinib, birbaşa tavadan yeyib ayaqlarını sürüyə-sürüyə, zalın o başından dala açılan qapıdan öz köhnə, revkomun vaxtından qalma "revkom kabineti"nə keçən kimi divana döşənərdi və çox vaxt səhərə qədər elə orada döşəli qalardı. Səhər isə, əgər bazar açılana qədər qalxıb getməsəydi, Seyid kişinin bazardan gətirdiyi bir nəlbəki qaymaqdan üç-dörd qaşıq alıb, bir stəkan şirin çay içib, "Mən qaçdım, bala, sən otur arxayın ye", – deyərdi. Hətta nisbətən asudə günlərdə, nahara çıxmağa imkan tapanda da "qaçmağa" tələsdiyinə görə yenə kirəqaz yandırıb, yenə də "Bax gör o səbətdə yumurta qalıbmı?", – deyərdi. Əmi, qardaşoğlu gündə bəzən iki dəfə qayğanaq yeyərdilər. İş o yerə çatmışdı ki, Səməd yumurtadan diksinmişdi və yəqin ki, elə diksindiyinə görə, əlini səbətə atanda və ya qayğanaq ortalığa gələndə dərhal "yaiçnıy paraşok" alverçisini qarşısında görüb, "cəhənnəm kürəsinə" düşərdi. Əmma neyləmək olardı? Fədai əmi öz fədai odunda yana-yana Qıymatdan uzaqlaşdığı kimi, o da öz "kürəsində" yana-yana cığalı Gülgəzindən aralı düşməmişdimi? Hər dəfə Qonaqlıya gedəndə "Səbr elə, qaraçı gözəli, səbr elə", – deyib ürək sakitliyi, könül xoşluğu olmayınca hər cür məhrumiyyətə dözməyi vacib bilmirdimi? "Qaraçı gözəli"nin qaş-qabaq salladığını görəndə isə, zarafata başlardı: "Birdən elə ola bilməzmi ki, Demokratlarımıznan, əmimnən mən də o tayı azad eləməyə gedəndə səndən göyçəyinə rast gəldim, vuruldum, qaldım orda! Belə axmaqdan ötrü niyə çürüdürsən özünü? Çıx get ərə!" – deyib, Gülgəzi ağladıb, özü şaqqanaq çəkərdi.

Bu birinci dəfə idi ki, Səməd o yazıq zənənlərə və əmi ilə qardaşoğlunun həyatına, məişətinə ayrı cür baxırdı və hətta bir növ təəccüblənirdi ki, iyirminci ilin may ayından bu ilin mayına qədər, düz otuz dörd il ərzində o cür yaşayışa Sultan əmi necə dözmüşdü?! Axı məsələ heç də yalnız kirəqazda, qayğanaqda-filanda deyildi. Məsələ onda idi ki, Sultan əmi, ümumiyyətlə, çox gərgin yaşayırdı. Hətta yataq otağında "adam kimi" yatdığı gecələrdə də rahatlanmayıb, yuxunun içində elə ah-nalə çəkər, elə inildəyər, zarıyardı, deyərdin ətindən ət kəsirlər. Ayıq olduğu vaxtlar kimi, aydın tələffüzlə "Qırıb qurtaracaqlar milləti!..", "Sürəcəklər, ay oğul, büsbütün sürəcəklər, bircə bala!..", "Yurdumuza murdar millət dolduracaqlar, bircə bala!..", "O tay əldən

getdi, bu tay da getmirmi?!" – və sair qorxunc, vahiməli sözlər deyirdi. Tərslikdən, məhz orda – çarpayıda yarımoyaq yatdığı gecələr Bakıdan o Mirqəzəb zəng vurardı. Sultan əmi sərsəm atılıb telefona qaçanda hökmən ayağı yorğan üzünün cırığına keçərdi. Seyid kişinin arvadı Xeyrə arvadın həftədə cəmi bir dəfə sildiyi tozlu döşəmədə yorğanı dalınca sürüyüb aparıb, Mirqəzəblə danışandan sonra, o tozlu yorğanı çiyninə salıb, telefonun yanında oturardı, "Sən yat, yat. Yuxumu haram elədi yenə mənə Mirqəzəb!!" – deyib bəzən səhərə qədər elə orda hərəkətsiz qalardı. Səməd cınqırını da çıxarmayıb, əmisinin qara qalın qaşlarının o gecələrdə tədriclə çallaşıb pırpızlaşdığına, boz-ala gözlərinin necə heybətli qan çanağına döndüyünə tamaşa edərdi və təkcə "Mirqəzəb" kəlməsindən körüyə dönən köksü atlana-atlana, əmisinin canındakı alovu öz canında duyardı.

Bu alovun içində Sultan əmi evlənmək qərarına gəlmiş və evlənmişdisə, özü də belə bir yaxın, doğma, məhrəm elqızı gətirmişdisə, aydın deyilmi ki, saç-saqqalının ağ vaxtında heç də "dünyadan kam almaq" yox, otuz dörd illik gərgin mübarizələrdən sonra da "bezobraziye"yə qarşı barışmaz, ardıcıl mübarizəsini davam etdirmək üçün sağlamlığını, qüvvəsini, iradəsini saxlamaq məqsədi güdmüşdü?! Qurtardı daha! O həyatın, o məişətin bütün məhrumiyyətləri, əzab-əziyyətləri qurtardı! Elqızı samovarla məşğuldursa, demək Sultan əmi "revkom kabinetin"dədir, hamanca üstünə parusin çəkilmiş divanda dincəlir ki, qalxıb çay içəndən sonra raykoma gedib, öz əvvəlki iş rejimi ilə gecə saat birə, ikiyə qədər işləsin.

Səməd köksünü ötürdü. İlahi, o iş, o rejim üçün necə darıxmışdı! Gecə yarıda, bütün şəhərin sükuta batdığı, təkcə stansiyada parovozların nəfəs aldığı bir vaxtda, "rayonun döyünən ürəyi, düşünən beyni" adlanan o qırmızı tuf daş binanın çilçıraqları altında, qaraqabaq, yerəbaxan, "əfəl Məsim"lə, Əziz müəllim Mayılovla, Məleykə bacı ilə, fədai əmi ilə birgə yuxusuz qalmaq, öz evlərində başlarını atıb yatan adamlar üçün nə isə bir xeyirli iş gördüyünü bütün qəlbinlə duymaq necə xoşdur!.. Məleykə bacı – Məleykə Muradova tez-tez "Sultan Mamedoviçin çayını təzələyib", arada rusca qalın-qalın kitablar oxuyardı: "Voskresenye", "Anna Karenina", "Bratya Karamazovı", "İdiot". Sən də oxu, Səməd. Bunları oxu, gör Rusiya necə bədbəxtmiş, indi necə xoşbəxtdi!" – deyərdi. "Rusiya bizi də xoşbəxt eləyib, bax belə böyük mədəniyyət verib!" – deyərdi. Səmədin ürəyindən keçərdi ki, kaş əmisi elə bu "diapo-

zonlu xanım" adlandırdığı katibə ilə evlənəydi. Əmma Sultan əmi "diapozonlu xanım"la yola getmirdi: "Sabiri də oxu! Mirzə Ələkbər Sabiri! Sabun bişirən şairi!" – deyərdi. "Vaqifi də oxu! Vurğunu da oxu!" – deyərdi. Sonra birdən-birə məlum oldu ki, o "diapozonlu"nun gizlin əri var, o "gizlin ərin qardaşı "xalq düşməni çıxıb, güllələnib. Buna görə də kəbin kəsdirmirlər". Xəlvətdə, kabinetin küncündəki palma ağacının böyründə başını Sultan əminin çiyninə qoyub hıçqırardı: "Nolacaq axırımız, Sultan Mamedoviç?! O tay Farsın pəncəsində, Borçalı dəhşətli şovinist gürcülərin əlində, bu tay belə, Dağıstan elə!.. Mən Rusun bu həqiqətən nəhəng ədəbiyyatıynan təsəlli verirəm özümə, sən buna da tərs baxırsan! Ədəbiyyatçıyam mən, Sultan Mamedoviç! Mən çox gözəl bilirəm ki, Sabir nədi, – Nizamisi var bu millətin, Nəsrəddin Tusisi var! Füzulisi var! Bax, əslində elə buna görə heç cür dözəmmirəm ki, belə rəzil olmuşuq..." Çesuyçalıların arasına çıxanda isə mavi rəngli kişi kitelini kip düymələyib, qup-quru, rəsmi çinovnik qadına çevrilərdi. "Başqasının istəklisi?.." Bəlkə elə Məleykə bacı idi o qırmızı qıymacalı? Yox! Gör necə sarsılmışdı yazıq Səməd, – Məleykə bacı bir az bundan əvvəl raykomun qabağında qalmamışdımı?!. Qonaqlının ədəbiyyat müəllimi Ələskər müəllimin – "Dam direktor" ləqəbli o zərif kişinin qardaşı Qurban da "37-ci ilin qurbanı, yəni sürülənlərdəndi. Evindən "Övliyalar" kitabı tapılmışdı. Ələskər müəllim müharibə vaxtı Rusiyanın harasındansa "evokuasiya" edilmiş – köçürülmüş həmin, adı unudulmuş şəfqət bacısı Sestra ilə evlənmişdi ki, "rusnan qohumluğuna görə həsb olunmasın". Bədbəxt adamlarla dolu idi hər yer: son bir neçə ildə xəbər tutub Səməd bu işlərdən və "ərköyün sədr oğlu" ikən əzabkeşə çevrilib! Bədbəxtliklərdən necə bezib Səməd! Əmisinin yarıyuxulu iniltilərindən, "cəhənnəm kürəsindən" necə cana doyub! Bəsdir! Yazıq ata, bədbəxt ata, qanın batdı! O "zaklyuçeniye"nin, o "qəsd işi yoxdu" sözlərinin altında gizlənən açıq-aydın qəsd işini açmağa oğluyun nə imkanı var, nə də qabiliyyəti. Oğlun "cəhənnəm kürəsindən" çıxmaq istəyir, yaşamaq, işləmək, sevinmək, sevindirmək istəyir!.. Bu evdə ailə qurulub. Doğrudanmı bu evdən də çağa səsi gələcək?! O çal, pırpız qaşların altında o cür heybətli qan çanağına dönən gözlər də güləcək?! Qardaşoğluna "Bircə bala" deyən Sultan Əmirli də "mənim balam" deyəcək?! Nə vaxt ola bilər bu iş? Lap tezliklə?! Beş-altı aydan, bircə ildən sonra?! Oğlu olsa adı nə? Mədəd?! Əla!.. Qızı olsa adı Sura! Xoşbəxtlikdən başına hava gələr adamın!

Daş cığırın qurtarıb qalın, əkmə çayırlığın başlandığı yerdə, həyətin genişliyində Səməd bir daha yuxarı baxdı və elqızını bu dəfə beridə – pilləkəndə görüb istər-istəməz ayaq saxladı. Elqızı onu tanımışdı? Qarşılamağa gəlirdi? Yox, deyəsən elə deyildi.

Üfüqün parıltısı çəkilmişdi. Evlə bağın arasında toran qatılaşıb, demək olar ki, əməlli-başlı qaranlıq çökmüşdü. Elqızı həyətin ortasında dayanmış əli çamadanlı adamı deyəsən heç görməyib, pilləkəndən düşən kimi sola buruldu. İndi qaramtıla çalan uzun xalatının ətəkləri yellənə-yellənə, evdən on-on iki addım o yanda, tut ağacının altındakı dəyirmi stola tərəf getdi. Orda, dəyirmi stolla köhnə qarğı kresloların yanında, kərpic yığınının üstündə manqal qızarırdı.

Elqızı tutun dövrəsində, stolun ətrafında hərlənib-fırlandı, manqalın hənirindən titrəşən yarpaqların altına qayıdanda bir əlində maşa, o biri əlində hərəsinə bir-iki yağlı qabırğa çəkilmiş dəmir şişlər peyda oldu. Maşa ilə odu yayıb, şişləri manqala düzdü. Sonra tutun haçasından qalayı ağaran böyük bir sini endirib, su kranını açdı, gur şırıltılı suyun altında sinini yuyub, bayaqdan çiynində ağaran çay dəsmalı ilə qurulayıb, stolun küncünə qoydu. Sonra hardansa bir yığın yuxa gətirdi, yuxalara su çiləyib, bircə-bircə siniyə yığıb, çay dəsmalı ilə örtdü və cəld dönüb, manqalın yanında çöməlib, şişləri çevirməyə başladı.

Səməd yaxınlaşıb on addımlıqda dayanmışdı. Başını azca yana əyib, elə dolu ürəklə, elə aludə gözlərlə tamaşa eləyirdi ki, elə bil ömründə nə belə səliqə-səhmanlı gəlin görmüşdü, nə də belə səriştə ilə hazırlanan xörək-çörək. Bir azdan o yuxalar piləyə dönəcək. Elqızı bu bütöv, şirə ilə dolu qabırğaları birbaş yuxanın arasına çəkib bükəcək, qaynar-qaynar aparıb süfrədə açanda kababın buğu tavana vuracaq. Yaşa, əmi, o müsibətlərin hayıfını çıx!

Sevincdən, riqqətdən Səmədin hətta gözləri doldu. Bu, övlad sevinci idi. Bəlkə lap uşaq sevinci idi. Eynilə, körpə uşaq görəndə yanaqları uzunu damlalar süzülən o “diapozonlu xanım” kimi, göz yaşı axıtmağa hazırdı. Yəqin elə buna görə də Səməd bu “göz yaşı zəifliyindən yaxa qurtarmaq”, lap uşaq kimi, bir oyun açmaq istəyib fikirləşdi ki, səsini çıxarmasın, özünü göstərməsin, elqızı yuxalı, kabablı sinini aparıb süfrəyə qoyandan sonra birdən qapıdan girib başlasın ki, “Çoxdandı qayğanaq yeməmişəm, əmi. O yumurta səbəti hardadı?” Əmisinin bu zarafatdan necə şaqqıldayıb güləcəyini, “Bircə bala”nın belə gümrah

gəlişindən necə fərəhlənəcəyini indidən görüb, qərara aldı ki, elə-belə də eləsin.

Əmma həyatı Səmədlə başqa oyun oynayırdı.

Tut ağacına doğru uzadılıb altına dəmir yol relslərindən dirəklər vurulmuş eyvana işıq zolağı düşdü, o zolaqdan bəriyə, tutun topa tacına doğru kölgə uzanıb çəkildi, sonra Sultan əminin hamanca yorğun, cod səsi eşidildi:

– Nə uzun çəkdi sənin bu kababın! Getməliyəm axı mən!

Hamanca yorğunluq! Hamanca gərginlik! Hamanca Sultan Əmirli!

Səməd buna inanmadı. Daha doğrusu, inanmaq istəmədi.

Eyvandan kabinetə qayıdanda Sultan əmi qapını çırpdı. Özü də elə çırpdı ki, bütün evdə pəncərələr cingildədi. Səməd isə, bu aşkar əsəbiliyə də inanmaq istəmədi. Əmisinin sevincində sevinc, xoşbəxtliyində xoşbəxtlik tapmaq, ötən illərin əzablarından birdəfəlik qurtarmaq arzusu necə güclü idisə, hətta qapı çırpılandan sonra elqızının birdən-birə qəmli göründüyünə də əhəmiyyət vermədi, evin gəlininə xəlvətdən tamaşa eləmək nə qədər xoş olsa da, əmisi tələsdiyinə görə o da tələsib, nəhayət, yaxınlaşıb "salam" verdi və atası ilə əmisindən götürdüyü cənub ləhcəsilə: – Salam verdim, salam almaz, belə olmaz, belə olmaz, – deyib güldü. – Salam, elqızı!.. Axşamın xeyir, gəlin bacı! Sən bu evə xoş gəlmisən! Səfa gətirmisən!

Hesabla, "gəlin bacı", "doğma məhrəm elqızı" Qonaqlıda uşaqdan böyüyə, qarıya, qocaya qədər hamının tanıdığı bu sinədən gələn qalınaraq səsi dərhal tanımalı idi, Qudalı məhləsinin adamlarından başqa bütün kəndin ərköyünü, istəklisi "Dəli Səmədin", "iki qardaşın bircə balası", "Əmirli yeniyetməsi"nin qayıdıb gəlməyindən sevinib boynuna sarılmalı idi, o doğma elin bütün elqızları kimi mehriban, açıq, səmimi ürəklə o üz-bu üzündən, alnından öpməli idi, öz növbəsində "xoş gəlibsən, səfa gətiribsən" deyib, bəlkə iş-gücünü atıb, ərini də sevindirmək üçün evə yüyürməli və ya elə burdan qışqırıb, "Muştuluq, Səməd gəldi" – deməli idi. Səmədin ürəyindən keçən bu idi və hesabla, elə belə də olmalı idi. Əmma elqızı nəinki sevinmədi və boynuna sarılmadı, heç başını da qaldırmayıb, üzünə də baxmayıb, duruxub qaldı. Bu çox təəccüblü idi.

Qabırğaların yağı əriyib cızhacız töküldükcə ordan-burdan gur alov dilləri püskürüb, əti qarsalayıb korlayırdı. Bayaq alov püskürdükcə elqızı şişləri tezcə kənara çəkirdi, alov yapıxıb sönəndə yenidən yaxınlaşdırıb

böyür-böyürə söykəyirdi. İndi isə heç əlini də tərpətmirdi. Qarşısında xoşagəlməz naməhrəm dayanmış kimi, başını endirib, elə bil hətta manqalı da unudub, qəribə gərgin, hərəkətsiz qalıb, naməhrəmin rədd olub getməsini gözləyirdi.

Səməd canında sıxıntı duydu. Hamanca xofun köksünü tutub yavaş-yavaş boğazına, xirtdəyinə yığıldığını, nəfəsinin daralmağa başladığını hiss etdi və əmisinin qismətinin göz qabağındaca yanıb qismətdən çıxdığına baxmayaraq, o da duruxub qaldı.

Elqızı anbaan uzaqlaşıb yadlaşsa da, bu qadının doğmalığını, əzizliyini Səməd indi daha aydın görürdü. Sadəcə elqızı yox, bu qadın Səmədin ürəyinin parçası idi. Elə ürək parçası ki, nəinki boyun-boğazının, çiyinlərinin yatımından, onu hətta qıymaçanın altından sallanan cığalarından da tanıya bilərdi və tanımışdı. Əmma gözünün gördüyünü beyni görmürdü, ağlı kəsmirdi.

Öz səsi əvəzində Səməd elə bil kənardan xırıltı eşitdi:

– Sən kimsən?! Niyə üzümə baxmırsan?!

Bu xırıltı insan səsinə bənzəmirdi.

Elqızı bu xırıltıdan diksindi. Səmədin o bayaqkı gümrah, şən səsindən tutulmuşdu, indi isə diksinib titrəməyə başladı və elə titrəyə-titrəyə ayağa qalxdı. Alovun işığında qorxudan böyümüş gözləri parıldadı.

Səmədin çamadanı əlindən düşdü.

– Gülgəz!..

Daha heç nə deyə bilmədi.

* * *

Əslində, Səməd onu hələ bayaq darvazadan evə baxandaca tanımışdı. Əmma Gülgəzi Sultan əminin evində görmək başqa planetin adamını Yerdə görmək kimi bir şey idi. Buna görə də Səməd onu hansı əlamətləriləsə Qıymatı, Ayna bacını, Gülbənizi, hətta Məleykə bacını yada salan mücərrəd bir elqızına oxşatmışdı. İndi üçaddımlıqdan üzünə baxan "qaraçı gözəli"ni isə heç kəsə oxşatmaq mümkün deyildi.

Onların arasında qıpqırmızı alov fışıldayırda. Yağla, ətlə birgə alışmış közdən qəribə – mavi tüstü qalxıb tutun budaqlarını çulğalayırdı, durğun, bürkülü havada yayılıb enib bütün bağı götürürdü.

Yanan Sultan əminin qisməti idi, Səməd isə Gülgəzi alov içində görürdü və beynində Çax-çuxun sözləri səslənirdi: "Əcaib məsələ!.. Əcaib məsələ!..", "Getmə o evə!.. Getmə o evə!.."

Alov gödəldi, yatdı. Qatı tüstü və yanıq iyi qaldı.

Gülgəz həmin yerdə, həmin qorxu içində, hələ də titrəyirdi. Əmma Səməd daha onu görmürdü. Tüstünün içində indi Çax-çux dayanıb, gümüşlü trubkasını tüstülədə-tüstülədə təkrar edirdi: "Getmə o evə!.. Getmə o evə!.."

Bu səsin arasında yenə qapı çırpıldı, yenə pəncərələr cingildədi. Həyətə enən taxta pillələrdə, sonra daş cığırda çəkmələr cırıldadı – Sultan əmi getdi. Sonra hardasa, deyəsən bağın hasarının dalında, raykomun qonaq evi səmtində Seyid kişi hay-küy saldı:

– Bu nə tüstüdü, a başına dönüm, bu nə iy-qoxudu belə?!

Hay-küy hasarın dalından bu üzə – bağa keçdi, yaxınlaşıb bəridə – həyətdə kəsildi. Tüstüdən qatılaşmış qaranlıqda Çin fənərinin mil işığı uzanıb manqalın dövrəsində, dəyirmi stolun, qarğı kresloların üzərində gəzdi, qalxıb, nəhayət, tutun budaqlarının altında dayandı. Orda Səməd yenə Gülgəzi gördü, Gülgəz də Səmədi gördü.

Seyid kişi fənəri döşü bərabərində tutub, asta-asta, addım-addım yaxınlaşırdı. Fənərin arxasında boyunun hədsiz uzunluğundan əyilmiş donqabel qaraltısı qaralırdı, qırxıq ağ başı ağarırdı. Səməd hər şeyi görürdü, hətta maxorkadan tutulmuş batıq sinənin yaxınlaşdıqca necə xışıldadığını eşidirdi, əmma buna nə görmək demək olardı, nə də eşitmək. Çünki dünyada Səməd üçün indi Gülgəzdən başqa heç kəs və heç nə yoxdu. Seyid kişini ancaq ona görə görürdü ki, bu kişinin hədsiz uzunluğu Gülgəzin atası Məmiş Əlləzoğlunun bircə metrlik boyunu xatırladırdı; maxorkadan tutulmuş sinənin astmatik-sinəgir xışıltısını isə ona görə eşidirdi ki, bu xışıltı vaxtilə Qonaqlının qəlyanlı qocalarından qəlyan çəkmək öyrənib indi gecələr yorğan-döşəkdə də qəlyanı damağından qoymayan Əlləzoğlunun sinəsinin xışıltısını xatırladırdı.

Bir vaxt vardı, çöldən evinə qayıdanda Əlləzoğlu hər axşam çiynində bir yaba qaratikan gətirib, il boyu çəpərini qalınlaşdırmağa çalışırdı, odur ki, həyət-bacasına həmişə sarı-qızılı iynəsayağı uzun-uzun tikan səpələnərdi. Günün nə vaxtı o tərəfə getsəydin, görərdin ki, bapbalaca, ayaqyalın, başıaçıq "Qaraçı gözəli" yerdə oturub, ayaqlarına dolmuş tikanları dırnaqları ilə dartışdıra-dartışdıra, yanaqları uzunu iri-iri damlalar axıdır. Elə o balacalıqda, başı qızıl əsgər papaqlı, ayaqları "əmi-

sinin çəkməsi kimi" qara xrom çəkməli sədr oğlu da quru yerdə oturub, "Qaraçı gözəli"nin ayağını dizinin üstünə qoyardı, "Mənim dişim siçan dişidi", – deyib ağzını o qarayanıq, toz-torpaqlı ayağa söykəyib, tikanları dilinin ucu ilə yaşlaya-yaşlaya bircə-bircə çıxarıb tüpürərdi: "Bu bir... bu iki... bu üç..." – on-on beş, bəzən iyirmi tikan çıxardardı və bu işdən usanmazdı. Çünki o bu işə başlayanda "Qaraçı gözəli" dərhal hıçqırtısını kəsərdi, başını azca yana əyib, ayaqlarından çiyrinməyən sədr oğluna mat-mat tamaşa edərdi... Sonralar Cığalı Gülgəzlə bir yerdə oturandı "Dəli Səməd" o balaca "Qaraçı gözəli"nin təqlidini çıxarmaq üçün başını yana əyərdi. "Avariya" gününə qədər belə idi. "Avariya" günü Səməd üzünü şeyx əmilərinin qəbirlərinin şəkillərinə söykəyib yatıb daha oyanmayan "Dəli Səməd"lə birgə "Qaraçı gözəli"lə vidalaşmışdı və bilmirdi ki, o balaca gözəlin təqlidini çıxara-çıxara özü də vərdişkar olub, kiməsə, nəyəsə tamaşa edəndə hökmən başını yana əyirdi. Bilmirdi ki, indicə fənərin işığı üzünə düşəndə də eynilə təqlid çıxaran "Dəli Səməd" kimi baxırdı və Gülgəz də elə bu baxışdan birdən-birə dəyişib, hamanca, ayaqları tikanlı qızcığaz kimi, yanaqları uzunu iri-iri damlalar axıtmağa başlamışdı.

Özündən xəbərsiz Səməd indi ancaq o göz yaşlarını görürdü.

– Mən inanmıram... İnana bilmirəm, Gülgəz. Dedilər, əmim başqasının istəklisini gətirib... arvad eləyib özünə... Ürəyimə nəsə damdı... Kim inanar belə şeyə?!

Bu sözləri ürəyindəmi deyirdi, dilindənmi? Nə fərqi vardı? Nə dediyini və nə üçün dediyini Səməd özü bir o qədər anlamadığı kimi, Gülgəz də bir şey anlayana oxşamırdı, yəqin buna görə də Səməd ondan heç nə soruşmurdu, izahat tələb eləmirdi.

Seyid kişi duruxa-duruxa, addım-addım gəlib dayandı. Bu evdə, bu ailədə baş verən hadisə lap ilk gündən ona məlum idi. "Başqasının istəklisi"ni məhz kimin istəklisi olduğunu Seyid kişi yaxşı bilirdi, odur ki, Səmədi tanıyar-tanımaz hay-küyünü kəsib, səsini içinə salmışdı və yaxına gəlsə də, nə isə demək-danışmaq fikrində deyildi. Arvadı Xeyrə arvad bağın hasarından o yana – qonaq evinin həyətinə açılan qapının arasında əli çıraqlı durub, dönə-dönə "Nədi, a kişi? Bir şey yoxdusa, mən gedim" desə də, kişi burda dillənməyi də münasib saymırdı. Əmma cavanların üzlərinə baxanda dözmədi, xışıldayıb-xırıldadı:

– Dağıl, ay dünya! – dedi.

– Niyə uçmursan, niyə dağılmırsan, ay dünya?! – dedi.

Özü də elə dedi ki, əgər dünya insan sözündən təsirlənə bilən bir şey olsaydı, "beş oğlunun beşi də müharibədə qalandan maxorkaya dəm verən" bu xışıltılı kişinin naləsindən sonra nə isə baş verməli idi.

Əlbəttə heç nə baş vermədi. Təkcə Xeyrə arvad bayaqkı laqeydliyinin əksinə, narahat olub irəli yeridi.

– Nədi axı yanan? Evdə bir şey dəymir gözümə, – dedi.

Bir də Seyid kişi özü doluxsundu.

– Şey-mey deyil... İnsandı yanan, arvad. İki novrəstə cavandı yanan. Bədbəxt Sultanımızdı yanan! – dedi.

Yalnız bu sözlərdən sonra Səməd uzun müddət nəfəssiz, şüursuz qalıb ayılan adam kimi dərindən nəfəs aldı.

– Necə, necə olub bu?! Sən necə gəlib çıxmısan bu evə?!

Bu ilk sualdan sonra beynində sual suala calandı. Qardaşoğlunun istəklisi əminin evində arvad?! Düşmən işi, düşmən qurğusudursa, bu necə qurğudur?! Gülgəzin dili yoxdumu, Sultan əmiyə deyə bilməzdimi kimdir, kimin istəklisidir?!. Belə çıxır ki, Gülgəz susmuşdu?! Niyə?! Nə isə, kim isə məcbur eləmişdi ki, sussun?!. Bəs kənd?! O boyda kənddə bir adam tapılmazdımı ki, bu "bir dənə gözələ" "Bircə bala"nın münasibəti barədə söz çatdırsın, işarə vursun? Bircə kəlmə, bircə işarə kifayət deyildimi ki, bu bədbəxtlik olmayaydı? Deməli, kənd də susmuşdu?! Cəfər əmi, Ayna bacı da, Gülbəniz də susmuşdu?! Əlləzoğlu özü də, Hənifə arvad da?! Niyə?!

Saysız-hesabsız sualları necə yağdırdığını, nəyi soruşub, nəyi soruşmadığını Səməd özü də bilmədi.

Cavab əvəzinə ancaq hönkürtü eşidirdi.

Gülgəz əllərini üzünə basıb hönkürtüsünü boğdu, dözülməz ağrı çəkən xəstə kimi sızıltı ilə əyilib yerə çökdü və daha qalxmadı.

Səməd də əyilib donqarlandı və daha heç nə soruşmadı.

Dərdli qoca düz deyirdi: yanan insandı. Bu evdə həyatı, məişəti dəyişdirib, yorğun, gərgin raykom katibini xoşbəxtliyə çıxaran o doğma, məhrəm elqızı və evdən yenə ac gedən Sultan əminin qisməti ilə birgə Gülgəz də yanıb tüstüyə çevrilmişdi. Bu sızıldayan, göynəyən Gülgəzin ancaq adı Gülgəzdi, özü "başqasının istəklisi" idi... Qara həyula düz deyirmiş: Səməd bu evə gəlməməli idi, "ömründə görmədiyi şeyləri" görməməli, "ömründə eşitmədiyi sözləri" eşitməməli idi, "bir dəfə sınandan sonra bir də sınmamalı" idi. O "sirlə dolu sinə" doğrudan da sirlə

doludur. İndi daha aydın görünür və təsdiq olunur ki, çoxbilən adam bildiyinin bəlkə heç mində birini də deməyib; "ömründə görmədiyi şeyləri" Səməd hələ bundan sonra görəcək, "ömründə eşitmədiyi sözləri" hələ bundan sonra eşidəcək.

Əli çıraqlı arvad da gəldi, "bıyy" eləyib heyrətlə içini çəkdi.

Seyid kişi arvadına nə isə pıçıldadı, xışıldayıb-xırıldadı:

– Yeri, yeri! – dedi.

Özü isə fənər əlində, necə dayanmışdısa, eləcə qalıb tərpənmədi. Səmədə elə gəldi ki, kişi fənəri ancaq sarsıldığına görə yox, həm də ona görə belə tutub durub ki, bədbəxt "novrəstə cavan" istəklisinə son dəfə baxsın, vidalaşsın, çıxıb getsin və bir də bu tərəflərə ayaq basmasın. Başqa cür necə ola bilərdi? Əlbəttə, çıxıb getməli idi. Xeyrə arvadın o cür "bıyy" eləməyindəncə məlumdu ki, Səmədin bu həyətdə görünməyinin özü də yaxşı deyildi, əmisinin arvadına belə baxmağı isə bəlkə, hətta qəbahətdi.

Əmma Səməd baxmaya bilmirdi.

Əlləzoğlunun yaba ilə döyəcləyib, yapıxdırıb çəpərə qaldırdığı qaratikanlardan tökülüb, yağışlardan sonra da korşalmaq, çürümək bilməyib üst-üstə yığılan sarı-qızılı tikanlardan elə bir gül bitmişdi ki, o gülün ətrini duyandan sonra "Dəli Səməd" kəndə sığışmayıb, sinəsi, başı açıq, özünü yelə verə-verə düzlərə düşərdi və bu vaxt bədənində qeyri-adi qüvvət, zehnində qeyri-adi itilik, gözlərində qeyri-adi işıq hiss edərdi. Qəsdən soruşmuşdu, öyrənmişdi ki, bütün Qonaqlıda, bütün Tahirlidə və bütün Qurbanlıda, yəni sovetliyin üç para kəndinin üçündə də cavanlar qaratikan kolunun da vaxtı çatanda gül açdığından xəbərsizdilər. "Sədr oğlunun" sualından təəccüblənərdilər: "Qaratikan hara, gül hara?!" Qıllı Qeybalı isə, şaqqanaq çəkib, sonra kinli-kinli fısıldayardı: "Biyabanda qaratikan da tabedi sədr oğluna, əmr eliyəndə gül bitirir", – deyərdi və hətta "sədr oğlunun" cibindən çıxarıb ovcunda göstərdiyi xırda-xırda, sarı-qızılı ləçəkləri öz gözləri ilə görəndə də inanmazdı: "Güldümü ki bu?!" – deyərdi. Belə çıxırdı ki, çəpərə vurulmaqdan və təndirdə odunun altına yalonqu kimi qoyulmaqdan başqa heç nəyə yaramayan qaratikan kolunda Qəlyanlı qocaların "axça" dedikləri qədim qızıl pulsayağı sarı-qızılı ləçəklər bitdiyini təkcə "Dəli Səməd" görmüşdü. Başqa güllərin ləçəklərinə bənzəməyən o qalın ləçəklərin meyvə-bar kimi uzun müddət kolda qalıb getdikcə zərifləşdiyini, soğulub yüngülləşdiyini və payızla qış arasında güclü küləklər əsməyə başlayanda kollardan kəpənək kimi uçub çöllərə yayıldığını da təkcə "Dəli Səməd" görmüşdü. Hər

ləçəyin ortasında tək bir dənə barama toxumuna oxşayan, dəftər vərəqində qara nöqtə kimi xırdaca toxum gizləndiyini, o toxumun ən quru-quraq çöllərdə aylarla xarab olmayıb nə vaxtsa yağış yağanda, ləçəklə birlikdə torpağa yapışıb cücərdiyini də, həmin quru çöllərdə qaratikan kollarının o sap kimi nazik cücərtilərdən qalxdığını da təkcə "Dəli Səməd" görmüşdü və gördüklərini Qəlyanlı qocalara danışıb, "yerin altını-üstünü bilən" qəlyanlılardan "yaşı bilinməyən "Xızr Abı" ilə yaşının çoxluğuna görə və özünün dediyi kimi, "zəmanə ilə düz gətirmədiyinə görə" "Çürük" adlanan Çürük Aşıqdan öyrənmişdi ki, "Qaratikan heç yerdə tək-tək bitməz, gur bitər", buna görə də Qaratikan – "Gurtikən" deməkdir... Bir vaxt varmış, indiki Qonaqlı meşəsindən, Sudüşən çəmənindən, əkinlərdən, otlaqlardan əsər-əlamət də yoxmuş, quru-qaysaq çöllərmiş, boş-boşanaq düzlərmiş. Gecə-gündüz yel əsərmiş, tozanaq qalxarmış. Elə tozanaq ki, göyün üzünü tutarmış, gecə ilə gündüzün fərqi bilinməzmiş. Haman tozanağın içində bu yerə hardansa Qaratikan toxumları düşüb, bu meşənin yerində əvvəlcə kom-kom Qaratikan bitib, artıb çoxalıb, qaratikanların dibində, ara-bərəsində ot-ələf, kol-kos bitib və bu aralara dolan toxumlardan Qaraağac şivləri əmələ gəlib, sonra da "bu gördüyün meşə, sel-su, əkin-tikin...". "Yel toxum gətirər, meşə bitirər", – deyirdilər. "Meşə su götürər, su verər, çay axıdar" – deyirdilər. Belə-belə şeylər danışmaqdan nə Çürük Aşıq usanardı, nə də Xızr Abı. Və Səməd yaxşı bilirdi ki, qocalar hər şeyi ona – Səmədə eşitdirmək üçün danışardılar. Buna görə də bütün kənddə təkcə "Dəli Səməd" görmüşdü ki, Qaraağac da "Gurağacdır", çünki bu da "axça" – "qızıl" bitirir, yazın orta ayında isti yellər əsəndə Qaraağacın sarı-qızılı ləçəkləri də kəpənək kimi uçuşub çöllərə yayılır. Əmma bu ləçəklər çox tabsızdır, quru yerlərdə tezcə ölüşgəyir, buna görə də lap yüngül yaranıb ki, çölə düşəndə az-maz mehdən də yenidən qanadlanıb gedib Qaratikanı tapsın, vaxtı yetişəndə o Gurtikənliklərdə də meşə əmələ gəlsin, sel-su, əkin-tikinti olsun.

"Dəli Səməd" belə şeylər görüb, gördüklərinin sevincindən demək olar ki, hər "həftə sonu" adlanan qısa dərs gününün axırında sinif yoldaşları Xızr Abı ilə Çürükdən saz, söz öyrənməyə gedəndə "Dəli Səməd" Ortayolda qalardı, gur, dalğalı saçlarını dalğalandıra-dalğalandıra, yolla o baş-bu başa addımlaya-addımlaya, bütün kəndə səs salardı: "Ey Qıllı! Korsunuz hamınız!" – deyərdi. "Sizin aranızda bir mən bilirəm

nə var-nə yox bu dünyada!” – deyərdi. Danışmaqdan, qaynamaqdan yorulanda isə, yenə gülünün ətrini arzulayardı.

Əgər o vaxtlar o gülə qəsd eləmək, o sehrli ətri yanıq iyinə çevirmək niyyətinə düşən olsaydı, “Dəli Səməd”də, şübhəsiz, kiməsə xətər yetirmədən, hardasa nəyisə uçurub dağıtmadan, yandırmadan sakitlik tapa bilməzdi. İndi, Gülgəzin yanıb tüstüyə çevrildiyini bütün aydınlığı ilə gördüyü, yanıq iyini bütün kəskinliyi ilə duyduğu dəqiqələrdə isə Səməd ümidsizliyin son həddində dərd yükünün ağırlığından başqa heç nə hiss eləmirdi.

Yenə nə isə soruşmaq istəyirdi, soruşa bilmirdi.

Dönüb getmək istəyirdi, gedə bilmirdi.

Ovcuna nə isə soyuq, sürüşkən şey toxundu. Diksinmədən, ürpənmədən baxdı: çamadanının qulpu idi; Xeyrə arvad birdən böyründə peyda olub, biləyindən yapışıb silkələyirdi ki, çamadanını alsın.

Ərinin əksinə, arvad elə sərtdi ki, elə bil onu cinayət üstündə tutmuşdu.

– Söz-gap yerdən-göydən çıxıb. Sən də gəlib durubsan burda dirək təki!.. Nə baxırsan, ay oğul?! İşdi, olub də!.. Neçə kərə çalışıb özünə qəsd eləsin bu yazıq gəlin. Bir dəfə nöyüt qabını almışam əlindən. Başına tökürdü... Bir dəfə də paravozun qabağından itələyib çıxartmışam. Günahı yoxdu bunun. Yoxdu! Əmin də günahsızdı. Görüş özünnən. Görüş! İndi yox... Yara təzədi hələ. Çıx get burdan. Elə qaranlıqlı get ha, gözə görükmə!..

Arvad onun barmaqlarını çamadanın qulpunun altında qatlayıb, hətta qolundan çəkdi. Səməd bu kobud qadının iradəsinə tabe oldu, əmisinin arvadına daha ötəri baxmağa da cəsarət eləməyib, nəhayət, ayağını yerdən üzdü, başını qaldırmadan, ağır-ağır aralandı.

* * *

Hara gedirdi? Nə üçün gedirdi?

Baş verən hadisənin özü də, ürək də, ağıl da deyirdi ki, Gülgəzdən həmişəlik ayrılıb. Gülgəzlə birgə “Gürtikənli”, “Gurağaclı” dünyadan da, o sevinclərdən, fərəhlərdən də həmişəlik ayrılıb. Dünya indi yanıq iyindən və tüstüdən ibarətdir. Başqalarına “kor” deyən Səməd özü indi kor olub, bu tüstünün içində hətta əmisini də görmür. Bundan sonra Sultan əmi ilə nəinki bir evdə, bir süfrə başında oturmayacaqlar, yəqin ki,

heç üz-üzə də gəlməyəcəklər, bir vaxtkı kimi, rayonun işlərindən, şeyx əmilərin elmi fəaliyyətini davam etdirən "Batin-gizlin", "AdıPünhan" Ağların, yəni Ağ Əmir kimi SafAğların, "Muğ"ların Sibirə, Qazaxıstana sürülüb, itib-batmağından, Cənubda şah zülmündən – savadsızlıqdan, aclıqdan danışıb dərdləşməyəcəklər. İndi tamamilə aydındır ki, Sultan Əmirli də "ölüb, stolun dalında qaraltısı qalıb". O qaraltının isə "axırı çatıb", tezliklə doğrudan da "yeşikdə qalacaq", "hakimiyyəti qurtaracaq". O vaxt Xudiyev dəstəsi ilə birgə fəallar da qorxusuz-qadağasız olub daha o səkilərdə pıçıldaşa-pıçıldaşa "konfrans"-filan gözləməyə də ehtiyac duymadan, hər gün, hər saat Gülənovun, Sayılovun, RİK Atamalının səslərinə səs verəcəklər, beləliklə, qırmızı tuf daş binadakı kabinetlərdən başlamış, o kazarmasayağı binalara, kolxoz və sovxozlara qədər, hər yerdə – ancaq "bezobraziye"nin KeQeBe kadrları əyləşib, "bezobraziye"nin əmrlərinə "baş üstə", "göz üstə" deyəcəklər, Səməd isə, bütöv bir rayonda hamıya, hər şeyə nifrətdən, qəzəbdən boğula-boğula, tək-tənha qalıb, bu mühitdən baş götürüb qaçmağa, doğma yurddan, doğma torpaqdan da həmişəlik ayrılmağa məcbur olacaq.

Belə bir aqibəti görə-görə hara gedir, nə üçün gedir? "Bezobraziye" kadrları arasında perspektivsiz yaşamağa dəyərmi? Ümumiyyətlə, yaşamaq mümkündürmü? Yaxşı olmazmı ki, bu saat burdan cumub bu şəhərdə az-çox hörmət elədiyi adamlar arasında, "Dəli Səməd"in köhnə dostlarından "pyanska Yusifi" "pyanskaların" daimi məskənində – dəmiryol restoranında tapsın, iki il bundan əvvəl Bakıya yola düşəndə anasının sandıqçasından götürdüyü və birini də xərclədiyi qədim "axça"lardan birini ofisiant Qayım Qudalının üstünə atsın, "Bufeti köçürt bu stolun üstünə!" – deyib, Yusifin muğamlarına, təsniflərinə, bayatılarına qulaq asa-asa nə ki var "vursun", sonra da stansiyanın ucqar, qaranlıq bir yerində başını relsin üstünə qoysun. "Pyanıska"nın o gözəl, köyrək səsi qulaqlarında cingildəyə-cingildəyə, bu yanıq iyindən, bu tüstüdən, Sultansız, Gülgəzsiz dünyadan birdəfəlik yaxa qurtarmaqdan yaxşı nə ola bilər?!

Darvazaya qədər Səməd belə getdi. Sultansız, Gülgəzsiz, perspektivsiz dünyadan yaxa qurtarmaq ehtirası birdən-birə necə güclənmişdisə, darvazada dəmir şəbəkələrin işıltılarını seçər-seçməz dərhal özünü stansiyanın ucqar, qaranlıq yerində, relslərin arasında gördü. Bunlardan isə tamam başqa hisslər törədi: ölüm niyyətli ümidsizliyin dərinliyindən etiraz kükrədi, "Dəli Səməd"in öz ətrafındakı haqsız işlərə üsyanlarına

oxşayan bir üsyan dalğası qabarıq qalxdı: "Günahsız Gülgəz"lə "günahsız Sultan Əmirli"ni və "Bircə bala"nı yandırıb dünyanı yanıq qoxusuna bürüyən qüvvəni, qara həyulanın cəsarəti arxasındakı "bezobraziye" dəstəsini cismən məhv etmək! Qaçaq Nəbi, Dəli Alı, Qaçaq Kərəm, Qaçaq Ələs kimi qisasçıya çevrilmək! Öldürə-öldürə ölmək!.. Qaynar qan sifətinə, beyninə vurub gözlərini tutdu və Səməd kükrək üsyanın belə qəti qərarını necə həyata keçirəcəyini o qədər də düşünmədən, darvazadan geriyə, manqal tərəfə cumdu. Bayaq orda, manqalın yanında əmisinin ət doğramaq üçün saxladığı enli, ağdəstə xançal gözünə sataşıb, dumanlı, ötəri hiss oyadıb tüstünün altında qalmışdı. Həmin hiss indi tamam aydın, qəti fikrə, niyyətə çevrildi: "Hamısını tapmalısan bu gecə, hamısını məhv etməlisən, ey məhv olan bədbəxt!.." – xançalı yerdən qapıb pencəyinin altında kəmərin altına soxdu... Lakin bu qan-qisas ehtirasının qabağında Xızr Abı adlanan, qara qarmon qırışları arasında açıq mavi, dərin ziyalı – alim gözləri parıldayan heybətli bir pələng dayanmışdı.

**4**

Qocalıqdan kiçilmiş sifətinin qırışları nə qədər qeyri-adi idisə, xırdaca cüssəsinə uyuşmayan uzun qolları, enli, güclü əlləri bir o qədər heyrətli idi. Manqalın on addımlığından, qaranlıqdan peyda olub kələkötür barmaqlarla Səmədin yaxasından yapışmağı ilə xançalı pencəyin altından çıxarıb bağın dərinliyinə fırlatmağı bir oldu.

– Məqsədin nədi, nadürüst?!. Ağ Əmirnən Boz Əmir elm, həqiqət uğrunda qurban getdilər! Mədəd Əmirli də məhz həqiqət uğrunda getdi! Bu gün-sabah Sultan Əmirli də gedə bilər! Ən ağıllı, istəkli kənd partkomu saydığı "diapazonlu qadını" bir tərəfinə şpik[29] qoyublar, öz əmiuşağınız Əziz Mayılovu da o biri tərəfinə! Dilindən nə çıxar Sultan bədbəxtimizin elə günü çatdırılır Mirqəzəbə! Bəs necə?! "Dovşanı arabaynan tutan Şura hökuməti" deyiblər buna! Kimin ümidinə qalacaq Kainat Elmi, ey Elmdən, dünyadan xəbərsiz cahil!.. Bilirsənmi kimsən sən?! Düş qabağıma! Seyidin qapısında, o xəlvətdə sözümü eşit, sonra hansı cəhənnəmə rədd olursan ol, bir də belə divanə sifətində görünmə buralarda!.. Nə baxırsan üzümə, a heyvərə?! Sənin tanıdığın Xızr Abı deyiləm mən, AdıPünhan Əlifbeyəm! AdıPünhan Ələsgərnən Dəli Alıy-

---

[29] Xəbərçi.

[30] "*Dəli Alı*" – məşhur qaçaqbaşı.

nan[30] oturub-durardım, indi gəlib Əmirli yurduna qısılmışam, uşağ-muşağa elm öyrədə-öyrədə sənin təhsildən qayıtmağını gözləyirdim. Çünki məhz səndən ötrü dustağam mən o Əmirli mülkündə!

Qəzəblə, hiddətlə, bir az da ağsaqqal ərkilə Səmədi itələyə-itələyə aparıb həyətin yan qapısından o yana, qonaq evinin alçacıq dəmir dirəklər başında araxçınsayağı dəmir qalpaqlar altında solğun lampalarla işıqlanmış həyətinə saldı, eynilə ağ binanın yançağındakı tut ağacı kimi, budaqları yanlara süzmüş ağacın altına, dəyirmi stol dövrəsindəki qarğı kreslolardan birinə basdı, çamadanını da böyrünə atıb:

– Qulaq as! – dedi. – Bircə kəlməmi də buraxma, huş-guşnan dinlə!

Mədədin vəsiyyətini eşitdiyin vaxtdan nə qədər keçib? O qırx altıncı ilin dekabrı, bu əlli dördüncü ilin avqustu. Səkkiz ilə yaxındı hər dəfə səni görəndə içim qaynayır. "Elm və eşq" deyib sənə Mədəd Sultanın tapşırığıynan, iki qardaşın vəsiyyətini deyib. Sultan özü sənə millətimizin, dünyamızın taleyi barədə çox şey danışammır. O ağ binanın dəlmə-deşiklərinin hamısına anfaq doldurub KeQeBe. Ona görə burda danışıram sənnən. Babanız da alim olub sizin: Məhəmməd Əmir. Təbrizdə indinin özündə də çox şeyi gizlədirik Məhəmməd Əmirin barəsində. Çünki şahın siyasilərindən xeyli adam şəxsən Stalinin tapşırığıynan göndərilən casuslardı. Yəni o tayda da tutqu gedir, qırğın gedir! Bildinmi?! Beynin boşdu sənin! Elmin yoxdu! Lənət sənin partiya məktəbinə! Partiya tarixinə! Elmi kommunizminə!

Hoppanma! Sakit otur və dinlə!

Sultan bir kəlmə də danışammayıb sənə bu "elmi kommunizm" adlanan nəzəriyyənin təhrifliyindən. Niyə? KeQeBe qorxusu öz yerində. "Dəli Səməd"sən sən! Hamanca "hoppanan", ərköyün bircə balasan. Allahların Elmi barədə məlumatın olsaydı, "elmi kommunizm"in təhrifliyini bilib təhsil alammazdın o məktəbdə. Sultan ehtiyatlanıb ki, dilinə içki-zad dəyəndə ehtiyatını itirib dilindən söz qaçırdarsan, Mirqəzəbin agentlərinin qələminə keçərsən, evimiz yıxılar, varissiz qalarıq... Varis deyirəm. Çünki varissən sən! Bilmirsən!

"Allahların Elmi" deyirəm, bunu da qanmırsan! Şeyxlərin yox, məhz "Allahların!" Hoppanma! Qulaq as! Göbələk Məmiş Əlləzoğlunun, Hənifə arvadın ocağından çıxan gözəl eşqilə yox, Elm eşqilə yaşamalısan! Qızarıb-bozarma!.. – Arada Xeyrə arvaddan "bir tikə çörək, çay" istəyib, "Əlli tərpən, yoldan gəlib bu adam", – deyəndən sonra Xızr Abı

kreslosunu Səmədə lap yaxın çəkdi, iri, sallaq döş cibləri qələm, qəlyan, kibrit və sair xırda-para şeylərlə dolu olan tünd yaşıl qalın köynəyinin yaxasını açıb, uzun günlüklü boz kepkasını stolun küncünə atıb, nəfəsini dərib, birdən-birə sakitləşən, bəlağətli səslə heyrətli sözlər yağdırdı:

– Bağday, Bağ OdEy nədi? Bağ Ata kimdi? Ulu Bağ kimdi? EySar kimdi? Bilmirsən!.. O vaxt o rəhmətliyin yazdığı kimi, OdƏr sözlərini mən də yazım bu bloknota, bax. Mədədin yazdığını elə orda qoymusan, stolun üstündə, götürmüşəm, səkkiz ildi saxlayıram bu bloknotun arasında. Bunu də götürərsən söhbətimizin axırında... Təkcə bu yazdığım sözlərin mənalarını bilsən və bu mənalarla bağlı mənaları öyrənsən, "Yer" adlanan bu planetin bütün tarixini bilərsən... Ey! Fikrin hardadı?! O evdəki müsibəti unutmalısan sən! Çünki o deyil müsibət, Həqiqət Elmi, Kainat Elmi, Ağların – SafAğların SafAğ Elmi adlanan Elmin Varisinin dünyadan xəbərsizliyidi! Bu millətin az-çox savadlı aşığının da bələdliyi var SafAğ Elmindən. Bakıya gedirəm, Sultan putyovka düzəltdirir, göndərir. Üzümə baxandaca bilirlər kiməm, sevinirlər, parolumuzu deyirlər: "Əmi Bağdan gələr, dayı dağdan gələr!" Nə deməkdi bu, millətiyin müstəmləkə olandan bəri dilindən düşməyən, milyonlarla adamın bildiyi parol nə deyir? "Bağ" – Bağdı. Yazıram oxu. "Dağ" – OdAğdı. Nə deməkdi OdAğ, ey dili dilim-dilim doğranan bədbəxt?! Qulaq as, cahil!.. – Kor-kobud barmaqlar düyünləndi, Xızrın yumruğu stolu titrətdi. – Qulaq as!

Səməd boğulurdu. Lap körpəlikdən, atasının dililə sadəcə "Abı" çağırdığı indi "AdıPünhan ƏlifBeyə" çevrilən bu qocanın belə rəftarının səbəbsiz olmadığını görsə də, ağ binanın həyətindən gələn tüstü içində itkinin ağırlığından və "məhv etmək" qərarının icrası əvəzində bu sirrli, sehrli nitq qarşısında əsirliyindən boğulurdu.

Çay gəldi. Bir-iki qurtum qaynar çay içib, hətta "qismət kəsdi" – bir az yuxa, pendir yedi, diqqətini toplamağa çalışdı. Əmirlilərin "iç adamı" sayılan, "Quranın əslini bilən", "böyük həriflə Alim" kimi tanınan bu adam ailəyə üz vermiş bədbəxtliyin səbəbi barədə danışmağı, heç olmasa, Xeyrə arvadın bayaq dediyinə uyğun əlavə bir şey deməyi lazım bilmirdimi?!

Bloknotdan cırdığı vərəqə biri-birindən qəribə sözlər yaza-yaza:

– Bax! Bax!.. Fikrin yayınmasın bu müqəddəsatdan! – dedi. – Sultan özü, şəxsən özü verəcək sənə Elmi. Sağ qalsa... Başımıza gələn müsibətlərin arasında, belə qanıqara vaxtımda dərs demək, Elm öyrətmək

deyil mənim məqsədim. Ayıltmaqdı, Cüzi də olsa ayıltmaq!.. Partiya işçisi olmuyacaqsan. İndidən nəzərə almalısan ki, başqa bir yolun yolçususan sən.

Dərk eləyirsənmi ki, qulsan sən?! Vətənin parça-parça, Rusun, Farsın, Ermənin, Gürcünün əlində müstəmləkə! Millətini aramsız qırırlar! Aramsız! Gecələr! Səssiz-səmirsiz, doldururlar maşınlara! Yurdun Viran qalır! Sən isə “Yaşasın Stalin!” deyirsən! Çünki korsan! Korsan!..

Bayaq bura gələndə itələdiyim kimi itələmiyəcəyik, Təzə yolla özün gedəcəksən. Çünki bu yolun lap əvvəlindən həvəs verilir insana, sonradan Eşqə çevrilir verilən həvəs.

Diqqətli ol, gör nə deyirəm indi.

Ərəb dilində “ilahiyyat” elmindən, “Tövrat”dan, “İncil”dən, “Quran”dan başlayırıq sözümüzü, sonra cəmi dillərin kökü OdƏr dilində əzəli-əbədi həqiqətləri açırıq.

Rus dilində “SSRİ tarixi” öyrədiblər sənə o məktəbdə. Xəbərin varmı ki, “Rus” dili, “Rus” xalqı olmayıb tarixdə?! “Araz” dediyin ƏrÜz çayının o tay-bu tayında OdƏrcə ƏrÜz adlanan vilayətdən tərik düşüb Tərikə – “Türk”ə, sonra “Rus”a dönən millətindi o “böyük Rus xalqı”, ey dünyadan xəbərsizim!

Xüsusi dərs keçəcəksən, inanacaqsan hər şeyə. “Rus” nədi, özümüzdən – OdƏr adımızdan məhrum olmuşuq. Nəinki OdƏr dilindən, vaxtı gələndə dərk eləyəcəksən ki, hətta o kök dildən yaranmış “Türk” – “Azərbaycan” dilindən də məhrum olmuşuq. Heyrətlənmə! Dilimizlə birlikdə Adımızdan da məhrum olmuşuq deyirəm!

“Azər” nədi?! Guya od deməkdi bu, “az ər”, “atəş”di guya!.. Savadsızlıq-ölümdü! Bir institut bitiribsən, bir də ali məktəb səviyyəsində məktəb, əmma savadsızsan! Mən deyirəm “az ər”, gözünü döyürsən. İndi “Rey” deyilən yerdən, ƏrEydən qırıb-çatıb qovublar bizi, parça-parça olan, tarixini unudan savadsız millət hardan bilsin ki, “Malenkaya respublika” deyil. Nəhəng dünyası olub! Vahid dili olub! Ayrı-ayrı biri-birini başa düşmüyən Türkmənə, Qazağa, Qırğıza, Tatara, Başqırda, Xakasa, Nenə-filana dönübsən! “Rey”də EvƏrEy olubsan, qovulub dünyaya səpələnib “Yevrey” olubsan!

Mədəd “ƏlAğ” deyib, (SafAğ İnsanın Əli – Oğlu). Yəni kim? Deyirəm: “Boq Otes”in yox, insanı insana bağlayan Bağ Atanın Əli – Oğlu: EySar! Ey – Uca deməkdi, Sar – əhatə eləyən, saran hökmdar. Uca hökmdar – EySar “İsa” olub Ərəbin təhrif dilində! “İis+us” olub Qrekin

müsibətli təhrif dilində! Yer bəşəriyyətini planetlərin, yəni bütün Kainatın OdƏr bəşəriyyətinə bağlayan Bağ ilk dəfə məhz Qrek dilində "Boq"a dönüb. Cahil insan deyir "Bağ olmasın, Boq olsun, Allah olsun, nə fərqi var?!" Bəxbəxt hardan bilsin ki, OdƏr dilində "Bağ" kəlməsini unudandaca həqiqətdən məhrum olur insan! Beyindən, daha doğrusu, BağÜndən, yəni Bağ əcdadlarımızın planetlərdən gələn Ünündən – səsindən məhrum olur... Bəli, Ün eşidəndi insan! Milyon kilometrlərlə məsafədən Ün eşidəndi insan!

Heyrətlənmə!

Mən ƏrÜz – "Rus" deyəndə EvƏrEy – "Yevrey" deyəndə dəhşətə gəldin, gördüm, əmma izah eləmədim. Çünki vətəndən tərikliyimiz – "Türk"lüyümüz, "Rus"luğumuz, "Yevrey"liyimiz yəni kökdən, OdƏr dilindən azan dillər barədə Sultan özü danışacaq sənə. Diksinmə. Görüşməlisən əminlə! Onun özündən dərs almalısan! Mən ancaq bəzi vacib şeyləri deyirəm. Müxtəsərcə bil hələlik ki, Ər – İşıq deməkdi, Üz – məna deməkdi. ƏrÜz – məna işığı deməkdi. Nə mənadı belə?

Qulaq as.

ƏrÜzdən azma "ruz" sözü də var. "Nov ruz" Fars sözüdümü? Bəli! İndi belədi. "Araz"ın o tayında, bu tayında hamımız "Novruz" bayramı eləyirik. Əmma bilən yoxdu ki, Farsın dilindəki "Novruz" OdƏrcə – "Tərik"cə – "Türk"cə ÜnEv ƏrÜz sözündəndi. ÜnEv aydındı ki, Evin səsi deməkdi. EySarın Evinin Ünü. ƏrÜz də ki, dedim, məna işığı deməkdi. ÜnEv ƏrÜz – Ün Evinin məna İşığı deməkdi. Həmin qədimdən qədim ÜnEv ƏrÜz günü EySarın evindən göndərilən məlumatı ayrı-ayrı alimlər yox, bütün əhali eşidərmiş. İlk bahardan başlamış hansı ərazidə nə əkilməlidi, hansı ayda nə yeyilməlidi, hansı xəstəliklər olacaq, əlacı-dərməni nə olacaq və sairə bu cür məlumat gəldiyi gündən başlayaraq, Bağdayın bütün əhalisi bayram elərmiş.

Budu ÜnEv ƏrÜz – "Novruz". Görürsənmi necə azıb Fars dili həqiqətdən? Başqa dillər də bax belə azıb OdƏr dilindən. Vahid bəşəriyyətimiz parça-parça olub! Niyə?

Həqiqi tarixə yaxın gəlmiyən "Midiya tarixi" öyrədiblər sənə o məktəbdə. "Midiya" bədbəxtliyimiz də Qrek dilindən gəlir. Əsli – OdƏrcəsi BağOdEydi "Midiya"nın. Dedim Od – Kainatın energiyasıdı, OdƏrcə Həqiqət deməkdi, Ey, bayaq dedim, Uca deməkdi; BağOdEy – Uca Həqiqət Bağı deməkdi. "Tərik" – "Türk" dilində Bağday demişik. Bağın və ya Bağların "day durduğu" – ayağa qalxdığı yer, məkan! Bax

belə vətənin olub, oğul. İndi də var o vətən. Əmma ixtiyarı gedib əlimizdən! Od – həqiqət də gedib, ad da gedib! "Yer"də yaşayan Ün eşidənlər də yox dərəcəsindədi.

"Azər bay can" sonrakı şeydi. Düşmən sözüdü: "Az ər" "bay", yəni "vay" can. "Aytropatan" Qreqcədi, yaddı bizə, Dünyaya.

Tarix deyil bu təhrif, təhqirimiz adlar tarixi. Sonra biləcəksən.

Vətəni qaytarmaqdan ötrü vətənin həqiqətini bilməlisən, oğul. Bilməlisən ki, ƏrÜz – məna İşığı Bağlarımızın Üzünün – mənasının işığıdı. "Araz", "Rus", "ruz" isə ilahi məna işığından məhrum təhrif sözlərdən ibarətdi.

OdƏr dilindən, OdƏr bəşəriyyətindən ayrılma xəstəliyinin tarixi, elmi izahı xüsusi elmdi. "Yer" adlanan bu EyƏr – Uca İşıq planetinin ən böyük dərdi ayrılıq dərdidi, oğul. Əsli – OdƏrcəsi ÜnƏs (Yaradan Ün) olan "ins"anın bu böyük dərdi barədə də əmin danışacaq sənə. Ayrılığın səbəbi çoxdu. Hələlik bunu bil ki, "ins"anın özünü tanımamağı, özündən ayrılması, BağÜnünün "beyin"ə çevrilməsi nəticəsində hissiyat şüuru üstələyib, hissiyat əsiri insan isə belə çəyirtkə təki artıb, Bağday ərazisindən uzaqlaşıb, ya quru səhraya, ya dəniz sahilinə, ya da dağa-dərəyə qapanıb, həm bədəncə, ağız-burun, dil-dodaqca, həm də şüurca daha da dəyişib; yalnız müvəqqəti yaşamaqdan ötrü yaradılan təhrif ərazilərdə sözü, mənanı elə təhrif tələffüz eləyib, daha əslinə qayıda, yaxınlaşa da bilməyib. Nenin üzünə bax, Hindin üzünə, Çinin üzünə, Qazağın, Rusun üzünə bax, öz üzünə bax! Gör ərazinin ab-havası nə kökə salır insanı. Ev ƏrEy (Uca İşıq Evi) hara, Yevrey hara?! EvƏrƏs sözü "Pərəsu"ya "Pers"ə, "Pars"a, "Fars"a, yəni tam mənasız "sözə" dönüb. Halbuki fars da bizdən olub vaxtilə. Və ya. Gur (Güclü) SafAğ İnsan mənasında olan GurAğ – "Qrek"ə, ƏrEv tamam təhrif "Ərəb"ə dönüb! EvƏrÜn – "Fər" Ünə – "Faraon"a dönüb!.. Yenə deyirəm, kütlələr məcburən təhrif ərazilərə düşdükcə üzləri dəyişdiyi kimi, dodaq, diş, damaq da dəyişib. "Dillər" Bağdaydan uzaqlaşdıqca dediyim kimi, hissiyat gücləndikcə "beyinlərdə vəhşi ehtiras"lar hakim olub, Əs – yarat, yaradan mənası verir. ÜnƏs – Yaradan Ündü. "Beyni" ehtiraslarla tutulan ÜnƏs bir daha OdƏr – həqiqət işığı ola bilərmi?! "İns"anı ÜnƏsə qaytarmaqdan ötrü Eylik – Ucalıq tələb edən OdƏrlərimizə, Bağlarımıza qarşı hücumlar başlanıb, nə başlanıb! Müharibə, basqın, qırğın!

Həqiqətimizin üstündə "İns" adında İlan qıvrılıb, oğul! BağƏsƏr (Yaradan İşıq Bağı) ikən "bəşər"ə dönmüş İlanın zəhəri okeandı! Başqa ünvanı, başqa adı da var İlanın. Onu da Sultan tanıtdıracaq sənə...

Səməd hiss etdi ki, bu heyrətli, sehrli nitqi bir az da dinləsə, baş vermiş bədbəxtliyin səbəbləri barədə nə isə aydın bir söz-xəbər eşitməsə, daha dözməyib kobudluq eliyəcək.

Və elədi. Səbrsiz, sərt hərəkətlə əlini qocanın ağzına basıb:

– Bəsdi! – dedi. – Atamın ölümündən betərdi bu iş! Necə olub axı bu?! Sultan Əmirli günahsızdısa, niyə danışmırsan ki, "günahsızdı" deyənlərin bildiyini mən də bilim, mən də deyim günahsızdı!

Abı qəlyanını, tütün kisəsini çıxara-çıxara başını buladı.

– O barədə aydın bir söz deyəmmiyəcəm mən. Əmiyin özündən də gözləmə heç. O günüqara gözəldən də... Düzünü heç bu "günahsızdı" deyənlər də bilmirlər, həqiqətən günahsız bədbəxtlər özləri də bilmirlər.

– Nə?! – Səməd necə axmaqcasına, əməlli-başlı dəli kimi şaqqıldayıb güldüyünə özü də təəccübləndi. – A kişi! Nə danışırsan?! Necə yəni "özləri də bilmirlər?!"

Abı qəlyanı alışdırıb, gözlərinin açıq maviliyində od közərə-közərə, boğazını Səmədə doğru uzadıb səsini endirdi:

– İlan elə çalıb ki, dişinin yeri də bilinmir. Sultannan o günüqara oyanıb görüblər bir yorğanın altında ər-arvaddılar. Daha nə deyim bundan artıq?!

Səməd də istər-istəməz səsini endirdi:

– Şənbə, Lüt əhvalatı?!

– Təfsilat lazımdımı, ay oğul?!

– Demək, qurğu olmağına qurğudu?! Kimin işidi?!

– Coşma!

– Xudiyev dəstəsi?! KeQeBe?! O dəstənin işidi, ya yox?!

– Oğul! Ay gözümün nuru! Qaynama! Coşma! Bayaq "vəhşi" ehtiras dedim. Sonra çox vacib söhbət başladım. Səndən ötrü bu saat hava, su kimi vacib söhbətdi, inan! Məni eşitməsən, bir varis kimi öhdənə düşən işdən xəbər tutmasan, daha böyük, daha ağır müsibət olacaq. SafAğ İnsanların SafAğ Elmi varissiz qalacaq!.. Qırğın gedir dünyada! Bəli, dünyada! "Az ər baycana döndərilən Bağdayımızı əsrlər boyu parçalayıb, indi görürlər bu Şimalımızda da qalıb Elm, Cənubumuzda da,

---

[31] Əsli: ƏsAğ. İndiki Gürcüstan ərazisindəki bir bölük əhali. Açar adı da Odərdəndir.

Şərqimizdə də, Qərbimizdə də! Yenidən parçalamağa hazırlaşırlar! Lap xırda-xırda, arası sərhədli dövlətlər eləmək istəyirlər. Plan var ey, ay oğul! Plan var! Əmma həyata keçirəmmirlər. Ona görə də qırırlar. SafAğdan az-çox başı çıxanların hamısının sağ gicgahına iti uclu çəkic çaxırlar. Gürcüstandakı o Georgi kilsəsinə şifrəli teleqramlar gedir, bir-iki kəlmə: "Bir Sak!", "Beş Sak!", "On Sak!"[31] Ordan da Stalinə hesabat verilir!.. Qohumlarınız vardı Qazağın Muğanlı kəndində: AğEy Bağlar! Ağabəylər deyirdik. Şamaxıdan sürülmüşdülər otuz yeddinci ildə Muğanlıya. Getdim soruşdum ki, sizləri Sibirə sürürlər axı, niyə bura göndəriblər? Dedi Dərbəndi, Şamaxını, Muğanı hələ birinci Aleksandrın vaxtında ƏsAğsız qoyublar, yerində heç nə başa düşmüyən, saz da çalammayan bədbəxt, "Aşıq"lar qalıb, ƏsAğ əvəzində, ey oğul! Bədbəxtliyimizin dərəcəsini duyursanmı?! Sovet alimləri deyirlər: "Sak" olub vaxtilə, ƏsAğ hara, "Sak" hara?! "Kaspi"lər olub deyirlər, "Xəzəri"lər olub! Bir xalqı elə yazı-pozudaca yüzlərlə təhrif sözə parçalayırlar ki, Bağday silinsin tarixdən. Xəbərin varmı Qrek neçə əsr tapdalayıb Bağdayı?! O fatehin iki sözü var: "ki", "at", ikisi də od deməkdi. Kainat Odu – həqiqət mənasında yox adi od-alov mənasında işlədirlər. "K", "ka", "ko", "ku", "xə", "xa" – hamısı "ki"dəndi. Fikir ver: "Sak" – hara, – ƏsOd (Yaradan Od) hara?! "Ka s pi" hara, OdƏşBağ (Yaradan Həqiqət Bağı hara?! "Xə z ər" hara, OdƏsƏr (Yaradan İşıq həqiqəti) hara?! Sənə bax belə, qıyma-qıyma, incə-incə dərs deməlidi əmin! "Varis" – EvƏrEyƏs sözündəndi. ƏrEyimizin Yaradan Evi olmalısan sən! Ev – beyin mənasında da işlənir. Beyin olmalısan sən!

Səməd ayağa qalxdı.

– Abı! Bu saat heç nə girmir beynimə! Beyinsiz deyiləm, başa düşürəm ki, "dilim-dilim" dil, "Boq" – Bağ çox ciddi məsələdi. Əmma qan tutub ağlımı-fəhmimi bədbəxtliyimiz öldürür məni! Qan içəcəm! Qan içən itəm bu saat!

Abı da ayağa qalxdı.

– Qaynama!

– ...Qaynıyacam da, daşacam da!... Atamın qanı batıb! Bu iş də elə-belə qalacaq?!. Dözəmmərəm! Yeməz-içməz qalaram! Yuxum ərşə çəkilər, ölərəm, Abı!.. Gedirəm! Çax-çux Xalıq çox şey bilir. Ondan başlıyacam. Xirtdəyindən yapışıb öyrənəcəm hər şeyi, qıracam hamısını!

Xançalnan doğruyacam! Səssiz-səmirsiz! Elm nədi?! Cəlladam mən bu saat!

Abı bozardı.

– Bu boyda SSRİ-nin qanını içəmməzsən!

– Mən soyumalıyam, Abı! Qan içməliyəm, soyumalıyam.

Abı burda bir az fikrə gedib, sonra, gözlənilmədən, astadan soruşdu:

– Heç olmasa beş-on dəqiqə qulaq asammazsanmı mənə?!

– On dəqiqə?!. On dəqiqədən sonra əl çəkəcəksən yaxamdan?

– Hökmən! Bayaq dedim qulaq as, sonra hara gedirsən get.

– De!

– Deyirəm... Sultan, mən, "Adıpünhanlar" (Yəni "Muğ"larımız – Bağlarımız) özümüz də xeyli vaxtdı xeyli açıq işləyirik. Beynəlxalq miqyasda dost-tərəfdar axtarırıq. Çünki SafAğ Elmi düşmənlərinin, məhz beynəlxalq miqyasda casusların, çuğulların sayı-hesabı yoxdu! Biləcəksən, tanıyacaqsan. SafAğ ƏsƏrlərimizi, dəstanlarımızı fəsilbə-fəsil, sətirbəsətir dəyişdiriblər. Bu saat, indinin özündə Bakıda Moskvanın, Tehranın casus alimləri işləyirlər, Məhərrəmin gözünün qabağındaca, Nizamidən, üzübəri hamısının SafAğa aid nəyi varsa, dəyişdirirlər! Biri var Bakıda, Akademiyada. Cılız bir şeydi. Məndən betər. Əmma hələ o cür həyasız, qorxusuz insan görməmişəm mən. Bakıda gizlin şairlik eləyən bir Pünhanımıza deyib, kömək elə "İsgəndərnamə"ni dəyişdirək, hər sətrinə bir manat verərəm. Üstəlik bir kilo qızıl, yaxşı varlanarsan... Lap çoxdankı bəladı bu. Sən bilməlisən və ətrafında gördüyün adamların hamısıyla dil tapmağı bacarmalısan. Tarixən beləyik biz: təhrif insanın evimizə dürtülən ən həyasız, ən iyrənc casusuyla da dil tapmışıq, Elm verib beynini-şüurunu dəyişdirmişik.

Düşmənin əsas üsulu zordu, silahdı, qırğındı. Əmma ikinci üsulu, cahilləri təsir altına salıb ikicə kəlmə "Allahdan qorx" kəlməsilə və bunun əsasında əməli işlə qorxudub, həqiqət əleyhinə qaldırmaq bacarığı daha təhlükəlidi.

Bir neçə tarixi fakt deyim, yadında saxla.

Müasir "Azərbaycan"da ayrı-ayrı guşələrdə saysız-hesabsız dili dəyişmiş "Yəhudi" var ki, çoxunun kəndlərinin adı "Muğanlı"dır. Bilən varmı ki, bu da fatehlərin əməlidir?!

"İsrayıl"ı indi də "İzrail" eləyirlər! Əsli – OdƏrcəsi ƏsƏrƏldi (Yaradan İşığın Əli). Bilirsən ki, lap qədimlərdən "Beytül müqəddəs" deyilən ziyarətgah var orda. "Ərəb"cədi bu "beyt", guya "ev" deməkdi.

Əsli OdƏrcəsi BağOddu (Bağ Həqiqəti). "Ərəb"in dilində "Yəhudi", "Qrek"in dilində "İudey"ə dönən EyOd OdƏrlərimizin övladları haman BağOdun əhatə elədiyi yerlərdə Elm öyrənərmişlər. Geri sananan əlliminillik tarixin ortalarından başlayaraq "Assuriya"lılar – "Suriya"lılar, "Qreklər", "Latınlar" dəfələrlə dağıdıblar BağOdu. Sonra görüblər "Beyt"ləri dağıtmaqla tədrisin qabağını alammırlar, bayaq dediyim haman ikinci üsula əl atıblar: "Beytül müqəddəs"i veriblər EyOd – "Yəhud" qiyafəli "Qrek" "monax"larının ixtiyarına... "Beyt"dən – BağOddan bir az o yanda bir dağın adını qoyublar "Səfa dağı". Diqqət yetir. "SafAğ" kəlməsinin əvəzində təhrif dildə – Ərəbcə "Səfa!" Yəni təmizlik. O "Səfa" dağından "Beyt"ə doğru axan suyun adını da qoyublar "Səfa suyu". Ətraf ölkələrdə, o cümlədən fəth elədikləri Bağday ərazisində də tədris dayandırıldığına görə Elmdən ayrılan, Qrek kaloniyalarında qula dönən kütlələri, qocalı-cavanlı, sel kimi axıdıblar o "Saf su" axan yerə: əl-üzünü, ayaqlarını yu "müqəddəs Səfa suyu"nda, get "Beyt"in kandarına yıxıl, daşı-divarı öp, arzunu-diləyini de, vəssalam! Diqqət yetir, gör SafAğ Elmini, Kainat haqqında məlumatı nə ilə əvəz eləyiblər: su ilə!.. Qrekin köhnə "xristian" üsuludu bu – "su"dan istifadə yolu ilə "Religiya" yaratmaq!.. Bədbəxt cahil hardan bilsin ki, "su" OdƏrcə Əs (Yaradan) sözündən azıb. Danışanda üz-gözümüz əsirtitrəyir, həm sifətimizdə məna yaranır, həm də səsimizdə – Ünümüzdə, sözümüzdə. Suyun axınından başqa, lap laltərpənməz qalanı da Əsiryaradır. Torpaq, daş, qaya, dağ, dərə, hamısı hər şey Əsir-yaradır. Hətta ən tərpənməz suyun özündə də səs var. O da Bağlarımızın Ünü – səsi sayılır. Bağlarımız məhz Ünlə, sözlə – məna ilə bağlayırlar Kainatı özlərinə. Bağ Əsməsə – yaratmasa, təhrif "ins"an ÜnƏsə – Yaradan Ünə çevrilməyib "ins"liyində – mənasızlığında qalar. Bax buna görə də fatehlər OdƏr dilinin "Əs"ini "su"ya döndərib bədbəxt insanı "Səfa dağı"nın "saf su"yuna bağlayıblar. Bu cür asan, sadə bir üsulla yıxıblar bəşəriyyətin evini! Suya bas, çıxart de: "okrestili", oldun xristian!

Düşməni tanımırsan sən, oğul. Bütün planetdə cəhalətdi bizim nəslimizi, kökümüzü kəsən! Çax-çux Xalıq, Xudiyev dəstəsi "Saxara" deyilən, "Dəşti kəbir" deyilən səhrada qum dənəsidi.

Səməd diksindi:

– Don Kixotam, nəyəm mən, kişi, "Dəşti-kəbir"nən döyüşməliyəm?! Sən lap sərsəmləyirsən, Abı! Bağışla məni, köhnənin kobuduyam. Getdim!

– Dayan, cahil! – Uzun qol kənara uzanıb necə qayıtdısa, şapalaq Səmədin üzündə iz saldı. – Otur aşağı. Sizi kimi əbləhlərin əla roman saydıqları o “Don Kixot”lar deyilmi insanı yolundan azdıran?! Guya ədalət yoxdu dünyada?! Bəs mən kiməm, ay cahil! Sizin Tolstoyunuzu cibinə qoyan saysız-hesabsız SafAğ Alimlərini tanıyanda biləcəksən necə zibillərdi o “Don Kixot”unuz!, “Hərb və sülh”ünüz!

İyirmi altı yaşındasan indi. Deyilib: “Əlli yaşında yüksək rütbəyə çatacaq”. Yalandı bu. “Altmış yaş” deyiblər şeyx əmilərin, Mədəd gizlədib səndən, “əlli” deyib. Soruşma “niyə”, sirrdi bu. Məhz altmış yaşında biləcəksən nədi o “yüksək rütbə”. Yəni səksən səkkizinci ildə.

De görüm, iyirmi altı il bundan əvvəl şeyx əmilərin necə biliblər altmış il sonranın hadisəsini? Sadə deyirəm, loru deyirəm: göydən eşidiblər!.. Ən pis təhrif sözlərdən biri də “vəhy” deyiləndi. Cəbrayıl adına çıxılan kəlamlar EvEydən deyilib. Uca Evdən. “Quran” yox, “Gur Ün” deyilib.

Ağ Əmir də Ün eşidirdi, Boz Əmir də! Baban Məhəmməd Əmir də! Ulu baban Musa ağa da! Musa ağanın başqa Pünhan Bağ oğulları da!

Yəni Peyğəmbərdi hamısı? Bəli! Bəli, ey Peyğəmbərlər varisi! “Muğ” – Bağ nəslindən ancaq sənin kimi nadan cavanlar bilmirlər “Peyğəmbər” nədi.

“Peyğəmbər” – “Peyğünbər”in əsli – OdƏrcəsi Bağ Ün Ev ƏrEydi (Uca İşıq Evinin BağÜnü – “beyni”). “Ərəb” “BağÜn” sözünü təhrif eləyib “PeyğÜn” şəklinə salıb. Hiss eləyirsənmi necə təhrifdi?! “PeyğÜn”ə “əvvəlcədən xəbər verən” mənası veriblər. Belə şərhlərin – izahların vaxtı deyil hələ, nəslini tanımalısan indi. Özünü tanımalısan!

Diqqətli ol!

Bağlarımız ilk-əvvəl Olam adında kiçik bir yerdə olublar. O ayrı söhbətdi. Əsil dövlət Olamdan sonra yaranıb. Bağdayın ilk vilayəti ƏrEydə, “Əmir” EvƏrEylər ordandılar. Mən də sizdənəm. Təhrif dillərdə “Yevrey”ə dönən EvƏrEylərik. EvƏrEy OdƏrləri, əbədi Bağlar deyirlər bizə. Əbədi! Ölümsüz! Hoppanma! Qulaq as!

Olam, irəli sınanan əlli minillik tarixin birinci minilliyində olub. O minilliyin axırında GurAğ – “Qreklər” hücumları başlanıb. Belədi. SafAğ İnsan mühitində, yəni əbədi insan mühitində ilk ölümlər tarixi – o vaxtdandı.

Bağdayın ordusu olub GurAğlar. Niyə qiyama qalxıblar, o xüsusi dərsdi, öyrənəcəksən.

Silah işlədən, qan axıdan əxlaqca, mənəviyyatca, ağıl-şüurca murdarlaşan insan torpağa gedir-çürüyür. Saf mənəviyyatlı SafAğ İnsan öləndə isə bətnindən təhrif dildə "Ruh" adlanan ƏrAğ (SafAğ İşıq) çıxır. Adını hələ bilmədiyin planetə çatana qədər "Ruh" – ƏrAğ təhrif dildə "element" adlanan zərrəciklərlə dolur, beləliklə, ölən insan ikinci dəfə yaranıb əbədi yaşayır. "İkinci yaranış" yox, "ikinci doğuluş" deyirlər buna. Çünki ölən insanın beynindən çıxan ƏrAğ rüşeymidi o insanın, başqa sözlə proqramıdı. İşığın içində başqa planetə uça-uça proqramdan yaranır, işıqdan doğulur. Həm də lap qısa müddətdə!

Sultan təfsilatla danışacaq sənə bu ikinci doğuluşu. Hələlik bircə bunu bil ki, "Əmir" – EvƏrEy OdƏrlərinə ölüm yoxdu. Bir şərtlə: qan tökməsinlər, bətnlərindəki SafAğ İşığı – ikinci doğuluş proqramını öldürməsinlər. Bu əsas şərtə əməl eləsən, "Yer" mühitində nə qədər çirkaba batsan da, sarsıntılar, işgəncələr bahasına saflaşa bilərsən.

Yerin özündəcə. Bildin?! Yalnız tək-tək hallarda həqiqət naminə qisas almaq niyyətilə qan tökənlərdən də elə Yerin özündə əzab-işgəncə hesabına saflaşanlar olur.

İşgəncələrdən keçib əbədiyyət qazananlarımıza, yəni təhrif həyatı dərindən dərk edənlərimizə icazə verilir ki, "Yer"ə, öz vətənlərinə Ün göndərsinlər. Belələri, lazım gələndə, "İşıq gəmiləri" dediyimiz planetlərarası gəmilərdə "Yer"ə gəlib, gizlin guşələrdə gizlin yaşayırlar, EySarın tapşırığı ilə iş görürlər. Gözlərin böyüməsin! Nə deyirəm, həqiqətdi hamısı!

Bax bu Xızr Abı deyilən kaftarın indikindən qat-qat pis kaftarlaşan bir vaxtı vardı. Rus, Göyçəni əlimizdən alıb Ermənıyə verməmişdi hələ. Getdim ki, bulaq suyu içim, qantəpər, baldırğan, qoyungözü[32]-zad yeyim, dirçəlim bir az. Elə gedən günü baban Məhəmməd Əmirin səsini eşitdim: "Niyə belə axmaqladın, ay Abı? Göyçənin nemətlərini elə burdan göndərmirikmi sənə?!" Məlum oldu ki, SafAğ İşıq içində hər şey göndərirlər, mənim bu kaftar canımda qanıma, onun hesabına yaşayıram.

SafAğ Elmindən kənar insanın, yəni, təhrif insanın beyni yox dərəcəsindədi. "Ölüb" – doğulub qayıdanlarımızdan bəziləri, özlərindən asılı olmuyan səbəblərə görə "Yer"də gözə görünəndə "xortdayıb" deyir təhrif insan. Həqiqət Ününə – OdÜnə "Din" deyənlərin sözüdü "xortdamaq". Öldürürlər "xortdayan"ları. "Ruh" bədəndən ayrı yaşamalıdı"

---

[32] "*Yenşen*"

deyirlər ki, ikinci doğuluş, planetlərdə əbədi həyat, OdƏr bəşəriyyəti haqqında bir kəlmə də həqiqət deyilməsin. Çünki diri ikən çürüyən murdarların xeyrinə deyil həqiqət. Məhz buna görə "din"lərdən dördəlli yapışırlar çürümüşlər.

Səbrini itirmə! Bir-iki dəqiqə də qulaq as.

OdƏr dilində üç sözdən ibarət bir söz var: EyOdƏr. Uca Həqiqət İşığı deməkdi. Kainatda ilk və ən böyük planetin adıdı bu, həm də Kainatın sahibi, yaşı məlum olmuyan əbədi Bağ EyOdƏr Babamızın adıdı. Pünhanlarımız ƏsƏrlərində Yer təbirilə, "Heydər" yazırlar. On beşinci əsrdə Şah İsmayılın lap uşaq vaxtı Məkkədən "Heydərilər" adıyla casus ordusu dolub içərimizə. Ona görə də bilməlisən ki, hər "Heydəri"yəm deyənə SafAğ demək olmaz. "Biz ayrıyıq" deyiblər onlar sonralar! "Şiə"yik – Ayrıyıq! Və başlayıblar Bağları açıq-açığına qırmağa. Bağday tarixinin ən qara səhifələrindən biri də budu. SafAğ Alimi Şah İsmayılın dövrəsində hakimiyyəti alıb, üstəlik "Ruma" – Ərimə, indiki Türkiyəyə də əl uzadıblar. Sultan Səlib kəsib əllərini! Diqqətli ol!

EyOdƏr Babamızın Oğlunun adı BağBağÜndü. "Beyin" – BağÜn Bağı deməkdi.

BağBağÜn Babamızın Oğlunun adı BağOddu, biz Bağ Ata deyirik.

Bağ Atamızın böyük oğlunun adı ƏlBağdı, biz Ulu Bağ deyirik.

Bəri başdan bilməlisən ki, bütün OdƏr ƏsÜzləri (Yaradan mənaları) – "Söz"ləri Bağların Odlarıdı (Həqiqətləridi) – adlarıdı – rütbələridi.

Məsələn, ƏsƏlMən sözü (Mənim Yaradan Əlim – Oğlum). Əllimin-illik irəli sanan tarixin birinci ilindən başlıyaraq, geri sanan əlli-minillik tarix müddətində və bu son Yeni tarixin min doqquz yüz əlli dörd ili müddətində ƏsƏlMən Odu – adı Ulu Bağın ilk və əbədi rütbəsidi.

Altı qitəli EyƏr – "Yer" planetinin bütün qitələrinin sahibi Bağ Atanın ƏsƏlMəni – Yaradan Əli – Oğlu Ulu Bağdı.

Təhrif dil "Solomon"a döndərib ƏsƏlMəni. Sonra "Süleyman"a döndərib. Mənasız sözlərdən başqa bir şey deyil "Solomon", "Süleyman"; "Bibliya"nın milyon-milyon nüsxələrində bütün planetə yayılıb. İlanın "sözü" – mənası – "elmi" Elmimizin Yaradan mənasını – ƏsÜzünü – sözünü öldürüb! Hiss elədinmi, duydunmu faciəmizi?!

Mücərrəd "Midiyskiy tsar", "Boq Midii" yazır İlan və bu "tsar"ın, "Boq"un hətta təhrif adlarını – "Solomon"u, "Süleyman"ı da gizlədir ki,

“Süleyman padşahın xəzinəsi” – Elmi, Bağdayda Bağ nəsli, OdƏr xalqı, Kainatın OdƏr bəşəriyyəti həmişəlik “batin” – gizlin qalıb, nəhayət, “batil” – yox olsun.

Budu EvƏrEy OdƏrlərinin kütləvi qırğınlarının sirri!

“Qrek”in “od” mənasında işlənmiş “ki” kəlməsini Rim senatının xüsusi qərarilə yeridiblər OdƏr dilinə, “Tərik” – “Türk” dilinə. Sonralar Vizantiya da davam etdirib bu dəyişdirmək – həqiqəti öldürmək siyasətini. “Qrek”in, “Latın”ın gah açıq, gah da gizlin müttəfiqləri “Fars”, “Ərəb” də davam etdirib təhrif sözlə məna öldürmək siyasətini. İndi isə “Böyük qardaşımız” – “Rus” xalqı davam etdirir. Hünərin var “Bakı” əvəzinə həqiqi adını – BağOd de, yoxa çıxarsan! “Quba”, “Kuba” əvəzinə OdBağ desən, “Bağdad” əvəzinə BağOd desən və ya “Ərəb”cə “Mək kə” əvəzinə BağOd desən, Sibir bu yanında qalar! OdƏr çayı əvəzində “Ki Ər” – “Kür” deməlisən!. GurOd əvəzində “qurd” (canavar) və ya “Kird”, “kürd”, GurOdMən əvəzində “Kirdman” deməlisən! Ey OdÜnƏs əvəzində “Ki Ün Əs” və ya indi deyildiyi kimi, “Günəş” deməlisən!

Ey OdÜnƏsi – Uca Həqiqətin Yaradan Ününü unudub “Günəş” deyən “Türk”ün faciəsini hiss eləyirsənmi, duyursanmı?!

OdÜnƏs əvəzinə “dəniz” deməlisən! Əks halda başıyın üstündə “Domokl qılıncı” peyda olar!

Sultandan sonra çoxlu Pünhan gizlin Muğannalarla görüşəcəksən. İşıq gəmilərində uçan əbədi Bağ nəsli ikən ölümlü insanlara çevrilib müxtəlif yerlərdə gizlənən “Muğ” – Bağlarımızı, “Aşıq” – ƏsAğlarımızı tanıtdıracaqlar sənə. “Əlhəmik” – Vahid Əlik biz, yəni ƏlAğımız – “Allah”ımız birdi sənnən” deyəcəklər. “Sələm əleyküm” əvəzinə “ƏsƏlim ƏlEy” deyirlər. Yəni, “Yaradan Əlim Uca Əldir!” Cavab verirlər: “ƏlEyƏsƏlim”. Yəni, “Uca Əl Yaradan Əlimdir...” Vaxtı çatanda çox adam açılışacaq sənə. Hərəsi Elmimizin bir guşəsini işıqlandırıb yeni-yeni həqiqətlər açacaq. Elmi mənimsəyib, bütün varlığınla inanacaqsan ki, Yeni tarixin qırxıncı ilindən “Qalaktika”mızın – QalAğımızın “Allah”ı – ƏlAğı (SafAğ İnsan Əli) olan EySarımızın (“İ sa”nın, İiS+usun) Əlisən! Bəli, oğul! Budu sənin sevgin, ailən, oğul-uşağın, qohum-əqrəban: Əl! Bütün OdƏr bəşəriyyəti Vahid Əldir, “Lailahəilləllah” ola bilməz!

EySar özündən böyük qardaşı EvƏrim Sar ÜnAğın (“Avrama” döndərilənin) Əlidi;

EvƏrim özündən böyük qardaşı EySar ÜnEvin (“İsay”a, “Noy”a, “Nuh”a döndərilənin) Əlidi;

EySar ÜnEv özündən böyük qardaşı Ulu Bağ ƏsƏlMənin Əlidi; “Din” yalançıdı; EySar ÜnEv – “Nuh” nə ilk peyğəmbərdi, nə də ilk oğul.

Ulu Bağ, Bağ Atamızın Əlidi;

BağBağÜn Babamız isə EyOdƏr Babamızın Əlidi!.. Bu ilk məlumatı alanlara bunu da deyirlər ki, təhrif dillərdə “Peyğəmbər”ə, “Peyğünbər”ə döndərilən BağÜn EvƏrEy “Məhəmməd” – “Mühəmməd” – “Muhamməd”in Odu – adı – rütbəsi BağHəmOddu (Vahid Həqiqət Bağıdı).

“İmam” Əlinin Odu – adı – rütbəsi EyMən Əlidi (Mənim Uca Əlim).

BağHəmOda – “Məhəmməd”ə qədim “GurÜn” verilib, GurÜn! Yəni, “Quran” uzaq, – “Türk”cə, OdƏrcəsi. O kitab bir müddət “Məkkə”də bağlı seyfdə saxlanılıb; maraqlananlara deyiblər: “Bu alimlər üçündü, adi bəndələrə verilmir”. Belə çıxır ki, iki “Quran” var? Xeyr, oğul! “GurÜn” var və “GurÜn”ün əfsanələşdirilmiş, iyrənc tərcüməsi “Quran” var.

Əslini EySar verib BağHəmOda. “Allah” – ƏlAğ EySar (“İsa”; “İis+us”). Bilməlisən ki, ƏlAğ EySar cəmi OdƏr bəşəriyyətin – cəmi Kainatın yox, tək bizim “Kalaktika”mızın QalAğımızın “Allahı” – ƏlAğıdı. Hər QalAğın öz ƏlAğı var. Hər ƏlAğın yanında öz SimOd məclisi var.

“İslam” yoxdu, ƏsƏlim var, oğul. ƏsƏlim – Yaradan Əlim!

Gör indi, necə gizlədilib həqiqətimiz, dünyamız, bəşəriyyətimiz!

İndi gedə bilərsən. Xançalı yox, çamadanını götür, get Əmirli mülkünə. Çürüknən orda qalırıq indi biz. Get sakitləş, yat dincəl. Sonra Sultannan görüşəcəksən!..

Səməd duruxdu: “Sultannan görüşəcəksən! Mümkündümü?!”

Yenə də beyni qıjıldaya-qıjıldaya, gözləri tutula-tutula, hara getdiyini, necə getdiyini bilmədi.

## 5

Qapını Hənifə arvad açdı.

---

[33] Neftlə yanan çırağın (lampanın) ən xırdası.

Həyətdəki alçaq çardağın arxasında təkotaqlı çiy kərpic evdə tavanın ortasından sallanan yeddilik lampanın[33] alovu qapının yelindən uzanıb-yaymalanıb, hisli şüşəni daha da hisləndirdi, arvad saçları dağılıb gözlərinin üstünü tutmuş ucaboy adamı əvvəlcə tanıya bilmədi.

– Xeyir ola... Gəl gör bu kimdi belə, a kişi, – deyib içəridən ərini çağırdı, tanıyanda isə, əllərini üzünə basdı, – Allah, mənə ölüm ver!

Əlləzoğlu otağın yarısını tutmuş nəhəng taxtın üstündə böyrünü cecimə verib, mütəkkəyə dirsəklənib yatırdı. Arvadının çığırtısına quş yuxusundan bir göz qırpımında ayılıb, quş çəldliyi ilə yerə atıldı, səhərdən axşama qədər yollarda arabaların, atların, mal-qaranın qaldırdığı toz-torpaqdan keçəyə dönən çal tüklü sinəsini qaşıya-qaşıya, gözlərini qıyıb, qonağa diqqət yetirdi və bir əli sinəsində, o biri əli qəlyanın zorba başında, donub qaldı.

Kandarın bir tərəfində Gülgəzin ata-anası, o biri tərəfində Gülgəzin istəklisi dayanmışdı. Nə qədər ki Gülgəz aralıqda idi, bu kandar görünməzdi. Gülgəz aralıqdan getmişdi, kandar əvəzində sədd əmələ gəlmişdi, odur ki, nə bu yandan ayaq atan vardı, nə də o yandan.

Səməd özü də məəttəl qalmışdı ki, bu evə nə üçün gəlib? Necə gəldiyini də doğru-dürüst bilmirdi. Yadında qalan bu idi ki, meşə çox qaranlıqdı, lap uşaqlıqdan hər qarışına bələd olduğu Kəsəyolla yerisə də, tez-tez ağaca toxunurdu, üz-gözünə şax-budaq çırpılırdı, üstəlik, əlində nə isə tez-tez kol-kosa, kötüyə-zada ilişirdi, əsəblərini daha da tarıma çəkib lap cana doydururdu. Əmma heç nəyə diqqət yetirmədiyi kimi, əlindəki şeyə də diqqət yetirmirdi. Yalnız seyrəkliyə çıxıb, göydə ulduz, yerdə şeh işıltısı görüb, Sudüşəndə, həmin saqqız ağacının yaxınlığında olduğunu başa düşüb istər-istəməz yavaşıyanda gördü ki, əlindəki şey çamadandır.

"Dəli Səməd"dən Səmədə qalan yadigarlar içində bir yadigar da qalmışdı, o da daş əzələlər idi, həmişəlik daşlaşıb, hətta "cəhənnəm kürəsi"ndə də əriməmişdi, əksinə, "cinayətkarla" – "qatillə" görüş gününün yaxınlaşdığını duyduqca Səməd sövq-təbii bir ehtiyacla əzələlərini daha da daşlaşdırmışdı. Odur ki, çamadanı rastına çıxan ağaca çırpanda meşədə elə bil mərmi partladı, bürküyə görə yuxarılarda – uca budaqlarda yatışan iri quşlar gurultu ilə dağılışıb, qaranlıqda göyün dərinliyinə cumdular.

---

[34] Təhqiri ifadə, yəni "sən də öz "sünnətimizsən".

Yadında qalan bir də bu idi ki, Qudalı Rəhimin hansı möcüzə iləsə elektrik işığına qərq olmuş həyətində boynu xışlı it ağzını açar-açmaz bütün məhlədən çoxlu canavarsayağı it xılı – köpək sürüsü töküldü, ağ tor köynəkdən camış qılı kimi qara qılı çıxmış Qıllı Qeybalı üç yüz voltluq lampanın gür işığı altında çarpayıdan qalxıb it xılına təpindi, hələ qaranlıqda olan köhnə düşmənini hansı hikmətləsə uzaqdan-uzağa tanıyıb, gülə-gülə qabağına yeridi: "Qorxma, qorxma. Gəl, gəl, ay Səməd. Sən də öz kəsiyimizsən[34] daha, dəyməzlər sənə", – dedi.

Qıllının açıq şadlığı, rişxəndi və "sən də öz kəsiyimizsən daha" sözlərindəki gizlin məna təhqirdən betər səslənib Səmədin üzünə şapalaq kimi yapışdı. Rəhimin üstü dəmirli, daş imarətindən o yanda, məşhur palıd kötüyünün arxasında xırda pəncərəsi saralan daxmaya doğru getdiyi halda, dabanı üstə döndü. O söz şapalağından nə kökə düşdüyünü indi Hənifə arvadla Əlləzoğlunun gözlərindən oxuyurdu.

Deyəsən "Dəli Səməd" oyanmışdı, özü də indi yox, əmisinin darvazasında sevinc və xoşbəxtlik həsrətindən kükrəyən etiraz və üsyanla birgə oyanmışdı. Düz yeddi il səkkiz ay yatıb, birdən-birə gözlərini açıb, ancaq atasını yox, ata hənirli əmisini də, istəklisini də itirib tamam tək qaldığını, Xızr Abının sirrli, sehrli nitqindən sonra isə, qulaqlarında çox uzaq, anlaşılmaz aləmlər kimi səslənən "OdƏr", "SafAğ", "Bağ" sözlərinin qatı dumanı içində faciəsinin ağırlığını duyub, darvazadan eşiyə, küçəyə atılanda deyəsən əvvəlcə qırmızı tuf daş binaya doğru cummuşdu, birbaş əmisinin kabinetinə qalxıb, qapını bağlamaq, "Qaraçı gözəli"nin ayaqlarından tikanları dişləri ilə çıxara-çıxara, hələ o körpə vaxtından Gülgəzə necə könül bağladığından başlayaraq hər şeyi danışmaq, "avariya" günü hamının təkrar etdiyi "qəsd işi yoxdu" sözlərini, qəbristanda kükrəyən şübhəsini, "qara həyulanı", "cəhənnəm kürəsini", Çax-çuxla görüşünü, həyətdə Sultansız, Gülgəzsiz dünya haqqında düşündüklərini açıq-açığına ortalığa tökmək, hər şeyi aydınlaşdırmaq, bədbəxtliyi törədən səbəbləri bütün dərinliyi ilə öyrənmək, bilmək, Abının çox ciddi xəbərdarlığına, qadağasına baxmayaraq, hökmən qisas almaq niyyətinə düşmüşdü, əmma yəqin ki, əmisi ilə üz-üzə gəlməyin, "açıq-açığına" danışmağın çətinliyini, bəlkə də heç mümkün olmadığını hiss edib yolunu dəyişmişdi. Çax-çux dönə-dönə, müəmmalı təkidlə "Gülbəniznən görüşməlisən hökmən" desə də, bu sözləri yox, "kənddə gözlüyəcəm" sözlərini yada salıb, şəhərlə Qonaqlının arasındakı Kəsəyola –

meşəyə şığımışdı... Pal-paltarla, nadir kitablarla, qiymətli şeylərlə dolu çamadan yox, Səmədə mənalı, perspektivli insan həyatı da yox, o həyətdən götürdüyü xançalı əvəz edən dəmir barmaqlarla, Çax-çuxun xirtdəyindən yapışmaq lazımdı. Odur ki, barmaqlarını üyüşdürən, əsəblərini tarıma çəkən çamadanda hətta anasının çox qiymətli yadigarından – "açxa"lardan olduğunu da, diplomunu da unudub, o yükü ağaca çırpdı, hətta qan tökülən yerə – saqqız ağacının yanına da burulmayıb tələsdi ki, bir əlilə Çax-çux adında o "sirlə dolu sinə"dən, o biri əlilə iri hulqumlu uzun, quru boğazdan yapışsın, "Danış! Aç tök hamısını!" – desin. Yeddi il səkkiz ay müddətində, "avariya" günündən, "qəsd işi yoxdu" sözlərindən bu günə qədər nə baş vermişdisə, hamısı o sinədə idi və Səməd o sinəni bütün açıb, kitab kimi oxumalı idi. Odur ki, Ortayoldan və Qudalı Rəhimin imarətindən o yanda, palıd kötüyünün arxasında saralan o üççə qarış uzunluğunda, ikicə qarış enində pəncərəyə doğru qətiyyətlə gedəndə bu qətiyyəti sındırası bir şey görmürdü. Əmma Qeybalının beş-altıca kəlməsindən sındı. "Gəl, gəl, ay Səməd. Sən də öz kəsiyimizsən daha". Yəni: Sultan Əmirlinin düşmənlərinin məhləsinə gəlirsənsə, o "sirlə dolu sinə"dəki sirlərin hamısının Sultan Əmirlinin əleyhinə olduğunu bilə-bilə, mütləq öyrənmək, bilmək istəyirsənsə, daha sənlə bizim fərqimiz yoxdur?! Yəni, Çax-çux Xalıqla Qudalı Rəhim Sultan Əmirliyə necə düşməndirlərsə, daha sən də eləcə düşmənsən?! Dabanı üstdə dönüb gəlib bu qapını döyəndə Səmədin üzündə belə bir fikrin dəhşəti həkk olunmuşdu. Dağılıb tökülüb tərdən islanmış gur qara, ordan-burdan azca şabalıdı saçların arasından heybətli gözlər parıldayırdı. Hənifə arvadla Əlləzoğlunun qanlarını donduran da elə bu idi.

Əlləzoğlu sönmüş qəlyanı damağından çəkib kəmərinə taxdı, əllərini biz-biz tükləri bozaran qara üzünə sürtdü, xırdaca, yumruca başı ilə bədəni arasında nazik armud saplağına oxşayan boğazını qəribə – quşsayağı uzadıb udqundu və beləcə, yenə quruyub qaldı: iri qol-budaqlı, hündür, qorxunc adamın qabağında nə başqa bir hərəkət eləməyə cəsarəti çatdı, nə də bir kəlmə deməyə.

Hənifə arvad isə, "Allah, mənə ölüm ver" deyəndən sonra pıçıltıya keçmişdi, ovsun oxuyurdu ki, bəla sovuşsun, hələ başı qızıl əsgər papaqlı ərköyün sədr oğlu vaxtından "Göyüm" deyib əzizlədiyi, indi isə içəri çağırmağa da ürək eləmədiyi bu dəli-divanə cavan bu evə bir xətər yetirməsin, can-cürəfəsi, əl-qolu da olmayan, bircə qızdan savayı kim-kimsəsi qalmayan, oğulsuz, arxasız ərinə əl qaldırmasın, atan-tutan,

vuran-yıxan, qara naxırlı, sel sürülü igidlər məskəni Əlləz ocağında tək göbələk təki bitmiş bu bədbəxt, el içində şərməndə olmasın...

Səmədin sükutu nə qədər çəkdisə, Hənifə arvadın ovsunu da bir o qədər uzandı.

Qudalıların və ümumiyyətlə, bütün kəndin dilində "Atdan azma" bəzəməsi və "Əkə Hənifə" ləqəbi ilə tanınan bu kor-kobud arvadın gözlərində elə bir bulaq qaynarlığı vardı ki, belə yalvarışlı vaxtında bu qaynarlıq daşı da yumşaldırdı.

Qorxudan arvadının dalına qısılmış cırtdan kişinin fındıqburun, qara-quru sifətində isə elə yazıqlıq vardı ki, bu yazıqlıq cəlladı da yumşaldardı. Səməd də elə buna görəmi tutulmuşdu? Yoxsa, ona görəmi ki, bir-birinə qəti yaraşmayan bu təzadlı ər-arvaddan möcüzəli gözəllik əmələ gəlmişdi və Səməd Hənifə arvadın gözlərinə baxdıqca, Cığalı Gülgəzin – "qaraça gözəli"nin qaynar bulaq gözlərini görürdü, Əlləz-oğulunun "armud saplağı" boynuna baxdıqca, Gülgəzin "durna boğazını" görürdü və hiss edirdi ki, bu ata-ana ilə kobud rəftar, bunların yaratdıqları gözəlliyin özü ilə kobud rəftar kimi bir şeydir.

Təpiyib qaysaq bağlamış, qalın dodaqları elə bil Səmədin özündən asılı olmadan tərpənib ağır-ağır aralandı və Səməd, yaratdıqları gözəlliyin bədbəxtliyi ilə birlikdə, şübhəsiz, bədbəxt olan bu ata-anaya olduqca səmimi sözlər dedi:

– Zülmətdəyəm mən. Heç nə görmürəm, heç nə bilmirəm. Necə olub bu iş?!. Atamın sağlığında... hələ o vaxtlar Gülgəznən mənim münasibətimi bilirdi əmim... Sonralar da eşitməmişdimi?! Gəlmişəm, qızınız əmimin evində arvad!.. Necə olub bu?!. Nə Seyid kişi bir söz dedi mənə, nə də Xeyrə arvad... nə də Xızr Abı!.. Mən bilməliyəm!.. Soruşuram necə olub bu iş?! Niyə dillənmirsiniz?!

Nə Hənifə arvaddan səs çıxırdı, nə də arxasında büzüşmüş Əlləzoğlundan.

Onların əvəzində gözlənilməz bir səs:

– Sənə deyilmədimi ki, heç kəs heç nə bilmir! – deyəndə Səməd diksindi, geri dönüb yenə də Abını gördü.

Hündür, qara çəpərin darvazasında Sultanın boz "Pobeda"sı dayanmışdı. Gur işıqlı faraların qabağından bəriyə doğru şofer quşburun Müslümün nazik, uzun kölgəsi uzanmışdı. Səməd maşının açıq qapısı arxasında, oturacaqdakı adamın qaraltısına baxıb, bir də diksinən kimi

oldu. Sultan?! Yox, əmisi deyildi, Çürük Aşıqdı, köynəkli sazını qucağında tutub bu yana boylanırdı.

– Gəl, min gedək! Qapılara düşməyini məsləhət görmür səni böyüdən adam! – Abı əlini Səmədin biləyinə atıb, elə bil hətta zorla aparmaq istədi. Əmma gözü Səmədin gözünə sataşanda birdən-birə süstləşib köksünü ötürdü. – Belə baxma mənə, gözümün işığı! İnan, inan, inan ki, heç kəsdən heç nə eşitmiyəcəksən. İstəyirsən keç içəri, otur. Bir yana baxanda elə yaxşı olar oturasan söhbət eliyəsən bir az. Qırx yeddinci ilin iyununda ikilliyə qəbul imtahanına gedəndə ayrılmısan sən o vaxt “A qaynənə! A qaynata!” – dediyin bu gözəlçələrdən. Dünyanın məndən zəhləsi gedir, mənim də bunlardan. Açığını deyirəm, elə o “A qaynata!” – dediyin vaxtlardan mən istəmirdim qaynatan, qaynənən olsun bunlar. Qırx yeddinin iyunundan bəri dərd içində, yas içində keçib illərin, nə qızla əməlli-başlı ünsiyyətdə olubsan, nə də bunlarla. “Nə var, nə yox? Dolanmanız-zadınız nə təhərdi?” vəssalam! İndi otur bu evdə, indi danış bunlarla! Tutmaz, oğul! Kolxoz qurulanda qardaşları güllələndi, sürüləri, naxırları alındı, Sovetin yalaq itinə döndü bu Məmiş. Yalını verirlər, kimin üstünə qısqırdırlar, ona hürür! İnan mənə, adamlıqdan çıxıb ikisi də!

Açıqdı mənim aram bu Göbələknən. Üzünə deyirəm: “Yal içənsən, materialbaz, böhtançısan, Məmiş!” Deyir: “Görmüşük, elm-savad insanı insan eliyər, əmbə səni tərsinə, qudurdub, ay Abı, hey elə harf eləyirsən tutursan adamı. Bilmək də olmur, azarın nədi, a dərdin alım, niyə qapırsan!..” Deyirəm: “Mənə baxıb sən də qəlyan almısan ağzına. Olmazdımı vaxtında sözümə baxaydın, tək-tənha qalıb rəzilləşəndə gəlib yanımızda balabançıdan, dəfçidən-zaddan olaydın. Əyri yola getməzdin, çalınan, oxunanlardan başına da bir şey qoyardın!” Gülür heyvan, deyir: “Çürüknən işiniz-peşəniz pul yığmaqdı toylarda. Başımda nə işin var, xeyir vermək istəyirsənsə, cibiməcə bir şey qoy!” Zarafat eləyir guya, hırıldayır. Əslində, bir ilan da budu elə. Yazıq Çürüyü də, məni də dilə-ağıza salıb: “Hərəsinin yüz yaşı var. Əmbə pul yığmaqdan doymurlar, aparıb şəhər balnisasında sestraların ətəklərinə tökürlər, masaj elətdirirlər ora-buralarını, cavanlaşdırırlar özlərini!..” Eşidirsən? Boş-boşuna danışmıram bu Göbələyin barəsində. Bir ilan da budu dedim. Tək deyil. Yüzdü, mindi bu! Burda – Qonaqlıda, Tahirlidə, Qurbanlıda, o yanda – Qazağın kəndlərində Göbələk Məmişin papağı qaralar-qaralmaz, dörd-dövrəsi dolur heyvanatla. Pıçha-pıç, pıçha-pıç! Ötən

illərdə İrəvan, DərəƏləyəz, Göyçə, Vedi tərəflərdən nə qədər insan seli qovulub, çoxu qırılıb, qalanı qaçır isti, susuz yerlərdən, çalışırlar bizə sığınsınlar. Əmma bax bu, "dərdin alım, dərdin alım" deyə-deyə, astaca-astaca sürünür NKVD Gülənovun, prokuror Sayılovun, RİK Atamalının ara-bərələrində, ordan gedir, dediyim kimi, pıçha-pıç: "Göyçədən sürülənlərin hamısı köhnə EvƏrEy Odəridi. Çoxunun adı da üstündədi: ƏlƏs, EvƏlƏs, Ələsgər, ElƏsƏl – "Veysəl", BağSim – "MakSim", Bağı, Ağı..." – bir sicilləmə siyahı verib, hamısı Sibirin lap qatı yerinə sürülüb, məktub var, qışdan yaza çıxammayıb qırılıb hamısı! Qatildi bu "qaynata" dediyin murdar!.. Əlli birinci ildə Başkeçiddən sürülənlərimiz barədə də yazıb: "Vəli deyil bu adam, EvƏldi, Kərim deyil OdƏrimdi, Zal deyil, ƏsƏldi..." Yer verməyin kənddə-kəsəkdə, kök salmasınlar!" – və sairə və ilaxirə. Bax, belə ilandı bu Göbələk. Soruş: "Dəmiryol vağzalının poçtundan maaş alırsan yetmiş manat hər ay, hardan gəlir o pul?" "Bilmirəm, – deyir, – kimsə, uzaq qohumlarımdandı". Çax-çux göndərir öz cibindən! Kim oldu indi bu "A qayınata?!" Niyə gəlmisən bu Xudiyev itinin qapısına?!

Abının aramsız səsindən beyninə əlavə qıjıltı düşsə də, Səməd deyilənin hamısını eşidə-eşidə keçib otağın döründə – yuxarı başında, yorğun-üzgün, taburetkaya – kətilə çökmüşdü. Abı qəlyanına tütün basa-basa, sarı samanları işıldaşan boz divar boyunca o yan-bu yana narahat gəzinir, usanmadan deyinirdi:

– Göyçənin beş kəndlərindən biri bizim AğBizən kəndidi. Ulu Babanız Musa ağa tikdirib orda ilk evi. Bir baş kəndimiz də Qazağdan bəridə Padşahlıqdı, onu da Musa ağa tikdirib oğullarına, özü qaçıb qaçaqların arasında Comərd adıyla yaşayıb. Ən gizli şeylərdi bunlar, əmma bu da KQB-dədi. Kim yazıb? Bax bu yaramaz Göbələk!..

Əlləzoğlu lampanın altında-ortalıqda dodaqlarını dodaqlarına yapışdırıb quruyub qalmışdılar.

Səməd Hənifə arvadın "qaynar bulaq gözlərində" vahimə ilə birgə Gülgəzin gözlərindəki vahiməni də gördü. Əgər Hənifə arvadın kirpikləri bir az tozlu kimi boza çalmasaydı, ana ilə balanan gözləri demək olar ki, bir-birindən seçilməzdi. Qalın buz bulağın gözünü necə tutarsa, vahimə də bu gözləri eləcə tutmuşdu.

Səməd əlini üzünə çəkdi, içərisindəki burulğanda çalxanıb-burulub, arvadı silkələməyə, ayıltmağa çalışdı:

– Niyə belə baxırsan mənə, Hənifə xala! Davaya gəlməmişəm mən. Qorxmayın, söz tutsun diliniz, bir söz deyin mənə!

Axır ki, buz sındı:

– Ay belə ağlına-dərrakənə qurban olum sənin! Deyirəm axı, bəd niyyətnən gəlməzsən sən bizim üstümüzə. İzin ver, o ay qabağından öpüm, a dərrakəli oğul!

Abı üzünü divara tutdu:

– Öp, öp! Tfu!..

Arvad başdan-ayağa titrəyə-titrəyə yönəlib Səmədin islaq saçlarını qaldırıb, hətta, ovucları ilə tərini silib "ay qabağından" yəni alnından, sonra o üzündən, bu üzündən öpdü.

Elə öpə-öpə titrəyirdi.

– Səni həməşə öz balamız bilmişik biz. Allah şahiddi... Xızr Abı burda bizim yazıq kişinin barəsində nə qədər yaxşı-yaman desə də, elə kişi də çox istiyir səni... Nolsun yazıb "Avdı döyül, EvOddu!", "Nağı" döyül, ÜnAğdı, "İrşad" deyil, Ərşaddı. Göyçəynən az-çox gediş-gəlişi olanın elə hamısı bilmirmi ki, mollalar qoymurlar orda adamların çoxunun adını! Məmiş yazıq yanı o qədərmi böyük qələt eləyib?! Hamı yazmırmı?!

Bulağın gözü bulanlıqdı: "Sağ söz" əvəzinə, arvad elə hey o yan-bu yan danışırdı:

– Gözümüzün nurusan, a nur, nər oğul!.. Yazıq, nakam Sura dünyadan gedən günü bax bu döşlərimdən süd vermişəm sənə. Qıymat əlimdən almasaydı, özüm saxlıyardım səni, özüm böyüdərdim səni. Sonra da, allah versəydi, qapında qulun, qulluqçun olardım! Biz neyniyək ki, arxlarda sular tərsinə axdı!..

Səməd nə vaxtsa doğma, əziz "qaynana" olan, indi isə qızını xatırlatmaqdan başqa bir doğmalığı qalmayan arvadın bir kəlməsini də ötürmürdü: arvad eyham vurmurdumu, demək istəmirdimi ki, bu bədbəxtlikdə günahsızıq biz? Necə günahsız ola bilərdilər? Gülgəz ata-anasından gizlinmi aparılmışdı?!

Əlləzoğlu da, nəhayət, dirçəlib, səsini arvadının səsinə qatdı:

– Xoş gəlibsən, dərdin alıb. Öz evinə gəlibsən... Deyirdim bizi yad eləməzsən daha. Bu çərxi-fələyin necə fırlandığını, vallah, fələyin özü də bilmir heç. Odu ki, adamı elədən elə tullayır bu çərx, belədən-belə tullayır, axşam yatırsan, bilmirsən sabah nə gələcək başına... Bu Abı qocaldıqca itirir ağlını. Sən fikir vermə bunun çərən-pərəninə, dərdin alım. Deyirəm "Abı"sanmı sən, ay AdıPünhan?! Sabah-biri gün Şura hökuməti sənin özüyün də çarəni qılmıyacaqmı?! Mənim özümə demi-

yəcəkmi naxır, sürü sahibi Ələs uşağındansan, Əlləzoğlu deyilsən!.. Allahın yolundan çıxıb bu Abı, xəlvəti bədəməl işlərnən məşğuldu. Sizin nəslə qohumluğu çatır bu bayquş gözlünün, odu ki, dərdin aldığım əminə də badalaq qururlar bu Xızrın bədəməlliyindən xoşu gəlmiyənlər. Bu milləti istəmiyənlər deyilənə görə, peyğəmbərdən çox-çox əvvəllər də varıymış. Mən bədbəxtin nəyinə gərəkdi Erməninin, Rusun dediyini deyim?! Rus deyilmi məni belə rəzil eliyən?! Bu Xızrın özü də milləti çaxnaşdıran, ayrılıq salan, a dərdin alım! Vallah-billah, bizim bədbəxt balamıznan Sultanın başına nə gəldisə, o da bax bu Xızrdandı! Bu rahat otursa, inan bizi də incitməzlər ordan-burdan, a dərdin alım!.. Adı molla, özü şeytan düşüb ortalığa!.. Novruz bayramında gecələr tonqalların qıraqlarında uşaq-muşaq da bunun sözünü deyir: "Novruz" deyil, ÜnEv ƏrÜzdü. Qurban bayramı da: "İsmeyil qurbanı" deyil, ƏsEvƏli, yəni özünü öldürmək istəyirmiş "İbrahim" – EvƏrim peyğəmbər!.. Dünyamız özü dəyişir nədi, dərdin alım, düz iş yoxdu!

Səməd bunun da hər kəlməsinə diqqət yetirirdi: bu da eyham vurmurdumu, demək istəmirdimi ki, bəla kənardan gəlmişdi? Məhz necə olmuşdu? Abı niyə elə əsəbi gəzinirdi? Bircə balanın dalınca maşın gətirməkdə fikri-məqsədi nə idi? Çürük Aşıq da maşında idisə, o da ağ binaya getməli idisə, demək Sultan Bircə balası üçün hətta saz, söz də hazırlamışdı?!

Əlləzoğlunun cır, quru-sərt səsi indi əsəbilik törədirdi:

– ...Açığı, gözləmirdim qapımızı açasan. Xoş gəlibsən, dərdin alım. Bu üst-başını harda bu kökə salıbsan? Şalvarın cırılıb. Sudüşəndən kəsəsinə gəlibsən nədi, balağların batıb. Corabların da su içindədi... Yamaqlı paltar geyən yoxdu daha, dərdin alım, yoxsa deyərdim şalvarını yamasın Hənifə xalan. Əli qızıldı Hənifə xalayın. Axır vaxtlar arvaddı məni dolandıran. O yetmiş manatın sirri var: mənim adıma gəlir, ayrısı alır, dərdin alım. Rəhmətlik Mədəddən sonra xeyir-bərəkət yoxdu kənddə. Gündə bir sədr qoyurlar, hər sədr də bir hoqqa çıxardır. Qılınc Qurban da elə o köhnəcə qılıncdı, gah yerimizi ölçür, deyir artıqdı, kəsir, gah heyvanı sanayır, bircə baş şaqqıldaqlı toğlunu da qoymur normadan artıq qalsın bu həyətdə,[35] qonaq-qonaça gələndə bir toğlu boğazı qana-

---

[35] Kolxozçunun həyətyanı sahəsində "*artıq torpaq*", "*normadan artıq heyvan*" zorla alınırdı.

[36] *Ley* – kiçik qartal cinsi.

daq, özümüz də bir tikə dadaq. Hərdən prakror Sayılovun ayağı dəyərdə bizim qapıya, uzaq qohumumdu, ondan bir az çəkinərdi Qılınc Qurban. Sayılov ayağını qapımızdan kəsəli, genə ley[36] təki cumur üstümə Qılınc Qurban: "Lüt Cəfəri cana doydurubsan. Rayondan böyük-böyük adamları qonaq çağırırsan, kabab verirsən, iş düzəldirsən, Lütün xirtdəyindən yapışırsan ki, xərcim çıxıb böyüklərə, bu kağıza qol çək". Nolar, a bala?! Mənim ağ sürülərimi udan kolxozdan bir toğlu alsam, dağılar kolxoz?! Deyirəm, eşit, yeri düşəndə qamaşdır o Qurbanı. Beləydimi Mədədin vaxtında? Yox, yox. Ayrı əyyamıydı o əyyam, dərdin alım. Əməkgününə kolxoz özü verirdi ətliyi. Toğlu nədi, həftədə, yarım ayda bir əmlik kəsərdi qonağının ayağının altında bu suyumsuz Göbələk Məmiş. İndi Hənifə xalayın əriştəsinədi umudum. Olanda əvəliknən, pencərnən dəyişirik dişimizi, olmuyanda elə ərişdədi ki, ərişdədi...

Məlum oldu ki, Əlləzoğlu qonaqlarına toğlu-filan kəsmək niyyətində deyildi.

Abının aramsız ayaq səsləri də bir tərəfdən əsəbiləşdirirdi. Üstəlik, Hənifə arvad gah içəridə, gah da eşikdə, ocağın, qazanın böyür-başında yüyürüb-yıxılırdı.

Əlləzoğlu isə, Abının arada dediyi kimi, "yaman xoda düşmüşdü":

– Məktəbini qurtardınmı, dərdin alım? Bakıya qayıdacaqsan, yoxsa qalacaqsan? Şəhərdə yaşamaq ayrı şeydi... – Fındıq burunun xırdaca, zərif pərələri tir-tir əsirdi. Cücən gözlərin kirpiksiz qapaqları vur-hay tərpənirdi. Dırnaqları qaralan, gödək-gödək, yoğun-yoğun, qabarlı barmaqlar vur-hay qəlyanı doldururdu. Səməd bunun hamısını görürdü. Daha doğrusu, diqqət yetirirdi və elə bil hər şeyi birinci dəfə görürdü.

Kəmərindən asılı kisədən tütünü çimdik-çimdik çıxarıb, barmaqlarının ucunda didə-didə, əzə-əzə, uzun həngamədən sonra qəlyanı doldurub, nəhayət, alışdırmaq lazım gələndə, kibrit əvəzinə, Əlləzoğlu evinin suvaqsız divarından bir saman çöpü qopartdı. İndicə taxtın küncünə çıxıb, ordan əlini uzadıb, quru saman çöpünü lampadan alışdırıb qəlyanda tənbəkinin üstünə qoyacaqdı. Hələ "başı qızıl əsgər papaqlı" vaxtlarından ta bu son illərə qədər Səməd Əlləzoğlunun bu hərəkətini min-milyon dəfə görmüşdü. Yadında idi ki, bu hərəkətə hamı gülərdi, o cümlədən, Abı da gülərdi: "Göbələk Məmişdi də. Göbələkdən nə əhliyyət umursunuz?" – deyərdi. Tək bir nəfər – "Göy" gülməzdi. "Bəsdi, a kişi, bəsdi. Belə şeylər eləmə! Ucuzlaşdırma özünü!" – deyərdi. "Mən sənin hörmətini qoruyuram camaatın arasında, sən güldü-

rürsən özünə camaatı!" – deyərdi və o vaxtlar burda – kənddə dükanda işləyən Qayım Qudalıdan kibriti yeşiklə alıb gətirərdi ki, "Qayınata" bir də saman çöpünə əl uzatmasın, saqqalının çallaşan vaxtında uşaq kimi taxta dırmanmasın. Belə şeylər o qədər olmuşdu ki, kənddə hətta zərbi-məsəl əmələ gəlmişdi; hardasa, kim isə xəsislik eləyəndə və ya dünya dolanması – güzəranlıq üzündən çox qənaətcillik eləyəndə dərhal o zərbi-məsəl yada düşərdi: "Əlləzoğlu təki qəpik qısırsan, acından köpük qusursan".

Səməd diqqət yetirdi: Əlləzoğlu hamanca uşaq çevikliyi ilə taxta qalxdı, əlini uzadıb saman çöpünü lampadan alışdırdı. Sonrasına Səməd daha baxa bilmədi. Qəribə idi ki, cırtdan kişinin bütün başqa hərəkətləri kimi, min-milyon dəfə gördüyü bu son hərəkətini də elə bil birinci dəfə görürdü.

Hörmətini, ləyaqətini qoruduğu "Qayınata" əvəzinə tamam başqa, yad-yabançı bir adam, əldəqayırma, çılpaq stolun o tərəfində, kətildə oturub, Abıya: – Əşi, adamlığın olsun, evə gəlibsən, yanını yerə qoy, – deyib, onu da oturmağa məcbur eləyib, qəlyanını tüstülədə-tüstülədə, yenə nə isə danışırdı, Səməd isə daha bir kəlmə də eşitmirdi. Bayaq Abının dilindən eşitdiyi "Xudiyev iti" sözlərindən də bir o qədər təsirlənmədiyi halda, indi Əlləzoğlunun həmişəki adi hərəkətindən – saman çöpü alışdırmağından sarsıntı duyub, başını köksünə əymişdi. Müsibətin, bədbəxtliyin içində də qəlyanını saman çöpü ilə yandırmağı unutmurdusa, belə yüngül sümüklə taxta qalxıb taxtdan tullanırdısa, demək, bu kişi üçün heç bir müsibət yoxdu?! Əksinə, sevinirdi?! Sevinirdi ki, raykom katibinin qayınatası olub?! Qudalı Rəhim öz məşhur professor qudası Məhərrəmov Məhərrəm Abbasoviçə arxalandığı kimi, bu da öz şan-şöhrətli katib göyü-kürəkəni Sultan Əmirliyə arxalanacaq, daha nə qapısında yeri ölçüləcək, nə heyvanı sananacaq, "qəpik qısmaq, köpük qusmaq" əvəzinə firavanlıq, xoşbəxtlik tapacaq?! Bu müsibətin içində də "xeyir-bərəkətdən" danışırdısa, evinin suvaqsız divarlarında işıldaşan saman çöpləri ilə bu adamın nə fərqi vardı? Yoxdusa, Səməd burda nə üçün otururdu?! Saman çöpü ilə nə danışmaq istəyirdi?!

– Ay Hənifə, nə oldu əriştən? Süzmədinmi? Yağ əritmə, qovurma çıxart. Əmlik kəsəmmirik dərdini aldığıma, heç olmasa qovurmaynan çıxaq əvəzini. Köhnə qovurmaynan əriştə yaxşı tutur, dərdin alım. Xızr Abıya da, o eşikdəki çürümüş Çürüyə də elə əriştə yaxşıdı. Diş sarıdan da kasaddılar, ağılları təki, bu alimi biəməllər...

Səməd başını qaldıra bilmirdi. Təhqirdən, xəcalətindən, öz ləyaqəti, ucalığı qarşısında utandığından ölüb yerə girirdi.

Ayaq səsləri – çəkələk şappıltısı eşidildi. Hənifə arvad gəlib, Səmədin sözlərindən dəhşətlənib, birdən yenə qurumuşdu.

– Əriştə yeməyəmi gəlmişəm mən bura?! Sağ söz deyəmmirsən demə! Cəhənnəmə, goracan demə! Mən hiss eləyirəm, duyuram, görürəm ki, nə isə qurğu qurublar. Abı da etiraz eləmir buna. Bə sən niyə bir şey demək istəmirsən?! Qızını raykom katibinə verib xoşbəxt olmusan?! Yəni güman eləyirsən ki, binələnib qalacaq qızın orda?!

“Armud saplağı” yenə də çiyinlərin arasına çəkilmişdi, Əlləzoğlunun hülqumu gedib gəlirdi.

– Diyəsən yaman yorulubsan, dərdin alım. Çox yorulanda adam heç danışığını da bilmir... Ay arvad, tərpənsənə!.. O ki qaldı qızın orda binələnib-binələnməməsinə, onu Həqq-təala bilər, dərdin alım. Olan olub, keçən keçib. Cavansan sən, ömrün hələ qabaqdadı. Qayıdarsan Bakıya, inşallah, ad-san sahibi olarsan. Yaxşı qulluqdu, ixtiyaratdı bu zamanınkı, dərdin alım. Onda hər şey öz-özünə yağacaq başından aşağı, mən təki çulucırıq kəndçiynən heç danışmaq da istəmiyəcəksən. Saman çöpüynən yandırdım qəlyanı, dedim görüm neyniyəcəksən? Buludtəki tutuldu qaşqabağın. Niyə? Çünki şəhər adamısan sən daha, dərdin alım, qəpik qısannan oturub-durammazsan sən daha. Düz deyir Xızr Abı, ləyaqət-zad hardadı bizdə?! Üz-gözümə, əlimə-ayağıma fikir verirsən bayaqdan. Həftədə bir kərə ülgüc dəymir üzümə. Dırnağımı da vaxtlı-vaxtında kəsəmmirəm. Sədr bir yana buyurur, partkom o biri yana, ispalkom bu biri yana. Briqadirnən manqabaşı da əlahiddə buyurur. Hamısına “bəli” deyəsən gərək, hamısını razı salasan, üstəlik, qapı-bacanda da qurtdalanasan gərək ki, çörəyin olsun bir tikə. Ayının, deyir, yüz əlli iki oyunu var, hamısı da bir armud ağacının başında. Neynəsəm, nə iş görsəm, hamısı qəpiyə bağlanır, dərdin alım. İyirmi ildən artıqdı kolxozçuluq alıb insanlığımızı. Evin divarına suvaq da vurammıram ki, deyərlər manatı artıq düşüb!..

Səməd yenə tüstü görürdü və yenə də nə isə pis qoxu hiss edirdi.

Hənifə qazanı içəri gətirib birbaş yerə – torpaq döşəməyə qoydu, ətəyilə sininin üstündən külü sildi. Gülgəzin “qaynar bulaq gözlü”

---

[37] Dəmir yoldan keçid.

anası əvəzinə, Səməd eynilə bu cırtdan kişinin yatımında, yad-yabançı bir qadının süni gümrah səsini eşitdi:

– Ay kişi, nə "qəpik-qəpik" başlayıbsan yenə? Hökmətdimi, divan-dərədimi Səməd, nədi ki, bu qədər ah-zar eləyirsən? Öz balan deyilmi! Ah-zardansa, Bakıdan-zaddan soruşsan, görək qurbanı olduğum nə danışır?

– Çox yorulub, arvad, yaman birtəhərdi dərdini aldığım. Yoldan gəlib, axı! Əvvəl gərək adamın canı dincəlsin ki, sonra da boğazına çörək getsin. O tası-zadı bəri elə, isti su gətir, bir ayağını, başını yuyaq yaxşı-yaxşı...

Hənifə yenə eşiyə yüyürdü.

Əlləzoğlu "hə, hm" elədi.

– Yuyaq ayağını, başını. Dincəl, qal gecəni. Sonrasını özün bilərsən, dərdin alım. Eşikdə Çürük dəydi gözümə. Hələ də elə bilirsən qumrovdu səsi batmışın. İçəri çağırram indi, çalar, oxuyar. Məndən olsa, heç görükmə bu kənddə. Qudalılardı indi bu kəndin ağası. Başda Rəhimnən Qeybalı, ayaqda Çax-çux Xalıqnan yeniyetmələr... Qurbanlıdan o yanda razyezd[37] var, poyezd gah bir dəqiqə dayanır o razyezddə, gah da eləcə yavaşıyıb keçir. Elə ki, bu Qudalı yeniyetmələri maşınnan gedib dururlar o razyezddə, bil ki, Çax-çux Xalıq gəlməlidi. Poyezd yavaşıyanda çamadanlar, bağlamalar dolu təki yağır vaqondan. Bu yeniyetmələr göydə tuturlar, doldururlar maşına, Xalıqı da oturdurlar kabinkada. Ordan sürürlər əvvəl Qurbanlıya, mal paylayırlar Xalıqın adamlarına. Sonra Tahirlidə paylayırlar, sonra da burda. Belə pullu adamlardı indi burda dövran sürən, dərdin alım. Hökumət-zad sayan yoxdu daha. "Dünya bizimdi" deyirlər bu alver adamları. Açığı, sənin kimilərin yeri deyil daha bura. Hayıf deyilmi sədr Mədədin belə pəhləvan oğlu, gəlsin bu Qudalıya-zada yoldaş olsun burda? Get otur Bakıda, böyü! Yaxşı sədan gəlsin qulağımıza, biz də sevinək, fəxr eliyək o sədan-sorağınnan! Sultana yol vermiyənlər sənnən də yola getməzlər, dərdin alım!...

Səməd boğulurdu. Eyhamlarla dolu, hiyləli sözlərdən başqa, həm də çox pis iylənmiş dəri qoxusundan boğulurdu. Döşəmənin ortasında buğlanan qazanın ətri də bu qoxunu dəf eləmirdi.

Təngnəfəslikdən istər-istəməz dikəldi. Gözləri taxtın ayaq tərəfində cərgə ilə düzülmüş boz taxıl çuvallarının, qədim kirkirə daşlarının üstündə motalın, yağla dolu, ağzı çilikli mal qarnının, qovurma küpünün,

bir az o yanda divara söykədilmiş qara sacın, içində qurumuş xəmirdə barmaq izləri görünən teştin və oxlovun üzərində gəzdi. Nəhayət, nəzəri küncə dikilib qaldı. Orda, qapağından yumruq irilikdə qıfıl asılmış dəmir sandıq, sandığın üstündə bir cüt qara xrom çəkmə, bəridə – yerdə isə bir cüt çarıq vardı. Çəkmələrin üstünü toz basmışdı. Çarıqların isə yəqin ki, altı deşildiyinə görə içinə gön parçaları qoyulmuşdu.

Səməd nifrətlə üzünü yana çevirdi, çarıqların üfunətinə təmizlənməyən qəlyanın qətran iyi də qarışmışdı. "Sirlə dolu sinə"nin biri də burda idi, qır kimi qatı nikotinlə dolduğuna görə qoxusundan baş çatlayan qəlyanını sümürə-sümürə, cücən gözlərini qıyıb, tüstünün arxasından Səmədə baxırdı.

Hənifə bir əlində tas, o biri əlində isti su ilə dolu vedrə və mis dolça, tövşüyə-tövşüyə içəri gəldi. Çənəsindən tər tökülürdü.

Əlləzoğlu qəlyanı stolun küncünə söykəyib, tası çəkişdirdi.

– Bəri ver. Sən su tök, özüm yuyacam!

Çöməlib, iki bükülüb, qonağın palçıqlı tuflilərindən yapışdı.

– Qaldır ayağını, dərdin alım...

Səməd mat-məəttəl, tutulub qalmışdı. Abı isə daha dözə bilməyib, qalxıb Səmədə açıq qəzəblə baxırdı:

– Bu rəzilləri niyə rəzilləşdirirsən?! Nə qədər oturacaqsan bu heyvanat töyləsində?! Nə eşitmək istəyirsən axı bunlardan?!

Hiddəti coşanda dəyirmilənib doğrudan da "bayquş gözləri"ni xatırladan, əslində isə qeyri-adi işığı, sözün əsil mənasında parıltısı ilə valehlik, səcdə oyadan gözləri yana-yana yeriyib Səmədin üstünə qışqıranda Abının sifətində qan qalmadı, qara qarmon qırışları dümağ ağarıb soyuq tərdən islandı.

– Qalx, cahil! Qalx, min maşına! – Yaşıla çalan bozumtul brezent çəkməsinin burnu ilə Səmədin qıçına necə sərt təpik ilişdirdisə, Səməd, sümüyə işləyən ağrıdan dik atıldı, üfunətlə, alçaqlıq və rəzalətlə dolu evdən tezcə çıxıb qaçmağa, hətta maşının yanında müti əyilib baş əyən köhnə dostu Müslümdən, oturacaqda boynu buruq oturan dərd-ələmli Çürük Aşıqdan da qaçıb uzaqlaşmağa tələsdi. İndi aydın olan bircə bu idi ki, əmisi maşın göndərmişdisə, üstəlik, Müslüm də hadisələrdə iştirak edirdisə, demək, Sultan onu sərbəst buraxmayacaqdı. Buna görə də evdən çıxıb, Ortayolla üzüaşağı gedib, yenə meşə yoluna buruldu.

* * *

Əmma çox uzaqlaşa bilmədi. Hələ Sudüşənə çatmamış, Əlləzoğlu arxadan özünü yetirib, pencəyinin ətəyindən yapışdı.

– Belə getmə!.. Aman günüdü, belə getmə, dərdin alım!.. Vay, dağılan çəpərim, yıxılan evim! Azdımı mənim düşmənim, sən də bir yandan düşmən olasan mənə, ay oğul?! Bədbəxt eləmə məni, belə getmə. Məsəl var, gəlin atdandı, gör kimin qapısına düşdü. Başımın tükü sanı belə şeylər görmüşəm bu tərs-avand dünyada, dərdin alım. Sənin, mənim istəyimnən olsaydı hər şey, mən bəxtiqara istərdimmi qapımdan gözü yaşlı getsin övladım?! Mən olmayım, sən ol qız atası, bu dünyanın beş yiyəsindən birinin elçiləri maşın sürsünlər qapına, başlasınlar ki, "Sultan Əmirli vurulub qızına", "yox" deyə bilərsənmi, a dərdin alım?! Nəkarayam "yox" deyim mən Sultan Əmirliyə?! Özü elə böyük adam, elçiləri özündən də böyük, necə "yox" desin Göbələk Məmiş?! Sən Sarıdan belim bağlı olsaydı, bəlkə də söz tutardı dilim. Mədədin ölümü düşdü araya, elçi göndərmədin, el qaydasıynan, üzükdən-zaddan bir şey tullamadın üstümüzə. Dərdliydin, qanırdıq. Bə sonra?! İki il oxudun, gəldin-getdin bu kəndə, sonra genə iki il oxudun! Niyə özünnən aparmadın, niyə oxutmadın öz yanındaca?! O da məktəb qurtarmışdı. Sən təki oxumasa da, fəməl-yəməl oxumuşdu. Tay-tuşunun hamısı getdi. Gözünün qabağında Çax-çux Xalıqın qızı da getdi, ikiillik qurtardı, diplom aldı əl qalında, sonra gəlinlik paltarı geyindi, xoşbəxt oldu Qudalı Məsimnən. Görmürdünmü sən belə-belə şeyləri, a dərdin alım? Nə qədər gözlüyəcəydi səni mənim balam? Niyə gözlədirdin bu qədər?! Qılınc Qurban özü əbləhdi, bacısını da əbləh elədi, gözlətdi, axırı nə oldu? Qırmızı geyinərdi! Şəstnən gəlib gedərdi Qurbanlıdan bura, burdan Qurbanlıya. İndi yasa batıb, oturub, un çuvalına tay olub qalıb qardaşının evində. Əbləh-əbləh, at sürdü qapıma bu yaz qardaşı, sən təki acı danışdı o da: "Gör neçə adamı bədbəxt eliyibsiniz..." Mənəmmi bədbəxt eliyən?! Nə günahı var bu külbaş Göbələyin, a dərdin alım?! Ağzım allahdaydımı ki, Sultan Əmirli maşın göndərsin qapıma! Sənə "göyüm" demişdim mən, ona yox. Sən özün göylük eləmədin, atan rəhmətə gedəndən sonra yeddicə il gözlətdin qızı, indi niyə düşməntəki açırsan mənim qapımı, dərdin alım, niyə düşməntəki gedirsən?! Niyə xoşbaxt olmasın, niyə saxlamasın mənim qızımı Sultan Əmirli?! Əlin dəyməyib, ayağın toxunmayıb. Namusu üstündə, bu çöl-çəmənin şehli gül-çiçəyi

təki, tər-təmiz adnan vermişəm mən uşağımı, niyə xoşbaxt olmasın?! Özü təki gülçiçək balalar qoyacaq o, Sultanın qucağına! Yaşının ötgün vaxtında oğul-uşaq sahibi olacaq sənin əmin! İstəmirsənmi?! Yaxşı oğul tək özünü fikirləşməz, dərdin alım. Əmindi, can-ciyərindi! Boşamaz! Yox! Boşamaz! Söz çatdırsan, yaxın olmuşuq desən, bilirsənmi neylər?! Mədədin mauzerini saxlayır evində, stolunun siyirməsində... Allah göstərməsin!.. Əmini də, özünü də, bizi də qana salma, dərdin alım, aman günüdü! Bir qızdı, elə bil ölüb, öz əlinnən qəbrə sallayıbsan, torpaqlayıbsan üstünü... Çıx get Bakıya, dərdin alım, çıx get. Hənifə xalana da, mənə də yazığın gəlsin. Açığını deyirəm, nə qədər yazığam, bir o qədər də tərs adamam mən. Sultana söz desən, bilirsənmi neylərəm?! Nöyüdü tökərəm, kibriti çəkərəm o boş qalan Əmirli mülkünə, bir kibrit də çəkərəm Əlləz mülkünə, çal-çəpərimnən bir yerdə özümü də yandırram! Sən hədələdin, qorxutdun məni, mən də belə qorxuduram səni, dərdin alım. Yandırram, vallah! Eşidirsənmi? Yandırram! Düşmənləriniz elə bir şey istəyirlər allahdan. Sultan onsuz da dildə-dişdədi. Bu yanğınlar da bu tərəfdən dilə-dişə düşsə, uçmazmı arxan? Malsız-mülksüz, arxasız, köməksiz, tək bir gədə, neylərsən ondan sonra? Sultansız, kim adam sayar səni?! Belədi məsələ, dərdin alım. Odu ki, deyirəm, düşməntəki getmə. Düşmən deyiləm mən sənə. Qohumam! Bə nə?! Qohumam, özü də lap yaxınca! Qohumunu yad eləmə... Əyildim qabağında, ayağını yuyum öz əlimnən, hoppandın qaçdın! Xoşummu gəlir mənim ayaq yumaqdan?! “Əyildim” deyirəm. Bu yaşımda kiçildim sənin qabağında, sən də gərək qiymət verəsən mənim kiçilməyimə, hoppanıb qaçmıyasan! Xızr Abı qanmaz adamdı, Allahlıq iddiasındadı kaftar! Səni də özü təki bədbəxt eliyər o, sözünə baxsan. Qaçma məndən, qaçma! Düşmən olma! Sultan oğul bilir səni özünə, “Bircə bala” qoyub adını. Sultan da mənim balamdı. Balamın balasısan sən, nəvəmsən! Göyüm olmalıydın, fələk belə döndərdi, nəvəm oldun. Nəvə də babasına düşmən kəsilərmi, dərdin alım?! Qayıt gedək evə, qulluğunda duraq, başına fırlanaq. Qayıtmırsan, onda sırğa elə, as qulağından dediklərimi, dilin-ağzın özündə, fas-farağat çıx get Bakıya! Əmin elə orda da arxa olar, yaxşı qulluq, ev-eşik, hər şey düzəldər, inşallah. Nə qədər çulu cırıq olsam da, mən də əlimdən gələni elərəm. Mal-qoyun yazdırram adına. Sənin adın olan yerdə Qılınc Qurban heç yaxın da gəlməz çal-çəpərimə. Artırram mal-qoyununu, beşi on elərəm, onu yüz elərəm, o boş qalan mülkdə bir cah-cəlal yaradaram ki, Qudalı Rəhimin cah-cəlalı yalan

olar onun yanında! Belə xeyir verrəm mən sənə, dərdin alım. Adam da xeyrindən qaçarmı?! Bir qız nəmənədi belə xeyrin qabağında?!.

Bu yolla gələndə çamadan Səmədi nə hala salmışdısa, Əlləzoğlu da eləcə bir hala saldı. Qaranlıqda təkərək kimi dığırlanıb tövşüyə-tövşüyə, xışıldaya-xışıldaya ətəyindən, əl-qolundan yapışan bu ərdovdan, cindən, şeytandan heç cür yaxa qurtara bilmədiyini hiss edəndə Səməd dayanmağa məcbur oldu, çamadanı ağaca necə çırpmışdısa, yaxasından yapışıb onu da eləcə çırpdı.

Meşənin gecə sükutunda, dəyənək dəymiş it zingiltisisayağı uzun-uzadı zingilti eşidildi. Qırxıq başından tökülüb üz-gözünə yayılan isti, çirişli qanı silə-silə, arvadını haraylamaq əvəzinə, əməllicə zingildədiyini başa düşəndə Əlləzoğlu bu it güzəranına dözməyib hönkürdü. Başı gicəlləndikcə yıxıla-yıxıla, dizin-dizin sürünüb, özünü evə salıb, Hənifənin gözlərində dərdinin əlacsızlığını görəndə Əlləzoğlunun hönkürtüsü sızıltıya, göynərtiyə çevrildi. Çallaşmış, durub-toxtamış kişi əvəzin elə bil kimsəsiz, sahibsiz, yetim uşaq, başdan-ayağa qan içində, kandardaca oturub büzüşdü. Gülgəz Sultan Əmirlinin həyətində, manqalın yanında necə çarəsiz sızıldayıb göynəmişdisə, indi atası da eləcə sızıldayıb göynəyirdi...

## 6

Bircə balanın kəndə getdiyini, orada Əlləzoğlunun başını yarıb şəhərə qayıtdığını eşidəndə Sultan bu xəbəri zahirən sakit qarşıladı. Səhərin alatoranında, papaq əvəzinə başında bir topa çit bozara-bozara özünü yataq otağına salıb, göyünü-kürəkənini dümsüyləyib oyadıb: – Qardaşoğlun dəli-divanədi! Çarə, dərdin alım! – deyəndən sonra Əlləzoğlu pırpız qaşların altında durğun gözlərə baxa-baxa qalıb, bu sakitlikdən heç nə anlamadı.

Kürəkəninin çox qapalı adam olduğunu və qayınatasının yüz sözünə bir cavab verdiyini yaxşı bilsə də Əlləzoğlu çarpayının böyrünü kəsdirib tərpənmədi ki, əhvalatın üstündən dörd ay keçəndən sonra, nəhayət, hökmən ətraflı danışsınlar. Əmma Sultan nə orada-çarpayıda bir söz dedi, nə də yuyunub tut ağacının altında, dəyirmi stolun yanında, qarğı kresloda oturandan sonra. Niyə dillənmirdi? Nə fikirləşirdi?

– Dərdin alım, bir tədbir tökməsən, hara çıxar bu söz-söhbətin axırı?!

Pırpız qaşlar çatılıb qabardı, Sultan Əlləzoğlunun sözünü ağzında qoydu:

– Burdan bir yana tərpənmə. Gözün qızıyın üstündə olsun. İt-qurd fırlanmasın yan-yörəsinə.

Əlləzoğlunun əli sinəsi üstə idi:

– Baş üstə, baş üstə, dərdin alım!... – Nigarançılıqdan üzülə-üzülə qul kimi əyilib, qarğı kreslolardan birinin dalına çəkildi. Qapalı idi kürəkən. Çox qapalı. Bu tut ağacının altında, otuzuncu illərdən bu vaxta qədər qarala-qarala qalan bu dəyirmi, qalın stol Əlləzoğlu üçün nə idisə, hələ iyirmi yaşından, beli mauzerli, şapqası ulduzlu vaxtından Qonaqlıya gəlib-gedən bu zəhmli, zabitəli adam da elə bir şeydi, yəni Əlləzoğlu kürəkəninin ancaq qaraltısını görürdü, ürəyini, beynini, adamlığını isə demək olar ki, qətiyyən duymurdu. Əsl bədbəxtlik isə bunda idi ki, hiss qarşılıqlı idi: kürəkən də qayınatasını qətiyyən duymurdu; səhər-səhər bu bağın qalınlığında ağaca dırmanan pişiyi görüb qışqıran Qaratoyuq quşunun narahatlığı Sultan üçün nə idisə, Əlləzoğlunun narahatlığı, nigaranlığı da demək olar ki, elə bir şeydi. Səməd barədə fikirlərini, qayğılarını, sarsıntılarını bölüşdürmək üçün Xızr Abı ilə Çürük Aşıqdan başqa adamlarla ünsiyyətə ehtiyac duysa da, Sultan bu Qaratoyuğa ürəyini necə açaydı, necə deyəydi ki, ötən dörd ayda bir gecə də rahat yatmayıb, evdə də, işdə də aramsız düşünüb-danışıb qardaşı oğlu rayona qayıdanda necə hərəkət edəcəyini dönə-dönə ölçüb biçmişdi, özlüyündə hətta qərar çıxartmışdı və buna görə indi təntiyib darıxmırdı!

Seyid kişi sinidə bir nəlbəki qaymaq, bir parça təzə pendir və yuxa gətirdi, başının boz çit sarğısında qan ləkələri qızaran Əlləzoğlunu və tut ağacından xeyli kənarda, samovarın yanında qıymaçasını burnunun ucuna qədər çəkib hərəkətsiz duran Gülgəzin qansız dodaqlarına baxıb, köksünü ötürə-ötürə çıxıb getdi.

Sultan ömründə bəlkə də birinci dəfə işə tələsməyib, heç bir şey olmamış kimi, əmin-arxayın oturub arvadı sayılan bədbəxtin həmişəkindən fərqli – ağır süst tərpənişlə süfrə düzəltməyini gözlədi və qısaca:

– Artıq-əskik sözə-gapa, hərəkətə yol vermə, – dedi.

Bir xeyli susandan sonra yenə qısaca:

– Telefon zənglərinə cavab vermə, – dedi. Və qayınatasını süfrəyə dəvət etmədən, bir nəlbəki qaymağı, pendirlə yuxanı büsbütün yedi, sakitcə, rahatca çay içdi, sonra evə qalxıb mehmanxanaya zəng vurdu.

Mehmanxananın müdiri Marqodan Səmədin indicə gəldiyini, soyunub nömrədə uzandığını eşidəndə də Sultan tamamilə sakitcə:

– Narahat eləməyin, yatsın, – dedi və təkcə bu faktdan – Sultan Əmirlinin Bircə balasının evə baş salmayıb mehmanxanada qalmağından şəhərə necə söz-söhbət yayılacağı aydın olsa da, Marqoya əlavə bir şey tapşırmayıb, işə getdi.

* * *

Qırmızı tuf daş binada qəribə sükut vardı. Çoxdan qanuna çevrilmiş qayda üzrə, katiblərdən başlamış makinaçılara qədər, raykomun bütün işçiləri birinci katibi dəhlizdə və qəbul otağında qarşılasalar da, "sabahın xeyir" deyən də tapılmadı. Sultan bilmirdi və bilməyəcəkdi ki, dünən axşam Səmədin bu küçədən, bu binanın qabağından necə təlatümlü keçib gedib əmisinin darvazasını necə itələdiyini, sonra darvazadan küçəyə necə dəli-divanə görkəmində atıldığını nə qədər adam görmüşdüsə, yüz o qədər adam da ondan-bundan eşitmişdi; bu səhər Səmədin Qonaqlı meşəsindən nə kökdə çıxıb gəlib, əmisinin darvazasına burulmadan, bu küçə ilə bir baş mehmanxanaya getdiyini də nə qədər adam görmüşdüsə, yüz o qədər adam dildən-ağızdan eşitmişdi; Sultan bilmirdi və bilməyəcəkdi ki, ətrafda söz-söhbətin artdığı bir vaxtda Bircə balası burda əməlli başlı sensasiya yaratmışdı, o özü nə qədər məşhurdusa, bu saat Bircə balası da eləcə məşhurdu və bütün şəhərlə birlikdə, raykomun kollektivi də nə isə böyük biabırçılıq gözləyirdi.

Öz çəkmələrinin cırıltısından başqa heç nə eşitməyib, gərgin sükutla qarşılaşanda, gözlənilən biabırçılığı Sultan ancaq indi hiss etdi.

Bu hiss təzə deyildi. Duru bir göl suyuna bulanıq arx suyu və ya sel qarışanda gölün dibində lil necə çöküb qalırsa, may ayında o hadisə baş verəndən sonra bu hiss də Sultanın ürəyinin dərinliyinə eləcə çöküb qalmışdı: suda xırdaca bir tərpəniş bəsdi ki, lil, palçıq da tərpənib qalxıb gölü yenidən bulandırsın. Odur ki, Sultanın hərəkətləri ağırlaşmışdı: hərdən özündən asılı olmadan, evdə qapı çırpıb pəncərə cingildətsə də, şəhərdə, təsərrüfat sahələrində və burda – raykomda şəxsiyyətinin siqlətini, təmkin və ləyaqətini saxlayırdı. Əmma bunun üçün xüsusi səy,

[38] "Əmr edirəm teleqramın məzmununu açmayın və şəxsən mənə qaytarın".

xüsusi iradə filan lazım deyildi. Həyatın, ömrün böhranlı günlərini Sultan çox görmüşdü və yaxşı bilirdi ki, böhran şiddətlənəndə, çıxış yolu görünməyəndə çapalamaq, atılıb düşmək işin xeyrinə olmur. Böhrandan salamət qurtarmaq üçün adamdan iki əsas qabiliyyət tələb olunur: səbrlə dözüb gözləmək qabiliyyəti və qəti hərəkət məqamı yetişəndə, heç bir kənar təsirlərə qapılmadan, böyük qurbanlar bahasına olsa belə, qətiyyətdən dönməmək qabiliyyəti. Yaxın işçilərinə, yaxın dostlarına və Sultanın özünə tamamilə aydındı ki, Mirqəzəbin bu rayonda məsul vəzifələrə şəxsən təyin etdiyi Xudiyev dəstəsilə gizlin və açıq mübarizələrdə Sultan məhz hər şeyə dözüb gözləmək və qəti hərəkət məqamı yetişəndə qətiyyətdən dönməmək qabiliyyəti ilə qələbə çalmışdı.

Qırx altıncı ilin dekabr ayında Mirqəzəb özü şəxsən zəng vurub "Prikazıvayu teleqrammu ne oqlaşat i vernut liçno mne"[38] deyəndən sonra yaranan böhrandan Sultan məhz dözümü və qətiyyəti ilə çıxmışdı. Həmin teleqram əhvalatına bənzəyən, demək olar ki, analoji hadisələr qırx səkkiz, qırx doqquz, əlli, əlli bir, əlli iki, əlli üçüncü illərdə və bu ilin may ayında da baş vermişdi; Mirqəzəb bu dəfə Azərbaycanca danışıb: "Mənə hər şey məlumdu, Sultan Mamedoviç. Mən susuram, çünki sənin başına oyun açan adamların çoxu xaric kəşfiyyatla bağlıdı. Hələlik toxunmuram onlara. Hər şeyin vaxtı var", – deyib telefonun dəstəyini asmışdı. Sultan, əlbəttə, o dəqiqə anlamışdı ki, bu sözlər yalnız bir məqsədlə – "oyun açan adamları" qorumaq üçün deyilmişdi. Və Sultan bu hadisədən də ancaq dözümlə qalib çıxmışdı, Xudiyevi KeQeBe-nin səlahiyyətinə daxil olmayan işdə – rayonun ərazisindən Ermənilərə torpaq verməkdə taxsırlandırmaqla kifayətlənib, bu işdə iştirak edən Gülənova və başqalarına toxunmamışdı. Mirqəzəbin özü ilə rəftarı təsdiq edirdi ki, həm partiya işçisi, həm də bir insan kimi, dözüm və qətiyyət Sultan Əmirlinin xarakterinin əsas cəhətlərinə çevrilmişdi. Odur ki, qəbul otağının divarları dibində dirək-dirək duran əməkdaşların sükutu nə içərisində lil palçıq kimi çöküb qalan o köhnə hissində bir dəyişiklik əmələ gətirdi, nə də zahirində. Sultan lap ilk gənclikdən, Bakı ilə Təbriz arasında çox vaxt piyada gedib gəldiyi vaxtlarda adət etdiyi sakit, ləngərli yerişi, ümumi siqləti, təmkin və dəyanəti ilə, ağır-ağır addımlayıb, palıdı dermantinli, hündür qapının sağ-solunda dayanmış Əziz Mayılovla katib köməkçisinin arasından o yana – kabinetinin

---

[39] Sovetlər İttifaqı Kommunist Partiyasının mərkəzi Komitəsi.

genişliyinə keçib şapqasını asdı, kitelinin döş cibindən köhnə, qalın, möhkəm sümük daraq çıxarıb, seyrəlib yapıxmış çal saçlarını səliqə ilə arxaya daraya-daraya, ovucları ilə gicgahlarının dümağ tüklərinin yatımını sığaya-sığaya, stolunun dalına hərləndi, oturmadan, tünd qırmızı örtüyünün və göyümtül şüşənin üstündə qara üzlü, gündəlik iş qovluğunu açdı. Böyük formatlı, yağlı-işıltılı kağızları tələsmədən aşıra-aşıra, üç vərəqdə – üç siyahıda adamların ad və familiyalarını bircə-bircə gözdən keçirdi. Bu, sabah – avqustun iyirmi beşində başlanan pambıq yığımı kompaniyası üçün məsul olan, "üç zonada üç operativ ştab"ın siyahıları idi.

Sultan burada – kabinetdə də həmin qəribə sükutla dayanmış adamların üzlərinə baxmadan, birinci siyahını Əziz Mayılova verdi, ikincini Məleykə Muradovaya, üçüncünü isə, bu il gözlənilmədən irəli çəkilib təşkilat şöbəsinin müdiri təyin edilmiş Məsim Qudalıya verdi. Üç ştabın üçünün də üzvləri sabah axşam saat altıda burda – mərkəzi ştabda olmalı, zonalarda işin təşkili haqqında hesabat verməli, dərhal yerlərə qayıdıb, sentyabr-oktyabr aylarında pambıq yığımı planının ödənilməsi və noyabrın yeddisinə, yəni Oktyabr inqilabının ildönümünə qədər mərkəzə raport göndərilməsini təmin etməli idilər; Sov. İKP MK-nın[39] göstərişi və rayon Bürosunun qərarı belə idi. Hər şey danışılmış, bu günə ancaq əlavə işçi qüvvələrinin səfərbərliyi haqqında təkliflərin müzakirəsi qalmışdı. Əmma Sultan bu müzakirəni təxirə salıb, gecə saat on ikiyə – ştabın növbədənkənar iclasına saxladı.

– Qurtardıq. Gedə bilərsiniz, – dedi.

Bununla da bu gün daha heç bir işlə məşğul olmayacağını bildirib qovluğu örtdü, müharibə illərində nikotindən zəhərlənib çox pis arıqladığına görə o vaxtdan seyrək çəkdiyi papirosa – "Kazbek"ə əl atdı, gah stolun dalında, gah divanda oturub, gah küncdə çəkic kimi taqqıldayan və vaxtı çatanda zəng vurmaq əvəzinə köksünü ötürən kəfkirli saat, gah da küçənin o tərəfində, qovaqların, çinarların hündür budaqlarında dolaşanların böyük kütlə qəhqəhəsinə bənzəyən qaqqıltılarına qulaq asa-asa, səbrlə, dözümlə, qardaşı oğlunun yatıb yuxudan doymasını gözlədi, nəhayət, kəfkirli saat dörd dəfə köksünü ötürəndən sonra,

[40] "Burada Muğanda yerli xalqın çox hörmət bəslədiyi kim isə bir Solomon peyda olub, İranı və Türkiyəni öz hakimiyyəti altında saxlayır..."

dermantinli qapını açıb, Bircə balanın yanına getmək üçün bütün hiss və düşüncələrin üstündən qələm çəkib, qətiyyətlə kabinetdən çıxdı.

* * *

Mehmanxananın pillələrini də qətiyyətlə, birnəfəsə qalxdı. Dar, tək-adamlıq nömrənin qapısını aralayanda isə, qış aylarından qalma, tünd rəngli pəncərə pərdələri örtülmüş otağın alaqaranlığında gördüyündən təəccüblənib ayaq saxladı.

Çarpayı boşdu. Səməd döşəmədə, yalxı döşəkağı üstündə, köynəkcək yatmışdı.

Sultan, bir əli ürəyinin üstündə, hərəkətsiz qaldı, o biri əli boğazında, boynunda gəzdi. Birdən-birə nəfəsi daralmışdı, gözləri toranlamışdı.

Əmirlərdə bu lap köhnə irsi azardı: şeyx oğullarını fədailərin cənubdakı gizlin məskənlərinə, "hümmət"çi oğullarını bu taya göndərmək üçün yol ayrıcına qədər ötürüb, orada – ayrıcda tək qalanda Məhəmməd Əmir də bu cür birdən-birə tor görərdi. "Əylənin. Gözüm seçmir dünyanı. Gözləyin bir az", – deyib, bir əli ürəyinin üstündə, o biri əli boynunda, dayanıb, boğaz, boyun damarlarını əzişdirib, birdən də gözlərini açardı, "Hə, di gedin. Əmma bir gün də unutmayın ki, mən ayrılığa dözənlərdən deyiləm", – deyərdi.

Dörd oğulun dördü də yaxşı bilirdi ki, onlar Ulu Bağ ƏsƏlMən nəslindəndilər. Min yeddi yüz doxsan yeddinci ilin qışında bir gəzərgi Monax – casus Peterburqa, Çar Pavelin oğlu, polis rəisi və vəliəhd I Aleksandra depeş göndərmişdi: "Zdes na Muqani obyavilsa nekto Solomon, poçitayemıy vsem zdeşnim narodom, kotorıy İran i Tursiyu derjit pod svoyey vlastyu".[40] Bu depeşin surətini Ünlə eşidəndən sonra Ulu Bağ Muğandakı saysız-hesabsız AğEy – "Əxi" icmalarının bir qismini Ərdəbilə, ikinci qismini isə Təbrizlə İrəvan çökəyi aralarına dağıtmış və bütün icma üzvlərinə əlaqə saxlamağı, görüşməyi qadağan etmişdi. Buna görə də təbiətcə zərif, köyrək, qohumcanlı UluBağlılar, o cümlədən, Məhəmməd Əmirin adı ilə adlanan Əmirlilərdən çoxu qəribliyə, ayrılığa dözməyib xəstələndilər. Sultan da belələrindəndi. Odur ki, əlli beş yaşlı oğulsuz, uşaqsız Sultan da eynilə atası Məhəmməd Əmir kimi bir vəziyyət keçirib, dar nömrədə, "Bircə balanın" üç

addımlığında öz-özünə "Əylən, gözlə bir az", – dedi və bu bir az vaxt ərzində necə qeyri-adi gərginlik hesabına toxdadığını o qədər də dərk etmədən, tünd rəngli pərdədən süzülən tutqun işıqda Bircə balanı yenidən görüb, yaxınlaşıb böyründə çöməldi, cod, nahamvar döşəmə taxtası dizlərini əzə-əzə, tamaşaya durdu.

Səməd sağ yanağını biləyinə söykəyib üzü üstə yatmışdı. Qıçının birini düz uzadıb, o birisini qurbağasayağı, qarnına yığmışdı. Bu "qurbağa yatışını" görər-görməz Sultan nəinki fikir və qayğılarını, elə bil əzablarını da bütüncə unutdu, sarsıntılar, işgəncələr əvəzinə, sinəsi hüznlə doldu: Mədəd də həmişə bu cür, üzü üstə, qıçını qarnına yığıb qurbağasayağı yatardı. Uşaqlıqda iki qardaş bir yorğan altında yatanda, aralarında dava düşərdi. "Dizin böyrümü deşir, uzatsana sınmışını!" – deyib Sultan dümsükləyib Mədədi oyadanda, Mədəd mızıldanıb qıçını uzadardı, əmma mürgüləyəndə yenə yığardı. Sultan bir də dümsükləyəndə isə Mədəd hirslənib kiçik qardaşının üstünə atılardı, gecənin yarısında köhnə, hündür taxtdan döşəməyə dığırlanana qədər süpürləşərdilər. Küsüşüb hərəsi döşəyin bir küncünə çəkilərdi. Səhərə yaxın evin havası soyuyanda isə qucaqlaşıb, bir-birini nəfəsləri ilə isidərdilər.

Qırx-qırx beş ilin uzaqlığındakı "qardaş" adında dünya, həsrətdən, yanğıdan, qəhərdən ibarət o tay, Azərbaycan adında dünya ilə birləşib Sultanın boğazından yapışdı. Sultan nə vaxtsa, hardasa qardaşına və qardaşı ilə birlikdə o taya, Məhəmməd Əmirə, Ağ Əmirə, Boz Əmirə xəyanət etmişdi, bu dumanlı, anlaşılmaz xəyanətə görə, hakimi və müttəhimi də özü olan gizlin bir məhkəmədə boğulmağa məhkum edilmişdi. Hökm elə indi, bu dar nömrədə icra oluna bilərdi. Əmma Bircə bala onu xilas elədi: Səmədin pələng biləyi kimi enli biləklərinə, möhkəm əzələli çiyinlərinə, burulub gərili qalmış boynuna göz gəzdirdikcə Sultanın nəfəsi genişləndi, təqsirkarlıq, həsrət və yanğı əvəzində, qəlbinə kədər qarışıq qürur doldurdu: Mədəd dünyasını dəyişməmişdi, haraya isə uzaq səfərə çıxmış və möcüzə ilə cavanlaşıb qayıtmışdı.

Sultan barmaqlarının titrədiyini görə-görə, əlini onun bir az arxaya yatımlı, geniş alnında, əvvəlki Mədədin saçından ancaq dalğaları ilə fərqlənən saçında, boynunda, kürəyində gəzdirdi.

Səməd ağır yatmışdı. Oyanmırdı.

Sultan çağırmaq istədi, nə "Bircə bala" deməyə dili gəldi, nə də "qardaşoğlu" deməyə. Əmmə müraciət tapıldı.

Keçən yay raykoma təcrübəyə gələndə, üç il təlimatçılıqdan sonra iki aylıq təcrübəyə elə bir ehtiyac duymadığına görə Səməd vaxtının çoxunu partiya kitabxanasında oturub, dövlət imtahanı üçün ən vacib dərslik sayılan "Materializm i empriokritisizm" kitabını dönə-dönə oxumağa çalışardı. İşin axırında kabinetinin dal həyətə baxan pəncərəsindən boylanıb, Bircə balanın hələ də kitabxanada oturduğunu görəndə, Sultan bu səydən həm sevinərdi, həm də narahat olardı. "Ey, filosof! Bəsdi kitablarnan əlləşdiyin!" – deyərdi. "Fəlsəfəni ancaq kitablardan öyrənsən, mənim yaşıma çatanda hər şeydən məhrum olarsan, ey filosof!" – deyərdi.

Bu gümrah, zarafatyana müraciəti xatırlayıb, bundan Sultan hətta sevinc duydu.

– Ey, filosof! – deyib hətta əlini Səmədin çiyninə şappıldatdı.

Səməd oyandı.

Əmma buna hələ oyanmaq demək olmazdı. Çünki indicə yuxuda gördüyü röya gözünün qabağında idi. Qara meşin şapqanın uzun günlüyü altında sifəti qapqara görünən, çiyni tüfəngli Qurban əmi – Qılınc Qurban Gülgəzin hörüklərindən yapışıb, qaranlıq meşədə, ağacların arasında sürüyürdü, iri-iri, sarı-qızılı tikanları zülmət içində aydınca görünən qaratikan kollarının qalınlığına basırdı, böyür-başlarında insan qulağısayağı ağacgöbələkləri saralan kötüklərə çırpırdı. Qışqıra-qışqıra "Qancıq! Qancıq!" – deyirdi. "Mənim qardaşımnan qardaşoğlumun arasına nifaq salıbsan sən! Səmədi Sultana düşmən eyləyibsən sən!" – deyirdi. Qurban əmi – Qılınc Qurbanın bu qışqırtısının arasında Sultan əminin yorğun, üzgün səsi də eşidilirdi. Özü yoxdu. Hərdən haradasa kitel bozarırdı, səs də elə kiteldən çıxırdı: "Dayan, Qurban, dayan. Əl çək, Qurban, bəsdi! O mənim arvadımdı! Kəbinli arvadımdı!" – Kitelin səsi Səmədi üşürgələndirirdi.

Oyanıb gözlərini açdı, başını üyüşmüş biləyindən ayırıb, arxası üstə çevrildi və beləcə qaldı. Yad divarlar arasının yad mühitdə əmisini görüb, onun belə gözlənilməz yaxınlığından çaşıb, yuxu ilə reallıq arasında asıldı: o dəhşətli, içərisi boş kitel zehnində idi, sarımtıl düymələrinə, boğazının dəmir çalkeçirinə qədər doğma, boz kitel isə qarşısında idi və bu boz kiteldə Sultan əminin özü də həmişəki əmi idi: doğma, əziz, boz ala gözləri dərin hüznlə, yorğun-yorğun gülümsəyirdi. Bu gözlərdən, bu baxışdan ayrılmaq, uzaqlaşmaq mümkündümü? "Yox-yox!.. Yox-yox!" Beynində oyanan ilk sözlər bu "Yox-yox" oldu və Səməd özü də bu sözlərin ahənginə uyğun ürək çırpıntısı ilə, titrək, hürkək atılıb ayağa qalxdı.

Gərgin sükut içərisində əmi ilə qardaşoğlunun, yaxın ikən uzaqlaşmaq, doğma ikən yadlaşmaq istəməyən iki nəfərin nəzəri bir-birinə sancıldı.

Qardaşoğlunun üzündəki təşviş əminin sifətini də dəyişdirdi. Əmma Sultan buraya "aydın fikirlə, qəti qərarla" gəlmişdi və indi məhz qətiyyət məqamı idi. Odur ki, ciddiləşməyi ilə gülməyinin arası bir saniyə də çəkmədi və Sultan əməlli-başlı qəhqəhə çəkib, iri, ağır yumruğu ilə Səmədin açıq sinəsini dürtmələdi.

– Ey, filosof! Hardasan?.. Ə, nə gözlərini döyürsən? İçmisən nədi, əmini tanımırsan?

Mübaliğəsiz demək olar ki, Səməd xoşbəxt idi. Çünki əmisinin dürtməsi də, baxışı da, gülüşü də xoşbəxtlikdən xəbər verirdi: "Boş kitel" dolu idi; o dəhşətli röyanın özü kimi dəhşəti də röya idi. Bu dürtmə, bu baxış, bu qəhqəhə açıq-aydın demirdimi ki, Sultan əmi doğrudan günahsızdı. "Həqiqət", "müqəddəsat" sözləri ömrü boyu dilindən düşməyən Xızr kimi ciddi adamın inamından da məlum deyildimi ki, Sultan həqiqətən günahsızdı?! Səməd əmisi üçün təhqiramiz şübhəyə düşüb Gülgəzə, sonra da Hənifə arvadla Əlləzoğluna sual vermişdisə, bu, sadəcə, sarsıntıdan olmamışdımı?!

Yox, dünya Sultansız deyildi. Səməd xoşbəxtdi və bu xoşbəxtlik üçün hər şeyi unutmağa hazırdı. Odur ki, özünü əmisinin üstünə saldı. Qucaqlaşdılar. Və Səməd doğrudan da hər şeyi unutmuş kimi, hönkürtülü, sızıltılı, göynərtili Gülgəz əvəzinə, üfüqün parıltısı içində buğ püskürən samovar yanında qırmızı qıymaçalı, qırmızı xalatlı "elqızını" gördü. İndi Səməd ömrü boyu tək qalmağa da, fədai əmi kimi hər cür məhrumiyyətə, əzab-əziyyətə, işgəncəyə də hazırdı ki, əgər Sultan əmi qardaşı oğlunun o "elqızı" ilə yaxınlığını unudub xoşbəxt ola bilərsə olsun, körpə səsi eşitsin, "mənim balam" desin! Səmədə bundan artıq heç nə lazım deyildi və əmisini qucaqlayıb bağrına basmağı ilə də yəqin elə bunu demək istəyirdi ki, sənin xoşbəxtliyindən başqa mənə heç nə lazım deyil.

Əgər öz gur hissiyatından əlavə bir şey düşünə bilsəydi, bu saniyələrdə Səməd özünü nadir saf insan ucalığında görərdi.

Elə ucalıqda idi ki, əmisini hətta öpmək istəyirdi. Sultan imkan verməyib, ərklə onu dala itələdi.

---

[41] Stalinin sözləri.

– Qoy bir baxım görüm imtahan çoxmu sıxıb səni?.. Sıxıb deyəsən. Əmma çox yox. Yeməkxana yaxşıdı orda. Professorun Məhərrəm çox vaxt ordan hazır xörək apartdırır evinə... Səndən heç bir gizli sözüm olmayacaq. Açığı, dünyamız zülmətə bürünüb, oğul. Danışacam... Dedilər kəndə getmisən. Onu başa düşdüm. Xeyli vaxtdı zəng vurmuram, yoxlamıram yeni kadrımı. Nə qədər ərköyün olsa da, məncə, kadrım inciməməlidi belə şeylərdən...

Səməd susurdu. Səmimiyyətdən kənar söz deməк, yalan danışmaq istəmirdi.

Sultan özü onu bu vəziyyətdən qurtarmağa çalışdı:

– Bəs niyə quru yerdə yatmısan? Çarpayıda taxtabiti var, nədi? Hə də, əlbəttə var. Geriyik hələ, çox geriyik. "Kommunizmin astanasındayıq!"[41] Əmma adicə sanitariya qaydalarına riayət eliyəmmirik. Kənddə birə daraşır canımıza, şəhərdə taxtabiti. Hətta sanitariya işlərinə də raykom qarışsın gərək, o dərəcədədi səviyyəmiz! Şəriksən mənnən ya yox? Taxtabitiyə görə düşmüsən bu çarpayıdan, ya yox?

Səmədin yadında idi ki, səhər-səhər mehmanxana müdiri Marqonun müşayətilə gəlib dar nömrədə, cır-cır cırıldayan yarıtaxta, yarıdəmir çarpayıya səriləndə, başının üzərində peyda olan Qurban əmi – Qılınc Qurban da taxtabitidən danışmışdı və döşəkağını döşəməyə sərib, "Burda yat", – demişdi. Nə isə, dumanlı bir hiss o taxtabiti söhbəti ilə bu taxtabiti söhbətini birləşdirib aparıb Əlləzoğlunun iyli çarıqlarına bağladı və Səməd əmisinin sualının cavabında, birdən-birə ürəyinin özəyinə işləyən kədərlə dillənib:

– Şərikəm əmi, şərikəm! – dedi.

Sultan köksünü ötürdü.

– Hə... Bu taxtabitili çarpayıynan gedirik kommunizmə! Rəhbərimizin sözüynən əməli tutmur, qardaşoğlu. Bakıdan kamandirovkaya gələnlər bircə gecə qalıb, səhərisi vağzala cumurlar. Bəribaşdan nəzərə al bunu, yoldaş təzə kadr. Yaxşı, hələ çoxmu dayanacaqsan belə lüt-üryan? Geyin də!.. Yuyun, geyin gəl! Aşağıda gözləyirəm.

Sultan qardaşoğlunun yuyunub, geyinib əmisi ilə birgə evə gedəcəyinə və orada – evdə hər şeyin öz qaydasında olacağına şübhə etmədən, nömrədən çıxdı, içərisində yatıb qalan lil-palçıqdan xilas olub daxilən yüngülləşmiş kimi dikəlib, çəkmələrini cırıldada-cırıldada, göv-

dəsinin ağırlığı altında, mehmanxananın min yerdər çatlamış binasını titrədə-titrədə, dəhliz boyunca addımlayıb, birinci mərtəbəyə endi.

* * *

Səməd döşəkağına bürünüb, bütün mərtəbəni gəzib, hətta tualetdə də su tapmadı, bir də nömrəyə qayıdanda orda, əhəng qoxuyan divarın küncündə, paslı lüləyi fırladıb sızğıntı gördü, lüləyin dal tərəfinə söykədilmiş paltar sabununu götürüb, ovcunun sızğıntıdan dolmağını gözləyə-gözləyə yuyunmağa başladı. Ülgücü çamadanda idi, çamadanı isə qaranlıq, zülmət meşədə. Əllərini üzünə sürtdükcə, sıx, cod saqqalı ovuclarında xışıldadıqca, o zülmət meşədə budaqlardan gurultu ilə qopub ulduzlu göyün dərinliklərinə cuman quşların topa qaraltısı Əlləzoğlunun zingiltili qaraltısına, Gülgəzlə Qurban əmi – Qılınc Qurbanın qaraltıları içi boş kitelin bozartısına qarışırdı. İnanmaq olmurdu ki, Sultan əmi indicə bu nömrədə idi, "Bircə balanın" çılpaq çinəsini dürtmələmişdi, gülmüş, danışmış və indi aşağıda gözləyirdi ki, Bircə balanı evə aparsın. Səməd, əlbəttə, gedəcəydi. Getməli idi. Üzü, peysəri od kimi idi, alnının sümüyü elə bil kürədə qızmışdı, soyuyan şey deyildi, küçədə də, evdə də elə bu cür qızğın qalacaqdı. Əmma Səməd mütləq getməli idi ki, Sultanlı dünya Sultansız olmasın, elqızı o evdə binələnə bilərsə, binələnsin, o evdən də körpə səsi gəlsin. Mədəd və ya Sura adında körpə!

Möcüzə baş verəydi, Mədəd və ya Sura adında körpə elə günü bu gün dünyaya gələydi!

Lüləkdən, – sızqadan Səməd belə ayrıldı, səhər-səhər sulu, palçıqlı atdığı şalvarının yuyulub yamandığını, ütüləndiyini, ayaqqabılarının təmizlənib silindiyini hiss etmədən, cəld geyinib birinci mərtəbəyə endi, orda – qarderobla yanaşı otağın kandarında dayanmış yorğun-üzgün erməni qızı Marqo əvəzinə elə bil daş divara baxa-baxa keçib, mehmanxanadan çıxdı.

Sultan əmi küçədə idi. Həmin yeganə geniş küçənin bu başında, kazarmasayağı binalardan və vağzaldan təxminən iki yüz addım aralı olan bu çinarlı, çökəli yaşıllıqda, qədim məsciddə yerləşən anbarın sağsolundan ətrafa dar küçələr uzanırdı. Şəhər əhalisi əsasən elə bu küçələrdə, taxta darvazalar arxasında, kirəmid damlı, birmərtəbə evlərdə yaşayırdı. Rayonun məsul işçiləri, o cümlədən Məsim Qudalı – "Əfəl Məsim" də, Əziz Mayılovla "diapozonlu xanım" – Məleykə bacı da bu

tərəfdə olurdular. Səhər gəlib mehmanxanaya burulanda Səməd istər-istəməz anbar məscidin qabağından o yana baxdı. Küçənin dərinliyində, boz taxta darvazalardan biri Məsimgilin darvazası idi və Səməd yəqin bilirdi ki, əgər dünən qatardan düşəndə birbaş Məsimgilə getsəydi, "Gülbəniznən görüşsəydi", nə əmisinin həyətində olardı, nə kənddə – Əlləzoğlunun evində, nə də burada – mehmanxanada. Çünki palıd kötüyünün arxasında pəncərəsi saralan daxma kimi, box taxta darvaza arxasındakı ev də sirlə dolu idi və əgər o sirlər açılsaydı, bundan, şübhəsiz, tamam başqa hadisələr törəyərdi. Özü də elə hadisələr ki, əmi ilə qardaşoğlunu həmişəlik ayırardı; Səməd bunu hiss edirdi, duyurdu, hətta bir növ anlayırdı. Odur ki, palıd kötüyünün arxasında saralan pəncərədən necə qaçıb uzaqlaşmışdısa, boz taxta darvazadan da eləcə uzaqlaşıb özünü mehmanxanaya salmışdı. Bir sirr ki, Sultanlı dünyanı Sultansızlaşdıra bilər, necə sirr olur-olsun, Bircə bala o sirlə heç vaxt maraqlanmamalıdır. Gör bir nədən danışdılar – taxtabitidən! Və elə bu taxtabiti söhbəti əmi ilə qardaşoğlu arasında körpü yaratdı. Çax-çux da rədd olsun, daxması da, darvazası da! Körpünü saxlamaq, əmi ilə ünsiyyəti saxlamaq, taxtabitili, birəli, çarıqlıq dünya içində dərdinin böyüklüyü açıqca görünən bu əzabkeş katibin hər dərdinə şərik "yeni kadr" olmaq üçün Səməd daha heç bir kənar söz-söhbətlə maraqlanmamalıdır. Necə yəni "partiya işçisi olmayacaqsan?!" Necə yə"ni, "Bağların varisi?!" – Bütün bunlarla birlikdə elə bil Abı özü də Qurban əmi – Qılınc Qurban kimi, danışan kitel kimi röya idi. Bir az bundan əvvəl Bircə balaya "yeni kadr" deyən əminin bu sözləri isə hər ikisinin köhnə arzusu, "proqramlaşdırılmış həyat" idi. Bu həyatın əksinə nə varsa, kim varsa, hamısı məhv olsun! Səməd hisslərini cilovlamalı, iradəsini toplayıb ancaq və ancaq Sultan Əmirlinin xoşbəxtliyinə tabe etməlidir!

Küçədə əmisinə belə yaxınlaşdı.

Sultan hamanca hüznlü gözlərlə onun boy-buxununa, qıçlarının sərbəst, sanballı tərpənişinə, qollarını uzunluğuna, əllərinin ağırlığına fikir verirdi.

– Gəl, gəl, – dedi.

Sonra küçə boyunca irəli boylanıb ciddiləşdi, sərtləşdi, öz köhnə zəhmli, zabitəli görkəmində:

– Getdik! – dedi.

Beləliklə, dünəndən bəri çalxanıb, vurnuxub, dəli-divanə hərəkətləri ilə bütün şəhərdə sensasiya yaradan qardaşoğlu ilə bu gün mütləq

biabır olacağı gözlənilən əmi, iş gününün axırına yaxın, səkilərin adamla dolduğu bir vaxtda, küçənin tən ortası ilə, yanaşı, çiyin-çiyinə addımlamağa başladılar.

Vağzal meydanının bərabərindən ta Sultan Əmirlinin evinin bərabərinə qədər, bu küçəyə raykomun, icraiyyə komitəsinin, milis şöbəsinin, prokurorluğun və maarif şöbəsinin maşınlarından başqa, at, araba buraxılmırdı. Günün bu vədələrində yanğın idarəsinin maşını bu başdan o başa gedib, o başdan bu başa gəlib su çiləyəndən sonra isə ümumiyyətlə nəqliyyat kəsilirdi. Çesuyçalıların səkiyə yığışması, cərgələnməsi, beşbir-üçbir baş-başa verməsi də elə bu vaxt başlanırdı. Odur ki, Səməd anbar məscidin dövrəsindəki cökəli, çinarlı yaşıllıqdan bu yana ilk addımını atandaca, dərhal çesuyçalıların ağartılarını gördü və əmisinin küçə boyunca irəli boylanan gözlərinin dəyişməyinin səbəbini anlayıb, istər-istəməz özü də dəyişdi.

Solda, mərkəzin göstərişi ilə əkilmiş, qaralıb-boğulub boy atmayan "Rus ağaclarının", yolkaların qaraltıları arxasında, geniş həyətli birmərtəbə binalarda yerləşən RİK-lə milis şöbəsinin və prokurorluğun səkilərində heç kəs yoxdu. Sağda – kazarmasayağı binaların səkiləri isə beşbir-üçbir ağartılarla dolu idi. Lap yaxşı! Qoy baxsınlar! Əmi ilə qardaşoğlunun münasibətini görsünlər! Ölsünlər!

Səmədin içərisi tərpəndi: ağartılara yaxınlaşdıqca bu adamlara köhnə kini necə qaynadısa, heç cür özünü saxlaya bilməyib, nümayişkaranə hərəkətlə əmisinin qoluna girdi.

– Afərin!.. – Sultan ovcunu onun əlinin üstünə sıxdı və küçənin tən ortası ilə getdiyi halda, birdən yolunu dəyişib səkiyə qalxdı. Sağ səkiyə!

– Süleyman nəslisən! Məhəmməd Əmirsən! Ağ Əmir, Boz Əmirsən! Mədədsən! Sultansan!.. Xızr Abı mənim tapşırığımnan danışıb sənnən... Gizlin "Muğlar" – Bağlar övladısan sən, Bircə balam! Gizlinlər tülkisifət olmamalıdılar. Sənin ən adi hərəkətin də düşmənin gözünə iynə kimi batmalıdı, sarsıtmalıdı ki, çox da fəallıq eləməsinlər. "Düşmən" deyirəm. Əslində düşmən-zad deyillər. Bu çesuyçalıların çoxunu Zəngəzurdan Naxçıvanın Sədərək rayonundan köçürdüblər. Göyçə gölünün dövrəsindən, dağ kəndlərdən köçürüblər. Bu adnan ki, bəs, Azərbaycanın hər yerindən Almanlar sürgün olunublar, Stalin yoldaşın öz əmri-

[42] "Siz türkləşdirilmiş, farslarsınız. Siz türklərə nifrət etməlisiniz! Bax belə!"

dir ki, Naxçıvan, Zəngəzur səmtində nə qədər "türk" adıynan tanınanlar varsa, hamısı Kür çayı boyuna köçürülsünlər. Bu ağ ipək geyilib sallana-sallana gəzənlərdən birinin də xəbəri yoxdu kimdi milliyyətcə! "Stalin yoldaş deyib" "Türk deyilsiniz siz, Azərbaycanlısınız!" İnanıblar ey! İndi gör mənə nifrətlərinin kökü nədi: "Sultan Əmirli bizdən deyil, türkdü!.. Bir nəfər də qanan yoxdu ki, "Stalin yoldaş" bu bədbəxtləri Osmanlı türkü deyilənlərdən ayırmaqdan və Zəngəzura, Göyçəyə Erməni doldurub, bizi belə-belə üsullarnan tədricən məhv eləməkdən ibarətdi! Vaxtı çatanda biləcəksən ölkəmizdəki bu ayrılıq, kin toxumunun dərin-dərin səbəblərini. Hələlik bir bunu bil: insan yoxdu bu səkilərdə, kütbeyin eşşəkdi hamısı! Babası Tehrandan Zəngəzura köçürülüb, farsca danışıb orda Tehran ləhcəsiynən, deməli bu da farsdı! Türk Sultanın başını yeməlidi! Xudiyev açıq deyirdi bu eşşəklərə: "Vı oturçanenıye persı! Vı doljnı nenavidet Turkov! Vot tak!.."[42]

Sultan bu sözləri qardaşoğlu ilə birlikdə çesuyçalılara da eşitdirirdi. "Türk! Türk!.. Əsl ad getdimi bada?!"

Birdən səsini qaldırıb:

– Bizim şəxsi bədbəxtliklərimizin hamısı bax, bu köhnə antitürk ideologiyasındandı! – dedi. – Kitablarda bir dənə də OdƏr adına rast gəlməzsən!..

Çesuyçalılar özlərini itirmişdilər. Qardaşoğlunun qolu qolunda, onların üstünə yeriyən bu Sultan Əmirli həmin, köhnə yarımallah Sultan Əmirli idi ki, ordan-burdan salam verənlərin salamını da almadan, düz irəli baxa-baxa, danışa-danışa şəstlə addımlayıb, dediyi həqiqətlərin zəhmi ilə hamını qırağa çəkilməyə, divara qısılmağa məcbur edirdi.

Tək bir nəfər, əli portfelli, yoğun adam ləyaqətlə dayandı.

– Axşamınız xeyir, yoldaş Əmirli, – dedi.

Bu, maarif müdiri Mirbağır müəllim idi. Əmma Sultan ona da cavab vermədi. Bu Mirbağır da özünü yarıfars, yarıtat sayırdı, Xudiyevin səpdiyi toxumu cücərtmək üçün maarif şöbəsini, məktəbləri "özününkülərlə" doldururdu. "Şiə bu tayı tutub, burda da möhkəmlənəcək, Sultan Mamedoviç. Rus durub arxamızda. Siz özünüzü çox nahaq kənar tutursunuz. Xeyri dəyməz" – deyirdi. Bu yumşaq, itaətkar görkəmli "naxal" – həyasız kişini Sultan daha çox bəyənmirdi. Odur ki, sələma qəsdən cavab vermədi. Bir də ki, bu səkidən, bu binaların taybatay açıq

qapı-pəncərələrinin qabağından keçib mehmanxanaya gedəndə olduğu kimi, indi də fikri Bircə balada idi.

– Heyif, Abıya imkan verməmisən danışsın. Bütün cinayətlər cəhalətdən törəyir, oğul. Güzəştə getmə cahilə. Stalinin, Mirqəzəbin, Xudiyevin səpdiyi toxumdu. Bitib qalxıb, rayonu basıb! Vətən saymırlar Azərbaycanı, təsəvvür etmirsən. Şəxsi maraq xirtdəkdəndi, ictimai maraqdan əsər-əlamət yoxdu! Çünki milli kökdən, məhz milli kökdən – OdƏrlikdən, şüurdan məhrumdurlar! Qorxmasalar, çəkinməsələr, çöpü çöp üstə qoymazlar. Hökmən gərək əmr olsun, zorakılıq olsun aparatdan! Özü də, ümumiyyətlə, aparatdan, katiblərdən, şöbələrdən yox, mütləq "şəxsən Sultan Əmirlinin özündən!" Su kəməri partlayıb, cəhənnəmə partlasın! Maliyyə nazirliyi cari təmirə pul buraxmır, su idarəsi təmir idarəsi ilə müqavilə bağlamır, təmir idarəsi də müqaviləsiz işləmir, vəssalam! Kimin nəyinə gərəkdi başqa tədbir fikirləşsin?! Nə qədər ki, şəxsən Sultan Əmirli xəbər tutmayıb, ictimai əsaslar üzrə işləmək barədə şəxsən göstəriş verməyib, su düzə axacaq, su kəmərinin sağ-solunda keçilməz bataqlıq əmələ gələcək, ağcaqanad dünyanı götürəcək, pul buraxılandan sonra da o bataqlığa görə iş getmiyəcək, nəticəsi də bu olacaq ki, antisanitariya basacaq şəhəri, mənim qardaşım oğlu da üzünü qırxmamış çıxacaq küçəyə, baxan da deyəcək görəsən niyə saqqallıdı, adamı ölüb nədi!

Sultan indi lap ucadan danışırdı. Çesuyçalılardan bəzilərinin – xırda idarə başçılarının əməlli-başlı titrədiklərini, yəni, öz ünvanlarına deyilən sözlərdən qorxuya düşdüklərini, eynilə Əlləzoğlu kimi rəzilləşdiklərini gördükcə Səməd fikrən "Tfu!" – deyirdi.

Qolu əmisinin qolunda, əmisinin addımlarına uyğun addımlarla, eynilə əmisi kimi düz irəli baxa-baxa, qızartdaq darvazaya doğru gedirdi. "Avariya" günü əmisinin hənirində ata həniri tapdığı dəqiqədən sonra əmisinə heç vaxt indiki qədər yaxın olmamışdı: çesuyçalılara kin onları iki canda bir qəlbə çevirmişdi və bu dəqiqələrdə Səməd bu birliyə mane olası bir şey görmürdü. Əmma raykomun qabağından keçib, çesuyçalılardan uzaqlaşıb, qızartdaq darvazaya yaxınlaşdıqda qolu öz-özünə boşalıb əmisinin qolundan üzüldü, ürəyi qəribə – uzun fasilələrlə vurdu, hətta addımları da dəyişib tərəddüdlü oldu və Səməd başa düşdü ki, hisslərini cilovlamaq, hər şeyi Sultan Əmirlinin xoşbəxtliyinə tabe etmək

---

[43] Xalq-maarif komissarlığı (*nazirlik*).

qərarının qətiliyinə baxmayaraq, ürəyi iradəsinə tabe olmur, əgər bu müxənnət ürək bir az da bu cür dayana-dayana vursa, Bircə balanın üzünü vaxtında qırxmadığına da diqqət yetirən əmi bu ürəyi görəcək, evdə "elqızı"nın yanında isə, şübhəsiz, çarəsiz dərd içində qalacaq...

* * *

Neyləsin? Bəlkə getməsin evə? Necə getməsin? Bir bəhanə tapıb dayansın, qayıtsın? İndicə, raykomun qabağından keçəndə Əziz Mayılovla Məleykə bacını həmin yerdə – həyətdə gördü. Bəlkə desin ki, ayıb oldu Əziz müəllimlə görüşmədim? Axı o kişinin qabağından düz keçmək doğrudan da yaxşı iş deyil. Həm qohum idi, həm də uzun müddət rayonun ən hörmətli pedaqoqlarından olub, otuzuncu illərin cavan müəllimləri səfərbərliyə düşüb müharibəyə aparılanda, yəni məktəblərdə müəllim çatışmayanda, Əziz Mayılov "narkomprosun[43] kandarını yağır eyləyib", "təcili pedaqoji kadrlar hazırlamaq üçün" Qazax şəhərində ikiillik institut açılmağının vacibliyini sübut eləyib. Qısa müddətdə – ikicə ildə cibi diplomlu olmaq imkanına görə cavanların əksəriyyəti, o cümlədən Səməd məhz Əziz müəllimə minnətdardır. Bütün bunlar əsas vermirmi Səmədə desin ki, qayıdım görüşüm? Bəs niyə dillənmir? Sünilikdən çəkinir? İkiüzlülükdən? Bəs bu cür sıxılıb açılan ürəklə, bu cür dolaşıq addımlarla gedib Gülgəzin yanında da üzə maska çəkmək nədir? Hər şeyi Sultan Əmirlinin xoşbəxtliyinə tabe etmək qərarı ilə gəlibsə, daha bu bəhanə-filan nədir? Yox, yox, əlbəttə ki, heç bir bəhanə gətirmək olmaz. Bax elə bu cür ürəklə, bu cür addımlarla getməlidir, çətinliyi birdəfəlik və həmişəlik üstələmək üçün, əmisinin arvadı ilə görüşməlidir, bəlkə hətta, "Sən bu evə xoş gəlmisən", – deməlidir. Başqa yol yoxdur. Ancaq bu cür hərəkət etməlidir və bu hərəkətin işgəncəsinə dözmək nə qədər çətin olsa da, dözməlidir!

– Təzə kadr nə tez daldı qayğılar dəryasına?.. Rayonun daxili vəziyyətiynən, dost-düşmənnən maraqlanardın əvvəllər. Başa düşürəm... Sarsıntının buzunu sındırmaq çətindi. Abı hazırlamalıydı səni ki, görüşümüz çətin olmasın. Əmma insanı öz səviyyəsindən yuxarı qaldırmaqdan ötrü vaxt lazımdı. Çox, çox, qeyri-adi qaydada dəyişdirməliyik biz səni. Yoxsa dil tapmayacaqsan əminnən. Açığı... lap açığı budu ki, rayonun

---

[44] KeQeBe nəzərdə tutulur.

[45] Dini kommunizm

daxili vəziyyəti-filan haqqında qəsdən sual verdim. Susma, oğul! Tərpət dilini!

Gərginliyin aradan qaldırılması üçün yəqin ki, məhz belə mərdlik tələb olunurdu. Səməd nəfəsini dərib, əlini üzünə çəkib saqqalını xışıldatdı.

– Daxili vəziyyəti özün yaxşı dedin. Qısa və aydın: "Kommunizmə taxtabitili çarpayıynan gedirik".

Sonra sövq-təbii, söhbəti uzatdı:

– Təyinnamə alanda soruşdular ki, rayonunuzun perspektiv işləri barədə nə bilirsən? Şişdim qaldım... Zabitlər evinə aparmışdılar o günü. Sən daha yaxşı bilirsən necə zabitlər evidi ora. Orqanın[44] məxfi guşələrindən biridi. Sual verdilər. Leninin maxizmi[45] tənqidi haqqında. Kimsə bilirdi kiməm mən, elə ona görə məhz maxizmə aid sual verdilər. Mən də açıqca, hərtərəfli danışdım, başa saldım ki, maxizmin dəxli yoxdu mənim şeyx əmilərimə. Dini kommunizm, materiyanın fövqündə olan ədalət yaddı Ağ Əmirlə Boz Əmirə. Təhrif dillərdə "Allahı" tənqid eləyiblər şeyxlər, ƏlAğı, yəni Safİnsan Əli – Oğlunu, insanı təbliğ eləyiblər. Onu da dedim ki, "İsa" təhrif addı Ərəb dilində. Əsli EySardı dedim; qısası köhnə söhbətlərimdən yadımda az-çox nə qalmışdısa, dedim orda. Biri qışqırdı ki, "İisus adı ilə məşhurdu Sın Boqa! Sən niyə türkə çəkirsən?!" Dedim "Türkə çəkənlər yox" həqiqəti deyənlər məndən əvvəl deyiblər. Mən istəyirəm ki, o əmilərim Şeyx Ağ Əmirlə Şeyx Boz Əmir "Sın Boqa"nı Yerlə sıx əlaqəli şəkildə, materiya ilə bağlı biliblər, kasıb əhali ilə əlaqələrini bizim proletar ideyaları ilə əlaqəli götürüblər. Din yoxdu burda! Özümün də xoşum gəldi cavabımdan. Əmma rayonumuzun perspektiv işlərinə gələndə köpdüm. Etiraf elədim ki, cari ilin plan göstəricilərindən başqa hey nəynən maraqlanmamışam. Yaman sərtləşdilər. Dedilər "rayonun sabahına laqeydsənsə, partiya işçisi demək olmaz sənə!.." Başa düşdüm ki, anketimə görədi hamısı.

---

[46] Fətəli xan Xoylu, Qazax qəzasında məskunlaşan Muğannalarla əlaqə yaratmışdı, SafAğ Elmi əsasında, bütöv Azərbaycan ərazisində dövlət yaratmaq niyyətində idi: Şimali, Qərbi, Şərqi, Cənubi Azərbaycan arasında çəkilmiş sərhəd sədlərini möhkəmləndirmək və Rusiyanın himayəsi altında, yalnız Şimali Azərbaycanda hakimiyyəti almaqla kifayətlənən "Müsavat" dövləti ilə gizlin rəqabətdə idi. Buna görə də qızı Məstanəni indi "Ermənistan" adlandırılan ərazinin AğBizən kəndində gizlin adla yaşayan İsmayıl ağa Muğannanın oğluna ərə verib qohumlaşmışdı ki, Muğannalarla əlaqəsini sırf qohumluqla pərdələsin. Sultan Əmirlinin Fətəli xanı da "Pünhan" adlandırması, Azərbaycan tarixinin nə qədər gizlin məcralarla axdığını göstərir.

Zabitlər evində o sual da anketimə görə idi, bu da... Bilirsən nə dedim?.. "Bezobraziye" barədə danışdım. Sədr Mədədin ölümü barədə. Teleqram barədə! Stalin yoldaşın internasionalizm prinsiplərini anlamayan, məhdud dünyagörüşlü kadrlara nə ki var döşədim! Xudiyevə, Gülənova! Dedim "nə qədər ki, orda elə adamlar var, Sosialist Əməyi Qəhrəmanı Sultan Əmirlinin rəhbərlik etdiyi rayonda planların ödənilməyinin özü də qəhrəmanlıq sayılmalıdı. Perspektiv işlər məni o vaxt maraqlandırar ki, kadr sağlam olsun. Sultan Əmirlinin ətrafında, gələcəyə baxan adamlar olsun. Pıçhapıç düşdü aralarında. Sonra zarafata düzdülər dalını: "Kadr – sən! Bir də əmin Əmirli! Başqa qohumun varsa, de onu da göndərək, Əmirlilər partiyası təşkil eləyin orda". Belə... Daxili vəziyyəti belə görürəm mən. Sənnən sənin beş-üç dostundan, bir də təzə kadrından başqa kadr görmürəm... Bakı mühitindən gəlir bunun hamısı. "Bezobraziya"nın kökü ordadı, əmi, yerli kadr neyləsin?! Daha nə deyim?.. Açığı, ən səmimisi budu ki, başım dumanlıdı... – Səməd qızardı, öz səmimiyyəti üzündən artıq danışdığını duyub pörtdü.

Sultan ona baxıb dərhal gözünü yayındırdı. Eynilə mehmanxanadakı kimi, ciddiləşməyi ilə gülməyinin arası bir şey çəkmədi:

– Yoldaş Əmirlinin tənqid atəşindən başları xarab olanda çesuyçalılar deyirlər: "Gedək başımızı düzəldək", yəni içək, qəmlər dağılsın. İçirdəcəm bu gün səni, Bircə bala. Özüm də möhkəm içəcəm. Mədədin vəsiyyətini Abının diliynən mən xatırlatmışam sənə... Heyif, Elm barədə kifayət qədər danışmamışıq sənə. Abı təsir eləməyib sənə. Deyir əvvəllər eşitdiyini də unudub.

Rayonda zurna çalınır: "Qardaşı oğlunun, Bircə balasının istəklisini gətirib özünə arvad eyləyib"!..

Düşmən qəvidi, canım-ciyərim.

Qazağın Dağ Kəsəməninde köhnə Pünhanlarımızdan Fətəli Xan Xoynan[46] qohumları qalmışdı. Köçürdüm o yan-bu yana, dağılışdılar, kömək elədim pasportlarını da dəyişdirdilər. Əmma əlaqələrini kəsmirlər mənnən... Aşıq Hüseyn Cavanın başına yığışmışdıq Qarayazıda – Qaratəpədə. Biri dedi: "Dilimlə deyil, dilim-dilim olan, ay ustad, elimdi!" Dedik: "fərqi nədi?" Dedi: Tatarları da sürmüşdülər Krımdan, Tatarıstandan, Balkanları, Qaraçayları da! Yazdılar, yazdılar Kremlə, axır odu bax qayıdırlar öz vətənlərinə! Bizi it unu kimi dağıdıblar hər yerə, bəs

biz neyləyirik?! Yığışırıq, öz aramızda sızıldaşırıq: "Ay dilim-dilim dilim! Nolsun?!"

Düz deyir o kişi.

Sözdən işə keçməyin vaxtı çoxdan çatıb, Bircə bala. Əmma hanı Fətəli Xan kimi, Nərimanov kimi kadrlarımız?!

"Bezobraziye" dəridən çıxır, hazırlaşır ki, bu il mütləq yeşikdə qoysun məni. Professorun Məhərrəm zəng vurmuşdu Bakıdan. İki ildə sənin orda kefin-əhvalın, oxumağın, dolanman barədə hər ayın başında məlumat verib o mənə. Yoxsa rahat olammazdım. İndi dediyin "maxizm" əhvalatını da səndən qabaq professorun deyib mənə. Fəxrnən danışırdı: "Safdı, mərddi, prinsipialdı!.." Sonra səsi dəyişdi, dedi qohumum Çax-çux buralarda hərlənir, Xudiyevnən görüşür... Povışeniye alıb Xudiyev, nə isə yeni vəzifəsi var... Onun vasitəsiynən Mərkəzi Komitədə kiminsə qəbulunda olublar "dostlarım", məsələ qaldırıblar ki, Sultan Əmirli daha yaramır katibliyə. Belə işlər var, yoldaş təzə kadr... Gedərik indi dincələrik, danışarıq. Kişi bir dəfə evlənməlidi ömründə. Mənim o platonik sevgim də dildə-ağızdadı. Dostlarım deyirlər doğrudan platonik olub Qıymatnan, düşmənlərim deyirlər elə əvvəlcədən pozğun adamdı Sultan, hər küncdə bir arvad saxlayıb, uşaq-zad da istəməyib ki, əl-ayağına dolaşmasın, kam alsın bu dünyadan. Çox söz dəyəcək qulağına, ömründə eşitmədiyin sözlər eşidəcəksən əmiyin barəsində. Dözmək lazımdı. Səbr eləmək, dözmək! Yeri gələndə də elə davranmaq lazımdı ki, gözü kəlləsinə çıxsın düşmənin! Bayaq qolunu qoluma salanda dədələrini yandırdın. Çəyirtkədilər! Sarança! Nə danışırlar, boğaznan, qarınnan bağlıdı hamısı. Sabah yığım kompaniyası başlanır, kababxanaların çoxunu bağlatmışam, içkini qadağan eləmişəm. Ta yığım qurtaranacan qarın söhbəti eləyəcəklər mənim bu fəallarım, kababa görə despot adlandıracaqlar məni. Hələlik bu qədər. Dalını evdə danışarıq. Konkret təklifim var yeni kadrıma. Harda, hansı postda kimlərnən və necə işləyəcəksən? Hamısı qət olunub. Çox təəssüf, öz həyatın proqram üzrə getmədi. Mirqəzəb adlı iblisin pəncəsində sıxıldım, Elm verəmmədim sənə. Əmma ətrafın boş deyil. Məhərrəm, Abı, Cənubdan gələnlər. "Mühacir" adlandırırlar hamısını; guya yad ölkəyə qaçıblar! Onlarla əlaqə yaradacaqsan, başqa cür yaşayacaqsan. Şəxsi həyatın, evin-eşiyin də, şübhəsiz başqa cür olmalıdı.

Səməd suya batmışdı. Boz triko kostyumun altından qolsuz köynəyin ancaq boyunluğu quru idi. Əmma tər yüngüllük gətirmədi. Kiminsə taybatay açdığı darvazadan da əmisi ilə yanaşı keçib, bağı, həyəti yenə tüstülü görüb, başı sarğılı Əlləzoğlunu da tüstünün içində görəndən sonra nə hala düşdüsə, Səməd hara və necə getdiyini bilmədi. Bir də o vaxt ayıldı ki, evdə, həmin yetmiş kvadratmetrlik zalda, stolun arxasında təkcə oturmuşdu.

**7**

Nə Sultanla Səməd, nə Xızr Abı ilə Çürük Aşıq, nə Məhərrəm, nə də "mühacirlər" və bütün "Pünhan"lar – hələ heç kəs bilmirdi ki, "çesuyçalılar" adlananlardan, əvvəllər olduğu kimi, hər beş nəfərdən biri yox, indi hər iki nəfərdən biri birbaşa Moskva KeQeBesinin işçisi idi. Hətta Azərbaycan KP MK-dan və respublika KQB-sinin özündən də gizlində, hər cür dünya nemətləri ilə təmin olunan, xalqdan tamam ayrılıb, bu xalqın keçmişi, gələcəyi ilə məşğul olan Muğannaları nəinki addım-addım izləyirdilər, hətta, imkan olanda – şərait yarananda öz şəxsi təşəbbüsləri ilə öldürürdülər. Bu təhlükəni tək bir nəfər, bütün Dövlət Təhlükəsizliyi işçilərinin sadəcə "Saşa" adlandırdıqları bir nəfər polkovnik bilirdi. Bu bəstəboy, son dərəcə məlahətli oğlanı Muğannalardan demək olar ki, hamısı oğul, qardaş, yaxın-əziz qohum kimi sevirdi. "Saşanın üzündə şeytan tükü var" – deyəndə məhəbbətlə gülümsəyirdilər. Bu məhəbbətin, əlbəttə, ciddi səbəbi də vardı: Gürcüstanın ən ucqar guşələrində yaşayan "Muğ" – Bağlardan başlamış, Şimali Azərbaycanın ən ucqar rayonlarından Lerikə qədər, Muğannalardan kim həbs olunurdusa, Saşa, yalnız özünə məlum möcüzə ilə xəbər tutub, cinayət işi-filan yazmamış, istintaq başlanmamış, təkbaşına, türməyə – həbsxanaya gedib, lazım gələndə hətta əlini yarımavtomat naqanın üstünə qoyub, qısaca "Azad edin" və ya "mənim şəxsi işçimdir" deyib buraxdırırdı. Sultan nə qədər kədərli, sarsıntılı olsa da, hətta gecələrin birində o qalın bağın dərinliyindən bəriyə güllə açılacağına heç bir şübhəsi olmasa da, əmin idi ki, Saşanın kor görünməz əli həmişə haralardasa – ətraflarda dolana-dolana onun özünü və Bircə balanı qoruyurdu və sədr Mədədin ölümündən sonra bu iki nəfərin – əmi ilə qardaşoğlunun

---

[47] "Mən Saşayam... Mən Saşayam... Mənim adaşımı tutmağın vaxtı çatıb".
[48] Nəzarət altında.

saǧ qalmağının səbəbi də məhz o "əl" idi. Çox təhlükəli hallarda isə o "əl" Saşanın özü idi. Başında Əlləzoğlunun "motal" papağı, çiynində Əlləzoğlunun əlli ildən qalma əprimiş arxalığı, zalın qapısında bir an görünüb, əlindəki uzun kabab şişini dişinə çəkə-çəkə geri qanrılıb yox olan o oğlanı nə aşağıda – həyətdə olan Sultan gördü, nə də Səməd: polkovnik Saşa məlahətlə qımışıb, dabanı üstə dönüb yoxa çıxdı. Səməd onu Sultanın həyət-bacasında qulluq eləyən Seyid kişi kimi adamlardan biri sayıb, heç diqqət də yetirmədi...

Hələ heç kəs, o cümlədən Saşa özü də bilmirdi ki, bu ağ daş evin yaxınlığında, bağın çalkeçid budaqları altında daha bir nəfər naməlum adam, kababın ətrini dəf etmək üçün cibindəki balıq konservini bıçaqla açıb, yeyə-yeyə Saşanı daimi "pod kolpakom"[47] saxlayırdı ki, lap tezliklə qanını axıtsın və beləliklə, qorunduğuna əmin olan Sultanla birlikdə Səmədin həyatını da tükdən asılı qoysun. Hər gecə Moskva vaxtı ilə səhər saat dörddə bağın dal hasarının dibindən o yana keçən, sement döşəməli, dərin, susuz arxdan sürünüb keçib, orada vaxtı ilə Rəhim Qudalının işlədiyi "Rayon yun idarəsi, Alınma, satılma məntəqəsinin künc otağında "priyomnik"in "nauşniklərini" başına keçirəndə o adamın eşitdiyi ilk sözlə "Ya Saşa! Ya Saşa..." olurdu. Yəni, Moskvadan danışan adamın "kliçkası" da "Saşa" idi... Bu gecə o Moskvalı səs, vaxtından xeyli əvvəl, yəni Sultanla Səmədin evə qalxdıqları dəqiqələrdə əmr etdi: "Ya Saşa... Ya Saşa... pora vzyat moyeqo tyozku... pora vzyat moyu tyozku"[48] çox keçmədi ki, arxadan içəriyə daha iki qaraltı girdi. Saşanın başının dövrəsində, qaranlıqda üç lülə ağzı ağardı...

## 8

Fəlakətdən xəbərsiz Səməd zalda bayaqkı yerində təkcə oturmuşdu.

Uşaqlıqdamı, ilk gənclikdəmi, nə vaxtsa, əzələlərini daşlaşdırmaq fikrinə hələ təzə düşdükləri günlərdə, əzələ qayğısından başqa heç bir qayğıları olmayan çağlarda sədr Mədədin ərköyünü ilə Cəfər əmi – Lüt Cəfərin qaynı Yusif, Sudüşənlə meşənin arasında kərpickəsənlərin sarı torpaq çıxartmaq üçün qazdıqları dərə kimi dərin qaznağa su buraxmışdılar, göl düzəltmişdilər. Hər gün məktəbdən çıxanda birbaş o gölün qırağına yüyürərdilər, kitab-çantalarını bir yana, paltarlarını o biri yana atıb, suya baş vurardılar, "eşmə" üzə-üzə çıxıb, canı sulu-sulu meşəyə

cumub, ağacların budaqlarını turnikə çevirərdilər, pambıq əkini üçün köklənmiş sahə kənarında kötükləri ştanqa çevirərdilər, turnikdə oynamaqdan, ştanq qaldırmaqdan pörtəndə isə bir də suya baş vurub çıxıb, paltarları qoltuqlarında, çantaları çiyinlərində, kandarında çəmənotu və qazayağı bitən, tavanında qaranquşlar uçuşan evə qayıdıb, Ayna bacının, Gülbənizin və ya Gülgəzin həmişə hazır saxladıqları süfrənin qırağında çıl-çılpaq oturub, bir əllə çörək yeyib, o biri əllə "Ədəbiyyat müntəxəbatının", "Cəbrin", "Həndəsənin"-filanın vərəqlərini o yan-buyana aşırandan sonra yenə gölə cumardılar. Ömrün necə şirin çağları varmış! Əmma elə gün olmazdı ki, Qıllı Qeybalı şirinə acı qatmasın. Dantes Qeybalı yox, o vaxtlar Qıllı Qeybalı və "Ataman" deyilən pələpüsür oğlan suyun altında qara camış kimi peyda olub Səmədin ayaqlarından asılanda, Qudalı uşaqları da cin-şəyatin kimi qaynaşa-qaynaşa Yusifin əl-qoluna sarılardılar. Sudan kənarda sədr Mədəd vardı, Qılınc Qurban vardı, adı Lüt qoyulsa da partkomluğunda qalan Cəfər əmi vardı, orda sədrin ərköyünü ilə partkomun qaynına yaxın düşmək çətin idi, suyun altında isə ərköyünün tərifli qara, gur saçlarından çəngə-çəngə qopartmaq olardı, "Yusif kimi gözəl Yusifin" ağzını cırmaq, burnunu burub əzmək, şişirtmək olardı. Odur ki, suyun altında nə qədər qalmaq mümkündürsə, bir o qədər qalıb, lap boğulunca vuruşardılar. Xüsusən sədr Mədədlə Qudalı ağsaqqalı Rəhimin idarədə-iclasda sözləşdikləri günlərdə suyun altında vuruşma çox çəkərdi. Elə çox ki, qıllı camışla cin-şəyatin dəstəsinin ardınca sudan çıxanda göl dibinin həyəcanla dolu, uğultulu sükutu Səmədin beynindən getməzdi.

Qıllı Qeybalı Dantes Qeybalı oldu. Göl qurudu. Bayaqkı "motal papaqlı, arxalıqlı adam qapıda görünüb yoxa çıxandan sonra, zalda tək qalanda Səməd göl dibinin uğultulu sükutunu xatırladı. İllər keçəndən sonra, əmisinin yemək otağında – yetmiş kvadrat metrlik zalda Səməd özünü həmin göl dibində hiss etdi. O göl dibi ilə bu zalın fərqi bircə bunda idi ki, burda ayaqdan asılan, çəngə-çəngə saç qopardan, ağız cıran, burun buran yoxdu, həyəcanla dolu, uğultulu sükut içində Səməd özü könüllü boğulurdu.

Sükutu əvvəlcə Sultan əminin səsi pozdu:

– Nə oldu orda? Yenə yandırmısınız?

Sonra Əlləzoğlunun səsi:

---

[49] Üç litrlik şüşə.

– Yandırmamışıq, dərdin alım. Közün üstə qalıb qurumuşdu. Təzədən çəkirəm. Özü də bel ətindən, uc qabırğasından! Gətirrəm indi, gətirrəm. Siz başlayın. Gətirrəm!

Səməd əlini süfrəyə uzatdı. Nimçələrin, araq, konyak şüşələrinin, qədəhlərin parıltıları içində göyümtül qrafində qaraya çalan çaxır gördü, qrafinin boğazından yapışıb, ağzına söykədi.

Haradasa, deyəsən "revkom kabineti" tərəfdə Sultan əminin qəhqəhəsi eşidildi:

– Barakallah, qardaşoğlu! Ə, yıxar səni çaxır. Qoy yemək gətirsin kişi!

Bu təzə – "macar" çaxırın təmi tanışdı. Bir vaxt Sultan əmi bu çaxırı Tat Seyidin məlhəmi adlandırardı. İndiki Seyid kişiyə – raykomun qonaq evinin qarovulçusuna o vaxtlar – müharibə illərində "Tat Seyid" deyərdilər. Seyid kişinin indiki arvadı Xeyrə arvada isə "alverçi Xeyrə" deyərdilər. Tat Seyid üç para kənddə yeganə müsəlmandı ki, çaxır çəkərdi, alverçi Xeyrə isə, yeganə zənəndi ki, iynə-sapdan, düymədən başqa çaxır da satardı.

Günlərin birində Qonaqlıda xəbər yayıldı ki, Başkənddə, yəni Qurbanlıda alverçi Xeyrə, ərlərindən qara kağız gələn gəlinləri gecələr evinə çağırıb, xəlvəti çaxır içirdir, səhərisi qapı-qapı düşüb, həmin gəlinlərdən çaxırın əvəzinə un yığır. Bu xəbərə əvvəlcə heç kəs, o cümlədən Səməd də, atası da inanmadı. Sonra isə Səməd, Qurban əmi – Qılınc Qurbanın atının tərkinə, atası isə öz atını minib gedib, öz gözləri ilə gördülər ki, dörd tərəfinə qarğıdalı şaxı döşənmiş, alçaq bir çardağın altında, qara çırağın işığında qarmonçu Şənbə Zarıncı çalır, qara geyimli, göy örtüklü, cavan-cavan gəlinlən oturub ağlaşırlar, alverçi Xeyrə isə, yekə bir çəlləyin yanında dizləri üstə oturub, mis dolçanı çəlləyə basıb çıxarıb, gəlinləri dümsükləyə-dümsükləyə çaxır içirdir.

Bütün bunları Səməd qarğıdalı şaxlarının arasından gördü.

Atası ilə Qurban əmi isə içəri getdilər.

Qurban əmi Şənbənin qarmonunu dartıb alıb yerə çırpdı, beşaçılan tüfəngin qundağı ilə vurub çəlləyi partlatdı.

O vaxt, o yaşında Səməd hələ dilinə içki vurmamışdı.

Çardağın altındakı hadisənin sabahısı Tat Seyid, qoltuğunda bir "çetvert"[49] çaxırla, qapıdan girib, donqar belini bir az da əyib, köyrələ-köyrələ uzun bir söhbət başladı. Məlum oldu ki, oğulları müharibəyə

gedəndən sonra alverçi Xeyrənin əri ölüb, Tat Seyidin isə arvadı; bir düjün tifil Xeyrənin üstə düşüb, bir düjün də Tat Seyidin üstə düşüb, quru-taqqanaq arpa çörəyi yeməkdən quru-taqqanaq olublar yetimlər, o yetimlərin çörəyini kəsmək Kəbənin qulpunu qırmaq kimi bir şeydi, odur ki, Qılınc Qurban insafa gəlsin, qılıncını qına qoysun, çax-çuxunu əlindən almasın Xeyrənin.

Bu yanıqlı şikayətin cavabında nə sədr Mədəd bir söz dedi, nə də böyüklərin işlərinə qarışmağı xoşlayan ərköyün oğlu. Tat Seyid qolutuğundakı çetverti küncə, divar dibinə qoyub getdi. Qırx dördüncü ilin axırındamı olmuşdu bu, qırx beşin əvvəlindəmi, Səmədin yadında deyildi. Yadında qalan bu idi ki, bu göyümtül qrafinə bənzəyən o göyümtül çetvert şüşə elə o küncdə qaldı, üstünü toz basdı. Bir də "Müharibə qurtardı" xəbəri çıxanda, Sultan əmi o vaxtkı qara "Emadin"ində kəndləri gəzə-gəzə hər yerdə camaatı təbrik eyləyə-eyləyə, axırda yorğun-üzgün gəlib qardaşının evində oturanda, yəni çardağın altındakı hadisədən təxminən beş-altı ay sonra sədr Mədəd, nəhayət, o şüşəyə diqqət yetirdi, tozunu silib, tıxacını çıxarıb, Sultan əmiyə bir stəkan çaxır verdi və Sultan əmi ilk dəfə onda "məlhəm" dedi. "Çaxır deyil ki, məlhəmdi", – dedi. Sultan əminin Tat Seyidlə alverçi Xeyrənin işləri ilə maraqlanmağı da o gündən başlandı və Səmədə məlum oldu ki, Sultan Əmirli ilə Mədəd Əmirli o taydan nə vaxt gəliblərsə, Seyid kişi də elə o vaxtlar gəlib, Qurbanlıda dam tikib, yurd salıb. Özü də çaxırçızad deyil, üç para kənddə ən mahir rəncbər və bağdandır. Alverçi Xeyrə də alverçi-zad deyil, oğulları gedəndən sonra, gün-güzəran ucbatından, Qayım Qudalının iynə-sapını, sancağını, düyməsini sata-sata alverçi olub, axırda çaxır satmağa başlayanda isə ilişib, "gəzəyən Şənbəni evinə salan", cavan-cavan gəlinləri el içində xar eləyən murdar zənən kimi tanınıb!.. Sədr Mədəd "o çardağın altına ayaq basdığı gecəyə lənət" deyirdi, ağı qaradan seçməmiş qılınc sıyıran dotələb ispalkomu, yəni Qurban əmini pisləyirdi. "Elə mən də onun tayıyam!" – deyirdi. "Camaatın qəzəbi, kini yerdən-göyə çıxıb. Üç kəndin üçündə də qapılar bağlanıb üzünə o bədbəxt kişiynən o bədbəxt arvadın!" – deyirdi. "Batırmışıq Seyidnən Xeyrəni. Heç fələk də xilas eliyəmməz!" – deyirdi.

Sultan əmi isə çox asanca xilas elədi. "Emadin"ini birbaş Qurbanlıya sürdürüb, Seyid kişinin, Xeyrə arvadın "damlarında", yəni töyləsayağı yeraltı qazmalarında oldu, ordan kəndin ortalığına çıxıb camaatı yığdı.

“Nə Tat Seyid sizin tanıdığınız tatdı, nə də alverçi Xeyrə sizin tanıdığınız alverçidi”, – dedi. “Müharibədə həlak olan oğlanların körpələrini boya-başa çatdırmaq üçün özlərini oda-közə vuran, qeyrətli nənə, babadı hər ikisi!” – dedi. Sultan əmi belə deyəndə Seyid kişi “Emadin”in bir tərəfində ağlayırdı, Xeyrə arvad isə o biri tərəfində. Maşının dal oturacağında oturub, əmisinə qulaq asa-asa, gah Seyid kişiyə, gah da Xeyrə arvada baxan Səmədi də qəhər tutmuşdu, Qurban əmi – Qılınc Qurbanın səhvi və atasının bu səhvə uyduğuna görə necə yanıb-yaxılmağı barədə nə isə demək istəyirdi, deyə bilmirdi. Çox çəkmədi ki, Sultan əmi Seyid kişi ilə Xeyrə arvadı oğlanlı-qızlı nəvələri, cır-cındır şələ-şəltələri ilə birgə qara damlardan çıxarıb aparıb, birini qonaq evinə qarovulçu və bufetçi qoydu, o birini raykomda xidmətçi. Və elə o günü anbar məscidin böyründə, cökələrin yaşıllığı içində karvansarasayağı tikilinin içindən köhnə barama tərəcələrini çıxartdırıb, dörd yerdən böyük, işıqlı pəncərə qoydurdu. Seyid kişi ilə Xeyrə arvad orda – yeni evlərinin qabağında da ağladılar. Səməd isə öz sevincini, qürurunu bildirmək üçün ancaq o axşam əmisinin evində, bu zalda, bu stolun arxasında, ömründə ilk dəfə çaxır içəndən sonra söz tapdı: “Mənim əmim el atasıdı!” – dedi. Sultan əmi çox bərk tutulub, dolub, qəhərli-qəhərli uzun bir nitq başladı: “Nə elin var hələ, Bircə bala, nə də atası!.. Hissiyyatın güclüdü, gözəldi. Əmma bir vaxt gələcək, sınacaqsan. Elimizin Türk deyiləni də zülm altındadı, Tat, Kürd deyiləni də. Elm öyrənəcəksən, biləcəksən ki, zülm altında olanların ataları da zülm altındadılar... Kimlərdi o atalar, hardadılar, nə üçün zülm altındadılar? Diqqətnən dinlə!.. Az-az iç bu məlhəmdən, dinlə və unutma!..” Uzun nitq uzun olduğu qədər də dumanlı oldu, Səmədin yaddaşının dərinliyinə gedib orda yatdı ki, bir də uzun illərdən sonra zülm altında olanların zülm altında olan ataları Muğlar-Bağlar SafAğ Elmi sözləri ilə açılıb aydınlaşsın. Məlhəm çaxırın təmi isə “Mənim əmim el atasıdı” sözlərilə bağlı idi. Bu təm Səmədin qürurunun, sevincinin, fərəhinin təmi idi. Həyəcanla dolu, uğultulu sükut içində əməlli başlı boğulduğu, gözlərinin qaraldığı dəqiqədə qrafindən başına çəkdiyi çaxır, Səmədi dünənki, bugünkü hadisələrin burulğanından çıxarıb, vurğunu olduğu “el atası” Sultan Əmirliyə qovuşdurdu. Bayaq yolda onları Mirqəzəbin səpdiyi toxumdan bitib rayonu basmış çesuyçalılara nifrət birləşdirmişdi, indi isə məhəbbət birləşdirdi. Və elə bu məhəbbət də Səmədi göl dibində burulğandan qurtardı.

Babasından əmisinə və ona keçən irsi xəstəlikdən Səmədin hələ xəbəri yox idi. Boğazının birdəncə genişlənib, nəfəs yolunun açıldığını, beynində ağrının divardan qopan kərpic kimi qopub düşdüyünü və əlindəki göyümtül qrafindən başqa şeylər görməyə başladığını hiss edib, bunun ardınca əmisinin qəhqəhəsini eşidəndə, avariya günü boz kitelə necə sığınmışdısa, indi qəhqəhəyə də eləcə sığındı, bu qəhqəhədən gülüş alıb güldü.

– "Məlhəm" nədi, əmi, möcüzədi bu, – dedi. – Verim sənə də?

– Yox, yox! Məlhəm adamı yıxır! Sərxoşluqdan qurtarmaq olmur. Debil eləyir adamı. Mənimki elə konyakdı... – Sultan divarda Stalinin qara lentlə haşiyəli portretinin qabağından keçib stola yaxınlaşdı. – Konyak, azdan-çoxdan.

Səməd sevincindən, lap axmaq-axmaq danışmaq da olsa, mütləq nə isə demək, danışmaq istəyirdi.

– Yox, bu dəfə Məlhəm içəcəksən əmi, məlhəm!

– Niyə axı?

– Nə bilim, – Səməd başını azca yana əyib yumşaq, ağrılı, dərin gözlərlə əmisinə baxdı. – Bircə balanın könlü belə istəyir!

"Bircə bala..." Bunu qardaşı oğlu özü dedi və bundan əminin gözlərinə əlavə işıq gəldi. Sarsıntılarla dolu, yanıqlı məhəbbət işığı Sultanın sifəti ilə birgə səsində də titrədi:

– Bircə balama qurban olum... Tök gəlsin! İkimiz də Məlhəm içirik bu gün!

Səməd ayağa qalxdı, adi stəkanlara həyat sarsıntıları ilə mənalanmış çaxır tökdü, stəkanın birini əmisinə verib, o birini özü götürdü. Bayaqdan gözü Stalinin portretinə sataşanda, fikri o ətrafda dolanırdı.

– Sağlığım var, – dedi. – Məhv olsun Mirqəzəblər! Yaşasın, əbədi olsun "Bezobraziye"ni qamçılayan kişilər!.. Bunun barəsində atamdan da yaxşı-yaman eşitmişəm səndən də. Partiya məktəbində də bir sicilləmə nitq dedilər "şəxsiyyətinə pərəstişin" cəmiyyətə zərərləri haqqında. Açığı, beynimə girmədi, düz-əməlli dinləmədim də, bir Ucarlı yolaşımnan sivişdik çıxdıq zaldan, getdik içdik o möhtəşəm şəxsin sağlığına. Düzü, mən bağlıyam bütün sosializm, kommunizm korifeylərinə, əmi! Qara lent yaraşmır bu kişiyə. İcazə ver o lenti qopardım.

Səməd portretin çərçivəsinə dörd xırda, iynəvari mıxla sancaqlanmış lenti asanlıqla ayırıb, ovcunda büküb-büküb pəncərədən o yana atdı.

– İçək "xüsusi materiyadan biçilmiş"lərin sağlığına! O kişi boşboşuna deməyib bu sözləri. Məgər əmim xüsusi materiyadan biçilməyib?

Məgər atam xüsusi materiyadan biçilməmişdi? Babamı demirəm. Şeyx əmilərimi demirəm, bolşevik deyildilər onlar. Əmma bir yana baxanda, onlar da biz əqidəli deyildilərmi, əmi? Oğullarını nə üçün güllənin qabağına göndərirdi babam? Xeyrin şər üzərində qələbəsi naminə göndərmirdimi? Bəs əmilərim nə uğrunda qurban verdilər özlərini? Maxizmi tənqid eləyirəm mən, çünki xoşbəxtliyi bəşəriyyətin fövqündən gözləmirəm! Öz əlimnən yaratmaq istəyirəm öz səadətimi! Əmilərim də belə düşünmürdülərmi, əmi?

Pəncərədən görünürdü ki, həyətdə, tut ağacının altında, ocağın qırağında Çürük Aşıq yəqin ki, yağışa düşüb nəmlənmiş qara cürəsinin döşünü alovun üstündə o yan-bu yana gəzdirə-gəzdirə, yaylıqla sürtürdü, kökləyirdi Səmədin lap uşaqlıqdan eşitdiyi ağır, dərin kədərli "Divani" havası çalırdı və asta-asta mızıldanırdı:

"...Beş gözəlin vurğunuyam..."

Hansı məclisdənsə Səmədin qulağında ötüb keçib getmişdi ki, "beş gözəl də rəmzdi; Aşıqlar Bağ Ata ilə dörd oğlunu nəzərdə tuta-tuta məclisi çox vaxt bu sözlərlə başlayırdılar.

Səməd Çürüyün mızıltısını ötəri dinləyib, beyni qıjıltılı:

– Əlbəttə, el atasız olmamalıdı. Yetim qalmamalıdı. Lap nə cür nöqsanları olsa da Stalin el atası deyildimi?! Mənim atam, Şeyx əmilərim el ataları deyildilərmi? Sən özün!..

– Bircə dəqiqə, bircə bala, bircə dəqiqə...

Sözünü kəsmək istəmirəm. Əmma bircə dəqiqə... – Sultan stəkanı stolun küncünə qoyub, barmaqları titrəyə-titrəyə kitelin yaxasını açdı.

Səməd narahat oldu:

– Həyəcanlandırdım səni?!

– Yox, yox... Kaş həmişə belə həyəcanlanaydım... – Sultan papiros yandırdı, ağır-ağır yeriyib, əlini portretin arxasına uzadıb, ordan kiçik formatlı bir şəkil çıxartdı. Sifəti avazımışdı. Dərin, uzun qırışlarla doğranmış hündür alnında narın tər işıldayırdı. – Dünya dəyişir, vulqar sosiologiyanın dövranı qurtarır, Bircə bala. Ömrümdə təsəvvürümə gətirməzdim ki, partiya məktəbinin müdavimləri belə açıq siyasi mübahisələr eləyə bilərlər. Deyəsən doğrudan da dəyişir dünya... O murdar, o Çax-çux hələ müharibədən qabaq hardasa görübmüş bu şəkli, xəbər veribmiş o birisi murdarlara – Gülənova, Persə, onlar da dübarə çatdırıbmışlar Mirqəzəbə ki, Əmirlilər şeyx qardaşlarının şəkillərini saxlayırlar evlərində. Guya namaz qılıram mən! Belə əcaib-əcaib böhtanlar içində

keçib ömrüm, oğul!.. Dünən Bakıdan ifşa xəbəri eşidəndə bayram eləməliydim mən Mirqəzəbin ifşasını. Dünəndən burdadı bu içki. Sevinəmmədim, içəmmədim... Çoxdan bilirdik onun düşmənçiliyini. Əmma arxası elədi ki, açığı, ifşa olunduğuna indi heç kəs inanmırdı. Dünən sən qatarda olanda tutulub Mirqəzəb Mir Cəfər Bağırov! Həbs olunub. Sultan Əmirlinin qələbəsidi bu. Korifey-filan, öz yerində. Qələbə şərəfinə iç!

– Yox, əmi! – Səmədin ürəyi sökülürdü. Həyəcanla, ehtirasla, stəkanını qaldırıb əmisinin stəkanına vurdu. – Korifeylərdən sağ qalmış Sultan Əmirlinin sağlığına! Ah-uf yaraşmır sənə, əmi. Mirqəzəb də rədd olsun, zülm də. Mətin Sultan Əmirlinin sağlığına içirəm! Qalib Sultan Əmirlinin sağlığına!

Sultan dikəldi. Solğun, bozumtul üzünə pul-pul qızartı çıxdı. Gözləri gülürdü.

– Xeyli vaxtdı eşitmirdim belə sözləri. Dağ götürdün çiynimdən!.. Gəl belə danışaq. Sən iç mətin əmi sağlığına, mən içim mətin qardaşoğlu sağlığına! Mirqəzəbin bezobraziye sürüsü içində əmisinin qolundan tutan, əmisiynən çiyin-çiyinə addımlayan dirəkli oğul – arxa sağlığına!..

Səməd həyəcandan stəkanını bir də stəkana vurdu.

– Məndə az-çox yetkinlik varsa, o da sənin xidmətindi, əmi. Sənin şəxsiyyətinnən fəxr edirəm mən. Sənin uca şəxsiyyətinnən, ideallarınnan!.. Gözəl insanlığınnan!..

– Mən də sənnən fəxr edirəm, Bircə balam! Varisim! Hələ dərk eliyəmməzsən kimlərin, nəyin varisisən. Elmimiz batmır beyninə. Abıynan burda kobud rəftarın göstərir ki, hələ çox, çox uzaqsan Varislikdən. Ətraflı söhbətlərdən sonra Yer üzündə misli olmuyan bir xəzinə verəcəm sənə. "Süleyman peyğəmbərin xəzinəsi"ni!

İçdilər.

Hər şey yaxşı gedirdi. Əlləzoğlu içəriyə qulaq verə-verə, pillələri lap pişik kimi səssiz qalxsa da, Sultan qeyri-adi həssaslıqla, qayınatasının gəlişini duyub qabağına getdi, zəhmli pıçıltı ilə: – Qayıt, qayıt! – deyib, sinidə yuxaya bükülü kababı ondan alıb, gətirib ortalığa qoydu. İlk addımı Sultan yolda atmışdı. İkinci addım – çətin, ağır addım burda – evdə yox, başqa şəraitdə atılmalı idi, Sultan Səmədlə tamam açıq danışmalı idi. O açılışmadan sonra, başı yarılan qayınata da yaxın gələ bilərdi, bəlkə hətta Gülgəz də gözə dəyə bilərdi. Hələlik isə Sultan maksimum ehtiyatlı olmalı və addımı öz vaxtında atmalı idi.

– Çox içmə hələ. Çesuyçalı “korifeylər”lə görüş təyin eləmişəm bu gecə, saat on ikiyə. Lap qısa söhbət olacaq. İstəyirəm sən də iştirak eləyəsən. Görəsən...

Sultan sözünü tamamlaya bilmədi. Qapıda, nəhəng, qalanın üstündə iri qırmızı ulduz-toqqalı, qırmızı dəri kəmər, tərli at sifəti və nəhəng at gözləri parıldadı.

– Nuş olsun! Axşamınız xeyir, yoldaş Əmirlilər! Gəldim ki, həm o qara düşməniniz Mərqəzəbin, axır ki, ağzıbirə salındığına görə təbrik eləyim sizi, həm də... aranızda nələr olub keçdiyinə baxmayaraq, bu cür istəkli ata-oğul təki, belə süfrə arxasında oturmağınıza görə təbrik eləyim, şadlığımı bildirim və... rüsxət olsa siznən bir az düzəldim bu əyri başımı.

Səməd həm o heybətliyə baxırdı, həm də əmisinə.

Sultanın sifəti bir andaca saralmışdı.

Ağır-ağır ayağa qalxdı. Çağırılmamış qonağa əlinin hərəkətilə elə orda – qapıda dayandırıb, asta-asta ağır sözlər deməyə başladı:

– Adın Zorridi, əmma kolxozları soymaq məharətinə görə Zor nəçənnik deyirlər. Hər səhər Xəlvət Rəhimin həyətində bir yazabuğanın xaşını yediyinə görə Xaş nəçənnik deyirlər. Bir ad da mən verirəm: naxal nəçənnik!.. – Və birdən acığından gülüb, ruscaya keçdi: – Kruqom marş!

Gülənov şişib qaldı. Sonra sağ əlinin barmaqlarını sağ gicgahına qaldırıb, birdən-birə üzgünləşib:

– Yest kruqom! – deyib getdi.

Sultanın yumruqları stola, çənəsi sinəsinə dirənmişdi.

– Birini gördün!.. Tök içək! – dedi. – Belələrinin yığıncağına sərxoş da getmək olar. Tök! Kəşfiyyata gəlmişdi köpəkoğlu, görsün... Əmma elə bil nəsə olub, bu belə gəlib... Ürəyimə damıb nə isə.

Bu dəfə də sözünü tamamlaya bilmədi. Aşağıda – bağın dərinliyində biri-birinin ardınca iki güllə şaqqıldadı.

Sultanla Səməd diksinib tez pəncərəyə cumdular. Gülənov darvazaya doğru tarappa-tarap qaçırdı.

Sultan bir az duruxub soruşdu:

– Kimə atdı a kişi?

Əlləzoğlu bağın dərinliyini göstərdi.

– Nə bilim, a dərdin alım...

Çin fanarlarının işığı altında çoxlu təzə qandan başqa heç nə tapmadılar...

## 9

Səməd səndələyirdi. Əmma beyni açıq idi. Əmisinin ardınca gedə-gedə, bayaqkı müəmmalı qandan, ocaq, tüstü qoxusundan içərisinə necə üzüntülü, qat-qarışıq hisslər dolduğunu, eyni zamanda bu hissləri cilovlamaq üçün indi bir o qədər çətinlik çəkmədiyini bütün aydınlığı ilə başa düşdü. Qırmızı tuf daş binanın pillələrini qalxanda, özünün düşündüyü kimi "əməlli başlı toxtamışdı".

Qəbul otağında dörd divarın dördünün də dibində sıx cərgə ilə düzülü stullardan çesuyçalılar bir nəfər kimi gurultu ilə ayağa qalxdılar. Bu gurultuda gizlin məna vardı; birbaş dermantinli qapıya gedən əmisinin ardınca yeriyib heç kəsə baxmasa da, Səməd hiss etdi ki, həbs xəbərini burda da eşitmişdilər və teleqramdan sonra yarımallah olan Sultan Əmirlinin bu dəfəki qələbəsindən sarsılmışdılar, məhz buna görə də, stullardan dik atıldılar, qısıq, müti, rəzil qullara çevrildilər. Pıçıldaşıb, "Kişi, Kişi" dedilər.

Qısıqlığı, qorxaqlığı, mütiliyi, rəzilliyi Səməd dermantin qapının sağında, küncdə dayanmış üç nəfərin üzündə daha aydın gördü.

O üç nəfərdən – Xudiyev dəstəsindən birincisi prokuror Sayılovdu. İkincisi milis rəisi Gülənovdu. Üçüncüsü RİK Atamalı idi.

Prokuror Sayılovun sürməli qadın gözlərinə bənzəyən süzgün gözlərində təhlükə qoxusu ilə çılpaq yaltaqlıq elə orqanik birləşmişdi ki, Səməd bütün rayonda ən yaraşıqlı kişi sayılan bu adama "iyrənc" deməyə bilmədi.

Qorxaqlıqla yaltaqlığın orqanik birliyi milis rəisi Gülənovun at üzünə münasib alma gözlərində donuq təbəssümdən, RİK Atamalının içikidən şişib bir cüt yup-yumru ətə dönmüş göz qapaqları arasında qəribə civə titrəkliyindən də görünürdü.

Vaxtilə Mirqəzəbin vaqonu gəlib stansiyada parovozdan açılanda, bu üç nəfərlik dəstənin başçısı Xudiyevlə birgə, o vaqonun qabağında necə dayanırdılarsa, indi Sultan Əmirlinin qabağında da eləcə "smirno" dayanmışdılar; dil tərpədib salam verməyə də cürət etmədən, baş əyirdilər. Qəribə idi ki, uzun-uzun illər ərzində bu adamların bu gününü arzulayan Səməd onların bu rəzil tabeliyindən heç bir sevinc duymadı. Beynində fırlanıb təkrar olunan "iyrənc, murdar" kəlmələrilə hər üçünü

damğalayıb, öz köhnə kinindən də güclü ikrahla üzünü döndərib qapıdan soldakı küncə meylləndi.

Üç nəfər də o sol küncdə dayanmışdı; solğun, bozumtul üzü, qalın-pırpız qaşları və boz-ala gözlərilə Sultan əmiyə ekiz qardaş kimi oxşayan Əziz Mayılov, sakit nəlbəki gözləri, ağ kəlağayısı, yumru qızıl tənələri – sırğaları ilə katibdən daha çox gözəl ev gəlininə oxşayan “diapazonlu xanım” – Məleykə bacı və şümşad boylu arıq, qayğılı katib köməkçisi Məlik.

Səməd bu üç nəfərin üçünə də eyni hörmət və rəğbətlə əl verdi. Xüsusi dəvət gözləmədən, binada öz köhnə sərbəstliyi ilə əmisinin ardınca kabinetə keçdi. Lakin Sultan elə dabanı üstə qəbul otağına çıxıb, gözlənilməz, heybətli xırıltı ilə Gülənova:

– İçəri gəl, – dedi.

İçəridə isə, üzü divara, lap astadan soruşdu:

– Kimiydi vurulan?.. Saşa Babayev?

Gülənov bir addım irəli yeriyib, nəfəsilə Sultanın boynunu döyə-döyə:

– Bəli, – dedi. – Ölməyib... Sağ qolundan, bir də qıçından vurdular. Yun idarəsində sarıdılar yaralarını apardılar.

– Hara?

– Bakıya. Ordan gecə reysiynən Moskvaya təcili istintaqa aparmalıdılar.

– Niyə təcili?

– Bayılov türməsindən xeyli adam çıxarıb Babayev, xaricə qaçırdıb. Təbrizə... Demokrat partiyasının Bakıda bağlandığını bilmirlər Muğannalar o tayda. Babayev Bayıldan çıxartdıqlarını göndərib ki, bərpa eləsinlər partiyanı, sonra Amerikaya mühacirətə getsinlər.

– Niyə məhz Amerikaya?

– Fransada, Germaniyada daşnaklar çox fəaldırlar. Muğannalar özləri Amerikanı istəyiblər, Vaşinqton da razılıq verib.

– Sən köhnə qurdsan. De görüm, nə olacaq?

Gülənov pıçıltıya keçdi.

– Azərbaycan daxilində, həm o tayda, həm bu tayda terror güclənəcək. Sizi də daha sağ qoymazlar. Əmma xaricdə hərəkatınız güclənəcək.

– Yaxşı, çıx!

Sultan özü də qəbul otağına çıxdı və kabinetdə Gülənovla boğuq söhbəti birdən-birə qışqırtıya çevrildi:

– Bax indi sizə öz adımdan “prekratite bezobraziye” deyə bilərəm! – dedi. – Mirqəzəb adında qaniçən qaraquş qanadıynan uçurdunuz hamınız! Qanadınız sındı! Əgər yerlərinizdə qalıb tutduğunuz vəzifələrdə işləmək istəyirsinizsə, tamamilə dəyişməlisiniz!.. Qorxudan itaət olmamalıdır. Səmimi işgüzarlıq olmalıdır! Xalqa diqqət olmalıdır! Bacarmadığınızı açıq etirafla bildirməlisiniz! Rüşvət üstə dərhal həbs olunacaqsınız!.. Bu, minimum proqramdır!..

Açıq qapıdan Səməd milis rəisi Gülənovun gözlərində hamanca donuq təbəssüm parıldadığını gördü. Əmisinin nə barədəsə suallarına hamının, o cümlədən sürməli qadın Sayılovun da eyni müti səsini eşidirdi:

– Bəli, bəli, yoldaş Əmirli. Mən Kəlbəcərin saf ab-havasında böyümüşəm, yoldaş Əmirli”! “Saf” kəlməsini çox eşitmişəm orda Şəmşirin saf dilindən...

Ustad Aşıqlara və SafAğa az-çox istinad edən çesuyçalılar da vardı və beləlбəri nə isə deməyə başlayanda Sultan həmişə susub, ustadlara aid dərdinə qapılardı. Çünki Dərə Ələyəz, Göyçə səmtindən Muğan duzlaqlarına sürülən qoca ustadlar bürküyə dözməyib qırılırdılar – ölürdülər.

Sayılovun Dədə Şəmşiri, “saf” kəlməsini xatırlatması kifayət etdi ki, Sultan birdən-birə öz “proqram” çıxışını yarıda kəsib, qapıya yönəlsin.

Belə hərəkəti yalnız SafAğ dərdindən xəbəri olanlar duya bilərdilər. Səməd isə heç nə hiss etmədi. O bilmirdi və heç vaxt bilməyəcəkdi ki, məşhur Aşıq Şəmşir SafAğ Elmi ustadlarındandı. Bu mövzuda şeirləri ardıcıl dəyişdirilib, dinə bağlanırdı, ya da sadəcə, gizlədilirdi. Səməd bilmirdi və heç vaxt bilməyəcəkdi ki, xüsusilə öz qohumları Göyçəli, Aşıq Alının adını daşıyan AğBizənli Alı ilə oğlu Aşıq Şamil Muğannalarla gizlin ünsiyyətdə olduqlarına görə zəhərlə öldürülmüşdülər və bu bəd əməldə Sayılov da iştirak etmişdi. Məhz buna görə Səməd, əmisinin qəmini hiss etmədi.

Cəmisi beş-on dəqiqəlik söhbətdən sonra Sultanın ardınca çıxanda Səmədə elə gəldi ki, bu dəqiqələrdə Sultan Əmirli onunla da sərt danışacaq.

Əmma Sultan köyrək dilləndi:

– Saşam getdi... Dirəyim yıxıldı...

---

[50] Almaniya Federativ Respublikası müstəqil dövlət sayılsa da, SSRİ-nin respublikalarından birinə çevrilmiş, bütün Avropanın sovetləşmə təhlükəsi yaranmışdı.

Səndən ayrılsam o günü ölərəm. Mübaliğəsiz. Nəfəsim kəsilər... Yaşamalıyam mən. “Xəzinə”ni sənə verəndən sonra, layiqli Varis səviyyəsində durduğuna əmin olandan sonra da yaşamalıyam sənnən bir yerdə! Ağır mübarizələr var irəlidə. İnsanın özünün özünnən psixoloji mübarizəsi çox ağır olur. Başa düşdün?!

Nə isə dumanlı bir şübhə, qara bir fikir Səmədi sarsıtdı.

Küçənin kimsəsizliyində Sultan ayaq saxlayıb yerə baxdı.

– İstəyirsən bir az da açıq danışım?

Səməd udqundu.

– Danış... Həyatımız dumana bürünüb, əmi...

– Yaxşı dedin, dumanı dağıtmaq lazımdı. Kişi kimi mərdanə söhbət eliyək! Mən onu boşaya bilmərəm. Kəbinlidi! – Sultanın dili bıçaqdı. Bu söhbət olmalıdı. Birdəfəlik... Boşasam, düşmən böhtanı təsdiq olunacaq: “Əxlaq pozğunluğu”. Sultan Əmirli ləkələnsə, Varis də ləkələnib hər yerdən qovulacaq. “Xəzinə” sahibsiz qalacaq. Elm məhv ediləcək, batinlərlə birlikdə xalq da bütün qırılacaq! Bütün hər şey səndən asılıdı indi. Ya tüpür əminə çıx get, səhər gəl dəfn elə. Ya da bu axşam evə necə getdik, necə yedik-içdik, eləcə gedək oturaq – Sultan xırıldadı, inildədi. – Hansını seçirsən? Mərd ol! Üzümə bax! Ya tüpür get, ya qal.

Səmədin səsi əmisinin xırıltısından seçilmədi:

– Mən fikirləşmişəm... Gələli bundan başqa bir şey fikirləşməmişəm... Dumanı dağıdırsan. İmkan verirsən sözümü deyim... Deyirəm: Qalıram, əmi...

– Səbr... fil səbri tələb olunur! Qeyri-adi dözüm!

– Başa düşürəm əmi.

– Məsələnin bir tərəfidi bu.. Günü sabahdan əmrini verirəm. İdeologiya üzrə işlə: təbliğat-təşviqat şöbəsini götür. Raykomda struktura dəyişikliyi gözlənilir. Tək təşkilat şöbəsi olacaq. Bütün rayonun kəndlərində, qəsəbələrində partiya təşkilatı katibləri, raykomun instruktorlarının hamısı sənə tabe olacaq. Hələlik, demək, təbliğat-təşviqatı götürürsən. Elə günü sabahdan da təhkim get kəndə, yığıma kömək elə, camaatımızın da dərdinə qal. Nə deyirsən? Lap açığı, bir az aralan buralardan... Hələlik...

---

[51] “Leninizm bütün planetə yayılır”.

[52] “Biz onsuz da qorxutmuşuq kapitalizmi. Məndən olsa, əksinə hərəkət edərəm. Gizlədin bu şüarı. Mən sülhlə gedəcəm Londona, lazım gəlsə Vaşinqtona da...”

– Razıyam, əmi.

– İçəri gedirik indi. Təkrar edirəm: fil səbri! Dözüm!..

Səməd dillənə bilmədi: həyətə keçmişdilər.

* * *

...Süfrə. Həmin süfrə idi. Göyümtül qrafində çaxır da həmin çıxırdı. Çaxırı içənlər isə indi tamam başqa adamlardı.

– Çörək ye, tutar səni bu Məlhəm.

– Yox... Sən danış...

– Danışım, danışım... Axşam sən o qara lenti portretdən qopardanda danışıqsız anladıq bir-birimizi: sən Stalinin şöhrətindən, müharibənin, qələbənin miqyasından ayrılammırsan... Əmma məsələ mürəkkəbdi. Moskvanın münasibəti keçən ildən məlumdu. Bilirdik ki, təsərrüfatda, elmdə, mədəniyyətdə bütün əyintiləri, geriliyi tək Stalinin adına yazmaqla partiyaya bəraət qazandıracaqlar. Çünki beynəlxalq məsələlər vardı: bu sistemin hər yerə yayılmaq təhlükəsi qorxutmuşdu hamını – Amerikanı, İngiltərəni. Xüsusən Almaniyada sosialist dövləti – FRQ[50] vahiməyə salmışdı hamını. Planetdə kasıblıq, aclıq, bir qrup kapitalistin fantastik varlanması, Afrikanın, Asiyanın səfaləti... Hamısı SSRİ-nin xeyrinədi. İnqilabın eksportu sürətlənir. Moskvada plakat çap eləyiblər, milyard tirajnan: "Leninizm şaqaet po planete".[51] Xruşşov qoymayıb yaysınlar: "Mı i tak vspuqnuli kapitala. Ya bı deystvoval naoborot. Spravte etot lozunq. Ya s mirom poyedu v London, a nado i v Vaşinqton".[52] Qısası, Stalini təkcə sıradan çıxarıb kapital dünyasıynan az-çox barışmaq istəyirlər, – danışıram ki, belə gizlin şeylərdən də xəbərin olsun. Mayda professorun gəldi. Stolumun üstündə şüşənin altında o teleqrama işarə elədi, dedi bunu çıxart burdan. Məlum oldu ki, Mərkəzi Komitənin xəttiynən gəlib Məhərrəm. Həmin məktub oxundu. Sizdə də oxunub, bilirsən özün hər şeyi. Məncə, hətta dərk eləyirsən ki, yoldaşlarıyın "Stalinizm" adlandırdığı "izm" dəhşətlərdən ibarətdi. Əmma dəhşətlər hələ irəlidədi.

---

[53] Elmin xalq variantında "Şeşpayi Bəhr" – "Altı ayaqlı dəniz atı", – "Altı qitəli Yerin "at"ı – Odu (Həqiqəti) Ulu Bağ ƏsƏlMən – "Süleyman padşah". Xalq variantında rəmzlər, adətən farscadır; Nizamidən qalan ənənəyə görə, rəmzi məna fars dili altında gizlədilir, yalnız Türkcəyə tərcümədən və şərhdən sonra rəmz açılır. Məs: "Nuşab"ə – "içməli su" – "dirilik suyu" – OdƏr dili (Bərdə hakiminin rəmzi rütbəsi).

Türkiyənin kapitala söykənib Azərbaycanı, Türküstanı azad eləyəcəyindən qorxduqlarına görə gizlindən Türkiyəyə dolur Sovetlər. Burda isə köhnə "pantürkizmlə mübarizə" şüarı indiki sürgünlər, qırğınlar "xalq düşmənləri" adında yalan sehrinə bürünüb. Bircə il də yaşasaydı, o "Stal" – "Polad" deyilən cəllad, əmin də "xalq düşmənləri" sırasında olmalıydı. "Xəzinə"miz barədə çox məlumat gedib Moskvaya. Açılıb hər şey. Zahirdə guya qırx-səkkiz əlli üçüncü il terror, sürgün kompaniyası guya qurtarıb daha, əslində isə daha dəhşətli – maksimum gizlin aparılır. Mayda professorun dedi bunu mənə. "Nəzərə al ki, Muğannalardan bir nəfəri də səlamət qoymuyacaqlar", – dedi. Sən gəldin durdun gözümün qabağında. Məhərrəmi yola salıb qayıdanda dəli kimiydim. Gözüm seçmirdi dünyanı. Nəfəsim kəsilirdi. Axşam sən bu qrafini necə çəkdin başına, mən də eləcə çəkdim başıma, ac qarına. Şoferi çağırdım, Müslümü. Seyid kişidi indi burda mənim məhrəmim, bir də Müslümdü.

Seyid kişi kəstum tapdı, qalstuk gətirdi. Ömrümdə birinci dəfə kiteldən çıxdım, qalstuk taxdım. Müslüm də üzümü qırxdı. Oturdum maşında. "Sür! – dedim. – Kəndlərin ara-bərəsində, sahələrdə, harda gözünə gözəl qız dəysə saxla, maşına basıb gətirəcəyik bir baş zaksa!" Yazıq güldü, sonra da qəmləndi. "Evdə anamnan elə sənin fikrini çəkirik, – dedi. – Nə olar axı bir allah bəndəsi gətirəsən bu evə? Qocalmamısan, əldən düşməmisən. Uşağın olsa, öz balamız kimi saxlıyarıq".

Yaxşı oğlandı Müslüm. Açığı, özüm də birtəhər oldum, oğul, yaş boğdu məni. O tayda qardaşlarımın taleyi elə, bu tayda Mədədimin taleyi belə, özümün də axırım bu cür! Doğrudan da, niyə bir züryət qalmasın?! Səməd də sağ qalmasa, bədbəxt "Muğ", "Mağ" Bağlarının varisi kim olar?!

Elə birdəncə ciddi fikrə düşdüm. "Sür, Müslüm, – dedim, – sür". "Sultan Əmirli yoxdu daha, – dedim, – Arşınmalçıyam! Sür gedək bir Gülçöhrə tapaq gətirək evimizə".

Baxtıma o çıxdı. Qara baxtıma... Danışılası deyil.

Necə oldu məhz Xəlvət Rəhimin həyətinə düşdüm o günü? Kim apardı? Niyə getdim? Axı, ömrümdə qapısını açmazdım o "Xəlvət Rəhim – Agent Rəhimin, möhtəkirlər ağsaqqalının! Bilirdim ki, Xudiyev də o evdə görüşür Xalıqnan, dəstəsi də daimi qonağıdı Rəhimin. Getdim içə-içə azı bir saat danışdım, çalışdım Elm verim, təsir eləyim... Yadımda deyil məhz nə baş verdi. Səhərisi gözümü açanda gördüm zaks müdiri gəlib zaldan baş əyir yataq otağına: "Sabahınız xeyir olsun, yoldaş Əmirli.

Gəlmişəm təbrik eləyim, həm də zaksınızı kəsim. Zəhmət olmasa, gəlin bu anketə qol çəkin. Özüm doldurmuşam anketi, qol çəkməyiniz qalıb". Deyirəm "Danışılası deyil". Əmma danışıram... Beşcə gün ərzində Tiflisin o tərəflərindən, Borjomi yolunun sağ-solundakı kəndlərimizdən, Borçalı çökəyindən, Baş keçiddən başlamış Lerikə qədər gəzdim, Ərdəbildə olanlarımızdan adam çağırdım, sərhədçilərin köməyiynən xəbərdarlıq elədim ki, Şahnan Moskvadakılar eyni siyasət itləridi, ayıq olsunlar. Kür-Araz boyunda Muğannalardan kimi tapdımsa, hamısına xəbərdarlıq elədim. Lerikdəkilərin çoxu da Muğan düzünün duzlaq basmış yerlərinə sürülmüşdülər. Stalinin xüsusi göstərişiynən, Mirqəzəbin şəxsən iştirakıynan, dağ əhalisi cəhənnəm bürküsünə salınmışdı ki, qırılsın bədbəxtlərimiz. "Ermənistan" adlandırdıqları ƏrMən torpağımızdan sürülənlərimiz duzlaq bürküsündə nəfəs çəkəmmirdilər. Gəzdim... SafAğ carçısı Aşıq Alı Ağ Bizənli sazı qucağında, son nəfəsdə gəl "Gəl, ey Şeşpayi Bəhrim" oxuya-oxuya can verib. Nə deməkdi, nə rəmzdi bu "Şeşpayi Bəhrim",[53] "Altıayaqlı dəniz atı"? Altı qitəli Yer – EyƏrin sahibi Ulu Bağ ƏsƏlMəndi. Alı əmimiz, yəni Aşıq Alı AğBizənli nur mücəssəməsiydi. Yandım, oğul. Daxilən sındım. Həftənin axırında maşını sürdürdüm "Şüşəli" pavilyona – restorana.

Dörd aydı nə gecəm var, nə gündüzüm. "Gülgəz" deyirəm, ağzımda dilim yanır. Üzünə baxıram bədbəxtin, üzüm yanır. İçirəm, nə çərənləyirəm, özüm də bilmirəm, guya dərs deyirəm bədbəxtə.

Dörd aydı Qurban gəlir kabinetə: "Boşa! Qaytar". "Nə qədər ki, bu qancıq burdadı, Səməd adında qardaşoğlun yoxdu" – belə deyir. Axırda məcbur oldum Saşaya ismarladım ki, vaxt tapsın, Qılınc Qurbannan söhbət eləsin.

"Qaytar bu qancığı!" Hm...

Qaytarsam guya nəsə dəyişəcək! Nə dəyişə bilər axı?!

Əksinə!.. Axşam dedim sənə... Çax-çux Xalıq xüsusi gedibmiş Bakıya. Əhvalat çatıb yuxarıya. Daha doğrusu, yuxarıdan gəlir hər şey. Qaytarsam, demək, öz əlimnən təsdiq eləyirəm bədbəxtliyimizi.

İndi gör nə çəkir bədbəxt əmin. Təsəvvür elə, gör nə halda olmuşam dalınca mehmanxanaya gedəndə. O cür abırsız, həyasız!.. – Sultan stəkanı boşaldıb yenidən doldurdu.

– İçirəm ey, içirəm! Yoxam mən!.. Yoxam!.. RİK Atamalının təşəbbüsüynən Azərittifaq tikdirib o "Şüşəli"ni, Tahirliynən Qonaqlının arasında. Adı internat-məktəb yeməkxanasıdı, özü Gülənovun qardaşı

Molla Gülənoğlunun traktiridi, həm Erməni, Sovet casuslarının görüş yeridi, açıq-açığına! Həm də Mirqəzəb toxumlarının kef yeridi. “Şüşəli pavilyon”da Sayılov “pastayannı tamadadı”, Gülənov tamadanın birinci müavini, Atamalı ikinci müavini. Moskvadan necə göstəriş alıblarsa, hər həftənin altıncı günü gecəykən sərhəddi açırlar Culfada. Tehranda yaşayan “xüsusi dəstə” adlanan cəllad rusları göndərirlər düz bu Şüşəliyə, Moskvadan, İrəvandan xüsusi intruksiyalarnan yığışırlar. “Arşınmalçılar nəsli” barədə topladıqları məlumatı müzakirə edirlər. Sənin xəbərin yoxdu, “Ermənistan” adlandırılan ƏrMən torpağında qalıb hələ Muğannalar. Bir etibarlı adamımızın, gizlətmirəm, həmin Saşanın məlumatına görə, Xudiyev agentlərinin Türkiyədə də agentləri çoxdular, deyir, türk ordusunun içinə göndəriblər, Türkiyənin ən məsul işçilərinə çevriliblər, asta-asta dağıdırlar ölkəni daxildən. Belə bədbəxtliyimiz var, Bircə bala. Şüşəli pavilyondan qərar yayılır hər yerə: harda, kim, nə vaxt öldürülsün. Tək bir nəfər nəzarətçimiz var bizim o pavilyonda. Lap cavanca rus qızıdı: Marina. “Məryəm ana” deyirik. Tanı. Lazım olacaq. Başqa nə deyim sənə?

Rayonun belə müsibətli vəziyyətində, köhnə qayda üzrə səfərbərlik aparıb pambıq yığımını təşkil eləyirəm. İclasın yarısında, birdən elə bil yuxudan ayılıram, görürəm dilim o sürüynən danışıb, özüm sənin yanında olmuşam. Bu dörd ayda, bu divarların arasında ancaq sənnən oturub-durmuşam. Üçüncü adam olmayıb burda. İnanırsanmı mənə? Başını qaldır, üzümə bax, gözümün işığı! De görüm inanırsanmı mənə?! Səni məndən, məni səndən ayıra biləsi qüvvə varmı bu dünyada?!

Səməd başını qaldıra bilmədi. Çünki gözləri dolmuşdu.

– Yoxdu əmi! – dedi. – Elə bir qüvvə yoxdu! Sən incə adamsan, böyük insansan, əmi! Gör nə qədər casus, terrorist arasında işləyirsən!

Əgər bu vaxt Əlləzoğlu görünməsəydi, məhəbbəti Səmədə çox söz dedirdəcəydi. Çit sarğının üstündən başına həmin qıllı, boz “motal” papaqda, Göbələk, hər əlində bir şiş kabab, yox yerdən peyda olan şeytan kimi, birdəncə stolun böyründə peyda olub, Səmədin sözlərinin qabağına tıxac kimi tıxandı.

– Köhnə əyyamın kəlamıdı: əvvəl təam, sonra kəlam!... Əvvəl yeyin, sonra danışın, dərdin alım... – Qara, gödək barmaqlar şişin birini Sultanın nimçəsinə çəkdi, ikincisini Səmədin nimçəsinə.

Sultan bu müdaxilədən nə qədər tutulmuşdusa, Səməd bir o qədər sarsılmışdı. Stəkanı ovcunda sıxıb, kirpiklərini endirib, Əlləzoğlunun burdan rədd olmağını gözləyirdi. Yox, vəziyyətə alışmırdı Səməd!

Sultan əllərinin titrədiyini görə-görə, öz nimçəsindən yuxa parçası ilə bir tikə götürüb ona verdi, birini də özü götürdü.

– Düz deyir, əvvəl təam...

Alovlu ocağa su tökülən kimi bir şey oldu. Dolu stəkan Səmədin birdən-birə barmaqlarının arasından sürüşüb böyrü üstə düşdü, qara-qırmızı çaxır yayılıb dümağ süfrədə qan ləkəsinə çevrildi və Səmədin gözləri o ləkəyə dirənib qaldı.

Dumanlı bir hiss, içərisinə çöküb qalmış o lil-palçıqdan da qatı, köhnə bir çöküntü tərpənib Sultanı tələsdirdi ki, duz qabını tezcə götürüb süfrədəki "qan"ın üstünə duz töksün, – Ye, ye! Çörəyini ye! – deyib qardaşoğlunu yeməyə məcbur eləsin.

Səməd başını endirib, üzünü gizlətməyə çalışıb yeməyə başladı, əmma gözləri dolanıb yenə o ləkəyə dirəndi.

– Hə, meylinizə yarayırmı, dərdin alım?.. Yaxşı iççalat da var. Bəlkəm gedim bir-iki şiş də iççalatdan çəkim?

– Hə, get, get! – Sultan qayınatasını açıq-açığına qovdu.

Səməd əlini qrafinə atdı, stəkanı doldurub, təkbaşına içdi. Cəmisi bir neçə dəqiqə əvvəl, "Elə bir qüvvə yoxdu" deyəndə nə qədər ayıq-dısa, indi bir o qədər sərxoşdu.

Qalın duz layının üstünə çıxan qızartıdan başqa heç nə görmürdü. O qızartıya "Dəli Səmədi" yuxudan oyadıb hadisə yerinə – saqqız ağacının yanına aparan Cəfər əmi – Lüt Cəfərin və Gülənovun səsləri həkk olunmuşdu: "Qəsd işi yoxdu!.. Qəsd işi yoxdu!" Qapağının hər küncündə bir mismar işıldayan tabutun yanında dayanmış Sultan əminin səsi də Cəfər əmi ilə Gülənovun səslərinin arasında idi: "Qəsd işi yoxdu!"

Bu səslər çoxdan açılmış bir sirri yenidən açırdı.

O sirri ki, Səməd hələ "avariya" günü əmisinə məhəbbətinin altında basdalayıb gizlətmişdi. Elə indinin özündə də basdalayırdı, mürəkkəb

---

[54] Kasıblar komitəsinin sədri (1930-cu ilə, kolxoz qurulana qədərki rəhbər vəzifə).

[55] Gürcüstan SSR-nə verilən ərazilərdən.

[56] Şagirdlərə şərti olaraq "mürid" də deyirdilər.

[57] *"Əlvənd"* – ƏlEv Ün dağı (Ulu Bağ ƏsƏlMənin Olam – "Olimp" ərazisində – "saray"ı – SarEyi olan dağ). Hal-hazırda ziyarətgah sayılır.

hiss və duyğular çəlpəşiyində saxlayıb, aydın sözə-fikrə çevirmək istəmirdi, əmma əmisinin süfrəsində qan ləkəsinə həkk olunmuş səslər məhz o sirri sözə-fikrə çevirirdi: "Öldürülüb!.." "Öldürülüb!" "Öldürülüb!.." "Qəsd işi yoxdu", – deyib özündən əvvəlkilərin sözünü təsdiq edən, "Açma" – deyib qapağı qaldırmağa qoymayan qardaş bilir ki, qardaşı öldürülüb, əmma sirri qardaşoğluna açmır, çünki o sirri açsa, yəni qardaşına sui-qəsddən xəbərdar olduğunu etiraf etsə, gərək qəsd işinin gizlədilməyində iştirakını da və bu hərəkətinin səbəbini də açıb desin...

Süfrədə qan duzu yedi. Kim isə zalın o baş-bu başındakı çilçıraqlardan əlavə işıq yandırdı, stolun üzərindəki parıldayan çilçırağın altında ləkə açıq qırmızı rəngə düşdü, ordan – ləkədən çıxan səslərdən biri son dəfə "Açma" – dedi. "Açma! Bircə bala, açma!" – dedi və susdu. Səmədə elə gəldi ki, bu axırıncını heç də ordan – ləkədən yox, əmisinin özündən eşitdi. Diksinib, hövl içində başını qaldırıb baxdı. Əmma əmisi yerində deyildi.

Sultan, əlində çaxırla dolu stəkan, əyri-üyrü addımlarla qapı tərəfdən gəlirdi və gələ-gələ zalın yuxarı başında kiməsə üz tutub: – Ağlıyammıram, – deyirdi.

– Düz yeddi il səkkiz aydı yaş düyünlənib qalıb, ağlıyammıram, – deyirdi.

Səməd ancaq indi gördü ki, içəridə tək deyil.

Yuxarı başda döşəməyə xalça salınmışdı, döşəkçə, mütəkkə qoyulmuşdu. Xalçanın bir tərəfində, sinidə Seyid kişinin samovarı buğlanırdı, o biri başda – döşəkçənin üstündə Abı ilə Çürük Aşıq, ayaqlarında qara-qırmızı naxışlarla bəzəkli corablar, bardaş qurub yanaşı oturmuşdular.

Çürük Aşığın qabağında, stəkanının yanında özü kimi qədim, xırda, qonur-qara cürəsi işıldayırdı. Abının çay stəkanının yanında isə, "iç adamının" özü kimi qədim yastıbalabanı qaralırdı.

Vaxtilə Suranı o taydan – Təbrizdən gətirib kəndə özünə toy eləyəndə sədr Mədəd, daha doğrusu, o vaxtkı "Bedkom[54] Mədəd" öz halal dədə-baba malından bir axça Çürük Aşığa bağışlamışdı, bir axça da Xızr Abıya. Səməd qocaların o axçaları xərcləməyib, birini saza, birini də balabana yapışdırdıqlarını eşitmişdi. Əmma görməmişdi. Çünki Çürüyün haçansa bütün mahalda məşhur aşıqlığı, toylarda, şənliklərdə otuzluq lampanın altında dayanıb öz cəkkiltisi ilə lampanın alovunu oynatması lap çoxdan nağıl kimi, əfsanə kimi bir şey olmuşdu. Xızr Abı isə, Aşıq

qardaşı sazı yalnız hərdən qocaların təkidilə üzə çıxardığına görə, “ax-çalı-pullu” balabanını sandığın dibinə atıb, mollalıq eləyirdi, daha doğrusu, arxalığının ciblərini çərəklərlə doldurub divarlar dibində, qəlyanlı qocaların arasında qəlyanını tüstülədə-tüstülədə oturub, oraya gəlib ƏsƏlim deyənlərin cavabında “ƏlEy ƏsƏlim” deyə-deyə “Təhlə”dən, “Qaraçöpdən, Qarayazıdan[55] gələn müridlərin[56] hamısının toplaşmasını gözləyəndən sonra hərəsinə bir Təbriz çapı kitabça paylayıb, “Süleyman padşah”dan, “Xəzinə”dən hədis deməyə başlayır, o yığnağa kənar adam qoşulardısa, o dəqiqə “Qurani Şərif”dən, Şəriətdən söz salırdı. Yad adam gedəndən sonra isə, öz əvvəlki ovqatını təzələmək üçün hökmən Çürüklə baş-başa verib, bəzən hər ikisinin qələmindən çıxan qəzəl, gəraylı, qoşma oxuyurdu:

“...Mən Əlhəm oğluyam Əlvənd[57] dağında...”

Abıya, Çürüyə aid belə-belə qəribə, anlaşılmaz söz-söhbətləri xatırlayıb, haqqında bu qədər danışılan SafAğ Elmini “boş bir şey” adlandırıb, hətta bundan qəmlənəndə birdən Səməd son dərəcə anlaşılmaz bir aydınlıqla atasını Abı ilə yanaşı gördü, o, üşütmə içində tir-tir əsdi. Eyni anda içərisində qışqırtı titrədi: “Bu nədi, bu nədi?!” Bədbəxt hardan biləydi ki, uzaq OdAğÜz BağOdƏr planetindən SafAğ İşıq içində göndərilən bu canlı insan qədər canlı şəkil tək-tək adamlara nəsib bir xoşbəxtliyin başlanğıcı idi.

Görüntü tezcə yox oldu.

Sultanın səsi eşidildi:

– Özünüzə məlumdu hər şey. Çıxardın içimdən bu düyünü!

Çürük dilləndi:

– Abıya çoxdan ayandı sənin düyünün. Hazır gəlmişiz biz, oğul. O əlindəkini bir qırağa qoy. Əyləş, başlayaq.

– Başlayın, başlayın!.. – Sultan stəkanı boş qrafinin yanına qoyub, keçib portretin altında oturdu, qollarını sinəsində çarpazlayıb, başını arxaya – divara söykədi, göz qapaqlarını endirdi. “Açma! Bircə bala, açma!” – deyən o asta, xırıltılı səs hələ də Səmədin beynində idi. Bu

---

[58] SafAğlar həqiqəti: El şairlərinin ustad Aşıq – ƏsAğların şeirlərində “dağlar” motivinin çoxluğu “Od Ağla” və “sinəsi dağlar” olan ölkə ilə – Bağdayla bağlıdır.

səsin təhriki ilə, Səməd gecədən indiyə qədər keçən müddətdə birinci dəfə əmisinin üzünə diqqətlə baxdı. "Açma" – deyən, içərisi düyünlü əminin qapqara yanmış, qurumuş göz qapaqlarında yeddi il səkkiz ayın yuxusuzluğunu gördü. Səməd, əlbəttə, açmayacaq, hər küncündə bir mismar işıldayan qapaq necə əbədi örtülü qalıbsa, bu açıq sirri də elə qalacaq.

Qarayanıq göz qapaqları titrədi, çal, pırpız qaşlar düyünlənib daha da pırpızlaşdı. Həmin bu anda da yastıbalabanın bəmi cürənin cingiltili zilinə qarışıb qarmon səsinə çevrildi. İllərin uzaqlığından bir sehr gəldi, Səmədin ürəyini ovcuna alıb apardı. Bu sehr "Zarıncı" idi. O "Zarıncı" ki, hamının, o cümlədən Səmədin də pislədiyi Gəzəyən Şənbənin barmaqlarından çıxmışdı, qara geyimli, göy örtüklü gəlinləri ağlatmışdı. O "Zarıncı" indi Çürük Aşıqla Xızr Abının barmaqlarından çıxırdı.

Aşxana, kababxana künclərində "lotu-potu üçün çalan", "gündə bir kişinin altında uzanan", o bədnam Gəzəyən bu sehri hardan alırdı?!

Bu quru-taqqanaq qocalar bu sehri hardan alırdılar?!

Səməd əmisini də unutmuşdu, özünü də.

Birdən balaban susdu. Çürüyün quru, uzun barmaqları ən bəm-baş pərdədə, "Baş Divani" üstündə ağır-ağır tərpənib, "Zarıncı" göynərtisindəki sehri ciddiləşdirdi. Eyni vaxtda qocaların başları əsə-əsə bir-birinə doğru əyildi. Zəif, üzgün-heysiz, əmma bulaq suyu kimi tərtəmiz zil Abının məxmər bəmi ilə qoşalaşdı, iki səs bir-birinə elə qovuşdu ki, daha üçüncü səs-cürə lazım olmadı; Çürük əlini saxladı ki, sözlər aydın eşidilsin:

Əhvalımı soruşursan, nə təhər deyim, ey qardaş,
Azərbaycan nə təhərdi, mən o təhərəm, ey qardaş.
Şimaldan bir səmum əsir, Cənubumuzdan başqası,
Səhralaşan yurdumuzda tozdan betərəm, ey qardaş!

Səməd yenə əmisinə baxırdı. Pırpız qaşlar necə çatılmışdısa, eləcə qalmışdı. Yeddi il səkkiz ayın yuxusuz gözləri necə qapanmışdısa, eləcə qalmışdı. Yox, düyün açılmırdı. Bunu, deyəsən, qocalar da gördülər. Oxumaq əvəzinə elə bil hönkürməyə başladılar:

Farsın içində dilsizəm, Rusun içində elsizəm,
Ağlamaq da qadağandı, boğuq qəhərəm, ey qardaş!

“Qəhər” sözü “qəhr”dəndi, “qəhr” – “ki ər” – OdƏrdəndi,
Odu, Əri də qəhr olan məzlum OdƏrəm, ey qardaş!

Qarayanıq göz qapaqlarının tökülüb seyrəlmiş kirpiklərini bu fəryaddan sonra da qupquru görəndə Səməd başa düşdü ki, düyün açılmayacaq. Çünki Sultan əmi yatmışdı. Özü də hələ bayaq qollarını sinəsində çarpazlayıb başını divara söykəyəndəcə yuxuya gedib, nə “Zarıncı”nı eşitmişdi, nə də “Divani”ni.

Qocalar birdən-birə qəzəblənmiş kimi, heç birinə yaraşmayan heyrətli, uca, hönkürtülü səslə bayatı çəkdilər:

Eheeeey, oyan dağlar!
Nə yatmısan, oyan, dağlar!
Bu yanın zülmətxanədi,
Necədi o yan, dağlar?! A dağlar! Od Ağlar,[58] dağlar!

Qocalar susar-susmaz, bayaqkı görüntünü Səməd bu dəfə əmisinin böyründə – divanda gördü; Sultanın o cür bayatıdan da oyanmadığına elə bil Mədəd də heyrətlənib, üzündə heyrəti, oğluna baxıb yoxa çıxdı.

Qocalar kor-peşman, Sultana tamaşa eləyirdilər.

Səməd isə daha nə əmisinə baxa bildi, nə də qocalara.

Yeddi il səkkiz ay öz “cəhənnəm kürəsi”ndə yanıb qovrulandan sonra burda, əmisinin süfrəsinin başında atası ilə əmisinin “məzlum OdƏr” talelərinə yana-yana ilk dəfə doyunca, demək olar ki, lap boşalınca ağladı. Üzünü biləyinə söykəyib, elə burda da yatdı və gecənin bir vaxtı oyandığı anda röya gördü. Bu röya həm şirindi, həm də acı. Şirinliyi bunda idi ki, Gülgəzlə üz-üzə oturmuşdu. Gülgəzin gözlərinə, cıqalarına baxa-baxa, Gülbənizin önlüyünün ətəyindən kişmiş yeyirdi. Acılığı isə bunda idi ki, kişmiş acı idi. Dilinə-damağına çökən zəqqutun dadını duyduqca, Səməd tez-tez Gülgəzin biləyindən yapışırdı. “Yemə, yemə! Kiflənib kişmiş! Zəhərlənərsən!” – deyirdi. Əmma Gülgəz qulaq asmırdı. “Sənnən zəhər də xoşdu!” – deyib gülə-gülə kişmişi ağzına basırdı və acılıqdan, elə gülə-gülə inildəyirdi.

Oyanıb qaranlıq zalda, yığışdırılmamış süfrədə qabların soyuq işıltılarına baxa-baxa, həmin iniltini yenidən eşidəndə Səməd röya ilə reallıq

arasında, anlaşılmaz və anlaşılmaz olduğu qədər də əzablı bir aləmdə bir müddət hərəkətsiz qaldı. Sonra dik atılıb inilti gələn tərəfə cumdu.

Qapıları, pəncərələri taybatay açıq yataq otağında, stolüstü lampanın işığında, arxası üstə uzanıqlı Gülgəzin elə bil son nəfəsdə "qamətə" dikilmiş, işgəncə ilə dolu gözləri parıldayırdı. Sultanın zil qara hörüklərə qarışmış çal saçı işıldayırdı. Səsi xırıldayırdı:

– Qalmalısan!.. Sən bu evdə qalmalısan!

Səməd əllərini üzünə basdı. Yataq otağına tərəf cumduğunun, orda gördüyünün, eşitdiyinin də röyada baş verdiyini hiss etmədən, burdan qaçmağa, uzaqlaşmağa çalışıb, səndələyə-səndələyə geri çəkildi. Taleyin dönüklüyündən, təhqirin ağırlığından, bədbəxtliyin sonsuzluğundan boğulurdu. Ani bir nəzər, ani bir mənzərə qəlbində hər şeyi alt-üst eləmişdi, bütün həyatını, varlığını qurban verməyə hazır olduğu əmisinə – "uca şəxsiyyətə, gözəl insana" məhəbbət əvəzinə, ürəyinə ikrah doldurmuşdu.

O balıncın üstündə dəbərə qalan, işgəncə ilə dolu gözləri, o qara saçların arasında işıldayan çal tükləri xəyalından uzaqlaşdırmağa, eşitdiyi inilti ilə xırıltını qulağından çıxarmağa çalışdı, mümkün olmadı. O gözlər daha da böyüdü, dəhşət dünyanı tutdu və Səmədin Qaraçı gözəli adında Qaratikanlı-Gurtikənli, Qaraağaclı-Gurağaclı dünyası ilə birgə Sultan Əmirli adında möhtəşəm dünyası da o dəhşətə qarışıb yoxa çıxdı və Səməd bu yoxluq, heçlik içində əmisinin evinin pillələrindən axırıncı dəfə düşüb, eynilə dünənki kimi, haraya və nə üçün getdiyini bilmədi...

## 10

Yoxluq, heçlik içində bir qaraltı göründü. Səmədə elə gəldi ki, düz bu yana gələn qaraltı kim isə Sultanın adından gəlir. Əmma qaraltının böyründə "Pobeda" maşını görünüb faraların qəfil parlayan gur işığında o "qaraltı"nı zərli paqonlarında üç iri qırmızı ulduzu işıldayan bəstəboy, dolu, möhkəm, gözəl bir oğlana çevirdi. Axsaya-axsaya, bir yanının üstünə çökə-çökə, sürətlə yaxınlaşıb, sol əlini tənziflə boynundan asılmış sağ qolunun altından çəkib, iri, qabarlı pəncəsini Səmədin qarşısında geniş açıb:

– Salam, əzizim. Mən Saşayam, – dedi.

NKVD-də müavin işləyirəm. Çaşma. Burda yox, Bakıda. Sənin də, mənim də şəcərəmiz əslində Ulu Bağlı olmalıdı. Ya da Süleymanlı. Babayev yazdırıram. Atamın adını familiya götürmüşəm. Atam işimizin

xatirinə Mirqəzəbin baldızı ilə evlənmişdi, Bağırovun sağ-solundakı Ermənilərin hər həftə, bəzən hər gün təşkil etdikləri terrora göz qoyurdu, Muğannaları xəbərdar eləyirdi. Elə bunun üstündə öldürdülər. Məşhur adam olub, tanıyarsan: Baba Əliyev Ulu Bağ ƏsƏlMən, (Solomon) bilirsən on doqquzuncu əsrə qədər Yerdəki Adlarını tez-tez dəyişirmiş: Comərd, Musa ağa... Bu bizim tanışlığımız. İndi sonrasına qulaq as. Qılınc Qurbana danışmışam, nə lazımdısa. Onnan söhbət elə. Beynin açılacaq. Ətrafında nə baş verdiyini tamam dərk eliyəcəksən... Vəssalam. Missiyam qurtardı. Sələmət qal, əzizimiz. Bu bizim birinci və sonuncu görüşümüzdür. Mən həbsdəyəm.

"Volqa"ya minib qapını çəkdi. İşıq uzaqlaşdı.

* * *

Yoxluq, heçlik içində bir qaraltı da göründü. Bu dəfəki bir metrlik qaraltı Əlləzoğlu idi. Bir əlində yaba, o biri əlində neft qabı, Ortayolun o tərəfində, uzun illər ərzində günbəgün, aybaay qalınlaşıb keçilməz hasara çevrilmiş çəpərin darvazası səmtindən gəlib, Əmirli mülkünün qabağında dayananda yabanı yerə sancdı, nefti tələsmədən, təntimədən, pəncərə taxtalarının arasından o yana axıtdı.

Səməd çəpərsiz, hasarsız, hamar, geniş həyətin çəmənə qovuşduğu yerdə, su quyusunun dikdirində oturmuşdu. Baxırdı və səhərin toranında hər şeyi görürdü.

Gödək, yoğun barmaqların ucunda kibrit çöpü alovlanıb Əlləzoğlunun üzünün biz-biz tüklərini işıqlandırdı, sonra şam kimi şölələnib, içəridən zirəzə ilə boşurğu bağlı pəncərə taxtalarının arasından o yana düşdü.

Səmədin kirpiyi də tərpənmədi.

Sədr Mədədlə ərköyününün qoşa çarpayıları kibrit çöpünün düşdüyü yerdə – divarın dibində idi. Neft oraya, iki il bundan qabaq Ayna bacının naftalinləyib palazla örtdüyü yorğan-döşəyin üstünə tökülmüşdü, yanğın da ordan başlandı, neftdən islanmış divarla dikinə yeriyib pəncərə taxtalarına dırmandı.

Quyunun üstündə su mancanağı necə hərəkətsizdisə, Səməd də eləcə hərəkətsizdi. Pəncərə taxtalarını bürüyüb tavana doğru uzanan alova baxa-baxa, cibində – partbiletin arasında gəzdirdiyi qəbir şəkillərini gördü. O şəkillər nə idisə, kandarında çəmənotu və qazayağı bitən, ta-

vanında qaranquşlar uçuşan ev də indi eləcə, şəkil kimi bir şeydi; Əgər şeyx əmilərinin qəbirlərinə "nöyüt töküb kibrit çəkən" olsaydı, Səməd, əlbəttə, laqeyd qalmazdı. Divar arxasında avadanlığa isə tamamilə laqeyd, oturub, nəyin harda və necə yandığını bütün aydınlığı ilə görürdü.

Yorğan-döşəklə eyni vaxtda, çarpayılardan sağda, şüşələrində bir cüt qanadlı mələk olan şkaf da dərhal alışmışdı, odur ki, qapının yuxarısında, "Bircə balanın qaranquşları" üçün qoyulmuş bacasayağı yerdən eşiyə buxarı işığı kimi titrək, qırmızı işıq düşürdü. Arada qara, qatı tüstü burulub o işığı basdı. Bu o deməkdi ki, çarpayılardan solda, şifonerdə sədr Mədədin sarı meşin paltosu, sarı xrom çəkmələri, qalın qayış kəmərlə naqan qoburu da alışmışdı, dəri qoxulu qara tüstüyə çevrilib, qaranquşların bacasından buruq-buruq çıxırdı, balkon dirəklərinin arasında yaymalanıb havaya – torana qarışırdı.

Səhər yuxusunun elə vaxtı idi ki, Sudüşən çəmənində və Tahirliyə, Qurbanlıya doğru uzanıb gedən kanal boyunda qurbağaların qurultuları da ara vermişdi. Hətta Qudalıların çəpər diblərində kirpi yerişinə, dovşan hoppanışına hürən itlərinin də səsi çıxmırdı. Bu cür sükutda, içəridə gurultu qopanda Səməd dərhal başa düşdü ki, anasının sandığında, dördkünc dəmir qutuda "bezdımnı" barıtdı, partlayıb, qutu ilə birgə sandığı da dağıtdı.

Müharibə qurtaranda sədr Mədəd öz köhnə naqanı, mauzeri, beşaçılanı və patrondaşı ilə birgə küncdə-bucaqda boş gilizlərə qədər yığışdırıb aparıb təhvil vermişdi, evdə "bir tiyə də qoymamışdı", o dördkünc qutuda "bezdımnı" barıta isə toxunmamışdı.

Hər il martın iyirmi birində Bircə bala sandığı açıb barıtdan bir ovuc götürərdi. "Novruz" bayramı münasibətilə qoz, fındıq satan Çax-çuxdan bir kilo qoz alıb, Yusif kimi gözəl Yusiflə birgə xəlvətə çəkilərdi, çuvaldızla, bizlə qozların içini eşib boşaldıb, əvəzinə "bezdımnı" barıt doldurardılar. Qaranlıq düşəndə, bütün həyətlərdə "hər ölünün ruhuna bir tonqal" qalananda isə, Çax-çuxun daxmasının yanından o yana – məhləyə keçərdilər, çəpərlərin, ot tayalarının ara-bərələrində gizlənə-gizlənə, həyətlərə yaxınlaşıb, Qudalı ağsaqqalı Xəlvət Rəhimin öz atası ilə qardaşı Məmmədəlinin ruhlarına qalatdığı qoşa tonqaldan başlayaraq, "hər Qudalının tonqalına bir qoz" atardılar, irili-xırdalı tonqallarla bəzənmiş, rahat kənddə birdən-birə partapart düşərdi. Çoxları bu partapartı atışma zənn eləyib narahat olardılar, kandarında çəmənotu və qazayağı bitən, tavanında qaranquşlar uçuşan evin həyətində isə şaqqıltılı qəhqəhə

ucalardı. Sədr Mədəd, ispalkom Qılınc Qurban və hətta sakit, susqun partkom lüt Cəfər də "döyüşdən qayıdan Koroğlu dəlisi" Bircə balanı qəhqəhə ilə qarşılayıb qucaqlayardılar. "Yaxşı eləyirsən, lap əliyin içindən gəlir", – deyərdilər. "Qudalılar özləri bu kəndi azmı zibilləyiblər ki, üstəlik oğru-əyri əcdadlarının ruhları da zibilləsin!" – deyərdilər.

"Avariya" günü üzünü qəbirlərin şəkillərinə söykəyib həmişəlik yuxuya gedəndə Bircə bala anasının sandığında "bezdımnı" barıtı da özü ilə aparmışdı. İçəridə gurultu hər şeyi yenidən qaytardı. Əmma bu xatirənin ömrü bir an da çəkmədi: "Novruz" axşamının tonqalları da, sədr Mədədin, Qılınc Qurbanın, Lüt Cəfərin qəhqəhələri də, "Döyüşdən qayıdan" Bircə balanın özü də "bezdımnı" barıtla birgə partlayıb dağılıb tavana çırpıldı. Orda – tavanda çartaçat düşdü, belə ağaclarının – kərənlərin aralarına çitənmiş qarğı-qamış çatıltı-patıltı ilə yanıb tökülməyə başlayanda, döşəmənin meydan genişliyində nəhəng, uzun stolla dövrəsindəki stullar da, naftalinlənib, bükülüb stulların üstünə yığılmış xalçalar, kilimlər də, lap yuxarı başda – Bircə balanın yazı stolu, kitab tərəcəsində "Dumanlı Təbriz", "Tegeran", "Gələcək gün", "Polad necə bərkidi", "Voyna i mir" və sair seçmə kitabları və tərəcənin üstündə Qaratikan – Gürtikən, Qaraağac – Gürağac budaqları da od tutdu. Ev kürə kimi uğuldadı və nəhayət, dörd pəncərənin dördündən də gur alov püskürüb, on addımlıqda, quyunun üstündə Səmədin üzünü, sinəsini, əllərini qızğın külə batırdı, sonra evi çulğalayıb göyün dərinliyinə milləndi. Ordan – dərinlikdən parça-parça od-alov, qurum, kül yağmağa başladı...

* * *

Səmədin xəbəri yoxdu və ola da bilməzdi ki, yaz və payız gecələrində burda – quyunun dikdirində oturub, o taydan gələn, bu taydan gedən durnaların səslərini dinşəyəndə sədr Mədəd kandarında çəmənotu və qazayağı bitən, tavanında qaranquşlar uçuşan ev əvəzinə başqa bir ev görürmüş ki, o ev səhərdən axşama, axşamdan səhərə qədər qaynayan Əmir bazarının söykəyində, gecələr təkbir almaları tappıldayan

[59] Səttar xanla Bağır xanın hərbi rütbələri.

[60] Səhvən "Birinci dünya müharibəsi" adlandırılan müharibə (1914-18), əslində 1910-11-ci illərdə başlanmışdı; Rusiyanın ətrafındakı ölkələrdə bir tərəfdən "Antanta" adlanan dörd iri dövlətlə o biri tərəfdən Rusiyanın Gəncə quberniyasındakı ordu (qaçaq) hissələri ilə döyüş gedirdi.

hündür, seyrək alma ağaclarının arasında qırmızı kərpicdən tikilib, Əmir fədailərinin Şeyx Məhəmməd Əmirdən təhsil-tərbiyə alan uşaqları üçün ayrılıbmış, min doqquz yüz doqquzuncu-onuncu illərdə aclıq üzündən fədailərin çoxu ailələri ilə birlikdə Bakıya – fəhləliyə gedəndə isə, o ev bütün Əmirlilərin uşaqlarının, o cümlədən Məhəmməd Əmirin özünün sonbeşikləri Mədədlə Sultanın daimi məskəninə çevrilibmiş. Uşaqlar o evin torpaq döşəməsində, boz kilimlərin, ala-bula cecimlərin üstündə, qamış əlfəcli, açıq kitabların önündə cərgə ilə bardaş qurub, gündəlik dərslərini hazırlayıb, çörəklərini də orda yeyirmişlər, Şeyx Məhəmməd Əmirə pənah gətirən aclardan birinə, bağla bazar arasında hamballıq eləyən Fağır Məmmədliyə, sonralar Yağır ləğəbi ilə məşhurlaşan, quru sümük ələngəyə-skeletə oxşayan adama kömək eləmək üçün meyvə yığıb qax kəsəndən sonra, Məhəmməd Əmirin o vaxtkı aşpazı Xeyriyyənin, indiki alverçi Xeyrənin – Xeyrə arvadın qulplu qazanlarının qulplarından tutub, evlərinə xörək aparırmışlar, xörək olmayanda isə, çox vaxt gecəni də orda qalırmışlar; qırx yaşlı sədr Mədəd burda – quyunun dikdirində otura-otura, on iki yaşlı, gödərək, tökmərək ev sahibinə çevrilib, haman boz kilimlərin, ala-bula cecimlərin üstündə yorğan-döşək döşəyib, kiçik qardaşı Sultanla özündən başqa iyirmi-iyirmi beş, bəzən otuz nəfər əmiuşağı, dayıuşağı, xala, bibiuşağı üçün yer salırmış. O ev də kandarında çəmənotu və qazayağı bitən, tavanında qaranquşlar uçuşan ev kimi, bircə otaqdan ibarətmiş. Əmma o bircə otağın uzunu Məhəmməd Əmirin arşın addımı ilə on altı arşın, eni səkkiz arşınmış. O başda bir buxarı, bu başda bir buxarı varmış. Evin özü kimi buxarıların bacaları da qırmızı kərpicdən hörülüb damdan o yana dörd arşın uzadılıb, palıdsayağı nəhəng alma ağaclarından yuxarı çıxarılıbmış ki, Təbrizin ab-havası nə qədər təmiz olsa da, bağa qurum çökməsin. Bacalarla tavanın arasında dörd barmaq enində iki əlavə baca da qoyu-

---

[61] EyOdƏr Babaya

[62] "Comərd" hələ XII əsrdən Gəncə AğEy – "Əxi" əsnafının (sənətkarların) Xilafətə qarşı başçısı (komandan rütbəsi) idi; Şeyx Məhəmməd Əmirin, Göyçəli Aşıq Alının və Qazax qəzasında Hüseyn ağanın atası, gizlin "Süleyman" adı daşıyan Bağ da "Comərd" rütbəsində idi; həm Antanta, həm də Rusiya ilə döyüşməyə məcbur edilmiş, 1899-cu ildə "yoxa çıxıb" gizlin məkandan comərdlik edirmiş. "Comərd" – "Süleyman", "Musa" haqqında tarixi materiallar itirilib-batırılıb, yalnız SafAğ Elmi yayan Pünhan aşıqların əsərlərində qalıb; "Aşıq Qərib" dastanında "Ağ atlı pirani", "Şahzadə Qasım" dastanında "Şeşpayi bəhr" – "dəniz atı" – "OdÜnƏs Odu (Günəş həqiqəti), "Məsim və DilƏfruz" dastanında "Süleyman padşah".

lubmuş ki, buxarılarda, sacayaqlarının üstündə qulplu qazanlar qaynayanda divarlara xörək iyi hopmasın. Şəhərə qatı duman çökdüyü, bağda dumanın burulub-büküldüyü vaxtlarda o əlavə bacaların ensiz, uzun deşiklərindən içəriyə də duman təpilib, tavanın altına ağ cuna çəkirmiş. Quru sümük ələngə hambal-fağır Məmmədəli divarın dibində sallağı oturub çubuq sümürə-sümürə, tavanın altındakı ağ cunaya doğru tüstü üfürə-üfürə, köksünü ötürüb, elə hey "bərəkət ərşə çəkilib, bərəkət ərşə çəkilib" – deyirmiş və Mədədlə kiçik qardaşı yorğan-döşəyin arasında o ağ cunaya tamaşa edə-edə qəmə batıb köyrəlirmişlər, gecənin bir aləmində hambalın hətta yuxuda da "Bərəkət ərşə çəkilib" dediyini eşidəndə isə nəhayət, dözməyib, birdən-birə üsyan qaldırırmışlar ki, "Bəs deyilmi?!"

Yağış yağanda əlavə bacalardan buxarıların qızğın kərpiclərinə iri damcılar döyəclənib, səssiz cızıldayıb o an da quruyurmuş. Hambal həmin divar dibində çubuğunu sümürə-sümürə Mədədlə Sultana o damcıları göstərirmiş, "O damcılar əhli Təbrizin ruzusudu. Göydən gəlib göyə gedir. Himayədarımız Şeyx Məhəmmədin iltiması da fayda vermir!" – deyirmiş. Uşaqların yenə də qəmlənib, köyrəlib, dillənmədiklərini görəndə isə, bir dəfə dediyini beş də, on da deyib, axırda yenə üsyana səbəb olurmuş: Qardaşlar ikisi də yorğan-döşəkdən atılıb Fağır Məmmədəlinin yaxasından yapışıb soruşurmuşlar ki, əyər Şeyx Məhəmməd Əmir fədailərlə birgə cəmi əhli-Təbrizin himayədar Şeyxidisə, necə ola bilər ki, iltiması fayda verməsin?! Fədailər Bakıdan tüfənglə, patronla qayıdıb, Sərdara, Salara[59] qoşulub, ərbablarla vuruşurlarsa, bu o demək deyilmi ki, himayədarlarımızın iltiması faydalıdır? Şeyxin bu qədər cavan-cavan yetirmələrini niyə ruhdan salırsan, etiqadlarını sındırırsan?! Belə üsyanlardan Fağır Məmmədəlinin donqar beli daha da donqarlanırmış. "Ərbabın dalında İngilisin topxanası[60] durur. Beş-üç fədai neylər topxananın qabağında?!" – deyirmiş. Adətən, bütün Təbrizin yuxuda olduğu, qaraul fədainin də harayasa söykənib səsini çıxarmadığı vaxtlarda olan bu söhbətlər kəskinləşəndə Fağır Məmmədəli birdən belinin donqarını düzəldəndə elə bil içərisindən tamam başqa – ziyalı, hətta müdrik bir insan peyda olub, qardaşların taxtanın üzərində qəribə, gözlənilməz mülahizələr deyərmiş: "Tədrisin üçüncü ili nə deyilir burda sizə, bəradərlərim? Deyilmirmi ki, Bağ Atadan ucaları da, BağBağÜn Babaynan EyOdƏr babanın SimOdları da birdəfəlik və həmişəlik hökm çıxarıblar ki, insan insana əl qaldırmamalıdı?!

Üstünə fateh gələn millətin döyüşməyib ərazini tərk etməsi daha münasib sayılır, düzdü?! Ən son cümlə, hətta fatehin qanını tökmək də çayiz sayılmır! Düzdü? Bəs möhtərəmlərimizin, himayədarlarımızın fədailəri nə üçün belə qan tökürlər?! Himayədarlarımız sizə bir söz deyir, əməldə başqa söz deyirlərsə, Heydərimizə[61] xoş gedərmi bu?! Nə deyax indi, nə fikir eliyax, bəradərlərim?! Təbrizin ruzisinin ərşə çəkilməsinin səbəbi nədi indi?! İngilisnən İngilislıx elamax nə demaxdı?! Beləliklə, himayədar Şeyx ata ilə birlikdə fədailərin döyüşləri də "elmsizlik", "cahillik" sayılanda, əmiuşaqları, dayıuşaqları, xala, bibiuşaqları da yorğan-döşəklərin arasından hoppanışıb, hambala hücum çəkirmişlər ki, "Əgər Şeyx Məhəmməd Əmirin bu bağdakı fədai ocağından başqa Təbrizin hər yerində fədai ocaqları silahlanıbsa, Şeyx Ağ Əmirlə Şeyx Boz Əmir də şəhərbəşəhər, kəndbəkənd gəzib hətta o taya – Comərdin[62] qaçaqlarına kömək göndərirlərsə və o gedənlər də Comərdin qaçaqları ilə çiyin-çiyinə, rus qoşunlarına qarşı vuruşurlarsa, bunun hamısı həq-ədalət üçündürsə, niyə "elmsizlik" sayılsın?!.." Təhsil, tərbiyə-tədris, qurtarandan sonra bu evdəki Əmir yetirmələri də Comərdə, Sərdara, Salara qoşulacaqlarsa, fədailər "beş-üçdürlərmi?!" Bu cür həmlə ilə hambalı elə didib-dartışdırırmışlar ki, Fağır yenə birdən-birə fağırlanıb, sözünü geri götürməyə məcbur olurmuş. "Ay dadaş, məni o bacalardan düşən damcılar azdırır. Xətamı bağışlayın. Yıxılın yatın. Sabah burnunuz kitaba dəyəndə genə mənim üzümə söz gələcək", – deyirmiş və qalxıb, ilk növbədə Mədədlə Sultanı uzanmağa məcbur eləyib, böyür-başlarını basdalayırmış. Əmma yerə uzanandan sonra qardaşlar özləri də səssiz-səmirsiz cızıldayan damcılara baxdıqca Təbriz əhlinin "ərşə çəkilən ruzusu" haqqında fikirləşirmişlər, ruzunu qaytarmaq üçün himayədar Comərdin, Şeyx Məhəmmədin və Şeyx Ağ Əmirlə Şeyx Boz Əmirin gördükləri işlər haqqında pıçıldaşa-pıçıldaşa, bacalardan işıq süzülüb, buxarıların kərpiclərinin rəngini açana qədər gözlərini yummurmuşlar.

Dolu yağanda o ensiz, uzun bacalardan içəriyə dolu dənələri tökülüb, döşəmədə atdanıb diyirlənirmiş. Hambal divar dibində çubuq sümürə-sümürə yenə elə hey köksünü ötürürmüş, "Getdi... Millətin ruzusu getdi!" – deyirmiş, birisi on iki yaşında, o birisi on yaşında, "Millətin

---

[63] Sinfi mübarizələrin şiddətli zamanı keçdikdən sonra da böyük evlər tikdirməyi, yəni, varlı görünməyi təhlükəli sayırdılar.

ruzusu"nun dərdini çəkən qardaşlar isə, daha hücuma keçmədən, o atdanan, diyirlənən dolu dənələrini yığıb buxarılara atırmışlar ki, "göy-lərin bərəkəti ocaqlarda qalsın".

Səmədin xəbəri yoxdu və ola da bilməzdi ki, iyirmi səkkizinci ildə Qəsri-Qacar zindanında şeyxlərlə görüşüb qayıdanda da Mədədlə Sultan öz uşaqlıq məskənlərinə baş çəkib görüblər ki, Şeyx Məhəmməd Əmirin ölümündən və Ağ Əmirlə Boz Əmirin Qəsri Qacar zindanına aparılmasından sonra kimsəsiz evdə bacalardan tökülən dolunu yığış-dıran uşaq olmadığına görə, dolunun əriyib islatdığı yerlərdə – buxarı-ların yan-yörələrində çəmənotu və qazayağı qalxıb, ağ cunalı uca tavanın altında, divarların künclərində isə qaranquşlar yuva tikiblər... O vaxtkı Tat Seyidlə – Şeyxlərin bağbanı ilə aşpazı Xeyriyyə hələ Təbrizdə imiş, Mədədlə Sultanın Tehrandan qayıtmağını gözləyirmişlər ki, onlara qoşulub bu taya adlasınlar. Mədədin bir tərəfdə – buxarının qabağında yasa batdığını, Sultanın o biri tərəfdə – buxarının qabağında yasa batdı-ğını görüb ağlaşıblar, "Ot bitdi. Comərd ocağında ot bitdi. Quşlar yuva saldı" – deyib hönkürüşüblər... Sonra oturub, ətraflı danışıblar ki, "o quru sümük ələngə hambal – Fağır Məmmədəli casus çıxıb: o tayda Qaçaqların başçısı Dəli Alını tutdurub "Fitilbörgə" – Peterburqa, Çarın hüzuruna apartdırıb, o vaxta qədər tutulub aparılan başqa Pünhanlarla birlikdə Dəli Alı çara anladıblar ki, əslində bu müharibənin üç tərəfi olan ölkələrdə – Antantada, Rusiyada, o tay-bu tay Azərbaycanda və Türkiyədə əsrlərdən bəri məskun olan xalqların hamısı BağOdƏr ƏlAğ, EySar ("İsa", "İisus") və BağHəmOd adlarına söykənən vahid millətdir, aralarına ayrılıq toxumu səpilib, hətta dillərini də dəyişdiriblər... Dəli Alı Çarın "dilmancına" – tərcüməçiyə deyib ki, biz bu tarixi lap çoxdan bilirik, ona görə də heç bir yerə basqına müharibəyə getmirik; siz – ruslar, o yanda da ingilislər bizim şeyxlərimizi vadar elədilər döyüşək, əslində isə, biz cəmi Yer üzündə qardaşlıq Elmi fədailəriyik... Çar Dəli Alıya "bir çamadan qızıl" verib, deyib yoldaşlarını da apar, gedin Elmi-nizi yayın. Əmma çarın cahilləri yenə qırğın salıblar, hambal Məmmədəli özüynən o taydan rus gətirib Səttar xanı vurdurub... Aradan keçəndən sonra indi-indi məlum olur ki, Şah özü də, İngilisdən savayı, Rusnan da əlaqədə imiş... "Seyid" ömrünün yarısını Məhəmməd Əmirin qapı-sında", fədai ocağında bağbanlıqla keçirib, orda da ailə, oğul-uşaq sa-

[64] Gündəlik işlərə aid tapşırıqlar.

hibi olduğuna görə, bu tayda şeyxin oğullarının qapısında bağbanlıq niyyətində imiş. Xeyriyyə isə "ömrünün yarısını Məhəmməd Əmirin mətbəxində" keçirib, orda da ər, oğul-uşaq tapdığına görə, bu tayda da şeyxin oğullarının xörək-çörəyinə baxmaq niyyətində imiş və ayrı cür həyat təsəvvür eləmirmiş. Odur ki, Sultan Culfada yük maşınına doldurub gətirdiyi həmşəhrilərinə ağ daş evi göstərib, "Bura qəza komitəsidi. Mən burda oluram. Sizin nə burda qalmağınız məsləhətdi, nə də bu tərəfdə görükməyiniz" deyəndə Seyidlə Xeyriyyə Sultanın belə gözlənilməz dönüklüyünü anlamayıblar; Mədəd maşını Qonaqlı əvəzinə, Qurbanlıya sürdürüb, "Bu kənddə yurd salacaqsınız. Nə Comərdin, nə Şeyx Məhəmməd Əmirin, nə Şeyx Ağ Əmirnən Şeyx Boz Əmirin, nə də Sultannan mənim adımızı dilinizə gətirəcəksiniz" deyəndə Seyidlə Xeyriyyə bundan heyrətləniblər. Əmma Mədəd heç nə izah eləməyib, o vaxtkı İsgəndər kişinin, sonrakı Çeteze İsgəndərin köməyi ilə həmşəhrilərinə dam, avadanlıq, güzəranlıq düzəldib Qonaqlıya qayıdanda isə, özü də "yurd salmaq" niyyətinə düşüb, Möhsün kişinin – kərpickəsən Möhsünün el yolu ağzında qazıb "el quyusu" adlandırdığı bu quyunun yanında mərhum atasının arşın addımları ilə on altı addım uzununa, səkkiz addım eninə ölçüb, bu ölçüdə özül qoydurub. Dəmir yolundan o tərəfdə Xırran çayı deyilən dağətəyi sel yerindən çaylaq daşı gətirib, balta küpü ilə, çəkiclə sındırıb-xırdalayıb, özülə xır tökəndə, iş avadanlığına gələnlər özülün eninə, uzununa baxıb təəccüblənib, "bedkom" Mədəddən soruşublar ki, "Bu boyda mülkü" kimdən ötrü tikdirir? "Bedkom" heç kəsə heç nə izah eləməyib. Lüt Cəfər mızıldanıb söylənəndə ona da izah eləməyib. Qılınc Qurban açıq danışıb: "Arvadın rəhmətə gedib. Çağan da Qıymatın qucağındadı. Bəysən, xansannəsən, bu saray nəyinə lazımdı?!"[63] – deyib, Mədəd yenə izah eləməyib. Divarları qaldırıb, damı örtdürüb qapını asdırandan sonra bir payız axşamı quyunun dikdirində oturub, o taya uçan durna qatarının səsini eşidəndə birdən yerindən atılıb, Möhsün kişinin hacatlarının arasından "lom"u götürüb, ayağının altına kətil qoyub, qapının yuxarısında divarı deşib-dağıdıb yekə bir baca açıb. Bacanın dörd dövrəsini hamarlayıb öz əli ilə suvayandan sonra isə, lapatkanı götürüb gedib Sudüşəndən "bir neçə lapatka ağzı çumbuz" – nəmtorpaqlı çəmənotu gətirib kandarın sağında basdırıb, bir neçə lapatka ağzı da çumbuzlu qazayağı gətirib kandarın solunda basdırıb. O axşam da, sonralar da bütün kənddə və rayonda "bedkom" Mədədin bu qəribə işlərindən danışırmışlar. "Beş

dənə metrəyarımlıq pəncərəsi var. Əmbə üstəlik, baca da açıb", – deyirmişlər. "Çəmənin içindədi evi. Əmbə kandarda çəmənotu əkib", – deyirmişlər və bu qəribəlikləri dəlilik əlaməti sayırmışlar. Sultandan başqa heç kəsin, o cümlədən Səmədin də xəbəri yoxdu ki, bu tayda "yurd salıb" quyunun dikdirində ilk dəfə oturub ilk dəfə durnaların səsinə qulaq asanda, sədr Mədəd birdən-birə vahiməyə düşübmüş ki, təzə yurda isinişəndən sonra "fədai ocağı"nı unudub fədailikdən çıxa bilər, bu vahimə ilə də "lom"u qapıb, qapının üstündə divarı deşib-dağıdıb baca açmışdı ki, yazbaşı qaranquşlar gəlib Qonaqlının evlərində yuva tikəndə burda da tiksinlər, balalasınlar, civildəşsinlər, nəğmələrini oxusunlar və beləliklə, iki vətənli quşlar, iki vətənli adama gecə-gündüz rahatlıq verməyib, "Sən fədaisən! Sən fədaisən!" – desinlər. Kandarda çəmənotunu, qazayağını da ona görə əkmişdi ki, payızda qaranquşlar uçub o biri vətənə gedəndən sonra "iki vətənli adam" evə girəndə də, evdən çıxanda da çəmənotunu, qazayağını görüb, "fədai ocağı"nın taleyini düşünsün.

Səmədin xəbəri yoxdu və ola da bilməzdi ki, axşamlar briqadirlərlə manqabaşılar, tək-tək xüsusi "naryad"[64] alanlar və şəxsi iş üçün sədrlə görüşmək istəyənlər Əmirli mülkünə doluşan vaxt təsadüfən ayaqlarını çəmənotunun, qazayağının üstünə basanda, çəmənotunu, qazayağını yox, sədr Mədədin ürəyini tapdalayırmışlar; camaat dağılışandan sonra soyunub, çarpayıya uzanıb, "Yataq, Bircə bala, yataq", – deyib, qaranquşların yuxulu civiltilərinə qulaq asa-asa gözlərini yumanda, sədr Mədəd heç də burda yox, "fədai ocağ"ında yatırmış. Odur ki, qırx beşinci ilin dekabrında Milli hökumət qurulduğunu və Əmir fədailərinin "fədai ocağı"na qayıtdıqlarını eşitdiyi gün sədr Mədədin ən xoşbəxt günü imiş; qırx altıncı ilin dekabrında Milli hökumətin yıxıldığını, Əmir fədailərinin bağdan çıxmağa da imkan tapmayıb, mərmi altında qırıldıqlarını eşitdiyi gün isə, sədr Mədədin ömrünün ən qara günü imiş; ondan sonra – dekabrın on ikisindən iyirmi üçünə qədər yaşadığı on bir gün ərzində beyni necə tutulubmuşsa, gözləri necə qapanıbmışsa, daha çəmənotunu, qazayağını görmürmüş. Səməd bunların heç birini bilmirdi.

Səmədin bildiyi ancaq bu idi ki, "bir ayağı o tayda, bir ayağı bu tayda olan, hər dağ döşündə bir kənd sala-sala gəzən qəribə ulu babası

---

[65] Rus ordusunda qəbul olunmuş həyəcan ifadəsi, 30-40-cı illərdə Azərbaycanda da işlənirdi.

[66] Əksinqilabçı mənasında.

Comərd – Süleyman birdən-birə yoxa çıxıb, sayı-hesabı bilinməyən qohum-əqrəba Arazı keçib bu taya səpələnib, o tay-bu taylı vətəni də, yol ayrıcında keçinən babası ilə başları "çarvadar" xurcunundа gətirilib Persə verilən şeyx əmiləri də, top atəşi altında qırılan Əmir fədailəri ilə kimsəsiz qalan "fədai ocağı"da, hamısı bu yanan evdə – "Əmirli mülkü"ndə nə isə daha böyük bir aləmlə birlikdə alova bürünmüşdü... Atası gurultulu alov üzərində, qırmızımtıl işıq içində görünüb qışqırmağa başladı: "Sənin Elmin, Eşqindi bu yanan! Şeyxlərin Elmi, Eşqidi bu yanan! Süleyman dünyasıdı bu yanan!"

Səmədin beyninə gurultu, uğultu düşdü.

Necə oturmuşdusa, eləcə də qaldı. Alova dikili gözləri alovla dolu idi. Əgər indi özü özünə kənardan baxa bilsəydi, görərdi ki, nə qədər laqeyd otursa da, gözlərində qaynayan alov heç də yalnız yanğının şəklindən ibarət deyildi.

* * *

Arxadan kim isə yaxınlaşıb quyunun dikdirində daşlığı, qumluğu xışıldatdı. Əlləzoğlu heyrətli cəsarətlə Səmədin qənşərinə fırlanıb tamam qorxusuz-hürküsüz:

– Demişdim sənə! – dedi... – Hələ nədi bu?! Kənddə Xəlvətnən Qeybalı, orda – şəhərdə Gülənovnan Xalıq bir səsnən deyir: "Səfərbərik, Məmiş kişi!.." Nə ağılnan işə girirsən sən burda?! Görmürsənmi nə haldadı əmin?! Ata əvəzi əmin, a dərdin alım!.. Çıx get! Getməsən, sənnən bir yerdə, sağ-solunda gəzənlərin hamısı güdaza gedəcək, hamısı! Abını da öldürtdürəcəklər, Çürüyü də, bayaq burdan maşınnan gedəni də. Ala itdən məşhurdu sizin o polkovnikiniz. Bir çekist sağında oturmuşdu, biri də solunda. Qandığı bu oldu ki, deyəsən tutulub o qabağından yeməyən polkovnik! Qalx! Eşitmirsənmi, ay insan balası, insan deyilsənmi, a dərdin alım, daşsanmı, qayasanmı!..

Səməd daşdan, qayadan da səssiz-səmirsiz, kirpiyini də tərpətmirdi...

**11**

Hardasa kim isə heybətli səslə bağırırdı:

– Korsunuz?!. Görmürsünüz?!.

---

[67] Çapayev Rus monarxiyasına qarşı döyüşən partizan komandiri kimi, çox təbliğ olunduğuna görə Azərbaycanda da sevilirdi.

[68] İnqilabi şeir.

Dikdirdə daş, qum xışıldadı: Əlləzoğlu rədd olub getdi.

Hardasa at kişnədi, bir-birinin ardınca iki güllə açıldı. Qudalıların it xılı dünyanı başına götürdü. Qapılar, darvazalar şaqqıldadı, kəndə çaxnaşma düşdü.

Hay-küyə həvəs Qurban əmi Qılınc Qurbanda hələ "əsrin əvvəllərində", gah məşhur qaçaq Dəli Alının dəstəsində, gah da ikinci məşhur qaçaq Kərəmin dəstəsində, çar tərəfdarları bəylərlə döyüşdüyü "cavanlıq çağları"ndandı. "Dəli Alıynan Kərəmin dövranları qurtaranda", yəni iyirminci illərdə Qurban əmi – Qılınc Qurban "Türkiyəyə keçən Qazax bəyləri ilə atışıb", bununla da "atryad nəçənnikliyi" ilə vidalaşıb, kənd sovetində tək bir milisioneri və katibi ilə qalandan sonra, müharibə illərində də öz əvvəlki vərdişilə gecələr səhərə qədər at belində, sovetliyin ərazisində "gəşt eləyərdi", hardasa fövqəladə hadisə baş verəndə beşaçılanını dalbadal havaya boşaldıb, "Trevoqa! Trevoqa!"[65] – qışqırıb camaatı oyadardı və elə hadisə yerində "prakrorsuz-mrakrorsuz, sudyasız-mudyasız", "ədalət qılıncını sıyırıb əyrini kəsərdi, düzü yoluna qoyardı". Müharibə qurtarandan sonra "ömür yoldaşı beşaçılan"la da vidalaşıb, əvəzində adi qoşalülə gəzdirsə də və "Trevoqa" qışqırmağa daha ehtiyac olmasa da, adətini tərgitməyib, yenə də axşamdan yatıb qalxıb, əvvəlki atlarının nəslindən qalan, "paçası guppultulu" kəhərinin belində, sovetliyin ərazisində "gəşt eləyirdi", yenə də həmin qayda ilə "ədalət qılıncını sıyırıb əyrini kəsirdi, düzü yoluna qoyurdu".

At kişnərtisinə, güllə səslərinə dönəndə Səməd axırıncı dəfə mehmanxanada röyada gördüyü hamanca qara meşin pencəkli, qara meşin şapqalı, əli qoşalüləli, hay-küylü Qurban əmini gördü. O Qurban əmini ki, hər yerdə "ədalət mücəssəməsi köhnə bolşevik" kimi tanınırdı; o Qurban əmini ki, Stalinin "prekratite bezobraziye"sindən hələ səkkiz il əvvəl köhnə bolşevikləri və ağsaqqalları başına yığıb gedib Gülənovla Sayılova "kontra[66] beləfilan uşağı" deyibmiş və elə bu "kontra"ya görə də Mirqəzəb özünü yığışdırıb, bir də ta qırx altıncı ilə, o kişmiş əhvalatına qədər "şeyx qardaşlarına" toxunmayıbmış.

Bu Qurban əmi o Qurban əmi idi ki, "iki qardaşın bir balasına" "üç qardaşın bir balası" deyərdi. Bircə bala kəhər atın tərkində, əllərinin ikisini də Qurban əminin kəmərinin altına salıb, yırğalana-yırğalana Süleyman Rüstəmin "Çapayev"[67] şerini oxuyanda Qurban əmi o şeri bir də, beş də oxutdurardı və Bircə bala hər dəfə eyni həvəslə "Çakıl

daşlı çaylardan Çapayev çapa-çapa" – deyəndə Qurban əmi hər dəfə qəhərlənərdi, "Bah-bah! Məni yazıb, ay oğul, mənciyəzi yazıb!" – deyərdi; Bircə bala Maksim Qorkinin "Fırtına quşu"nu[68] oxuyanda isə, Qurban əmi şahin kimi qiyyə çəkərdi. Sonra yəhərin qaşına, atın yalına baxa-baxa əyilib uzun-uzadı deyinərdi: "Fırtınalar qurtarır, biclər əyyamı gəlir, ay oğul!.. Şahinlər qarğalaşacaq, ay oğul! Bax onda şahin ol sən. Əyrilərin qabağında əyilmə! Yoxsa, bu dünya əyildikcə əyilər!" – deyərdi.

Kişnərtiyə və güllə səslərinə dönəndə, Səməd dərhal hiss etdi ki, adı sədr Mədəd və Sultan Əmirli adları ilə yanaşı dayansa da, bu "ədalət mücəssəməsi", "ədalət qılıncı" nə hardasa, nədənsə güdaza gedər, nə də dəyişib tanınmaz olar.

Qurban əmi öz şəxsiyyətinin ucalığı ilə ürək isidirdi. Əmma bu istilik həm də kədər gətirirdi. Dünən mehmanxanada peyda olub, döşəkağını öz əli ilə döşəməyə salıb "Burda yat. Sən yat, Qılınc əmin də keşiyini çəksin" deyəndə Qurban əmi bu yaşında hər cür təhlükəyə qarşı hazırlığı ilə onu nə qədər sevindirmişdisə, indi bir o qədər kədərləndirdi və Səməd, şapqasının qabağında ulduzu parıldaya-parıldaya yəhərdən yerə atılan balaca kişiyə baxa-baxa, qapıların, darvazaların şaqqıltılarını dinləyə-dinləyə fikirləşdi ki, bu "trevoqa"nın nə mənası var, yoxluq, heçlik içində ədalət qılıncı kimi kəsə bilər?!

Göyə dirənmiş alov sütununun işığında təkər izlərinə qədər görünən Ortayolda əlləri vedrəli, belli, yabalı kişilər, arvadlar, cavanlar, qocalar vurnuxdular, gah yaxından, gah uzaqdan bir-birlərinə nəsə deyə-deyə, bağırışa-bağırışa, yanğının ətrafına toplaşdılar, balkon dirəklərindən başlamış, bel ağaclarına qədər od içində qıjıldayan evə yaxın düşməyin mümkün olmadığını görüb duruxdular, kütləşdilər, sonra ordan-burdan sökülüb, quyunun üstündə təkcə oturan ev sahibinə doğru meylləndilər, bu bədbəxt cavanın aqibətindən qəmlənib hərəkətsiz qaldılar.

Təkcə Qurban əmi hərəkətdə idi: ortalıqda – od-alov yağmurunun altında o yan-bu yana gedib gəlirdi, kiməsə qışqırırdı, kiminsə yaxasından yapışıb silkələyirdi, hədələyirdi. Nə üçün? Göbələk Məmiş Əlləzoğlunu "kəsməyin" nə mənası var? Tutaq ki, kimsə xəbərdardır Əlləzoğlunun bu cinayətindən, tutaq ki, kim isə Sultan Əmirlinin qayınatası haqqında danışmağa cəsarət eləyib irəli çıxsın, "Mən gördüm,

---

[69] KeQeBe-nin klubu.

Əlləzoğlu yandırdı evi", – desin, Qurban əmi də gedib, qaratikan çəpərinin dalından Göbələyi çıxarsın, atının qabağına qatıb aparıb Gülənova təhvil versin, nə dəyişər bununla? Yoxluqda, heçlikdə nə əmələ gələr?!

Nəhəng palıd kərənlərindən yonulmuş bel ağacları yanıb ortadan üzüldükcə bir-birinin ardınca guruppagurup tökülüb, divarların arasında üst-üstə qalaqlandı, bayaqdan yuxarıda – havada qıjıldayan alov indi təndirə düşmüş kimi guruldamağa başladı, tüstü-duman dünyanı götürdü. Səməd boğazına dolub nəfəs yolunu bıçaq kimi kəsən bu acı tüstü içində də bir xeyli oturandan sonra, qəlyanlı qocalarsayağı, əllərini dizlərinə dayayıb, ağır-ağır qalxdı, dönüb getdi.

Tüstü-duman altından baxanların hamısı görürdü ki, boy-buxununun, qollarının, qıçlarının sanbalı-siqləti ilə həmin Əmirli yetirməsi idi. Yetirmənin özü isə bütün aydınlığı ilə dərk edirdi ki, bu sanbalın, siqlətin içərisi bomboşdu. Elə boş ki, hətta "prakrorsuz-mrakrorsuz, sudyasız-mudyasız kəsən" nadir nüfuzlu köhnə bolşevikin canıyananlığından da üz döndərib çölə-biyabana gedirdi. Qurban əmi, şübhəsiz, nə isə eləməyincə yorulmaq, usanmaq bilməyəcək, bəlkə hətta öz köhnə dostunu "kəsməyincə" sakitləşməyəcək. Əmma bunun faydası nədir? Qardaşoğlunu müsibət içində qoyub o biri otaqda qadın zorlayan, tamamilə ayıq baş və aydın şüurla "Sən bu evdə qalmalısan" – deyən o dəhşətli adamı "kəsməyin" nə mənası var?! Bircə balasının zalda, süfrə arxasında olduğu bir vaxtda öz çal saçlarını qara saçlara qatan insan insandımı?! Hələ qardaşının dəfnində "Ağlıyammıram, Bircə bala, yaş düyünlənib qalıb, ağlıyammıram", – deyib, yeddi il səkkiz ay sonra o düyünü ürəyindən çıxarmaq üçün sehrkar aşıq çağıran, sehrin başlandığı dəqiqədə isə yuxuya gedib daş kimi yatan o daşı "kəsmək"dən nə çıxar?! Yoxluqda, heçlikdə nə isə bir şey yaranar? Daş dönüb yenidən insan olar və Əmirli yetirməsi əmisinə yenidən vurular?!

– Səməd!.. Səməd!.. Dayan, ay oğul! Sınma, ay şahin balam! Günü bu gün düşmənlərini diz çökdürəcəm sənin qabağında! Dayan! Elə şeylər eliyəcəm ki, ürəyin dağa dönəcək! Dayan!

Səməd dayanmadı. Əksinə, "şahin" sözündən necə qəzəblə aralandısa, Qurban əmi yedəklədiyi atı və yanınca yortan Xızr Abı ilə birlikdə yüyürməyə məcbur oldu.

Abı dala qaldı. Qurban əmi çatıb, atı yedəkləyə-yedəkləyə, yanaşı addımlamağa başladı.

– Sərt danışacam sənnən, oğul... Ürəyim yalvarır üç qardaşın Bircə balasına. "Qurban əmin qurban olsun sənə, belə yerimə, belə əyilmə! Dözmərəm" – deyir ürəyim. Ağlım, şüurum "sərt ol, ay Qurban – deyir, – Qoyma, qoyma qanadı sınsın şahiniyin!" Bu iki gündə hara gedibsən, Saşaynan yanaşı, kölgəntək sürünmüşəm dalınca. Qaçaqçılıq vaxtından vərdişimdi, lazım gələndə addım-addım gəzərəm adamın dalınca, gözə görükmərəm. Çürüknən Abı oxuyandan sonra necə ağladığını da gördüm, evdən necə çıxdığını da gördüm... Papağını qoy qabağına, bir fikirləş yaxşı-yaxşı, gör Leyli-Məcnun zəmanəsidimi bu zəmanə, Əsli-Kərəm zəmanəsidimi?!. Kontralarnan vuruşduğumuz vaxtlar Sultan özü dərs deyib mənə. Əslimizi - nəslimizi bir dəfə Məcnun zamanında itirmişik biz. Yəni o zaman ki, Müaviyəynən oğlu Yezid qırmışdı bizim SafAğlarımızı. ƏlEy əvəzində "Leyli" deyən Məcnun oldu millətimiz, dağıldı. Sonra da içimizə rus dolub Gəncəmizi Yelizavetpol eləyəndə itirdik əslimizi-nəslimizi, "Kərəm" olduq, düzlərə düşdük, "Əslim haray!" qışqırdıq. İndiki zəmanə daha pis olub, ay oğul. Fədailərimiz qırıldı, qaçaqlarımız hamısı dağılışdı. Təbrizdə də elə müsibətlər!.. Elmimiz, tariximiz yandırıldı. Sazımız sındı, səsimiz batdı. Söz deyənimiz qalmadı. Kor kimisən sən! Mədədin vəsiyyətindən qaçırsan sən! O vəsiyyət irəlidi, o Elm, Eşq irəlidi, yoxsa agent Məmişin məlakə qızı?! Sultan nə deyib sənə? Onun işinin elə məqamıdı ki, həməşəlik yıxıla da bilər indi, həməşəlik qalib də ola bilər... Eşidirsənmi?! Fikrin nə qədər qarışıq olsa da, çalış fəhmnən qulaq as... O vurğun vurmuş, qanı köynəyinə bulanmış Mirqəzəbin məhkəməsi başlanır Bakıda, Dzerjinski[69] klubunda. SSRİ prokurorunun özü şəxsən gəlib. Rudenko! Gör məsələ nə yerdədi ki, vayenni tribunal baxır işə. Şəxsən Rudenko ittihamçıdı!.. Xudiyev zəng vurmuşdu səhər saat beşdə, yaltaqlana-yaltaqlana. Dözəmmədim, trubkanı aldım Sultanın əlindən. Dedim ə, polkovnik qırışmal, o paqonları Mirqəzəb taxmayıbmı sənin çiyninə?! Gələrəm, bu rayonda "Hümmət"çilərin başlarına açdığın oyunları bircəbircə oxuyaram üzünə, sübut eliyərəm ki, "sosializm", "kommunizm" deyə-deyə milləti qırıb-çatıb quldarlıq quranların lap yekə başçılarındansan sən Xudiyev! Səsi kəsildi, lal oldu qırışmal. Əmma sonra bir yaxşı xəbər dedi Sultana. Rəhmətlik Mədədin vaxtında əmin nə yazıbsa Moskvaya, hamısı ittihamnamə olub. Klubun səhnəsi doludu deyir,

qalın-qalın ittihamnamə qovluqlarıynan, çünki tək əmin yox, respublikadan çox adam yazırmış Moskvaya. Heyif, görmədin necə getdi əmin. Uçmağa qanadı yoxuydu!

– Getdi?!

– Əlbəttə!

Səməd nəyə təəccübləndiyini o qədər də anlamadan, dumanlı beyinlə dolaşıq sözlər mızıldadı:

– Bu vəziyyətdə... Bakıya... Bəs məni... məni tapdaladığını hiss eləmirmi heç olmasa?! Deyirsən sevinirdi?!

Səməd ayaq saxladı. Rəngi qaralmışdı.

– Demək, cəllad da sevinc hissindən məhrum deyil!

Qılınc Qurban ağır-ağır yana döndü. Gözləri böyümüşdü.

– Cəllad?! Sultana cəllad deyirsən sən?!

Səmədin başı sinəsinə əyildi.

Qılınc Qurbanın qırğı gözləri qıyıldıqca, nazik, qara, quru dodaqları bir-birinə sıxılıb, cod, çal tüklər arasında yox oldu. Qəzəbindən kişi nə qədər nəfəssiz dayandısa, ağzını açanda boğazı boru kimi güyüldədi.

– Bilirsən nə şillə çəkərdim!

– Çək... İndi hamı şillə çəkir mənim üzümə... "Vəsiyyət!.." "Varis!.." Kimə varis olmalıyam?! Meyidəm mən!.. İstəyirsən lap heyvan kimi döy o əlindəki şallaqnan. Fərqi yoxdu. Ölüyəm!

– Ölünün içində kin qaynamaz, oğul!

– Qaynayırdım... İndi elə deyiləm, Qurban əmi. Boşdu indi içim... Sultan Əmirliyə də kinimə görə vermədim o adı... Cəllad deyil, o da ölüdü!..

Qılınc hiss edirdi, hərdən də eşidirdi ki, Abı arxada ağlayırdı. Şallağı geriyə vıyıldadıb, pıçıltı-xırıltı ilə:

– Ə! Ey! Kəs! Neynirsən?! – deyirdi.

Səməd isə heç nə eşitmirdi:

– İki sözündən biri "dərdin alım" olan Əlləzoğlu da ilana dönüb, qalxıb quyruğunun üstündə, "Çıx get!.. Çıx get!.. Sürdürəcəm!" – deyir, "öldürəcəm" – deyir... Quyunun üstündə özümü bilmirdim. İndi görürəm yox, bir aləm şey fikirləşmişəm orda. Bəli, ölüdü Sultan Əmirli! Ağlını itirib! Xudiyev dəstəsinə qalib gəlmək olar?! Almaniyanı yedi, Reyxstaqı yedi bu KeQeBe! Məncə, Mirqəzəbin tutulmağı da fırıldaqdı. Moskvada necə hər şeyi yoğurub-yapıblar Stalinin üstünə, burda da eləcə, hər şeyi yıxacaqlar Mirqəzəbin boynuna, yenə öz cəlladlıqlarını

davam elətdirəcəklər! Bunu bu axşam başa düşdüm. Bayaq alova baxa-baxa dərk elədim ki, Əmirli mülkü deyil o yanan, Vətənimizdi! O tayı verib Farsa, bu tayı paylayıb erməniyə, gürcüyə "böyük qardaşımız Rus" çoxdan içib qanımızı, Qurban əmi! Kim dura bilər bu boyda imperiyanın qabağında?! Əmimnən, mənnən bərabər sən də ölmüsən! Heyif, o igid polkovnik də ölüdü, Məhərrəm Abbasoviç də!.. Şahinlərin çoxdan qarğalaşıblar, Qurban əmi. Bizim dünyamız deyil bu dünya. Düz demirəm?! Ulu babamız Comərdi dirilt! Şeyx Məhəmmədi, Ağ Əmiri, Boz Əmiri dirilt! Milli hökumətin fəxri Pişəvərini dirilt! Nərimanovu dirilt! Qəbristandı vətənimiz! Bu qəbristanda Elm nədi?! Varis nədi?! Başına at təpib Xızr Abının, Sultan Əmirliynən, yarımcan Çürüknən bir yerdə!.. Kəsmə sözümü, Qurban əmi! Bilirsən necə istəyirdim mən əmimi?! Mübaliğəsiz deyirəm, atamı itirəndən sonra atama məhəbbətim də, üzünü görmədiyim anama həsrətli məhəbbətim də Sultan Əmirlinin uca şəxsiyyətinə məhəbbətimdə birləşmişdi. Oturub hətta saatlarnan fikirləşirdim ki, şəxsi həyatında, məişətində məhrumiyyətlərə necə dözürsə, mən də eləcə dözüm. O tayda demokratların qələbəsinin həsrətiynən, o tayda gecəni gündüzə qatıb işləmək arzusuynan öz istəkli Qıymatını necə gözlədirsə, mən də məhz o cür hərəkət eləyim. Mən ancaq zahirən başqa cürüydüm, Qurban əmi, daxilən əmimin kopyasıydım... Səni də çox istəyirəm, sədr Mədədin xatirəsini də əziz saxlayıram mən. Əmma siz deyildiniz mənim idealım. Bircə elmim, bircə eşqim varıydı mənim, o da Sultan Əmirliydi. Lap dünənəcən bütün həyatımı qurban vermək istəyirdim mən ona!

– Sultan həməşə səcdəgahın olmalıdı sənin.

– Yox!.. İdealım qadın zorlayıb!

– Bilirəm mən onu.

Səməd diksindi.

– Nə?! Bilirsən?!

– Dedim bilirəm.

– Həm də ideal adam sayırsan onu?! Belə hərəkətdən sonra mən də ideal sayım o canavarı?! O qatili!

Qılınc Qurbanın yenə gözləri qıyıldı.

– Bir hərəkətiynən yox, mübarizələrdə tanınır adam!.. Dedim, deyirəm: Sultan həməşə səcdəgahın olmalıdı sənin. İnsan yel deyil ki, gah o yana əssin, gah bu yana. İdealdan dəm vuran oğul əvvəl bir özünə baxsın yaxşı-yaxşı, fikirləşsin dərindən, görsün başı çıxırmı bu dünya-

dan. Mənim dediyimi deyirsən sən də, Ruhdan düşəndə. Əmma cəllad var içərimdə! Ölüm-dirim mübarizəsi gedir bu saat hər yerdə! Mən bu kəmsavadlığımnan qanıram ki, Stalindən sonrakı bu demokratiya söhbəti xeyrimizə deyil bizim. Sultan müdrik adamdı. Düz deyir ki, bir tərəfdən Mirqəzəbi müttəhim kürsüsündə oturduruq, o biri tərəfdən Mirqəzəbin yaratdığı Bezobraziyeyə demokratiya veririk. Hələ demokratiyasız-filansız belə oyunlardan çıxırlar! Ələ salırlar bizi, dolayırlar, gülürlər! Bu nə?! Danışmadımı Sultan sənə? "Arşınmalçı" damğasıynan neyləyirlər onlar, bilirsən?! Gülmək nədi?!

O casuslar, banditlər yuvası Şüşəli pavilyona yaxın gedəmmirik. Biznən yaxınlıq eliyən adamlara arağın içində zəhər içirdirlər! "Terrordu bu!" – deyirlər özləri! Necə hərəkət eləməlidi Sultan indi bu cəlladlar zəmanəsində?!

Mən deyirdim boşasın. Dörd aydı, gecə-gündüz, axşam-sabah bircə kəlməm varıydı ona: "Boşa!" Rədd elə deyirdim o qancığı. İndi demirəm.

Artistlik elədim orda – yanğında. Yazıq canım, nə oyunlardan çıxıram! Əməlli-başlı artist təki, yapışdım Qıllı Qeybalının yaxasından, başladım qışqırmağa ki, bu kəndlərdə nə fənalıq var, hamısı siz Qudalılardandı, Mədədin evinə də siz od vurubsunuz ki, Mədədin oğlunun ayağı kəsilsin kənddən... Qeybalı da Qeybalıdı. Fısıldadı, tısıldadı, axırda qıpqırmızı dedi: "Düşmən Sultan Əmirlinin ocağının başındadı, Səmədin ayağını kənddən kəsmək istiyən də odu, evi yandıran da..." Nə desəm yaxşıdı? Güllə qabağında da əyri danışmıyan Qılınc Qurban başladı ki, Əlləzoğlu qohumudu, can-ciyəridi Səmədin. "Srağagün gecə burda qolunu çirmədi, ayaqlarını yudu Səmədin, – dedim, – qovurmalı əriştə aşına qonaq elədi". Gözü kəlləsinə çıxdı sənin o Dantesiyin. Bilir axı, yalan danışan deyil Qılınc Qurban. Əgər yalan danışırsa, deməli, nəsə məqsədi var. Qorxdu heyvərə! Çəkildi, kənarda fısıldadı: "Qılınc Qurban da bic adamdı". Zəmanə dəyişir, oğul. Yaman dəyişir, zəmanə!.. Yaxşı qulaq as, indi açmalıyam mən sənə bu bədbəxtliyi. Necə olub, elə danışmalıyam. Hamımıza "əzizim" deyən o igid polkovnik bərk silkələdi məni, dedi: "Danışmalısan! Bilməlidi Səməd, lap qatilə dönüb həqiqətən hamısını qırmaq niyyətinə düşsə də danışmalısan!.. Qulaq as, gör necə işləyib KQB-miz! "Şüşəli" pavilyonda baş-başa verib hırıldaşa-hırıldaşa tələ qurublar. Nə yediriblər, nə içirdiblər Sultana, necə deyərlər, bir allah bilir. Heç nə qalmayıb yadında! Heç nə! Səhər tezdən zaqs müdirini göndəriblər evinə ki, "Get Arşınmalçıynan

Gülçöhrəninin kəbinini kəs!" Sultan yuxudan ayılmamış başının üstünü alıb müdir köpəyoğlu ki, bəs şəhərdə hamı gözaydınlığı verir bir-birinə, Sultan Mamedoviç, deyirlər, ailə qurubsunuz, gəldim təbrik eləyim, həm də kəbin şəhadətnaməsini doldurum... Axşamdan narahatıydım mən... Həməşə siyirməqılınc girərdim Xəlvət Rəhimin məclislərinə, xəbərdarlıq eliyərdim ki, rayon partiya komitəsinin və şəxsən Sultan Əmirli yoldaşın əleyhinə bircə kəlmə danışıq olsa, damlıyacam Rəhimi, böhtançı kimi, məhkəməyə verəcəm işini. Qamaşırdılar məndən kontra köpəyuşağı. O gecə elə bil allah fəhmimi aldı. Fikir elədim ki, Sultan özü olan yerdə mən kiməm! Sabahısı tezdən getmişəm şəhərə, görürəm o küçə doludu çesuyçalıynan, beşbir-üçbir, baş-başa veriblər, deyib-gülürlər, Çax-çux Xalıq da dayanıb düz Sultanın darvazasının qabağında, demisini tüstülədə-tüstülədə söhbət eləyir zaqs müdiriynən. Qorxusuz-hürküsüz gözümün içinə baxdı. "Kəbin kəsməyib bu kişi, – dedi, – ölüm aktı yazıb Sultan Əmirliyə!"

Sənin fəhmin Mədədin fəhmidi, gözün itidi, şahin balam! Düz deyirsən ki, öldürüblər. Özün fikirləş indi, gör nə yollarnan gedir ölüm-dirim mübarizəsi! Söznən deyiləsidimi necə alçaqdılar düşmənlərimiz, necə heyvandılar, necə vəhşidilər! Səncə, neyləməlidi bu vəhşilərin qabağında Sultan Əmirli?! Taleyinə kor deyib oturmalıdı?! Təslim olmalıdı?!

Güclü adamdı sənin əmin! Bəli! O qancığı zorlamaqdan ötrü yox, o vəhşilərə, murdarlara, Mirqəzəb toxumlarına qalib gəlməkdən ötrü saxlayır onu evdə. Lüt Cəfər deyil Sultan! Comərd qanı axır Sultanın damarlarında! Təbrizdə Əmir bazarı deyilən dünya bazarının sahibi, aqil, adil Məhəmməd Əmir qanı axır Sultanın damarlarında, oğul! Dörd oğlunun dördünü də xalqın xidmətinə göndərib, yol ayrıcında tək-tənha ölən kişinin oğludu Sultan!

Pünhanlarımız arasında Şeyx Əlimiz vardı, "Aşıq Alı" adıynan çalıb oxuya-oxuya ellər gəzirdi, gecələr səhərə qədər Elm yayırdı. Folklorçu professor deyilən uzunhoqqar bir naçalnik gəldi Göyçəyə, şerlərini yığdı apardı, yoxa çıxartdı! Çürük yığır indi orda-burda yadda qalanları, yazır kopyalarını Qaraçöpə, Təhləyə göndərir ki, ordan da hər yerə yaysınlar. Şeyx Əlinin şan-şöhrəti AdıPünhan ƏlƏskərimiz vardı, "Aşıq Ələsgər" adıynan gəzirdi. AdıPünhan Hüseyn AğEyimiz vardı, "Hüseyn ağa" adıynan gəzirdi, cəmisi beş-altı Qaçaqnan Tiflisdə qubernatorun buxarısının bacasından odun içinə düşürdü ki, mauzerini dirəsin qubernatorun

boğazına, xəlvəti müqavilə bağlasın: “Qazax mahalına qoşun gendərmiyəcəm. İmza qubernator köpəyoğlu!”

Hüseyn AğEyin oğlu Hacı Əlimiz vardı. Məkkəyə gedirdi hər il, guya zəvvarlara azuqə yığan taciriydi, əslində, ədalət Əliydi. Qubernator Tiflisdən qaçaq libasında qatil göndərib ki, Hüseyn AğEyimizi öldürsün, Hacı Əli ovcuynan tutub xançalı, qoymayıb atasının başı yarılsın. İşləmədi sağ əli, yumulu qaldı... Üççə tağın adamlarının adlarını çəkdim mən sənə Comərd Süleyman nəslinin. Təbrizdəkiləri dedim, Göyçədəkiləri dedim. Qazaxdakıları dedim... Budumu?! İsa Əfəndimiz olub, bircə atryadnan Denikinin piyadasını pərən-pərən salıb Dərbənddə. Ordan gedib qoşulub Kamal Paşa Atatürkə, Trabzonda rusu pərən-pərən salıb, Gəncəyə bizimkilərə depeş göndərib ki, rusun on beş eşalonu gedir o tərəfə, qabağını kəsin, qoymayın gedib Bakıda oturuşmağa. Bax bu Qılınc əmin, əlində mauzer, at belində parovozun qabağına getdi... Nə Mədədin adı Mədəddi, nə Sultanın adı Sultandı. Mollalar açırlar Quranı: “Adın oldu Xızr!” “Xızr” nədi?!. “Kisr” nədi?! OdSardı, oğul! Pünhandı adlarımız, özümüz də ki, Alim!.. Vaxt keçdikcə daha nə adımız qalır, nə də biliyimiz!.. Əhməd, Məmməd, Səməd, Alı, Vəli – hamısı ərəbin yalan “Quran”ından. Gülüşürlər indi mollalar: “Ağ yalan!” Bilən varmı nədi bu?! Bu yaxınlardaca bilmişik ki, otuzuncu ildə Stalin, Leninin “dekret o zemle”sini ləğv eləyib torpağı kəndlidən alanda xəlvətcə Dini də azad eləyibmiş, odu ki, molla hər yerdə başda oturur, “Quran” əlində: “Bir salavat da çevirin hökumətimizə, Stalin yoldaşa, Varaşilov yoldaşa, Kaqanoviç yoldaşa!” Nədi bu, ay oğul? KQB-di, ay oğul! “Molla” adında! Sənə ərəb adı qoyub adınnan bərabər Elmini də məhv eliyən molla KQB!.. Nə yaxşı ki, Sultanın revkomuna düşdü yolum o vaxtlar. Gecələr, beşaçılan qucağımda, revkomun damında keşik çəkəndə mənim bu kəmsavad başıma Elm yeridən alim Sultanın nə qədər şagirdi var, bilirsənmi?! Hamı savadsız təki tanıyır bizi. Açıb-ağardammırıq ki, revkomda darülfünun qurtarmışıq biz! Universitet deyirlər indi. Oxuduqları da nədi? Yunanıstan mədəniyyəti belə gəldi, Roma Sezarı elə getdi. Güya ali təhsil verirlər bədbəxt cavanlarımıza. Bir köpəyoğlunun da xəbəri yoxdu ki, Bağdaydı yer üzündən silən Qrekin tarixini öyrədirlər balalarımıza... Abı! Səsin niyə batıb?! Niyə demirsən düzdü, Bağday tarixidi dünya tarixi! Bilmirsənmi beyni qatıdı “Dəli Səməd”in?! Başını götürüb getsə, kim sahib durar o “Xəzinə”yə?!

Xızr Abı dümağ, nəhəng yaylığı üz-gözündən çəkib irəliyə, Səmədin sol tərəfinə çıxdı.

– Sarsılıb, ay Qurban. Aman ver, özü danışsın, boşaltsın ürəyini. "Elm nədi!" – desin, "Varis nədi!" – desin, "Başınıza at təpib!" – desin. Batmayıb səsim, əksinə, o mülkün alovundan üstümə qurum yağa-yağa, üz-gözüm qarsalana-qarsalana axtardım, Çax-çuxu tapdım, dedim: "Şahid var, sən yandırtdırıbsan evi! Get yır-yığış elə, günü bu gün damlanacaqsan!.." Sən ləngitmə bu işi, ay Qurban. Gördüm orda, Rəhimə, Xalıqa sarı getmədin. Ehtiyatlanırsan, yoxsa, gizlin hazırlıq işi görürsən, nədi? Bilmirəm. Öz işini gör sən. Səmədi mənə tapşır daha.

– Sözümün əsası geridədi. Sən göstəriş vermə Qılınc Qurbana. Gün qalxır, yandıracaq. Çöldə saxlama Səmədi, evə apar. Ya da, pullu adamsan, apar Şüşəliyə. Çürük də yəqin orda olar. Casusların "sbor günü" deyil bu gün. Apar, yaxşı-yaxşı ətraflı danış bunnan, Xızrlığını göstər! İndi hələ mənim ixtiyarımdasan, oğul.

Sözümə fikir ver.

O məktub – "Şəxsiyyətə pərəstiş" oxunandan bəri Əziz də ilana dönüb. O gördüyün mehriban Əzizimiz! Asta-asta sürünüb kabinetlərdə əmiyin kadrlarını udur bircə-bircə. Dünənnəri maarif müdiri Mirbağırı qaldırıb Sultanın üstə. Bu səhər müəllimlərin, uşaq-muşağın gözünün qabağında bar-bar bağırdı Mirbağır ki, "Tədris proqramlarını pozammarıq! Bir nəfər də şagird vermirəm pambıq yığımına!"

Elə bilirsən doğrudan qorxublar Mirqəzəbin tutulmağından?! Əksinə, Saşa elə bundan ötrü xüsusi gəlibmiş desin ki, "partiya daxili demokratiya" şüarı köhnə partiya kadrlarının başlarını yeməkdən ötrü şərait yaratmadan, yəni camaatı qızışdırmaq, kadrları tənqid atəşinə tutub başlarını yeməkdən ötrüdü. Budu bax həqiqət!

Mənə de görüm, məktəb uşaqlarını pambığa həməşə şüarnan, şərqiynən aparan Mirbağır deyilmi bu?! Nə olub, indi niyə bağırır birdənbirə?! Çünki Bezobraziye demokratiya alıb! Ağızları allahdadı ki, yığım kampaniyası mütəşəkkil keçməsin, plan dolmasın, Sultan Əmirlinin işi bu yandan da əyilsin!.. Axı əsas məsələdi yığım. Rayon pambıq rayonudu. Camaatın dirriyi də pambıqdandı, katibin üz ağlığı da.

Mən bilirəm necə qayıdacaq əmin o məhkəmədən. Keçən il Mirqəzəbin şəxsi tapşırığıynan Pers gəldi tutqu təşkil elədi rayonda. Silistsiz-filansız, təsərrüfat rəhbərlərini doldurdu eşalonun vaqonuna! Əgər əmini də o işə bulaşdırıb lap az-maz da olsa günahkar saysalar, Bezob-

raziye dərhal pıça-pıç salıb pozacaq yığım kompaniyasını. Tükdən asılıdı əmiyin taleyi, oğul. Sənə bel bağlayıb, təhkim eləyib bu zonaya. Gülənova, Rəhimə, Tahirlinin, Qurbanlının sədrlərinə ayrı-ayrı tapşırıb ki, Səmədin bir sözü iki olmamalıdı. Dünən qəstindən evə qayıdanda qolundan necə tutubsan, necə dirək durubsansa, bax bu çöllərdə, pambığın arasında da o cür dirək durmalısan! Düşmənin yaxdığı ləkəni səndən savayı kim silə bilər?! Mənim Qeybalıyı yalan danışmağımnan silinərmi o cür qara ləkə? Sənin bayaqkı o əyili qədd-qamətinə Qeybalının bircə kərə rişxəndnən baxıb "Məcnun" deməyi bəs deyilmi ki, dildən-dilə düşsün təzə adın, Sultanın ürəyinə yük olsun, Bezobraziyenin niyyəti "avariya"sız-zadsız keçsin həyata?!

İndi de görüm, kimdi qadın zorluyan? Sultandı, yoxsa Sultanı belə kökə salanlardı?!

Heç bilirsənmi nə qədər zir-zibil yaxıblar mənim üstümə?.. Gövdəm deşik-deşikdi düşmən gülləsindən, hər yaranın tarixinə bir dastan qoşmaq olar. Əmma gör düşmən nə deyir: paçamın arasını da güllə aparıb guya, onçun övladım yoxdu!.. Adam yanında hörmətimi gör necə bəzəyiblər: "Bacısını kabinetlərə ötürüb oğraşlıqnan qazanıb hər şeyi!.." Güllə qabağına çıxmağa nə vardı?! Oğul istəyirəm bu murdarlarnan döyüşsün!

"Fırtına quşu" oxuyardın mənə atımın tərkində. Çürük nəsihət eləyərdi ki, Aşıq Alıdan, Ələsgərdən oxu, Abbas Divarqanlıdan oxu, ay oğul. Çürüyün cavabında yenə "Fırtına quşu"nu deklomasiya eliyərdin. Səsin hələ də qulağımdadı. İndi niyə qaçırsan fırtınadan?! Bu cığırı əlinə alıb hara gedirdin belə?! Nə qədər vurnuxmaq olar bu aralıqlarda?! Üz-gözünə bax, əyninə-başına bax! Bircə o qalıb ki, quşlar yuva qursun başında! Belə eşqmi vəsiyyət eləmişdi sənə bizim qardaşımız?!

Başını qaldır, üzümə bax görüm. Mən sözümü qurtardım hələlik. Üzümə bax görüm, bir şey düşdümü içərinə. Heç nə demə. Eləcə üzümə bax, kifayətdi...

Səməd başını azca yana əyib necə baxdısa, bu baxışdan sonra yəqin ki, doğrudan da heç nə demək lazım deyildi. Əmma söz Səmədin ürəyini deşirdi:

– Daş deyiləm, insanam. Düşünürəm... Əlləzoğlunun nöyüdü necə tökdüyünü də gözümnən gördüm, kibriti necə çəkdiyini də. Qalxmadım yerimdən. Ev o vaxt evdi ki, insan olsun, mənalı həyat olsun içində... Nə ev-eşik lazımdı mənə, nə də var-dövlət. Heç nə lazım deyil mənə,

insandan başqa!.. Yeddi il yanmışam, qovrulmuşam öz daxilimdə. Məncə, sən bilirsən bunun səbəbini. Abı da bilir. Əmim də bilir. Gecə bir şey oldu orda, evdə: süfrəyə çaxır dağıldı. Qırmızı çaxır... Mən qan ləkəsi gördüm o çaxıra baxanda, əmimin süfrəsində. Əmim özü də elə gördü! Əhvalı dəyişdi, çoxlu duz tökdü ləkənin üstünə. İndi məlum olur ki, sən də ordaymışsan. Sizin bir-birinizdən gizlin sözünüz yoxdu. Mənə hər şeyi demirsiniz. Əmma nahaq. O şeyi ki, sirr kimi saxlayırsınız, sirr deyil o mənim üçün.

Avariya günü gözüm tutuluydu mənim. Dünya zülmətə bürünmüşdü. Tabutnan tabutun qapağının künclərində mismarlardan başqa bir şey görmürdüm. Əmma qəribə zülmətiydi o zülmət. Qəti deyə bilərəm ki, məndən aralıydınız siz orda, dəfndə. Sonralar da yaxın gəlmədiniz heç biriniz. Niyə?! Yeddi ildə həmişə aralı gəzmisiniz. O qan sirrinə görədi hamısı!. Narahatlıq keçirməyin, əzab çəkməyin, tamam arxayın olun ki, atamın ölümü barədə bir kəlmə də soruşmuyacam sizdən.

Avariya deyil, öldürülüb və Gülənovun o "zaklyuçeniye"siynən hər şey ört-basdır olunub. Aydın məsələdi. Kimlər iştirak eləyiblər o ört-basdırda? O da aydındı! Təkrar eləyirəm ki, sirr yoxdu burda mənim üçün. Hətta nəynən və necə öldürüldüyünü də bilirəm. Bunu danışacam sizə.

Xalıqın o palıd kötüyünün üstündə, çəki daşlarının arasında bir nal varıydı. At nalı. Ortasına qurğuşun yapışdırılmışdı. Təxminən yarımkiloluq daş qədər, yastı qurğuşun.

Dəfndən qayıdanda gördüm kişmiş yığışdırılıb yerdən. Çəki daşları da haman yerə qoyulmuşdu, kötüyün üstə. Tək o nal yoxuydu!

Sonralar gözüm axtardı, nə Çax-çux Xalıqın özünü gördüm, nə də o qurğuşunlu nalı. Mən yəqin bilirəm, lap dəqiq bilirəm ki, atam maşınnan vurub kötüyü aşırıb kişmişi dağıdanda qatil ordaymış, camaatın arasında. Nalı götürüb, minib maşına... – Səməd istər-istəməz meşə ətəyinə, haman saqqız ağacına tərəf boylandı.

– Deyirsən yəni Xalıq?! – Qılınc Qurbanın bəbəkləri qığılcımlanırdı.

Səmədin gözləri isə gərgin və durğundu.

– Yox... İkicə gün bundan əvvələ qədər Çax-çux Xalıqı şəksiz-şübhəsiz qatil sayırdım mən... Atam kişmişi dağıdanda idarədəydim. Pəncərədən baxırdım. Kişmişi dağıdandan sonra Qudalı Rəhimin evi tərəfə getdi maşın, məhlənin o biri evlərinin, ot tayalarının aralarında o yan-bu yana şığıdı. Atam tez-tez qapıdan boylanırdı, deyəsən kimisə axtarırdı. Əmma heç kəs yoxuydu o yanda. Təkcə Xalıqıydı, maşının

böyrüncə yüyürürdü, atama yalvarırdı, atam da söyürdü onu. Sonra bu yana, yola tərəf buruldu maşın. Xalıq görükmədi daha...

– Demək Xalıq?!

– Yox, Qurban əmi, yox!.. Gecə orda, stolun dalında yatanda bir röya gördüm. Gördüm Xalıqın daxmasında kişmiş yeyirəm, zəhər dadır kişmiş. Zəhər verib Xalıq mənə. Əmma qatil deyil... Bakıdan bir vaqonda gəldik onnan...

– Xalıqnan?

– Hə... Srağagün. Əmimin evləndiyini Bakıda dedi o mənə. Kimnən evləndiyini demədi. Niyə? Başa düşmürəm... Yəqin ona görə ki, desəydi, daha söhbət eliyəmməzdi mənnən. Sonra kupeyə gəldi. Orda da çox müəmmalı şeylər dedi. Mən görən Xalıq deyil bu Xalıq. Tamam başqa adamdı. Əlaqələri genişlənib. Çox mürəkkəb, təhlükəli adama oxşayır indi Çax-çux Xalıq. Hərdən fikirləşirəm ki, bəlkə elə çox dəyişdiyinə görə daha qatil görmürəm mən onda? Əmma o deyil. Məlum deyil qatil. Xalıq şübhəsiz tanıyır onu. Mənə elə gəlir ki, qatil ordan, kötüyün üstündən nalı götürəndə qorxub Xalıq. Qorxub ki, hadisə yerində qalar o nal, ələ düşər... Cənubumuzda Məhəmməd Əmir, Ağ Əmir, Boz Əmir kimi gizlin iş adamlarının gizlin işləri barədə məlumat toplamağa göndərilən kəşfiyyatçı, şübhəsiz hazırlanmış adamdı. Bu tayda Gülənovnan, Sayılovnan işləyir, demək, kriminalistikadan-zaddan başı çıxır. Ona görə də qorxuya düşüb, maşının yanınca yüyürə-yüyürə çalışıb ki, nalı alsın qatildən. Alammayıb, əlbəttə... Kupedə dedi: “Avariya günü yaradı ürəyimdə”... Bunu başa düşürəm. Qurğuşunlu nal məşhur naldı. Kimə göstərsən, o saat deyər Xalıqındı. Üstündə də Xalıqın əlinin izi. Lazım gəlsəydi sübut eliyə bilərdilər ki, Xalıqdı qatil, kişmiş dağılanda nalı götürüb, minib maşına, saqqız ağacına çatana qədər maşında olub, orda nalı geridən çaxıb sədr Mədədin sağ gicgahına, rulu burub, maşın çevrilənə yaxın atılıb qaçıb... Çox asanca sübut eliyə bilərdilər. Əmma eləməyiblər. Açıq-aydın qəsd işi!.. Bir səhifə kağız yazılıb, atılıb arxivə. Əmim də razılaşıb o kağıznan! Necə yəni “qəsd işi deyil?!” Terrordan söhbət gedir burda! Söz-söhbətinizdən tamam aydındı ki, xalqın elminə, dilinə, tarixinə terror elan olunub! Sədr Mədədin ölümü “qəsd” deyil?!

Yeddi il səkkiz ayda aramsız fikir-zikrimi az-çox durulanı budu indi. Kiməsə danışmalıydım bunu mən. Danışdım budu!..

Qılıncın gözlərindən qıyıqlıq getmirdi.

– Bə niyə indi danışırsan?! Əmiyin o “qəsd işi yoxdu” sözlərini niyə indi deyirsən?!

– Məsələ də elə bundadı, Qurban əmi...

Üç sual var beynimdə.

Birinci sual: Kim öldürüb? Bunu tapmaq çətin olar. Həm vaxt uzanıb. Həm də o “Şüşəli pavilyon” adında düşmən ştabı yaranıb.

İkinci sual: Niyə öldürüb? Elmə görədi, şübhəsiz! Əmimi, səni, Xızr Abını, Çürüyü, o gedən KQB polkovnikimizi – Saşanı... Ümumiyyətlə, hamınız niyə susmusunuz?!

Üçüncü sual: Bu anlaşılmaz sükut sizin xeyrinizədirsə, yəni susmaq lazımdısa, məndən niyə gizlədirsiniz?!

Tabutu açmağa qoysaydılar, çox şübhələnməzdim bəlkə də. Gülənov da “Açma” dedi, əmim də. Sonra qəbiristanda gördüm qocalar atamın yarasını gizlədirlər. Tək məndən yox, camaatdan da gizlədirlər. Aydınca gördüm, başa düşdüm ki, atama qəsd olunduğunu çox adam bilir, əmma hamı dilini dişiynən tutur, çünki bir nəfərin bir nəfərə qəsdi deyil bu qəsd, elə işdi ki, hamı susmalıdı. Niyə açmırsınız mənə ki, mən də bilim və susum?!

O qurğuşunlu nalı bu yeddi il səkkiz ayda ürəyimdə qurğuşun kimi gəzdirmişəm, heç kəsə heç nə açmamışam. Gözüm nalı axtarıb həmişə. Qatili xəyalımda dəfələrlə ifşa eləmişəm, yaxasından yapışıb aparıb təhvil vermişəm. Xəyalımda! Həyatda isə heç nə eləməmişəm. Çünki nə qədər “qan-qan” desəm də, qaynayıb coşsam da, ürəyimin dərinliyində həmişə duymuşam ki, əslində, nə nalın tapılmağını istəmişəm, nə də qatilin ifşasını. Çünki ifşa mənim “qəsd işi yoxdu” deyən idealımı ifşa eliyə bilər, Qurban əmi! Sən duyursan məni. Duyursan! Qəsd işi açılsaydı, sizin məndən gizlətdiyiniz sirr də açıla bilərdi, əmim etiraf məcburiyyətində qalıb, etiraf eləməli olardı ki, düşmənnən kompromisə gedib, inayətin üstünü örtüb. Bəli! Hamınız örtmüsünüz! Dəli Səmədəm mən, dilimi dişimnən tutmaq qabiliyyətim yoxdu. Açıq deyirəm: cinayəti gizlədənlərin hamısı iştirak eləyib cinayətdə!

Deyirsən “səcdəgahın olmalıdı”. Bu qurğu quran murdarların mühitində ideal saflıq, əlbəttə, qeyri-mümkündü. Əmma nə vaxt dərk elədim bunu mən? İndicə! Sən danışanda! Bu ötən yeddi il səkkiz ayda, dünən, bu səhər, lap beş dəqiqə bundan əvvəl faciə içindəydim mən! O kupedə əmimi ifşa eliyəndə Xalıq deyirdi: “Əsasım var”. Mənim faciəmin də

əsası var: idealım qadın zorlayıb deyirəm! Bəraət vermə buna! Vermə! Bu hərəkəti məndən gizlətdiyiniz hərəkətin üstünə gəlib cəlladdan da betər, alçaq adama çevirib əmimi! Abı kimi sən də, necə deyərlər, azacıq aşın duzu deyilsən, analiz verdin, xeyli yüngülləşdirdin dərdimi. İndi yoxdu bayaqkı faciə. Mübaliğəsiz deyirəm, yoxdu. O qadının gözləri var gözümün qabağında. Öz fağırlığına, məzlumluğuna görə zalımlar əlində oyuncağa dönən zənənin bədbəxtliyi var! Bir də... Gizlətmirəm səndən, ağır itki hissi var, Əlləzoğlu nədi?! İnsanın istəyi – bütün varlığıdı! Varlığımı itirmişəm mən! Niyə gizlədim?! Sultan Əmirlini xoşbəxt eləmək istəyirdim dünən. Həqiqətən gördüm mən dünən. Deyirdim gücüm çatar, yanğımı basdalıyaram içərimdə. İndi bu itki daha pis üzür məni! Əmma... bayaq "Ölmüşəm" deyəndə nəzərdə tutduğum faciə isə yoxdu. Yanan Vətənimi görmürdüm! Qırılan xalqımı görmürdüm! Sədr Mədədin iki vətənli durnalarını görmürdüm! Belə dəhşətli böyük faciə içində əmimi yenidən göstərdin sən mənə. Saşa Babayev bilirmiş kimə tapşırmaq lazımdı mənnən danışmağı!.. Abı babam peyğəmbər kimi adamdı. Əmma o Şüşəli pavilyon barədə danışmalıydı o mənə... Əmimnən bərabər səni də yenidən gördüm. Kimin ağlına gələr ki, hətta Qılınc Qurbanı da çirkaba batırıblar bu murdarlar?! Qıymat kimi uca qadının barəsində də söz deyiblər! Doğrudan da, xəbərim yoxuymuş dünyadan. Kömək elə mənə, əgər mümkünsə, bu nalı, bu qurğuşun yükünü də çıxardım ürəyimdən. Fakt özlüyündə dəhşətli faktdı axı! Qardaşının qanını batırıb!.. Özü də gördüyünə göz yummaqnan yox, saxta "zaklyuçeniye"ni şüurlu təsdiq eləməknən batırıb Mədəd Əmirlinin qanını! Nədi bu?! Mənəvi iflas deyirlər belə kompromissə. Əmma əmimə yaraşdırmamışam mən "iflas" kəlməsini. Ağlıma gəldikcə dərhal atmışam beynimdən bu kəlməni. Səbəbini dedim sənə, ifşadan qaçmışam. Əmimin hər şeydən əvvəl, məhz uca mənəviyyatıynan fəxr eləmişəm mən həmişə, üstünə toz qonmağını da istəməmişəm. Hətta Mirqəzəbnən telefon danışıqlarından sonra necə sındığını, necə əyildiyini görəndə də, həmişə yenilməz saymışam əmimi.

İndi ayıq düşünmək istəyirəm. Ən acı həqiqəti də çəkinmədən deyə bilərsən. Bu vaxta qədər soruşmamışam, indi də soruşmuram ki, necə olub razılaşmısınız o cür sənədnən. Dəhşətə gəlirəm, deyirəm Qılınc Qurban hara, o cür cinayəti ört-basdır eləmək hara?! Əmma bunu da soruşmuram səndən. Bircə şeyi dəqiq bilməliyəm mən: əmim

niyə o hala düşdü o ləkəni görəndə süfrədə?! Qardaşının yarasını gördü, dözəmmədi? Əgər belədisə, bəs Çürüknən Abının “Zarıncı”sı niyə yaş çıxartmadı gözündən?! Heç olmasa köyrəltmədi! Niyə o cür yatdı?! Daş kimi!

Əzabımı duyursanmı, Qurban əmi?!..

Bayaq sən vəhşi düşmənə qalib gəlməyə qabil güclü adam göstərdin mənə və mən başa düşdüm o dəhşətli adamın o gücünü. Deyəsən çox böyük faciələr gözləyir bu bədbəxt xalqı. Məhz buna görə də hər cür dəhşətə dözür Sultan Əmirli ki, səlamət qalsın, mübarizələri davam elətsin.

Yas qurub yasda yatan adamı isə başa düşmürəm!

Çürüknən Abını xüsusi gətirtmişdi. Ağlayıb daxilən yüngülləşmək istəyirdi. Bəs niyə daşa döndü?!

Duyursanmı mənim işgəncəmi, Qurban əmi?! – Səməd dartıb köynəyinin yaxasını açdı, Sudüşənin qurtaracağından, meşənin sağ səmtindən başlayıb, ulğunluqlar, pöhrəliklər, sirkanlıqlar arasında zolaq-zolaq uzanan pambıq sahələrinə tərəf boylandı. – Bura göndərib məni. Gecəni gündüzə qataram, pambığın arasında yataram, ta yığım qurtaranacan bu çöllərdən yığışmaram! Bircə bu əzab olmuyaydı, Qurban əmi! Güclü adam öz yerində! Mübarizlik, yenilməzlik, hamısı bir yana, mən insan görmək istəyirəm, Qurban əmi! Dünən o yatanda məhz insan itirmişəm mən! Necə qaytarım, necə dirildim o insanı?!

Qılınc Qurban dümdüz yerdəcə tövşüyürdü.

– İndi hər şeyi açıq deməliyik biz sənə. Deyirsən “böyük faciələr gözləyir bu bədbəxt xalqı”. Xəbərin varmı ki, İrəvanda, Dərə Ələyəzdə, Göyçədə, Başkeçiddə yurdumuza süpürgə çəkiləndə, yəni qırx səkkizinci ildən bu yana Borçalıya da süpürgə çəkildi, Təhləni də, Qaraçöpü də, Qarayazını da (hansını deyim), Tiflisin arxalarının, bərisinin camaatını da irdələyib lap az-maz şübhələndikləri adamları da sürdülər. Eşalonlarda çörəksiz, susuz saxlayıb qırdılar! Əmin “Emadin”də gedirdi, çalışırdı heç olmasa tək-tək adamlara, yəni şəxsən dərs dediyi, Elm öyrətdiyi təsərrüfat başçılarına tutarlı partiya sənədi-filan düzəltsin, saldırsın, saxlasın, sürgündən, üzü üstə ölü kimi qayıdırdı, dost, məsləkdaş yanında da rəmznən danışırdı: “Ağac qalmadı, qırdılar, ay Qurban, ay Abı, Bağlar bəhrə verməz daha!” Nər Sultanımız uşaq təki hönkürürdü: “Bağdayı əfsanəyə döndərdilər!..”

---

[70] KeQeBe-nin klubu.

Bir gün var... Bir payız günü, yağışı-yağmırıynan, dolub canıma, ürəyimə, beynimə, çıxmır ki, çıxmır... Sultan o cür uşaq təki ağlıyandan sonra yuxum ərşə çəkildi. Bu cırtdan əmin elə sındı, arıqladı ki, lap, nə deyim, ərdova döndü, adamlıqdan çıxdı. Nədən ki, boğazımdan çörək də getmirdi... Necə oldusa, gecənin bir aləmində bir azacıq mürgüləyib, birdən dik atıldım, köhnə mauzeri belimə taxdım, tüfəngi çiynimə keçirdim. Dörd daraq patron sol çiynimdən, bir daraq sağ çiynimdən saldım, birini də belimə bağladım. Stansiyada gurhagur düşmüşdü, vaqonlar dartışırdı, arvad-uşaq qışqırışırdı, güllə səsi gəlirdi. O dəqiqə bildim iş nə yerdədi. Yazıq atı çala-çuxurlarda, selavarlarda nə hala saldımsa, Məhərin budkasına çatanda gördüm tir-tir əsir altımda. Qorxdum çatdıyar at, düşdüm, buraxdım, cumdum, gördüm nə?.. Boyunu yerə soxum ay Qılınc Qurban rayonun yarıcasını doldurublar on-on beş uzun eşalona, əmbə aparammırlar; parovozlar qırıq-qırıq qışqırışır, vaqonları açırlar kimlərsə, o biriləri kimlərsə güllə zoruna qoşurlar! Gülənovu görəndə qan beynimə vurdu bir güllə sol ağının dabanına çaxdım, dübarə çökdü köpəyoğlu, birini də sağ dabanına çaxdım, dəymədi, çökə-çökə döndü baxdı, gördü mənəm. Bağırdı ki, “Başına atmı təpib, görmürsənmi sürülür rayonun, sabah da sizin kəndləri bu hala salacaqlar”. Çəkildim, atıldım xəndəyə, alaqaranlıqda, heç bilirsən necə qıfıl sındırdım?! Şarak-şarak, vaqonun qıfılı daloy! Şarrak-şarrak – o birisi daloy. Cəmaat da ayıq tərpəndi, qapıları o yan-bu yan çəkib töküldülər düzə, kola-kosa... Məxlək bir də o vaxt ayıldım ki, tüfəngin qatarları bom-boşdu. Mauzerdə də üç-dörd güllə qalıb. O damda, relslərin dalında da rusun əskəri qarışıb Ermənininin yekəpapaqlısına, üzü üstə döşənişib parta-part döşəyirlər. Öz-özümə dedim “işin bitib, a Qurban”. Bir də nə görsəm yaxşıdı: qız uşağı, arıqlığından yıxıldıqca sümükləri taqqıldayır. Baxdım – kim? – Lütün kiçiyi, o Diniş deyilən, özü ağırlığında xurcunun iki dolusu patron, sürüyür, yıxılır, qalxır. Xır-xırıldadı ki, dədəmgil daldan gəlirlər, qorxma. Məxləs, gün çırtanacan döyüşdük, camaat qaçdı, dağıldı dağadaşa, Rusnan Erməni də doluşdu vaqonlara, taraq-taraq dala sürdülər köpəyuşağı. Bilirsənmi niyə? Nə qədər açığıydısa sürgün, bir o qədər də xəlvətiydi, ay oğul! Əmin! Əmin də ordaymış, ey, kürəyimdə ağacın

---

[71] “Budu bax sənin həqiqi sifətin!”

[72] “Sən hələ bir müdafiə də eləyirsən onları?! Mənim işçim Xalıq yaxşı tanıyır onları”.

dalına gedib atırmış! Özü də nə? Pulemyot! Bəli!.. Hökumət heç üstünü vurmadı o işin. Demə Moskvadan qadasın aldığım o istinni bolşeviklərdən hansısa dədəsini yandırıb. Bağırovun ki, Mejdunarodnıy skandalmı istəyirsən, ayıb olmasın şalvarlarını çıxartdı Bağırovun sağ-solundakı ermənilərin. Getdi Kremli də bir-birinə vurdu. Görüm necə deyib? Hə: "Rano ili pozdno sarvyotsya etot antiturkskiy plan! Toqda ves mir poydet na nas! Yəni "Na vas!.."[70]

Əmin insanlığını itirməyib, oğul!.. Otuz dörd ildə şəxsən yetirdiyi Bağ övladları getdi! Cəfər kimi pak mələk getdi! Göz yaşı qalarmı Sultanda?! Demə "bəs niyə daşa döndü?!" Deynən "nə yaxşı dözür?!."

Səmədin fikri haçalanmışdı:

– ...Cəfər əmi də... tutulub?

– Hə də... Bədbəxt Lüt!.. Zahirən suyumsuz, daxilən Bağ övladı getdi əlimizdən. Danışardım. Qorxuram tamam-kamal bir şey çatdıram-maram. Sultan özü dərs deməlidi sənə. Özü! Üz döndərmə qardaşımdan, oğul! Başqaları təki sən də mükəmməl dərs al. Bax, onda biləcəksən bu dünyanın tarixini. Yazıq Abı, "Adəm, Həvva" eşidəndə dəli olur: "Torpaqdan yaranmışıq, torpağa gedirik" deyən olanda, inanırsanmı ki, kəndin ortasında palçıq yığır ovcuna, yoğurur, başdı-ayaqlı kuklasayağı düzəldir, düşür o "torpaqdan yaranmışıq" deyənlərin üstünə: "Budu ha! Nəfəs verin, Adəm eləyin bunu, Həvva eləyin! Ər-arvad eləyin, doğsunlar, törəsinlər!.." – qan-tərə batır, daha Qudalılardan-zaddan da qorxmur, yığır cavanları, aparır dərs deməyə... Təftiş Abbasın oğlu Məmməd Xələf Zal sənnən oxuyurdu məktəbdə. Xızr Abıdan dərs alandan sonra getmədi ali məktəbə, bilirsən, şoferlik eləyir. Hünərin var get ona deynən "Bağ hara, insan hara?!", göyə çıxar hirsindən ki, "Bağ olmuyan insan da var?!"

Səməd Mədəd oğlu Əmirli, üç qardaşın Bircə balası bu vaxta qədər bilmir ki, Bağlığından xəbərsiz insanların cəhaləti ucbatından zülm altındayıq biz!.. Sağ olsaydı, bədbəxt Lüt də belə deyərdi sənə.

Səməd duruxdu.

– Ölüb?!

Qılınc Qəhərləndi.

– Dalını Abı danışsın.

Abı da qəhərli idi. Astadan:

– Öldürüblər, – dedi. – Burda, sovetliyin üç para kəndində, bir də Qaraçöpdən, Təhlədən gələnlərimizin arasında öz rəmzlərimiz varıydı.

Elmi mənimsəyən adamlara “Varlı adam” deyirdik, mənimsəyə bilmiyənlərə, ümumiyyətlə, cahillərə “kasıb” deyirdik. Yazıblar KeQeBeyə. Məhərrəm Sultana xəbər çatdırıb ki, “Varlı”, “Kasıb” məsələsini şəxsən Mirqəzəbə çatdırıblar, Mirqəzəb də şəxsən Stalinə deyib. Təfsilatını Qurban yaxşı bilir.

Qılınc Toxtamışdı.

– Hə, bilirəm, – dedi. – Krımdan, Stalinnən görüşdən qayıdanda Mirqəzəb burda, Məhərin budkasında vaqonuna çağırıb Sultanı. İçəri girəndə yekə bir siyahı qoyub əmiyin qabağına: başda bizim bədbəxt Lüt, Qurbanlının sədri İsgəndər kişi, Tahirlinin sədri Cəbrayıl kişi... Qışqırıb ki, “Vot tvoyo istinnoye litso.[71]

Millionerı vse oni!” Əmin deyib: “Bunlar təsərrüfat başçılarıdı, hərəsi altmış əməkgünü alır, aylıq əmək haqları beş yüz-altı yüz manat olur”. Gözü kəlləsinə çıxıb ki, “Tı yeşşo zaşişayeş ix? Moy rabotnik Xalıq xoroşo znayet ix”.[72]

Yazıq Sultan! Nələr çəkib başı!

Deyir: “Dərdimi heç kəsə açammadım, düz iki il gecə-gündüz dişimnən, dırnağımnan müdafiə elədim”... Bildirrəri elə bu vaxt, yığımqabağı, günortaüstü atın yəhərini alırdım həyətdə. Bir də gördüm əmin maşınını qoyub düzün ortasında, pay-piyada gəlir. Bir əli boğazında, o biri əli ürəyinin üstə. Dolçanı doldurdum daş suyuynan, yüyürdüm qabağına. Dolçanı aldı, başına, sinəsinə tökdü suyu. Dedi: “Sualıma cavab ver, a Qurban. De görüm, kolxoz sədrlərini müşavirə zalında sorğusuz-sualsız həbs eləyib, dustaq vaqonuna basdırsam, neylərsən mənə?” Dedim: “Güllələyərəm səni”. Dedi: “Lüt Cəfəri də o cür basdırıb, Çax-çux Xalıqın arzusuynan, general Persin əmriynən Qudalı Rəhimi sədr təyin eləsəm, neylərsən?” Dedim: “Güllələyərəm”. Dedi: “Yun planını yüz əlli faiz eləmək xatirinə camaatın evindən, körpələrin altından döşəkləri çəkib, cırıb yunu alsam, neylərsən?” Dedim: “Güllələyərəm”. Dedi: “Onda üçqat güllələnmə düşür mənə”. Dedim: “Sən belə şey eləməzsən axı, ay Sultan!” Dedi: “Özüm elədim, ya general Persə mane olammadım, nə fərqi var?!”

Belə dərd sahibidi əmin, Bircə bala!

Çox naziksən sən, mənim balam. Əmma dünyadan ayrılıbsan, yeddi ildə öz içərinnən əlləşibsən. Bakıdan gələli, bu iki gündə çəkdiyini bəlkə yeddi ildə də çəkməyibsən. Əzabını duyuram. Əzabına, işgəncənə qur-

ban olsun Qurban əmin!.. Bağışla baş-ayaq danışıram, fikrim qarışdı bir az. Elə sözmü dedin ki, qarışmasın? "İnsan itirmişəm"... Qanan adamdan ötrü çox ağır sözdü bu. Əmindən ayırmıram mən özümü. Nə vaxt bilsəm, başa düşsəm ki, doğrudan da itirmişəm insanlığımı, o vaxt bu qoşalülənin lüləsini diriyərəm çənəmin altına, ayaq barmağımnan tətiyi basaram, məsələ qurtarar.

Əmini görmürsən sən, görəmmirsən hələ. Öz içərindən savayı heç nə görmürsən hələ sən. Gözün baxmağına baxır, əmma qabağındakı adamı görmürsən. Daş kimi yatdı deyirsən. Əmin, axı, yatmamışdı, oğul! Yatmamışdı!

– Yatmamışdı?!. Necə yəni, yatmamışdı?!

– O bayatıdan sonra Sultan yox, sən yatmışdın! Sən! Sultan heç mürgüləməmişdi də! Mənim gözümdən yayınmaz heç nə, bala!

Səməd xeyli dayandı.

– A kişi, sən nə sərsəmləyirsən?!

– Artıq söz demə! Şillə yeyərsən!.. Bəli, Sultan yatmamışdı deyirəm. Sən başını stola dirəyib silkələnirdin dərdli-dərdli. Sultan divandan sürüşdü, diz çökdü sənin qabağında, hönkürdü, yalvardı: "Sən burda qalmalısan!.. Sən burda qalmalısan, Bircə balam!.." Bə sən neylədin?! Dik atıldın həqiqətən dəli təki!.. Sultanı mən bilirsənmi necə tanıyıram? Bir otaqda yüz adam yatsın, Sultan da olsun o yüzdən biri. Gözümü bağla mənim, sal o otağa, deynən tap Sultanı bunların arasında, gözü bağlı gedib deyərəm budu. Çünki inildəyir əmin yatanda. Lap az-maz mürgüləyə ha, mütləq inildəməlidi! Neçə il bir damın altında olubsan əminnən, eşitməyibsənmi yatanda necə inildəyir?! Mən, məsələn, ömrümdə uzanmaram yatanda. İki balınc qoyuram kürəyimə, oturan yerdə yatıram. Rəhmətlik Mədəd gərək hökmən üzü üstə uzanaydı, qıçının birini yığaydı qarnına, ayrı cür yuxu getməzdi gözünə. Sultan da elə yatır, əmma gözünə yuxu gedəndə elə inildəyir, elə bilirsən ətindən ət kəsirlər.

Dal otaqdaydım, ordan gördüm gözünü yumub yazıq, sənin üzünə baxammır. Sən hönkürəndə əyildi, ikiqat oldu divanda. Daş əyilərmi, bala?! Elə əyildi ki, stolun bu biri tərəfindən görmədin daha sən onu. Qabağında diz çökəndə də görmədin. Çünki deyirəm, başını stola dirəmişdin, silkələnirdin, ağlayırdın. Abıynan mən, Çürük, bu biri yandan tamaşa eləyirdik nər Sultanımızın aqibətinə, biz də ağlayırdıq. Çünki, deyirəm, əmin yalvarırdı sənə: "...Getmə bu evdən, oğul! Sənsiz puçdu hər şey, ay Səmi balam, Bircə balam!.. Sən getməməlisən bu evdən!..

Getməməlisən!..” Hoppandın, əllərini üzünə şappıldatdın, gurultuynan düşdün pilləkandan, yıxıldın, qalxdın qaçdın!.. Necə yəni “qadın zorlayıb?!” Yazıq canım, dona girdim, dedim: “Bilirəm mən onu”. Nəyi bilirəm, əşi?! Budu bax, Abı desin, bu müqəddəs insan desin necə olub əhvalat! İçirdiblər, deyirəm, sonra aparıblar Rəhimin evinə, Gülgəzi çağırıblar ki, gəl qaynatana qulluq elə. Sonra da eşikdə qızı yıxıblar qurta-qurt bir şüşə konyak töküblər boğazına!..

– Bəsdi!.. Bəsdi, Qurban əmi!.. – Səməd boğuldu. Gözləri qaraldı. Əmma dünəndən bəri beynini qaynadan sözləri çatdırmağa çalışdı:

– Mən stolun dalında elə ağlayanda divanda deyildi əmim?! Yataq otağındaydı! O yataqda, o taxtda... ağ yastıq üstündə qara saçlara qarışan ağ saç mənimki idi?! Necə yəni “bu müqəddəs adam desin?!” Mayda nə olub, bilmirəm. Mən...

Abı gözlənilmədən, əlini onun yaxasına atdı.

– Bura bax ey! Sən niyə belə tərs-avand görürsən hər şeyi?!

Səməd qışqırdı:

– Mən dünən öz gözümnən gördüyümü deyirəm! Qara saçlara qarışan o ağ saçları!..

Qocaların rəngləri dəyişdi.

Abı dedi:

– Elə şey olmadı dünən.

Qılınc dedi:

– Nə?!

– Atan əvəzi bu kişi deyir Sultan divanda ikiqat olub yalvarırdı sənə. “Sən bu evdə qalmalısan!..” Niyə inanmırsan, ay nadan?! “Taxt” nədi?! “Qara saç, ağ saç” nədi?! Gözün alacalanıb sənin!.. Bəli!

* * *

Bir az sonra Qonaqlı ilə Tahirlinin arasında, meşənin ətəyində, bu yerlər üçün yenilik sayılan “Şüşəli” pavilyonda, yəni fasadı və sağ-sol divarları şüşədən ibarət olan internat yeməkxanasında oturanda da Səməd sevincindən titrəyirdi: “Gözüm alacalanıb?! Demək, mənə deyirmiş “qalmalısan!..” Gör, diqqət yetir indi, ağ evdəki o qara saçla ağ saçlıların arasında necə mərd söhbətlər olub, münasibətləri necə açıq və aydındır ki, Sultan üçüncü nəfərin də o evdə qalmasını mümkün sayıb “Qalmalısan!” – deyib! Yəni “qal, bir evdə, bir süfrə başında, birlikdə

qalib gələk bu dərdə! Bezobraziyeyə birlikdə qalib gələk!..” “Mərd əmim! Uca əmim! Səcdəgahım!..”

Belə bir kədər, dərd içində gur sevincin ardınca boz “Pobeda” pavilyonun qabağında, qoca çinarın qatı kölgəsində dayananda, Müslüm soldan, Sultan sağdan düşüb, taybatay açıq dəmir qapıya yönələndə Səmədlə birlikdə Xızr Abı da ayağa qalxdı.

– Qurban hardadı?! – Sultanın sifəti avazımışdı.

Abı gözlərini tavana qaldırıb:

– Ey sahibim, özün kömək ol! – deyəndən sonra udqundu. – Xoş gəldin, qurbanın olum. Bakıda deyildinmi?! Niyə qayıtdın?!

– Soruşuram Qılınc hardadı?!

– Burdaydı. Kənddə deyəsən nəsə olub, çağırdılar, Qonaqlıya getdi.

– Bəs siz niyə burdasınız?! O xaraba Qonaqlıda elə işlər olur, sizin də bu xarabada iştahanız açılıb?! Əclaflar!

Abı tamam özünü itirdi.

– Sən belə danışmazdın mənnən, qurbanın olum, nə olub?! Desənə!

– Necə nə olub a kişi?.. De görüm adı “falçı” qoyulan Abımız heç nə bilmir?! Dünən şəhərdən göstəriş verilib Əlləzoğluna ki, mülkü yandırmalısan. Qurban eşidib... Dünəndən eşidib. Bəs kitabxananı niyə çıxartmamısınız ordan?!

Abının uzun qolları yavaş-yavaş qalxdı, uzun, kələ-kötür barmaqlarla başını tutub hərəkətsiz qaldı.

– Kitabxana!.. “Vərəsə?!” “Xəzinə?!”

– Hə!.. “Süleyman peyğəmbərin xəzinəsi!..”

– Ay oğul, “Xəzinə”nin bu mülkdə olduğunu sən nə vaxt demisən mən bədbəxtə?!

Sultan duruxdu:

– Qurbana demişdim... Mədəd, mən, Qurban, Məhərrəm, Saşa... Beşimiz bilirdik. Bakıda Saşa dedi mənə ki, evi yandırdılar, yəqin “Xəzinə” də yandı... O bədbəxti Moskvaya istintaqa apardılar. Deyirdi: “Güllələyəcəklər məni”. Onun dalınca getmək əvəzinə bura cumdum. Çünki, yadımdadı, Xudiyev ora-bura çəkirdi. Sənin “Xəzinə”nin orda olduğunu kimsə çatdırmışdı ona. Demək, yanıb?!

– Vay, vay!.. Evdə hər şey külə dönüb, ay oğul!

– Yaxşı, gəlin!

* * *

---

73 “Stalin adına traktor zavodu”.

Hələ maşına minməmişdilər ki, qeyri-adi gurultular eşidib, o səmtə boylandılar: Əmirli mülkü toz-duman içində idi. Evi, daha doğrusu, divarları traktorla uçurub-dağıdırdılar.

Dumanın altından bir qaraltı çıxdı. Qılınc idi. Atı maşının qabağına çapdı və çatıb, maşınla yanaşı sürdü:

– Dünən Əlləzoğluna möhkəm təpindim ki, yandırsan özün də salamət qalmıyacaqsan! Gecəni yatmayıb, qovrulub. O başdan gedib yandırıb. Bu heç... Musibət budu ki, "Vərəsə" divarda, qaya daşlarının arasında, üç qardaşın sirri içində dura-dura bu səhər biz yanğından aralanandan sonra kimsə, bir adam bizim cavanları yığıb ora – "Şüşəli"yə. Traktorçu Mirini, Məmməd Xələf Zalı, ekizləri. Deyib: "Sultan Əmirli göndərib məni. Məhərrəmovam. Məhərrəm Abbasoviç. Alın bu bir paçka yüzlüyü. Yaxşı-yaxşı yeyin-için. Sonra o yanıq divarları uçurun, hamarlayın. Axşamacan daş daşıyın karyerdən. Elə çalışın ki, günü sabah özülü qoyulsun təzə evin, Sultan Əmirli Bakıdan qayıdanda görsün təzəsi tikilir". Budu, Miridən, Məmməd Xələf Zaldan, ekizlərdən eşitdiyim. Məhərrəm deyil, kimsə ayrı adamdı. Öyrəndim sir-sifətini, boybuxununu. Qaşlarının arası bitişik, ağzı yekə. Qızıldiş. Zırpı... Məncə, KeQeBedən-zaddan deyil. Ermənıyə oxşayırdı deyirlər...

– Qurban!.. Qurban!.. Nə çərənnəyirsən?! Qaya daşlara dururmu?! Səlamətdimi "Xəzinə?!"

Qılıncın cavabı Sultanı ildırım kimi vurdu:

– Traktor xıncıb hamısını... daşları da, kitabxananı da.

Səməd qorxu, heyrət içində, əmisinə baxırdı. Maşının arxa oturacağında, Abının yanında Sultan elə əyildi ki, Abıdan da balaca oldu. Xırıltılı, iniltili səslə:

– Kömək elə, a kişi, – dedi, – dərmən kitelin yan cibindədi. Solda.

Müslüm istər-istəməz maşını saxladı. Abı dərməni – həbi çıxarıb verənə qədər Müslüm iri bir Çin termosundan stəkana dəmsiz çay kimi sarımtıl bir şey tökdü.

Sultan stəkanı başına çəkib irəli baxdı.

– Dayandırın, – dedi.

Cavanlar boz "Pobeda"nı görmürdülər.

Gicgahlarında və çənəsinin ucunda ağ tükləri də tozdan bozarmış, his-paslı kombinizonda çox pinti, çirkli bir adam kimi görünən traktorçu Miri ekizlərdən və Məmməd Xələf Zaldan xeyli yaşlı olduğuna görə

yoldaşlarının toz-duman, bürkü içində şit, söyüşlə dolu zarafatlarına qarışmırdı. Gur topa saçlı, alçaraq, enlikürək Məmməd Xələf Zal sınıq-salxaq "paltaratonka" maşınının ayaqlığında dayanıb, rulu-sükanı tək əli ilə, "pedal"ları isə tək ayağı ilə idarə edə-edə maşını qıjıldatdıqca, ikisi də cürəfəsiz, sarı, çil-çil ekizlərin – Tofiqlə Fikrətin divar küncünə bağladıqları "tros" – yoğun məftil divarın olan-qalan hissəsini də dağıtdıqca traktorla maşının gurultularına şaqqıltılı gülüş qarışırdı:

– Dağıldı! Ay Miri, Qıllıya xəbər göndər, arvadının... dağıldı!.. – və sairə, əməlli-başlı sərxoş cavanlar hərzə-hərzə şeylər danışırdılar. Deyilənlər pis eşidilsə də, dörd dövrəyə yığışmış "avara-uvara"lar, yəni işsiz qocalar, uşaq-muşaqlar da gülüşürdülər və yalnız Miri ağır "STZ"[73] traktorunun qabağına bağladığı "buldozer yığanı"nı çox sərt taqqıltı ilə yerə çırpıb, dağılan divarın "ayıbalası" kərpic əzintiləri ilə birlikdə daş parçalarını və qara kitab cildi qırıntılarını yığanlayıb aparıb, Ortayolun çala-çuxurlarına töküb, sərxoşluqdan yarımyumulu gözlərini geniş açıb traktoru camaatın üstünə sürəndə gülüş kəsilirdi.

Nə qədər ki, bu hay-küy, zarafat, gülüş davam edirdi, ayrı-ayrı sözlər Səmədə çatmırdı, çatanda da heç bir təəssürat doğurmurdu.

Eynilə Sultan kimi birdən-birə heydən düşmüş Abı demək olar ki, sürünə-sürünə özünü yetirib traktorun qabağında dikələndə heybətli qışqırtı eşidilidi:

– Saxla! Dala çək, sənin keçmiş keçənini!.. Görmürsənmi nədi bu kürüdüyün?!

Traktoru geri çəkməyə, motoru söndürməyə məcbur eləyib, Mirini söyə-söyə Məmməd Xələf Zalın üstünə yüyürdü. Qan-tər içində birdən elə dirçəlmişdi ki, boynunun qırışları olmasaydı, deyərdin cavan oğlan yüyürürdü.

– O zəhrimarı elə içəmməzdin ki, bir tikə ağıl qalaydı başında?! Bəsdi! Tərpətmə daha! – deyib camaatın üstünə qayıtdı.

– Bu dəliqanlıları tutaq ki, başdan çıxarıblar, gözləri kəllələrində oynayır, bəs siz niyə görmürsünüz bu müqəddəsatı?! – deyib kərpic əzinti-qırıntılarının arasından əski parçası kimi qalın, əzik bir kağız götürüb, ona-buna göstərdi – Müqəddəsatdı deyirəm! – "Tövrat"dı? "İncil"di? "Quran"dı? Xeyr, onlardan əvvəlki, onlardan sonrakı əbədisidi!

Gurultular kəsiləndən sonra camaat gah yerə, gah da Abının əlindəki əski parçası kimi qalın kağıza baxırdı.

Abı o kağızı çırpıb, silib təmizləyə-təmizləyə qışqırır, deyinirdi:

– Şura hökuməti qadağan elədi bu müqəddəsatı, yığışdırdı, yandırdığını yandırdı, yandırmadığını gizlətdi! Mən yaşadığımı yaşamışdım, tutqudan-filandan qorxmadım, ordan-burdan “Quran”, “Hədis” adı altında yığışdırdım sizin bu varidatınızı! Bədbəxt millət! Mədəd rəhmətlik bu mülkü tikdirəndə gecəynən gəldim, pul verdim ustalara, dedim bu müqəddəsatı qoyun bu qaya daşlarının arasına, hörün divara, sədrin heç xəbəri olmasın. Kimdən ötrü eləmişdim mən bunu? Sizdən ötrü eləməmişdimmi?! Sizin müqəddəsatdan xəbərsiz balalarınızdan ötrü saxlamamışdımmı ki, bu gün, Stalin belə-filan gora qoyulandan sonra, Xruşşov xalqa azad nəfəs verəndən sonra çıxardım üzə, deyim gəlin dərs alın, ay balalarım... Xruşşovun da atasına rəhmət oxuyaq!

Abı elə yerli-yataqlı yalan danışdı ki, maşında Sultanın hətta dodağı qaçdı.

– Xudiyev burda olsaydı, əməlli-başlı inanardı ki, əsl kommunistdi bizim Abı, “Xəzinə”nin sahibi də guya elə bu donqar kommunist imiş, bunu güllələsək bəsimizdi!”..

Bir daha gülüb:

– Sür qayıdaq, bala. Neyniyə bilərik daha?! – Məhv eləyiblər “Xəzinə”mizi!

Lakin Müslüm əlini tərpətməmiş yenə Abının qışqırtısı eşidildi:

– Başınıza nə gəlibsə, hamısı bax bu müqəddəsata biganəliyinizdəndi! Tərpənməsin heç kəs! Əl vurmayın! Özüm yığışdıracam hamısını! Səlamət qalanını da, lap xırda-xırda əzik-üzüyünü də, hamısını yığışdıracam! Qolumdan tutanım, sahibim varsa, qoymaz güdaza getməyə!

Bu sonuncu sözlər artıq Sultana ünvanlanmışdı. Odur ki, Sultan: – Dayan, saxla, – dedi. – Görək bir şey qalıbmı?

Abı cibindən iri, yaraşıqlı bir bıçaq çıxartdı, böyük tiyəni açıb köynəyinin yaxasına saldı və sərt cırıltı ilə köynəyini tən ortadan cırdı, çıxarıb yerə sərdi. Tərtəmiz, dümağ can köynəyində, diz çöküb, namaz qılansayağı əyilib, toz-torpağın içində qara cında kimi bir şeyi öpüb, qoşa ovcunda götürdü.

– Cildi qalıb Babək dediyiniz bədbəxtinizin haqqında yazılanın! Sovetin yazıçıları, gorbagor Stalinin alimləri bunun atası EyAğı “yağ satan” eləyiblər, anasının adının əvəzində “qəhbə” yazıblar. O eybəcər böhtanlar ifşa olunurdu burda, cildciyəzi qalıb indi! – Cildi köynəyin üstünə qoydu.

Səməd ancaq indi gördü ki, Abının yerdə öpdüyü cında kimi şey kitab üzü idi, Bircə balanın vaxtilə "revkom kabineti"ndəki nəhəng taxta sandıqlarda və burda – kandarında çəmənotu, qazayağı bitən, tavanında qaranquşlar uçuşan evdə gördüyü daş cildli kitablardan birinin cildi idi, traktorun təkərinin altında xınc-mınc olmuşdu. Xeyli kənardan baxsa da, cildi Səməd dərhal tanıdı. Çünki kandarında çəmənotu, qazayağı bitən, tavanında qaranquşlar uçuşan evin kərpic qırıntılarının arasında belə kömür kimi qara cild başqa cild ola bilməzdi. Abı silib-təmizlədiyi vərəqi köynəyin üstündə sığallayanda, Səməd vərəqi də dərhal tanıdı. Çünki kandarında çəmənotu, qazayağı bitən, tavanında qaranquşlar uçuşan evin yerində bu cür, dörd dövrəsi qızılgüllərlə, sarı bülbüllərlə bəzənmiş, tən ortasında əski əlifba ilə cəmisi on-on beş sətr yazılmış vərəq də başqa vərəq ola bilməzdi. Camaat heyrətlə çaxnaşırdı:

– A kişi, bir adam təki danışsana!.. "Qəhbə" nədi?! Babəkin anasının adına "qəhbə" yazan yazıb, bə bunu kitaba salıb çap eliyən köpəyoğlu nə təhər eliyib ki, səsini çıxardan olmayıb?! Əlini kəsərəm mən elə adamın!..

Abının hönkürtüsü camaatın səs-küyünə qarışdı.

Məmməd Xələf Zalın maşınının dövrəsi, "tros"un süründüyü yerlər, traktorla buldozer yığanının zolaq-zolaq izləri və Ortayolda çala-çuxurlara basılmış kərpic, daş qırıntılarının ara-bərəsi də əzik-üzük, cırıq-cırıq, parça-parça vərəqlərlə dolu idi.

Abı dizin-dizin sürünə-sürünə, vərəqləri ovuclarında sığallaya-sığallaya, can köynəyinin ətəyi ilə silə-silə köynəyin üstünə yığırdı.

Əmma bu iş çox çəkmədi. Növbəti kağız dəstəsini köynəyin üstünə qoyanda, Abı ətrafına baxıb birdən ayağa qalxdı, tarım gərilib sıxılan qarmonun qırışları necə çaxnaşarsa, Abının üzündə qırışlar da elə çaxnaşdı, qırışların arasından tamam başqa – dümağ sifət çıxıb, hətta, yolun qırağında boy-boya verib məyus gözlərlə ona tamaşa edən qəlyanlı qocaları da təəccübləndirdi: üzünün birdən-birə uzanantəhər olması, qırışların açılması Xızr Abının nədənsə dəhşətə gəldiyini göstərirdi.

---

[74] "Şeyx Xorasan" Naxçıvanda, Əlincə çayının qırağında, Xanəgah kəndinin yaxınlığında dəfn edilmiş məşhur "Yarı Pünhanın" – SafAğ Aliminin gizlin adlarından biridir. Müxtəlif adlar altında müxtəlif məkanlarda müxtəlif qiyafələrdə olmaq Ulu Bağ ƏsƏlMənin ("Süleyman"ın, "Solomon"un) həyat təcrübəsindən götürülüb hər yerdə tətbiq edilirdi.

Qəlyanlılar bir-birinə baxıb təşvişlə: – Nə oldu?! Abıya nə oldu belə? – deyəndə Abıdan qışqırtı qopdu:

– Canınıza azar oldu! Niyə kömək eləmirsiniz?! Köynəklərinizi çıxarın, bircə-bircə yığışdırın hamısını! Bərpa eliyərik bacarsaq!

Çürük köynəyini heysiz qollarından zorla çıxarıb yerə sərdi. Sonra qalan qəlyanlılar, hətta "qabırğası qalın", yəni çox ağır tərpənişli sayılan nəhəng gövdəli Təftiş Abbasla özünü heç vaxt "qara işə verməyən" Qılınc da Abının o cür heyrətinə laqeyd qalmayıb, köynəklərini çıxarıb yerə sərdilər. Dörd tərəfdən, camaatdan da tərpənişən olanda Abı onlara da qışqırdı:

– Dedim yaxın gəlməyin siz! Qədrini bilməzsiniz, yığammazsınız siz bu müqəddəsatı!

Qılınca da qışqırdı:

– Dağıt bu avara yığnağını! Rayonun sahibi gəlib qardaşının mülkünü viranə görüb quruyub qalıb. Bəlkə beş-üç kəlmə sözümüz var kişiynən. Gərək elə ağzımızın içinə baxsınlar?!

Qılınc Qurban gözlərini dolandırıb elə təkcə baxışı ilə avaraları dağıdanda sir-sifətdən çıxmış Sultan da, nəhayət maşından düşüb, yaxınlaşıb, taqətsiz əyilib, orda-burda tək-tək az-çox salamət qalmış kitabları, əzik-üzük vərəqləri, cild, kağız qırıntılarını yığışdırmağa başladı. Müslüm də, əlbəttə, dərhal işə girişdi, Məmməd Xələf Zalla ekizlər də.

Tək Səməd, "paltaratonka"nın böyründə, camaatdan xəlvətdə peyda olub biləyindən yapışan hədsiz kök bir qadının dilinin altına düşüb hərəkətsiz qalmışdı.

* * *

Kök qadın illərin uzaqlığında qalmış zərif, gözəl Gülbənizin səsilə danışırdı:

– Oğraş əmin gətirib Gülgəzi, atası evindədi. Bakıya qayıdır genə əmin. Əlləzoğluna deyib: "Özün göz-qulaq ol, qıza hədyan söz deyən-filan olmasın!" Gedək, qurbanın olum! Gedək, kəlmələşin!.. Bu "Xəzinə" batdı. Fikir vermə buna. Gedək!

Səməd biləyini qadının əlindən qoparıb irəli yeriyəndə burda da Abının danlağı altına düşdü:

– Hə, gəl, gəl! Azdan-çoxdan bir şey qoyursanmı indi qabına?! Bax, gör nələrə qabildi Bezobraziye! Şəkkak olmasaydın, dünən orda gözün alacalanmasaydı, bu səhər heç olmasa bu quru divarlara sahib dursaydın, düşmən dağıda bilərdimi bu müqəddəsatı?! Məhəmməd Əmirin, Ağ Əmirin, Boz Əmirin düz on il sərasər gecə-gündüz fədailərə yazdırdıqları, dünyanın özü boyda tariximiz traktorun altında qalardımı?! "Kitabi-Dədə Qorqud"un izahıdır" yazan Pünhanımızın bu nadir incisi belə xıncılardımı?! – Abı səsini qısıb, ağzını Səmədin qulağına tutdu: – Nadanlığıyın bəhrəsidi bax bu! Yığışdır indi, dəli-divanə yaramaz! Bundan sonra da divanəlik eləsən, bu dəfə Sultanın özünü də məhv eliyəcəksən! "Xəzinə"nin dalınca onu da güdaza verəcəksən!

Səməd biləyində hələ də Gülbənizin barmaqlarının təmasını hiss edə-edə ağır-ağır yerə çökdü.

– Mən bilmirdim, Abı... Bilmirdim ki, divarlarda belə şey var...

– Nə?! – qarmon qırışlar yenə açılıb Abının dəhşətini göstərdi. – Nə danışırsan, ey divanə?! Kitabları sən özün, əminnən, Mədədnən, Qurbannan, Cəfərnən bir yerdə, öz əlinnən gətirməmişdinmi Naxçıvandan?!

– Yox... Yooox...

– Necə yox?! Qırx altıncı ildə o tayda hökumətimiz yıxılanda, qırğın xəbərindən sonra Mirqəzəbin əmriynən Persin bu kitabları "Şeyx Xorasan"[74] türbəsindən çıxardıb asfalta tökdüyünü gözlərinnən görmədinmi?!

Səməd toz-torpağın içində oturub, hərəkətsiz qaldı...

## 12

Səmədin xəbəri yoxdu və ola da bilməzdi ki, hələ müharibədən əvvəl, Sultan Əmirli ilə Mədəd Əmirlinin "tərcümeyi-hallarını gizlətdikləri" barədə söz yayıldığı və "şeyx qardaşlarının əleyhinə kompaniya" başlandığı vaxtlar gecənin birində Bakıdan Sultan əminin yanına sadə görkəmli, çopur üzlü, "Müəllim" kliçkalı cavan bir çekist gəlib xəbər veribmiş ki, Mirqəzəbin şəxsən özünün sərəncamı ilə, Gülənovla Sayılovdan və RİK Atamalıdan ibarət "üçlüyün" başçılığı ilə iki qar-

[75] Səhifələrdə "gül", "bülbül" şəkilləri bütün Şərqdə "Elm bilən" ("Alim") rəmzləri kimi işlənirdi; "gül" – "kiƏl" – OdƏl (Həqiqət Əli), "bil-bil" (bülbül) bilən mənasındadır; Klassik ədəbiyyatımızda "gül", "bülbül", "xarı bülbül", "köksünün altı sarı bülbül" (dərdli) ifadələrinin çox işlənməsi bu deyilən səbəbdəndir.

daşın ikisinin də evində axtarış aparılmalıdır; Şeyx Ağ Əmirlə, Şeyx Boz Əmirlə və ümumən o taydakı "Muğanna"larla – UluBağlılarla əlaqələrinə və "Kainat Elmi"nə – SafAğ Elminə aid bircə parça kağız, məktub, şəkil-filan tapılsa, bu da bəsdir ki, qardaşların sinfi mənsubiyyəti təsdiqlənsin; Elmə heç dəxli olmayan təriqətlərə və ümumən köhnə dünyaya aid bircə kitab, əlyazması-filan tapılsa, bu da bəsdir ki, qardaşların siyasi orientasiyası haqqında hökm verilsin. Buna görə də dostları – köhnə çekist yoldaşları və şəxsən "Müəllim" özü Sultan Əmirliyə məsləhət görür ki, özünün və Mədədin evində o taydan nə varsa, hamısını təcili yığışdırıb, əldən-ayaqdan uzaq, etibarlı yerdə gizlətsin və ya yandırıb məhv etsin... Səmədin xəbəri yoxdu və ola da bilməzdi ki, o axtarış ərəfəsində "şeyx qardaşları"nın beş-üç həyanı, sirdaşı varmışsa, o həyan və sirdaşlardan biri də həmən "Müəllim" kliçkalı çopur, uzun adam imiş.

Müharibədən əvvəllər, Sultanın köhnə yoldaşları ilə işlədiyi illərdə "Müəllim" də Xüdiyev dəstəsindən sayılırmış. Əmma Sultana, Mədədə yaxşı məlummuş ki, "Müəllim" "AdıPünhan" "Muğannalar"dandır; Ulu Bağ nəslinin bir qolundan, bütün dövlətlərin – quruluşların dövrlərində açıq fəaliyyətdə olmağı da bacaran məşhur "Ağ Türklər"dəndir və demək, ona inanmaq lazımdır. Məhz bu inama görə də məsləhətə yatıb, elə o gecə, yəni "Müəllim"in gəldiyi gecə ağ daş evdən və Əmirli mülkündən bir maşın dolusu yük yığıb, "əldən-ayaqdan uzaq, etibarlı yerə" göndərmişdi. Dost-tanışlardan ancaq Lüt Cəfərlə Qılınc Qurbanın, bir də ki, "müəllim"in iştirakı ilə baş verən bu hadisələrdən o vaxtkı on yaşlı Bircə balanın yaddaşında bəzi şeylər qalsa da, Səmədin xəbəri yoxdu və ola da bilməzdi ki, o "əldən-ayaqdan uzaq, etibarlı yer" qardaşların vaxtilə gedib-gəldikləri "Şeyx Xorasan türbəsi" adında məqbərə idi; "Quran hürufatının sirrini açdığına görə" "Hürufi" adlandırılan "Şeyx Xorasan"ın gizlin qəbri idi, oraya göndərilən yük isə Ağ Əmirlə Boz Əmirin şəxsi arxivi və "köhnə dünyaya aid" kitabxana idi. "Şeyx Xorasan"ın oradakı qədim kitabxanasına qarışdırılmışdı ki, seçilməsin. İyirmi ikinci ilin yazında, yəni Ağ Əmirlə Boz Əmirin tutulmağı ərəfəsində arxiv, üstünə "İttihadi-İslam" yazılmış iki nəhəng taxta sandıqda Culfa "tamojnasına" – gömrükxanaya gətirilib Sultan Əmirlinin o vaxtkı dostu, sonrakı düşməni Xudiyevə təhvil verilibmiş, bir az sonra isə şeyxlərin Qəsri-Qacar həbsxanasından yazdıqları məktubla birlikdə qardaşların özlərinə təhvil verilibmiş; otuzuncu ilin qışında, yəni Ağ

Əmirlə Boz Əmir öldürüləndən sonra isə kitabxana elə o cür nəhəng sandıqlarda Culfa "tamojnasından" gətirilib, mərhumların şəxsi möhürləri ilə möhürlənmiş vəsiyyət məktubu ilə birlikdlə burada – rayonda yenə qardaşlara təhvil verilibmiş. Bircə bala o sandıqlardan ikisini ağ daş evin sağ küncündə – əmisinin "revkom kabineti"ndə, üçünü isə, kandarında çəmənotu və qazayağı bitən, tavanında qaranquşlar uçuşan mülkdə, baş divardakı tək pəncərənin sağ-solundakı kitab tərəcələrinin sağ-solunda görüb, daş cildli kitabların əski əlifba ilə naxış-naxış, gül, bülbül[75] şəkilli səhifələrini dəfələrlə vərəqləsə də, Səmədin xəbəri yoxdu və ola da bilməzdi ki, Sultan Əmirli ilə Mədəd Əmirlinin "sinfi mənsubiyyəti" və "siyasi orientasiyası" hələ arxivlə kitabxananın "tamojnada" qeydə alındığı vaxtlardan məlummuş. Yəni hələ iyirmi ikinci və otuzuncu illərdən Mirqəzəbin əlində sübuta ehtiyacı olmayan faktlar varmış və Mirqəzəb elə o faktların əsasındaca, axtarışsız-filansız da qardaşların taleyini həll edə bilərmiş.

Bəs niyə həll eləməmişdi?

Səbəb nə idi ki, KQB işçilərinə çox yaxşı məlum olan "İttihadi-İslam" firqəsinin adı sandıqların üstündə, göz qabağındaca dura-dura, yəni Sultan Əmirli hər şeyi açıq saxladığı halda, Mirqəzəb hökmən axtarış aparmağı lazım bilmişdi?

Axtarış əgər "üçlüyün" qərarı üçün, "üçlüyün" qərarı isə həbs üçün lazımmışsa, bəs səbəb nə idi ki, Gülənov arxivlə kitabxananın, üstəlik "tamojnada" təhvil-təslim sənədlərinin yoxa çıxdığını aktlaşdırıb, Sultan Əmirli ilə Mədəd Əmirlini "panislamist ədəbiyyat" gizlətməkdə təqsirləndirəndə Mirqəzəb yenə də işi ləngidib, həmin aktı və Qonaqlı kənd sakini Xalıq Qudalının materialını rayon fəallarının müzakirəsinə verməyi vacib saymışdı?

Əgər rayon fəallarının müzakirəsi, qardaşların haqqında "əfkar-ümumiyyə"nin rəyi də ittihamnamə hazırlamaq üçün lazımmışsa, bəs səbəb nə idi ki, general Pers gəlib rayondan Bakıya məhz belə rəy və ittihamnamə aparandan sonra da Mirqəzəb məsələni qurtarmaq əvəzinə, Persin üstünə əsib-coşub, "sənin işçilərin dövlət təhlükəsizliyi ilə yox, Əmir, Şeyx törəmələrini himayədarlıqla məşğuldular!" – deyib, o "akt"dan, "rəy"dən və "ittihamnamə"dən əlavə "əsaslı ittihamnamə" tələb eləmişdi?

Əgər söhbət doğrudan da "dövlət təhlükəsizliyi"ndən gedirmişsə və Sultan Əmirli ilə Mədəd Əmirli doğrudan da o dərəcədə təhlükəli

sayılırmışlarsa, bəs səbəb nə idi ki, Mirqəzəb qardaşların müharibə illərində tamamilə sərbəst yaşamağına imkan verib, o taya ayaq döyən “rabotniki”nin – Çax-çuxun materillarını düz beş il gözləmişdi, üstəlik, hətta o materiallardan “bir qovluq dolusu əsaslı ittihamnamə” hazırlanandan sonra da qardaşları tutdurmayıb, ancaq “çək-çevir”lə kifayətlənmişdi?

Səbəb nə idi ki, “şeyx qardaşları”nın məsələsi iyirminci illərdən otuzuncu illərə, otuzuncu illərdən qırxıncı illərə qədər uzanıb, ancaq “avariya” günü teleqramda “prekratite bezobraziye” sözləri ilə qurtarmışdı?

Nəhayət, səbəb nə idi ki, teleqramı vuran adamın vəfatından – əlli üçüncü ildən sonra məsələ yenidən qaynayıb, bu dəfə heç bir il də çəkməyib, Mirqəzəbin özünün tutulması ilə nəticələnmişdi?..

Səmədin xəbəri yoxdu ki, bu sualların cavabları heç də ancaq Dzerjinski klubunun səhnəsindəki qovluqlara yox, həm də Dzerjinski klubundan beş yüz kilometr uzaqda, burada – Qonaqlıda Çax-çux Xalıq adlanan “rabotnik”in “sinəsindəki sirlərdə” idi.

* * *

...Sultan Əmirlinin, Qılınc Qurbanın və bütün qəlyanlıların gözünün qabağında Çax-çux Qudalıların həyətindən çıxıb birbaş Əmirli mülkünün yerinə, Səmədin üstünə yeridi.

– Bu xərabəlikdə heç nə qalmayıb, qadası! Əmin də havayı zəhmət çəkir! Dostları da!.. Bu “Xəzinə”nin sirləri Çax-çuxun bu quru sinəsinin altındadı. Sədr Mədədin qatili də məlumdur mənə... Gəlmədin, danışmadım. Bu gün də danışmasam, ola bilər ki, sirrlərin hamısı elə həmişəlik bu sinədə qalar. Yəni mənim özümü də öldürə bilərlər... Məhərrəm Abbasoviçin kitabxanasında “Sirli dastanlar” adında nəhəng bir kitab var. Sənin professorun olub o kişi, mənim isə, bilirsən ki, bacanağımdı. Gedərik, öz əlimnən verərəm sənə o “Sirli dastanlar”ı. Bu dastan “Xəzinə”nin məzmununu elə ordan da bilərsən, yazarsan, söz verirəm sənə ki, birdən-birə elmlər doktoru olarsan. Hə!.. Demək istəyirəm ki, bu “Xəzinə”nin aqibətindən qəmlənmə. Heç!.. Sən başqa həqiqətlər bilməlisən. Qalx, gedək danışım. Qalx! İnan mənə, belə məsləhətdi.

Səməd donuq, dumanlı gözlərlə gah Çax-çuxa baxırdı, gah da əmisinə. Bir şey anlayası halda deyildi.

Abı:

– Get! Qoy danışsın, – deyəndə bunu da başa düşmədi. Yalnız Sultan kənardan-kənara:

– Get! – deyəndə ayılan kimi oldu.

Ayağa qalxıb Çax-çuxun ardınca yeriyəndə də, yöndəmsiz daxmanın qabağında, həmin palıd kötüyünün yanında yenidən Gülbənizlə rastlaşanda, "hədsiz kök qadın"ın atasına anlaşılmaz qəzəblə baxa-baxa:
– Danış, danış! Sonra mən də danışacam! Paxırını açıb göstərəcəm! – dediyini eşidəndə də beyni, bədəni tutqundu, Çax-çuxun çənəsinin işlədiyini görsə də, heç nə dərk eləmirdi.

Əgər Çax-çuxu az-çox diqqətlə dinləsəydi, Səməd elə ilk sözlərdən başa düşərdi ki, trubkanın qətran qoxulu tüstüsü arxasında tez-tez közərən dəyirmi gözləri parlaya-parlaya danışan "rabotnik" bu dəfə daha dəhşətli həqiqətlər açıb "qəsd işi yoxdu" deyən qardaş qatili" adlandırdığı Sultan Əmirlinin cinayətinin üstünə yeni-yeni cinayətlər gətirirdi.

Əgər Çax-çuxu az-çox diqqətlə dinləsəydi, "Müəllim" "kliçka"sından başqa, Səməd, əmisi ilə köhnə çekist yoldaşlarının vaxtilə şərti olaraq "Nəcəfoğlu" təxəllüsü ilə tanıdıqları "məşhur bir marksist filosof"un adını da eşidərdi və bilərdi ki, "rabotnik"in o taya ayaq döydüyü vaxtlar – qırx bir-qırx altıncı illərdə Nəcəfoğlu tez-tez həmin "əldən-ayaqdan uzaq, etibarlı yerə" – Naxçıvanın Əlincə qalası yaxınlığında Nəimi məqbərəsinə gedib, orda "Kainat Elmi"nə aid kitabları oxuyub, əllinci ilin yanvarına qədər – doqquz il sərasər işləyib, "ancaq Kişinin şəxsi icazəsiynən oxunan" bir kitab yazıbmış, o kitaba görə Stalin mükafatı alıb, Elmlər Akademiyasının həqiqi üzvü seçilibmiş, əmma elə o vaxtlar o kitabın ətrafında nə baş veribmişsə, Nəcəfoğlu birdənbirə guşənişinliyə qapılıb, Mərdəkandakı bağından kənara çıxmırmış. Həm cismən, həm də ruhən tamamilə sağlam ikən elə guşənişinmiş ki, ən yaxın dostlarının və hətta Akademiyanın prezidentinin çağırışlarına da getmirmiş. O vaxt – əllinci ilin yanvarında heç kəsin şübhəsi yoxmuş ki, guşənişinlik kitabla əlaqədardır. Çax-çux isə yəqin bilirdi ki, Nəcəfoğlunun hamıdan, hər şeydən üz döndərməyi köhnə əhvalatdır, özü də ancaq sədr Mədədin ölümü ilə və o teleqramla bağlıdır. Köhnə məsləkdaşı Sultan Əmirlinin qardaşının, "Pünhan" – gizlin alim sədr Mədədin "avariya"ya düşdüyündən və teleqramdan xəbər tutanda Nəcəfoğlu dərhal yola düşüb gəlib burda – rayonda teleqramı oxuyub və Xudiyev

[76] "Həyəcan" – "Təbil".

dəstəsi ilə o dəstəyə yaxın adamlardan başqa, hamının ürəyindən olan teleqramda nə görübsə, raykomda – “qardaş qatili”nin kabinetində başını qamarlayıb, “fəlakət, fəlakət” deyə-deyə bütün günü danışıb: “Demək, bu ölüm birbaş Stalinnən sənə bağlıdı?! Belə də fəlakətmi olar?! Demək, səni qəsdən həbs eləmirmişlər ki, istifadə eləsinlər?!” Çax-çux “Müəllim”i şahid gətirib deyirdi ki, Mərdəkana – bağına qayıdanda da Nəcəfoğlu hey “Fəlakət! Fəlakət!” – deyirmiş. Dörd il sonra – əllinci ilin yanvarında Sultan Əmirli alim dostunu görmək üçün Mərdəkana gedəndə məhz sədr Mədədin ölümü və teleqram barədə aralarında nə söhbət olubsa, Nəcəfoğlu yenə başını qarmalayıb, “Fəlakət!” – deyib. Sonra elə bu kəlməni təkrar edə-edə “vanna otağına girib, qapını daldan bağlayıb, ülgüclə venasını kəsib”.

Çax-çux bu ölümü sədr Mədədin ölümündən sonra Sultan Əmirlinin “ikinci cinayəti” sayırdı. Niyə?!

– Biləcəksən, qadası. Birinci cinayətin səbəbini də, ikinci cinayətin səbəbini də biləcəksən – deyirdi. – Səbrnən qulaq as. Səbrnən! Çünki qırx altıncı ilin oktyabrındakı “avariya”ynan əllinci ilin “vena” hadisəsinin əlaqəsini açmaqdan ötrü mən özüm də səbrnən, yerli-yataqlı danışmalıyam. Hə!.. Öldürülən adam beş deyil, on deyil. Milyonlarnan adamın nə vaxt, harda, necə öldürüldüyünü bilməsən, Sultan Əmirlinin qatilliyini dərk eləməzsən! Qulaq as!.. EvƏrEyləri yer üzündən köklü-köməcli silmək planı “Vatikan”da yazılıb. Alman Patriarxına, Gürcüstanda, xəlvəti dərədə yerləşən lap gizlin Georgi kilsəsi mərkəzinə, ermənilərin bütün Qriqoryan kilsələri mərkəzlərində bütün katalikoslara göndərilib. Milliyyəti bu vaxta qədər məlum olmuyan, yalan bioqrafiyaynan ömr sürmüş köpəyoğlunun birisinə – Hitlerə, Qrek Vissarionun oğlu Qrek İosif Stalinə göndərilib. Hə!.. Bax elə o vaxtlar bu planın birinci qurbanı kim olub, səncə? Mustafa Kamal Paşa AtaTürk! Bəli! Hə!.. AtaTürkü öldürəndən sonra bu məhv olan “Xəzinə”dən gizlin dərs alanların siyahısı tutulub. – Xalıq güldü. – Bəzi ağzıgöyçəklər söz yayıblar ki, guya o siyahını mən tutmuşam!.. Hə! Əbləhliyə bax ey! Mən özüm, bütün əslim-nəslim EvƏrEy, EvƏrEy Mustafa Kamalı siyahıya salarammı, qadası?! Hə! Stalinnən Hitler, məhz AtaTürkün qətlindən sonra görüşüblər, Vatikanın planı üzrə, bilərsən yəqin, əvvəlcə İspaniyada başlayıblar qırğını. Özü də necə?! Nəzərə alsan ki, “Alman”, “Nemes”, “Doylid”-filan millətin özünün də kökü indi “Ariy” yazılan ƏrEydəndi, yəni xaliscə EvƏrEydilər, onda gör İspaniyada kimnən kim müharibə eləyirmiş: “Kastil” – OdƏs OdƏl, yəni “İspan” – ƏsEv

OdƏrləri lap xalis EvƏrEylər, bu bir! Rusiyadan səfərbər olunub İspaniyaya göndərilən OdƏs – "Odessa" EvƏrEyləri (yəni qədim "Krım"lılar – OdƏrEvlər), bu "faşist", "nemes" damğasıynan damğalanan bədbəxt ƏrEy OdƏrləri özləri!.. Bildinmi nədi bu qan-qırğın, hardandı? Sonrasına qulaq as!..

Əgər Çax-çuxu az-çox diqqətlə dinləsəydi, "Müəllim", AtaTürk, OdƏs, ƏsEl, ƏrEy OdƏrlərin Nəcəfoğlu adları ilə yanaşı, Səməd əmisinin köhnə yoldaşlarından daha birinin, vaxtilə kəndinin adı ilə Xalxali təxəllüsü ilə tanınıb sonralar Demokrat firqəsinin sədri və Milli hökumətin başçısı kimi məşhurlaşmış daha bir alimin – Mir Cəfər Pişəvərinin adını da eşidərdi və bilərdi ki, qırx bir-qırx beşinci illərdə Cənubda qırx dörd qəzet redaksiyasını "Azadlıq cəbhəsi" təşkilatında birləşdirib, gecəli-gündüzlü çalışdığına baxmayaraq, Xalxali də vaxt tapdıqca bu taydakı həmin "əldən-ayaqdan uzaq, etibarlı yerə" – "Şeyx Xorasan" məqbərəsinə gəlirmiş, ordakı arxivin və "Kainat Elminə aid" kitabların əsasında məqalələr yazırmış, yazdıqlarının bir üzünü Bakıya – Fəlsəfə İnstitutuna – Nəcəfoğluna göndərib, o biri üzünü Təbrizdə özünün buraxdığı "Ajir"[76] qəzetində çap edirmiş... Çax-çux yenə də "Müəllim"i – "Çopur" adlandırdığı çekisti şahid gətirib deyirdi ki, qırx beşinci ilin dekabrında Demokrat firqəsinin qələbəsindən və Milli hökumət qurulandan sonra da Xalxali bu tayda Sultan Əmirli ilə görüşə gəlməyə imkan tapırmış. İşi o qədərmiş ki, iftarı, naharı, şamı da maşında yeyirmiş, yuxusunu da maşında alırmış, əmma firqəsinin məğlubiyyətindən və Milli hökumət yıxılandan sonra Şimali Azərbaycana mühacirətə hazırlaşdığı günlərdə də Xalxali bu tayda Sultan Əmirlinin rayonuna gəlməyə imkan tapırmış. Qırğına məruz qalan mühacirləri xilas eləmək üçün, yenə gecə-gündüz maşından düşməsə də, bəzən hətta güllə yağmuru altında bu taya – Naxçıvana keçib dostu ilə görüşürmüş. "Avariya" günündən sonra – qırx yeddinci ildə də Xalxalinin vəziyyəti bir o qədər yaxşılaşmayıbmış. Əmma "avariya"dan və teleqramdan xəbər tutanda da imkan tapıb, dərhal gəlib teleqramı oxuyub və teleqramda nə görübsə, eynilə Nəcəfoğlu kimi, o da "fəlakət, fəlakət!" – deyib. Və elə bu kəlməni təkrar edə-edə rayondan çıxıb gedəndə hardasa Yevlax səmtində avariyaya düşüb ölüb.

Bu ölümü Çax-çux "bu yazıq, bədbəxt oğlanın atasının", yəni sədr Mədədin və Nəcəfoğlunun ölümündən sonra Sultan Əmirlinin üçüncü cinayəti sayırlı. Niyə?

– Səbr elə. Biləcəksən. Əmin adi qatillərdən deyil.

Söhbətin bu yerində Gülbənizin səsi eşidildi:

– Bəsdi, dədə! Görmürsənmi sözünü eşitmir? Rusiya, Krım, Odessa, İspaniya, Faşist-filan, nə qədər çərən-pərən danışmaq olar, a kişi?! Konkret söz de, sən bu əzizimə! Aydın, konkret! Başa düşsün! Görmürsənmi nə haldadı?! Get burdan!

Çax-çux təəccüblü itaətlə dönüb aralandı.

Badamı gözlərdə anlaşılmaz qəzəbi anlaşılmaz gülgünlük, sonra köyrəklik əvəz etdi.

– Boyuna qurban olum! Bayaq da gördüm, boy-buxunun daha da gözəlləşib. Biləyindən tutdum. Tutduğumu da düz-əməlli bilmədin, sənin dərdini çəkəni əlinin hənirini bilmədin... Hayıf, boynun bükük olub, ay Səməd! Hayıf səndən! Mənə niyə belə boynuburuq baxırsan, yadına nələr düşür, ay Səməd?!

Sözlər nə qədər ürəkdən gəlsə də, Səməd hədsiz köklüklə birgə bu sözlərdə də vulqarlıq duydu. Əmma bu vulqarlıq da birdən-birə dəyişib, yanğıya çevrildi:

– Niyə belə başı bəlalı oldun, ay Səməd?! Yel hayandan əsdi, tufan hardan qopdu, niyə ayırdı səni bizdən, ay canım-ciyərim?! Bu "dədə" dediyim belə-filanın adını "Manyak" qoyublar! Soruşurlar bu Kətyən deyilən kişinin çəpəri niyə belə dağılıb? Kətyənnən çəpəri qalır burda, bu başlayır çərənləməyə ki, bəs bu Kətyənin bir oğlu Fin müharibəsində batdı getdi, o birisi, nə bilim harda!.. Axırda deyirlər, ay Çax-çux, biz səndən Kətyən kişinin çəpərini soruşuruq ki, camaat niyə əl tutmur, sən bizə Finlandiyadan danışırsan!.. Bədbəxtdi də! Elə gün yoxdu ki, bu "dədə" dediyimnən dalaşmıyaq, çırpışmıyaq. Əclafdı! Materyalbazdı, evyıxandı! Sənin bir dırnağını da dəyişmərəm buna. Günsən, Aysan sən! Gündüzlər gün kimi işıq saçardın üstümüzə, gecələr Ay kimi nur çiliyərdin!.. Özün bilirsən, oxuyan deyildim mən. Gözümün altını, üstünü yırtdım, o iki illikdə bircə elə ona görə oxudum ki, sən harda işləsən, mən də sənin yanındaca işləyim, "qardaş" deyim, bacın olum, ömrümün axırınacan qulluğunda durum!.. Ayağıyın kirini içərəm sənin! Xörək yediyin qabın dibini yalıyaram! Özün də bilirsən bunu, bəs niyə uzaq gəzirsən məndən, niyə qapımdan qaçırsan, qurbanın olum?! Niyə bu qədər qəlbiqaralıq eləyirsən, a canım-ciyərim, bu "dədə" dediyim, yəni o qədərmi köpəyoğludu ki, adam öldürsün?! Bu deyil qatil! Bu deyil!.. Sözünü çatdırdımı sənə, bilmirəm... Eşitmişəm, heç özün də

inanmırsan bunun Mədəd əmiyə əl qaldırmağına!.. O günü... O müsibət günü olanları bax bu gözlərimnən görmüşəm. Hə, bə nə! Elə ona görə danlayıram bunu ki, çox danışma, söz de! Hə... Hamıdan qabaq mən eşitdim ki, siqnal səsi gəlir, uşaqlar da Sudüşəndə çığırışırlar, "maşın döndü, maşın döndü" deyirlər.

Camaat bizim həyətdən, o yığnaqdan tərpənəndə də hamıdan qabaq mən tərpəndim, getdim gördüm qızıl-ala qanın içindədi yazıq Mədəd əmi. Bax bunu da mən tapdım ordan...

Gülbəniz əlini irəli uzatdı. Ovcunda at nalı vardı. Çax-çuxun çəki daşı əvəzinə işlətdiyi həmincə qurğuşunlu nal! "Avariya" günü bu daxmanın qabağında, bu palıd kötüyünün üstündən yoxa çıxan həmincə nal!

– Eşidirsənmi, a qurbanın olum? Deyirəm bu nalı mən tapmışam ordan. Maşının yanından... Vuran bunnan vurmuşdu, qanlı-qanlı tullamışdı ora ki, əşyayi-dəlil olsun, dədəmdən görsünlər kişinin ölümünü!.. Fikrin məndədimi? Əvvəlcə mən də elə bilirdim avariyadı. Ağlıya-ağlıya əlimdə tutub, heç baxmırdım da buna. Milis töküləndə də elə əlimdəydi. Bir də gördüm o Zor nəçənnik deyilən, Xaş deyilən Gülənovdu, kağız kimi bir şeyi tutub durub qabağımda, ayağını ayağıma vurur, böyrümü dümsükləyir ki, "Sənnənəm, ay qız! Əlindəkini bura qoy..." Dərd başdan aşanda adamın ağlı da itərmiş. Gözüm baxa-baxa, bilə-bilə ki, bizim naldı bu nal, verdim ona, bükdü götürdü. Sonradan sonraya başa düşdüm ki, dədəmin evini yıxmışam! "Qəsd işi, qəsd işi" deyirdilər. "Nal Xalıqındı", "Qurğuşunlu naldı" deyirdilər. "Nalnan vuran Xalıq özüdüsə, Xalıq niyə bura tullayıb nalı?!" – deyirdilər... Yaranı təzələyirəm, bağışla məni, canım-ciyərim! Məcburam, neyniyim!.. Yeddi il idi bu nal Gülənovun evindəydi... İşin arasına qoymamışdı. Özün bilirsən ki, "zaklyuçeniye"sini ayrı cür yazmışdı. Bunu da aparıb evindəki stolunun siyirməsində saxlayırdı. Yeddi il idi bu nalnan bir yerdə biz hamımız ailəliknən o siyirmədəydik. Guya qohumumuzdu o Gülənov deyilən. Üzünü mürdəşir yusun! Yeddi il idi hər il soğan qabığı kimi soyurdu bizi. Bu "dədə" dediyimin özünün qazancınnan anamın əlinə gələni yığırdıq. Dəmir yol məktəbində sinif vermişdilər mənə. Əmbə bilmirdim maaş nə olan şeydi. Maaşımı da qoyurdum o pulun üstə, aparırdım verirdim Gülənovun arvadı Leyla xanıma, ayağına düşürdüm ki, nalı qaytarsın, qaytarmırdı!.. Belə dümdüz dayandığına baxma bu "dədə" dediyimin, içərisi

[76] "Teleqramı təcili alın ondan!".

yoxdu. Yeyib qurtarıb bağır-övkəsini, yaradı içərisi! Çünki canı Gülənovun siyirməsindəydi, var-dövləti də Leyla xanımın barmaqlarında, biləklərində, boynunda!.. İndi sənə verəcəm bu nalı? Niyə? Qulaq as.

Bu yaz, mayın əvvəlində, bədbəxt Gülgəzin başına o iş gələn günün axşamısı hamımız oturmuşduq burda, anamın həyətində. Bu "dədə" dediyim araq qoymuşdu kötüyün üstə, təkbaşına içirdi, çırtıq çalırdı. "Sultanınkı da buryacanmış", – deyirdi. "Axırı çatdı, dövranı qurtardı", – deyirdi. Qalxdım arağını divara çırpdım. Dedim: "Allahın olsun, vicdanın olsun! Sultan Əmirliynən düşmənsən, biz də bilirik düşmənsən. Bəs cavanlara yazığın gəlmirmi?!" Dedi: "Sultan Əmirlinin özünün öz Bircə balasına yazığı gəlmirsə, qardaşını öz əlinnən əzrayıla verib, ən yaxın dostu Xalxalini – Pişəvərini əzrayıla verib, ən istəkli alimi Nəcəfoğlunu əzrayıla verib, indi də qardaşı oğlunu Bircə balasını da öldürürsə, mənim niyə yazığım gəlməlidi!"

Onda bir şey qanmadım bunun sözlərindən.

Hardan biləydim ki, sənin əmin mənim bu "dədə" dediyimdən də əclafıymış! Hönkür-hönkür ağladığım yerdə, bir də gördüm yenə Gülənovdu, maşınından düşüb dayanıb qabağımda, bu nal da əlində, elə o vaxtkı kimi, yenə ayağını ayağıma vurur, böyrümü dümsükləyir ki, "Sənnənəm, ay qız! Hazırlaş, Bakıya gedəcəksən. Bu nalı aparıb Səmədə verəcəksən, atasının ölümü barədə həqiqəti deyəcəksən".

O vaxtkı kimi, nal əlimdə, qurudum qaldım.

Anam süfrə açdı kötüyün üstə. Bu əclaf öpüşdü Gülənovnan. Demə Mirqəzəb elə onda yerində deyilmiş, dostları da Gülənova xəbər veribmişlər ki, Mirqəzəbnən Persin işləri xarabdı, Sultan Əmirlinin bəxt ulduzu doğur, Gülənovlar, Qudalılar yığışın, başınıza çarə qılın. Bunlar da yığışıb "Şüşəli"də, sonra da ağsaqqallarının dağılmışında qurğu qurubmuşlar, Sultan Əmirlini ləkələmək xatirinə mənim yazıq bacılığımnan sənin məhəbbətinə sui-qəsd düzəldibmişlər. Gülənov "qardaş qatili"ndən danışırdı, mənim bu "dədə" dediyim də ağzından öpürdü onun. Dəli oldum, Səməd! Kötüyün üstə nə varıydı, başlarına çırpdım!.. Əsl dəli mənəm o gündən. Kəndə gələndə gözüm dirənir Xəlvət Rəhimin darvazasına. Elə ki, görürəm yığışdılar, heç olmasa qazanlarını aşırmasam, rahat olmur ürəyim.

Eşit, bax, gözünün içinə deyirəm bunun: dədəm yoxdu mənim!

Anamı atdı getdi professor Məhərrəmovun baldızıynan evləndi, bağışladım. O taya getdi gəldi, "Şeyx Ağ Əmir, Şeyx Boz Əmir" yazdı,

mənim can-ciyərimin atasını çək-çevirə saldı, onu da bağışladım. Çünki Sultan Əmirliyə düşmənçiliknən əlaqədarıydı bunun hamısı. Professornan qohum olmağı da düşmənçiliknən bağlıdı, yazı-pozusu da.

Üzünə deyirəm, evi yandırtdıran da budu!

Bir tərəfdən "Mirqəzəbə qalib gələn Kişini" ağızdolusu tərifləyir, o biri tərəfdən düşmənçiliyini eləyir, dəridən çıxır ki, "qalib gələn Kişi"nin özünə qalib gəlsin. İstədiyini eliyəcək bu. İndiyəcən heç kəs qabağına durammayıb, indən belə də durammıyacaq. Özü pıçıldayıb mənə ki, Məhərrəmovun bacanağına fələk də toxunammaz... Bircə şeyi, bircə əclaflığı bağışlamıram mən, o da Gülgəznən səni də bu düşmənçiliyə qurban eləməkləridi. Ömürlük bağlıdı mənim qapım bunun üzünə! Nə Gülbəniz adında qızı var bu əclafın, nə də Məsim adında kürəkəni! Anama da demişəm, ya bunun ayağını kəssin bu qapıdan, ya da çıxsın getsin Bakıya, zir-zibilini satsın bunun orda. Yanğında, sən quyunun qırağında oturanda axırıncı sözüm belə olub buna.

Atam da sənsən, anam da, Səməd! Gülgəzinə qovuşduracam səni, qurbanın olum! Eşidirsənmi nə deyirəm? Qovuşduracam!.. Dörd aydı Qaraçı gözəliyin məktubunu gəzdirirəm qoynumda. Bu nalnan bir yerdə məktubu da aparmalıydım Bakıya. Ürəyim gəlmədi, qorxdum dərsinə – dövrünə mane olar bəd xəbərlər. Keçən həftə bu əclaf Bakıya gedəndə tapşırdım ki, əgər Səməd eşitməyibsə, sən də açma. Dedim: "Özün də bilirsən, mən də bilirəm ki, Mirqəzəb gedib – arxanız uçub, umudunuzu bu at nalına bağlayıbsınız. Səmədə söz açsan, didərgin düşər. Ya elə Bakıda qalar, ya da çıxar gedər Moskvaya, Leninqrada-zada. Sən elə elə ki, vaqondan düşəndə birbaş bizə gəlsin" – dedim. Çox çalışıb bu əclaf, mümkün olmayıb.

Allah məni öldürsün, müsibət çəkibsən bu iki gündə. Hamısı ondandı ki, həqiqətdən xəbərin yoxdu, canım-ciyərim, o "əmi" dediyin əclafı tanımırsan. Axı, Mədəd əmini doğrudan da "öz əliynən əzrayıla verib! Doğrudan da "sui-qəsd yoxdu" deyib, vəzifədə qalmağın xətrinəcə qanını batırıb qardaşının! Üstəlik də belə bədbəxtlik: Gülgəz!... Dörd aydı nə gecəm var, nə gündüzüm, elə bu barədə fikirləşirəm.

Qulaq as, gör necə olub.

O teleqram Mirqəzəbin üstünə vurulubmuş. Bir üzü də "əmi" dediyin əclafın özünə gəlibmiş. Mirqəzəb əvvəlcə Xudiyevə zəng eləyib, qışqırıb ki, "Teleqrammu nemedlenno otnimite u neqo!"[77] Sonra "əmi" dediyinə zəng eləyib, qışqırıb ki, "Teleqrammu ne oqlaşat i sroçno

vernut liçno mne!”. Sonra da Persnən öz şəxsi mühafizəçisini mindirib hərbi təyyarəyə. Heç yarım saat da keçməyib, Pers tezcə alıb Sultan Əmirlinin başının üstünü. Lüt Cəfərnən Qurbanlının sədri İsgəndər kişi, bir də Tahirlinin sədri Cəbrayıl kişi ordaymışlar. Üçü də oxuyubmuş teleqramı. Pers hamısının dilindən iltizam alıb ki, Sultan Əmirlinin kabinetində oxuduqları sənədin, gördükləri adamların, eşitdikləri sözlərin haqqında heç vaxt heç kəsə heç nə deməyəcəklər. Qol çəkdirib, kağızı qoyub cibinə, naqanını çıxardıb, deyib: “Ya teleqramı ver, ya da həyatından keç”. “Əmi” dediyin deyib: “Məndə deyil. Konvertə qoydum, qardaşıma göndərdim”. Aydındımı, ay Səməd?!

Hey fikirləşirəm ki, teleqramı ordaca qaytarsaydı, bədbəxtlik olardımı?! Özü ölməliykən qardaşını öldürtdürüb. Budu bax həqiqət!

Bu dədə dediyim əclaf indi gizlətmir heç nəyi. Deyir: “Persi həyətdə, yığnağın içində, başında motalpapaq, əynində kürk görəndəcə bildim ki, nəsə olacaq”. Özünü görməməzliyə vurub bu. Guya nə görüb, nə də tanıyıb. Başını sallayıb kişmişini satıb. Persin yanında bir yekəsi də varmış, bu deyir deyəsən mühafizəçisiymiş. Camaata qarışıb kişmiş alıb o “Yekə”. Sonra xəlvətə salıb nalı götürüb, maşın gələndə atılıb minib, işini görüb, əmbə teleqramı tapmayıb Mədəd əminin üstündə. Qardaşını bada verəndən sonra qardaşının tabutunun yanında qəhrəman kimi oxuyub o əmi dediyin əclaf! “Prekratite”-filan!

Eşidirsənmi, qurbanın olum, başa düşürsənmi kimdi əmi dediyin, nəyin hesabına oturub stolda?!

O bədbəxt Qaraçı gözəlin çox şey yazıb məktubunda. Oxuyacaqsan, görəcəksən ki, namussuzluğu da əmiyin özündən düşüb. Yəni o qədərmi içibmiş ki, ayıb olmasın görməyib altındakı kimdi?! Bu dədə dediyimin əl-üzünü yumuram mən. Əmbə istəyirəm biləsən ki, yeddi ildə qatil kimi tanıdığın adam qatil deyil! Qarasına uçduğun, canını qurban dediyin adamdı qatil, a qurbanın olum!.. Eşidirsənmi? Xalıq Məmmədəli oğlu Qudalı deyil sənin düşmənin! Xalıq Qudalının da, sənin də, Gülgəzin də, mənim də bir düşmənimiz var, o da qardaş qatilidi! Eşitdinmi?! Lap hündürdən deyirəm, özü də eşitsin: özüdü qatil! Qardaş qatili!.. Döşündə qızıl ulduz, ayıb olmasın altında dünya gözəli, kefə baxır! Tfu! Tfu!.. Əlini üzündən çək, qurbanın olum, ağlama! Eşitdinmi dediyimi?!

Yox, Səməd eşitmirdi. “Şirin-şıtıq gözəl” ikən vulqar qadına və vulqar qadın ikən belə çoxbilmiş zənənə çevrilən zənənin əlində nala

baxırdı və "qardaş qatili" kəlmələrindən başqa, daha heç nə eşitmirdi. Kirpiklərindən yaş əvəzinə elə bil su axırdı.

Çoxbilmiş zənən "Qurbanın olum, Canım-ciyərim" deyə-deyə əşyayi-dəlil nalı Səmədin kəmərinin altına soxub, hönkürüb kənara çəkildi.

* * *

Sonra yenə Çax-çuxun çənəsi işləməyə, sinədəki sirləri açıb tökməyə başladı:

– Qardaşını necə güdaza verdiyini bildiyin kimi, o böyük adamları necə güdaza verdiyini də yerli-yataqlı, dəlil-sübutnan biləcəksən, qadası – deyirdi.

Əmma Səməd hələ də dinləyəsi halda deyildi.

"Şirin-şıtıq gözəl" ikən vulqar qadına, vulqar qadın ikən dədəsindən də ötə, müəmmalı çoxbilmiş zənən əşyayi-dəlil nalı qoftasının altından çıxarıb irəli uzadanda, bu nal bir parça buza dönüb Səmədin əmgəyinə yapışmışdı. Bu nal ortalıqda ola-ola, Gülənovun ardınca əmisinin də "qəsd işi yoxdu" dediyini xatırlayar-xatırlamaz Səməd əmgəyində əməlli-başlı buz soyuqluğu hiss etdi. Tək bir dəfə, tələbə vaxtı, Yusif kimi gözəl Yusifin dodaqlarının kənarlarında fır, burnunun üstündə qoz əmələ gəldiyini görüb, dostunun "Qozdu Yusifəm, idbar Yusifəm indi" dediyini eşidəndə belə bir şey hiss eləmişdi: əmgəyi birdən-birə buzlaşmışdı. Sarsıntıdanmı? Böyük itki qoxusundanmı? Nədənsə, Yusif kimi gözəl Yusifin doğrudan da İdbar Yusifə çevrildiyini görəndə necə olmuşdusa, nalı Gülbənizin əlində görüb, əmisinin "qəsd işi yoxdu" dediyini xatırlayanda da eləcə oldu: buzun altında beyin gizildəyib, sıxılıb bərkidi, qulaqlarının dalından, peysərindən kürəyinə, çiyinlərinə, qollarına və bütün bədəninə soyuq çimildəşmə yayıldı. Gülbəniz göz yaşı tökə-tökə, "canım-ciyərim" deyə-deyə nalı onun kəmərinin altına keçirəndə isə, bu nal sehirli güzgüyə çevrilib Səmədə bir tabut göstərdi.

Hamanca tabutdu: qapağının hər küncündə bir mismar işıldayırdı...

Yeddi il səkkiz ay bundan əvvəl mismarları Səməd necə aydın görmüşdüsə, indi də eləcə – bütün aydınlığı ilə görürdü və anbaan daha da bərkiyib daşlaşan beynində o dörd mismardan başqa heç nə olmasa da, anlayırdı ki, qırx altıncı ilin dekabrının iyirmi üçündə gördüyü tabutu

---

[78] EvƏrOd təhrifi "Fərhad". Bütün bədii əsərlərdə də "Fərhad"dır.

[79] Yəni "FərOd" (əsli EsƏrEyOd) "Bisütuna" döndərilmiş Bağstan qayalarındakı təhrif. Farsi yazıları çapıb, "su" – SafAğ Elmi çıxarır.

bu gün – əlli dördüncü ilin avqustunun iyirmi beşində eynilə görməyi boş-boşuna deyildi: "avariya" təkrar olunmuşdu!

Məhz təkrar olunmuşdu.

Əmma o avariya ilə bu avariyanın fərqləri də vardı.

Əsas fərq bunda idi ki, tabutdakı meyid indi tək atasının meyidi deyildi. Atası ilə yanaşı meyidin boz kiteli, boz, düzbalaq şalvarı, qara xrom çəkmələri vardı. Pırpız qaşları, açıq qalmış boz-ala gözləri, iri burnu, qalın, sərt dodaqları vardı. O meyid Səmədin yeddi il səkkiz ay və iki gün ərzində bütün günahlarını bağışlaya-bağışlaya, öz ürəyi, öz vicdanı kimi qoruduğu Sultan Əmirli adında möhtəşəm dünyasının meyidi idi; tabutun örtülü qapağının altında, Səməd atasının ancaq partlayıb dağılmış qanlı gicgahını, əmisinin isə, yuxusuz gecələrdə çallaşmış qaşlarının birər-birər tüklərini də görürdü və başa düşürdü ki, hətta qaşlarının tükləri də dilə gəlib min bir fikir söyləyən bu "uca şəxsiyyəti", bu "gözəl insanı", bu "ata hənirli ata əvəzini" heç kəs əvəz edə bilməyəcək.

O "avariya" ilə bu "avariya"nın əsas fərqi bunda idi.

Fərq bir də bunda idi ki, bu dəfə nə teleqram vardı, nə Stalin adı, nə də Stalin adından ikicə kəlmə "Prekratite bezobraziye" deməklə bütün "bezobraziye"lərə son qoyub, hətta ölümün dəhşətini də yuxuya çevirə bilən bir adam vardı. "Prekratite bezobraziye" əvəzinə o adam "Qəsd işi yoxdu", – deyib qardaşına da, qardaşı oğluna da, özünə də xəyanət eləmişdi və elə xəyanətinə görə gözdən düşüb xırdalaşıb, rəzilləşib, nəhayət, ölmüşdü. Elə ləyaqətsiz, elə şərəfsiz ölmüşdü ki, dəfnə, yasa gələn də yoxdu. Tək bir nəfər – Çax-çux Xalıq tabutdakı "uca şəxsiyyət"in ölüsünü də Səməddən almağa gəlmişdi:

– Əsl Bezobraziye öz əmin ola-ola, hansı Bezobraziyedən danışırsan?! – deyirdi.

– Mirqəzəbin yekəsi öz əmin ola-ola, hansı Mirqəzəbdən danışırsan?! – deyirdi.

Fərq, nəhayət, bir də bunda idi ki, beyni nə qədər daşlaşsa da, bu dəfə Səməd boğulmurdu. Gözlərinə qaranlıq çökmürdü. Dünya zülmətə batmırdı. Tabutla, qapağın hər küncündə bir mismarla birgə Səməd,

---

[80] Kitabxananın bir qismini 1964-cü ildə Cənublu elm adamı, Musəvinin Bakıdakı evində gördüm. Məsələ KQB ilə bağlı olduğu üçün sirri açmadım (Muğanna).

[81] Şifrə açan.

qarşısında bir cüt fanarını parıldada-parıldada aramsız ötən Çax-çuxla Gülbənizi görürdü.

Əgər Çax-çuxu az-çox diqqətlə dinləsəydi, "Müəllim"in, Nəcəfoğlunun, Xalxalinin adları ilə yanaşı, Səməd Mirqəzəbin Pers adlandırdığı "rabotnik"in həqiqi adını da eşidərdi və bilərdi ki, qırx bir-qırx beşinci illərdə Pers – general Atakişiyev də həmin "əldən-ayaqdan uzaq, etibarlı yerə" – "Şeyx Xorasan" məqbərəsinə gedirmiş, yol kənarlarında nəzarətçilər qoyub, məqbərəyə girib, arxivdə və kitabxanada nə isə məxfi iş görürmüş, Nəcəfoğlunun, Xalxalinin, ya da onların işçilərindən kiminsə gəlişindən xəbər tutanda isə, məqbərədə hər şeyi əvvəlki qaydaya salıb, çıxıb tezcə uzaqlaşırmış.

Arxivlə kitabxananın o məqbərəyə göndərildiyini Pers hardan, necə öyrənibmiş? Çax-Çux bu barədə bir söz deməsə də, belə çıxırdı ki, hələ "Müəllim"in axtarış xəbəri apardığı gecədən, Mirqəzəb özü də, Perslə birlikdə, hər şeyi bilirmiş; "siyasi mövqeyi yanlış, millətçi" sayılan Nəcəfoğlunun ətrafına toplaşmış alimlərin və çekistlərin təhriki ilə Sultan Əmirlinin evinə gedib "dövlət sirrini açdığına görə" "Müəllimə" töhmət veribmişlər, özünü də fəlsəfə institutunda Nəcəfoğlunun aspirantı və katibi düzəldibmişlər ki, "o millətçinin" o taya – Xalxalinin qəzetinə göndərdiyi məqalələri əvvəlcədən oxuyub təhlükəli fikirləri qeydə alsın və Persə tez-tez məlumat yazıb günahını yusun.

Çax-çuxun fikrincə, bacanağı "Müəllim" – Məhərrəm Abbasoviç elə o "danosçik" alim olduğu vaxtlarında da haqqı nahaqqa verməzmiş, vətəninin, xalqının o tayda milli istiqlaliyyət yolunda çalışan oğullarını qorumaq üçün canından keçməyə hazırmış. Əmma, eyni zamanda, elə indiki kimi ayıq və tədbirli imiş; bir tərəfdən "kəfəni boğazına dolayıb", Mirqəzəblə Persin növbəti "dövlət sirrini" də dostlarına açıb, "Mənim əlimnən Nəcəfoğlunun başını yeyəcəklər", – deyibmiş, o biri tərəfdən,

---

[82] M.C.Bağırov nəzərdə tutulur.

[83] İ.Stalin nəzərdə tutulur.

[84] Stalinin ləğəbi.

[85] Kapitala xidmət.

[86] Lavrenti Beriya – SSRİ Təhlükəsizlik Komissarlığının sədri.

[87] Cənubda "Azərbaycan milli hökuməti" siyasi məqsədlə SSRİ tərəfindən təşkil olunub "Azadlıq cəbhəsi" adlandırılmışdı.

[88] "İkinci cəbhə" – SSRİ-nin o vaxtkı müttəfiqləri tərəfindən Almaniyaya qarşı cəbhə xətti.

[89] Gizlinlik.

dostlarına xidmətini davam etdirmək üçün, Nəcəfoğlunun o taya gön-dərdiyi "Prometey odu" adlı məqaləsində "millətçilik" barədə məlumat yazıb Perslə yaxınlaşıbmış, sonra Xalxalinin o taydan fəlsəfə institutuna "Pişəvəri" imzası ilə göndərdiyi bir əlyazmasında Prometeyi "EvƏrOd[78] Bağday" adlandıra-adlandıra "əfsanəni Bağday həqiqəti" kimi qələmə verib,[79] "milli lovğalığa yuvarlandığını" şəxsən Mirqəzəbə yazıb, beləliklə, Mirqəzəbin özünün də etibarını qazanıbmış və elə bu etibara görə "Müəllim", nəhayət, general Atakişiyevlə – Perslə birlikdə məqbərəyə gedib, ordakı "məxfi işi" öyrənməyə nail olubmuş.

O nə iş imiş?

Elə bir iş imiş ki, indi Mirqəzəblə Persin məhkəmədə müttəhim kürsüsündə oturduqları bir vaxtda da o barədə açıq danışmağa icazə verilmir; iki gün bundan əvvəl bacanağını rayona yola salanda Məhərrəm Abbasoviç köksünü ötürüb, "Heyif, danışmaq olmaz. Dövlət sirridi", – deyib. Odur ki, məhkəmədən beş yüz kilometr uzaqda Çax-çux da Mirqəzəblə Persin əsas cinayəti sayılan o "məxfi iş" barədə açıq söz deməyi lazım bilmir. Əmma Səməd sözdən söz çəkməyi bacaran oğlandır, diqqətlə qulaq assa, özü başa düşər ki, qırx bir-qırx beşinci illər arasında o məqbərədə görülən iş nə iş imiş. Səmədə kömək üçün Çax-çux ancaq bunu deyə bilər ki, iyirmi ikinci ildə İranın siyasi polisi kommunistləri hər yerdə həbsə alıb Qəsri-Qacara göndərəndə, Pişəvərinin təklifi ilə, partiyanın arxivindəki əsas sənədləri, o cümlədən Ənzəlidə, Ərdəbildə, Mazandaranda, Təbrizdə, Xorasanda, Rəştdə, Gilanda və Tehranda "podpolya" ların sənədlərini də Ağ Əmirlə Boz Əmirə etibar edibmişlər. Ağ Əmirlə Boz Əmir də kağızları vaxtilə özlərinin mənsub olduqları "İttihadi-İslam" firqəsinin kağızlarına qatışdırıb, sandıqlara doldurub, "şəxsi arxiv" adı ilə bu taya göndəribmişlər. Otuzuncu ildə şəxsən Stalindən məxfi "depeş" alıb İranda "təhlükəliləri həbs etmək" haqqında siyasi polisə göstəriş verəndə və polis ikinci dəfə kütləvi həbslərə başlayanda isə, yenə də Pişəvərinin təklifi ilə partiyanın Təbrizdəki gizli kitabxanasından ən vacib kitabları seçib. "İttihadi-İslam"ın kitablarına qatışdırıb, mərhum şeyxlərin "vərəsəlik şəhadətnaməsi" ilə birlikdə "Vərəsə kitabxana"[80] adı ilə bu taya göndəribmişlər. Perslə məqbərəyə gedəndə Məhərrəm Abbasoviç dərhal görüb ki, arxivlə kitabxana əslində Demokrat firqəsi zəminində yaradılmış Kommunist Partiyasına məxsusdur; Partiyanın hələ Demokrat adından əvvəl "Hümmət" adı ilə tanındığı vaxtdan rəhbəri olan "Doktor"un – Nərimanovun 1904-cü

ildə öz dəst-xətti ilə yazdığı "Məramnamə"dən başlamış, sonuncu rəhbəri Pişəvərinin "Qızıl sətirlər" adlanan məqalələr məcmuəsi də, bütün şəhərlərdə və vilayətlərdə özəklərin şifrəli ünvanları da, həmin özəklərdə işləyən "Hümmət"çi "kommunist"lərin – gizlin Bağday tarixi öyrənən fədailərin şifrəli siyahıları da ordadır. Sonrakı səfərlərində Pers özü ilə köməkçi "şifrovalşik"[81] aparıb, sandıqda yeddi yüz əlli kitabın hamısını bircə-bircə, səhifə-səhifə zərrəbinlə yoxlamağa başlayanda isə, Məhərrəm Abbasoviç başa düşüb ki, məqbərə həm də təlimat mərkəzidir; otuzuncu ildən qırx birinci ilə qədər, on bir il "Qəsri-Qacar zindanında və sürgündə qalıb buraxılandan sonra Pişəvəri "qayət məxfi" təlimat və tapşırıqlarını "etibarlı yerdə" kitabların səhifələrinə yazırmış, "podpol"yalar da hər şeyi ordan aparırmış. Səməd elə bundan nəticə çıxara bilər ki, general Pers orda nə iş görürmüş. Demokrat partiyası bütün gizlin özək ünvanları ilə birlikdə, Mirqəzəbin ovcunda imiş.

Bu iş elə məxfi aparılırmış ki, "Müəllim"i məqbərəyə apardıqca Pers onu hər dəfə ölümlə hədələyirmiş: "Xatırladıram, bu sirri cəmi üç nəfər bilir. Birinci elə birincidi.[82] İkinci mənəm. Üçüncü sənsən. Dördüncü də var, onun adını çəkənin dili kəsilər![83] Sirr açılsa, bu məqbərəyə ayağı dəyən adamlardan biri də sağ qalmıyacaq", – deyirmiş. "Müəllim" isə yenə "kəfəni boğazına dolayıb", Persin hədələrini dostlarına çatdırıb, dönə-dönə "Ehtiyatlı olun", – deyirmiş. Belə çıxırdı ki, hələ sədr Mədədə sui-qəsddən, Pişəvərinin "avariya"ya düşməyindən, Nəcəfoğlunun venasını kəsməyindən xeyli əvvəllər də təhlükə gözlənirmiş. Bu cür qırğın təhlükəsinə baxmayaraq, Sultan Əmirli məhz o "məxfi işi" açmaq niyyətilə Ali Baş Komandan Stalinə məktubu məktub üstündən yazıb "Müəllim"ə oxuyurmuş. "Müəllim" qəti etiraz eləyib, "Bəlalarımızın hamısı "Bığlı"dan[84] gəlmirmi?! Mirqəzəbnən kəşfiyyatçılarını tutdursan, Bığlı sənin özündən necə istifadə eliyər, bilirsənmi?!" – deyirmiş və Mirqəzəbin indi "za slujeniye kapitalu"[85] ittihamı ilə güllələnmiş "şefinin" – Beriyanın[86] adını çəkməsə də, eyham vururmuş ki, "Böyük arxası olmasa, Mirqəzəb belə iş görməz". Məhz "Müəllim"in qəti etirazlarına görə, qırx iki, qırx üç, qırx dördüncü illərdə yazılan məktubların heç biri göndərilməyib. Əmma "məxfi iş" barədə Ali Baş Komandan Stalinə Bağday tarixinin açılmasının bütün planet üçün xeyirli olması barədə elmi məlumat çatdırıb, Stalinə təsir etmək fikri dostların hamısının fikri imiş. Həm də müharibədən sonraya saxlamağı məqsədəuyğun saymırmışlar. Odur ki, qələbə ərəfəsində – qırx beşinci ilin ya-

zında dostlar məqbərəyə yığışıb qərara gəliblər ki, o iş haqqında Sultan tək bir, geniş, hərtərəfli məktub hazırlasın, "Müəllim"in vasitəsilə Bakıya – Nəcəfoğluna göndərsin, Nəcəfoğlu fəlsəfə institutundan Cənub mətbuatına material aparan çekist dostlarının vasitəsilə Pişəvəriyə göndərsin, Pişəvəri isə məktubu "Azadlıq cəbhəsi"nin[87] konvertinə qoyub, Tehrandan Moskvaya "ikinci cəbhənin"[88] poçtunu daşıyan təyyarə ilə göndərilməyinə nail olsun, həm "konspirasiya"[89] gözlənilsin, həm də Ali Baş Komandan Cənubi Azərbaycanda "Azadlıq hərəkatı"nın ən güclü təşkilatlarından birinin – "Mətbuatın azadlıq cəbhəsi"nin konverti ilə maraqlanıb, raykom katibi Sultan Əmirlinin məktubunu şəxsən oxusun, Bağdayı bərpa etməyin və qədim dünya OdƏrlərinin bütün planet miqyasında birləşdirməyin bütün ölkələr üçün necə xeyirli bir iş olduğunu anlaya bilsə, "Azadlıq hərəkatı"na münasibətini dəyişdirsin.

Necə qərara gəliblərsə, elə də eləyiblər və Sultan Əmirlinin yandırmağa məcbur olduğu əvvəlki məktublarının əksinə, qırx beşinci ilin yazında hazırladığı axırıncı məktub – geniş tarixi məlumat, nəhayət, ünvana gedib və məlumdur ki, qırx altıncı ilin dekabrının iyirmi üçündə haman teleqram gəlib. Əmma "prekratite bezobraziye" sözlərinin kəskinliyinə və bu sözlərin altındakı imzanın qüdrətinə baxmayaraq, Mirqəzəb heç də qamaşmayıb və "Müəllim"i hədələyəndə general Pers necə deyibmişsə, təxminən elə də olub: "məqbərəyə ayağı dəyənlərdən" hərəsi bir yolla dünyadan gedib, "yarımallah Kişiyə" çevrilən "qardaş qatili" salamat qalıb, bir də Məhərrəm Abbasoviç. Çünki "Yarımallah kişi" Sultan, "Bığlı"nın şəxsi müxbirinə çevrilibmiş!

– Bildinmi, ay yazıq "Bircə bala"sı?!

Çax-çuxu diqqətlə dinləsəydi, Səməd bilərdi ki, hələ "Ehtiyatlı olun, ehtiyatlı olun" dediyi vaxtlar "Pünhan" – "Müəllim" – Məhərrəm Abbasoviç Sultan Əmirlinin məktubundan nələr törəyəcəyini, yəni Bığlının qan tökəcəyini qabaqcadan görürmüş və Sultan Əmirlinin özü ilə sədr Mədədə də, Nəcəfoğlu ilə Pişəvəriyə də dönə-dönə xəbərdarlıq eləyib, "Mirqəzəbnən Pers yox, siz cəzalanacaqsınız. Siz cəzalanacaqsınız!" – deyirmiş. Odur ki, "konspirasiya"nı təşkil eləyib, məktubun ünvana yetişəcəyini başa düşən kimi, məktubun ardınca özü də Moskvaya gedib, Mirqəzəblə Persdən gizlin, Rudenkodan əvvəlki SSRİ prokurorunun – tələbə yoldaşının qəbulunda olub, Culfa yolu üstündə, qədim məqbərədə "məxfi işi" bütün təfsilatı ilə danışıbmış və elə orda da – prokurorun kabinetində oturub, hər şeyi rəsmi yazıb, imzalayıb veribmiş. O vaxt-

dan – qırx beşinci ilin yazından qırx altıncı ilin dekabrına qədər Məhərrəm Abbasoviç "fövqəl"adə siyasi iş" üçün SSRİ prokurorluğunun sərəncamında olan kadr kimi, "operativniklər" tərəfindən qorunurmuş və o iş üçün ayrılmış "xüsusi qrup"un köməkçiləri ilə birlikdə gah Cənubi Azərbaycanın müxtəlif şəhərlərinə – Ərdəbilə, Ənzəliyə, Təbrizə, Xorasana, gah da Rəştə, Gilana və Tehrana gedirmiş. Əgər Çax-çuxu diqqətlə dinləsəydi, Səməd bilərdi ki, qırx altıncı ilin dekabrında teleqram gələndən sonra "xüsusi qrup" ləğv olunub, "kapitala xidmətinə görə güllələnən şefin hökmüynən Cənub məsələsi bağlanıb arxivə atılıb", bir də bu "yaxınlarda, Rudenko SSRİ prokuroru təyin ediləndə meydana çıxarılıb. Əmma Məhərrəm Abbasoviç özünü həmişə o "ləğv olunan xüsusi qrup"un üzvü sayırmış, köhnə qrup üzvləri ilə, o cümlədən Rudenko ilə əlaqəsini kəsmirmiş, hətta Azərbaycan tarixinin Sovet dövrünə aid dissertasiya yazıb, tarix elmləri doktoru olub, partiya məktəbi ilə yanaşı, müxtəlif institutlarda mühazirə oxumağa başlayandan sonra da Məhərrəm Abbasoviç həmin "xüsusi qrup"un işini davam etdirib, indi Dzerjinski klubunun səhnəsinə qalaq-qalaq yığılmış qovluqların arasındakı nömrəsiz qovluqda ilk rəsmi yazısını şərh edən əlavə sənədlər toplayırmış. Demə, Bığlının atası kimi tanınan məşhur keşiş "Cuqaşvili" Gürcüstan və Azərbaycan ərazisindəki Qrekləri himayə edən çox varlı Vatikan casusu imiş. "Müəllim" hələ cavanlıqda bu "informasiyanın" izinə düşüb və öyrənib ki, Sovet dövründə bağlanmış sayılan Georgi kilsəsi əməlli-başlı işləyirmiş və keşiş özünü "Dağ qartalı" adlandıran Stalinin başçılığı ilə, Qafqazda zəncirlənmiş, yəni Qreklərlə əhatə olunmuş Prometeyin qanını içmək üçün "qartallardan" – Qreklərdən ibarət "internasionalnıy otryad" düzəldibmiş və "qartallarına, o cümlədən Mirqəzəbə də hər il "Cuqaşvili paketi" – qızıl göndərirmiş. Çax-çuxun sözündən belə çıxırdı ki, bu cür cinayətlərin açılmasında onun – Xalıq Qudalının özünün də əməyi az deyil; aşkarda Mirqəzəbin "rabotniki" kimi tanınsa da, əslində Xalıq öz əziz bacanağının, nadir qabiliyyətli böyük çekist, alim və ictimai xadim Məhərrəmovun "rabotnik"i olub; aşkarda general Persin, podpolkovnik Xudiyevin buyruqlarına getsə də, əslində, Məhərrəm Abbasoviçin tapşırıqları ilə işləyib və indi, nəhayət, açıb deyə bilər ki, təkcə Təbrizə yox, Ərdəbilə, Ənzəliyə, Xorasana da gedib, Milli hökumət qurulanda isə, məhz Məhərrəm Abbasoviçin tapşırığı ilə Mazandarana, Rəştə, Gilana və Tehrana da gedib, hər yerdə Demokratlarla gö-

rüşə-görüşə, Mirqəzəblə Persin "məxfi işi" barədə xəbərdarlıq eləyib: "Bütün ünvanlar, bütün siyahı əllərindədi. Hazır olun, sizi qıracaqlar".

Əgər bu deyilənlərə şəkk-şübhəsi varsa, Səməd "Müəllim"dən – professorunun özündən soruşsun, bilsin və inansın ki, bu "Çax-çux" adlanan adam, "kitayski makentoş", "kitayski fanar, kitayski termos" sata-sata, özü özünəcə "Çax-çux" adı qoyub şəxsiyyətini, mənliyini kiçildib, hətta eşşək kimi yüklənib atın qabağında milisə aparılanda da cınqırını çıxarmayıb. Bütün rayon danışır ki, bu taya gələndən sonra Fağır – Yağır Məmmədəli Sultan Əmirlinin təqiblərinə dözəmməyib özünü quyuya atıb. Quyuya hələ də "iyili quyu" deyilir. Xalıq yalnız Məhərrəmovun xahişinə görə, atası Fağır Hambalın – Yağır Məmmədəlinin şəksiz qatili Sultana toxunmayıb, o qatilin işləri barədə nə Xudiyevə bir kəlmə deyib, nə Persə, nə də Mirqəzəbin özünə; içindən qovrula-qovrula susub, o böyük çekistlə çiyin-çiyinə vətənə xidmət eləyib. İndi o klubda SSRİ prokurorunun yenidən fəaliyyət göstərən "xüsusi qrup"unun üzvləri yəqin ki, birinci sırada oturublar, iyirminci illərdən bu vaxta qədər – otuzca il masqalı qalmış Mirqəzəb adında siyasi cinayətkarı ifşa etdiklərinə görə hamısı qəhrəman sayılır, Çax-çuxun isə, necə deyərlər "it dəftərində" də adı yoxdur. Əmma Çax-çux buna da dözür. Əgər Məhərrəm Abbasoviç hardasa, kiməsə nə isə deyib Qonaqlı kənd sakini Xalıq Qudalının vətənə xidmətini rəsmi qeyd etməyi lazım bilməsə, "Çax-çux" adı və "rabotnik" damğası üstündə qalsa, Çax-çux buna da dözər. Tək bircə şeyə dözməz. O da budur ki, vaxtilə teleqramı stolunun şüşəsinin altına qoyub, yarımallah Kişiyə çevrilən o "qardaş qatili", indi də Mirqəzəbin "qəbrini qazan" qəhrəmanlardan biri kimi, o məktubun surətini şüşəsinin altına qoyub, yenə yarımallah olsun. Srağagün qatarda Çax-çux belə fikirləşmirdi. "Dövranı qurtarıb" – deyirdi. Çünki Gülbənizin həqiqətini Səməd srağagün qatardan düşəndə bilməli idi və elə o gecə qatilin üstünə getməli idi, qatil isə, qardaşı oğlunun qabağında heç olmasa az-çox bəraət qazanmaq üçün Əlləzoğlunun qızını evdən qovub, əxlaq düşgünlüyü barədə söhbətləri öz əli ilə təsdiqləməli idi və bununla da dövranı qurtarmalı idi. Səmədin dünyadan xəbərsizliyi hər şeyi tərsinə döndərdi; o qatil şəhərin mərkəzi küçəsində qardaşoğlu ilə çiyin-çiyinə yeridi! Hətta evinə apardı! Hətta qədəh döyüşdürdü! Kefləndirib, yanına salıb, işıqlı küçədə gəzdirib, yetirməsi ilə dostluğunu nümayiş etdirib, hamının ağzına daş basdı. Səmədin dünyadan xəbərsizliyindən belə istifadə etdi o usta siyasətcil,

qatil! Bu səhər isə sevinə-sevinə, gülə-gülə getdi! Niyə? Çünki Səməd sarıdan beli bağlıdır; əmindir ki, Mirqəzəbə qalib gələn Kişi şöhrətilə qayıdanda hamı səsini içinə salacaq və "avariya" günündən indiyə qədər qardaşı oğluna "Bircə bala" deyə-deyə necə hər şeyi gizlədibsə, bundan sonra da eləcə ört-basdır eləyib, öz yarımallah Kişiliyində qalacaq. Bax, buna dözməz Çax-çux. Heç cür dözməz. Odur ki, "əşyayi-dəlil nal"ı ortalığa çıxarıb ki, "teleqramı qardaşıma göndərdim" deyib qardaş qanına bais olan qatil cəzasız qalmasın! Əlbəttə, nə həqiqəti danışıb "əşyayi-dəlili" Səmədə verən Gülbəniz razı olar ki, Səməd bu nalı silah kimi işlətsin, nə də Çax-çux özü arzu eləyər ki, bu nal bir vaxt Persin əmri ilə sədr Mədədin gicgahını partlatdığı kimi, indi də sədr Mədədin oğlunun qisas hökmü ilə, "qardaş qatili"nin gicgahını partlatsın; Gülənovun darvaza qabağına qoyduğu milisionerlə və sədr Mədədin mauzeri ilə əlaqədar qurğunu Çax-çux ona görə ləğv elədi ki, başına gələn müsibətlərdən sonra Səməd üstəlik də "eşq dəlisi", "əmisi arvadının oynaşı" və "əmisinin qatili" damğaları ilə damğalanıb qazamata düşməsin, partbiletini, gələcəyini itirib, ömürlük bədbəxt qalmasın; əgər ömürlük bədbəxt qalmağını istəmirsə, Səməd sadəcə bir iş görməlidir: bu nalı aparıb o qatilin qabağınaca qoymalıdır. "Danış, əmi. Danış görüm qardaşını necə öldürdün" deməlidir, vəssalam. Bundan başqa heç nə lazım deyil. Niyə? Çünki divin canı şüşədə olan kimi, o siyasətcil qatilin canı da bu "əşyayi-dəlil"dədir: "əşyayi-dəlil" özü onun gözünün içinə deyəcək ki, məktub yazıb Mirqəzəbi ifşa eləməyə çalışanda da tək öz canıyın qeydinə qalıbsan, teleqramı gizlədib, əzrayılı qardaşıyın üstünə göndərəndə də!.. Beləcə ifşa edəcək onu bu nal. Xirtdəyindən yapışıb boğacaq. Hətta Səmədin heç dillənməyib, nalı onun qabağınaca qoymağı da bəsdir ki, nəfəsi kəsilsin, Yağır Məmmədəlinin oğlu ilə birlikdə Səməd də rahatlıq tapsın, düşmənçilik qurbanı olan o zənən də, təhlükə gözləyən Qudalılar da.

"Sinəsindəki sirləri" açıb tökəndən sonra Çax-çux Xalıq Səmədə belə "sadəcə bir iş" təklif etdi.

* * *

Səməd duyurdumu, anlayırdımı ki, "sadəcə bir iş" və "Danış, əmi. Danış görüm qardaşını necə öldürdün" sözləri ilə beyninə toxum səpilir, əmi ilə qardaşoğlunun arasında toqquşmaya zəmin hazırlanırdı? Duyur-

dumu, anlayırdımı ki, qurduğu qurğunu "ləğv elədiyin"dən danışan bu qorxunc qurğu ustası, əslində, heç nəyi ləğv eləməyib, ancaq silahı dəyişdirmişdi – sədr Mədədin mauzerinin əvəzinə "əşyayi-dəlil nalı" qoymuşdu ki, lap tezliklə, hadisə yerində bu "silah" "eşq dəlisi"nin, "əmi qatili"nin əlinin izi ilə birlikdə "ortalığa çıxsın". Yox, Səməd, əlbəttə, nə duyurdu, nə də anlayırdı; əmisini onsuz da tabutda görən və bu ölümdən özü də dirigözlü ölüyə çevrilən adam nə duya bilərdi, nə anlaya bilərdi?!

**13**

Toz-torpaq içində son kağız qırıntılarına qədər yığandan sonra Qılınc, Təftiş, Kətyən koması çağrılan başıaşağı, səssiz-ünsüz qəlyanlı ilə elə ona oxşayan Möhsün kişi, hamıdan axırda isə, bir-iki saatda yüz il də qocalmış kimi ikiqat Abı, arası dolu, ağır köynəklərini aparıb, Müslümün açıb təmizlədiyi "baqajnik"ə – yükyerinə, oturacaqların "sideniye"lərin aralarına doldurdular. Sultan necə hiddətli və yarımcan gəlmişdisə, eləcə də yarımcan, xarabalığın qırağında, quyunun dikdirində oturub hərəkətsiz qalmışdı. Bayaqdan bəri azı beş-altı dəfə öz-özünə: – Kimin işidi?! Kimin işidi?! – deyə-deyə Qılıncı çağırıb sorğu-suala tutmuşdu: "Mədəd divardan kitab çıxarmamışdı ki? Bəlkə çıxarıb, görüblər?..", "Mən Müslümü çox sədaqətli sayıram, sən necə?", "Bəlkə, deyirəm Bakıdan təcrübəli adamlar çağıraq, elə Xalıqın özünü istintaqa çəksinlər?", "Vərəsə"nin bu qədər gizli yerini bilən adamı tapmalıyıq, ya yox?!" və sairə.

Xarabalıqda heç kəs hiss eləmirdi ki, Sultanın bir gözü Badsəbanın daxması tərəfdə tək dirək kimi duran Bircə balada idi, Səmədin gözü də əmisində idi.

Yalnız əmisi xırıltı ilə: – Yaxın gəl! – deyəndən sonra Səməd yaxın getdi və yalnız indi gördü ki, əmisi də eynilə Abı kimi büzüşüb, elə bil həyatdan əlini üzmüşdü.

– Nalı niyə götürdün?!

Sual nə qədər gözlənilməz olsa da, Səməd o an başa düşdü ki, əmisi düşmənin niyyətini duyub və məhz duyduğuna görə də sözünü naldan başladı.

Gizlətmə! Açıq de! O gecəki kimi, mərd danış!

Səməddə də hey qalmamışdı.

– "Əşyayi-dəlil" deyirlər onlar bu nala... Gülbəniz kəmərimə sancdı, mane olmadım... qaytarmadım.

– Niyə?!

– Olub.

– Çax-çux bunu Sultan Əmirlinin birinci cinayəti adlandırdı.

– Düz deyir. Cinayətdi.

Səməd tir-tir əsdi.

– Əmi! Mən yaşamaram bundan sonra. Sən... sən necə yaşamısan?!

– Qulaq as... – Sultan inildəyirdi. – O il... Qırx altıncı ildə Rusiya ermənilərinin, Suriya ermənilərinin, Türkiyə, Qresiya ermənilərinin... qısası, bütün planet ermənilərinin birbaşa Roma papasına bağlı Katalikoslara, Sovetlər İttifaqı Kommunist partiyasının bilavasitə köməyiynən beynəlxalq nüfuzlu qərar çıxartdırıblar Vaşinqtonda. Əslində Vaşinqtonun yox, Vatikanın əməlidi o qərar. "Genosid" – milli qırğın deyirlər. Guya Türk Ermənini qırır... İşin kökünü bilməlisən sən. Dünənin – srağagünün işi deyil bu. Qresiyada, Rimdə illərlə yox, əsrlərlə düşünülmüş plandı. Eramızın onuncu əsrinin axırına qədər indiki Rusiya, Ukrayna, Belorusiya, Bolqarıstan, Gürcüstan ərazilərini xristianlaşdırandan sonra, indiki Türkiyə ərazisində Ərzİncan – "Yerzincan" deyilən yerə bir dəstə Hay sürüblər. Daha, doğrusu, köçürdüblər. Bu niyyətnən ki, Türkiyə müharibəyə cəlb olunanda Hay arxadan vursun. Eşidirsənmi?.. Əmiyin cinayətinin tarixini danışıram. Diqqət yetir: hardadı indiki "Ermənistan SSR?" Yerində deyil. Bunu lap asta-asta eləyib Vatikan. Ərzincandan, bir az da bizim Cənubumuzdan yavaş-yavaş sürüşdürüb bu yana, "Hay" olub ƏrMəni. Bizim torpağın adıynan ey!.. Nəticə nə olub? Erməni girib türk ərazilərinin ortasına. Vatikan başlayıb Ermənini silahlandırmağa. Rusun, İngilisin əliynən. Qalanını az-çox bilirsən. Min doqquz yüz beşinci ildən bu vaxta qədər, fasilələrnən qanımızı su yerinə axıdıblar. Həyasızlaşdılar, başladılar xaricdən Ermənini köçürməyə buraya – içərimizə. Bakı doldu Erməni milyonerləriynən, İngilisnən əl-ələ, nefti aldılar ələ. Gəncə, Şamaxı, Şəmkir, Qazax, hər yerdə Erməni! "KPSS – "Domokl qılıncı" durub başımızın üstə, hünərin var səsini çıxart, etiraz elə. Əksinə! "Qardaş oldu Hayestan – Aaazərbaycan!.." Bir yandan sür, qır, o biri yandan müğənnilərimizə hər gün oxutdur: "Qardaş olub..." Belə şeyləri də bilirsən az-çox. Bilmədiyini bil indi. Xeyirxah adamlar o dediyim "genosid" qərarının, katolikosların məktublarının, bu barədə nə varsa, hamısını surətlərini çıxardıb göndərirdilər mənə: SafAğ Varisinə!.. Bütün materiallardan lap aydın görünürdü ki, plan çoxillik müharibələr üçündü, Türkü Yer üzündən silmək,

Xəzərnən Qaradəniz arası ərazidə “Velikaya Armeniya” dövləti yaratmaq, neftimizi, varidatımızı sağa-sola axıdıb qızıl yığmaq, nəhəng ordu, böyük hərbi texnika yaratmaq, bütün planeti inək kimi sağmaq... Mirqəzəb dörd yüz kommunisti – Türkü – SafAğı bir gecəyə güllələtdi. Başladılar orda-burda Muğannaların – UluBağların “Pünhan”larını beşbir, üçbir dənləməyə ki, belə böyük fatehlik planından baş açan qalmasın. Hər gecə Gürcüstana qaçırdım, Pünhan “Aşıq”larımızı təhlükə zonalarına göndərirdim ki, toy-şan bəhanəsiynən gəzib-dolanıb xəbərdarlıq eləsinlər, düşmənin qeydiyyatına düşmənlərimizi – “üzdə olan”larımızı Naxçıvana, Muğana, Lerikə, Yardımlıya göndərib gizlətsinlər... Mirqəzəbə kim çatdırmışdı bu işi? Bilmirəm. Yerevannan, sonra da Moskvaynan, Stalinnən Mikoyannan danışmışdı Mirqəzəb. Tək o teleqramı yox, surətləri mənə göndərilən məktubları tələb eləyirdi: “Anastas İvanoviç Mikoyannan ayaq-ayağa durmusan sən!” – deyirdi. “Erməni xalqına qarşı siyasi fəaliyyətə girişmisən!” – deyirdi. “İşini dayandır! Məktubların hamısını ver Xudiyevə, özün də izahat yaz mənim adıma ki, “xalqları bir-birinə düşmən eliyən siyasi avantüristlərin toruna düşmüşəm” və sairə, hər gün azı yarım saat qışqırırdı telefonda. Qısası, öldürülməliydim mən, oğul. Mədəd yox, mən öldürülməliydim ki, Eçmiədzin Katolikosuynan Suriya Katolikosunun antitürk yazışmalarıynan başlanan dəhşətin üstü açılmasın. Bildinmi niyə demişəm konvertə qoydum, qardaşıma göndərdim?! “Güdaza vermişəm” demirəm mən, qardaşımı xalqıma qurban vermişəm deyirəm!.. İnsanın yalnız özü üçün, yəni sırf subyektiv hissləri ilə yaşaya-yaşaya xoşbəxt olması mümkün deyil. İnsan uzunqulaq deyil ki, yoncalığa buraxasan, yeyə, doya, şıllaq ata! Katolikoslarının açıq-saçıq həyasızlıqnan yazdıqları “Türkə ölüm” məktublarıynan bir yerdə öz tarixi bədbəxtliklərimizi sübut edən tədqiqi yazılarımız Mirqəzəbin, Stalinin dırnağına keçirsəydim, mən bütün xalqı öz əlimnən məhv eləmiş olurdum. Bildin?!. İnsan yalanlar, iftiralar qurbanıdı, oğul! Xoşbəxtliyin yalnız həqiqətdə olduğunu bütün bəşəriyyət dərk eləməsə, mənim və ya bir başqa fərdin xoşbəxtliyi mümkün deyil! – Atan yaxşı bilirdi bunu. Zəng vurdum, dedim “teleqram” kəlməsi altında Katolikosların məktubları və bizim bəşəriyyətə müraciətnən yazdığımız tarix, həqiqət nəzərdə tutulur. Alsalar, şübhəsiz, ikimizi də götürəcəklər. Varisi təcili gətir, vəsiyyətimi eliyim...” Təsadüf elə gətirib ki, sən özün getmisən onun kabinetinə, səni mənim yanıma gətirməyib. Maşında tək oturub sürüb birbaş Badsəbanın daxmasının

qabağına, vurub kötüyü aşırıb, özü şərait yaradıb ki, nal işə düşsün... Kimdi qatil? Bu başqa söhbətdi, heç kəsi taqsırlandırma! Heç kəsi! Mədəd Əmirli söhbəti deyil bu söhbət. Dünyamızın özü qədər böyük məsələdi bu. Vaxtı çatanda o barədə geniş danışmalıyam mən sənnən. İndi, bu vəziyyətində görmək istəmirəm səni! Pişəvərinin ölümü də xalqımızın taleyi ilə bağlıdı! Nəcəfoğlunun ölümü də! Əgər aramızda az-çox münasibət qalsa, o dəhşətli hadisələrin necə olduğunu da danışaram. Hələlik mənim deyilsən sən! Get hara istəyirsən! Neyləmək istəyirsən, elə! Nal hər şeyi həll eliyər, xoşbəxtliyə çatdırar səni! Qurtardıq!.. Nə vaxt hiss eləsən ki, sədr Mədədə, Sultan Əmirliyə layiq oğul olmaq arzusundasan, onda gəl, danışaq. Yoxsa... belə olmaz!.. Dayanmısan qənşərimdə, gözünü zilləmisən üzümə: "qardaşını güdaza vermisən!.." Qurban verməknən güdaza verməyin fərqini dərk eliyəndə gələrsən! Dərk eləməsən gəlmə!

* * *

Necə hiddətli və yarımcan gəlmişdisə, Sultan, eləcə də hiddətli və yarımcan, qardaşı oğlunun üzünə baxmadan, "çay" təkliflərini eşitmədən, yeməz-içməz, Bakıya qayıtdı. Səməd isə Qurban əminin dediyi kimi, "təhkimçiliyində qaldı". Gecəni harda gecələdiyini, yuxusunun necə ərşə çəkildiyini, nə yeyib nə içdiyini bilmədən, kolxozun sədri Rəhim Qudalının, briqadir Qıllı Qeybalının deyib-danışdıqlarını eşitmədən, idarədə oldu, çöllərdə, manqaların düşərgələrində gəzdi. Yalnız bir sarsıntını, Sultan Əmirlidən, Xızr Abıdan, Qılınc Qurbandan başlamış Kətyən kişiyə qədər, hamını bədbəxt eləmiş "Vərəsə" faciəsinin ağırlığını yavaş-yavaş aydın hiss etməyə, duymağa başlayırdı, haralardasa dolanıb qayıdıb Abını yenə xarabalıqda görəndə daha ondan ayrıla bilmirdi. Sədr Mədədin ərköyünü heç də ərköyün yox, dünyadan xəbərsiz heyvanmış! Üç qardaşın bir balası heç də Bircə bala yox, uzunqulaqmış! O uzunqulaq daş cildli kitabları vərəqləyib güllü, bülbüllü miniatürlərə tamaşa eləsə də, "əski əlifbaynan yazılanları" "köhnə dünyanın zir-zibili" bilib, nəinki kitabların həm ağ binada "revkom kabineti"ndən, həm də Əmirli mülkündən yoxa çıxmağı ilə maraqlanmırmış, hətta "bizimkilərin topa tutulduğunu", "Milli hökumətin yıxıldığını" da vecinə almayıb, sürgünlərdən, qırğınlardan üzülən əmisinin əzabların-

dan xəbərsiz, kəndin ara-bərəsində anqıra-anqıra, şıllaq ata-ata gəzirmiş! Anqırmaqdan, şıllaq atmaqdan yorulub, acıb, təntiyib qayıdanda isə, əlinə keçəni ağzına təpişdirib daş əzələləri ilə fəxr edə-edə, çarpayısında səvərib, fədailərin qırılmağından, atası ilə əmisinin yasa batdığından xəbərsiz yekə başını nazbalınca basıb, çox yeməkdən tısqıra-tısqıra köpürmüş! Ancaq yeddi il səkkiz aydan sonra "şeyxlərin varidatı"nın xarabalığında hələ də dizin-dizin sürünən, sifəti gah dümağ ağaran, gah qapqara qaralan qocanın sözündən bilirdi ki, demə, hələ "bizimkilər topa tutulan gecə" – qırx altıncı ilin dekabrın on ikisində Mirqəzəb Persi Culfaya, Təbrizdən və bütün Cənubdan qaçanlarımızın qabağına göndərib əmr veribmiş ki, qayıdanbaş "Şeyx Xorasan" məqbərəsindən Demokrat firqəsinin arxivi ilə kitabxananı Bakıya aparsın. "Çarvadarlar" adlanan agentlər dəstəsindən başqa Məhərrəm Abbasoviç də Persin dəstəsində imiş. Culfadan Sultan Əmirliyə zəng vurublar ki, farsca, ərəbcə bilən bir köməkçi tapıb, təcili gedib məqbərədə otursun, üstündə şeyxlərin şəxsi möhürü olan "Vərəsə kitabxananı" partiya kitabxanasından və "Şeyx Xorasandan" iri bir daş sandıq dolusu kitabxanasından ayırsın, ərizə yazıb Persdən rəsmi icazə alıb, "Vərəsə"ni aparsın. Demə, Sultan əmi elə o gecə – dekabrın on ikisində Abını da götürüb gedibmiş. Kitabları seçib, sandıqlara doldurub hazır qoyubmuşlar ki, Pers öz adamları ilə məqbərəyə gələndə icazə alsınlar. Əmma Pers nəinki icazə verməyib, üstəlik, məqbərənin qapısından dəmir qopardıb o dəmirlə, sandıqları sındırıb-dağıdıb, "SafAğ Elmi" əvəzində "şeyxlərin dini, mövhumatı" – deyə-deyə "Vərəsə"ni "Şeyx Xorasan"ın qəbrinin yanındakı sandıqda saxlanan kitabxanaya qatışdırıb, sonra da əmr verib ki, "Bu ilan zəhərini çıxardın, mühacirləri daşıyan maşın kalonun altına tökün! Cibində partbilet gəzdirən şeyx törəməsinin özüynən bir yerdə mühacirlər də indidən bilsinlər ki, belə şeylərdə güzəşt yoxdu!"

Demə, kitablar asfalta töküləndə Sultan əmi elə ordaca "çıraq kimi sönübmüş", Abı "Emadin"də onun "Ölüsünü gətirib", rayonda "möcüzəynən dirildibmiş". Uzunqulaq isə heç nə eşitməyib, heç nə görməyib, anqırmağında, şıllaq atmağında, köpməyində imiş! Yeddi il səkkiz aydan sonra, indicə görürdü ki, "avariya" gününə cəmisi üç gün qalana qədər anqırmışdı, şıllaq atmışdı, köpmüşdü!

* * *

“Avariya” gününə üç gün qalmış – dekabrın iyirmisində səhərin ala-toranında atasının “Villis”indən başqa həyətdə iki yük maşını görüb, sədr Mədədin özünün, Qurban əmi Qılınc Qurbanın və Cəfər əmi Lüt Cəfərin, yəni kəndin üç rəhbər işçisinin üçünün də Naxçıvana “göy duz” gətirməyə getmək niyyətinə düşdüklərini eşidəndə az-maz şübhə də eləmədi ki, ilin bu çağında, fermalarda bir kilo yağ çalxanmadığı, bir baş pendir mayalanmadığı, malın, qoyunun duza ehtiyacı olmadığı bir vaxtda duz dalınca Naxçıvana getməzlər. Getsələr də, üç rəhbər işçinin üçü də birdən getməz. Dəliqanlı başında başqa fikir oynadı: üçü də birdən hazırlaşıbsa, deməli, kefə gedirlər. Pambıq yox, bostan yox, taxıl səpilib, fermalara ot daşınıb, kahaların, töylələrin yırtığı-söküyü tutulub. Qalan bir dondurma şumudur, onun da təkcə Miri öhdəsindən gələcək, öküz, kəl haylamağa, kotan qoşmağa da ehtiyac qalmayacaq. Belə arxayınlıqda duz, əlbəttə, bəhanədir; müharibədən qabaqkı kef-damaqlı çağları yada salıblar bu həriflər, sözləşiblər ki, “Naxçıvan diviziyası” adında, müharibənin ən şiddətli vaxtı büsbütün qırılmış “diviziyada qırılan oğlanlar” hər il yazbaşı qalaq-qalaq yuxa bişirtdirib, əməkgününə düşən ətlik heyvandan burmabuynuz erkəklər seçib, Seyid kişidən adama bir “çetvert” çaxır gətirdib, arabaları qoşub “göy duz səfərinə” çıxanda həm gedənbaş, həm də gələnbaş yollarda kefə baxdıqları kimi, bunlar da bir-iki gün o cür eləsinlər.

Belə şeydən qalmaq olar?

Çarpayıdan atılıb geyindi, qara xrom çəkməsini ayaqlarına çəkib, qara dəri paltosunu qoltuğuna vurdu. “Mən də gedirəm!” – dedi.

Hətta “Villis”lə iki yük maşınından başqa “Emadin”i də həyətdə görüb, əmisinin papirosu papirosun oduna yandıra-yandıra, cod, xırıltılı səslə “hə, gedirəm” dediyini eşidəndə də heç nədən şübhələnməyib, “kef” havasını başından çıxartmadı.

Rayonun ərazisindən uzaqlaşıb, hardasa Yevlax səmtində “aşxana” görər-görməz maşından yerə atıldı. “Siz əl-üzünüzü yuyun, qırışığınız açılsın, yuxunuz dağılsın, bu Koroğlu dəlisi özü hər şeyi təşkil eliyəcək!” deyib aşxanaya cumdu.

Aşxananın müdiri əli təsbehli, ağır bir kişi idi. Qara xrom çəkmələrini cırıldada-cırıldada, qara dəri paltosunu xışıldada-xışıldada üstünə yeriyən yelli oğlana gözucu baxıb, yerindən də tərpənmədi. Əmma yelli

oğlan çox hay-küylü idi. “Azərbaycanın ən məşhur dörd nəfər adamı qonaq gəlib sizə! Qaçaq-quldur qənimi Qılınc Qurban! Sosialist Əməyi qəhrəmanı Sultan Əmirli! İlk bedkom sədri sədr Mədəd və ilk özək katibi Lüt Cəfər!” – deyib Qonaqlı yeniyetmələrinin doğrudan da “Azərbaycanın ən məşhur adamları” kimi tanıdıqları “dörd nəfər”in ad-sanı ilə o ağır kişini tərpədib, bufetdəki qara “buxanka” çörəkdən, “qallandski sır”dan və “pikuli” adında zay turşudan başqa, Kür balığı, gürcü çaxırı tapdırıb “kefcil hərifləri” içəri çağırdı. Qələbə günü Seyid kişinin şərabı dilinə dəyəndən bəri “böyüklərin məclislərinin yaraşığına” çevrilmiş Koroğlu dəlisini tamada seçib, “dörd qardaşın dördünün də bir yerdə sağlığına tost” dedi. “Bülbül olun, qəfəsdə olmayın”, – dedi. Bədbəxtlərin qəfəsdən də betər bədbəxtlik içində sıxıntısını hiss etmədən, nərildəyib-guruldayıb, hər birinin ayrılıqda, axırda da “dörd qardaşın bir balası tamadanın sağlığına tost” dedi. O “kef”dən başı ayılmamış, bir də hardasa yol qırağında əhənglə ağardılmış alçaq bir daxmanın qabağında “piti” kəlməsi oxuyanda maşından atılıb, piti ilə tut arağı “təşkil elədi”. Dəmlənib, köyrəlib, “Siz məni necə istəyirsiniz, bu qocaman təbiət də elə istəsin sizi!” – dedi. “Hər övladın bir atası var, mənim dörd atam, dörd arxam var!” – dedi. “Dörd ata”dan birincisinin – “Ədalət mücəssəməsi”nin xətri üçün Maksim Qorkinin “Fırtına quşu” şerini oxudu, ikincisinin – “şan-şöhrətli partiya xadimi”nin xətri üçün Səməd Vurğunun “Rəhbərə salam” şerini oxudu, üçüncüsünün – susqun, qəm-qüssəli Lütün xətri üçün Koroğlunun “Şad ol, könlüm, nə məlulsan” mahnısını, dördüncüsünün – sədr Mədədin xətri üçün isə sədr Mədədin özünün mahnısını oxudu: “Sən haralısan, haralı, durnam? Ovçu əlindən yaralı durnam. Yar-yoldaşından aralı durnam. Həm buralı, həm oralı durnam”. Gör bir, yazıq kişiyə necə kef verirmiş!.. Yeddi il səkkiz aydan sonra indicə görürdü ki, mahnı qurtaranda Cəfər əminin dodaqları titrədi, gözləri doldu. Sədr Mədəd üzünü bir tərəfə tutub yaylığını çıxartdı. Sultan əmi üzünü o biri tərəfə tutub inildədi. Hətta Qurban əmi də qəhərlənən kimi oldu və açıq-aşkar qəzəblə ayağa qalxıb, “Kef qurtardı!” – dedi. “Müslüm səni qaytaracaq burdan. Naxçıvanda bizim işimiz çoxdu. Sən dərsdən qalma”, – dedi. Uzunqulaq onda da qanmadı ki, səfər duz səfəri deyil. “Hara qurtarır?! Kef təzə başlanır! Koroğlu dəlisi hələ təzə qızışır! Dərsdən-zaddan nigaran qalma. Bir həftənin dərslərini bir gecəyə hazırlıyaram!” – deyib özünü “Emadin”ə basdı.

Dal oturacaqda qalın, sarı kürk vardı. Qış aylarında kürk həmişə orda olurdu.

Sultan əmi Müslümün yanında oturub, başını döndərib, məzlum-məzlum "Qayıt, qurbanın olum" deyəndə ərköyün qanmaz, əmisinin kədərindən də bir şey qanmadı, Sultan Əmirliyə qırx ikinci ildə verilmiş "komandir kürkü"nü çiyninə salıb, özünü dartıb əlini irəli uzatdı: "Vperyod! Tolko vperyod! Yalnız irəli!"

Kürkün arasında xumarlanıb, mürgüləyib, oyananda yenə "Vperyod" deyə-deyə, quzeylərinə qar çilənmiş təpələrə, quroydan ağarmış qanqallara və sarı, qızılı, çəhrayı çalan qəribə dağlara tamaşa edə-edə axşama qədər yol gedib, dağ aşırımına oxşayan hündür bir yerdə soyuq külək vıyıltısı ilə "Emadin"in içinə uğultu salan güclü yağış şappıltısını eşidənə qədər kef həvəsindən düşmədi. Vıyıltıdan, şappıltıdan, uğultudan bezikib, həvəsdən düşəndən sonra isə, div yuxusuna gedib, bir də o vaxt oyandı ki, yay gecələrində Qonaqlının qəbristanından o yandakı qarğıdalı sahələrində xorultu qoparan qaban sürülərinin xorta-xortu dünyanı götürmüşdü. "Emadin"in şüşəsindən içəriyə güclü işıq vurub, başı şişmiş, gözləri dumanlanmış uzunqulağı kor eləyib, dərhal da keçib gedəndə ardınca ikinci işıq, üçüncü işıq vururdu. Uzunqulağın xəbəri yoxdu ki, Qonaqlının qarğıdalı sahələrinə xorultu salan qaban sürülərindən başqa, dünyada "Stüdobekker" adında nəhəng, xorultulu maşınlar da var. "İkinci cəbhə" deyilən cəbhə açılanda yəni Amerika ilə İngiltərənin də faşizmə qarşı müharibəyə qoşulanda Qonaqlıda meydana çıxan "yaiçni paraşok" da, sonralar "kitayski fanar", "kitayski termos", "kitayski makentoş" da Cənubdan bu maşınlarda daşınmışdı. Xəbəri yoxdu ki, "bizimkilər topa tutulandan", "Milli hökumət yıxılandan" sonra dekabrın on ikisindən iyirmisinə qədər Culfaya axın-axın yığışıb bu taya pənah gətirən Demokratlarımızı da bu maşınlar daşımışdılar; bu küləkli, yağışlı gecədə Əlincə qalasının, Əlincə çayının yarğanı qırağında "Emadin"in şüşəsindən içəriyə gur işıq vura-vura, "Etibarlı yer" adlandırılmış "Şeyx Xorasan" məqbərəsinin yanından keçdikcə dərəyə, dağa xorultu salan "Stüdobekker"lər də qaçqınlarla – mühacirlərlə dolu idi; xəbəri yoxdu ki, "kalon"da axırıncı "Stüdobekker" Şeyx Xorasan məqbərəsinin yanında dayanmışdı, "kabinka"dan boz kepkalı, boz paltolu, arıq, zərif bir ziyalı ilə ağbəniz bir polkovnik düşmüşdü; o arıq, zərif ziyalı Demokrat firqəsinin sədri Xalxali – Mircəfər Pişəvəri idi, o ağbəniz polkovnik isə "Müəllim", alim və çekist Məhərrəm Məhərrəmovdu. Əllərini bıçaq

kimi kəsən küləyin, üzünü dolu kimi döyən iri damlaların altına çıxanda fəhmi bir ona çatdı ki, "quş dimdiyi" burnunun ucunda yağış suyu titrəyən Müslümü sorğu-suala tutsun: "O nə xorhaxordu?", "Niyə dayanmışıq?", "Əmim hanı?", "Naxçıvana çoxmu qalıb?", "Saat neçədi?" – və sairə. Müslümün nə dörd təkəri dalda, iki təkəri qabaqda, əjdaha maşın "Stüdobekker" barədə dedikləri beynini tərpətdi, nə "çekist Məhərrəm", nə "Əlincə qalası", nə "Şeyx Xorasan məqbərəsi", nə də "dibindən kəlləsinəcən sal daş" olan İlan dağı. "Dörd atası"nın dördü də "Stüdobekker"dən düşən o iki adamla "aşağıya", yəni Əlincə çayının qırağında pəncərələri saralan kəndə enmişdilər. Niyə? "Çünki Naxçıvana belə gecə vaxtı gedib camaatı narahat eləmək istəmirdilər". Burada – "Xanəgah" deyilən kənddə isə "Şeyx Xorasan türbəsi"nə gələnlərin gecələməyindən ötrü qonaq otağı vardı. "Dörd ata"nın dördünün də məsləhəti belə idi ki, bu əriş-arğac Culfa yolu ağzında hər yetənin "bit saldığı" qonaq otağında qalmaqdansa, Bircə bala elə "Emadin"də uzansın. Hiss etmədi ki, "ata"ları onu özlərindən ayırırdılar.

Fəhmi bircə buna çatdı ki, yola çıxanda əmisinin həmişə özü ilə götürdüyü "kitayski termos"u açıb, "saçaqlı konfet" deyilən, şam kimi uzun konfetdən qırıb ağzına atıb, samovarın lüləsindən təzəcə düşmüş kimi qaynar, ədviyyatlı çayla yanğısını söndürdü, iki küpə piti ilə aşırdığı yarımca litr tut arağının beynini yenidən yelləndirdiyini hiss eləyib, qabaq oturacaqda təzəcə mürgüləyən Müslümü dümsüklədi, "Radionu qurtdala bir şey tap!" – dedi. Bədbəxt hardan biləydi ki, "ata"ları burada təhlükəli siyasi iş gördükləri yerdə artıq səs-küyü Müslümə də qadağa eləmişdilər. Əmmə Müslüm elə o vaxtlardan bu yelbeyinin əsiri idi. Ağ daş evdə gecənin bir aləmində oyanıb Sultan əmini çarpayıda görməyəndə yelbeyin əlini dərhal telefona uzadardı, "Əmim yoxdu, darıxıram, gəl kəndə apar məni", – deyərdi. Və ya bazar günləri məktəbin həyətində, kəndin ara-bərəsində səssizlikdən qulaq tutulanda, idarədə isə Qudalı Mürsəlin "çötkə"sinin çaqqılltılarından başqa bir şey eşidilməyəndə yenə telefonun dəstəyini götürərdi: "Müslüm, gəl şəhərə apar!" Müslümün həmişə bircə cavabı vardı: "Baş üstə". "Qurtdala, bir şey tap" əmrinin cavabında "Bu vaxt radioda heç nə olmaz" deməli idi, əmma yazıq yenə "Baş üstə" dedi və yuxusuzluqdan, "quş dimdiyi" burnunun tez-tez "rulu" dimdiklədiyinə baxmayaraq, hansı ölkədəsə musiqisiz-filansız mələyən bir ərəb tapdı. Yelbeyin o ərəbin avazına başını yelləyə-yelləyə xumarlanıb yenidən yuxuya getdi və bilmədi ki,

o küləkli, yağışlı gecədə "dörd atası"nın dördü də yağışın altında idi. Yeddi il səkkiz aydan sonra, indicə xəbər tuturdu ki, "varidatı" – "Vərəsə" kitabxananı o gecə sel-suyun, palçığın-zımrığın içindən yığışdırıb, çadıra, palaza büküblər, üstündən Naxçıvan duzu doldurub, "duz yükü" adı ilə gətirib, əvvəlcə qoyun fermasında kahaya qoyublar ki, kahanın istisində suyu çəkilsin, sonra susuz Xırrançayın axarında daşlığa səriblər ki, gün buludun arasından çıxanda daşlıqda kitablara da hənir dəysin. Elə həmin bu vaxt – dekabrın iyirmi ikisində o teleqram, "Erməni katolikoslarının məktublarının Türkcəyə tərcümələrinin və Sultanın, Məhərrəmlə Saşa Babayevin "Dünya xalqlarına müraciəti, yəni o vaxt hələ təzə təşkil edilmiş "OON"-a – Birləşmiş Millətlər Təşkilatına müraciət məktubu üstündə həngamə qopubmuş; Mirqəzəb Perslə adamlarının hamısını söyüb kabinetdən qovubmuş ki, "Bircə sutqa vaxtınız var. Teleqramı alıb şeyx törəmələri ilə əsabələrini sürgün eləməsəniz, özünüz həbs olunacaqsınız!" Uzunqulağın xəbəri yoxdu ki, həmin həngamənin başqa bir ciddi səbəbi də varmış; demə, "Yağır Məmmədəlinin oğlu"nun, yəni Çax-çuxun Xanəgah kəndində də adamı varmış. "Şeyx Xorasan" türbəsinə gəlib-gedənlərə göz qoyurmuş; o tayda top atəşi altında qırğından sonra bu taya qayıdanda "Yağır agentin" – Yağır Məmmədəlinin zibili Çax-çux, Sultanın Xanəgahda Xalxali-Pişəvəri ilə görüşdüyünü də, kitabların yığışdırıldığını da bilib, elə o gecə – dekabrın iyirmisində bir "depeş" Persə, bir "depeş" də Mirqəzəbin özünə göndərib. O "depeş"lərin ikisinin də məzmunu təxminən belə imiş ki, şeyx qardaşları, Qılınc Qurbanla, Lüt Cəfərlə bir yerdə, Pişəvərinin, Məhərrəm Məhərrəmovun iştirakı ilə "İttihadi-İslam" firqəsinin kitabxanasını Şeyx Xorasan türbəsindən apardılar... Yazıbmış ki, "Bu işə şahidliyimi məhkəmədə deməyə söz verirəm və belə hesab edirəm ki, şeyx qardaşlarının "delo"sunu bağlayıb, prokurora vermək olar". Həngamə də elə bundan başlayıbmış; "teleqramla", məktublarla yanaşı, həm də kitabxananın üstündə imiş və bunu Mirqəzəbin özü ilə Persdən başqa, Arazdan o yana "Çarvadar kliçkası" ilə gedib-gələnlər də, rayondakı "rabotnik"lərdən Xudiyevlə Gülənov, Sayılov və RİK Atamalı da, Çax-çuxla yanaşı Xəlvət də, Xəlvətin "gədələri" – Qeybalı ilə Qayım da bilirmişlər. Çax-çux özü daxmasının qabağında kişmiş satmağında, Comərdin, Şeyx Məhəmmədin, Şeyx Ağ Əmirlə Şeyx Boz Əmirin barəsində çərən-pərən danışmağında olsa da, Gülənovun əksəriyyəti Gülənoğlulardan, Qudalılardan olduğuna görə "məhlə milisionerləri"

adlanan "qoçuları"ndan başlamış, Qudalıların uşaqlarına qədər dağılışıb "iki maşın Quran" axtarırmışlar. Heç kəsin gümanına gəlmirmiş ki, "iki maşın Quran" elə orda – çaylaqda imiş. Abı çobanlardan ağır-kirli yun yığıb, "Vərəsə"nin üstünə səribmiş, kitablardan quruyanlarını seçib, yuna büküb, Çürük Aşığın, Qonaqlıda "Dam direktor" ləğəbilə məşhur olan Ələsgər müəllimlə onun öz evinin damında xəlvəti "Astronomiya" (əslində "Kainat elmi") öyrətdiyi yetkin uşaqların qoyun-qoltuğuna qoyub sədr Mədədə ötürürmüş və Sədr Mədəd "Xəzinə"ni gizlətməyə tələsirmiş. "Lap nəm də olsa, tez eləyin. Sonra qurudarıq. Tez eləyin!" – deyirmiş. Səbəbi isə bu imiş ki, Mədəd "özümüzünkülərdən ehtiyatlanırmış". Məhərrəm Məhərrəmovdan, Qılınc Qurbandan, Lüt Cəfərdən, Təftiş Abbasdan. Çünki həngamə qopandan sonra "özümüzünkülərdən" heç biri "Vərəsə"nin gizlədilməyinin tərəfdarı deyilmiş: Məhərrəm Bakıdan Sultana tez-tez zəng vururmuş ki, "delo"da katolikosların məktubları, "OON"-a müraciət-filan göstərilmir, Azərbaycanda, Türkiyədə tutqular, qırğınlar barədə işarə də yoxdur, – gizlədilir hər şey; əsas ittiham "Vərəsə"dir, "Vərəsə"ni təcili qaytarıb rəsmi imtina eləsəniz, əllərində tutarlı əsas qalmaz". Qurban da tez-tez Mədədə, gah da Sultana qışqırıb-bağırırmış ki, "Tərəzinin bir gözünə insan həyatı, o biri gözünə "Vərəsə" qoyulubsa, "Vərəsə"yə görə niyə güdaza verirsiniz özünüzü?!" Lüt də, Təftiş də gah rayonda Sultana, gah çaylaqda – kitabların yanında Mədədə yalvarırmışlar, təkid edirmişlər: "Aparın təhvil verin, canınızı qurtarın". Əmma nə Qurbanın xəbəri varmış ki, "Vərəsə" necə vərəsədir, nə də Lütün, Təftişin xəbəri varmış ki, "Varidat" – "Xəzinə" Məhəmmədin, Şeyx Ağ Əmirin, Şeyx Boz Əmirin və fədailərin əlləri ilə yazılsa da, "Süleyman padşahın xəzinəsi"dir. Bu kənddə hələ heç kəs bilmir ki, məktəbin ağıllı-kamallı direktoru, "Qonaqlının istəkli həkimi" – rus qızı Sestranın istəkli əri Ələsgər müəllim niyə "Dam direktor" olub; yəni Ələsgər müəllimin öz ikimərtəbə daş evinin çardağında uşaqlara "ulduz-mulduz" danışmağının səbəbi" bu "Vərəsə"dən götürülmüş tarixdən ibarətdir. Abının özünün xəlvəti yol qıraqlarında, divar diblərində oturub "qərib adamlarla kəlmələşməyi" də bu varidatla bağlıdır. Cəmi bəşərin dilində gəzir ki, "Süleyman peyğəmbərin xəzinəsi qalıb, üstündə ilan yatır". Hardadır o "Xəzinə"? O necə ilandır ki, heç əl çəkmir "Xəzinə"dən. Bir kimsənin xəbəri yoxdur ki, Vətəndən tərik salınıb "Türk"ə döndərilən OdƏrlərin, Ev ƏrEy ikən "Yevrey"ə, ƏrÜz ikən "Rus"a, AğÜz ikən "Oğuz"a döndərilən-

lərin ƏsƏlMənidi o "Solomon" – "Süleyman!.." "Süleymandan qalan dünyadan" inci götürməyə cürət edənləri o ilan dübarə çalıb öldürür. Varis bilməlidir ki, Məhərrəmin, Saşanın Bakıdan zənglərindən sonra, Qurbanın qışqır-bağırından, Lütün, Təftişin yalvar-yaxarından sonra Sultan yumşalıbmış; "avariya" günündən əvvəlki gecə gedib orda – çaylaqda Mədədə təklif eləyib ki, "Bəlkə təhvil verək?"

Mədəd deyib: "Vərəsə qardaşlarımızın zindanda kəsilən başlarıdı. Nəyi təhvil verək? Qardaşlarımızın başlarını, ya özümüzü?"

Sultan deyib: "Tək sənnən mən yox, Abı da, Cəfərnən Qurban da bulaşıblar bu işə. "Hümmət"dən – Nərimanovdan başlanıb bu iş, Leninə çatıb, on səkkizinci ildə Mustafa Kamal Paşaya çatıb, "Rus ordusu"adı altında Anadolunu azad edən Təriklər ordusunun təşkili də ümumbəşəri xilaskarlıq naminə təşkil olunub. Hamısı qırılıb! Hamısı! Atatürkün Türkiyədə bir nəfər də yaxın adamı qalmayıb, qaçıb Dərbənddə gizləniblər, ordan da buraya – Şimalımıza dağılışıblar. Tək sən, mən, Abı, Çürük özümüzü təhvil versək, işgəncələrə eyni dərəcədə dözə biləcəyikmi hamımız, hətta Atatürk nəslini də qırğına verməyəcəyikmi?!"

Mədəd deyib: "Vərəsə nəsilbənəsil "Muğ" yetirmək üçün deyilmi, dadaş?! Əsrlərnən qırıla-qırıla dağılışan Türk hələ də dünyanın ən böyük xalqı deyilmi?! Mən bilirəm, bundan sonra da çox qıracaqlar bizi. Yerdə qalanların umudu nədi, dadaş?! "Vərəsə"ni versən, Türk kar-kor qalıb tamam savadsızlaşmazmı?! OdƏrliyimiz tamam unudulmazmı, dadaş?!"

Sultan hirslənib deyib: "Məsələ elə ondadı ki, Türk qırılandan sonra kitabları açan da olmuyacaqsa, necə yetişəcək nəsilbənəsil "Muğ" – Bağ?! "İttihadi İslam" damğası var kitabxananın üstündə. Stalinin teleqramının cavabında əsaslı ittihamnamə hazırlatdırıb cəllad! Panislamizmdə, "Mövlud" gecələrində din yaymaqda taqsırlandırır hamımızı. Məhz buna görə imkan verirmiş geniş miqyasda "Mövlud"ə ki, bütün kəndlərdə dərnəklərə yığılanları qeydə alsınlar, antisovet din təşkilatı üzvləri kimi hamını yığışdırsınlar! Ondan sonra sahibi kim olacaq "Vərəsə"nin?!"

Qısası, Mədədin sözü qalmayıb. Qərara gəliblər ki, kitabxananı təhvil versinlər, əvəzində bütün Pünhanları, Ustad "Aşıq" – ƏsAğları səfərbər eyləyib yaddaşlarda qalan həqiqətləri yazdırıb dərslik kimi yaysınlar.

Mədəd lap əlacsız qalıb, deyib: "Mirqəzəbin folklorçu professoru ƏsAğlardan dəstanların əksəriyyətini yığıb, "dəri"sini – OdƏrini çıxarıb.

ƏsAğ – "Aşıq"lara tapşır daha yazıya almasınlar, elə şifahi şərhə keçsinlər, görək başımıza nə gəlir".

Xırrançay axarında çox kədərli gecə olub o gecə; qardaşlar Abını, Qılıncı, Təftişi çağırtdırıb, qərarı deyiblər ki, kimlərin hansı rayonlara, hansı kəndlərə gedəcəyini müəyyənləşdirsinlər. Əmma burada Mədəd birdən gülüb. Özü də elə gülüb ki, Sultan lap çaşıb gözünü döyüb, qışqırıb ki, "Başa düşmürəm gülməli nə var burda, dadaş?!"

Rəhmətlik deyib: "Gülməli yox, ciddi sözlər var, dadaş. Ün eşidən qardaşlarımız "Vərəsə"yə varisi Ün əsasında təyin eləyiblərsə, belə çıxmırmı ki, təyin olunan Varis bu kitabxananı oxumalı və başqalarına da oxutmalıdır?!"

Bununla da mübahisəyə, şəkk-şübhələrə son qoyub o rəhmətlik. Elə ordaca əyilib, indi bu nadan Səməd xarabalıqda Abının qabağında necə oturubsa, Mədəd də eləcə oturub, başlayıb vəsiyyət eləməyə: "Dünya belə getmiyəcək, Abı. Məndə inam var, sən görəcəksən hər şeyi. Elə ki gördün Stalin yoxdu, Elmin zamanıdı, varisə deyərsən: "Mədədin öz dilindən eşitmişəm, Varis bilməlidir ki, "Vərəsə"mizi qoruyan var".

Sözünün bu yerində Abı birdən-birə yenə büzüşüb, xarabalıqda cild, kağız qırıntılarını göstərdi:

– Niyə belə oldu?! Baş açammıram. Əmma Mədədin Xırrançayda dediyini əsassız saymıram. Maşının dalına doldurduğumuzu Sultan yəqin ki, hardasa gizlədəcək. Nə hasil olacaq o əzik-üzük qalıqdan? Məlum deyil. Ulu Bağ ƏsƏlMənin "Xəzinə"si beyinlərdədi indi. Araz, Kür üstə dağlarda Muğanlı, Muğan, Sadıqlı, Poylə, Kəsəmən, Ağtəpə, Qaratəpə, Şıxlı, Sarallı, Sarvəlli, Kəpənəkçi, Saraclı, Təkəl və sair, və sair kəndlər, obalar var. Hansına getsən sazı-filanı da atıb, əkin-tikinnən dolanan ustad "Aşıq" – ƏsAğ tapacaqsan, "Muğan" – BağÜn kəlamı eşidəcəksən. Varis obaların adlarının əslini öyrənməlidi, etibar eləsinlər. Bircə-ikicə yerdə inansalar, açıb deyəcəklər ki, "Kəsəmən" kəndləri "KiƏsMən" – OdƏsMəndi. Yaradan Od-Həqiqəti. "Sadıqlı" kəndləri ƏsOdAğdı. SafAğ İnsanın Yaradan Həqiqəti. "ƏlHəm" kəlməsiynən tapacaqsan adamları. Əmma heç vaxt, heç vaxt unutma ki, yerin də qulağı var bu SSRİ adlanan cəhənnəmdə. Bu gündən, bəlkə elə bu dəqiqə də KeQeBenin nəzarəti altındasan... Mən özüm də... çox açıq fəaliyyətdə oldum burda. Belə vaxtlarda yaman quduzlaşırlar Xudiyevin yetirmələri, camaatın gözünün qabağındaca əzab-işgəncə verirlər mənə,

döyürlər bu yaşda qocanı, qorxanlardan məlumat yığırlar. Hansı kənddə "Abdulla" adında molla görsən, bil ki, KQB-nin sağ əlidi hamısı, yəni ciblərində zəhər gəzdirirlər, xeyirdə, şərdə zəhərləyirlər Muğları. Çox, çox ehtiyatlı ol! Əmma lazım gələndə qurban verməyi bacarmaq lazımdı. "Güdaza vermək" deyil bu, Elm naminə qurban verməkdi! Düşün bu barədə! Çoxlu düşün! Və unutma ki, bircə umud çırağın var indi sənin, o da Sultandı, oğul. O çıraq sönsə, tək sən yox, bütün nəslimiz-kökümüz zülmətə batar, bütün xalq uzun müddət zülmətdə qalar, cavanlarımız bax bu "Dəli Səməd" kimi cahil, kor böyüyərlər!

Xarabalığın ağırlığı "çıraq sönsə" sözlərilə, sonra isə əmisinin gözlərinin içinə cəllad kimi dediyi "Güdaza vermisən" sözlərilə birləşib necə dözülməz ağırlıq saldısa, Səməd nə o günü qəddini düzəldə bildi, nə də ertəsi günü. Şüşəlinin "dal otağı"nda Abının, Çürüyün sazına-sözünə yığışan köhnə məktəb yoldaşları ilə yeyib-içəndə də, səhərisi sahələrə çıxanda da Dam direktor Ələsgər müəllimin, otuzuncu, qırxıncı illərin tələbələri "Pünhan"lardan biri-birinə qarışan tövsiyələr eşidirdi: "Xəlvəti şərait yaradılacaq, çekistlik öyrənəcəksən, Bağdada, Hələbdə, Şamda Elmimizə aid çoxlu məlumat oxuyacaqsan. İstanbulda, İzmirdə, Bursada, Ankaranın özündə adlarını dəyişmiş batin "Muğ"lar görəcəksən", – "Unutma, Sovet – SSRİ-də gizlin yayılıb hər yerə. "Abdulla"lar, "Əbdül"lər – zəhərli ilanlar addımını da izliyəcəklər"... Əmma, söz-söhbət nə qədər çox olsa da Abının iki kəlməsi Səmədin beynindən çıxmırdı: "Çıraq sönsə..." Və özünün iki kəlməsi "Güdaza vermisən!.. Güdaza vermisən!.."

Haralarda gəzirdi Səməd, nə iş görürdü? Yaddaşında az-çox iz salan tövsiyələrin, məlumatların və o qoşa kəlmələrin ağırlığını unutmuşdu, az-çox unutduran şeylər vardısa, o da çöllərdə rast gəldiyi müsibətlərdi; hələ yaşılyarpaq ikən dümağ ağarışan pambıq sahələrinin ara-bərələrində, tək-tük, yastıraq palıd ağaclarının budaqlarından sallanan yüyrük-nənnilərdə ağızlarına, gözlərinə milçək daraşmış, çığırışan çağalar görürdü, bloknotunu çıxarıb tir-tir əsən barmaqlarla "Yasli! Yasli! Uşaq baxçaları! Yaslilər!" – yazırdı. Pıtraqlı, yağtikanlı düzlərdə ayaqyalın, qarnıaçıq skelet uşaqlar, uzun-uzun, qara-qara dırnaqlarla qanqal qabığı soyan skelet əllər görüb, eyni qayda ilə tir-tir əsən barmaqlarla "Aclıq! Aclıq! Səfillik! Səfillik! Sahibsizlik! Sahibsizlik!" – yazırdı. Qızmar günəş altında, bankalarda qıcqırmış qatığa bulanıq arx suyu qatıb quru cad çörəyini o sulu qatıqla isladan üzgün, qarayanıq qızlar, gəlinlər,

üzgün, qaş-qabaqlı məktəb uşaqları görüb, həmincə tir-tir əsən barmaqlarla “Bezobraziye! Bezobraziye” – yazırdı. Gördüyü, yazdığı dəhşətləri harda, kimlərə deyəcək, fəlakətin qarşısını ala biləsi bir şey eləyə biləcəkdimi? Yeganə şikayət yeri “raykom” adlanan o qırmızı tuf daş bina idi, ora da indi bomboşdu, çünki Sultan Əmirli orda deyildi, fikrində Bircə balasının “Güdaza vermisən” – sözləri, bir də, şübhəsiz, Əmirli mülkünün, “Vərəsə”nin xarabalığı, elə bil başını götürüb qaçmışdı. Səməd haraya, kimin üstünə getməli idi? Bilmirdi... Hardasa başını qaldırıb, boz “Pobeda”nı, Müslümü gördü. Şoferin hüznlə:

– Sultan Mamedoviçin vəziyyəti yaxşı deyil. Səni çağırır, – dediyini eşidəndə bir əlini boğazına, o biri əlini maşının qapısına atdı.

## 1

Oturacaqda ağzı açıq bir konvert vardı. Müslüm, yola düşər-düşməz, o konvertə işarə eləyib:

– Sənədi. Oxu, – dedi.

Səməd oxudu: “Kürəyimdə dünya ağırlığında yük var. Gəl götür üstümdən, heç olmasa bir az rahatlanım. Gəlməsən, bəlkə də məni görmüyəcəksən daha”.

Müslüm:

– Cır at, – dedi. – Qayda belədi.

Səməd kağızı, konvertlə birlikdə, xırda-xırda cırıb pəncərədən külçəyə sovurdu. Sonra isə harda, nə vaxt yuxuya getdiyini bilmədi. Uşaqlıqla ilk gənclik arasında, əzələlərini təzə-təzə daşlaşdırmağa başladığı çağlarda, Sarıyerdəki haman göl dibində qara camış Qıllı Qeybalı ilə, Qudalıların cin-şeytan yığnağı ilə vuruşurdu. Yusif kimi gözəl Yusiflə Məmməd Xələf Zaldan başqa Müslüm də boz “Pobeda” ilə birlikdə orda – suyun altında idi, “rul”dan qoşa əlli tutub: “Səni çağırır”, – deyirdi. “Eşitmirsənmi?! Çağırır!” – deyirdi. Əmma daş əzələlər əskiyə dönmüşdü, qara camışın qıllı qollarının, cin-şeytan yığnağının əyiş-üyüş qaraltılarının arasından çıxmaq mümkün deyildi. Müslümün təkidli səsindən, göl dibinin uğultusundan başqa, Səməd öz xırıltısını eşidirdi və başa düşürdü ki, bir az da belə getsə boğulacaq. Odur ki, son gücünü

toplayıb, Qeybalının döşünə təpik vurdu və bu təpiklə də yuxudan canını qurtardı.

Nəfəsi qaralırdı, ağrıdan başını tərpədə bilmirdi. Radioda bir-birinə qarışan dalğaların çatıltı-patıltısı qulaqlarını deşirdi. Çatıltı-patıltı kəsiləndə mühacir Aşıq Cavanın səsi eşidildi: "Xoca Əziz sənə qurban. Ağlama, oğul, ağlama. Ağlama, Məsim ağlama..."

Səmədə elə gəldi ki, Müslüm bu verilişi məhz onunçün tutub.

Üz-gözünü əydi:

– Əmimin evində o qədər ağlamışam ki, ömrümün axırınacan yaş çıxmaz gözümdən, – dedi.

Müslüm yanakı baxıb, sərnişininin üzündə nə gördüsə, dərhal radionu söndürdü.

– Bağışla... çatmışıq. Onçun qurtdaladım, – dedi.

Və Səməd ancaq indi anladı ki, maşındadır, çatdıqları yer isə Bakıdır, ərnik qır qoxusu ilə dolu, ala-tala işıqlı, dar bir küçə ilə üzü aşağı – enişə gedirlər.

Pencəyi arxadan – oturacağın söykəyindən sürüşüb, sağ budunun altında əzilmişdi. Sağ əli də budunun altında qalıb, keyikib, tamam hərəkətsiz ət parçasına çevrilmişdi; elə hərəkətsizdi ki, barmaqlarında gizilti olmasaydı, Səməd iflic gümanına düşərdi. Ovuşdurub, silkələyib, maşının ora-burasına çırpıb əlini hərəkətə gətirdi və indicə hiss etdi ki, gözlərinə qor dolub, baxışı dumanlanıb; "avariya" günü saqqızın altından kəndə doğru gedəndə ayağının altında yer necə çökəlib, dəniz kimi qabarıb dalğalanırdısa, ərnik asfalt yol da elə dalğalanırdı.

Əlini Müslümün biləyinə atdı.

– Müslüm, aptek tap!... Qan təzyiqindən ötrü bir şey... Başımın ağrısı kəsməsə, bu vəziyyətdə heç yana çıxammaram. Gözümə qaranlıq çökəcək indicə.

Müslüm maşını qırağa verib saxladı. Oturacağa qara daş cildləri yada salan qara "padnos", "padnos"un üstünə isə "qranyonnı stəkan" qoydu. Sultan əminin termosunu oturacağın dalındakı cibdən çıxarıb çay tökdü, müharibədən sonra RİK Atamalının açdırdığı "Əlillər emalatxanası"nda hazırlanıb şəhərdə və vağzallarda satılan "saçaqlı konfet"dən birini parçalayıb, stəkanın böyrünə qoydu.

– Hələ bir bunu iç. Aptek qaçmır, – dedi.

[1] Möcüzə, xariqə.

Sultan əminin termosu ilə samovarın lüləsindən indicə düşmüş kimi qaynar, ədviyyatlı çay da, "saçaqlı konfet" də Naxçıvan səfərini, o nadan, yelbeyin ərköyünü xatırladırdı. Çoxmu keçmişdi o vaxtdan? O – qırx altıncı il, oktyabr, bu – əlli dörd, avqust. Düşündü ki, ilahi, səkkizcə ildə insan nə qədər dəyişərmiş! Köməyə, "yük götürməyə" çağıran əmi də dəyişmişdi: acizləşmişdi, güzəştli olmuşdu? Deyəsən... Ağrı, ağrı, ağrı... Gözlərini yumub, qaynar çayı üfürə-üfürə, qurtum-qurtum içdi.

– Tök! Bir də tök! – dedi.

İkinci stəkanı konfetsiz içəndə başa düşdü ki, bu çay deyil, ədviyyat da deyil, nə isə başqa şeydir. Gözlərini açıb Müslümə baxanda isə hiss etdi ki, daha nə ağrı var, nə də qaranlıq çökmək təhlükəsi.

Təəccüb içində, Səməd uşaq kimi sevindi.

– Bu nədi, ay fırıldaq, nə verdin mənə?

Müslüm güldü.

– Aptek-maptek lazım deyil ki?

– De görüm nədi axı bu?!

– Sultan Mamedoviç "dirilik suyu" deyir buna. Yemşən suyudu. Təziqi o dəqiqə götürür.

– Doğrudan da, "dirilik suyudu!" Yemşən!

– Qarışığı da var. Onu da bir allah bilir, bir də Xızr Abı.

– Deməli, Abı düzəldib?

Müslümün üzündən gülüş çəkildi.

– O ili, avariyadan iki-üç ay qabaq risq eləmişdi Abı, ermənilərin təzə-təzə qızışan, qan-qan deyən vaxtı Göyçəyə getmişdi. Ordan bizim "qoyun gözü" dediyimiz jenşen meyvəsi gətirmişdi. Jenşen kolunun boyu bir qarışdı, meyvəsi elə yemişəninki təkidi. Məncə odu bu. Kökü deyil. Kökünə toxunmuruq biz. Çünki müqəddəs sayılır. Köksünü ötürüb, birdən-birə:

– Heyif! Heyif Göyçəmizdən! Belə də ədalətsizlik olar, a kişi?! "Qardaş olub Haystan, Aaazərbaycan!.." Torpağını versin "qardaşına", özü getsin Muğanın duzlaqlarına, Sibirin şaxtasına!.. Aşıq Hüseyn cavanın konsertini bu vaxta salırlar həmişə, ay Səmi. Niyə? Şər qarışandan sonra adam onsuz da qəmlənir. Bir yandan da bu: "Ağlama, oğul, ağlama..." Necə ağlamayım? Müqəddəs dağlarımda müqəddəs dərmənlərim, sağlamlığım gedib!.. O vaxtdan Sultan Mamedoviçi saxlayan elə

---

[2] Buraxılış vərəqəsi.

budu. YemSən hara, “jensen” hara?! Yer-yurd əldən gedəndə dil də gedir! Sultan Mamedoviç deyir “y”ya “j” deyən Qazaxlardı, Rus Qazaxdan alıb bu “jenşen” kəlməsini, arvadının adına da “Jenşen” qoyub! Onu da “jenşina” eləyib. İndi bax Gör Göyçə nədi, Yemsən nədi, “jenşina” nədi?!

Səməd astadan:

– Yaxşı, bəsdi! – dedi. – Bilirəm, alimlər yanında oturub alim olmusan! Əmma adi şeyi qanmırsan: “Jenşina!..”

Sevinc getdi, iniltili xəstə əminin evindən nifrətlə qaçan sərxoş nadanı xəcalət təri basdı.

Müslüm günahkar kimi, xeyli susub, sonra birdən danışmağa başladı.

– Qurbanın olum, kobud olma! Abı da danlayır məni... “Qiyabi oxuyursan, ali təhsil alırsan. Dilindən söz çıxanda fikirləş də, ay oğul”. Deyirəm, ay baba, bütün o tay-bu tay Azərbaycan “dərman” deyir, “dərman” eşidir. Nə böyük xəta eləyirəm ki, hər dəfə “dərmana gəlmişəm” deyəndə bu qədər danlayırsan”. Deyir: “Evimiz elə onda yıxılıb ki, o tay-bu tay Azərbaycan da “dərman” deyir, bütün Türkiyə də, Türkmənistan da, Özbəkistan, Qırğızıstan da, Tatarstan da, Başqırdstan, Göy Oğuz, Uyğur-filan da! Bir fikirləşən yoxdu ki, “yemşən” deyil bu, “yemşən” suyu deyil, YemSəndi! YemSən! YemSən! Bu kəlməni sənin dilinə verən bədbəxt “DərMən” deyib. Yəni “dərirəm!”. Budu bax, qaynadıram, tökürəm termosa, aparırsan Sultanım içir, ikicə dəqiqəyə qan təziqi düşür, sən də fikirləşirsən ki, “Bah, bah, bu Xızr Abı nə müdrik adamdı!”. Mən deyiləm müdrik, ay oğul, sənə yem yaradıb “YemSən” deyəndi! Tanımırsan sənə yem yaradanı...

Səməd termosa baxırdı. İndi o da bir az günahkar kimi idi.

– Belə çıxır ki, çay adına kişinin dərmənini içmişəm həmişə?!.. Təhkimçilikdən qayıdanda Xeyrə arvadın samovarını gözləməzdim, bu termosun üstə cumardım... Eşşəkliyə bax!.. Öldüm ey!..

– Allah eləməsin!.. Bundan bilirsən nə qədərdi? – Müslüm oturacağın dalından – termosun yanından büzməli torba çıxartdı, büzməsini aralayıb, ovcunda quru YemSən – “Jenşen” göstərdi. – Budu ha!.. Xeyrə arvadda da var bundan. O taydan gətirib vaxtilə. Boxçaçiçəyidi, Qaymaq çiçəyidi bir də budu, xarab olmur, istər yüz il saxla. Sultan Mamedoviçin kabinetində stolun siyirmələrinin hansını açsan elə YemSəndi. İsti-isti içəndə ikicə dəqiqəyə sağaldır.

Soyuq içəndə bir az gec təsir eləyir. Damarı genəldir, qanı duru-laşdırır, başda ağrını götürür. Qara ciyərə, ödə xeyir eləyir. Nə bilim, özgə neyləyir. Dam direktor Ələsgər müəllimin arvadı Sestra "çudo"[1] deyir buna.

– O da bilir?

– Dam direktorunun da başağrısı var.

Rəhmətlik Mədəd əmi boğulanda, elə bilirdin sinəgir-astmadı.

– Atam da?!

– Onda lap pisinnəniydi... Yəni heç görməyibsən?

– Yox...

– Mədəd əminin sağlığında KeQeBe yaman çəkirdi Abını o yan-buyana. Abı da məcburuydu, aralı gəzirdi Sultan Mamedoviçdən. Bizim evə telefonu o vaxt qoydurdu Sultan Mamedoviç. Gecələr o cəlladnan danışandan sonra elə ki görürdüm rəngi dəyişib, əli də boğazındadı, o dəqiqə xoddayırdım maşını... "Emadin" idi onda. Elə gedirdim, elə qayıdırdım, Kəsəyolda şaxa-budağa çırpılmaqdan o gördüyün qara "Emadin" bomboz bozarırdı. Yarımca saata gedib gətirirdim Mədəd əmini. Qapıdan girən kimi sappadan-sağ eləyirdi Sultan Mamedoviçi. Əmgəyini ülgücnən çərtirdi. O vaxt cibində ülgüc gəzdirirdi Sultan Mamedoviç. Bir ülgüc də Mədəd əminin cibindəydi...

Yanğısı kəsməsə də, Səməd daha içə bilməyib, stəkanı "padnos"a qoydu. Xəcalətinə, narahatlığına hiddət qarışmışdı.

– Mən hələ təzə-təzə qanıram Mirqəzəb kimdi. Burda, partiya məktəbində yoldaşlarım deyirdilər gecələr ekzemasının gicişiyi şid-dətlənir, guya elə ona görə səhərə qədər zəng eləyir, zəhərləyir ha-mını... Hələ çox adam tanımır onu, Müslüm. Yaxşı oldu çağırdınız məni. Görmək istəyirəm, bu qədər qan-qırğından sonra necə oturur müttəhim kürsüsündə. Niyə sürmürsən? Məncə, propusk[2]-zad yazdırmaq lazım olacaq. Hər adamı buraxmazlar axı elə məhkəməyə. Sür!

Müslüm tərpənmədi. Dayandıqları yerdə küçə genişdi, hündür dəmir dirəklərdə sərt işıqlı lampaların qoşa cərgəsi uzanırdı. Tək-tək maşın keçirdi. Səkilərdə başları, yaxaları açıq, tərli adamlar tərpənişirdilər. Müslüm gah maşınlara, gah adamlara baxsa da, puçurdan təzəcə çıxmış yarpaq rəngində, xırdaca gözlərindən görünürdü ki, fikri ayrı yerdə idi.

– Səməd... Söhbət var... Mən bilirəm, həyatınız, mühitinizdi sizi sarsıdan. Əmbə əlacım yoxdu, ciddi söhbətim var sənnən.

– ...Əmimə bir şey olmasın!

– Yox, yox!.. Nə danışırsan?! Ayrı şeydi... Açığı, yolda qəsdən demədim. Qorxdum qızışarsan, yoldan qayıdarsan.

– De görək!

– Bilirsənmi... Səni boş-boşuna çağırmayıblar... Qurban əmi Məhərrəm Abbasoviçnən danışanda yanındaydım. Danışıb qurtarandan sonra dedi get benzin götür, hazırlaş, təcili apar Səmədi, özünə də deynən vəziyyəti yaxşı deyil kişinin. Çağırır. Əmma mən düzünü deyəcəm sənə. Rayondan Sultan Mamedoviçə zəng vurublar.

– Kim?

– Çox adam...

– Məndən şikayət eləyiblər? Təhkimçilik eləmirəm, yığımaköməyim dəymir.

– Hə...

– Nə olsun ki? Təhkimçilərin elə hamısı bütün günü kölgəliklərdə səvərişib çay içirlər. Kimdi iş görən? Faydası yoxdu təhkimçiliyin! Pambığı yığanların özlərinin rəhbər işçiləri var, daha bu "təhkimçi" nədi?!

– Gülənov da danışıb.

– Əmimnən?! Mənim barəmdə?!

– Hə... Deyib: "avara-sərgərdəndi, Məcnun olub çöllərə düşüb, sənin ad-sanını batırır. Bizə, orqan işçilərinə də söz gəlir ki, katibin, partiyanın şərəfini qorumuruq".

Səməd çiynini çəkdi.

– Bezobraziyenin köhnə işidi böhtan atmaq. Əmim tanımırmı Gülənovu?! Çoxlu qeydim var. Camaat it günündədi! Xəlvət Rəhimin, briqadirlərinin, mühasibinin dədələrini bellərinə şələliyəcəm! O biri kolxozlarda olmamışam hələ. Başa düşmürəm, Qurban əmi niyə ayırır məni işdən?! Səbəbini niyə gizlədir?! Bəs əmimin yazdığı o "yük" nədi?

Müslüm elə küçəyə baxırdı.

– "Yük?.." Açığı, Elmi bərpa eliyəmmiyəcək əmin. Yığdığımız cildlərin çoxu parça-parçadı, tək-tək, əzik-üzük vərəqlərdi. Tək bir "Sirli dəstanlar" kitabı az-çox oxunur. "Dədə Qorqud...", "Koroğlunun Divlərnən müharibəsi..." Əmin istəyir elə bunlardan başlıyasan. Qurban əmi deyir "Səmədi işə qoşma hələ".

– Niyə?

– Bilmirəm, qardaşım. Bilsəm də, incimə, mən çox şeyə qarışammaram.

– Çox şeyə?! Nəyə?

– Qurban əmi deyir Səməd sarsıntılıdı, əmisini də çox sarsıdır. Beynini yükləmək olmaz onun. O nalı, deyir, al ondan, at getsin.

Səmədin qaşları düyünlü idi.

– Əgər Qurban əmi sənnən bu mövzuda danışıbsa, deməli, sənə xəbərdarlıq eləyib ki, yolda mənim beynimi çox yükləmiyəsən? Burdan da belə nəticə çıxır ki, sən özün də sirr dağarcığısan! Açıq danış! Bilirəm, sən də çekistsən. Çəkinmə məndən! Sözünü de!

Müslüm qızardı.

– Böyük adamların şoferlərinin hamısının qarnı sirnən dolu olur, ay Səməd. Vəzifələri dəyişəndə niyə şoferlərini də özləriynən aparırlar? Hamısı elə sirrə görədi də! Sultan Mamedoviç deyir: “Bu planetdə nə qədər gözəgörünməz mikrob varsa, “Xəzinə üstündə yatan İlan”ın da bir o qədər mikro ilanı var. Mikroilanlar elə zəhərləyirlər ki, heç Bağlar da bilmirlər!..” Əmin yenə açıq, mərd kişi söhbəti eləmək istəyir sənnən. Deyir: “Səmədnən aramızda çoxdu gizlin şey. Nə əmisini tanıyır Səməd, nə də öz imkanlarını bilir”. Sən, açığı, düşmənlərimizi də tanımırsan, qardaş. Sultan Mamedoviç deyir: “Şüşəli”yə yığışanlar şpionajın heç beşdən biri də deyil”. Moskvadan gələn bəlaların hamısının kökü xaricdədi. Mikroilanları tanımalısan sən. Onda daxilimizi, Bezobraziyenin özünü də tanıyarsan. Xalqı, vətəni qoruyanlarımıza köməyin dəyər. Sultan Mamedoviç deyir: “Bizim bir-birimizdən lap cüzi narazılığımızdan da dərhal istifadə eləyirlər, təhlükə törədirlər”, ...Şamaxıdan bu yanda, Acıdərədə körpünün altında dirəklər laxlamışdı. Gördüm, körpü yırğalanır, üstəlik, körpünün lap ortasından iki enli taxta çıxarıb qırağa qoyublar. O dəqiqə saxladım maşını, dala verdim, torpaq yolnan dolayı çıxdım asfalta. Xeyli qıraqda qoşa podfarnik saralırdı. Hiss elədim ki, kimdilərsə, məhz onlardı bizə tələ quranlar. Sonra gördüm dalımızca gəlirlər. Maşını qaza basdım.

Təhlükəni gərək vaxtında görəsən. Açığı, ölüm-dirimdi. Çax-çux Xalıqı da tanımırsan sən, qardaş. Rütbəli adamdı. Həm də çox təhlükəlidi. Səni, bir tərəfdən, elə buna görə belə təcili çağırıblar. Tək əmin özü deyil səni çağıran. Bu sözü deməyə bilməzdim sənə. İstəyirəm Məhərrəm Abbasoviçnən əmiyin yanına hazır gedəsən. Başqa sözüm də var... Bir dəli şeytan deyir o sözü də de.

Dəli şeytana qulaq asım beynini yükləyim, yoxsa Qılınc Qurbanın xəbərdarlığını nəzərə alım, yükləməyim?..

Müslüm gülümsünəndə "quş dimdiyi" burnunun ucunda dəri dartılıb ağarırdı, sifətinin nazikliyinə nisbətən ətli dodaqları qatlanıb dörddodaq olub Müslümü çirkinləşdirirdi, əmma xırdaca quş gözlərinin təzə yarpaq yaşıllığından necə məlahət saçılırdısa, Səməd özündən iki yaş böyük dostunu uşaq kimi qucaqlayıb bağrına basmaya bilmirdi.

Bu dəfə o məlahət olmadı. Çünki Müslüm süni gülümsünürdü.

– Yükləyim, yükləməyim?.. Niyə dillənmirsən?

Səməd stəkanı göstərdi.

– Bunu götür. Sonra yüklə. Gözümü deşir bu stəkan.

"Dirilik suyu" elə ağır fikirlər oyatmışdı ki, bir tərəfdən "Mirqəzəbə qalib gələn Kişi" ilə yeni münasibət yaratmağa, o biri tərəfdən "Mirqəzəbə qalib gələn Kişi"yə yeni zərbə vurmağa cəhd göstərən Bezobraziye xadimlərinin çaxnaşmasına laqeyd qalmaq mümkün deyildi. Bezobraziye hər yerdə hakim kəsilsə, nə olar? Tutqu, sürgün, qırğın son həddə çatmazmı?!

Lakin Müslüm tamam başqa, gözlənilməz xəbər dedi:

– Bilirsənmi... iş bu yerdədi ki, bacı ikicanlıdı. Uşağı var. Dörd aylıq uşağı.

Səmədin sifəti birdən-birə tamam ifadəsiz oldu. Dodaqları keyləşdi. Nə qədər qəribə olsa da, sevgi adlı əzabı yalnız indi dərk edirdi.

– Gülgəzin... uşağı...

Müslüm, "bacı"nın adını Bircə balanın dilindən eşitdiyinə heyrətlənib, duruxub gözlərini döydü.

Səməd isə yenə birdən-birə dəyişmişdi. "Uşaq!.. Əmimin evində... öz varisi... Mən ələ-ayağa dolaşacam. Mən yaşamamalıyam!.. O sərxoşluq... O konyak şüşəsi... O zaks... Nəticəsi də bu..." Qıllı Qeybalının səsi gəldi: "Kimdəndi uşaq, ay Səməd? Sənnəndi, yoxsa əmindən?! "Uşaq... Uşaq... Sultan əmimin qucağında öz balası!.."

Birdən yenə də darvaza qabağından ağ binanın içinə baxanda düşündüklərini xatırladı, "sonsuz əmi"nin qucağında körpə gördü! Hiss etdi ki, belə gözlənilmədən qayıdan o sevinci gizlətmək istəmir. Əmma nə isə mane olurdu. Nə? Bu barədə düşünmədən:

– Dost olsaq da, çox açıq deyil aramız, – dedi. – "Gülgəz" adı eşidəndə gözlərin böyüdü... Eşit və bil, Müslüm, onnan mənim aramda heç nə olmayıb. Heç nə! Çox pak qonşuluq olub, sonra istəyə çevrilib, vəssalam. O da qurban olsun Sultan Əmirliyə, mən də! Bildin?! Uşaq!.. Uşaq demə, Müslüm, Sultan Əmirli üçün əsl dirilik suyu de! Ağ Əmir,

Boz Əmir de! Məhəmməd Əmir de! Mədəd de! Sura de!.. On iki ildi şoferlik eləyirsən Sultan Əmirliyə, sirdaşı, qardaşı olmusan! Bilirsən uşaq nə deməkdi Sultan Əmirli üçün! Niyə mısmırıqlı danışırsan uşaq barədə?!

Belə qışqırıb, birdən susdu.

"Pobeda"nın böyründə, küçənin işığında "podfornik"ləri sarala-sarala arxadan gələn bir "Villis" dayandı. Tünd abı kitelinin döşündə qızıl ulduz, çiyinlərində yaşıl zehli, zərli paqonları parıldayan bir mayor "rul"un – sükanın arxasından başını çıxarıb gülümsəyirdi.

– Xoş gördük, qadası. Xoş gəlmisən vətənimizin mərkəzinə! Son günlərin hadisələri yaman heyrətləndirir səni. Yadındadımı dediklərim? Əmin qırx qazanın çalasısıdı! Bütün dünyaynan bağlıdı! Hey elə qurban verir xalqına, özünü saxlayır. Qanmır ki, Eçmiədzinin o qızıl xaçlı Varneti də bəsdi ki, Sultan adında adam qalmasın bu dünyada!.. Nə çox baxırsan ora-burama, qadası, mənim bu görkəmimə heyrətlənmə. Forma geyinmirik biz. Bu axşam xüsusi izn almışam ki, Bircə bala görsün Xalıq Qudalovun əsil sifətini!.. Ulduzuma yaman baxırsan! Sovetlər İttifaqının daxili və xarici düşmənlərinə qarşı mübarizəmə görə verilib.

İcazənlə keçim başqa söhbətə:

– Gördüm gəlirsən, bu dəfə keçəcəksən o qatilin tərəfində fəaliyyət göstərəcəksən. Baxtın gətirdi, bu dəfə Müslümün həssaslığı xilas elədi səni. Əmbə müvəqqəti sağlıqdı bu, qadası. Bu bir. Hə! Əyri yola düşsən, kim sağ qoyar səni?!

İkincisi, sənə dönə-dönə demişdim Gülbənizi gör. Axır ki gördün. Əmbə qardaş qatilinə münasibətin kəskin deyil. Bu da xeyrinə deyil sənin. Hə!

Səmədin əli qapının dəstəyində titrəyirdi.

Qapını açıb, bir andaca suya batmış əlini Çax-çuxun boğazına uzatdı. Lakin "Villis" vaxtında tərpəndi, qıjıldayıb getdi.

Səməd özünə gələ bilmirdi. Müslüm ehtiyatla qolundan tutub, yavaşca çəkdi.

– Gəl, qardaşım... Allah özü bəlasını versin Bezobraziyenin! Gəl otur. Əmin intizar qalar.

Səməd keçib oturub, qapını çəkdi.

Müslüm yenə süni güldü.

– Əmbə lap tumana əl apardı ha qaniçən köpəyoğlu! Adamı üstəliyəndə şirdi, zor görəndə tülküdü! Sultan Əmirlinin çörəyi halalın olsun! Rəhmətliklərin torpağı sanı yaşıyasan. Sən əmini necə istəyirsən, rəh-

mətliklər də elə istəyirmişlər bir-birlərini... Bu dərmən-dava işindən savayı, Xızr Abının görücülüyü də var axı. Sən anayın qoynunda olanda anayın üzünə baxıb, Mədəd əmiyə deyib: “Uşağın olan günü Sura rəhmətə gedəcək. Uşağı xərc eləsəniz, özü səlamət qalacaq, əmma doğar qarnı olmuyacaq”. Anan eşidib bunu, həkimə gedib. Həkim də Abının sözünü təsdiq eləyib deyib: “Ya uşağından keç, ya canından”. Anan canından keçib ki, Mədəd əmi övladsız qalmasın... Srağagün gecə danışdı bunu mənə Sultan Mamedoviç, dedi: “Səmədin ürəyi anasının ürəyidi...” Çox içibsiniz ikiniz də, nəsə olub, sən pis çıxıbsan evdən. Zəng vurdu Sultan Mamedoviç, getdim gördüm təkcə oturub tut ağacının altında, bu termosnan bu stəkan da qabağında. Stəkanı doldurmuşdu, içmirdi... İnsanın insana məhəbbətinə bax ki, o da sən deyəni dedi: “Mənim dirilik suyum Səməddi! Comərddi, Süleymandı Səməd! Məhəmməd Əmirdi Səməd! Ağ Əmirdi, Boz Əmirdi, Mədəddi, Suradı Səməd!..”

Mən bilmirəm nə olub orda, gecə niyə elə çıxıbsan evdən. Bildiyim budu ki, sən gedəndən sonra Qurban əmi çox pis dalaşıb Sultan Mamedoviçnən. Açığını deyim sənə. “Beynini yükləsəm” də, bu elə şeydi ki, alayarımçıq danışmaq olmaz, ay Səməd. Açığı belədi ki, Qurban əmi lap əndazədən çıxıb, deyib: “Çağır o evdən belə filan qızını, bu dəqiqə tərkimə mindirib səyirdəcəm atı aparacam, atacam atasının dağılmışına, uşağı xərc eləsin, bir söz-söhbət də burdan çıxmasın”.

Sultan Mamedoviç bacını yox, Xeyrə arvadı çağırıb. Xeyrəni də ki tanıyırsan. Deyib “ata mindirmək olmaz, bu bir, ikincisi qoynu dolu zənəni atası evinə qaytarsan, nə allah götürər bunu, nə bəndə”.

Qurban əmi qışqırıb ki, “Bəs o cavanın dəli-divanə olub düzlərə düşməyini götürərmi allahımız, bəndəmiz?!”

Arvadı qovub, qalxıb yuxarı, yazıq, binəva bacının üstə düşüb ki, Sultan Əmirlinin evi, ailəsi də, oğul-uşağı da Səməddi! Əmirli nəslinin varisini didərgin salsan, nə sən özün xoşbəxt ola bilərsən burda, nə də Əmirlilər. Çıx get burdan, uşağı xərc elə! Sonra da çıx kəndin ortasına, deynən düşmən sözüdü deyilənin hamısı!.. Nə başını ağrıdım, axırda bacı deyib: “Uşaq-zad olmuyacaq”. Özü də gedib atasının evində oturacaq, ölənəcən heç kəsin üzünə çıxmıyacaq.

Atası evindədi indi.

Arvad ərinin damının altında deyilsə, nədi bu, ay Səməd?!

Haqlıdımı Qurban əmi?

Özü də başa düşür ki, haqlı deyil. Dünən Sultan Mamedoviçi yola salanda ayrı hava çalırdı: “Kəbinin də qalsın, uşağın da. Mənə lazım olan budu ki, Səməd onu bir də o evdə görməsin”, – dedi dönə-dönə. Sultan Mamedoviçə söz verdi ki, bacının özünə də, Əlləzoğluynan Hənifə arvada da tapşıracaq, uşağa xətər dəyməsin.

Təklənəndə Sultan Mamedoviçin gözü dörd olmuşdu. Dəli kimi, öz-özünə danışırdı: “Uşaq əldən gedəcək, əldən gedəcək” deyirdi. “Bezobraziye rahat buraxmıyacaq o bədbəxti. Şübhəsiz, felyeton-filan da olacaq” deyirdi. Məni çağırdı. Soruşdu ki, “Ağlın nə kəsir? Səmədnən danışsam, Səməd onun könlünə nur sala bilərmi ki, uşağa toxunmasın?” Özü soruşdu, özü də dedi: “Bircə balamnan danışacam, balamı xilas eləsin! Bir dəfə açıq, mərdanə kişi söhbətimiz oldu, dözmədi. Yəqin təbiidi. Bir də danışacam, Bircə balam özü qurtarmalıdı məni bu dardan! Kürəyimdən yükü götürsün, bir az yaşayım, iş görüm!” Budu, əslində “yük” dediyim. Elm barədə söhbət getmir hələ.

İndi nə fikirdədi Sultan Mamedoviç? Bilmirəm. Məncə, bu fikirdədi ki, məktub yazasan bacıya, mən aparım verim. Bu işi ləngitmək olmaz, ay Səməd. Sultan Mamedoviç Əlləzoğluna deyib qızı gözdən qoymasın. Bədbəxtlikdən o murdarlar Əlləzoğlunu xəstəxanaya basıblar rayonda. Başa düşürsən?!

Çax-çux səndən çox çəkinir. Bilmirəm hansı belə-filan çatdırıb ona həyətdəki o xançal əhvalatını. Elə ona görə KeQeBeyə çağırtdırdı məni bu səhər, hava işıqlananda, dedi Əmirlilər nəfəslərini necə çəkirlər, o da məlumdu bizə. Sizin o Saşanız o biri rayonda KQB-nin rəisiydi. Altmışa qədər “Muğ” buraxdırdı məhkəmədən. Dözdük. Rütbəsini artırdıq, göndərdik Bakıda müavin elədik, öz ayaqlarıynan güllə qabağına göndərdik. Sultanınız da o yolnan gedir. Hansı kənddə, hansı şəhərdə məhz kimlərdi “Muğ”lar – Bağlar, hamısı uçotdadı. Get mənim adımdan de Səmədə, əlini tərpətməsin, səlamət qalsın, ayrılsın UluBağlardan – “Muğanna”lardan. Onsuz da qırılırlar. UluBağlar, OdƏr, Türk-filanlar. Ümumiyyətlə Türkün qəbri qazılıb, hələ o ikiyüzillik müharibə vaxtı – yeddinci əsrdə Türkün Dədəsi hayana gedir, elə qəbir görür”. “İndi işin axırıdı” – dedi. – Səməd başına çarə qılsın”.

Səmədin beynində dəhşətli fikir dolanırdı: gizlətmədi, dedi:

– Sən axı deyəsən elə Bezobraziyeyə işləyirsən, Müslüm!

Şofer elə bil heç nə eşitmədi.

– Mənim vəzifəm düşməni görmək və tanıtdırmaqdı. Açığı, çox böyük təhlükə var, qardaş!.. Məhlə milisənerləri hərlənirlər dəmir yol xəstəxanasının qabağında. Bu səhər benzin götürəndən sonra ora sürdüm maşını. Palatanın qapısı bağlıydı. Açdırdım. Əlləzoğlu özünü üstümə saldı ki, "Mən dustağam burda! Sultana çatdır, evi mənim əlimnən yandırıblar, gözü kölgəli eləyiblər məni, deyirlər "Səməd səni ağaca çırpanda beynin silkələnib". Deyirlər "nöyüt qabıynan kibrit əlimizdədi, ayaq iziyin şəklini çəkmişik. Dilindən kağız verib Səmədi tutdurmasan, beyin zədəsindən ölcəksən". "Sultana sədəqə olum, Səmədi tutdurarammı?!.. "Məni tez çıxartsın burdan, gedim göz-qulaq olum, balama sədəmə toxunmasın".

Belə şeylər dedi Əlləzoğlu.

Vəziyyət elədi ki, allah göstərməsin, özünə qəsd eliyər bacı. Günü bu gün qəsd eliyər. Ondan sonra, dilim qurusun, ölmüş bil Sultan Mamedoviçi!.. – Müslüm köksünü ötürüb, yaylıqla tərini silə-silə Səmədə baxdı. – Əgər beynini doğrudan da yüklədimsə, bağışla.

Ağır yox, "yük" elə dəhşətli idi ki, Səməd maşını elə bu dəqiqə geri sürdürmək istəyirdi.

– Kənddən çıxmamış deyəmməzdin?! Kitabxananın müsibəti düşdü araya... Orda ikicə kəlmə desəydin ki, iş bu yerdədi, bətnində Sultan Əmirlinin balasını gəzdirən qadının qabağında diz çökərdim mən, yalvarardım! Hamının gözünün qabağında yalvarardım... Gülgəzin özünnən danışardım. Təəccüblənmə! Böyük səhv eləmisən, Müslüm! Düzəltmək lazımdı bu səhvi. Özü də təcili! Qayıtmalıyıq! Xilas eləməliyik uşağı, Müslüm! Zəng vuranlar da cəhənnəm olsunlar, Mirqəzəb də, Pers də! Çax-çux da! Bezobraziyeni bircə çıxışnan darmadağın eliyərəm! Bloknotumda çoxlu şikayətlər var. Bir-birindən müsibətli, açıq cinayətlər eləyib Bezobraziye! Döndər maşını! Döndər gedək benzin götür, qazı bas! Əmim düz fikirləşir. Arvadı bilirsən necə adamdı?! Ürəyindəkini gözləriynən deyən lal-dinməz mələkdi! Başqasının ürəyini də bircə baxışnan görən, nadir həssas insandı! Duyacaq, o saat başa düşəcək sözümü! Yorulmusansa, keç bu yana. Rulda çoxdan oturmamasam da, sürrəm. Gözüyün acısını alarsan, sonra özün oturarsan. Döndər! Gedək, yaxşı xəbərnən gələk əmimin yanına!

Təzə yarpaq gözlər məhəbbətlə doldu:

– Qadan alım! Bir dənə oğulsan! Tayın-bərabərin yoxdu! Əmbə qayıdammarıq, qardaşım! Yaxşısı budu məktub yaz, məktubunu aparım. Sənin özünü aparammaram.

– Niyə?!

– Mümkün deyil, ay Səməd. Bezobraziye dağılmasa, qayıdammazsan sən. Tutarlar. Qayıtsan, Sultan Mamedoviçin əhvalı xarab olar burda. Uşağını xilas eləyib gəlib görərsən atası yoxdu.

Səmədin canından üşütmə keçdi.

– Müslüm! Nə çərənləyirsən?! Çoxmu ağırdı kişinin vəziyyəti?!

Müslüm elə köksünü ötürürdü.

– Səni görməsə yaxşı olmuyacaq Sultan Mamedoviç. Bir də... Hər şeyi açıq deyəmmirəm. Açığı... Rayondan qaçırtmışıq biz səni. O murdarların səmtinə qayıtsan, özün orda əlimizdən gedərsən, əmin də burda. Açığı, tələdəsən sən, Əlləzoğlunu elə orda – xəstəxanada öldürüb səni lap asanca, cani kimi güllələyərlər. Görmədinmi qızışıb Çax-çux!

– Müslüm!.. Bilirəm, silahın var sənin bu maşında. Yolda məni qorumağa gücün çatar, istəsən... Sonrasınnan işin yoxdu. Açarı ver, düş keç bu yana! Keç!

Müslüm açarı çıxarıb ovcunda sıxdı.

– Ay Səməd! Dəliqanlılıq yeri deyil. Neyniyə bilərsən axı sən o canavar sürüsü Bezobraziyeyə?! Bəlkə bir tədbirin var, de bilim, sonra verim açarı da!

Səməd tövşüyürdü.

– Bilmirəm... Hələlik ağlıma gələn budu ki, bu Bakı – Tiflis magistralı boyunda mənim çoxlu tələbəlik yoldaşlarım var. Qazı Məmmədlidə, Kürdəmirdə, Ucarda, Göyçayda. Kürdəmirnən Ucarın arasında bir aləm qohum-əqrəbamız var. Vaxtilə Birinci Aleksandr danışıq aparıb İrannan, Ulu Bağın sarayının dörd dövrəsindən, Elvənd dağının ətəklərindən köçürtdürüb ki, özü nəzarət altında saxlasın. Abı danışdı bunu mənə mülkün küllüyündə. Əmma əvvəllər, partiya məktəbində də Elvəndlilər deyirdilər: "Qohumuq biz". Yevlax heç, yığamatdı ora. Əmma orda da var bizdən. Abı deyir Bərdədə lap çoxdu. Ağdam da elə, hamı Ağ Türkdü deyir. Gör nə qədər vəzifəli, vəzifəsiz qohum-əqrəba sahibiyik biz! Bezobraziyenin qanını içməyə hazıram! Ver açarı! Düş, keç bu yana!

Müslüm üzünü yuxarı tutub, ağzını açıb, dərindən nəfəs aldı. Onun da havası çatışmırdı. Əmma şəhərdə ağır bürküyə yox, professor Məhər-

rəmovun evinin cəmi yüz-yüz əlli addımlığında dayandıqları bir vaxtda Səmədin qaynadığına dözmürdü.

– Sən Ucar, Kürdəmir-filan deyirsən. Buralardı tanıdığın-bildiyin. Mənim babalarımın əsli bilirsənmi hardandı? Qarsdandı, Borçalıdan o yanda AğBabalıdandı. Hamısı Ağdı ey! SafAğ! Ağ tərik – Türk! İndi tək Qarsdakılar qalıblar. AğBabalı mahalını büsbütün köçürdüblər yurd-yuvalarından. Sən elə bilirsən tək Vatikannan Eçmiədzinin, Rusun əməlidi bu? Xeyr, qardaşım. Allah bilir hansı əsrdə "Rey"dən – ƏrEydən qovublar AğBabaları. "Baba" deyillər, BağBağÜn. "Bababani" adı daşıyan BağBağÜnlər. ƏsƏrEy OdƏrləridirlər... İndi gör nə deyirəm: Sultan Mamedoviç xeyli adam gizlədib orda-burda AğBabalıların. Bəzilərini Moskva, Leninqrad Yevreylərinin himayəsinə göndərib, bir aləm xərc çəkiblər adlarını dəyişdirib pasport alıblar, gizlin yaşayırlar. "Xəzinə"mizin əsli, ən qədimi Vatikandakı o Papa adlı İlanın altındadı. Bağları hər yerdə batırır, qardaşım! Hər yerdə! Belə bəladı bu. Sənin Ucarınmucarın, Kürdəmirin, Ağdamın-filanın neyniyə bilər Bezobraziyeyə?! Nə Stalin ölüb, nə Hitler, nə də ilanlar padşahı – şahmar İlanın minlərnən Stalinləri, Hitlerləri!.. Əvvəl-axır belə söhbət olmalıydı bizim aramızda. Bədbəxtlik burasındadı ki, EsƏrEydən OdƏrlərin xəbəri olmayan "Yevrey"lərin, "Cühud"ların əliynən öldürürlər bizi, qardaşım! Elələri də ki, bilirsən, yüz-yüz milyonlarnandı bu xaraba dünyada!.. Başa düşdünmü dediyimi?! Mətləbim əvvəlkidi: səbrini bas! Kükrəmə! Qayıtmaq olmaz, qardaşım! Səbr! Səbr! Səbr elə, qadan alım! Bir-iki bayram böyügəm səndən. Özün bilirsən, çox istəyirəm səni. İndiyəcən bir dəfə də sözündən çıxmamışam. İndi də çıxmaram. Qayıdaq deyirsən, qayıdarıq. Əmbə səbr elə, qulaq as, başqa sözüm də var.

İndi eşitdin ki, mən heç kəsdən az bilmirəm ətrafımızda baş verənləri. Bu heç. Qırx ikinci ildə rulda oturanda mənim cəmi on altı yaşım vardı. Dost-tanış danlayırdı Sultan Mamedoviçi ki, "Belə ana uşağına da rul tapşırarlarmı?" Hamı təəccüb eləyirdi ki, əldən-ayaqdan saz, möhkəm şoferləri qoyub niyə bu "quşu" götürüb Sultan Mamedoviç. Sonradan açıldı ki, general Pers, Xudiyev dəstəsini divara qısnayıb şeyx qardaşlarının barəsində material istiyəndə, elə o vaxtlar hər səhər xaş yediyinə görə Xaş nəçənnik deyilən NKVD Gülənov hər xaş vaxtı Sultan Mamedoviçin bir şoferini içirdib leşə döndərirmiş, sürüyüb Gəzəyən Şənbənin otağında lüt-üryan soyundururmuş, ayılanda da təpiyin altına salırmış ki, "Bizim rabotnikin namusuna sataşmısan! Şeyx qardaşlarının

şpionusan! Şənbəni ələ keçirib məlumat almaq istəyirsən!..” Gülənovun dalınca Sayılov çarmıxa çəkirmiş şoferi, Sayılovun dalınca Pers özü!.. Qırx birinci ildə qoşunumuz o taya keçəndə Culfada Xudiyev açıb bu sirri Sultan Mamedoviçə, deyib: “Tarixin təkəri sizin xeyrinizə fırlanır. Əmbə siyahımıza düşən şoferlərdən uzaq olmasanız, təkərin altında qalarsınız”. Sultan Mamedoviç yoxlayıb görüb raykomnan RİK-in qarajında tək bir nəfər milisə düşməyib, o da şoferlərin əldə-ayaqda buyurduqları “Quş”du. Öz adı Müslüm, atasının adı Müslüm, familiyası da Müslüm. O saat tanıyıb, deyib: “Tez bura çağırın o Müslüm Müslüm oğlu Müslümü”.

İçəri girəndə gördüm ayaq üstədi. Dedi: “Xəbərin varmı ki, atan Müslüm Müslüm oğlu Müslüm qəza komitəsində mənim şoferim olub, vuruşmada mənim bu qolumun üstə keçinib?” Dedim: “Bizim evdə səhər yerimizdən qalxanda da o barədə danışırıq, günorta da, axşam da”. Dedi: “Mən istəyirəm atanı əvəz eliyəsən”. Dedim: “Mənim bundan böyük arzum yoxdu”. Dedi: “Arzuna çatmaqdan ötrü get pasport al. Gəl pasportunu göstər, əmrini al. Ordan da get qaraj müdirindən açarı al, maşını qarajdan çıxart. Əmma bir şərtnən götürürəm səni. Bığın, saqqalın çıxmamış, indidən yadda saxla: hardasa, kimsə bir qədəh araq təklif eləsə, bil ki, Gülənovun tapşırığıynan verir. Hardasa, kimsə, bir zənən xeylağı üzünə gülümsəsə, bil ki, Gülənovun tapşırığıynan gülümsəyir”. Dedi: “Hamı bilir, sən də bil: Xaş nəçənnik Gülənovun iki qorxunc silahı var: birincisi araqdı, ikincisi zənəndi. Bu silahlardan özlərini gözləmiyənlər, tələyə düşürlər, ömürlük tələdə qalırlar”... Beynim qanıydı. Çox təəccüb elədim ki, araq nədi, zənən nədi, Sultan Əmirli kimi adamın dilində nə söhbətdi bu? Demə, o günü Sultan Mamedoviçin ən tərifli kolxoz sədri Cəbrayıl kişini tələyə salıbmışlar o murdarlar. Görmüş olarsan, Tahirlidə Sürməli Söylü adında gözəl arvad vardı. Əri Muxtar Sultan Mamedoviçnən, Qurban əmiynən, atamnan bir atryadda vuruşan adamlardanmış, kolxoz sədriymiş. Müharibə başlayan günü yerini Cəbrayıla verib əsgər gedibmiş. Qırx ikinci ilin yazında “Qırılan diviziyada qırılanlar”nan bir yerdə ondan da qara kağız gəlibmiş. Qurban əmiynən Sultan Mamedoviç o Sürməli arvadı kursa göndərmək istəyirmişlər ki, kursdan qayıdanda Tahirlidə partkom seçsinlər. Murdarlar guya Muxtar kişinin ailəsinə yoluxmaq münasibətiynən gedib Sürməlinin evində məclis düzəldiblər, Cəbrayılı da ora çağırtdırıblar, içirdib leşə döndəriblər, çıxanda Sürməlinin də boğazına konyak töküblər, içəridə qoyub,

eşikdən qapını bağlayıblar, kəndə səs yayıblar, qalmaqal qaldırıblar ki, bəs Cəbrayıl əsgər ailəsinin namusuna sataşıb, öz dostu Muxtarın arvadını zornan arvad eləyib özünə.

Getdik gördük Sürməlinin böyük oğlu Cümrünün başına hava gəlib. Kiçik oğlu Tapdıq az qaldı özünü "Emadin"in altına salsın. Sultan Mamedoviçin yaxasından yapışdı, qışqırdı ki, "Cəbrayıl tutulmalıdı! Tutulmasa, öldürəcəm onu!"

Maşını qarajdan çıxardan günü belə şeylər bildim.

On iki il keçib o vaxtdan.

Lüt Cəfər kimi durub-toxtamış kişini tələyə saldılar o Bezobraziye murdarları! Cəfər əminin evinin ətrafında on iki evi birdən xaraba qoydular! Axırda Sultan Mamedoviçin özünü tələyə saldılar! Çapalaya-çapalaya qalıb! Dünən tələsiyə düşdü, bu torbaynan termosu çatdırammadım, indi əlim ürəyimin üstədi ki, dərmənsiz qalıb, görəsən necədi halı?!

Mən boş-bekara söz danışan deyiləm, qadan alım, qardaş. Bezobraziye qudurmuşları Əlləzoğlunun "beyninin zədələnməsi"ni "eşq dəlisi" adına yazıblarsa, aydın deyilmi ki, qudurmuş it tutub səni?! Cəbrayıl kişini, Cəfər əmini tutan it tutub! Sultan əmini tutan it tutub! Hamanca zənən tələsidi, qadan alım, özü də lap yekəsindən!

Dünyada yeganə doğru elmnən kamil insan yetirmək yolunda can qoyanların tərbiyəsindən çıxıbsan sən. SafAğı mükəmməl bilməsən də irsiyyətcə Ağsan! Qəlbin billurdu! Ona görə də tez aldanansan. Hər rayonda lap min qohumun, dostun da olsa, Bezobraziyeyə qalib gələmməzsən! Bayaq danışdım Bezobraziyenin miqyasını...

Səməd öz dəyişmiş səsinin xırıltısını eşitdi:

– Müslüm!.. Çax-çuxun sözüynən saxlamamışdınmı maşını sən küçədə?! Mən ayıq tərpənməsəydim vurmalı idi o məni! Qucağında siyirmə xançal vardı! "Mikroilan" deyilsənmi sən özün?!

Müslümün rəngi ağardı.

– Yox! Yox! Nə danışırsan, qardaş! Mikroilan olsaydım, elə o körpüdə güdaza verərdim səni.

– Orda sən özün də avariya qurbanı olardın. Ona görə qaçdın. Düzdü?!

Səmədin əlləri bayaq Çax-çuxun boğazına necə yönəlmişdisə, indi də elə yönəlib Müslümün ağzını-burnunu bir-birinə qatışdırdı.

– Danışma! Bəsdi zəhərin! Şofer deyilsən sən, çoxbilənlərdənsən! Sür!

Maşın Nizami kino-teatrının qabağından sola burulub, 28 Aprel küçəsinin solunda, hər mərtəbəsi azı dörd metr hündürlüyündə, köhnə ikimərtəbə bir binanın kino-teatra baxan tərəfində dayandı. Səməd bunu bilmədi. Özündə deyildi.

Müslüm termosla büzməli torbanı və qəzetə bükülü "padnos"la stəkanı qoltuğuna vurub düşüb, fırlanıb sağdakı qapını açdı, başını bulaya-bulaya, qanamış burnunu, gözlərini sildikcə, qanını göz yaşına qata-qata, qoluna girib Səmədi qalın, hündür, boz bir qapı qabağına apardı, geri yüyürüb, maşının qapılarını açarla bağladı, qayıdıb yenidən qoluna girdi, Səməd bunları da bilmədi. Sarsıntıdan ancaq onda az-çox ayıldı ki, Müslüm əlini qapıya uzadanda yuxarıda zınqırov cingiltisinə bənzər cingilti eşidildi. Boz qapı açıldı. Müslüm onu ikinci mərtəbədə geniş, yarıqaranlıq foyedən keçirib, – çatdıq, – dedi.

## 2

Bir nəhəng otaq solda idi, azı iki metr enində, taybatay açıq qapı arxasında – uzaq divar dibində şifonerlərdən və taxtlardan məlumdu ki, ora "spalni" – yataq otağı idi.

Bir nəhəng otaq da sağda idi, azı iki metr enində, taybatay açıq qapı arxasında – uzaq divarda uca rəflərdəki kitablardan məlumdu ki, ora kabinetdi.

"Spalni" ilə kabinetin ortalığındakı meydan genişliyinin üzərində büllur çilçıraq yanırdı. Çilçırağın altında nəhəng, çılpaq stolla qədim, ağır kreslolardan başqa heç nə yoxdu. Stolla kreslolardan o yandakı divar iki nəhəng pəncərədən və nəhəng qapıdan ibarətdi. Pəncərələr də, qapı da taybatay açıq olduğuna görə, bütövlükdə azı üç yüz kvadratmetrlik mənzilin saray genişliyindən küçənin üzərinə uzanan balkonun özü də ayrıca bir otaq kimi görünürdü. Sultan əmi orada – balkonun ağlı-qaralı metləx döşəməsində, böyük xalı – zili üstündə, yalxı maykada, üzü üstə uzanıb, ovcundakı yaylığı alnına sıxmışdı.

---

[3] Stalinin ifadəsi.

[4] Stalin sıravi vətəndaşları "vintiklər" adlandırırdı.

[5] Nizaminin iqtəsi (hakimiyyəti altında olan sahə) – Gəncədən Abxaziyaya qədər ərazidə AğEy – "Əxi" icmaları təşkil edilmişdi.

Səməd dumanlı təhlükə hissi ilə dolu canında, ruhunda nə baş verdiyini bir o qədər anlamadan dayanıb, gah əmisinin çilçıraqdan işıldayan islaq, çal saçına, burulub gərilmiş boynunda tərə, gah da ağır bürkü və sükut içində kimsəsiz otaqlara tamaşa edirdi. Çoxbilmiş şoferin törətdiyi sarsıntıdan sonra elə bil qat-qarışıq yuxudan oyanmışdı, bu bürkü və sükut içində əhalisi bağlara, sahilləri, parklara dağılışmış avqust Bakısına düşdüyünü indicə anlayırdı. İnana bilmirdi ki, cəmisi beş gün bundan əvvəl, bu cür bürkü və sükut içində çamadanını götürüb, qapını bağlayıb, açarı komendanta verib vağzala getmişdi, orda – altıncı vaqonun ayaqlığının yanında bir az sərinləmək üçün dayananda perronun qələbəliyində o yaşıl vilyur şlyapanı, dəyirmi fanar gözləri, zərif, gümüşlü trubkanı görmüşdü.

İnanmaq mümkün deyildi ki, cəmisi iki gün bundan əvvəl bu doğma, əziz adamın bu islaq, işıltılı çal saçlarını o qara, qıvrım saçların arasında görmüşdü, "Sultan Əmirli adında möhtəşəm dünya" uçub dağılmışdı, "ideal" ölmüşdü və idealın Bircə balası ağ daş binadan qaçıb, boşluq-heçlik içində çalxanandan sonra, o qəbir kimi dar nömrədə, taxtabitili çarpayının yanında eynilə bu cür – üzü üstə döşəli qalmışdı. Möcüzə kimi bir şey idi ki, Qılınc Qurbanla Xızr Abı "ölü səcdəgahı" diriltmişdilər, əvvəlki idealla müqayisə edilməz dərəcədə böyük, o tay-bu taylı vətəninin heyrətli igid, alim çekistinə çevrilmişdilər və əmini tezcə görməyə can atan xoflu Səməd, indi "Muğ" nəslindən "Müəllim"in mənzilində yox, sözün əsl mənasında ibadətgahda dayanmışdı, üzü üstə döşəli idealı görər-görməz qaynayan göz yaşını uda-uda, qəlbinə-ruhuna hakim səcdəgahına – vətənin fədaisinə səcdə eləməyə tələsirdi.

Ayaqqabılarını çıxarıb cütlədi, aparıb qapının dalına qoydu, orda nəhəng çəllək içindən uca tavanın ortasındakı dəyirmi, bacasayağı şüşəli yerə qədər uzanmış palma ağacının altındakı yumşaq dəri çəkələklərdən birini ayağına keçirib, ibadətgaha bu dəfə necə lazımdısa o cür – ustufca girdi, kandardan Müslümü yana itələyib, qapını da ustufca çəkib, balkona yönəldi.

Gedə-gedə gördüyü birinci bu oldu ki, əmisinin boynunun, sol üzünün rəngi ovcundakı islaq yaylığın rəngindən seçilmir. Eşitdiyi isə bu oldu ki, əmisi inildəyir – yatır.

Xalıya çatanda çəkələkləri də çıxarıb, əmisinin böyründə çöməldi. Əgər Sultan oyaq olsaydı, yəqin ki, mütləq fikir verib görərdi ki, o taxtabitili mehmanxanada, o dar nömrədə qardaşoğlunun yanında əyiləndə

necə dizləri üstə düşüb, boyun-boğazını necə ovuşdurmuşdusa, burda Səməd də eləcə dizləri üstə düşüb, boğazından yapışıb nəfəs almağa çalışırdı. Əmma bunun səbəbi heç də təkcə o deyildi ki, Sultan Əmirlinin sifətinin rəngi ovucundakı islaq yaylıqdan seçilmirdi. Səbəb bir də bu idi ki, mərhum qardaşı kandarında çəmənotu və qazayağı bitən, tavanında qaranquşlar uçuşan evdəki dəmir çarpayısında necə yatardısa, Sultan əmi də o cür, qurbağa kimi, qıçının birini qarnına yığıb, mütəkkəni qucaqlayıb, sağ üzü üstə yatmışdı. Gözünü açıb dünyaya baxdığı gündən əmisini atası ilə yanaşı gördüyünə baxmayaraq, Səməd burda birinci dəfə görürdü ki, qardaşların profilləri bir-birinin eyni imiş. Saçın, alnın geriyə yatımı, gicgahın, bığın sığalı, alt dodağın xətti, burnun pərəsi elə oxşayırdı ki, elə bil Sultan Əmirli deyildi, sədr Mədəddi, yeddi il səkkiz ayda qocalıb, dünyaya çal saçla qayıtmışdı.

Səməd nə Bezobraziye murdarlarının gözündən yayınmaq üçün "qaçırıldığını", nə də müsibət içində olan ac-yalavac kənddən ayrılıb Bakıda qalmaq təhlükəsini unutmuşdu; bunlar elə şeylərdi ki, əmi əvəzinə indi doğrudan da atasını görsəydi, bəlkə onda da unutmazdı. Əmma hər şey bu üzgün xəstə fədainin taleyinə bağlı idi. Küçədə maşınların qıjıltısı ara verdikcə Səməd onun iniltisindəki sızıltını, göynərtini də eşidirdi. Uzun illər ərzində qoşa çarpayılarda yanaşı yatanda kar qalmışdı, indi isə eşidirdi. Çünki indi tək Sultan Əmirli yox, qurğuşunlu nalın zərbəsindən gicgahı partlayıb dağılmış sədr Mədəd də inildəyirdi, Bircə bala özü də inildəyirdi, top atəşi altında qalan fədailər də inildəyirdilər, partbiletinin arasında Məhəmməd Əmir, Ağ Əmir, Boz Əmir də inildəyirdilər.

– Gəlmişəm, ay əmi... Gəlmişəm...

Yaş Səmədi boğdu. Müslümün çöməlib termosu açdığını, haman qara "padnos"da stəkana "dirilik suyu" tökdüyünü və çiyninə toxunub kişini oyatdığını görmədi. Əlini əmisinin kürəyinə qoyub, özü asta-asta tərpədirdi.

– Oyan, əmi... Nə qədər inildiyərlər?!. Qoymaram daha inildiyəsən! Qoymaram!.. Kar olmuşam, eşitməmişəm sənin bu iniltini. Kor olmuşam, səcdəgahımı, möhtəşəm dünyamı görməmişəm, tanımamışam. Qurban əmi hər şeyi danışdı mənə. Düşmənimizdən eşitdiklərim də yadıma gəlir indi. Stalinə məktubunu, o tayda, bu tayda olanları, hər şeyi bilirəm. Səcdənə gəlmişəm! Eşidirsənmi? Deyirəm səcdənə gəlmişəm. Əsirinəm, qulunam, sənin, əmi. Ömrümü sənə həsr eliyəcəm. Əsl həyatın, əsl ömrün bundan sonra başlanacaq. Ailən, uşağın da olacaq.

Bircə balan xüsusi fəaliyyət göstərəcək. Eşidirsənmi, əmi? Bezobraziye murdarlarına divan tutacam!.. – Hönkürtü arasında içərisindən elə təpər gəldi ki, hətta əlini əmisinin kürəyinə şappıldatdı. – “Kadr həll eləyir hər şeyi!”[3] Kadr, ay əmi, kadr! Xalqın qatili Bezobraziye kadrlarıynan qırmayıbmı sizi?!. Əvvəllər o qədər başa düşmürdüm mən o qatilin şüarını. İndi bütün varlığımnan dərk eləmişəm. Tək bir nəfər namuslu prinsipial kadrın fəaliyyəti bütöv bir kollektivin fəaliyyətinə bərabər ola bilər. Kim nə deyir desin, şəxsiyyət lazımdı. Qatil yox, kamil şəxsiyyət lazımdı bizə. Məqsədə qan seliynən çatanları şəxsiyyət adlandıranlarnan döyüşəcəm, əmi! “Vintik”ləri[4] “vintik”dən də betər, dilsiz-ağızsız, lal-kar bədbəxtlərə döndəriblər! Nəinki mərkəzdəkilər, mən kimi sıravi təlimatçıların hər biri də kamil insan olmalıdı! Lapatka, kətmən tutanlar da rəzillikdən qurtarıb, məhz sənin arzuladığın kimi kamil adamlar olmalıdılar.

Tamam unutmuşdum, elə bu dəqiqə yadıma düşdü ki, Nizaminin anadan olmasının yüz illiyindən xeyli keçmişdi. Üç ilmi, beş ilmi? – unutmuşam. Gecənin bir vaxtı sənin qışqırtına oyandım. Telefon qulağında, “Kommunist” qəzetinin redaktoruynan danışırdın: “A kişi, ay Xasay, sən necə redaktorsan ki, bu vaxta qədər “Xəmsə”ni oxumamısan!” – deyirdin. “İxtisar olunan Xəmsəni saxla, Stalin yoldaşın əmrindən, akademik Bertelsdən yadigar qalsın. Sən yubileydən əvvəlkini oxu, gör Nizaminin iqtəsindəki[5] AğEy – “Əxi” icmalarıynan bizim təxminən otuz dörd-otuz beşinci illərdəki “kolxoz”un fərqi nədi? Qardaşım Mədəd neyləmişdi, yadındadımı? SSRİ-nin hər yerində “Kolxoz Nizamnaməsi”ni atmışdılar getmişdi. Mənim qardaşım Mədəd məhz o ilk nizamnamə əsasında əməlli-başlı AğEy icması yaratmışdı: kollektivin əməyinin bəhrəsini – əmtəəni hər kəsin əməkgününə əsasən bərabər bölürdümü? Ümumi fonddan xəstələrə, şikəstlərə fond ayırmışdımı? Lap lütlərə fondun hesabına ev tikdirirdimi? Və sairə, və ilaxirə, nələr eləməmişdi Mədəd! Nəyin əsasında? “Nizamnamə”nin altında İosif Stalinin imzasının əsasında! Bəs Stalin hardan götürmüşdü o ədalət mücəssəməsi “Nizamnamə”ni? Nizamidən götürməmişdimi?! Sonra siz, siz, siz fəal kommunistlər bütün ölkədə yaydınız ki, kolxozun məhsulunu xalq içində bol-bol paylaşdırıb, dövləti kənd-təsərrüfat məhsulundan məhrum edən solçu – Nərimanovçu Mədəd Əmirlinin simasında biz “kulaçestvalı”, varı başından aşan feodalları bərpa edən antikommunistlər görürük!..” “Bu dərəcədə yalan-palan böhtanları kim verib sənin adı

"kommunist" özü antikommunist qəzetinə?!" Görürsənmi, necə kəlməsinə qədər gəldi yadıma sənin telefonda qışqırdıqların?! Cəngavər gördüm mən o gecə sənin simanda!.. Sonra "Bakinski raboçi" qəzetində cavabın çap olundu o böhtançının əleyhinə! Yadındadı? Mirqəzəb əlacsız qalıb tribunadan tərifləmişdi səni! Niyə? Çünki sənin mövqeyini müdafiə eləyə-eləyə Mirqəzəb öz nüfuzunu qaldırmışdı xalqın nəzərində. Sonra da parovozun dalına tək qoşulan vaqonuna minib rayonları gəzə-gəzə kolxoz sədrlərini xəlvətcə asıb-kəsmişdi ki, "Mədəd Əmirli şirmadı əlimizdə. Siz noturplata vergisini ilk növbədə ödəməlisiniz dövlətə! Camaat dolanar..." və sairə, və ilaxirə. Bizə məhz indi o zamankı Sultan Əmirli, o zamankı Mədəd Əmirli kimi cəngavər, obyektiv kadrlar lazımdı.

Yoxdu! Məhv olub hamısı! Atam elə, sən də belə – üzü üstə! Kim yaradacaq Nizaminin "utopiya" damğasıynan damğalanan AğEy – "Əxi" icmasını?!

Ac, sıxıntılı, büzüşük adamlardan ibarətdi kəndimiz! Sənin bu çoxbilmiş şoferin qaynadıb içərimi, bayaqdan özümə gələmmirəm. Guya cəmiyyət elə korlanıb ki, daha ancaq Bezobraziyedən ibarətdi xalq! Uca şəxsiyyət Sultan Əmirliynən yetirdiyi uca şəxsiyyətlər, büllur ürəklər acizdilər?! Deyirdin sındırıblar səni. İnanmıram! Eşidirsənmi? İnanmıram! Murdar Bezobraziyenin qurğularından sarsılmamalısan sən! Mirqəzəbin taxta çıxdığı vaxtdan indiyə qədər müsibətlərə necə sinə gərmisən, bundan sonra da o cür mətin dayanmalısan! Vurub dağıtmalısan! Kürüyüb atmalısan! Uca şəxsiyyətlərə, gözəl insanlara yol açmalısan! Bilmirəm harda eşitdim, iki kəlmə demisən: "kürüyəcəm atacam". Proqram olub məndən ötrü bu iki kəlmə. Belə bir vaxtda sənin döşəli qalmağa ixtiyarın yoxdu! Eşidirsənmi?! Bu çoxbilmişin dedi, açıq, mərd söhbət eləmək istəyirsən mənnən. Bircə balan özü elə sən kimi fikirləşir. Sultan Əmirlinin ailəsinin yanından yel də keçmiyəcək! Ağır söhbət deyil bu məndən ötrü daha. Öz yetirdiyin balanam sənin. Bədbəxtlik bundadı ki, Bircə balan da qanmaz olub, ətrafında baş verən hadisələri qanmayıb, səni tanımayıb! Məncə, arvadın da hələ yaxşı tanımır. Nə bilir o sənin barəndə? Dörd ayda dediyin dərsdən bir şey qalıbmı beynində onun? Danışacam! Özüm danışacam! Mən sənə necə səcdə eləyirəmsə, o da elə səcdə eliyəcək! Sənin balanı qucağımda böyüdəcəm, fəxrnən, qürurnan başımın üstə gəzdirəcəm! Mərd kişi söh-

bəti yox, oğul-ata söhbəti eləyirəm sənnən. Tamamilə doğru demisən ki, bizim aramızda ən xırda şeylərdən də sui-istifadə eləyirlər.

Bu gündən belədi, bundan sonra da belə olacaq: ürəyimi, beynimi ovcunda görəcəksən həmişə. Başqa cür mümkün deyil, əmi! Mədədin olacam sənin. Mənə hələ təzə çatır atamın vəsiyyəti. İndi-indi dərk eləyirəm "Allah" nədi, ƏlAğ nədi! Ulu Bağ ƏsƏlMən kimdi, UluBağlar nəsli nədi? OdƏr bəşəriyyəti nədi? "Vərəsə" kitabxana ətrafında olanlar, mülkümüzün yandırılması, divarların elə təcili dağıdılması, Abının, qocaların elə dizin-dizin, sürünə-sürünə vərəqləri yığmaqları indi-indi çatır mənə. İndi-indi qanıram Xızr Abının böyüklüyünü. Öyrənəcəm Elmi! Mütləq! Eşidirsənmi?!

Enli kürək Səmədin əlinin altında qalxıb endi. Sultan köksünü ötürürdü.

– Eşidirəm, eşidirəm...

Səməd gərginləşdi. Əmma əmisi gümrah danışdı:

– Hamısını eşitdim. Sözün canıma sarı yağ kimi yayıldı, Bircə balam! "Bakinski raboçi"dəki o məqalə yığışdırılmışdı. Əmma Moskvaya çatmışdı. Stalin çağırıb Bertelsi biabır eləmişdi ki, "bu gün-sabah şəhərlərdə çörək olmayacaq, sən öz dostlarına Nizaminin utopik cəmiyyətini təbliğ etdirirsən! Bertels məcbur olub xüsusi məqalə yazmışdı ki, "Əxi cəmiyyəti böyük Nizaminin təxəyyülündən ibarətdir. Qədim Azərbaycanda elə cəmiyyət olmayıb..." Dözəmmədim, yazdım. Bertelsin bir cavan əla oğlu var: Andrey Bertels. Ona yazdım, poçtnan yox, əlnən göndərdim ki, "Xəmsə"nin xarici dillərdə tərcüməsindən məhz Əxi cəmiyyəti haqqında yerləri xüsusi təbliğ elətdirsin. Heyif, nədənsə cavab almadım. Əmma Mədəd öz işindəydi öz kolxozunda. Mirqəzəb dillənmirdi. AğEy icması əvəzinə "milyoner kolxozlar" ideyası atmışdılar ortalığa. Bir rayonda, iki rayonda iki milyoner kolxoz, vəssəlam. Pokazuxa!

Qalxıb oturdu. Pırpız qaşların altında boz-ala gözlər gülürdü.

– Mədəd həmişə bax beləcə dirildirdi məni. Torpağı sanı yaşı-yasan! İşıqlı balam! İgid balam!.. Səməd deyilsən, SimOdsan! Nursan, Nur balam!

Səməd gözlərini sildi. Sol döşünü sıxıb, ürəyini sakitləşdirməyə çalışdı.

– Yaxşısan indi?

– Görmürsən?.. Əmma "dirilik suyu"na ehtiyacım var.

Müslüm o dəqiqə stəkanı doldurdu.

Səməd, hələ də əli ürəyinin üstündə, ayağa qalxmışdı.

– İndi icazə ver qayıdım rayona.

– Nə?!.. – Sultanın qaşları endi. – Nə danışırsan?! Saşanı bu gün güllələyiblər. Mən igid məsləkdaşımdan məhrum olmuşam! Məhərrəmnən təklikdə görüşməyimi qadağan eləyiblər. Xalıq Qudalovun ətrafında böyük dəstə işləyir əleyhimizə!.. Əlimdən buraxarammı səni?! Tezdən məhkəmənin səhər iclasına aparmalıyam. Hökmən iştirak eləməlisən! Vətənimizin bütün tarixi açılıb-töküləcək orda. Dinləməlisən!

– Yox, əmi!.. Üzr istəyirəm səndən, bu saat, bu dəqiqə qayıtmasam, ailə söhbətinə təcili son qoymasam, başqa söz girməz beynimə! İnan.

Sultan baxdı, baxdı, gözləri doldu.

– Çox tərs, çox inad böyütmüşük səni... Yaxşı pivə var. Çörək ye, bir az da dincəlin, sonra da qayıdarsınız.

Səməd əlini Müslümə uzatdı:

– Açarı ver!

Əslində, Sultana da aydındı ki, Müslümə verilən tapşırıqdan, yəni yolda söhbətdən sonra, bu təcili gəlişin gedişi də vardı. Odur ki, "Bakıda qalmaq", "Məktub yazmaq" barədə danışmağı münasib bilməyib razılıq verdi. Müslüm YemSən torbasından iki-üç ovuc götürüb, qəzetə büküb cibinə qoydu və maşının açarını elə burdaca Səmədə verməli oldu.

Səməd:

– Sağ ol. Bir də xəstələnmə! – deyib qapıya meyilləndi. Əmma Sultan sözlü adama oxşayırdı:

– Demək istəmirdim, əmma, şərt qoymuşam: biz maksimal açıq olmalıyıq, qardaşoğlu. Mən yalnız qatil deyiləm, həm də... həm də inkvizitoram: sözüm işgəncə verir hamıya. Sənə işgəncə verməliyəm. Xızr Abı Gülgəzə deyib: "Oğlun olacaq". Get onu qoru, məni, bəlkə hətta səni də əvəz eləyənimiz olsun!.. – Birdən səsini qaldırdı: – Heyrətnən baxma mənə! İş belə getsə, "Muğ" – Bağ qalmıyacaq! Get, əməl elə tapşırığıma! Əmrdi bu! Mənim yox, əbədiyyətə gedənlərimizin əmridi!

---

[6] SafAğ rəmzidir: "Durna" ("Turna") – "Bizim OdƏrlər", OdƏrÜn – OdƏr səslilər, qərib səslilər, təriklər – "Türk"lər; "üç telli, dörd telli, beş telli" – "üç dilli, dörd dilli, beş dilli" (çox dilli) "Durna".

Səmədin əmgəyi buzlaşdı, gözləri torlandı.

Sultan ona baxıb bu dəfə çox pis inildəyib, üzü üstə döşəndi.

– Dayan!.. Ayaq saxla... – dedi. – Ürəyin böyükdü! Bilirəm, xilas eliyəcəksən o bədbəxtin körpəsini... özünə təsirin də böyük olacaq. İnanıram. Güclüsən, Bircə balam!.. Bircə sualıma cavab ver... Mədədin başına gətirdiyimi unudammıyacaqsan axı! Düzdü?.. Mərd ol! De! Qatiləm mən, yox?! Bax, burdan başla sözünü!

Səməd alnını ovuşdurub başını köksünə endirdi.

Sultan inildəyirdi:

– Mədəddən başqa neçə-neçə batin Bağımız gedib... Bağ deyəndə diksinmə. Elmimizin beş faizini də bilmirsən. Bir var yaradanlar – xaliq Bağlar. Yəni EyOdƏr Baba, BağBağÜn Baba, Bağ Ata, dörd oğlu. Onların beyinləri bütün Kainata bağlıdı. Bütün Kainata! Yəni planetlər, canlılar, cansızlar, bütün OdƏr bəşəriyyəti Onların beyinlərinə bağlıdı... Bir də var biz "Muğannalar" – UluBağlılar. Biz xaliq deyilik. Bizim Bağlığımız Ün eşitməkdən, eşitdiklərimizi yazılı, şifahi şəkildə Yer bəşəriyyətinə çatdırmaq, insanı nəsilbənəsil maarifləndirmək, saflaşdırmaq, ucaltmaq, ƏlAğ EySarın Ününü eşitmək dərəcəsinə çatdırmaq, Yerdə EySarın Əlləri – işləyənləri olmaq... Bu cür dərs keçməliyəm mən sənə. Mən olmasam, bir başqa AdıPünhan müəllimin olar. Əmma... Əmma, məni bu hala salan sözün əsil mənasında cinayətimdi!.. Qorxum bundadı ki, bağışlayammıyacaqsan məni, yaran qövr eliyəcək... Pişəvərinin taleyi də var... Nəcəfoğlunun taleyi də... Ümumi işin xatirinə çox adam qurban gedib... Elə üzgün vaxtlarında Abını, Çürüyü evə çağırdım, işə qoşdum... Hamısı düşmənin ovcundadı. Yaşa-zada baxmır Sovet rəhmsizliyi. Göyçəli Aşıq Sadığı işə qoşdum, Alı əmini, oğlunu – Aşıq Şamili işə qoşdum. Qaratəpədə – "Qardabani"də gözümün qabağında zəhərlədilər Sadıqnan Şamili, şam kimi əridilər, söndülər... Bu dediklərim barədə Qılınc Qurbannan söhbət elə. Hiss eləsən ki, doğrudan da bağışlaya bilirsən əmini, bax onda gəl... dərsə gəl... Get indi. Uğur olsun. Əmma açarı Müslümün özünə ver. Sən fikirlisən, maşın sürəmməzsən. Gedin! Get! Ölmərəm! İt canıdı Sultan Əmirlinin canı! Get!

---

[7] "Doktor son dərəcə namuslu adam idi".

[8] "Yenə hiyləgərlik edirsən, Sultan Mamedoviç. Ancaq mən ümidimi itirmirəm ki, gün gələcək, ağlını başına yığacaqsan və kömək edəcəksən bizə ki, baş açaq bu dolaşıqlıqdan..."

## 3

...Heç yerdə dayanmadan, dincəlmədən qayıtdılar.

Səhərə yaxın maşını birbaş Əlləzoğlunun həyətinə sürdülər. Səməd, açıq qapı arasından içəriyə: – Mənəm! – dedi.

– İşdən sonra evdə olun. Gələcəm. Əmimin ismarıcı var... arvadı, uşağı barədə. Tələf eləmək olmaz o uşağı! – dedi. Əlləzoğlu qəlyanın tüstüsünü üfürmək əvəzinə udub boğulub, xırıldaya-xırıldaya qaldı. Hənifə qarı tir-tir əsib sevincdən hönkürdü...

Səməd heç nə görmədi, heç nə eşitmədi.

Ordan qayıdıb Şüşəli pavilyonda çay içib, "böyük adamlardan ötrü düzəldilmiş", "dal otaq" adlanan genişlikdə açıq pəncərələr qabağında – sərinlikdə yatdılar.

Gün günortaya çatanda Səməd yenə şaxımış günəş altında idi...

* * *

Qulaqbatırıcı sükut yaradan gur cırcırama ötüşməsi içində kim isə sədr Mədədin mahnısını oxuyurdu:

– "Sən haralısan, haralı, durnam?.."

Qonaqlının bütün pambıq sahələrini suvaran baş kanalın haçalanıb arxlara bölündüyü yerdə Hacehsan deyilən ikinci bir çəmən-biçənək vardı, bir tərəfi pambıqlığa sökənirdi, o biri tərəfi uzanıb gedib Sudüşən çəmənliyinə qovuşurdu. Müharibə illərində Başkənd Qurbanlıda Axsaq Hacı adı ilə, Ortakənd Tahirlidə və Aşağıkənd Qonaqlıda isə feldşer Hacı adı ilə məşhur olan bir adam üç para kəndin dövrəsində qara-qızdırma ocaqları gölməçələri quruda-quruda gəlib, kanalın qurtaracağındakı gölü də qurudandan sonra, bir payız günü burda başını bir daşa söykəyib yatıb, elə yatdığı yerdə ölmüşdü. O gündən bu çəmən ehsanlıqdı, yəni kim nə qədər ot çalmaq istəsəydi, çalıb apara bilərdi, malını, qoyununu otara bilərdi. Qırx altıncı ilin yayında isə birdən-birə ot çalmaq da qadağan olundu, mal-qoyun otarmaq da. Çünki "Dəli Səməd" burda mixək və moy kəşf eləmişdi, camaat da birdəncə baxıb

---

[9] M.P.Vaqif batin-gizlin alim idi; "Durnalar" şerində gizlin Elm mərkəzi ƏrAğa ("İraq"a) gedib qayıdan zəvvarlara həsr olunmuş rəmzi mənalar var.

görmüşdü ki, Hacehsan çəmənində çəmən otlarının, qazayağıların ara-bərəsi Çax-çux Xalıqın o taydan kişmişlə birgə gətirib od qiymətinə satdığı mixəkdən, moydan da ətirli mixəklə, moyla doludur. O yay Qonaqlıda, sonra da Tahirlidə və Qurbanlıda Hacehsan mixəyinin çayı və "Dəli Səməd"in adı dillərdə gəzdi. Qaraçı gözəli çəpər dibində, ağac altında "Dəli Səməd"lə yanaşı oturmağa gedəndə qıymaçasının uclarına mütləq moy düyünləyərdi, "Dəli Səməd" mütləq o düyünləri qoxlayıb "Oxxay", – deyərdi. Gülbəniz isə dodaq büzüb gülə-gülə: "Gözəlin moyu da özündən olmalıdı, mixəyi də", – deyərdi.

"Dəli Səməd" üzünü qəbirlərin şəkillərinə söykəyib yuxuya gedəndən sonra moy ətri, mixək çayı da, Hacehsan çəməninin özü də yoxa çıxdı, başqa çəmənlərdən seçilməyən, adi yaşıllıq-otluq qaldı; təlimatçılıq illərində Səməd kanal boyundan enən bu ağ cığırla enib, Hacehsandan keçəndə hər dəfə adi otluqdan başqa heç nə görməmişdi. İndi isə heç otluğu da görmürdü.

Gördüyü sahə idi, bir də sahədə – cərgələrin arasında pambıq yığa-yığa əyilib-dikələn adamların qaraltıları idi.

Gərginlik içində, vaxtilə sədr Mədədin oxuduğu mahnı qulağına dəyəndə bu mahnı Səmədi əvvəlcə bir növ çaşdırdı. İnsansız adada uzun müddət tək qalan adam birdən insan səsi eşitsə, necə olarsa, Səməd də eləcə oldu. Sonra oxuyan adamı tanıdı: Təftiş Abbasdı. Yumşaq tıqqıltılı arabanın qolunun üstündə, ağır yerişli kəllərin arasında saqqalı qarala-qarala, Səmədə doğru boylana-boylana, sədr Mədədin həmişə oxuduğu mahnını oxuyurdu:

Sən haralısan, haralı, durnam?
Ovçu əlindən yaralı durnam.
Yar-yoldaşından aralı durnam,
Həm buralı, həm oralı durnam.

Səməd bilmirdi və heç vaxt bilmiyəcəydi ki, bu mahnını vaxtilə babası Məhəmməd Əmir oxuyarmış. Oğullarından ikisini o tayda fədailərin, ikisini də bu tayda "Doktor"un və Hümmətçilərin xidmətinə göndərib, yol ayrıcında boğulub qaralanda birdən hayqırarmış: "Sən haralısan, ey "Durna"[6] Məhəmməd Əmir? Niyə o tayda bu tay üçün üzülürsən, bu tayda o tay üçün üzülürsən?!" – deyərmiş və oğullarının qaraltıları uzaqlaşıb yerə yapışana qədər oxuyarmış: "Sən haralısan, haralı, durnam..." "Üç telli, dörd telli, beş telli Durnam..." "Yaralı, yaralı, yaralı Durnam..."

Səməd bilmirdi və heç vaxt bilmiyəcəydi ki, qırx altıncı ilin axırında, yəni o tayda Milli hökumətin məğlubiyyətə uğramağından sonra Mirqəzəb Sultan Əmirlini tez-tez Bakıya çağırtdırarmış və öz kabinetində bir neçə yaxın adamının, o cümlədən Persin iştirakı ilə, "Cənubda inqilabi hərəkatın tarixi"ndən söhbət başlayıb, əvvəlcə hökmən "doktorun" – Nərimanovun haqqında söz salarmış: "Doktor bıl çestneyşim çelovekom"[7] Sonra İran kommunistlərinin proqramlarının variantları haqqında danışarmış. Təbrizdə azərbaycanlıların proqramı bir cür, Rəştdə, Tehranda farsların və kürdlərin proqramı isə tamam başqa cür imiş. Mirqəzəb "Məhz Sultan Mamedoviçdən eşitmək", bilmək istəyirmiş ki, bir ölkə daxilində bu cür proqram ayrılığı nədəndir?" "Sən ki deyirsən bu xalqların hamısının kökü birdi: OdƏrdi – "dəri"di. Bəs Nərimanov niyə yol verib bu proqram ayrılığına?! Bir dəfə Ənzəlidə qurultay eləyib. Sonra da bütün Şərqin nümayəndələrini Bakıya çağırıb, Şərq qurultayı eləyib. Nə çətin şey imiş vahid proqram vermək?.."

Bu sualları Mirqəzəb hər dəfə müxtəlif şəkillərdə verərmiş.

Sultan lap ilk söhbətdən cavabını təkrar edib: "Mən Nərimanovu Azərbaycan bolşeviklərinin rəhbəri kimi tanıyıram. Rəşt və Tehran qırğınlarından sonrakı ziddiyyətlərdə, proqram dəyişikliklərində nə özüm iştirak eləmişəm, nə də doktorun iştirakı barədə eşitmişəm" deyəndə, Mirqəzəb yumşaqca qımışarmış: "Opyat xitriş, Sultan Mamedoviç. No ya ne teryayu nadejdu. Koqda nibud tı obrazumişsa i pomojeş nam razobratsa v etoy putanise..."[8] Ayağa qalxıb Sultanı yola salanda hətta əl verərmiş. Yəni guya nə "internasionalnıy otryad"ın törətdiyi gizlin qırğınlardan xəbəri var, nə də vahid proqramın üç proqrama çevrilməsindən. Bu söhbətlərin nəticəsi isə bu olarmış ki, Bakıdan qayıdanda Xudiyev dərhal Sultanın başının üstünü alarmış: "Kişi iyirmi dörd saat vaxt verib, Cənubda məğlubiyyətin səbəblərini tələb eləyir", – deyərmiş, Sultan isə burda da ilk cavabını təkrar edərmiş: "Səbəb də, səbəbkar da çoxmilyonlu Azərbaycan xalqının parça-parça ərazilərinin birləşməyinə mane olan beynəlxalq irticadır və irticaya xidmət edən gizlin qüvvələrdir! Niyə məhz məndən eşitmək istəyir səbəbi?!" – deyib bu mövzuda uzun müddət danışandan sonra bir əli ilə ürəyini, o biri əli ilə boğazını tutub yıxılarmış, bir də xəstəxananın və ya öz kimsəsiz evinin qapısında Mədədin boyunu görüb, qardaşının elə orda qapıya söykənib pəsdən oxumağa başladığı "yaralı durna"nı eşidəndə ayağa qalxarmış. Səməd bunların heç birini bilmirdi.

Səmədin bildiyi bu idi ki, həmişə yazda və il payıza dönəndə, ilkindi çağları Qonaqlının üzərində durna qatarlarının səsi eşidiləndə atası həyətdə, su quyusunun dikdirində oturardı, Səmədi də çağırıb böyründə oturdardı, qolunu oğlunun boynundan aşırıb, “oxu onu”, – deyərdi. “Onu”, yəni Molla Pənah Vaqifin “Durnalar” şerini:

Bir zaman havada qanad saxlayın,
Sözüm vardır mənim sizə, durnalar.
Qatarlaşıb nə diyardan gəlirsiz?!
Bir xəbər versəniz bizə, durnalar...[9]

Xəbərdən xəbərsiz, ərköyün oğul bu şeri çatıltı-patıltılı deklomasiya ilə axıra vuranda, sədr Mədəd dodaqucu gülümsünərdi: “Sədr oğlu elə belə oxumalıdı”, – deyərdi. “İndi sədr Mədəd özü oxusun, oğlu qulaq assın”, – deyərdi və gecənin qaranlığına baxa-baxa öz mahnısını oxuyardı: “Sən haralısan, haralı, durnam?..” Əsli-nəsli barədə hələ bir şey bilmədiyinə görə, atasının mahnısının əsl məzmununa Səməd o vaxt, əlbəttə, tamamilə laqeyd idi. Mahnının məzmununu və mahnı ilə birlikdə sədr Mədədin özünün məzmunun Səməd ancaq o vaxt hiss etdi ki, “avariya” günü, qapağının hər küncündə bir mismar işıldayan tabutun yanında kim isə bu mahnını oxudu. Əmma o “kim isə” elə “kim isə” olaraq qaldı.

Durnalar isə birdən-birə qəribələşdilər. Qəribə yox, heyrətli idi ki, Səmədin təhkimçi-təlimatçı olduğu illərdə durnalar gecəyə düşüb, enməyə yer axtara-axtara lap alçaqdan uçanda Əmirli mülkünün üzərində fırlana-fırlana qalırdılar, gecə yarıdan keçəndə, yəni kəndə yuxu sükutu çökəndən sonra isə Səməd həyətdə qanadların yellərini eşidib, quşların birbaş oraya – həyətlə Sudüşən çəməninin arasına töküldüklərini görüb, bəzən hətta hava işıqlaşana qədər pəncərənin qabağında qalırdı. Evdə, tavanla divarların aralarında sonuncu – dördüncü, ya beşinci dəfə bala böyüdüb sabahda-birigündə köçməyə hazırlaşan qaranquşlar köyrək-köyrək civildəşirdilər, həyətlə Sudüşənnin arasında isə durnalar qısıq-qısıq, qərib-qərib səsləşirdilər. Qaranlıq sökülendə səslər çoxalırdı və durnalardan biri-ikisi, sonra bütün dəstə havalanıb qalxırdı. Eyni vaxtda qaranquşlar da evin içində fırlanıb, çaxnaşıb bacadan çıxmağa başlayırdılar. Boşalan yuvalarla boşalan həyət aralığında, bu hikmətdən quruyub qalan Səməd isə, kimdənsə, nə isə soruşmağa ehtiyac duyanda

Ortayola boylanıb, səhərlər öz manqaları-briqadası ilə hamıdan əvvəl sahəyə yollanan Təftiş Abbasın arabasının cırıltısını eşidirdi. O sərt, qaraqabaq kişiyə yaxın getmədən, qızlara, gəlinlərə, kişilərə durnaların "işləklərini" danışıb soruşurdu: "Bu nədi belə, nə sirdi belə? Əlbəttə, heç bir qaneedici söz deyən olmurdu. Tək bir dəfə, nəhayət, Təftiş Abbas oturduğu yerdən – arabanın qolunun üstündən geri burulub: "Quşların bildiyini bilsəydik, bu günə qalardıqmı, ay bala!" – dedi. Camaat Ortayoldan aralanıb çəmənin işıldaşan şehliyində, uzaqda qaralışanda isə Səməd yenə o "kim isə"nin dərdli-ələmli səsini eşitdi: "Bir zaman havada qanad saxlayın..." Səs yenə də qulağında qalıb, quşların sirrinin üstünə sirr gətirdi. Sonra hardasa kim isə dedi: "O bizim Təftişin səsidi". Sonra əmisinin evində Çürüklə Abı "Zarıncı" çalıb, sonra "Divani" üstündə "ey qardaş" oxuyanda Səməd Təftişin səsini xatırladı. "Avariya" günü "Dəli Səməd" uzun müddətli yuxuya gedəndə, sədr Mədədin üç, bəzən dörd briqadasından birinin briqadiri, təftiş komissiyasının sədri, kandarında çəmənotu və qazayağı bitən, tavanında qaranquşlar uçuşan evin daimi qonağı Abbas əmi Təftiş Abbas da sədr Mədədin bütün yoldaşları, dostları ilə birlikdə zülmətə batıb yoxa çıxmışdı. Yeddi ildə Səməd atasının dostlarından birinə də yaxınlaşmamışdı; elə bil hamı qatil idi. Əgər təsadüfən yaxınlaşdığı adamlar vardısa, onlar da Abı kimi, Qurban əmi kimi, "kənardan-kənara hal-əhval tutub" yoxa çıxmışdılar. Odur ki, illərin uzaqlığından – "avariya" gününün zülmətindən və Sudüşənin parıltıları içindən qulağına gələn "Yaralı durna"nın özü kimi, bu mahnını oxuyan Abbas əmi də Səməd üçün bir qədər gözlənilməz oldu. Yatanda inildəyən Sultan Əmirlinin iniltisi Səməd üçün nə idisə, durnalar o taya köçəndə və o taydan qayıdanda quyunun dikdirində oturan sədr Mədədin "Yaralı durna"sı da elə bir şeydi. O iniltinin haqqında danışan Qurban əmi Qılınc Qurban Səməd üçün kimdisə, bu mahnını oxuyan Abbas əmi – Təftiş Abbas da elə bir adamdı.

Qurban əmi Səmədə oyaq vaxtı ağrılarını içinə salıb, yalnız yatanda inildəyən mətin insan göstərmişdi. Bakıda o evin o balkonunda "Abı deyib, oğlum olacaq...", "Get onu qoru. Əmrdi bu! Əbədiyyətə gedənlərimizin əmridi!" – deyən Sultan özü isə qeyri-adi bir "inkivizitor"la yanaşı, təsəvvüredilməz dərəcədə mətin fədai göstərmişdi. Burada – Hacehsanda Abbas əmi isə, ağır yerişli kəlləri ilə yumşaq tıqqıltılı

arabasından başlamış, kəllərin arasında qaralan saqqalına qədər doğma adam göstərdi.

Bezobraziye ilə günü bu gün çarpışmaya girişmək üçün faciəli hadisələri xatırlaya-xatırlaya nifrətdən qıjıldayan beynindən qıjıltı getdi, qəzəbdən dumanlanmış gözlərdən duman çəkildi və yeddi ildən sonra Səməd Abbas əmi ilə birlikdə Hacehsan çəmənini də gördü.

Uzaqda, Əmirli yurdunda cavanların qurduqları, toyxana kimi böyük çadır qaralırdı. Çadırın qabağında yəqin ki, elə cavanların qaladıqları ocağın tüstüsü yayılıb evlərin, daxmaların, töylələrin, tayaların üzərinə çərmə çəkirdi. Hacehsan çəməni isə birdən-birə necə aydınlaşmışdısa, indi Səməd yaşıllıqda balınc kimi ağaran Hacıdaşını da, "Dəli Səməd"lə "Yusif kimi gözəl Yusif"in, Qaraçı gözəli ilə Gülbənizin cığırlarını da görürdü, çəmənotlarının xırdaca-xırdaca, qızılı toxumlarını, qazayağıların diş-diş, bıçqı sayağı yarpaqlarını, çəmənotları ilə qazayağıların ara-bərələrində moyun qonur ləçəklərini, mixəyin dənəbir dənələrini və payızın son ayına qədər solmayan bu tünd yaşıllığın genişliyində o yan-bu yana şütüyən haçaquyruq qaranquşları da görürdü və bütün aydınlığı ilə dərk edirdi ki, kandarında çəmənotu, qazayağı bitən, tavanında qaranquşlar uçuşan evin əslində nə kandarı varmış, nə də tavanı; sədr Mədəd çiy kərpic divarların arasının yox, dünya yaranandan, quşlar qanad açandan bəri o taydan bu taya, bu taydan o taya uçuşan durnaların qanadlarının altındakı böyük vətənin Mədədi imiş, "Dəli Səməd" də o dörd divar arasının yox, çəmənotulu, qazayağılı, mixəkli, moylu, Qaratikanlı-Gurtikənli, Qarağaclı-Gurağaclı yurdun dəlisi imiş. Bir tərəfdən sədr Mədədin əziz, doğma xatirəsi, bir tərəfdən "yaralı durna"nın xatırlatdığı yaralar, bir tərəfdən də Hacehsan çəməninin zəngin gözəlliyi Səmədin sinəsindən yanıqlı, dərin bir nida qopardı:

– Sənə qurban olum, vətənim!

"Avariya" günü üzünü Ağ Əmirlə Boz Əmirin qəbirlərinin şəkillərinə söykəyib yuxuya gedib, yeddi il yatandan sonra bu yurdun köhnələrindən Abbas əmi – Təftiş Abbasın mahnısından tamam oyanmışdı, ağır-ağır qalxıb enən sinəsində, atasının vəsiyyət elədiyi dumanlı, əmma böyüklüyü-əzəməti aydın duyulan Elmin eşqini duya-duya, arabanın yaxınlaşmasını gözləyirdi ki, özünü Abbas əminin üstünə salsın, mehmanxanada əmisini necə qucaqlamışdısa, bu qarasaqqal qocanı da eləcə qucaqlayıb bağrına bassın. Bir Göbələk Məmiş yox, min bir Göbələk Məmiş Əlləzoğlu "nöyüd töküb, kibrit çəkib" min bir mülk yandırsın,

min bir Bezobraziye “mikroilanı” təhlükə yaratsın, məhəbbətini uzaqdan-uzağa mahnı ilə çatdıran bu eşqli qocanın torpağının yetirməsi ruhdan düşərmi?!

Araba yaxınlaşdı, kəllər dayanıb fısqırışdı.

Səməd isə, eləcə – sinəsi atlana-atlana qalıb, yerindən tərpənə bilmədi. Çünki Abbas əminin səsindən duyduğunu üzündə görmürdü.

Qocanın qabarıq, parıltılı gözlərində “Yaralı durna”dan əsər-əlamət də yoxdu. Mahnını Səməd elə bil yatıb röyada eşitmişdi və indi mahnı ilə birlikdə elə bil Abbas əmi özü də yoxa çıxmışdı, əvəzində “qırx beş nömrə girzovı sapoq”larını arabanın qol ağaclarına dirəyib, “boyunduruq enində” çiyinlərini dala gərib, başını da dala atıb, saqqalını dik qaldırmış hirsli-hikkəli bir qoca oturmuşdu. Əkin-tikində, ot-ələf, çır-çırpı içində dərisi cızıq-cızıq olmuş, bomboz, nəhəng əllərinin birində yoğun, gödərək tənək çubuğunu, o birisində çibinlənən gəlin quyruğunu tutub, Səmədi başdan ayağa, ayaqdan başa süzürdü.

Baxıb-baxıb dillənəndə bu qocanın dilindən zəhər töküldü:

– Əlləzoğlunun qızı gəlib, atası evində gözləyir. Oğlum Məmməd Xələfi çağır xoddasın maşını, get götür qaç o qancığı! Kəbini geri oxutdur, arvad elə özünə!

Səməd sinəsini atlandıran uca eşqin necə köpük kimi partladığını, köksünün necə çöküb sıxıldığını və sağ-solunda birdən-birə peyda olan, qırmızı, enli sifətinin ortasında çal lopa bığı ağaran Xəlvət Rəhimlə Qıllı Qeybalının necə açıq tülkülüklə qımışıb bir-birinə baxdıqlarını hiss edə-edə, zərbədən ayılmağa çalışdı.

“Get götür qaç o qancığı!”

Zərbə deyildi bu, yara üstündən yara idi!

O mahnı hara, bu yara hara?! O məhəbbət hara, bu təhqir hara?! Qoca onu doğrudanmı bu qədər alçaq sayır?! Bu gizlin-gizlin qımışan murdarların yanında niyə belə danışdı bu məşhur mötəbər “qəlyanlı qoca”?!

– Eşitdinmi dediyimi?!.. Çax-çuxun qızı səni axtarır ki, aparsın görüşdürsün Əlləzoğlunun qancığıynan! Nə qədər ki, bu yanındakılar “əmisinin arvadının oynaşı” qoymayıblar sənin adını, get bəri başdan götür qaç!

Böyürdən Səmədin qoluna qol toxundu. Rəhim idi.

---

[10] “Alabaydaq” – “Alabayraq” – namussuzluq – əxlaqsızlıq mənasında, xalq içində çox geniş işlənir. “Murdar əski” sayılır.

– Mən elə bu söz-gapa görə yığıncaq elmişəm bu gün, təklif irəli sürmüşəm ki, ağsaqqallarımız barışdırsınlar bizi sənnən, yoldaş Səməd. Sağlığına, vardan-haldan pis deyilik. Pislikləri duz-çörəknən kəsək-ataq, yeyək-içək, dərd-qəmi dağıdaq. O mülkün yerində elə bir imarət qaldırarıq ki, mahalda tayı-bərabəri olmaz! Biz bilirik, Əlləzoğlunun o cığalısından savayı da istəklin var sənin. Toyun da bu qoca Rəhimin boynuna! Sözün bədini gətirmiyək dilimizə. Adını Qıllı qoyduğun Qeybalı da səninki olar, yoldaş Səməd! Adını Piyli qoyduğun da səninki olar! Bu zəmanədə rayokmun təhkimçilərindən heç biri sahə-filan gəzmir, ay oğul. Gedək əyləş evimin döründə, hamılıqnan qulluğunda duraq! Nə işin var axı Təftişin yanında ki, qulağın da belə söz eşidə! Adını bolşevik qoyub, cibində revkomun yadigar naqanını da gəzdirir. Bu yandan da gecə-gündüz Xızr Abıynan, Çürüknən pıçhapıçdadı. Onların o Elmi hara, cibi naqanlı bolşevik hara?! Görürsənmi nə təhər ikiüzlü adamdı bu yekə! Naqan zamanı genə gəlib, dünya çaxnaşır deyir, hədələyir bizi! Səni indi öz tərəfinə çəkməkdən ötrüdü bu hərbə-zorbası, inan!

Qeybalı da o biri tərəfdən qoluna toxunurdu.

– Vallah, bizdən savayı, heç kəsdən xoş üz görmüyəcəksən, ay Səməd! Gül kimi təklif eləyirik sənə. Gedək biznən...

Təftişin əlində tənək çubuğu vıyıldayıb kəlin belində şappıldadı.

– Aparın, aparın! Böyügü siznən əlbir olubsa, kiçiyi niyə olmasın?! – Səmədə döndü. – Sultanın, hökmdarın da bunlarnan oturdu-durdu, rumka döyüşdürdü, axırda da başına elə iş gəldi! Get! Sən də get bunlarnan!

Araba eyni yumşaq tıqqıltılarla aralandı.

Çal bığ dövrəsində qızaran enli sifət qabağa keçib, Çax-çuxun qara məxmər üzünü xatırlada-xatırlada, məxmər, ipək yumşaqlığı ilə yenə nə isə deyib-danışmağa başladı.

Səməd isə tıqqıltılı arabanın dalınca baxa-baxa, alçaq, boz binalar boyunca uzaqlaşan qatar tıqqıltıları eşitdi, ağ daş binanın ikinci mərtəbəsində üfüqün parıltısına bürünmüş samovarın yanında qırmızı qıymaçalı, qırmızı xalatlı "məhrəm elqızı"nı, sonra küçəyə süzmüş balkonda, zili üstündə sərili uca şəxsiyyəti və o şəxsiyyətə dediyi uca sözləri xatırladı.

Bezobraziye bu şaxımış günəş altında da ardınca düşmüşdüsə, Müslümün təkidlə dediyi təhlükə labüddüsə, "Məhrəm elqızı"nın özü, uşağı ilə birlikdə Sultan Əmirlinin xoşbəxtliyi illüziya deyilmi?!

Bəs bu "mahnılı qoca" ilə bu sevinc, bu xoşbəxtlik nədir, doğrudanmı bu da illüziyadır?!

Birdən hayqırıb, arabanın dalınca: – Dayan! – deyəndə öz səsindən Səməd özü də təəccübləndi: ömründə bir dəfə də bu cür heybətli qışqırmamışdı.

Sahənin kənarında Təftişlə üz-üzə gələnə qədər sifətinə elə bil kənardan qor doldu. Hələ Şüşəlidə ikən Səmədə elə gəlirdi ki, işdən sonra Əlləzoğlunun evinə gedəndə Müslümün, Hənifə arvadın şahidliyi ilə, ürəyini köksündən çıxarıb Gülgəzin qarşısında açacaq, yəni necə düşünürsə, nə hiss edirsə, hamısını səmimi sözlərlə danışacaq, sonra bəlkə hətta qonşulardan da çağırıb, onların gözləri qarşısında bir daha hər şeyi təkrar edəcək. Bu qətiyyəti Müslüm lap astadan-ehtiyatla dediyi beş-on kəlmə ilə sındırdı: "Gecə gedərik. Günün günortasında yaxşı deyil, ay Səməd... Qonşu-monşu nədi?! Səbrin çatmasa, axşamüstü gedərik".

Axşama elə bil bir insan ömrü qədər vaxt vardı. Təftiş olan-qalan səbri vurub dağıtdı və Səməd elə bu saat bu anlaşılmaz qocanın Sultan əmiyə o cür alayarımçıq, küskün dost münasibətinin cavabını verib, ləngimədən kəndə getmək qərarına gəldi.

Təftişə çatanda hiddətdən gözləri oynayırdı.

– Mənnən niyə elə daşındın sən, a kişi?!

– Bə nə təhər danışmalıydım?

– Təhqirini başa düşmürəm. Nə özümü layiq bilirəm o sözlərə, nə əmimi, nə də o bədbəxt zənəni!.. Necə yəni "əlbir olub?!" O murdarlarnan?! Sən yəqin bilməlisən ki, orda əmimə qurğu qurublar! Əmim təmiz adamdı!

– Kimin təmiz, kimin murdar olduğunu ayırammazsınız siz Əmirlilər. Ömrünüz boyu özünüz-özünüzü alladırsınız!

– Nə?! Əmirlilər?! Yəni hamımız?!

– Hamınız! Sualıma cavab ver. De görüm ad-sanı dünyanı götürən Comərdin o qədər dəstə-dəstə, biri-birindən igid qaçaqları ola-ola, o qədər fədaisi ola-ola niyə bada verdi o tay-bu tayı, bilirsənmi? Bilmirsən! Comərd inanırmış ki, qarı düşməni dost eləyər. Dəli Alı niyə getdi Nikolayın çəkisinə?! Niyə aldı onun qızılını?! Çünki sənin o Comərdin təki, bu Dəli də heyvanatı insan eləmək istəyirdi! Hamınız belə

---

[11] Böyük kisə.

[12] Dəyənin (alaçığın, xeymənin) dövrəsinə çəkilmək üçün qamışdan çitənmiş çitən.

şah, sultan görkəmində, qıcqırmış xəmir təki şeysiniz, nə çörək bişirmək olar, nə də it yalağına tökmək olar! Bildinmi?! Qandınmı?!. Ay qandın ha!.. De görüm Mədədin mülkü niyə yandı?

– Yandıranlar elə şeyləri yaxşı bacarırlar, Abbas əmi.

– Ay-hay! Çünki loşsunuz siz hamınız deyirəm, loş-mağmın! Oturmuşdun orda quyunun dikdirində. O yassır agentin xirtdəyindən yapışıb geri itəliyəmməzdin?!. Mən bilirsən neyniyərdim onu? Yabasını taxıb tulluyardım çəpərinin o tərəfinə!.. Getmişəm ora, balnisiyə, soruşuram de görüm nə qazandın, a heyvan? Deyir sizin o dəlinizi qovmalıyam mən buralardan. Niyə? Çünki, deyir, dəlinizin gözü əmisinin arvadındadı hələ də! Yalan deyir?! Çamadanın niyə əllərdə gəzir?! Hökumət xərc çəkib sənə, savadına, biliyinə qiymət verib, qırmızı diplom qoyub cibinə. Bə niyə ayaq altdan tapılır diplomun?! "Partiya işçisi" yazılıb ora. Nəfsini cilovluyammıyan, ayağını hara atdığını bilmiyən adamdan partiya işçisi çıxar?!

Hə, səsin batdı?!

"Mənnən niyə elə danışdın, sən a kişi!" Allahına şükür elə ki, hələ danışıram! Bilirsənmi necə gözləyirdik yolunu? "Səməd" demirdik biz sənə burda, "Mədədimiz" deyirdik. Barmaq hesabı hesablayırdıq: "İki ay qalıb Mədədimizin gəlməyinə". "Bir ay qalıb..." Deyirdik gəlib Qudalıları iş başında görən kimi əmisini dara çəkəcək! Gözünün içinə deyəcək: "Camaatı çörəyə möhtac qoyubsan!" Sonra da mərd, müdrik oğul təki sinəsini gərib, Bezobraziye köpəyuşağının qabağına hasar çəkəcək...

Budu, gəldi Mədədimiz!

Gəldi ki, zincirrəmə olub düşsün yollara, şəhərdə şəhəri çaxnaşdırsın, kənddə kəndi! Göbələk Məmişin başını partlatsın! Göbələk də soyunub, alt paltarını qanlı görüb, qanlı tuman-köynəkdə düşsün Ortayola, gecənin yarısında haray təpsin: "Oyanın ay Qonaqlılar, ay Kərpickəsənlər, ay Kətyənlilər, görün dəliniz nə kökə salıb məni!..." Soruşurlar: "Niyə döydü səni?" Deyir: "Necə niyə?! Qızı Sultana verdiyimə görə!.."

Aydındımı necə alabaydaq[10] eləyibsən özünü?!

Çax-çux Xalıqın qızı şəhərdə şəhərə küy salıb, kənddə də kəndə küy salıb ki, "Bu dörd ayda qız gecə-gündüz Səmədi gözləyib". Qudalı cavanları qapı-qapı düşüb mal sata-sata hər yerdə deyirlər: "Dəli Səməd gəlib əmisinin arvadını götürsün qaçsın. Xalıqın arvadı Badsəba da bu yanda pambığın arasında açıb gül ağzını. Guya manqal deyilmiş yanan,

Sultan Əmirlinin eviymiş! Arvadı kişini yuxuya verib qapını bağlayıb od vurubmuş ki, əri yansın, özü də qoşulsun qaçsın!

Yüzdən birini deyirəm sənə.

Əmin Qurbana öz diliynən tapşırıb ki, kənardan göz qoy Səmədə, mən Bakıdan qayıdanacan bir xata çıxartmasın. Öz diliynən tapşırıb! Başa düşürsənmi nədi bu?! O qızarttaq darvazanın qabağından keçəndə Qurban görüb milisəner dayanıb orda. Soruşub ki, "Burda neynirsən?" Milisəner deyib: "Nəçənnik Gülənov əmr elədi ki, get Sultan Mamedoviçin arvadına keşik çək. Dəli Səməd rayondan gedənəcən postda durmalıyam burda".

Qurban qovub milisəneri, bu heç. Ordan gedib Gülənovun üstə əsib-coşub, bu da heç. Sən gör Gülənov nə deyib: "Sultan Mamedoviçin şəxsi xahişidi. Kişinin namusunu qoruyuruq biz".

Bildinmi nə yerdədi iş?! İkiüzlü nədi, minüzlü alabaydaq qəhbədi əmin! Orda Qurbana elə deyəndən sonra Gülənov gəlib burda, Şüşəli pavilyonun qabağında car çəkib ki, "Xəbərdarlıq eləyirəm, ay camaat, əgər hamılıqnan nəzarət eləməsəniz, adınızı batıracaq o dəli!"

Bildinmi necə gəlib "Mədədimiz?!"

Belə gəlməkdənsə, heç gəlmiyəydin! Ölüb qalaydın Bakıda!

Təftiş Abbasın töhmətindən, danlağından utanmaq, qızarmaq əvəzinə, hələ bir şeşələnirsən də: "Mənnən niyə belə danışdın sən, a kişi!" Öləydi "kişi", Mədədin yurdçusunu belə görənəcən. Demə, eşq dəlisiymiş Mədədin yurdçusu! Diplom nəyinə gərəkdi eşq dəlisinin?! Abı düz demir. Mənim qəti fikrimdi ki, sən qırmalısan bu murdarların hamısını! Gedib kişi kimi türməni çəkməlisən, ya da güllələnməlisən. Odu ey, bax, Saşanız! Abı deyir gecənin bir vaxtı oyadıb Bayıl türməsinin nəçənniyini, müavini-filanı ki, Qazağın Muğanlı kəndindən altı kişi saxlayırsınız, silistsiz-filansız gətirin görüm nə yazıb cinayət qaldıran prokuror? Deyiblər bir tikə kağız da yoxdu. General Atakişiyev deyib basın bunları, ayrı-ayrı kameralarda saxlayın çürüyənəcən". "Biz də çürüdürük bədbəxtləri". Açdırıb qapıları buraxdırıb hamısını, üstəlik, aparıb evində qonaqlıq verib, ciblərinə pul qoyub göndərib evlərinə!.. Budu bax Ulu-Bağlar kökü! Abının, Sultanın dediyi təki deyil!

Qocanın gözlərində şimşək çaxdı.

– Mənim pəhləvan oğlum bir toyuq başı da kəsəmmir. Tərifli əminnən Abı xarab eləyiblər oğlumun başını. Get onnan danış sən, barış murdarlarnan!

Səməd cərgəarası arxın qırağına çöküb, yaşıl qozalarla dolu, pambıq kollarının dibində hərəkətsiz oturmuşdu. Bayaqkı heybətli qışqırtıdan sonra ürəyi necə vururdusa, nəbzini barmaqlarının ucunda hiss edirdi. Arx içinin çat-çat gilli torpağına dikilmiş gözlərində qırpım-qırpım zoqqultular vardı. Tuflilərdə ayaqlarının pəncələri də zoqquldayırdı. Yəqin elə canındakı bu zoqqultulara görə də Səməd əvvəlcə çox üzgün dilləndi:

– Mən əbləh də məhəbbət umurdum səndən...

Sonra birdən səsi çıldırdı:

– Sən tanımırsan məni!.. Tanımırsan!

Təftiş duruxub, çaşan kimi olub, təəccüblə soruşdu ki:

– Necə yəni “tanımırsan?..” Bu əlimin içində böyüməyibsənmi? İndiki əməllərin göz qabağında deyilmi?!

– Yox!.. Nə sənin əliyin içində böyümüşəm mən, nə Qılınc Qurbanın, nə də Sultan Əmirlinin əlinin içində... Öz içimdə böyümüşəm mən! Öz içimdə! – Səməd yenə qışqırırdı. Az qalırdı hönkürsün.

Elə qışqıra-qışqıra da ayağa qalxdı.

Sahədə dərin sükut vardı. Arabaya pambıqla dolu xaşa,[11] kisə, çuval qaldıran cavanlar, kilimlərin, çətənlərin[12] üstündə sərilən pambığı çevirən, əlləri yabalı qocalar, cərgələrin aralarında döşləri önlüklü qaraltılar – hamısı əl saxlayıb, dirək-dirək dayanıb bu yana – Səmədlə Təftişə doğru boylanırdı.

Əmma Səməd səsini qısmadı:

– Eşq dəlisi deyiləm mən! İnsan dəlisiyəm! Bu torpağın, bu yurdun dəlisiyəm! Ömürlərini bu yurda həsr eləyən, xoşbəxtliklərini bu yurda qurban verən Mədəd Əmirlinin, Sultan Əmirlinin dəlisiyəm! Əlləzoğlunun qızı da qurban olsun Sultan Əmirliyə, mənim eşqim varsa, o da qurban olsun, özüm də qurban olum Sultan Əmirliyə!.. Camaatın rəzilliyi məgər Sultan Əmirlidəndi?! Yoxsa, Stalinin, Mirqəzəb Mircəfər Bağırovun yaratdığı Bezobraziye sistemindəndi?! Dağılmalıdı bu cəlladlar sistemi, məhv olmalıdı! Sultan Əmirli, Qılınc Qurban, Təftiş Abbas kimi el təəssübkeşlərinin əl-qolları açılmalıdı. Sədr Mədədin ürək dostuna, iyirmi ilin təftiş komisyonu sədrinə yaraşarmı ki, düşmən sözünə uyub Sultan Əmirlinin özüynən yetirməsinin namusuna, qeyrətinə şübhə

eləsin?! Qurban əmi özü deyir ki, narahatdı mən sarıdan, dalımca gəzir. Ola bilər ki, əmim də tapşırıb. Çünki Bezobraziyenin dib ocağına göndərib məni. Vəhşilər içinə! Necə olub, kim inandırıb səni ki, "ikiüzlüdü", "minüzlüdü", mənə inanmır?! O dərəcədə alçaq sayır məni ki, hətta aramızda bu hadisəni törədənlərin ən qəddarından xahiş eləyib, milisəner qoyub darvazasına?! Məyər aydın deyil ki, Bezobraziyenin növbəti qurğusudu bu?! Mənə münasibətini, etibarını, məhəbbətini küçədə nümayiş elətdirdi Sultan Əmirli! Qoluna girdim, qol-qola, çiyin-çiyinə yeridim əmimnən! Gözləri kəllələrinə çıxdı "fəallar"ın!.. Sonra açıq söhbət oldu əmimnən aramızda.

Mərd-mərdanə! Kişi söhbəti!.. Üstəlik, ötən gecə Bakıda da oldu. Müslüm şahiddi!.. O teleqramın vaxtındakı kimi, Bezobraziye yenə ikiqat olur Sultan Əmirlinin qabağında, yenə "Kişi, Kişi" deyirlər. Sultan Əmirlinin üzü o yana dönəndə isə, öz iyrənc təbiətlərinə uyğun hərəkətlər eləyirlər, mənim namusuma, qeyrətimə nə dəxli var bunun, Abbas əmi?! Saşa Babayevə tay tutma məni. O qədər iş görən oğul bir nəfərə də güllə atmamışdı. Mən isə hazıram dünyanı qana batırım! Abı qoymur, əmim özü, heç biri aman vermir mənə əl tərpədim, yoldaş cibi naqanlı bolşevik! Ruhən sənə daha yaxınam mən!

"Mədədimiz" demə, Mədəd ola bilmərəm. Səmədəm mən, Səməd kimi də tanıyacaqsan sən məni! Tanıyacaqsan!

Qurban əmi də "Məcnun" dedi. Belə görürəm, yəqin bütün kənd "eşq dəlisi" sayır məni.

Eşidin, ay camaat! Ay eloğlularım, elqızlarım! Düşmən qurğu qurub, Sultan Əmirlinin uca adına ləkə yaxıb. İndi də başqa cür qurğular qurur. Hər dəqiqə bir söz dəyir qulağıma. Bakıdan əmim arvadını götürüb qaçmağa gəlmişəm?! O qədər murdaram ki, hətta, ata əvəzi əmimin özü də inanmır mənə?! Bir tərəfdən Qılınc Qurbana tapşırıb ki, göz qoysun mənə, o biri tərəfdən milisəyə müraciət eləyib, üçüncü tərəfdən Gülənov car çəkib ki, siz də nəzarət eliyəsiniz?!

Eşidin, bilin, görün necə "eşq dəlisiyəm".

Mən dəqiq bilmirəm nə vaxt yaranıb bu düşmənçilik. Qandan qana keçir, nəsildən nəslə keçir bu düşmənçilik. Qudalı uşaqları Sultan Əmirlinin maşınının təkərinə yaba soxurlar, darvazasını murdarlayırlar. Mən yəqin bilirəm ki, o məhlədə çörək yeyəndə də Sultan Əmirliyə kinləriynən qarışdırıb yeyirlər, su içəndə də Sultan Əmirliyə kinləriynən qarışıq içirlər. Yatanda yuxuda da Sultan Əmirlini görürlər. Harda bir

boz kitel bozaranda, qara çəkmə qaralanda da o dəqiqə Sultan Əmirlini görürlər. Yəqin bilirəm mən bunu, çünki özüm belə olmuşam, o məhlənin itini, pişiyini görəndə də Çax-Çux Xalıqı görmüşəm, Çax-çuxnan yanaşı, o məhlənin hətta daşına-divarına da nifrət eləmişəm! Cib doldurmaqdan, qarın şişirtməkdən başqa, o məhlənin tək bir məqsədi var həyatda, o da eşalonlara basılan saysız-hesabsız əqidəli adamları məhv elədikləri kimi, Əmirliləri də məhv eləməkdən ibarətdi! Yəni, bildiyiniz kimi, Bezobraziye dövlətinin tapşırığıynan işləyir o məhlə, Xudiyev dəstəsinin fəal üzvü Çax-çux Xalıqın nələr törətdiyini yaxşı bilirsiniz siz. Mənim o məhləyə nifrətim Çax-çuxun əməlindən sonra birə yüz qatılaşdı. On səkkiz yaşımdan nifrətnən, kinnən nəfəs almışam, kinnən yatıb, kinnən durmuşam. Ürəyimdə atamın tabutunu gəzdirmişəm, beynimdə Çax-çux Xalıqın qara üzüynən Gülənovun saxta "zaklyuçeniye"sini gəzdirmişəm. İndi sizdən də, Təftişdən də, özümdən də soruşuram, necə "eşq dəlisi"yəm ki, heç bilmirəm bu yeddi ildə bir kəlmə adam sözü demişəmmi o bədbəxt zənənə, heç olmasa bircə dəfə sakit ürəknən, açıq başnan oturub-durmuşammı?! Yükü tabut olan ürəkdə nə eşq, nə məhəbbət, Abbas əmi?! İndi-indi qanıram, bir dəfə də taleyini fikirləşməmişəm mən o bədbəxt zənənin! Gəlib onu həyətdə görəndən sonra, o müsibətin içində də, hər şeydən əvvəl əmimin taleyini düşünmüşəm. Rayonun taleyini! Bunun qabağında gör sən nə deyirsən mənə: "Nəfsini cilovluyammıyan!" "Ayağını hara atdığını bilmiyən!" "Çamadan!" "Diplom!.." Nəfs nədi, Abbas əmi?! Çamadan nədi, diplom nədi?! Gəlib Sultan Əmirlinin Bezobraziyenin pəncəsində görəndən sonra diplom görünərdi mənim gözümə?!

Guya vurub baş partlatmışam, qana qəltan eləmişəm.

Yalandı!

Nə evində kobud rəftar elədim Əlləzoğluynan, nə də sonra. Əlləzoğlu özü başdan ayağa qan çanağıdı. İçinə yetsəniz görərsiniz özü əl-ayağıma ilişib. Özü! Şüurlu!.. Yadımdadı ki, addımımı atmağa da qoymurdu, hədələyirdi, qorxutmaq istəyirdi ki, çıxım gedim rayondan. Qısası, bezdirmişdi, cana doydurmuşdu. Əlləzoğlunun mənnən rəftarı da, o cür qorxusuz-hürküsüz, "nöyüdü töküb, kibrit çəkməyi" də Bezobraziyenin əməlidi. Onların tapşırığıdı!.. Bəli, Abbas əmi! Nəfsimi yox, Bezobraziyenin murdar nəfəsini duyanda hissimi cilovluyammıram mən, Abbas əmi, cilovlamaq niyyətində də deyiləm. Bəraət üçün demirəm bunu. İstəyirəm inanasan ki, "eşq dəlisi" kimi getməmişdim mən Əlləzoğlunun evinə.

Bax bu cibimdə, partbiletin arasında böyük bir nəslin faciəsini gəzdirirəm mən. Bu nəslin fəxri Sultan Əmirlinin adına yaxılan ləkənin səbəbini öyrənməyə getmişdim Əlləzoğlunun evinə. Hələ nə əmimi görmüşdüm o gecə, nə də Qurban əmini. Əmma Bezobraziyenin fəallaşdığını duymuşdum, buna görə də vurnuxurdum, oda-közə vururdum özümü.

Onda da, indi də Bezobraziyedi mənim ağlımdakı. Peyin kimi kürüyüb atmaq lazımdı bu murdarları! Qərarı belədi Səməd Əmirlinin! Bir məhkəmə Bakıda qurulub, biri də burda qurulmalıdı. Bayaq yolda da bu barədə fikirləşirdim, indi də bircə fikrim, bircə qayğım var, o da Bezobraziyeni kürüyüb atmaqdan ibarətdi!

Tanıdınmı məni, Abbas əmi?!

Gəl danışaq. Birdəfəlik və həmişəlik danışaq.

Təhkimçi göndərilmişəm mən bura. İş görməyə gəlmişəm. Düşmən gündə bir qurğu qursa, Təftiş Abbas da düşmən sözündən sarsılıb gündə bir dəfə yaramın üstündən yara vursa, nə iş görə billəm mən burda?!

Nə "Mədədimiz" de mənə, nə də bu qədər şübhə elə.

İnan mənə, Abbas əmi, inan!

Quş qanadnan uçar deyiblər. Sənsən mənim qanadım, Qılınc Qurbandı, Xızr Abıdı, Sultan Əmirlidi. Bayaq o mahnınnan göyün yeddinci qatına qaldırdın sən məni. Arxa gördüm mən sənin simanda, dayaq gördüm, qanadlandım. Bolşevik gördüm. Yuxarıdakılardan bolşevik olan azdı, son vaxtlar başa düşürəm, bəlkə də heç yoxdu. "Ədalət qılıncı" demisiniz həqiqi bolşevikə! Sən özün də ədalət qılıncısan. Mahnılı, eşqli, ədalətli Mədədsən, "Yaralı durnam"san! Körpəlikdən belə görmüşəm mən dövrəmdəki bolşevikləri – Hümmətçiləri! Nə Stalin bolşevik olub, (qaniçən olub), nə Bağırov, nə Beriya! Eşqli olmayıblar onlardan heç biri! Kinli düşmən olublar, tanımamışıq. Sən, belə eşqli, mahnılı ürəyin sahibi niyə sındırsın mənim qanadlarımı?!

* * *

Qalın, hündür sirkənliyin arxasından buruq-buruq qatı toz-duman qaldıra-qaldıra qeyri adi sürətlə gələn "qruzovik" Səmədin sözünü ağzında qoydu. Maşın gəlib uzaqda qaralan tək palıd ağacına doğru gedəndə Zal tormozu necə basdısa, təkərlərdən tükürpədici cığıltılar qopdu. Zal tər içində işıldayan enli sifətini pəncərəyə tutub vahimə ilə bağırdı:

– Döyürlər! Abını ağaca bağlayıb döyürlər ki, biz də gedək məhlə milisənerlərini döyək, hamımızı tutub damlasınlar! Özünüzü qoruyun! Mən gedirəm ora, bəsdi, qoy məni tutsunlar! Siz gəlməyin, qarışmayın bu qurğuya! Tələdi, tələ!..

**4**

Pambıq sahələrinin ortasında, durğun havanın çimiltisi – ilğımı içində topa bir ot tayası kimi qaralan palıd ağacının dövrəsinə yığışmış döşləri önlüklü qadınlara, qızlara, məktəb uşaqlarına və heç kəsə, heç nəyə əhəmiyyət vermədən, Abının qabağında, sağ-solunda dayanıb işlərini görən dörd nəfər yoğun boyunlu, yoğun ortalı, zorba məhlə milisionerlərinə çatıb maşından yerə atılana qədər danışmadılar. Arada tək bir dəfə Təftiş öz-özünə:

– Qulağım almışdı, – dedi.

Məmməd Xələf isə Səmədə:

– Əlləzoğlu bunlara yaramır. Sənin üstündədi burda hər şey, – dedi.

Və maşından düşər-düşməz, gözlənilmədən, sinəsini gərib, nəhəng qolları ilə Səmədin qabağında səd çəkdi.

– Yaxın getmə! Qarışsan tutacaqlar səni bu heyvərələr.

“Heyvərələr”ə – məhlə milisionerlərinə baxar-baxmaz, bürküdə çox pis tərləmiş paçalarını geniş açıb cəlladsayağı duran bu dörd nəfər, Səmədə ilk gənclikdə – müharibə illərində idarənin əhənglə ağardılmış divarında gördüyü faşist əsgərlərini xatırlatdı. O kino-kadrlardakı zabitlə bu dörd nəfərin ortalığında dayanmış starşina paqonlu oğlanın fərqi bunda idi ki, bu “sovet milisioneri” libasında idi və almanca yox, tərtəmiz azərbaycanca danışırdı:

– ...Yaşı keçmiş adamsan. Bir ayağın burdadı, bir ayağın gorda. Sənin nəyinə gərəkdi antisovet təbliğat?! Bu Təftişnən qaban oğlu Məmməd Xələfə arxalanıb belə hirsdi-hirsdi baxan bu təhkimçinin də əsli-nəsli düşməndi Sovet hökümətinə, altını da çəkirlər. Açıq-açığına car çəkirəm burda: prokuror Sayılovun sanksiyası var. Tutulasıdı bu Səməd Əmirli deyilən. Bu heç. Sayılovun da, nəçənnik Gülənovun da məsləhəti budu ki, sən əl çəkəsən bu Əmirlilərdən, bizə kömək eliyəsən əlavə məlumat yazaq bunların barəsində. Nədən ki, zapros var SSRİ prokurorundan, o məhkəmənin sədrindən. Təcili məlumat getməlidi bu gün. Cavab ver, yazılsın, bu cəhənnəm istisində bizim də

canımız qurtarsın... Təbrizdə, Ərdəbildə, Göyçədə Comərd olub! Dəli Alı olub deyirlər. Əmbə yazılı lazımdı bu. Ağ Əmir, Boz Əmir törəmələrindən əlavə, Şeyx Məhəmməd Əmirin atası Comərd deyilən həm də İsmayıl ağa adıynan gizlənib, sonra Qazağın Muğannalarından Hüseyn ağanın atası Musa ağa adıynan yaşayıb bu tayda Amasiyada, Karsda, ümumiyyətnən Türkiyədə oğul-uşaqları məhz haralarda gizlənirlər? Cavab ver! Mustafa Kamal paşanın nəslindən kimləri tanıyırsan bu tərəflərdə! Dillən!

Səmədin gözləri palıdın haçasından bəriyə doğru uzanmış, yoğun budaqdan aşırılmış, keçi qılından boz-ala çatıda idi. Çatının bir ucu Abının biləklərini sıxıb düyünləmişdi, o biri ucu sağ tərəfdə “heyvərə”lərdən birinin əlində idi.

Səməd, bürkünü hətta beynində hiss edə-edə, susuzluqdan biri-birinə yapışmış dodaqlarını zorla aralayıb, qəfil qışqırtı ilə: – Abı! Niyə susursan?! – dedi. – “Sədrdən zapros” nədi?! Mərkəz hər şeyi bilmirmi bizim haqqımızda?! Çax-çux yazmayıbmı?! Xudiyev özü məlumat toplamayıbmı?! Mirqəzəb özü, Stalin özü şəxsən məşğul olmayıbmı “Muğ”larnan?! Danış! Yoxsa, bunların istədikləri kimi eliyəcəm, qırıb-çatacam hamısın, akt bağlasınlar, Əlləzoğlu barədə materialın üstə əlavə material qoyub bassınlar məni!

Starşina Səmədə baxdı; qızıl dişləri, yastı burnu kimi isə xatırlada-xatırlada:

– Deməli, bilirsən hər şeyi? Çox yaxşı! – dedi. Sonra əli çatılıya: – Çək! – dedi.

Əli çatılı çatını çəkdi, Abının ayaqları yerdən üzülüb asılı qaldı, göyərmiş əllərinin göylüyü qatılaşmağa – qaralmağa başladı.

Qadınlar, qızlar, uşaqlar arasında boğuq ah-nalə gəzirdi.

Səməd əlini Məmmədin çiyninə atdı.

– Çəkil qabağımdan.

Atasının yanında gödərək, əmma çiyinlərindən xeyli enli görünən Məmməd Xələf tərpənmədi.

– Qurbanın olum! Aman günüdü, yaxın getmə bunlara!

Cəmaatın arasından Çürüyün üzgün səsi eşidildi:

– Xudiyev Naxçıvanda işgəncə verib Abıya, qollarını geri qanırıb, kürəkdən qırıb. Belindəki donqar o işgəncədən qalıb. Fikir verin, əlləri qap-qaradı! Biləkdən, dirsəkdən, çiyindən çıxsa, sağalarmı bu yaşda adamın çıxıqları?!

Məmməd gözləri yumulu Abıya doğru cumub qışqırdı:

– Abı! Danış, Abı! Səmədi tutacaqlar, Abı!

Bədbəxt qoca, tər-su içində, ağır-ağır başını tərpətdi.

– Yaxşı... Danışaram.

Starşina əli çatılıya baxdı. Əli çatılı çatını buraxdı. Abı dizləri üstə yerə dəyib böyrü üstə yıxıldı. Əliçatılı, palıdın qatı kölgəsində, əl arabasındakı xırdaca su çəlləyindən bir dolça su gətirib qocanın alnına, üzünə tökdü, qalığını içirtdi.

– Mən o qədər də cəllad deyiləm. Danış, çıx get evinə.

Abı dikəlib, tövşüyə-tövşüyə:

– Peterburqda bir idarə var, – dedi – Rusca adına “Upravleniye po delam pereselentsev” deyirlər. Yəni yurdlarından köçürülənlərin işləri üzrə polis idarəsi. Köçürülənlərin yox, sürgün olunanların işləri üzrədi o “upravleniye”. Bir şöbəsi də Bakıdadı. Comərd, Süleyman, Musa ağa adlarıynan tanınan kişi padişah olub, elm yayıb. Sən qanmazsan nə elmdi. Heç özünü də tanıyammazsan. Mümkün deyil min-bir adnan yaşayan padşahı tanımaq. İraqdan o yanda olub paytaxtı, İraqın özündə olub, Təbrizdə, Ərdəbildə olub, bu yanda Qazaxda da olub hətta. O kişinin, oğul-uşaq nədi, xalqı var. Böyük milləti var. Bu milləti haralardan haralara köçürə-köçürə bir ucunu Tiflisdən o yanlara aparıb çıxardıblar. İndi də Sibirə, Qazağıstana sürdülər, bunu bilərsən. Bu boyda milləti mən necə sayım-sadalayım adıynan, şəcərəsiynən, ay nacins?! Qədimlərdən başlanıb bizim millətin bədbəxtliyi, sonra Birinci Aleksandrın sərəncamı ilə təşkil olunub, Comərdin, Süleymanın, Musa ağanın millətinin nə vaxt haraya sürülməsi barədə məlumat istədiyin qədərdi o “upravleniye”də. Mirqəzəb də ordan alır məlumatı. Necə yəni “sədrdən zapros?!” O hansı sədrdi ki, öz “upravleniye”sindən yox, bu çöllü-biyabanda, bu palıdın altında Xızr Abıdan alır məlumatı?! “Məhlə milisənerləri” yox, Qudalı Rəhimin it xılısınız siz! Fərqiniz budu ki, o it xılı Xəlvətin həyət-bacasında hürüşür, qalan yerlərdə quyruğunu qısıb düz keçir, siz elə hər yerdə qapırsınız camaatı! Açın biləklərimi, it uşağı!

Starşina çaşqınlamışdı.

– Yaxşı, deyək ki, o elə adam olub, milləti də belədi, “Upravleniye”də var. Bə Mustafa Kamal paşa Atatürk? O ki dünənin, srağagünün adamıdı. Bə onun qohum-əqrəbasını niyə gizlədirsən? Sən ki, yaxşı tanıyırsan bu Türk deyilənin böyügünü, kiçiyini! De! Canını qurtar!

---

[13] Təzə yaranın qanını kəsmək üçün əski yandırıb “qara”sını yaraya basırlar.

Abının tamam qaralmış barmaqları tir-tir əsirdi.

– Sizin o "Upravleniye"nizdə o da var!

Starşina "hi, hi" elədi.

– Varsa, bə niyə səndən soruşuruq?

Abı başdan-ayağa titrədi:

– Atatürkün qohum-əqrəbasının altını, üstünü yeyəsən, it oğlu! Aç qolumu! Ölsəm, bu camaat sağ qoymaz səni, a bədbəxt!

Starşina deyəsən bir az çəkindi, əmma əl çəkmədi. Nəzərə al ki, nəçənnik Gülənov özü səni ayrı şəraitdə ayrı cür danışdıra bilər. Əmbə orda olsa, bu iş sənədləşdirilər. Yüz əlli yaşını əlli yazarlar, xalq düşmənləriynən əlaqə saxlayıb antisovet təbliğat apardığına görə, məhkəməsiz-zadsız basarlar, əlli-ayaqlı gedərsən!.. Danış!

Abı çox pis tövşüyə-tövşüyə, yəqin ki, biləklərinin, qollarının ağrısından inildəyə-inildəyə dikəlib Səmədə baxdı.

– Sən... Sən çıx get burdan! Eşidirsənmi?! Çıx get deyirəm! Kənddən get! Rayondan get! Pis qurtaracaq bu işlərin axırı! Çox pis! Bu xaraba deyil Varisin yeri! Şərait olanda qayıdarsan, buralarda da işini görərsən. Hələlik mümkün deyil! Heç cür, heç cür mümkün deyil, ay gözümün işığı! Ləngimə! Min o maşına, təcili get burdan!..

Starşina deyəsən bunu gözləmirdi.

– A kişi! Ey! Bəsdi! O yana yox, mənə bax! – sifəti ağardı. – Sualıma cavab ver! Məhz haralarda?! Eşidirsən?! Məhz haralarda gizlənir o qohum-əqrəba təlimatçısı?!

Yenə Çürüyün səsi eşidildi:

– Ay Abı! Başına dolanım! Niyə danışmırsan axı?! Lap belə düzünü de! Bu paqonnunun hədə-hərbəsinə baxma. Bir köpəyoğlu da toxunammaz Atatürk əqrəbasına! Türk ölməyib hələ. – Həmişə, hər yerdə olduğu kimi, boz çit köynək içində sazının – qara cürəsinin qaytanı çiynində, sağ əli aşağıda – cürəsinin qolunda, sol əli çubuq qəlyanının yumru başında, ortası-qarnı çökələ-çökələ, beli əyilə-əyilə yeriyib qəlyanı Abının ağzına soxdu. – Çək! Toxta! Ağlını itirmə, başına dolanım, ay Abı, düzünü danış!

Əvvəlcə starşinadan, sonra "xıl"ın hamısından hırıltılı gülüş qopdu.

---

[14] Leninin ən məşhur tezisi: "Hakimiyyət fəhlələrə, torpaq kəndlilərə!"

[15] Oktyabr inqilabının, SSRİ-nin qırmızı bayrağı.

– Bəlkə bir saz da çalasan, a çürümüş! Qəlyanını dart, rədd ol ordan! – Starşina əliçatılıya baxdı. Əliçatılı çatını çəkdi, Abının qolları yuxarı dartılandı qıçları havada o yan-bu yana yelləndi, eynilə Sultan əminin iniltisi kimi bir iniltidən palıdın altına sükut çökdü. Səmədi qəhər boğdu. Qulaqlarında Abı il Çürüyün qoşa səsi cingildədi: "Ağlamağı tərgitmişəm, boğuq qəhərəm, ey qardaş!.." Daha nə Məmməd Xələfin "qaban" gövdəsi sədd çəkə bildi, nə də yalvarışı; Səməd budağın altına atılıb, Abını sol qolu ilə qucaqlayıb yuxarı qaldırıb, o biri əlilə çatını necə çəkdisə, əliçatılı heyvərə üzü üstə yerə sərildi.

Starşinanın bayaq qorxudan ağarmış sifətinə qan gəldi, yəqin ki, "zapros" işinin yaxşı nəticələnəcəyinə əmin olub, balta dişləri üstündə nazik, qısa dodaqları yuxarı, aşağı dartıla-dartıla şaqqanaq çəkdi:

– Qəhbələr nəslinin nümayəndəsini zakona tabe eləyin!..

"Xıl" starşinası hələ sözünü qurtarmamış, "xıl" hər tərəfdən şığıyıb, Səmədi, qucağındakı qoca ilə birlikdə yerə sərib, heyrətli kin-küdurətlə, dəhşətli rəhmsizliklə, nallı çəkmələrin altına saldı. Heç bir dəqiqə də keçmədi ki, Səmədin çənəsində, alnında, başında, əl-qolunda çapılan yerlər ağ, qolsuz köynəyilə pencəyini qırmızıya boyadı. Ordan-burdan qan fəvvarə vurub, ölümü labüd göstərirdi.

Starşinanın balta dişləri örtülmürdü.

– Bəsdi! Bəsdi! Aman verin tərifli Dəli də göstərsin özünü! Yoxsa, nə təhər isbat eliyəcəksiniz ki, zakon əhlinə əl qaldırıb bu!

Bayaq üzü üstə sərilən "zakon əhli" qoşa əllərini açıb starşinanın qabağına uzatdı.

– Budu bax! – dedi; çatının bıçaq kimi kəsən keçi qılları ovuclarının dərisini aparıb ətini kəsmişdi, üstəlik, üzü üstə səriləndə milisionerin burnu, alnı da yəqin ki, yerə sürtülüb cızıq-cızıq olmuş, göyərmişdi. Bu görkəm elə gözlənilməz oldu ki, starşina hətta pərtləşdi.

– Köpəyoğlu nə yaman çəkib ə çatını! Pah-pah! Yeri, qisasını al əclafdan!

Milisioner qanlı çəkmələrinə baxıb, şübhəsiz, yenə də elə çəkmələrini işə salmaq üçün geri döndü.

Lakin Təftişin iyirminci ildən, Qılınc Qurbanın atryadının əsgəri olduğu vaxtdan qalan "imennoy revolver"i Məmməd Xələfin əlində, starşinanın sinəsinə tuşlanmışdı.

---

[16] Təmizlənməmiş undan qara çörək "buxanka"sı.

– Burdan rədd olub getməsəniz, nəçənniyinizin iştirakıynan qaldırılan cinayət işini ləğv eləməsəniz, Səməddən, Sultan Əmirlidən əl çəkməsəniz, atam Abbasın həzrət Abbas adına and içirəm, cavanlarımızın hamısını silahlandıracam, o it xılı məhləsindəki Xəlvətdən, Qıllınızdan, Piylinizdən başlamış, hökumət idarələrindəki itlərinizin son nəfərinə qədər, hamınızı qırıb, öz ayağımıznan gedəcəyik güllə qabağına! Çünki bu Bezobraziye zülmü atamdan, anamdan eşitdiyim xan, bəy zülmündən betər olub, daha cana doydurub hamımızı! Rədd olun! Yoxsa, meyidlərinizi aparacaqlar burdan!

Aydın görünürdü ki, Məmməd Xələfin asta, boğuq səsi adi hədə səsi deyildi.

Starşina qadınların, qızların bir-birinə qarışan qarğı-nifrinləri altında başını endirib hündür sirkənlik arxasında şüşələri parıldaşan iki yanaşı "Villis"ə doğru gedəndə "xıl"da süpürüldü. O dəqiqə də palıdın altına çaxnaşma düşdü. Səmədin köhnə məktəb yoldaşları, ordları ordlarından keçmiş, tanınmaz olmuş gəlinlər, qızlar: – Qara yandırın![13] Su gətirin! Təmiz əski tapın! – deyə-deyə o yan-bu yana yüyürüşdülər. Qarğaşalıq içində Təftişlə Məmməd Xələfin səsləri də eşidilirdi:

– Bu silahı mən sandıqda, qıfıl altında saxlayıram! Niyə səndədi?

– Dədə, üzrlü hesab elə. Sənin qulağın alanı mənim də qulağım almışdı. Hamımızın qapıdan qovduğumuz, qoltuğu qarmonlu zənən ağlıya-ağlıya gəldi ki, məni pyanska eləyib qoltuqlarda qoyan it xılı iclas eləyir Şüşəlidə. Elimizin-günümüzün gözəl oğulu Səməd Əmirlini həbs eləyib türmədə öldürəcəklər. Kimin qeyrəti var silah alsın əlinə, getsin tək palıdın altına. Mən olmuyaydım, sən olaydın, dədə, sındırardın qıfılı, ya yox?!

Təftişin gözlərindən üzünə təbəssüm işığı yayılıb o an da çəkildi.

– Zal balam getdi gəlmədi. Xələfim qardaşının adını üstünə götürüb, Məmməd Xələf Zal adında ikiqat oğul oldu. Pəhləvan oğlum atasına çəkdi. Abı! Elmin boşa çıxdı! Barıt iyi olmuyan yerdə ədalətin yeriməz!

Abı başını bulayıb Səmədə baxdı.

– Bu da o həyətdəki xançal əhvalatıdı, ey gözümün işığı! Min dəfə, beyninizə batana qədər, milyon dəfə deyəcəm: Xançal-bıçaqla, toptüfənglə, ən, ən, ən güclü ordu, ən adil, ən aqil hökmdar qüdrətilə də düzəlməz bu dünya! Elmdi, Elmdi bu dünyanın əlacı, o da belə kin-

küdurətlə, belə ədavətlə bu araya sığışmır! İçərinizi yeyirsiniz! Sözümü unudursunuz! Qara qanınızı qan tökməknən doldurursunuz!

Çürük dizləri üstə çöküb, Abının köynəyini çıxarıb, can köynəyi tərdən islanmış dostunun çiyinlərini, qollarını ehmallı sığallaya-sığallaya:

– Səlamətsən, şükür, səlamətsən, başına dolanım, – deyir. Abı isə, arada inildəyə-inildəyə:

– Yavaş, a kişi! – desə də, cavanları danlamaqdan qalmırdı:

– Uzağa getməyin! Elə Təftişin cibindəki o “imennoy revolver”dən dərs götürün. Nə qədər ki, mənnən yaxınlaşmamışdı, sözümü-söhbətimi eşitməmişdi, Rus paqonu taxıb familiyasını “ski” eliyən bəylərdən hansınısa sərhəddən o yana qovanda Təftiş Abbas o “imennoy”u marçıltı ilə öpüb gözünün üstünə qoyurdu. Hanı o “imennoy”un yaratdığı ədalətli fəhlə-kəndli hökuməti[14] niyə yoxdu, ey beyinləri qanlarım?! Oktyabr bayrağına[15] and içirdi Təftiş Abbas, komandiri Qılıncla bir yerdə! Kimlərin əllərindədi indi o bayraq?! “Cavanları silahlandır!” Sözünə bax üzü üzlər görmüş qancığın! Nə var bu “Cavanları silahlandır” sözlərinin altında?! Qanırsınızmı, ey dərsimi ala-ala cəhalət bataqlığına batanlarım! Açıq-açığına, hamınızı qırmaq qəsdindədi Bezobraziye! Sultanın dediyi mikroilanlardandı Şənbə! Başa düşdünüz?!

Sirr açıram, qulaq asın. Qazağının gizlin Muğannalarından, biri-birindən cavan, biri-birindən gözəl şagirdlərim vardı, Sultanın Rus dostlarının təqdimatı ilə Moskvada təhsil alıb zabit olmuşdular, qayıdıb Araz qırağında, “zastava” deyilən yerlərdə qulluq eləyirdilər. Bezobraziye cəlladları hamısını bircə gündə boğdular tulladılar Araza. Meyitləri geyindirib-kecindirib, döşlərinə orden, medal taxıb, müşayiətçi-filanlarla göndərdilər rayonlara, valideynlərinin üstünə. Birini də bizim üstümüzə göndərdilər. İnişil, əlli ikinci ilin yayında oldu bu bədbəxtlik... Moskvanın göstərişilə! Əsrlərdən gələn bəlamızdı bu bəla. Batingizlin ikən tamam açıq oluruq, qışqırıqnan deyirik sözümüzü. Adını aşıqlardan eşitdiyiniz Elm mücahidi Mənsurumuz da ağılsız mərdlik, düşüncəsiz igidlik qurbanı olub, dara çəkilib! Əxi Fərrux, Fəzlullah Nəimi, İmadəddin Nəsimi – hamısı açıq söz qurbanı olub. Çünki cəhalət dünyasında açıq söz də hamanca xançaldı, qəzəbdən, kindən törəyir, cahilin əlində çatıya dönür, Xızr Abının biləklərini çatır bir-birinə. Dartıb dara qaldırır! Nallı milisəner çəkməsi olur. Səməd Əmirlinin damarını partladır! Başa düşdünüzmü, ey beyni qan?! Muğannaya “mü-

ğənni" deyirik, ƏsAğa "Aşıq" deyirik, qırılırıq, əlimizi silaha uzadanda əlimiz iflic olur! Mən özüm də açıq qışqıran olmuşam indi. Əbədiyyətə qovuşmağımın vaxtı çatmasa da, ürəyim sizin ürəklərinizdən də cavan olsa da, açıq danışıram ki, vidalaşım daha siznən!

– Ölən deyilsən sən, ay qırx qazanın çalasısı! – Xəlvət idi. Arxasında ayrılmaz kölgəsi – Qıllı Qeybalı, sirkənliyin arxasından peyda olub, çal, lopa bığ dövrəsində tamam dərisiz ət kimi qan-qırmızı sifəti pörtə-pörtə məktəb uşaqlarını, qadınları, qızları itələyə-itələyə sahəyə qovub, özü də dallarınca getdi. Tək bir nəfər, qayğısına qalıb, başının şalını yandırıb onun yarasına "qara" basan bir qadın peyda oldu: Qarmonçu Şənbə!

Yanaqlarının yumru ətləri qırışıb, əpriyib solmuş qadın – Şənbə, Səmədi təkbaşına qucağına alıb maşına qaldıranda heyrətdən hamı hıçqırışdı:

– Gücə bax ey, arvadda!

Maşının "kuzov"unda Səmədin sarıqlı başını dizinin üstə söykəyəndə isə Şənbə, kişilərə: – Nə boylanışırsınız! Çoxlu bağayarpağı yığın yolların qıraqlarından! – deyib, birdən son dərəcə ağrılı-acılı göz yaşları tökdü:

– Mən elədim bunun hamısını, mən baxtıqara! Prokuror Sayılov dedi: "Abını döydürməsən, Səmədi aparıb orda tutdurmasan, özünü tutacam!" Köpəyoğlu, elə bilir daha insanlıqdan məhrumam! Təftiş Abbas burdadı, şahiddi, desin, dörd ilin müharibəsində qarmonnan qazandığımın doxsan faizini orduya yardım göndərmişəm, özüm qara qalağ[16] yemişəm!..

Səmədin alnından, əllərindən öpürdü, ağlayırdı.

– Səni ürəkdən istiyən bədbəxt zənənlərdən biri də mənəm, ay bəxtsiz, talesiz Məcnun!

Maşın Qonaqlının ortasında, yastı-yappa bir qaradamın qabağında dayandı. Şüurunu itirmiş Səmədi Şənbə yenə də tək qaldırıb o dama – ölmüş nənəsindən qalmış iyli-qoxulu döşək üstə qoydu. Bütün gecəni əmisindən də betər inildəyən oğlanın böyründə oturub "Allaha", "Peyğəmbərə", "Əliyə" yalvarırdı. Səhərisi, Səməd özünə gələndə isə, köhnə, qara bir qazanda su qızdırdı, yaralara dolmuş "qara"nı – yanmış əski küllərini yuyub, üstündən təmiz əskilərlə sarıdı. Üç günmü yatdı, beş günmü, Səməd hesabı itirib, nəhayət ayağa qalxanda, ciddi qayğılar içində gülürdü; demə, qarmonçu Şənbə Xüdiyevə "işləyə-işləyə", Sultan Əmirliyə də gizlin "işləyirmiş", "gecələri yatmayıb", ondan Elm öyrənirmiş.

– Gülgəzinnən, sənin Qaraçı qızınan yanaşı oturub dəftərimə “Yaddaş” yazırdım! Adamlardan danos yaza-yaza bax belə oldu Qarmonçu Şənbə! Qorxma daha heç nədən! Nə qurğu qursalar, ovcundaca olacaq! Səni bada verməRəm! – dedi.

Məhz buna görə də Səməd sahələrə yenə sağlam-gümrah çıxdı. Və elə həmin palıdın altında Çürüyün dərmən-davası ilə sağalmaqda olan “qəlyanlılarla” görüşməyə gedəndə sirkənlikdən onun – Səmədin yenidən gərginləşməsinə səbəb olan bir səs eşidildi:

– Hə, indi məni dinləyə bilərsən, qadası!

## 5

– Təkrar eləyirəm: məni dinləyə bilərsən indi. Məhz bu gün çox-çox həqiqətlər deməliyəm sənə, qadası.

Səməd fikrini toplamağa çalışdı.

– Ola bilər... Bilmədiyim şey, əlbəttə çoxdu. Əmma bir şeyi dəqiq bilirəm ki, Şüşəlidəki iclasınızın qərarını həyata keçirəmmiyəcəksiniz! Partiya məktəbinin müdavimiyəm mən. Rayon partiya komitəsi bu zonanın üç kolxozuna təhkim eləyib məni. Məhsul yığımının belə qızğın vaxtında məni işdən ayırmayın! Şüşəlidə çoxlu adamnan söhbət eləmişəm, çoxlu cinayət işi qeydə almışam, hamısı bilavasitə Qudalılarnan bağlıdı! Sənin təmsil elədiyin gizlin canilərinnən, Yerevannan, Eçmiədzinnən, Katalikoslarnan, kütləvi terrornan bağlıdı! Çax-çux gülürdü.

– Nə deyirsən, hamısı SSRİ adlanan super dövlətin işləridi. Mən əmr quluyam, qadası!

Səməd bu açıq həyasızlığa dözmədi. Qışqırdı ki:

– Bəsdi arxamca gəzdiyin! Bəsdi! Əl çək!

Çax-çux gülürdü:

– Şənbədən hünər almısan, Antey yerdən qüvvət alan təki. O Şüşəlidə Mariya adında bir qancıq da var. On dörd yaşı yoxdu, indidən casusluq eləyir! Zənən sarıdan baxtın gətirib sənin. Axı, mənim o köpəkqızı Gülbənizim də sənə qulluq eləyir!

Çax-çux Şüşəli səmtindən – soldan gəlmişdi. Səməd kölgədən çıxıb, sağa – camaata tərəf yönəlib, qurşağa vuran hündür kolların şaxları, qozaları dizlərinə çırpıla-çırpıla, sahənin içərisinə getdi. Fikrini qarışdıran, peysərini deşən kobra baxışından qurtara bilməsə də, o gün “qru-

zovik" də Məmməd Xələfin müdaxiləsilə yarıda kəsilmiş ürək sözlərini cəmaata çatdırmağa çalışdı:

– Taleyim elə gətirib ki, uzun müddət ayrı düşmüşəm sizdən. Xeyrinizdən, şərinizdən xəbər tutmamışam. Cəfər əmi həbs olunub, bilməmişəm. Yerində Xəlvət oturub, bilməmişəm. Əmim "Rəhim sədrdi" deyəndə dəhşətə gəldim. Demə, birbaş Mirqəzəbnən bağlıymış bu məhlə ağsaqqalı! Qardaşı oğlu Çax-çux Xalıq Mirqəzəbin özünün agentiymiş! O taydan Ağ Əmirnən Boz Əmirin oğul-uşağının siyahısını gətirdiyi kimi, burda da Sultan Əmirliyə yaxın adamları siyahıya alırmış! Elimin taleyi cəllad əlindəymiş! Xəbər tutmamışam mən bu bədbəxtlikdən. Təzə bilmişəm ki, Xalıqın siyahısı əsasında ən etibarlı kadrları gedib Sultan Əmirlinin ətrafından. Qurbanlının sədri İsgəndər kişinin əvəzinə "Qudalılara, Gülənovlara yaxın adam" qoyulub, Tahirlinin sədri Cəbrayıl kişinin əvəzinə də Qudalılara, Gülənovlara yaxın adam qoyulub. Bezobraziyenin həyasızlığı o dərəcəyə çatıb ki, xəlvət işlər ustasının özü də açıq həyasızlığa başlayıb: uçot-hesabat "Qudalı hesabdarı"nın əlində! Kassa "Qudalı kassiri"nin əlində! Möhür də Qudalı sədrinin öz əlində!.. Təftiş komisyonu dəfələrnən cinayət üstə tutub bu yaramazları. Qılınc Qurban aparıb milisəyə təhvil verib. Gülənov isə, əldə cinayət aktları ola-ola, həbs eləmək əvəzinə, çox qəribə məntiqnən Qılınc Qurbanın özünü günahlandırıb: "Xruşşov yoldaş amnistiya verib, ən peşəkar oğruları da buraxıb əmək-islah düşərgələrindən! Sən isə gündə bir dustaq gətirirsən milisəyə!.." Aydan arı, sudan duru Cəfər əmini damğalayıb basmaq olar, Bezobraziye xadimlərinin qarınlarını şişirdənlərə toxunmaq olmaz! Saf adamlar türməyə gedir, murdarlar eşikdə qalır! Qurtardı daha belə şeylər! Mirqəzəbnən başlanıb bu yaramazların dövranı, Mirqəzəbnən də qurtarmalıdı!

Səməd palıdın altına – qocaların yanına qayıtdı.

Gözlərini Təftişin köynəyinin döşündə bir cüt dolu torba ciblərinə dikib, sədr Mədədin vaxtından "təftiş komisyonunun seyfləri" adlandırılan bu ciblərdə son birillik sənədlərin ipçin-ipçin saxlandığına şübhə etmədən, əlini irəli uzatdı.

– Mənə ver o aktları!.. İkinci, üçüncü briqadalarnan da günü bu gün danışacam. Təlimatçılıqnan, təhkimçiliknən yanaşı, "Yeni Mədəd" adında yüksək, səlahiyyətli vəzifəm var mənim. Axşam idarə heyətinin iclasını çağıracam, kolxoz nizamnaməsini oxuyacam cəmaata, məhz nizamnamə əsasında qərar çıxaracam bu yaramazların haqqında. Gecə

də ümumi iclas keçirəcəm, heyətin qərarını səsə qoyacam. Kolxozun möhürü, kassa, uçot-hesabat təcili alınmalıdı yırtıcıların əlindən! Ver aktları! Rəhbərliyə namizədlər ver!

– Sən tələsmə, qadası, dotələblik eləmə... – Gümüşlü trubka kölgəliyin qatı yerində qara sifətdən irəli uzanmış diş kimi işıldayırdı. – Rəhim Qudalı evinə dəvət eləyir səni. Bir Quran söz deyib, bir kəlmə danışmayıbsan o cür mötəbər ağsaqqalnan. İndi məni də daş, divar sayırsan. Əmbə Çax-çux Xalıqnan danışmamaq olmaz! Adımı Mirqəzəbnən yanaşı qoysan da, sən özünü necə səlahiyyətli adam sayırsansa, mən də eləcə sayıram. Bir aləm həqiqət danışdım sənə o daxmanın qabağında. Düşmən sözü sayıbsan hamısını. Bilirəm! Müslüm deyil xəbər çatdıranım. Təhqir eləmə o yazığı. Rəhimi, Qeybalını, Gülənovu düşmən sayma! Mənnən bədrəftarlığı kəs! İncimirəm əlbəttə. Dünya görmüşəm mən, kişilərnən oturub-durmuşam, səndən xüsusən incimərəm. Çünki gözündə pərdə var sənin. Rəhimin evindəki süfrəni mən təşkil eləmişəm. Getsəydin, əvvəlcə bizim qız gedəcəydi ora, gözündən pərdəni götürəcəydi. Sonra mən gedəcəydim, "avariya" günündən bu günəcən bu sinədə qövr eliyən yaranı göstərəcəydim sənə, bu yaranı kimlərin necə vurduğunu, nəyə görə vurduğunu açıb tökəcəydim ortalığa. Elə olsaydı, barışıqlıq təklifindən də boyun qaçırmazdın. Xruşşov dövrüdü indi, qadası, demokratiya, dinclik dövrüdü. Bir az hərcmərclik-filan əmələ gəlib, çox danışan adamlar çıxıb ortalığa. Qurtaracaq belə şeylər. Şüşəlidə deyilənlərə fikir vermə. Zaman dəyişir. Stalinnən getdi o tutqular, sürgünlər. Deyirlər cuhud zad deyilmiş Stalin, Qrekiymiş milliyyətcə. Qrek də ki, bilirsən, lap qədimlərdən qənimidi indi bu Türk deyilənin! Həqiqəti bir azca da açsam, nəinki Mirqəzəbnən yanaşı qoymazsan mənim adımı, o siyahını-filanı da, aktı-maktı da dilinə gətirməzsən, qadası. Bu Təftiş əgər mən tanıyan Təftişdisə, heç bir akt-zad verməz sənə. Seyflərini Təftiş o vaxt açır ki, gözüaçıq adam olsun qabağında. Sənin, yenə deyirəm, gözün bağlıdı, qadası, adamları tanımırsan, ona görə də gücün çatan işdən yapışmırsan. Bu bir. İkincisi, o aktları ki, sən tələb eləyirsən, yoxdu o aktlar. Mənim istəkli qohumum Gülənov aparıb hamısını qoyub Sultan Əmirlinin stolunun üstə, sənin istəkli əmin Sultan Əmirli də cırıb atıb zibil səbətinə!

Səməd, Abının köynəyini çırpıb palıdın budağına sərən qocaya baxdı.

– Abbas əmi! Bu adam nə danışır?!

Qocanın qəlyandan üfürdüyü tüstünün titrəyişindən də qəzəb saçıldı. Düz deyir! Əmbə yumşaq deyir. Bağlı deyil sənin gözün... kordu!

Səməd bu yeni dəyişiklikdən özünü itirib Abıya, Çürüyə baxdı. Lakin Abı yatmışdı. Çürük nədənsə narazı, başını bulaya-bulaya, dostunun milçəyini qoruyurdu. Məmməd Xələf Zal isə böyümüş gözlərlə atasına baxırdı.

Dərin sükut içində Çax-çuxun səsi elə bil quyu dibindən gəlirdi:

– Mənə qulaq assan kor olmazsan, qadası. Sənə demədimmi hökmranlığı qurtarıb əmiyin?! Demədimmi özü də yaxşı bilir ki, axırı çatıb, ona görə dünyadan kam alır indi?! Bu etibarsız dünyadan kam almaq qəsdinə düşən rəhbər üçün nə fərqi var kimdi burda kolxoz sədri, mühasibi kimdi, kassiri kimdi, necə pul qazanır, kimə verir?! Erməni Zoridən it kimi qorxur əmin. Zor Gülənov deyib: "Gətirmişəm bu aktları öz əliniznən cırıb atasınız", o da cırıb atıb, vəssalam! Qılınc Qurban gedib raykomda küy salanda ona ayrı cür izah eləyib aktları cırmağının səbəbini. "Siyasətdi. Müvəqqəti güzəştdi", – deyib. Bəs əslində necədi? Əslində, heç bir siyasət-zad işlətmir əmin, qadası. Çünki Rəhim daha əvvəlki Xəlvət Rəhim deyil əmin üçün, Gülənov da daha əvvəlki Gülənov deyil, Sayılov da, RİK Atamalı da, Çax-çux Xalıq da. Sürgünlər, qırğınlar səmumu Stalindən gəlirdi hər şey. Onu da bil ki, bu məhkəmə əhvalatı dəyişdirmiyəcək dünyanı. Doğrudu, bizim ağsaqqal ehtiyatlanır bir az. Yalvarır-yaxarır mənə ki, daşı ətəyindən tök, düşmənçiliyi unut Sultan Əmirliynən. Unudaram mən, elə bilirsən unudammaram?

Atam Fağır Məmmədəliyə niyə Yağır Məmmədəli deyiblər, bilirsən?

Təbrizdə, baban Şeyx Məhəmməd Əmirin alma bağında hamballıq eləyirmiş atam. Səbətnən alma, qax daşımaqdan çiyinləri açılıbmış, beli yağır olubmuş. Elə belinin yağırlığıynan tacirliyə çatıb. Beş araba dolusu var-dövlətnən bu taya gəlib qardaşı Rəhim Qudalının həyətinə düşəndə Qılınc Qurban tüfəng çəkib üstünə, var-dövlətini müsadirə eləyib, özünü də aparıb türmüyə basdırıb, döydürüb, zornan boynuna qoyub ki, guya Nikolay padşahın casusu olub atam sizin o mülkünüzdə, guya Muğannaların siyahısını ötürüb Peterburqa.

Sizin Saşanız varıydı, bizim də Xudiyevimiz. Bəs necə?! Xudiyev çıxarıb bədbəxt atamı türmədən. Əmbə Qılınc Qurbanın, Sultan Əmirlinin hədə-hərbələrinə dözəmməyib, özünü quyuya atıb. Atam yoxa çıxandan sonra, bilirsən, "iyili quyu" deyirdilər o quyuya. Sonra cəsəd çıxartdılar o quyudan. Belində atamın gümüş kəməri!.. Qılınc "casus

oğlu", "kontra" qoydu adımı, universitetdən qovdurdu. Budu düşmənçiliyimizin tarixi.

Tutaq ki, Yağır Məmmədəli doğrudan da casus olub. Kimdədi bunun taqsırı? Atamdadı, yoxsa Azərbaycanın yarısını verbovat eləyib mikroilana döndərən Nikolay Romanov ilanlarındadı?! Nə qədər mikroilan dolubmuş o alma bağının dövrəsinə, bilirsən?! Səttar xandan, Bağır xandan başlamış, bu tayda Kainat elmi yayan Şeyx Əli-Aşıq Alınıza, Dəli Alınıza qədər, hamısının axırına çıxan ilanları bir yanda qoyub, elə Yağır Məmmədəlidən yapışmağınızın səbəbi nədi, qadası? İlan yumurtalarını torpağımıza basıb, millətimiz özü ilan becərir! Aydındı?! Gümüş kəməri görəndə kişinin sümükləri gəlir durur gözümün qabağında, əhvalım dəyişir. O "iyili quyu"dan çıxan sümükləri deyirəm. Xızr Abı qoymadı sümükləri qəbristanda basdırmağa. "Gorxanası bu quyudu Məmmədəlinin, quyuda da basdırılmalıdı", – dedi. On iki metrlik quyu!.. Adam adama qarğıyanda deyir: "Dərin gedəsən!" Əmiyin kəramətindən "dərin getdi" atam. Əmma unudaram mən. Ataram o kəməri də, unudaram hər şeyi. İnanmırsan?!. Bu səhər Qeybalının briqadasına, şəhərdən pambıq yığımına göndərilənlərnən söhbətə getmişdim (hərdən təbliğat işi tapşırılır mənə). Nə dediyim hamı eşidib. Sən də eşit. Dedim: "Mirqəzəbə qalib gələn Kişiyə zaval yoxdu!" Bəli, qadası! Doğrudu, necə deyərlər, çərxi-fələk özü döndərdi Mirqəzəbin çərxini!.. Zəmanə dəyişməsəydi, Sultan Əmirli kimisinin mini-milyonu da tərpədəmməzdi onu. Əmbə mən məhz Sultan Əmirlinin ayağına yazdım qələbəni. Ağsaqqalım da razı qaldı məndən, deyəsən elə özüm də razı qaldım. Niyə? Çünki, sözün açığı, mən də bezmişəm bu düşmənçilikdən, qadası. Necə əmin bezib, əl çəkib hər şeydən, mən də eləcə əl çəkərəm. Vallah, billah, əl çəkərəm, qadası! Professor Məhərrəmov da mən deyəni deyər, professoru bu rayona təhkim göndərənlər də deyərlər, baxarsan ki, "Mirqəzəbə qalib gələn Kişiyə" doğrudan da zaval yoxdu.

Bəs sənin istədiyin nədi, qadası? "Qurban olum Sultan Əmirliyə" deyirsən. Bəs niyə istəmirsən yaxşı olsun Sultan Əmirlinin işi?!. Tutaq ki, heç cırılmayıb o aktlar, hamısı zil-düzən durur Təftişin "seyfi"ndə. Sultan Əmirli də, deyək ki, heç yana getməyib, oturub bu saat öz kabinetində. Təftiş versin aktları, sən də apar qoy stolunun üstünə. Bilirsənmi neyliyər əmin? Qışqırar, bağırar, yumruğunu stola çırpar ki, "Kürüyəcəm, atacam bu Bezobraziye köpək uşağını". Əmbə sonra neyliyər? Dostu Qılınc Qurbanı necə arxayınlaşdırıb yola salıbsa, sən "Bircə bala"nı da

eləcə yola salar, sonra da cırar aktları, atar səbətə. Xeyrə arvad da yığışdırar o səbətdən, hər axşam raykomun dal həyətində yandırdığı süpürüntüynən bir yerdə od vurub yandırar, beləliknən aktların heç cırıqları da qalmaz. Hə! Belədi haqq-hesab, qadası. Mənə inanmırsan, yenə soruş bu kişidən. Bütün kənd şahiddi ki, ömründə yalan söz çıxmayıb Təftişin dilindən. Qılınc Qurbanın adı var, əsl ədalət mücəssəməsi, əyrikəsən bu Təftişdi. Cibində partiya bileti, üç gündü Xızr Abıya qulluq eləyir, bu palıdın altında, Çürüknən bir yerdə. Niyə? Bu da ürəyinin düzlüyündəndi. Sözünün düzlüyüynən kəsib bizi həmişə. Ağsaqqalımız əbəs yerə "zəhər tuluğu" demir ki buna. Qoy yenə açsın tutuluğunun ağzını, desin, sən də bil ki, bizim ağsaqqal sədr olandan bəri əmin neçə kərə "kürüyəcəm" deyib. Əgər kürüyəndisə, hər bazar axşamı, əl-ayaq yığışandan sonra o boz "Pobeda"sını niyə sürdürür Qudalı məhləsinə?! Xəlvət Rəhimin evinə burulanda faraları niyə söndürtdürür?! Həqiqətən kürüyəndisə, niyə oturur Xəlvət Rəhimin məclisinin başında?! Hər dəfə bircə şüşə konyakı boşaldandan sonra niyə qucaqlayır düşmənini, niyə ağlayır, niyə deyir "Əbləh olmuşam, zülm eləmişəm sizə, ay eloğlular! Vicdanım üzür məni! Bağışlayın! Siz mənimsiniz, mən də sizinəm, aramıza nifaq salan Bezobraziyeyə lənət, ay əzizlərim!"

Dəhşətli bürküdə, başdan ayağa tər içində Səməd üşütmə hiss etdi. Üşütməli canından çılğın qışqırtı qopdu:

– Mən inanmıram, Abbas əmi! İnanmıram! İnanmıram!

– Nəyə inanmırsan?.. Öz korluğuna?!. Yoxsa, əmiyin satqınlığına?!

Səməd göyümtül çalan qara üzə, yerə, göyə baxdı.

– Əgər Sultan Əmirli sizin deyiniz kimi iblisdisə, onda... atama, anama da şübhə eliyərəm! Xalqının mənafeyini hər şeydən yüksək tutan fədai Sultanın iblisliyinə inanmaram!

– Fədai əmin yenə fədaidisə, təkcə öz şəxsi mənafeyinin fədaisidi, qadası. Sən kimi ictimai mənafe güdənləri əbləh sayır indi əmin! Mən demirəm bunu, onun öz sözüdü. Xəlvət Rəhimin məclisində deyib!.. Hə!.. O gün Saşa Babayevin dalınca Moskvaya gedibmiş ölə-ölə. Qayıdıb nə deyib? "Taxtabitili kommunizm paytaxtı Saşamızı səhər çağırıb, axşamısı başını yeyib!" Sözə bax: "Taxtabitili kommunizm!" Elə bu bəs deyilmi, Saşanın dalınca əmini də güllələsinlər!

– Sus, köpəyoğlu! O kupedə, daxmanın qabağında sehrlədin məni... Sehrliyə bilərsən, əmma kor eliyəmməzsən. Ürəyimin, hissiyatımın gözüynən görürəm ki, Mirqəzəbin "moy rabotnik"i kimdi və necə işlərlə

məşğuldu! Mirqəzəb hər adama “moy rabotnik” deməzdi! Böyük miqyasda, böyük xidmətlər göstərmisən ona! Mədəd Əmirlinin, Sultan Əmirlinin yaxın məsləkdaşı Lüt Cəfərin adı ilə başlanan siyahı birinci siyahın deyil sənin. Arxivdən neçə yüz, neçə min fədainin adını siyahıya almısan?! Məhz kimlərdən ibarətdi o fədailər? Təbrizdə Şeyx Ağ Əmirlə Şeyx Boz Əmirdən, Culfada Sultan Əmirlidən dərs alanların hamısı Demokrat partiyasına daxil olubmuşlar, 21 Azər günü şah üsul-idarəsinin devrilməyində iştirak eləyiblər. Sultan Əmirlinin öz dilindən eşitmişəm ki, qırx altıncı ildə şah Demokratları topa tutanda, ilk növbədə məhz Ağ Əmir, Boz Əmir dəstələri qalıblar atəşin altında! Niyə belə olub?! Niyə məhz sənin siyahındakı demokratlar, məhz Əmirli yetirmələri qırılıblar?! Siyahını tutub Tehrana ötürmüsən?! Qatil!

Kobra gözləri Səmədin düz gözlərinin içinə baxırdı.

– Təbrizdə sənin əmiləriyin ancaq qohum-əqrəba tacir-tüccarlarıynan, açıq deyirəm, Ərdəbildən, Muğandan, Lerikdən, Türkiyədə Muğlar deyilən yerdən gedən zəvvarlarnan maraqlanmışam mən, qadası. Əmr beləydi. Sənə kim deyib ki, başqa siyahı da tutmuşam mən o arxivdə?!

– Heç kəs!.. Mən özüm düşünürəm sənin barəndə. Mənə həmişə çox təəccüblü gəlirdi ki, Əmir məzarstanını ziyarət eliyən adamlardan lap qısa müddətdə hər cür məlumat almaq olardısa, beş il dalbadal gedib-gəlməyin səbəbi nədi? Fikirləşirdim ki, yəqin alver niyyətiynən gedib-gəlmisən. Sonra duydum “moy rabotnik”ə verilən tapşırığı. Həm o tayda, həm də bu tayda Əmir yetirmələrinin siyahılarını tutub Mirqəzəbin şəxsən özünə və ya başqa “rabotnik”lərinə ötürmək, Sultan Əmirlinin özünü də müxtəlif qurğu və şantaj yolu ilə aradan götürmək! Bu deyilmi sənə verilən tapşırıq?! Bu son hadisə – evlənmə əhvalatı da o tapşırıq – şantaj nəticəsində olmayıbmı?! Qəlbim var, hissiyatım var, lap bir parça vaxtımdan heç kəsin görmədiyi şeylər görürəm. Sənin iç üzünü isə, ovcumun içi kimi görürəm indi, qatil!

– Bu sözü dilinə gətirmə!.. Nə deyirsən de, bircə bu sözü demə!.. Bu nə oyundu Abının ətrafında? Mən nə gəzirəm bu palıdın altında?

Mərd-mərdanə deyirəm: mən səni tutdurmalıyam bu gün, mən də azad eləməliyəm. Çox-çox mürəkkəb iş gedir bu məhkəmə günlərində. Səbrnən qulaq as mənə. Nə oldu Qarmonçu Şənbə birdən-birə mələyə döndü? Nənəsinin o iyli damında sənə necə qulluq elədiyini danışa-danışa gəzir! Yuma bilərsənmi Şənbənin ağzını?! “Gecə səhərəcən yaralarının gicişiklərini sığallayırdım!” Kim vurdu sənə o yara-

ları? Zor Gülənovun milisənerləri, yoxsa Gülənova sən barədə tapşırıq verən qardaş qatili?! Aman vermirsən danışım niyə, necə öldürtdürüb Pişəvərini?! Sultanın Stalin iti olduğunu tək Pişəvəri yox, Nəcəfoğlu da aça bilərdi! Hə!.. Sən mənim bu sinəmdəki yaranı görüb həqiqəti biləndən sonra bu yeddi ildə çəkdiyin əzabdan da betər əzab çəkəcəksən!

– Yara deyil o sinədəki. Qorxudu! Qatil qorxusudu! İfşa qorxusudu! Özün də çox yaxşı bilirsən ki, məhz mən ifşa eliyəcəm səni. Bilirsən!.. Ağsaqqalın o məhkəmənin yelindən qorxur. "Moy rabotnik"in təcrübəli agent ağsaqqalı indidən bilir ki, cəzası nədi Mirqəzəbin.

Şüşəli pavilyonda "moy rabotnik"in fəaliyyətinin miqyası haqqında fikirləşirdim, orda başa düşdüm ki, Mirqəzəbə güllələnmə kəsiləcək. Ağsaqqalınnan sən də başa düşürsünüz bunu. Məhkəmə xəbərini eşidən kimi yeni fəaliyyətə başlamısınız. Yazıq Qurban əmi, o yanğında Qeybalının yaxasından tutduğuna görə "artist" deyir özünə. Gör nə qədər təmiz insandı ki, elə ötəri hərəkətini də bağışlamır özünə. Halbuki o yanğın da şəxsən sənin tədbirindi, Çax-çux Xalıq! Kupedə özün dedin ki, Bakıda addım-addım izləmisən məni. Burda da izləyirsən. Əlləzoğlunun dalımca düşdüyünü də görmüsən, "kibrit, nöyüt" dediyini də eşitmisən. Qara üzün göyərib, gözləriyin ətrafı yanıb, gecəni yatmamısan. Çünki qorxursan məndən. Çünki manqalın yanından xançal götürdüyüm də, Seyid kişinin həyətində Abıynan söhbətimiz də, şübhəsiz, çatdırılıb hamınıza. Belə dotələb həbs tədbiri də məhz qorxduğunuza görədi. Ağsaqqalın məndən yox, dediyin kimi, məhkəmənin yelindən qorxur. Nə qədər toxtaqlı dayansa da, başa düşür ki, cani güllələnəndən sonra Sultan Əmirli doğrudan da kürüyəcək o caninin səpdiyi toxumları, Qudalıları da, şübhəsiz, iş başında qoymuyacaq. Buna görə də çalışır ki, mənnən barışsın, məhz mənim vasitəmnən Sultan Əmirliyə təsir göstərsin. Sənin isə bircə üsulun var: öldürmək!.. Atamın nəynən, necə öldürüldüyünü çoxdan bilirəm. Kim öldürdüyünü, niyə öldürüldüyünü də başa düşmüşəm. Sən vurmusan onu! "Avariya" adlandırdığınız sui-qəsd günündən yeddi il səkkiz ay keçib, bu rəqəmi sən dedin kupedə mənə. Saymısan. Çünki cinayət məcəlləsi iyirmi ildən sonra bağışlayır qatili. Saymısan, ümid eləmisən ki, ara uzanacaq, cinayət müddəti qurtaracaq? Qurtarmayıb, qatil! Cəmisi yeddi il səkkiz ay keçib!

Kobra gözləri həmin diqqət və fəhmlə baxırdı:

– Sən xəstəsən, Səməd. Açıq danışaq: Məcnunluğun sarsıdıb səni. Xəstələndirib. O iyili damda Cığalıya xəyanət eləmisən, bir yandan da budu səni üzən! Çünki dilə-dişə düşür pozğunluğun! Psixi xəstə adın qalıb yayılmayan, o da yayılar, inşallah! Hə!..

– Xəstə idim. Yeddi il idi görmürdüm dünyanı. İndi-indi ayılıram, görürəm ki, adi cani deyilsən sən, geroy Xalıq, rəhbərin Mirqəzəb kimi, professional canisən! Odur ki, Sultan Əmirlini də öldürmək niyyətindəsən, məni də.

– Bir də deyirəm: Vaxtikən ayıl! Həbs eliyəcəklər səni. Çalış ağlını başına yığ. Psixi xəstə damğası pis şeydi. Belə dustaqları azad eləyib ayrı yerdə saxlayırlar. Başa düşdün?! Dəlixana dəhşətli yerdi!

– Ayığam. Sən özün ayıltmısan məni. Evi niyə yandırtmısan? Qudalı cavanları niyə şayiə yayırlar ki, "Dəli Səməd gəlib əmisinin arvadını götürsün qaçsın?" Arvadın Badsəba niyə allah yoluna qoyub ağzını? Qızın niyə "qovuşdurmaq" istəyir məni o bədbəxtə?! "Eşq dəlisi" damğası üçün deyilmi bunun hamısı? Üstəlik də bu Şənbə əxlaqsızlığı!.. O milisəneri niyə qoydurmusan o darvazaya?" "Eşq dəlisi"nin əmisi arvadını doğrudan da götürüb qaçmaq niyyətində olduğunu təsdiqləmək üçün deyilmi bu milisəner?! Bəs bu Şənbə?! Psix?! Hərtərəfli işləyirsən!

Sonrasına qulaq as.

Əlləzoğluna kim deyib ki, əmim guya atamın mauzerini saxlayır evdə? Atam milisəyə təhvil verib o mauzeri! Qırx beşinci ilin yayında, mənim gözümün qabağında, şəxsən Gülənova təhvil verib! Bax buna görə də mənim bu "kor" gözlərim sənin qurduğun qurğunu bütün aydınlığı ilə görür, Çax-çux! Əlləzoğlunu sən inandırmısan ki, mauzer milisdə deyil, Sultan Əmirlinin evindədi. Ona görə inandırmamısanmı ki, lazım gələndə Əlləzoğlu şahid kimi dindirilsin, təsdiq eləsin ki, mauzer o evdəydi! Bunun hamısı isə ona görə deyilmi ki, gecənin birində Sultan Əmirli həmin mauzerdən atılan güllənin qurbanı olsun, Bakıdan "əmisinin arvadını götürüb qaçmağa gələn" "eşq dəlisi" isə əmisinin qatili kimi həbs olunsun?!. Şənbə isə məlumat yazsın ki, başı xarabdı?! Gecə yarıda çalışdım sürünüm çıxım o qara damdan, qəsdən gicgah damarımdan yapışdı sıxdı. Yenidən qan açıldı tərpənəmmədim.

[17] "Kadr siyasətində beynəlmiləlçiliyə riayət etmək" pərdəsi altında Azərbaycanda ən həlledici vəzifələrə Ermənilər və Ruslar göndərilirdi. "Yevrey" göndəriləndə Muğannalar sevinirdilər.

Heç bilmirəm niyə çənə-çənəyə vermişəm qaniçən İblisnən! Yara! “Sinəmdə yara!” De görüm nə yaradı elə! Düzünü de! O kitabxana müsibətinin içində sənin o daxmayın qabağına məcburən getmədim mən. Sənin “sinəndəki sirlər”ə laqeyd deyiləm, açığı. Gülənovu, Sayılovu, ümumən bütün Bezobraziye xadimlərini kənardan tanıyıram. Özünü yox, onları tanıtdır mənə, xilas elə qatillər yığnağını ki, onlar da səni xilas eləsinlər! Bacararsan?

– Sultan adında qatilin qatilliyini konkret faktlarnan dərk eləməsən, mənim sinəmdəki yaranı duymazsan, qadası!

Səməd ətrafındakı adamları, hətta beş addımlıqda oturub qəlyandan tez-tez, lopa-lopa tüstülər buraxan Təftişi də unudub, yenə də anlaşılmaz sehr saçan, anlaşılmaz şəkk-şübhələr doğuran qatilin dediklərinə qapılmışdı. Buna görə də Təftişin gözlənilmədən mübahisəyə qarışıb, – O öz ağrılarından savayı ağrı duymur! – deyəndə Səməd diksinib təəccüblə qocaya baxdı.

– Nə?!.

Abının iniltisi eşidildi:

– Abbas!.. Nə danışırsan danış, Sultanı təftiş eləmə! Öz arşınınla ölçmə onu!

Lakin Təftişin gözləri qanla dolmuşdu. Açıq qəzəblə Səmədin üzünə dikilib qırpım çalmayan qıpqırmızı gözlər başqa sözləri yada salırdı: “Nəyə inanmırsan? Öz korluğuna?! Yoxsa əmiyin satqınlığına?!” Elə bu vəziyyətdə dönüb Abıya baxdı.

– Kimləri, nə üçün, necə təftiş elədiyimi yaxşı bilirsən sən. Bayrağını öpdüyüm Leninin haqq-ədalət uğrunda əsgəri olanda revkomda Sultanın verdiyi bu “imennoy revolveri” görəndə özümü elə təftiş eləyirəm ki, az qalır lüləni söyküyəm gicgahıma, tətiyi çəkəm. Əmbə çəkmirəm. Bilirsən niyə? Çünki haqq-ədalət xeyrinə söz deyən insan qalmayıb daha. Deyənlərin hamısı öz dərdini, öz ağrılarını deyir. Uğrunda belə zülmə-zillətə dözdüyüm bu istəkli Bircə bala da öz arşınıynan ölçür hər şeyi, sən özün də, Sultan da! Bəli, satqın deyirəm mən bunun əmisinə! Qatil deyirəm! – Səmədə sarı döndü. Millət dərdi çəkən adam gedərmi Lütün adını batıran qancığın qara damına?! Bunu eşitsə ölmüyəcəkmi o dəqiqə o Qaraçı gözəli dediyin?! Demişəm, deyirəm: “Alabaydaqsan sən!” O alabaydaq gəzdirənlər də öz ağrılarını fikirləşirdilər həməşə. Daşnaklarnan birləşdilər İngilisi çağırdılar! İngilis generalı Dejtervil bir yandan soydu Azərbaycanı, alabaydaqlar özləri

də o biri yandan. Hümmətçilər Bakıya yığışmışdı o vaxt. Nərimanın ordusunun gəldiyini eşidəndə getdik gördük Alabaydaqlar Şirvanşahlar sarayını bütüncə soyub göndəriblər harayasa! İndi Şüşəlidən xəbər gəlir qulağımıza, Türkiyəyə yığışıblar Alabaydaqlar, Rusun əliynən hazırlaşırlar genə gəlsinlər!

Səməd hiss etdi ki, yenə nə isə böyük bədbəxtlik baş verir. Qapağının hər küncündə bir mismar işıldayan tabut, sonra açıq tabutda qoşa qardaş görünüb yox olurdu.

Təftiş qışqırırdı:

– İnişil Alabaydaq başçısı Məmməd Əminin ölüm xəbəri gəldi Türkiyədən. Şüşəlidə yas tutdular casuslar! Sənin əmin Sultan niyə yas tuturdu o Alabaydaq casuslarının arasında?!

Səməd boğuq:

– Mən bilirəm, Dumada Müsavat da sosialist adlanırmış, Ermənilərin Daşnak partiyası da, EsErlər də, hamısı bir cəbhədə imiş, – dedi, – Əmim nifrət eləyir o adları "sosialist" özləri soyğunçuların hamısına. Rəsulzadənin hüzründə olubsa, yəqin ki, başqa niyyətlə gedib ora. Ümumbəşəri hisslərlə! SafAğ proqramına yaddı ayrı-seçkilik. Sən bu tərəfini fikirləşmirsən, Abbas əmi. Qurban əmi görür, onçun da deyir vəhşilərin, murdarların arasında ləkəsiz qalmaq mümkün deyil. Buna mən əlavə eləyirəm: güzəştsiz yaşamaq mümkün deyil. Böyük arzular, uca məqsədlər naminə salamət qalmaq üçün güzəştə gedir Sultan Əmirli, Abbas əmi. Qudalılara da bəzi güzəştlər eləyib. "Yoxsa, əmini belə görməzdin" – dedi... "Kor" de mənə. Hiss eləyirəm ki, çox şeydən xəbərim yoxdu. Başa düşürəm nədi səni belə qəzəbləndirən. Casusların pəncəsi altında güzəştlərinə görə Sultan Əmirliyə "satqın" demək olmaz! O mahnındakı "Yaralı durna" birincisi elə Sultan Əmirli deyilmi, Abbas əmi?!

O, "akt", "akt" söhbətin də inandırmır məni. Bilmirəm, bəlkə doğrudan da cırıb aktları. Əgər cırıbsa, şübhəsiz, mülahizəsi olub özünün. Mənə təhkimçi olduğum vaxtlardan dəqiq məlumdu ki, mürəkkəb şəraitdə raykom katibinin hər hansı bir hərəkəti haqqında dəqiq söz demək üçün gərək mütləq katibin mühitində olasan, o "raykom" adlanan qazanda qaynayasan, katibin hər bir hərəkətinin səbəblərini öyrənəsən.

Mən yenə öyrənəcəm. Özündən soruşacam. Əmma indidən deyə bilərəm ki, nə isə çox ciddi səbəbi var əmimin o hərəkətinin... Maarif müdiriynən bir mübahisəsi olub. Gülənovu çağırıb, məktəbləri yığma

cəlb eləməyi ona tapşırıb. Gülənov da qarnını irəli verib, çox dəhşətli təhqiramiz şəkildə qarnıynan basıb itələyib maarif müdirini – Mirbağır müəllimi. Heç bilmirəm kim danışdı, nə vaxt danışdı mənə bu hadisəni. Maarif müdirini qarnıynan itələyəni elə bil öz gözümnən görmüşəm. İl on iki ay hər səhər xaş yeyən "Xaş nəçənnik" insandımı?! Əmim deyir "qarnına baxanda mal dırnağı görünür qarnında". Hələ də ağlıma sığışdırammıram ki, əmim iş tapşırıb ona... Niyə deyirəm bunu sənə? İstəyirəm biləsən ki, ağı qaradan seçirəm mən. Gülənov əmimdən üz görməsə, o cür heyvərəlik eləməz. Əlbəttə! Heyvərəlik yox, əməlli-başlı eşşəklikdi o cür qarınnan itələmək! Dözülməz şeydi! O eşşəkliyi əmimin görməzliyə vurmağı daha dözülməzdi, əlbəttə... Əmma qəlbinə bələdəm!.. RİK Atamalının Gülənovnan, Sayılovnan, stansiya rəisiynən əlbir fırıldaqları haqqında bir aləm şey danışıb Müslüm mənə ötən gecə. İyirmi vaqonluq bir eşalonu paravozla toqquşdurub xınc-mınc eləyiblər, aktlaşdırıblar ki, fəhlə qəsəbəsinə, kolxozlara dövlət qiymətinə satılmaq üçün göndərilən neçə yüz "xolodilnik", mətbəx mebeli, məişət avadanlığı guya sıradan çıxıb, "istifadə üçün yaramaz hala düşüb". Satıblar ey hamısını! Hansı respublikadasa satıb basıblar ciblərinə! Rayon idarələrinə gələn avadanlıqları bir neçə il dalbadal göndərib Gürcüstanda satdırıblar... Məni dəhşət götürdü ki, əmim Bezobraziyenin bu cür açıq yırtıcılığına da dözüb! Çünki Mirqəzəbin yekə "rabotnik"ləri Markaryan, Qriqoryan[17] və sair, "Cuqaşvili paketi" alanlar həmişə, ardıcıl zəng vururmuşlar ki, "qızıl qiymətli kadrlarımızı ləkələmə, cənab Sultan".

Necə dözüb əmim buna, bilmirəm. Nəzərə al ki, bütün güzəştləri məcburiyyətdəndi! Bütün güzəştləri!

– Qurtardın?

Səməd nəfəsini dərdi.

– Əsas fikrimi dedim. Əmma bir xahişim var.

– Buyur!

– Hiss eləyirəm, nə isə deyəcəksən. Xahişim budu ki, toxtaqlı danış mənnən. Özün qışqırdın, məni də qışqırtdın, bəsdi. Səhv eləmirəmsə, inandın ki, düşmən deyən "eşq dəlisi"-filan deyiləm mən, dəliliyim başqa dəlilikdi. Əmimin barəsində ehtiyatlı ol... Otuz ildən sonra "imennoy"unu, özünü də təftiş eləyə bilərsən. Nəzərə al ki, əmim mürəkkəb adamdı. Ağır kəlmə işlətmə... Yaralama... Neştər kimidi dilin! Könlümə toxunma, Abbas əmi. Yekəliyimə baxma, tez sınanam. Xüsusən əmimə aid o cür sözlər, "satqın"-filan öldürür məni. Qurban əmiynən

danışanda özümün elə bu "satqın"a yaxın bir söz gəldi dilimə, düşüncəsizlik elədim dedim, əmimi yox, özümü vurdum o söznən, özüm özümü öldürdüm. Qurban əmi olmasaydı, dirilmiyəcəydim. Nəzərə al bunları, ağır kəlmə işlətmə... – Səməd arada Çax-çuxa baxa-baxa, tez-tez ağzını geniş açıb, nəfəsini tənzim eləməyə çalışa-çalışa, özündən asılı olmayaraq, əməlli-başlı yalvarırdı. Gözünü Çax-çuxdan çəkə bilsəydi, yalvarışının qan çəkmiş gözləri nəmləndirdiyini görsəydi, əlbəttə, öz vəziyyəti ilə birlikdə qocanı da necə çətin vəziyyətə saldığını duyardı. Əmma Səməd yenə təlatümdə idi.

Təftiş əlinin dalını gözlərinə çəkdi.

– Söhbət özü ağır söhbətdisə, necə işlətməyim ağır kəlmə?!.

Könlünə də toxunacam, hələ bir az o yana da gedəcəm!.. Otur!

Səməd dala çəkildi, böyüyündən tənbeh almış uşaq kimi səsini içinə salıb, palıdın kölgəliyinə qədər gəlmiş sahədə iki sıx yarpaqlı, sıx qozalı kol arasında bir topa çayırlığa çökdü.

Təftiş qəlyanı çəkməsinin dabanına döyəcləyib külü boşaltdı, "seyfləri"ni eşələyib boz, sarımtıl, hətta yaşıltəhər vərəqlərin, "kopirovka" kağızlarının, karandaşların arasından müharibə vaxtından qalma silindrvari alüminium tütünqabı və kibrit çıxartdı, qəlyanı doldurub yandırdı, alovlu kibrit çöpünü torpağa sancdı. Qəlyanı sümürməyindən, tüstünü üfürməyindən başlamış, kibrit çöpünü dibinəcən yerə basan barmaqlarının tərpənişinə qədər gərginlik yağsa da, gözlərini Səmədə qaldırıb, məhz onun istədiyi toxtaqlı, təmkinli səslə: – Qulaq as, – dedi.

Əmma bu təmkinlə əsəbi qışqırtının arası bir an da çəkmədi.

– Hara baxırsan?! Mənə deyirsən düşmənin dediyinə demə, özüyün fikrin-zikrin Çax-çuxun yanındadı!.. Sultana etiqadın varsa, onun o "qatil" kəlməsindən niyə urvaya döndü rəngin?! Onun sözünə inanmırsansa, ağzın niyə balıq ağzı təki açıq qalıb?! Necə yəni "bağışladım"?! Nəyi bağışlayırsan əminə? O "zaklyuçeniye"ni öpüb gözünün üstünə qoymağını?! Stolun xatirinə, Məhərin budkasında, o vaqonda lal olub, "Muğ"ları güdaza verməyini?! Yoxsa kolxozu əjdahaların ağzına verib, Qurbana, mənə "müvəqqəti şeydi, siyasətdi" deyib, xəlvətdə əjdahalarnan rumka döyüşdürməyini?!

"Yaralı durna!.." Durna deyilənin öz yolu var, o yolnan gedər gələr! Koroğlunun Dəliləri durna teli gətirməkdən ötrü Bağdada gedirlər! Müharibəyə! Nə olan şeydi o "Durna teli", niyə müharibə olur ondan ötrü?! Xəbərin var?! Bu tüfəngsiz-topsuz müharibə xəyalında olandan soruş,

Çürükdən soruş, izah eləsinlər. BağOda, OdƏr dilinə görədi "Koroğlunun oğlu Eyvaz" deyilən EvƏsin "Bağdad səfəri!" "Eyvaz, BağOddan "durna" – OdƏrlər barədə "tel" – ƏsOd sirrləri gətirməli idi Səndən alıb Ərəbə vermişdilər BağOdu, Ərəb də yiyələnib, "Bağdad" eləmişdi. OdƏrləri bu tərəflərə köçürdülər. Molla Pənah Vaqifi, Molla Vəli Vidadini didərgin salmışdılar BağOddan! "Vidadi xəstədən Bağdad elinə, siz yetirin bir nişanə, durnalar!" Budu bax bizi xəstə eliyən! "ƏnƏl başdan Bəsrə, Bağdad eliniz!" Budu bax Sədr Mədədi sızıldadan: "Sən haralısan, haralı durnam!.." Gedib Naxçıvanda, güllə qabağında kitab oxuyan oğullar varıydı, niyə yoxa çıxdılar, kimdilər onlar? Xəbərin var?! Sultan Əmirlinin Revkomda bizə dediyi dərsi deyirəm: "Eyvaz" – EvƏs, gözünü döyürsən! Hardaydı o EvƏs – Yaradan Ev? Xəbərin var? "Rim" deyiləndə, "Roma" deyiləndə olub. Kim qovub səni o "Rim" deyilən Ərim şəhərindən? Xəbərin var?! Ayağımda "kuzovıy sapoq", araba sürürəm, pambıq daşıyıram Şura hökumətinin zavoduna, fabrikinə, "plan doldururam", tərifnamə alıram: "Köhnə bolşevik Təftiş Abbas Zal oğluna!" "Əmbə içərim qovrulub kabab olub! "Rim" demə, "Ərim" de deyənim, "Gor oğlu" demə, OdƏr AğƏl de deyənim, "Koroğlunun oğlu Eyvaz" demə, OdƏr AğƏlin EvƏsi de deyənim, "revkomu"nun anbarı Osmannı tüfəngiynən, Maksim pulemyotuynan dolu olanım, Dəli Alıcan da olmadı, qoymadı Rusnan döyüşməyə! Cibimizə partiya bileti qoydu, "Lenin də, Nərimanov yoldaş da elə biz deyəni deyir deyib başımızın altına yastıq qoydu: "Elm!", "Elm!", "Elm!" Nə olsun?! Kimə dərs deyir gör öz "Elm"iynən – Çax-çuxa! Xəlvətə! Gülənova! Tfuu!.. Nemes gəldi Qroznıyacan dirəndi, bu burda pulemyotlarını işə salmaq əvəzinə "könüllülər" yığdı, "Naxçıvan diviziyası"na popolneniye göndərdi, Rus Nemesin "yoldaşı" dedi bizimkilərə, tüfəng-zad paylamayıb, əliyalın bədbəxtlərimizə "Vperyod" dedi, çekistləriynən Erməniləri arxadan qırdı, nemes də o yandan! "Qırılan diviziya" da qırılanlarımızın yetimləridi bax o ayaqyalın, başıaçıq, günün altında pambıq yığan, qıcqırmış qatığa su qatıb doğramac eliyən bədbəxtlər!.. Əminnən əmin kimilərin satqınlığının nəticəsi deyilmi bu, a bala?! Necə "tfu!" – eləməsin bu bədbəxt?!.

Yaralama!.. Sözünə bax! Millətin yaralıdı sənin, ölüm ayağındadı.

Müəlliminə bax: "təftiş eləmə bizi. Hətta Qılınc Qurbanı da mübarizədən çəkindirir bu Xızr peyğəmbərimiz!

O Çax-çuxu bu sapoqların altına sallam, təpəsindən dırnağınacan əzərəm, sür-sümüyünü də xaşıla, xəmirə döndərrəm, yenə soyumaz ürəyim, əmbə onun dediyinin bir kəlməsində də yalan yoxdu! İlin əvvəlindən bu vaxtacan, səkkiz ayda bir kərə də vedemost tutulmasın, obaşdanın alaqaranlığında evindən çıxıb bir də axşam qaranlığında qayıdan əli qabarlıya bir qara qəpik də verilməsin, əvəzində Qudalılar dördcə kərə xəlvəti vedomost yazsınlar, hırıldaşa-hırıldaşa camaatın əvəzinə qol çəksinlər, möhür basıb, Qudalı hesabdarının alt yeşiyində gizlədib, hər vedemostdan yüz, yüz əlli min manat soxsunlar ciblərinə, raykom katibi də gedib o pullarnan düzəldilən kef məclislərinin başında əyləşsin, bu eldən çıxarılara "əziz eloğlularım" desin, nədi bu?! "Güzəştlərdi", satqınlıqdı?! Nə var mənim bu "seyflərim"də, o satqın bilir hamısını! Keçən yaydan bəri, bir ildə dörd yüz inək, camış satıblar canavarlar! Get bax, sağmal mal fermasında bildirki doğar inəklər əvəzinə, çöpüklü danalar görərsən! Sançı gəlib rayondan, içirdib ağlını başından çıxardıb oturdublar bir güllü-çiçəkli təpənin belində, naxırı da səpələyiblər dərəyə, deyiblər "sana!" Sanayıb, aktını bağlayıb, kəmisyə üzvlərinə də qol çəkdirib, aparıb verib RİK Atamalıya ki, bəs Qonaqlıda bir inəyin də burnu qanamayıb. Axşamısı Qurbannan getdik əmiyin hüzuruna. Knopkasını basdı, çağırtdırdı RİK Atamalını: "O boyda fermanı yerli-dibli udublar, bir baş da südverən inək qalmayıb, RİK sədri də qulağını yapırdıb, heç nə eşitməyib?! Dərəbəylikdi, nədi?!" Və sairə və ilaxirə, bir sicilləmə söz yağdırdı. Atamalı da Gülənovsayağı gözlərini dombaltdı, guya çox təəccüblənib başladı ki, "Əgər inək dönüb dana olubsa, bəs Rəhim kişi hardan verib bu qədər yağ planını?! Danadan da süd çıxarmı, Sultan Mamedoviç?!" Dedi: "Bilmirəm. Təzə sançı göndər, yerli adamlardan Qılınc Qurbanın özünnən köhnə atryad üzvlərini – Qəlyanlıların hamısını sal kəmisyəyə, yoxlasınlar. Kəmisyənin sədri – Təftiş Abbas!"

Yoxladıq! Nəticəsi nə oldu?! O cırılan aktlardan biri bu həzmrabedən keçirilən fermamıza aidiydi, biri də o pul vedomostlarına. Qurban gəştə çıxanda öz qulağıynan eşidib, o Şüşəlidə Xaş nəçənnik "yuyurmuş" cırılan aktları! Boğazının yoğun yerinə salıb nər-nər nərildəyirmiş ki, bəs, belə apardım, belə dedim Kişiyə, belə cırdırdım "Kişinin öz əliynən!" Sənin Piyli, Qıllı dediyin Qayımnan Qeybalı da əmiyin təqlidini çıxardırmışlar; qaşlarına yun yapışdırıb, pırpızqaş olub qışqırırmışlar: "Prekratite bezobraziye!" Eşikdə, çinarın altında

çay içənlər də eşidirmişlər, bizim uşaqlardan ora konserva-zad almağa gedənlər də. Gizlətmirlər daha heç nəyi. “Kişi” dediklərində kişilik qalmayıbsa, niyə gizlətsinlər?! Qanun-qadağa yoxdusa, niyə nərildəməsinlər?!

Körpə uşağı dindir burda, uşaq da deyər ki, qoyun südünə plan qoymur hökumət. Quzu əmdiyini əmir, əmmədiyinə maya vurulur, motal basılır, əməkgününə paylanır. Mədədin vaxtında beləydi. Mən sədr oldum, mən də belə elədim. Ələsgər müəllim sədr oldu, Lüt Cəfər sədr oldu, onlar da belə elədilər. Dörd min qoyundan irili-xırdalı dörd yüz motal verirdik hər il camaata! Bə indi niyə ceyranın belinə çıxıb pendir?! Hökumət plan qoymursa, bu o deməkdimi ki, qoyun pendiri uçota alınmamalıdı, Qudalı məhləsində hamının payı veriləndən sonra Şüşəli pavilyona daşınmalıdı, Gülənoğlu Molla Gülənin əlində paçqa-paçqa pula çevrilməlidi, Xəlvət Rəhimin əliynən casusların kef məclislərinə qoyulmalıdı?!

Pul Qudalıların, Gülənovların! Ət Qudalıların, Gülənovların! Yağ, yavanlıq Qudalıların, Gülənovların! Çörəyini nəyə batırsın camaat? Qıllı Qeybalı bir oturuma bir boçka pivə boşaldır, şalvarının qabağını açanda at kimi şırıldadır! Qeybalının şırıldatdığına batıraq çörəyimizi?! Niyə göndərib səni bura o satqın?! Ölür, deyirəm, millətin! Ölü dirildəcəksən?!

“Ay eloğlularım, ay elqızlarım!” Tfu! Kor deyilsənsə, niyə görmürsən kimdilər burda pambıq yığanlar?! Bax də, bax! – Yoğun, uzun cod barmaqlar Səmədin biləyini kəlbətin kimi qamarlayıb sahəyə doğru çəkdi. – Bax də, bax! Kor deyilsənsə, gör kimdilər!

Səməd baxırdı. “Qruzovik”in yanında susqun, qaşqabaqlı dayanmış beş-altı yeniyetmə ilə sərili pambığın içində əlləri yabalı Qəlyanlılardan başqa, sahənin genişliyindən, cərgələrin aralarından boylanışan qaraltıların hamısı on-on iki, on beş-on altı yaşlarında məktəb uşaqları idilər: “Dəli Səməd”in vaxtilə Ortayolda, həyətlərdə, divarların, ot tayalarının diblərində gördüyü “burnu fırtıqlılar”dılar, böyüyüb məktəbli olsalar da, “Dəli Səməd”in bəlkə heç adını da eşitməmişdilər!.. Təftişin dediyindən belə çıxırdı ki, bu saat Qonaqlıda bircə “zil-düzən briqada” vardı, o da Qeybalının Qudalılardan ibarət briqadası idi. “Mirqəzəbə qalib gələn Kişinin”, “Bakıdan – Sekadan gələn nümayəndə”nin gözünə dürtülməkdən ötrü qapılarını bağlayıb yığıma çıxmışdılar. Kərpickəsənlər məhləsinin briqadiri Möhsün kişiynən Təftişin briqadalarında

işləyənlər bax elə bu körpələrdi", çünki Səmədin tanıdığı "o vaxtkı cavanlar"dan kimisi Qudalılara və "elə kəndə də tüpürüb, Mingəçevir, Sumqayıt tikintilərinə fəhləliyə gedib, kimisi dəmir yolda-zadda taxta, şalban oğurlayan allahsız-vicdansız alverçiyə dönüb", yerdə qalanlar isə "poyezd ayağında alça-malça, göyəm-möyəm satırlar ki, bu körpələr axşam ölüm-zülüm sürünüb evə qayıdanda, qabaqlarına qoymağa konservadan-zaddan tapıb gətirsinlər".

Səməd Təftişin əsiri idi: "kəlbətin" barmaqlar biləyini sıxıb, ardınca əsl kor kimi yedəkləyə-yedəkləyə gah o yana, gah bu yana sürüyürdü.

– Bax! Bax! Bu bizim uşaqların irzi-irəngi, əyni-başı! – deyib sahənin cəhənnəm bürküsündə tərdən gözlərini aça bilməyən solğun üzlər, yalın ayaqlar, əyiş-üyüş, cırıq-sökük ayaqqabılar göstərirdi.

– Bax! Bu bizim yağımız, pendirimiz! Plovumuz-çilovumuz! – deyib toz-torpaqlı heybələrdə, əski-üskü bağlamalarda taxta kimi quru qarğıdalı cadları, bankalarda istidən qıcqırıb qabarmış qatıq, göyərmiş şor göstərirdi, arada isə "o satqının" haqqında bir-birindən dəhşətli sözlər deyirdi.

Axırda, sahənin harasındasa sükut içində dayananda o sözlərdən Səmədin yadında ancaq bir neçəsi qalmışdı:

"Mirqəzəb, Mirqəzəb! Bezobraziye, Bezobraziye!.." Əsl Mirqəzəb öz doğmaca əmin ola-ola, Mirqəzəbdən niyə danışırsan?! Bezobraziyenin yekəsi canını qurban dediyin "ata əvəzi əmin" ola-ola, hansı Bezobraziyedən danışırsan?!"

Yenə də həmin qoşa qardaş tabutu gəldi, havadan asılıb qaldı. Çaxçuxla qızından, Təftişdən, dünyanı bürümüş ilğımdan və ilğımın içində ağır-ağır tərpənişən məktəb uşaqlarından başqa, Səməd sahənin kənarındakı qalın sirkanlıqda dayanmış Qılıncı görürdü. Əmma tabut gözündən getmədi; Qurban əminin bu cəhənnəm bürküsündə heyrətli "köhnə inqilab paltarını" – qara meşin pencəyini, qara meşin şapqasını, çiynində qoşalüləsini, əlində şallağını, yedəyində atını da gördü, şallağın vıyıldayıb Çax-çuxun üzündə yanıq tuluğu kimi tuluq əmələ gətirib, çəkmənin boğazına sancıldığını, qoşalülənin iki çaxmağının ikisinin də dabana çəkildiyini, lülələrin qara deşiklərinin qarala-qarala qalxıb "sirlə dolu sinəyə" tuşlandığını da gördü. Əmma həqiqətin dəhşəti başından getmədi: Təftiş Abbasın sadaladığı heyrətli yırtıcılığa dözən katib niyə otururdu katib stolu arxasında?!

## 6

İblis zənən palıdın kölgəsindən, atasından xeyli geridə dayanmışdı. Səssiz-səmirsiz, addım-addım yeriməyə başlayanda qatı kölgədə lap əvvəlki durnaboğaz gözəl, həməncə şirin-şıtıq elqızı kimi görünürdü; gülgün badamı gözlərini süzdürüb, əsməri yanaqlarında zənəxdanları çökələ-çökələ gülümsəyib, indicə başlayacaqdı ki, "Sən bir yaxşı-yaxşı bax mənə, fikirləş, gör Gülgəzi alacaqsan, yoxsa məni?" Müsibət içində Səməd beləcə xəyallandı. Əmma xəyal tez keçdi. Gülbəniz kölgədən günə çıxar-çıxmaz, hədsiz kök, vulqar qadının yırğalanan döşləri də Səmədə dedi ki, bu zənən öz sözünü də vulqar açıqlıqla deyəcək.

Belə oldu.

– Yenə davadan çıxıb Koroğlu Dəlisi gözəl Səmədim! O Şənbə deyilən üç gündə elə yaranımı sığalladı, köynəyinin qanını yumağa vaxt tapmadımı!.. Qanına-canına qurban olum sənin, ay canım-ciyərim! Nalı sənə boşboşuna vermədim mən, a canım-ciyərim. Aparıb düz gözünün qabağına qoymaq əvəzinə hələ də pencəyin cibində gəzdirirsən. Niyə?! Gülgəzə öz diliynən deyib, etiraf eləyib ki, qardaşımı öz əlimnən verdim Əzrayıla. Sənin dilsiz-ağızsız saydığın Gülgəz lombaynan tüpürüb üzünə qatilin, qaçıb evdən, həmişəlik gedib atasının evinə. Oturub sənin yolunu gözləyir. Niyə, bu qədər gözlədirsən bədbəxt Leylini, ay Məcnunum?! Sənsiz axı, bir gün də yaşamaz daha yazıq bacım! Məktub yazıb qatil əminə. Açıq-açığına yazıb ki, qardaş qatilinin yasdığına baş qoymaram! Səndən uşaq doğmaram! Belədi həqiqət, qurbanın olum! Həq-taala səni ona yazıb, onu da sənə! Qatilin ömrü qurtarıb, a canım-ciyərim. Bütün respublikada biabır olub, qurtarıb. Gəl gedək, qədəminə qurban olum! Leyliyin göz yaşı selə dönüb. Ölər, ay Səməd! Ölər! Ölər! Gəl!..

Səmədin biləyindən yapışıb, ardınca dartmağa başladı. "Məcnun" gedirdi?! Niyə? Gedib Gülgəzə nə isə deyəcəydi?..

Səməd üzündə kimlərinsə heyrətlə dolu baxışlarını hiss edib, istər-istəməz sağa-sola baxdı; buralar da hündür, qalın sirkanlıqlar olduğuna görə, sirkanlıqların aralarında o baxanların özlərini yox, arıq, qarayanıq üzlərdə gözləri görürdü və elə bil kimlərisə tanıyırdı: Qonaqlının məktəbdən çıxıb "pambığa qurşanmış" qızlarını, dul gəlinlərini... və başa düşürdü ki, bu qız-gəlinin hamısı Gülbənizin qışqıra-qışqıra danışdıq-

larını eşidib, ətrafdakı sahələrdən bu yana axışmışdı. Səmədin sifəti, canı alışdı: "Abırdan düşdüm!.. Ölüm bundan yaxşıdı!.. Ölüm!.. Bəlkə doğrudan başqa çıxış yolum yoxdu daha?!."

Vulqar zənən isə öz işində idi:

– Bədbəxt bacım boş-boşunamı yazıb o məktubu! Sən o məktubu oxu!

Zənən onun şalvarının cibini göstərirdi.

– Oxu, oxu! Cibinə qoydum, görmədinmi?! Nə Qılınc Qurbanın sözünə bax, nə əclaf dədəmin, nə də mənim. Sən məktubu oxu!

Söhbət Gülgəzin məktubundan gedirdi?! Ölüm?!. Nə qədər ki, Təftiş biləyindən yapışmamışdı, Səməd kardon kimi cod konverti şalvarının sol cibində, budunun üstündə hiss edirdi, konvert oda dönüb budunu yandırırdı. Tabut, üç yanaşı ölüsü ilə birlikdə havadan asılanda, konvert zehnin dərinliyində anlaşılmaz nisgil sayağı bir şeyə çevrilmişdi. Qurban əmi sirkanlıqdan çıxandan sonra isə tamam unudulmuşdu. Qəribə məhrəm səs odu yenidən közərtdi.

– Özün də belə köntöy baxma mənə, canım-ciyərim! Bayaq nə danışdımsa, hamısını o tüfəngin qabağında gedən əclafnan Gülənovun qorxusundan danışdım. Qatil nədi?! Başkəsən nədi?! Mən bilmirəm nə ad verim bunlara. Əminnən sən küçədə qol-qola, evə gedəndə bunlar bizim evdən çıxıb, yaraqlı-yasaqlı gedib, "əmi" dediyiyin bağında gizlənmişdilər. Məhkəmə xəbəri dəli eləyib hamısını. Əvvəl gəlib bizə dolmuşdular. Məsimi sıxma-boğmaya salmışdılar ki, "əmi" dediyiyin kabinetində Xeyrə arvad qrafinin suyunu təzəliyəndən sonra Məsim qrafinə zəhər töksün. Yazıq Məsimin ürəyi xarab oldu. Mənim üstümə düşdülər ki, raykoma Məsimin yanına getmək bəhanəsiynən gedim, təlimatçılar otağında oturum, Xeyrə arvadın kabinetdən çıxmağını gözləyim. Zəhər ampuladaydı. Gülənov barmağının ucunda tutub gözümə soxurdu ki, "Dədənnən əriyin də, sənin də taleyiniz bu ampulanın içindədi! Sultan Əmirli sağ qalsa, dədəni güllələyəcəklər, ərini işdən qovacaqlar"... Qeybalını küçədə gözətçi qoymuşdular, mehmanxananın qabağında. Qeybalı gəldi ki, bəs, Sultan Əmirli apardı qardaşoğlunu. Ordaca fikirlərini dəyişdilər, təzədən düşdülər üstümə ki, bu gecə əmiynən qardaşoğlu bir-birini vuracaqlar, aralıqda Gülgəzə də güllə dəyəcək, sən də şahid olacaqsan ki, bacılığını görməyə gedəndə görübsən hər şeyi, arvad üstə qırğın düşüb. Dallarıyca getməsəydim, bağda bu qanına bulanmış dədəmi tapıb, "Səmədə xəbər verəcəm" deməsəydim, dilim qurusun, indi nə sən sağıydın, nə Gülgəz, nə də o "əmi"

dediyin. Mədəd əminin mauzeri Gülənovdadı. O mauzernən üçünüzü də öldürəcəydilər. Məni bağda görəndə quzğun kimi töküldülər üstümə... Mən düz baxıram sənin üzünə, sən də düz bax, canım-ciyərim! Cəllad dədəmin xeyrinə dediyim sözləri çıxart yadından. Bağda boğurdu məni o cəllad. Doğma balasına "qəhbə" deyirdi. Dilimə belə murdar söz gətirdiyimə görə üzr istəmirəm səndən. Özün bilirsən, bir parça vaxtımdan ürəyim ovcuyun içində olub. Bu murdar kəlməni də ancaq ona görə gətirirəm dilimə ki, bu günün gündüzü kimi aydın olsun aramızda hər şey, biləsən ki, təhqiramiz kəlmə nədi, ölüm də xoşdu sənin yolunda mənə! İnan, canım-ciyərim! İnan ki, boğurdu, açıq-aşkar öldürürdü məni o cəllad. Gülənov qoymadı. Ağzıma dəsmal tıxadı, maşına basdı gətirdi, o daxmada o nalı qoydu qabağıma, dedi: "Burdakı adamların hamısı bilir ki, Məsimə getsən də, ürəyin Səməddədi!" Dedim: "Allah mənə qardaş verməyib, həsrətimi Səməddə tapmışam". Dedi: "Nə tapıbsan, nə tapmayıbsan, dəxli yoxdu. Fakt budu ki, sənin ucbatından fürsət çıxdı əlimizdən, düşmənimizi öldürəmmədik. Umudumuz bu nala qalıb. Əgər bu nalı təcili çatdırıb Səmədi əmisinin üstünə göndərməsən, Məsim günü sabah ərizə verəcək, pozğun adıynan boşuyacaq səni, Şənbədən betər şöhrət qazanacaqsan. Əmr eliyəcəyik, dədən də o andan qovacaq evdən. Uşağın-zadın da olmur. Şənbə kimi sərgərdan olacaqsan, İdbar Yusif kimi pyanskaların iyili yorğanlarının altında qalacaqsan!.. Eşidirsənmi, canım-ciyərim? Xoruz ağzını açanacan əl çəkmədilər canımdan. Bədbəxtlikdən, sən də gəlib oturmuşdun quyunun dikdirində. Addımını izləmək nədi, harda nə təhər nəfəs alırsan, onu da bilirlər cəlladlar. O "əmi" dediyiyin evindən necə çıxıbsan, niyə çıxıbsan, meşədə yıxıla-yıxıla, kol-kosa girə-girə necə gəlibsən, hamısını bittə-bittə danışdılar, "Əvvəl də dəliydi, indi dəlidən də dəlidi", – dedilər. "Dəlidən ötrü özünü də, bizi də bada vermə", – dedilər. Saçımdan yapışdılar, eşiyə sürüdülər, səni göstərdilər, ortayolu, ara-bərəni göstərdilər ki, "Bax, o oturandan başqa ənər-cinər yoxdu. Razılaşmasan, o oturanın əl-qolunu bağlayıb tullayacayıq atasının mülkünə, od vuracayıq, səhərəcən külü də qalmıyacaq!.." Ev alışanda ölmüşdüm. Elə bilirdim doğrudan da oda atıblar səni. Quyunun üstə boyunu görəndən sonra dirildim, boy-buxununa qurban olum! Dirildim, gördüm birinin əlində çatı var, o birində yaba. Çatılı milisəneriydi, kəmənd qayırıb biləyinə keçirmişdi. Yabalı Qeybalıydı. Bir əliynən Əlləzoğlunun boynunun kökündən yapışmışdı, o biriynən Əlləzoğlunun yabasını döşümə dirəmişdi. Gülənov

da saçımı dəstələmişdi ovucunda, dartırdı, başımı silkələyirdi ki, "Razılaşmasan, bu dəqiqə o dəliynən ikinizi də qarın-qarına bağlıyacayıq, o yanan evə tullayacayıq, cəsədiniz yanaşı tapılacaq"... Eliyəcəydilər, ay Səməd! O atası rəhmətlik Qılınc Qurban güllə atıb camaatı oyatmasaydı, bədbəxt Gülgəzin boğazına konyak töküb adını Sultan Əmirlinin adına bağlıyanlar, mənim meyidimi, dilim qurusun, sənin meyidinə bağlıyacaydılar!.. "Əmi" dediyin haraya gəlib ürəyindən yapışanda dərman əvəzinə zəhər verəcəydilər Müslümün termosunda, adını da qoyacaydılar ki, qardaşı oğlunun fəlakətinə dözməyib, ürəyi partlayıb... Qılınc Qurban atası rəhmətlik hay qaldıranda Əlləzoğlunu Xəlvətin zirzəmisinə salıb, qapısına it bağladılar, şalvarlarını çıxarıb, yanğının işığına geyinə-geyinə çıxdılar ki, guya yorğan-döşəkdən qalxıblar. Məsim "mafiya" deyir bunlara. "Hökumətin özünün əmriynən işləyirlər", – deyir. "İtaliya mafiyalarına şükür oxutduracaqlar", – deyir. Elə Məsim işə-başa saldı məni; bunların başı yanğına qarışanda ikimiz qaldıq o daxmada, Məsim dedi: "Çox sirlərini bilirik, məhkəməyə qədər ikimizi də öldürəcəklər. Sən razılaş nalı Səmədə verməyə. Sonra Səmədi ayıq sal ki, bağda, burda eliyəmmədiklərini nalnan eləmək istəyirlər". Həqiqət belədi, canım-ciyərim. Qılınc Qurban yaxşı tanıtdırdı sənə bu cəlladları. Əmbə onun da xəbəri yoxdu ki, mən "razıyam" deyib o nalı "Sultan Əmirlinin cinayətinin "əşyayi-dəlili" adıynan sənə verənəcən neçə dəfə ölüb-dirilmişəm. Özün bilirsən, hər şeydən ötrü ağlayıb-sıtqıyan uzunsaçlılardan deyiləm mən. Nə o bağda bir damcı saldım, nə də o daxmanın içində, eşiyində ölüb-diriləndə. Əmbə sonra öz-özünə ələndi gözümün yaşı. Ürəyim sökülürdü, haray təpmək istəyirdim ki, ayıq ol, ay gözümün işığı, bu nalnan əmiyin üstünə göndərib əmi qatili eləmək qəsdindədilər. Demədim. Harayımı basdım saxladım. Çünki təzə məktub yazdırmışdım. Bilirdim ki, lap nalı götürüb getsən də, bunu oxuyandan sonra, Qaraçı gözəliyin taleyindən savayı, heç bir ayrı fikrin-zikrin olmuyacaq. Bucuğazı oxu! Məktub deyil, əstəğfürillah, Qurandı, Tövratdı, İncildi, ay Səməd! Qılınc Qurban iniltiynən yazılan məktublardan danışdı burda, Gülgəzin məktubu o müqəddəs şeyxlərin məktubundan da müqəddəsdi! Oxu, gör ki, əzabı başı kəsilən əmiləriyin əzablarından da ötədi, "əmi" dediyiyin evi Qəsri-Qacar zindanından da betərdi ondan ötrü! Gülgəz o zindanda qalsa, nə yer, nə göy götürər bunu, qur-

[18] Xalq teatrının güldürücü personajı.

banın olum! Mən demirəm ki, bu saat get qolundan tut apar. Qanmaz deyiləm, "əmi" dediyiyin vəziyyətini də başa düşürəm, sənin içərində necə burulğanlar buruldduğunu da başa düşürəm. Desən ki, bu saat gedirəm çıxardım onu o evdən, mən özüm ayağına yıxılaram, baldırına sarılaram, addımını atmağa qoymaram. Bu vəziyyətdə Gülgəzə yaxın da getmə. Sən ancaq umud ver ona, canım-ciyərim. Umud ver ki, ölməsin!..

Səməd ağ daş evin qızarttaq darvazasından o yanda, bağın toranının arxasında, üfüqün şöləsinə bürünmüş ikinci mərtəbədə, buğ püskürən samovarın yanında çay dəsmalının bir ucunu çiyninə salıb stəkan-nəlbəki silən "durnaboğaz elqızı"nı gördü, sonra tut ağacının altında dəyirmi stolun üstündə süfrəni açıb yuxaya su çırpan səliqə-səhmanlı "gəlin"i gördü, sonra yataq otağında balınca dirsəklənmiş gəlinin yanında ağ bələkli çağa gördü. Çal, pırpız qaşlar altında boz-ala gözlər o çağaya tamaşa elədikcə yorğun-yorğun nur saçırdı, "Mədədim dirildi", – deyirdi.

Səməd axır ki, əlini cibinə salıb od parçasını budundan qopartdı, kardonsayağı cod, boz konverti açmadan, cırmağa başladı.

Lap xırda-xırda cırıb, ovcunda sıxıb, yumrulayıb sirkanlığa doğru səpələdi. Nəfəsi təngimişdi, indi özü də qışqırmaq istəyirdi ki, "inanmayın bu zənənin hüdülədiklərinə, ay bacılarım! Əmimin həyat yoldaşına pis göznən baxmaz Səmədiniz!.." Bunun əvəzində Gülbənizə qışqırdı:

– Bəsdi! Kəs səsini! Gülgəz mənim əmimin arvadıdı! Özüm danışacam onnan! Təklikdə yox, bizim münasibətimizi səndən qat-qat yaxşı bilənlərin yanında danışacam! Əmimin namusu mənim namusumdu!

Biləyini çəkib isti, odlu barmaqların arasından qoparıb, harayasa – irəliyə doğru şığıdı. Əmma səs qulaqlarında idi:

– Bax bu ürəyə görə ölürəm mən səndən ötrü!.. "Əmi" dediyinə görə məhəbbətindən keçirsən! Kim eləyər bunu?! Səndəki ürək heç kəsdə yoxdu! Mən də onçun deyirəm ki, ayağıyın suyunu içərəm, qabıyın dibini yalayaram, qaravaşın ollam ömrüm boyu, bir dəfə də yoruldum, usandım deməərəm! Sənin pis günün mənim pis günümdü, canım-ciyərim! İnan ki, qovuşmasanız öləcək Gülgəz! Ondan sonra ömrüyün axırınacan qovrulacaqsan! Yaran istidi, ağrını bilmirsən hələ! Bir vaxt gələcək, biləcəksən ki, məhəbbətsiz insan çaylaq daşıdı, bir üzünə gün döyəndə də o biri üzü buz olur, qoşa əlli ovcuna alanda bir ovcunu yandırır, o biri ovcunu üşüdür. Yana-yana üşüməkdən, üşüyə-üşüyə yanmaqdan böyük bədbəxtlik yoxdu! Mən deyirəm bunu sənə. Özüməm çaylaq daşı! Şamdan işıq alan pərvanənəm mən sənin, ay Səməd! "Əmi"

dediyin zalıma görə çaylaq daşına döndərmə özünü, canım-ciyərim! Qılınc Qurban ömrünü qan-qadaynan keçirib, ürəyində od qalmayıb, hardan bilsin məhəbbət nədi?! Aşıq deyir: "Can cana bağlıdı, can da cahana bağlıdı". Mənim tanıdığım Səmədin canı da, cahanı da Qaraçı gözəlidi. Əmbə Qılınc apardı "əmi" dediyin qəddara bağladı sənin canını. İnan mənə, ürək qalmayıb onda. Ağıllı kişidi. Ədalətli adamdı. Gecə-gündüz dəridən çıxır ki, haqqı nahaqqa verməsin. Əmbə ağlının zorunadı hamısı. Ürəyi olsaydı, öz doğma bacısını o kökə salardımı? On beş yaşından Qıymata şinel geyindirib, başına papaq qoyub, çiyninə tüfəng aşırıb, ata mindirib atryadnan gəzdirib, "Ərə gedəndə Sultana getməlisən", – deyib, Qıymatın gül-çiçək vaxtında gələn elçiləri darvazadan qaytarıb, baxtını bağlayıb! Sən hörmətini saxla Qılınc Qurbanın, əmbə sözünə uyma, canım-ciyərim. Özü deyilmi deyən ki, "kopirovalni bumaqadı?" Ondan-bundan eşitdiyini danışır, onçun da boğazdan yuxarıdı danışdığının hamısı. Çürük Aşıqnan Xızr Abının mahnısından eşidib, elə hər yerdə bunu deyir ki:

"Can cana bağlıdısa, can da cahana bağlıdı,
Can cana "can" deməsə, o can hayana bağlıdı?!"

Soruş Qılınc Qurbandan, "kopirovalni bumaqa"sını bir yana qoysun, öz sözünü desin görək, o yaşda qıznan kəbin kəsilməyinə razılıq verib özü belə Bezobraziye olan "əmi" dediyin öz canından başqa cana "can" deyə bilərmi?! Ürəyini zorlama, Gülgəznən bərabər ürəyini də zindana salma, gül-çiçək ürəyinə qurban olum! Umud ver ona ölməsin, umud ver! Nə Məsimnən mən burda bənd alasıyıq daha, nə də sən özün. Mən yəqin bilirəm ki, "əmi" dediyin Gülgəznən bir damın altında yaşamağı çox çəkmiyəcək, o özü elə eləyəcək ki, Gülgəz də, Gülgəznən bağlı olanlar da çıxsınlar getsinlər rayondan, söz-söhbət kəsilsin. Bakı böyük şəhərdi. Səməd kimdi, Gülgəz kimdi, başlarına nə gəlib, fikir verən olmuyacaq orda belə şeylərə. Fikir verən tapılsa da, sonra yaddan çıxacaq, istəklinin istəkliyə qovuşmağına heç kəs kəc baxmayacaq orda. Qovuşacaqsınız! İnan mənə! Sən bircə umud ver, bircə

---

[19] Qurğuşun güllə.

[20] "Pəh-pəh" Nə gözəl! – qırxıncı illər Azərbaycanında sosial həyat haqqında bayağı-vulqar mahnı.

kəlmə "hə" de mənə, sonrasınnan işin yoxdu. Bir də gözünü açıb görəcəksən Bakıdayıq hamımız...

Səməd:

– Bəsdi! Bəsdi iblislik elədin! – deyə-deyə nə qədər aralanmağa çalışdısa, iblis zənənin səsi ara vermədi...

## 7

...Atın tükündən tər damırdı. Elə damırdı ki, yerdə ot islanırdı. Meşin şapka da, meşin pencək də, hətta tüfəng də tərli kimi parıldayırdı, Qurban əminin özünün üzündə isə ancaq nəmçik var idi. Hansı möcüzə iləsə, pencəyin cibindən çıxıb gedib Qurban əminin toqqasının dalına sancılmış qurğuşunlu nalın qurğuşunu necə soyuqdusa, Qurban əminin üzündə nəmçiyi də, asta-asta, bircə-bircə dediyi sözlər də elə soyuqdu:

– "Qardaş qatili"nin yox... bu nal həqiqi qatilin qabağınaca qoyulacaq... "Qardaşını öz əliynən güdaza verən"dən yox, bu nalı kötüyün üstündən götürüb, maşına minib sədr Mədədi öz əliynən öldürən nal sahibindən xəbər alınacaq ki, de görək Mədəd kişmişi dağıdanda camaatın arasında kənar adam varmışsa, niyə heç olmasa bircə nəfərin gözünə dəyməyib o adam?! General Pers əyninə kürk geyib, başına motalpapaq basıb, keçəbörk[18] olub, camaata qarışıb, aralıqlarda səmə itə də göz qoyan Qonaqlı camaatı da heç fikir verməyib ki, bu keçəbörk nəçidi, hardan gəlib çıxıb bu kəndə?! Bu nə nağıldı danışırsan, maşennik köpəyoğlu?! Tutaq ki, heç fikir verən olmayıb. Niyə kəndə gəlib Pers, meşədə xəlvət bənd-bərələrdə öldürəmməzdimi Mədədi?! Niyə məhz sənin həyətində gözləyib?! Qanadınamı baxmışdı ki, idarədən çıxıb rayona maşın sürəndə Mədəd mütləq yoldan burulub kişmişi dağıdacaq, qarışıqlıq düşəcək, o da o qarışıqlıqdı əl-qol açacaq?! İxtiyarında sən kimi yüzlərnən nökəri ola-ola, Pers niyə şəxsən özü, üstəlik də Mirqəzəbin mühafizəçisiynən gəlsin qəsd işinə?!

Səməd bu sözləri də, lülələrin deşiklərinin qabağında Çax-çuxun tamamilə əmin-arxayın: – Persi görən tək mən deyiləm. Şahidlər ifadələrini çoxdan yazıb veriblər Sayılova, – dediyini də, Qurban əminin birdən qiyyə çəkib: – Kim?! Qudalılardan savayı kim şahid durar belə fırıldağa?! – dediyini də eşitdi və hətta yeddi il səkkiz ay ərzində gah

xəyalında, gah yuxusunda ifşa elədiyi qatilin indi tamam ifşa olunduğunu da gördü, əmma ölü katib, tabut gözündən getmədi ki, getmədi.

Meşin pencəyin qırışıq ətəkləri arasında, qayış kəmərin sarı dəmir toqqasının dalında qurğuşunlu nal soyuq-soyuq işıldadıqca, əvvəlcə Cəfər əmi, uzun burnu ilə uzun çənəsi arasında batıq dodaqları titrəyə-titrəyə: "Qəsd işi yoxdu, qəsd işi yoxdu!" – deyə-deyə çirkinləşirdi, idbarlaşırdı və belə idbar sifətdə camaatın üzünə çıxa bilməyib, çəkilib hardasa, gizlənirdi; sonra Gülənov Sultan əminin kiteli kimi boz kiteldə, bir cüt Qəlyanlının qaraltıları arasında dayanıb, "Qəsd işi yoxdu!" – deyə-deyə meşə ətəyindəki o döşü yazılı saqqız ağacının altında bozara-bozara qalırdı; sonra isə, nəhayət, o uca şəxsiyyət, o gözəl insan qapağının hər küncündə mismar işıldayan tabutun yanındaca "Qəsd işi yoxdu!" – deyə-deyə qəsd işini ört-basdır eləyib, insanlığını, şəxsiyyətini, möhtəşəmliyini itirirdi, alçalıb rəzilləşirdi və Bircə balanın bu rəzilliyi gördüyündən dəhşətlənib, özü könüllü gedib, hər küncündə mismar işıldayan qapağın altına girirdi ki, qardaşı ilə yanaşı dəfn olunsun, torpaq eybini örtsün. Sonra birdən-birə idbarlaşan Lüt Cəfər – Cəfər əmi asta-asta, könüllü yaxınlaşıb tabutda uzanırdı ki, qara torpaq onun da günahını örtsün. Əmma torpaq, Cəfər əmini də götürmürdü, tabut havadan asılıb, qardaşın birinin partlayıb dağılmış qanlı gicgahını, o birisinin dirigözlü ölüsünü, üçüncünün idbarlığını göstərə-göstərə dururdu və Səməd, hətta yeddi il səkkiz ay gözlədiyi ifşanın axır ki, baş tutduğunu anladığı dəqiqədə də tabutdan yaxa qurtara bilmirdi; atın da dözmədiyi sirkan bürküsündə gözlənilmədən, qırğı kimi atılıb çıxıb, "əşyayi-dəlil" toqqasının dalında, "keçəbörk qatil"in yalanlığını sübut edən kişiyə də hörmətlə baxa bilmirdi, çünki bu kişi də – ədalət mücəssiməsi Qılınc Qurban da rəzilliyin iştirakçılarındandı.

İfşa nə yerə çatdısa, Çax-çux bayaqkı arxayınlığın əksinə, trubkanı tez-tez sümürüb, birdən tüstünün içində hərəkətsiz qalıb, dim-dik kobraya döndü.

– Gəl sən bu cavanı təzədən şübhəyə salma, a kişi! Təzədən şübhələnsə, bu qədər qaynamağa, daşmağa dözməz daha! Ölər bu bədbəxt!

Qılıncın gözlərinin dövrəsində qırışlar yığışıb sıxlaşdı, gözləri də qurğuşun kimi soyuq-soyuq işıldadı:

– Kəs səsini, ubiysa! Necə yəni "dözməz?!" Nə fitnə-feyl gəldi ağına yenə?! – Qırışların arasında işıltılar Səmədə tərəf yönəlib, tezcə

də çəkildi. – Nə qədər ki, Sultan Əmirlini tanıyammır, çox qaynayıb daşacaq bu hələ...

“Tanımıram?!.” – Səməd nəfəsində titrəyiş hiss etdi.

Qılıncın səsi enmişdi:

– Təzə deyil qaynamağı. “İdealım ölüb” deyirdi. Dedim “Sultan Əmirli həməşə səcdəgahın olmalıdı sənin!”

Dedim, arxayınlaşdım bir az. Əmbə bilirdim sən rahat qoymuyacaqsan bunu, maşennik köpəyoğlu! Persin tutğu xəbəri çıxan vaxtdan sancılanıbsan, bir ayağın Bakıda, bir ayağın burda, gecəni gündüzə qatıb əlləşirsən ki, Sultanın başını yeyəsən, bu dünyadan xəbərsiz qardaşoğlunu onun qanına bulayasan, əmiynən qardaşoğlunun axırına çıxandan sonra da Mədədin ölümünü keçəbörk nağılına döndərib generalıyın ayağına yazasan. Uduzubsan, ubiysa! Dörd ayda sən bu dünyadan xəbərsizi necə izləyibsənsə, sənin özünü də eləcə addım-adım izləyiblər! Kim? Necə kim?.. Sözümü kəsmə, ubiysa! Kimlər, nə məqsədnən izləyiblər, məhkəmədə biləcəksən. Bu neçə gündə nə oyunlardan çıxıbsan, onu da Qılınc Qurban danışacaq. O yanda Xəlvət Rəhimnən, burda Abıynan, Təftişnən nə söz-söhbət oldu, hamısından xəbərdaram. Qarmonçu qəhbənin işləklərini də bilirəm! Gülənovun paqonnularını bura göndərən şəxsən sənsən, o qarmonçunun Zalı qızışdırıb Səmədə xəbər göndərən də sənsən! Bu ağacın altındakı oyundan sonra qarmonçunun nənəsinin damını yada salan da sənsən!

Xəlvətnən sonradı mənimki.

Əvvəl sənnən qurtaraq. Əmbə mumla ağzını, ubiysa! Ölüm-dirim məsələsinə qarışdırdığın bu ifritə qızın da mumlasın! Barmağım tətikdədi! Əlim titrəməz, hərənizə bir jakan[19] çaxaram, yaşımın bu vaxtı türməyə gedərəm! Düz deyir Təftiş Abbas. Xızr Abı məni də loş eləyib. Bu ədalət mücəssəməsi adlananı. Aman verməərəm daha sizə!

İfritə qızıyın dediyi “həqiqətin” müqabilində mən də həqiqət deyəcəm. Sənin açdığın “sirlərin” müqabilində mən də sirr açacam, eşitsin bu, özü ayırd eləsin, görsün kimdi “Ölüb” dediyi kişi!

Nəfəsindəki titrəyiş Səmədin ürəyinə doldu və Səməd ancaq indi duydu ki, bu titrəyiş ümiddi; vaxtilə döşü yazılı saqqızın altında səndələyə-səndələyə gedib, tabutu birinci dəfə görüb, əmisinin kitelinə

---

[21] OdƏrcə “BirOdƏr” [Vahid OdƏr (xalqı)] sözündən azmış “bəradər” kəlməsi (“qardaş” mənasında) otuzuncu illərdə çox işlənirdi.

[22] Siyasi polis.

sığınanda hönkürtü içində əmələ gələn hamanca "oxranma", hamanca sevinc idi, fərq bircə bunda idi ki, bu sevinc hönkürtü içində yox, üzüntü içində oyanmışdı, üzgün xəstə sevinci idi və sevindiyinə xəstə özü də inanmırdı, əli tüfəngli qocanın soyuq nəmçikli üzünə baxa-baxa fikirləşirdi ki, ölü göz qabağında ola-ola, bu yorulmaz, usanmaz qoca doğrudanmı yenə diriltmək istəyir ölünü?!

Bu fikir Səmədi məcbur etdi ki, deyilənlərə diqqət yetirsin.

Qurban əmi danışa-danışa tüfəngi əlində tərpətdikcə meşin pencəyin qoltuqları xışıldayırdı, "yorulmaz, usanmaz qoca"nın səsi də indi o meşin xışıltısı kimi çatıltılı-patıltılı idi:

– Çox şey çərənlədiniz Təftişnən orda. Kor deyil! Yox!.. Gözü də var, gözəl ürəyi də var. Gözü də mən vermişəm ona, ürəyi də. Atımın tərkində havalandıra-havalandıra, ala kölgəli meşələrdə, çəmən-çiçək içində böyütmüşəm. Bezobraziyenin qaynar qazanında, şeyx qardaşlarıynan yanaşı, mənim də ürəyimdən qara qanlar axıb, əmbə buna heç nə bildirməmişəm ki, ürəyinə xal düşməsin. Bakıdan radio "pəh-pəh"[20] oxuyanda buna da oxutmuşuq ki, eşqli böyüsün, üç qardaş üçümüz də arxasında duraq, biz çəkənləri çəkməsin Bircə balamız... Səhvimiz də elə bunda olub. Qohum-qardaşların o tayda qaldığını gizlətmişik. Şeyx əmilərinin, atasının, nəslinin-kökünün, xalqın müsibətlərinin səbəblərini açmamışıq. Odu ki, hər deyilənə inanır indi. Böyük səhv eləmişik, əlbəttə. Çox böyük! Vaxtında başa salmalıydıq biz bunu ki, bu dünya "pəh-pəh" deyil, oğul, qaynar qazandı, qapağını qaldıranda mələk donunda şeytan yığnağı hoppanışır, dörd dövrəni alıb elə pəh-pəhnən salırlar səni qazana ki, bir də bişib qaba qoyulanda xəbər tutursan ki, quyruqluların, buynuzluların xörəyisən.

Bu saat donunu cıracam mən sənin, quyruğunu, buynuzunu göstərəcəm buna, maşennik! "Ata" adlandırdığın gorbagoru da gordan xortdadıb sənnən yanaşı qoyacam. Sizi tanımasa, Sultan Əmirlini tanıyammaz bu.

---

[23] "Bağlar tərəf" tarixən gizlin ifadədir. Daxilimizdə yaşayan, dilimizi bizdən yaxşı bilən, bizdən seçilməyən Qrek-Latınlar, Qızılbaşların zamanında hakimiyyət pillələrini, ordugahları tutub XV – XVI əsrlərdə təxminən yarım milyon "sehrkar Muğ" qırmışdılar və bunu "TatƏr"lərin adına yazmışdılar. Ağ Əmirlə Boz Əmirin məktubundakı "Bağlar tərəf" ifadəsi "Ərdəbil" və "Muğan" ərazilərində yaşayan Bağlara, yəni Ulu Bağ ƏsƏlMənin, Bağ Atamızın "Yer"dəki nəslindən, I Aleksandrla Papanın sürgün tədbirlərini əvvəlcədən bilib gizlənənlərə işarədir.

[24] Adı gizlin saxlanan Muğannalardan biri.

O demini çıxart ağzından. Tüstünün dalından o yan-bu yana baxma. Heç kəs dadına çatammaz, ubiytsa! Qovmuşuq o məhlə itlərini!

İfritən də qımıldanmasın. Bir dedim, bir də deyirəm: barmağım tətikdədi. Farağatca qulaq asın. Keçəbörk nağılı danışmıyacam mən, həqiqi qatillərdən danışacam.

Dam direktor Ələsgər Sestrasının diliynən “fotoaparat” deyir mənim gözümə, yaddaşıma “kapirovalni bumaqa” deyir. Yaddaşımdan qorxur o Rus qızı. Sözüm bunda deyil. Ondadı ki, bu “fotoaparat”da sənin bir şəklin var, ubiysa. Bu “kapirovalni bumaqa”da da həqiqi qatillər barədə sənədlər var.

Əvvəlcə şəklinə bax.

Əlli birinci ildə, Mirqəzəbin vaqonu Məhərin budkasında dayananda gecə bürküydü, vaqonun pəncərəsinin birini açmışdılar. Cəllad orda, pəncərənin dalında gözlüyünü qaşqasına qaldırıb göyə baxa-baxa, əllərinin qoturunu şüşənin qırağına sürtürdü. Sən onun böyründə demi tüstülədirdin... Qurultaya gedəndə görmüşəm, böyük-böyük alimlər onun kabinetində çay içəmmirdilər. Biri stəkanı götürüb bir qurtum aldı, boğazı qurtuldadı, o birisi vahimələndi: “Qurtuldatma!” – dedi. Cəllad özü “çay için” deyənəcən heç kəs əlini vurmadı stəkana. Əmbə sən onun çənəsinin dibində bu ağzındakını fısqırdırdın! O da o ekzema deyilən qoturunu qaşıya-qaşıya, üzündən zəhər dama-dama dözürdü sənin fısqırtına! Niyə? Çünki bir camdan qan içibsən onnan, Çax-çux Xalıq! Masqalı cəllad yoldaşısan Mirqəzəbin. Elə yoldaşısan ki, ağzının içinə tüstü üfürəndə də dillənmir!

Bu sənin şəklin.

İndi keçirəm sənədlərə.

Sultanın cibində bir məktub var.

Bilmirsən nə məktubdu. Nə qədər yerin altınnan yerisən də, sənin özüyün də xəbərin yoxdu dünyadan. Səməd deyil kor, sənsən kor, ubiysa!

Otuzuncu ildə “Vərəsə” kitabxana tamojnada qeydə alınanda o məktub da qeydə alınıbmış. Xudiyev də tamojnada işləyirdi o vaxt. Oxuyub o məktubu, görüb indi “məxfi iş” dediyimiz işə aiddi, qaytarıb sandığa qoyub. Xəbər Mirqəzəbə çatanda əlataşa düşüb, tələb eləyib ki, heç

---

[25] “Qara bulud”un komandiri Serqo Orcenikidzenin fəaliyyətinin “Günəş”ə məlum olduğunu biləndə Stalin “Serqo”nu öldürtdürüb, komandirliyi Mirqəzəbə tapşırmışdı, buna görə də Pişəvəri formal tabeliyində olduğu “alıcı”nın adını çəkə bilməyib.

kəsə göstərməsinlər, aparıb şəxsən özünə versinlər. Əmbə məktub yoxa çıxıb. Pers qarışıb işə, sandıqları atım-atım eləyib, Xudiyevi, Sultanı, Mədədi, tamojnanın işçilərini tək-tək danışdırıb, bir şey çıxmayıb. Axırda protokol bağlayıb ki, məktub xatalı məktub olduğuna görə kitab-xananı o taydan gətirən adamlar qaytarıb aparıblar. Mirqəzəbə də bu cür məlumat göndərib Pers, özünü elə göstərib ki, guya daha maraqlanmır məktubnan.

Əmbə, əslində, nə Mirqəzəb özü sakitləşibmiş, nə də Pers. İndi bu aralıqlarda saç-birçəyini töküb, qarmon qoltuğunda, səmə-səmə gəzən o agent qancıq məhz o məktuba görə göndərilibmiş rayona. Sultannan Mədədin ətrafında tanış-biliş qalmayıb ki, evinə baş soxmasın. Axırda Sultanın özünün evinə ayaq açıb. Gizlətmir daha o qancıq. Şüşəli pa-vilyonda hırıldaya-hırıldaya deyir: "İyirmi yaşında top kimi qızıydım. Sultan Əmirli də qızıl-qırmızı oğlanıydı, əmbə üzümə də baxmadı. Mir-qəzəbin təxti də elə onda çevrildi ki, şeyxlərin məktubu Sultanda qaldı..."

Yazıq Sultan, otuzuncu ildən bu vaxta qədər, iyirmi beşcə il gah aparıb Naxçıvanda, Şeyx Xorasan məqbərəsində gizlədib məktubu, gah Stalinin şəklinin ramkasında, gah da partbiletinin arasında saxlayıb. Heç mənə də göstərməyib ki, nə olar, nə keçər, Qılınc Qurban hirslənib açar danışar orda yazılanları, Mirqəzəb də təzədən axtartdırar məktubu.

Mayda "şəxsiyyətə pərəstiş" deyilən barədə məktubdan sonra o məktub da oxundu. Sultan yox, "böyük" dediyin, həqiqətən də böyük çekist Məhərrəm özü oxudu. "Əziz bacanağın" Məhərrəm!

General Persi, Gülənovu, Sayılovu dəstəynən elçi salıbsan, gedib zornan dürtülübsən Məhərrəmin evinə! "Əziz bacanağım" belə gəldi, professor elə getdi! Camaat da elə bilir doğrudan da Məhərrəmə arxa-lanırsan! Sirnən yox, fırıldaqnan doludu sinən, maşennik köpəyoğlu! Sirr açansansa, niyə demirsən ki, vaxtıynan Məhərrəmin özünü Nəcəf-oğlunun yanına necə aspirant qoyubmuşlarsa, səni də eləcə, Məhərrəmin yanına bacanaq qoyubmuşlar! Sirr açansansa, niyə açıb demirsən ki, o məhkəmədə, o "qalaq-qalaq qovluqlar"dan biri elə "Bacanaq" kliçka-sıynan, Məhərrəmin əleyhinə materialnan doludu!

Rəngin niyə göyərdi, maşennik köpəyoğlu?!

"Kitayski fanar, kitayski termos sata-sata özüm öz adımı Çax-çux qoydum, şəxsiyyətimi, mənliyimi kiçiltdim"... Bir yasdığa baş qoyduğu, dalbadal uç uşaq doğuzdurduğu zənənin evinin içi barədə Persə mate-

rial yazan heyvanda nə şəxsiyyət, nə mənlik ola bilər, quyruqlu, buynuzlu köpəyoğlu?!

Rəngin göyərməsin! Bu "kapirovalni bumaqa"dakı sənədlərdən heç nə deməmişəm mən sizə hələ! Qatillərin yanından da keçməmişəm hələ!

Yaxşı qulaq as, a dünyadan xəbərsizim! Məktubu Məhərrəmin dilindən necə eşitmişəm, kəlməsinəcən, nöqtəsinə, vergülünəcən deyirəm. Hesab elə ki mən yox, professorun dayanıb burda, oxuyur o məktubu, sən də qulaq asırsan. Eşit, gör nə yazıblar şeyx əmilərin:

"Gündoğana baxanda gülən gözlərimiz indi qan ağlayır, ey bəradərlərimiz.[21] Niyə rahat oturubsunuz?! İki il bundan əqdəm, Qəsri-Qacarın bu qapılarının dalında siz bəradərlərlə görüşəndə sizə demədikmi ki, səmum siz tərəfdən qalxan qara buluddandır! Demədikmi ki, bu taydakı Pəhləvi Mirqəzəbinin siyasiləri[22] kütbeyindilər, bizi çuğullayanlar da, üzümüzə durub gizlin işlərimizi faş eləyənlər də sizin adınızdan gələn xainlərdir?! Pəhləvi Mirqəzəbi şahın qüdrəti ancaq bu dəmir qapıların qalınlığındadır. Bir də ondadır ki, sizin içərinizdə özlərini Türk qələmə verən, milliyyətcə Fars, Qrek, Erməni çuğulların nişan verdikləri adamların hamısını dübarə gətirib bu qapıların dalına doldurur. Osman bəyin bu dünyada ən böyük səhvi o olub ki, vətənini azad eləyəndən sonra Qreklərin Türkiyədən bu yanda gizlənməyinə imkan verib. Odur ki, burdakı Qreklər indi birbaş Papadan, Stalindən göstəriş alırlar. Nəriman bax buna görə düşmən idi oradakı "Orcanikidze" – "Serqo" adı ilə tanınan casusla. O Serqonun "beynəlmiləl otryadı" tamam həyasızlaşıb indi, Qəsri-Qacara bizim yanımıza gəlmişdilər şəklimizi çəksinlər. Dedilər: "şəkillərinizi çəkirik ki, başlarınız kəsilib Kremlə göndəriləndə Stalin tanısın, arxayın olsun ki, sizin başlarınızdı". Bu heç. Siz bəradərlərə göz yaşımızla yazdığımız bu məktubun səbəbi budur ki, Qəsri-Qacara gətirilənlərin sayı günbəgün artır. Pişəvəri ilə yoldaşları gətirildilər. Pişəvəridən sonra əlli üç nəfər gətirildi. Hamısı da sizin "rəhbər işçi" dediyiniz fəzilətlilərdir. Kimiyə on il, kimiyə səkkiz il zindan cəzası kəsilib. Deməli, qırxıncı sənəyə qədər qapı dalında qalacaqlar. Xəbəriniz yoxdurmu bu fəlakətdən?! Şeyx Məhəmməd Əmirin nəvələri bizə xəbər verirlər ki, qeyrətli övladlarımız çuğullardan bir neçəsini haxlayıb bərkə çəkiblər, səmumun səbəbini öyrənib "etibarlı yerə" çatdırıblar, "etibarlı yerə" Bağlar[23] tərəfdən gəlib-gedənlər də sizə çatdırıblar. Əgər siz tərəfdən işıq düşməsə, fəzilətli adamların hamısı bu

qapıların dalında qalsa, bədbəxt millətimizi kim çıxardar günəşli gündüzə, ey bəradərlərimiz! Sidqimizi Ağlarımıza bağlasaq da, biz bu fikirdəyik ki, kimisinə on il, kimisinə səkkiz il zindan cəzası kəsilmiş fəzilətlilər bu zülmətdə çürüsələr, cəmi millət də Pəhləvi zülmətində çürüyəsidir. Odur ki, son ümidlə üzümüzü siz iki əzizimizə tutub, son vəsiyyətimizi deyirik: canınızdan keçin, fəlakətimizi Günəşə[24] çatdırın ki, qara buludu dağıtsın. Mümkün olsa, Tehrana çox bilici fəzilətli Pünhanlardan göndərə bilsəniz, İngilisin, Rusun toruna düşüb qalan şahı inandıra bilərlər ki, "Pəhləvi" deyilən yoxdur, "Pəhləvi" "Paxtavan" adlananlar irsən BağOd EvÜn OdƏrləridirlər, cəhalət zülmətində özləri özlərinə düşmən kəsiliblər... Bu "şah" adına da yaraşmayan Pəhləvi Mirqəzəbi həqiqəti anladın, bəradərlər!.."

Ömrümün axırınacan bu "kapirovalni bumaqa"da qalacaq bu məktub!

"Qardaş qatili" belə gəldi, "qardaşını öz əliynən güdaza verən qatil" elə getdi! Göylərnən bağlı alimlərin qatillərindən danışıram mən sənə, ubiysa!

Kitabxana gətirilən ili atan Yağırın qapısına qaradinməz, yerəbaxan çarvadar seyidlər gəlib-gedərdilər. Rəhimin quyusundan su çəkdirib dəstəmaz alardılar, namaz qılardılar, cəmaat da elə bilərdi doğrudan seyiddilər. Xızr Abını çağırıb, "peyğəmbərin çarvadarlığı" barədə hədis danışdırardılar, cəmaat da elə bilərdi doğrudan çarvadardılar. Mədədə də, Cəfərə də, Sultanın özünə də dönə-dönə deyirdim gözüm su içmir bu yerəbaxanlardan. Sultan üzünü bir yana tuturdu, Mədəd bir yana. İki qardaş ikisi də boğulub qalırdı. Cəfər də ki ağzını, burnunu titrədirdi. Elə Cəfərin titrəməyindən bilirdim ki, nəsə gizlədirlər məndən. Qışqırırdım, bağırırdım. Çarvadar, görünüb, cəmaat arasında olar, alınandan, satılandan xəbər tutar, bunlar niyə belə düz gəlib düz gedirlər? – deyirdim. – Niyə qoymursunuz damlayım, danışdırım görüm nə cannıcinnidilər?!. Özüm bağırırdım, özüm də eşidirdim. Sultanın bircə sözü varıydı: "Yaxın getmə o adamlara". Mədəd də bunu deyirdi, Cəfər də. Az qalırdı ortamdan yarılım ki, atryad nəçənniyiyəm mən burda, ya bostan qarauluyam, niyə başa salmırsınız ki, niyə "yaxın getməyim o adamlara?!" Demə, bu məktub elə onda partbiletinin arasındaymış Sultanın. "Qara bulud" deyilən səmuma – "internasyonalnı atryada" da yaxşı bələdiymiş, atryadın komandiri Serqonu da tanıyırmış, çuğullarını da. Mədədnən Cəfərə danışıbmış dərdini, tapşırıbmış ki, mənə açmasınlar. Gizlətmirəm, o vaxt Mirqəzəbin başına and içirdim mən. Səbəbi də

buydu ki, kontralarnan vuruşmada ölümcül yaralandığımı eşidəndə Bakıdan paravoznan həkim göndərmişdi, qan vurdurmuşdu. Otuz altıncı ildə çağırtdırdı, orden verdirdi, qonaqlıq düzəltdi, sağlığıma içdi. Yaxamı açdı, sinəmin enini ölçdü, dedi: “Bu bir qarış dörd barmaq enində sinədə on yeddi yara yeri var. Eto jivaya legenda!” Kimin ağlına gələrdi ki, cəlladıymış, yerəbaxan çarvadarlar da o cəlladın çuğullarıymış, Yağır Məmmədəli də çarvadarlıqda yox, şpionluqda yağır olubmuş!

Tamojnada bu məktub axtarılandan sonra Yağır Məmmədəli bir dəstə “çarvadar” kliçkalı başkəsənlərnən gedib o taya. Məhərrəm deyir: “Pişəvərinin arxivində “Zindan xatirələri” adında, ürək ağrısıynan dolu dəftərləri qalıb. O “xatirələr”in bir yerində “kəsilmiş qanlı başları satan satqınlar”dan danışır. Əmbə nə o satqınların adlarını çəkir, nə də kəsilən başların alıcısının adını çəkir. Çünki alıcı “qara bulud”un kamandirinin[25] müavini – kamissarı Mirqəzəbiymiş, satıcılar da kamandirin dörd dövrəsində mələk donuna bürünübmüş. Sən bilirsən hansı xarabanın millətlərindəndilər o “mələk”lər, o “seyid”lər, ulu babaları neçənci əsrlərdə tutublar bizim bu viranə vətənimizi! Sən özün də o ilanların nəslindənsən, a bədbəxt, xəbərin yoxdu. Qrek Cuqaşvili – “Alıcı” – kamandir də o toxumdandı. Yeyirsiniz içərimizi. Tək bir nəfəriniz otuzunci ilin qışında Qəsri-Qacardan Şeyx Ağ Əmirnən Şeyx Boz Əmirin başlarını çarvadar xurcununda gətirib Persə göstərəndən sonra öz “çarvadarları”nın əliynən otuz birinci ilin yazında öldürülüb quyuya atılıb!” Məhərrəmin sözləridi bu. Gümüş kəməri meyidin belində saxlayıbmışlar ki, tacir Yağırın oğlu atasının cəsədini “tanısın”, “çarvadar”lar generalı Persə ömürlük qul olsun!

Sübut?!

Sən hələ sübut da istəyirsən məndən, qatil oğlu qatil?!

Sübut Persin verdiyi ifadədi!

Sübut o “iyili quyu”dan çıxan cəsəddədi!

---

[26] “Şeyx Xorasan” məqbərəsində Nəiminin gizlin “Hürufi”liyə – SafAğ Elminə aid kitablarının səhifələrində heç bir təlimat şifrəsi tapılmadığına görə “Pers” – general Atakişiyev o kitablara toxunmamışdı. Yalnız iyirmi beş il sonra Nəsiminin yubileyinə hazırlıq başlananda kitablar yoxa çıxdı. Mən şahidəm ki, Azərbaycanın milli sərvətlərini qiymətləndirməyi bacaran çekistlərin axtarış səyi fayda vermədi.

[27] Şimali Azərbaycandakı quruluşa və şəxsən Mircəfər Bağırova inanan demokratların sayı az deyildi.

Dedim, bir də deyirəm: Səməd deyil kor, sənsən kor! Əgər o sümüklər tapılan günü gözün azdan-çoxdan bir şey seçibsə, yadına sal, de görüm general Pers birinci dəfə nə vaxt gəlmişdi bu rayona?

Haman gün, ya yox?

Boçqaqarın qohumun – Xaş nəçənnik axşamdan cöngə kəsdirmişdi Xəlvətin qapısında, xaş qoydurmuşdu. Gecə yarıyacan qovurmadan tıxaşdırdı, araqdan vurdu. Sonra da guya quyu suyu düşdü könlünə. Bax, bu sən Çax-çux vedrəni götürdün, daranqhadaranq yüyürdün Cəfərin quyusundan doldurdun apardın, o da təpiyiynən vurdu aşırdı vedrəni, guya kefli-kefli bağırdı ki, "Mənim qudamı partiyaya layiq görmüyən adamın quyusundan su içmərəm! Qudamın öz quyusundan su istəyirəm!" Düzdü?.. Qudası yalvardı-yapışdı ki, bəs, "Bu saat adam sallıyaram, çıxartıraram quyunun içini, əmbə suyu durulmaz belə tezliknən..." Kefliniz guya qanmadı. Getdi oturdu xaş qazanının yanında, başladı ki, "Mənim qudamı partiyaya layiq görmüyən kənddən su içmiyəcəm. Xaşın üstündən generalıma da öz qudamın quyusundan su verəcəm!.." Tərpət beynini, maşennik, özün fikir elə, o boçqaqarın maşennikinizin beyninə hardan düşmüşdü "qudasının quyusunun suyu?!" Doğrudan da kefliydisə, gecənin yarısında, işıq adına o ocaqdan savayı kənddə işartı da olmuyan bir vaxtda necə gördü, necə bildi ki, Lüt Cəfərin qapısına yüyürdün, ordan gətirdin suyu?! Necə yəni "xaşın üstündən generalıma da öz qudamın quyusundan su verəcəm?!" Günü o həyətdə keçə-keçə bilmirdimi ki, "iyili quyu" deyilir qudasının quyusuna?! İlin üç yüz altmış beş günü xaş tıxışdıran Xaş nəçənnik yaddan çıxartmışdımı ki, xaşın üstündən su içmək olmaz? Generalını panos eləmək istəyirdi?! Yoxsa, generalının tapşırığıynan, ayıqca-sayıqca başnan, qudasını vadar eləmək istəyirdi ki, gedib Kərpickəsənlər məhləsində Möhsün kişini oyadasınız, "Gəl, a kankan. Yaman dara düşmüşük. Gəl bizi dardan qurtar" deyə-deyə gətirib, çatını belinə bağlayıb, yel fanarını bir əlinə, külüngü, lapatkanı o biri əlinə verib quyuya sallıyasınız, o da daş-qum çıxartmaq əvəzinə, "Bissimillah, bissimillah" deyə-deyə özü çıxıb xəbər verə ki, quyuda cəsəd var, belində də Yağırın kəməri!

Xaşa yox, silistə gəldi Pers!

Boçqaqarın nökəri alatorandan gedib daklad eləyibmiş ki, hər şey hazırdı, gəlib işinizi görə bilərsiniz, yoldaş general.

O da gəldi!..

Əynində boz köynək varıydı. Ayağında boz brezent çəkmə. Sifəti də boz! Qum kərtənkələsi kimi dingildiyə-dingildiyə, guya gah Sultana, Mədədə, gah da mənə, Cəfərə göz qoya-qoya mələfənin qırağını qaldırıb sümüklərə baxandan sonra günortayacan gəzindi, dingildədi o həyətdə, öz "çarvadarları"nın əliynən quyuya quylatdırdığı Yağırın ələngəsinin üstündə "ciddi siyasi məsələ" qaldırdı: "Bəli, Sultan Mamedoviç! Çox ciddi siyasi məsələdi! Özün düşün, gör nə qədər ədalətsizlik olub! Sizin alma bağınızdan bazara alma, qax daşıyan hambala, sonrakı tacirə möhtəkir və casus damğası vurulub, bu bir! Malı, qoyunu, mülkü müsadirə edilib, bu iki! Aradan yeddi il keçsə də, tamamilə aydındır ki, bu mərhum ədalətsizliyə dözməyib, özünü quyuya atıb. Siz isə adını "qaçaq" qoymusunuz bu bədbəxtin. Qardaşı Rəhim Qudalının qabağına Çin səddi çəkib, partiyaya keçməyinə, bir vətəndaş kimi öz hüquqlarından istifadə etməyinə imkan verməmisiniz, bu üç! Oğlu Xalıqı hətta təhsil hüququndan məhrum etmisiniz, bu dörd!"

Bax onda kor oldun sən, Çax-çux Xalıq! Pers, Yağırın cəsədinin üstündə nitq deyəndə kor oldun!.. Ağsaqqalın, bir tərəfində boçqaqarın qudası, o biri tərəfində kərtənkələ general himayədarı, bir əlini Sultannan Mədədə doğru uzatdı, o biri əlini Cəfərnən mənə uzatdı: "Düşmənimsiniz! Qan düşmənimsiniz!" – dedi. Sən də rəzil-rəzil əyildin, atayın qatilinin əlini öpdün: "Bu gündən sənsən mənim atam, yoldaş general! Yalvarıram, apar məni burdan! Nökərinəm, qulunam! Ömrümün axırınacan qulluğunda duracam, yoldaş general!.."

Persə də elə buymuş lazım olan! Cəsədnənciyəz verbovat elədi səni, apardı. Gülənovun kabinetində kağız, qələm qoydu qabağına: "Yaz! Çarvadar atam Məmmədəli Qudalıdan dəfələrnən eşitmişəm ki, raykom katibi Sultan Əmirliynən kolxoz sədri Mədəd Əmirli Muğ nəslindəndilər, Şeyx Məhəmməd Əmirin oğludular, Təbrizdə Əmir bazarının sahibləri Şeyx Ağ Əmirnən Şeyx Boz Əmirin dos-doğmaca qardaşlarıdı. Şəcərələrini gizlədiblər".

Şeyx qardaşları belə düşdülər Bezobraziye qazanına!

Yenə mindin Persin "Emadin"inə, getdin ki, atanı quyuya quylatdıran cəlladın rəhbərliyi altında "vətənə xidmət eliyəsən!"

Gözün niyə ölü qoyun gözünə döndü?! Təzəmi bildin kimə xidmət eləyirsən?!

"Müəllim" axtarış xəbəri gətirəndə dalınca salıblar səni. Mirqəzəbə nə Sultan Əmirliynən Mədəd Əmirlinin "sinfi mənsubiyyəti" lazımıy-

mış onda, nə də “antisovetliyi”. Tutqudan sonra Pişəvəri şəhərlərdə, vilayətlərdə firqə özəklərinin yerlərini dəyişdiribmiş, təlimat mərkəzini xaricə keçiribmiş. Azadlıqda qalan “Hümmət”çi, Nərimanovçular barəsində heç nə bilmirmiş Mirqəzəb. Onçun də arxivnən kitabxananı Sultandan almaq istəyirmiş ki, bəlkə ordan bir şey öyrənsin. Tula kimi düşübsən izimizə, arxivin, kitabxananın yerini tapıb, aparıb qoyubsan Persin ovcuna. Məlum olub ki, Etibarlı yer – “Şeyx Xorasan” məqbərəsi Nərimanovun vaxtından qalma təlimat mərkəzidi. Sonralar Nəcəfoğluynan Pişəvərinin şərikli hazırladıqları elmi təlimatın hamısı “Etibarlı yer”dən aparılırmış. Baxtın belə gətirib, ubiysa! Mirqəzəb bağrına basıb səni o mərkəz məlum olan günü. Seyfindən bir cüt mayor petlisəsi çıxardıb, deyib: “Bu petlisələr Məmmədəlinindi. Vaxtı çatanda bu petlisələri sən gəzdirəcəksən, mərhum atan kimi, sən də çalışacaqsan ki, Cənubi Azərbaycanda Şura cümhuriyyəti qurulanda o cümhuriyyətdə Əmirlilər kimi sinfi düşmənlər fəaliyyət göstərməsinlər”. Belə “rabotnik” eləyib səni o cəllad!

Otuz doqquzuncu, qırxıncı illərdə gözüyün biri burda – Sultan Əmirlinin ağzında dişini sanayıb, o birisi Mərdəkanda dərs oxuyub, əski əlifba keçib, şifrə öyrənib!

“Müəllim” öz dərsindən “pis” yazırmış sənə. Pers bağırırmış Məhərrəmin üstünə ki, “Kişi indidən zvanya verib Xalıqa!” Məhərrəm yenə “pis” yazırmış. Düzdümü, beyinsiz köpəyoğlu?!

Məhərrəm deyir: “O məktəbdə həftədə bircə qoşa saat dərsim varıydı. Əmbə bütün həftə o bir saatı məşq eləyirdim. Mərdəkana gedəndə elə bilirdim səcdəgaha gedirəm. Çünki vətənə layiq çekistlər yetirməliydim. Yağır Məmmədəlinin oğlunu sinifdə görəndə elə bildim səcdəgaha it bağlanıb. Çalışdım iti qovum. Nəticəsi bu oldu ki, iti əvvəlcə mənim öz evimə saldılar, sonra da aparıb müqəddəs məqbərədə kitabxananın üstünə bağladılar”.

Məhərrəmnən yox, Pers sənnən işləyirmiş orda, şpion oğlu şpion! Qırx birinci ilin yayında Pişəvəri azadlığa çıxanda Məhərrəm çatdırıb ona ki, “Etibarlı yer” Persin nəzarəti altındadı, padpolyalara gedən təlimatların üzü çıxardılıb Mirqəzəbə göndərilir, kitablar da guya “rütubət çəkdiyinə görə xarab olur”.[26]

Pişəvəri təcili müşavirə çağırıb. Mərkəzi Komitənin üzvləri deyiblər: "Firqə özəkləri "Qara buludu" tanısalar, "Şimala[27] etimadı itirərlər. Təlimat mərkəzi yerində qalsın".

Beş sandıqda yeddi yüz əlli kitabı Məhərrəm yox, sən yoxlayıbsan zərrəbinnən "bircə-bircə, səhifə-səhifə". Əvvəl baş açmayıbsan Pişəvərinin şifrəsindən. Xızr Abını aparıbsan, dilindən iltizam alıbsan, xirtdəyinə naqan dirəyibsən, sirri açmayıb. Qollarını qanırıb qozbel eləyibsən! Tfu sənə! Sonra bədbəxt Çürüyü aparıb yüz yaşında sənətkarı təpiyin altına salıbsan, canağrısına dözməyib Çürük, məcbur olub açsın ki, kitabların səhifələrindəki rəqəmlər köhnə "əbcəd" şifrəsidi, gah sağdan sola, gah soldan sağa, gah da yuxarıdan aşağı yazıblar ki, oxunmasın. Qırx birinci ildən qırx beşinci ilə qədər, beşcə il şifrə açıbsan təlimat mərkəzində! Bir əlin burda çax-çux eləyib, o biri əlin şifrə açıb, "Mətbuatın azadlıq cəbhəsi" təşkilatının, firqə özəklərinin işləri barədə məlumat yazıb Persə verib, Pers də aparıb Mirqəzəbə verib, Mirqəzəb də Cənubda işlərin hamısını öz adına çıxıb, Bakıda respublikanın hörmətli adamlarının qabağında özünü "Cənub kommunistlərinin təlimatçısı" kimi göstərib!

Nökərləri "Azərbaycan bolşeviklərinin atası" eləmişdilər onu, sənin xidmətin sayəsində Cənub kommunistlərinin də "atası" olub, ordumuz o taya keçəndən sonra mətbəə kağızı, kitab, pul, mal göndərib, ürəklərinə girib!

Belə xidmət eləyibsən vətənə! Cəllad casusu! Mirqəzəb Mirqəzəbi! Pers oğlu Pers! Orasını düz deyirsən ki, Ərdəbilə, Ənzəliyə də, Təbrizə, Xorasana da gedibsən, Mazandarana, Rəştə, Gilana, Tehrana da gedibsən. Mirqəzəbin əmriynən! "Məxfi iş" barədə xəbərdarlıq eləməyə yox, firqə özəklərində "çarvadarlarını" yerləşdirməyə gedibsən!

Kimləriymiş o təzə "çarvadarlar?" Bilirsən?

Bilmirsən, kor oğlu kor!

Məhərrəmə niyə böyük çekist deyirlər? Ona görə yox ki, "kəfəni boğazına dolayıb", Cuqaşvili casusları barədə SSRİ prokuroruna geniş məlumat yazıb, "xüsusi qrup" təşkil elətdirib, "xüsusi qrup"un ləğvindən sonra köhnə qrup üzvləriynən əlaqə saxlayıb, şəxsiyyətinə pərəstiş olunan dünyadan gedəndən sonra da ki, bayaq dedim neyləyib. Bunun hamısı böyük işdi, əlbəttə. Əmbə hər bir namuslu çekistin borcudu belə işlər. Məhərrəmə mən ona görə böyük deyirəm ki, həftədə bircə dəfə dərs deyə-deyə, Persin gözünün qabağında özü kimi ayıq-sayıq vətən-

pərvər oğullar yetirib, indiki "xüsusi qrup"un üzvü olan bir gizlin yetirməsinin köməyiynən öyrənib ki, Pers sənin "çarvadarları"yın hamısını o tayda özünün Azərbaycana düşmən fars qohumlarından seçib gətiribmiş. Xəlvətdə farsca danışırmış onlarnan. Muğdan olanda gülürmüş ki, "balam dağlıyam da, ləzgicə danışıram. Taxta çıxdığı vaxtlar dilimizi düz-əməlli bilmirmiş Mirqəzəb. "Gəlibən, gedibən" deyirmiş. Azdırmayın camaatı, "Quba cühudu" deməyin Mirqəzəbə! Fikirləşəndə təpəmdən tüstü qalxır ki, "xleb"ə "xlif" deyən kəmsavad Qılınc Qurban rusca "İnternasyonal" əzbərləyib qurultayda rusnan, erməniynən yanaşı oxuyanda, öz torpağımızda öz əlimiznən böyütdüyümüz ilan balası da "İnternasyonal" oxuyurdu, mənim gözümün dolduğunu görüb, əlini kürəyimə döyüb "İstinni bolşevik" deyirdi!.. Leninə də nifrət eləyirmiş, Nərimana da, Atatürkə də! Sənin cinayətin o deyil ki, "istinni bolşevik" deyib Hümmətçi Qılıncı dolaya-dolaya kökümüzə balta vuran Mirqəzəbə xidmət eləyibsən. Cəlladlığını görənə qədər elə biz hamımız xidmət eləmişik ona. Sənin cinayətin budu ki, "məxfi iş"in nə iş olduğunu biləndən sonra da cəlladın bağışladığı demini damağından yerə qoymayıbsan. Tüstülədə-tüstülədə gedib "Azərbaycan bolşeviklərinin atasının" zəmanətiynən "çarvadarlar" doldurubsan firqə özəklərinə. Məhərrəm deyir: "Ordumuz o taydan qayıdandan sonra şahın ordu dəstələrinə Demokratları məhz "çarvadarlar" nişan verirmişlər!" Məhz "çarvadarlar" şahın siyasiləriynən əlbir olub, qəzet redaksiyalarından, radiokomitetdən qaçan mühacirlərin yollarını kəsirmişlər".

Belə qan içibsən sən cəlladnan bir camdan, ubiysa!

O məhkəmədən sonra bir məhkəmə də qurulacaq. "Çarvadarlar"ını sənnən yanaşı oturdacaqlar. Harda, necə qan içdiyini "əziz bacanağ"ın bircə-bircə oxuyacaq üzünüzə. Atan – gorbagor Yağır iki baş kəsmişdi. Demokratları vətəndən tərik salmaqnan bütün Azərbaycanın başını kəsibsiniz siz o tayda! Bu dünyadan xəbərsizim bilsin ki, Sultan Əmirli də vətəninin başını kəsməyə hazırlaşanların barəsində yazırmış Ali Baş Komandana ki, bəlkə bu yolnan cinayətdən çəkindirsin o Ali Baş Cəlladı! O ağ daş binada Ağ Əmirnən Boz Əmir gecələr səhərə qədər "Yazma! Yazma!" – deyirmişlər, Sultan inildəyə-inildəyə, yuxusunda da yazıb, sonra yandırırmış yazdıqlarını! Təkcə bu əzabına görə səcdə eləməlisən əminə, oğul!

Özün fikir elə, o məktublardan bircəciyi Mirqəzəbin əlinə düşsəydi, səlamət qalardımı əmin? Hər gün, hər saat, hər dəqiqə tutqu gözlüyə-gözlüyə yazırmış! Bu hesabdan gör kimdi, necə kişidi "Ölüb" dediyin kişi!

Axırıncı məktubun haqqında çox şey danışıb sənə bu maşennik. Bircə şeyi gizlədir: həqiqəti.

Dörd nəfər yazıbmış o məktubu. Pişəvəri, Nəcəfoğlu, Məhərrəm, bir də Sultan özü.

Stalin qırx birinci ildən bilirmiş ki, "Mətbuatın azadlıq cəbhəsi" adında təşkilat da Nərimanovun "Hümmət"i kimi, özünü "kommunist təşkilatı" adlandırıb Moskvadan kömək istəsə də, əsli Ağdı, yəni Saf-Ağdı. Buna görə də təklif olub ki, Məhəmməd Əmirin mədrəsəsində oxumuyan, Elmdən xəbəri olmuyan Stalinpərəst Mərkəzi Komitə üzvlərinin hamısı imzalasın məktubu. Yəni məktub bütün partiyanın adından getsin. Sultan qəti etiraz eləyib: "Çarvadarlar Mirqəzəbə, Mirqəzəb də, şübhəsiz, Stalinə çatdırıb ki, bu azadlıq hərəkatının kökü də Şimalımızdakı kökümüzə. Comərdə, Şeyx Əliyə, Dəli Alıya bağlıdı, bunlar da, məlumdu ki, "Vərəsə"yə bağlıdı. Odu ki, "Azərbaycan Kommunist partiyasının Mərkəzi Komitə üzvləri özlərini Mircəfər Bağırova sadiq göstərməlidilər. Şəxsən Bağırovdan, "internasiyonal atryad" üzvlərindən şikayətnən dolu məktubu imzalasalar, başda Pişəvəri, hamısı öldürülər... Mən, "Muğ" Varisi Sultan Əmirli, tək imzalamalıyam məktubu və icazə versəniz, "Azərbaycan Kommunist Partiyasının" Mərkəzi Komitə üzvlərini də Mircəfər Bağırovun sadiq silahdaşları kimi qələmə verməliyəm. Çünki siz hamınız səlamət qalmalısınız. Hamınız! Hər nə olsa, tək mənə olsun!" Belə deyib Sultanım. Eşidirsənmi, a Bircə balası? Tək öz canının qeydinə qalan adam belə aşkar təhlükə qucağına atardımı özünü?!

Deyiblər məktub Mirqəzəbə göstəriləcək, izahat tələb olunacaq, Mirqəzəb də çalışacaq işin altından çıxsın, material toplayıb "böhtançını" məsuliyyətə alsın. Məktub partiyanın adından getsə, Mirqəzəb bütün partiyanı böhtançı adlandırammaz.

Sultan yenə dönməyib inadından. Deyib: "Böyük bir ölkədə uzunmüddətli azadlıq hərəkatına qarşı işləməyi bacaran adam, ölkənin partiyasını ləkələməyi də bacarar". Partiya da, Mərkəzi Komitənin üzvləri

---

[28] "Bax indi sən həqiqi Sultan oldun, Sultan Mamedoviç! Əmma qorxma, böyük Stalin özü müdafiə edir səni".

də, Pişəvəri özü də təhlükədən kənarda olmalıdı! Qurtardıq! Bağ hökmüdü bu!" Belə deyib Sultanım, təkcə özü qol çəkib! Kim eliyər belə igidliyi?! Bu maşennik "qardaş qatilinin cinayətləri"ni dal-dala düzüb. Pişəvəriynən Nəcəfoğlunun ölümünü də məktubun nəticəsi kimi qələmə verib ki, əmiyin məhz qəhrəmanlığını gizlətsin səndən. Get xahiş elə SSRİ prokurorundan, göstərsin o məktubu, Məhərrəm deyir: "Rudenko nə qədər sərtdisə, bir o qədər də incə adamdı", Ukraynanın prokuroru olub uzun müddət, Stalin dövründə çox ağıra, yüngülə düşüb, qəbuluna get, deynən Sultan Əmirli yetirib məni. Əmimdi, atamdı, idealımdı. Əmbə əcayib-əcayib şeylər danışırlar mənim idealım barədə. Başını salamət saxlamaq xatirinə qardaşını güdaza verib deyirlər, filosof Nəcəfoğlunun ölümünə bais olub deyirlər, Azərbaycan Demokrat firqəsinin sədri Pişəvərinin ölümünə bais olub deyirlər, bilmək istəyirəm ki, qırx beşinci ilin yazında "Mətbuatın azadlıq cəbhəsi" təşkilatının konvertində Moskvaya göndərilən məktubu doğrudanmı təkcə Sultan Əmirli imzalayıb?.. Qoy göstərsin, öz gözünnən gör o tək imzanı!.. Rəhmətlik Mədəd həməşə deyirdi: "Bir rayonun raykom katibi demək olmaz Sultana". "Qardaşım böyük dövlət xadimidi" deyirdi.

Məktubdan, o teleqramdan sonra Bezobraziye qazanında nələr qaynadığından bir kəlmə də danışmır sənə bu maşennik. Özüm danışacam hamısını. Onda başa düşərsən ki, tək öz canının qeydinə qalıb, əzrayılı qardaşının üstünə göndərən "qatil" gizlədib teleqramı, yoxsa vətənimizi Farsın, Erməninin, Gürcünün arasında bölüşdürənlərnən mübarizə naminə can-ciyər qardaşını qurban verməkdən də çəkinmiyən əzabkeş insan.

"Yarımallah"-zad deyir bu qatil, belə çıxır ki, guya teleqram xeyrinəymiş Sultanın. Sən özün də bu fikirdəsən. Qəbir üstə, o cür dərd yükünün altında sevindin teleqrama, fəxr elədin. Gözüm üzündəydi, görürdüm ki, dərdini də unutmuşdun! Dəli olmuşdun "Stalin" imzasından! "Kapirovalni bumaqa"da tərcüməsini saxlamışam teleqramın. Bir dəfə o vaxt qəbir üstə eşidibsən, bir də indi bu "məxfi iş" müsibətini biləndən sonra eşit, gör fəxr olunmalıdı, ya necədi.

"İslam partiyasına mənsub qardaşlarına görə kommunist Sultan Əmirliyə və kommunist Mədəd Əmirliyə etimadsızlıq üçün əsasınız yoxdur. Biabırçılığa son qoyun". Budu Sultan Əmirlinin iniltilərinin səbəbi: "İslam partiyasına mənsub qardaşlar..." Kainat Elmi nədi?! Bağ Ata nədi?! Yoxuymuş heç nə!.. Tanı Ali Baş İlanın Ali Baş komandanını! "Atamız, rəhbərimiz" deyə-deyə səcdə elədiyin, sağlığına içdiyin Sta-

lini hələ bundan sonra tanıyacaqsan. Abı deyir: “Türk millətinin yox, Allahların qatilidi Qrek Stalin!”

Həqiqətdi, oğul.

Rəhmətlik Mədəd boynunu büküb qəmli-qəmli soruşardı məndən ki, “Bilirsənmi, Səməd niyə çox istəyir məni?” Başının üstə şəkli göstərirdi ki, “rəhbərə oxşadır”... Doğma atanı da ona görə çox istəyirdin ki, “rəhbərə oxşayırdı!”

Dərdimiz böyükdü, oğul!

Müharibədən qabaqlar da, müharibə vaxtı da, müharibədən sonra da, İspaniyadan bu yana Qərb də ovcundaymış onun, Şərq də. Yer üzünün bütün kilsələrindən “İnternasyonal” adı altında məlumat gedirmiş “yoldaş Stalinə!” Üstündə də kommunizm şüarı: “Bütün ölkələrin proletarları, birləşin!” Bax gör indi, necə birləşiblər “proletarlar” – ilanlar! Gör necə parça-parça eləyiblər vətənini, xalqını! Budu bax “atamız, rəhbərimiz”! Üzdə “xalqlar dostluğu!”, xəlvətdə “parçala, hökmran ol!”

Mən kəmsavad bədbəxt dünən-srağagünəcən, Abıdan dərs alana qədər bilməmişəm ki, Nərimanovun kitablarını yığışdırıbmış Mirqəzəb.

Min doqquz yüz dördüncü ildən iyirmi ikinci ilə qədər Cənubda Nərimanov nə iş görübsə, hamısının üstündən qələm çəkibmiş! İndi məlum olur ki, Stalinin işiymiş hamısı! Məhərrəm deyir: “İyirmi ikinci ilin kütləvi tutquları olmasaydı, Cənubda Milli hökumət elə o vaxt qurulardı. Otuzuncu ilin kütləvi tutquları olmasaydı Milli hökumət otuzuncu ildə qurulardı...” Deyir: “Xarici düşmənlərimiz də rəsmi etiraf eləyiblər ki, qırx beşinci ilin dekabrından qırx altıncı ilin dekabrına qədər bircə ildə Milli hökumət yüz ilin işini görübmüş...” Pişəvəri yazıb bunu. Həmin “Zindan xatirələri”ndə. “Yüz ilin işini” məhv eləyib Qrek Stalin!

Həməşəlik bil: Bezobraziye kadrlarının heç biri bizdən deyil. Kökünü axtaranda ya Fars çıxır, ya da Farsnan əlbir olanlardan. Hamısı da bir-birini qabağa çəkə-çəkə millətin içinə ziddiyyət toxumu səpməknən məşğuldu.

Niyə? Çünki, əvvəla, məntəki kəmsavaddı hamısı. Abı deyir: “Tarixini bilsə, nə Fars özünə Fars deyər, nə də Rus”.

Əlləzoğlundan soruşur Abı: “Niyə Əlləzuşağı deyirlər sizə?” Əlləzoğlu deyir: “Zatımdan xəbərim yoxdu. Zatıqırığam. Nəyimə gərəkdi? Mənimki qoyundu, maldı, camışdı”.

Müharibə vaxtı Əlləzoğlunun bir camışı varıydı. Uşaqlar “Begemot” qoymuşdular adını. Çünki heybətli şey idi. Qarğıdalıya dadanıb o qədər

kökəlmişdi ki, yeriyəndə yer yırğalanırdı. Sənin yadında olar. Əlləzoğlunun çəpərinin dalından çıxan kimi fısqırıb qonum-qonşunun qarğıdalısına düşürdü. Qovurdular, gedirdi kolxozun qarğıdalısına təpilirdi, axşamacan azı bir hektar yeri xıncıb tökürdü. Mən vurdum o camışı. Cavanlara tapşırdım ki, qanın iziynən getsinlər, yıxılanda arabaya qoysunlar, gətirsinlər alışma eləsinlər. Əmbə ölmədi gullədən. Vəhşiləşdi, axşamlar qapıya da gəlmədi. Axırda Mədəd tutdurdu o "Begemotu", ətliyə göndərdi, qarğıdalının zərərini də Əlləzoğlunun əməkgünündən çıxdı. Elə o gecə gəştə çıxanda gördüm Çax-çux Əlləzoğlunun çəpərinin dalında demisini tüstülədir. Bildim ki, nəsə qurğu var genə. Gülənov qudasının evinə xaşa gələndə Əlləzoğlu hər dəfə əli yabalı çıxırdı Xaş nəçənniyin qabağına, haray-həşir qopardırdı ki, "Qurban mənim şikatıma baxmır, sən də baxmasan, yabanı qarnıma soxub qanımı sənin üstünə tökəcəm..." Müharibə qurtardı, Əlləzoğlunun camış dərdi qurtarmadı. Bu casus oğlu casus kişmiş bazarı açandan sonra, teleqram gələn günü, səhər-səhər Göbələk darvazada, kötüyün üstündə oturub, yeyəynən yabanın ucunu itiləyirdi. Dedim: "Yaba işləndikcə öz-özünə itilənər. Niyə yeyələyirsən?" Dedi: "Sədrin qarnına soxacam". Eşidənlərin hamısı güldü buna. Çünki axmaq söhbətiydi. Əmbə saqqızın altında bu əşyayi-dəlil nalı bu ifritədən alanda Gülənov o axmaq söhbəti yada saldı, Əlləzoğlunu darvazada, orta yolda, Çax-çuxun daxmasının yanında əli yabalı görənlərdən şahid gətirdi. Belə çıxdı ki, Mədəd maşınnan gələndə yabaynan vurmağa imkan tapmayıb Əlləzoğlu, qarışıqlıqda nalı götürüb, atılıb minib maşına, oturacağın dalında gizlənib, sonra da nalı maşının yanına atıb ki, iş nal sahibinin boynunda qalsın. Yəni əvvəl guya açıq-açığına öldürmək istəyirmiş, sonradan gizlətmək istəyib. Bu cür yoğurdu-yapdı Gülənov, dedi: "Bir camışa qurban olub sədriniz". Məhlə milisənerlərinə əmr elədi ki, "Məmiş Əlləzoğlunu tutun!"

Birinci zərbəni əmin orda vurdu bu Bezobraziye yığnağına. Meyid qucağında, göynəyirdi: "Yaran nə dərindi, dadaş!" – deyirdi. Camış söhbətini eşidəndə Mədədin başını Seyid kişinin dizinin üstünə qoydu, yaralı aslan kimi qalxdı yerindən, dedi: "Mənim qardaşımın faciəsi haqqında camış anekdotu danışılmıyacaq! Harda nə danışmaq lazımdı, mən bilərəm. Nə vaxt kim həbs olunmalıdı, onu da mən bilərəm. Hələlik heç kəsdən şikayətçi deyiləm. Avariyadı, avariya da yazın!"

---

[29] "Bağların başları kəsilib".

Gülənov elə orda başa düşdü ki, əmin tədbirlidi. Üzü at üzüdü, gözü at gözüdü Xaş köpəyoğlunun, pərtləşəndə sifəti şişir, gözləri də dombalır. Əmin "Hələlik şikayətçi deyiləm" deyəndə də o cür şişdi, dombaldı Xaş, qarnını yırğalaya-yırğalaya getdi, maşının böyründə bu əşyayi-dəlili sumkasına qoydu, kriminalistini-filanı çağırdı. Sayılov da çaşmışdı. Təkcə bu maşennik şax durmuşdu. Meyid həyətə aparılanda da, tabut yerdən götürüləndə də göz qoydum, o ayazlı gündə bu qara üzü qızılı çalırdı. Əmbə qəbir üstə teleqram ortalığa çıxanda birinci bunun şaxı sındı. Bu əmiyin ayağına döşənəndə, "Stalininə də qurban olum, teleqramına da" deyəndə o birilər də başa düşdülər ki, uduzublar.

Bizim camaatda təpər gördüm mən onda. Rusca bilmiyənlər də "Prekratite bezobraziye" deyirdilər.

Sabahısı günü vağzalda vaqonun ayaqlığına çıxanda Mirqəzəb ipəyə dönmüşdü. Əynində qara, qalın palto, başında da o cür qara, qalın uzundimdik kepka, gözlüyü işıldaya-işıldaya baş əyirdi, artistlik eləyirdi: "Vot teper tı istinnıy sultan, Sultan Mamedoviç! Şeyxom bıl, sultanom stal!" – deyirdi. "Tolko jal, çto vse katalikosı protiv Sultana!" – deyirdi. – "No ne boysa, sam velikiy Stalin zaşişşayet tebya..."[28]

Əlli birinci ilə qədər belə danışdı əminnən. "Böyük Vətən müharibəsi illərində müdafiə fondunun pambıqla təmin olunmasında böyük xidmətlərinə və rayon partiya təşkilatında uzun müddətli nümunəvi fəaliyyətinə görə" qızıl ulduz taxdı döşünə. "Biz hər kəsi əməyinə görə qiymətləndiririk", – dedi. Əlli birinci ilin yayında Krımda Stalinnən görüşdən qayıdıb Məhərin butkasında dayananda necə buynuz çıxartdığını dedim sənə. "Nümunəvi fəaliyyət"in əvəzində iki il sərasər kəmisyə kəmisyə dalınca təşkil olundu, akt akt dalınca yazıldı: "Birinci katibin xüsusi mülkiyyətə irsi rəğbətinə görə varlanmanın qarşısı alınmamış, nəticədə rayonun bütün idarələri Sultan Əmirliyə qarşı çıxıb... Aşağıkənd Qonaqlıda Lüt Cəfər adı ilə məşhur olan keçmiş partkom və indiki sədr öz qızlarından, qaynından əlavə, "müharibədə həlak olanların yetimləri" adı ilə on iki nəfər həddi-buluğa çatmamış nökər saxlayır və sovetliyin təsərrüfat kitabında həmin nökərlərin üstünə yazdırdığı iki hektar torpaq sahəsindən şəxsi təsərrüfat sahəsi kimi istifadə edir. Ortakənd Tahirlidə on ildən artıq sədr vəzifəsində hesaba gəlməz dərəcədə varlanmış Cəbrayıl Cəbrayıllı iki arvadlıdır, birinci arvaddan iki ögəy oğlunun, ikinci arvaddan da iki ögəy oğlunun üstünə təsərrüfat sahəsi

yazdırmış, beləliklə, beş şəxsi sahəni mənimsəmişdir. Başkənd Qurbanlıda İsgəndər Qurbanlı on beş ildən artıq sədr vəzifəsində o qədər varlanmışdır ki, camaat arasında məhz varidatına görə "Çeteze İsgəndər" adlandırılmışdır. Və sairə və ilaxirə! On yeddi kolxoz sədrinin on yeddisini də beləcə bəzədilər, altından da mübarək imzalarını düzdülər: Xudiyev, Sayılov, Gülənov, Atamalı! Və sairə! İki il sərasər sədrlərin şəxsi gəlirləri, təsərrüfatları, ailələri barədə arayış yığmaqnan, gah özünün, gah büronun adından izahat yazmaqnan məşğul oldu əmin. Barmağını şüşənin altında o iki kəlməyə tuşlayıb, Persin "Mərkəz nümayəndələri"nə "Prekratite bezobraziye" deməknən məşğul oldu. Öz sözüdü ki, dişiynən, dırnağıynan müdafiə elədi "Muğ"ları.

Keçən il, Stalin öləndən sonra teleqram hökmdən düşəndə əmin də hökmdən düşdü. Pers gəldi, "varlıları" müşavirə zalından çıxardıb dəstəynən basdı vaqona, "On yeddi nəfərin işi"ni xətm elədi.

Sovet Azərbaycanı deyilən ölkənin hər yerində beləcə yığışdırıldı təsərrüfat başçıları! Xalqın əli işdən soyudu. Əmək haqqı kəsildi! Dostum Təftişin təftişi cüzi şeydi, oğul! Tutqudan sonra Persin ayağı dəyən yerlərdə səmum əsdi, sildi-süpürdü kadrlarımızı! Pünhanlarımızdan birinin qəzəlini eşidibsən Abıynan Çürüyün dilindən:

> "Bir səmum Şimaldan əsir, biri də Cənubumuzdan,
> Səhralaşan yurdumuzda tozdan betərəm, ey qardaş!.."

Bir dəfə atlandım. Pers Ortakənd Tahirlidəydi. "Operativ qruppa" təşkil olunmuşdu. Gülənov o "qruppa"nın sədriydi. Qudalı hesabdarı Mürsəl hesabdarıydı, Qudalı ağsaqqalı da Qıllı Qeybalısıynan, Piyli Qayımıynan bir yerdə üzvləriydi. Guya qoyun fermalarında qırxın vaxtı dövlətə yunun az qismi təhvil verilib, çoxunu qırxıncılar mənimsəyiblər, camaata da paylayıblar ki, heç kəs dillənməsin. Atlanıb gedəndə gördüm Tahirlinin bir evində bir dəst yorğan-döşək də qalmayıb. Əlsiz-ayaqsız qocaların, qarıların altından döşəyi, üstündən yorğanı götürüb sökmüşdülər. Xəlvət Rəhim, Qıllısıynan, Piylisiynən bir yerdə maşınlara yun doldururdu. Məhərrəmin anası Mələk qarıynan qoca bacısı tut ağacının altında, quru cecimin üstündə qalmışdılar. Allaha "Kor" deyirdi qarı. "Hardasan, ay Məhərim, haqqı nahaqqa vermiyən çekistim?!" – deyirdi. Səsinə səs verən yoxuydu. Çünki haqqı nahaqqa vermiyən çekist tutqudan qaçıb Moskvada SSRİ prokuroruna pənah aparmışdı. İyirminci

ildən revkom sədri, qəza komitəsi katibi, otuzuncu ildən raykom katibi Sultan Əmirli, bir əli boğazında, o biri əli ürəyinin üstə, maşında oturub, Mələk qarının gözünə görükəmmirdi! Sinəsi on yeddi yaralı köhnə bolşevik Qılınc Qurban dodağını çeyniyə-çeyniyə qalmışdı!.. Fəhm elə, yorğan-döşəkdən, yundan danışmıram mən. Yunnan bir yerdə camaatın haqqa-ədalətə umudunu apardılar! Pul nədi, inək nədi, motal nədi?! Pers qazanın qapağını qaldırıb quyruqluları, buynuzluları kolxozların canına daraşdırandan sonra pulnan, fermaynan, yağ-yavanlıqnan bir yerdə xalqın özünü də yedilər. Bu Çax-çuxların sayı-hesabı yoxdu, oğul! Düz deyir bu maşennik, torpağımızda ilan becərir millətimiz! Təftişin hünəri var bu Çax-çuxun agent ordusunu aşkara çıxartsın, gör kimlərnən döyüşür Sultanım! Əgər bu gün SSRİ prokuroru, bir əlində o taydan göz yaşıynan yazılan məktub, o biri əlində bu taydan iniltiynən yazılan məktub, Mirqəzəbə "müttəhim" deyirsə, kimin hünəridi bu?! Əgər Məhərrəm Məhərrəmov bu gün o məhkəmədə sağ-salamat oturub, SSRİ prokurorunun səsinə səs verirsə, kimin hünəridi bu?! Əgər Qılınc Qurban, partbileti cibində, başı üstündə, sağ-salamat burda dayanıb, qoşa lüləsini Mədədin qatilinin sinəsinə dirəyib üç qardaşın bir balasına həqiqəti danışmaqnan, Bircə baladan ağıl, etibar, sədaqət tələb eləyirsə, kimin hünəridi bu?!

Demişəm, bir də deyirəm: Sultan Əmirli həməşə səcdəgahın olmalıdı sənin!

Bədbəxt Saşamızın tapşırığıynan dedim mən bunun hamısını. Yoxsa, yanğından sonra nə demişdim sənə, onnan da qurtarmışdım. Ağlını başına yığ, Xızr Abı Hikmət oğlu Hikmətin nəsihətinə qulaq as. Təftiş yaman qızışdırıb səni bu palıdın altında. O kaftarın sözüynən getsən, öldürəcəklər səni, mən kaftar da, o iniltili əmin də sənnən bərabər gedəcəyik o dünyaya!..

Bundan sonra daha heç nə demiyəcəm. Özün fikirləş, özün də nəticə çıxart...

Nəticə çıxartmağa ehtiyac yoxdu. "Yorulmaz, usanmaz qoca" ölünü diriltmişdi: tabut Səmədin gözündən getmişdi. Sultan adında möhtəşəm dünyanın sehri Səmədin beyninin qapağını qaldırıb, böyüdüb, genişləndirib, tox mavi rənglə tox yaşıl rəngin qarışığından zümrüd səmaya çevirmişdi; Qılınc qiyyə çəkib:

– Düş qabağıma, ubiysa! – deyib, qoşa lülələrini qatilin sinəsinin taxtasına tıqqıldadandan sonra və qatil səndələyib, bir kəlmə də deyib-danışmayıb geri dönəndən sonra göyə Səməd lap ötəri baxsa da, dərhal hiss etdi ki, bu zümrüd səma Qonaqlının yay axşamlarının həmişəki buludsuz, çərməsiz səması olmaqla bərabər, həm də onun – Səmədin özünün səmasıdır, ucalıb, Sultan Əmirli adında möhtəşəm dünyanın üzərində əbədiləşib.

Qatilin səndələyib geri döndüyü anda Səməd kobra dikliyi əvəzinə sınmış bel gördü, dəyirmi fanar gözlər əvəzinə Qılıncın dediyi kimi, ölü qoyun gözləri gördü, eyni anda "iyili quyu"nun dibində Möhsün kişinin "Bismillah" deyə-deyə yığıb vedrəyə doldurduğu sümüklərin arasında Yağır Məmmədəlinin kəlləsinin dərin göz çuxurlarını gördü, eyni anda da sallama gümüş kəmərli tacir Məmmədəlinin xurcununu açıb Persə bir cüt ağ çalmalı baş göstərdiyini gördü. Bunu Qurban əmi göstərdi. Tüfəngin lüləsi qatilin kürəyində, xeyli aralanandan sonra geri buruldu:

– Şeyxlərin başlarını xurcunda Persə göstərən gorbagor, sonra buna verib xurcunu, bu da aparıb Mirqəzəbə göstərib, Mirqəzəb də Stalinə teleqram vurub: "Boqi obezqlavlenı".[29]

Bunu da bil! Əmbə uyma Təftişə! Uyma!

Bu cür ağır hadisə də Sultan Əmirli adında dünyanın sehrini dağıtmadı, əksinə, zümrüd səmanı daha da genişləndirib Arazdan o yana apardı, Səmədin söhbətlərdən, şerlərdən, qəzetlərdən, xəritələrdən tanıdığı Savalan dağının arxasına aşırdı və Səməd, Şeyx əmiləri kimi ağ çalmalı Savalanla, Azərbaycanın Həmədandan sonra ən qədim mərkəzlərindən biri sayılan ata-baba yurdu Təbrizin minarələri üzərində də öz səmasını gördü.

Qatilin qaməti elə əyilmişdi ki, elə bil yenə də "eşşək kimi yüklənmişdi", "kitayski makentoş"ların ağırlığı altında çiyinləri yapıxmışdı, qolları sallanıb uzanmışdı, biləkləri pencəkdən çıxmışdı, əlləri qanla dolub, şişib yekələnmişdi, yoğun, yarıbükülü barmaqlarının arasında trubka qaralırdı. O sönmüş, soyumuş trubkaya gözü sataşdığı anda Səməd tüstü ilə dolu kupeni, sonra ağ daş evin həyətində, tut ağacının altında tüstülənən manqalın yanında "bədbəxt zənən"in kömür kimi qara heykəlini, sonra ağ balınc üstündə qara saçlara qarışmış çal saçları gördü, əmma bunlar da Sultan Əmirli adında böyük və zəngin dünyanın sehrini dağıtmadı.

Əmma bunlar hamısı Gülənovun təntənəli qalib səsi eşidilənə qədərmiş.

* * *

Quyunun dikdirinə qalxıb kömür, taxta, kərpic qırıntılarını, yüz ilin xarabası kimi qaralan dağılmış divarları və toyxana genişliyində çadırı görəndə Səməd hiss etdi ki, burdan o yana yolu yoxdur. Geri dönüb, boğuq qışqırtı ilə, İblis zənənin hələ də ötən səsini batırmağa çalışdı:

– Demədimmi bəsdi, ay qır-saqqız?! – dedi. – Uşaqlıqda Gülgəzin xəttiynən məktub yazardın. Unutmamışam. Bəs indi yazdığın nədi?! Sən də zəhərlisən, ilan törəməsi! Tfu sənə, Gülbəniz! Yeni Şənbə!

Axşama yaxın toranında qaraltılarla dolmuş Sudüşənə baxıb dərhal başa düşdü ki, qışqırtısı tək Gülbənizə aid deyil; bayaq sirkanlıqların aralarından baxan o heyrətlə dolu gözlərədir; Təftişin briqadasında “uşaq-muşağa” dediyi fikirlər də burda başqa cür – lap açıq-saçıq şəkildə hədəfə çatmalıdır.

Hamı eşitsin, – dedi. – Məmiş Əlləzoğlunun qızı Gülgəznən mənim aramda uşaq ünsiyyətindən, saf münasibətdən başqa heç nə olmayıb! Gülgəz mənim əmimin arvadıdı! Həyat yoldaşıdı! Car çəkirəm ki, əmimin namusu mənim namusumdu! Düşmən qurğu qurub, Sultan Əmirlini bədnam eləmək, ləkələmək istəyib. Əmma uduzub düşmən!

Ölkəmizdə böyük hadisələr baş verir. Sultan Əmirli həmişə böyük işlər görüb, bundan sonra daha böyük işlər görəcək. Əgər məndə az-çox qeyrət varsa, mən də kömək eliyəcəm, dayaq duracam ona. Heç kəs qarışmasın bizim münasibətimizə. Öz ürəyim var mənim, öz ağlım, öz düşüncəm var! Dünyadan xəbərsiz olsam da, öz ürəyimnən, öz ağlımnan görürəm hər şeyi. “Yeni Şənbə” dedim mən bu zənənə, təhqir elədim... Bağışla kobudluğumu, Gülbəniz. İnanıram ki, sən də çox əzab çəkirsən. Mənə görə yox, yəqin ki, hisslərinə xəyanət eləmək istəmədiyinə görə əzab çəkirsən. Hisslərinə sadiq qaldığına görə mələksən, İlana qulluq elədiyinə görə ilansan! Necə ki sən mənim qulluğumda durmaq arzusundasan, mən də ömrüm boyu bütün yaxşı adamlara, o cümlədən Sultan Əmirliyə qulluq eləmək arzusundayam!

Çayın suyunu duruldan çaylaq daşıdı, Gülbəniz! Sən daşın bir üzünün soyuqluğuna fikir vermisən, mən daşın üzünə sürtünüb enib çaxrağın

altına yatan lilə-palçığa fikir vermişəm. Çaylaq daşı olmasa, daş-daşa söykənib çaxraq yaratmasa, çaxraq lili-palçığı udmasa, sular durulmaz, Gülbəniz!

İcazə ver, mən də öz təbiətimə sadiq qalım.

Qurban əmi, Qılınc Qurban həmişə əzab çəkir ki, təhsil görməyib. Əmma alimlər mühitində olub o kişi, nadir alimlərdən dərs alıb. İnsan haqqında, dünya haqqında! Sən onun əzabını duymamısan, səni inandırıblar ki, Qılınc Qurban ürəksiz adamdı, başqalarının ürəyindən xəbərsizdi. Mən isə duymuşam onun əzabını, dərk eləmişəm ki, məhz əzab çəkdiyinə görə həssaslaşıb, gözü "fotoaparata", zehni "kapirovalnaya bumaqa"ya dönüb. O adi sovet sədri, beynəlxalq miqyaslı casusu – kəşfiyyatçını necə ifşa elədi, eşidirdin ki?!

Atamın dəfnində nə qədər adam olub, Qılınc Qurbandan başqa görən, bilən varmı ki, nəfəsi kəsiləndə mənim üzümə baxmaqnan nəfəs alır Sultan Əmirli?!

Hamınız Bezobraziyedən danışırsınız, Sultan Əmirlini də Bezobraziye çirkabına batırırsınız. Car çəkirəm, hamı eşitsin: Stalin, Bağırov, Ordjanekidze, Beriya, Şahənşah və sair Bezobraziye ustaları sözün əsil mənasında cəhənnəm yaradıblar o tayda, bu tayda. Sultan Əmirli, Mədəd Əmirli, Qılınc Qurban isə Bezobraziye cəmiyyəti içində insan saxlayıblar! Bu gün dərk elədim mən bu həqiqəti. Qılınc Qurbandan başqa görən, bilən varmı ki, Bezobraziye qazanında Sultan Əmirli neçə dəfə ölüb-dirilib?!

Çürük aşıqnan Xızr Abının "Ustadnamə"sini eşitmiyən adam yoxdu: "Can cana bağlıdısa, can da cahana bağlıdı". Təzə-təzə dərk eləyirəm mən bu sözlərdəki hikməti. Mənim səcdəgahlarım Sultan Əmirliynən Qılınc Qurban, Xızr Abıynan Çürük Aşıq məhz cahana bağlı, vətənə bağlı adamlardı! Sultan Əmirlidən məni ancaq ölüm ayıra bilər! Buna görə də tələb eləyirəm ki, bizim axar çayımızın suyunu bulandırmasın heç kəs! O cümlədən Təftiş Abbas da, çörək ucundan dəmir yoluna ayaq döyənlər də, şəhərə-bazara dağılışanlar da! Sultan Əmirlidirmi kolxozu xaraba qoyan?! Rayonda əsən səmumu Sultan Əmirli əsdirib?! Aydın deyilmi ki, katibi bütün səlahiyyətlərdən məhrum eləyiblər?! Aydın deyilmi ki, rayon partiya komitəsinin ancaq adı var! Əlləri qanlı siyasi cinayətkarlar hökmrandı burda! İlanlar! İlanlar!

Mirqəzəbin qəbrini qazıb qayıdandan sonra, burdakı Bezobraziye ilanlarını kürüyüb atandan sonra bilərsiniz kimdi Sultan Əmirli!..

Qışqırtısı nə qədər boğuqdusa, bir o qədər də heybətli idi. Eynilə Təftişin arabasının dalınca cumanda olduğu kimi, gözlərində qırpım-qırpım döyüntülər atılıb-düşürdü və bu döyüntülər işıqla qaranlığın qarışığında əks eləyib, havada bir cüt xırdaca ürək kimi açılıb yumulurdu. Əmma Səməd taya kimi yüklənmiş arabaların taya qaraltılarından başqa cavanların arasında Təftişin div qaraltısını da, Kərpickəsənlərin qocaları, qarıları arasında Möhsün kişinin şəlit geyimli yastıraq qaraltısını da görürdü. Qudalıların gur dəstəsi arasında üç yoğun adamın – Xəlvət Rəhimin, Qıllı Qeybalının, Piyli Qayımın qaraltılarını da, kanal boyunda cığırdan enib, əlləri çamadanlı, çiyinləri xurcunlu, heybəli gələn "alça-malça satanlar"ın cərgələrini də görürdü. Səhər-axşam camaatın, at-arabanın, mal-heyvanın ayağı altında nə qədər tapdansa da, gur-kükrək otu yapıxmayan Sudüşən çəməni adamların ayaq səslərinə, arabaların tıqqıltılarını udub, hərəkət axınındakı bu sükutu gizlin, müəmmalı həyəcanla doldururdu: Səmədin bütün varlığını göstərən sözlərə hamı laqeyd idi?! Yoxsa, bu sükutda nə isə başqa məna vardı?

Toran qatılaşdıqca meşədən Sudüşənə əlavə toranlıq gəlib, arabaların taya qaraltılarından aşağıda boyunduruqlu kəlləri, öküzləri uddu. Həmin bu vaxt Gülənovla milisionerlərin əllərində Çin fanarlarının işıqları çadırın arxasından çıxıb çəmənə düşəndə kəllərin, öküzlərin gözləri parıldaşdı, adamların kölgələri çaxnaşdı, bununla birlikdə Səmədin ürəyində, ağlında, iradəsində də çaxnaşma başlandı.

Gülənov məhlə milisionerləri ilə, birbaş onun üstünə gəlirdi.

Səməd o dəqiqə başa düşdü ki, qatili qoşalülənin qabağından alıblar və indi özləri həbs niyyətindədirlər.

Dikdirə qalxanda Gülənovun qarnı sallanıb dizlərinin bərabərinə endi. Dikdirdə, Səmədin iki addımlığında dikələndə isə qarnı qabarıb irəlidə durdu, parıltılı çiyinləri dala dartıldı, qoltuğundakı qırıq, əzik çamadan tappıltı ilə düşüb açıldı və daşın, xırın üstünə yaymalandı. Gülənov kitelin bir cibindən qırmızı diplom, o biri cibindən bir ovuc axça-qızıl çıxartdı. Əmma nə diplomu Səmədə verdi, nə də axçaları. Cildinin zəri parıldayan diplomu da ovcunda bərq vuran qızılla birlikdə camaata göstərib, yəni nümayiş etdirib, çamadanın üstünə tulladı.

Bir cüt at gözü əvəzinə, bir cüt neştər işıldadı:

– Eşq dəlisi olanda nə olar. Baxmayaraq ki, bu eşq dəlisi Şənbənin nənəsinin damına gedir. Deyəsən yaxşı sağaldıb səni qarmonçu. Dodaqlarıyın, üz-gözüyün dərisi sağalır... – çəmadanı göstərdi – çalış bir də

tökülüb-itmə! Milisəynən aranı vursan da, şeylərini yığışdırmağa həməşə hazırdı milis. Mən istəməzdim ki, əl-ayağını da milis yığışdırsın. Odu ki, tövsiyəm var sənə, qadası. “Əmimin namusu”, Əmimin namusu” deyib, xəlvətdə tərsinə eləməyinə yenə dözmək olar. “Sultan Əmirlidən məni ancaq ölüm ayıra bilər” deyib gözümüzə kül üfürüb, xəlvətdə başqa məqsəd güdməyinə heç cür dözmək olmaz!.. Yaxşı ki, Əlləzoğlu ölməyib hələ. Ağaca dəyəndə beyni silkələnib. Xəstəxanadan sağ çıxsa, onun məsələsinə də baxarıq. Bu boyda mülkü yandırıb. Bir aləm avadanlıq, rəhmətlik Mədədin pal-paltarı... Cinayət işi qaldırılıb. Sənnən bərabər gərək onu da məsuliyyətə alaq. Əmbə yaşı ötgündü, özü də Sultan kimi adamın qayınatasıdı, məsuliyyətə alınsa, Kişiyə də ləkə gətirər. Bütün bunları nəzərə alıb, nə sənə toxunuruq, nə ona. Bu şərtnən ki, əvvəla, belə tökülüb-itmiyəcəksən. Partiya işçisisən, məsul vəzifə tapşırılıb sənə. Belə şeylərnən belə vəzifə bir araya sığışmaz. İkincisi və ən vacibi də budu ki, Kişiynən ədavətini bəri başdan qurtar. Gecəni qarının damında yatıb, burda camaatın gözünə kül üfürə bilərsən, milisin yox! Milisin gözü itidi, yumruğuna fakt yığanda vurduğu adam yerindən qalxammır. Odu ki, sən yalan əmi məhəbbətini dilinə alma, rahat otur, qadası... Həm tövsiyyədi bu dediklərim, həm də xəbərdarlıqdı!.. Xalq qarşısında söz ver ki, Sultan Əmirliyə xətərin dəymiyəcək. Söz ver! Yoxsa, tutaram səni!

Bir cüt neştər də aşağıdan – Qıllı ilə Piylinin arasından parıldadı:

– Mən tövsüyəmi demişəm. Bir də deyirəm: “Kişi biznən çörək kəsir. Sən də kəs, bala! “Yoldaş Səməd” dedim, hörmət mərtəbəsinə qaldırdım... Durammır hörmət mərtəbəsində, ay nəçənnik. Belə ki görürəm, heç vaxt durammıyacaq. Eşq dəlilərinin hansı durub ki, bu da dursun?! Söz-zad verən deyil bu. İşini gör!

Neştərlər elə kəsdi, elə doğradı ki, ətrafda heç kəs səsini çıxartmadı. Əgər Səməd lap azacıq da olsa səbrini itirsəydi, daha nə özünü xilas edə bilərdi, nə dünyasını. Böhtanlar çirkabında, qurğular torunda, şübhəsiz, özünü də məhv edərdi. Sultan Əmirlini də.

– Demək, tökülüb itirəm... Demək həm eşq dəlisiyəm... Həm də pozğunam... Söz verməliyəm ki, Sultan Əmirliyə toxunmuyacam...

Susub nəfəsini dərdi. Canında üzgünlük hiss edirdi. Başı çiyninə əyilir, köksü ağır-ağır qabarır, enirdi.

Qeybalının fısıltısı, nəriltisi eşidildi:

– Ölür ki, bu yazıq, ay nəçənnik! Aman ver toxtasın!

Gülənov güldü.

– Mən amansız olmamışam heç vaxt! Gücünü palıdın altında sərf eləyib əl qaldırıb sovet milisinə. Olan-qalanını da, bilirsiniz damda qoyub. Güc qalarmı bu yazıqda – dedi. Və səhvi də elə bunda oldu ki, ləngidi. Neştərlərini açıq, öldürücü təntənə ilə parıldada-parıldada dayanıb, düşməninin dodaqlarının qaralmış dərisindən hələ də qan sızdığına tamaşa elədi, Səməd isə, eynilə "əşyayi-dəlil" nalı görəndə olduğu kimi, bədəninin təpədən dırnağa soyuduğunu hiss edə-edə, güclü Bezobraziyenin qarşısında güclü olmaq ehtiyacından törəyən gərgin təmkinlə dayanıb, düşünməyə imkan tapdı və beyni nə qədər sıxılsa da, bu adamla ilk dəfə üz-üzə dayandığı günü – döşü yazılı saqqızın altını xatırlayar-xatırlamaz, söz öz-özünə gəldi:

– Tökülüb-itməyim təzə deyil, Gülənov... Yeddi il səkkiz ay keçib o vaxtdan... Şey-meyi yox, ürəyimi, ağlımı, iradəmi itirmişdim... Təftiş Abbasın sahəsində, tək palıdın yanında Qılınc Qurban itirdiklərimi yığışdırdı verdi özümə. Ağlımı, inamımı, etiqadımı tapdım... Nə bu yandırdığınız evi var-dövlət sayıram, nə də o qızılı. Mənim dövlətim içərimdədi. Dövləti içərisində olan adamın gözü də hamının gözündən iti olur, Gülənov, əli də hamının əlindən sərt olur. Vurduğu adam yerindən qalxmır. Sənin milisin mənə ancaq təsadüfən zor göstərdi. Belə qərara gəlirəm ki, milis adına böhtan olan bu Xaş nəçənniyin əl-ayağını yığışdırmaq lazımdı. Bakıya aparmışdılar məni. Qayıtmışam ki, Bezobraziyeynən döyüşüm.

Üstündə qan ləkələri qaralmış, qolsuz köynəyin altında daş əzələlər oynayıb öz işini gördü: zərbə Gülənovun alt çənəsini sağdan sola fırladanda Gülənovun yüz kiloluq bədəni də sağdan sola fırlanıb, dolu çuval kimi dığırlanıb, bir də dikdirin ayağında dayandı. Elə döşəli halında Gülənovun qırmızı, ətli əli kitelin ətəyini çirməyib, pistoletin qoburunu dartışdırdı. Əmma bir an da keçmədi ki, Təftişin qırx beş nömrə "sapoğu" o qırmızı, ətli əlin üstünə endi.

İkinci zərbə Qıllını yıxdı: Qeybalı da eynilə Gülənov kimi dığırlanıb, dikdirin çəmənə qovuşduğu yerdə – Ağsaqqalının ayaqlarına ilişib dayandı.

Üçüncü zərbə Piylini yıxdı: Qayım da dığırlanıb, Qeybalının yanına getdi. Məhlə milisionerləri Səmədi tutmaq əvəzinə yıxılanları qaldır-

mağa çalışdılar. Qışqırtı-bağırtıda, çaxnaşmada Səməd daha heç kəsi görmədi. Gördüyü indi ancaq həmin zümrüd səma idi – qaranlıq göyün arxasında öz gözəl rəngində gərilmişdi. Səməd nə yerə baxırdı, nə göyə; qabarıb oynaşan, döyüş tələb edən əzələlərini yığmaq, toxtamaq üçün gözlərini yummuşdu, əmma səmasının ucalığını, dərinliyini, genişliyini bütün aydınlığı ilə görürdü. O dərinlikdə sədr Mədədi görürdü. Atasının səsini eşidirdi: "Səmədim – SimOdum – uca həqiqətim! Səmədim – SimOdum – uca həqiqətim!.."

Səməd görüntündən və səsdən bu dəfə heç təəccüblənmədən, vəziyyətinin qeyri-adiliyini düşünmədən, özünü də orda – zümrüd ucalıqda, dərinlikdə, atasının yanında gördü: ayaqları burda – quyunun dikdirində idi, başı orda – yuxarıda idi; hiss etdiyi, anladığı isə bircə bu idi ki, həyatında kəskin dönüş yaranmışdı. Bu dəqiqədən etibarən nə isə olmalı idi, çox ciddi hadisələr baş verməli idi.

Səməd səhv eləmirdi...

**8**

Gülənov nə vaxt ayağa qalxdı, hara getdi, niyə getdi? "Yoldaş Səmədi" gündüz "çörək kəsməyə" çağırıb, axşamısı burda neştər çıxardan Qudalı ağsaqqalı, Qıllısı, Piylisi və it xılı məhləsinin gur dəstəsi ilə hara rədd oldu? Səməd bunların heç birini bilmədi. Sədr Mədədin Bircə balası ilə Qonaqlı camaatının yeddi il səkkiz ay ayrılığından sonra birdənbirə elə görüş vulkanı püskürmüşdü ki, bu vulkanın gözündə Sudüşən, Hacehsan çəmənlərinin axşam sərinliyindən, moy, mixək ətrindən, kəpənək, qaranquş qanadlarından, doğma səslərdən və isti nəfəslərdən başqa heç bir zir-zibil yoxdu: Səmədi qolları ilə yox, Sudüşənin, Hacehsanın axşam sərinliyi ilə qucaqlayırdılar; alnından, yanaqlarından dodaqları ilə yox, kəpənək, qaranquş qanadları ilə öpürdülər; öpəndən sonra üzünü kəlağayılarının, qıymaçalarının ucları ilə yox, moy, mixək ətri ilə silirdilər; qucaqlaya-qucaqlaya, öpə-öpə dediklərini də adi səslə yox, ən gözəl mahnıdan da gözəl mahnı ilə deyirdilər:

– Mədədimizin balası, Mədədimiz! Umudumuzu sənə bağlamışıq, ay umudumuz! Dizimizə dirək gətirdin, ay dirəyimiz! – deyirdilər.

– O vuran əlini ver, ürəyimizin üstə qoyaq, ürəyimiz toxtasın, ay ürəyimiz! Lap körpəlikdən haqq-ədalət əlidi sənin əlin, ay ədalətimiz! – deyirdilər.

– Bilirdik ki, sədrimizin qisasını sən özün alacaqsan. Kişiliyi olanlarda da kişilik, namus, qeyrət qoymayıblar, a namusumuz! Ay qeyrətimiz! – deyirdilər.

– Səndən başqa heç kəs öhdəsindən gələmməzdi Xaş nəçənniyin! Dana, buzov qoymayıb kənddə. Həyət-bacamız bərəkət tutar bundan sonra, a bərəkətimiz! – deyirdilər.

– Böyüklü-kiçikli, oğullu-qızlı, hamımız yolunu gözləyirdik. Sən gələn yollara qurban, a Koroğlumuz! Daha heç yana buraxmarıq səni burdan! – deyirdilər.

Və bu mahnının sonu yoxdu...

Arada Səməd Təftişlə Möhsün kişinin səslərini də, atının belində, çiyni qoşalüləli gəlib-gedən Qılıncın səsini də eşitdi; Təftiş kənardan-kənara, qəzəbli-qəzəbli: – Ay camaat! Bəsdi, ay camaat! Buraxın onu görək nə çarə qılırıq başımıza! Xalıqı Qurbanın əlindən alıb Bezobraziye! Qan tökülür! – dedi; Möhsün kişi də açıq narazılıqla: – İşin kökü dərindədi, ay uşaq. Bu xəmir hələ çox su aparacaq! – dedi; Qılınc isə atı birbaş quyunun üstünə, qız-gəlinin arasına sürüb:

– İt xılı qudurub! Ehtiyatlı ol! Sultana zəng vurdum, özü gəlir. Ancaq gözlə özünü! Belə getsə, tutacaqlar səni! – dedi, əmma bunların heç biri mahnının ahəngini pozmadı.

Çadırın bərabərində, Ortayolun sağında, çəpər arxasında Əlləzoğlunun evinin qamış damı bozarırdı. Yol boyunca qara hasar kimi uzanan çəpərin qurtaracağında nə vaxtsa şumlanıb, elə şum qalıb bərkimiş əkin sahəsinin ortasında, şax budaqları mal-heyvanın ağzında getmiş beş-altı qırıq-qırtıq ərik, şaftalı ağacının arasında Lüt Cəfərin yastı damlı çiy kərpic evinin suvağı tökülmüş divarı bozarırdı. Bəriyə – yola baxan tək pəncərə də, aşağıya – Əlləzoğlunun çəpərinə baxan iki pəncərə də, qapı da bağlı idi. Yolun solundan – Xəlvətin həyətindən vuran gur işıqda, o bərkimiş şumla qırıq-qırtıq ağaclar da, qapı-pəncərəsi bağlı evin suvağı tökülmüş divarı da sahibsizlikdən, yoxsulluqdan xəbər verdi. Səmədin Cəfər əmi – Lüt Cəfər barədə eşitdiyi, bildiyi faciədən əlavə, Ayna bacı barədə daha bir "Durnaboğaz elqızı"nın dərdini danışdı. Əmma, bu da mahnının ahəngini dəyişdirmədi, çünki "Mədədimizin balası, Mədədimiz" deyən gözəl mahnının özü də kədərlə dolu idi;

Ortayolun çala-çuxurunda arabaların taqqıltıları, cırıltıları içində aramsız ötənlərin mahnılarını dinlədikcə qəhərini necə udurdusa, Səməd o şuma, ağaclara, divara baxanda da qəhərini eləcə udub, ətrafına boylandı.

– Bəs Ayna bacı hanı? Niyə görmürəm?

– Görəcəksən. Onu da görəcəksən, a Mədədimiz! – dedilər.

– Ölməyib Ayna bacın! İnsanın üzü daşdan qayımdı, – dedilər.

– Məhərin budkasının qabağında obaşdandan gecə yarıyacan vaqonların ayaqlıqlarına baxır. Gözləməsi çoxdu, – dedilər.

– Qardaşı Yusif kənddən üz döndərib, Şənbənin şəhərdəki evinə girib, rayonda. Onu da sizə qatır, səhərdən axşamacan alça sata-sata mələyir orda. Gecə də mələyə-mələyə qayıdır! – dedilər.

– Quru taxtaya dönüb. "Öldür məni, ya rəbbim!" – deyə-deyə yumruğunu sinəsinə çırpanda sinəsi taxta təki taqqıldayır! – dedilər.

Və bu mahnının arasında bir ad çəkdilər: Cəfər əminin sonbeşik qızı Dinarənin – Dinişin adını...

* * *

Cəfər əmi – Lüt Cəfərin qızları bir yaş, yaş yarımda bir-birinin üzlərini görmüşdülər. Yəni çox südəcər doğulmuşdular, hamısı da Ayna bacıya çəkdiyinə görə bir-birindən seçilmirdilər. Üstəlik, böyük qız Dilarədən – Dilişdən başlamış, sonbeşik Dinarəyə – Dinişə qədər, səkkizinin də adı "D" ilə başlayıb, "arə" ilə qurtardığına görə adları da qarışırdı və bütün kənddə cəmisi on-on beş adam bilirdi ki, Dilarə – Diliş hansıdır, Dinarə – Diniş hansıdır.

O on-on beş adamdan birincisi, yəni Cəfər əmi – Lüt Cəfərin qızlarına ən çox bələd olan isə Bircə bala "Dəli Səməd"di.

Bu ərik, şaftalı ağaclarının ağ, çəhrayı çiçəklərlə bəzəndiyi vaxtlarda Cəfər əmi arı pətəklərinin qapağını qaldırıb uzun burnunu sallayıb, "canındakı revmatizmi müalicə eləməkdən ötrü özünü arıya vurdurandan" sonra bir-iki gün həyətdən bayıra çıxmırdı. Haman günlərdə qızların cingiltili gülüşləri gedib "Dəli Səməd"ə də çatırdı və Səməd öz daimi dəstəsi ilə – Yusif kimi gözəl Yusiflə, Qaraçı gözəli və Gülbənizlə birlikdə dərhal o gülüşə gedib görürdü ki, Cəfər əmi qurşaqdan yuxarı çılpaq bədənini döşəkağına bürüyüb, başına da Ayna bacının kəlağayısından, şaldan-zaddan bir şey salıb, duvaqlı gəlinsayağı örtünüb, diva-

rın dibində – günəqarşıda oturub. Qızların səkkizi də ayaqqabını çıxarıb, evin sağ-sol tərəflərindən pişik yerişi ilə gedib, gah kəlağayını, şalı, gah da döşəkağını birdən çəkib aparırdılar. O cingiltili gülüş də bu vaxt qopurdu. Çünki "özünü arıya vurdurandan" sonra Cəfər əminin arıq, nazik sifəti şişib bir ləyən qıcqırmış xəmirə dönürdü, burnu daha da uzanıb batıq dodaqlarının üstündə dururdu, qabırğaları sananan quru taxta bədənində döşləri "məmə"yə çevrilirdi. Qızları ən çox güldürən, əyləndirən isə bu idi ki, kəlağayı, ya da şal üzündən, döşəkağı bədənindən gedəndə uşaqların əyləncəsini oyuna çevirmək, gülüşlərini şaqqıltıya çevirmək üçün Cəfər əmi artistliyə başlayıb "qəzəblənir"di: "Bu saat hamınızı soyundurub, arını canınıza daraşdıracam" – deyib guya, gözləri şişib qapandığına görə kor kimi əllərini qabağa uzadıb, evin dövrəsində fırlanırdı. "Dəli Səməd"lə Yusif və Gülbəniz də bu oyuna qoşulub, böyür-başdan Cəfər əminin "məmələri"ni, sallaq burnunu çəkişdirib, qızlarla birlikdə qaçışmağa başlayırdılar. Bu oyunda uşaqlardan ancaq ikisi iştirak eləmirdi. O ikidən biri Qaraçı gözəli idi; ağacların çiçəklərinin altında, yerə səpələnmiş ağ, çəhrayı ləçəklərin arasında oturub, başını yana əyib tamaşa edirdi. Səməd gedib əl-qolundan çəkişdirəndə "Ayıbdı, Cəfər əmi çılpaqdı" – deyirdi. Oyunda iştirak eləməyənin ikincisi isə Cəfər əminin sonbeşiyi Dinişdi. Əsil oynamalı, gülməli vaxtı olsa da, nə isə çox fağırdı, eyni ilə Qaraçı gözəli kimi, başını yana əyib tamaşa eləməyi daha çox xoşlayırdı.

Qırx-qırx birinci illərdə və hətta "Lüt qabırğalarını qospitalda qoyub qayıdanda" – müharibə vaxtı da Cəfər əminin həyətində belə oyunlar olurdu və balaca, fağırca Diniş də elə orada – ağacların atlında Qaraçı gözəli ilə yanaşı oturub, fağırlığında qalırdı.

Müharibədən sonra, qırx altıncı ilin yayında "Torksin" mağazası açılmışdı. O vaxt kənddə dükanda işləyən Qudalı Qayıma, sonrakı ofisiant Qayıma, indiki "Qudalı kassiri" Piyli Qayıma da "Torksin malı" – ipək vermişdilər ki, müharibədən "trafeya qızılı" gətirənlərə satsın. Əmma bədbəxtlikdən, Qonaqlıdan gedənlərin çoxu "qırılan diviziya" deyilən diviziya ilə birlikdə qırılmışdı. Qayımın "torksin malı" satdığı günlərdə cəmi iki əsgər gəlmişdi. Biri o vaxtkı Komsomol Məleykənin, indiki raykom katibi Məleykə Muradovanın qardaşı idi – o vaxtkı Əkə Murad, indiki "xüsusi qrup üzvü" Murad Muradovdu, ikincisi indiki Dam direktor Ələsgər müəllimdi ki, onların da "trafeya"sı-filanı yoxdu. Bütün kənddə ikicə adam – Xəlvət Rəhim, bir də Qayım özü hardansa

“trafeya qızılı” tapıb, Qudalı məhləsində gəlinləri, qızları qırmızı-yaşıl ipəyə bürümüşdülər. Bu vaxt “Dəli Səməd”in on altı yaşı vardı, “əzələlərini daşlaşdırdığı” çağların dalaş-davalı qayğıları Cəfər əminin qızlarının oyunlarını unutdurmuşdu. Qızlar özləri də, Ayna bacı kimi xırda sümüklü olduqlarına baxmayaraq, nisbətən böyümüşdülər və Cəfər əminin haman “qırılan diviziya”da qırılanların evlərindən yığıb evinə doldurduğu yetimlərə qulluq elədiklərinə görə susqunlaşmışdılar. Sonbeşik Diniş isə, məktəbə ayaq basdığı gündən birdən-birə üz açıb, dalaşqan və qara-qışqırıqçı olmuşdu. Məktəbdə hamısı qabaq partalarda oturan Qudalı qızları ilə saçyolmasına çıxırdı, Ayna bacının “cana-qana gətirməkdən ötrü gah yağ yaxması, gah da qoqlu-moqlu” yedirtdiyi yetimlərlə cırmaqlaşırdı ki, “Mən də torksin donu istəyirəm!” Məktəbə və ya idarəyə gedəndə, məktəbdən və ya idarədən qayıdanda “Dəli Səməd” Cəfər əminin evindən həmişə Dinişin çığırtısını, boğazını yırta-yırta hönkürdüyünü eşidirdi.

Günlərin birində Dinişin əməlli-başlı göynəyə-göynəyə hönkürdüyünü eşidəndə evə cumdu, anasının “saxlancın”dan bir ovuc qızıl-“axça” götürüb, aparıb dükanda “daxıl”ın üstünə atdı, əvəzində bir top ipək alıb, qoltuğuna vurub aparıb Ayna bacının “Sinğer” tikiş maşınının yanına atdı. “Tik! Birinci Dinişə, torksin donu!” Heç iki gün keçmədi ki, bütün qızların bədənlərində torksin ipəyi, yetimlərin əyinlərində isə al-qıpmızı köynəklər parıldadı. Sonra isə “Dəli Səməd”i daha da dəli eləyən bir hadisə başlandı... Məlum oldu ki, “Dəli Diniş” “Dəli Səməd”ə vurulub! Buna görə də yetimlərin “qoqulu-moqululları”nı oğurlayıb aparıb, Kətyənli məhləsində “acından ölən gədələrə”, süddən kəsilən gəlinlərin körpə qızlarına yedirdib, möhkəm-möhkəm tapşırırdı ki, “gedin kəndin ortasında hoppanışın, qışqırışın ki, “Dəli Səməd Dəli Dinişə vurulub, Dəli Diniş də Dəli Səmədə vurulub”. Kətyənli uşaqları “qoqulu-moqulunu guppultuynan udub”, gedib Ortayolda “...vurulublar”-filan qışqırışanda isə Ayna bacıya dərhal məlum oldu ki, “hamısı Dinişin işidi”, Ayna bacı qızının donunun dalını qaldırıb “yumşaq yerini” qıpqırmızı eləyənə qədər şappıldadırdı.

O vaxt Cəfər əmi idarə heyətinin qərarını çıxarıb, “qırılan diviziyada qırılanların” uşaqları, yəni evində saxladığı yetimlərə “Fond hesabına” on bir çiy kərpic ev tikdirmişdi, qarğıdalı, taxıl, noxud, maş və sair belə-belə şeylər əkib “yetimləri dirçəltməkdən ötrü” əlavə əkin sahələri paylamışdı. Yetimlər isə, qəribə idi ki, elə bil Cəfər əminin

yaxşılığının əvəzində hər il "qara-quru qızlar"dan bir-ikisini "götürüb qaçıb" o evlərə – yetimlər məhləsinə aparırdılar, heyətə ərizə yazıb öz yeni ailələri üçün "bir baş sağmal inək", "beş-üç qoyun" alıb, "kişiləşib" "adam olurdular". İndi isə... Səməd diksinib, ayaq saxlayıb, təəccüblə soruşdu ki:

– Yetimlər məhləsi niyə boş kimidi?!

– Hə... Boşalıb... yoxdular, ay Mədədimiz, – dedilər.

Niyə? Demə, Qudalı gombulları "rayonu materialnan doldurubmuşlar; yazıbmışlar ki, "bu var-dövlətin hamısı kolxozun hesabına düzəlib, "Belə qanunsuzluğa dözəmmərik biz!" Gecələr, yetimlərdən kim isə evdə olmayanda içəri soxulub, Lütün qızlarına əl uzadırmışlar". "Vağzal bufetində içib dəmlənib kəndə qayıdanda məhlənin həyət bacasında şalvarlarını aşağı salıb hər yeri batırırmışlar", "gecənin bir aləmində bar-bar bağırırmışlar ki, "o əkin yerləri dədə-babadan Qudalıların olub! Vermiyəcəyik sizə!" Və doğrudan da suvarma vaxtlarında arxın suyunu Qudalı məhləsinə ötürüb, yetimlərin qarğıdalılarını, taxıllarını yandırırmışlar.

– Köçdülər bədbəxt yetimlər, ay Səməd! Getdilər! Yurdları boş qaldı. Əkinləri Rəhim kişi öz "çoxuşaqlı Qudalılar"ına paylatdırdı. Xaraba qalıb yetimlər məhləsi!

Səməd hiss etdi ki, bu "xarabalıq"da köhnə düşmənliklə bağlıdır; yadında idi ki, Xəlvət Rəhim idarəyə heç vaxt qalmaqalsız getməzdi. Hələ Ortayolda ikən bar-bağırardı ki, "öz kürəkənlərinə yedirdirsən kolxozu. Bəs bizimkilərin aclığı-susuzluğu yoxdumu, ay Lüt milyoner köpəyoğlu!" – Kabinetə girən kimi hər dəfə bir şagird vərəqini Cəfər əminin stolunun üstünə şappıldadıb: "Qol çək bura! Qalanını özüm yazacam. Pendir lazımdı! Yağ lazımdı!.." – O qədər bağırardı ki, yazıq Cəfər əmi köksünü ötürə-ötürə ağ kağıza qol çəkərdi, mızıldanıb: "Al! İtaparan olsun!" – deyərdi.

Səməd boş məhlədən gözünü çəkib Dinişə baxdı. Yadında idi ki, "qara-quru" qızların, yetimlərin sayı lap azalandan sonra da Dinişin çığır-bağırı kəsilmədi. Bütün kənd kimi, nəhayət, "Dəli Səməd" də laqeyd qala bilməyib, gedib Ayna bacını eşiyə çağırdı: "Bu nə biabırçılıqdı, ay bacı! – dedi. Bir o qalıb kəndə car çəksin Dəli Səməd alır məni!.." Bununla da, Dinişin səsi batdı, əvəzində, hər dəfə Səmədlə rastlaşdıqca, səssiz-səmirsiz tökülən göz yaşları seli başlandı...

Yolda kim isə gülə-gülə bu əhvalata əlavə elədi:

– Sən gedəli gözünün yaşı qurumurdu! – dedi.

– Dirildi!

– Gəlişin Torksini də güldürdü, diriltdi, a xoşqədəm! – dedilər.

Əmma “Diniş” adı ilə “torksin” kəlməsi ayrıca mahnı oxuyub, “qırılan diviziyada qırılanlar” adlanan köhnə yara yerində “Cəfər əmi – Lüt Cəfər” adlanan təzə yaranı da ağrıtdı. Məhz buna görə də Səmədin qolları öz-özünə qalxıb Dinişə – Torksinə doğru uzanıb, Torksinlə birlikdə Cəfər əmini də, on bir yetimi də, Ayna bacını və qızlarını da qucaqlamaq istədi.

Səmədin xəbəri yoxdu ki, bayaq quyunun dikdirində Süduşənin, Hacehsanın axşam sərinliyi boynuna sarılanda, o sərinliyi gətirən qollar arasında Dinişin qolları da vardı, bir yox, bəlkə beş dəfə sarılmışdı; o kəpənək, qaranquş qanadları alnından, o üzündən-bu üzündən öpəndə, o qanadları gətirən dodaqlar arasında Dinişin dodaqları da vardı, bir yox, bəlkə beş dəfə, on dəfə öpmüşdü. Əmma orda Səməd qırılan əsgərlərin vaxtsız qocalmış arvadları ilə onların qızlarını, gəlinlərini görmüşdü, daha doğrusu, hamını eyni gözlə görmüşdü.

Mahnının davamı yetimlərin taleyindən söz açıb Səmədin qollarını yanına saldı və Torksin tay-tuşlarının arasından çıxıb böyrünə qısılanda Səməd onun pioner qalstuku kimi ensiz, qara qıymaçasının arxasında sığalsız, pırtlaşıq saçını, qara qoftasının altında tamam ətsiz, quru-taqqanaq çiynini sığallaya-sığallaya dayanıb hərəkətsiz qaldı.

Səhər alatoranda Əmirli mülkünün alov sütunu göyə dirənəndə, o sütunun işığında Səməd Ortayolla üzüaşağı tökülən camaatdan başqa, bu yanda – yolun sağında bir cərgə təzə ev görmüşdü, əmma at belində qoşalüləsini guruldadan Qurban əmi ilə camaata necə laqeyd baxmışdısa, təzə evlərin cərgəsinə də eləcə laqeyd baxıb, dərhal da unutmuşdu. İndi isə... məlum oldu ki, “Yetimlər məhləsi!” “Xaraba!” Səbəb isə budur ki, “İt nəfəsi dəyib bu məhləyə. Qudalı xılının nəfəsi dəyib. Elə murdarlayıblar ki, yetimlərin qayıdıb bu bağlı qapıları açmağına daha heç kəsin umudu yoxdu”.

Səməd heç nə başa düşmürdü. Ətrafında isə birdən-birə sükut başlanmışdı.

İrəlidə – otuz-qırx addımlıqda Təftiş qapan-tərəzinin üstündə qalxıb, anbarın direyinə “yel fanarı” asdı. İkinci “yel fanarı”nı Möhsün kişi aparıb, Məmməd Xələf Zalın maşınının kabinəsinin açıq qapısından asdı. Fanarlar anbarın qabağındakı meydanda arabaların dayandığı yerdən kənara işıq salmasa da, Səməd böyrünə qısılıb üzünə baxan Torksinin

gözlərinin dövrəsini yaşla dolu gördü. Torksin ağır-ağır başını bulayırdı, ağır-ağır inildəyirdi.

– Qurbanın olum, məhlə barədə soruşma daha. Ayıblı eləyiblər bizi, qurbanın olum. Ayıblı eləyiblər! – deyirdi.

Səməd çox təkid elədi. Qudalıların o məhlədə "açdıqları oyunlar" barədə daha heç kəs danışmadı. Gecdən-gec kim isə bir neçə kəlmə: – Lütün tutulmağının səbəbi elə o məhlədi, – dedi. Və bununla da yeni-yeni heyrətli sirrlər açıldı...

* * *

O ili – on yeddi sədr bircə gecədə maşınlara basılıb rayon mərkəzinə aparılanda camaatda tökülüb gedib. Günortaya qədər raykomda Sultanla generalın arasında "qılınc-qırğın" olub. Sonra qırmızı tuf daş binanın həyətinin çökəyindən o yandakı yarım metrlik daş hasarın üstündən Persin səsi gəlib: "Bir ton kağız yığıblar, qovluqlara doldurub, veteranların qoltuqlarına veriblər ki, təmiz adamlardı bu sədrlər. O bir ton kağızın müqabilində bircə sənəd oxuyacam mən sizə..."

Əlində miləmil dəftər vərəqi varmış. Vərəqin iki üzü də yazılı imiş.

Lüt Cəfəri çağırıb, vərəqin ayağındakı imzanı göstərib, soruşub ki, "Bu qol sənindimi?"

Lüt Cəfər baxıb, deyib: "Mənimdi".

Pers yenə soruşub ki, "Saxta deyil?"

Lüt Cəfər deyib: "Yox, saxta deyil". Qonaqlı kənd sakini gətirərdi mənə belə dəftər vərəqlərini elə-belə, yazı-pozusuz, altdan qol çəkərdim ki, anbardar yağ, pendir versin!

Pers vərəqi ətrafındakı adamlara da, camaata da göstərib, deyib: "Bu gördüyünüz sənəd Sultan Əmirliynən Qılınc Qurbanın müqəddəs adam kimi qələmə verdikləri kolxoz sədri Cəfərin ilkin istintaqda ifadəsidi!"

Yazıq Lütün ağzı açıq qalıb.

Qılınc qışqırıb ki, "Nə istintaq?! Nə ifadə?! Cəfəri kim dindirib, ə, general qırışmal?! Nəyə görə dindiriblər, havaxt dindiriblər?!" Şığıyıb o "sənədi" Persin əlindən almaq istəyib, Pers Bakıdan özü ilə gətirdiyi "çarvadarlar"ına baxıb, "çarvadarlar" Qılıncı araya alıb, gizlincə qolunu burublar, "Hövsələn olsun. Ağzını da dağıtma. Bircə o "qırışmal" kəlməsinə görə itirib-batırarıq, izin-tozun da qalmaz!" – deyiblər. Sonra da

asta-asta itələyib raykomun dəhlizinə salıblar. “Özünü aparammırsan!” – deyiblər.

Pers işində imiş.

“Cəfər Qaryağdı oğlunun bu ifadəsi Sultan Əmirliynən Qılınc Qurbanın dövlət əmlakını mənimsəyənlərə və əxlaq pozğunlarına himayədarlığını açıb hər ikisini ifşa elədiyinə görə, hər ikisi Cəfər Qaryağdı oğluna təzyiq göstərir, o da öz əliynən yazıb, öz əliynən imzaladığı ifadəsini dəyişdirmək istəyir. Əmma bu sənəd qüvvədədi. Oxuyuram, cəmaət, eşidin!”

Oxuyub, cəmaat da eşidib:

“Mən, Cəfər Qaryağdı oğlu, bunnan yazıb boynuma alıram və etiraf eləyirəm ki, şəxsi dostlarım və sirdaşlarım Sultan Əmirliynən Qılınc Qurbanın himayədarlığı nəticəsində ömrümün çoxunu əxlaq pozğunluğu və cinayətkarlıqnan keçirmişəm.

Birincisi, etiraf eləyirəm ki, rayonda əxlaqsız qadın kimi məşhur olan Qarmonçu Şənbəynən uzun müddət açıq yaşamışam və bunnan ailəmə pis təsir göstərib, arvadımın, sonra da qızlarımın əxlaqının pozulmağına səbəb olmuşam.

İkincisi, etiraf eləyirəm ki, müharibədən sonra Qonaqlı kəndində sahibsiz qalan evlərdən həddi-buluğa çatmamış on bir nəfər yetimi evimə gətirib, sovet sədri Qılınc Qurbanın vasitəsiynən hər biri iyirmi beş sotdan ibarət on bir həyətyanı sahədə taxıl, qarğıdalı, maş, lobya əkdirmişəm, həmin həddi-buluğa çatmamış uşaqları işlədib, istismar eləyib, külli miqdarda gəlir götürmüşəm. Uşaqlar böyüyüb xeyir və şərlərini bilib, nökər saxlandıqlarını başa düşəndən sonra isə, əvvəlcə böyük qızım Dilişi böyük nökərim Əsədin yatağına salıb, bu yolnan Əsədi susdurmuşam. Sonra da başqa qızlarımın namuslarını satmaq yoluynan nökərlərimin hamısını susdurmuşam.

Üçüncüsü, etiraf eləyirəm ki, şəxsi dostlarım Sultan Əmirliynən Qılınc Qurbanın himayədarlığı nəticəsində, əllinci ildə Təftiş Abbası kolxoz sədrliyindən çıxartdırıb, Qonaqlıda sədr olandan sonra kolxozun “bölünməz fondu”nun hesabına, nökərlərimin on ikisinə də ev tikdirmişəm, hərəsinə bir baş buzovlu inək (cəmi on iki inək, on iki buzov), hərəsinə beş baş qoyun (cəmi altmış qoyun), hərəsinə bir at (cəmi on iki at) vermişəm, beləliknən, təsərrüfatım da daxil olmaqnan on üç təsərrüfatdan, bir naxır iribuynuzlu mal-qaradan, bir sürü qoyundan və bir ilxıdan ibarət fərdi təsərrüfat sahibi olmuşam. Bunlardan

əlavə, yenə də haman vəzifəli dostlarımın himayədarlığı nəticəsində, Qonaqlı, Tahirli və Qurbanlı kolxozlarının ilxılarını birləşdirib, Xırrançay deyilən yerdə atçılıq zavodu təşkil eləmişəm, məhləmdəki əxlaqsızlıq mənnən qonşu olan Qudalı camaatını qəzəbləndirdiyinə görə, o camaatın qəzəbindən qorxub nökərlərimin hamısını haman atçılıq zavoduna göndərmişəm. Boynuma alıram və etiraf eləyirəm ki, nökərlərimi kənddən uzaqlaşdırandan sonra qızlarımnan nökərlərimin əlaqəsindən daha səmərəli istifadə eləyib, çox baha qiymətə gedən "Xarle" cinsli atları əhaliyə satmağa başlamışam, əldə olunan məbləğlərin cüzi qismlərini "hökumət qiyməti" adıynan Qonaqlı, Tahirli və Qurbanlı kolxozlarının hesabına keçirib, qalanını mənimsəmişəm. Bundan əlavə, Sultan Əmirliynən, Qılınc Qurbannan bir kompaniyada olan adamlara üçyaşar ürgələr, Cəbrayıl Cəbrayıllıya da bir üçyaşar ürgə bağışlamışam ki, mənim sədr vəzifəsində zərərli fəaliyyətim, şəxsi pozğunluğum və ailəvi əxlaqsızlığım haqqında danışan adamların susdurulmağında Cəbrayıl Cəbrayıllı da iştirak eləsin..."

Camaat elə sarsılıbmış ki, cınqırını çıxaran da yoxmuş.

Bədbəxt Lütü əsməcə tutubmuş. Əsə-əsə onun-bunun üzünə boylanırmış. "Bu nədi, ay camaat?!" – deyirmiş. "Biz hardayıq, hansı ölkədəyik?!" – deyirmiş.

Pers bu sözlərin ucadan deyilməsinə imkan verməyib: hasarın üstündən işarə eləyib, Gülənovun milisionerləri şığıyıb Lütü süpürləyiblər, on yeddi sədrin on yeddisini də dəstələyib, raykomun dal həyətindən o yana – dəmir yoluna çıxarıblar, kəmərlərini açıb, vaqona doldurublar.

Səmədin Cəfər əmisi – Lüt Cəfər belə gedib. Yetimlərlə bacılar isə yoxa çıxıblar. Sonradan məktub yazıb bildiriblər ki, Mingəçevirdədirlər, su-elektrik stansiyasının tikintisində işləyirlər və kəndə qayıtmaq fikirləri yoxdur. O vaxtdan bu on bir evin on birinin də qapısı bağlı qalıb. Qonaqlılar, Kərpickəsənlər, Kətyənlilər bu məhləyə yenə də elə "Yetimlər məhləsi" deyirlər, Qudalılar isə – "Xaraba!" Əmbə bir söz də var ki, o sözü Qudalı atamanı Qıllı Qeybalı ilə Qudalı cavanları, bir də ayaqyolu əvəzinə bu evlərin həyətinə gedən "üfunətli uşaqlar" çox tez-tez təkrar eləyirlər: "Qəhbəxana! Qəhbəxana!" – deyirlər. Ayna bacı da çoxu elə bu sözə görə lap o başdan – qaranlıqlı, səbətlərini

---

[30] *"Svodka"* – məlumat.

[31] Rusca *"udarnik"* sözündən hərfi tərcümə. Zərbəçilik hərəkatı otuzuncu illərdə istismar vasitəsi kimi çox yayılıb, əllinci illərin əvvəlinə qədər qalmışdı.

götürüb kənddən çıxır, meşədən alça-malça yığıb, Məhərin budkasının qabağına gedir, vaqonların ayaqlıqlarına baxa-baxa mələyir: “Gəl, ay Səmədim, ay Mədədim, ay umudum! – deyir. “Gəl ki, Yusifim də gəlsin! Ceyran balalarım da, yetim balalarım da gəlsinlər!” – deyir. Bir də qaranlıq qarışıb əl-ayaq yığışanda qayıdır ki, nə Qudalıların üzlərini görsün, nə də bu “Xaraba” məhlənin həyət-bacalarını. Lapatka götürüb, ağızburnunu sarmalayıb, həyətləri bir-iki dəfə təmizləyib. Dalkı günü baxıb ki, üfunətlilər qapıları, pəncərələri də batırıblar. Ondan sonra daha yaxın gedəmmir evlərə. “İçərim çaxnaşır”, – deyir. “Sudan savayı dilimin arasından heç nə keçmir”, – deyir. Qısası budur ki, Səmədin gördüyü Ayna bacı yoxdur. Qaraltısı qalıb. Torksin isə, qara geyinib yas bağladığı gündən lal-kar olubmuş, indi birinci dəfədir dil açıb; ana-bala, damın altında nə çəkirlər, necə dolanırlar – Torksin özü danışsın.

Əmma nə Torksin daha o “ayıblı olmuşuq” sözlərindən başqa bir söz dedi, nə də Səməd daha bir şey soruşdu. Yeddi il səkkiz ay bundan əvvəl, qapağının hər küncündə bir mismar işıldayan tabutun yanında Bircə bala boz kitelə necə sığınmışdısa, indi Torksin də qurumuş qandan bərkimiş köynəyin döşünə eləcə qısılmışdı; ata hənirli əminin hənirindən Bircə balanın qanına-canına necə məhəbbət hopmuşdusa, sədr Mədəd, Lüt Cəfər hənirli Səməd Əmirlinin hənirindən Torksinin qanına-canına da elə məhəbbət hopurdu; “avariya günü” deyilən günün uzaqlığında qalmış Bircə bala ilə atalı ikən atasız qalmış bu arıq-sısqa qızın arasında heç bir fərq yoxdu; “avariya” günü hamıdan, hər şeydən ayrılıb “qara həyula”dan başqa heç kəsi görməyən o dünyadan xəbərsizlə “torksin donunu” – qırmızı paltarı sandığa atıb, “Dəli Səməd gedəli” yas saxlaya-saxlaya heç kəslə kəlmə kəsməyən “lal-kar”ın arasında da heç bir fərq yoxdu.

Səməd Torksini qucaqladı, elə bil bacısını sinəsinə sıxdı. “Avariya” günü dünyadan ayrılanda bu bacısından da ayrılıbmış. Dünyadan xəbərsiz olduğu kimi, bacısının əzablarından da xəbərsizmiş. Bu əzablarla öz əzablarının eyniliyindən də xəbərsizmiş. Bilmirmiş ki, sədr Mədədin “avariya”ya düşməyi nə imişsə, Lüt Cəfərin üzünə “sənəd” oxunmağı da eləcə bir şeymiş; Əlləzoğlunun Əmirli mülkünü yandırmağı nə imişsə, Qudalı atamanı Qıllı Qeybalı ilə Qudalı cavanlarının və üfunətli uşaqların Yetimlər məhləsinə “qəhbəxana” deməyi də eləcə bir şeymiş; “əmisinin arvadının oynaşı” damğası nə imişsə, “ailəvi əxlaqsızlıq” damğası da eləcə bir şeymiş. Odur ki, Səmədlə təzə tapdığı bacısının

əzabları da eyni idi. Əmma Səməd bundan sarsılmadı. Əksinə, Torksinin quru sinəsinin çırpıntısını öz sinəsində duyar-duymaz dərhal başa düşdü ki, qurğulardan, böhtanlardan, təhqirlərdən, sui-qəsdlərdən, tutqulardan nə qədər böyük bədbəxtlik törəmişdisə, bədbəxtliyin əzablarından bir o qədər böyük xoşbəxtlik törəmişdi: qəlbində gəzdirdiyi gözəl insanlar arasında Torksin adlı daha bir uca və gözəl insan vardı. Danışırdılar ki, "sandığa qoyduğu qoftasıdı: Səmədin "təpik altında qaldığını" gördüyü günün axşamısı Ortayolun ortasında "lütlənib", qəlyanlılardan hansınınsa əlindən "spiçkəni" dartıb alıb, qırmızı donunu yandırmışdı.

O axşam Qəlyanlıları dərd götürübmüş: "Lütlənməyin nədi, ay Lüt qızı?!" Bu doğrudan da dəliymiş ki!.." Qara geyinib, yollara boylana-boylana qalmışdı. Ucadan da uca idi! Gözəldən də gözəl idi!

– Bacımsan!.. Yeddi il səkkiz ay sonra bu axşam mən ikinci dəfə dünyaya gəldim. Məndən ötrü sən də bu axşam dünyaya gəldin. Unut hər şeyi! Böhtanları da, damğaları da unut! Bacıların, qardaşların qayıdacaqlar. Bircə şeyi unutma: Mən sənin doğma qardaşınam! Xoşbəxt eləyəcəm səni!

* * *

Yeddi il səkkiz ay ayrılıqdan sonra Qonaqlıya belə qayıtdı. "İt xılı"ndan başqa burda yenə də hamının istəklisi olduğunu, öz adı ilə yanaşı "Mədəd" adını da üstünə götürüb, daha çox sevildiyini bütün aydınlığı ilə gördü və güman elədi ki, bayaq quyunun üstündə duyduğu dönüş – "ciddi hadisə" də elə budur. Əmma bu "ciddi hadisə"nin ardınca, bir gecənin içində elə qeyri-adi hadisələr baş verdi ki, səhərisi yenə əmisilə görüş zərurəti yarananda Səməd bu bircə gecədə olub-keçənlərin təəssüratını yığıb-yığışdıra bilmirdi.

## 9

Birinci qeyri-adi hadisə anbarın qabağında, Təftişlə Möhsün kişinin asdıqları "yel fanarları"nın işığında baş verdi.

Nə qədər ki, şəhər onilliyinin və dəmir yol məktəbinin yorğun-arğın müəllimləri ilə pərakəndə orduya bənzəyən şagirdlər Ortayolda susqun axınla ağır-ağır gəlib meydanın dövrəsində, təpəcik üstündə "dustaq

damı" adlanan daxma ilə idarə səmtində dikdirlərə döşənişməmişdilər, burda – anbarın qabağında Səmədin lap körpəlikdən – otuz dördüncü-otuz beşinci illərdən bəri, avqustun axırından noyabrın ortalarına qədər hər gün gördüyü adi iş gedirdi: qapan-tərəzidə pambıq çəkilirdi.

Birinci briqadanın briqadiri Təftiş öz daimi yerində – qapan-tərəzinin dalında dayanmışdı. İkinci briqadanın briqadiri Möhsün kişi tərəzinin yanında gödəkçəsini büküb-bürmələyib, birbaş yerə – toz-torpağın içinə qoyub, üstündə oturmuşdu. Üçüncü briqadanın briqadiri Qeybalı da tərəzinin o biri tərəfində kepkasının dalını qaldırıb, partlayıb şişmiş dodaqlarının üstünə kölgə salıb, hətta tor köynəyin altında qaralan keçə qarnını da bir növ yığışdırıb, çöməlib, Qudalı atamanının həmişəki harınlığı ilə tutuşmayan işgüzar görkəmə düşmüşdü. Otuzuncu-qırxıncı illərin "uçotçik"i Çürük Aşıq da öz yerində – dirək dibində, qara "ambulatoriya stolu"nun dalında, saqqız kötüyünün üstündə oturub, yoğun cızıqlı – qrafalı "uçot dəftəri"ni açmışdı, nəvələrinin hansınınsa büzməli torba içində mürəkkəbqabını dəftərin bir böyrünə, qəlyanını o biri böyrünə qoyub, müharibədən sonra kəndlərdə cında – "utilsıryo" yığanlardan aldıqları tərifli "cında pero"lu qələmi əlində hazır tutmuşdu. Məmməd Xələf Zal "qruzovik"inə qalaqlanmış çuvalların, xaşaların, kisələrin üstünə dırmanıb, pambıqla dolu çuvalları, xaşa və kisələri üzüaşağı yuvarladıb tarappatarap tökdükcə, vaxtilə çəpərlərin, ot tayalarının diblərində oynaşan "burnu fırtıqlılar" – indiki məktəb uşaqları ikibir-üçbir köməkləşib, qırx-əlli, altmış-yetmiş kiloluq çuvalları, xaşaları, kisələri qapan-tərəzinin yanına sürüyürdülər, qırılan diviziyada qırılanların arvadlarından üçü – Təftişin manqabaşıları növbəti çuvalı, xaşanı və ya kisəni tərəziyə qaldıranda, Təftiş çəki daşlarını taqqıldada-taqqıldada əlüstü çəkib, pambığın çəkisi ilə o pambığı yığan uşaqların analarının adlarını deyirdi, Çürük də dəftərində adı, familiyanı tapıb, Təftişdən eşitdiyi rəqəmi yazırdı. Kolxozun təşkil olunduğu və ilk dəfə pambıq əkildiyi vaxtlardan qoyulmuş qayda üzrə, əgər bu gün birinci briqadanın pambığı qabaqca çəkilirdisə, sabah ikinci briqadanınkı, birisi gün də üçüncününkü qabaqca çəkilirdi ki, camaatın bir qismi bu gün, ikinci qismi sabah, üçüncü qismi birisi gün tez dağılışıb, öz qapı-bacasında qurtdalanmağa imkan tapsın. Yenə də həmin vaxtlardan qoyulmuş qayda üzrə, təftiş komisyonunun üzvlərindən savayı, bir kəsin ixtiyarı yoxdu ki, çəki başlanandan sonra bu işə qarışsın və ya aralığa iş salsın. Çünki, əvvəla, bu iş özü çox uzun sürürdü; ilk çuvalın, xaşanın və ya

kisənin tərəziyə qoyulmağı ilə axırıncının tərəziyə qoyulmağının arasında iki-üç saat keçirdi, dan yeri söküləndə evdən çıxıb, bir də hava qaralanda çöldən qayıdan arvad-uşaq, üstəlik də burda növbə gözləyib əldən-ayaqdan düşürdü, gecənin yarısında qıçları bükülə-bükülə, gözləri yumula-yumula qapıdan girəndə çox vaxt bir tikə qismət də almayıb, paltar-palazlı döşənişirdilər ki, briqadirlərin, manqabaşıların hay-harayları kəndi götürməmiş, danlaq, töhmət eşidilməmiş sürünüb qalxa bilsinlər; "Yığım kompaniyası" deyilən iki-üç aylıq ağır "kompaniya"nın özü tələb edirdi ki, burda – anbarın qabağında çəki başlananda bu işə heç kəs mane olmasın. Bir də nəzərə almaq lazımdı ki, təftiş komisyonunun üzvləri – Təftiş Abbasın özü, Qılınc Qurban, Çürük, Abı və Ələsgər müəllim çəkidən sonra da burda oturub, "uçot dəftəri"ni yoxlayıb, imzalayıb, mühasibliyə verməli idilər, mühasiblikdə isə hesabdar Mürsəllə hesabdarları elə o gecə, dəftərdən "çıxarış" yazıb, idarə heyətinə gündəlik "svodka"[30] verməli idilər ki, idarə heyəti də öz növbəsində pambıq üzrə dövlət planı ödənişinin faiz artımı haqqında raykoma "svodka" göndərsin, həm də üç briqadada manqalardan və ayrı-ayrı kolxozçulardan kimin irəli getdiyini, kimin geri qaldığını aydınlaşdırıb, sabahısı kiminlə necə danışmağı dəqiq bilsin... Sədr Mədədin vaxtında idarənin dəhlizində bir "dasqa" – yazı taxtası vardı, yarısı qırmızı rəngdə, yarısı qara rəngdə idi. Yığımda irəli gedənlərin – "zərbəçilər"in[31] adlarını, familiyalarını "qırmızı dasqa"ya yazırdılar, geri qalanların – "tənbəllər"in adlarını familiyalarını "qara dasqa"ya yazırdılar. Bundan başqa, indiki raykom katibi Məleykə Muradova, o vaxtı komsomol Məleykə "Karl Marks adına Qonaqlı kolxozunun güzgüsü" adında divar qəzeti yazıb, həmin "dasqa" ilə yanaşı mıxlayırdı. O divar qəzetində, başlığın altında şüar vardı: "Pambıq yığımını müvəffəqiyyətlə başa çatdıraq!" Şüardan solda, aşağı küncdə qara karandaşla çəkilmiş yekə bir tısbağa vardı. Şüardan sağda, yuxarıda isə qırmızı karandaşla çəkilmiş dörd matorlu təyyarə vardı. Komsomol Məleykə yığımın axırında bir siyaha tutub, o siyahıya düşənləri "tısbağaya mindirirdi", bir siyaha da tutub, "zərbəçiləri təyyarəyə mindirirdi". "Tısbağaya minmək" o deməkdi ki, yığım müddətində işləmək əvəzinə sürünmüsən, əməkgünün birə-iki, birə-üç azalıb, aylıq pul, yarımillik taxıl, ətlik heyvan, yağ, pendir, qarpız, yemiş, pomidor, badımcan bölgülərində birə-iki, birə-üç az alacaqsan; "təyyarəyə minmək" isə o demək idi ki, gündə yüz əlli, iki yüz kilo pambıq yığmısan, hər gününə iki, üç əməkgünü

yazılıb, aylıq və yarımillik bölgülərdə pulun da iki-üç dəfə artıb, taxılın, ətlik heyvanın, yağın, pendirin də, qarpızın, yemişin, pamidorun, badımcanın da. Üstəlik, əgər camaat içində, ailədə rəftarın, şəxsiyyətin, ləyaqətin də işlədiyin kimidirsə, aylıq və yarımillik mükafatların da var, bəlkə, doğrudan da, təyyarəyə minib Moskvaya "Vıstavka"ya, yəni kənd təsərrüfat sərgisinə, mavzoleyə, Kremlə getməyin də var. Sədr Mədədin vaxtında bu qanunlar çox möhkəmdi: işləməyən dişləmirdi, işləyənlər dünya malından batıb-barınırdılar, üstəlik 28 Aprel, 1 May, Oktyabr bayramlarında və adi günlərdə sədr Mədədin, Lüt Cəfərin, Qılınc Qurbanın, nəhayət, Sultan Əmirlinin özünün təriflərindən sevinirdilər, rayonun "Kommuna" qəzetində, bəzən, hətta mərkəzi "Kommunist", "Bakinski raboçi" qəzetlərində çıxan şəkilləri ilə şöhrətlənirdilər və beləliklə, camaat içində də, ailədə də alnıaçıq, üzüağ gəzirdilər. Yəni "zəhmətkeş insan", "təmiz adam" adlananlar öz qiymətlərini lazımınca və artıqlaması ilə alırdılar. Bunun hamısı isə, qapan-tərəzinin dalında Təftiş Abbasın dilindən eşidilən və Çürük Aşığın əli ilə "uçot dəftəri"nə yazılan rəqəmlərdən asılı idi. Odur ki, Təftiş tərəzinin düzlüyünü yoxlayıb, "Düzdü. Gətirin" deyəndən sonra birinci çuvalın, xaşanın və ya kisənin qapana qaldırılmağından, axırıncıların qapandan düşürülməyinə qədər burda – anbarın qabağında ciddi işgüzarlıq və sükut hökm sürürdü.

Səməd lap körpəlikdən belə görmüşdü, qayda-qanunu belə bilirdi və belə də olmadı idi. Əgər təhkimçinin və ya bir başqasının camaata sözü vardısa, çəki qurtarana, ya da sabaha – briqadalarda nahar vaxtına saxlamalı idi. Ayna bacının "lapatka götürüb, ağız-burnunu sarmalayıb Üfunətlilərin üfunətini kürüdüyü" barədə deyilənləri eşitdiyi anda, əmisinin "kürüyüb atacam" sözləri beynində oyanıb rahatlıq verməsə də, Səməd bu gecə bir şey eləmək fikrində deyildi və heç gümanına da gətirmirdi ki, məhz bu gecə bütün qayğılarını, düşüncələrini, hətta həyatını və taleyini dəyişdirən hadisələr törəməkdə idi.

Birinci hadisə ondan başlandı ki, şəhər onilliyinin və dəmir yol məktəbinin müəllimləri ilə şagirdlər ayaqlarını sürüyə-sürüyə, çamadanlarını, bağlamalarını sallaya-sallaya meydandan keçib dikdirlərə döşənişəndən sonra bir cüt gur işıqlı fara çadırdan xeyli sağda – məktəbin qabağında, bir cüt gur işıqlı fara da Xəlvətin darvazasında parladı; məktəbdən gələn maşında – Sultan Əmirlinin boz "Pobeda"sında üçüncü katib "diapozonlu" Məleykə Muradova ilə maarif müdiri Mirbağır müəllim gəlib düşdülər, Xəlvətin həyətindən gələn dövrəsi göy zehli,

gurultulu-qıjıltılı “Qaz”da isə Gülənovla qudası gəlib düşdülər. Bu vaxt cavanlardan – Məmməd Xələf Zalın yoldaşlarından hansı isə Səmədin əvvəlcə bir qolunu, sonra o biri qolunu tutub, pencəyini geyindirdi, çox təmkinli gər səslə:

– Köynəyin kirlidi, – dedi.

Pencəyi sahədə, tək palıdın altında yerə atıb, elə orda da unutduğunu Səməd indicə xatırlayırdı. Bu gər səsli yeniyetmə eynilə Möhsün kişi kimi alçaraq, tökmərək, yastıburun, enliçənə Kərpickəsənlərdəndi; Möhsün kişinin qırılan diviziyada qırılan qardaşlarından Rüstəmin yeganə yadigarı idi. Bayaq Ortayolda görüşəndə özü tanışlıq vermişdi: “Mən də Zalam da, ay qağa. Rüstəm Zal!” – demişdi. Təftişin oğlu Məmməd Xələf Zaldı, mən – Rüstəm Zal! Məzəlisi budu ki, iki zalın ikisi də pəzəvəngdi, – demişdi. Əmbə mən Sarı Zalam, Abbas əmininki qara Zaldı. Hərdən “kötük Zal” da deyirik ona. Görürsən də, necə kötükdü!” Və Səmədin yadına düşmüşdü ki, qırx beşinci ilin yazında Təftişin böyük oğlunun “qara kağızı” – ölüm xəbəri gələndə və Məmməd Xələf də böyük qardaşının adını üstünə götürüb Məmməd Xələf Zal olmuşdu.

Adları bir olanların fərqləri lap ilk baxışdan görünürdü: Təftişin Zalı doğrudan da, kötük kimi, Möhsününkü isə dolu ağır bədənli, enlisifət, alagöz idi. Saçı çox gur olduğuna görə kepqasını həmişə qatlayıb cibində saxlayırdı. Gur cığaları alnında oyur-oyur oynayırdı.

Bir yaraşığı da indi meydana çıxdı: Səmədin əhvalının xarablığını nəzərə alıb, yaxınlaşmağı lazım bilməyib, pencəyi qoltuğunda gətirirdi; Maşınlardan düşənləri tanıyanda Mələykə Muradova ilə Mirbağır müəllim kimi hörmətli rəhbər işçilərin, Xaş nəçənniklə Xəlvət Rəhim kimi qarı düşmənlərin qabağında çirkli köynəkdə ləyaqətsiz görünməyini istəməyib, tezcə geyindirmişdi. Bu hərəkət sarı Zalın özünün ləyaqətindən və kəndinin istəkli oğluna istəyindən xəbər verirdi. Bayaq “Zalam də, ay qağa, Rüstəm Zal!” – deyəndə Səmədin əziz və doğma adamlar arasında sinəyə sığışmayan hissiyyatına necə əlavə bir hərarət gətirmişdisə, sarı Zalın indiki hərəkəti də eləcə hərarət gətirdi. Əmma Səməd bu ləyaqətli oğlana iki kəlmə “sağ ol” da deyə bilmədi. Çünki qanı yuyulmuş pencəyi əynində və Gülənovun bir cüt neştərini faranın işığında görər-görməz, “Eşq dəlisi olanda nə olar, çalış bir də tökülüb

---

[32] *Tənək* – meynəsayağı növ.

itmə" deyən təntənəli səsi yenidən eşitdi və bu təntənədən soyuq yel əsib, sinəsindəki hərarəti apardı.

Məğlubiyyətdən, daha doğrusu, bircə yumruqla yıxılmağından basılıb, çənəsinin, dodaqlarının şişini kepqanın günlüyünün altında gizlədən Qudalı atamanının əksinə, Xaş nəçənnik fırlanıb göyərmiş çənəsini gur işıq altında, Məleykə Muradovanın qabağında nümayiş etdirirdi. Aydındı ki, Xəlvəti, Çax-çuxu ilə məsləhətləşib, yeni zərbə hazırlamışdı. Odur ki, Səməd bayaq quyunun üstündə necə ehtiyacdan doğan dözümlə dayanmışdısa, burda da eləcə dayandı. Əmma zərbə bu dəfə birbaş Səmədin özünə dəymədi.

"Qudalı kassiri" Piyli Qayım qarnının üstündə qoşa əlli tutduğu, ağzı surquclu pul kisəsi ilə qaranlıqdan peyda olub, Çürüyü kötüyün üstündən itələyib, "ambulatoriya stolu"nun dalında oturanda Səməd nə o Piylinin qoca ilə elə rəftarından bir şey anladı, nə də pambıq çəkilişinin bu vaxtında pul kisəsi gətirməyindən. O iki nəfər məhlə milisionerinin ardınca qaranlıqdan bir dəstə Qudalı cavanı çıxıb, Xəlvətlə birlikdə Təftişin üstünə yeriyəndə Səməd bundan da baş açmadı.

Xəlvət əvvəlcə çox hörmətlə, ağsaqqala və kolxoz sədrinə münasib bəlağətlə başladı:

– Məsləhət belədi ki, şəhərlilərin işini qabağa salaq, Abbas. Möhsünnən sən işçilərinizi dəmir yolundan, şəhərdən, bazardan yığammırsınız. Pambığı düzdə qoyub alverə qurşanıblar. Buna görə xüsusi cəza tədbiri görülüb. Əmbə mənə dəxli yoxdu onun. Mənimki budu ki, şəhərdən gələn köməkçilərimizi hörmətnən yola salım... Əmr eləmirəm mən sənə. Xahiş eləyirəm, qırağa dur, şəhərlilərin pambığını qabaqca çəksinlər...

Təftiş öz işində idi. Qaşlarını çatıb, burun pərələrini gərib, daşları şaqqıldada-şaqqıldada, çuvalları, xaşaları, kisələri bir-birinin ardınca çəkib, adları, rəqəmləri diqtə eləyirdi. Çürük yerdə çöməlib, dizinin üstündə yazırdı.

---

[33] Şimali Azərbaycan "Rusiyanın ucqarı" (tərkib hissəsi) sayılırdı; azərbaycanlıları da Türkiyə ilə müharibə cəbhəsinə göndərirdilər. "Qazax bəyləri" adlanan əcdadlarını, özlərini tanımayanlar Türkiyəyə, Cənubi Azərbaycana soxulub hətta dövlətdən "xərac" tələb edirdilər. Bu cür anlaşılmaz müharibədən qaçanları isə güllələyirdilər ki, "Qaçaqlara qoşulmasınlar". "Padşah"ın (çarın) üzünə ağ olanların ailələri hər cür vasitə ilə güzəranlıqdan məhrum edilirdilər. Buna görə də "Kətyənlilər" məhləsi həm də "Aclar məhləsi" adlanırdı.

Xəlvət çox arxayın danışırdı:

– Bura bax, Abbas... Şəhər uşağı dözümsüz olur. Məktəbi boşaltmışıq, öz evlərimizin xalı-xalçasını, yorğan-döşəyini döşəmişik. İdarə heyətinin qərarıynan yazabuğa kəsmişik. Dörd qulplu qazanda, kəkotuynan-zadnan, bir toyun xörəyini bişirmişik. Yekə toy samovarı qoydurmuşam. Öz qızlarımın cehizliyindən stəkan-nəlbəki düzdürmüşəm. Möhtərəm Muradova yoldaşnan Mirbağır müəllim getdilər baxdılar indicə, ağızları açıq qaldı. Nədən ötrüdü bunun hamısı, Abbas? Ondan ötrüdü ki, şəhər uşağı zillət çəkməsin, naxoşlamasın. Həvəsnən işləsin. Bə sən neynirsən, a yoldaş Təftiş? Hər axşam bu yanıq təpəliklərdə, toz-torpağın içində gözlətsək, həvəs qalarmı o uşaqlarda? Bu əziyyətdən sonra çənələri çörək tutarmı? Elədiyimiz hörmət də hörmətsizliyə dönməzmi? Qaçıb dağılsalar, pambıq çöldə qalsa, Sultan Əmirli yoldaşa nə cavab verərik?! İnad eləmə, Abbas, qırağa dur!

Daşdan səs çıxırdı, Təftişdən yox.

Xəlvət rəhbər işçilərə baxıb, həmin bəlağətlə: – Tərpənmiyəcək bu, – dedi.

– Revkom vaxtı Sultan, sonra da rəhmətlik Mədəd belə ərköyün eləyib bunu. Özü də ki, belə şalban. Yaxın düşmək də olmur. Sən danış bunnan, nəçənnik, – dedi.

Gülənovun neştərləri işıldadı:

– Biz zor işlətmiyəcəyik. Biz qanunnan hərəkət eliyəcəyik... Qılınc Qurban yenə şəkkaklığa başlayıb. Yeddi il səkkiz ay bundan əvvəlki ölüm hadisəsini yuxuda görüb, elə yuxuda da Sayılovdan sanksiya alıb Xalıqı dustaq damına salmışdı. Qapıya da nəhəng bir qıfıl vurmuşdu. Azərbaycan SSR-in cinayət məcəlləsinə əsasən, birincisi, vəzifəsindən və ictimai mövqeyindən sui-istifadə elədiyinə görə, ikincisi, silah işlətdiyinə görə, üçüncüsü, gunahsız vətəndaşı əsassız ittihamla təhqir elədiyinə görə Qılınc Qurbana iş düşür. Biz onun "maniya prisledovaniye" deyilən psixi azarını nəzərə aldıq və RİK-ə məlumat yazmaqla kifayətləndik. İşdən qovulacaq.

Buradakıların hamısı öz gözüynən gördü ki, o quyunun üstündə çamadanını, qızılını, diplomunu qaytaranda Səməd Əmirliyə mən nəyə görə, necə tövsiyə dedim və xəbərdarlıq elədim. Səməd Əmirli Qılınc Qurbanın tərbiyəsindən çıxıb "Maniya prisledovaniye" deyilən azar bunda da var. Bəlkə, hətta Qılınc Qurbandan da şəkkakdı. Mənim xeyirxah tövsiyəmdən nəticə çıxartmaq əvəzinə, dözülməz dərəcədə xuli-

qan hərəkətinə yol verdi. Mənim heysiyyətimin tapdandığına dözməyən yoldaşlardan iki nəfərə də əl qaldırdı. Bu hərəkətinə görə, Azərbaycan SSR-in cinayət məcəlləsinə əsasən, Səməd Əmirliyə də iş düşür. Bu barədə prokurorluğa və raykoma rəsmi məlumatlarımız da yazılıb, mənim bu döş cibimdə hazır durur. Əmbə bir sıra məsələləri nəzərə alaraq, hələlik bunnan kifayətlənib, Səməd Əmirliyə də xəbərdarlıq eləyirəm ki, hərəkətlərinə son qoymasa, o da işdən kənar sayılacaq və dərhal məsuliyyətə alınacaq. Günü bu gün!..

Qaldı Təftiş Abbas... özü təftiş komisyonunun sədri ola-ola briqadasındakı üç manqada əlli beş nəfər kolxozçudan cəmi yeddi adam çıxarıb işə: arvadına gücü çatıb, bir də özünün Qara Zalınnan, Möhsun kişinin Sarı Zalına, vəssəlam! Qırx səkkiz nəfər əldən-ayaqdan saz, candan sağlam adamı alverə buraxıb. Bu heç. Kolxozun sahibləri var. Təftiş Abbasın bu hərəkətini özləri müzakirə eləsinlər, özləri nəticə çıxartsınlar görək yığım kompaniyasının birinci günü, təşkil günü, poçti hərbi vəziyyət vaxtı bu cür məsuliyyətsizliyə yol verən adam briqadirlikdə və təftiş komisyonunun sədri kimi məsul vəzifədə qala bilərmi?! Təkrar eləyirəm, kolxozun öz işidi bu, mən qarışmıram. Mən ancaq həbs edə bilərəm, onu da ki, görürsünüz, hələ eləmirəm.

Kişi mənə başqa iş tapşırıb, Sultan Əmirli yoldaşı nəzərdə tuturam. Bəziləri kişi saymasa da, Sultan Əmirli yoldaşa mən elə əvvəldən Kişi demişəm, indi isə Mirqəzəbə qalib gələn Kişi deyirəm. Özüm də fəxr eləyirəm ki, bu mötəbər maarif müdirimiz məktəblərin yığıma cəlb olunmağından bir qədər narazı danışanda, Kişi mənə çox məsuliyyətli iş tapşırdı. Yığım müddətində şəhər məktəblərinin, maldarlıq texnikumunun bu zonada üç kolxozun üçünə də səmərəli köməyinə cavabdehəm. Bundan başqa, raykomun təlimatçısı və rəsmi təhkimçisi Səməd Əmirlinin burda yığım kompaniyasını təhlükə altında qoyanlarnan qucaqlaşa-qucaqlaşa cici-bacı oynadığını nəzərə alaraq, öz vəzifəmin tələbi üzrə, ciddi tədbir tökməliyəm. – Neştərlər Səmədin üzünə sancıldı.

Səməd hiss edirdi ki, Xaşın zərbəsi hələ irəlidə idi. Dillənmirdi. Dözürdü. Gözləyirdi.

Qapan-tərəzinin yanında nə oldusa, birdən gurultu qopdu: Təftiş əlindəki iri, ağır çəki daşını tərəzinin üstünə çırpdı.

– Düzələn deyil bu xaraba! – dedi.

Babası Qolyana gülərdik biz uşaqlar o vaxt, Qıdılıyan deyərdik. Gördü Qonaqlıda atı işləmir, getdi Orta kənd Tahirliynən qohumlaşıb

Gülənov oldu, bunun qardaşı meçidə getdi, müsəlmanlığı qəbul elədi Molla Gülən oldu, özünü də ki, görürsünüz – Zorri-Zor! Səsimizi çıxardan kimi Anastas Mikoyannan qorxudur bizi! Erməni deyilən! Hay addım-addım gəlib bir yanda Qazağımızın böyrünə çıxıb, vayenkoma qədər dolub. Nırxı var orda Yervandin, kim onca min verir, bir illiyinə buraxılır əsgərlikdən, kim iyirmi min verir, iki illiyinə buraxılır!.. Nədi mənim bu danışdığım, ay camaat?

El qalıb əyriyə, həm yeyə, həm səyriyə! – Təftiş "Tfu!" – elədi. Və "sapoq"larını sürüyə-sürüyə aralanıb, çardağın o başında, qaranlıq küncdə oturub, "seyf"lərini eşələyə-eşələyə qəlyanını, tütün qabını, kibritini çıxartdı. Möhsün kişi gedib Təftişin bir tərəfində, Çürük o biri tərəfində yerə çökdü. Xızr Abı isə əvvəldən orda idi. Sükut və çaşqınlıq içində o qaranlıq küncdə dörd qəlyan közərdi, dörd Qəlyanlının tüstüləri ağardı... Vaxtilə axşamlar bu vədə qocalar o küncə yığışıb tüstünü tüstüyə qatanda sədr Mədəd bu yandan – tərəzi tərəfdən soruşardı: "Qəm çəkirsiniz, ya dəm?" Çürük Aşıq deyərdi: "Tüstümüzə bax". Sədr Mədəd də baxıb, tüstülərdəncə bilərdi ki, Qəlyanlılar qəm çəkirlər, yoxsa dəm. İndi tüstüsüz də məlumdu ki, Qəlyanlılar nə çəkirdilər; əgər Təftiş sözünün sonunda "Tfu!" – eləmişdisə, bu "imennoy naqan"ın gülləsinə bərabər bir şey idi. Çürüklə Möhsün kişi də gedib Xızr Abının yanında oturmuşdularsa, demək Təftişin fikri ilə şərikdilər. Bütöv bir rayonun fəxri Qılınc Qurbanın "maniya prisledovaniye deyilən azarı" varmış! Qılınc Qurbanın tərbiyəsindən çıxdığına görə Səməd Əmirlinin də həmçinin psixi azarı varmış! Hətta xuliqanmış! Təftiş Abbas isə nə briqadirliyə, nə də təftiş komisyonunun sədrliyinə yarayan məsuliyyətsizin birisi imiş! Qırx səkkiz nəfər "əldən-ayaqdan saz, candan sağlam adamı alverə buraxdığına" yalnız özünün Qara Zalı ilə Möhsün kişinin Sarı Zalına gücü çatmışdısa, əlbəttə, işi "kolxozun sahibləri"nin müzakirəsinə verilməli idi!..

Səməd kənardan fikir verirdi: kim onu – Səmədi müdafiə edirdisə, hamısı cinayətkar sayılırdı, susdurulurdu.

Sükut və çaşqınlıq içində Qudalı cavanları birdən qopub cəmaatın üstünə cumanda Səməd əvvəlcə bunu anlamadı. Ətrafında tarap-turap düşdü: "alça-malça" satanlardan bəziləri xurcunlarını, ala-bula faner çamadanlarını, heybələrini yerdən qapıb o yan-bu yana qaçışdılar. Bir-birindən gırbıd – yoğun ət torbaları – Qudalı cavanları hamını basıb geri itələdilər, anbarın alçaq, uzun çardağının tavanından sallanan quru

həmişəcavan[32] çubuqlarından sındıra-sındıra, camaatın ətrafında dövrə vurdular.

Milisionerlər başqa iş görürdülər: xurcunları, heybələri, çamadanları, bağlamaları, vedrələri, bidonları dartıb aldıqca, on addımlıqdan Gülənovun maşınının yanına atırdılar. Çamadanlar, bağlamalar partlayıb açıldıqca, xurcunların gözəmə ipləri qırıldıqca "buxanka" çörəklər, "bulka"lar, "bublik"lər tökülüb toza-torpağa bulanırdı. Heybələrdə şüşələr, bankalar sındıqca tünd qoxulu günəbaxan yağı süzülüb yerdə göllənirdi. Vedrələr, bidonlar dığırlandıqca yumurta xıncılıb axıb pavidlaya, şorabaya qarışırdı.

Gülənovun neştərləri istehzalı kinlə işıldayırdı.

– Müsəlmanı elə həmişə belə rəzil gördüm! Nə qədər ki, "alça, alça", "zoğal, zoğal" deyə-deyə vağzallarda tüyünəcəksiniz, belə olacaq! Nə qədər ki, pambığı şəhərdən gələnlər yığacaqlar sizin əvəzinizdə, bundan da betər olacaq!.. Dövlət bangın ağzını açıb, külli miqdarda pul buraxıb yığıma. Dördcə yüz min manat nəqd avans buraxılıb kolxozunuza ki, vedomost tutulsun, təcili avans paylansın sizə. Dövlətin qayğısına necə qiymət verirsiniz, öz qiymətiniz də elə olacaq. O dörd yüz min manatdan qəpik də görmüyəcəksiniz! Şəxsən mənim təklifimdi bu. İdarə Heyətinin sədri də razıdı mənnən! Qurtardıq!.. Pambığı çöldə qoyub alverə qaçdığınıza görə bu şeyləriniz də qaytarılmıyacaq! Di gedin köpük qusun acından!

Beləliklə, "cəza tədbiri" də məlum oldu.

Səməd hələ dillənmirdi. Dözürdü. Gözləyirdi.

"Alça-malça" satanların arasından ortası incə, başı balaca, "Qarışqa qarı" deyilən, doğrudan da qarışqaya oxşayan bir ağbirçək çıxdı, ortası üzülə-üzülə, yavaş-yavaş Gülənova doğru getdi. Kətyən kişinin qarısı idi.

"Kətyən" çölün düzündə kətyən koması kimi tək adam deməkdi. On səkkizinci ildə atası "Osmanlı davasından" qayıtmamışdı.[33]

İyirminci ildə Qılınc Qurbanın otryadında, bəylərlə vuruşmada kiçik qardaşları, qırx ikinci ildə qırılan diviziyada da oğulları qırılmışdı, beləliklə, Kətyən kişi on ev, on ailə içində tək qalıb, Kətyən İbrahim olmuşdu və çox tez düşkünləşib, idarədən o yanda düzənliyə səpələnmiş yarıuçuq daxmalardan birində, günü divar dibində keçən qocaya çevrilmişdi. Qarışqa qarı isə "ərinin işini görürdü".

Ortası üzülə-üzülə gedib, "buxankalar"dan birini yerdən götürüb qoynuna soxdu, ağlı-qaralı yamaq-yumaqla sarınmış xırdaca başını qaldırıb, altdan-dik Gülənovun at üzünə baxdı.

Səməd gözlərini yummuşdu. Əmma nə neştərlər gözündən gedirdi, nə qarı, nə də "buxanka".

Bu vəziyyətdə əvvəlcə qarının səsini eşitdi:

– Yağ, yumurta zay oldu. Gəlinlərimin, nəvələrimizin boğazı tikildi. O yuxarıdan baxana tapşırıram səni! Kişi acdı, ona dözəmmirəm. Burax, bu quruca çörəyi aparım gəvələsin.

Sonra Təftişin dili ilə adı "Zövcə" qalan Zövcə arvadın səsini eşitdi:

– Bərəkəti də elə tullayarlarmı, a bərəkət kəssin səni?! Qurandı, o, a Quran kəssin səni!

Sonra da "alça-malça" satanların qarışıq səslərini eşitdi:

– Vağzallara ağ günümüzəmi gedirik biz?! Necə yəni "qəpik" də görmüyəcəksiniz?!"

– Kim ketmənləyib, kim becərib o pambığı?! Şəhərdən gətirilənlər, yoxsa biz baxtıqaralar?!

– Şahmar günün altında körpələrimizi ona görəmi yandırırıq ki, bildirki kimi yenə çöpnən-çərtdək verəsiniz əlimizə?!

– Şəhərli gəlib kilosu əlli qəpikdən, gündə əlli manat, yüz manat qoysun cibinə, silsin-süpürsün aparsın, biz də baxa-baxa qalaq?! Pambıq kimindi?! Havaxtacan ad bizim, at özgənin olacaq?!

Gülənovu maşına qısnamışdılar.

– Xaşamı gedirik biz dəmir yoluna, a Xaş köpəyoğlu?! Varlanmağamı gedirik, ay Erməni törəməsi?! Sənin o Mikoyanın, Markaryanlarıyın kökü kəsilsin!

– Alver nədi! Bu zay elədiyinə görə getmirikmi ki, beş günlük azuqəmiz olsun! Bu da əlimizdən alınandan sonra sabah nəynən çıxaq pambığa?!

– Çənəndəki firdan dərs götür heç olmasa!.. Tapançandan qorxmuruq! Tapançanı alıb ... soxarıq!..

– Süpürül, sürük burdan! Cana doydurma bizi!

– Ya cəhənnəm ol get, ya da necə qadağa qoyubsan, elə də əmr elə o Xəlvətinə, o kassirinə, haqqımızı versinlər! "Şəhərli" adıynan siyaha tutub haqqımızı altdarına doldurmasınlar! Bəsdi!

Bu, üsyan kimi bir şey idi.

Gülənov dalını maşına söykəyib, başını dik qaldırmışdı, Paqonların və orden "kalotkaları"nı dartışdıran boz-torpaqlı, qara, qırış, kərtdəş

əlləri itələməkdən başqa heç nə eləmirdi, heç nə demirdi və çox qəribə idi ki, o həngamənin içində də tez-tez Səmədə boylanırdı.

Məleykə Muradova qara, uzun, sıx kirpiklərini endirib, yumruqlarını qara şivyot kostyumun ciblərinə basıb, tamam hərəkətsiz dayanmışdı.

Mirbağır müəllim, katibin əksinə, otuzuncu illərdən qalma "butulka" şalvarda nazik qıçları ilə təzadlı yoğun ortasını qısa boynu ilə birlikdə tez-tez o yan-bu yana fırladıb, gah yan-yörəsinə səpələnmiş "buxanka"lara, "bulka"lara, "bublik"lərə, gah da milis rəisini didişdirən arvadlara baxa-baxa: – Vay-vay! Vay-vay! – deyirdi və qəribə idi ki, hay-küydə elqızlarının qəzəbli qışqırtıları Səmədə necə aydın çatırdısa, maarif müdirinin o asta "vay-vay"ı da elə çatırdı.

Bir söz də çatdı:

– Tərpənin!

Gülənovun bu sözündən sonra Qudalı gombulları bu dəfə elə "tərpəndilər" ki, hətta Zövcə arvad kimi mötəbərin saç-birçəyinə, yenidən həmin "çığırqan Dinişə" çevrilən Torksinin hörüklərinə də əl atdılar. Səməd indi başa düşdü ki, "Fars qohumlar"dan seçilmiş "çarvadarlar" Persin əlində nə idisə, Qudalı qohumlardan seçilmiş bu gombul cavanlar da Xaşın əlində elə bir şeydi: gizlin "rabotnik"lər – paqonsuzlar dəstəsi. Bu "rabotnik"lər bayaq qırılan diviziyada qırılanların arvadlarını, qızlarını, gəlinlərini, Kətyən İbrahimlə Qarışqa qarını tapdalamışdılar, Səməd o qoca ilə qarının ağrılarına dözməyib gözlərini yummuşdu. İndi isə bu "rabotnik"lər qırmızı tuf daş binanın foyesində Zora iş tapşıran Sultan Əmirlinin özünün nüfuzunu tapdaladılar və Səməd bu ağrıya dözməyib titrədi, başdan-ayağa bütöv – nəhəng bir əzələyə döndü, Zövcə arvadın saçına əl atan gombul cavanı dala çəkib, on addımlığa tulazladı. Ağrısından heybətli bağırtı qopdu:

– Zənənə əl qaldırmayın, it uşağı! Şil-küt eliyərəm hamınızı!

Məmməd Xələf – Qara Zal maşınının belindən – taya hündürlüyündən birbaş yerə atıldı, ordan da Torksinlə süpürləşən Qudalının üstünə atıldı. Sarı Zal, əksinə, qəribə təmkinlə Qəlyanlıları baxıb yerindən tərpənmədi.

Şoferlər faraları söndürdülər. "Yel fanarları"nı sarımtıl nöqtələrə döndərən qəfil zülmət içində əvvəl Qara Zalın qışqırtısı eşidildi:

– Ə, Sarı, ölübsünüzmü?!

Sonra həmin qışqırtıdan kəskin fərqli – gər, rahat səs Qəlyanlılara doğru: – Ay Abbas əmi, oğlun yenə qanmır! Palıdın altıynan burdakının fərqi nədi?! – Sarı Zal idi, birdən Səmədin qabağına yeridi:

– Dayan. Sözüm var, – dedi.

Ayaqlarını gen qoyub, tək palıdın altında olduğu kimi, Qara Zalın hərəkətini təkrar edib – çiyinlərini gərib, Səmədin qabağında səddə döndü.

– Səməd! Sən bilməlisən ki, adını üstümə götürdüyüm qardaşımnan yanaşısan sən. Sidq-ürəknən "qardaşım" deyirəm sənə. Bu qardaşıyın sözünü eşit indi. O gün Qara dedi, sonrasını korladı. İndi yenə korlayır. Sən gərək qarışmıyasan bu qalmaqala. Çünki bu həngamə də sənin başındadı. Çəkiyə çəkir səni bu Xaş köpəyoğlu. Biz hər şeyi bilirik. Xalıqı tutqudan saxlamaqdan ötrü nə qədər qurğu qurmuşdular, heç birindən bir şey çıxmadı. Qurban əmi getdi şəhərdən zəng vursun Məhərrəm Abbasoviçə. AdıPünhan adam göndərəcək Bakıdan, Çax-çuxu aparacaqlar. O naldan başqa çox şey var Qurban əminin əlində. Mütləq aparacaqlar. Odu ki, çaxnaşırlar. Quyunun üstündə də çəkiyə çəkirdilər səni. Sağ olsun camaat, aman vermədi. Biz də səni qamarğaladıq, qoymadıq qoşulasan bunlara. İndi ayrı cür başlayıblar. Pambıq, pul-mal öz yerində. Ölüm-dirim məsələsidi bu, ay Səməd. Əgər bunlara əl qaldırsan, heç xətər yetirməsən də, elə it uşağıdı ki, özləri özlərini qana bulayacaqlar, "zaklyuçeniye" düzəldəcəklər. Xaş cibində naruçnik gəzdirir. Eşidirsənmi?! Naruçnik! Odu ki göz bəbəyimiz kimi qorumalıyıq biz səni, qardaşım! Qurban əmi deyir, Səmədin başına bir iş gətirsələr, Sultan o dəqiqə çıraqtəki sönər. Bu it xılına da elə bu lazımdı ki, bir şər-xata düzəldib səni tutsunlar, əmin də çıraqtəki sönsün, Xalıq da gedib cinayətlərinin hamısını Persin üstünə yığsın. Məhərrəm Abbasoviçin baldızından uşaqları var bu qatilin. Gülbəniz deyir, uşaqları öyrədib bu, hər axşam evdə Məhərrəm Abbasoviçin üstünə tökülüşüb ağlaşırlar ki, dədəmizi tutdurma. Bildinmi məsələ nə yerdədi, qardaş! Çox yerə əl atırlar bunlar. Gülbənizi söylət, desin sənə nə təhər sənədlər var əllərində. Şənbə danışa-danışa gəzir ki, Xalıqın nə o tayda cinayəti olub, nə bu tayda. Hər nə olubsa, Stalinnən Beriyanın, Şahın, Mirqəzəbnən Persin işidi. Xalıq xalqın xeyrinə işləyib guya!.. Məsələ bu yerdədi, qardaş! Ayağını bir azacıq yana atmağına bənddi, o saat hay salarlar ki, Dəli Səməd cızığından çıxıb yenə! Diplomun əllərindəydi. Aralıqda küy salmışdılar ki, partbiletini də atıb! Yazıq Qurban əmi bizi də rahat buraxmır, "Ayıq olun, partbiletini oğurladacaqlar", – deyir. Ekizlər, Miri, Qara, hamımız qaranca gəzirik. Bu yerdədi məsələ, qardaş! Gəlibsən, hamımızı dirildibsən. Başına iş gəlsə, tək əmin yox, elə hamımız çıraq-

təki sönərik. Söz ver ki, çırağını söndürmüyəcəksən! Tək bu kəndinmi çırağısan sən?! Heç yadımdan çıxmaz, Göyçədən, Ağbabalı mahalından, Təhlədən qoca-qoca Ağ Əmir müridləri gələrdilər bizim lap balaca olduğumuz vaxtlar, sən Ortayolnan yeriyəndə boy-buxununa baxardılar, Mədəd əmidən dönə-dönə soruşardılar ki, "budumu Varis?", "Budumu sahibimiz?" Mədəd əmi çox vaxt dillənməzdi, sonra birdən hirslənərdi ki, "Siz deyilsiniz, mən deyiləm, yəqin ki, bu olacaq da! Görmürsünüzmü körpədi hələ, indidən göz dikməyin, dilə-ağıza salmayın uşağı!" "Sultana baxın hələ. Odu hələ sahibiniz!" – deyərdi. Əmbə gələnlər çox narazıydılar: "Sultanın əlindən heç nə gəlmir. Biz elə buna dikmişik gözümüzü, bunun böyüməsini gözləyirik..." Bildinmi iş nə yerdədi, qardaşım! Bütün millətin gözü səndədi, xəbərin yoxdu. Özünü qorumalısan sən, qardaş!..

Miri, yoldaşları ilə birlikdə o yanda vuruşurdu. Sarı Zal burda Səmədin yolunu kəsib, tələsmədən, təntimədən danışırdı.

Sarı nöqtələr – "yel fanarları" tədriclə işıqlananda, Səməd elə bil ilk dəfə Sarı Zalın öz qardaşına vurğun, ağıllı gözlərini gördü.

– Sənin adınnan bağlı əhvalat çoxdu, ay Səməd. Əl işlətmə. Əlin biz olaq, ağıl özüyünkü olsun. Cavanlarımız dağılışıb kənddən. Axşam haraylayırsan birini ki, gəl filan işin ucundan tut, sabahısı sorağı Mingəçevirdən gəlir, yetimlərin yanından! Cəmisi bir manqalıq cavan qalmışıq burda. Kətməndən tutmuş, maşına, traktoracan hər iş gəlir əlimizdən. Əmbə nə qədirbilənimiz var, nə də qiymət verənimiz! Xızr Abının şagirdləyirik. Əmbə gözümüz səndədi. Sənin işığına uçuruq! İşığımızı söndürmə! Abının "xançal" söhbətini yada sal, qardaşım! Söz ver mənə! Söz ver ki, bax o çardağın altındaca durub tərpənmiyəcəksən!

Sarı Zal nəzərində necə ucalmışdısa, Səməd hətta gülümsünən kimi oldu.

– Qonaqlının çırağı sənsən, Sarı! Sənin məsləhətindən çıxmaram! – dedi.

Sarı Zal bu sözlərdən elə bil boyca da ucalıb, gözlərindən gülüb, elə o gülüşlə də döyüşməyə getdi.

Səməd isə, söz verdiyi kimi, çardağın altına qayıdıb, bayaq burda necə tarım dayanmışdısa, eləcə də qaldı.

Bütün diqqəti meydanda vuruşan cavanlarda idi, aralığa girməyə çalışan ağbirçəklərdə, qız-gəlində, tək-tük çəlimsiz kişilərdə idi. Ömründə birinci dəfə idi ki, başçı və iştirakçı deyildi, kənardan baxırdı və

yəqin elə buna görə də Qudalıların Qonaqlılardan, Kərpickəsənlərdən kimi isə üstələdiklərini gördükcə alova bürünürdü. Əmma dözürdü, tərpənmirdi.

Gombullar – gizlin "rabotniklər" Qonaqlı cavanların qabağından qaçıb, gözlənilməz badalaqla rəqiblərini yıxırdılar, saçlarından yapışıb başlarını yerə döyürdülər. Qonaqlılar, Kərpickəsənlər isə Qudalıların yaxalarını ələ keçirəndə taraqqataraq kəlləläşirdilər, təpikləşirdilər, yumruqlaşırdılar, tutaşıb süpürləşirdilər. Səməd başı başa yox, daşı daşa şaqqıldadan kəlləläşməyə də ömründə birinci dəfə kənardan baxırdı və bu dəhşətli kəlləläşmədə dəhşətli düşmənçilik görürdü. Gün ərzində beyninə dolub qarışmış ağır təəssüratlar arasından iki kəlmə – "iyli quyu" ayrılıb, Yağır Məmmədəlinin sümüklərini göstərirdi... Möhsün kişinin – Kərpickəsən Möhsünün kənddə qazdığı quyulardan bir-iki metr qara torpaq, üç-dörd metr sarı torpaq çıxırdı, yeddi-səkkiz metrlikdən azı yüz vedrə daş, qum çəkilib çıxarılandan sonra su qaynayanda bir xeyli də suyun gözü eşilirdi, beləliklə, quyuların dərinliyi on-on iki metrə çatırdı. Yağır Məmmədəlinin cəsədi belə bir dərinlikdə dəfn olunmuşdu və bu düşmənçiliyin özülü o dərinlikdə idi. Qılınc Qurban Yağırın ölümü barədə həqiqəti danışanda, "kobra gözləri" "ölü qoyun gözlərinə" dönüb özülün laxladığını xəbər versə də, meydanda bu düşmənçilik aydın deyirdi ki, özül nəinki laxlamışdı, əksinə, Xəlvətin Sultan Əmirli ilə Qılınca "Düşmənimsiniz" dediyi gün Perslə əsabələri – KQB Xudiyev, NKVD Gülənov necə gizlin və dərin düşmənçilik özülü qoymuşdularsa, ötən illər ərzində o özül daha da bərkimişdi. Toxunulmaz qalmaq, həmişəki kimi xaş tıxaşdırmaq, çax-çux eləmək, xəlvəti işlər görmək, qıllanmaq, piylənmək üçün aləmi dağıtmağa hazır olan bu cin-şeytan yığnağının hamısı öz həyat tərzləri, əxlaqları, dünyaya baxışları ilə birlikdə, bütünlüklə o cəsəddən törətmişdi. Yağır Məmmədəli Əmir bağında – almalıqda illərlə səbət daşıyandan sonra öz üfunətindən üfunət yaratmışdı; çörəyi ayaq altında əzən, zənənin birçəyinə əl atan, bir-birindən gombul cavanlar – gizlin rabotniklər, iri-iri başları, topa-topa yal-yolpaları yırtıcılar törəmişdi; raykom katibinin maşınının təkərinə yaba soxan, darvazasına murdar yaxan, Lüt Cəfərin yadigarı Yetimlər məhləsini üfunətlə dolduran dözülməz it xılına dönmüşdülər. Bu düşmənçiliyin dəhşəti də məhz özülündə idi. Vuruşanlara kənardan baxa-baxa Səməd indi bütün aydınlığı ilə dərk edirdi ki, Ağ Əmirlə Boz Əmirin başlarını "çarvadar xurcunu"nda gətirən Yağırın

“rabotnik”liyi törəmələrin qanında idi. Bu Gizlinlər – paqonsuzlardan xilas olmaq üçün bircə çarə vardı ki, onu da Sultan Əmirli demişdi: “kürüyüb atmaq!..” Qılınc Qurban “İt xılı qudurub. Ehtiyatlı ol” desə də, Sarı Zal nə qədər ağıllı məsləhət versə də, Gizlinlərin belə qudurduğu bir vaxtda Səmədin kənardan baxmağa haqqı vardımı? Ağıl da, ürək də “Vur! Şil-küt elə! Kürü at!” – deyirdisə, nədən çəkinirdi? Sultan Əmirli yəni o qədərmi üzülmüşdü ki, Bircə balanın başına nə isə gəlməyindən, vahiməyə düşmüşdü? Bəlkə Saşanın bu qədər qısa müddətdə istintaqa çəkilib güllələnməyindən sarsılmışdı, ya da Məhərrəmlə əlaqəsinin kəsilməyində məğlubiyyət görüb sınmışdı? Əmir fədailərinin top atəşi altında qırılmağına, Milli hökumətin yıxılmağına dözmüşdü, Mədəd Əmirlinin, Pişəvərinin, Nəcəfoğlunun ölümlərinə, xalqın sürülməsinə, deyilənə görə aylarla qapıları bağlı qalan vaqonlarda qırılmasına, on yeddi sədrin “vaqona basılmağı”na və o təsərrüfatların cin-şeytan yığnağı əlində qalmağına dözmüşdü, tək Bircə balanın başına nə isə gəlməyinə dözmürdü?!

Səməd “Yox!” – dedi. “Dözməlidi” – dedi. Və başa düşdü ki, Qudalıları elə bu gecə “kürüyüb atmaq” üçün əlindən gələni eləməsə və bu günlərdə dönə-dönə düşündüyü kimi, respublikanın o başından – Lerikdən bu başına – Qazağa qədər iş başında olan keçmiş tələbə yoldaşlarının hamısını həq-ədalət – qanun ətrafına yığmayınca sakitləşməyəcək.

Bu vəziyyətdə birdən kiminsə baxışını hiss etdi. Gülənovdu. Maşınının dalına çəkilib, tövşüyə-tövşüyə bu yana – Səmədə boylanırdı. Neştərlərində təəccüb donmuşdu: Səmədin vuruşmadan kənarda qaldığını anlaya bilmirdi.

Bir baxan da vardı. Qudalı ağsaqqalı idi. Həmin yerdən – maşının dalından gözlərini Səmədə dikmişdi. Təəccüb o enli, qırmızı üzü də kütləşdirmişdi: Səmədin kənarda qaldığını o da heç cür anlaya bilmirdi. Tamamilə aydındı ki, o “xəbərdarlıq”larla, prokurorluğa, raykoma yazılan “məlumatlar”la, “maniya prisledovaniye”, “psixi azar”-filanla Səmədi daxildən qaynadandan sonra “alça-malça” satanlara qarşı “cəza tədbiri”nə və hətta bu vuruşmaya qarışmadığından çaşıb, hətta özlərini itirmişdilər.

Bir-birinə yaxınlaşıb kəlmələşdilər – pıçıldaşdılar. Xəlvət dərhal qarışıqlığa yönəldi, Qıllısını dartıb kənara çıxartdı, çəkib Piylisinin – pul kisəsinin yanına apardı. Xaş isə maşının açıq qapısından içəri əyilib siqnalı basdı. Qısa-qısa fasilələrlə “düdüt-düdüt” eşidilər-eşidilməz it

məhləsi səmtindən bir dəstə məhlə milisioneri peyda oldu. Meydana cumub, bəlkə də ömürlərində birinci dəfə yaxşı iş gördülər: dalaşanları araladılar. Əmma Xaşla Xəlvətin elə xəlvəti kəlmələşməyi necə müəmmalı idisə, məhlə milisionerlərinin "yaxşı işi" də eləcə müəmmalı idi.

## 10

Meydan əldə-ayaqda parçalanmış çamadan qırıqları ilə, əzik-üzük vedrə, bidon, xurcun, heybə, bağlamalarla, toz-torpağa qarışmış "buxanka" "bulka", "bublik" xıncımları ilə dolmuşdu. Günəbaxan yağı, yumurta, pavidla, şoraba tökülən yerlərdə palçıq əmələ gəlmişdi.

Muradova həmin yerdə – boz "Pobeda"nın yanında yumruqlarını pencəyin ciblərinə basıb, həmin vəziyyətdə – hərəkətsiz durmuşdu. Fərq bircə bunda idi ki, katibi həyalı gəlinə oxşadan, boşurğu bağlanmış ağ kəlağayının dairəsi arasında uzun, tutaş kirpiklər birdən-birə dik qalxıb, birdən-birə də xırp endikcə, bircə göz qırpımında ətrafa iti nəzərlə baxan "nəlbəki gözlər"də soyuq rəsmiyyət parlayıb, "həyalı gəlin"i dərhal məhv eləyib, Səməddə nə isə dumanlı narahatlıq əmələ gətirirdi. Mirbağır müəllim də həmin yerdə – "Pobeda"nın yanında, həmin vəziyyətdə, yoğun ortasını qısa boynu ilə birlikdə o yan-bu yana fırlada-fırlada, onun-bunun üzünə baxırdı. Fərq bircə bunda idi ki, "Vay-vay" əvəzinə indi "Bezobraziye! Bezobraziye!" – deyirdi və bu aramsız deyinti də o soyuq rəsmiyyət kimi, Səməddə dumanlı narahatlıq əmələ gətirirdi.

Xaşın təəccübdən kütləşmiş neştərləri yenidən parıldayıb gizlin rabotniklərə işarə verdi. Gizlinlər xıncım-xıncım "bərəkəti" yenidən xınca-xınca yüyürüşüb, dikdirlərdən boylanışan şəhərli müəllimləri, şagirdləri çağırdılar. Yenə də neştərlərin işarəsi ilə Xəlvətlə Qıllısından, Piylisindən başqa, məhlə milisionerləri də qapan-tərəzinin dövrəsinə toplaşdılar. O xəlvəti kəlmələşməkdən, pıçıldaşmaqdan başlamış, üfunətin belə səfərbər toplaşmağına qədər, hamısı müəmma idi.

Əmma müəmma tez açıldı: Təftiş Abbasın yerində – tərəzinin dalında Qudalı atamanı dayandı, Çürük Aşığın yerində – saqqız kötüyünün üstündə Qudalı hesabdarı ilə Qudalı kassiri oturdular, "qruzovik"indən çuval, xaşa, kisə yuvarladan Qara Zalın əvəzinə, Gizlinlər arabalardan

---

[34] "Xüsusi şöbə" işçisi.

çuval, xaşa, kisə tökdülər, "alça-malça" satanların uşaqları əvəzinə, şəhər və dəmir yol məktəblərinin şagirdləri çuvalların, xaşaların, kisələrin üstündə kömürlə yazılmış ad-familiyalarını tapdıqca, tələsə-tələsə, itələşə-itələşə, pambıqlarını qapan-tərəzinin yanına sürüdülər.

Qudalı atamanı birinci xaşanı çəkib, ilk ad-familiya ilə ilk rəqəmi diqtə etdi:

– Müşərrəf Mirbağır qızı Bağırlı! Yüz kilo! – dedi.

– Afərin, şəhər qızı! Mirbağır müəllimin çörəyi halalın olsun! Gəl pulunu al! – dedi.

– Çox əziyyət çəkibsən. Pambığını bizimkilər boşaldarlar. Sən haqqını al, – dedi.

Müşərrəf kök, ağbəniz, qaraqaş, qaragöz göyçərək qızdı. Ancaq boynunun qadına yaraşmayan yoğunluğundan atasına – Mirbağır müəllimə oxşayırdı.

Qudalı hesabdarı təzə "uçot dəftəri"ndə ilk ad familiyanı yazdı. Qudalı kassiri ilk pul "paçka"sını açıb, Müşərrəfə bir əllilik verdi və bu vaxt Səməd, nəhayət, öz qışqırtısını eşitdi:

– Pulu kisəyə qoy, yırtıcı törəməsi! Dörd yüz mindən bir manat əskik olsa, bir əlini sındıracam, iki manat əskik olsa, iki əlini sındıracam!

Qışqırtı necə qorxuncdusa, pul kisəsinin dövrəsindəki yığnaqda özünü yığışdırmayan adam qalmadı. Səməd bunu bilmədi.

Qaranlıq küncdə tüstülər çaxnaşdı. Xızr Abı dik qalxıb irəli yeriyəndə, qocaların hamısı dalınca qalxışdı. Səməd bunu da bilmədi.

Qara Zalla Sarı Zal bir tərəfdən yaxınlaşanda Qonaqlı, Kərpickəsən cavanlarının qalanları o biri tərəfdən yaxınlaşdılar. Səməd bunu da bilmədi. Gözlərinə od dolmuşdu, ürəyi beynində ağır çəkic zərbələri kimi guppuldayırdı. Bütün bədəni və hətta ağzında dili-dişi də o guppultularla birgə döyünürdü və Səməd hiss edirdi ki, canındakı bu təlatüm güclü ehtirasdan – Bezobraziyeni "kürüyüb atmaq", camaatı o köhnə, gözəl çağlara qaytarmaq arzusundan əmələ gəlmişdi. Tamamilə aydındı ki, rayonun, əmisinin və özünün taleyi də bu camaatın həyatı ilə bağlı idi. Elə bir dövr gəlib çatmışdı ki, Stalinin ömrünün kəsilməyindən, Mirqəzəbin həbsindən sonra Bezobraziyanın daha da fəallaşdığı, Saşanın təcili güllələndiyi, Məhərrəmovla əlaqə kəsildiyi kimi, burda da Bezobraziyenin beşcə günlük hökmranlığı Qılıncdan, Təftişdən, Abıdan, Səmədin özündən başlamış bu döyüşkən cavanlara – Qara Zala, Sarı Zala, Miriyə qədər, hamını, hər şeyi məhv edə bilərdi: Odur ki, təpədən dır-

nağa təlatümdə, çəkmə zərbələrindən şişmiş, elə bil birə iki ağırlaşmış bədənlə, Gülənova tərəf döndü:

– Mənə dedilər cibində naruçnik gəzdirirsən, çəkiyə çəkirsən məni, Gülənov! Burda mənim biləyimə naruçnik taxıb, orda Sultan Əmirlinin "ürəyini partladıb", yəni zəhərləyib bir gülləynən iki ov vurmaq istəyirsən. Bu saat mən özüm əlverişli şərait yaradacam sənin üçün, məhlə milisionerlərini tök üstümə, naruçnikini tax, maşına bas apar. Sədr Mədədin qatili azad gəzsin, tutqudan xilas olmaqdan ötrü tədbir töksün, sədr Mədədin oğlu türməyə getsin. Özüm indicə şərait yaradacam ki, sənin istədiyin kimi olsun. Əmma türmədən qabaq bir neçə iş görməliyəm burda. Ölər Dəli Səməd, səkkiz qız, on iki yetim anası Aynanı üfunətdən çıxartmamış biləyinə naruçnik taxdırmaz! Ölər Dəli Səməd, Kətyən İbrahimi divar dibində qara "buxanka" gözləyə-gözləyə qoyub türməyə getməz! Ölər Dəli Səməd, Təftiş Abbasın işdən çıxarılmasına yol verməz!..

Gizlinlər yığnağının topa qaraltısı önündə saralan pul kisəsinə baxırdı, ancaq kisə ilə birlikdə Qarışqa qarını da görürdü. Bayaq "buxanka" əlindən alınandan sonra qarı ortası üzülə-üzülə sürünüb qız-gəlinin arasında necə heysiz düşmüşdüsə, eləcə qalmışdı. Ayaqqabı əvəzinə, altına gön yamanmış boz corabda, quru sümük qıçlarını uzadıb, gözlərini göyə dikib, "yuxarıdan baxana" nə isə deyirdi. Sağ-solunda paltarları cırcındır, bir-birindən arıq – quru-taqqanaq oğlan, qız nəvələri səssiz-səmirsiz ağlaşırdılar. Səməd bircə dəfə gözucu baxıb, daha baxa bilməyib, əmisinin danışdığı, vaqonlara basılan ac-yalavac xalqın şəklini havada görə-görə, pul kisəsinə doğru getdi.

Yığnağın topa qaraltısında hamı hər şeyi başa düşmüşdü. Piyli ayağa qalxıb, kisənin ağzından qoşaəlli yapışıb, ağarıb, sifətdən də dümağ piyə çevrilmişdi. Ancaq alt dodağında tez-tez yaladığı yerdə qan qızarırdı.

Qıllı Piylinin əksinə, kindən boğulub, sifətdən də qara camışa çevrilmişdi. Alt dodağının köppüşündə qan da qara idi.

Əlini Piylinin meyid kimi soyuq əllərinə atdığı anda Səməd o birilərinə də baxdı. Biri-birindən gombul Gizlinlər gərginlikdən şişib daha da gombullaşmışdılar. Milisionerlər Xaşın neştərləri kimi işıltılı gözlərini nəçənniklə Səmədin arasında oynada-oynada, növbəti işarəni – əmri icra etməyə hazır dayanmışdılar. Bütün yığnaqda ancaq çal lopa bığlı qırmızı üzlə at üzündə gümrahlıq, hətta sevinc vardı. Bu sevincin səbəbini axtarmaq lazım deyildi: "çəkiyə çəkilən" adam o cür qalmaqalda,

vuruşmada heç nəyə qarışmayıb kənarda qalandan sonra indi öz ayağı ilə tora düşməyə gəlmişdisə, əlbəttə, sevinməli idilər.

Meyid əlləri kisədən qopmurdu. Piyli kəkələyirdi:

– Mən qol çəkmişəm!.. Puldu bu!.. Yarım milyona yaxın pul!.. Mən məsuliyyət daşıyıram! Nə ixtiyarnan alırsan axı, sən bunu məndən?!

Neştərlər parıldadı:

– Ver, Qayım, ver... Dedim ki, biz zor işlətmiyəcəyik. Biz qanunnan hərəkət eliyəcəyik!

– Bu adama bələd deyilsən, nəçənnik... Bankda kassir saydı. Gecəyə düşürdüm, özüm saymadım, əskik ola bilər... Eşitmədinmi bunun sözünü? "Sındıracam"-filan! Bundan nə desən çıxar, nəçənnik! Qabağında ölüm, yaxamı qurtar bu dəlidən!

Çirişli tər Səmədi necə iyrəndirdisə, daha dözmədi: daş əzələlər Qayımı divara sıxdı.

Neştərlər ətin arasından qabarıb par-par yanırdı:

– Dəyməyin! Qoyun neyləyir eləsin! İstər lap özü mənimsəsin! Heç xətrinə dəyməyin!

Səməd kisəni dartıb, alıb Təftişə verdi.

– Kəmisyə üzvlərini yığ, sayın pulu. Özünün iştirakıynan sayın, təhvil-təslim aktı yazın! Əlavə bir akt da yazın. Təxminən bu məzmunda ki, Qudalı Rəhimin sədr olduğu kolxozda əmisi oğlu Qayım Qudalının kassirliyini anormal sayırıq və təftiş komisyonunun qərarı ilə işdən kənar edirik!

Yığnağa tərəf döndü:

– Bu mənim birinci işim, Gülənov! – dedi. Sonra Xəlvətin üstünə yeridi:

– Mircəfər – Mirqəzəb Bezobraziyesi nə qədər hökmran olsa da, bu kənddəki təsərrüfat kollektiv təsərrüfat adlanır hələ. Bu təsərrüfatın başçısı nizamnamə əsasında, ümumi iclasda əksəriyyətin iradəsiynən seçilməlidi. Sən seçilməmisən, Qudalı Rəhim. General Pers adlanan, hal-hazırda mühakimə olunan siyasi cinayətkarın əmriynən, qeyri-qanuni təyin olunmusan. Keçən ilin yayından bu vaxta qədər necə işləmisən, onu da kolxozun təftiş komisyonu müəyyənləşdirəcək. Möhürü ver! Səlahiyyətim var mənim! Ver möhürü!

Xəlvət dartınıb dikəldi. Nə üçünsə kitelinin yaxasını düymələyirdi. Axırıncı düyməni ilgəyə keçirəndən sonra, hətta boğazının dibində çalkeçiri də dartıb keçirdi. Buxağı irəli çıxdı, enli, qırmızı üz bir az da

ennənib, bir az da qırmızılandı. Belə ları xoruz halında Qudalı ağsaqqalı həməncə bəlağətli səslə heyrətli sözlər dedi:

– Məlumun olsun ki, mən özüm rabotnikəm! Bu sovetlikdə sizin Qılıncınızdan başqa bir nəfər – Rəhim Qudalı da "osobıy otdel"[34] adamdı. General Pers adlanan o siyasi cinayətkarnan heç bir əlaqəm-zadım olmayıb, oğul. Mərhum qardaşım Məmmədəlinin meyidi tapılanda bir dəfə qapıma gəlib Pers, onnan da əlaqəmiz qurtarıb. Atasının ölümünü təşkil eləyib Xalıqı verbovat eləyən də o Pers köpəyoğludu! Sən əyri güzgüdə görmə hamını! Burda sənə dedilər xəstəsən, şəkkaksan. Qardaşım özü skletdi yerin altda, Təbrizdə nə olubsa orda qalıb! Onun oğlu Xalıqnan tutaşmağın necə əsassızdısa, məni belə qaralamağın da eləcə əsassızdı. Məsləhət görürəm, çalış ağlını başına yığ. Bu rayonun sahibi var. Kişi qayıdar gələr, inşallah, özü ayırd eliyər hər şeyi. Onda bilərsən ki, general Persin əmriynən təyin olunmuşam, yoxsa Sultan Əmirli yoldaşın şəxsən özünün təklifiynən, ümumi iclasın əl qaldırmağıynan seçilmişəm.

Səməd bu heyrətli yalana cavab vermədi. Möhür kitelin döş cibində idi, yumşaq göy şivyotun altından dəyirmisi qabarmışdı. Səməd sol əli ilə Xəlvətin biləklərini birləşdirib, pəncəsində sıxdı, sağ əli ilə möhürü çıxartdı.

Xəlvət Muradovaya baxırdı:

– Yoldaş Muradova, şahid olun! Mirbağır müəllim, şahid olun! – deyirdi.

– Biz Kişinin xətrinə susuruq, ancaq xəbərdarlıq eləyirik buna, müqavimət göstərmirik. Şahid olun! – deyirdi.

Muradova susurdu. Mirbağır müəllim hələ də o yan-bu yana fırlanırdı və yenə elə "Vay-vay! Vay-vay!" – deyirdi.

Neştərlərin sevinci, təntənəsi isə tamam açıq-saçıq idi:

– Şahiddilər, Rəhim! Şahiddilər! Sənnən, Xalıqnan yox, öz əmisiynəndi bunun işi. Kişi sizi insan bilir, rəhbər işçi sayır, qapınızı açır, bu da onun acığına eləyir hamısını! Heç kəs tərpənməsin! Öz ixtiyarına buraxın, neyləyir eləsin! Kişi qayıdanda danışarıq bunnan, onda aşkara çıxar hər şey!

Səməd möhürü də Təftişə verdi.

– İşimin bir qismini qurtardım, Gülənov. İkinci qismi Sovetlər İttifaqı qəhrəmanı Xalıq Məmmədəli oğlu Qudalıynan bağlıdı. Bəlkə çağırtdırasan onu? Yoxsa, özüm gedim?

Səməd etiraz gözləyirdi. Hesabla, "işin ikinci qismində" Gülənov ehtiyatlanmalı idi. Əmma Xaşdan çox qəribə, müəmmalı qəhqəhə qopdu.

– Ay uşaq, çağırın Xalıqı! – dedi.

Çax-çux uzaqda deyilmiş. Gizlinin birinin meydandan qaranlığa cumması ilə qayıtmağı bir oldu. Ardınca Çax-çux qaranlıqdan çıxıb, trubkası damağında, sakit yerişlə birbaş Səmədə doğru gəldi. Lap yaxınlaşıb, üç addımlıqda ayaq saxladı.

– Buyur, qadası. Bu da mən!

"Bu da mən" sözləri ilə birlikdə Xaşın qəhqəhəsindəki müəmma da açıldı: Səmədin qənşərində tamam başqa bir adam dayanmışdı. Bu adamın dəyirmi fanar gözləri, sifətinin qaralığı və trubkası "Çax-çux Xalıq" adında qatil olsa da, tün abı, yumşaq şivyot kitelinin döşündə bu dəfə iki qızıl ulduz, çiyinlərində polkovnik paqonları parıldayırdı.

Gizlinlər yığnağından başqa meydanda hamı sehrlənmişdi. Uzun illər ərzində "çax-çux eləyən", İran kişmişi, Çin makentoşu, Çin fanarı sata-sata "ekspeditor", alverçi və möhtəkir kimi tanınan Qudalı Xalıqın metamorfozası Muradova ilə Mirbağır müəllimi də çaşdırmışdı. Bu adamın haqqında əvvəlki təsəvvür elə yerli-yataqlı və möhkəmdi ki, indi gözlə görüləni ağıl kəsmirdi. Səməd isə elə sarsılmışdı ki, tamam kütləşib, Çax-çuxu nə üçün çağırtdığını unutmuşdu.

Ayılması həmin "çəkic zərbələri" ilə başlandı. Möhürü Xəlvətin cibindən çıxardıb Təftişə verəndən sonra beynindəki guppultular getmişdi, burda yenidən başlandı və Səməd özünə gəlib, yəqin ki, gün ərzində əzab çəkdiyini görə sifəti nisbətən solğun, hətta kübar kimi görünən iki dəfə Sovetlər İttifaqı qəhrəmanı polkovniki yaşıl furajkasından qara xrom çəkmələrinə qədər, yenidən gözdən keçirdi. Qoşa qızıl ulduzun bərqindən bir şəkil əmələ gəldi: Çax-çux indiki libasında əlli birinci ilin yayına qayıdıb, vaqonun açıq pəncərəsi arxasında əlinin ekzemasını şüşəyə sürtən Mirqəzəblə yanaşı dayanıb, "Cəlladla bir camdan qan içən qaniçən" oldu və bununla da Səmədin beyni tamam açıldı.

---

[35] 1934-cü ildə Kirov öldürüləndən sonra onun adına şəhər və müəssisələrin sayı-hesabı yox idi. Azərbaycan Dövlət Universitetinə də Kirovun heç bir aidiyyatı yox idi.

– Xidmətlərini yüksək qiymətləndirib Stalin yoldaş!.. Gecə Bakıda gördüyüm mayor Qudalovnan indiki polkovnik Qudalovun fərqindən məncə belə nəticə çıxır ki, bu Qudalov yalnız o tayda Milli hökumətin devrilməyində yox, yalnız "Boqi obezqlavlenı" yazdıran Yağıra köməyinə görə yox, indi Ermənistan adlandırılan torpaqlarımızdan sürülənlərimizin müsibətlərində iştirak elədiyinə, Borçalıdan Lerikə qədər ərazinin müsibətlərinə görə də yüksək mükafatlar alıb!

Gülənov ustubluca yaxınlaşıb, Çax-çuxun bir tərəfində, möhürü cibindən çıxarıldığına baxmayaraq, daha da mötəbər görünən Qudalı ağsaqqalı da hiss olunmadan yaxınlaşıb, Çax-çuxun o biri tərəfində dayanmışdı. Səməd kürəyində bir-birindən zorba Gizlinlərin və bütün Qudalı xılının təpərli nəfəsini hiss edirdi.

Çəkic zərbələri gücləndi.

– Mən dedim xidmətlərini yüksək qiymətləndirib Stalin yoldaş. Dedim, saydım xidmətlərini, niyə dillənmirsən?!

Çax-çux əmin-arxayın, trubkasını tüstülədirdi.

– Sən bu döşümdəkiləri sərf-nəzər elə. Qatil saydığın, qatil kimi tanıdığın Çax-çux Xalıqa deyilməli sözün nədi, onu de, qadası. Qulaq asıram. Buyur!.. Əmbə nəzərə al ki, Qılınc Qurbanın Məhərrəm Abbasoviçə umudu boş xülyadı. Nəinki respublika prokuroru, heç SSRİ prokuroru da sanksiya verəmməz mənim tutulmağıma. Diqqətli ol, gör necə ciddi danışıram sənnən. Bu iki ulduzdan başqa, müharibə müttəfiqlərimiz prezident Ruzveltin və Çerçillin şəxsən təqdim etdikləri böyük mükafatlara layiq görülmüşəm mən. Çax-çux Xalıq belə adamdı!.. Avtobioqrafiyamın gizlin tərəfləri çoxdu. Açmağa ehtiyac görmürəm, qadası. Bir başqa yerdə böyük məmnuniyyətnən açıb-tökərəm, bu aralıqlarda vurnuxmaqdan birdəfəlik əl çəkib rahat oturarsan. Dünya çox mürəkkəbdi, qeylü-qallıdı, qadası. Çax-çux Xalıq, Xaş nəçənnik, Xəlvət Rəhim və sair "mikroilan" adlandırılanlar "mikro" deyillər, qadası. Süleymanınızın xəzinəsinin üstündə bir yox, milyonlarnan ilan qıvrılıb, ay dünyadan xəbərsizlər! Buyur, indi sözünü de!

Səməd kürəyində Zorbaların nəfəsini duya-duya hiss etdi ki, burda basılsa, camaatın ümidi sınacaq, özü də sınacaq və bəlkə, doğrudan da

---

[36] "Tibb institutu" da dilə rus təbirilə ("AMİ" – Azerbaydjanskiy medisinskiy institut) daxil olmuşdu.

[37] Havalar soyuqlaşandan sonra açılmayan qozaları kollardan dərib "suşilka"larda (soba – "peç" istisində) açırdılar.

məhv olacaq. İki dəfə qəhrəmanın inam və təmkinlə dediyi "Xəzinə" sahibi olammıyacaqsınız" sözlərinə şübhə etmədən, özü ilə birlikdə əmisini də, bu camaatı və bütün xalqı da dərin uçurum qırağında görüb, bayaq Çax-çuxu çağırtdıranda nəzərdə tutduğu "iş"in üstündə daha da möhkəmləndi.

– İlana bir kəlmə də sözüm yoxdu, – dedi. – Yəni söz deməyə çağırmamışam səni. Yadından çıxmayıbsa, yuxu danışmışdın mənə. O yuxun çin olub... – Kitelin yaxasından yapışıb sağa, sola necə dartdısa, düymələrin hamısı partapart töküldü. Təpərli, pis qoxulu nəfəslər Səmədin boyun-boğazına dolub tükünü ürpətdi: Gizlinlərlə birlikdə daim içkili məhlə milisionerləri də üstünə tökülmüşdü.

– Demədimmi toxunmayın! Çəkilin! – bu Gülənovun qışqırtısı idi.

Kiteli Çax-çuxun əynindən çıxardanda elə bir an oldu ki, Səməd ətrafından dağılışan gombullarla, milisionerlərlə birlikdə Xaşı da gördü. Daha doğrusu, ancaq neştərləri gördü: sevinc yox, təntənə də yox, neştərlərin parıltısında qələbə himni vardı. Əmma Səməd "işin ikinci qismi"ndən qalmadı: yeddi il səkkiz ay ərzində yuxuda və xəyalda qatili nə hala salmışdısa, indi eləcə bir hala saldı: ağ maykada cəsədsayağı qabırğaları sananan "qara həyula"da nəfəsdən başqa heç nə qalmadığını hiss edəndə nəfəsə toxunmayıb, Çax-çuxu it məhləsinə tərəf tolazladı.

Nə qədər imkanlı adam olsa da, belə xınc-mınc bədənlə qatil, cinayətlərini Persin üstünə yıxmaq imkanından məhrum olub, azı bir həftə, on gün yataqda qalmalı idi. O vaxta qədər, şübhəsiz, məhkəmənin qərarı çıxmalı, Sultan Əmirlinin, Məhərrəm Abbasoviçin başları açılmalı idi. Səmədə lazım olan da elə bu idi.

Xaş "Dəli Səməd"in belə uzağa baxan gözlərini görmürdü. Xaş bu günə, bu meydana baxırdı və qələbəsini də burda görürdü; Çax-çuxdan əl çəkib geri dönəndə Səməd dərhal başa düşdü ki, "çəkiyə çəkilən"in özünün özünü məhv etdiyinə heç kəsin şübhəsi yoxdur: Xaşın qələbə himni indi Bezobraziye törəmələrinin üzlərində, duruşlarında, tərpənişlərində də çalınırdı: əziz qohum və himayədar Xalıqa baxmırdılar, Xalıqın yerdə döşəli qaldığı bir vaxtda bu adamabənzər adamların hamısı bayram təntənəsilə dingildəşirdi, yırğalanırdı. Çünki Xəlvət Rəhim də paqonlarını taxmış kimi, gurultulu-amiranə səslə "Səməd Mədəd oğlu Əmirlinin çox açıq şəkildə nümayiş etdirdiyi siyasi əqidəsinə və cinayətinə şahidlərin" ad və familiyalarını deyə-deyə, Piylisinin əlindəki dəftərə siyahı yazdırırdı Gülənovun qoşa ovcunda isə "naruçnik" işıldayırdı.

Səməd nəfəsini dərmədən, bu dəfə birbaş Gülənovun üstünə yeriyib, əllərini irəli uzatdı.

– İşimin ikinci qismini də qurtardım. Taxa bilərsən naruçnikini, Xaş nəçənnik!

Gülənov təhqirə cüzi əhəmiyyət də vermədi.

– Hə, indi doğrudan da taxmaq olar, eşq dəlisi!

Bircə an sonra Gülənovu yerdə – Səmədin dizinin altında, "naruçnik"i isə "nəçənniyin" özünün biləklərində görəndə Bezobraziye törəmələrinin işarələrə – əmrlərə tabe cəmdəkləri tamam hərəkətsiz qalıb qurudular.

Səmədin hərəkətlərində isə ildırım sürəti vardı. "Naruçnik"in zəncirindən yapışıb, yüz kiloluq xaş bədəni sürüyüb, Gülənovun öz maşınına tulladı. Şofer də məhlə milisionerlərindəndi: Gülənoğlu Molla Gülənə oxşayırdı. Bir az bundan əvvəl Xaşın özünün işarəsi ilə motoru işə salıb hazır dayanmışdı ki, "Dəlini birbaş dəlixanaya" aparsın. İşi tərsinə görəndə sözün əsl mənasında gözləri kəlləsinə çıxdı. Səmədin heybətli bağırtısı şoferin olan-qalan ağlını da aldı:

– Sür, köpəyoğlu! Rədd elə Xaşınızı burdan! Yoxsa, özüm sürrəm, aparıb meşənin fızıllığına tulluyaram, çaqqallara yem olar, sabah bağırsaqlarını yığarsınız kol-kosun arasından! Rədd ol burdan!

Təkərlərdən tükürpədən vıyıltı qopdu. Geriyə, yanlara toz-duman və yanıq rezin qoxusu yayıldı. Maşın meydanda əyri-üyrü qara izlər sala-sala, qıjıltı, gurultu ilə uzaqlaşdı.

Xəlvətlə Qıllı Çax-çuxa doğru, məhlə milisionerləri isə maşının ardınca getdilər.

Nə Abıdan, Təftişdən, o biri Qəlyanlılardan, nə də camaatdan səssəmir çıxırdı. Bayaq Abı ayağa qalxıb qocalarla birlikdə irəli gələndə, Səməd ağ daş binanın həyətindəki xançal əhvalatını və Seyid kişinin qonaq evinin həyətindəki nitqi xatırlamışdı və Abı irəli gələndə məhz xançal əhvalatına və o nitqə bənzər bir şey olacağını zənn eləmişdi. Əmma Abı susurdu. Hadisə elə gözlənilmədən və elə sürətlə olmuşdu ki, nə baş verdiyini hələ heç kəs dərk edə bilmirdi.

Belə bir vəziyyətdə Səməd yenə də nəfəsini dərməmiş, bayaqkı ağbəniz, qaraqaş, qaragöz qızı – Müşərrəf Mirbağır qızı Bağırlını çağırdı:

– Müşərrəf... bura zəhmət çək.

Qızı çağırırdı, əmma o yenə bədbəxt ailənin – Qarışqa qarı ilə gəlinlərinin, nəvələrinin havada şəklini görürdü.

Müşərrəf vahimələnmişdi. Atası – Mirbağır müəllim də narahat olmuşdu, yenə də dodaqaltı, "Vay, vay! Bu nədi, bu nədi?!" – deyirdi.

Səməd üst-başını düzəltdi. Əllərini daraqlayıb, gombulların dırnaqları altında yaymalanan qandan, tərdən, toz-torpaqdan bərkimiş saçını alnından dala apardı, boynuna tökülən qana bulanmış ovuclarını çirkli yaylığı ilə qurulayıb, Müşərrəfə təpindi:

– Dedim bura zəhmət çək! Yemiyəcəm səni!

Qız tərəddüdlə, ağır-ağır yaxınlaşdı. Nazik aypara qaşlarını və kirpiklərini titrədə-titrədə Səmədə baxdı, əmma bu qorxunc adamın gözlərində nə gördüsə, dərhal dirçəldi.

Səməd özü də ürək-dirək verdi:

– Qorxma məndən, – dedi, – pis niyyətim yoxdu. Mən pislərə pisəm... De görüm... Sən bilirsənmi ki, o qarının haqqını verdilər sənə?!. Atan başa düşər bunu, məncə. Sən özün de görək...

Müşərrəfin ağca üzü pörtdü. Aypara qaşlar gərildi.

– Qarının?!. Xeyr!.. öz zəhmət haqqımı almışam mən. Yüz kilo pambıq yığmışam!.. Hələ bir az da artıqdı. Düz çəkmədi o kişi!.. Günorta hamı tənəffüsə çıxanda mən çıxmadım. Özümə söz vermişdim ki, yüz əlli kilo yığacam. Azı yüz iyirmi, yüz otuz kilo pambıq var orda. Bildir də belə işlədim mən burda, təşəkkürnamə aldım... – Qızın nazik, hissiyatlı dodaqları civə kimi qaynayırdı. – Atamı qarışdırma bura! Bizim ailədə heç kəs heç kəsin işinə qarışmır!

Səbirsizlikdən, az qaldı ki, Səməd əlini o nazik dodaqların üstünə bassın.

– Çalış artıq söz danışma, Müşərrəf. Sualıma cavab ver. Neçənci sinifdə oxuyursan?

Müşərrəf heç nə anlamırdı.

– Onuncuya keçmişəm. Necə ki?

– İnstituta gedəcəksən?

– Darülfünuna gedəcəm. Sergey Mironoviç Kirov[35] adına Dövlət Darülfünuna. Filologiya fakultəsinə girəcəm. Necə ki?!

– Girə bilmiyəcəksən, Müşərrəf. Əgər atan doğrudan da sənin işlərinə qarışmırsa, qəbul imtahanında kəsiləcəksən!

Müşərrəfin pörtmüş üzündə ağ ləkələr əmələ gəldi. Qız dönüb yoldaşlarına baxdı.

– Bu nə danışır?!

Qarışqa qarı ilə gəlinlərinin, nəvələrinin havada şəklinə Mirbağır müəllimlə Muradovanın qaraltıları qarışdı. Səməd əlini qızın çiyninə toxundurdu.

– Maarif müdiri bilir mən nə deyirəm. Rayonda özü bu barədə danışıb. Sultan Əmirli kimi nüfuzlu yoldaşnan döşləşib. Xahiş edək, köhnə, təcrübəli tədris mütəxəssisi kimi izah eləsin, başa salsın qızını, görək niyə kəsiləcəksən.

Mirbağır müəllim duruxmuşdu. Xahişi eşidəndə ortasını fırladıb Muradovaya baxdı:

– İzaha ehtiyac varmı?! Bu nədi belə?! İzahat vaxtıdı?!

Muradova dillənmirdi. Səməd təkidlə: – Rayonda danışdığınızı danışın! – deyəndə Mirbağır müəllim Səmədlə Muradovanın arasında fırfıra kimi fırlandı.

– Rayonumuzda maarif-mədəniyyət işlərinə baxan raykom katibi dayanıb burda... Mənim danışdığım orda qaldı. Hamı şahiddi, Sultan Əmirli yoldaş nə kökə saldı məni. O barədə bir də danışmaq istəmirəm, yoldaş Səməd. Bu gün vəziyyət də başqadı, tələb də.

Səmədin səsi sərtləşdi:

– Tələb?! Tələb olunur ki, kolxozçunun təminatına buraxılan pulu yığıma kənardan cəlb olunanlar aparsınlar?!

Müşərrəf necə pörtmüşdüsə, Mirbağır müəllim də eləcə pörtdü:

– Sultan Əmirli yoldaş qayıdanda ondan soruş. Bu işlərin hamısı onun göstərişidi.

Qarışqa qarı ilə gəlinlərinin və nəvələrinin şəklinə qırmızı tuf daş binanın foyesindəki adamların qaraltıları qarışdı. Səməd pırpız qaşlar altında əzabla dolu boz-ala gözləri gördü. Səsi endi, hətta titrəyən kimi oldu:

– Sultan Əmirli nə vaxt, harda, kimə göstəriş verib ki, o pul qırılan diviziyada qırılanların uşaqlarına yox, şəhər məktəbiynən dəmir yol məktəbinin şagirdlərinə paylansın?!

Mirbağır müəllim yenə duruxdu. Şalvarının cibindən baş yaylığısayağı böyük dəsmal çıxardıb buxağını, boğazını sildi. Gözünün biri Muradovada, biri Səmәddə idi.

– Başa düşmürəm, sən nə istəyirsən məndən. Tutaq ki, izah elədim, Müşərrəf də bildi ki, tədris proqramı alayarımçıq keçiləndə şagirdin biliyi də alayarımçıq olur. Bu il AMİ-yə[36] göndərdiyimiz uşaqlardan soruşublar: "Üzvi kimyadan müəlliminiz kimdi?", uşaqlar bilməyiblər

üzvi kimya nə olan şeydi. Çünki keçən il noyabrın axırınacan pambıqda qalmışdılar, dekabrda da suşilkalarda[37] qoza arıtlamışdılar. Yanvarda tədris müdirləriynən kimya müəllimləri yığışdılar maarif şöbəsinə, dedilər qeyri-üzvi kimyanı zornan çatdırırıq, üzvi kimyaya vaxt qalmır... Qısası, "Kamal attestat"larında üzvi kimyadan qiymət yazmadıq. Nazirlikdən bir axmaq inspektor qışqırdı, bağırdı ki, "tədris proqramını pozduğunuza görə hamınıza töhmət verdirəcəm". Məcbur elədi bizi, yazdırdı qiyməti. Axırı, AMİ-dən uşaqlarımız kor qız kimi qayıtdılar. Burdakı onuncuların aqibəti də elə olacaq. Bu da izahat! Nə çıxar mənim bu izahatımdan?! Rayonda o cür danışdığıma görə möhtərəm əmin yaxamı Gülənovun əlinə verdi! Bu yaşımda, iyirmi ilin maarif işçisi, şəhərin küçələrində özüm qapı-qapı düşdüm, uşaq yığdım! Bugünkü danışığıma görə də möhtərəm əmin, şübhəsiz, özü yapışacaq yaxamdan ki, məktəblilərin əhval-ruhiyyəsinə pis təsir eləmisən! Başa düşmürəm, sən özün nə cavab verəcəksən ona!

Çal, pırpız qaşlar altında əzabla dolu boz-ala gözlərlə Qarışqa qarının, gəlinlərinin, nəvələrinin şəkillərindən başqa, Səmədin nəzərində tək bir nəfərin – Muradovanın qaraltısı qaldı.

– İndi Muradova yoldaşadı sözüm... İcazə ver sənnən elqızı kimi danışım, Məleykə bacı... Bayaqdan baxıram. Susursan. Raykomun təlimatçısı əlləşib-vuruşur ki, kolxozda bu dözülməz vəziyyəti birtəhər düzəltsin, katib heç münasibətini də bildirmir. Niyə, Məleykə?!. Mən hiss eləyirəm, susmağın, əlbəttə, boş-boşuna deyil. Baxışında soyuqluq görürəm. Laqeydlik, yox, məhz soyuqluq! İncimə məndən, elə bil ocaq sönüb, külü qalıb. Hanı məşhur "Diapozonlu Muradova?!" Yalvarıram, incimə sözümdən! Mən səndən kömək umuram. Bu rayonun üç katibindən birisən. Rayonumuzda on yeddi təsərrüfat başsız qalıb. General Persin bircə gündə təyin elədiyi Bezobraziye toxumları hakimdilər hər yerdə. Elimizə-obamıza ürəyi yanan adamlardan, Qılınc Qurbandan, Təftiş Abbasdan eşitdiklərimə görə, camaatı sındırıblar hər yerdə. Bu cinayəti törədənlər mühakimə olunurlar. Əlaltıları hələ fəaliyyət göstərirlər. Stalini, Mirqəzəbi, Persi pisləyirlər, Sultan Əmirlini "Mirqəzəbə qalib gələn Kişi" adlandırırlar, Sultan Əmirlinin özünə istinad eləyə-eləyə camaatı rəzil kökünə salıb, rayonu özülündən sarsıdırlar. Belə vəziyyətdə susmaq olarmı, Məleykə bacı?! Mayda "Şəxsiyyətə pərəstiş" məktubu oxunanda Sultan Əmirlidən narazı danışmısan. "Administrativ tədbirləri"ni pisləmisən. Bəs burdakı bu "cəza tədbiri"nə münasibətini

niyə bildirmirsən?! Sultan Əmirli məcburiyyət qarşısında, kənardan işçi qüvvəsi cəlb eləyirsə, bu o deməkdimi ki, yerli camaat daha da rəzilləşməlidi?! Xahiş edirəm, susma, bacım!

Nəlbəki gözlər açılıb Səmədə dikildi.

– Yoldaş Səməd!.. Biz bura mitinqə yığışmamışıq! Kənardan cəlb olunan işçi qüvvəsinin kolxozlara zərəri haqqında da, yığım kompaniyası müddətində məktəblərdə yuxarı siniflərin bağlanmağının maarifə, mədəniyyətə zərəri haqqında da çox danışmışıq. Düzdür! Şəxsən mən maarif müdirinin fikrinə şərik çıxmışam və raykomun bürosunda öz şəxsi rəyimi tamamilə açıq bildirmişəm. Nəzərinizə çatdırıram ki, bizim şəxsi rəylərimiz şəxsi rəy olaraq qalır. Pambığı "sürətlə, itkisiz yığmaq" haqqında göstəriş Moskvadan verilib bizim Mərkəzi Komitəyə. Yəni Sovetlər İttifaqı adlanan dövlətin mənafeyi güdülməlidir burda, yoldaş Səməd! Budu əsas məsələ! İşi atıb alverə qaçanlara qarşı cəza tədbiri də, məktəblilərə zəhməthaqqı paylanması da kolxozun rəhbərliyi ilə milis rəisinin Mərkəzdən göstərişə diqqətlərinin nəticəsidir! Qonşularınız Tahirlidə də belə nəticə çıxarılıb, Qurbanlıda da. Tahirlidə maldarlıq texnikumunun tələbələrinə gündəlik zəhməthaqqı verilib. Orda bu tədbirə etiraz edən yoxdur. Qurbanlıda şəhər fəallarının ailələrindən cəlb olunanlara gündəlik zəhməthaqqı verilib. Orda da etiraz edən yoxdur. Tək siz, partiya işçisi, Mərkəzi Komitənin göstərişinə qarşı çıxırsınız. Özü də belə kobud şəkildə! Səbəblərini dedilər burda. Sizin əsəbləriniz pozulub, yoldaş Səməd! Aldığım məlumata görə və burda öz gözümlə gördüklərimə əsasən deyə bilərəm ki, partiya işçisinə yaraşmayan nalayiq hərəkətlər edirsiniz. Adamlarla partiya etikası çərçivəsində danışmaq, qüvvələri səfərbərliyə alıb, bütün imkanlardan istifadə yolu ilə yığımı təşkil etmək əvəzinə, şəxsi hisslərinizi ictimai işə qatışdırıb dava salırsınız! Sovet adamları arasında düşmənçilik törədirsiniz! Dəfələrlə xəbərdarlıq olunduğuna baxmayaraq, bir-birinin ardınca adam döyürsünüz! Sizi məsuliyyətə cəlb edən milis rəisini vəzifə başında yıxıb sürüyüb, dözülməz zorakılıqla iş üstündən qovursunuz! Bütün bunlardan sonra isə məni öz biabırçı işlərinizə şərik çıxarmaq istəyirsiniz?!. Sizə nə deyim? Necə yəni "bacı?!" Nə vaxtdan bacınız olmuşam sizin?! Kommunist partiyasının rəsmi işçisiyəm mən! Və rəsmi surətdə bildirirəm ki, əsəbləri bu dərəcədə pozulmuş adamın belə şəraitdə işləməyi qeyri-mümkündür. Siz çox ciddi xəstəsiniz, yoldaş Səməd! Əgər xəstəliyinizi başa düşürsünüzsə, raykoma ərizə yazın, təhkimçilikdən imtina

edin! Onsuz da bu hərəkətlərinizin çox pis nəticələri olacaq. Xəstəliyinizi etiraf etsəniz, həm prokurorluq xətti ilə, həm də partiya xətti ilə müəyyən güzəştə gedə bilərlər. Başqa sözüm yoxdur sizə. Yalnız bunu əlavə etməliyəm ki, mənim adımın yanında "diapozon" sözü raykomun divarları arasında zarafatla işlənir. Siz hətta bu incəliyi anlamaqdan da məhrumsunuz!

Qarışqa qarı Səmədin qucağında idi. Sol qolunun üstündə sinəsinə sıxmışdı. Titrəyə-titrəyə, hıçqıra-hıçqıra uşaq kimi ağlayan qarı ilə birlikdə özü də hönkürməyə hazırdı. Əmma gözlərinə yaş yox, yenə də od dolmuşdu. Qarının calaq-calaq əski-üsküdən ibarət şalını, qoftasını, corabın altındakı gön parçalarını göstərə-göstərə Muradovanın üstünə getdi:

– Budu mənim anladığım! Mən bunun xəstəsiyəm! Bunun o sızıldaşan nəvələrinin, o göynəyən gəlinlərinin xəstəsiyəm! Divar dibində oturub gəvələməyə quru çörək gözləyən Kətyən İbrahimin xəstəsiyəm! Qırılan diviziyada qırılanların arvadlarının, övladlarının xəstəsiyəm! Səkkiz qıznan on iki yetim böyüdən Ayna bacının xəstəsiyəm! Əgər bunları görmürsənsə, bunların qeydinə qalmırsansa, mən səni nəinki raykom katibi, heç insan da saymıram! Diapozonunuz partiya instruksiyalarından kənara çıxmır, diapozonsuz Məleykə! Bu Bezobraziye qazanında çox adam şikəst olub. Sən kimi şikəsti birinci dəfə görürəm. Katib deyilsən, protokolsan sən!.. Qadın deyilsən, buzsan!.. Gözəl deyilsən, idbarsan!.. Sönmüş ocaq dedim mən sənə! Elə sönmüsən, külün də qalmayıb! Mən isə yanıram! Nə qədər ki, yanıram, bu Bezobraziye törəmələrini, gizlin "rabotnik"ləri, mikroilanları yandıracam alovumda! Yaşamağa haqqı olanlara işıq saçacam!.. Raykoma ərizə yazmıyacam. Raykomun tribunasına qalxacam, insanlıqdan məhrum qadın çinovnik haqqında danışacam! Get burdan! Bir də ayağın dəyməsin Qonaqlıya! Qancıq!

Muradovanı elə bil ilan çaldı; dik atıldı, rəngi ağardı.

Səməd hiss etdi ki, bu dərəcədə sərtliyinin üzərində əmisinin nüfuzu da vardı. Çünki katib zənən titrəyib, cavab qaytara bilməyib, maşına doğru yönəldi.

Səməd "Pobeda"nın ardınca da baxmadı. Qarı qucağında, qapantərəzinin yanına qayıtdı. Dümağ piy üzlü Piylini saqqız kötüyünün üstündə oturdub, özləri "ambulatoriya stolu"nun dövrəsində dayanıb pul sayan Qəlyanlıların arasından əlini uzadıb bir dəstə yüzlük – min manat götürdü.

– Belə şeylərnən sənin yaran sağalmaz, a qarı. Hələlik al bunu. Bölünməz fondun hesabına yazarlar, – deyib pulu əski-üskü qoftanın qoynuna saldı...

* * *

Anbarın qabağında, Təftişlə Möhsün kişinin asdıqları “yel fanarları”nın işığında hadisə bununla qurtarmadı.

Hadisənin iki əsas nəticəsi oldu.

Birinci nəticə budur ki, Səməd “kürünüb atılmalı”ları doğrudan da kürüyüb, camaatın hüququnu özünə qaytardı.

İkinci nəticəsi isə budur ki, pambıq çəkiləndən sonra təcili “vedomost”la pul paylananda Torksin birdən şığıyıb, Təftişin “seyf”indən möhürü dartışdırdı:

– Bura ver! Sən gəzdirmiyəcəksən bunu! Mədədimiz gəzdirəcək! Neçə il gözləmişik biz onun yolunu?!

Təftiş nəinki möhürü verdi, üstəlik, əlinin ikisini də yuxarı qaldırıb: – Mədədə mən bir dəfə iyirminci ildə, ikinci dəfə otuzuncu ildə səs vermişəm. Bir də indi verirəm. Kim Torksinin təklifiynən razıdı, əlini qaldırsın, – dedi və Təftiş hələ sözünü qurtarmamış, Qəlyanlılardan başlamış Qarışqa qarının quru-taqqanaq nəvələrinə qədər, bütün Qonaqlılar sevincdən və kədərdən qəhərlənə-qəhərlənə əllərini qaldırıb, beləliklə, “avariya” günündən yeddi il səkkiz ay sonra sədr Mədədin “Bircə bala”sının simasında sədr Mədədə yenidən səs verdilər və Səməd cəmisi bir neçə dəqiqə çəkən qeyri-adi iclasda belə gözlənilmədən kolxoz sədri seçildi.

## 11

Xızr Abının müəmmalı pərtliyi nəzərə alınmasa, qələbə ətrafında hamının, hətta Qarışqa qarının da dirçəldiyinə, ümumi şadlıq, vəcd hökm sürdüyünə baxmayaraq, Səməd özü əldən-ayaqdan düşmüşdü, yəqin ki, içərisi boş olmayan çadıra gedib dincəlməyə ehtiyac duyurdu. Əmma hardasa nal səsləri və Qurban əminin “Qorxmayın! Qorxmayın! Sultan özü gəlir”, – dediyini eşidəndə bədəni tarıma çəkildi.

– Torksin! Qara Zal! Sarı Zal! Qızlı, oğlanlı, hamı dalımca gəlsin. Əlləzoğlunun evinə getməliyik. Hamılıqla! Gəlin! Əlləzoğlunun evinə!

Heç kəs görmürdü ki, enləri ilə uzunları tən gələsi dərəcədə iki kök qadın qaranlıqda biri-birindən xeyli aralı dayanıb Səmədin son sözlərini eşidəndən sonra, hər ikisi eyni iti addımlarla işığa çıxdılar. Gülbəniz Səmədin bir qulağına:

– Neynirsən sən, a canım-ciyərim?! O cırdığın məktubda bədbəxt bacım dönə-dönə yazmışdı sənə ki, Sultan adında adamdan züryəti olmuyacaq, – deyəndə, Şənbə Səmədin o biri qulağına: – Camaatı niyə yığırsan ora?! Bilmirsənmi ki, o uşağı daha saxlamaz qarnında?! – dedi.

Səməd mat-məəttəl Gülbənizin enlənib, krem yaxılmaqdan ağarmış üzünə, gah da Şənbənin əprilmiş yanaqlarına baxırdı: cəmi üç nəfərin – Sultanla qardaşoğlunun və Müslümün arasında olan söhbəti bunlar hardan bilirdilər, doğrudanmı o məktubu Gülgəz özü yazmışdı və uşaq söhbəti də ordandı?!

Səməd bu iki nəfər yad ikən məhrəm, məhrəm ikən yad qadının arasından çıxıb, bir də qışqırdı:

– Torksin! Eşitmədinmi nə dedim?! Gülgəzin yanına getməliyik! İş var!

Belə qəfil, gözlənilməz, qəribə sözlərdən, əlbəttə, çaşmayan, tutulmayan qalmadı. Yalnız Səməd meydandan xeyli aralanandan sonra Torksin: – O boş söz deyərmi? Lazım olmasa çağırarmı bizi? – deyib Səmədin ardınca yüyürəndə başqaları da tərpəndilər.

* * *

Gülgəz qalın, hündür çəpər arxasında, evin sol səmtindəki çardağın altında, boz kilim üstündə dizlərini qucaqlayıb oturmuşdu. Ocağın alovu təzə-təzə qızışıb, qara, yığcam qazanın altından atıla-atıla həyəti az-maz işıqlandırırdı. O tutqun işıqda, cığaları qaşlarının üstünə sallanmış, zərif, doğma sifəti, qaynarlığı, gözəlliyi uzaqdan da sezilən gözləri görər-görməz, Səməd iti, qulac addımlarının öz-özünə yavaşıdığını, hələ Bakıda rulun-sükanın arxasına keçdiyi dəqiqədən başlayaraq beynində dolandırdığı sözlərin yoxa çıxdığını duyub, hətta ətrafındakı cavanları heyrətləndirən sarsıntı ilə dayanıb, başını sağ çiyninə əyib, yazıqlaşdı, məzlumlaşdı. Heç kəs, o cümlədən Səməd özü də bilmədi ki, belə lən-

giməyi arxadan taleyin hökmü ilə gələn Xızr Abının özünü yetirib dəstənin qabağına keçməsinə səbəb oldu.

Abının gözləri geniş açılıb Səmədin, sonra sağ-solundakı cavanların, qızların üzlərində gəzdi. Səsində qəzəb gurladı:

– Deyir görüm məhəbbət nə deməkdi?!

Qızlar oyan-buyana baxdılar. Cavanlardan bir-ikisi pıqqıldaşdı. Sonra hamı Səmədə baxdı, hamısı çaşqınlaşdı.

Səməd özü isə, başı çiyninə əyili, həmin məzlum, yazıq görkəmdə susurdu.

Abı başdan-ayağa müəmma idi.

– Ələsgərin damında dərs keçibsiniz hamınız. Səməddən başqa... "Mövlud keçirmək", peyğəmbər ƏlEy ƏsƏlimin əsli-nəsli haqqında danışmaq ixtiyarı alıbsınız. Peyğəmbərin rütbəsi barədə sual verirəm. Səsiniz niyə batıb?!

Birinci yenə Torksin dilləndi:

– Yeridimi, baba?! Səmədin vacib sözü var Gülgəzə. İstəyirsən sən də gedək.

Abı daha da sərtləşdi:

– Səməd deyib sözünü! Artıq danışıq nəyə lazımdı?!

Səməd qamətini düzəldib, fikrini toplamağa çalışdı.

– Mən heç nə deməmişəm...

Abı əlini çadır səmtinə uzatdı.

– O yuvaları dağılan qaranquşların civiltiləri də eşidilir bu həyətdə. Axşam quyunun üstündə sən o cür danışanda eşidilməyibmi burda?!. Sus indi sən! Hünər göstərib aləmi çaxnaşdırıbsan! Bir çaxnaşma da burda salacaqsan?! Tanımırsanmı Əlləzoğlunu?! Xəstəxanadan çıxarıb gətirib salarlar üstünə, böhtan çirkabında batarsan. Bildin?!. Cavanlara sual verdim. Cavablarına qulaq as sən bunların, gör nə deyirlər... Niyə dillənmirsiniz, bala? Necə yəni "yeridirmi?!" Xızr Abı yersiz danışar?! Cavab ver sualıma! Təzəlikcən dil çıxardıbsan. Danış da!

Torksin, bir gözü Səməddə, bir gözü Abıda:

– "Məhəbbət" rütbədi, – dedi – İndiki dilimizdə təhrif olunub. Əslində cəmi Bağların, OdƏrlərin rütbələrindən biridi. OdƏrcəsi BağHəmOddu (Vahid həqiqət Bağı). Təhrif dillərdə "Muhamməd", "Mühəmməd", "Məhəmməd" və sair müxtəlif sözlərə çevrilib. "Muhabbət", "Möhübbət", "Məhəbbət" sözləri də peyğəmbər ƏlEy ƏsƏlimin BağHəmOd rütbəsindən azıb təhrif olunub. Hər hansı bir insan SafAğ

Elminin əsasını mənimsəyibsə OdƏr – Həqiqət İşığı olursa, eyni zamanda BağHəmOd (Vahid Həqiqət Bağı) olub, Odun – Həqiqətin köməyi ilə insanı insana bağlayır. Həqiqəti bilən insan Həqiqəti bilən insana bağlananda isə, eyni zamanda ƏlEyə – Uca Ələ, yəni ƏlAğa – "Əllah"a bağlanır.

Budur məhəbbət, baba!

Həqiqətdən xəbərsiz insanın "məhəbbət"i təhrif sözdü, təhrif mənadı, yalnız hissiyyata, başqa sözlə, şəhvətə bağlandığına görə, şəhvət hissi öləndə təhrif "məhəbbət" də ölür. Bu deyilənlərə əlavə olunmalıdır: ƏlAğ – "Allah" EySarımız bizi həqiqətdən xəbərsiz insan "məhəbbət"indən qorusun!

Torksin gözlərini Səməddən çəkmədən, gərginlikdən, qəhərdən boğula-boğula udqunda.

Abının gözləri də Səməddə idi.

– Eşitdin?! Dərk elədin?! O çardağın altında oturan bədbəxtimizə az-çox məlumdu bu həqiqətlər. Sultandan dərs alıb bu dörd ayda. Sultanın övladını bətnindən qovmaz o, oğul! Bu barədə Sultana da düz deməyiblər, sənə də. Həm orda – Bakıda başını yeyiblər sənin. O şofer düz adam deyil. Burda da iki zənən deyib sənə bu barədə. Mənə məlumdu bunun hamısı. Sultanın hələ dünyaya gəlməmiş züryətinə anası yox, başqaları qəsd eliyərlər. Bacarırsansa, bax elələrindən qoru o bədbəxti. Təhqirlərə, söz-söhbətlərə dözəmmir. Başa düşdünmü?! O cırdığın məktubu bu yazmayıb sənə. Məktəbin arxivindən bunun "rus dili" dərsindən "diktant" dəftərini tapıb Xaş nəçənnik, Şüşəlidə oturub bunun xəttinə oxşada-oxşada, hırıldaşa-hırıldaşa yazıblar, insanı sözlə zəhərləmək, əsəbiləşdirib öldürmək kursu keçən o ilan zənəni məcbur eləyiblər məktubu versin, görüşdürsün sizi, o yandan da Qudalı itlərini çağırsın, şəklinizi çəksinlər bax o çardağın altında, qəzetə verib ifşa eləsinlər: "Zəmanəmizin Məcnunu Leylisindən qaçmır!" Plandı bu. KQB-də Xudiyevi xəlvəti əvəz eləyən Xalıq Qudalovun şəxsi planıdı! İki zənənə tapşırıb bunun icrasını. Burdadılar ikisi də. Çox yaxşı tanıyırsan hər ikisini!

Ətrafında baş verən hadisələr çatmır sənə, oğul! Çünki çox, çox təmizsən və sadəsən! Bezobraziyenin nə iş gördüyünü bilmirsən. Sarı Zal səndən yaxşı görür Bezobraziyenin əməlini: Varisin başındadı hər şey deyir, o cür taraqqa-taraq vuruşmanın arasında qabağını kəsib başa salır səni, yenə başa düşmürsən kimsən, kim olmalısan!

Abı üzünü cavanlara tutdu.

– Aparın bunu, dərs deyin o çadırda!.. Eşitdinmi, ey pak nadan?! Dərs keçməlisən! SafAğ Varisi rütbəsinə layiq olmalısan! Yoxsa, özünü də məhv eləyəcəksən, əmini də, bizi də və o dizlərini qucaqlayan xoşbəxt bədbəxti də! Bəli, xoşbəxtliyi də var onun. Vaxtı çatanda biləcəksən. Nə baxırsan üzümə?! Göyə bax! Bu aylı, ulduzlu Kainat miqyasında nə qədər bilmədiyin şeylər var! Bir dəfə BağHəmOdun öz sağlığında, iki yüz illik müharibənin lap başlanğıcındaca məhv eləyiblər bu Elmi. Yeddinci əsrdə. Bir dəfə Mənsur Həllacın zamanında – onuncu əsrdə qırıblar alimlərimizi. Bir dəfə Firdovsinin zamanında! Bir dəfə Nizaminin zamanında! Bir dəfə Nəimi ilə Nəsimi bədbəxtlərimizin zamanında! Bir dəfə "Şeyx Səfi" dedikləri Şeyx SafAğın zamanında! Bir dəfə onun oğlunun, bir dəfə də nəvəsi Şah İsmayılın zamanında! Bütün Kürreyi-ərz deyilənin bəşəriyyəti məşğul olur bu işnən ay yazıq Varis balam! Bu doqquzuncu dəfədi. ƏlAğ EySarımızın edamını da əlavə eləsək, onuncu dəfədi! SafAğ Elminin minlərlə ad altında gizlənən milləti özü-özünə qılınc qaldırır indi! "Faraon" dedikləri EvƏrEyÜnlərin zamanlarında EvƏrEy OdƏrlərimizin özlərini o dərəcədə nadanlaşdırıblar ki, ƏrAğları – "ruh"ları birbaşa OdAğÜz BağOdƏrə uçan EvƏrEyÜnlərin hamısına mavzoley tikdirib, yanına da azuqə qoyub guya Yerdə saxlayıblar. İndi cəmi Yer üzündə "Yevrey" düşmən sayır EvƏrEyÜnləri – "Faraon"ları. Niyə? Çünki İlan belə qandırır! "Misr" – BağSar tariximizi öyrənsən, görərsən ki, on bir dəfə yox, bəlkə yüz bir dəfə məhv eləyiblər Varislərimizi! Get öyrətsinlər! Get!

Səməd quruyub qalmışdı.

– Abı!.. Abı, axı, əmimin özünün sözüynən gəlmişəm mən bura!

– Dedim Sultanı başdan çıxaranlar var! Sultanın yox, Müslümün sözüynən gəlibsən! Daha doğrusu, Çax-çuxun!.. Tanıdınmı Müslüm Müslüm oğlunu?!

– Nə?! Nə dedin?! Müslüm bizimkidi, Abı!

– Təkrar eləyirəm: çox, çox sadəsən, uca nadansan, oğul! Bakıda tək ulduzla, mayor paqonuyla, burda qoşa ulduzla, polkovnik paqonuyla qabağına çıxan, kül-xınc elədiyin adamı tanımırsan sən. Xalıq deyil o! Qudalı deyil! Yağır Məmmədəlinin oğlu deyil! Xəlvət Rəhimin qardaşı oğlu deyil! On birinci ildə Səttar xan vurulandan sonra Yağırı aparıb Londonda, Romada – filanda saxlayıblar. Sonra Peterburqa göndəriblər. Sonra yenə Cənuba qaytarıblar. Bax onda Jalə adında bir dul arvadla evləndiriblər, arvadın Xudat adında oğlunu da "Xalıq" adıyla yazdırıb-

lar Yağırın üstə, olub Xalıq Qudalı!.. Əslində heç Xudat da deyil! Heç o dul arvadın da oğlu deyil! Nikolay vaxtından, on yeddi yaşından göndərilib Azərbaycana, burdan da göndərilib dul arvadın evinə... Aç gözünü, yenidən bax Xalıq Qudalıya! Bütün Azərbaycanda Mirqəzəbnən Pers bilir, bir də Sultannan mən bilirik kimdi o. Eşitsə ki, sirr açıram, bax bu camaatın gözünün qabağındaca güllələyər məni! Səni də güllələyər, Sultanın özünü də. O yekəlikdə, o təcrübədə qatil zır-zır ağlayır ki, "Yağır Məmmədəlidi mənim atam! Kim uydurub bu avtobioqrafiyanı?! Rəhim kişi doğma əmimdi mənim!.." İnanmaz! Çünki Peterburqda Rəhimnən Məmmədəlinin qoşa şəklini veriblər, bir-birinin kopyasıdı! Odu ha, Rəhimin evinin divarında!.. Müslüm çox biləndi. Nəsə duyub, ya da nəsə bilir onun barəsində. Odu ki, öl deyəndə ölür, qal deyəndə qalır. Sənə deyib: "Məktub yaz, verim bacıya, uşağına xətər yetirməsin". Sultanın tapşırığı deyil bu! Çax-çuxun tapşırığıdı! Nəyinə lazımıymış elə bir məktub, Qurban soruşub. Açıq deyib ki, "Səməd əmisini vurandan sonra məhkəmədə əşyayi-dəlil nə qədər çox olsa, bir o qədər yaxşı olar". Yəni Müslüm Gülgəzə yox, Çax-çuxa verməliydi sənin məktubunu. Sultan da bilir bunu, Məhərrəm də. Sən elə bir şey eləsəydin, Müslüm məktubu Çax-çuxa verəndə Məhərrəmin adamları almalıydılar Çax-çuxdan. Belə şeylər var, oğul!.. Elə xurd-xəşil süründü hara getdi, bilirsən? Prokuror Sayılovnan həkim gözləyirmişlər Xəlvətin həyətində. Çəkməsinin boğazından xançal çıxarıb, sinəsinin qanına bulayıb verib həkimə ki, "Bax bunnan öldürmək istəyirdi məni o dəli". Bildinmi hansı xançaldı?! Kim aparıb, necə aparıb əmiyin bağından o xançalı?! Necə olub ki, Bakıda Xalıqın dizlərinin üstündə görübsən o xançalı?! Gör nələr eləyir Bezobraziye!.. Ayıl, oğul! Yazıq Qurban lap cana doyub. Deyir "iki yerə bölünsəydim, yarım Bezobraziyeni izliyərdi, yarım da dəlimizin özünü!" Qılınc Qurban deyir ey bunu! Di get! Get! Aparın bunu o çadıra! Yenə qan axır başından. Sestranı çağırın. Acdı həm də bu bədbəxt! Aparın!

Səməd yenə də gedə bilmədi. Necə deyərlər, dirigözlü ölmüşdü. Elə bu vəziyyətində yenə nal səsləri və Qurban əminin xırıltısını eşitdi:

– Müslüm Səmədin dalınca gəlib. Çadırın qabağında gözləyir. Sultan zəng vurub ki, gedəsi olmadım, Səməd özü təcili gəlsin. Yoxsa, həbs eliyəcəklər... Mən sındım, Abı!.. Qılınc Qurban yoxdu daha.

Abının səsi də xırıldayırdı:

– Eşidirsən?! Eşidirsən?! Sındım! – dedi.

Sonra birdən yan tərəfə – alaqaranlıqda qısıq duran Şənbəni görər-görməz atı onun üstünə sürdü. Şallaq iki dəfə şaqqıldadı. Lap güllə kimi. Zərbənin biri Şənbənin sarı, nazik qofta altından qabarmış sağ döşünə, o birisi sol döşünə dəymişdi. Şənbə titrəyib üzü üstə sərildi, qıvrılıb qaldı. Sonra iki şallaq şaqqıltısı da eşidildi. Gülbəniz dözümlü imiş; qoşa əlləri ilə döşlərini sıxıb, ağrıdan gözlərini yumub, ayaq üstə qaldı.

Qılınc atın yüyənini geri burdu.

– Xudiyevdən qalıb bu. KQB-nin zənənlərini qoşa-qoşa işlədirlər!

At dəhşətli tər qoxusu yaya-yaya irəli gəlib nəfəsi ilə Səmədin boynunu yandırdı və Səməd istər-istəməz geri dönüb, Qurban əminin sifətini də tər içində gördü.

– Sultan təkid eləyir telefonda. Getməlisən!

Aralıqda xeyli sükut oldu. Sonra Səmədin heyrətlə dolu asta səsi eşidildi:

– Bura bax... Qılıncım, müəllimim, fəxrim... Necə yəni “Qılınc Qurban yoxdu daha?!” Bu quruluşun, hökumətin zibili çıxsa da... Bezobraziye dünyanı götürsə də, sənin öz dilindən eşitmişəm və bütün varlığımnan inanmışam ki, xalqa arxalanan adama zaval yoxdu! Sürgünlərə, fəlakətlərə, bilavasitə başçılıq eləyən Mirqəzəbnən bir yerdə, xalqın qanını içən casus oğlu casusun özünü həbs elətdirəcəm mən!.. Düzünü deyin görüm kimdi məni kənddən ayırmağa çalışan?!

Yenə sükut oldu. Sonra yenə Qurban əmi xırıldadı:

– Getməlisən!

Səməd də bir kəlmə:

– Getmiyəcəm! – deyib çəpərin arasından Ortayola çıxdı.

* * *

Camaat orda-burda, beşbir, üçbir, girin-girin dayanmışdı. Bürkü və səssizlik içində cırcırama cırıltısından başqa Dam direktor Ələsgər müəllimin deyintisini eşitməyən vardısa, o da hadisələrə laqeyd kimi hələ də elə o vəziyyətdə – dizlərini qucaqlayıb oturan Gülgəz ola bilərdi. Əmma Ələsgər müəllimin deyintisi oraya – çəpərin arxasına da, yolun o biri tərəfində gur işığı yolu vuran həyətə də çatırdı:

– ...Rəhmətlik Mədəd özü deyərdi ki, Elm düzəltməsə, bu dünyanın düzəlməyi qiyamətə qaldı. Qudalılarnan, üstəlik, hamısı paqonlu Gü-

lənovlarnan kəlləbləşməyiniz nə xeyir verəcək sizə?! Təzə sədrinizin hələ seçilməmişdən o cür görünməmiş zorakılıqnan Xaşın biləklərinə naruçnik keçirməyi, sonra da iki dəfə Sovet İttifaqı Qəhrəmanını o hala salmağı nə xeyir verəcək onun özünə, sizə?! SeKa KPSS-dən Bakıya deyilib, Bakıdan da rayonlara deyilib ki, institut, texnikum, məktəb – filan, nə varsa, hamısı saxlansın, əli-ayağı tutanın hamısı yığıma göndərilsin. Sultan Əmirli kimi kişi acizdi bu əmrin qabağında! Bu nə üsyandı belə qaldırırsınız?! Kim verər o pulu sizə?! Həməncə Xaş nəçənnik, rayonun bütün milisəsini bura töküb almıyacaqmı əlinizdən o paylananı?! Axşam Təftiş burda elə ağzını açanda demədimi ki, düzələn deyil bu xaraba?! Bir Səmədiniz – Mədədiniz yox, beşi olsun, siz də lap belə üçpara kənd – sovetliknən qalxın ayağa, neyniyə bilərsiniz?!. Kağız üstündə qalıb bu hökumətin qanunları. Otuz dörd ildə, kolxozun boyunduruğu altında hələ başa düşməyibsiniz ki, Qılınc Qurbanların, Mədəd Əmirlilərin, Təftiş Abbasların işi-əməli otuzuncu illərdən bəri addamayıb, Bezobraziye hökm sürür hər yerdə?! Bizim arvadı da aparıblar o işıqlı həyatə. "Bu Xalıq Qudalovun qanı, ekspertizada belədi, bu da xançalın üstündəki həmin qan! Podpişite, Sestra xanum!" Neyləsin indi "Sestra xanum?!" Min dəfə sübut eləmişəm prokuror Sayılova ki, evimin damında əlavə astronomiya dərsi deyirəm uşaqlara, hələ də açıq saxlayır "sledstvennoye delo"mu! Sestra da qol çəkməsin, o "zaklyuçeniye"yə, nə olar?! Mənim xeyrimi niyə şərə döndərirsiniz, ay istəkli şagirdlərim?! Kəfəni boğazıma dolayıb Elm öyrədirəm ki, siz də öz balalarınıza öyrədin, unudulmasın həqiqətimiz, bu Rus deyilən Divdən yaxamız qurtarsa, imkan daxilində dirildək millətimizi. Elmlilər də eyniynən o Bezobraziye xadimləri kimi, şər – zor yoluna düşsələr, nə olar millətin axırı, ay əzizlərim?!

Səməd yaxınlığında Ələsgər müəllimin gözlərində yaş gördü. Əmma yumşalmadı.

– Bura bax, Ələsgər müəllim!.. Bayaq Xızr Abı sual verdi orda cavanlara. Torksini danışdırdı. Belə çıxdı ki, şeyx babamın, şeyx əmilərimin Elmi olmasa, insan insana bağlanmaz, həyat, yaşayış olmaz... O böyük hərflərnən yazılan dilin böyük hərfnən yazılan Elminə laqeyd deyiləm mən. Abı çox danışıb, məni də maraqlandırıb. Atamın vəsiyyətinə də laqeyd deyiləm. Əmma sualım var: Bayaq Abı beş-on dəqiqənin içindəcə tamamilə aydın danışdı bu Elmin tarixini! "Faraon"ların – EvƏrEyÜnlərin zamanından bu günəcən asıb-kəsiblər alimlərimizi.

Bundan nə nəticə çıxarırsınız?! Məni bu torpağa, bu xalqa bağlıyan SafAğ elmidi?! Üzr istəmirəm kobudluğuma görə, nə demaqoqluq eləyirsiniz burda?! Bu nə təbliğatdı aparırsınız?! Arvadınız qol çəkibsə, o “zaklyuçeniye”yə, özünüz də ona mane olmamısınızsa, əksinə, o işıqlı həyətdən çıxıb bu qaranlıqda yaşayanları da acizliyə, köləliyə çağırırsınızsa, nə ad vermək olar buna?! Abının danışdığı tarix təkrar olunmurmu?! Adınız Dam direktor, gizlin alim, özünüz kimsiniz?! Bezobraziye qulu! Aciz! Rəzil, gözü yaşlı bir ziyalı! Bu yaş nədi axı gözünüzdə?! Kişi deyilsiniz?!

Ələsgər müəllimin rəngi heç vaxt dəyişməyən arıq-quru çopur üzünə qızartı gəldi, çopurları, əksinə, ağardı.

– Kişilik mərdliknən yox, əqli kamilliknən ölçülməlidi, bala. Axır vaxtlar Qılıncınız da dərk eləyib bunu. Çürük Aşığa “Koroğlunun qocalığı”nı oxutdurur: “Tüfəng çıxdı, mərdlik getdi, ay haray!..” Cavanlar gülürlər sənin Qılıncına: “Tüfəng deyilmi sənin mərdliyin?!” Deyir: “Mənim tüfəngimin qundağında yazı varıydı: qalx ey lənətlə damğalanmış ac və çıplaq məzlum dünya!” Deyirlər: “Ac və çıplaq dünya ayağa qalxdı, nəticəsi nə oldu?!” Ağlayır Qılıncınız! Bax belə, bu bədbəxt müəllimin kimi açıq-aşkar göz yaşı tökür. Acizdi “Ədalət mücəssəməsi” Qılınc Qurban ədalətsizliyin qarşısında! Yeni Lenin ol, yeni Oktyabr inqilabı elə, dağıt dünyanı təzədən qur, nə olacaq?! Həmincə ədalətsiz dünya yaranacaq! Elmsiz, yırtıcı cəhalət dünyası!.. Sən qarışma bu camaatın işinə! Bir zəmanə gözləyirik biz. Uzaqda deyil o zəmanə! Ola bilər hətta biz də görəcəyik! Danışma! Çıx get burdan.

Səmədin beyni tutuldu. Heç nə, heç nə danışa bilmədi. Müslüm maşını lap səssiz-səmirsiz sürüb, böyründə saxlamışdı. Qəhərli-qəhərli:

– Getməsən öləcək!.. Getməsən öləcək! – deyirdi.

## ˚▯ ¨ ˝▯▯ ▯▯ ˚ ¨ ˝ ¸▯ —¨

### 1

...O gecə olduğu kimi, Sultan yenə həmin balkonda, həmin vəziyyətdə, islaq yaylıq alnında, arxası üstə döşəli, asta-asta inildəyirdi.

Səməd bir xeyli hərəkətsiz, iniltini dinləyib, nəhayət, dözmədi:

– Görəsən dünyada bu cür yatan ikinci bir insan varmı!.. Mən təzə-təzə qanıram bu iniltinin səbəbini... Oyan, ay əmi! Oyan, qurbanın olum!

Sultan gözlərini açıb, eynilə Səmədin rayon mehmanxanasındakı halı kimi bir hal keçirib, sonra ağır-ağır dikəldi.

– Bilirdim gələcəksən... Məndən nigaran olma, yaxşıyam, – deyib, böyründəki “padnos”a işarə elədi. – Hər halda “dirilik suyu”na ehtiyacım yoxdu. Sərin pivəyə əşədd ehtiyacım var. Saat neçədi?

Səmədin qolundakı sarı şüşəli, köhnə “Pobeda” saatının axırıncı dəfə nə vaxt qurulduğu məlum deyildi. Müslüm öz qolundakı “Pobeda”nı göstərdi.

– Səkkiz?! – Sultan heyrətlə qaşlarını dartdı. – Paatonnan! Səkkizcə saat köpmüşəm! Qalxın, qalxın! Axşam iclası qurtardı. Məhərrəmnən əlaqəmi bərpa eləyib bax bu quşburun kapitan Müslüm Müslüm oğlu Müslüm! Gəlməlidi indicə professorun. Əmma mən hələ heç nə eləməmişəm. Dolma bükmüşdük. Batdı dolma!.. Uşaqları bağdadı. Mən gələndə çağırtdırmaq istəyirdi. Qoymadım ki, üç-dörd gün ikilikdə qalaq, bir az iş görək bu bədbəxt millətin xeyrinə... Yaxşı, neyniyək indi, əlharaylığı nə düzəldək? – Sultan cəld yönəlib, balkonun uzaq küncündə “xolodilnik”i açdı. – Ə, Müslüm oğlu, gəl sən də bax görüm, neyləmək olar?

Müslümlə birgə Səməd də gedib, əmisinin böyründən əlini uzadıb, ət, yağ, göyərti və sair ərzaqla dolu “xolodilnik”dən bir yumurta götürüb, barmağının ucunda Sultana göstərəndə, əmi ilə qardaşoğlu, ikisi də qəhqəhə çəkdi.

Müslüm etiraz elədi:

– Bu qədər şeyi qoyub, yayın günündə qayğanaq yeyəcəksiniz?! Bir də, pivəynən tutmaz axı qayğanaq! İcazə versəniz, qazın, tənəkənin üstündəcə elə kabab düzəldərəm ki, manqal kababı heç nə olar onun yanında! Lap beşcə dəqiqəyə.

Sultan bu təklifdən sevindi.

Səməd isə, düşünmədən, əlini ətin üstünə qoydu, nə isə çox dumanlı və gözlənilməz bəd bir hisslə:

– Kabab yox, kabab yox! – dedi və əmisinin baxışındakı diqqəti görüb, dərhal kənara baxdı.

Əmi də, qardaşoğlu da bircə anda həmişəlik dərk eləmişdilər ki, bundan sonra heç vaxt kabab yeməyəcəklər. Yəni ağ daş evdə o müdhiş gecəni unutmağa çalışacaqlar.

Əlbəttə, qardaşoğlu cavanlıq elədi. Ancaq cavanlıq, təcrübəsizlik və hədsiz ürəkaçıqlığı üzündən, düşünmədən "kabab yox" dedi. Xəlvət Rəhimin cibindən möhürü çıxaranda, Gülənovun biləyinə "naruçnik" keçirəndə olduğu kimi, burda da məhz ürəyinin hökmü ilə əlini ətin üstünə qoydu. Əmma bir yana baxanda elə yaxşı oldu və Sultan burda bir daha fikirləşdi ki, ailənin müsibətindən yaxa qurtarmaq nə qədər çətin olsa da, hər halda Bircə balanı kiçildən hisslərdən uzaqlaşdırmaq üçün Sultan özü də son dərəcə ehtiyatlı davranmalıdır, hissini cilovlaya bilməyən Bircə balanın idealını məhz ideal səviyyəsində tutmaq üçün bütün həyat təcrübəsini, iradəsini, səbrini səfərbər saxlayıb ayıq olmalıdır, rayonda baş verən hadisələrin həddən aşdığını, Bezobraziye murdarlarını kürüyüb atmağın qeyri-mümkünlüyünü də ehtiyatla çatdırmalıdır.

Sultan belə düşündü və qəfil güllə kimi bəd hiss qardaşoğlunu nə qədər dəyişdirsə də, əmi bu vəziyyəti məharətlə dəyişdirdi.

– Gəl belə eliyək, Müslüm. Pendir-çörəknən tərxun və pivə!.. Tezcə duş götürək. Mənim təzə kadrım yumurtasız keçinəmmir. Adama iki-üç soyutma yumurta as, sasiska as. Dolmanı da alçaq xodda qoy. Çox oturacayıq bu gecə. Sabah bazardı. Yoldaşlar sabah qurtarmaq istəyirdilər məhkəməni. Rudenko deyib: "Qara dənizdə çimmişəm, Baltikdə çimmişəm, Xəzərdə çimməsəm Xəzər, inciyər məndən". Sabah dənizə gedəcəklər. Rudenko çox sarsıntılıdı. Məhərrəmə deyib: "Bu canilərin iyirmi illik cinayətləri məni iyirmi il qocaldıb..." Hitlerin canilərini mühakimə edən prokurorun etirafıdı bu. O cür adam beş gündə iyirmi il qocalırsa, o hesabdan görün iyirmi ildə mən nə çəkmişəm. Bu gecə hamısının əvəzini çıxaq, qardaşoğlu. Əvvəl adama bir şüşə soyuq pivə. Sonra duş. Sonra altdan bəqədri-qüvvə araq, dalınca yenə pivə, pivə və pivə! İkicə yeşik almışam, qırxca dənə "Jiquli" pivəsi. Bəsindi?

Səməd gülürdü.

– Qırxını da mənə versən, bəsimdi. Bu şərtnən ki, bir şlanq da verəsən, göbəyimə keçirim.

Sultan şaqqanaq çəkdi.

– Çoxdan bilirəm sənnən zarafat eləmək təhlükəlidi. Hələ dilinə dəyməmiş, distansiya gözləmirsən, qırx dənə "Jiquli"dən sonra neyliyəcəksən?.. Gəl bəribaşdan şərtləşək. Distansiya məsələsini unutmuyaq. Zarafatda da, ciddi söhbətdə də. Əlbəttə, açıq danışmalıyıq. Lap açıq! Bu Müslüm Müslüm oğluna tapşırmışdım, yolda yenə bir az hazırlasın səni, körpü salsın, camaatın o vəziyyətində səni rayondan ayırmağımız

pis təsir eləməsin sənə. İndicə orda işarəynən xəbər aldım ki, işlər necədi? Pıçıldadı ki, "iki tərəfə işləməyimə dözəmmir Səməd". Bəri başdan həkk elə beyninə, əzizim: həqiqi Azərbaycan çekisti məhz iki tərəfə işləyə-işləyə vətənə sadiq qalmağı bacarmasa, bu peşəni təcili atıb, başqa iş dalınca getməlidi. Yığışdır özünü! Çox ərköyün böyütmüşük səni, qardaşoğlu. Nə qədər başıbəlalı olsan da, ərköyünlüyün qalır hələ. Odu ki, deyirəm, şumda şərtləşək, xırmanda yabalaşmıyaq. Danışacam, biləcəksən ki, bu planetdə heç bir xalq bu qədər talesiz deyil. Bax bu fəxrin Sultan Əmirli də iki tərəfə işləyir! Məhərrəm, necə deyərlər, allah bilir neçə tərəfə işləyir. Sən hələ qarışma belə məsələlərə. Danışdıq?!. İndi adama bir pivə! Sonra duş! Qırx dərəcədi istilik Bakıda. – Bir pivə açıb Səmədə verdi, ikincisini açıb Müslümə verdi, üçüncüsünü özü başına çəkdi, nəfəsini dərib: – Oxxay! – dedi.

Boğazını, sinəsini sığalladı, çiyinlərini, qollarını, qıçlarını tərpədib, gimnastikaya bənzər hərəkətlər elədi.

– Deyəsən adam oluram yavaş-yavaş. Dünyamız nə qədər mürəkkəbdi, bir o qədər də gözəldi, qardaşoğlu. Can gəlib dirənir xirtdəyinə, deyirsən mənimki də burayacanmış. Sonra məlum olur ki, demə, Bircə balanın üzünü görmək, üstündən də bircə şüşə pivə kifayətiymiş ki, yenidən adam şəklinə düşəsən. Səhər-səhər Əfəl Məsimin telefonoqrammasını aldım: "Məmiş Əlləzoğlunun xəstəliyi təsdiqlənib. Səmədin həbs olunması üçün əsaslı cinayət işi qaldırılıb..." Məlum oldu ki, Xalıqın işidi. Açıq-aydın gördüm fırıldağı, Məhərrəmə də dedim. Bir də o vaxt ayıldım ki, "təcili yardım"ın həkimi dayanıb başımın üstündə. O vəziyyət hara, bu vəziyyət hara?! Əlimdə pivə, laqqırtı vururam! Hələ bir beyin də işlədirəm ki, necə eləyim, qardaşoğluynan söhbətimi hardan, necə başlayım ki, rayondan belə dalbadal qaçırılmağının səbəblərini düzgün anlasın, professorundan, əmisindən inciməsin, əhval-ruhiyyəmiz bir də buna görə dəyişməsin!

Şüşənin içindəki seyrək köpük qabarcıqlarına baxdı.

– Düşmənin ömrü belə olsun. İndicə doluydu bu şüşə. Ağzı açılanda coşdu-daşdı. İndi bomboş! Köpük qalıb yerində...

Səməd fikir verirdi: əmisi "söhbətə" keçməyə çalışırdı, əmma doğrudan da "Hardan, necə başlayacağını" bilmirdi, əməlli-başlı çətinlik çəkirdi, bəlkə əzab çəkirdi.

– Ay əmi, "duş" dedin, tər aparır axı səni...

– Hə?.. – Sultan hələ də şüşəyə baxırdı. – Deyirəm, köpük qalıb. Bir azdan köpük də qalmıyacaq. Nə vaxtsa etiketi də qoparılacaq. Ondan sonra heç kəs bilmiyəcək ki, vaxtilə bu şüşədə pivə varıymış... Filosof nə fikirdədi bu barədə? Etiketi qoparılsa, bu şüşənin məhz pivə üçün düzəldildiyini bilən tapılar?

Müslüm “padnos”a yumurta yığa-yığa gözaltı Səmədə baxırdı. Səməd hiss etdi ki, “etiket” sualının ardınca Müslümün yolda dediyi bir xəbər – “Bircə balanın Bakıda qalmağının vacibliyi” barədə təklif gəlib, əmisinin onsuz da zahiri gümrahlığını alacaq, qardaşoğlunun Bezobraziye murdarlarına divan tutmaq niyyətinin, yəni lap tezliklə rayona qayıtmaq fikrinin qətiliyi bilinəndə, şübhəsiz, mübahisə başlanacaq, nəticəsi isə yəqin ki, yenə “dirilik suyu”, bəlkə hətta “təcili yardım” olacaq. Quş gözlərində açıq-aydın qorxu da “dirilik suyu”ndan, “təcili yardım”dan xəbər verirdi. Doğrudanmı Bezobraziye qalib idi?!

Səməd əlindəki şüşəni “xolodilnik”in üstünə taqqıldatdı, əmisinin xəbərdarlığına baxmayaraq, doğrudan da “zəhləsi gedən” Müslümü hirslə itələyib pivə götürdü, açıb başına çəkdi.

– Filosof bu fikirdədi ki, materiya birincidi, şüur ikinci. Qarın boş olanda baş işləmir. Mənim özümün sənə o qədər sualım var ki, uc-uca calasam, səhərə qədər qurtarmaz. Başla, əmi, nə deməlisən de!

Sultan da şüşəni “xolodilnik”in üstünə taqqıldatdı.

– Marş, marş! Duş! Birinci duş! Gün batandan sonra da od yağır... Pəncərələrin, qapıların hamısı açıqdı, yenə hava tərpənmir. Xəzri olmuyanda batır da Bakı. Dünəndən bəri Məhərrəmin duşudu məni saxlıyan. Su yaxşı gəlir burda. Əla duşdu!..

Sultan danışa-danışa, bələdçilik eləyib, onu qapının arxasındakı dəyirmi foyedə palma ağacının yanından sola, qaranlıq dəhlizə apardı, işığı yandırıb, dəhlizin sağındakı qapını itələdi. Əmisi bir şey deməsə də, Səməd başa düşdü ki, dəhlizin solundakı vanna otağı bu mərtəbədəki ikinci ailənin, yəni “bacanaq” Xalıq Qudalovundu. Əmma bu mərtəbədə cəmisi iki mənzilin üzbəüz qapıları kimi, vannaların üzbəüz qapıları da heç bir təəssürat oyatmadı. Səbəbi yəqin bu idi ki, əmisinin iniltisini eşitdiyi andan hər küncündə bir mismar işıldayan qapaq gözlənilmədən görünüb, “Çax-çux”, “Həyula”, “Kobra”, “Mayor Qudalov”, “Polkovnik Qudalov”, “İki dəfə qəhrəman” adlarında çoxadlı, çoxüzlü cani ilə bütün Bezobraziyeni də çəkib bu evə gətirdiyinə baxmayaraq, Səməd caninin özü ilə birgə ətrafındakıları da həbs ərəfəsində çapa-

layıb nə isə eləməyə çalışan, əmma öz ölümlərini yaxınlaşdırmaqdan başqa bir şeyə qabil saymadığına görə burdakı qapıların qabaq-qarşılığına əhəmiyyət vermədi. Əmisinin ardınca içəri girib, ikinci bir saray genişliyində böyük su çəni, nəhəng samovar, qaz plitələri və qırmızı məxmərlər arxasında yan-yana "duş"lar, "vanna"lar görəndə isə, qapıların qabaq-qarşılığını da unudub, valehlik göstərdi.

– Bu nə dəm-dəsgahdı, ay əmi!

Sultan köynəyini soyuna-soyuna qımışırdı.

– Hə, belədi!.. Üç vanna, üç duş! Kefin hansını istəyir, seç. Öyrədimmi? Özün aça bilərsən?

Səməd sarımtıl yağ boyalı divarlarda qoşa-qoşa lampalara, döşəmədə əlvan metləxə, qara dəri "tyubik"lərə, dəmir ayaqlı uzun stol üstündə balıqqulağı külqabılara baxırdı.

– Məhərrəm Abbasoviçin ailəsi böyük deyil ki! Neynir bu qədər dəm-dəsgahı?!

– Ailənin əsas mənzili başqa yerdədi. Bura ayrı cür evdi. – Sultan divar şkaflarından birinin qapısını aralayıb, yan-yana asılmış açıq mavi köynəklərin çiyinlərində general-leytenant, general-mayor, polkovnik, podpolkovnik paqonlarını göstərdi.

– Aydındı?... Necə deyərlər, quş gəlsə qanad salar, dəvə gəlsə dırnaq salar! Əmma sən öz şəxsi mənzilin kimi ola bilərsən burda. Lazım gəlsə, palmanın o yanındakı kabinetlərdən birinə də yiyələnə bilərsən. Bura ayaq basan adamların imtiyazları böyükdü. Bildin?

Sultan divar şkaflarından ikincisini açıb, paltarını asıb, məxmər pərdələrdən birinin arxasına keçdi.

Səməd paltarını "tyubik"lərdən birinin üstünə atıb, Müslümün haradansa bir cüt qara "trusı", bir cüt tor "mayka", bir cüt də ağ, qolsuz köynək gətirib, müəmma ilə: – Bu evdə hər şey sənindi, – dediyini eşidəndə nə isə çox dumanlı narahatlıq hiss etdi. Duşun altında bəlkə heç beş dəqiqə də səbr edə bilməyib, yalnız başındakı xırda-xırda yaraları ehtiyatla yuyub, çıxıb Müslümün açdığı üçüncü divar şkafından mələfə götürüb qurulandı, orda-burda zərbə yerlərinin şişi hələ o qədər də çəkilməmiş bədəninin üstündə biçilmiş kimi rahat paltarı geyinib, dumanlı narahatlığın səbirsizliyini duya-duya:

– Mən söhbətə hazıram, əmi, – dedi.

"Söhbət çoxdu..." Əlbəttə, çoxdu. Bütün yol uzunu Səməd demək olar ki, hər on-on beş dəqiqədənbir mürgüləyib, dərhal da nədənsə

diksinib oyanmışdı və vaxtı ilə ağ daş binada, divanda əmisi ilə yanaşı oturan görüntünü – atasını maşının şüşəsi arxasında, qaranlıqda görmüşdü. Əmma sədr Mədəd "Sultanı dinlə! Sultanı dinlə!" – sözlərindən başqa bir şey deməyib yoxa çıxmışdı. Belə vəziyyətdə, anlaşılmaz qayğı-yük altında, mürgü ilə sərsəmlik arasında üzülmüşdü. İndi isə, pərdə arxasındakı su şırıltısına qulaq asa-asa, qaz qoxulu alovun gurultusunda çardaq altında, ocaq qırağında hərəkətsiz Gülgəzi, Torksini, Abını, Qılıncı, kəndi, cəmaatı, hadisələri bütün təfərrüatı ilə görürdü və anbaan əsəbiləşə-əsəbiləşə elə bil kənar bir iradənin hökmü ilə bir növ mexaniki danışırdı:

– Abı açıq-açığına qovdu məni! Qurban əmi də qovdu! Ələsgər müəllim də! Cəmaat dördəlli yapışıb məndən. Ağsaqqallar qovurlar! Müslüm bir yandan müəmma saçır, sən özün də bir yandan! Hamı sirdaşdı mənim əmimnən, tək Bircə balasından başqa!.. "Vərəsə"dən xəbərim yoxdu, əmma özüm Varis adlanıram! Atam Elm qurbanı olub, bilməmişəm! Xalq sürülüb, qırılıb, bilməmişəm! Niyə susmusan, əmi? Niyə kor böyütmüsən məni?! Təhlükələrdən qorunmaqdan ötrü hökmən kor qalmalıydım mən?! Hamı, hamı, hətta Cəfər əminin Torksin qızı da həqiqi alim kimi danışır, mən gözlərimi döyürəm! Ya da, təbii olaraq, hamıya etiraz eləyirəm. İnsanın məlumatsızlığı lap dəhşətli faciə imiş!

Şırıltı arasından gülüş eşidildi.

– Qaynama, Dəli Səməd! Deyəsən vəziyyətini hiss eləmisən! Elə ona görə belə qaynayırsan.

– Qaynayıram! – Səməd yumşaq çəkələkdə ayağını metləxə necə çırpdısa, pəncəsinə saysız-hesabsız iynə dolmuş kimi, sızıltı sümüyünə işlədi. – Belə getsə, doğrudan da dəli olacam! O nə "etiket" söhbətiydi?! Məhərrəmov kimi arxası olan, Rudenkoya söykənən adam da "etiketinin qoparılmağı"ndan qorxarmı, əmi?! Mənim "cinayət işim" qopardacaq sənin "etiketi"ni?! Bezobraziye niyə məğlubedilməz olsun axı?! Stalin ölməyibmi?! Mirqəzəb tutulmayıbmı?! Əl-qolunuz açılmayıbmı?! Heç olmasa qismən açılmayıbmı?! Nə vaxta qədər tək kimi qalacam! Yoldaşlarım, dostlarım, əmim, Qılıncım, Təftişim var, – əmma elə təkəm!

Qurban əmi gözümü açdı bir az. Sonra məlum oldu ki, "Vərəsə"ni gizlətmisiniz məndən. Abı çox şey dedi, əmma başımı dumanlandırmaqdan başqa bir xeyri olmadı... Atamı görürəm! Bax belə, səni gördüyüm kimi!.. Səsini eşidirəm! "Sultanı dinlə" deyir!.. Qırx altıncı ildə

Naxçıvana "duz" səfəri aydındı, Mirqəzəb varıydı onda, Pers varıydı, mübarizə gedirdi! İndi niyə süst kimisiniz?!

...Cəfər əminin, yetimlərin başlarına gələnləri, "on yeddi nəfərin işi"ni təzə bilmişəm! On iki dekabr qırğınının əsrlərdən gələn siyasi köklərini indi bilirəm!

Vaxtilə mənim həyatımı proqramlaşdırmışdın sən. İki il bundan qabaq bura – Bakıya göndərəndə dediyin sözlər indi də qulağımdadı: "Hər şey proqram üzrə gedir, qardaşoğlu. Get oxu, gəl vətənə xidmət elə". Həyatdan baş açmıyan adam necə xidmət eliyə bilər vətənə?! Vətənim "Midiya" – BağOdEydisə, Bağdaydısa, niyə indi bilirəm mən bunu?! "Sultanı dinlə! Sultanı dinlə!" Özü tamam aydın görünür, sevincimi dərdə qarışdırıb gedir! Bu nədi belə?! Antiq dünyaya düşmüşəm, nədi?!

Sultan yenə qəh-qəhə çəkdi.

– Antiq dünyaya yox, təzə-təzə həqiqət dünyasına düşürsən! – dedi. Mədəd niyə deyib "Sultanı dinlə?!" Qurban sənə deyir: "Saşa, Pişəvəriyə xəbər çatdırıb ki, "Səni bu gün Astara yolunda öldürəcəklər. SeKa-ya zəng vur ki, ailəm Ağdamdadı, gedirəm görüşüm, gəlim, sonra maşınını sür o yana, keç sərhəddi, özünü xilas elə. Pişəvəri çox etibar elədiyi "Nun" kliçkalı yoldaşına sirr verib, onu da götürüb, özü oturub rulda, maşını sürüb birbaş Borjomiyə ki, orda dağ döşündən dar dolayı yolnan Türkiyə sərhəddinə getsin, ordakı gizlin fədailərin köməyiynən keçib getsin". Əmma həmin dolayı yolda bir "qruzovik" çıxıb qabaqdan Pişəvərinin maşınını vurub salıb dərəyə – Kürə! Kür çayı orda lap balaca dağ çayıdı, daşlı, qayalıdı. Əzik-üzük olub maşın, bədbəxt Pişəvərimiznən..." Bu qədər bədxəbər sözdən bir kəlməsini eşitmisənmi, ay əzizim?! Yox! Çünki fikrin "qara saç, çal saç" yanında olub! Atan danışdı mənə bu bədbəxtliyi... Sonra özüm dedim burda ki, "Dağlı gürcü dostum doktor Revazın oğlu Mark Bortolidə KQB-də həkim işləyirdi. Zəng vurdu məni çağırdı, getdim Pişəvərinin maşınının dərəyə uçan yerini göstərdi: "Vot otsyuda brosili vaşeqo Pişəvəri!" Maşının əziyini gətirib Yevlax tərəfdə körpünün böyrünə tullayıblar. Qayıtdım onu da gördüm, guya Pişəvəriynən bir yerdə avariyaya düşən çekistimizi – "Nun" kliçkalı dostumu da gördüm xəstəxanada. Qıçının üstündən gipsi kəsdirdi, sap-sağlam qıçını göstərdi, mərd-mərdanə!.. Eşidirsən?! Suyun şırıltısını da kəsmişəm, deyirəm: "Budu əmiyin cinayəti!" "Nundan so-

ruşdum ki, Pişəvərinin heç bir son sözü olmadımı?" Dedi: elə, "fəlakət! fəlakət!" deyirdi. "Demokrat firqəsini bağlayacaqlar!" – deyirdi...

Heç kəsə heç nə demədim. Qanını batırdım Pişəvərinin. Budu əmiyin ikinci cinayəti!.. Eşidirsən?!

Səmədin beyni uğuldayırdı.

O da öz sözünü deyirdi:

– Partbiletimin arasında şeyx əmilərimin qəbirlərinin şəkillərini gəzdirirəm. Necə yəni "Boqi obezqlavlenı?!" Yer Bağları, deyirsiniz, xaliq deyillər... Olmasınlar! Niyə bu qədər acizdirlər?! Necə yəni "Bağ varisi?!" Heç cür, heç cür təsəvvür eliyəmmirəm. Qəribə-qəribə gizlin söz-söhbətlər! Atamın indi o cür görünməyi! Nədi bu, ay əmi?! Nədi bu?! Kobud danışıram, bağışla, sirr dağarcığısan!

Sultan mələfəyə bürünüb çıxıb, qara dəri "tyubik"lərdən birində oturdu.

Çimməndən sonra rəngi avazımışdı. Pırpız qaşlar çatılıb, enib gözlərinin üstünü örtmüşdü.

– Şalvarımın cibinə bax, gör papiros qalıbmı?

"Kazbek" qutusunda beş-on papiros və kibrit vardı.

Səməd dedi:

– İcazə ver birini də mən yandırım.

Nə vaxtsa, uşaqlıqla ilk gənclik arasında Yusif kimi gözəl Yusif Cəfər əminin tütünündən oğurlayıb, qəzetə büküb çəkəndə Səməd də çəkmişdi, Yusifdən ayrılandan sonra tütündən də ayrılmışdı. İndi nədənsə birdənbirə meyl yarandı. Götürüb "kazbek" yandırıb, tüstü qaynağına baxdı.

– Mənə ən çox əzab verən budu ki, duman içindəyəm... Müslüm nələr danışır mənə! Heç nə, heç nə başa düşmürəm. "İstoriya Midii" kitabında nə varsa, hamısı yalandı?! Hamısı?! Niyə bu dərəcədə?! Bizim keçmişimizi belə gizlətməkdə sovet alimlərinin qəsdi nə olub?! Bir tərəfdən aydındır; əhali özünü tanımasın! Bəs siz... Siz ki bilirmişsiniz hər şeyi! Elm barədə eşitdiklərimi nəzərdə tutsaq, belə çıxır ki, lap savadsız qalmışam mən. Hamı "nadan" deyir. Hamı!.. "İstoriya Midii"ni bittə-bittə oxumuşam, Midiya hökmdarları barədə Herodotun, Ktesinin xronikalarını əzbərlətdiriblər: "Astiaq"-filan!.. Bir nəfər də

---

[38] "Biz Boqlarla mübarizə edirik ki, insanı xoşbəxt edək!" "Budu bax, "Bibliya", oxu, Sultan: "Avram Boqa qalib gəldi!" Başa düşdün?!"

[39] "Demək, "Bibliya" yalan deyir?!"

OdƏr Türk adı yoxdu o xronikalarda. Bütün tələbələr bir səsnən soruşurdular: “Niyə belədi?!” Məhərrəm Abbasoviç gülürdü: “Belə suallara cavab vermək olmaz.!” Niyə axı?!. İndi məlum olur ki, illər uzunu oxuduğumun hamısı yalanıymış! Bağdayı “Maday”, “Mada”, “Midi”, “Midiya” yazıblar! Bağdayın ilk ərazisi Olamın adını “Elam” yazıblar! Müslüm deyir “Elam” çox təhqiramiz sözdü. “Bağıstan” sözünü necə qəsdən “Bi sütun” eləyiblərsə, “Olamı” da o cür “Elam” eləyiblər! Olamın sahibi Ulu Bağı “Lullu bəy” yazıblar! Sən də bunun hamısını bilirsən! “Elam”, “Lullu bəy”, “Bisütun”, “Ar az”, “Az ər!..” Gah “Ac atan” yazıblar, gah “Xan adan!”, gah “Tavriz”, gah “Tər biz”, gah da “Təb riz!” Partiya məktəbində baş-başa yığışırdıq, hamımızın üzümüzdə heyrət, dəhşət: “Atropatan” hara, “Azərbaycan” hara?!. Təkcə sənin dostun Heydər Hüseynov deyirdi: “Özünüz də görürsünüz ki, başqa-başqa sözlərdi. “Az ər”+“bay”+“can” da sonradan düzəldilmiş şeydi. Biz bir şey deyəmmirik sizə. Özünüz fikirləşin, axtarın görün niyə belədi?!” “Azər”dəki iki sözü – “az ər”i də o deyib bizə, “Araz”da iki söz olduğunu da, “ar az”. Bu cür hırıltı! Təhqir! Bunu yazanı da yaxşı tanıyırmışsan sən, təsdiq eləyən akademikləri də!.. “İki tərəfə işləyən” şoferin, açığı, əməlli-başlı şübhə yaratdı məndə sənə qarşı. Herodotun yazdığı “neponyatnıy midiyskiy yazık”ın Odu da, Əri də, OdƏr dili də “ponyatnıy” olduğunu vaxtında deyəmməzdinmi, əmi?!. Müslüm deyəndə ki, Olamı “Olimp” eliyən Qreklərdə, əslində Ulu Bağın sarayındakı daş yazılarında dil indiki dilimizdən çox az fərqlənir, yaş boğdu məni!.. Atam ölən günü bilməliydim mən ki, şeyx əmilərim Olamın xarabalıqlarından ana dilimizdə yazılı daş kitablar yığıblar, fədai yurdunda illərnən oturub ərəb dilinə, fars dilinə tərcümə eləyiblər. Paytaxtımız ƏrEydən qovulmuşuq, Farslar ƏrEyə “Rey” deyiblər, “müqəddəs” din kitabları ƏrEyi “Ray”a döndərib əfsanəyə çeviriblər! “Ray”dan qovulan OdƏrləri tək insan qələmə veriblər! Dəhşətə bax!.. “Sultanı dinlə!”, “Sultanı dinlə!..” Sultan dillənmirsə, mən necə dinləyim Sultanı?! Yeddi yüz əlli cildlik kitabxana!.. O tay-bu tay vətənimizin tarixi! Kitabxanamızın çox hissəsi elə maşın kalonunun təkərlərinin altında məhv edilib! Müslüm deyir o duz səfərinin səhərisi Culfadan, Naxçıvandan zəng vurdular Sultan Mamedoviçə, mən bir də getdim deyir Əlincə qalasının yanına. İlan dağı var, deyir, orda, İlan dağının ətəyi, sağ-sol düzəngahlar dümağ ağarırdı – kağıznan doluydu. Külək yoldan aparmışdı, deyir, maşınların təkərlərinin altında asfalt da xıncmınc kitab-

nan, kağıznan doluydu deyir... Erməni katolikosların ərazi-filan barədə məktubları heç nədi Ulu Bağ ƏsƏlmənin – "Süleyman padşahın yerin altında qalan "xəzinəsi"nin yanında! Ermənilərin məktublarına, Stalinin teleqramına görə yox, "Vərəsə" kitabxanasına, Bağday tarixinə görə öldürüblər atamı! Məhz tarixə görə sürülür, ərazilərimizdən uzaqlaşdırılır bu xalq! Düzdü?!. Bu müsibəti vaxtında bilsəydi, kim olardı bu indiki Dəli Səməd?! Atam ölən günü bilməliydim mən ki, general Persin uydurduğu "qan düşmənçiliyi" üstündə yox, "Allah" – ƏlAğ uğrunda, Bağday uğrunda, Ulu Bağ ƏsƏlMən – "Solomon" uğrunda qurban gedib sədr Mədəd! Sultan Əmirlini bütün varlığıynan sevən ürəyim var mənim. Əmma sevgim kordu! Beynim boşdu! Deyirik "mühit yetirir insanı". Mühitim də belə qapalı! "Batin!" İncimə məndən, qurbanın olum, əmi, səni sarsıtmağa gəlməmişəm bura. İstəyirəm, doğrudan da açıq, mərdanə danışaq, doğrudan da heç bir gizlin şey qalmasın aramızda. Bu saat sən qapalı dünyasan məndən ötrü. Məsləkdaşın Qılınc Qurban bir cür qapalı dünyadı, sirdaşların Xızr Abıynan Ələsgər müəllim başqa cür qapalı dünyadılar. Bütün millətin özü qapalı dünyadı! Qapılarınız təsadüfdən təsadüfə açılıb tezcə də qapanır! Nəsə eşidirəm, görürəm, onda da bircə şey dərk eləyirəm: dünyadan xəbərim yoxdu!.. Acam mən, əmi! Həqiqət acıyam! Ağıl, idrak acıyam! Belə vurnuxa-vurnuxa, əslində, demə, həqiqət axtarıram mən!

"Duş"dan düşən tək-tək damcıların daha da dərinləşdirdiyi sükut içində ağır addım səsləri eşidildi, palma ağacı səmtindən bəri yaxınlaşıb qapının arxasında yavaşıdı. Qaşlarını çatıb qapıya baxan Sultanla birlikdə Səməd də hiss etdi ki, ayaqları çəkələkli, ehtiyatlı Müslüm deyil bu gələn, kim isə başqasıdır.

Sürməli qadın gözləri qapının arasından içəri boylananda prokuror Sayılovun bu gəlişi Səmədi nə qədər heyrətləndirdisə, Sultanı, əksinə, bir o qədər sevindirdi.

– Bu da bir nəfər "iki tərəfə işləyən"imiz, qardaşoğlu! Gör indi neyniyəcək bu qoltuğu qovluqlu Bezobraziye murdarı!

Sayılov gülümsünməyə çalışırdı:

– "Bezobraziye" elə hamımızın möhürümüzdü, Sultan Mamedoviç! "Murdar" bir qədər insafsızlıq olar. Kəlbəcərin SafAğ – "Səfa" dağının əb-həvasından da saf ab-havasında böyümüşəm. İlk dəfə orda prokuror olmuşam, məhz saflığıma görə yoldaşlarım sənin rayonuna göndəriblər axı məni!.. Belə danışa-danışa irəli yeriyib, üstündə "Delo" yazılmış

qalın kardon qovluğu açıb, kağızları bircə-bircə göstərməyə başladı: – Bu "Səməd Mədəd oğlu Əmirli haqqında cinayət işi!" Bu, müxtəlif vaxtlarda müxtəlif həkimlərin tərtib etdikləri, cinayətləri təsdiqedici sənədlər! Bu da müxtəlif adamların ifadələri, müxtəlif rabotniklər tərəfindən yazılmış, müzakirələrdən keçmiş, yoxlanmış, milis şöbəsi ilə bizim tərəfimizdən təsdiqlənmiş müxtəlif xarakterli materiallar. Oxusanız, lap elə-belə, ötəri tanış olsanız, şəxsən sizə pis təsir edər, Sultan Mamedoviç. Odur ki, icazənizlə, qardaşoğlunuzun özünün şahidliyi ilə, sizin gözləriniz qarşısında cinayət işini büsbütün məhv edirəm. Əvəzində çox adi və çox sadə bir xahişim var: "Bacanağ"ın məni işdən qovdurmasına yol verməyin, Sultan Mamedoviç! Qardaşoğlunuz qədər saf insan yoxdu bu dünyada. Mən bilirəm onun qiymətini. Siz də həqiqətən murdar adamabənzərlər arasında mənim az-çox insanlığımı qiymətləndirin. Yaşımın, yaddaşımın, Qılınc demişkən, "kaporavalni" vaxtında sizin AğBizənli Alının sazını, sözünü dinləmişəm. Elm öyrənmişəm. Ürək adamıyam mən, Sultan Mamedoviç, soyuq mühakimələr prokuroru deyiləm! Budur, cırıram bu Bezobraziye materiallarını!

Kağızların hamısını parça-parça eləyib, həmin qovluğun arasına doldurub döşəməyə qoydu.

– Rahatlığınıza xələl gətirdiyimə görə üzr istəyirəm!.. Həmişə qulluğunuzda hazıram! – deyib getdi.

Müslüm gəlib, qovluğu götürdü.

– Tək Sayılovun işi deyil, hamısı belə qərara gəlib. – dedi. – Başqa qurğuları var. Təxminən bilirəm, deyəsən sui-qəsddi. Məhərrəm Abbasoviçə çatdırdım. Öz mühafizəçilərinə göstəriş verdi. Heç narahat olmayın.

Sultan qovluğu alıb, cırılan sənədləri gözdən keçirdi.

– Yaxşı oldu, bu valakitadan canımız qurtardı, Müslüm. Qonaqlar gəlmirlər?

Müslüm qovluğu qoltuğuna vurub qımışdı.

– Dəniz vurğunu Rudenko dənizdən aralanarmı?

– Bu da yaxşı oldu, Müslüm. Belə bürküdə qonaqnan oturmaq çətin işdi... Bircə balaynan oturmaq isə hər ikimizin xeyrimizədi... Demək, sui-qəsd?

– Bəli... Siz çox narahat olmayın. Mən özüm də nəzarət dəstəsiynən əlaqə saxlıyacam.

Sultan şoferinin səsinin titrəyişinə diqqət yetirməyə bilməzdi. İstər-istəməz sərtləşib:

– Yaxşı... get! – dedi...

## 2

Müslüm gedəndən sonra Sultan dönə-dönə başını bulayıb, papiros sümürdü.

– Sui-qəsd... Yenə sui-qəsd! Ağ Əmirnən Boz Əmirin başlarını xurcunda gətirib nümayiş elətdirdilər qələbələrini! "Boqi obezqlavlenı" yazdılar, yenə də qələbə hiss eləmədilər. O tayda qırğınlar, bu tayda sürgünlər, qırğınlar! Türkiyədə bədbəxt AtaTürkümüzün öldürməknən kifayətlənməyib orda da gizlin qırğın getdi! Ermənilərin aralarındakı Sovet kəşfiyyatçılarıynan bir yerdə Andranikin qılıncını işə saldılar! Yenə sakitləşmədilər! Pariji, bütün Avropanı Erməniynən doldurub tufan, tünü kimi antitürk təbliğata başlayıb dünyanı əleyhimizə qaldırdılar! Guya Bakıda on səkkizinci ildə Türkü qıran da Erməni deyilmiş! Guya əsas neft yataqlarını xaricilərə satan da Erməni deyilmiş! Hətta Leninə məktubları var: "Baku, eto armyane i ruskiye!" Uddular var-yoxumuzu, yenə də qələbə hiss eləmədilər! Yekəbaş, pensneli "ziyalı" Beriya Moskvaya çağırdı, gözümün içinə dedi: "Mı boremsya s boqami, çtobı osçastlivit lyudey!" "Vot "Bibliya", proçti, Sultan: "Avram pobedil Boqa". Ponyal?!..[38]

"Bir gecə səhərə qədər içə-içə mübahisə elədik, çalışdım başa salım ki, "Avram" deyil, EvƏrimdi, Bağ Atanın oğludu, atasıynan döyüşməz. Qanmadı: "İtak, "Bibliya" vret?!"[39]

Yenə çalışdım qandırım ki, "Bibl"iya deyil əsli, OdƏrcə – türkcədi orijinalı. "Tövr+at", "Tora" adları OdEvƏrdəndi, "Bibl" – Bağbildəndi. "Xa! Xa! Xa!" – qəhqəhə çəkdi... Güllələndi!... Heç Stalin də öz əcəliynən ölmədi... Bunlar heç... Romanovların taleyini danışıram, görün deyirəm necə faciələrnən qurtardı dövranları. Dərs götürün, ayılın deyirəm. Qanmırlar, oğul! Qanmırlar! Əmma qorxma. Qurtaracaq bu qan-qırğınlar!.. Mənim ölümünnən dəyişdirəmməzlər dövranın gedişatını: Millətin Pünhandı, ƏsAğ – "Aşıq"dı, Alimdi!...

Əmi ilə qardaşoğlunun ürək çırpıntıları ilə dolu, uzun sükutdan sonra tüstünün arasından diqqətlə Səmədə baxanda Sultan elə bil kimdənsə, nədənsə ehtiyatlana-ehtiyatlana, lap astadan qəribə suallar verdi.

– Atanı tez-tez görürsən?

Səməd duruxdu.

– Son günlərdə hə.

– Lap aydın?

– Hə... lap aydın.

– Bir şey başa düşürsən?

– Yox, əmi. Vahimələnirəm... Canımdan üşütmə keçirdi, titrəyirdim. İndi bir az vərdiş eləmişəm. Başa düşürəm ki, nə isə qanuni şeydi, sirdi.

Sultan müəmma ilə qımışdı.

– Desəm ki, atan sağ-salamətdı OdAğÜz BağOdƏr planetində, ordan görür səni, özünü də kino kimi göstərirlər sənə, nə deyərsən buna? Lap canlı insandan da canlı, aydın görünür!

Səmədin gözləri böyüdü.

– Əmi!.. Yəni başqa görənlər də var?!

– Çox şey var, oğul!.. Atan "Əlif", "Lam"dan başlayıb sözünü. Mən "Boq" kəlməsindən başlayıram. İnsanı insana, bəşəriyyəti Kainatın OdƏr bəşəriyyətinə bağlayan EvƏrEy Bağların nəslindənik biz. Vətənimiz Olamdan başlanıb, Bağdayın ƏrEy vilayətindən, ƏlEvÜn dağından. İndi Elvənd, Elvən deyir camaat. O ƏlEvÜnün Bağlarına "Ağ Türklər" də deyirik indi. Sifətləri lap ağappaqdı. İndi "Odessa" deyilən OdƏsdə də bizik, Türkiyədə, burda çox-çox o yanlara Qərbi Sibirə qədər uzun olub ərazimiz. Danışacam. Xüsusi danışacam bu barədə. Uzun söhbətdi.

Planetlərdə Bağlar hər şeyi əvvəlcədən görürlər. Yerdə dövlətimizin süqutunu, subasqınını əvvəlcədən biləndə qaya yazılarında "Bağ" yazdırıblar. Assuriya yazılarında "Baq" yazılıb. "Bibliya"da "Boq" olub. Bağıstanı da, bilirsən ki, "Bisütun"a döndəriblər. Adını çəkdiyin o "İstoriya Midii" kitabında çox ötəri qeyd olunub bu "Bağıstan" məsələsi. Əmma bizim "Vərəsə"də, ingilislərin lap bu yaxınlarda çəkdikləri fotoşəkillərdə təfərrüatnan yazılıb ki, Bağıstan qayalarındakı OdƏr yazılarının üstündən farsca, fatehlik tarixi yazılıb... "Latın əlifbası" adlandırılan əlifba OdƏr əlifbasıdır... – Sultan dikəlib, əlini uzadıb, şifonerin qapağını qaldırıb, kitelinin cibindən "bloknot" və "avtomat" qələm çıxartdı, "tubik"lərin arasındakı alçacıq, yüngül, dəyirmi stolu yaxın çəkib, "bloknot"un vərəqinə iri hərflərlə yazdı:

"Bağıstan" Budu bax, al, oxu! Orda, qayanın döşündə bizim hərflər uzundu. Fars hərfləri gödək olduğuna görə altında OdƏr – Türk yazıları asanca oxunur.

Sultan tez-tez köksünü ötürürdü.

– Atan öldürüləndə sənin on səkkiz yaşın da tamam deyildi. Dünyagörüşü formalaşmamış, dəliqanlı şeydin! Dama çağrılanda Ələsgərin "Bağ! Bağ! İnsanı insana bağlıyan Bağ!" – dediyini eşidib gəlib evdə gülürdün, ələ salırdın məktəbin direktorunu: "Bağ-bostanıymış insanı insana bağlıyan!.." Bax onda, yəni atamın ölümündən çox sonra, varisimizi yelbeyin görəndə ilk dəfə atamı gördüm, baban Məhəmməd Əmir təpindi mənə ki, "varis sarsıntılardan keçməlidi!" OdAğÜzdən qışqırdı üstümə: "Cilovunu burax o heyvanın!.. İncimə, çox əsəbidilər onlar. Cahil, insan cahilliyini öz simasında görməlidi! Dərs vaxtı çatanda biləcəksən! "Allah" – ƏlAğ adlanan Bağlar planetdən planetə bax beləcə danışırlar, əzizim. Mən deyəni "Mədəd" adıynan tanıdığın BağOd eşidir!

Abının sehrli, sirli nitqinin təəssüratı yada düşdü və Səməd dərin hissiyatlı etirafla:

– Açığı, beynim şübhəynən doludu, əmi, – dedi, – deyilənlər o qədər də çatmır mənə, ay əmi! Duman, çən kimi əriyir, yoxa çıxır. Yəni qanammıram... Başa düşürəm, hiss eləyirəm, aydın idraki qənaətim yoxdu!

– Məsələn?

– Məsələn... lap elə Bağ! Bağday! Necə yəni "Bağların ilk dəfə ayağa qalxdığı yer – məkan?!" Əgər Bağ "Boq"dusa, "Allah"dısa, Allah hara, yer hara?! Sədr Mədəd hara, Bağ hara?! "Yer Bağı" olsun o da girmir başıma.

Sultan yenə köksünü ötürdü.

– Yanıram belə sual eşidəndə. "Allah", "Boq" – Bağ insandı, ay oğul, insandı! Yerdə gəzir, torpaq üstə! Fəzada, boşluqda yox, torpaq üstə gəzir! O pəncərədən göyə bax! Gör nə qədər planet var! Bütün Kainatda yaşayırlar Bağlar! İşləyirlər, yaradırlar!..

– Dayan, əmi... Necə yəni Bağdayda ayağa qalxıblar Bağlar?! Bağday hara, Kainat hara?!

Sultan bir xeyli acı-acı güldü.

– Bu Yer planeti Kainatda deyil?! Bütün günahlar "İstoriya Midii" yazandadı. O kitab yazılanda Nəcəfoğlu tez-tez Akademiyaya çağırırdı məni, faciə içində deyirdi: "Tariximizi gizlədirlər, kömək elə". Əmma heç bir faktı da açammırdım. Niyə? Siyasi canilər barədə Stalinə məktub yazmağa cəsarəti çatan adam tarixini açammırdı! Çünki tarix üstündə dayanır hər şey, Həqiqət üstündə, kök üstündə bitir! Əslini, nəslini, irsini dan, insanın başqalaşacaq, itəcək! Bildin?! Bizim russko yazıçnılar

xəlvətdə “Adar” deyirlər özlərinə, OdƏr yox, “Adar”. Od – həqiqətdirsə, Ər – işıqdırsa, OdƏr – Həqiqət İşığıdırsa bəs “Adar” nədir? Heç nə! Romanovlardan soruş: “ƏrMən” nə deməkdir? Hardan bilsinlər?! Xüsusi fərmannan qaytarıblar “Odessa” adını! Nə olsun? OdƏs nədir, EvƏrEy nədir, əsli hardandır? Niyə təqib olunurlar? Dəqiq bir söz deyən varmı? Yoxdu, oğul! Hünərin var get rusa deynən “Boq” təhrif sözdü, həqiqəti təhrif eləyir. “Boq sın Boqa” yoxdu, Bağ oğlu Bağ var! Mənim dilimdə danışır”. Neyniyər hakim Rus?! “İtak, vı azerbaydjantsı isklyuçitelnıy narod?! Ariyskaya nasiya?! Vot poçemu nemsı sçitayut vas svoimi rodstvennikami!..”

Uzaq keçmişiyin yox, bu günüyün tarixidi Bağ, Bağ oğlu Bağ, Bağlar! Ən yüksək sivilizasiya var planetlərdə, Kainatda! Keçmişdə də olub. Nəhəng-nəhəng işıq gəmiləri var Bağların. Bir kəlmə də deyəmmirdim bu barədə. Bir kəlmə də! Başa düşdün? “Süleyman xalçada uçarmış” de, inansınlar!

Səməd çiynini çəkdi.

– Belə heyrətli tarix!.. Belə dəhşətli həqiqət və belə acizlik?! “Azərbaycan tarixi”ndə yad-yabançı “Zərdüşt”, “Avesta” sözləri ətrafında uzun-uzadı yazmaq olar, Ulu Bağ ƏsƏlMən – “Solomon”, “Süleyman” barədə həqiqəti yazmaq mümkün deyil?!

Sultan bir az susub, gözlənilmədən sual verdi:

– De görüm... Nəsiminin adını eşitmisən? İmadəddin Nəsiminin.

– Eşitmişəm. Əlbəttə! Oxumuşam da. Antalogiyada şeri var rusca. “Vo mne vmestyatsa oba mira...”

– De görüm niyə ruscadı şeir? Azərbaycancasını niyə gizlədiblər?!

Səməd gözünü döydü.

– Gizlədiblər?!

– Bəli, əzizim!.. Yazıq Bircə balam!..

“Vərəsə”mizdə əmilərin yazıblar ki, dörd divanı var Nəsiminin. Dörd böyük divanı. İkisi öz dilimizdə. Biri farsca. Biri də ərəbcə. Öz dilimizdəkidi əsas “Divan”ı. Romada, Vatikanda saxlayıblar. İslam aləmində dördünü də yandırıblar divanların, dəyişdiriblər, dəhşətli dərəcədə təhrif eləyiblər: bütün OdƏr sözlərini pozub, əvəzində “dəri”cə də yox, yəni OdƏrcəyə yaxın sözlər yox, fars-ərəb ifadələri doldurublar. “Vatikan” nüsxəsində, orda-burda OdƏrcə qalıb: “Bağa qılmısan hərgiz, kəmanın inkar etmə”. Nəsimi yazıb bunu. Altı yüz il bundan əvvəl Nəsimi yazıb ki, Bağa etiqad eləmisənsə, kamanını inkar eləmə. Yəni

Elmini danma. Vatikanda dilimizi səndən, məndən yaxşı bilirdilər o vaxt, on dördüncü əsrdə. Çünki lap qədimlərdə biz tikmişik "Rim" – Ərim şəhərini, yüz bir Bağ SarEyin olub orda. Sonra böyüyüb, zayı çıxıb, Qreklər, Latınlar dolublar... On dördüncü əsrdə Nəsiminin özünün, muridlərinin yaydıqları Elmi bilən çox olub Rimdə. Bunu da gizlədiblər xalqımızdan! İndinin özündə daha inadla gizlədirdilər ki, Yer planetində bəşəriyyətin beşiyinin "Midiya" – Bağday olduğu bilinməsin, Bağday mədəniyyətinin, Kainat mədəniyyətinin, OdƏr dilində həqiqətlərin bərpası barədə düşünən də olmasın! Hətta tamam uzaq, tamam yad kimi görünən xalqlarnan da qanbir-canbir olduğumuzu yaymasınlar, İlanın "razdelyay, vlastvuy" hökmünə qarşı çıxmasınlar!

Burası aydındımı?.. Yenə dumanlıdı?!

Aydınlaşacaq.

Qulaq as.

Məhərrəmin kitabxanasında bir kitab var: Plini Sinqvu – "Epistularum". Yəni Plininin oğlunun "Məktubları". Latıncadı. Bədbəxt Nəcəfoğlu tərcümə eləyirdi. Yarımçıq qaldı. Çünki o yazıq ona-buna danışmışdı ki, eramızdan əvvəl məşhur elm xadimi senator Plininin vaxtında Yupiterdən şəkil göstərilib fəzada. Sənin, mənim çəkdirdiyimiz fotoşəkillər kimi fotoşəkil. Üstəlik, səsnən deyilib: "Bu adamı imperator seçməlisiniz". Faktdı. Tarixdi! Bakının üstündə o parıldayan planetdən göstəriblər şəkli! Səsnən, adi insan səsiynən deyiblər. "Bu adamı seçməlisiniz?!"

Kitab adı deyirəm sənə: Plini Sinqvum – "Epistularum!" Yüz nəfər senatorun şahidliyiynən olan tarixi hadisəni danışıram!.. O heç. Öz əmiləriyin yazdıqlarına qulaq as. Hələb şəhəri vaxtilə bizim gizlin Elm mərkəzlərimizdən biri olub. Nəsiminin edamından sonra orda – Hələbdə camaat görüb ki, Nəsiminin meyidi göz qabağında dura-dura, Hələbin səkkiz darvazasının səkkizindən də dipdiri, sapsağlam Nəsimi çıxıb, yox olub. Görüblər! Yazıblar! Cünglər, təzkirələr doludu bu yazıynan. Nədi bu? Nə deməkdi? O boyda şəhərdə camaatın hamısı dəli olubmuş?! Dəli olan, beyni iyrənc fikirlərnən dolub qapanan, gözü tutulan indiki bəşəriyyətdi, "müasir mədəni dünyamız" adlandırılan dünyamızdı!

Nəsimi adıynan tanınan o qeyri-adi insanın edamından sonra "zülmət dövrü" deyilən dövr başlanıb. Altı yüz ildi zülmətdədi bəşəriyyət. Görmür! Daha doğrusu, göstərmirlər.

Nədi göstərmədikləri? Ağlına yerləşdir indi, təsəvvürünə sığışdır ki, kino göstəriblər onda. Altı yüz il bundan əvvəl! Nəsiminin edamından sonra Yupiterdən kino göstəriblər ki, səkkiz darvazanın səkkizində də camaatın hamısı görsün ki, Nəsiminin bədəni, beyni SafAğ olub, "Ruh"u – ƏrAğı, yəni Saf İşığı gedib yenə həmin Nəsimiyə çevrilib əbədi yaşayacaq. Belədi Kainatın quruluşu, əzizim!.. Edam olunub, dedim, bildin ki, "Divan"larından OdƏr sözləri, farsın təhrif zəbanıynan "Dəri" dili çıxarılıb, sonra da özünün dərisi soyulub, Nəsiminin, bədəni yerdə qalıb, çürüyüb, beynindən çıxan işıq, təkrar eləyirəm, "ruh" dediyimiz işıq uçub, Yupiterə çatana qədər hamanca Nəsimi olub. Budu böyük SafAğ Elmi!.. "Sofi", "Sufi" eləyiblər. Hətta "Səfa", "Səfi" deyiblər! Öldürüblər! Ölməyib. Çünki OdƏr (Həqiqət işığı) əbədi bəşəriyyətiynən bağlıdı.

Ərəbin "axirət" sözü təhrif "axır" mənasında işlənir. Əsli – OdƏrcəsi AğƏrdi. Yəni SafAğ İşıq. Çaşma. Bütün Kainat, on səkkiz min "Qalaktika", bizim bu "Yer" adlanan EyƏrimiznən (Uca İşığımıznan) birlikdə, hamısı AğƏr – SafAğ İşıq dünyasıdı. Hamısı! "Bu dünya", "O dünya" şərti ifadələrdi. Bizim "Yer" – EyƏrimiz də vahid Kainatın kiçicik bir hissəsi – bir planetidi.

"Ərən", "Ərənlər" deyirlər aşıqlarımız. Həm insan mənasında işlədirlər "Əri", həm də İşıq mənasında. Niyə?

Diqqətli ol indi.

"Ruh"da təhrif dilin təhrif sözüdü. Yenə deyirəm, əsli – OdƏrcəsi ƏrAğdı. AğƏr də SafAğ İşıqdı, bu "ruh" – ƏrAğ da. İnsan öləndə, bədəni tamam soyuyana qədər və bir az da bədəni soyuyandan sonra beynindən "ruh" – ƏrAğ (SafAğ İşıq) çıxır. İnsanın ölü bədənində də ölmüyən əbədi hüceyrələrnən dolu İşıq! Meyidin təxminən üç-dörd metrliyində, yuxarıda uzunsov şar şəklində toplanır, çox ağdı, qaraya çalır havada. Adi insan, yəni təhrif insan görmür o şarı. SafAğ Elmini mənimsəyən, beyni, gözləri SafAğ İşıqla zəngin olan insan görür o şarı. Aydınca görür ki, şarın içində həmin ölən adamın silueti var. Şüurlu kimi baxır adamlara, kimiyə nifrətini, kimiyə məhəbbətini bildirir üz-gözünün hərəkətiynən... O ölən adamın bütün varlığının proqramı o şarda, böyük, quru rüşeymin daxilindədi. Daşdan, divardan da keçir o şar. Çünki bizim təsəvvürümüzdə bütöv, məsaməsiz predmet olan daşın, qayanın, divarın, tavanın da mikroməsamələri var. Şar tamam maniəsiz uçub, planetimizin atmosferindən çıxanda birdən-birə atılma sürətiynən

uçur. Kainatdan elementlər çırpılır, dolur o rüşeymə və... nə olur? Hamanca insan cəmisi bir neçə saata yaranıb başqa planetə enir. İkinci doğuluşdu bu. Bildinmi?! "Ər" – "Ərən" deyilənlər belə gedirlər "Axirət"ə – AğƏrə! Ana bətnində işıq – uşaq ananın canından, qanından necə yaranırsa, "ölən" də anası Kainatın bətnində eləcə yaranıb, bizim bu torpağımız kimicə adi torpaq üstə enib əbədi yaşayır!

Bax belə Elmin var, SafAğ Elmi!

Nəsimidən əvvəl Nəimiynən bağlı olub. Nəimidən əvvəl Nizamiynən bağlı olub. Nizamidən əvvəl "Babək" adıynan tanıdığınız, qılınc qəhrəmanı saydığınız nəhəng bir alimimiznən bağlı olub. "Silsilə" deyirlər bu SafAğ Elmi alimlərinə. Çoxdular. Alimlərin silsiləsi uzana-uzana gedib Ulu Bağ ƏsƏlMən – "Süleyman" padşahımıza qovuşur.

Dönə-dönə, hətta bezdirici təkrarlarnan deyəcəm sənə, izah eliyəcəm ki, hansı söz, hansı ad nə vaxt, niyə və necə təhrif olunub. Bax onda biləcəksən necə Elmdi SafAğ Elmi.

Nəinki SafAğ Elmini, nəinki Bağların adlarını, hətta planetlərin əsl adlarını da gizlədiblər.

Bağ adıynan "Yupiter" adını yanaşı qoy. Yapışmır bir-birinə. Niyə? Abının verdiyi ilk məlumatı şərh eliyəndə biləcəksən ki, EyOdƏr Babamızdan başlamış "atom" – OdMən zərrəciklərinə qədər, bütün Kainat təhrif olunub. Nə vaxt? Niyə? Uzun-uzun əsrlər boyunca Bağlar niyə düzəldəmmirlər bu təhrif planeti? Hamısını biləcəksən, idrak acı balam! Sayılov nə qədər murdardısa, o qədər də ayıqdı. Düz dedi sənin barəndə, saf balam.

Əmma vaxtı çatanda dərk eliyəcəksən ki, mərdliyin, igidliyin nisbi olduğu kimi, saflığın da nisbidi.

Nizami, Nəsiminin mürşidi – müəllimi Nəimi, Nəsimi "kamil insan" adlandırırlar SafAğ İnsanı, yəni OdƏri. Bağlarımız da Od – həqiqət Ərləridi.

Bu həqiqətlərdən uzaq insanda, yəni beyni qapalı kar, kor insanda kin, ədavət, qisas hissi güclü olur.

Bezobraziye sənin saf ürəyində kin yaradır.

Kin qatil yaradır.

Görürsənmi necə yox olur saflığın?!

Yalnız Kamil İnsan, Nəsiminin məcburən çox vaxt "həq" dediyi "Allah" – ƏlAğ-SafAğ İnsan Əli olan OdƏr bilir nədir saflıq. OdƏrlikdən – həqiqət işığından uzaq insan-təhrif insan-cahil insan isə, hətta

özü istəmədiyi halda da həqiqəti tapdalayır. Özü də bütün planet miqyasında!

İndi gör nəyə görədi bizim belə əsrlərlə uzanan mübarizələrimiz, məğlubiyyətlərimiz. SafAğ Elmi dəryadır. Qəvvas son nəfəsində də qol atır ki, kamilliyin sahilinə bir az da yaxında ölsün!..

İyirminci ildə əmilərin bir manata möhtac qalmışdılar. Fədailərin oğul-uşaqlarına çörək tapammırdılar. Mədrəsəyə gedəndə ciblərində şabalıd aparırdılar. Dərs demək əvəzinə, uşaqların şabalıdı qabıqlı-qabıqlı yediyinə tamaşa eləyib, evə üzü üstə qayıdırdılar!.. Aclığın son həddində, meyvə qurusu – qaxdan savayı heç nə olmuyanda da dərsə gedirdilər. Mazandarandan, meşələrdən hər gecə bir dəstə atlı gəlirdi, atdan töküləndə "səlam-əleyküm" əvəzinə "güllə, barıt" deyirdilər. Atlıları fədailərin yanına əliboş qaytarmamaqdan ötrü əmilərin Əmir babamızın sovxalarından daş-qaşı söküb satırdılar. Axırda məcbur olub, gəlib bu tayda məscidlərdə ianə yığdılar.

Nədi ianə, bilirsən? Dilənçilikdi!

Niyə dilənçi olmuşdular? Çünki var-yoxlarını əcnəbi arxeoloqlara, çapxanalara vermişdilər. Tək bircə kitab çap elətməkdən ötrü gərək əməlli-başlı var-dövlət sahibi olasan. Yeddi yüz əlli kitab çap elətmişdilər əmilərin. Hər kitabın axırında gil, qaya yazılarının, daş kitabələrin rəngli fotoşəkillərini çap eləmişdilər... Ulu Bağın Olamdakı SafEyinin sütunlarının şəkillərini ingilisdən almaqdan ötrü, Qrek tacirlərinin Afinadan gizlin gətirdikləri kitabları – OdƏr – Türk dilində əlyazmalarını almaqdan ötrü ovuc-ovuc qızıl verirdilər! Bax bu işdən – "Vərəsə"dən başqa neyləyirdilərsə, hamısı, o cümlədən fədailərə, qaçaqlara tüfəng, "qurğuşun", yəni güllə almaqları da, hamısı cahil insan – təhrif insan əməlidi. Nə nəticə çıxır burdan?! Əmilərin öz əlləriynən özlərini təhrif eləyirdilər? Bəli, əzizim! Niyə? Çünki mühit, bütün planet Bezobraziye mühitidi, "Allah"ların SafAğ xəzinəsi üstündə yatan İlan mühitidi!

Diqqət yetir indi, gör necə nəhəng, eyni zamanda necə bədbəxt adamlarıq ki, bütöv bir planetdə bütöv bir bəşəriyyəti "Allah"lara qovuşdurmalıyıq! Bax belə bir ideal uğrunda əmilərin şüurlu şəkildə müflisləşməyə getdilər ki, həqiqətimiz torpaqda qalmasın. Əmma yeddi yüz əlli cilddən birini də dünyaya çıxardammadılar. Fədailər oxudular,

---

[40] *"Çrezvıçaynıy Komitet"* – Fövqəladə komitə. Dövlət Təhlükəsizliyi Komitəsinin ilk adı.

biz – aralıqda o tay-bu taya gedib-gələnlər oxuduq, bir də Moskvadan məqbərəyə xüsusi göndərilən Akademik Marrnan onun şagirdləri oxudular (Sonra danışacam, Stalinin xüsusi göstərişiynən məqbərəyə düşmən kimi gələn Marr necə dost oldu, Stalinin özüynən tutaşdı! Çünki Elmimizin hikməti insanı qorxudan xali eləyir!). "Şeyx Xorasan" məqbərəsinin sirrini bilənlərdən bir də "Müəllim" oxudu. Bunnan da "Vərəsə"nin işi qurtardı. Ürəyimizdə odu qaldı, özü külə döndü, "İttihadi-İslam" firqəsinin sandıqlarında, Demokrat firqəsinin arxiviynən bir yerdə, göz dağına çevrildi. Çünki Stalin, Beriya, Mirqəzəb, Pers varıydı? Yox, oğul... Nə Naxçıvana o "duz səfərimiz" aydındı sənə, nə də bu danışdığım. İmperializmin, İlanın siyasi platforması adında bir müsibət var. Əmiləriyin başlarının kəsilməyi toy-bayramdı o müsibətin müqabilində. Şeyx Ağ Əmir, Şeyx Boz Əmir kimi, sədr Mədəd kimi qardaşlarımnan yanaşı, milyon insan həyatı qurban verərdim, bu müsibət olmuyaydı. İngilislər funtsterlinqi sel kimi axıdırdılar, bütün Avropanın, özlərinin ən görkəmli arxeoloqlarını, şərqşünaslarını Cənuba doldurub, əslini, bizdən olduğunu unutmuş Pəhləvi şahının hakimiyyətinin qanuniliyini sübut eləməkdən ötrü, Cənubumuzu Şimalımızdan həmişəlik ayırıb, əbədi müstəmləkəyə çevirməkdən ötrü tariximizin üstündən qələm çəkib "Pəhləvi tarixi" yazdırırdılar. Danışacam, biləcəksən ki, o cahil hərbçi Pəhləvi bədbəxtləri bizdən necə ayrılıblar. BağOd EvÜn ikən sonralar təhrif olunub "Pixtavan" – "Pəhləvan" – "Pəhləvi" adlandıqlarını, tədriclə bizdən ayrıldıqlarını Pəhləvilərdən bir nəfər də bilmirdi, buna görə də "Pəhləvi tarixi" adında yalan kitabın hər kəlməsinə inanırdılar. Adi bir hərbçi ikən İngilisin əliynən təxtə çıxarılan Şah özü də xüsusi fond ayırmışdı tarixçilərdən ötrü. Əmilərin Qəsri-Qacarda otursalar da, EySarımızın – Uca Hökmdarımızın Ününü dinləyib hər şeydən xəbər tuturdular, podpolyalarda bizimkilərə çatdırırdılar. Atannan mənə də, nakam dostumuz Nəcəfoğluna da çatırdı, hamımız bilirdik ki, cəhalət "alim"lərinin falsifikasiyası – "Pəhləvi tarixi" yazıldıqca, hər səhifəsi İngiltərədə, Avropada, Amerikada ingilis, alman, fransız alimlərinin elmi kəşfləri kimi qələmə verilirdi, dilimiz, dövlətimiz inkar edilirdi. İzah eliyəcəm, görəcəksən ki, hətta "İran" sözü də olmayıb. Tarixdə yoxdu. Başa düşürsən? Yoxdu! Təhrif sözdü, mənasızdı. Tamam mənasız!... Mənasızlığa məna verirdilər. Bütün planet miqyasında qələm çəkilirdi tariximizin üstündən, oğul. İndi deyəcəm, nakam dostumuz, filosofumuz Nəcəfoğlu Avropada "Tarixin atası" adlandırılan Qrek ca-

susu Herodotun Sarlarımız hökmdarlarımız barədə xronikasını necə darmadağın eləmişdi. Heç kəsdə şübhə qalmamışdı ki, Herodotun "Tarix"ində Bağdayın özünün adından, hökmdarların adlarından başlamış, vilayətlərin, dağların, çayların adlarına qədər, hər şey eybəcər şəklə salınıb. Fatehlər ən yaxşı halda gülürmüşlər təhriflərə. Ümumbəşəri həqiqətlər lazım deyildi fatehlərə. İngilislər "İran"a arxeoloji ekspedisiya göndərəndə lap ilk gündən bilirdilər bunu. Sənin oxuduğun "İstoriya Midii" kitabında "Elam", "Lullubəylər" adlarıynan iki hissəyə bölünən Olam ərazisinin daş kitabələrinin çoxu, HəmOdÜn (vahid Həqiqət Ünü) ikən "Həmədan" şəklində yazdıqları qədim mərkəz şəhərimizin daş kitabələrinin, əlyazmalarının çoxu onlardaydı. Qələm çəkirdilər üstündən. Xaç müharibələrində qılıncnan fəth eliyəmmədiklərini qələmnən fəth eləyirdilər!

Mən bu gün varam, sabah yoxam. Yadında saxla: ordu fatehliyi müvəqqəti olur, qələm fatehliyi uzun sürür. İlanın İngiltərədəki zəhərliləri, "Coğrafiya cəmiyyəti" adında casus setində casus "alim"lərin qələmiynən ilk növbədə "elmi əsas" yaradırdılar. Şahı da işə-başa salmışdılar, gecə-gündüz "Pəhləvi tarixi"ynən məşğuluydu. Bu taydakı cəlladımız da bilirdi hər şeyi. Stalindən "ustanovka" varıydı ki, Türkün tarixini onuncu əsrdən başlasınlar. Qədimlik guya yalnız "Qrek"ə, "Fars"a məxsusdu, biz guya sonradan gəlmişik. Açıq deyəmməsələr də hər vasitəynən sübut eləməyə çalışırdılar ki, "Midiya"nın Türkə dəxli yoxdu, Bağday BağOdEy adları guya heç olmayıb! Elə "Midiya"dı vəssəlam!

İlanın Moskvadakı zəhərlisi İosif Vissarionoviç iki tarixçi göndərmişdi Mirqəzəbin sərəncamına. Cəlladımız özü də öz alimlərimizdən bir neçəsinə professorluq vermişdi, Mərdəkanda, Bilgəhdə bağ bağışlamışdı, şəxsən özü "ustanovka" verə-verə "Azərbaycan tarixi" yazdırırdı. İyirminci əsrin, partiya tarixinin yazılmağına imkan vermirdi. Çünki Nərimanov, Həmid Sultanov, Baba Əliyev kimi nadir çekistlərin fəaliyyətləri varıydı; başlarını yediyi Hümmətçilərin adlarını partiya tarixindən silməkdən ötrü alimləri daimi məngənədə saxlayırdı Mirqəzəb. Qədim dövr barədə də şəxsən "ustanovka" verirdi, sübut elətdirirdi ki, guya nə qədim dilimiz olub, nə ərazimiz, nə də dövlətimiz. Köçəri qəbilələrdən ibarətiymiş Azərbaycan xalqı! "Türk" demirdilər! Guya müxtəlif etnik qrupların, qəbilələrin qarışığından əmələ gəlmişik. Halbuki etnik qrupları özləri köçürürdülər içərimizə! Belə dəhşətli platfor-

manın müqabilində həqiqətimizi dilimə gətirə bilərdim, ay gözümün işığı?! Budu bax əmiyin ən böyük cinayəti: həqiqəti həyatı bahasına car çəkmək əvəzinə özünü qorudu: susdu!.. Məhkəmədə təzə-təzə açılır ki, "Şərqə münasibət" adlanan gizlin siyasi platformanın, gizlin "milli siyasət"in bütün bəlaları Stalinə bağlıymış! Deyilib sənə, İlanın sadiq təbəəsi keşiş Cuqaşvilinin tərbiyəsindən çıxmış fateh casuslar başçısıymış İosif adlı, Vissarion oğlu Qrek!

Dönə-dönə yazmaq, təkrar-təkrar car çəkmək lazımdır ki, bəşəriyyətimizin həqiqət yoluna qayıda bilməməyinin əsas səbəbkarları Qrek-Latın fatehləri olduğu kimi, "Yer üzündə Ədalət Səltənəti" adlanan UluBağ ƏsƏlMən – "Solomonovoe tsartstvo" haqqında təsəvvürün yerli-dibli dəyişməyinin təqsirkarları da məhz Qrek-Latın cahilləridi. Vaxtı çatanda ətraflı danışacam bu barədə. Hələlik bircə bunu bil ki, Ulu baban Ulu Bağ "OdMən" deyirdi öz səltənəti Bağdaya. OdMən! Yəni mənim həqiqətim! Tək bircə "Od" sözünün qrekcə "ki" sözüynən əvəz olunmasından "komun", "kommuna" yaradıblar. HəmOd – Vahid həqiqət ətrafında birləşən azad AğEy icmalar quruluşunu hərbi "kommunizm" quldarlıq cəmiyyətiynən əvəz eləyiblər. Budu bax İosif bəlası! Qrek bəlası! Doktorumuzun öz əliynən yazdığı "Hümmət" proqramını verəcəm oxuyacaqsan. İnsanı insana qarşı qoymur Nərimanov. Marksizmin, Leninizmin daxilində Ulu Bağın cəmiyyətinin ab-havasını qoruyub, məhz buna görə də hərbi kommunizm cəlladlarının "ustanovka"larıynan heç vaxt razılaşmayıb.

Bildinmi niyə susmuşuq "Azərbaycan tarixi" yazılanda?

Nakam dostumuz Nəcəfoğlu da sən kimi danışırdı. Mədədin faciəsindən sonra hər ay Mərdəkana – bağına çağırırdı məni, dişinin dibindən çıxanı çırpırdı üzümə: "Gətir tök "Vərəsə"ni bura, sonrasınnan işin yoxdu", – deyirdi. – "Otuzuncu ildən otuz səkkizinci ilə qədər sandıqda saxladıq. Otuz səkkizdən qırx altıya qədər Şeyx Xorasan məqbərəsində saxladıq, sonra da divarlara basdıq, dəfn elədik!" – deyirdi. Fikri buydu ki, mühacirlərdən Moskvaya oxumağa gedənlərin çamadanlarına doldurub aparıb SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna versin, öz köhnə aspirant yoldaşlarından, Bağdayın indi "Rey" adlanan ƏrEy vilayətindən olduqlarını, əslən EvƏrEy OdƏri ikən təhrif mühitdə "Yevrey"ə döndüklərini yaxşı bilən şərqşünasların imzalarıynan məqalə çap elətdirib, Mirqəzəbi fakt qarşısında qoysun. Məhərrəm razılaşmırdı.

Deyirdi “Akademiya da KQB-nin, şəxsən Beriyanın nəzarəti altındadı”. “Səbr elə, – deyirdi, – yoxsa “Vərəsə”ni də güdaza verərsən, özünü də”.

Səbr eləmədi rəhmətlik...

Məhərrəmnən mən ən ağır, ən dözülməz günlərimizdə də dözmüşük. Pişəvəri də dözümlü idi. Nəcəfoğlu dözmürdü. Sürgünlərdən, katalikosların məktublarından, o teleqramdan sonra barıta dönmüşdü.

Əllinci ilin yanvarında Mərdəkanda axırıncı söhbətimiz oldu. Məhərrəmdən sonra mən də “səbr” deyəndə Nəcəfoğlu konspirasiyanızadı da unutdu, qışın günündə, küləkli gündə pəncərələri, qapıları açdı, qışqırdı ki, “Partlayıram! Bəsdi! “OdƏr dili” əvəzinə “Midiyanın ölü dili” yazanların arasında gündə min dəfə ölənəcən bir dəfə ölərəm”... Bəli, əzizim, məhz “ölü dil” yazırdılar “ustanovka”ynan yazanlar! Əsasları da vardı: Herodotun “Tarix”i: “Midiya!” Nə “deməkdi? “Atropatan!” Nə deməkdi?! “Astiaq!” Nə deməkdi?!.. – Sultan papirosu papirosun oduna yandırıb, Səmədə baxdı. – Od-həqiqət, Ər-işıq. OdƏr – həqiqət işığı! Necə gəlib yer üzünə bu həqiqət işığı? Xalqıyın niyə xəbəri yoxdu həqiqət işığından? Bircə-bircə danışacam hamısını, idrak verəcəm sənə, idrak acı balam!

Nakam dostumuz da irdak aşiqiydi...

Nəcəfoğlunun ölümünü də Sultan Əmirlinin növbəti cinayətidi dedilər sənə, sən də inandın!

Qulaq as, gör necə öldü o, – Mədəd əvəzi Nəcəfoğlu!

Səməd öz “korluğunu, nadanlığını, cahilliyini” daha aydın duya-duya, sarsıntı içində:

– Bilirəm... Qurban əmi deyib, – dedi.

Sultanın dodaqları titrədi.

– Venasını kəsib. Hə?

– Hə... Əvvəlcə asıb özünü, ölməyib... sonra vena...

– Bilmir Qurban! Dildə-ağızda gəzəni demişik Qurbana. Nəcəfoğlunun necə öldüyünü ancaq o şkafdakı paqonların sahibləri bilirlər. Məhərrəm Məhərrəmov, Sultan Əmirli, Müslüm... Bir də SSRİ prokuroru Rudenko... Stalinin, Beriyanın, Mirqəzəbin cinayətlərinin kökü çox dərindi. O kökü axtarıb tapmaqdan ötrü böyük tədqiqat aparılmalıdı. Hələlik bircə istintaq qrupu var, o da üzdə olan materiallar əsasında məhkəməynən məşğuldu. Bizim “xüsusi qrup”umuz ayrıdı. Üç nəfərdən ibarət idi: Məhərrəm, Saşa, mən. İndi ikimiz hələlik sağıq. Ştabımızın

biri Moskvadadı. Vorovski küçəsində, vaxtilə Nərimanovun yaşadığı binada. Bir də bu gördüyün mənzildi. Otuz yeddinci ildə atannan mənim əleyhimizə kompaniya başlananda mənim köhnə çekist yoldaşlarım olurdular burda. Qəza komitəsindən çıxandan sonra da ÇeKa[40]ynan əlaqəmi kəsməmişdim, gəlib-gedirdim. Qardaşlığım Qılınc Qurban hər yerdə döşünə döyür ki, "Şeyx qardaşlarını o kampaniyadan mən xilas elədim". Rəhmətlik Mədəd də elə bilirdi. Həmişə də təəccüblənirdi ki, "Qurbanın bir teleqramıynan nə əcəb əl çəkdi bizdən Mirqəzəb?!" Nə Mədədə düzünü deyə bilirdim, nə də Qurbana. Çünki bu yoldaşlarım o vaxtdan Rudenko kimi adamlarnan bağlıydılar. O vaxtdan konspirasiyadaydıq biz, qardaşoğlu. Çax-çux "Bacanaq" olub bu üzbəüz mənzildə məskən salandan sonra vəziyyət dəyişdi. Yoldaşlarımız bircə-bircə yox oldular. Məhərrəmə Bakıdan kənara çıxmağı qadağan elədilər. Nəinki Moskvaynan, öz rayonlarımıznan da əlaqələrimiz kəsildi. Sonradan bildik ki, rayonlarda "kommunist" adı daşıyan Hümmətçilərdən dörd yüz nəfəri bircə gecədə qırıb Mirqəzəb! Dörd yüz! Deyilib bu sənə. Əlavə olunmalıdı ki, millətin başı kəsildi onda. İyirminci-otuzuncu illərdə "İnternasionalnıy otryad"ın Cənubda qırdığı kadrlarımızdan sonra o dörd yüz nəfərdən çoxunun elə yerindəcə güllələnməyi, bəzilərinin də birbaş uzaq Sibirə göndərilməyi belimizi qırdı! "Muğ"lar – Bağlar, hamısı "pantürkist", "panislamitst" adıynan getdi. Hadisələrin üstünü elə örtdülər ki, nəinki xalqımızın böyük qismi, hətta indiki çekistlərimizin də məlumatı olmadı Bağ qırğınından! Bax, belə kəsilir planetlər arası əlaqələr! Get danış o sevdiyin yoldaşlarına, gör bircə nəfərin xəbəri varmı ki, Yupiter planetiynən danışan insanlar var bu "Yer" – EyƏr adlı planetdə! Telefonu əsrin ən böyük nailiyyətlərindən sayırlar. Xəbərləri yoxdu ki, beyindən beyinə danışan beyinlər lap adi şeymiş Bağday, OdƏr mədəniyyəti dövründə. "Dövr" yox, "dövrlər" deməliyəm. Yadında saxla bunu. Sonra görəcəksən neçə dəfə süquta uğradıblar Bağdayı, neçə dəfə məhz hansı əsrlərdə yenidən yaranıb!.. Həqiqəti gizlətməkdə mahirdi bizim bu fatehlər zəmanəsi!

Nəcəfoğlunun ölümünün səbəbi elə gizlədilib ki, məhkəmədə açmağı da məsləhət görmədik. Qorxduq psixoloji cəhətdən pis təsir eləyər camaata. Əmma sənə açacam. Ona görə yox ki, bizi cəsarətsizlikdə,

---

[41] "Subasqınından sonra".

passivlikdə taqsırlandırırsan. Açacam ona görə ki, Varissən. Cəhalətin necə dərin kök atdığını dəqiq bilməlisən. İnsanın xilasının yalnız və yalnız SafAğ Elmində olduğunu dərk etməlisən!.. Qurban bar-bar bağırırdı telefonda, tələb eləyirdi ki, Çax-çuxun dalınca adam göndərək. "Əşyayi-dəlil əlimdədi, – deyirdi. – Gəlin aparın qatili!" Xəbəri yoxdu ki, o naldan savayı, min bir əşyayi-dəlil var bizim əlimizdə. Əmma Çax-çuxa toxunmaq olmaz.

Səməd diksindi.

– Nə?! "Çax-çuxa toxunmaq olmaz?!"

Sultan sakit inamla:

– Olmaz, əzizim, olmaz! – dedi. – Nə Çax-çuxu tərpədə bilərik, nə Xudiyevi, nə Xəlvəti, nə Gülənovu, nə Sayılovu!.. Xəlvət sədrliyində qalmalıdı, Gülənov rəisliyində, Sayılov prokurorluğunda. Hətta, Qurbanın şallaqnan döydüyü zənənlərə də toxuna bilmərik!

Səmədin əmgəyində soyuq çimildəşmə gəzirdi.

– Əmi! Sən nə danışırsan?!

Sultan yenə köksünü ötürdü.

– Təsəvvür eləyə bilərsənmi ki, dörd ay bundan əvvəl Xəlvətin evindəki Bezobraziye məclisinə tora salındığım gecə könüllü getmişdim... Özüm! Könüllü!

Səmədin üşütməsini qəfil hərarət əvəz etdi.

– Demək, mənə yalan danışmısan?!

– Bəli, əzizim, əmin, idealın sənə yalan danışdı mehmanxanadan sonrakı söhbətimizdə... Düz deyib sənə Təftiş Abbas! İndi özüm öz acizliyimi etiraf eləyirəm. "Kürüyüb atmaq" nədi?! İnqilab deyilmi bu "kürüyüb atmaq?!" Ən asan qalib gəlmək və ən asan nadanlaşmaq yolu deyilmi "kürüyüb atmaq?!" Səni sakitləşdirməkdən ötrü demişəm mən bu sözləri Qurbana, o da inanıb sözümə, sən də inanmısan!.. Bəli "rumka döyüşdürmüşəm!" Tost demişəm o məclisdə! Ayıq başnan! Tostun içində bircə saat sadə, anlaşıqlı şəkildə Elmi söhbət eləmişəm. Bayaq gördüyün o iki tərəfə işləyən sürməgözlü, hətta o yaramaz Xəlvəti xeyli inandırmışam ki, Elm, idrak, saflıq deyilən anlayışlar mövcuddu bu Bezobraziye dünyasında!.. Gördüm sözüm havayı deyil, az-çox təsir eləyir, coşdum, köyrəldim, "Əziz eloğlularım!" – dedim o yırtıcılara. Utopiyaya yuvarlandım?! Xeyr, məclisin axırına yaxın o heyvan Xaş, o beyinsiz Zorri Gülənov gəlməsəydi, Qudalıların mənnən mehriban-

çılığını görüb təşvişə düşüb Xalıqı məclisə çağırtdırmasaydı və o qatil çaxırın içinə nə isə töküb məni şüurdan məhrum eləməsəydi, inan ki, axırda Elmə aid vəsait verəcəydim ki, oxusunlar o yırtıcılar, azdan-çoxdan insan olsunlar!.. Sahələrdə, pambığın ara-bərəsində dalınca sürünüblər, əmin barışıb, sən də barış deyiblər. "Vərəsə"siz Varisimiz, gözü xançalda olanımız, əlbəttə, barışmaz yırtıcı insannan. Əksinə, Xəlvətin təkidiynən çamadanı, qızılı, diplomu qaytaran Xaşı ikiqat artıq kinnən qarşılayar quyunun üstündə, Xəlvətnən Qıllıda, Piylidə də yenidən kin qaynadar!.. Zor zor yaradır, kin kin yaradır axı, ay oğul! Sonrakı hərəkətlərini xatırlatmağa ehtiyac varmı? Qurban deyib "getməlisən", onun sözü də çatmayıb sənə: "qovdu" deyirsən... Ələsgər deyib "çıx get burdan!" Dəhşətə gəlmisən ki, Dam direktor ağlayır, "kişiliyi yoxdu". Elmin Varisi Elm mücahidlərinin sözlərini başa düşmür!.. Sultan Əmirlinin əlində imkan olduğu halda Mədədin qatilinə toxunmur, "toxunmaq olmaz!" – deyir. Niyə dəhşətə gəlirsən? Çünki tanımırsan əmini-idealını! Bəli, sən məni zərrə qədər də tanımırsan, əzizim!

"İdeal" həmin fateh Qrekin təhrif sözüdü. Türkcəsi "Dil"di; OdƏr bəşəriyyətinin OdƏr dili. Əsli – OdƏrcəsi OdƏldi (Həqiqət Əli). Adını Abıdan eşitdiyin BağBağÜn Babamızdı Od Əli – Həqiqət Əli! Bağ Atamızın Oğlu, ulu baban Ulu Bağ ƏsƏlMəndi Od Əli! Bağ Atamızın ikinci Oğlu, təhrif "İsay" adıynan tanınan EySar ÜnEvdi Od Əli! ("Noy", "Nuh" deyiləndi). Bağ Atamızın üçüncü Oğlu, təhrif "Avram" adıynan tanınan EvƏrimdi Od Əli! Bağ Atamızın axırıncı, kiçik Oğlu, təhrif "İisus", "İsa" adlarıynan tanınan EySardı: "Qalaktika"mızda – QalAğımızda "Əllah" – ƏlAğ EySarımızdı OdƏl – "İdeal!" Mənə "idealım" deyə-deyə, təkcə bu bir kəlmənin, təkcə bu təhrif sözün arxasında necə həqiqətlər olduğunu bilsən, yalnız o vaxt inam və etiqadnan deyərsən "əmim idealımdı". Hələ idealın deyiləm mən sənin, oğul. Fəlsəfə öyrənirsən, deyirsən: "po Platonu Boq vne mira". O məşhur Qrekin necə dəhşətli təhrif insan olduğunu biləndən sonra deyəcəksən: "Bağ dünyanın özündə və insandadı". O vaxt mən özüm də fəxrnən deyərəm: "Varisimiz mənim idealımdı... səcdəgahımdı".

Eşit və dərk elə ki, "insan" ÜnƏs sözündəndi, yəni Yaradan Ündü. EySarımızın Ününü eşidə-eşidə, Elm əsasında böyük hərfnən kamil İnsan yaradır, SafAğ İnsanın Əli – işləyəni, yaradanı olan ƏlAğ – "Əllah" – "Allah" yaradır. Təhrif Yerin təhrif "cinayət məcəlləsi" əsasında

cəza verməknən, əzaba salmaqnan insan yaranmaz! Hər dövlətin bir cür "cinayət məcəlləsi" insanı bir cür pozur. Qurban əmin bilir bunu. Əmma başqa "məcəllə"si yoxdu. Yəni mənim o əzizim də bir cür Zor nəçənnikdi. O şallaqladığı – cəzalandırdığı zənənlər bilirsənmi indi necə kin mücəssəmələridi! Canavardılar indi. Qurbanın özünün də, Təftişin də, Xızr Abının, Ələsgərin, hətta Çürüyün də qanını içərlər! O şallaqların şaqqıltılarını eşitdim mən burda xəstə halımda, daha da xəstə oldum! Xaş nəçənnik nədi, ondan da murdardı indi Qılıncımız!

Qatil Xalıqın dərin-dərin qatil kökləri var, oğul! Kökləri üzə çıxarmaqdan ötrü nə qədər Qılınc ehtirası lazımdı. Əmma işləri korlayan da elə Qılınc ehtirasıdı. "Kopirovalnaya bumaqa" yaddaşı ölüm silahı olmamalıdı! Asmaq, kəsmək olmaz! Bildin?! Qırğınlardan, sürgünlərdən yaxa qurtarmaqdan ötrü bütün planet tanımalıdı Sahiblərimizi. Siyasi-ictimai mühit, insanın bətni tamam dəyişməlidi! Sultan Əmirli, Xızr Abı kimi adamlar az deyil. Hamısı da işləyir!.. Ürəyim şişib mənim, əmma, görürsənmi, hələ də işləyirəm! Ədalət qapısıynan üzbəüz cinayət qapısının açarı kamillikdi!

Səməd saçını daraqlayıb əlini əmgəyinə basdı.

– Mən necə koram, ilahi! Necə ağılsız, şüursuz heyvanam!

Sultan papirosu sümürürdü.

– Nə korsan, nə də şüursuz... Qurbannan söhbətinizi yadına sal. İkicə kəlmə "moy rabotnik" bəs eləyib ki, Çax-çuxun fəaliyyət sferasının genişliyini görəsən. Ağılsız adam bacarmaz belə şeyi. Özünü üzmə, qulaq as, gör nə deyirəm.

İki il bundan əvvəl bu adresə göndərdim mən səni ki, Məhərrəm kələfin ucunu açsın, yavaş-yavaş daxil ol hadisələrə, partiya məktəbini qurtarandan sonra əmiyin bu təşkilatında fəaliyyətə başla, mübarizəyə qoşul. Mənim həyatımda ən böyük nailiyyətim səniydin. Maksimal saf ürəkli, saf vicdanlı oğul yetirmişdim. Xarakteriyin bütövlüyü, həssaslığın, incəliyin – hamısı qarantiya verirdi ki, nümunəvi çekist ola bilərsən. Yəni Alim! Maksimal biliyi olmuyan adama "çekist" demirik biz.

İstəyirəm bir məsələyə xüsusi diqqət yetirəsən: Əslinə baxsan, biz qaçırmamışıq səni rayondan. Öz taleyin sarsıntılara salıb səni. Öz ta-

---

[42] "*ŞumƏr*" – "şumlamaq", əkin, səpin üçün yararlı hala salmaq. "Ər" – burada insan mənasındadır. Şum Ərləri planeti gəzib "şum"a yararlı yerləri qeydə alanlar.

leyin gətirib çıxarıb səni bu evə. “Dil” kimi, “Tale” də OdƏldi. Sözü Həqiqət Əli EySarın sözünü eşitmirsən sən hələ. Onun sözü təziq eləmir insan beyninə, təsir eləyir. Məhz həmin təsirnən göndərilmisən sən bura. Ələsgərin dediyi “çıx get burdan” sözləri EySarın sözləridi, Ələsgərin beyninə gəlib, Ələsgərin diliynən çatdırılıb sənə. Mədədin dediyi “Sultanı dinlə” sözləri də EySarın sözləridi, Mədədin diliynən çatdırılıb sənə. Alim olmalısan, oğul, Alim! Çekist!

Səməd çox çaşqındı.

– Demək... çekist...

Sultan onun üzündə tərəddüd gördü.

– Böyük faciədi, dözülməz müsibətdi ki, uzun illər ərzində göz bəbəyimiz kimi qoruduğumuz “Vərəsə”miz belə birdən-birə əldən getdi. Əmma çox şey verib bizə “Vərəsə”miz, danışacam, biləcəksən. Təkrar, təkrar eşit: Elm lazımdı bizə, oğul. Tarix, həqiqət lazımdı... Vəsiyyətə sadiq olmaqdan ötrü əvvəlcə orqanda işləməlisən. Böyük miqyaslı siyasi kamillik, soyuqqanlı mühakimə qabiliyyəti qazanmalısan...

Səməd dözə bilməyib, çox kobud şəkildə əmisinin sözünü kəsməyə məcbur oldu:

– Bəs o camaat?! Əl qaldırıb mənə səs verənlər Bezobraziyenin tapdağında qalmalıdılar?!

Sultanın qaşları pırpızlandı.

– Sözümü kəsmə! Fikrimi haçalandırma!..

Kolxoz nizamnaməsiynən ədalət yaratmaq istəyirsən. Bir kənddə ədalət!.. Belə şey mümkündüsə, Silsilə alimlərimiz niyə dünya dolusu qışqırırlar ki, “məhdud ərazidə Ədalət yaranmaz!” Budu SafAğ Elminin müddəalarından biri. Elmimiz hələ qədimlərdə, sonra Xaç müharibələri dövründə dünyanı dolanıb gəlib Marksa, sonra Plexanova da az-çox çatmışdı. Məhz buna görə Leninlə heç cür razılaşmırdı Plexanov: “Sosializm yaranmaz!” – deyirdi. Yəni kapital dünyası bir ölkədə dərhal boğar sənin sosial ədalətini! Boğmadımı?! Kim öldürdü Lenini?! Dinin, kapitalın sağ əli Stalin! Kim öldürdü Doktorumuzu? Stalinin sağ əli Serqo Orcenikidze! Lenin faciəni görürdü, eyni zamanda Qılınc Qurbanların silahına güvənirdi. Bir az sonra dərk elədi ki, doğrudan da məhdud ərazi daimi təhlükə olur. Nərimanov da işə qarışandan sonra Lenin ərazi miqyasını genişləndirməyə başladı. Bütün Orta Asiyanı sovetləşdirdi,

Türkiyəni sovetləşdirdi. Əmma materialistliyindən əl çəkə bilmədi. Hər yerdə silah işləyirdi.

Bu gecə SafAğ Elminin əsas müddəalarını çatdırmalıyam mən sənə. Çətindi bu, çox çətindi! Əmma əminəm ki, ƏlAğımız kömək eləyir mənə. Sözümü kəsmə!..

Nəcəfoğlunun ölümünü danışmaq istəyirdim. Daha doğrusu, ölümünün səbəbini. Lenini məhvə aparan səbəbdi bu!

Səməd əlini əmgəyindən çəkmədən, aram-aram, asta-asta deyirdi:

– Danış... danış... Bağışla, əmi, həyəcanlandırıram səni. Çalışaram sakit dinləyim. Danış...

Sultan da nisbətən sakitləşdi:

– Nəcəfoğlunun nəyə görə, necə öldürüldüyünü sən hökmən bilməlisən. Çünki sənin ətrafındakı hadisələr o hadisənin dəvamıdı.

Fikir ver, "dəvamı" deyirəm.

Abı deyib sənə, biz "Vərəsə"ni Şeyx Xorasan məqbərəsinə aparanda Çax-çux izimizə düşmüşdü, Mirqəzəbə çatdırmışdı. Nəcəfoğlu kitab yazırdı onda. Bağday tarixinin xronikasını düzəldirdi ki, "Vərəsə" əlimizdən getsə, xronika qalsın. Çax-çux buna da öyrənmişdi, çatdırmışdı.

Mirqəzəb nə "Vərəsə"yə toxundu, nə də Nəcəfoğluna. "Tarixi" "ustanovka"ynan yazanlar məsləhət görmüşdülər ki, imkan ver, kitabxananın məğzini çıxartsın. Mirqəzəb də imkan verdi. Kitabı əllinci ilin yanvarında yazdı qurtardı Nəcəfoğlu. Adını "Posle potopa"[41] qoydu.

Ümidimiz Moskvayaydı. Mərdəkanda, axırıncı söhbətimizdə belə qərara gəldik ki, dostumuz əvvəlcə öz kitabını aparsın Moskvaya. Bakıynan, biznən, Elmimiznən bağlı olan türkoloqları, şərqşünasları, dilçiləri Akademik Marrın evinə yığsın, hamısı oxusun. Ümumi razılıq olsa, xəbər versin, "Vərəsə"ni mən özüm aparım.

Uzun əhvalatdı bu. Uzun, qorxunc... "Əhvalat" yox, fəlakətdi. Dinlə!

* * *

Nəcəfoğlunun bağı Mərdəkanın lap ucqarındaydı. Yaşıllıq-zad yoxdu orda. Çünki xəzri tutan yerdi. Bağların hamısını hasarlayıblar ki, qum tənəyi basmasın. Xəzri vuranda hasarların arasından dikinə tozanaq qalxır, göz açmaq olmur. İt də dama dürtülür o tozanaqda. Biz də qəsdən elə şiddətli xəzri vaxtı, gecə getmişdik.

---

[43] Faciəli röya.

Nəcəfoğlunun Kişvər adında bağbanı vardı. Qara, gödək kişiydi. Bağlarda tənək əkirdi, xəndək qazırdı, taxtadan məhəccərsayağı arakəsmə düzəldirdi ki, toz xəndəyi doldurmasın, tənəyi boğmasın. Çox ağır işdi bu. Yazıq nakam dostumuz qəmli-qəmli gülürdü: "Xəndəkləri saysan, Kişvər bir gündə üç-dörd qəbir qazır!" – Sataşırdı bağbanına. Əmma həm də nəyəsə eyham vururdu.

Mərdəkanda hamı fağır, zəhmətkeş, qərib adam kimi tanıyırdı onu. Şeyx əmiləriyin hambalı Fağırı-Yağırı xatırladırdı mənə həmişə. "Bağırovun yerlisidi" deyirdilər. Xeyir işlərdə Kişvəri xüsusi hörmətnən yedirdib-içirirdilər. Ölü düşəndə qəbirqazanlar onu da çağırırdılar ki, "Kişinin yerlisinin xətrinə" ölü yiyələri yaxşı pul versinlər.

Nəcəfoğlu kimi, Məhərrəm də şübhələndi bağbandan. Dedi: "Lapatkaynan işləyənin boynu tir kimi olar. Bunun boyun-boğazında əzələ deyilən şey yoxdu. Tükdən keçirmək lazımdı bu lapatka adamını".

Saçından tük qopardıb Nəcəfoğlunun əlyazmasının üstünə qoydu, siyirməni ehtiyatnan itələyib bağladı, açarı götürdü. Çıxdıq dənizə getdik. Qayıdanda Məhərrəm siyirməni açdı, ehtiyatnan çəkdi, dedi: "Gəlin baxın". Baxdıq, tük yoxdu. O vaxtdan bildik ki, Nəcəfoğlu nə yazırdısa, hamısının üzü götürülürdü. Bizim əsas işimiz bu olmalıydı ki, Mirqəzəbi fakt qarşısında qoymaqdan ötrü kitabın tamamlandığını bildirmiyək, əlyazmasını həmişə yarımçıq saxlayıb, kənarda maşınka yazısını hazırlayaq, aparanda da elə aparaq ki, "lapatka adamı" xəbər tutmasın. Buna görə də o gecə mən əvvəlcə sanatoriyaya getdim – Mərdəkana. Putyovkamı verdim, yer aldım. Məhərrəm də məni yoluxmaq adıynan əvvəlcə sanatoriyaya getdi. Həkimlərdən kim vardı, hamısını qonaq çağırdıq, gecəyarıya qədər yedik-içdik, şahmat oynadıq. Məhərrəm dedi: "Sultanın yanında qalacam bu gecə". Nə başını ağrıdım, konspirasiya üçün nə lazımdısa elədik. Maşınların ikisini də sanatoriyanın qabağında qoyub, gecə saat on birdən sonra sanatoriyanın dal qapısından çıxdıq, dostumuzun evinə də maksimum ehtiyatnan getdik. İşığı yandırmadıq. Papiros çəkmədik. Divar peçinin işığında danışdıq. Dediyim kimi, qərara gəldik ki, dostumuz əvvəlcə kitabını aparsın. Nəcəfoğlu heç cür razılaşmırdı. Əsəbiləşirdi. Deyirdi: "Vərəsə"siz bu kitab heç nədi! Yeddi yüz əlli cildi bir kitaba yerləşdirmək mümkün deyil. Bağday tarixi SafAğ Elminin tarixidi. SafAğ elmi isə Kainatın özü qədər genişdi, geniş izahat tələb eləyir". Axırda razılaşanda Məhərrəm kimi ağır adam bir yandan hoppandı qucaqladı, mən də bir yandan. Uşaq

kimi sevinirdik. Tək "Şeyx Xorasan" məqbərəsinin yox, bütün Naxçıvanın, indi "Asəf kəf" deyilən dağ içinə – mağaraya gedən adamların hamısının nəzarətdə olduğunu bilə-bilə sevinirdik. Nəinki Mirqəzəbə, Beriyaya, hətta Stalinə də çatdırılmışdı ki, "kər" deyil o yer, "KiEv" – OdEvdi, bütün Cənubdan gələn Ağ Türklərin "səfa" – SafAğların görüş yeridi... Belə miqyasda nəzarəti bilə-bilə sevinirdik, qardaşoğlu. Ömrü faciəynən keçən adam sevinc hissindən ya tamam məhrum olur, ya da lap iynə ulduzu qədər ümiddən də sevinir. İynə ulduzu qədər yox, böyük ümid bəsləyirdik ki, Məhərrəmnən mən bağdan aralanandan sonra Nəcəfoğlu əlyazmasını siyirmədə qoyub, çamadansız, portfelsiz-filansız, maşinka yazısını bir şeyə büküb götürüb çıxacaq, Müslümnən gedib gecə reysiynən uçacaq, oxutduracaq, dərhal da qayıdıb, əlyazmasını qabağına qoyub oturacaq. Ya da Moskvadan sonra birbaş "Asəf kəf"ə gedib, orda "şiəlik əlaməti" kimi tanınan ağ sümük Əl yanına, ocaq başına yığışan batinlərlə şiəlik haqqında hədissayağı şeylər danışacaq ki, Mirqəzəbin nəzarətçilərini çaşdıracaq. "Lapatka adamı" öz işində olacaq. Sultan Əmirli isə, xəstə ürəyinin kardiaqrammasıynan, "predpolojitelnıy diaqnoz"nan yola düşüb, "Vərəsə"ni Akademik Marra çatdırandan sonra Krem xəstəxanasında yatacaq. Beləliklə, Nəcəfoğluynan Məhərrəmin Moskvaya sərbəst gedib-gəlməyinə şərait yaranacaq, Mirqəzəb bir də o vaxt ayılacan ki, Moskvada "Posle potopa" adında kitab çıxıb, Avropa dillərinə tərcümə olunub yayılıb.

Ümidimiz beləydi, qardaşoğlu. Belə ümidnən qucaqladıq dostumuzu.

Qalxdıq ki gedək.

Qapını açanda gördüm Pers dim-dik dayanıb qabağımda. "Lapatka adamı" bir tərəfində, Çax-çux o biri tərəfində, "Fars qohumlarım" adlandırdığı köməkçiləri də arxasında.

Çax-çuxun o dəhşətli kobra gözləri açıqca deyirdi: "Oyun qurtarıb". "Lapatka adamı" hələ roldaydı: "Bu qardaşlar Nəcəfoğlu qardaşı soruşurlar".

Döndüm Nəcəfoğluna baxdım. "Vərəsə"nin birinci cildinin axırından bir vərəq qopardıb, dostumuza yadigar vermişdim. İngilislərin nə vaxtsa Orta Asiyadan apardıqları gil yazısının şəkliydi o vərəq, bir

---

[44] "Almaniya üzərində qələbədən sonra Sovet Ordu hissələri (bu hissələr azərbaycanlılardan ibarət olsa da (M) Cənubi Azərbaycanı tərk edəcəklər və Pəhləvilər oraya girəcəklər..."

[45] SSRİ Ali Sovetinin sədri.

cümlədən ibarətdi: "Biz Şumərlər[42] Qalamda qalası olduq". Şeyx Xorasan məqbərəsinə gedib-gəldiyimiz vaxtlar Nəcəfoğlu məni məcbur eləmişdi ki, haman vərəqi qopardım, ayrıca saxlayım. Çünki o cümlə İngiltərədə, Avropada çap olunmuşdu, bütün alimlər yekdilliknən təsdiq eləmişdilər ki, "miladdan min il əvvəl də Qalamda, yəni Orta Asiyada əhali türkdilli imiş". Daha doğrusu, təhrif dillərdə "Şumer" adlandırılan Şum Ərlərinin Orta Asiyaya ƏrAğdan (İraqdan) indi "Azərbaycan", "İran", "Türkiyə" adlanan Bağdaydan gedib, Bağdaya Qrek, Suriya basqınları dövrlərinə düşdüklərinə görə Qalamda məskunlaşdığına heç bir şübhə qalmırdı. Çünki dil, ləhcə bizimkinin eynidi: "Biz ŞumƏrlər Qalamda qalası olduq". Şəklin qiyməti bir də bunda idi.

Bir də İsrayıla işıq saçırdı... "Bibliya" da məlumat var ki, hələ yeni tarixdən əvvəl bizimkilərdən ƏsƏrƏl adlanan icmalar, Qreklərin ardıcıl təziqinə dözməyib əvvəlcə Qalama gediblər. O zamanlar ƏsƏrƏllər də OdƏrcə danışırmışlar, Qalamdakı əhali ilə eyni irsdən olduqlarını bilirmişlər. Buna görə də bir müddət orda – Qalamda qalıblar, sonra təhlükəsiz məkan sayılan "Beytül müqəddəs"ə, "Səfa" – SafAğ dağı ətraflarına köçüblər. Məhz o vaxtlar ƏsƏrƏl kəlməsi dəyişib, o səmtdəki ƏrEv – "Ərəb"lərin dilində "İsrayıl" şəklinə düşüb... O bir vərəqi – şəklin arxasında Nəcəfoğlu belə bir məlumat qeyd eləmişdi ki, sonralar "Bibliyada bir cümlənin həqiqəti" adında kitabça yazıb İsrayılı əfsanələr röyasından ayıltsın... Nəcəfoğlu hər dəfə ürəyinin üstünə sıxırdı o şəkli, qəhərlənirdi. Üzünü çıxartdırmışdı, ramkaya salmışdı. Stolun üstünə qoymuşdu... Persi kandarda görəndən sonra mən dönüb geri baxanda Nəcəfoğlu barmağını Qalam yazısında iki sözün üstünə tutdu: "qalası olduq".

Gözaltı Məhərrəmə baxdım. Professoruyun sifəti dümağ şama dönmüşdü. Ən dar gündə də təmkinli, toxtaqlı Məhərrəmim özünü itirmişdi o gecə.

Pers dedi: "Evə keçin. Gözləyin".

Kimi gözləməliydik? Məlum məsələydi: Cəllad özü təşrif gətirməliydi!.. Nə Nəcəfoğlu özü dəvət elədi, nə də Pers özü içəri keçdi. Biz evdə, onlar kandarda, ikicə saat susduq, qardaşoğlu. Kinin dərəcəsini gör: iki saat sükut!..

---

[46] Goreşən

[47] "Otar" – "OdƏr" deyilik biz sənlə, İudeyik, Sultan!"

Toz basdı otaqları. Avadanlıq, xalı-xalça batdı, ağzımız-burnumuz doldu, əmma əlimizi də tərpətmədik o iki saatda. Məhərrəmnən mən divanda keçinmişdik, Nəcəfoğlu stolun dalında. Kitab qabağında, əlinin altındaydı. Böyründə divar peçinin alovu eşiyə təpirdi. Peçin qapağını açıb kitabı ora tullamaqdan ötrü bircə saniyə də bəsdi. Əmma nə Məhərrəm tərpənirdi, nə də mən. Aydındı ki, doğrudan da "oyun qurtarıb", belə tozanaqda Pers dəstəsiynən kandarı kəsdiribsə, demək, dilimizdən nə çıxıb, qərarımıznan bir yerdə, Mirqəzəbin ovcundadı, "Posle potopa" adında kitab işıq üzü görmüyəcək, "Vərəsə"miz necə yatır, kitabımız da elə yatıb qalacaq, istintaqdan istintaqa ortalığa qoyulacaq ki, "İttihadi-İslam"ın kitabxanası sizdə deyilsə, bu kitab hansı məxəz əsasında yazılıb?! Başqa məxəz yoxdusa, kitab "Vərəsə"nin əsasında yazılıbsa, Cənubda siyasi təxribat üstündə edam olunmuş Şeyxlərin kitabxanasını belə cidd-cəhdlə gizlədirsinizsə, onda necə boyun qaçıra bilərsiniz ki, siz də burda – Sovet Azərbaycanında təxribat məqsədi güdmürsünüz?!. Təxminən bu məzmunda istintaq görürdüm mən. Bilirdim ki, Məhərrəm də görürdü. Çünki bu mövzuda söhbətimiz çox olmuşdu. "Vərəsə"nin ətrafındakı hadisələri yada sala-sala, kitabın ətrafında gözlənilən təhlükənin variantlarını düşünüb, əvvəlcədən müəyyənləşdirmişdik. Ən qorxunc variant elə o idi ki, kitab Moskvaya çatdırılmamış ələ keçsin, istintaq başlansın. Elə bir istintaq materialını öz məqsədinə uyğun şəkildə tərtib elətdirib "şef"inə – Beriyaya göndərəndən sonra Mirqəzəb hərtərəfli qalib olurdu, qardaşoğlu. Yeganə çıxış yolu buydu ki, kitab yandırılsın. Əmma bu variant daha pis nəticə verə bilərdi. Beş il "Şeyx Xorasan" məqbərəsinə gedib-gəlib, dördcə il də gecə-gündüz oturub, maşinka yazısıynan min səhifə yazandan sonra Nəcəfoğlu qupquru qurumuşdu. Məndən kiçikdi. Cəmi qırx iki yaşı vardı. Saçına təzə-təzə dən düşürdü. Əmma sifətinin, sinəsinin, əllərinin dərisi qansızlıqdan

---

[48] "Məni buraya şəxsən Stalin göndərib. "Bağ" kəlməsini nəinki yazmağa, hətta dilimə gətirməyə də ixtiyarım yoxdur. Çünki, məlumdur ki, "Boq"dur, "Bağ". "Day" sözünü isə saxlamaq olar. "Maday" yazaq və deyək ki, "Ma" "Mağ" sözündəndir və hamıya aydındır ki, atəşpərəstdir "Mağ". Hələlik atəşpərəst olun. Başqa cür mümkün deyil".

[49] "Mən axı artıq "Bağday" yazmışam!"

[50] "Nə və necə yazmağı Stalin deyər! Heydər Nəcəf oğlu Hüseynov artıq alıb Stalin mükafatını. Stalinin qol çəkməyi qalıb. Əgər qol çəkməsə, mən dərhal filosofumuzun başqa bir, Şeyx Şamil haqqında kitabını verərəm ona. Əgər Boq almasa Stalin mükafatını, Şeyx alar. Çünki Şeyx Bağırovun həmyerlisidir! Dağlıdır!"

göyərmişdi. Burnunun altında dırnaq sədəfi biçimində bığı vardı. Yorulanda stola dirsəklənib, şəhadət barmağının ucunu bığına sürtərdi. Bu o deməkdi ki, taqətdən kəsilib, yuxudan yaxasını qurtarammır. Elə o cür, barmağının ucunu bığına sürtə-sürtə gözlərini yumub, stolun dalında daş kimi düşərdi. On-on beş dəqiqə, ən çoxu yarım saat yatandan sonra birdən dik atılardı, tövşüyərdi. Deyirdim: "Çox təntiyəndə uzan divanda rahat yat". Deyirdi: "İxtiyarım yoxdu". Bir dəfə soruşdum ki, "Niyə elə atılırsan? Vayğa[43] görürsən, nədi?" Dedi: "OdƏrləri görürəm. Yupiterdən dalğa göndərirlər, tavanı tıqqıldadırlar, oyanım işləyim". Bilirsən nə deməkdi bu? Əgər Nəcəfoğlu sağ qalsaydı, o tıqqıltılardan sonra Ün eşitməliydi. Elmimizin qanunudu bu. Hər kəs SafAğ Elmiynən bir müddət gecə-gündüz, ardıcıl məşğul olursa, beynində SafAğ İşıq artır və hökmən Bağlarnan danışır.

"Beyin" təhrif sözdü. OdƏr dilində yoxdu "beyin", BağÜn var. BağÜn!.. Mən ardıcıl məşğul olammamışam. Əmma Bağ nəslindən çox uzaqlaşmıyan adamlarda irsiyyət güclü olur. Belələri Elm barədə lap cüzi məlumat alar-almaz beyinlərində SafAğ İşıq artır. Əgər İlan mühiti çox sıxmırsa, sən atanı necə görürsənsə, onlar da ikinci doğuluşdan sonra Yupiterdə məskunlaşan əzizlərini eləcə görürlər, səslərini eşidirlər. Heç bir möcüzə yoxdu bu dediklərimdə. İstəyirəm bizim o vəziyyətimiz, Nəcəfoğlunun vəziyyəti bütün aydınlığıynan çatsın sənə, oğul... Naxçıvandan qayıdanda təhlükə başqa cürdü. Onda tərəzinin bir gözünə "Vərəsə" qoyulmuşdu, o biri gözünə bizim həyatımız. Atan getdi, "Vərəsə" qaldı. Mərdəkanda isə mübarizəmiz son həddə çatmışdı. Bizi ideoloji təxribatda taqsırlandırmaqnan Mirqəzəb "şef"inin əl-qolunu açırdı ki, "xüsusi qrup"un təşkilinə əsas verən sənədləri SSRİ prokurorundan istəsin, mənim məktubumu, Məhərrəmin SSRİ prokuroruna yazdığı məlumatı alıb, ideoloji təxribatçıların, siyasi düşmənlərin böhtanları kimi məhv eləsin. Beləliknən, cinayətlərin üstü örtülürdü. Yəni Cənubda iyirmi ikinci ilin, otuzuncu ilin, qırx altıncı ilin hadisələri

---

[51] "Hə, cənab atəşpərəstlər, ümidvaram ki, böyük şeyxlərin vərəsəsini daha gizlətməzsiniz bizdən".

[52] "Böyük şeyxlərin vərəsəsi Sovetlər İttifaqının ərazisindəki bütün xalqların vərəsəsidir. Şeyxlərin vərəsəsi bizi bütün dünyanın xalqları ilə birləşdirir. OdƏrlərin böyük Rus xalqı ilə qan birliyi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, tamamilə aydındır, "Rus" – "ƏrÜz"dəndi. Arxivlərdə sənəd var, ƏrÜzləri Rimlilər məcbur ediblər ki, skandinaviya ləhcələrini öyrənsinlər, indi "köhnə rus dili" adlananı."

obyektiv səbəbləri olan məğlubiyyətlər kimi qələmə verilirdi, çoxəsrlik azadlıq hərəkatına zəif hərəkat damğası vurulurdu, mühacirləri ruhdan salırdı, "Pəhləvi hakimiyyəti" adı altında imperializmin "İran"da hökmranlığını möhkəmləndirirdi.

Sənə o qədər çatmır bu söhbət. Bayaq dedim, Pəhləvi Fars deyil. Qədim BağOd EvÜn OdƏrləri əvvəlcə "Paxtavan", sonra "Pəhləvan" – Pəhləvi adlanıblar, yəni Bağdayı Qrek – Latınların, Suriyalıların basqınlarından mühafizə edən hərbçilər. İrsən indinin özündə də hərbçidilər. Düşmənimiz haqqında rəğbətlə danışıram. Niyə? HəmOdÜnün darvazasında, enişə düşən yerdə ƏsÜz (yaradan məna) deyilən hasarlı bir yer var, indi də durur əlamətləri. BağOd EvÜn sərkərlər (Sar OdƏrlər) həmin ƏsÜzdəcə oturub, Ün eşidə-eşidə əvvəlcədən bilirmişlər ki, hansı düşmən ordu harda, necə hazırlaşır ki, döyüşə, basqına gəlsin. Qreklər "Suz" deyirlər, ƏsÜzə, mənasını da bilmirlər. Biz isə burda Şimalda da o Pəhləvilərimizi görən kimi tanıyırıq. Hələ də hərbçi ifadələri ilə, təhrif OdƏrcə danışırlar. Cənubda əhalinin heç beşdə biri də deyillər. Üzdə özlərini Fars kimi qələmə verirlər. Niyə, bilirsən?

İndiki "Fars körfəzi"ndən bir az bəridə EvƏrSu və ya EvƏrƏs ərazimiz olub. İndiki Pəhləvilər – Pəhləvanların nizami orduları o ərazidə olublar. Bağdayı qoruyublar. Zaman keçdikcə, Qreklər içərilərimizə yeridikcə, dilə də çox pis təsir eləyiblər. BağOd EvÜnə "Paxtavan" dedikləri kimi, EvƏrƏsə "Pers", "Pars", "Fars" deyiblər, Farslar da BağOd EvÜnə əvvəlcə "Paxtavan", sonra "Pəhləvan", axırda "Pəxləvi" deyiblər. Bunlar çox vacib şeylərdi, təkrar eləyirəm ki, unutmuyasan. Belə şeyləri bilməsən, keçmişimizi dərk eləməzsən, babalarını, millətini, özünü tanımazsan, yoxa çıxarsan, bəşəriyyətin ən ülvi tarixini də özünnən birlikdə həmişəlik məhv eliyərsən. Daha dəqiq desək, bəşəriyyət indi düşdüyü dini əfsanələr selindən də güclü selə düşüb, idraknan yox, stixiyaynan yaşayar, bətnən tamam çürüyər.

---

[53] "Bizim yazdığımız məgər tarixdir? Heç cəhd eləyirikmi ki, hər hansı bir mətndən, sənəddən heç olmasa az-maz bir həyat nişanəsi və ya həqiqət çıxaraq?!. Böyük şeyxlərin müqabilində mən heç kəsəm! "Potop"la müqayisədə mənim kitabım heç nədir!.."

[54] "Demək bir həftə vaxt! Gedə bilərsən, Sultan Mamedoviç. Get və fikirləş, şeyxlərin vərəsəsini gizlətməyin əvəzində nə itirərsən?"

İlan bilir bunu. Keşiş Vissarion Cuqaşvili "Stalinə" geniş hərbi dərs deyib bu barədə. Çünki Pəhləvi irsindən hələ də qorxurlar. Tarixi, Elmi öyrənib biznən yenidən birləşsələr, Pəhləvilər Bağdayı bərpa edə bilərlər.

Biz EvƏrEy OdƏrlərini vaxtilə çox sevirmişlər BağOd EvÜn OdƏrləri. Heyif indi çoxu "Bayod" deyir özünə, yəni bizdən tərik düşüblər. İlanın Stalinə ən ümdə tapşırığı bu olub ki, "Yevrey"ə dönən EvƏrEyi, "Pəhləvi"yə dönən BağOd EvÜnü öz kökünə – Bağlara, Türkə qarşı qoysun.

Yadına sal, otuz altıncı ildə nə deyib o Qrek casusu "Stal": "Vı ne Turki, vı azerbaydjansı". "Tat"larımız, "Fars"larımız dillərinin kökündəki "Dəri"nin OdƏr dili olduğunu, qədim Tərik – türklüklərini bilə-bilə, "rəhbər"in arzusuynan, həmən otuz altıncı ildən etibarən "Pantürkizmə qarşı" döyüşürlər. Bax buna görə də Stalin, Beriya, Mirqəzəb üçlüyü bir ovuc cahil hərbçi "Pəhləvan"ı – "Pəhləvi"ni lap asanlıqnan qaldırıb çoxmilyonlu OdƏr Türkünün belinə mindirib! İngilislərin arxeoloji materiallarında təhrif "Paxtavan", "Paxlavan" sözləri Çerçillin ən çox təkrar elədiyi sözlərmiş, məhz o – Çerçill çox çalışıb ki, Stalin Pəhləvi şahına hər cür kömək eləsin, qırx altıncı ildə bizim Demokrat firqəsini məğlub eləsin.

Bizim "xüsusi qrup"dan savayı hələ heç kəsə məlum deyil ki, Stalinin Çerçilnən gizlin müqaviləsi var. O müqavilənin rus variantında çox açıq və kobud şəkildə yazılıb: "Posle pobedı nad Germaniyey çasti Sovetskoy Armii pokinut Yujnıy Azerbaycan, kuda voydut Pexlevidı.."[44]

Bircə o qalıb yazılsın ki, "Pexlevidı perestrelyayut yujnoazerbaycanskix Demokratov". Yazmayıblar, eləyiblər. Təhrif "Yevrey" adı altında necə ümumbəşəri EvƏrEy – Uca İşıq Evi olduğunu yaxşı bilən Vissarion yetirməsi qədər EvƏrEy – Tərik – Türk qanı içən ikinci hökmdar yoxdu, oğul!.. Bədbəxtliyə bax ki, tək russkoyazıçnılar yox, bütün planet "Yevrey"ləri Stalini ən qüdrətli hökmdar kimi sevirlər!.. "Potop" ələ keçsəydi, elə özümüzünkülərin əliynən güllələtdirəcəydi bizi o qaniçən.

Vəziyyətimiz beləydi, qardaşoğlu.

Heyrətnən deyirsən əl qaldırıb mənə səs verənlər Bezobraziyenin tapdağındamı qalsın?!. Bir kəndin, bir rayonun taleyindən yox, vətəniyin, xalqıyın taleyindən danışıram mən sənə. Bir az sonra tamam inanacaqsan

---

[55] "Dostunuz venasını kəsib. Siz isə hamamda xumarlanırsınız! Basdırın onu! Özü də elə basdırın ki, bir nəfər də ins-cins xəbər tutmasın bu biabırçılıqdan!"

ki, EvƏrEy OdƏrləri bəşəriyyətimizin köküdür, deməli, mən ümumən bəşəriyyətimizin taleyi barədə danışıram. "Stal" "kliçka"sında ilandan, hümmətçilərin məhvindən, iyirmi il hakimiyyət başında oturan Mirqəzəbin törətdiyi ümumbəşəri faciədən danışıram. Aparacam səni o məhkəməyə, otur qulaq as, gör kimlər danışırlar tribunadan, nələr açılır tökülür... Nə qədər alimini, şairini, ədibini sürgünlərdə çürüdüb "Stal!" Nə qədər Şeyx, Axund adı altında gizlin "Muğ"larını itirib-batırıb! Qədim OdƏr əraziləri Misirdən, İraqdan başlamış, Türkiyənin özündən, o tay-bu taydan min-min cildlərlə həqiqət kitablarını yığışdırıb yandırtdırıb!.. Bütün olub-keçənlərdən sonra o "ustanovka"ynan yazanların arasında yeganə cəsarətli tarixçimiz vardı, dissertasiyasında Nərimanovun adını saxlamaqdan ötrü şəxsən Kalininə[45] müraciət eləyib icazə almışdı, o yeganə ləyaqətli tarixçimiz də əldən gedirdi! Ömrünün doqquz ilini "Vərəsə"mizin tədqiqinə verib, doqquz il məhrumiyyətlər içində yaşayan yeganə filosofumuz əldən çıxırdı!

Beləydi vəziyyətimiz, yeganə balam!

Mənim əvəzimdə sən olsaydın, özünü oda vurardın, yandırardın. Əmma mən saxladım özümü.

Qulaq as.

O küləkli gecə Mirqəzəb tozanaqnan gəldi, Nəcəfoğlunu maşına basdı apardı. Məəttəl qaldıq ki, bu nə gəlişiydi, nə gedişiydi? Hardan gəlirdi, hara gedirdi? Niyə tək Nəcəfoğlunu apardı? Niyə özü apardı? Kitab niyə stolun üstündə qaldı?!

Məhərrəmnən düz bir ay yediyimizi-içdiyimizi bilmədik. Dostumuz yoxa çıxmışdı. Akademiyada deyirdilər Moskvadadı, Moskvada deyirdilər: "Gəlməyib. Görməmişik". Rayonu-zadı atmışdım. Bu divarların arasında vurnuxa-vurnuxa, gündə bir versiya fikirləşirdik Məhərrəmnən, axırını bir yana çıxardammırdıq. Yuxusuz, ac-susuz, gah qapıda – palmanın yanında, gah da həyətdə gəzinirdik, Çax-çux gəlib-getdikcə ona fikir verirdik. İndi təsəvvür elə ki, bizim o vəziyyətimizdə, gecənin yarısında Persin maşını ildırım sürətiynən gəlib həyətdə dayanır, Çax-çux maşından atılıb qışqırır ki, "Kişi sizi gözləyir. Tez olun!"

Mən üzünə baxammıram o qatilin, uzaqdan-uzağa qaraltısını görəndəcə qan təzyiqim kəlləçarxa qalxır. Bu səbrin, dözümün sahibi, neçə

---

[56] "Sənədləşdirin güllələnsin".

[57] "Onu aradan götürməyin vaxtı çatıb".

dəfə kinim coşub, SafAğ Sultanı içərimdə boğub əlimi silaha atmışam. Məhərrəm də mən gündədi. Əmma orda ikimiz də birdən cumduq üstünə ki, Nəcəfoğlu hardadı?!

Başladı ki, "Dostunuz oturub Kişinin kabinetində, Kişiynən qabaq-qabağa konyak vurur!"

Təsəvvür elə ki, getdik gördük doğrudan da konyak vurur!

– Nəcəfoğlu?!

– Bəli, əzizim! Mirqəzəbə gündə min dəfə lənət deyən Nəcəfoğlu, Mirqəzəbnən üz-üzə oturub koynak içirdi, tort yeyirdi! Bizim "Midi", "qiena[46] Midi" adlandırdığımız dəhşətli "ustanovka alimi"ynən – falsifikatornan elmi söhbət eləyirdi. "Az ər" – OdƏrdən, Tərik – Türk EvƏrEydən hərtərəfli məlumatı ola-ola, indiki "Yevrey" xalqının keçmişini çox gözəl dərk edə-edə elə bil heç nə dərk eləmiyən bir "yevrey" idi o "Midi". Qədimlərdə, Misir, İsrayıl tərəflərdə OdƏr dili əvəzinə "EvƏrEy" dili adlandırılan, sonralar o təhrif ərazilərdə tanınmaz dərəcədə dəyişib "İfr"it" adlanan dildə danışırdı o "Midi", özünü "qorskiy yevrey" adlandırırdı. Mirqəzəbin gizlin məsləhətçilərindəniydi. Məni görəndə qapqara qaralırdı: "Ne "Otar"ı – OdƏri mı s toboy, İudei, mı, Sultan!"[47] Deyirdim "heç olmasa, ərəbcə "Yəhudi" de, İuda!" Deyirdi "Ərəb dili Qrek dilindən də dəhşətli falsifikasiya dilidi, "Yəhudi" deməm. Çünki "İudey" qrekcə olsa da, EyOda – Uca həqiqətə daha yaxındı, Sultan, povtoryayu: "mı s toboy İudei!" Bax belə, hər şeyi dərk edə-edə heç nəyi dərk eləməyən dəhşətli bir alimi-biəməliydi o "Midi", "Qiena". "Midiyanın ölü dili" yazan, Olamı "Elam", Ulu Bağı "Lullu bəy" eliyən. BağOd EvÜnü "Pexlevid" yazıb, Bağday ərazisinin ƏrEy – "Rey" vilayətinin də "Pexlevid"ə verən cani falsifikatornan elmi söhbət eləyirdi dostumuz. "İran" nə deməkdi?! İrlər?! Yoxsa, Ərlərdi – Ərəndi o ərazi?!" Belə qışqırırdı, içirdi.

Qəşəngcə möcüzə yaratmışdı Mirqəzəb.

İçəri girəndə bir kəlmə dəydi qulağıma: "Maday". Qapının arasında ayaq saxladıq, Midi deyirdi: "Ya poslan syuda liçno Stalinom. Ya ne imeyu pravo ne tolko pisat, daje proiznesti slovo "Bağ". İbo oçevidno, çto eto Boq. A slovo "Maday" ostavit mojno. Luçşe napişem "Maday" i skajem: "ma" ot slova "Mağ". A "Mağ, obşeizvestno, oqnepoklonnik. Ostavaytes poka oqnepoklonnikami. İnaçe nevozmojno".[48]

Dostumuz dedi: "No ved ya uje napisal: "Bağday!"[49]

Mirqəzəb əlini stola vurdu: "Stalin skajet kak i çto pisat Heydər Nəcəf oğlu Hüseynov uje poluçil Stalinskuyu premiyu. Ostaetsya podpis Stalina. Yesli ne podpişet, ya tut je podkinu yemu druquyu kniqu naşeqo filosofa o şeyxe Şamile. Yesli Boq ne poluçit Stalinskuyu premiyu, Şeyx Şamil poluçit. İbo Şeyx zemlyak Baqirova! Qorets!"[50]

Şaqqıldaşdılar güldülər. Stalinin sağlığına içdilər.

Oturduq, biz də içdik. Yazıq, bədbəxt əmin də içdi Stalinin sağlığına!

Sən, əlbəttə, içməzdin. Güllələnməyə gedərdin, içməzdin. Əmin isə konyakı son damlasınacan içdi. Çünki təhrif mühitdə "BağMən" demirik biz özümüzə, Ərəbin, Farsın təhrif diliynən "Məğmun" deyirik. İlan mühitində "Məğmun"uq – "Mağmın"ıq biz, oğlum!

Müdafiə eləyə bilmədim mən orda dostumu – dahi Heydərimi. Budur "Sultan Əmirlinin daha bir cinayəti!.."

Stolun üstündə bir yığın kitab vardı: "Posle potopa!.." Zər naxışlı, gözəl nəfis cilddə, Mirqəzəbin stolunun üstünə yığılmışdı ki, Stalin mükafatı komitəsinə göndərilsin.

Mirqəzəb gülürdü. Gözümüzün içinə baxa-baxa başladı ki, "Nu çto, qospoda oqnepoklonniki, nadeyus bolşe ne skroyete ot nas naslediye velikix şeyxov!"[51]

Demə, o bir ayı Mirqəzəb öz bağında saxlayıb Nəcəfoğlunu, redaktor təhkim eləyib, təcili çapa hazırlatdırıb "Posle potopa"nı. İlk nüsxə hazır olan kimi özü aparıb, Stalin mükafatı komitəsində oxutdurub. Bizi "bayrama" çağırmışdı.

Bir də iyunun axırında, Nəcəfoğlunu Moskvadan, öz təyyarəsində, döşü nişanlı gətirəndə "bayrama" çağırdı bizi, tələb elədi ki, "Vərəsə"ni təhvil verək. İndi danışacam, necə yasa döndü o bayram, nakam dostumuz necə "kəsdi venasını".

"Şeyx Şamil" kitabına görə almışdı laureatlığı. "Tak poluçilos" – deyirdi.

Bayaq dedim, Heydərin nəyə görə, necə öldürüldüyünü bilməlisən. Buna əlavə eləyim ki, o rəhmətlik də sən xasiyyətdəydi. Deyirdik: "Uçuruma gedirsən". Deyirdi: "Yaranan bir gün ölməlidi!" "Posle potopa" kitabını Midinin müqəddiməsiynən, zərli cilddə görüb, qələbə saydı bunu, öz ayağıynan tələyə getdi. Ümidini itirmirdi ki, "Şeyx Şamil" yayılandan sonra "Potop"u da çıxardar ortalığa.

O "bayram" gecəsi Nəcəfoğluna akademik diplomu verdi Mirqəzəb, Məhərrəmnən məni şəkkaklıqda, inamsızlıqda təqsirləndirə-təqsir-

ləndirə yarım saat nitq dedi: “Nasledie velikix şeyxov – eto naslediye vsex narodov, naselyayuşix territoriyu Sovetskoqo Soyuza. Naslediye şeyxov obyedinyayet nas so vsemi narodami mira. Osoboye znaçeniye imeyet krovnoye yedinstvo OdƏrov s velikim russkim narodom. İbo oçevidno, çto “Rus” – ot ƏrÜz. V arxivax soxranyayetsya dokument o tom, çto ƏrÜzov Rimlyane prinudili izuçat skandinavskoye nareçiye tak nazıvayemıy “starorusskiy yazık”.[52]

Qulaq assaydın, nakamımız kimi, sən də deyərdin möcüzə baş verib, cəllad dönüb adam olub.

“Bayrama” çağırılanların arasında “ustanovkaynan yazanlar”dan da vardı. Heç birinin üzünə baxmadı Mirqəzəb, təkcə Midiyə söz verdi.

Qalxdı Midi, nə qalxdı: “Da razve mı pişem istoriyu? Razve mı pıtayemsa izvleç iz kakoqo-nibud teksta, dokumenta xot maluyu kripitsu jizni ili istinı?! Pered velikimi şeyxami ya nikto! Po sravneniyu s “Potop”om moy trud nişto![53]

“Nikto, niçto” elədi özünü, “İstoriya Midii” kitabını, axırda da “respublika rəhbərliyinin qarşısında məsələ” qoydu ki, şeyxlərin kitabxanası tezliklə akademiyanın ixtiyarına verilsin, Stalin yoldaş məsləhət bilsə, “Midiya” adı ilə yanaşı, ölkənin həqiqi adı Bağday da kitaba daxil edilsin.

Pers yerindən söz atdı ki, yığıncaqdan sonra qalarsan, kitabxana barədə ayrı danışarıq. Əmma “bayram” qurtaranda birinci Midi Qiena qaçdı. Dalınca o biri “qienalar” – “ustanovkaynan yazanlar”. Bilirmişlər nəynən qurtaracaq “bayram”.

Üç nəfər qaldıq: nakam dostumuz, Məhərrəm, mən.

Cəlladın sifəti dəyişmişdi. Gözlüyünün şüşələri lupasayağı qalınıydı, “Mirqəzəb”dən başqa ona “Dördgöz” də deyirdi camaat. Baxdım ki, kin qaynayır gözlüyün dalında.

O cür, üz-gözündən kin saça-saça, kartını açdı, xəbərdarlıq elədi ki, şeyxlərin kitabxanası ən uzağı bir həftəyə meydana çıxmasa, “Posle potopa” özülsüz bina sayılacaq və əlbəttə, yandırılacaq.

“İtak, nedelnıy srok! Mojeş idti, Sultan Mamedoviç. İdi i podumay, çem mojet vernutsa dlya tebya utayeniye naslediya şeyxov”.[54]

Qapıdan çıxanda Pers də açdı kartını: “Pıçıldaşmayın. Heç bir səy göstərməyin. “Potop”un bütün nüsxələri xüsusi seyfdə, surquç altındadı.

---

[58] “...EvƏrEy kafirliyi atom kimi vurar bizi bütün planetdə”.

Nə kitabın adı məlumdu camaata, nə də məzmunu. Bilirsiniz, laureatlığı Nəcəfoğluna Şeyx Şamil hərəkatına aid yazdığı kitaba görə veriblər. Rüşvətdi bu, səsini kəssin! Kitabxana gətirilməsə, laureatlıq geri alınacaq, akademik Hüseynov Heydər Nəcəfoğlu isə siyasi fitnəkar və kapitalizm dünyasına xidmət edən casus sayılacaq".

Nakamımız dözmədi, oğul. Qışqırdı.

İndiyəcən qulağımdadı o qışqırtı. Bircə kəlmə – "Fəlakət" – deyirdi. – "Fəlakət! Fəlakət! Fəlakət!.." Katalikosların məktublarının tələb olunduğunu biləndə, mənim kabinetimdə yox, Mirqəzəbin kabinetində qışqırdı və elə bu qışqırtı da onun ölümünə hökm verdi. İndi deyirəm Sultan Əmirlinin "cinayəti" nədir: katlikosların məktublarını Mirqəzəbə vermədiyim kimi, kitabxananı da vermədim. Versəydim, bəlkə də sağ qalardı Heydərimiz.

Cəllad bir həftə hər gecə zəng vurdu: "Mı jdyom!", "Mı jdyom!" Nəcəfoğlu da bir həftə, yeməz-içməz, "Fəlakət, fəlakət" – dedi.

Tək buraxmırdıq.

Həftə tamamında bu evə gəldik ki, paltarımızı dəyişək. O günü də Cəllad axırıncı dəfə zəng vurdu: "Vaş druq venu sebe vsporol. A vı v vannax naslajdayetes! Zakopayte yeqo. Da tak, çtob ni odna jivaya duşa ne znala ob etom pozore!"[55]

Arvadını yaxın buraxmadılar meyidə. Məhərrəmnən mən olduq, üç-dörd nəfər "ustanovkaynan yazan", bir də o Kişvər – "lapatka adamı", sahibsiz ölü kimi apardıq əzabkeşimizi. "Fars qohumları" uzaqdan-uzağa müşayiət eləyirdilər. Maşınlardan düşmürdülər. Qəbrə yaxın getmədilər. "Ustanovkaynan yazanlar" da aralı durdular. "Lapatka adamı" özü qazdı qəbri. Elə qaza-qaza son dəfə oynadı orda – qəbrin içində: "Sirr qarnımı deşir, ay qardaşlar. Dostunuzu mənim gözümün qabağında öldürdülər, ay qardaşlar..."

Pers dil-dil ötür indi. Büzüşüb, meymuna dönüb, səsi də çıxmır. Mikrafon qoyublar qabağına ki, xırıltısı eşidilsin zalda. Demə, Qurbandakı qurğuşunlu nalı vaxtilə "iyli quyu"dan çıxardıbmış Pers, Yağırın kəllə sümüyünün gicgahında zərbə yerini göstərib sübut eləyibmiş, inandırıbmış Çax-çuxu ki, "Fağır hambal" – Yağır o nalnan öldürülüb. Mərdəkanda Çax-çuxa diplom verəndə nalı diplomun üstünə qoyub deyib: "Çəki daşı kimi işlət, həmişə gözüyün qabağında dursun, intiqama çağırsın səni". O vaxtdan "Muğ"lara qənim kəsilib o nal. Axırıncı dəfə nakamımızın gicgahına çaxılıb. Persin ifadəsinə görə, Cəlladın

şəxsi cəlladıymış Çax-çux, Cənubda da, burda da ancaq Mirqəzəbin özünün şəxsən Stalindən, ya da Beriyadan aldığı şifrəli teleqramlar əsasında işləyirmiş. Bir dəfə qırx altıncı ildə, "avariya"dan sonra Çax-çuxu aradan götürmək istəyib Cəllad, nalı aldırıb əlindən, "Oformlayte na rasstrel"[56] deyib, əmma Beriya müvəqqəti dayandırıb əmri. Bir də Nəcəfoğlunun ölümündən sonra zəng vurub deyib: "Pora ubrat yeqo".[57]

Pers də "Lapatka adamı"na tapşırıq verib ki, qatilin adını açsın bizə. Başa düşürsənmi qurğunu? Yəni Çax-çuxun qanına bulanıb Sultan Əmirli də sıradan çıxar. Əmma Sultan Əmirli dözdü, oğul. "Kitayskiy termos, kitayskiy fanar" qışqıra-qışqıra, Çax-çux necə gedib Mərdəkana – bağa, "yaman soyuqdu" deyib peçin qabağında necə çöməlib, işini görəndən sonra Nəcəfoğlunun öz ülgücüynən "vena"nı necə kəsib, qıyma-qıyma danışdı hamısını "lapatka adamı", dönə-dönə təkrar elədi ki, "Sizi necə görürəm, o termos satan Çax-çuxu da eləcə görmüşəm, ay qardaşlar. Haqqı nahaqqa verməyin, bu cür kişinin qanını batırmayın, ay qardaşlar".

Barmağımı naqanın tətiyindən çəkdim. Zornan çəkdim.

Mədədin qanını batırandan sonra Nəcəfoğlunun qanını da belə batırdım. Bir dəfə dəfndən sonra piyada şəhərə düşəndə gördüm nakamımızı: sakit, qəmli peyda oldu qabağımda. "Yükün ağır olacaq, qardaşım. Döz!" – dedi, yox oldu. Bir dəfə də gecə yarısı, çarpayıdan uzanıb tumboçkadan təzə "Kazbek" qutusu götürəndə gördüm, qutunu hirslə çəkib əlimdən alıb, xıncıb yerə çırpdı, yox oldu. SafAğ İşıq şəkil canlı insandan qat-qat güclüdü. Bu, adamı həm qorxudur, həm də elə gur sevinc, xoşbəxtlik verir ki, öz əlinnən qəbrə salladığın əziziyin ikinci həyatının – əbədiyyətinin sənə də aid olduğunu tamam dərk eləyib tamam başqalaşırsan: qorxudan xali olursan, heç vaxt ümidini itirmirsən.

Şeyx Məhəmməd Əmir yol ayrıcında tək-tənha öləndə də ümidini itirməyib. Son nəfəsində bıçaqnan barmağının ucunu deşib, can köynəyinin döşünə qanıynan vəsiyyət yazmışdı: "Oğullarıma vəsiyyətim ümiddi".

Şeyx Ağ Əmir, Şeyx Boz Əmir adında əzabkeşlərimiz də başları kəsilən günə qədər ümidlərini itirməyiblər ki, "qara bulud" dağılacaq, Günəş doğacaq, həqiqətimizi car çəkib, Bağdayın qapalı qapılarını açacaqlar.

Mədəd adında əzabkeşimiz də Bezobraziye üfunəti içində, heç vaxt ümidini itirmirdi. Dinməz-söyləməz, pambıq əkirdi, taxıl, bağ-bostan becərirdi, mal-qoyun qəhri çəkirdi. Gecələr çarpayısında uzananda işıq-

lanana qədər qaranquşların civiltilərinə qulaq asırdı, “Bircə balanın qaranquşları” deyirdi.

Əslində, özününüydü quşlar. “İki vətənli quşlar!”

İki vətənlimi! Olamdan, ƏrAğdan başla, gəl UcRuma get, ordan yenə də Qrekin əlindən dad çəkə-çəkə Avropaya, Amerikaya qaç, gör neçə vətəni var “Durnayın!”

Qrek adlanan möcüzəli qaniçən bütün planeti fəth eləmişdi axı o ikiyüzillik müharibədə, altı yüz dörd, səkkiz yüz ikinci illər arasında “Durna” Afrikada məskunlaşıb, saraylar tikdirib, arxayın yaşamağa başlayanda yenə Qrek axını başlanıb: əvvəlki kimi, sağ tərəfində Suriya orduları, solunda, arxasında Ərəb, Fars orduları! O vaxtlar da Amerikaya qaçış başlanıb. Şum Ərləri çoxdan bilirmişlər okeanın təlatümsüz yerlərini. Əvvəlcə cəngəlliklərdə gizləniblər, saysız-hesabsız gəmilər düzəldiblər. Mıxsız-filansız, ağacı-ağaca geyindirərmişlər... Hətta Yaponiya da “Durna” vətənidi, oğul! Dil barədə danışacam, onda biləcəksən ki, bu “Yer”in vahid milləti olub, indi də həmincə “Durna”dı: Ulu Bağ ƏsƏlMənin “Durna” qatarları hələ də “qərib-qərib, qəmgin-qəmgin ötürlər” mühacirliklərdə!..

Mədəd mən kimi deyildi, qəlbən çox köyrəyidi, əmma sınmırdı. Tərəzinin bir gözünə “Vərəsə”miz, o biri gözünə həyatımız qoyulanda da sınmadı, ömrünün son gününü də ümidnən yaşadı ki, “Vərəsə”nin Varisi var, böyüyüb “Elm və Eşq” sahibi olacaq, geniş fəaliyyət meydanına çıxacaq...

Lap tezliknən hamısınnan görüşəcəksən! Ölüm yoxdu, oğul! “Ömrün son günü” deyirəm. Əmma şərti sözlərdi bu “ömür”, “son gün”.

Müslüm “padnos”da pendir, çörək, tərxun, dörd şüşə pivə, nazik uzun “bokal”lar gətirib, “tyubik”in üstünə qoydu, şüşələrin ağzını açıb getdi.

Səmədi tər basmışdı.

– Əmi!.. Bağışla, sözünü kəsirəm... Necə yəni “görüşəcəksən?!” “İkinci doğuluş”a inandım... Çox şeyə inandım. O dünya var, şübhəsiz...

Sultan əlindəki “bokal”ı “podnos”a necə vurdusa, pivə sıçrayıb əlinin üstünü islatdı, barmaqlarının ortalarındakı tüklərin aralarında tutqun qabarcıqlara çevrildi. Səməd küt-küt o qabarcıqlara baxa-baxa Sultanın xırıltısını eşitdi. Qurban əminin, Ələsgər müəllimin də belə birdən-birə dəyişən səslərini xatırlayıb başını sinəsinə əydi. Çünki əmisinin səsi həm də qəzəbli idi:

– “O dünya” nədi?! Gör nələr danışmışam sənə duşun altından çıxandan bəri! Hələ dərk eləməmisənmi ki, “o dünya” məfhumu ən dəhşətli təhrifdi! Vahid Kainat var, deyirəm! On səkkiz min “Aləm” var. “Aləm” yox, EyOdƏr Babamızın diliynən deyilmiş Əlim var. On səkkiz min Əlimin saysız-hesabsız planetlərindən biridi bizim bu xaraba “Yer” – EyƏrimiz! Ün eşidirik deyirəm, danışırıq deyirəm! Bax belə, sənnən danışdığım kimi! SafAğ atam canlı insan qədər canlı şəklini göndərir, şəkil qənşərimdə o yan-bu yana gəzinir! Mədəd bax beləcə, sən kimicə oturur qənşərimdə. Əlimi əlinə toxundururam. İşıq canlıdı! Canlı kimi! Necə deyim ki, aydın olsun?! Canlı əl kimidi da, ay oğul! Hərarəti var hətta. Hərdən lap yaxınlaşıram, bilə-bilə ki Mədədin özü deyil, dözəmmirəm, qucaqlayıram. O da məni qucaqlayır! Boynumda-boğazımda əməlli-başlı nəfəs kimi nəfəs təması hiss eləyirəm! Ölüb demək olarmı bu adama?! Başa düşdün?! Mədəd deyir: “Səməd hələ anasının qoynunda olmuyanda, bir il qabaqdan altı aylıq çağa göstərdilər planetdən”. Rəhmətlik Sura soruşub ki, “nə oldu sənə, a kişi, halın niyə dəyişdi?” Deyib: “Bir qəşəng oğlumuz olacaq. Röyada gördüm”. Başa düşürsən? Açammayıb ki, röyada yox, aşkar görüb... İnan, oğul, heç bir möcüzə yoxdu, adi həqiqətdi danışdıqlarım!

Çörək ye. Ac qarına içəndə pivə də dumanlandırır adamın başını. Ye, yeyək. Başa düşəcəksən hər şeyi... Hər şeyi...

* * *

İndi keçirəm çox vacib, çox maraqlı bir məsələyə... De görüm Stalinin “Voprosı yazıkoznaniya”sını oxumusanmı?

Səməd diksindi.

– Stalinin əsərinin nə dəxli var bura, ay əmi?!

– Oxumusan, ya yox?!

– Əlbəttə!.. Stalinin hətta məktublarını da oxutdurublar bizə. “Voprosı yazıkoznaniya”nı rəsmi dərslik kimi, hamıya oxutdurdular. İki nəfər dilçinin iştirakıynan müzakirə oldu. Mirqəzəb özü çıxış elədi.

– Mənim mətləbim elə o çıxışın üstədi. Dilçilərimizin dilləri ağızlarına sığışmırdı ki, “görün dilçiliyin nəzəri məsələlərini necə bilir Kişi!” Əslində, Midi Qiena yazmışdı o çıxışı. Özü də Akademik Marrın əleyhinəydi hamısı. Vaxtilə Akademik Marr bir silsilə mühazirə oxumuşdu burda – Bakıda... Şagirdlərin olacaq sənin. Onlara xüsusi deyərsən ki,

Akademik Marrı şəxsən Stalin özü göndərmişdi "Şeyx Xorasan" məqbərəsinə ki, oxusun, öyrənsin, "konkretnuyu spravoy" yazsın. Marrı mən, sonra da Nəcəfoğlu başa salmışdıq ki, bu, dünyamızın tarixidi, Bağın, OdƏrin dilini əyri güzgüdə göstərsən əzabdan qurtarammazsan. Dərk elədi. Sonralar Moskvada "Bakı kursu" deyirdilər burda oxuduğu mühazirələrə. "Yeni nəzəriyyə" deyirdilər. Moskvada da, xaricdə də yüksək qiymət verirdilər. "Yazıkoznaniye"də Stalin çox qısa yazıb. İki kəlmə – "idealist nəzəriyyə" deyib.

Əmma Nəcəfoğlu "peyğəmbərlik" adlandırırdı.

– Marrın nəzəriyyəsini?!

– Nəzəriyyənin "təfəkkür dili" adlandırdığı qisminə "peyğəmbərlik" deyirdi. "Proroçestvo".

– Stalinin fikrinin əksinə?!

– Rəsmi yox... "Yazıkoznaniye", bilirsən ki, əllinci ilin iyununda çıxıb. Ondan bir il əvvəl – qırx doqquzuncu ildə o dəhşətli falsifikator – Midi, Mirqəzəbi qızışdırıb Marrın əleyhinə qaldırmışdı. "Yeni nəzəriyyə"yə görə, əlifbanın hərfləriynən, söznən ifadə olunan dil – "səs dili" Yer bəşəriyyətinin inkişafının indiki mərhələsinə aiddir. Gələcəkdə, inkişafın yüksək mərhələsində "səs dili" əvəzinə "təfəkkür dili" olacaq, beyindən beyinə, təfəkkürdən təfəkkürə yol açılacaq, insan insanın fikrini eşidəcək. Yəni beyindən, daha doğrusu, BağÜndən çıxan fikir dalğaları ikinci insanın beynində Ünə, sözə çevriləcək... Çaşma, Bağday tarixinə toxunmamışdı Marr. Ehtiyat eləyirdi, deyirdi: "İndidən məni qınayırlar ki, "isklyuçitelnost EvƏrEya atomom udarit na nas na vsey planete".[58]

Əmma qorxmamışdı o nər oğlu nər Marr. Bağ nəslimizin Ün eşitməyi barədə heç nə yazmasa da, "təfəkkür dili"ni öz şəxsi nəzəriyyəsi kimi qələmə versə də, alimlərin fikrini insanın perspektivinə yönəltməyə nail olmuşdu. KeQeBe-nin nəzarət seti şəraitində Marr nə Bağ adı çəkə bilərdi, nə də BağÜn deyə bilərdi. "Yazık mışleniya" – "Təfəkkür dili" vəssəlam.

Əmma marksizmə zidd deyildi nəzəriyyəsi. Məhz marksizm əsasında "təfəkkürdə yüksək faza – keyfiyyət dəyişikliyi" deyirdi. Nakamımız "Proroçestvo akademika Marra" adında məqalədə yazmışdı ki, "Pravda" qəzetinə göndərsin. Əmma Mirqəzəbin qadağası vardı: mərkəzi mətbuata göndərilən materiallara şəxsən özü icazə verməliydi. Nakamımız məcbur oldu, zəng vurdu Cəllada ki, bəs belə bir məqaləm

var. Cəllad Midini göndərdi ki, oxusun, məlumat versin. Midi də məlumat verməkəvəzinə, Akademik Marrnan nakamımızın əleyhinə qaldırdı Cəlladı.

Faciənin kökü çox dərindi, əzizim.

Burda diqqətli ol. Məlumatım çox mürəkkəbləşəcək indi. Çox diqqətli ol!..

"Qalaktika" əvəzində əslini – OdƏrcəsini desəm, səni çətinliyə salaram. OdƏrcəsiynən türkcəsinin qarışığında QalAğ OdAğdı. Yəni SafAğ İnsanın Qalamı (vətəni) SafAğ Həqiqətidi. Bunu unut hələ. "Aləm" əvəzinə Əlim dedim bayaq. Bunu da unut hələlik. OdƏrcəsiynən türkcəsini qarışığı QalAğı unutma. Əslində, qədim türk sözlərinin elə hamısı belədi: şəkilçisiz. "Qalaktika" sözünü eşidəndə fikrində "qalAğ" de, elə bunu da yadda saxla. "Aləm" eşidəndə "Əlim" düşünmək və "Əlim"i yadda saxlamaq daha faydalı olardı. Əmma OdƏr dilində Əl, Əli, Əlim, ƏlAğ sözləri çox işlənir. Hər söz birləşməsinin tərkibində bir cür mənada olur. Əl, Əli, Əlim, ƏlAğ – Sultan qımışdı. – Allahın dili bə nə təhər olar?! Özünü yığışdır, başın çatlamasın.

"Qalaktika" – QalAğ variantını yadda saxlamağı məsləhət görəndən sonra şagirdlərimizə, adətən "Qalaktika"mızın "Yer" – EyƏrdən başqa iki planetinin adının əslini – OdƏrcəsini deyirik: EyOdƏr (Uca Həqiqət İşığı), bir də OdAğÜz BağOdƏr (SafAğ İnsan Üzünün – Mənasının həqiqəti OdƏrBağ). Yəni planet özü də Bağdır: planeti planetə və "Qalaktika"ya – QalAğa bağlayır.

Qrek-Latının təhrif dili EyOdƏri "yadro" şəklinə salıb. Guya planet deyil, Günəşin daxilində energiya mənbəyidi. Əslində, bilirsən ki, EyOdƏr Babamızın planetidi EyOdƏr. QalAğdan göndərilən elementlərnən yeni-yeni planetlər yaradır. Bunu da bilmək lazımdır ki, təzə planetlərdə həyatı işıq içində göndərilən proqramlarnan təbiət yaranışından başlayırlar Bağlarımız. İkinci mərhələdə təbiəti tənzimləyən heyvanat, həşərat yaradılır. Lap fantastik miqdarda heyvanat, həşərat.

İndi soruşuram: real dünyanı əslində uzaqlaşdırıb əfsanəyə, mifə çevirən "qrek mifologiyası" adında yalan dəhşətini bəşəriyyətimizin beyninə yeridən nədir? Cavab verirəm: təhrif dil hakimiyyətidi!

Qreklər Olamı planetin saysız-hesabsız, nəhəng heyvanatından qoruyan ordu olublar, SafAğ İşıqdan yandırıcı silah kimi istifadə eləyiblər. Sonra Bağlarımız bu silahı ləğv eləyiblər, Qreklər adi soyuq silahlara, zirehə keçməli olanda Bağlara qarşı narazılıq yaranıb. Məhz o vaxtlar –

birinci əlliminlik tarixin kulminasiya əsrlərində, yəni qırx doqquzuncu, əllinci minilliklər dövründə GurAğlar adaya çəkilib, ayrılıb təfəkkürcə məhdudlaşıblar, tədricən dəyişiblər, təhrif dilli müstəqil xalqa çevriliblər. O zamanlardan da ardıcıl çalışıblar ki, "Qrek" dili hakim olsun. Çünki, sadəcə, vaxt keçdikcə "Allahlar"ın dilini anlamayıblar. Geri sananan ikinci əlliminillik tarixin on birinci əsrində Qreklər Bağdayın indi "Türkiyə" adlanan ərazisini tamam tutub, elə o dövrdən də həmin ərazidə OdƏr dilini qadağan eləyiblər. Bağlarımız, OdƏrlərimiz o zaman "ƏrMən", "Ərim", sonralar "Rum" adlanan həmin ərazini tərk eləyiblər, vətəndən tərik düşüb təhrif ərazilərdə "Tərik"lər adıynan, müxtəlif məkan adlarıynan tanınıblar. Qreklər isə, təhrif dil "mif"lərini elə o vaxtlardan yaya-yaya OdƏr dilini unutdurmağa çalışıblar. Bağların dilinin qüdrətini – insanın uzaqdan uzağa danışdığını bilirmişlər Qreklər, Olamdan sonrakı vilayətlərə basqına gedəndə səfərin OdƏrlərə əvvəlcədən məlum olmağından qorxduqlarına görə Bağ dilini təkidlə, inadla qadağan eləyirmişlər. Eramızın yeddinci-səkkizinci əsrlərində, Vizantiya imperiyasının qələbələri zamanında planetin əksər yerlərində Qrek-Latın əfsanələri hakim olub. OdƏrlərimizin bir qismi bütün Kainatda uçuşan İşıq gəmilərində uçub gedib, bu qan-qırğınlar, təhriflər, əxlaqsızlıqlar, murdarlar planetini tərk eləyiblər.

Danışanda çəkinmə, açıq de ki, orduda əsas təfəkkürsüzlük homoseksualizmdən yaranıb. Güclülər gücsüzləri zorlayırmışlar, psixika kökündən dəyişirmiş.

OdƏrlərin qaçhaqaçı, köçhaköçü təxminən onuncu əsrdə olub. Geri sananan tarixdə ha! Əhalinin bir qismi Elmdən, mədəniyyətdən ayrılıb, gəzərgilik şəraitində cahilləşib. Bir qismi isə Bağdayın gizlin guşələrində, Ulu Bağ ƏsƏlMənin ətrafında "Muğ"lar adlana-adlana, OdƏs (Yaradan həqiqət) əvəzinə, təhrif dildə "Atəş", "Atəşpərəst" təsəvvürü içində gizlin "Muğanna"lara çevriliblər... Çox danışacam bu faciə barədə. Çünki dediyim kimi, dil ayrılıqlarının kökü çox dərindi. "Qalaktika"mızın – QalAğımızın üç planeti, yəni EyƏr – "Yer", OdAğÜz BağOdƏr – "Yupiter", EyOdƏr – "Yadro" ətrafında danışdığım qısa xülasədən özün nəticə çıxart: Akademik Marr OdƏr bəşəriyyəti, "Yer"də vahid OdƏr dili və Bağday dövləti barədə həqiqətin lap cüzi bir hissəsini açsaydı, nə baş verərdi Bakıda, o tay-bu tayda, Türkiyədə?!. Erməni katalikoslarının Vatikandan göstəriş alıb öz aralarında məktublaşmaları, "Vərəsə" həqiqətlərinin, OdƏr dilinin falsifikasiyası barədə

göstəriş, sürgünlər, xüsusən ən gizlin ocağımız Göyçəyə divan tutulması qırx səkkiz – əlli üçüncü illər arasında görülən dəqiq, planlı işdi, oğul. Təsadüfi deyil ki, sizin o müzakirədə ikicə nəfər yaltaq, falsifikator dilçidən başqa, mütəxəssislərdən heç kəs iştirak eləməyib.

De görüm, partiya məktəbində Cəlladın o çıxışının məğzi yadındadımı?

– Məğzi... – Səməd fikrini toplamağa çalışdı.

Yadında qalan bu idi ki, o çıxışda nədənsə adları çəkilməyən "anonim müəlliflər"in fikrincə, yer üzündə bütün dillər vahid bir dildən doğulub, bir kökdən bitmiş ağacın budaqları kimi, gövdədən haçalanıb, ayrı-ayrı budaqlara çevrilib. Eyni dildən yarandıqları, oxşarlıqları müxtəlif tələffüzlərdə gizlənir, yalnız lap mikroskopik diqqət yetirəndə bilinir ki, hamısı eyni dildi. Mirqəzəb bu fikri "arxivlər küncündə qalan, zərərli idealist nəzəriyyə" adlandırıb, sübut edirdi ki, bəşəriyyətin ilkin yaranış dövründə, müxtəlif qitələrdə bir-birindən xəbərsiz ibtidai icmalar olub, elə o icma dövründən ilk bəsit sözlər, bəsit dillər yaranmağa başlayıb. Dillər sayca guya indikindən dəfələrlə çox olub, bəşəriyyət təkmilləşdikcə, icmalar, icma birləşmələri, qəbilələr, xalqlar, dövlətlər arasında iqtisadi-ictimai əlaqələr genişləndikcə dillər azalıb, iqtisadi-siyasi təsir əhatəsi dar və zəif olan xalqların dilləri güclülərin dillərinin içərisində əriyib, (assimilyasiyaya uğrayıb), müasir dünyamızın böyük dilləri yaranıb. Əmma bu proses daimi deyil: Akademik Marrla şagirdlərinin iddia etdikləri kimi, "dillərin çarpazlaşması nəticəsində yeni dil yaranması" heç də qanun deyil, əksinə, keçmiş formasiyalardan irs qalmış zorakı assimilyasiya nəticəsidir; yeni formasiyada, yeni ictimai əlaqələr şəraitində milli dillər daha da inkişaf edib çiçəklənəcək. Dahi rəhbərimiz Stalin yoldaşın dediyi kimi: "Ukrayna dili Rus dilinə nə qədər yaxın olsa da, assimilyasiyaya uğramayacaq və məhz müstəqil milli dil kimi daha da çiçəklənəcək". Atamız, rəhbərimiz Stalin yoldaşın şəxsən başçılıq etdiyi dilçilik elmində zorakılıq yoxdur və ola bilməz. Əmma "anonim müəlliflərin vahid kök, vahid bəşəriyyət" nəzəriyyəsi nə qədər zərərlidirsə, Akademik Marrın "təfəkkür dili" nəzəriyyəsi də bir o qədər zərərlidir; "Anonim müəlliflər"in "vahid dil ağacı" kəsilib atılmalıdır, Marrın vahid "təfəkkür dili" isə pislənməlidir. Çünki bu nəzəriyyə elm aləminə mistika toxumu səpir və əslində, ilahiyyata əsaslanır... Çıxışın məğzi belə idi: dillərdən vahid dil yaranmayacaq.

Çaşqınlıqdan, səbirsizlikdən, Səməd nə "anonim müəlliflər"in haqqında danışmaq istədi, nə də Akademik Marrın. Qısaca dedi:

– Məğzi budu ki, keçmişdə vahid dil olmayıb, gələcəkdə də olmuyacaq.

Sultan gözlənilməz istehza və müəmma ilə gülümsündü.

– Elmi cəhətdən doğrudumu?

Səmədə bu sual da qəribə göründü.

– Səmimi deyəcəm, əmi... Açığı, ilk insanlar, icmalar, ilk kəlmələr, ilk dillər, sonrakı icma birləşmələri, xalqlar yaranışı mənə çox inandırıcı görünür. O "Midi" adlandırdığınızın falsifikatorluğu bir az aydındı mənə. Əmma Marrın əleyhinə yazdığı çıxış, şübhəsiz, elmidi. Dilçilikdən xəbərim olmasın heç, min dəfə de mənə ki, dillər vahid kökdən yaranıb, hökmən soruşacam ki, Rus diliynən Azərbaycan dilinin kökü necə bir ola bilər?! "Dil qrupları" adlanan qruplarda oxşarlıqlar açıq-aydındı! Əks-zidd qrupun əksiliyi də həmçinin aydın görünür axı!

Sultan başını dik tutub, qardaşoğluna baxa-baxa müəmma ilə qımışırdı.

– Budu bax, Darvinimizin bəşəriyyətə vurduğu zərbə: bəsitlikdən mürəkkəbliyə doğru gedişat – evolyusiya – təkamül.

– Düz deyil?! Elmi deyilmi, ay əmi?!

Sultanın sifəti ciddiləşdi:

– Bəs heç fikirləşmirsən ki, Nəcəfoğlu kimi dərin alim niyə təsdiq eləyirmiş vahid kökü?!

Səməd tutuldu. Sonra əmisinin qəribə ciddiyyətinə diqqət yetirib istər-istəməz səsini qaldırdı:

– Bilmirəm fikirləşməli nə var burda: biri "insan", "adam" deyir, o birisi "çelovek" deyir! Biri "daş", "torpaq" deyir, o birisi "kamen", "zemlya!.." Çoxdan sübut olunmuş şeydi ki, dil qrupları, ay əmi! Hind-Avropa dillərinin kökü bir cürdü! Türk dillərinin kökü tamam başqa cür! Çox qəribədi ki, Nəcəfoğlu kimi alim təsdiq eləyib o fikri. Gah inandırırsan məni, gah da... tamam çaşdırırsan!.. Lap adi məntiqnən soruşuram: Afrikanın cəngəlliyində ilk dəfə dil açan zənciynən bizim bu Abşeronun Xəzər sahillərində ilk dəfə dil açan vəhşinin – indendertal adamın "vahid dili" olub?!

Sultan başını sinəsinə endirdi.

– Məntiq... Məntiq... İlk icma... "Meymundan yaranan insan".. Bəlalarımız elə ondadı ki, hər şeyə təhrif mühitimizin "adi mən-

tiqi”ynən yanaşırıq. Adi məntiq bəsit təfəkkür məhsuludu, oğul. “A” hərfindən sonra “B” gəlir, “B”-dən sonra “V” gəlir və sairə. Bədbəxt bəsit təfəkkürün xəbəri yoxdu ki, “B” hərfiynən başlayan dil də var. “B”-dan sonra “O” gəlir, “O”-dan sonra “Ə” gəlir, “Ə”- dən sonra “E” gəlir! Üstəlik, hərflərin adları heç də “A”, “Be” deyil. “Bağ”dı, “Od”du, “Əl”di, “Ey”di!..

“Mey mun” nə deməkdi?! Öz-özünə dönə-dönə sual verəcəksən: necə bir dəhşət baş verib ki, BağMənə “mey mun”, “məğ mun” deyilib?! Nə dərəcədə azğın fateh olmalısan ki, EvƏs EyÜnə (Yaradan Evin Uca Ününə) “obez yana” deyəsən?! Hələ tam məlumat almadan, Elmi mənimsəmədən soruş özün-özündən: “EyOdƏr Babamız da meymundan yaranıb?! Kainatı, Günəşi, meymundan yaranan insan yaradıb?!

Hiss eləyirsənmi necə heyrətləndirir səni bu suallar?!

“Təhrifsiz dildə – OdƏr dilində minlərlə yox, milyonlarla söz var. Hamısı da EyOdƏr Babamızın, BağBağÜn Babamızın, Bağ Atamızın, Bağların, OdƏrlərin Odları-adları-rütbələri sayılır. Xızr Abıynan danışanda danladım ki, “niyə bir az geniş danışmadın, özül qoymadın? Şübhə yarananda şübhəni dağıtmaq çətin olur axı!” Dedi: “Varisimizə min dəfə təkrar eləməlisən ki, Od – Həqiqətdi: Günəşin, planetlərin, təbiətin, insanın, bütün varlığın enerjisidi, həqiqət mənasındadı. Əl – həm Oğul, həm də işləyən, yaradan deməkdi. Ey – Uca, yaxşı, gözəl deməkdi. Varisimizin təfəkkürü daşdı, qayadı, ey Sultanım!” Ağladı! Telefonda hönkürdü Abı. “Ümidim sənədi, bir də sahiblərimizədi”, – dedi.

Qulaq as! Gör əmin necə dara çəkəcək sənin təhrif beynini!

“İndendertal” insan olmayıb. İlk insan olmayıb!

Bu planetə İşıq gəmisi adlanan, atılma sürətiynən uçan gəmilərdə, Ulu Babamız ƏsƏlMənin ətrafında, Yupiterdən uçub gəliblər. Bu heç, durun hələ.

Diqqət yetir, gör Dil – OdƏl – Həqiqət Əli necə təhrifə uğrayıb.

Bir də deyirəm: “indendertal” adlandırılan ilk insan, vəhşi insan, meymundan yaranan insan olmayıb. İngiltərənin “coğrafiya cəmiyyəti”ndən, o səyyah alim casuslar cəmiyyətindən bir lordun təbiətdə evolyusiyanı – təkamülü müşahidə edə-edə, şimpanze meymununun insan şüuruna uyğun hərəkətlərindən məntiqi evolyusiya – təkamül nəticələri çıxaran subyektiv fikirləridi, təxəyyül, təsəvvür məhsuludu. Kainat, insan haqqında həqiqətdən xəbər tutanda lord özü də gülüb öz “tədqiqatı”na.

Diqqət yetir: latınca “Yupiter”. OdƏrcə “OdAğÜz Bağ OdƏr”. Oxşarlıq hiss eləyirsənmi?

– Yox! Başqa-başqa sözlərdi.

– Olsun!.. Sonrasını dinlə: keçən əsrdə ingilislər “Yupiter”in əsl adının arxivdəncə tapılmasını “dünyanın ən böyük kəşfi” adlandırıblar. Nədi o kəşf? Sadəcə, olaraq, oxuyublar ki, “OdAğÜz”ə – “Duaus” deyiblər, “BağOdƏr”ə – “Patri” deyiblər, olub: “Duaus Patri”. Sonra olub: “Zeis Piter”. Sonra olub: “Zu Piter” və nəhayət, “Yupiter!”

Səməd birdən lap uşaq kimi: – Paatonnan! – deyib ağzı açıq qaldı.

Sultan mələfənin ucu ilə alnının puçur-puçur tərini sildi:

– Bir də yanaşı qoy: OdAğÜz BağOdƏr. “Yu Piter!” Hara getdi “dil qrupları?!” OdƏr-Türk sözünün təhrif olunmağından əmələ gəlmiş “Piter”i necə ayrı bir qrup sözü saymaq olar, ay oğul?! Nəyə oxşayar bu bilirsən? Poltavada rusa de: “ya iz Azərbaycana?” Nə deyəcək? “A, da, da, znayu: Arzırbırjan!” “Tarix” kitabını yazan, “tarixin atası” Qrek belə-filan da tələffüzcə lap dəhşətli fərqlənir! Sən OdƏrcə de: “Bağ-OdEy” (Uca Od Bağı), o deyəcək “Mi di ya!” Sən türkcə de: “Bağday”. O deyəcək “Ma day!” Budu bax dəhşət, ay oğul! Nə deməkdi “Ma day?!” Heç nə! Sözün təhrifindən nə yarandı? Heç nə yarandı: məna itdi, ölkə itdi, xalq itdi, Bəşəriyyət itdi, Kainat itdi! Nə qaldı? Heç “Yer” – EyƏr planetini də tanımayan, əslindən xəbərsiz “insan”.

Qulaq as!

On ikinci əsrdə, xaç müharibələri dövründə İngilis Kralı – məşhur Şirürəkli Riçard bizim Qızıl Arslana əsir düşüb. İyirmi il gah AtaBəylərimizin Naxçıvan sarayında, gah da Qalamda – orta Asiyada qala-qala dilimizi, Elmimizi bütün dərinliyiynən öyrənibmiş. Əsirlikdən buraxılıb Londona qayıdanda çoxlu Elmi sənədlər aparıbmış. Həmən Elmi sənədlər, üzü çıxarılmış əlyazmaları, mədrəsə dərslikləri sonralar “coğrafiya cəmiyyəti”nə təhvil verilibmiş. Haman Lord məhz o əlyazmalarını, dərslikləri oxuyub dəhşətə gəlib, sonra da, dediyim kimi, özü də öz tədqiqatına gülə-gülə, məhz gülünc dərəcədə qeyri-elmi bir cəfəngiyyat kimi qiymətləndirib, indi adı dünyaya sığışmayan, küftəburun, dombagöz, yəni küt bir aspiranta – Darvinin milyoner atasına satıb. O dissertasiya Avropada səs salıb, dillərə tərcümə olunub, Marksnan Engels də, bilirsən ki, göylərə qaldırıblar meymundan insan yaradan “elmi”.

---

[59] Misirdə “Məğ+dur” (OdƏrdən), “Boq” çox yayılıbmış.

“İndendertal” insanı belə yaradıblar, bəşəriyyətimizin onsuz da təhrif beynini beyinsizliyə bağlayıblar.

Diqqət yetir: “beyinsizlik” deyirəm!

“İnd” – ÜnOd – Həqiqət Ünü!

En – Ün!

“Dertal” – OdƏr OdƏl! (dil)

Bəs niyə “ilk insan” mənası verilib?

Çünki, fatehin “dili” belə olub.

Sonra da qəsdən əyiblər.

ƏrEv (İşıq Evi) adlananlara “Ərəb”, “Aran” deyiblər.

EvƏrƏsə, bayaq dedim, “Pers”, “Pars” – “Fars”.

ÜnƏsə – “ins”+an”! Və sairə.

İndi təsəvvür elə ki, Yerdə bütün xalqlar bax belə yaranıb!

Yəni necə?

Yəni OdƏr dilinin təhrif variantlarıynan:

“Basqın”, “Batım” əvəzinə “Poton” da Qrek “sözü”dü, “OdMən” əvəzinə “Atman” – ”Atom” da!

Birinci əlliminillik tarixin axırında “Potop” – Subasqını nədən olub? Eynilə ikiminillik tariximizin indiki dövründə olduğu kimi, hədsiz dərəcədə “Atom” şüalanması nəticəsində buz dağları əriyib, okeanlarda, dənizlərdə su artdıqca, artıq suyun təzyiqi nəticəsində Yerin su qatında su çoxalıb, gil, qum, torpaq laylarının boşurğu yerlərini partladıb dağıdıb, “Yer”in üzünə çıxıb, yayıldıqca yayılıb, buxarlanma, yağış birdən-birə yüz dəfə artıb, olub “Potop” – Subasqını. Nədən? Atom şüalanmasından? Xeyr, əzizim. “Potop”un başlanğıcı OdMən (Həqiqətim) adında yüksək mədəni icmaların bir-birinə Elmi bağlılığı kimi, zərrələri də bir-birinə bağlı olan OdMənin “Atman”a – “Atom”a çevrilməsindən, yəni təhrif dilli alimlərin “Atom”u parçalamaqlarından başlanıb.

EyOdƏr Babamızın hər şeyə qabil Ünü ilk növbədə o “alim”lərin təhrif söz – təhrif məna yaddaşını, “sivilizasion” yaddaşını alıb. Sonra Bağday ərazisindən kənarda – təhrif ərazilərdə Subasqınından xilas olanların yaddaşını alıb.

Necə baş verir bu yaddaşı almaq? İnsanın təsəvvürü yoxdu bu barədə. Mən öz təcrübəmdən bildim. Üzümü tutdum OdAğÜzə babamdan xahiş elədim ki, heç olmasa yarım saatlığa yaddaşımı alın. Dedi: “İşığla beynini tutub fəaliyyəti kütləşdiririk, yaddaş olmur”. Dedim: “İstəyirəm təcrübədə bilim”. Dedi: “Yaxşı. Yazı stoluyun siyirməsində nə var, yada sal.” Ha çalışdım, xatırlayammadım. Dedi: “İndi bura – OdAğÜzə gələn-

ləriyin adlarını yada sal." Babamın öz adını da unutdum bir müddət, təsəvvür eləyirsən?!

"Poton" vaxtı bəşəriyyətin bütün yaddaşını yox, "sivilizasion" yaddaşını alıblar. O gündən, yəni insan üçün proqressiv fəaliyyət yaddaşının alındığı gündən də tarix geri sananıb. Yəni beyində, planetdə, bütün həyatda reqres başlanan gündən tarix geri sananıb.

Burda bir az da diqqətli ol.

"Atom"dan şüalanmış su planetə hopandan sonra yenə nəhəng heyvanlar, külli miqdarda həşərat, meymuna bənzər məxluqlar yarıdılıb, təbiəti tənzim eləməkdən ötrü. Lap az bir qisminə nisbi proqressiv şüur verilib. Təhrif dillər irsiyyəti oyandıqca qruplaşmalar gedib, qəbilələr, xalqlar və sair, geri sananan ikinci əlliminillik tarixin təhrif şüur əməlləri başlanıb: quldarlıq-filan!

Bəşəri həqiqətlər birdən-birə beyinə dolmağa başlayanda həyəcandan sarsılır insan, bir ara beyni tutulur, heç nə dərk eliyəmmir.

Kamilləşmə Ünnən bağlıdır.

İşıqnan gəlir Ün. Təbiətin bərpası, şüalanmaqdan xilası da Ər – işıq proqram içində gəlib "Yer"də materiyalaşır. Bizə elə gəlir ki, proqram torpağın özündədi. Halbuki, hər bir tumurcuq da işıq içində gələn proqramnan açılıb yarpağa çevrilir. Fəsillər müddətində işini görüb yeni proqram alır – saralıb candan düşür, torpağa qarışır. İlk planet saydığımız EyOdƏr planetinin dövrəsində milyon kilometrlərnən uzanan əbədi metal OdÜnƏsEy – "KiÜnƏsEy" – "Günəş" belə proqramı İşıq yaradandı.

Bunu bir az da, imkan daxilində izah eləyim.

Proqramı nəynən yazırıq biz? Söznən. Ün – Səsdi. Səs – sözdü. Demək, proqramlı İşıq – Ər nədi? – Sözdü! Demək, İşıq həm Ərdi, həm də Ündü. Ün həm sözdü, həm də İşıqdı. Təkrar eləyirəm, planetimizin adı EyƏrdi. Uca İşıq, gözəl İşıq!

Yenə təkrar deyirəm: Olam ərazisindən sonra OdƏrlərimiz ƏrEy – "Rey" vilayətində məskunlaşıblar. Orda OdƏrlərin evlərinə EvƏrEy deyiblər, özlərinə ƏrEy deyiblər. ƏrEy! – Uca İşıq. Beyni qapalıların dilləri ƏrEyi "Ariy", "Ari" eləyiblər. Hayları "ariyskaya nasiya" adlan-

---

[60] Müasir OdƏr ("Azərbaycan") xalqı "bay", "vay" sözlərini eyni mənada işlədir. Məsələn, "Bayquş" – vay quşu, xarabalıq quşu. 604-802-ci illər antiTürk "dünya müharibəsi"ndə Qreklər Qalamda (Orta Asiyada olarkən "Bağ" kəlməsini qadağan edib "Bağ"ı – "Bay"la əvəz ediblər. (Kökləri OdƏr olduğuna görə Qrek fatehlərinin ordu ilə birgə gəzən quldarlıq alimləri Türk dilini mükəmməl bilirdilər). Müasir Türkiyə "Azad Azərbaycan"a – "Bağ (ım)sız Azərbaycan" deyirlər. Bu ifadəyə hətta Gürcülər də etiraz edirlər.

dırırlar. Çünki yazıqların OdƏldən – “dil”dən xəbərləri yoxdu. Soruş “ƏrEy” nə deməkdi, hansı məkanın adıdır? Gözünü döyəcək.

ƏrEyin dəhşətli təhrifi “ray”dı. “Bibliya”nın izahında başa düşəcəksən bu məhz dəhşəti. Bağdayın vilayəti ƏrEyin necə əfsanəvi “ray”a döndərildiyini biləndə dərk edəcəksən hər şeyi.

De görüm “idealizm” nədi? Kökü “ideya”dı. Düzdü? Bəs ideyanın kökü nədi? Sözdü? – Mənadı – proqramdı. Bəli, əzizim! Söz materiyadırsa, demək, idealizmnən materializmin arasında fərq yoxdu? Yoxdu, ay idrak acı balam! Əmma mühitimizin “materialist” adlanan “dahi”ləri “Ray”ı materiyadan kənar – “idealist” təsəvvür məhsulu sayırlar.

Hələlik unut bu ƏrEydən yaranan “Ray”ı. “Adəm ata”, “Həvva ana”, “Cənnətdən qovulmaq” və sair belə şeylər düşür yadına. Unut hələlik hamısını. Din kitabları barədə söhbətimiz ayrı olacaq. Başıyın tükləri ayağa qalxacaq “Tövrat”ın, “İncil”in, “Quran”ın lap körpə uşaq təfəkkürü qədər bəsit hökmlərini, yalanları eşidəndə!

Söhbətin sistemini pozmalıyam, fantastik dərəcədə qeyri-adi bir həqiqət açmalıyam indi sənə.

Bayaq dedim OdƏr dilində milyonlarnan söz var və sözlərin hamısı Bağlarımızın, OdƏrlərimizin Odları-adları-rütbələri ola bilər.

Ulu Bağın Odlarından-adlarından-rütbələrindən bir neçəsini deyim, şərh eləyim, gör bəşəriyyətimiz nələr eləyib.

“ƏsƏlMən”i demişik: Mənim Yaradan Əlim – Oğlum deməkdi. Təhriflərini də demişik: “Solomon”, “Süleyman”.

İkinci Odu – adı – rütbəsi BağSardı. Sarlar – hökmdarlar Bağı deməkdi. Yəni “Yer” – EyƏr planetində nə qədər Sar olub, hamısını Ulu Bağ ƏsƏlMən BağSar bağlayırmış biri-birinə. Bu rütbənin – BağSarın təhriflərini deyirəm: “Mu sa”, “Moi sey”.

Diksindin... Əlbəttə diksinərsən: necə təsəvvür eləyəsən ki, “Süleyman”nan “Musa” eyni adamdı? “Süleyman” – padşah, “Musa” – çoban, bu lap dəhşətdi!

“Təkrar biliyin anasıdı” ifadəsi biz Ağlardandı. Çünki biz, Elmə aid nə varsa, xüsusən ilk mərhələlərdə dönə-dönə təkrar eləyirik.

Bağ Atamızın ikinci oğlu EySar ÜnEvdən neçə peyğəmbər düzəldib bu təhrif bəşəriyyət? “İsay” və “Noy” – “Nuh!”

Ulu Bağ ƏsƏlMənin sonrakı parçalanmağı lap müsibətdi.

---

[61] İ.Muğannanın EySarla ilk görüşü belə olub.

Üçüncü Odunu – adını – rütbəsini deyirəm: SarOdƏs. Yaradan Həqiqət Sarı – hökmdarı deməkdi. “OdƏs”i – “Atəş”ə döndərən bəşəriyyətimiz SarOdƏsə türkcə sarOddaş (Oddaşlar Sarı) deyəndən sonra SarOddaşı “Zərdüşt”ə, “Zoroastra”ya, “Zaratuştra”ya döndərib! Yəni Ulu Bağ ƏsƏlMən BağSar SarOdƏsdən üçüncü bir “peyğəmbər” də yaradıblar: “Zərdüşt!” – mənasız söz!

Dördüncü Odunu – adını – rütbəsini deyirəm: ƏsÜn. Yaradan Ün.

Qrek-latınca “sion” deyirlər. Qrek-latın təhrifindən yaranmış sionistlər də ƏsÜn əvəzinə “sion” deyirlər. Bildinmi hardandı təhrif “sionizm?!”

İndi sualım var. De görüm Sasan kimdi? “Fars sülaləsi” kimi tanıdığın sülalənin ilk hökmdarı sayılan Sasan kimdi?

Susursan.

Təhrif söz “Sasan”ın əslini – OdƏrcəsini deyirəm: Sağ Əs Ün.

Yenə soruşuram: əgər “ƏsÜn” Ulu Bağın Odu – adı – rütbəsidisə, bəs bu “Sağ” nədi? Ulu Bağ ƏsƏlMən BağSar SarOdƏs ƏsÜn hara, “Fars sülaləsi”nin hökmdarı “Sasan” hara?!

Təzkirələrdən də sənə məlumdu ki, yeni tarixin birinci əsrinə qədər Qreklər ərazilərimizdə olanda, “Sasani paytaxtı” Qazax da tutulubmuş, Sar-hökmdar yoxa çıxıbmış. Qreklər qovulandan sonra əyanlar axtarıb görüblər çobanlardan birinin başına göydən işıq ziyası uzanıb. OdAğÜzdən göstəriblər? Bəli, əzizim. “Vərəsə”mizdə əmilərin İlan “alimləri”nin “Sasan” “sözü”nü “fateh qələm məhsulu” adlandırıb yazıblar ki, “Qazağ”a “Rey”dən gələn əyanlar Ulu Bağı tanımırmışlar. Buna görə də OdAğÜzdən İşıqnan göstərib deyiblər: “Budur, sağdır ƏsÜn”. Həmən birinci əsrdən başlayaraq, ta səkkizinci əsrin axırına qədər Ulu Bağ “atəşgah”larda “Muğanna”, “Mağ Mağan” (Mağlar Mağı) adları altında gizlənib. Qazaxda SağƏsÜn – “SağSan” (sağ rütbə) adı ilə lap qısa müddətdə Sarlıq eləyib, guya Bağdaya, Bağlara heç bir aidiyyəti olmuyan “SağSan” varisini təxtdə oturdub, yenə yoxa çıxıb, yəni “batin” – gizlin olub.

Nəsiminin rusca oxuduğun şerində bir beyt var: “Kəs səsini və əbsəm ol, şərhü-bəyanə sığmazam”. “Əbsəm ol”, yəni lal ol, heç nə soruşma, çünki əbədi “Həq” – Ağ – SafAğ İnsan həyatı təhrif insan təsəvvürünə sığışmır, oğul. Məhz buna görə də belə quruyub qalmısan, minbir sualnan baxırsan üzümə, dillənəmmirsən, heç bilmirsən nə soruşasan, necə soruşasan. Yüz bir min doqquz yüz əlli dörd il bundan əvvəl “SimƏrAğ” (Uca SafAğ İşıq) gəmisində OdAğÜz BağOdƏr planetindən gəlib Olamda, “Elvənd” – ƏlEvÜn dağının yastanasında “Saray” – SarEy

tikdirən Ulu Bağ ƏsƏlMən – “Sar Solomon” – “Süleyman padşah” yüz min ildən sonra Sağ ƏsÜn – “SağSan” adıynan Qazaxda təxtdə oturubsa, səkkiz yüz ildən sonra isə yenə köhnə SarOdƏs – SarOddaş rütbəsiynən, qədim paytaxtlarından bir başqasında – “Ərdəbil” – ƏrOdbil (Həqiqət bilənin İşığı) şəhərində təxtdə oturubsa, ƏsÜndən, ÜnƏsdən xəbərsiz “ins” – “insan” bunu necə sığışdırsın beyninə?! “İns” necə dərk eləsin ki, cahillər təhrif Şeyx “Səfi” adıynan tanınan SafAğ Aliminin zamanında cahillər “Ərdəbil”i – ƏrOdbili dağıdandan sonra Ulu Bağ Yer üzündə sonuncu rütbəsi BağSar AğEy (AğEy – “Əxi” Sarlarının Bağı) əvəzində təhrif “Musa ağa” adı altında qaçıb indiki – bu taydakı “Muğan” düzündə gizlin “Şəhri Yar” şəhərciyində ta on səkkizinci əsrin axırına qədər “batin Bağ” – “Muğ” olub! Sonra da yenə öz köhnə paytaxtı Qazağın yaxınlığında “Padşahlıq” adlanan kənd salıb, on doqquzuncu əsrin axırına qədər orda qalıb.

Dəhşətə gəlmə, oğul! Bəli, atam Məhəmməd Əmirin atası “Musa ağa”! Öz istəkli, əbədi ƏrEvOdu (“arvad”ı) ŞamAğEynən – “Şamağa” nənəmiznən bir yerdə!

Qısasını deyirəm hələ. Bu “fantastika”nın təfsilatını da danışacam, Ulu Bağ ƏsƏlMən BağSar SarOdƏs ƏsÜn BağSar AğEy – “Musa ağa”nın varisindən dönə-dönə soruşacam: bildinmi kimin Varisisən?!

Burda yenə pozmalıyam söhbətin sistemini. Qayıdıram vahid kökə... – Sultan dəyirmi stolun üstündəki xırda bloknotu kənara itələyib, ayağa qalxıb pencəyinin cibindən eynilə Abının bloknotu kimi enli, uzun bloknot götürüb yerinə qayıtdı.

– Yazıram, əyani gör, köklərə bax, kökdən azma təhrif sözlərə bax.

BağOdƏr – “Bahadır”, “Batır”, “Pədər”, “Madər”, “Mater”, “Padre”, “Patri”, “Pater”, “Piter”, “Mitri”, “Materiya”, “Matyorıy” və sairə.

Bağ – “Boq”, “Mağ”, “Məğ”,[59] “Muğ”, “Müğ”, “Məh”, “Mah”, “Bay”, “Bəy”, “Vay”, “Viy”, “Piy”, “Vay şivən” (Bağ ƏsEvÜndən), “Şiva” və sairə.

BağBağÜn – “Papaqan” – “Papaq” – “Babək” – “Papa”, “Baba!”

ƏsMən – “Osman”, “Otman”, “Ottoman”, “Otto”, “Ata”, “Otes”, “Otçe” və sairə.

Bağ ƏsƏlMən – “Müsəlman”, “Müslüm” və sairə.

BağHəmOd – “Muhamməd”, “Muxamməd”, “Mühəmməd”, “Məhəmməd”, “Məhəbbət” və sairə.

Sar – “çar”, “tsar”, “sir”, “ser”, “sur”, “zur”, “zir” və sairə.

ÜnƏr – “nur”, “nər”, “nar” (od mənasında), “nar” (meyvə mənasında) və sairə.

OdAğ – “dağ”, “tağ”, “tığ”, “tok”.

ƏsAğ – “İşıq”, “aşiq”, “aşıq”, “sak”, “sok”, “sək” (ati yeri), “səg” və sairə.

SimBağ (Uca Bağ) – “Simbağ” (şir mənasında), “Sambo”, “Sima”, “sim”, “sam”, “som” və sairə.

SimƏl – “Səma”, “Zemlya”, “Zima”, “Zmeya” və sairə.

ƏsƏl – “çel”, “çelo”; ƏsƏl EvAğ – “çelovek” və sairə.

GurOd – “qorod”, “qrad”, “qord”, “qrud”, “qurd”, “kərd”, “kird”, “kürd” və sairə.

Gur – “kür”, “kir”, “kro” (+nun), “kor”, “gur” (vəhşi at) və sairə.

EvƏl – “əvvəl”, “əfəl”, “aval” (əngəl, yük mənasında) və sairə.

AğƏr – “axir”, “axır”, “axirət” və sairə.

Hər bir OdƏr “söz”ündən – ƏsÜzdən – Yaradan Üz – mənadan nə qədər darmənalı təhrif sözlər, təhrif dillər yarandığını az-çox duyandan sonra dərk edəcəksən ki, məsələn, təkcə Bağ Od, Ər, BağOdƏr, ƏlAğ kimi sözlər bərpa olunub bir növ elmi terminlər kimi işlənsə, nə baş verər bu xaraba “Yer”də?! Təkcə ƏsÜn bərpa olunub Qrek-Latın “sion”unu pozsa, “Yəhud”i adlanan EyOd OdƏri əslini tanısa, təhrif “İsay”, “İsay Novin” əvəzində EySar ÜnEv desə, “İisus” əvəzində EySar və ya ƏlAğ EySar desə, bütün süni arakəsmələrə, parçalanmalara son qoyulmazmı?!

Ya da, bu həqiqətlər danışıq dilinə daxil edilmədən, dünyamızın həqiqətləri kimi qəbul edilsə, danılmasa, planetdə necə bir irsi, ruhi, psixoloji yaxınlaşma, doğmalaşma baş verər! Hər bir kamilləşən insan, ölmüş-çürümüş bildiyi hər hansı bir əzizinin ikinci doğuluşunu, canlı şəklini, sonra özünü görsə, bu xaraba “Yer” nə qədər ucalar – EyƏr olar!

“Midi Qiena” “İosif Vissarionoviçi “ustanovka”sıynan rəsmi yazıb: “Hökmdarların adları hansı dildədirsə, xalq da o dildə danışıb”. Hökmdarıyın adı “Solomon”dusa, xalqın hansı dildə danışıb, ey bədbəxtim?! Hökmdarıyın adı “Süleyman”dısa, xalqın hansı dildə danışıb, ey bədbəxtim?! SağƏsÜnün “Sasan”dısa, SağƏsÜn övladı ƏsOd GurOd “Yəzid kird” – “Yəzdi gird”disə, ƏsOd GurOd övladı BağƏrim Gur “Bəhram Gur”dusa, xalqın hansı dildə danışıb?! “Sasani”lərdən əvvəl AğMən əvəzində “ƏhMən Fars sülaləsi” olubsa, Qrekin bircə “ki” kəlməsiynən

[62] “Atom” sözü Hindin “Atman”ından azıb.

OdƏr xalqı “Kidar”a, Bağday Sarı OdƏr “KiƏr”ə – “Kir”ə, eyni zamanda “Dara”ya döndərilibsə, “Midi Qiena”ynan yanaşı bir sürü İlan “alim”i bircə nəfər Sar OdƏri “Birinci, İkinci Kir”lərə, “Birinci, İkinci Dara”lara döndəribsə, ən məşhur Sarlar məkanı HəmOdÜn “Ağ batan”a, ƏsÜz – “suz”a, OdƏr Bağday “Atro patona”, “Adr biy can”a, Bağıstan “Bi sütun”a döndərilibsə, varsanmı sən?!

Dilimizdəki, bətnimizdəki “kin” də “ki”dəndi!

Diqqət yetir.

Qrek OdAğa – (öz ərazisində) “kiniq” deyib, “kiniqə” hürən – it mənası verib. Niyə? Çünki sənin SarAğların, OdAğların çoxdanışan, deyinən, məhz it kimi hürən “kin” mücəssəmələrinə dönüb məhv olublar, oğul!

SafAğ İnsan, SafAğ Alimi “Sofi” olub, çox danışan, zəhlətökən adam kimi tanınıb. Məhz həmin bu “Sofi”dən Fars “Sufi” yaradıb, SafAğ Elmini kökündən dəyişdirib, “bir olan Allaha aşiq Sufi”lər, yəni saysız-hesabsız SafAğ düşmənləri yetirib, salıb millətin canına, “bir olan Allaha eşqi” “gözələ eşq”ə çevirib əxlaqsızlıq yaya-yaya gəzirlər!

Budu indi mənamız! Tariximiz!

“Kiniq”ə, “tsinik”ə dönüb Sultan Əmirli, it kimi hürür ki, Stalin ölsə də, KPSS bağlıdı İlana, Farsa; o tayda, bu tayda millətin içinə “sufi” doldurur! SafAğ Alimlərinin əlyazmalarını dəyişdirirlər! “Lailahəilləllahın inkarına durmuşam” deyən Nəsiminin “Divan”larını “Allahu əkbər”lə doldururlar! “Nizaminin “Xəmsə”sində bir kəlmə “Allah” sözü yoxdu, əmma hər katib “Xəmsə”nin əvvəlinə “Bir olan Allah” yazır! Füzulinin ən qədim əlyazmalarında SafAğa aid nə var, pozurlar! Müasir Pünhanlarımız xalq içində itib-batıb geniş sferaya çıxammırlar.

Xalqa verilən nədi? Heç nə!

Nizaminin “Həft peykər” əsərini guya nə tərcüməçilər dərk eləyirlər, nə də akademiklər-filanlar! Əsər başdan ayağa rəmzlərdən ibarətdi. SafAğ Elmini öyrənənlərdən ötrü dərslikdi. Bunu da danırlar, oğul!

Bütün “Xəmsə” dərslikdi. Bütün “Xəmsə”: “Məxzənül əsrar” – “Sirlər xəzinəsi”, “Xosrov və Şirin”, “Həft peykər”, “İsgəndərnamə”, hətta alimlərin “Ərəb əfsanəsi” adlandırdıqları “Leyli və Məcnun” da dərslikdi. Füzulinin “Leyli və Məcnun”u da dərslikdi, ləzzət almaq üçün deyil. Məcnuna deyirlər bu Leyli, bu da sən, qovuş məhəbbətinə. Məcnun neyləyir? Əynində köynəyini cırıb qaçır “heyvanat” arasına – təbiətə. Niyə? Çünki köynəyi Dindi, “Heyvanat” ərəbin dilində təbiət, əslində isə “Eyvan” – EyEvÜndü. Uca Ev Ünüdü. “Leyli” – ƏlEy Əli, yəni, Uca Əl Bağ Atanın Əli – Oğlu EySardı. Kim oldu indi Məcnun? Mənəm

Məcnun, Məhərrəmdi Məcnun! Abıdı Məcnun! Çürük Aşıqdı Məcnun! "Dəli" deyilik, OdƏlik – "diliik". Deyirik "Məcnun" yoxdu. Bu sözdə üç təhrif var. Birincisi "Mə", ikincisi "c", üçüncüsü "nun". Dinin dili Bağı "Məğ" – "mə" eləyib, Odu "d" – "c" eləyib, Ünü "nun" eləyib. Yüzminlərlə OdƏri Ərdəbildə, Muğanda qılıncdan keçirəndən sonra "Türk yoxdu!" – deyirlər. "Türk qırılıb! – deyirlər". Ya da hırıldayırlar: "Az ər!" "bay can", yəni "vay can".[60]

Bağı necə "mağ", "məğ", "müğ", "muğ" eləyib Din, EySar ÜnEvi necə "İsay Novin", "Noy", "Nuh" eləyib, "Məcnun" sözündəki təhriflər də bax o cürdü.

Bir də deyirəm: "Bağı" "məğ" eləyib, Odu "d" – "c" eləyib, Ünü "nun" eləyib. BağOdÜn olub "Məcnun" (guya dəli)!

Demək, "Məcnun" BağOdÜndü. Bağ Həqiqətinin Ünü. "Leyli, Leyli" qışqırır, sən ƏlEyƏli eşit və bil ki, ƏlEy – Bağ Atadı ƏlEyƏli EySar ÜnEvdi ("Nuh"du), EvƏrimdi ("İbrahim"di), ƏlAğ Eysardı. Get cəmaatın içində sazı sinənə bas, "Divani" OdEvÜn çal, oxu: "Beş gözəlin vurğunuyam", hamı biləcək ki, Bağ Ata ilə dörd Oğlunu vəsf eləyirsən, gözlər dolacaq, materialist nadanlar isə, əlbəttə, hırıldaşacaqlar!

Bax belə dərslikdi Nizaminin, Füzulinin "Leyli və Məcnun"u.

Lap qısasına deyirəm sənə. SafAğ Elmi "Məcnun"un Din köynəyinin altında gizlədilib "Məkkə"yə yox, BağOda gedir, "Kəbə"yə yox, OdEvə gedir "Məcnun", oğul. Təkrar-təkrar eşitməlisən ki, Dinin dili Odu "ki", "kə" eləyib, Evi "bə" eləyib, OdEv olub "Kəbə". OdEvdə "Məcnun" "Leyli"ni diləyir: ƏlEy Əlini – EySarımızı, ƏlAğımızı – "Əllah"ımızı!

İndi özün fikirləş, gör bu "Yer" – EyƏrdə bəşəriyyətimiz necə beyinsiz, əxlaqsız cahillər yığnağına çevrilib ki, ürəyi bu doğulduğu EyƏrdə, Bağdayda olan EySarımız gizlin gəlir "Yer"ə, gizlin də gedir! Açıq gələmmir!

Səməd yenə diksindi.

– Gəlir, gedir?! İisus?!

Sultan da diksinmiş kimi, birdən dikəlib səsini qaldırdı:

– "İisus" nədi?! Nə qədər deyim təhrif sözdü "İisus", "İsa"?! Bir cavan, Ün eşidən Pünhanımız var.

Nəimiyə "Yari Pünhan" deyərmişlər batin-gizlin alimlərimiz. O vaxtdandır bu Pünhanlıq, AdıPünhanlıq. Həm gizləndiklərinə görədi bu ad. Həm də EySar pünhan danışır öz Pünhanlarıynan. Bir cavan Pün-

hanımız var, deyirəm. Atasını keçən il öldürüblər. Öz maşınında qəmli-qəmli gəlirmiş o cavan Pünhanımız. Qara Məryəmnən Ağsunun arasında motor sönür, yazıq uşaq ha çalışır, düzəldəmmir. Birdən diksinib yuxarı baxır, görür... nə?!. ƏlAğ EySar, SafAğ İşıq içində yüz addımlıqda dayanıb gülümsəyir, deyir: “Atan ölməyib. Motorun sönməyib. Sür maşınını, yolda atan sənnən gedəcək!”[61]

Budu bax, EyƏrə gələn, gedən, qardaş kimi sevdiyimiz Allahımız – ƏlAğ EySarımız!

Səməd yenə əlini əmgəyinə basdı.

– Bağışla... Bağışla... Üzr istəyirəm. Dilim öyrənib “İisus”a. Dəhşətdi axı, ay əmi! “Allah” – qardaş kimi!.. Dünənəcən, bugünəcən yad bilirdim mən “İisus”u – “İsa”nı...

– Yad? Necə yəni “yad?!” Düşün! Dindi sənə yad! Dinin yaratdığı əfsanələrdi! EySarımız – ƏlAğımız isə doğmalar doğmasıdı. Ulu Baban Ulu Bağın qardaşı, qan qarışığındı sənin! Başa düşdün?!

Sultan məlfənin islaq, sərin ucunu üzündə, alnında gəzdirdi.

– “Allıh işıqdı!”, “Doğub-törəməz” işıqdı! Bu “Quran” zəhərini hələ atan izah eləmişdi sənə!

Dillənmə daha! Birinci sinif şagirdi ol, əlini qoy çənənə, qulaq as!

Necə gəlir, necə gedir EySar? Uçur! Nəynən uçur? Bəzən polad kimi möhkəm işıq şarı içində, tək tənha gəzir Yerin üzərində! Bəzən də Bağlarnan, OdƏrlərnən bir yerdə, İşıq gəmisində! O işıq gəmisi necə şeydi? Nə qədər vaxta uçur OdAğÜz BağOdƏrdən – “Yupiter”dən bura? Nə üçün gəzir EySar? Öz planetindən gördüyü bəs deyilmi? Və ilaxirə, və sairə, sual suala calanır! Şarın rəngi bir anda dəyişir – havadan seçilmir. Və EySar da o anda görünməz olur.

Çox şey danışacam. Lap çox! Son iki min ildə Ulu Bağnan – “Musa ağa”ynan “Şamağa” nənəmizin “Yer”ə neçə dəfə gəldiklərini, hər dəfə nə qədər qaldıqlarını, nə üçün qaldıqlarını danışacam. Bütün planetin tarixini biləcəksən! Bütün planetin!

Başımızın üstündə parıldayan planetin adını bir də izah eləyirəm. İndi bir az təfərrüatnan bilməlisən. Qulaq as.

Deməк, OdAğÜz BağOdƏrdi “Yupiter”in əsl adı.

OdAğÜz. Yəni AğÜz həqiqəti.

Ağ kimdi, bilirsən. Bəs Üz? Bağın Üzü? Bəli. Bəs niyə Bağ Üzü yox, Ağ Üzü qoyublar planetin adını? Ona görə ki, Üz – məna yalnız Bağ Üzü, Bağ mənası deyil, ümumiyyətnən, SafAğ İnsan Üzü – mənasıdı.

AğÜz həm də bir qism OdƏrlərin, “Yer” Türkünün təhrif dilində “Oğuz”ların adıdı. OdAğÜz – “Oğuz” həqiqəti deməkdi.

BağOdƏr isə, təkrar eləyirəm, OdƏr Bağıdı (bütün Bağların əsas rütbəsidi), həm də Həqiqət işığının (SafAğ İşığın), Ünün, Ünlə yayılan “element”lərin – ƏlMənlərin Bağıdı... Qrek-Latınlar OdAğÜz adını “Duaus” eləyib qeyri-adi dərəcədə təhrif tələffüzlərlə, dar mənalarla ilk qlobal mənadan uzaqlaşdıra-uzaqlaşdıra bir aləm mif yaradıblar. Yenə eşit: “Duaus Patri”, “Zeis Pater”, “Zu Piter”, “Yu piter”... “Zeis”, “Zevis” (guya Zevsin oğlu!), “Zevs!”

Bağ Ata olub “Zevs” və ya “Zefs”.

Bu hələ nədi?!

“Zefs”nən “Yupiter”i də bir növ eyniləşdiriblər, planeti “Boq” sayıblar. “Yupiter”dən göstərilən şəklin əsasında imperator seçə-seçə qanmayıblar ki, planet deyil o şəkli göndərən, insandı! Kainatın sahibləridi, planetləri, təbiəti – torpağı, suyu, havanı – yaradanlardı!

Sənin dilində danışanlar da “Nəsimi əbədiyyətə qovuşdu” deyə-deyə qanmayıblar ki, “Əbədiyyət” təhrif sözdü. “Əbədiyyət” yoxdu, EvOd EyOd var. Həqiqət Evinin Uca Həqiqəti! Nəsimi OdAğÜz planetindəki Həqiqət Evinə uçub, oturub evində, uca həqiqət haqqında şeir yazır! “Şe”r” yox, – ƏsƏr!

– İndi də yazır?!

– Bəs necə, ay idrak acı balam! OdAğÜzlülər “Yer”ə öz övladlarının beyinlərinə SafAğ ƏsƏr verirlər ki, torpağa dönməsinlər, əbədi olsunlar. ƏsƏr – yaradan İşıqdı. Yenə deyirəm: “O dünya”, “Axirət” dünyası yox, AğƏr dünyası var, parıldayır başımızın üstündə! Evimizi yıxan, Odumuzu söndürən Din “axirət” eləyib AğƏri! SafAğ İşıq Aləmini! Dili, mənanı öldürməknən beyni öldürüb! Yerinə iyrənc mərasimlər doldurub: “Zəvvar ol, Məkkəyə get. Şeytana daş at”. (Divarda əcayib insan şəklinə).

Əlbəttə, uşaq kimi gülüşürlər “cənab” həcilər; daş atmağın mənasızlığına kim gülməz?

Dərsini, ƏsƏrini birbaş ƏlAğ EySarın beynindən alıb öz beyninin süzgəclərindən keçirə-keçirə, “daş” yox, bəşəriyyətə OdƏs – Yaradan həqiqət verən Nizaminin kitabına isə “bir olan Allah” yazıb. Məqsədi nədi “siyasət” – məkr Dininin? Danışacam.

---

[63] “*Yegi*” – Yengi (yeni) sözündən.

Soruş: “Həft peykər” nə deməkdi?” “Deyəcək “Yeddi gözəldi!” Heç vəchlə deməz ki, “Həft peykər” yeddi BağOdƏr deməkdi! Latınlar Bağa “Piy” də deyiblər. Fars hakim dilin “Piy”ini alıb “pey” eləyib, OdƏr əvəzinə “ki ər”i – “kər”i “pey”in dalına qoşub, olub “peykər”. Yəni nə? Heykəl! Din heç “heykəl”i də qəbul eləmir! Bax bu bədbəxtliyə görə tərcüməçilərimiz “Həft peykər”i əvvəlcə “Yeddi heykəl” tərcümə eləyiblər, sonra görüblər əsərdə yeddi gözəldən danışır Nizami, götürüb eləyiblər “Yeddi gözəl!” “Vərəsə”mizi oxuyanlardan, dərs alanlarımızdan başqa bir nəfərin də xəbəri yoxdu ki, əsərdəki gözəllərin adları da rəmzdi. SafAğ Elminin rəmzləri. Ömür verilsə, “Yer”də qalsam, o rəmzləri də bircə-bircə açacam. Onda biləcəksən Nizami kimdi.

Oxuma o tərcümələri. Nizami yox dərəcəsindədi o zər cildlərin içində.

“Xəmsə”də, yenə deyirəm, “Allah” yoxdur. “Peyğəmbər” var.

“Xəmsə”nin köynəyini rəmzləri cırıb atacam: “İslam” adlananı da, “Xristianlıq”, “Bütpərəstlik” adlananları da cırıb atacam! Mifləri, əfsanələri məhv edəcəm! Boğulsam da, qaralsam da, hər şeyi izah eləyib Elm verəcəm sənə bu gecə!

Şeyx əmilərin bütün rəmzlərin şifrələrini açıblar, təfsir-izah eləyiblər.

“Xəmsə”də ən mürəkkəb rəmzlər silsiləsi “Həft peykər”nən “İsgəndərnamə”dədi.

“Həft peykər”də hərəsi bir ölkədən gətirilən “gözəl”lərin adlarından başlamış, “Bəhram Gur”a danışdıqları hekayələrə qədər, hamısı geniş şərh tələb elədiyi halda, əllərinin altında hər cür material olan alimlər bir kəlmə də demirlər! Moskvada, Leninqradda, şərqşünaslıq institutunda yalnız bir işnən məşğuldular: planetin bütün ölkələri barədə həqiqəti gizlətmək! Məhz buna görə də ölkələr, xalqlar barədə bəşəriyyətimiz heç nə bilmir. Kimə lazımdı ki, Hindistanın ilk və həqiqi adı OdƏr dilində BağƏrmiş. Sonralar “Bhar” “Bharat” adlandırılan yerin əsl adının BağƏrOd olduğunu kim bilir?! Ordakı məşhur Elm kitabı “Riqvedi”nin ilk və həqiqi adının “ƏrAğ EvOd” olduğunu kim bilir?! Kimə lazımdı ki, BağƏr adlanan ölkəyə ÜnOd gələrmiş, o Ünü xüsusi ƏsEvOda (Yaradan Ev oduna) yığışan SafAğ Alimləri dinləyib, yazıb yayarmışlar. İndi də durur o evlər. Əmma adı daha ƏsEvOd deyil, “Səbət”di. Həftədə bir dəfə evin qabağına söyüd çubuğundan, qamışdan hörülən səbət asırlar, yəni yığışın, bu gün moizə günüdü. Dəhşətə bax ki, bu da Qreklərdən başlanıb. İsgəndər Zülqərneynin vaxtında Qreklər

görüblər dağlıq yerlərə ÜnOdƏs deyir camaat. Yazıda bu həqiqətin ifadəsinə bax: "İnd su", "Hind!.." Dəhşət deyil, bəs nədi?!

Əmilərin şərh eləmişdilər ki, Hindistanın hələ "Potop"dan əvvəl BağƏr, BağƏrOd, sonralar "Bhar", "Bharat" adlandığı dövrlərdə, yerli əhalinin dilində allah mənasında işlənən "Div" sözü OdEv sözündəndi, ilkin həqiqət mənasında işlənən "Atman"[62] sözü OdMən sözündəndi. "Riqvedi"dən sonrakı kitabın – "Avesta"nın ilk və həqiqi adının "EvƏrOd" olduğunu kim bilir?! "ƏrAğ EvOd" kitabının da, "EvƏrOd"un da dili dəyişdirilib! "Budda" tamam anlaşılmaz "Riqvedi"nin əslindəki BağOdƏr adından düzəldilib!

Təkcə bu ölkənin başına gətirilən müsibəti dərk eləsən, bütün planetin xəstəliyini başa düşərsən.

Son vaxtlar İlan hətta birinci "sivilizasiya"nın məhvinin səbəbini – "Atom fəlakəti"ni də gizlədir. Müxtəlif yollarnan məktəblərdə də "Nuh" komediyası yayılır. Soruş uşaqlardan, Subasqınından sonra nə olub, hamısı deyəcək su yeri basanda bütün kürreyi-ərz suyun altında qalıb. Nuh peyğəmbərnən oğul-uşağından savayı səlamət adam qalmayıb. Nəinki adam, heç heyvan da qalmayıb. Nuh peyğəmbər hər heyvandan, hər canlıdan bir cütünü mindirib gəmisinə, gətirib buraxıb Ararat dağının başına ki, su çəkiləndə artıb çoxalsınlar. Yer üzündə nə qədər canlı var, hamısı Nuhun gəmisindəkilərdən törəyib, nə qədər millət var, hamısı Nuhun oğul-uşağından törəyənlərdi. Budu bəşəriyyətimizin bildiyi! Əlbəttə, "Dini əfsanədi" deyənlər, "Tövrat"ı, "İncil"i, "Quran"ı lap alt-üst eliyənlər də var. Əmma bəşəriyyət nə "Tövrat"dan – "Bibliya"dan əl çəkir, nə "İncil"dən – "Novıy zavet"dən, nə də "Quran"dan!

Niyə?

Keçirəm Din kitablarına...

* * *

Deyək ki, nə Mədəddən bir şey eşitmisən, nə Abıdan, nə də məndən. Gör indi bu müəllimin necə cırıb dağıdacaq "Bibliya"nı, "Novıy zavet"i ("Yevangeliya"nı), "Quran"ı!

Çox arvadlılıq barədə çox eşitmisən. Hardandı bu? "Quran" deyir: "Birini al, gördün təmin eləyə bilmirsən (seksual mənada ha!), ikincini al (yəni təzələ arvadı), gördün onu da təmin eləyəmmirsən, üçüncüsünü al. Gördün onu da təmin eləyə bilmirsən, dördüncüsünü al. Gördün

onu da təmin eləyəmmirsən, daha evlənmə, elə qulluqçularınla keçin". Budu bax Din!

Gör sonra nə deyir "müqəddəs" "Quran": "Qadınla əlaqədə olandan və ayaqyoluna gedəndən sonra əlini quma çək, sonra əlini üzünə çək!"

Kim üçün yazılıb bu, ay oğul?!

Dedim ki, bir irəli sananan əlliminillik tarix olub, bir də geri sananan əlliminillik tarix. Bəşəriyyətin yaddaşı alınandan sonra tarix əlliminci ildən başlayıb üzü bəri gəlib. Qırx doqquz min doqquz yüz doxsan doqquzuncu il, qırx doqquz min doqquz yüz doxsan səkkizinci il və sairə, gəlib çıxıb birinci ilə. Arxeoloqların nə bilim neçə milyon bundan əvvəlin əşyalarına inanma! Geri sananan tarixdən sonra yeni tarix başlanıb: bir, iki, beş... yüz, min, nəhayət, min doqquz yüz əlli dördüncü il. Bu bəşəriyyətin tarixi, qısa desək, cəmisi yüz iki minildisə, niyə "milyon", "milyard" illər deyilir?! İnsan meymundan yaranmayıbsa, "Noy" – "Nuh" da EySar ÜnEvdisə, "Potop" vaxtı Ulu Bağ ƏsƏlMən Yerin sahibi, Eysar ÜnEv isə QalAğımızın ƏlAğı – "Allah"ı olubsa, Subasqınından xilas olanlar EySar ÜnEvi o illərdə həm də Hoy (kömək) adlandırıblarsa, guya qədim mənasında olan "Nuh"u niyə belə qoruyur İlan?! Necə yəni "hər canlıdan bir cüt?!" Dünyada nə qədər canlı var? At, eşşək, it, pişik, qoyun, keçi, canavar, tülkü, çaqqal!.. O gəmi nə boyda gəmiymiş ki, ilana-çayana, qarışqaya qədər bütün canlıları doldurub içinə, gətirib buraxıb "Ararat" dağının başına?! Araratın o qartar beli neçə min kvadrat kilometrlik çöl-çəmənli, ot-ələfli sahədi ki, bu dünyanın filinə, camışına, inəyinə buğasına, şirinə, pələnginə qədər bütün heyvanatı yedirib-içirdib, ərsəyə gətirib?!

Əfsanə deyil bu, əfsanə "Nuh" əfsanəsini yaradan beyindi, EvƏsÜnü – "əfsanə"yə döndərib!

Görürsənmi, beyin dəyişdikcə, dil-dodaq, damaq dəyişdikcə söz və məna necə təhrif olunur! İnsanın beyni, gözü, nə qədər bəsitləşdirilməlidir ki, dünyanı bir gəmiyə, bir dağın belinə sığışdıran əfsanəyə inansın?! İnanırlar axı, ay oğul!

Yoxdu bəşəriyyətimizin beyni, puçdu!

İlan indi məhz beyinsizlikdən sui-istifadə eləyir! Bağların mövcudluğunu, insanlığını, planetimizə gəlib getdiklərini dilə də gətirmir! Ulu Bağ ƏsƏlMənin başçılığıynan yüz iyirmi dörd min nəfər OdƏrin İşıq gəmilərində OdAğÜzdən EyƏrə gəlib Olamda məskunlaşmasına lap cüzi işarəni də pozurlar!

Abıdan da, Ələskərdən, məndən də tez-tez soruşurlar ki, ilkin yaranış barədə, Kainatda həyatın başlanğıcı haqqında niyə bir söz demirsiniz? On səkkiz min "Qalaktika"dan – QalAğdan başqa, Kainat sonsuzluğu adlanan planetsiz, insansız boşluqda "Element"lərin – ƏlMənlərin yaranış tarixi varmı? Varsa, bizə niyə demirsiniz?

Bax belə suallara cavab verən Elmin var, oğul!

Kainatda insan ölümsüzdüsə – əbədidisə, bəs "Yer"də ölümün səbəbi nədi? Subasqınından əvvəlki "sivilizasiya"da ölüm nə vaxt, necə başlanıb?

Belə suallar da var. Hamısına cavab almaq üçün Ün eşidəsən gərək. Ün eşitmək qabiliyyəti olan "beyin" – BağÜn yetirməkdən ötrü irsiyyət sağlamlığı lazımdı.

Sənin "irs"iyyətin – ƏrƏsin (Yaradan İşığın) ucadı, gözümün işığı! Təkrar elədiyim şeyləri səbrnən dinlə.

Bir də eşit ki, demək, OdMən sözünün ən qədim təhrifi "Atman"dı, sonrakı "Atom".

"OdMən" EyOdƏr Babamızın və bütün Bağların sözüdü.

OdMənin üçüncü təhrifi daha dəhşətlidi. Qreklərin, Latınların "ki men"i Avropada "komun", "kommuna", "kommunizm" olub. Söz formaca dəyişib, məzmunu qalıb? Yox, oğul. Od – həqiqət də itib, "Mən" – Bağ da. "Kommunizm" məfhumu OdƏr bəşəriyyətindən, OdAğÜzdən ayrılıb, ancaq "Yer"ə bağlanıb, təhrif nəzəriyyələrnən təhrif olunub.

Nə vaxt baş verib bu bədbəxtlik? Yeni tarixdə? Yox, əzizim. Birinci "sivilizasiya"nın axırında "Avropa" sözü də olub, "Kommuna" da, "kommunizm" də. Heyrətlidi? Əlbəttə! Demişdim sənə ki, OdMən quruluşlu, biri-birinə və Kainata bağlı icmalar, insanı daim təzyiq, qorxu altında saxlayan hərbi kommunizmə döndərilib. "Vərəsə"dən kənar zəmanəmizdə heç kəs heç kəs dərk eləmir ki, QalAğ adlanan məkandakı bəşəriyyətin hər bir fərdi bu "Yer"də fərdlərə bağlıdır, "Yer"də bir nəfərin məhvi Kainatda bir çoxlarına dərd, xəstəlik gətirir və o xəstələr elementlər cəmi ilə dolu məkanlarda əzab çəkə-çəkə müalicə olunurlar. Bu dərəcədə bağlılıqdan xəbərsiz "Yer"də beyinləri qapalılar Yerə bağlanıb, nəinki OdMəni, hətta özlərinin qurduqları hərbi "kommunizm"i də məhv eləyirlər. Bax onda, əlli mininci ildə selləmə yağışların suları çayların, göllərin, dənizlərin sularına qarışıb, EySar ÜnEvin Ününü eşitmiyən, OdƏr dilini qanmıyan bəşəriyyətin üstünə yeriyib. İnsan heyvandan da alçağıymış onda, oğul. Lap qısası, sadəsi

budu ki, cəzalanıb bəşəriyyətimiz; Təhrif "sivilizasiya" öz beyinsizliyi, əxlaqsızlığı, möcüzəli ixtiraları ilə birgə batıb suda. Bəzi dağlar, bir də Bağday ərazisi, ƏrEy – "Rey"dən indi "Qafqaz" adlandırılan QapıAğÜz dağları arasında OdƏrlərin yaşadıqları nisbi təmiz ərazilər səlamət qalıb.

İndi özün deyə bilərsənmi "Yer"də ölümün səbəbi nədi? De görüm!

– Dil təhrifi? Söz-məna təhrifi? Yəni Ün eşitməmək?..

– Afərin, Bircə balam!.. OdƏrlərdən birinci ayrılıb ayrı xalqa çevrilənlər kimlərdisə, ilk ölüm də onların içində olub.

GurAğ ordusu ikən, Olamı – "Olimp"i, sonra ƏrEyi – "Rey"i planetin vəhşi heyvan sürülərindən qoruya-qoruya kobudlaşan, bətnində, təfəkküründə GurAğ OdƏrliyini itirib "Qrek"ə dönənlərimiz birinci ayrılıblar. İkinci BağOd EyÜnlüyünü itirən ordular – "Pəhləvi"lər, üçüncü EvƏrƏs OdƏrliyini itirən ordular – "Farslar" ayrılıblar. Sonra ƏsƏr OdƏrləri ikən "Sur"a – "Assuriya"lılara çevrilənlər ayrılıblar. Bunlar geri sananan tarixin otuzmininci illərindən həmən "Ağ Batan" adlandırdıqları HəmOdÜnü dəfələrnən dağıdıb özlərinin ÜnEv ikən "Nineviya"ya dönən mərkəzlərini "çiçəkləndiriblər". Eyni əsrlərdə, o fatehlərin təsiriynən "Ərəb"ə dönən ƏrEv Odərləri ayrılıblar. BağSar OdƏrlərinin ərazisi "Misir"ə, "Misir" daxilindəki BağOd ərazisi "Yegiped[63]"ə dönüb; Ün eşidən, OdAğÜznən daimi danışan, Bağdayda, planetdə vəziyyəti düzəltməyə çalışan EvƏrÜnlərimiz – "Fər Ün"lərə, qrekcə "Faraon"lara döndəriliblər.

"Qrek"lər Ərəb"lərlə eyni vaxtda azan "Cuhud"ların əliynən "Faraon"lara əsrlərnən ardıcıl sui-qəsdlər eləyiblər, BağSarı – "Misr"i tutandan sonra isə "Faraon"ların meyidlərini mumyalayıb gizlin hakimiyyət vasitəsinə çeviriblər!.. Leninin mumyalanması, "proletariatın rəhbəri"nin meyidi üzərində hakimiyyət tribunası qədim quldarlıq tribunasıdı, oğul!..

İndi bir planet adı da eşit: BağƏr OdƏr. Qrek-Latınca təhrifi "Mer kuri". Həm bizim QalAğımızı, həm də bütün Kainatı EyOdƏrə bağlayan planetdi BağƏr OdƏr. Bağ Atamızın planetidi. Gör nə hala salıblar: "Mer kuri!"

Budu bax, ayrılıq üzündən itirilən məna, ölüm!

BağƏr OdƏr planetində SimOd məclisi var. Uca həqiqət məclisi. SimOdun min nəfər üzvü var. O min nəfərdən biri-birini əvəz edə-edə işləyənlər yüz nəfər olur. Yüz birinci Bağ Atadı. Yüz nəfər Bağ fikir

---

[64] "Heydər" – EyOdƏr – Baba nəzərdə tutulur.

deyəndən sonra Bağ Atanın özü deyir və beləliknən, SimOdun – Uca həqiqətin Əli bütün OdƏr bəşəriyyətinin Əli – OdƏrƏl olur.

İndi gör kimi "Əzrayıl"a döndərib ölüm dili – Din!

"İblis" yoxdu, EvƏlƏs var, Yaradan Əl Evi – məkanıdı.

"Dyavol" yoxdu, OdEvƏl var, Həqiqət Evinin Əlidi.

"Cin" yoxdu, OdÜn var. "Şeytan" yoxdu, ƏsOdÜn var, Yaradan həqiqətin Ünüdü.

OdƏrƏldən savayı "Cəbrayıl" – OdEv ƏrƏl də var, "Arxanqel" – ƏrAğ ÜnOdƏl də var, çoxlu "Anqel" – ÜnOdƏl də var.

İndi lap primitiv şəkildə deyim.

Sən ekranda necə görürsən adamı? İşıq gedir ekranda, ağ parçanın üstündə insana çevrilir. OdAğÜzdən göndərilən "kino" da eləcə, "Anqel"ə, "Arxanqel"ə, "Cəbrayıl"a, "Əzrayıl"a, "İblis"ə, "Dyavol"a, "Cin"ə, "Şeytan"a-filana çevrilir. Fərqi bundadı ki, sənin kinon ekranda canlanır, planetlərdən göndərilən kino isə torpaq üstə gəzən insan kimi canlı görünür.

İşıq qardaşımı dərk elədinmi?!

Tamam təhrif olan beyni qapalı insannan iş gedir, oğul.

"İblis"in gözləri alma boydadı. Qıpqırmızı. Niyə? Çünki Təhrifi qorxutmaq lazımdı. Yolunu azıb, qudurub təhrif, vəhşi, yırtıcı olub. "Allah xofu" deyiləndən də qorxusu yoxdu daha.

"Dyavol" da qorxutmaq, çəkindirmək üçündü. "Cin", "Şeytan", "Çort"-filan da.

Bəs "Mələk?" BağƏlOddu "Mələk". Bağ Əlinin Həqiqəti. SafAğ İşığı olanlarımızı əzizləyirlər. Gözəl qadınlardı, qəşəng-qəşəng, qanadlı-qanadlı körpələrdi. Bədbəxt əmilərin kimi alimlər görüblər "Mələk"ləri. Silsiləmizin bütün alimləri görüblər. "Məhəmməd" adlandırılan BağHəmOdumuz görüb. BağHəmOdun EyMəni Əli, əmisi "Əbu Bəkr" – EvEy BağOdƏr görüb, "Haşim" – ƏsMən nəslindən SafAğ Elmini öyrənən saf adamların hamısı "Mələk"lərnən oturub-durublar. "Allahın qasidi" adlandırılan "Cəbrayıl"nan – OdEv ƏrƏlnən söhbət eləyiblər.

Təhrif mühitin təzyiqindən çox sıxıldığım vaxtlar mən də bax beləcə söhbət eləyirəm OdAğÜzə gedənlərimiznən...

– Əmi!.. Əmi, bir şeyə lap məəttəl qalıram. Dillər lap mexaniki yaranıb ki?! Sadəcə, sözü təhrif tələffüz edə-edə ayrılıblar?!

---

[65] Göyçədə kənd adıdır.

– Budu bəlanın kökü! İnsanı insanlıqdan çıxaran, heyvaniləşdirən bəla Kainatın – OdƏr bəşəriyyətinin dilindən ayrılığıdı! Atası OdAğÜzdən baxır, oğlunun yad yorğan altında, sonra ailədə heyvani rəftarını görür, sarsılır, tüpürür!

İlan – Din əsasən bax bu ayrılıq prosesindən "mexaniki" dediyin ayrılıqdan sui-istifadə edə-edə qalib gəlir kamillərə. Fatehliklə din ekizdi.

Səməd başını yana əyib, döşəməyə baxırdı.

Sultan əlini onun dizinə toxundurdu.

– Sehrlənmə, idrak acı balam! BağHəmOd "bir olan Allah"ın qasidindən məlumat almaqdan ötrü "Sinay" dağına qalxmayıb, ƏsÜnEy eşidib, "Cəbrayıl"nan danışanda" zərrə qədər də şübhə eləməyib ki, "Göydən nazil olan Cəbrayıl" insan deyil. "Haşim" – ƏsMənlər də bilirdilər bunu, "Qureyş" – GurƏslər də. Bilirdilər ki, xalq "dil"ində "Sinay" adlandırılan "dağ" kimi, aşağı mənasında işlənən "sin" də ƏsÜndən azıb, BağOda həm "Məkkə", həm də "büt" deyənlər, ƏsMənə həm "Haşim", həm də "Osman" deyənlər həməncə İlanın Müaviyə adında hünərli bir casusunun hərbçiləri, "GurÜn" əvəzinə "Quran" deyən kütlənin əliynən BağHəmOdun nəslini qırıb. Bilirsən, Müaviyəynən oğlu Yezidin fəaliyyəti nəticəsində Peyğəmbərin OdƏr – Türk dillərinin qarışığında "Gur Ün" kitabı başdan-ayağa dəyişdirilib: Ərəbcə "Quran"ın bütün mətni təhrif dil, təhrif şüur məhsuludu! Dünyamızı təhrif edə-edə yayılır! Xızr Abıya OdAğÜzdən deyilib ki, KPSS xaricdə Din kadrları hazırlayır, Cənubumuzda qəddar Din hakimiyyəti yaranacaq, şagirdlərinizi məlumatlandırın, müqavimət göstərə bilsinlər. Bəla burasındadı ki, bu hazırlanan hakimiyyət bütün dinlərnən əlaqəli olacaq, keçmişdəki kimi. Məhz buna görə sənnən belə ətraflı danışıram.

Sultan stəkana YemSən suyu töküb içib nəfəsini dərdi.

– "İbn Əbdullah"... "İbn Əbdullah" deyil BağHəmOdumuz, EvÜn EvOd ƏlAğdı. EySarın Əli, Həqiqət Evinin Ünüdü. Vizantiya imperiyasının ən dəhşətli irtica dövründə, yəni iki yüz illik müharibənin ən şiddətli vaxtında "Məkkə"yə – BağOda gedib.

Necə gedib? Bu sualın cavabı Dində bir cürdü, həqiqətdə başqa cür.

BağHəmOdu "Muhamməd"ə, "Mühəmməd"ə döndərən Dinin Həqiqətimizi nə dərəcədə dəyişdirdiyini, bir çox hallarda lap gülünc şəklə saldığını təsəvvür eləməkdən ötrü bir-iki şey deyim, yadında saxla.

"Mövlud gecələri"ndə olmusan, Abının Din üstündə danışdığı hədisləri eşitmisən, bilirsən ki, "Məkkə"də büt mühitinin təzyiqinə məruz qalanda Peyğəmbər öz tərəfdarlarıynan "Mədinə"yə gedib. Orda – "Mə-

dinə"də "ağ dəvənin yatdığı yerdə" Peyğəmbərə ev tikiblər. Dəhşətə bax indi: "AğOdEvin uçurulduğu yer" əvəzinə "ağ dəvənin çökdüyü yer" yazıb fateh qələmi! BağOdÜn əvəzinə "Mədinə" yazıb! Elm mərkəzi BağOdÜn şəhərinin sakinləri EyOd OdƏrləri əvəzində "Yəhudi"lər yazıb! BağHəmOdun ƏrEvOdu AğOdUca əvəzinə "Xədicə!" Guya "Xədicə" Peyğəmbərin OdƏli yox, "dul" imiş! Diqqət yetir, təhrif dil xətası deyil bu. "OdƏli" qəsdən türkcə "dul" eləyiblər; ərəbcəyə tərcümə eləyiblər. OdEvi qəsdən türkcə "dəvə" "anlayıb" ərəbcəyə tərcümə eləyiblər. "Adr bican" – "cansız OdƏr"i, Bağıstan – "Bi sütun"u – "sütunsuz"u, "Az ər"i, "Ar az"ı yada sal. Din xadimi kinli, istehzalı irişən qələmlə işləyib və qəddarcasına yekun vurub işinə: "Quran ərəbcə verilib!" Əsli "Gur Ün" olan kitab Ərəb dilindədisə, "ərəbcə verilib" yazmağa ehtiyac nədəndi?! Ondandı ki "Gur Ün"ü gizlətmək, həqiqəti tərik OdƏrdən – "Türk"dən alıb məhv eləmək lazımdı! Müasir təsəvvürnən desək, zorakı fatehə zorakı "dil" lazımdı! Planetin bir hissəsində "Qrek"in adına "Qrek" şəklində yayırlar, o biri hissəsində "Yunan" şəklində! Bir tərəfdə "Yevrey" yazırlar, o biri tərəfdə yenə ərəbcə "Yəhud"i yazırlar. "Cuhud"u EvƏrEydən lap qədimlərdə ayırıb "Türkə" – EvƏrEyə qarşı qoyduqları halda, indi guya "birləşdirib", biri-birinə qarışdırıb "Cuhud"a daha çox imkan verirlər ki, "Türk" adlanan "Yevrey"i sıxışdırsınlar, qırsınlar.

İlanın bu qorxunc siyasətinin tarixi qədimdi, həm də çoxcəhətli.

Xaç yürüşlərinin hansı əraziləri tapdaladığına diqqət yetirsən, açıq-aydın görərsən ki, EvƏrEy – "Türk", "Midiya" – Bağday əraziləridi. "Türk" içində "İslam" məhz Xaç yürüşü kimi bir şeydi. Vaxtı çatanda biləcəksən ki, "ƏsƏlim"in təhrifi "İslam" həmişə, hər yerdə İlannan müttəfiq olub, əsrlərnən dəridən çıxıb ki, vaxtı ilə Bağdaydan, Xalamdan gedib ƏsƏrƏl – "İsrail"də qalmağa məcbur olan EyOd OdƏrləri də təhrif "dil", təhrif Din qurbanları olsunlar. Qalanda əsrlərlə qalıb, eramızın yeddinci əsrində, sonra on üçüncü əsrdə vətənə – indiki Türkiyəyə qayıdan "Oğuz"lar da Din qurbanıdılar! "Türkmən", "Özbək", "Qazax", "Qırğız", "Uyğur", "Tatar" adlarıynan tanınanlar da mədrəsələrdə SafAğ Elminin tədrisini dayandırıb, yalnız və yalnız ərəbcə "Quran"a bağlanıblar ki, müharibələrdən can qurtarsınlar! Özləri ey! Məcbur olublar!

"Vərəsə"mizdə olmuyan bir fakt deyim sənə.

Keçən əsrin ortalarında babamız bir neçə səyyah göndərib Türkmənistana, Özbəkistana ki, mədrəsələrdə tədris işlərini yoxlasınlar.

Çünki o tərəflərdə Elm Fars dili içində batin-gizlin "Afaqnamə" kitabıynan deyilirmiş, bu da çox çətinliklər törədirmiş. Səyyahlarımız gəziblər, yoxlayıb görüblər ki, "Afaqnamə" bütün mədrəsələrdən yoxa çıxıb, yalnız tək-tük "şeyx" – ƏsAğ (Yaradan SağAğ İnsan) rütbəli qocaların evlərində qalıb. Deme, bizim səyyahlardan əvvəl Qalamdakı Din xadimləri camaata Şeyx Məhəmməd Əmirin adından "şəhadətnamə" göstəriblər, "şəhadətnamə"nin üstündə Peyğəmbərin möhürünü göstəriblər, deyiblər "Afaqnamə" daha yaramaz tədrisə, tezliknən türkcə kitab gətiriləcək. Çətin və "zəhərli kitab" adıynan yığışdırıblar yeganə tədris kitabını, əvəzində "Quran" paylayıblar ki, "şeyx"lər – ƏsAğlar da "Quran" hürufatının əslinin şərhiynən desinlər dərsi. Niyə? Çünki Nəiminin, Nəsiminin dövründəki kimi, hürufatın şərhindən əvvəl "Quran" oxunur, ərəb dili öyrədilir axı! Bax, belə üsullardan istifadə yoluynan, Peyğəmbərimizin adına çıxılan "İslam" yayıb düşmən. Yəni kim? Həməncə İlan, oğul! Rimdə, Vatikanda "qlavnıy Yevrey" maskası altında oturub, Elmimizin dirçələn ərazilərinə Xaç qılıncı göndərən Papa! İlan!

Söhbət bu yerə çatanda şagirdlərimizə peyğəmbərin möhürünü veririk, deyirik özünüz sərbəst oxuyun, sonra da möhürdəki OdƏr sözləri üstündə "Ustadnamə" yazın, çalın oxuyun, şərh eləyin...

– Nə?! "Ustadnamə"?! "Çalın, oxuyun?!." Əmi!.. Şagirdləriniz aşıqdılar?!

Sultan yorğun-arğın gülümsəyirdi.

– Xızr Abıdan, Çürük Aşıqdan dərs alanlar ilk növbədə saz, söz öyrənirlər, əzizim. Eyni zamanda, ustad Aşıqların "Ustadnamə"lərindəki "Tövrat", "İncil", "Quran" kəlmələri üstündə Elm rəmzlərindən baş açmaq üçün Ərəb hürufatını öyrənib "Quran" oxuyurlar. Sonra mənim və ya bir başqa Batinimizin, Pünhanımızın yanına "söhbət mərhələsi"nə göndərilirlər. Bu mərhələdə Peyğəmbərin möhürünü sərbəst oxuyub möhürdəki hər OdƏr sözünə bir "Ustadnamə" həsr eləyirlər.

"ƏlAğ OdOdƏr ƏsEvƏr". Budu möhür. Bunun "Əl"inə, "Ağ"ına, "Od"una, "Ər"inə, bütün kəlmələrinə ayrı-ayrı Ustadnamə. Asan deyil!

– Əmi!.. – Səməd ürək çırpıntısı, daha doğrusu, qəfil, titrətməli, gur şadlıq içində, hamama gurultu saldı:

– Əmi! Möhür ərəbcə deyilmi?!

– Yox, əzizim!

– OdƏr dilindədi!

– Bəli, əzizim! OdƏrcədi. Heyif, əski əlifbanı bilmirsən. Birinci kəlməsini təkrar eləyirəm: “ƏlAğ”.

Aşıq Ələskərin “Ey Ağa” Bağlamalı “Ustadnamə”sini çox eşitmisən, şərhini isə, təbii olaraq, bilmirsən. Aşıq oxuyur eşidirsən: “ehtiyacın nədir ey ağ, ey ağa?” – Elmi bilənim dərhal başa düşür: “Ey Ağ”, yəni Uca SafAğ, ehtiyacın nədir “Ey Ağa?” uca SafAğa. Yəni sən özün uca SafAğsan, nə ehtiyacın var Uca Saf Ağa?!.

Sənin varisliyindən xəbər tutandan sonra, axır vaxtlar sənə xüsusi bağlanan köhnə yoldaşın Sarı Zal “Ey”, “Ağ” kəlmələrinə həsr olunmuş “Ustadnamə” yazıb:

“Gəl, Ey, dedim, gəl dedim,
Ağ üzündə xal gətir.
Gül, Ey, dedim, gül dedim,
Gül üzündə gül gətir.

Yəni: “Gəl, Ey” – OdƏl Ey dedim,

(Həqiqət Əli Ucadır dedim).

“Gül, Ey”, dedim – OdƏl Ey dedim,

“SafAğ Üzündə” – mənanda “xal” – Ağ əli gətir” – SafAğ Əli gətir, yəni özünü gətir.

“Gül üzündə gül gətir” – yəni mənalı dilində dil gətir.

“Hüzurda”, yəni Abının, Çürüyün, mənim təmsil elədiyimiz Bağ hüzurunda çalıb oxuyub, şərh eləyib. Qonaqlı cavanlarının çoxu belədi. Hətta yazıq Lütün qızı da...

– Torksin?!

– Bəli, Lütün Torksinciyəzi də yazır, çalır, oxuyur, şərh eləyir. Mən əminəm ki, Abıynan, Çürüknən bağlanandan sonra sən özün də çalıb oxuyacaqsan.

Səmədi gülmək tutdu.

– Mən ha! Şeir yazacam?!

– Bəli, əzizim! Verilir axı şeir. Bu bir. İkincisi, sənin irsiyyətində “Aşıq” – ƏsAğ var axı!

– Məşhur Aşıq Alı kimidi, bilirsən?

ƏsƏlMənə Göycədə “Süleyman” deyirlər, biz – “Musa ağa”. “Süleyman”ın Göycədə “Aşıq Alı” adı altında gizlənən ikinci oğlu Şeyx Əli, babamız Məhəmməd Əmirin qardaşıdı, Şeyx Ağ Əmirnən Şeyx Boz Əmirin, Mədəd Əmirlinin, Sultan Əmirlinin əmisidi... Səttar xanın, fədailərin, Dəli Alıynan Qaçaqlarının məclislərində “Süleyman”a “Comərd”

deyirdilər. “Heydərimin[64] Comərdiyəm” yazırdılar. EyOdƏr Babamızın Yerdə Comərdi – rütbədi. Heyif, indi yalnız biz danışırıq bunu. Çünki “Aşıq Alı” “Ustandnamə”lərinin, Elmi şerlərinin doxsan faizini yığışdırıb itirib-batırıblar İlan “alimləri” – “Azərbaycan Elmlər Akademiyası”! Bu “Akademiya”dan əvvəl birbaşa Peterburqdan, Nikolay Romanovun sərəncamıynan fədailərin, Qaçaqların aralarına dolan “alim” casuslar izləyirmişlər Şeyx Əli babamızı. Ün eşidirmiş, OdAğÜzdən xəbərdarlıq olunanda tez-tez yerini dəyişib gah Dərə Ələyəzdə, gah Təbrizdə, gah da bu səmtdə – “Padşahlıq” kəndində, kiçik qardaşı “Hüseyn ağa”nın çobanlarının arasında gizlənirmiş. Əvəzində “Ələsgər əmi” dediyimiz məşhur “Aşıq Ələsgər” aparırmış məclislərini. “Ələsgər” əminin Elmi şerlərini də yığışdırıblar İlan “alimləri”, batinlik – Pünhanlıq üçün yazdığı gözəlləmələri saxlayıblar! “Ələsgər” əmidən sonra, Şeyx Əlinin gizlin adını daşıyan Ağbizənli[65] “Aşıq Alı” davam elətdirirdi tədrisi. “Ələsgər” əminin kiçik qardaşı “Məhəmməd” açıq-açığına “Qurandı” – “yalandı” qafiyəsi işlətmişdi, sonra qaçıb Qarsda gizlənmişdi. Alı əminin bacısı oğlu “Aşıq Sadıq” Təhlədə – “TəkƏl”də, Qarayazıda – “Qardabani”də casusların əlindən cana doyub, guya səsi tutulduğuna görə həftənin üç-dörd gününü boğazı tənzifli, çayxanada otururdu, asta-asta çalırdı, mızıldanırdı, “Ələsgər əmi”nin diliynən “tümənə çalmıyan canım, indi samana çalır”, – deyirdi. Halbuki şeir AğBizənli Alınındı, Sadıq qorxurdu ki, dayısını tutarlar.

Bir dəfə dan qaranlığında evimin pəncərəsi tıqqıldadı, Sadıq bircə kəlmə “getdim” – dedi. O günü səhərdən gecə yarıya qədər Qazağın DağKəsəmən kəndində bir batinimizin evində məclis apardı. Casusun donosu o evi də xaraba qoydu: “Aşıq Sadığ”ın növbəti məclisindən sonra, səhərisi raykoma gedəndə gördüm Gülənov dəhlizdədi, gözləri dombalıb zillənib üzümə: “Aşıq Sadığı tutmuşdular, buraxdırdım. Əmbə DağKəsəməndə o evin qapı-pəncərələrini eşikdən bağlayıb, nöyüt töküb qohumunuzu diri-diri yandırıblar, yoldaş Əmirli...” Məlum oldu ki, əhli-əyal nədi, Qazağın, Ağstafanın kəndlərindən yığışan şagirdlərimiz də yanıblar orda. Din çuğuluymuş donos yazan. Uzun müddət “Dəli Dolu” adıynan aramızda olub, axırda elə bədbəxtlik törətdi!

Otuzuncu ildə Stalin Dinə azadlıq vermişdi. O vaxtdan da “Dəli Dolu”lar dolmuşdular aramıza, xəbər tutmamışdıq. Yanğından sonra “Dəli Dolu”lar intelligent libası geyinib, saqqallarını qırxıb idarələrdə işləməyə başladılar. İndi də fəaliyyətdədilər. Tanıyırsan bəzilərini: Dəli

Mahmud, Dəli Baba... məşhurdular. Belədi indi Din! Sovet "İslamı!.." Dəli Mahmud və ya Dəli Baba toyda-şanda "Aşıq həqiqətdən oxu", yəni Elmi söz oxu deyəndə bilirik ki, yoxlanışdı. Əmma dərsi dayandırmırıq. Möhürü gizlətmirik. Çünki bircə "ƏlAğ" kəlməsi "Quran"ı kökündən ifşa eləyir, oğul!..

İndi de görüm bu möhür söhbətindən nə öyrəndin?

DağKəsəmən əhvalatı nə qədər kədərli olsa da, Səməd sevincdən kükrəyirdi:

– Əmi! Qurbanın olum, "İdeal" – OdƏl – Dil əmi! Necə yəni nə öyrəndin? Peyğəmbərin möhürü OdƏr dilində! "ƏlAğ?!" Qədim ana dilim!

– Hə!

"Od OdƏr?!"

– Hə!

"ƏsEvƏr?!"

– Hə, cəmisi üç kəlmədi. Mənasını da bil: "ƏlAğ" – SafAğ insanın, yəni Bağ Atanın Əli – Oğlu EySar!.." "Od OdƏr", yəni "OdƏr" həqiqəti, "ƏsEvƏr" yəni "Yaradan Evin İşığı".

İndi bütöv deyirəm: "ƏlAğ EySar OdƏr həqiqətidir (və) Yaradan Evin İşığıdır".

Səmədin bədəni xəfifcə titrəyirdi.

– Beynimə işıq saçdı bu möhür, bu "ƏlAğ!" Qırx altıncı ilə getdim, "Əlif" "Lam" – "ƏlEv Əlim", "ƏlAğ" deyənimi gördüm. O uca insanın dediyi dərsnən bu uca insanın dediyi dərs arasında körpü yaratdı möhür! Elə bil günəş doğub beynimdə!

Sultan gülürdü, sevinirdi.

– Nizamidə bir rəmz var: "Dünyamız sözdən yaranıb!" Farscadı "Xəmsə", bilirsən. Rəmzi açmaq üçün fars sözündə gizlədilən rəmzi Türkcəyə tərcümə eləməlisən, türkcəni də qədiminə – OdƏrcəsinə. Nizami demək istəyir ki, dünyamız, yəni "Yer" ƏsÜzdən yaradan mənadan, başqa cür desək, OdƏr OdƏldən – OdƏr "Dil"indən yaranıb. Budu əsas həqiqət. Ona görə də bu həqiqət barədə OdAğÜzdən çoxlu "dəstan" – OdƏs OdÜn göndərilib. Məsələn, eşitmisən, "Məsim və Diləfruz". BağSim – "Məsim"ə dönüb, OdƏl EvƏrEyÜz – "Diləfruza" dönüb. Hər ikisi bir-birinin eyni olan Evdə, "eyvan"da – EvÜndə olur,

---

[66] İsraildə "Yəhudi" əqidəsinə görə, ƏlAğ EySar Bağ deyil, EySar ÜnEv (İsay) isə həqiqi Bağ Oğlu sayılır. Odur ki, xristianlıq ("staroxrestyanstvo") ƏlAğ EySardan çox-çox əvvəllər çarmıxa çəkilmiş başqa bir EySarla bağlıdı.

əmma “Diləfruz” bir yanda “lal” olur, “buta” – BağOd “içib” “Məsimi” sevdiyini deyəmmir, “Məsim” də bir yanda “lal” olub, “buta” – BağOd içib “Diləfruzu” sevdiyini deyəmmir. Bilici molla çağırırlar. Molla – “Din” “Məsim”in dilini açammır, rüşvət istəyib gedir. “Ata”sı – Od – “çin” – “ki” “dəniz”ini, yəni OdƏr dilini təhrif edən “ki” dənizini keçib oğlunun dilini açır, “Diləfruza” – OdƏl EvƏrEyÜzə qovuşdurur.

“Əsli”mizdən ayrılmağımız barədə “Əsli və Kərəm”i də çox eşitmisən. Necə deyərlər, “inşallah” Abıdan, Çürükdən dərs alanda dərk edəcəksən ki, “Kərəm” – “Ki Ərim” – OdƏrdi, “Əsli” – ƏsƏldi. Qara keşiş sənin ƏsƏlini, yəni ƏlAğ EySarımızı təhrif edib, “İisus”a döndərib, Kərəmin əslini-nəslini oğurlayıb, Kərəmə isə dar “köynək geyindirib”, “yaxasını bənd-bənd bağlayıb”, bu dar “köynəyin” – “dar ərazinin “düymə”lərini açıb “bədən”ini – “Vətən”ini – EvOdÜnünü azadlığa çıxarıb ƏsƏlə qovuşmaq xəyalına düşsən yanacaqsan, ey “yanıq Kərəm”im – yanıq OdƏrim! Budu Dinin fəaliyyəti! Dağ “Kəsəmən” – “KiƏsMən” – OdƏsMən “Musa ağa”nın gizlin “Muğ”larının “köynəyi” idi, vaxtilə oraya sürülmüşdülər. Biz o “köynəyin” bir “düyməsi”ni açdıq, yandıq. Qıraq “Kəsəmən” adlarında “köynəklərimiz” vardı. O kəndlərdə də yanmışıq. “Muğanlı”, “Muğan”, “Maku” – BağOd, “Bakı” – BağOd “Quba” – OdBağ adlarında saysız-hesabsız “köynək”lərimizdə yanırıq.

Əmma, dediyim kimi, dərsi dayandırmırıq.

Möhürdə OdƏr sözlərini oxutdurub hər “söz” – ƏsÜz – (Yaradan məna) ətrafında söhbətlərdən sonra möhürnən “Quran” arasında uçurumu əyani göstərmək üçün “surə”lərdən, “ayə”lərdən misallar gətiririk. Məsələn, “Quran”ın axırından bir “ayə”yə fikir ver: “And olsun səhər-səhər buğ püskürən atlara!” Guya “Allah” deyib bu “ayə”ni, “Peyğəmbər” də yazıb: “and olsun... atlara!.. “Allah” niyə “at”a and içir?! Nədi bu “səhər-səhər buğ püskürən?!” Heç kəs, heç kəs baş açmır ki, “Allah”ın, “Peyğəmbər”in adına çıxılan bu “ayə” nədi! “GurÜn”dən təhrif tərcümədi? Bəs niyə bu qədər anlaşılmazdı?!

Sadəcə, İlan “alim”inin İlana xidməti sayəsində “ÜnOd” – “and”nan əvəz olunub, “ƏsƏr” – “səhər”nən, “Bağ” – “buğ”nan, “Od” – “at”nan! Vatikanın iblisanə qəh-qəhəsidi bu, oğul. GurÜnün axırında yekundu o “and”a döndərilən ÜnOd.

Yenə pozuram söhbətin sistemini, səbəbini sonra biləcəksən.

Nizami deyir: İlk müsəlman Məhəmməd Peyğəmbər qırx min il bundan əvvəl anadan olub.

Nizaminin dövründən – on ikinci əsrdən o yana min yüz il götürək, geri sananan əlliminillik tarixdən də iyirmi doqquz min il götürək, nə vaxt anadan olub Peyğəmbər?

İyirmi doqquz mininci ilin əvvəlində.

Din isə deyir miladın – Yeni tarixin yeddinci əsrinin əvvəlində atası Abdullah öləndə "Peyğəmbərin" doqquz yaşı vardı.

Hansı düzdü – Nizaminin yazdığı, yoxsa "İslam" tarixçilərinin yazdığı?

Nizamiyə inanammırsan, doğrudu?

Səməd səmimi etirafla:

– Doğrudu, inanammıram, əmi, – dedi.

Müslüm yenə də tamam səssiz addımlarla gəlib, səliqə ilə soyulmuq soyutma yumurtalar, duz gətirib, tezcə də çəkilib getdi.

– BağHəmOdun "Yer"də təxminən otuz min altı yüz il yaşamağı sənə fantastika kimi görünür. Eyni zamanda "böyük Nizami", "dahi Nizami" deyə-deyə fikirləşirsən ki, Nizaminin Peyğəmbərə müraciətlə "sən qırx min il bundan əvvəl anadan olmusan" sözləri, şübhəsiz, boş-boşuna yazılmayıb. Nə sirr var burda?

Sirri açım, yoxsa əvvəlcə yumurta yeyək?

Səmədin fikri yenə də uzaq illərdə, "gör səbətdə yumurta qalıbmı?" – deyən üzüntülü raykom katibi ilə Bircə balasının o qəmli günlərində gəzdi. Sonra tüstülü həyəti gördü, fikri qarışdı, əmisinin üç barmağı ucunda ona doğru uzatdığı yumurtanı alıb "podnos"a qoydu.

– Hələ söz yeyirəm, – deyib gülümsünməyə çalışdı.

Sultan isə bir an içində dəyişib köksünü ötürdü.

– Bayaq Aşıq Sadıq barədə danışanda beynimdə bir bayatı dolandı:

Dərddə Kərəm.
Neyləsin dərdə Kərəm?
Qoşullam qəm kotanına,
Çəkərəm, dərd əkərəm!

Nizamidən danışanda Yanıq Kərəmi xatırlayıram. Yanıq Kərəmdən danışanda Nizamini xatırlayıram. Çünki Nizami də yaxası bənd-bənd bağlanmış "köynək" içindədi.

Diqqətlə dinlə.

"Qırx min il bundan əvvəl anadan olmusan" sözlərinin sirri "ilk müsəlman" ifadəsindədi. "İlk müsəlman" ifadəsinin sirri isə təhrif "mü səlman" sözü altında gizlədilmiş OdƏr sözü "BağƏsƏlMən"dədi.

Subasqınından sonra geri sananan tarixin iyirmi doqquz mininci ilində EySar ÜnEv (“Noy”, “Nuh”) QalAğımızın ƏlAğı – “Allahı” idisə, böyük qardaş Ulu Bağ ƏsƏlMən isə Olamda öz birinci Odu – adı – rütbəsilə ƏsƏlMəndisə, “Solomon”, “Süleyman” ƏsƏlMəni təhriflərə bağlayan BağƏsƏlMən (“Mü səlman”) kim idi? Bağ deyildimi? Yəni əbədi Bağlardan deyildimi? Bağ Atamızla oğullarının Kainatda, demək həm də “Yer” – EyƏrdə əbədi yaşaması dəyişməz qanunauyğunluqdusa, “ilk müsəlman”ın – “Müslüm”ün – BağƏsƏlMənin – BağHəmOdu “Mühəmməd”in Nizami əsrindən “qırx min il əvvəl anadan olub” yeni tarixin yeddinci əsrində “Məkkə”də – BağOdda Bağlıq eləməsi, yəni Yerdə otuz min altı yüz il yaşaması “fantastika”dımı, əzizim?!

İndi təsəvvür elə ki, nə Xızr Abıynan ünsiyyətdə olmusan, nə də mənnən, OdƏr bəşəriyyəti, OdƏr dili haqqında heç bir məlumat almadan, oturub “Xəmsə” oxuyursan: “Sən qırx min il bundan əvvəl anadan olmusan”. Yandımı Nizami?! Bəli, əzizim!.. “Dərddə Kərəm!” Yəni dərdlilikdə “Kərəm”in – OdƏrimin bərabəri yoxdu.

Əsli – OdƏrcəsi “ÜnƏsim” (Yaradan Ünüm) olan “Nizami” təxəllüs”ü də alov içindədi, oğul!

Batinlərimiz təhrif dildə “Mütənazi” də adlandırırlar Nizamini. “Tənzim edən” mənasında. Nəyi tənzim edən? “İslam” tarixçiləri dərhal tərəddüdsüz qışqırırlar ki, “dini tənzim, edir, Nizaməddindi!” Məhz buna görə də Nizami “köynək” içində yana-yana deyir: “İnsanın beyni susuz səhradır” (Heç nə bitirmir). Nizamiyə, on ikinci əsrdə Bağdadda Ərəb dili içində özlərini “İxvar əs Səfa” (SafAğ qardaşları) adlandıran SafAğ Alimlərinə, Nəimiyə, Nəsimiyə, saysız-hesabsız “Şeyx”lərə – ƏsAğlara tamam etinasız, əsrlərdən bəri inadla təkrar eləyirlər ki, “ilk müsəlman Müslümdü”. Min-milyon dəfə şərh elə ki, “Müslüm”nən “Müsəlman” eyni sözdü: hər ikisinin əsli BağƏsƏlMəndi, təsdiq eləməz Din!

Planetimizin bəlası hər şeyi dərk edə-edə heç nəyi dərk eləmiyən qeyri-adi idraksızlardı, oğul

İkiqat diqqətli ol indi, bəlanın miqyasını gör.

“Yevangeliye” kitabı ilk kəlməsindən son kəlməsinə qədər təhrif tərcümədən ibarət olduğu kimi, adı da təhrif tərcümədi. Əsli – OdƏrcəsi “EvÜn OdƏl”di (Ün Evinin Həqiqət Əli). Qrek-Latınlar “Şad xəbər”, “Muştuluq” mənası veriblər. Yeni tarixin dördüncü əsrində “xristian”lığı rəsmi “Religiya” elan edəndə “muştuluq”layıb öz təbəələrini. Nəyə görə? Deyəcəm indi.

“Yevangeliye”yə “Novıy zavet”də deyirlər. Rusca deyil bu ad.

Əslini – OdƏrcəsini eşit: “ÜnEvEy ƏsEvOd” (Uca Ev Ünü Yaradan Evin Həqiqətidi). Ərəbcəyə tərcümədə “İncil” adlandırıblar, bu da guya “Şad xəbər” – “Muştuluq” mənasındadı.

“Religiya”nın bəd əməllərinin əsasını dönə-dönə deməliyəm: sözü öldürür! “ƏsÜz”ü – Yaradan Mənanı! Həqiqəti əksər hallarda ələ salır, iblisanə qəhqəhə çəkir. Belə qəhqəhələrnən dolu olan “Quran”dan ən dəhşətli bir qəhqəhəni eşitməyən adam yoxdu: “Məryəm oğlu İsa!” “Məryəm oğlu!” “İncil”dəndi bu dəhşət: “İşıq”dan hamilə olub Məryəm ana. “Boq otets” işıqdan ibarətmiş. Ər – insan deyilmiş?!

“Religiya” hardan alıb bu dəhşəti? Dedim: sadəcə OdƏrcə “Ər” kəlməsinin “işıq” mənasını tərcümə eləyib, “Ər”in İnsan mənasını atıb!

İndi yekununa bax “İncil”in – “Muştuluq”un: “Quzu gəlir, başının üzərində də çoxlu təhrif adları”. Nədi bu, bir şey başa düşürsən?

“İisus” gəlir əvəzinə “Quzu gəlir” yazıblar! Niyə?

Səməd donub qalmışdı.

– EySar əvəzinə “quzu”?! “İncil”dədi bu?!

– Bəli, əzizim!.. Bütün Bağlarımızın, o cümlədən ƏlAğ EySarın rütbələrindən biri OdƏsdi (Yaradan Həqiqət). “Od” əvəzinə burda da “ki” gətirib Qrek”. “KiƏs”i türkcə “küz” eləyib, müasir dilimizdə “küz”, “küzü” (quzu saxlanan yer mənasında) işlətdiyimiz sözü “tərcümə” eləyib, EySar OdƏs dönüb olub “quzu”!

Bəs “başının üzərində çoxlu təhrif adları” nə deməkdi? “Bojie simvolı” adlandırırlar. Yəni rəmzləri açmağa cəhd göstərmə! “Kitab” “quzu” deyir, sən də “quzu” de, kimlərəsə qurban kəsilmiş yazıq bir heyvan hesab elə. Vəssəlam! Budu “Novıy zavet” – “Şad xəbər” – “Muştuluq”: sevin ki, “quzu” gəlir!.. Qəh-qəhə nədi, bütün bəşəriyyətin başına ip salmaq kimi bir şey deyilmi bu “Muştuluq?!”

İmkanın olanda tap oxu ruscasını, gör necə İlandı Bağı “quzu” eləyib, adları – rütbələri gizlədən Din!

Deyəcəm, biləcəksən ki, EySarın öz alim yoldaşlarından hərəsi bir xatirə kimi şey yazıb “çarmıx” hadisəsindən sonra. Tərikcə – Türkcə yazıblar, OdƏr terminlərindən istifadə edə-edə. İlan “alimlər”i SafAğ Alimlərinin adlarını gizlədə-gizlədə qrekcəyə, sonra latıncaya, sonra köhnə “rus” dilinə tərcümə eləyiblər, indiki “Ukrayna”, “Rusiya”, “Bolqariya” ərazilərində zornan tədris elətdiriblər, “Rus”a dönənlərimizdə EySar haqqında olan-qalan təsəvvürü də məhv eləyiblər. EvÜn OdƏrƏs

"İvan krest"itel"ə döndərilib "İisus"u "krest"it eləyibsə, EyƏr ƏsƏlimə "Yeru səlim"ə döndərilibsə, "tərcümə"di bu, yoxsa qatillikdi?!.

İndi qayıdıram "Bibliya"nın "Vetxiy zavet" hissəsinə.

"Vetxiy", bilirsən, "starıy" – köhnə mənası alıb rusca, "starıy zavet" – "köhnə xəbər" mənası verir.

Görək nədi bu "xəbər": "Zmeya iz travı podnyala qolovu, skazala: "Eş, vkusno". Adam syel yabloko i bıl izqnan iz Raya". "Adəm almanı yedi və "Ray"dan – Cənnətdən qovuldu". Başqa variantı da var, bilirsən, "alma" deyil: "buğdanı yedi, Cənnətdən çıxdı".

Cəfəngiyyatdı?

İlk nəzərdə cəfəngiyyatın kvadratıdı. Oxuyub istər-istəməz çiynini çəkirsən ki, necə yəni "ilan" dedi?! İlan dilə gəlib, deyib: "Ye, dadlıdı?!" "Adəm" deyilən isə bir dənə alma yediyinə görə qovulub cənnətdən?! Bu nə "alma"dı belə?! "Alma" niyə "buğda"ya dönüb?!. Sual suala calanır, "Boq"un, "Allah"ın "özünəbənzər" yaratdığı "ilk insan"ın, nə üçünsə "peyğəmbər" adlandırılan "Adəm"in "Ray"dan – "Cənnət"dən qovulması dumanlı günah iş kimi, müəmma olaraq qalır. Niyə? "Xristian"ını, "müsəlman"ını niyə belə axmaq vəziyyətinə salır "svyataya Religiya", "müqəddəs Din?!"

Danışacam indi, görəcəksən ki, "quzu"dan da dəhşətli qəhqəhədi bu "Adəm" əhvalatı.

İndiyə qədər hamıdan, o cümlədən "İbrahim peyğəmbər"ə ("Avram"a) sitayiş eləyən molla, üləma qismindən də, şagirdlərimdən də gizlətmişəm həqiqəti. Dəfələrlə soruşublar: "Avram, Sara əhvalatı doğrudurmu?" "Alma" sözünün altında nə var?" Demişəm: "Bilmirəm". Bağ Atanın "İsay", "İsay Novin" adlandırılan ikinci Oğluynan "Avram" – "İbrahim" adlandırılan üçüncü oğluna sitayiş eliyənlərimiz, yəni EyOd OdƏri ikən "İud"eyə" "Yəhu"di"yə, ƏrEy OdƏri EvƏrEy ikən "Yevreyə" dönənlərimiz Qrekin siyasət toru içində casuslar təbliğatına elə uyublar ki, "Avram" EvƏrimdi, OdƏrdi – "Türk"dü desən, elə bu da bəsdi qan düşməni kimi baxsınlar sənə. Çox parçalanıblar Təriklərimiz, oğul. Bu saat burda – Şimalımızda ruslaşdırma, Cənubumuzda farslaşdırma, assimilyasiya prosesi necə güclüdüsə "Yəhud"a, "Yevrey"ə döndərilənlərimiz arasında antiTürk təbliğatı da bir o qədər güclüdü. Bədbəxtlik basıb milləti, heç bunu da deyəmmirəm ki, "Avram" – "Sara"

---

[67] "Tolkovatel" – təfsirçi, şərhçi, izahçı

əhvalatı hiyləgər quldar uydurmasıdı, həm xalqın özünü əxlaqca pozmaq, həm də həmişəlik ləkələmək üçündü: "Ot arasından başını qaldıran ilan" da seksual mənadadı, "alma" da, "buğda" da! Uydurma "ilk insan"nan – "Adəm"nən yox, "Bağbil"in müəllifiynən, yəni EvƏrimin özüynən bağlı təhqirdi. ƏlAğ EySarımız necə "Məryəm oğlu İsa"ya döndərilibsə, EvƏrimin öz adından yazdığı "OdMən EvEy" də eləcə "Adam"a, "Yeva"ya, ƏrEy vilayəti isə, bayaq dediyim kimi, "Ray"a döndərilib!

Necə olub bu?

Təfsilatına qulaq as.

Geri sananan tarixin dörd mininci illərinin axırında. QalAğımızın o vaxtki ƏlAğı – "Allah"ı EySar ÜnEv OdAğÜzdən xəbər verib ki, Qreklər onun – EySar ÜnEvin çarmıxa çəkilməyini[66] Qrek Kesarının adından silib, EyOd OdƏrlərinin özlərinin üstünə yıxırlar, xalq arasında ziddiyyət düşüb, parçalanma var, icmalarda qan, qırğın ola bilər; Qreklərdən gizlin, bir Sar göndərin, ərazini gəzsin, ünümü icmalara çatdırsın... Ulu Bağ ƏsƏlMən o vaxt BağSar – "Musa" rütbəsində işləyirmiş. Üç min on səkkizinci ildə HəmOdÜndəki SarEyində SinOd məclisi çağırıb, EySar ÜnEvin Ününü – xəbərini danışıb, deyib SinOd üzvləri – əbədi Sarlar Yer mühitində qocalıblar, ağır xəbərlər eşidə-eşidə icmalar arasında gəzməyə dözməzlər, buna görə də Ulu Bağ təklif eləyib ki, əlli yaşı təzə tamam olan EvƏrimə Sar ÜnAğ (SafAğ İnsan Ünü Hökmdarı) rütbəsi verilib EyOd Sarı təyin edilsin.

EvƏrim gedib, Misir EvƏrEyÜnün – "Faraon"un, çətinə düşəndə isə Ulu Bağın özünün köməyiynən EyOd – "İud" icmalarında qırx il Sar olub, Qreklərin təhrikiynən "Fələstin Ərəb"ləri EyOd icmalarını dağıdandan sonra isə, əbədi Sarlarımıznan birlikdə, ta Bağdayın batinliyinə qədər GurOdlarda – "Yurd"larda, yəni vilayətlərdə Sar olub. "Vərəsə"mizi oxuyanlar bilirlər ki, EvƏrim Sar ÜnAğ yeni tarixin yeddinci əsrində də "Yer"də, "Mədinə"də olub, hələ də davam eləyən ziddiyyətlərin yatırılmağında iştirak eləyib.

İlanın "Din"i isə bu Elm cəngavərinin Sar ÜnAğ rütbəsini "sarı inəyə" (qızıl inəyə) döndərib! "Müqəddəs Quran"da "Allah" "Musa"ya deyir: "Yəhudilər adam öldürüblər. Mübahisə eləyirlər, qatili tapa bilmirlər, xəstələniblər. Onlara de bir sarı inək tapsınlar. İnək nə qoca olsun, nə cavan. Orta yaşlı olsun. İnəyi kəsib, yarısını xəstə Yəhudilərə vursunlar!"

Təəccüblənmə. Tərcümə xətası deyil, əbədi sarlarımızı ən iyrənc əfsanələrlə həyatdan, həqiqətdən ayıran quldar hiyləsi məhsuludu. Üç min on səkkizinci ildə verilən Sar ÜnAğ rütbəsi "sarı inəyə" döndərilib "kəsilib, yarısı xəstə Yəhudilərə vurulub, Yəhudilər sağalıblar, daha heç kəsi qatillikdə taqsırlandırmayıblar!"

Bəs niyə "yarısı?"

Sar ÜnAğ bütün başqa OdƏr rütbələri kimi, bütün ƏlAğlara aiddir. Ulu Bağ da Sar ÜnAğdı, EySar ÜnEv də Sar ÜnAğdı (EvƏrimi dedim), ƏlAğ EySar da SarÜnAğdı. Dörd qardaşdan ikisini gizlədib İlan, "Yəhu"di"lərə "İsay Novin"nən "Avram"ı, yəni "sarı inəyin yarısını" verib və qəhqəhə çəkə-çəkə yazıb: "...yarısını Yəhudilərə vurdular". "Verdilər" yox ey, "vurdular" – "atdılar" – "tulladılar"! (İnəyin cəmdəyinin yarısını elə bil itə tullayıblar). Üstəlik xalqın böyük bir qismi yarım şaqqa inəyin ətiynən sağalıblar! Sar olan EvƏrimin – "Avram"ın adı da yoxdu burda. Niyə? Çünki quldar qələmi Sar rütbəsi əvəzinə Saranı verib "Avram"a! Sarlığa getmək nədi?! "sürgün olunub" "Avram", "Midiya"dan "Misr"ə, "Faraon"a pənah aparıb, Saranı arvadı kimi yox, bacısı kimi təqdim eləyib, "məsələnin üstü açılanda ordan da qovulub!" Bizim Şamaxı tərəfdəki "cuhud"lara danışdım bu Sara əhvalatını, soruşdum ki, niyə susursunuz?! Savadlı oğullar yetirmisiniz, niyə etiraz eləmirsiniz ki, "Bibliya" bütün xalqı əxlaqsız qələmə verir!.. Başqa biabırçı şeylər oxudum "Bibliya"dan: "...kolların diblərində pis-pis işlərlə məşğul olursunuz..." Açıq dedim: "bütün milləti homoseksualist qələmə verir Bibliya!" – dedim. Nə desələr yaxşıdı: "Sən get bunları "Bibliya"nı milyon tirajnan çap eliyən qardaşlarımız russkilərə de Moskvada!.." "Soruş ki, Bağ Atanın Oğlu bu qədər murdardısa, "prorok"luğunu niyə qəbul eləyirik biz?!"

Sonrasına bax.

"Müqəddəs Bibliya"ya görə, Sara hadisəsinin üstündə "Boq" "Avram"a düşmən kəsilib: "Avram i Boq vsyu noç borolis. Utrom Avram pobedil Boqa". – "Bibliya"dandı bu, gözün bərələməsin, bala! Bayaq başqa cür oldun mən bunu deyəndə, hiss eləmədin. Oğlunu atadan ayırmaqla kifayətlənməyib "svyataya Religiya", əlbəyaxa döyüşdürüb! Üstəlik, "Avram" "Boq"a qalib gəlib. Bağ Ataya! Bəs "işıq" idi Bağ Ata, Məryəm ananı işığıynan hamilə eləyirdi, burda niyə belə güləşən-vuruşan oldu?! "...pobedil Boqa" sözlərinin ardınca gör nə yazılıb: "... i poşel, obyavil, çto krup svinyi ne syedobno". "Getdi elan elədi ki, do-

nuzun budu yeməli deyil.” Niyə? Çünki “Boqun əli toxunub donuzun buduna!” Oxuyub dəhşətə gəlirsən ki, bu donuz hardan çıxdı?! “Boq”nan döyüşən “Avram”dısa (“Boq”un əli “Avram”ın “buduna toxunubsa”), “Avram”ı niyə svinya adlandırırsan, ay “kitab” yazdıran İlan?!. Belə coşuram, sonra da köksümü ötürüb qalıram! Çünki “Religiya”nın əlinin üstündə əl yoxdu, oğul, necə istəyir, o cür də təhqir eləyir! Mənim coşmağımdan nə çıxar?!

Ən dəhşətlisi isə budu ki, qırx il OdEy (Uca Həqiqət) yayan EvƏrimin OdEyini türkcə “dəyə”yə çeviriblər, “Midiya”dan qovub başqa yerlərdə ev tikməyinə, yurd-yuva salmağına da ixtiyar verməyiblər guya!

Niyə?

Çünki, sadəcə fateh kitabıdı “Bibliya”. Geri sananan tarixin üç mininci illərindən indiyə qədər, beş min il müddətində müharibə ocağına döndərilib ƏsƏrƏl – “İsrail”. Budu bax Fateh məkri, “Quran”da təkrar olunur: “Kafiri müharibələrdə öldür!” Dərk elə indi: Stalin niyə dəridən çıxırmış qırx səkkizinci ildə ki, “Yevrey”lərə məhz orda – İsrayılda dövlətçilik verilsin! Sadəcə, “Yevrey”i müharibəyə çəkmək üçün əlverişlidi ora. Ərəbə qarşı döyüşsün və bütün Ərəb aləmi Yer üzündən silsin EyOd OdƏrini!

Diqqət yetir, indi, gör “Avram”ın düşməni “Boq” “Avram”ın xalqına nə deyir:

“Narod, iduşşiy nedobrım putyom... Narod ne imenovavşiysya imenem moim”.

Necə yəni “mənim adımla adlanmayan xalq?!” EyOd OdƏrlərinin adı EyOd (Uca həqiqət) təhrif dillərdə nə qədər təhrif olunsa da, məlum deyilmi ki, “İsrail”də indi müstəqil olan xalqın adı məhz Bağ adıynan bağlıdı?! “Boq” adından belə hökm verən “Religiyanın” məqsədini anlamaq üçün baş sındırmaq lazım deyil.

Gör nə deyir “Bibliya”:

“On (Boq) obratilsa v nepriyatelya ix, sam voyeval protiv nix”. Niyə? “Boq” niyə düşmən olub “İsrail”lilərə, niyə döyüşüb onlara qarşı? Çünki “oni” (“İsrail”lilər) oskorbili svyatoqo duxa yeqo!” Sadəcə, “İsrail” “xrist”i – Qrek “Boq”unu qəbul eləmədi. Bağı olmazın uydurmalarnan təhqir eləyən İlan öz əməlini “İsrail”lilərin adına yazıb ƏsƏrƏli Bağdan tamam ayırandan sonra, yəni “Xristos”a sahib olub

---

[68] “Məhşər dərəsi”, “Cəhənnəm dərəsi” də deyilir.

Bağ Oğlu Bağ EySarın adını "İis+us" yazandan sonra, birdən-birə gör necə qışqırır:

"Vozstan, svetis, Yerusəlim... nad toboyu vossiyayet Qospod..." Oxuyursan, deyirsən: "Bıy! O nəydi, bu nədi?!" Sonrasına bax: "More boqatstvo, sostoyaniye narodov pereydut k tebe. Kidarskiye ovtsı pereydut k tebe".

Nə oldu birdən-birə?! "Xalqların varidatı niyə Yerusəlimə keçməlidi?! Üstəlik "Kidarskiye ovtsı" – OdƏrlərin qoyun sürüləri niyə Yerusəlimə verilməlidi?!" Bu dərəcədə əcaib hökmün səbəbi nədi?

Bir adı var bunun: vəhşilik!

Vəhşi ehtiraslar qulu, Quldar İlan bütün bəşəriyyəti küt heyvanat görüb niyyətini açıq deyir: Bağlarını səndən, səni Bağlarından ayırdım; birinin edamını sənin boynuna atdım, ikincini öz bacısına evlənən heyvan elədim, üçüncüsünü quzuya döndərdim! Başın üstə KeSarımın qılıncı! "Beytül müqəddəsiyin" edam yerində əsgərlərimin çarmıxı! İndi mərhəmətli ola bilər Quldar: "Vozstan, svetis, Yerusəlim... nad toboyu vossiyayet Qospod". – "Qalx ayağa, parla, Yerusəlim!.." Cənab Boq işıq saçacaq sənin üzərində!" Nəyə görə? Əlinin toxunduğu yer murdar sayıldığına görə?! Düşmən Boq niyə dost oldu birdən-birə?!

Mərhəmətli "Qospodin" açıq deyir sözünü: qoşul mənə, xalqların varidatını talayaq, OdƏrlərin qoyun sürülərinə sahib olaq!

Və oldular, ay oğul! Sürülərimi verib kolxozlara, kolxozları verib rusa! Rus yığır, yığışdırır, Vatikana göndərir! Casus monaxlar ordusunun qarınları şişir dama dönür!

Qoyun əhvalatından təəccüblənmə. Quldara çoxdan məlumdu ki, "qoyun"un – qu yunun yunu, dərisi, əti, südü yalnız Bağday torpaqlarında xeyirlidir. "Müqəddəs kitab"da xüsusi səslənən "Kidarskiye ovtsı pereydut k tebe" sözləri Bağday ərazisinə dikilmiş fateh gözlərindən xəbər verir, oğul.

Fateh yaxşı bilir ki, donuz deyil "Odarskaya zona"nınkı, qu yundu! Qoyun kababının dadı burada!

Özün düşün indi: məqsədinə necə çatıb İlan? Kimlərin əlləriynən soyur Tərik – Türk OdƏrlərini?!

---

[69] Fars variantı "Fərhad"dan azmış "FərOd"un əsli – OdƏrcəsi EvƏrEy Oddur. Qreklərin tələffüzündə EvƏr EyOd – "pro", Bağday – "Metey" EvƏr EyOd Bağday (Bağdayın uca İşıq Evinin Həqiqəti) "Pro Metey" şəklinə düşüb.

Keşiş Vissarion yetirməsi İosif öldü. İosif yetirməsi Mirqəzəb cəzalanır. Əmma bütün planet əsir-yesirdi “Xaç” mərkəzinin pəncəsində. İndi özün daha aydın dərk eləyərsən ki, Stalinin şəxsiyyətinə pərəstiş kompaniyası, Mirqəzəbin məhkəməsi ətrafında hay-küylər də SSRİ-nin guya dəyişdiyini nümayiş etdirmək, gözdən pərdə asmaq üçündü. “Stalin repressiyasının qurbanları” adında uzun bir siyahı var Məhərrəmdə; güllələnən, islah düşərgələrində öldürülən “milli kadrlar”a ölümündən sonra “reabilitasiya” verəcəklər. Şair-dramaturq Hüseyn Cavidə, şair Mikayıl Müşfiqə, şair Əhməd Cavada “bəraət verməknən”, əsərlərini xalqa qaytarmaqnan, şübhəsiz, nə isə verirlər bu xalqa. Adları heç kəsə məlum olmayan “muğ”ları – Bağları, “pantürkist”, “panislamist” damğalı alimləri niyə qaytarmırlar xalqa?! Qaytarsaydılar, tək bu xalqı yox, bütün planeti maarifləndirərdilər, o da ki, İlanın nəfəsini kəsərdi!

İlan, OdƏl OdƏs ikən “katalikos”lara dönənləriynən, BağOdƏr ƏrAğ ikən “Patriarx”lara dönənləriynən birlikdə, işini görüb qurtarıb, oğul. Ulu Bağ yoxdu! EySar Ün Ev yoxdu! EvƏrim yoxdu!

İşıq gəmilərində gəlib-getsələr də yoxdular!

Məzhəkəyə bax: körpə uşaq vaxtı oturduğu yeri isladıb “Avram” – “İbrahim” peyğəmbər, uşağın islatdığı yerdən su fəvvarə vurub – “ab zəm-zəm”! O “müqəddəs zəm-zəm suyunun üstündə “Məkkə” tikiblər, bütün şərq axışır, qızıllayır “İbrahimin” islatdığı yeri! Cəhalət?! Xeyr! EvƏrimin ƏsAğ adından azmış “oğlu” “İsak”dan törəyənlərnən EyAğ adından azmış oğlu “Yak”ov”dan törəyənlərnən qucaqlaşırlar orda. “İsak”ın başında çalma, döşündə “Quran”, “Yakovun” döşündə “xaç”, başında “Bibliya” kəlamı: “Avramın ekiz oğlu oldu. Anasının qarnında qardaşının ayağından çəkdiyinə görə kiçik qardaşın adını Ayaq qoydular” – Budu bax Din! Monaxlar bəşəriyyətimizi o qədər küt, axmaq sayıblar ki, türkcə “Ayaq” məzhəkəsini başqalaşdırmağı da lazım bilməyiblər!

İnanmırsan?! Belədi İlan kəlamı “Bibliya”. “Yəhudi” və eyni zamanda “müsəlman” “İsak”nan “Yəhudi” və eyni zamanda xristian “Yakov” bir atanın iki oğludu; “Ayaq”ın nəyinə gərəkdi EyAğlığı?! “İsak”ın nəyinə gərəkdi ƏsAğlığı?!. Qılınca sarılıb öz milləti Türkü qırsın, İlan da qızıl yığsın, başında EvƏrEy fəsi, əynində EvƏrEy xirqəsi “kəpənək” EvƏrEy qanı içə-içə “qlavnıy Yevrey” adlansın!..

---

[70] Kiçik şüşə

“Bağbil” “Bibl” adıynan yayılanda anlaşılmaz söz və ifadələrin sayı-hesabı yoxuymuş; Yetmiş nəfər “müdrik” “pop” təyin olunub ki, söz və ifadələr ətrafında “tolkovaniye” aparıb məna çıxarsınlar. “Semdesyat tolkovateley”[67] adlandırırlar EyAğı “Ayağ”ı, ƏsAğı “İsak”a döndərən “müdrikləri”!

İki yüz illik müharibə dövründə Skandinaviyaya, “Ukrayna”ya, “Rusiya”ya, “Bolqariya”ya minlərnən yox, yüz minlərnən elə “pop” hazırlayıb göndəribmişlər Vizantiyadan. Heyrətlənmə! Tarixi faktdı! Doqquzuncu, onuncu əsrlərdə Skandinaviyada “Slavyan” dili öyrənib, Ər Üz ikən “Rus” adlananlar məhz “Bibliya”ya görə belə yad, yağı olublar bizə! Əmilərin yazmışdılar ki, səkkiz yüz ikinci ildə OdEvdə – “Kiyev”də bağlanmış təslim müqaviləsi əsasında ƏlAğ OdÜnƏs OdEv “Oleq Knyaz Kiev”skiy adlandırılıb. “Knyaz”ın təxt-tacını özünə qaytarıb, dilindən iltizam alıblar ki, ölkəsində “slavyan” dilində “xristian”lığın tədrisinə şəxsən özü, vəliəhdi və bütün əyanları kömək eləyəcəklər. Aradan min yüz əlli il keçib. Get-gör, “Ben der” adlandırılan MənOdƏrlərdən başqa bilən varmı ki, əsilləri Tərik – Türkdü!

Dərk eləyirsənmi nədi “Bibliya”?!

Get gəz o guya qapıları bağlı kilsələri, kilsəətrafı monastrları, xutorları, gör qrek Stalin nə qədər “pop”, “monax”, “svyatoy otes” saxlayıb xəlvətdə, hamısı da Qrek, Latın! Bəli, əzizim. “Vo imya Otsa, Sına i Svyatoqo duxa” oxuyan o qara keşişlərin arasında bir nəfər də “Rus” tapmazsan. Latındı, Qrekdi hamısı! Casusdu! Bəli!

“Pravoslav” kilsəsi Qrek əsgərinə sitayiş edir Rusiyada! Ukraynada! Polşada! Bütün Balkan ölkələrində! Kommunist partiyalarının rəhbərliyində olan “Yevrey”lərin hamısı yüz faiz inanır ki, Vatikanda, başda “Papa” olmaqnan, hamısı “Yevrey”di. “Papa” isə “qlavnıy Yevrey”di! Və planetin bütün “Yevrey”ləri “Papa”nın gizlin hakimiyyətinə əsirdirlər! Min illərnən bəşəriyyəti soyan Quldar İlan, “otun arasından başını qaldırıb deyir: “Yeş, vkusno!” İnsan pozulub Rusiyada, Avropada! Əxlaqlı insan tək-tək taparsan, onlar da pozulurlar. İşdən çıxar-çıxmaz, ər, cibində arağı, bir yana gedir, arvadı o biri yana! Mən demirəm bunu, Moskva özü deyir! OdAğÜz BağOdƏr planeti necə üz döndərməsin belə vəhşidən?! EySar ÜnEvin çarmıxa çəkilməsini, sonra da ƏlAğ EySarın çarmıxa çəkilməsini “İudey”in adına yazan Quldarın “Bibliya”sı gör necə fateh hiylələrindən ibarətdi, oğul!

“Bibliya”ynan “Quran”dakı dəhşətlər bir çox hallarda səsləşir.

“Quran”da OdÜn – “kain”ə – “Kainat”a çevrilib, EvƏl “Habil” adında “insan”a, OdEvƏl “Qabil” adında insana çevrilib.

“Bibliya”da OdÜn “Kain” adında insana, EvƏl “Avel” adında insana çevrilib. “Kain ubil Avelya”. Ölüm guya insanın dəyişməsindən yox, “Kain”in “Avel”i öldürməyiynən başlanıb! Burda da hırıltı var: “OdÜn EvƏli öldürdü!”

“Bibliya”da EyEv “Yeva”ya, “Quran”da “Həvva”ya çevrilib. Yenə deyirəm, OdMən EyEv “Adam i Yeva”ya – “Adəm və Həvva”ya dönüb. EyEv ƏlAğ – “yablok”aya, BağOd – “buğda”ya çevrilib. Bağdayın Olamdan sonrakı ilk GurOdu – “Yurdu” (vilayəti) ƏrEy – “Ray”a, ƏrEyin OdÜnü “cənn”ə, “Cənnət”ə döndərilib. Od – “ad”a (Cəhənnəmə), OdÜn həm də “cəhənn”ə, “Cəhənnəm”ə döndərilib!

“Mif”in əsli – ÖdƏrcəsi BağEvdi. İndi gör, təhrif dil, təhrif şüur BağEv ƏlAğı necə “mifologiyaya” çevirib. ƏlAğ – “Allah” hara, guya elm mənasında olan “loq”, “logiya” hara?!

“Mif” qəhrəmanları ölümdən sonra “əbədi kölgəyə” dönüb “yerin altında yaşayırlar”. Nədi bu?! Hardan yaranıb?! Necə deyərlər, qulaqlarını aç, yaxşı-yaxşı eşit: Cahil insan SafAğ İşıqdan, ikinci doğuluşdan məhrum olub torpağa qarışır. EySarın dilindən deyilən “ne ubiy” – ÜnEvEydəndi. Bağ qatilləri OdƏrlərin də qisas hissinə qapıldıqlarını görüb qorxu altında, özlərini müdafiə niyyətiynən “ne ubiy” yazıblar. Əmma bu ifadənin təsir gücü də var; sadəlövh dindar “xristian” çəkinir qan tökməkdən. Beləlləri nə qədər günah işləmiş olsalar da, ikinci dəfə doğulurlar. “Din”indən, dilindən asılı olmayaraq, az-çox işıqlı adamların “Ruh”u – ƏrAğı uçur, əmma birbaş OdAğÜzə yox, “mifologiya”dakı həmən “yer altına” gedir.

Yəni haraya?

“Vərəsə”mizdə bu barədə geniş yazılmışdı. Mifologiyadakı “Yer altı” həqiqətdə “Ay” adlandırdığımız “Ağ” planetinin içidi, idrak acı balam.

Heyrətlənmə!

İndi izah eliyəcəm, biləcəksən ki, “Ay”- Ağ planetinin quruluşu “Yer” – EyƏrin quruluşunun əksinədi.

Biz “kürrə”nin, “şar”ın, eşiyində yaşayırıq, OdÜnEyƏsin – “Günəş”in “doğduğunu”, “batdığını” eşikdən görürük. “Öl”əndən, ikinci doğuluşdan sonra “Ay”ın – Ağın içinə gedənlər isə, “Günəş”in “doğduğunu”, “batdığını” planetin içindən görürlər. “Vərəsə”mizi oxuyanlardan, bir də şagirdlərimizdən başqa hələ heç kəsin xəbəri yoxdu ki, “Yer” “alim”lərinin “ay ləkəsi”, “okean” adlandırdıqları sahə boşluqdu.

"Günəş" o "boşluğun" bu başında "doğur", o başında "batır". "Yer"in atmosferi, səthi – relyefi, dağı, düzü, meşəsi, çayı, gölü, dənizi necədisə, "Ay" – Ağın daxili də elədi. Biz, "Yer" sakinləri planetimizin yuvarlaqlığını hiss eləmədiyimiz kimi, "Ay"- Ağın daxilinə gedənlər də nə planetin eşiyindəki yuvarlaqlığı hiss eləyirlər, nə də içəridəki tərs yuvarlaqlığı. Həyatımızın oxşar cəhəti bundadır ki, biz gözümüzü açanda özümüzü ailə, dost-tanış mühitində gördüyümüz kimi, "Ay"ın içinə gedənlər də gözlərini açanda, yəni şüura gələndə özlərindən bir qədər əvvəl "ölüb axirətə gedənlərin" mühitində, çox vaxt ailə, qohum-əqrəba, dost-tanış arasında görürlər, başlarına gələn hadisələr, "ölüm", "doğuluş", "Axirət" – AğƏr, "Kain"at – OdÜn, OdƏr bəşəriyyəti, Bağlar, Sarlar haqqında ilkin məlumatdan və çox az müddətli xoşbəxtlikdən sonra olduqca işgəncəli dərs dövrü başlanır. İkinci dəfə doğulan insan, necə deyərlər, yarandığına peşman olur. Çünki günün müəyyən saatlarında beyni tutulur. EySarın adından deyilən OdÜn – həqiqət Ünündən başqa heç nə eşitmir, Ər – İşıq içində göstərilənlərdən başqa heç nə görmür; "Yer" – də, necə deyəllər, nə qələt qarışdırıbsa, nə oyunlardan çıxıbsa, hamısını bütün çılpaqlığı, bütün murdarlığıynan görüb, iyrəncliyini dərk eləyir. Günlərnən, aylarnan, bəzən, hətta illərnən əzab-işgəncədən qıvrılan, özünə ölüm diləyən adamlar olur orda – "Ay"da. Ağa – SafAğ insana dönəndən sonra isə Saflığın, Ucalığın, əsil mənada gözəlliyin gur hissiyatıynan, biliyinin hüdudsuzluğuynan, əbədi həyata qovuşmağıynan xoşbəxt olur. Həmin bu vaxt – SafAğ dövrü başlananda ətrafındakı əzizlərinə yenidən qovuşur, yəni hər birinin Saflığını, Ucalığını, Əbədiliyini dərk eləyir və günlərin birində İşıq gəmisinə doluşub OdAğÜzə, əcdadlarının planetinə gedirlər. Budu "cəhənn"ə, "cənn"ə döndərilən OdÜn – Həqiqət Ünü dünyası – "o dünya!", AğƏr – SafAğ İşıq – "Axir" – "Axirət". Bəşəriyyətimiz o qədər murdarlanıb ki, hətta qatillikdən çox uzaq olan adamların əksəriyyəti də, öz murdarlığıynan öz mənəviyyatını – özünü öldürdüyünə görə SafAğ İşıqdan məhrum olur.

"Ay"a – Ağa gedənlərin sayı çox azdı. Ün eşidə-eşidə dərsini "Yer"də alıb, saflaşıb, kamilləşib bir baş OdAğÜzə gedənlərimiz isə o qədər azdı ki, barmaqnan saymaq olar.

Bədbəxtliyimizin çoxu EyƏr ƏsƏlim adı dilə gətirilməyən "Yerusəlim"nən bağlıdı. "Qüds"ə, bilirsən, "Beytül-müqəddəs" də deyirlər. "Pravoslav" kilsələrində, "Vatikan"ın özündə olduğu kimi, "Yerusəlim"dəki BağOd – "Beyt"də də, bütün ƏsƏrƏl – "İsrail"dəki ƏsÜnAğ –

SinAğ – “sinaqoq”larda da özlərini “Yəhud”i – “İudey” qələmə verən qədim “qara Muğ”lar dindar Qreklər “Yer altında həyat” mifini hələ də saxlayırlar.

“Beytül-müqəddəs”in yanında “Ölüm dərəsi”[68] adlanan bir yer var. Keçmişdə “Beyt”ə ziyarətə gedən xəstələr həmin “Ölüm dərəsi”ndə açıq havada yurd salıb qalırmışlar ki, öləndə “yerin altına” getsinlər və “ölülər diriləndə” müqəddəs “Qüds”ün yanında dirilsinlər. İnan ki, indinin özündə də inanırlar bu dəhşətli mifə!

Qırx səkkizinci – əlli birinci illərin hadisələrindən sonra yaman üzülmüşdüm. Məhərrəm on iki günlük putyovka düzəltdi “MK”-nın Moskva civarında sanatoriyasına. Getdim, üççə gün qaldım, qaçdım. Təsəvvür eliyəmməzsən ki, həmin “Ölüm dərəsi” barədə həqiqəti dilimə gətirdiyimə görə bir “Yevrey” öldürmək istəyirdi məni. “MK”-nın işçisi ey! Cibində KPSS bileti, “marksist”, “materialist”, “atvetrabotnik MK!” Dedi: “Zapomni moyu familiyu: Kiknadze! Koqda nibud Kiknadze nakajet tebya!” Bayaq o sürməli prokuror “sui-qəsd” deyəndə o dəqiqə Kiknadzenin sifəti gəldi durdu qabağımda: qarayanız, qartalburun “Gürcü”. Hardan biləydim ki, “Gürcü”nün içərisi “Ölüm dərəsi”ni Qüdsün bir parçası sayan dəhşətli fanatik “İudey”di, elə ordan – sanatoriyadan birbaş Mirqəzəbə zəng vuracaq, süfrə üstə o beş-on kəlməlik söhbətimə görə mənim taleyimdə həlledici rol oynayacaq! Sanatoriyadan qayıdan kimi Persin qəbuluna çağırıldım. Səhər saat ondan axşam səkkizə qədər ac-susuz gözlədi məni qəbul otağında. Geyincəkli, silahlı, “oxranalı” – filanlı, çıxıb gedəndə də üzümə baxmadı. Bircə kəlmə “Kiknadze!” – dedi. Burdadı indi Kiknadze. Məhkəmə zalında. Qienaynan yanaşı oturur. Tənəffüsə çıxanda, tənəffüsdən qayıdanda hökmən mənim yanımdan keçir, tavana baxa-baxa qımışır: “Sudba Prometeya naçertana na tvoyom lbu! Sudba Prometeya!”

Bayaq burda sən çox fikirləşirdin, eşitmədin, Müslüm dedi: “sui-qəsd təklifi Kiknadzedən çıxıb”. Məhərrəm məni nə qədər qorusa da, şübhəsiz, bu dəfə öldürtdürəcək məni o Qiyenaynan yanaşı oturan fanatik. Mənim ölümüm səni – SafAğ yolunda olan balamı sarsıtmamalıdı! O Kiknadzeyə, Qiyenaya-filana da kin bəsləmə! Eşidirsən?! Kin öldürür SafAğı. Əbədiyyətini alır!.. Necə deyərlər, Allah özü versin bəlasını. Rusca “otpuşşennıye” deyirlər elə kin mücəssəmələrinə. Yəni özbaşına buraxılıb, öz daxiliynən məhvə aparacaq özünü. Əmma Midi Qiyenalarnan yanaşı gedən belə “rabotniklər” in bizə vurduqları zərbələri heç kəs vurmur, oğul. “Sudba Prometeya” deyir. Yəni işgəncəyə məhkum

olunmusan... Bu səhər zalda yenə bu ifadəni eşidəndə fikirləşdim ki, "Prometey taleyi" barədə xüsusi danışmalıyam sənə. Çünki bir nəfərin taleyi deyil bu işgəncəyə məhkumluq, bütün "Yer" Bağlarının, xalqımızın, daha doğrusu, bütün BağOdEyin – Bağdayın taleyidi.

"Mif"lərin hamısı ifşa olunmalıdı. Hamısı! Əmma "Prometey" barədə ayrıca, xüsusi danışılmalıdı.

* * *

Qrek deyir: "Prometey" Olimp dağından "Allah"ların odunu oğurlayıb insanlara verdiyinə görə Zefsin qəzəbinə keçib, Qafqaz dağlarında zəncirlənib, əbədi işgəncəyə məhkum olunub. Qartal illər uzunu, həmişə Prometeyin köksünü deşir, əmma Prometey ölmür, çünki ölümsüz Zefsin Yer qızı Medeyadan olan ölümsüz oğludu.

"Mif"ə bax, oğul:

"Bağ"ların "od"u əslindən – Oddan – həqiqətdən uzaq, adi ocaq odu imiş! Olam – "Olimp" imiş, özü də qeyri-müəyyən məkanda – göydə! Olamın – "Olimp"in sahibi Ulu Bağ ƏsƏlMən isə yerli-dibli yoxmuş, variantdan-varianta keçən təhrif "söz" – Zefs varmış! Nəinki Bağday, təhrif söz "Midiya" da yoxmuş! Yer qızı "Medeya" varmış! Bağdayı "əbədi zəncirləyən" mühasirəyə salan, OdƏri – "Kərəm"i "köynək"də saxlayan fatehlərin planet miqyaslı hakimiyyəti içində Elm yayan saysız-hesabsız SafAğ Alimləri FərOd[69] Bağdaylar da yoxmuş, tək-tənha "Pro Metey" varmış!

Bu bədbəxtliyimiz barədə danışanda "Yevangeliye" – "Şad xəbər" düşür yadıma: "Quzu gəlir, başının üzərində saysız-hesabsız təhrif adları!" "Bibliya", "pop"ların "tolkovaniye"si: EyAğ – "Ayaq", ƏsAğ – "İsak", OdEy – "dəyə", ƏsEvÜn – "sivnya", BağOd – "bud!.." Həqiqəti öldürən təhrif dil, təhrif şüur əməli fatehin "zənciri"ynən çox sıx bağlıdı, oğul. ƏrEy – "Rey" vilayətindən başlamış, ƏrMən – Ərim – "Rum" (Türkiyə) ərazisinə, indiki "Borçalı" da daxil olmaqnan GurUc – "Gürcü" torpaqlarının ucqarlarına qədər, ƏrƏs – "Risa" gölü səmtindəki silsilə dağ ətəklərində Qrek əhalisi elə zəncir kimi düzülüb ki, gəzsən, diqqət yetirsən, "mif" müəllifi Quldarın məharətinə heyran olarsan!

---

[71] "Türmən" indiki Ağstafa (qədim AğÜz OdEv) rayonunun ərazisində Ceyrançöl adlanan örüş yerlərinin, Muğanlı kəndinin yaxınlığındadır.

[72] Türməndən qərbi Sibirə qədər ərazi.

[73] *ƏrSar* – "Rıtsar".

Bədbəxtlik burasındadı ki, əsrlər keçdikcə, zəncirin həlqələri içərilərimizə yeriyir. EvƏr Ey Od Bağdaya "Fərhad" deyən "Fars"nan Qrek dilində "Pro Metey" deyən "Rus" da zəncirliyən olub. EvƏrEy – "Yevrey"im özünü "Russkiy" adlandırıb "Pro Metey" Abıların özlərindən başqa şagirdlərini də "zəncirləyir!" Bədbəxt "Otar Kiknadze" necə dərk eləsin ki, "Pro Metey" Sultanı yox, özünü, xalqını, Vətənini zəncirləyir!

Ruhdan düşmə, bircə balam! Daxilini qaynatma! Eşit, düşün, dərk elə ki, düşmən yoxdu, dilsiz-şüursuz cahil var. Planetin indiki mühitində cahil insan o qədər güclü görünür ki, cəmisi əlli ildən sonra bu cəhalət dövranının qurtaracağına, Elmimizin bütün "Yer" miqyasında yayılacağına heç kəs inanmır! Həqiqətə qayıdış olacaq. Sən görməlisən o zamanı, daxilən yüngülləşməlisən. Necə deyərlər, inşallah, Ün eşidəndə, dərsini birbaş OdAğÜzdən alanda belə gərgin olmuyacaqsan.

Saşanı öldürdülər, yerində ondan da cavan, ondan da Saf Pünhanımız var. Mənzil kirələmişik şəhərdə, oturub yazır. Hələlik KPSS-in ifşasıynan məşğuldu. OdAğÜzdən mənə deyilib: "Səmədin köməkçisi olacaq o Pünhan..."

Vanna otağının dal divarındakı xırda pəncərələrdən Bakının xilaskarı Xəzrinin sərin nəfəsi vurmağa başlamışdı. Sultan paltarını götürüb pərdə dalında geyindi, qayıdıb "tyubik"də oturdu, "julik"in[70] dibindəki arağı iki qədəhə tökdü.

– İçək o uzaq görünən yaxın zamanda yenidən görüşəcəyimiz günün şərəfinə! "Araq" deyil bu, ƏrAğdı. SafAğ İşıq. Gülmə. Həqiqisi, safı olsa, bir çox "Yer" xəstəliklərinin dərmənidi... Meyvələr, çiçəklər, otlar, bütün "təbiət" – OdEvdi, Həqiqət Evidi – EyEsÜndü, qışqırır, haray çəkir ki, OdEvdə OdƏrMənəm – Həqiqət İşığıyam, türkcə "dər məni" deyirəm, ey ÜnƏsdən uzaq "insan", sən isə elə "dərman" deyirsən, heç düşünmək də istəmirsən ki, OdƏrə niyə "dər" deyirsən, mənə niyə "man" deyirsən! Saatlarnan bax bu cür Ün gələcək beyninə, formaca eyni, məzmunca müxtəlif sözlər deyildikcə, beynində kino-kadr kimi dəyişən görüntülər görəcəksən, çətinlik çəkmədən dərk eləyəcəksən ki, Ün sahibinin dediyi "OdƏrMən" insana aiddi, yoxsa "dərmənə" və ya başqa bir şeyə... Beynin yorulanda, demək olar ki, heç eşidilməyən pıçıltıya keçib, ancaq görüntülərnən danışırlar. Burdan belə nəticə çıxır ki, ən səs-küylü yerlərdə təhrif insanlar bir-biriynən qışqıra-qışqıra danışdıqları halda da sən Ün eşidə bilərsən. İclasda-filanda da OdAğÜznən

danışarsan, ətrafında heç kəs xəbər tutmaz. Bax bu möcüzəli xüsusiyyətə görə "təfəkkür dili" deyirik OdƏr dilinə.

Dilə şüurlu münasibət olmuyan yerdə insan yoxdu. Xalqının mənşəyindən, OdƏr bəşəriyyətindən, ikinci doğuluşdan, əbədi həyatdan xəbərsiz olan "ən savadlı" adamlar, Akademiklər də deyirlər: "Bu xalqın öz dili var! OdƏrə-filana ehtiyacımız yoxdu!" Bir dostumuz var Akademiyada Məmməd Cəfər. Deyirəm: "Tarixi öyrənsinlər, danmasınlar! Biz məgər yeni dilmi vermək fikrindəyik?! OdƏr dili – beynimizin tarixidi. BağÜnünün! Kainatnan əlaqə vasitəsidi!"

İlana inam nəticəsində BağÜnlə verilən OdƏr adları əvəzində İsgəndər Zülqərneynin parçaladığı torpaqlarımızın hər parçası bir Qrek "söz"üynən adlandırılıb, nəhayət, "akademik" Midi Qiyenanın "kitab"ındakı "Atropatan" "söz"ü dilə-ağıza düşüb. Gör dilə şüursuz münasibət nə dərəcədədi ki, o tay, bu tayın ziyalıları sayılan tarix, ədəbiyyat, dil, etnoqrafiya, coğrafiya alimləri arasında bir nəfər də etiraz eləmir bu yad-yabançı "Atropatan"a! Açıq-aydın "OdƏr batan"a sonrakı "Adr bicana!" Lap adi, sadə məntiqnən soruşa bilərsən ki, Qrek mənim OdƏrimə, "Atri", "Atro" deyirsə, niyə mən də "Atro" deməliyəm?! Qrek mənim BağOduma "pat" deyib, niyə mən də "pat" deməliyəm?! İlan "alim"inin "fantaziya"sına bax: "Atropatan"dan "Adrbidan" – "Adr bican" – "Azərbaycan"! Yenə deyirəm bunu, yəni nə yurdun-yuvan olub sənin, nə də dilin! Yəni "qədim dünya" deyəndə də "Qrek"i, Latını düşün, "qədim dil", "qədim mədəniyyət" deyəndə də! Ən yaxşı halda, "ŞumƏr", "Sak", "Skif" ola bilərsən sən. Rusiyanın indiki "qara torpaq" zonasında mədəniyyət abidələri tapılan "Skif"lər!

Nədi bu "skif?!"

Hamı ciddi qəbul eləyir bu "söz"ü. Bəziləri deyirlər: "Əskifər" sözündəndi, Qrek dilində "Skif"ə çevrilib". Yalnız İlanın İblis xarakterinə bələd olan bədbəxt "Pro Metey" – EvƏrEyOd Bağday Abılar, Sultanlar açıb danışırlar ki, "Skif"in – "Əskifər"in əsli ƏskiEvƏrEy nə qədər təhqir olunsa da, öz ucalığını qoruyub saxlayır. Bağ nəslini "Skif", "buğa" adlandırmaqnan cahil öz murdar beyninin iyrəncliyini göstərir, oğul!

---

[74] Hər bir Elm mərkəzi sayılan şəhərdə bir EvƏs və ya ƏsEvÜn (Yaradan Ün Evi) və ya BağƏsEv olmalıydı, yalnız çox dar ayaqda – kritik zamanlarda BağBağÜnlər öz mühafizə orduları ilə birgə ƏsEvÜnü tərk eləyib, ƏrEyə yığışarmışlar ki, həmin vaxtlarda hökmən ƏrEy SarEyandə olan Ulu Bağ ƏsƏlMənnən birgə hərəkət eləsinlər. Belə bir hadisə ikiyüzillik müharibədən sonra BağBağÜnün – "Babək"in zamanında olub.

İndi keçirəm başqa şeylərə – daha ciddi təhriflərə. O təhriflər ki, vətənimizi Yer üzündən köklü-köməcli silir. Diqqətli ol.

* * *

Sultan şüşəni şüşəyə çaqqıldatdı, Müslümü astadan lap yaxına çağırıb soruşdu:

– Sui-qəsdin vaxtını öyrənə bilərsənmi?

Müslümün baxışı divara sancıldı.

– Məhərrəm Abbasoviç oxrananı məhz bu gecə evin tinlərinə düzübsə, demək, bu gecəyə təyin olunub. Baş tutmuyacaq. Arxayın olun!

– Afərin! Get işini gör!

Səməd ayaq üstə idi. Gərgin dayanmışdı.

– Əmi! Belə gecə!.. Olmazmı başqa vaxta saxlayasan söhbətini?

Sultan elə bil heç nə eşitmədi.

– Olamdan sonra ilk GurOd – "Yurd" (vilayət) bilirsən ki, ƏrEydi.

ƏrEynən birlikdə beş GurOd – "Yurd"u olub Bağdayın.

Təfsilatnan deyəcəm hansılardı beş GurOd.

Fantastikadan da fantastik murdarçılıqlar eşidəcəksən indi.

Beş GurOdu "beş qurd"a, beş canavara çevirib İlan "alim"i, Vətəndən, Elmdən, Bağlarından tərik düşənlərimə deyir: "Beş qurddan yaranmısan sən", beş qancıqdan doğulmusan, buna görə də bayrağında qurd başı var. Bağ nədi, OdƏr nədi! Farsın qədim dilini öyrən, OdƏr dili yox, "Dəri" dili olub sənin dilin! Beş GurOdun təxminən birində "kird"ləşmişik – "kürd"ləşmişik; GurOd ordu hissələrimiz "Pəhləvi"lərin arasında qalıb, dili dəyişib! GurOdMən qalalarımıza "Girdman" demiblər. Min dəfə yaz, ərazidə gəz, haray təp ki, "Kəlbəcər" – "Gəlibbəsər" deyilsən, "qurd" deyilsən, "Skif" deyilsən sən, kimdi inanan?! Elmdən, dildən – şüurdan məhrumu necə inandırasan ki, uzun ağac ucunda aşılanmış qoyun dərisinə həkk olunmuş it başı bayraq deyil, Qrek-Latın legionlarıynan əsrlər uzunu döyüşlərdə qırılıb azalan ƏskiƏr ("əskər") GurOdlarımız Qrek-Latın-Fars qoşunlarından qorunmaq üçün qoyun sürülərinin, naxırların yaxında it xılları – köpək sürüləri saxlayırmışlar. Volqa boyuna, "qara torpağ"a qaçan təriklərimiz fürsət tapıb Bağdaya qayıdanda ƏskiƏr OdƏrlərini haman it başlı işarələrnən tapırmışlar. "Türk bayrağı" deyilən şey yoxdu, oğul. Tünd mavi, zümrüdü rəngdə, üstü ulduzlarnan – kəhkəşannan bəzəkli AğEy ("Əxi") – Uca

SafAğ İnsan bayrağı, BağOdEy – Bağday bayrağı var ki, o da saraylardan yığışdırılıb gizlədilib, əvəzində Xilafətin bayrağı asılıb.

İndi "Dədə Qorqud" adlanan bədbəxtliyimizi yada sal: "iynəyə tikən demədi o Dədə Qorqud. Tikənə sökən demədi o Dədə Qorqud". Saysız-hesabsız "tədqiqat işləri" yazırlar türkoloqlarımız, "Kitabi Dədə Qorqud"u İslama qədərki möhtəşəm tarixi abidə adlandırırlar! Bilən varsa, o da dillənmir ki, həmin ikiyüzillik müharibənin əvvəlində, BağHəmOd nəsli qırılandan sonrakı Vatikan məkridi "Korkud" (yəni "Qorxut"), Od – Həqiqət əvəzində oğul "əti" yedirt.

Varisimizin Vətənə ən böyük xidməti bu olmalıdı ki, "Kitabi Dədə Korkut" qəbilindən "kitab"ların xalqı məhz tarixi kökdən, OdƏr bəşəriyyətindən, Bağlardan həmişəlik ayırmaq üçün xüsusi hazırlanmış fateh İlan "kitab"ları olduğunu açıq yazsın, açıq danışsın. Yəni əbədi Bağlar nəslindən əbədi insanlığını dərk eləyib ölümdən qorxmamalısan, oğul. GurOdlarda AğÜz (SafAğ mənası) Bağları əvəzinə "yurd"larda "Oğuz bəyləri", "Oğuz buğaları", yazanların arxasında İlan qıvrılıb, oğul, "Oğuz" əvəzinə AğÜz yazanı dərhal çalsa da, qorxmamalısan!

Vatikan monaxları "Dədə Qorqud"un lap ilk kəlmələrindən qorxudurlar: "Dədə"miz ölkənin hansı səmtinə gedir qəbirqazana rast gəlir. Bu qazannan "Salur Qazan" adını yanaşı qoy. "Salur" dialektdi, "salır" deməkdi. Qəbri qazanımız, milləti qəbrə salanımız elmsiz Qazan xandı! İlan "alimlər"i bunu da görməzliyə vururlar!.. "Zəncir"i – mühasirəni qırmaq ümidiynən əsrlər boyu "Qapı açaq, Qapı açaq!" – deyən "Qıpçaq"ları "Oğuz bəyləri"nə düşmən qələmə verən "kitab" ifşa olunmayınca, Odu əvəzində "at"ı, BağBağÜnü əvəzində "papağı"ynan öyünən "kişi qeyrəti" verib patriarxal bataqlığa sürüyəcəklər bədbəxt xalqımızı!

Daxilimizdədi bu bataqlığa sürüyənlər İnstitutlarda, mədəniyyət ocaqlarındadılar!

Vətənin həqiqətlərini danan adam vətəndaş olammaz, oğul!

Dilçilərin iddiasına görə "vətən ərəb sözüdü". Bu düzdü. Əmma həm də yalandı. Çünki "Vətən"in əsli EvOdÜndü. "Ərəb"ə dönənim

---

[75] "Xəmsə"də qadın Sar adları SafAğ bilicilərinin ikinci adları – Odları – rütbələridir: "Nuşab" – (içməli saf su) su – Elm rəmzi; "Şirin" ("Fərhad"ın "Bisütundan – Bağstandan (Bağdaydan) çəkdiyi "şirin" – içməli su – Elm rəmzi.

[76] "Bağıstan" kəlməsi həmin bu – "latın əlifbası" adlandırdığımız əlifba ilə qayada həkk olunub. "Kir"in ("ki" – OdƏr) zamanında yazıldığına görə, aydındır ki, əlifba Bağdayındır. Bağdayın süqutundan sonra yazının üstündən Fars əlifbası ilə yenidən yazılıb və Sar OdƏrin adı dəyişdirilib.

təhrif eləyib, qılıncının ucunda qaytarıb verib sənə. “Qorod”a, “Qord”a, “qurd”a döndərilən GurOdu isə həm “Rus”a dönənim təhrif eləyib, həm “Ərəb” – “Fars”, həm də sən özün: “yurd” demisən.

İndi beş “yurd”unu (vilayətini) – GurOdunu tanı.

**Birinci GurOd, dedim, ƏrEydi** təkrar eləyirəm, “Ray”a (cənnətə), əfsanəyə döndərilib, “Bibliya”nın səhifələrində qalıb. “Ariy”ə döndərilib, “Hind”ə, “Fars”a, “Erməni”yə məxsus “ali irq” məfhumu olub. Nəhayət, “Rey” adlandırılıb verilib İlan müttəfiqi “Fars”a!

**İkinci GurOdun adı ƏrÜzdü.** Məna işığı deməkdi. Mərkəzi “Təbriz”i “Təbriz” eləyib xəstə bir xatunun tərləyib sağalması barədə əfsanəynən bağlayıblar ki, əsli – OdEv ƏrÜz unudulsun. Ağ Əmirnən Boz Əmir xüsusi yazmışdılar ƏrÜz OdƏrlərinin OdEvi barədə. ƏrÜz – “Ar az” çayının o tay-bu tayı ƏrÜz GurOduna aiddi. Geri sananan əllimin-illik tarix boyunca “Assuriya”lıların, “Qrek”lərin basqınları dövrlərində, yeni tarixnən əsasən ikiyüzillik müharibə dövründə tərik düşən, səkkiz yüz ikinci il “Vizantiya” – “Kiyev” müqaviləsindən sonra “Rus”a, “Bender”ə dönənlər, təkrar eləyirəm, ƏrÜz GurOdundan gedənlərdi.

**Üçüncü GurOdun adı AğÜzdü.** SafAğ İnsan Üzü – mənası deməkdi. Təhriflərin “Oğuz” adlandırdıqları, OdAğÜz Bağlarıynan ünsiyyət əvəzinə “buğa”larnan “güləşdirilən” “bəy”lərin bu yurdunun mərkəzi “Bərdə” adlandırılan BirOddu. Nizami “Xəmsə”sinin başına oyun açan “fars katiblərinin sözüdü bu “Bərdə”. Üstəlik, Nizaminin adıynan yazırlar ki, əvvəllər ayrı cür olub “Bərdə”nin adı. Xalqı çaşdırmaq, kökdən ayırmaq üçündü hamısı! “Ağdam”ın tarixini tamam pozub atıblar. Ağ OdMən adında möhtəşəm şəhər olub BirOdnan bir yerdə. Dəfələrnən dağıdıblar. Dəfələrnən! İlanın uzun sürən fitnə-fəsadları nəticəsində “Ermənistan” sayılan ƏrMən, “Rum” sayılan Ərim torpaqları, OdƏr – “Kür” çayından cənuba, şimala doğru uzanan düzənli, bağlı ərazi bu GurOda daxildi.

**Dördüncü GurOdun adı ÜzAğdı.** Bu da SafAğ İnsanın Üzü – mənası deməkdi. Gah soldan sağa, gah sağdan sola, gah da ortadan sağa, sola oxunan sirli “söz”lər – ƏsÜzlər – Yaradan mənalar Dilinin sirlərini biləndə “AğÜz”nən “ÜzAğ”ın fərqini də biləcəksən. Hələlik bunu bil ki, “Yer”də biz OdƏr sözlərini oxuyanda, yazanda, tələffüz eləyəndə

[77] Bağdayın müxtəlif dövrlərində ictimai, siyasi, mədəni məişət təfsilatlarını aydın göstərən şəkillər “Vərəsə” ilə birlikdə gizlədilsə də İngiltərədə, keçmiş SSRİ də Şərqşünaslığa aid arxivlərdə saxlanılır. Çox az bir qismi “İstoriya Midi” kitabında çap olunub.

OdAğÜzdən hökmən bağlanırlar bizə, hansı sözü soldan sağa, hansını sağdan sola və ya ortadan sağa, sola oxumağı səssiz – Ünsüz deyirlər beynimizə. Belə olmasa, "ÜzAğ"ı "Yer" dili qaydasıynan, "mənanın SafAğ İnsanı" kimi oxuyarıq. Halbuki, təkrar eləyirəm, "AğÜz" kimi "ÜzAğ"ı da SafAğ İnsanın mənası kimi anlamalısan və bilməlisən ki, bu Üz – məna ərazisində tək bircə nəfər insanın təhrifi bütün əhalinin təhrifi qədər böyük faciə sayılır. Çünki Kainatın bütün varlıqları kimi, insan da insana bağlıdı. Burdakı – Yerdəki bağlılıq ən uzağı üç-dörd nəsildən sonra itir, OdAğÜzdəkilər isə lap Olam zamanından yadda saxlayarlar nəsillərini, "Yer"də bir uşaq anadan olanda orda – yuxarıda sevinişirlər, ordan-bura uşağı İşığa bələyə-bələyə güldürürlər, oynadırlar "Yer"dəki bircə körpənin təhrifi OdAğÜzdə min-min insana dərd verir! Bu münasibətnən, birinci GurOdun adına – ƏrEyə bir də diqqət yetirək: ƏrEy – Uca İşıq. Yəni birinci GurOd bütün planeti – EyƏri təmsil eləyir. İkinci GurOdun adı – ƏrÜz də, üçüncü GurOdun adı – AğÜz də, dördüncü GurOdun adı ÜzAğ da birinci adnan bağlıdı: bu mənalar təhrif ediləndə bütün planet EyƏrdən – Uca İşıqdan məhrum olur, yəni EyƏrin – Uca İşığın mənbəyi OdÜnEyƏsi – "Günəş"i tanımır, insan şüurca və demək, həm də cismən yalnız torpağa bağlanır, OdƏrliyini – Həqiqət İşığı olduğunu dərk eləmək qabiliyyətini itirib, OdƏrBağdan yox, "torpaq"dan yarandığına inanır.

**Beşinci GurOdun EyÜn ÜzAğdı adı,** şərti olaraq Yan ÜzAğ deyirik. Əslində dördüncü GurOd ÜzAğnan beşinci GurOd Yan ÜzAğ – "Qanzak" – "Qazax" da üçüncü GurOd AğÜz ərazisi sayılıb, geri sanan tarixin axırına yaxın "Qrek"lər Bağdayın içərilərinə soxulub ərazini kiçik-kiçik xanlıqsayağı dövlətlərə parçalayanda Ulu Bağ, məcburiyyət qarşısında, bütün AğÜz – "Oğuz" OdƏrlərini şərti olaraq dördüncü adlandırılan ÜzAğ ərazisinə, sonra da mərkəzi Yan ÜzAğ – "Qazax" sayılan şərti beşinci GurOdun ərazisinə köçürüb. Yeni tarixin başlanğıcında Qrek-Latın-Fars qoşunları beşinci GurOdu da tutanda Ulu Bağ özü OdƏrMən – "Türmən"[71] qoyun yataqlarında, çobanlarının arasında gizlənib, əhalinin böyük əksəriyyəti isə, BağOdEy – Uca Həqiqət Bağı ərazisindən kənarda, təhrif insan ərazisində, müvəqqəti altıncı GurOd UcAğda yerləşib. Bu UcAğa SarUcAğ[72] da deyilir. Çünki təhrif ərazidə, adətən hər şey yalnız Sar iradəsindən asılı olur. Adı sonralar "Sircik", "Səlcuq" şəklində təhrif olunan o SarUcAğa ixtiyar verilib ki, fatehləri

---

[78] "Rıtsar" adı Avropaya Bağdaydan keçib.

Bağday ərazisindən çıxarmaq üçün könüllü "ölümə" – ikinci doğuluşa razılıq verən OdƏrlərdən ƏrSarlar[73] hazırlasın. ƏlAğ EySarımızın SimOd məclisinin qərarıynan ƏrSarlara indi bizə möcüzə kimi görünən qabiliyyət verilib: döyüşə girişəndə bədənlərindən-əllərindən qılınclarına SafAğ İşıq keçirmiş, atlarıynan bərabər özləri də möhkəm zirehli "Qrek-Latın" legionerlərinin zirehlərini qılıncnan yox, qılıncın ucundan çıxan SafAğ İşıqnan kəsirmişlər. Sonralar təhriflərin dilində "rıtsar"a çevrilən ƏrSarlara daha bir möcüzəli qabiliyyət verilibmiş: uzaq məsafədən SarUcAğın Ünüynən bərabər ƏsAğÜz – "Saz" Ünü eşidə-eşidə vuruşurmuşlar. Arada deyim bil ki, bütün dəstanlarımızda, o cümlədən "Koroğlu" dəstanında qılıncnan yanaşı Saz Yeni tarixin başlanğıcındakı ƏrSarlarnan əlaqədardı, "dəstan"a – OdƏs OdÜnə keçib. Tiflisdən o yanlarda "Sak" – ƏsAğ, Tiflisdən bəridə "Kəpənəkçi", "Saraclı" kəndlərində "Səlcuq"lardan doğulan uşaqlar da "Saz"ı lap birinci dəfədən çalırlar: irsiyyətdən!

Tariximizin son dərəcə maraqlı səhifələri var, oğul. Vaxtı çatanda hamısını biləcəksən. O altıncı, ərazidən kənar GurOdun mərkəzi OdEv ƏlƏs adlanıb, sonralar təhriflərimizin dilində "Tiflis"ə, "Tbilisi"yə dönüb. OdEv ƏlƏsin əhatə elədiyi ərazilər də geniş olub. "Atilla"nın – OdƏlin vaxtında "Sibir" də UcAğ sayılırmış. "Vərəsə"mizi oxuyanlardan başqa, heç kəsin xəbəri yoxdu ki, İlan legionlarının, hətta ƏrSarları üstəliyən, Sibirə qədər gedən vaxtları da olub. Məhz o vaxtlar SarUcAğı "Zir ciy"ə, "Sir ciy"ə, "Səl cuq"a çevirən də "mədəni Qrek"di.

İlanın Moskva "alim"ləri haray çəkirlər ki, "Səlcuq"ların nəinki "Midiya"ya, heç "Azərbaycan" a da dəxli yoxdu! Halbuki, fatehləri beşinci GurOd Yan ÜzAğdan – "Qazax"dan məhz ƏrŞarlar qovublar, SağSan – SağƏsÜn Ulu Bağ məhz ƏrSarların sayəsində qayıdıb Qazağa.

İlanın yazdırdığı "tarix" "Fars səltənəti" adlandırır Ulu Bağ SağƏsÜnün beş GurOdlu Bağdayını! Yalnız biz bədbəxtlərə məlumdu ki, EvƏrƏs – "Pers"iya" özü də Bağdaya daxil olan ərazidi, əhalisi də OdƏrlərdi, İsgəndər "Kəbir" ayırıb bizdən o OdƏrləri. "Pers" dili

---

[79] "Dyakonovun belə imkanı var". "Bəli, Dyakonovun belə imkanı var, əmma, nəzərə alın ki, mənim kitabım artıq təqdim olunub yoldaş Stalinə. Heradotda (kitabında) BağOd əvəzinə "Madi"dir, məndə "Midi". BağOd ya BoqOd yalnız gələcəkdə yazıla bilər".

[80] "Dünya elmi Midiyanı tamam məhv eləyib. Mənə isə tapşırılıb ki, Bağların skeletlərini süpürüm atım. Nəticə: sizdən heç biriniz Bağdayı bərpa edə bilməzsiniz".

tədricən ayrılıb "Dəri" adlanan "dil"dən yaranıb. Bayaq bu barədə danışanda deməliydim ki, "Qrek", "Ərəb" dili qarışıb "Dəri" "dil"inə.

Oxuyursan: "Sasani hökmdarı Yəzdigird!" Farsdilli Nizami də "Yəzdigird" yazırsa, necə inanmayasan ki, doğrudan da "Fars"dı bu "Yəzdigird", "Sasani"di, "Bəhram Gurun atasıdı!" Nə yaxşı ki, Nizaminin rəmzlərinin hamısını pozmayıblar: Bircə sətrdə qalıb: "Bəhramın atasının Odu Qazaxda idi!" Fəhmli oxucu duruxur: "Qazaxda?!" "Sasani paytaxtı "Rey" sayılırsa, Bəhramın təxti-tacı "Rey"dədirsə, atasının "Atəş"i – Odu niyə Qazaxda olsun?!" Axtar bu "niyə"nin cavabını, daha "Vərəsə"də də tapmazsan. Yalnız Sultan Əmirlinin dilindən eşidə bilərsən ki, "Bəhram Gur"un – BağƏrim Gurun atasının Odu – adı, rütbəsi "Yəzdigird" deyil, ƏsOd GurOddu. Bayaq dediyim GurOd – "kürd" ordusunun Sarları həmişə ƏsOd GurOd rütbəsi daşıyıblar. Bu Od – ad – rütbə Yan ÜzAğ – "Qazax" GurOdundan da "Yəzid" yox, ƏsOd (Yaradan Od) idi!

OdƏrMən – "Türmən" qoyun yataqlarından qayıdandan sonra Ulu Bağ ƏsƏlMən SağƏsÜn özü də ƏrSarlar hazırlayıb, nəinki "Rey"ə – ƏrEyə qədər beş GurOdun beşini də, hətta İlanın yuvasına çevrilmiş Ərimi – "Rim"i də azad eləyib, səkkiz yüz ikinci ilin müqaviləsini pozdurub, yeni danışıq əsasında imperatorun təxtini saxlamaq şərtilə sarayda BağBağÜn – "beyinlər Bağı" təxti qoydurub. Ərəbin iyrənc dərəcədə təhrif "dil"ində "Babək" adlananımızın təxtidi o təxt, oğul! "Babək"in – BağBağÜnün zamanında OdƏr dili yenidən bərpa olunmuşdu, BağOdda (Bağdadda) mədrəsələrdə SafAğ dərsi deməyə başlamışdılar. "Rim"dəki ƏsEvÜn[74] ətrafları yenidən OdƏr istilahlarıynan idarə olunurdu. Məhz buna görə də on səkkiz-on doqquzuncu əsrlər İngiltərəsinin alimləri arxeoloq casuslarının Ərəb müşayiətçiləri, bələdçiləri – "səyyahlar"ı "Babək"in məskənini, Aralıq dənizinin o taya keçid yolu "Dardaneli" "Dar boğaz" yazıblar, "ƏsEv və ya BağƏsEv sarayını isə dağ

---

[81] "*Kon*" Rus sözü deyil; Qreklər OdÜnü "kiün", "kiünü" isə "kon" şəklinə salıblar; "at" sözü Qrekin Od mənasında olan "at"ından alınıb; OdƏrcəsi "Gur"dur, "dəri"cəsi "qur".

[82] Sarların müxtəlif dövrlərdə müxtəlif rütbələri (iş sahələri üzrə) hədsiz çox olduğuna görə burada yalnız ilk – əbədi rütbələri qeyd edilir. Yalnız Ulu Bağın rütbələri bütöv göstərilir: Ulu Bağ ƏsƏlMən SarOdƏs (Yaradan həqiqət Sarı), BağSar (Sarlar Bağı), SağSan və ya SağƏsÜn (ƏsAğ ƏsÜn Yaradan SafAğın Yaradan Ünü), BağSar AğEy ("Əxi" Sarlarının Bağı), "Comərd" (AğEy qaçaqlarının komandanı), "Süleyman" (ƏsƏlMənin təhrifi – batin rütbə), "Musa ağa" (batin ad).

belində qala qələmə veriblər": "Bəzz" qalası. "Sasan" SağSan – SağƏsÜnün ən çox müharibəli dövrü, yəni yeddi-səkkizinci əsrlərnən "Babək"in – BağBağÜnün ən çox falsifikasiyaya uğramış dövrü – doqquzuncu əsr haqqında xüsusi kitab yazılmalıdı, "Rim"in iç üzü açılmalıdı.

Təkrar deyirəm: İlanın dili BağBağÜn rütbəsini çox pis təhrif eləyib: "Papa!" Farslar "Papaqan", "Papaq" deyiblər, Latınlar isə lap düzəldiblər: "Papa!" Bəşəriyyətin tarixini belə iyrənc şəkildə təhrif eləyiblər, oğul!

Fatehlərin hırıltısını xüsusi yazmaq lazımdı; bunu da təkrar eləyirəm: "Babəkin atası yağ satan idi!" "Babək"in "dini" "Xürrəm!" Yəni sırtıq! Əxlaqsız! "Babək"in şəxsiyyətini lap dəhşətli şəklə salıblar: "Gecələr bir yerə yığışın, işıqları söndürün, kim hansı zənəni tutsa, o zənənlə keyf çəksin!"

Yazıq Bircə balam! Gözlərini yerdən qaldır. Qadın-zənən vasitəsilə mənəvi qatillik çox köhnədi bizim tarixdə. Fatehnən – quldarnan heyvanın fərqi yoxdu, oğul!

"Cavidan" adlandırılan OdEv OdÜn də oturub o BağBağÜn – "Papaqan" təxtində! Dünya dolusu qışqırmalısan, xüsusən Sovet yalı içənlərimizi, "ustanovkaynan yazan"ları ifşa eləməlisən: "BağBağÜn bütün planetin "beyinlər" Bağı ikən "Yağ satanın oğlu" nədi?! "Qəhbə zənən oğlu" nədi?! Necə əliniz gəlir düşmən sözünü təkrar-təkrar yazmağa, ey yaliçənlər?! "Babək üsyanı" nədi?! "Bəzz qalası" nədi?!

İlan "alimləri" – "İslam" təzkirəçiləri ƏsÜn BağBağÜnü "Həsən Babək"ə döndəriblər. "Azərbaycan Sovet Sosialist Respublikasının Elmlər Akademiyası" adlandırılan İlan yuvası, Moskvanın gizlin əlləriynən gizlin əlaqəyə girib, qəhbə analı, qəhbə millətli "Babək" haqqında parnoqrafiyanı rus, ərəb, fars dillərində bütün Şərqə, Avropaya yaymaqdan yorulmur! "Rim papası hakimiyyətinin BağBağÜn qanı üstündə qurulması barədə işarəyə də yol vermirlər: Rim imperiyası yox, Erməni satıb "Babək"i, get Erməniynən döyüş!

Səmədin əli əmgəyində gəzirdi.

– Əmi! Əmi! Sən kimlərnən döyüşürsən, ay yazıq əmi!.. Necə yəni "çıraqları söndürün?!" Bütün dünya elə Bezobraziyedən ibarətiymiş ki, əmi!..

Sultan sözünə ara vermirdi.

– Unutma! Yenə deyirəm.

EvƏsi ərəbcə "Bəzz" eləyiblər. EvƏsin "Rim"də olduğunu danıblar, cənubumuzdakı köhnə bir qalanın adını, "Babək qalası"

qoyublar. Yəni neyləyiblər? Möhtəşəm Ulu Bağ ƏsƏlMən SağƏsÜn dövlətini "xilafətə qarşı üsyan edən" tək qalaya çeviriblər!

* * *

Bu sui-qəsd məsələsi səbrimi daraltdı. Müslümün səsinin dəyişməsini yəqin ki, sən də hiss elədin. Məncə vaxt daralıb. Əmma çalışıram heç olmasa ən vacib şeylər barədə təsəvvürün bütöv olsun.

İndi qalalar haqqında.

Elmimizin Qrek-Latınlardan gizlin, farsca tədrisinə görə "gizlin dövr" adlanan birinci-doqquzuncu əsrlər Bağdayında "qala" altı-on metr hündürlüyündə birmərtəbə, geniş Sar SarEyi dövrəsində yüz Bağ SarEyi olan GurOdMən şəhərciklərindən ibarət imiş. Bütün GurOdlarda GurOdMən "qala"larının aralarında SafAğ İşıqnan kəsilən sal qaya daşlarnan döşənmiş geniş yollar varmış. OdAğÜznən Bağday arasında uçan İşıq gəmilərindən başqa texnika ləğv olunduğuna görə, o daş yollarda at arabaları, bir də ƏrSarların iri təkərli qazalaqları işləyirmiş. Əmilərin yazmışdılar ki, yüz bir SarEyli şəhərciklərdən başqa, daş yolların kənarlarında OdƏrlərin Evləri də altı-on metr hündürlüyündə SarEylərdən ibarətiymiş. SarEylərin bağ, əkin-biçin sahələri də, müasir terminnən desək, sənaye karxanaları da həmin sal daş yolların kənarlarında, mal, qoyun yataqları, örüşlər isə dağ ətəklərində imiş. Taxıl, yonca, bağlar, üzümlüklər gil kanallarnan, hökmən dağlardan gətirilən həşəratsız sularnan suvarılırmış. SarEylərin həyətlərində də, mərmər sütunlar arasında mərmərnən döşəməli arxlarda su dolanırmış. Həm həyətlərdə, həm də içəridə, böyük buxarılarda Od (qaz) yanırmış. Havanın istiliyini, soyuqluğunu keçirmiyən böyük çəlləklərdə hər cür çaxır saxlanırmış. O daş yollarnan, deyək ki, OdEv ƏrÜzdən ("Təbriz"dən) ƏrEyə ("Rey"ə), HəmOdÜnə ("Həmədan"a) gedənlər axşamlar bütün yol uzunu SarEylərdən musiqi eşidirmişlər.

"Bağday həyat şəraiti" deyirik o SafAğ İnsanların həyat şəraitinə.

"Babək üsyanı" barədə siyasi kompaniya başlananda, yəni iyirminci, otuzuncu illərdə İlanın casus "alim"ləri əllərində fotoaparat, cumublar xarabalıqlara. Olamda, "Elvənd" – ƏlEvÜn dağında Ulu Bağın SarEyindən başlanmış, birinci, ikinci, üçüncü Gurodlarda az-çox səlamət qalan SarEylərin şəkillərini çəkib hamısını "Atəşgah", "Atəşpərəst xramı" adlandırıblar, arxeoloji qazıntılardan çıxartdıqları qızıl qab-qacaqları yalnız saraylara aid eləyiblər. Halbuki, qızıl cəmlərdə xörək yemək, qızıl

qədəhlərdə çaxır içmək Bağday həyat şəraiti üçün adi şeymiş. Çünki qızıldan, gümüşdən insanın qanına, hüceyrələrinə zərrəciklər keçib ömrü uzadır.

Bil bunları. İlan casuslarının tariximizi, adımızı "Yer" üzündən necə sildiklərinin təfsilatıynan bərabər, məişət metalı qızılın qiymətini ceyranın belinə çıxardan cəhalət dünyasıynan Bağdayın fərqini bil. "BirOd" – Bərdədə İskəndər Rumiyə qaş-daş "yedirdən" AğEy ("Əxi") Sarı "Nuşabə"nin[75] Elmiynən bərabər mədəni səviyyəsini, AğEy – Uca SafAğ insan məişətini bil. AğEy ("Əxi") icmaları haqqında nə yazılıbsa, hamısını "utopiya" sayırlar.

İndi "Vərəsə"mizin "utopiya"sına bax.

BağSar.[76]

OdEyAğ.

EvƏrEyOd.

BağOd.

OdAğSar.

ƏrBağ.

BağOdAğ.

ƏsƏrBağ.

ƏrOdAğ.

ƏrEvÜn.

ƏsOdAğ (Yazıram, oxu).

Bu on bir Bağ, Ulu Bağın BağSar rütbəsi ətrafında 100 Bağdan, Ulu Bağ da daxil olmaqla, on bir nəfəridir.

On bir Bağ ƏrEydə işləyənlərdir. Əmma mərkəzdə daimi deyilmişlər. Niyə?

Qulaq as!

Birinci "sivilizasion"un birinci ilindən ta geri sananan tarixin dördüncü əsrinin axırına, yəni İskəndərin basqınlarına qədər GurOdlarda növbəynən Sarlıq eləyiblər bu əbədi Sarlar. Beşi beş GurOdda oturanda o birilər Əski EvƏrEylərnən – "Skif"lərnən Şuma gedib, ŞumƏr Sarları olublar, ŞumƏr Sarları Bağdaya qayıdanda GurOd Sarları şuma gediblər.

Geri sananan tarixin son üç əsrində "Yer" mühitində "Qrek" cəhaləti o dərəcəyə çatıb ki, ələ keçən EvƏrEyOdBağdayları – "Pro Metey"ləri, SafAğ İnsan əqidəsindən, yəni OdƏrlikdən dönməyən Bağları elə ələ keçən anda üzü üstə yerə yıxıb, əllərinin, ayaqlarının pəncələrini uzun quru ağac mıxlarnan torpağa mıxlayırmışlar.[77] O əsrlərin

OdƏr rəssamları, heykəltaraşları canlarına həşərat daraşa-daraşa işgəncə içində ölənləri qayalarda elə canlı həkk eləyiblər ki, hətta "Vərəsə"mizdən qalan səhifələrdə lap kiçik formatlı şəkillərə də sakit baxmaq olmur. İkinci doğuluşa, əbədiyyətə nə qədər vərdiş eləsək də, insan əzabına, "ölüm" adlanan ayrılığa dözmək çətindi, oğul. Quldarlar görünür bunu da bilirmişlər, əlləri, ayaqları zəncirli qul əhalini at döşünə, qamçı altına salıb torpaqda işgəncə çəkənlərin aralarında gəzdirirmişlər, sonra "Pers" saraylarında hökmdarların, əyanların hüzurunda nümayiş etdirirmişlər.

İnanılası şey deyil, üç yüz il davam eləyib bu zülm!

Sözü bura gətirirəm ki, adlarını çəkdiyim əbədi Sarlar lap qocalıblar kütləvi edamlar dövründə. Yəni bətnən dəyişibmişlər, hiddətli, kinli olubmuşlar. Ulu Bağdan, həmin 1000 nəfərlik SimOd məclisindən tələb eləyirmişlər ki, SafAğ İşıqdan, ikinci doğuluşdan məhrumluq təhlükəsi labüd olduğuna görə quldarlarnan döyüşməyə izn verilsin. Məclis isə, ərazini tərk eləyib hər hansı bir təhrif əraziyə köç buyururmuş. Bayaq dedim, yalnız Yeni tarixin birinci ilində, bütün GurOdlar, GurOdMən – "Kirdman" qalaları əldən çıxandan sonra şərti GurOda – SarUcAğa köçmək məcburiyyətində qalanda OdAğÜzdən də icazə verilib ki, Bağdayı döyüşlə azad eləsinlər.

O vaxta qədər, yəni SağSan – SağƏsÜn rütbəsi hakim olana qədər əbədi Sarlar sözün əsil mənasında cəhənnəm əzabı çəkiblər. İndi deyəcəm, hətta Ulu Bağın, OdAğÜzün icazəsi olmadan, çox dəhşətli hiddətnən, əbədiyyətini qurban vermək bahasına döyüşə girişən bir əbədimiz olub. Qaya yazılarında da, "Vərəsə"də də BağOddu o Sarın Odu – adı. Çox yüksək rütbə sayılır – "Pat" – BağOd (Bağ həqiqəti). Midi Qiena "Midi" deyirdi BağOda, belə də yazırdı.

Nəcəfoğlu, Məhərrəm, mən, bir də sənin bəyənmədiyin Məleykə Muradova bütün imkanlarımızdan istifadə eləyib Nizaminin tədqiqatçısı Bertelsnən Midi Qienanı qonaq apardıq Mərdəkana, Moskvadan ən populyar bir müğənni qadını xüsusi gətirtdik, iki gün keyf verdik falsifikatorlara, iki gün bu cür, sənnən danışdığım kimi, hərtərəfli söhbət elədik, çalışdıq ki, əbədi Sarlardan heç olmasa, tək birinin adını – BağOdu rusca "Boq Od" şəklində saxlasınlar, BağOdun quldarlarla məşhur döyüş epizodunu bir az təfsilatnan çap elətdirsinlər.

O döyüş epizodu, qısası, belədi ki, Sar BağOd GurOdlarda kütləvi edam fəlakətinə dözməyib, ordusunu Şum ərazisindən Bağdaya qayta-

rıb, fatehlərin dağınıq qüvvələrini hər yerdən qovub, üç tərəfi dağ olan daracağa salır, ƏsOd EvƏrEylərə – "Əski" EvƏrEylərə, ƏrSarlara – "Rıtsar"lara əmr edir ki, fatehləri son nəfərinə qədər qırsınlar, "Qreklər" bir daha öz ərazilərindən kənara çıxa bilməsinlər. Belə kinli olanda Bağlar Ün eşitmirlər, hətta özləriynən birlikdə "Əski" EvƏrEyləri, ƏrSarıları[78] da torpağa çevrilən ölümlü insanlara döndərdiklərini dərk eləmək istəmirlər. Belə hallarda nəinki OdAğÜznən QalAğımız, hətta bütün Kainat yasa batır. Yəni OdƏr bəşəriyyəti yeganə doğuluş planeti olan "Yer"də ərsəyə çatan övladlardan əbədi ayrılığa dözəmmir... Bu dərdin necə dərd olduğunu dərk eləmək üçün bilməlisən ki, OdAğÜzdə və bütün Kainatda yaşayan OdƏrlərin bizə – "Yer" bəşəriyyətinə baxmasına izn veriləndə də aramızdakı məsafə və maniələr götürülür, yenə deyirəm, mən səni burda – qarşımda necə görürəmsə, Kainatdakı əzizlərimiz də bizi elə görürlər. İkinci dəfə doğulan ata, ana, baba, nənə burdakı əzizlərini lap doğulduqları gündən bayaq dedim, körpələrini əzizləyə-əzizləyə böyüdürlər, o planetin sakini ikən bu planetin sakini kimi, bütün xeyir-şər işlərimizin şahidləri olurlar. Bax buna görə Sar BağOdun özü ilə birlikdə bütün ordunu əbədiyyətdən məhrum eləmək niyyətinə dözməyiblər. EyOdƏr Babamızın hökmüynən OdÜnEyƏsi – "Günəş"i söndürüblər. "Günəşin tutulması" dediyimiz başqa şeydi, "Günəş"i tamam söndürmək isə Kainatın məhvinə bərabər hadisədi. Odu ki, Ün eşitməsə də, zülmətə düşəndə Sar BağOd başa düşüb hər şeyi, fatehləri mühasirədən buraxıb.

Xahiş elədik ki, Bertelsnən Midi imkanlarını birləşdirib həmin bu epizodu çap eləsinlər.

Mədəni Bertels dedi: "U Dyakonova yest takaya vozmojnost!" Dyakonov da dedi: "Da, u Dyakonova yest takaya vozmojnost, no uçtite, çto rukopisey moyey kniqi uje predstavlena tovarişu Stalinu. U Qeradota "Madi" vmesto BağOda, u menya – "Midi". BağOd ili BoqOd mojet imet mesto liş v buduşşem".[79]

BağOd – "Madi" əvəzinə "Midi" yazmağının səbəbi vardı. Guya Heradotun "Madi"si "Bağday" sözünə oxşayır!.. "Midi Qiena" adını o qonaqlıqdan sonra verdik "dyakon" nəvəsi Dyakonova. Niyə "Qiena" – Goreşən? Çünki ən ləyaqətsiz küçə xuliqanı kimi sərxoşluğa qoydu özünü, dedi: "Mirovaya nauka okonçatelno umertvila Midiyu. A mne poruçeno smetat ostanki Boqov. Tak çto, nikomu iz vas ne udastsa vozradit Bağday".[80]

“Smetat” – süpürmək atmaq nədi?! Əbədilərimizi büs-bütün yedi “Qiyena:” hamısının təhrif adlarını çap elətdirdi. Yazıram, oxu:

“Baksar”, “Deyok”, “Fraort”, “Madi”, “Kiaksar”, “Arbak”, “Maudauk”, “Sosarm”, “Artik”, “Arbiani”, “Astiaq”.

OdƏrə “Atri”, Oda “at”, OdÜnə “kon”[81] (“at”) deyən dilsiz “Qrek”in tələffüzündə yazılıb bu adların hamısı. Adların əslini bilən senatorlar da gülə-gülə təhrif “ad”ları saxlayıblar. Niyə? Yadına sal: “hökmdarların adları necədirsə, xalq da o dildə danışıb”.

Bir də qayıdıram buna, yazıram, bax, dünyamızı təhrif edən “Qrek”in şüurlu-şüursuz təhriflərinin dəhşətli miqyasını gör.

İzahlarıynan, təhrifləriynən bir yerdə yazıram Od – ad – rütbələri:[82]

1. *BağSar* – Sarlar Bağı (Təhrifi “Musa”, “Moisey”).
2. *OdEyAğ* – Uca SafAğ həqiqəti (Təhrifi “Deyok”).
3. *EvƏrEyOd* – Uca İşıq Evinin Həqiqəti (Təhrifi “Fraort”).
4. *BağOd* – Həqiqət Bağı. (Təhrifi “Madi”).

İndi Carların adlarının başqa məlumat üzrə sayca çox mənalarını yazıram, oxu:

5. *OdAğSar* – SafAğ Həqiqətinin Sarı (Təhrifi “Kiaksar”).
6. *ƏrBağ* – Bağ İşığı (Təhrifi “Arbak”).
7. *BağOdAğ* – SafAğ Həqiqətinin Bağı (Təhrifi “Maudauk”).
8. *ƏsƏrBağ* – Yaradan İşıq Bağı (Təhrifi “Sosarm”).
9. *ƏrOdAğ* – SafAğ Həqiqətinin İşığı (Təhrifi “Artik”).
10. *ƏrEv Ün* – Ün Evinin İşığı (Təhrifi “Arbiani”).
11. *ƏsOdAğ* – Saf Ağ İnsanın Yaradan Həqiqəti (Təhrifi “Astiaq”).

Şuma gedəndə ƏsOdAğ – ƏrŞumAğ adlanıb. Bunu xüsusi deyirəm, çünki bu rütbəni də başqa bir Sarın adı sayırlar.

Varisimiz heç vaxt unutmamalıdı ki, “tarixin atası” adlandırılan “Qrek” əsgəri casus Heradotun “Tarix” kitabından üzü bəri, İlan “alim”ləri Bağday ərazisi haqqında nə yazıblarsa, hamısında əsas bir məqsəd güdülüb: sözü təhrif eləmək, həqiqəti gizlətmək, əfsanələşdirmək, Kainat, OdƏr bəşəriyyəti, əbədi insan barədə lap cüzi təsəvvür verən bircə kəlmə də saxlanmayıb. Gizlin və ya açıq fatehliyə, gizlin və ya açıq quldarlığa yol açmaq! Budu yeganə məqsəd. Birinci “sivilizasion”u sərf-nəzər eləsək, əlli bir min doqquz yüz əlli dörd il müddətində bu bəşəriyyətin təhrif irsiyyəti bərpa olunduqca, təhrif insan öz vəhşiliyini, murdarlığını, ölümə məhkumluğunu dərk elədikcə, hər şeyi özüynən bir yerdə qəbrə sürükləyib. Əmma bu təhrif, murdar,

ölümə məhkum bədbəxtin ən murdarında – iyrəncində də lap cüzi saf zərrə olsa, Bağ, OdƏr adı daşıyanlarımız o zərrələri qorumalıdılar, oğul!

Təhrif insan təsəvvürünə görə, Bağlar can ağrısının nə olduğunu bilmirlər. Bağlar isə, əksinə, Ün dinləməknən təhsil almaq illərində çirkablardan keçə-keçə, çox dəhşətli can ağrıları da çəkirlər ki, təhriflərin bütün əzab-işgəncələrini duysunlar. Uşaqlıqda, ilk gənclikdə sən Qudalı cavanlarını qırıb-çatırdın. Musqullarını bərkidə-bərkidə qoçuluğunnan fəxr eləyirdin. Bir vaxt gələcək, cin-şeytan yığnağı saydığın o uşaqlara, o cavanlara verdiyin işgəncələri özün də çəkəcəksən. Vurduğun zərbələr sənin özünə dəyəcək, birə on, birə yüz artıq ağrıdan, işgəncədən qıvrılacaqsan. Yalnız o vaxt dərk eləyəcəksən, aydın görəcəksən ki, Kainatda insanın insana bağlılığı bircəhətli deyil. Məsəl var: "Nə əkərsən, onu biçərsən". Qudalı cavanları, məhlə milisənerləri, Qıllı, Piyli də, Xaş nəçənnik Gülənov da, Xəlvət Rəhim də, Yağır Məmmədəliynən Çax-çux Xalıq da insandılar. "Süleyman padşahın" xəzinəsinin üstündə yatan İlan, indiki Papa özü də, Keşiş Vissarion, Stalin, Serqo, Beriya, Mirqəzəb, Midi Qiyena, Pers-filan da təhrif dünyamızın ən təhrif, ən əzabkeş, ən bədbəxt insanlarıdı! Hərə öz əməlinin bəhrəsini dərir! Dərk elə bunu, əzizim! Dərk elə ki, "Babək"in təxtində oturan bədbəxtin can ağrıları bütün bəşəriyyətin can ağrısıdı! Ağrıyır, ağrıyır, ölə bilmir, ağlayır işgəncə çəkir. "Otpuşşennıy on!"

Səmədin başı ağır-ağır sağ çiyninə əyilib hərəkətsiz qalmışdı, gözlərində də son həddə çatmış kədər, yas hərəkətsizliyi vardı.

Sultanın sifətində, gözlərində isə ciddi qayğı həkk olunmuşdu.

– Özbaşına buraxılmış, öz təhrif mənəviyyatıynan özünü qəbrə aparan təhrif insana, kolxozları, sovxozları, idarələri söküb-dağıdan, camaatı ac-yalavac, səfil kütləyə döndərən yırtıcılara inzibati cəza vermək məcburiyyətində qalanda, milisə, prokuraturaya ittihamnamə oxuyanda, yəni, qısası, içim qaynıyanda həmişə üç kəlmə eşidirəm: "Günəşimizi söndürmə, Sultan!" "Günəş" – OdÜnEyƏs "insan"ın özüdü, oğul! Elmimiz heç olmasa, qısa məlumat şəklində yayılıb ÜnƏsin – "ins"in nəzərini ÜnƏsə yönəltməyincə təhrif "ins" təhrifliyində qalacaq. Əsrimizin axırında Bağday, Bağlar, OdƏr bəşəriyyəti, OdƏr dili ətrafında bu cür söhbətlərin miqyası genişlənəndə, planetin hər yerində "Bibl"dəki "bojiy yazık"a – "Türk" dilinə, OdƏr istilahlarına maraq yarananda türkcə bir ifadə yayılacaq: "ƏnŞər – MənŞər". Yəni "Yer"də ən böyük

---

[83] "Levıy" gizlin satış; dövlət standartlarından kənar mal satmaq qadağan idi.

şər mən – insan özüməm; qılıncı Ulu Bağın başına yox, öz başıma endirmişəm; EySar, ÜnEvi, ƏlAğ, EySarı yox, özümü çarmıxa çəkmişəm, odur ki, ƏnŞərdən, MənŞərdən, "atom"un selləmə yağışlar fəlakətindən, subasqınından yaxa qurtarammıram, EySarım xilas eləsin məni!

Necə xilas eləsin EySar?! ...Bəlx şəhərində Ulu Bağı göstəriblər bir təhrif nadana, deyiblər: "Atəşpərəst Zərdüşt budu, kəs başını, müsəlman ol!" Qılıncı endirib bədbəxt, Ulu Bağın başını yarıb. OdAğÜzdən gur SafAğa bürüyüb aparıblar Ulu Bağı. Altı yüz səksən yeddinci ildə olub bu. Yəni müharibənin lap şiddətli vaxtı. Ulu Bağ elə uçuş vaxtı sağalıb, OdAğÜzdə lap az qalıb, qayıdıb ki, vəhşiləşən fatehləri özü cilovlasın. Ərdəbildə yenə görüb o qatili, bir kəlmə: "Təriksən!" – deyib. Sonra məlum olub ki, "Zərdüşt" deyilən adam UluBağ SarOdƏsdi. "Tərik" bədbəxt qılıncı öz başına endirib bu dəfə, kəlləsini iki parçalayıb.

Ulu Bağ deyib: "Mən o təriki dünyanın işgəncələrindən qurtardım. Əmma düz eləmədim!"

Əllərinin pəncələrində iki yoğun dəmir mıx, ayaqlarının pəncələrində də iki yoğun dəmir mıx, çarmıxda, işgəncə içində də təhrif insan haqqında düşünüb EySarımız, üzünü OdAğÜzə tutub, inildəyib: "ƏlEy! ƏlEy! SafAğ Olamı fanidimi?!" ƏlEy – Uca Əl, yəni ƏlAğımız EySar ÜnEv idi o vaxt. Qardaşından gör nə soruşur EySar: "SafAğ Olamı (yəni insanın beyni) fanidimi?"

Ölüm ayağında qayğıya bax, Bircə balam!

Bir də deyirəm: "ƏlEy! ƏlEy! (Uca Əl! Uca Əl!) SafAğ Olamı fanidimi?!"

"Fani" – EvÜnün təhrifidi.

"Bibliya"da, "Novıy zavet"in – "Şad xəbər"in ruscaya tərcüməsində dönə-dönə təhrif eləyiblər EySarın bu son sözlərini. Əmma qrekcəsində cəsarətləri çatmayıb toxunmağa. Çünki "Rim"də Türk çoxmuş, bu sözlər çox yayılıbmış.

Peyğəmbərin möhüründən sonra bir sual verdim sənə. Bir də indi soruşuram: de görüm, EySarın "ƏlEy! ƏlEy! SafAğ Olamı fanidimi" – sözləri nə verdi sənə?

---

[84] SSRİ-nin rəsmi dairələri şeri "Ənəlhəq üstündə qurulmuş" Nəsiminin yubileyinin əleyhinə olsalar da, Azərbaycan KP MK-nın birinci katibi senzuranın iradəsini sındıra bilmişdi və X-XIV əsrlərin gizlin SafAğ mərkəzləri Hələbə, Bağdada, Şama çoxlu ziyalı – tədqiqatçı axınına şərait yaratmışdı: İslam dininin "Şiə" qolunu İranda hakimiyyətə gətirməyə və bununla Şimali, Cənubi Azərbaycanın birləşmək təhlükəsinin qarşısını almağa hazırlaşan KPSS, "Ənəlhəq"i öyrənməyə maraq göstərmişdi.

Uzun, üzüntülü sükut oldu. Söhbətin – dərsin ən həlledici mərhələsində Səmədin belə çox susmağının səbəbi, əlbəttə aydındı: İlanın özündən başlamış, Bezobraziye dünyasında bütün ilanların da özbaşına, yəni sərbəst, azad buraxılması Bağ hökmü idisə, EySarın müqəddəs sözləri barədə sualın cavabı nə idi?! Beyin fani idi?! Və dünya fani beyinlərin dünyası idisə, Səməd nə deyə bilərdi?!

– Mənə belə qəmli baxma, əmi... Partiya məktəbinin müdavimi Səməd hara, bu Səməd hara? Tamam başqa adamam... Əmma... açığı, çaşdım... Bağışla məni... "Allah"nan ƏlAğın fərqini dərk eləmişəm, əmma Bağ olammaram mən, OdƏr olammaram, əmi... Başa düşürəm, səndən ötrü çox ağırdı bu sözlər. Əmma bu elə məsələdi ki, burda yalan danışmaqdan böyük qəbahət ola bilməz. Bağışla məni, görürəm çox əzab verəcəm sənə. Özüm də əzab çəkirəm. Başım, boynum partdayır ağrıdan!.. Sənin, Abının arzuladığınız Varis olammaram mən... Peyğəmbərin möhürü dərya-dəniz şadlıq verdi mənə. Dünyamız, dilimiz barədə hər şey verdi. Doğrudan da hər şey, əmi! ƏlAğ – "Allah" verdi mənə! Kor gözlərimə işıq gəldi. Sədr Mədədi gördüm. İkinci doğuluşa inandım, atamın, anamın, əmilərimin, babamın sağlığına inandım. OdƏrliyimizə, Bağlarımıza inandım! Ulu Bağın möhtəşəmliyini gördüm. Faciəsini duydum. EySar ÜnEvin, EvƏrimin faciələrini duydum. EySarımızın faciəsini duydum. İrəli sananan, geri sananan yüz min illik tarix heç. Yeni tarixin min doqquz yüz ili müddətində faciənin həddi-hüdudu yoxdusa, kor balasının gözlərinə belə möcüzəli işıq verən bu nadir insan Sultan Əmirli də ölümə məhkum olunubsa, özün bilmirsənmi EySarın son sözləri nə verir mənə?! SafAğ Olamı fanidi! BağÜn lazım deyil bu xarabada!

Sultanın gözləri böyüdü.

– Budu cavabın?!. İkinci doğuluş lazım deyil?! Yerdə ölümə məhkumluğum ölümümdü?! Bu dəqiqə burda yıxılsam, cəmisi bir neçə saatdan sonra qardaşlarımı, atamı, anamı, babamı, nənəmi bağrıma basacam! Budumu fanilik?! Bu beyin – BağÜnün əbədiyyətini dərk eləyə-eləyə deyirsən fanidi?! Otar Kiknadze nə zibildi Bağ Sultanı əbədi işgəncəyə salsın?! Yağır Məmmədəliynən şah necə öldürə bilərlər Ağ Əmirnən Boz Əmiri?! Çax-çux necə öldürə bilər sədr Mədədi?! İndi de! De görüm nə verdi sənə EySarın son sözləri?!

Səməd başını sinəsinə əyib, qaldıra bilmirdi.

– Necə yəni "Çax-çuxa toxunmaq olmaz", ay əmi?! Planet Bezobraziyenin pəncəsində qalırsa, EySarımın azərbaycanca "ƏlEy! ƏlEy!" iniltisi nəyimə gərəkdi mənim?!

Yenə üzüntülü sükut çökdü. Sonra birdən sərt taqqıltı eşidildi: Sultan yumruğunu başına çırpdı.

Səməd elə bil daşa dönmüşdü... Hələ bilmirdilər ki, bu gecə əmi ilə qardaşoğlunun birgə Yer həyatının son gecəsi idi.

* * *

Elə orda, hərəsi bir "tyubik"in üstündə donqarlanıb, daş kimi yatıb, bir də Müslümün öskürəyini eşidəndə oyandılar. Yuyunub, çay içib, məhkəmənin səhər iclasına, qərarı eşitməyə getdilər.

Mirqəzəbə güllələnmə, "Pers"ə iyirmi beş il həbs cəzası kəsiləndə bütün zal ayağa qalxıb qatillərə lənət oxudu.

Tək bir nəfər nə ayağa qalxdı, nə də səsini çıxartdı. O bir nəfər Sultan idi. Keçinib, necə oturmuşdusa, eləcə də qalmışdı. Termosla "qranyonnı stəkan" döşəməyə düşmüşdü, rəngi dəyişirik – göyümtül çalan YemSən suyu kresloların altına axıb yayılmışdı... Bircə balanın hədəqədən çıxmış gözləri qonşu kreslolarda Müslümü axtardı, zalı dolandı, görmədi.

Əmisini qucağına götürdü. Meyidin hələ tamam soyumamış üzünü üzünə söykəyib, sinəsini sinəsinə sıxıb zaldan həyətə çıxartdı. Müslümün yerində oturan yad adamın nazik, qırışıq boynuna ötəri baxıb, meyid qucağında, maşının dal oturacağına keçdi, bütün yolu elə o vəziyyətdə – qucağında apardı. Yolda qulağına dəydi ki, "rəhmətlik Mədəd də Suranı belə aparmışdı. Qucağında. Bu ata uşağında adətdi, nədi..." Bu sözlərdən sonra, yarımyumulu gözləri önündə, fəzanın dərinliyində ikən lap yaxın görünən sədr Mədədi, sonra isə əmisini gördü və çox anlaşılmaz oldu ki, dünəndən bəri az-maz da nəmçiməyən, quruluqdan alışıbyanan gözləri məhz o fəzadakı sağ-salamat Sultanla Mədədi görəndə yaşla dolub, qucağındakı Sultanın sifətini iri damlalarla islatdı. Xəbəri yoxdu ki, bir də əlli beşinci ilin yanvar günlərindən birində, Əlləzoğlunun çəpərinin arxasından çağa çığırtısı və Torksinin darvazadan eşiyə atılıb: – Muştuluğumu ver, Mədəd əmi gəldi! Mədəd əmi gəldi! – dediyini eşidəndə gözlərindən belə iri-iri damlalar səpələnəcəkdi...

## ▯ ¸▯ ▯ –˜¨—¨▯

Min doqquz yüz əlli dördüncü il ilə min doqquz yüz səksən səkkizinci illər arasında, yəni Sultan Əmirlinin yeganə yadigarı Mədədin

otuz dörd illik ömründə, necə deyərlər, çox sular axsa da, Mədəd universitetin dissertantı olub, tarix elmləri namizədlik dissertasiyasını tamamladığı bir vaxtda gözlənilmədən hər şeyi atıb, Qonaqlıdakı Əmirli mülkünə qayıtdığı günə qədər baş verən hadisələr içində, Əmirli nəslinin sonuncu nümayəndəsi kimi tanınan bu oğlanın zehnində üç hadisə daha dərin iz salmışdı.

Birinci hadisə: Mədəd hələ beş yaşında ikən əmisi Səməd Əmirli rayonda ən məşhur – bilikli, bacarıqlı kolxoz sədri sayılarkən Bakıdan general Məhərrəmov ağ, par-par “Volqa”sında gəlib onu – Səmədi zorla maşına basıb aparmışdı və Səməd cavan, gözəl arvadı Torksinlə oğulluğa götürdüyü körpəni Qonaqlıda qoyub, ildə bir-iki dəfə bir-iki günlüyə qayıtmağı sayılmasa, uzun müddət yoxa çıxmışdı.

İkinci hadisə: beş il bundan əvvəl, yəni səksən üçüncü ildə Səmədin “barmaqla göstərilən” arvadı Torksin, Mədədin lap körpəlikdən “Gül xala” dediyi Gülbənizin Sudüşəndəki evindən qayıdarkən oradan – Sudüşəndən atılan güllələr onun – Torksinin kürəyinə dolmuşdu. Qəsəbədən yüyürüşüb gələn adamlar arasından Rəhim kişi – Xəlvət Rəhim irəli çıxıb meyidin gözlərini sığayıb “Heyif səndən, ay gözəl bala”, – demiş, meyid Əmirli mülkünə aparılıb, kəfənə bükülәndən sonra isə o – Xəlvət Rəhim cibindən bir naxışlı tütün kisəsi dolusu qızıl çıxarıb, stolun üstünə qoyub, “Səməd burda yoxdu. Heç bilinmir Bakıdadı, yoxsa xaricdə. Yaxşı dəfn eləyin bu bədbəxti, qəbrin üstündə büstünü qoydurun, ətrafında qışda da solmuyan gül-çiçək əkin”, demişdi. Əmma Mədəd qızılı Xəlvətin sinəsinə çırpıb, “Nə səndən, nə də o qəsəbədən bir qəpik almaram! Özünüzü də bu mülkdə hüzrə buraxmaram! Çıx burdan!” – deyib qocanı kandara itələmişdi.

Üçüncü hadisə: keçən ilin avqustunda Sultan Əmirlinin sovxası kitelin döş cibindən vəsiyyət tapılmışdı. Əslində bu, birinci hadisə sayılmalıdır, çünki məhz o vəsiyyət Mədədin həyatını kökündən dəyişdirmiş, aspiranturanı atmağa məcbur eləmiş, üstəlik, lap ilk gənclikdən ona saz-söz öyrədib məclislərdə gəzdirən ustadları Xızr Abı ilə Çürük Aşığa yenidən bağlanmışdı.

Vəsiyyət cəmi bir neçə cümlədən ibarətdi: “Məni Varisim öldürdü. Varisimi də Varisi öldürəcək. Bu nə sirdir?! Baş açmıram. Daha heç nə eşitmirəm. Heç nə görmürəm. Adı ƏlifBey olanıma yalvarıram, Sahibimizə yalvarsın, mümkündürsə, nəslimizin bu əcaib bədbəxtliyinin səbəbini öyrənsin, hadisələrə müdaxilə eləsin, sən dönə-dönə oxu, Səmədim, dərk etsən, qulun Elmə qul ol!

Yalnız “Muğ” – Bağların anlaya biləcəyi bu vəsiyyəti hələlik üç nəfər – Mədəd özü, “adı ƏliyBey olan”, yəni Xızr Abı, bir də hədsiz qocaldığına görə qara cürəsinin simlərinin parıltısından başqa ancaq OdAğÜzdən göstərilənləri görən Çürük Aşıq oxumuşdu. Qocalar – Abı ilə Çürük yəqin bilirdilər ki, Sultandan qalan sovxaları göz bəbəyi kimi qoruyub saxlayan Gülgəzin sandığındakı boz kitelin yan cibindəki bloknotdan cırılıb, dörd qatlanıb həmin kitelin döş cibinə qoyulmuş bir parça kağızda vəsiyyət Sultanın öz dəst-xətti ilə yazılmışdı və tamamilə aydındı ki, ölüm ayağında, son nəfəsdə yazılmışdı. Sağlığında Sultanın bircə Varisi vardı, o da Səməddi, ikincisi yoxdu. Qocaları dəhşətə gətirən də elə bu idi ki, yazı Səmədlə Səmədin yetirdiyi Varisə – Mədədə aiddi. O Səmədə ki, dünyaya göz açdığı gündən Sultanın keçindiyi günə qədər əmisinə “İdealım” demişdi, Sultanın keçindiyi gündən indiyə qədər – otuz dörd il müddətində isə vaxtilə Arazın o tayından gəlmiş mühacir Demokratların sadiq pənahı AdıPünhan general Məhərrəmovun “əlinin altında işləyə-işləyə” ömrünü yeddi yüz əlli cildlik “Vərəsə” kitabxananın tədqiqinə həsr eləmişdi və əmisinin yeganə övladı Mədədi – oğulluğunu mühacirlərin ailələrində “Cənubun ab-havasına alışdırıb”, gah rayonun inqilab veteranları cəmiyyəti üzvləri, “qəlyanlı qocalar”dan Qılınc Qurbanın, gah da “Məhərrəmovun çekistlərinin qanadlarının altına ötürə-ötürə”, “xüsusi təlim-tərbiyə” ilə böyüdüb, universiteti qurtarandan sonra bir müddət Daxili İşlər Nazirliyinin şöbələrindən birində işlədib, nəhayət, aspiranturaya aparmışdı ki, Mədəd də ömrünü yeddi yüz əlli cildlik “Vərəsə”nin, daha doğrusu, əzik-üzük səhifələri təxmini nömrələnmiş axırıncı cildlərdəki “Sirli dastanlar” adlandırılan “OdƏs OdÜn”lərdə rəmzlərin tədqiqinə – şərhinə həsr eləsin. Nə olmuşdu, ölüm ayağında, son nəfəsdə nə baş vermişdi ki, Sultan Əmirli “Bircə balam” deyə-deyə ömrü boyu əzizlədiyi SafAğ Elmi Varisinə birdənbirə düşmən kəsilib elə sözlər yazmışdı? Heç düşünməmişdimi ki, Bezobraziye mühitində dostdan çox düşmən vardı, günlərin birində kim isə əlini kitelin cibinə salıb o qorxunc kağızı ortalığa çıxara bilərdi.

Sual çoxdu. Cavab yoxdu.

Yaşları yüzü çoxdan aşmış, saysız-hesabsız ölüm-itim görsələr də, hələ də dünyanın gərdişindən heyrətlənən qocaları dəhşətə gətirən bir də bu idi ki, atasının vəfatının otuz beş ili tamam olan günü, yəni 1988-ci ilin avqustunda kağızı kitelin cibindən çıxarıb onlara – Abı ilə Çürüyə oxutdurandan sonra Mədəd, Abının əlindən yerə düşən kağızı tamamilə sakitcə götürüb, sakitcə də dörd qatlayıb pencəyinin döş ci-

binə qoyub, qalınaraq, cod səslə “Bakıya ayağım dəymiyəcək daha. Aspiranturaya da tüpürdüm, “Vərəsə” kitaxanamıza da, tədqiqatçısına da” – demişdi və o gündən üstündə gəzdirdiyi o qorxunc sənəd barədə bir kəlmə də danışmadan, səsləri çıxmasa da saz çalmağa hələ əlləri tutan köhnə saz-söz ustadlarına qoşulub, aşıqlığa qurşanmışdı. Harda, nə münasibətlə çalıb oxuduğuna qətiyyən fikir vermədən, ustadlarının “Zarıncı”, “Dilqəm”, “Mənsuri” və sair bu qəbildən qəm-kədər, dərd-ələm havaları üstə, cəmaatı ağlada-ağlada toyları da yasa döndərirdi. “Badamlı” suyu şüşəsində “levi” araq[83] verən Gülənoğludan araq alıb içib, yenə də ustadlarının qəm-kədər, dərd-ələm havaları üstə çalıb oxuya-oxuya yasa batıb, tez-tez “Şüşəli” pavilyona yığışan cavanları da yasa batırırdı. Ən kədərlisi isə bu idi ki, “adı ƏlifBey olanın” – Abının “uca göylərə”, Sahibə – EySara yalvarışlarından da bir nəticə çıxmırdı. OdAğÜzdə kim isə, hətta səsini gizləyib pıçıltı ilə eyni sözləri təkrar edirdi: “Mədəd Əmirlinin doxsan illiyində biləcəksiniz. Biləcəksiniz!

Gizlin “Muğanna”larla – Əmirlilərlə yaxınları, uzaqları da bilirdilər ki, qırx altıncı ildə Mədəd Əmirlinin, əlli dördüncü ildə Sultan Əmirlinin faciəli ölümlərindən sonra bu nəsildən heç kəsə ad günü – “yubiley”-filan keçirmirdilər. Tək bir dəfə – əlli beşinci ildə Sultan Əmirliyə “illik” verilmişdi. Onda da Səməd, Qonaqlı cəmaatı ilə birlikdə, rayondan gələnlərə və qonşu kəndlərin – Tahirli ilə Qurbanlının cəmaatlarına da tapşırmışdı ki, daha heç kəs yasa gəlməsin. “Çünki, birincisi, Sultan Əmirli ölməyib, ikincisi, körpə Mədəd öz əmisi oğlunu – Səmədi ata əvəzi bilib yetimlik çəkməyib”. “Sultan Əmirli ölməyib” sözləri bu həndəvərlərdə heç kəsi təəccübləndirməsə də, cəmaat “el adətinə hörmətsizliyə” – ehsan verilmədiyinə görə Səməddən incimişdi. Ata əvəzi əmioğlunun xəbərdarlığından sonra Qonaqlı, Tahirli, Qurbanlı cəmaatları ilə birlikdə, mərhumu “bu dünyaya tək gəlib tək gedən yeganə vətənpərvər katib” adlandıran və “heç olmasa yubileytəhər bir şey eləyib mərhumların adlarını anmaq” istəyən inqilab veteranları cəmiyyətinin üzvləri – köhnə bolşeviklər də Səmədin sözünü təsdiqləməyə məcbur olmuşdular. Beləliklə, o birinci və axırıncı illikdən sonra heç yerdə heç bir yas və ya yubiley əlaməti görünməmişdi. “Bu dünyaya tək gəlib tək gedən yeganə vətənpərvər katib”in yeganə övladı, veteranlar cəmiyyətinin sədri Qılınc Qurbanın ölümündən sonra da orada da – cəmiyyətdə sədrin katibi işləyə-işləyə, demək olar ki, bütün rayonun himayəsində, universiteti qurtarmış, Nazirlikdə, Adı-

Pünhan general Məhərrəmovun "əlinin altında" işləyə-işləyə aspiranturanı bitirəndən sonra isə, dissertasiyası ilə yanaşı, "Əmirlilərin köhnə sirdaşları" gizlin "Muğ"ların köməyilə "Ağ Əmirlə Boz Əmir Ağlar" adında dəstan yazıb, saz-söz ustadlarına göndərib Abı ilə Çürüyün bəlağətli dillərilə Şeyxlərin haqqında həqiqətləri yaydırmışdı.

Bu dəstan "Ağlaram Ağlar kimi" bayatısı ilə başlanıb, "Qəsri-Qacar"dakı faciə ilə tamamlansa da, faciə törədənlərin ünvanı Moskvadan, Şahdan uzaqlaşdırılıb, Din mərkəzi "kum" şəhəri şeyxinin adına bağlandığına görə, qocalar Məhərrəmova arxalanıb, hələ də "Xudiyev dəstəsi" adlanan KQB-dən çəkinmədən, Ağı – SafAğı, "Muğ"u – Bağı öz adı ilə deyə-deyə Elmi açıqca təbliğ edirdilər və bu iş Bakıda Mədədi əməlli-başlı xoşbəxt insana döndərirdi. Min doqquz yüz yetmişinci ildə, Nəsiminin anadan olmasının altı yüz illik yubileyi ərəfəsində, o dörd "Divan"lı nəhəng şairin həyatını əhatə etmək üçün "Divan"ların izi ilə "Vərəsə" tədqiqatı beynəlxalq miqyasa çıxıb, Səmədi Suriyaya, Hələbə, Bağdada, Şama[84] ezamiyyətə aparanda, Mədəd eyni xoşbəxtliklə "Musa Ağanın" – Ulu Bağ ƏsƏlMənin Muğandan Qazağa sürülməsi haqqında məlumat izi ilə, general Məhərrəmovun zəmanətini alıb Leninqradda "Upravleniye po delam pereselentsev" – "köçkünlərin işləri üzrə idarə"nin Dövlət Arxivinə təhvil verilmiş "qovluqlar arasında eşələnməyə" məcbur etmişdi o vaxtlar. "Bir ayağı Leninqradda, Bakıda, bir ayağı veteranlar cəmiyyətində, "yenə demək olar ki, bütün rayonun himayəsində "keyf çəkmişdi": ata əvəzi əmioğlundan başlamış, Elm, saz-söz ustadlarına qədər, himayədarlarının hamısı Mədədi "Bircə bala", "Varis", "Tədqiqatçı" adlandırmışdı. Odur ki, Tədqiqatçının minimumları verib qurtarıb, dissertasiya müdafiəsi ərəfəsində aspiranturanı atıb aşıqlığa qurşanıb müəmmalı göz yaşı ilə dolu gözlərlə sazın döşünə baxa-baxa "Ağlaram Ağlar kimi" sızıltısına qapılıb və "dilinə qıfıl vurub", ancaq hərdən üzünə çox baxanlara qəzəblə: "Tüpürmüşəm hər şeyə" deyə-deyə, atasının ölümündən uzun illər keçəndən sonra birdən-birə yasa batmağı üç para kəndlə birgə bütün rayonu da çaxnaşdırıb, bu sirli yasa marağı artırmışdı.

Abı ilə Çürüyü dəhşətə gətirən bir də bu idi ki, ana babası Əlləzoğlundan, nənəsi Hənifədən, anasından və dostu "pyanska şair" Şöşüdən başqa Mədəd heç kəslə kəlmə kəsməsə də, yasa marağın artmağı qıfılın sınmasına – sirrin açılmasına səbəb ola bilərdi. Buna görə də avqustun

---

[85] "*OMON*" – xüsusi təyinatlı milis.

iyirmi səkkizində, iyirmi doqquzunda Mədədin sağ-solunda dinməz-söyləməz saz çala-çala iki toy keçirəndən sonra qocalar daha nə toylara gedirdilər, nə də məclislərə; "mikrafonnu toyun zırıltısından cana doyub Çürüyün sazını istəyən" Qonaqlıların, Tahirlilərin, Qurbanlıların təkidli dəvətləri ilə birlikdə, "beşmanatlıq aşıqlar"ın boğazdanyuxarı mələmələrindən bezikib, dədə-baba havaları istəyən "pyanska şairlərin", o cümlədən Şöşünün yalvarışlarına da rədd cavabı verib, Mədədi hər yerdə camaatdan təcrid eləməyə çalışırdılar. Çünki "Çürüyün sazını istəyən" Qonaqlılar, Tahirlilər, Qurbanlılar həm də "hələ dili az-çox söz tutan" Abının sözünü də istəyirdilər ki, bəlkə bu qeyri-adi yasın sirrini öyrənsinlər; "dədə-baba havaları istəyən" şairlər isə həm də "Muğanna" təxəllüslü Pünhan şairin şerlərini oxuyan Mədədin qəm-kədər, dərd-ələm havalarını istəyirdilər ki, qəm-kədər içində bir eyham, işarə tutub, yasın sirrini bilsinlər. Bunu qocalar dönə-dönə deyib, Mədədi ayıltmaq üçün təkid edirdilər ki, ağzında dilini tərpətdiyi gündən "əmi" dediyi, sonralar "alimim, fəxrim" adlandırdığı ata əvəzi Səmədin özü ilə danışmadan, vəsiyyətin harda, necə yazıldığını, Sultanın öz istəkli, can-ciyər qardaşoğluna niyə elə birdən-birə düşmən kəsildiyini dəqiq bilmədən ah-uf eləməsin, tək Əmirli nəslinə yox, o tay-bu tay Azərbaycana, Türkiyəyə və bütün dünyaya aid olan yeddi yüz əlli cildlik "Vərəsə"yə – Səmədin çoxillik zəhmətinə "tüpürmüşəm" deyib dünyanı çaxnaşdırmasın.

Adi nəsihət təsir etməyəndə Xızr Abı birdən-birə dümağ ağarıb, soyuq tərə bata-bata qışqırırdı: "İçində nə var sənin, ey KQB?! Səməd Məhərrəm səviyyəsində adamlara da Hələbdən gətirdiyi əlavə material verib ki, hazır olsunlar. "Ermənilərin başlarına hava gəlib, Qarabağı almaq qəsdindədilər. Bütün dərdini çəkmək məqalə-zad yazmaq əvəzinə sən o kağızı cibinə qoyub yetim quzu təki mələyirsən. "Ağlaram!.. Nədi bu?!" Qocalar hardansa, kimlərdənsə öyrənmişdilər ki, "Sovet hökumətinin axırıdı", məhz buna görə də Səməd öz Pünhan Muğannalarına əlavə Elm sirləri verib ki, imkan yaransa, üzə çıxartsınlar SafAğ həqiqətini. Belə bir vaxtda Elmdən dönən kim olur səncə?! Mən məəttəl qalmışam, yəni mümkündümü belə dönüklük?! Nə olub sənə?! Danış! Açılış!"

Əmma bədbəxtlikdən, Mədəd bu deyilənlərdən təsirlənmədi, açılışmadı.

Toya dəvət edənləri, pavilyona çağıranları həyətdə görəndəcə qəribə hövl içində dik atılırdı. "Tüpürmüşəm, hər şeyə tüpürmüşəm! –

[86] "Hamınızı gülləliyəcəyik. Öz adamlarımızı gətirəcəyik sizin varlı ölkənizə!"

deyirdi və divarda xalçanın üstündə mıxlardan cərgə ilə asılı üç sazdan hansı əlinə keçsə, mıxdan qoparıb, eşikdə, toy adamları ilə dəli kimi danışırdı: "Mənimki Şüşəlidi daha! Nə Səməd adında əmim var mənim, nə Elmim, nə də Alimim! Tüpürmüşəm! Tüpürmüşəm!" Şüşəlidə isə "Zəhərimi ver!" – deyə-deyə stəkan dolusu "Badamlı"nı "levi arağı başına çəkib", tər içində, sazı köynəkdən çıxarıb, "pyanska şair" Şöşü – Şövkət Tahirlə bir küncə çəkilib, öz anlaşılmaz yasını, yanğısını araqla, sazla, sözlə söndürməyə çalışa-çalışa, yeməkdən də qalıb günbəgün əriyirdi.

Qocaları dəhşətə gətirən, nəhayət, bir də bu idi ki, Mədədin hövlü, hərəkəti ancaq vəsiyyətlə yox, həm də Əmirli nəslinin qatı düşməni, Qudalı ağsaqqalı Xəlvətlə – Agent Rəhimlə, bütün Qudalılarla bağlı idi. Arxada "baqajnik"lərdən "sideniye"lərin aralarına qədər yüklü "Volqa"larında Moskvada gəzən "Qudalı gədələri" avqustun iyirmi səkkizində gözlənilmədən kəndə qayıdıb car çəkdilər ki, Mədəd Əmirlinin doxsan illiyinə gəliblər, camaatdan xahiş eləyirlər Şüşəli pavilyonun qabağına yığışsınlar. Camaat yığışanda isə, Xəlvəti ortalığa çağırıb təklif elədilər ki, ağsaqqal Əmirli nəsli ilə ədavətinin üstündən qələm çəkib, illikdə iştirak eləsin.

İllərdən bəri bütün "illik"ləri ötürüb, birdən-birə "doxsan illik" demək təəccüblü olsa da, cavanların təklifi Qonaqlıları nə qədər sevindirmişdisə, xəlvət Rəhimin bu təkliflə tamamilə tərəddüdsüz razılaşıb, "Qələm çəkirəm! Bir şərtnən: zəng vurun, Səməd Əmirli gəlsin, özünün altmış yaşını da elə burda, öz yurdunda qeyd eləsin. Barışaq!" – deməyi hamını qorxutdu.

O günü – avqustun iyirmi səkkizində "Qudalı gədələri" – "Ağsaqqalın Əmirlilərnən barışmağı münasibətiynən" Güləndoğlunun bufetinin dalından "Badamlı"ları camaatın üstünə ata-ata, özləri də "yüz-yüz vura-vura" hamını, o cümlədən Mədədi də qonaq elədilər. Axşamısı, o qorxunc sənəd Mədədin pencəyinin döş cibində olanda, bu bədbəxtlikdən xəbərsiz, sərxoş cavanlar, "Volqa"larının "musiqili siqnalları" ilə Sudüşən çəməninə səs sala-sala rayondan Bakıya – Səməd Əmirliyə zəng vurmağa getdilər. Gecə yarıda susqun qayıdıb xəbər verdilər ki, "Səməd Əmirli illiyə gəlmiyəcək". Niyə? "Səbəbini deməyib, elə bunu deyib ki, gəlmiyəcək".

Vəsiyyətin üstünə bir kəlmə də əlavə olundu: "Gəlmiyəcək".

Məhz bu kəlmədən sonra Mədəd əlinə saz alıb, ustadlarına qoşulub, Qonaqlının Kətyənli, Tahirlinin Mələkqarı məhlələrində toyları yasa döndərdi. Məhz "gəlmiyəcək" kəlməsindən sonra, bu günlərdə aramsız

“səbr, səbr” deyən Çürüyün “ata əvəzi əmi” barədə məsləhətlərinə, Xızr Abının danlaqlarına dözməyib, hövl içində dik atıldı. “Bəsdi, bəsdi! Tüpürmüşəm, tüpürmüşəm! Nə Səməd adında əmim var mənim, nə “Vərəsə” kitabxanam, nə də tədqiqatçım!” – dedi və “pyanska şairə” qoşulub, bədbəxt ustadlarını da ardınca sürünməyə vadar edib, birbaş Şüşəliyə getdi. Məhz “gəlmiyəcək” kəlməsindən sonra Gülənoğluna “Zəhərimi ver!” – deyə-deyə, stəkan dolusu “Badamlı”nı acqarına, birnəfəsə başına çəkə-çəkə, yayın sıxıntısında, daimi qan-tər içində əriyib-arıqlayıb ələngəyə çevrildi.

Vəsiyyətin üstünə gələn bir kəlmə belə bədbəxtlik törətdi.

Yas da unuduldu, yasa maraq da. Şüşəlinin çayxana küncündə, “pyanska Şöşü” ilə “pyanska şairlər”in arasında, tüstü-duman içində çalıb-oxuyub “beşdən-üçdən alan beşmanatlıq aşıqlar”dan başqa, o küncdə üç bədbəxt məskən saldı: şan-şöhrətli Əmirli nəslinin son beşiyi Dəli Mədəd, Çürük Aşıq, Xızr Abı. Bir də gah “Mariya”, gah da “Məryəm ana” çağırdıqları cavanca rus qızı həmin dal otağın küncünə qısılıb gizlin-gizlin ağlayırdı. Şüşəlidə hamıya məlumdu ki, bədəncə nəhəng, hətta bir qədər kor-kobud, sifətdən isə “mələk Mariya” – “Məryəm” Mədədlə zaks kəsdirməsə də “qanuni arvadı” sayılırdı. Çünki Marina o ili – səksən səkkizinci ildə açıq görünən hamiləliyini gizlətmirdi, Mədəd isə, sərxoş olduqca, Marinanın böyür-başından keçənləri o yan-bu yana itələyirdi: “Varisimə toxunarsınız!..”

Mədəd Əmirlinin doxsan illiyi bir də o vaxt yada düşdü ki, yenə həmin “Qudalı gədələri” “musiqili siqnal”larla üç para kəndin üçünə də səs sala-sala car çəkdilər ki, sabah – oktyabrın iyirmi üçündə Səməd Əmirlinin atası sədr Mədədin vəfatının qırx iki ili tamam olur. Onlar – Qudalı cavanları yenə Bakıya zəng vurub, təkid eləyib, bu dəfə Səmədi yerindən tərpədiblər, bu axşam gəlməlidir, buna görə də üç para kəndin üçündən də xahiş eləyirlər ki, hər məhlə, kim nə qədər bacarırsa, siyahı ilə pul yığıb aparıb Şüşəlidə Gülənoğluna versin, Gülənoğlu sabaha qədər hazırlıq görsün, böyük qardaşı sədr Mədəddən beş yaş kiçik Sultan Əmirlinin səksən beş illiyi ilə sədr Mədədin vaxtı keçmiş doxsan illiyi, bir də ki, vəfatı günü bir yerdə keçirilsin, avqustdan indiyə qədər – dörd ay sərasər içkiyə qurşanıb ağlını itirən bədbəxt bəlkə camaatın qayğısını görüb ağlını başına yığsın, əmisi ilə barışıb aspiranturaya qayıtsın, rayonumuzun baş ucalığı, həmişəki istəkli Bircə balası, Varisi, Tədqiqatçısı olsun.

“Qudalı gədələri”nin bu xəbərindən sonra, axşama yaxın Şüşəli pavilyonun qabağı ikinci dəfə adamla doldu və Qudalı ağsaqqalı ikinci dəfə ortalığa çıxdı...

* * *

Mədəd öz daimi yeri çayxana küncündə, tək stol arxasında, tüstü-duman içində başını endirib donqarlanmışdı. Qabağında “Badamlı” şüşəsi, “Prima” siqareti, kibrit, külqabı, heç kəsə, heç nəyə baxmırdı. Sağ-solunda Xızr Abı ilə Çürük Aşığın xırdaca qaraltıları qaralırdı. O qaraltılardan o yanda isə Şövkət Tahirin – Şöşünün saçı ağarırdı.

Eşikdən Xəlvət Rəhimin səsi gəlirdi:

– Deyin görüm, ay camaat... Deyin görüm... “Bu dünyaya tək gəlib tək gedən katibin yeganə övladı” niyə bu kökə düşdü? Bu boyda rayonun, inqilab veteranlarının, Məhərrəmovun, Demokratların qanadlarının altında böyüyən Bircə bala, Varis, Tədqiqatçı niyə Dəli Mədəd oldu? Bu Dəli aspiranturaya gedəndə bizim cavanlardan da getdilər, bilirsiniz, şərqşünas, ərəbist, farsist olub xaricə getdilər, yazıb-yaradıb ad-san qazandılar! Əli Şiəsinin tarixini, Şah İsmayılı vəsf eləyə-eləyə bir tərəfdən imam Xomeyninin hədiyyələrini, üstəlik, xeyr-duasını qazandılar. O biri tərəfdən, “O tay, bu tay Azərbaycan”ı birləşdirmək, “vahid Azərbaycanda SafAğ” əbləhi yaratmaq xülyasında olanların əksinə, “Moya malenkaya respublika”, “Şiroka strana moya rodnaya SSR” deyib, ağılnan, kamalnan, gözəl, nağdı siyasəti tərifləyib Moskvanın təşəkkürünü aldılar! Bəs bu şan-şöhrətli Əmirli törəməsi, babalarının, əmilərinin, atasının əməllərinin havayı olduğunu açıq-aydın görə-görə niyə kəc baxdı mənimkilərə? Kim, nə batırdı bu bədbəxti?..

Xəlvət Rəhim gah camaatın başı üzərində çinarın sazaqdan titrəşən təkəm-seyrək yarpaqlarına, gah da camaatdan xeyli geridə dayanmış boz kostyumlu, arıq adama baxa-baxa, dalbadal dəhşətli suallar verirdi:

– Deyin görüm, bu Qurbanlı sovetliyinin üçpara kəndində neçə dəlimiz var bizim? Qonaqlıda Dam direktor Ələsgər müəllimi kim dama çıxardıb?.. Dünənəcən şapkasının qabağı qırmızı ulduzlu bolşevik fəxrimiz olan Qılınc Qurban, o möhkəmlikdə adam niyə infarkt oldu? Ondan geri qalmıyan fəxrimiz Xızr Abı hər cümə axşamı Tat Seyidin arvadının yasına gedib guya mollalıq eləyir, əmbə həqiqətdə, bilirsiniz, göylərnən əlləşir. Ona da Dəli Abı deyirlər indi. Tahirlidə Nuru müəllim çoban olub, sinifdə dərs demək əvəzinə çöldə “çobanları alim eləyir!” Nuru

müəllimin başı bəlalar çəkmiş, türmə məhrumiyyətləri görmüş ağ saçlı şair qardaşı Şövkət Tahiri kim "Pyanıska şair Şöşü" eləyib? Otuzuncu illərdən indiyə qədər, əlli il müddətində Əmirlilərin hökumətdən gizlədə-gizlədə saxladıqları o yeddi yüz əlli cildlik "Vərəsə" kitabxananın tör-töküntüsü əsasında yazılan "Vərəsə" adında dissertasiya deyilmi bu camaatı dəli eliyən?!.

Məhərrəmov cənablarının əli uzanıb gedib Təbrizdə, Demokratların vaxtından qalan gizlin mətbəə tapıb, bir Allah bilir nə qədər çap elətdirib tör-töküntü "Vərəsə"sindən, sərhəddən keçirib gətirib, bizim Bakıdakı "Yazıçı" nəşriyyatının adını yazıblar üstünə, basıblar respublikanın rayonlarına, Borçalıya, Başkeçidə sat ki, satasan! Nəçənnik Gülənova xəbər verdilər, milis səpələndi, hər yerdə bütün dükanlardan yığışdırdı. Bundan sonra kim harda görsə o kafir kitabını, ocağa tullasın! Bu içəridəki "Dəli" yenə "Ağ Əmir, Boz Əmir Ağlar" dəstanı başlasa, sazını qırın! Bəsdi daha! Adımız Sovet işçiləri, gözümüzün qabağında antisovet ƏsAğ – "Aşıq!" Nə qədər dözmək olar buna?!.

Ömrüm Qonaqlıda keçsə də, məni tanımırsınız siz, camaat! "Agent" nədi?! Başqa adamam mən. Odu ki, xüsusi tapşırılıb mənə, o SafAğ deyilən zibilin kökü kəsilməlidi! Sabaha qoymaq olmaz! Sabah müharibə gözləyir bizi. Yumruq təki bir, möhkəm olmalıyıq. Və, demək, milləti azdıranların dərsini verməliyik bu gün, bax bu Şüşəlidə!.. Biz burda məhv eləsək – bunları hər yerdə məhv eləyəcəyik! Nə təhər olacaq bu, gözünüznən görəcəksiniz!

Heç kəs dillənmirdi. Heç kəs tərpənmirdi.

Şüşə divarın dalında, tüstü içində dörd bədbəxtdən, Mədədlə Şöşünün və Abı ilə Çürüyün qaraltılarından biri "taburetka"dan qalxıb üzü aşağı – qapıya doğru getdi. Abı idi. Eşiyə çıxıb, bir əlində qəlyanı, o biri əlində təsbehi, dirsəkləri ilə camaatı o yan-bu yana itələyə-itələyə, əsəbi, çılğın, gəlib Xəlvəti dürtmələdi: – Eyy!..

Xəlvətin gözü camaatın arasındakı tək adamda idi. O boz kostyumlu, arıq, sakit, susqun adamdan başqa, indi heç kəsə, heç nəyə baxmırdı. Əmma qocanın qurusümük yumruğu necə ağrıtdısa, istər-istəməz dönüb üstdən aşağı, Abıya baxdı.

Abının alt çənəsi burnunun altına sıxıldı, gözləri qara, quru qırışların arasında itdi. Hamı, o cümlədən Xəlvət Rəhim də çoxdan bilirdi ki, sifəti bu kökə düşəndə Xızr Abının "dili qarnına gedib batin olurdu", əvəzində

“dilmancı” Çürük danışmağa başlayıb, öz yüzillik dostunun, balabançısının “batin dilini aşkar eləyirdi”, yəni “Xızrın gizlətdiyi” sözü deyirdi.

Bu dəfə tərsinə oldu. Alt çənə ağır-ağır açılıb sallandı, Abının bir əlcə üzünün qara-quru qırışlarının aralarından dümağ dəri göründü, pələng gözləri pavilyondan düşən “dnevnoy” işıqda ildırım kimi çaxdı və Abı, dilmancsız, öz “batin dilində” hamının lap asanca anladığı, tamamilə aydın sözlər dedi:

– Sənin zırrama alverçi şərqşünaslarından, farsistlərindən başlamış, burda kim bilmir bizim “Dəlilər” necə Dəlilərdi! OdƏllərimizi – Həqiqət Əllərimizi yenidən “Dəli”lərə döndərməkdə qəsdin nədi?! Başa salmamışammı səni ki, Od dövranı gəlir, yalanı yandırır Od – Həqiqət! Az qalıb, ay bədbəxt!.. Qandırmamışammı ki, bəsdi Elmi ayaqladığınız! Sovet olmuyacaq! Ermənilərlə aramızda müharibə qızışdırıb içərimizi zəhərliyəmmiyəcəksiniz, ey İlan agentləri! Əməliniz bax bu ovcumun içindədi. Bu gün “perestroyka” deyə-deyə Soveti, Sosyalizmi dağıdırsınız! Sabah “İslam, İslam” deyə-deyə milləti Farsın ayağının altına atacaqsınız ki, o tayı yeyib qurtaradan sonra bu tayı da yesin! “Fars”san sən, Rəhim Erməniyə “erməniyəm” deyərdin. “Cuhud qarışacağım var” deyərdin. Əmma məlumdu – Farssan, yəni mənasızsan! EvƏrƏs ikən “Pers”, “Pars”, “Fars” – mənasız olan! Qarışdırırsan yenə aranı! Ayıl, məna kəsb elə bu qoca Abıdan! – Abı titrəyirdi.

Xəlvət sakit-sakit, ağır-ağır başını bulayıb, “Qudalı gədələri”nə – hamıya məlum olan “Gizlinlər”ə işarə verdi.

Məhlədə, kənd arasında, xeyirdə-şərdə heç vaxt bir-birindən ayrılmayıb həmişə topa gəzən, yoğun-yoğun “ət torbaları” vətəndaş geyimində OMON[85]-çu Gizlinlər indi də topa yığnaqla, hay-küylə camaatın arasından çıxıb, Abını hop götürdülər.

– Bıy, ə, bu nə yüngülüymüş! Çəkisi yoxdu ki, heç. Yedirtmək lazımdı! – deyə-deyə, çiyinlərində çabalada-çabalada, şüşə divar uzunu aşağıya – qapıya doğru apardılar. Əmma qapıya çatmamış yerə atmalı oldular. Çünki Abı, deyilənə görə, Ermənilərlə müharibə üçün silahlanmış bu açıq Gizlinlərin – “ət torbalarının” şubalarının yaxalarını açıb Kalaşnikov avtomatlarını göstərirdi, bahalı “norka” papaqlarını

---

[87] “Məhəmməd Əmir” – BağHəmOd EvƏrEy: Ağ “Əmir” – SafAğ EvƏrEy. “Boz Əmir” – BağƏs EvƏrEy. “Şeyx Əli – “Aşıq Alı” – ƏsAğ Əli. “Ələsgər” – ƏlƏs OdƏr və s.

vurub ayaq altına salırdı, can-cürəfəsəsilə uyuşmayan nəhəng əllərilə şapalaqlayırdı.

Yerə düşəndə, əl-qolundan çəkişdirən, – Gəl, a kişi. Yedirtmək lazımdı səni. Gəl! – deyə-deyə gülüşən Gizlinlərə göz gəzdirib, büzüşüb birdən-birə yazıqlaşdı, çayxana küncünə gedib, yenə dörd bədbəxtdən birinə çevrildi.

Camaat gah bədbəxtlərə baxırdı, gah da Xəlvətə.

Çinarın lap dibdən, demək olar ki, kökdən ayrılıb yanlara süzmüş alçaq budaqlarından tək-tək, boz yarpaq düşürdü. Sazaq vurduqca Xəlvətin qırmızı üzü daha da qızarırdı, ağ pambə bığı daha da ağarırdı.

– Bu OdƏr deyənlər yaman sırtıqlaşıblar, camaat! İnişil o dediyim kitabı Bakıda, Akademiyada cırıb-dağıdıblar, o Pünhan gədənin özünü də, ətrafındakı SafAğ gədə-güdə alimciyəzləri də KQB-yə çəkirmişlər. Heydər Əliyev adam göndərtdirib Akademiklərin partiya iclasına ki, adamdı, yazıb... Heydər qanlarının arasına keçib bunların. Əmbə, siz yaxşı bilirsiniz, Moskva yaxın qoyarmı bunların Bağdayını-filanını! Dəli Səməddən, Dəli Mədəddən savayı bir aləm Dəli! Adları Pünhan, özləri açıq, əllərində “Vərəsə” tör-töküntüsü, milləti dəli eləyib! Açıq deyirəm, bıçaq sümüyə dirənib. Qan töküləcək, camaat! Xəbərdarlıq eləyirəm, heç kəs əl-ayağa düşməsin... Bir nəfər yoldaş var burda. Kimi nəzərdə tuturam, özü bilər. Qabırğaları sınıb tökülüb, əmbə hələ ayaq üstədi. Ona deyirəm: səsini çıxartmasın! Bu xəbərdarlığı eləməsəm də, özü başa düşür ki, əsirimdi. Ölməyə gəlib öz ayağıynan... Baxışmayın, camaat! Dedim əl-ayağa düşməsin heç kəs! Görürsünüz ki, Qudalı cavanlarını! Sultan Əmirlinin zamanında yetirdiyim cavanlar, qocalıblar, dağılışıblar. İndi yetirdiklərim, bilirsiniz ki, şan-şöhrətli adamlardı hamısı. Bu yetirmələrimi bərk bağlamışam Qudalı məhləsinə. On qızımın hərəsindən beş-altı qız nəvəm var. Vermişəm bunlara, hərəsinə ayrıca ev tikdirmişəm öz hesabıma. Sudüşən məhləsinin kəsdiyi başa sorğu yoxdu! Bəli, silahlanmışıq! Rus bu sazlı-sözlülərə açıq deyir: “Mı vas vsex perestrelyayem! Svoix lyudey privedyem v vaş boqatıy kray!”[86]

Bayaq dediyim yoldaş eşidir bu dediyimi, siz də eşidirsiniz. Yetirmələrim özləri də birdəfəlik başa düşməlidilər ki, onlar özləri də əsirdilər. Dalına qulaq asın... Deyin görüm, camaat... Veteranlar cəmiyyətinin qəlyanlı qocalarından, bir də bu Çürüknən Abıdan, o Şöşü deyiləndən savayı kim açır sədr Mədədin qapısını. Məmiş qızı Gülgəzdi, bir də o Dəlinin nezakonnı Mariyasıdı. Vəssəlam! Niyə? Səməd Əmirli

niyə qadağan eləyib yası? “Yeganə vətənpərvər katib”in ruhuna baş əyən veteranlar cəmiyyəti niyə razılaşıb Səməd Əmirlinin qadağasıynan? Uşaq yetimlik çəkməsin?

Yalandı! Hamınız yaxşı bilirsiniz ki, Mədədin kənddən aparılmağı da, Qılınc Qurbanın şəxsi katibi, çekist, aspirant-filan olmağı da bircə məsələynən bağlıdı. Dəli Səməd eşq dəlisi deyildimi?! Əmisi arvadı Cığalı Gülgəzin oynaşı deyildimi?! Doğrudu, Lüt Cəfərin Torksini toy-suz-filansız arvad olandan sonra ayağı kəsildi o oynaşın Gülgəz səm-tindən. Nolsun?! Kim silə bilər oynaş adını onun üstündən?!

Sultan Əmirli özü də bilirdi bunu. Mən də bilirdim. Siz də bilirdiniz. Köhnə bolşeviklərnən Qılınc Qurban da, Təftiş Abbas da. Camaatdan təcrid eləmişdilər uşağı, vəssəlam!

Nə Sultan Əmirlinin otuz dörd il bundan əvvəl elə qəfildən ölmə-yinin səbəbi gizlindi, nə də oğlunun indi burda içkiyə qurşanıb Dəli Mədəd – Dəli Aşıq olmağının səbəbi: sənəd var əldə! Soruşun o dəli-dən, atasının sovxasının cibindən çıxartdığı kağız nə kağızdı?! Atası nə vaxt yazıb onu? Niyə yazıb?

Soruşun. Birinə də cavab verəmməz bu suallarnan. Sualların cavabı bu birisi dəlidədi. – Xəlvət, camaatın arxasındakı boz kostyumlu, arıq, sakit, susqun adamı göstərdi. – O böyük dəlinin ovcundadı bu sualların hamısının cavabı! Gəlsin yanaşı dursun Dəli Mədədiynən, baxın görün kimin oğludu Dəli Mədəd?! Sultan Əmirlinin, yoxsa mənim bu söz-lərimə bir kəlmə də etiraz eləmiyən o boz kəstumlu yoldaşın – Səməd Əmirlinin?! Allah olub, müqəddəs olub hamısı! Xalqımız da bu yaramaz müqəddəslərin elmini oxuyur, müqəddəs Bağday ölkəsi yaranacaq deyir!

Üzünə “Tfu” eliyəcəm guya göydən Ün eşidən o yaramazın! Yaxın gəl, ey özünə “Boq” deyən murdar!” “Bağ” nədi?! “Boq” – Boqdu, İslamın əleyhinədi, vəssəlam! Odu bax Qubada şeyx Cüneyd məqbə-rəsində yazılıb: “Aləmimizin Allahı İsayi məsihdi”. Ərəbcədi “İsayi məsih”. Əmbə siz öz dilinizdə deyirsiniz: “Aləmimizin Allahı EySardı”. Nə fərqi var, a balam? İkisi də İisus deyilmi?! Rus kömək elədi, imam Xomeyni gəldi hakimiyyətə, siz də ona baxıb iştaha düşdünüz! Rus – Rusdu, dünyanın yiyəsidi, bə siz kimsiniz?! Odu bax Bakının Zirəsində üzünüzə açıq deyirlər: “Türk oğlusan, köpək oğlusan!..” Bildinmi kim-sən, ay oynaş?!

Xəlvətin səsi hamını, o cümlədən Səmədi də sehrləmişdi:

– Sultan Əmirli ayaq açdı bizim məhləyə, şəxsən dərs dedi mənə "Muğ", "Mağ" deyilən Bağlar barəsində, Sibirdə çürüyənlərinizi adbaad dedi. Gördü gülürəm, o yassar. Abısını çağırdı, dedi: "Rəhim Qudalının özüynən bütün nəslinin, qohum-əqrəbasının taleyini sənə tapşırıram". Guya diri ikən ölüyük hamımız, Abı dirildəcək bizi! Mən bilmirəm nə ad verim bu məsxərəyə, ay camaat! Bütün xaçpərəst aləmi düşməndi bu "SafAğ" deyilənə! KPSS, şəxsən generalnıy sekretar Qorbaçov düşməndi SafAğa. "Yevrey"i EvƏrEy, Tərik – Türk eləyən sehrkar Mağlardan qalıb bu SafAğ elmi! İmam Xomeyni düşməndi İslamı ƏsƏlim eliyən, Farsı EvƏrƏs eliyən Dəlilərə! Lap açıq deyirəm, biri də salamət qalmıyacaq bu Muğ, Mağ, Muğanna deyilənlərdən!

Özünüz deyin, barışarammı mən Əmirlilərnən?! "Muğ", "Mağ" adını biz yapışdırmışıq bunlara ki, qansınlar birdəfəlik: Bağ-zad deyillər. Necə yəni "insanı insana bağlayan Bağ?!" Hünəri var məni bağlasın özünə! Necə yəni "hamı OdƏrdi?!" Fars – Fars deyil?! Rus – Rus deyil?!

Arazın o tayından şeyx Ağ Əmirnən şeyx Boz Əmirin başsız bədənləri qəbirdən çıxa minnətə gələ, bu taydan Sultan Əmirli, Mədəd Əmirlisiynən, Qılınc Qurbanıynan, Lüt Cəfəri-filanıynan bir yerdə qəbirdən çıxa, Bakıdan üzü bu yana, Gəncədən, Şəmkirdən Demokratların hamısı yığılıb ordu ola yeriyə üstümə, yenə barışmaram! Sədr Mədədin doxsan illik söhbəti yoxdu burda. Bu Səməd deyiləni mən gətirtdim Bakıdan. Qudalı cavanlarını mən çağırtdırdım Moskvadan. Bu səhər bu böyük dəlinin özünə açıq demişəm telefonnan hər şeyi: Əxlaqsızlığına qurban olmalısan burda! Yoxsa oğulluğunnan onun nezakonnu Mariyası, qarnındakınnan bir yerdə qurban kəsiləcəklər bir olan Allahımıza! İmam Xomeyninin tapşırığıdı bu! Din düşmənisiniz siz! Pullarınızı qaytaracaqlar, ay camaat! Kim istəyir qalsın, guya "göylərin pənahında olan Sim-Od – Səmədin vayını görsün! Qanını qaraltmaq istəmiyəni saxlamırıq.

Mən qurtardım. Dalını "Bircə bala" deyəcək öz "ata əvəzi əmisinə". Görək necə deyəcək!

Xəlvət şüşəni tıqqıldatdı.

– Çıx! Sultan Əmirlinin qatilini gətirmişəm, – dedi.

Səməd bayaqdan necə susqun dayanmışdısa, eləcə də dayanıb, başını yana əyib, içəridəki bədbəxtlərə tamaşa eləyirdi.

---

[88] Keçmiş Qazax qəzasının Padşahlıq kəndində gizlin AdıPünhan Musa Muğannalardan biri, məşhur Musa ağanın oğlu Dəli Hüseyn. Şıxlı kəndinə köçənlər Dəli Hüseynlər adlanırlar.

Heç kəs dillənmirdi. Heç kəs tərpənmirdi. Hamı, o cümlədən Qudalı cavanlarının qapı ağzında, qaz "peç"inin yanında topa yığnağı da ayaq üstə qurumuşdu.

Mədəd "Badamlı"sını başına çəkdi. Ayağa qalxıb, barmaqlarının arasında qızaran siqareti sümürüb külqabına basdı. Stolun dalından çıxıb, qapı ağzındakı yığnağa baxıb, birbaş şüşə divarın üstünə yeridi. Qoşa dəmirlər arasında şüşə lövhələrdən biri partlayıb töküləndə, çayxana küncünün sazağa qarışan buğu, tüstü-dumanı içindən Mədəd əvəzində skelet peyda oldu.

Son dörd ayda Abı ilə Çürükdən, "beşmanatlıq aşıqlar"dan və "pyanska şairlər"dən başqa heç kəsin ayaq basmadığı çayxana küncündə "ələngəyə dönən bədbəxt"in haqqında nə qədər söz-söhbət gəzsə də, yaxınlaşmağa cəsarət eləyib, sifətinin bu dərəcədə dəyişdiyini görən olmamışdı.

Sifət yoxdu, dümağ sal sümük vardı, bir də iki göz; bunu yalnız Marina – Məryəm, Şöşü, Abı, Çürük, bir də gecələr haralardansa gəlib "Şüşəli"yə doluşan, "Barev, a musurman! Kef-ahval?" – deyə gülüşən, çiyinləri Kalaşnikovlu ermənilər görürdülər.

Divarın şüşəsi güllə səsi kimi partlayıb dağılandan sonra camaat özünə gələndə Xəlvət üzü üstə yerə sərilmişdi. Başının dövrəsində şüşə parçalarının arasına qan axırdı.

Mədədin yaydan əynində olan nazik, boz pencəyinin qollarından da dümağ sal sümüklər uzanıb çıxdı. Skelet nəhəng, göyümtül əllərinin birini Xəlvətin göy şivyot kitelinin boynuna, o birini paçasının arasına saldı, dörd ay bundan əvvəl Abının əlindən yerə düşən kağızı sakitcə götürüb qatlayıb pencəyinin döş cibinə qoyanda olduğu kimi, öz adi – qalınaraq, cod səsi ilə: – Sən çoxdan leş olmalıydın, – deyib, "leş"i qaldırıb çinarın gövdəsinə çırpdı.

Skelet yox, Şüşəlinin daimi tüstülü, dumanlı küncündən, "Badamlı" şüşəsindən div peyda olmuşdu, Xəlvətin yumşaq şivyot içində titrəyən ət bədənini çinarın gövdəsinə çırpıb, nəfəsini dərib, yenə çırpırdı.

Camaatı qan tutmuşdu. Heç kəs tərpənmirdi. Heç kəs dillənmirdi.

Səməd zəif, üzüntülü səslə:

– Bəsdi, – dedi.

Mədəd Xəlvəti bu dəfə qucağına qaldırdı, aparıb qapı ağzında Qudalı cavanlarının üstünə atdı.

– Qoymayın ölməyə. Burda nə olacaqsa, hamısını görməlidi, həqiqətən barışmalıdı biznən bu adam, – dedi. Sonra “zal”dan hərlənib, həmin küncdə, qaraltılar arasında oturub, həmincə bədbəxtə çevrildi.

Nə baş verirdi? O qədər də anlaşılmırdı.

Xaş nəçənniklə milisionerlərinin maşınları qıjıltı ilə gəlib çinarın altına doluşanda diqqət Mədəddən yayındı. Nəçənniklə milisionerlər, lap axırda isə, çiyni kürklü prokuror Sayılov camaata salam verə-verə Şüşəlinin dal otağına doluşdular... Bu üçpara kənddə xəbər yayılmışdı ki, Ermənilərlə o səmtdəki Rus ordusu gecələr Laçını işıqlı güllələrlə atəşə tuturdular. Azərbaycanın ixtiyarında olan OMON batalyonları isə Laçından o yana işıqlı güllələr atıb, sonra susurdular. Nə idi bu? Müharibə idisə, niyə deyilmirdi ki, müharibə artıq başlanmışdı? Şüşəliyə gələn ermənilər sərbəstcə qaqqıldaşırdılar: “Ara, maşk elayirik eli! Dava olsa ha!.. Ela-bela maşqdı!..” Yeyib-içib səhərə yaxın yoxa çıxırdılar. Prokuror Sayılov əslən Laçınlı ola-ola, laçınlıların gecə atışmalarında iştirak etməsinə “Axmaqlıqdı” – deyirdi və bu, Şüşəlidə hamını təəccübləndirirdi. “Kürd” kimi tanınan bu adamın Gülənovla gəzməsi daha təəccüblü idi. Başqa vaxtlar Xəlvət Rəhimin dövrəsində qoçu dəstəsinə oxşayan “Qudalı gədələrinin” – Kalaşnikovlu Gizlinlərin elə bil heç nəfəs almadan tamam hərəkətsiz qalmağı da, üstəlik, bir anlaşılmazlıqdı. Səmədin Torksindən olan yeganə oğlunun – atasının adını daşısa da “Səmi” adlandırılan OMON-çunun da ara qapını açıb özünün beş nəfərlik dəstəsi ilə dal otaqda Gülənovun stolunun böyründəki stolda oturması da bir cür anlaşılmazlıqdı. Çünki Səminin Zor nəçənnik Gülənovla “düz gətirmədiyini” bilməyən adam yoxdu.

Səməd irəli yeriyib, təkəmseyrək yarpaqların altından Şüşəlinin “dnevnoy” işığına çıxdı.

Camaat indicə görürdü ki, Qudalı gədələrinin xəbərindən sonra yolunu gözlədikləri əvvəlki Səməddən də əsər-əlamət qalmamışdı.

Gur qara, dalğalı saç əvəzində, çılpaq başının dövrəsindən qulaqlarının üstünə, boynuna dümağ seyrək tüklər sallanmışdı. Eynilə Mədədin sifəti kimi dümağ sal sümük sifətində quru qan ləkələri qaralırdı. Dodaqları göm-göy idi. Pencəyində də quru qan ləkələri vardı. Nəfəs aldıqca çiyinlərinin qalxıb enməyi, burnunun sıxılmağı və gözlərindəki işgəncə, üstəlik, “Qudalı gədələri” Gizlinlərin biri-birinə: – Nə ki var çırpıblar ey!.. Ağsaqqaldan əmisinin hayıfını çıxdı Mədəd”, – və sair belə-belə sözlər deməyindən də aydındı ki, Səmədin bu hala salınması Xəlvətlə Gülənovun işi idi. Əmma Səmi ilə dəstəsinin bu dəhşətə heç

bir "reaksiya verməməsi" də bir anlaşılmazlıqdı. Həm açıq-aydındı hər şey, həm də dumanlı və məhz anlaşılmaz: Səməd Əmirlinin belə təkidlə rayona çağırılması və "doxsan illik" adı altında dostla düşmənin bir araya yığışması, stolların yemək-içməklə doldurulması nə üçündü? Səməd hardasa çox pis döyülmüşdü, boğulurdu. Prokurorsa nəçənniyin etinasızlığı da bir müəmma yaratdı!

Səməd, salamsız-kəlamsız, başını endirib, qanlı şüşələrə baxa-baxa, ayaqlarını sürüyə-sürüyə içəri keçdi.

Qoşa qaraltılar arasında donqarlanmış skeletə ikinci skelet yaxınlaşdı. Yalnız bu vaxt camaat da, nəhayət, hərəkətə gəlib pavilyona dolmağa başladı.

Səmədin bir əli başında – əmgəyində, o biri əli boğazında idi. Səsindəki xırıltı pavilyonda sükutun gərginliyini daha da artırırdı:

– Mühitimizin havasında nəfəs verilmir daha bizə. AdıPünhan deyir Azərbaycanın hər yerində Erməni əli var. Ərazimizin hesabına "Velikaya Armeniya" düzəltmək ideyası xəyal deyil daha. Planlı iş gedir. Xarici dövlətlərin çoxu Erməni tərəfindədi. Bizim bütün milli qüvvələrimiz bax beləcə, əmini sındırdıqları kimi sındırılır, qırılır. Dözməlisən, qurbanın olum!.. Fikrini topla, qulaq as mənə... Minlərlə Dəlinin cəhənnəm əzabıynan əmələ gəlib "Vərəsə" kitabı. Batmıyacaq... Dəli Səməd öləcək, Dəli Mədədlə Dəli Səmi, bütün Pünhanlarnan bir yerdə işimizi davam etdirəcəklər. Bildinmi iş nə yerdədi? Pünhanlarımızın,[87] Sultan Əmirliynən Mədəd Əmirlinin adları yenidən parlayacaq.

Danışacam, düşmən eşitsin. Məni dinləməyə yığışıblar bura. Xüsusi tapşırıqnan.

Həqiqətimizi bildiklərinə görə qorxurlar, əlavə material yığırlar. Moskva üçün tapşırıq belədi bunlara. Kitab oxuyan yoxdu. Vəzifəlilər gündəlik kağız-kuğaz içində itiblər. Kitablarımızı elə-belə vərəqləyib artırlar, Moskvaya, Qorbaçova dikilib gözləri. Məqsəd bizi ləkələməkdi, xalqın gözündən salmaqdı, öldürməkdi. Xəlvəti xüsusi təlimatlandırıbdır. "Gizlinlər" adlandırdığınız cavanlar dəstəsi xüsusi kurs keçib, "Milli birlik" adında təşkilat təşkil eləyiblər. Guya Muğannalar milliyətcə yabançıdılar. Bu yığnaq, mənim çağrılmağım, "Qudalı ağsaqqalı"nın nitqi, hamısı təlimat əsasındadı. Tələb eləyirlər ki, pencəyin döş cibində gəzdirdiyin kağızı bu üç para kəndin camaatının gözünün qabağında cibindən

---

[89] Erməni terrorçuların məşhur ifadəsi: "az-az". Yəni elə qırın ki, səsi çıxmasın.
[90] A.S.Puşkinin babası.

çıxarıb ortalığa qoyasan. Məni məcbur eləyəsən bu sənədin nə vaxt, hansı şəraitdə yazıldığını danışım... Bezobraziyenin fikrincə, bizim hamımızın ifşasıdı bu. Bəs əslində necədi? Əlli dördüncü ilin avqustunun axırında əmimi mənən öldürdüm mən, cismən yox! Əmimi cismən zəhərliyənlər çoxdu... Sən mənə qulaq asmırsan, Mədəd. O qan çanağının bayaq eşikdə üzünü camaata tutub mənim başıma yağdırdığı suallardan başqa heç nə yoxdu sənin fikrində: "Kimdi bu danışan? Ata əvəzi əmimdi, yoxsa anamın oynaşıdı?! Öldürübmü?! Öldürməyibmi?! Doxsan illiyə niyə gəlmədi?! Niyə məhz bu gün, məhz bu axşam gəldi?!" Sənin bu suallarına cavab vermək mənim ölümümdü, Mədəd.

Əmma danışacam. Lap açıq.

Qırx altıncı ilin oktyabrının iyirmi üçündə atam Mədəd Əmirli öldürülüb.

Əlli dördüncü ilin avqustunun iyirmi səkkizində atan Sultan Əmirli öldürülüb. Demokrat partiyasının rəhbəri Pişəvəri, milli qeyrətli filosof Heydər Hüseynov, Saşa Babayev... hansını deyim?!

Sabah, səksən səkkizinci ilin dekabrının iyirmi üçündə mən də öldürülməliyəm.

Sən öldürəcəksən məni. Daha doğrusu, sənin əlinnən öldürəcəklər.

Sən yaxşı bilirsən Ün eşitmək nə deməkdi. Eşidirsən. Sənin, özümün bütün Muğannaların haqqında ən bəd, ən qorxunc xəbərlər də deyilir mənə. Yalnız ona görə yox ki, ölüm yoxdu bizə. Bir də ona görə ki, Varisim var. Əmma sənin üçün ağır olar mənim ölümüm. Bir də ki, ümumiyyətlə, ayrılmaq istəmirəm səndən... Bəzi şeylərə əməl eləsən, ölmərəm. Bu cür, indiki kimi qapalı qalsan, mən ölməliyəm hökmən. Gəldim ki, sabaha qədər azdan-çoxdan bir şey çatdırım sənə. Başa düşdün? Düz deyir, öz ayağımnan gəlmişəm ölməyə. Səni xilas eləyəcəm. Cibindəki kağızı öz əlinnən cırıb atacaqsan, gedib oturub işləyəcəksən. Hər şey səndən asılıdı...

Duman içində Səməd Abının qaraltısını görürdü.

Abı göz yaşının əlindəki qızarttaq su ilə dolu stəkana töküldüyünü hiss eləmirdi. Arabir eyni sözləri təkrar edirdi:

– İç, ey əzabkeşimiz! Hamanca dirilik suyudu. Bunu iç, sonra danış, – deyirdi.

Abının yalvarışına qışqırtı qarışdı:

– İç, köpəyoğlu! İç onu, sonra danış! Bezobraziye yox, düz deyirsən ki, öz balan öldürəcək səni! Prokuror Sayılov da məhz ona görə

gəlib ki, cinayət işi qaldıracaq! Biz üzünü göyə tutan əbləhlərdən deyilik. İşimizi özümüz görürük!.. Özümüz!..

Qaz "peç"inin böyründə, qara dəri kresloda "leş" dirilib, kitelin içində dimdik oturmuşdu; Ələsgər müəllimin arvadının, son vaxtlar Qudalılarla yaxınlıq edən birlik üzvü Sestranın qanlı bintlə dolu əlini ovcunda sıxıb, başının üstündə silkələyə-silkələyə titrəyirdi:

– Bu əl sənin də yaranı sarıyacaq! Öləndən sonra yuyub sarıyacaq ki, kəfənin batmasın!.. İç o kaftarın o "dirilik suyunu", özünə gəl, cavab ver suallara. "İdeal" əmin Sultan Əmirli sənin istəkli Cığalını niyə zorladı?! O murdarın evindən necə qaçdın, necə dəli-divanə oldun?! Sonra niyə qayıtdın onun xarabasına, niyə oturdun onnan qabaq-qabağa, bir süfrədə?! O qəhbənin əliynən bişən kababdan tıxaşdırmağamı getmişdin?! Yoxsa, başqa niyyətin varıydı? Nəydi niyyətin?.. Necə yəni "Məni Varisim öldürdü?" Sən ki əl qaldırmayıbsan Sultana. Bu birisi Varisə yaxşı-yaxşı başa sal sən öz qatilliyini! Mirqəzəbin məhkəməsində oturduğu yerdəcə keçinibsə, keçinənə qədər niyə yazıb o ittihamnaməni? Bloknotdan cırıb, kamal-səliqəynən qatlayıb qoyub kitelin döş cibinə! Niyə?! Mən hardan bilirəm sizin bu sirlərinizi? Bunu da yaxşı-yaxşı, qıyma-qıyma danış, camaat bilsin kimdi bu Xəlvət! Çünki Xəlvətin kim olduğunu bilən yoxdu burda!

Məhkəmə qurmuşam. Düz deyirsən ki, bu yaşımda kursa apardılar məni, məlumatlandırdılar ki, millətimizin qəddar düşmənlərisiniz siz Türk deyilənlərin hamısı! Türkiyə dediyiniz yerdə də qırılacaqsınız!.. Niyə? Deməərəm, onu sənə. Belə danışmıyacam ey, bala! Əmin gorbagornan bir yerdə cəmi gorbagorlarınızı qəbirdən çıxardıb iççalatlarını göstərəcəm bu camaata!

Danış! Qəhbə nəsil hara, Allah, Peyğəmbər hara?! Bütün Azərbaycana yayılacaq sizin əxlaqınız, fırıldaq elminiz!.. Odu bax, istəkli yetirmən Dəli Mədəd bizim afisiantın qarnını gör necə dombaldıb! Tüpürüm sizin namusunuza, qeyrətinizə, adı SafAğ, özü əfsanə elminizə! Müdafiə elə özünü görək necə eliyəcəksən!

Pavilyona sükut çökmüşdü. Qazla qaynayan samovarın "truba"sından püskürən alovun gurultusu qaz "peç"inin gurultusuna qarışırdı. Camaat şüşə divarlar uzunu sıxlaşıb, mat-məəttəl, gah zalın yuxarısına boylanırdı, gah aşağısına.

İki düşməndən biri ayaq üstəcə göz görəsi keçinirdi: gicgahlarının damarları şişib göyərmişdi. İkincisi qan içində, qara dəri kresloda, çir-

məkli qolunu dizinin üstünə qoymuşdu. Çünki Sestra zorba şprislə Sudüşən cavanlarından qan alıb Xəlvətin venasına yeridirdi.

Düşmənliyin kökləri əsrlərin uzaqlığında, kamillik yolunda SafAğlarla İlan arasında idi, düşmənliyin davamı isə, İlanın "konsperativ" – gizlin ordusundan bir qismi ilə SafAğ Elminə dair kitablar, şeirlər yaydıqlarına görə daha heç kəsdən gizlənməyə səy göstərməyən Muğannalardan bir qismi arasında idi; Bakıda, Akademiyada başlanmış, sonra dindarlarla SafAğ ziyalılarının arasında idi və hələlik, "Qudalı gədələri", "Gizlinlər" adlandırılan, əslində isə həqiqi adı hələ açılmamış "Boz qurd" təşkilatı ilə idarə edilirdi. Üçpara kənddə və rayon mərkəzində bu "konsperativ" mübarizədən xəbəri olanlar "dal otağ"ın qapısını taybatay açıq qoyub, hədsiz maraqla, nəfəslərini qısıb, pavilyonda işin sonrasını gözləyirdilər. Çarpışmanın miqyasını və ümumiyyətlə nə baş verdiyini bilməyənlər isə, heyrət içində boylanırdılar. Qaz gurultularından başqa, bir də Xızr Abının yalvarışı eşidildi:

– İç... iç, gözümün işığı!.. Bu dörd ayda hər gün özümnən gətirib aparmışam dərmənini bu xarabaya. Yolunu gözləmişəm. Bilirdim dözəmmiyəcəksən bu müsibətə. İç, dözümlü ol!.. Qırx altıncı ildə Sultannan Mədədi də bunnan sağaltdım mən. Getdilər Naxçıvanda, Culfa yolunun üstündə KQB-nin dırnağından qopartdılar "Vərəsə"mizi. Bu qansız oğlu qansız Xəlvətin özünü də bunnan saxlamışam. Əbləh oldum, mümkün qədər Elm verdim, dedim bəlkə adam olar ilan. Neynəyim mən bədbəxt?! Elmdən başqa nədi silahımız?! Bir vaxt vardı, "Günəş" Pünhanımız[88] qaçaqlara tüfəng paylatdırdı. O tayda Səttarxan qalxdı, bu tayda Dəli Alı, Nəbi, Kərəm, ƏlƏs qalxdılar. Nə oldu axırı?! "Günəş"imiz az qalırdı başını divara döysün. Çünki OdAğÜzdən Ün döyürdü bədbəxtimizi: "Atlanın, qırılın! Sizdən Elm yayan olmaz! Atlanın, qırılın! Yaramazlar!.." Hər gün belə sözlər eşidirdi, yazırdı, göndərirdi. AdıPünhan Ələskərə, Ələskər göndərirdi Dəli Alıya. Alı da belində patrondaşıynan çiynində tüfənginə, sonra da "Günəş"in kağızına işarə eləyib deyirdi: "Bu nədi, bu nədi?!" Atlandırırdı qaçaqlarını, yəhərdə başını sallayıb ağlayırdı. Beləyik biz. Neyniyək?!

İç, toxta. Otur, dincəl. Söz çoxdu, tələsmə. Təntimə. O mərd Səmədi sal yadına. Sınma! Sınmayıbsan. Sınmazsan sən. İç! Otur! Dincəl, gözümün işığı! Danışacaqsan... Danışacaqsan...

Səməd heç nə görmürdü. Zülmət içində, ağrıdan kütləşmiş beynində üç kəlmə fırlanırdı: "Mədəd, yaxın gəl... Mədəd, yaxın gəl..." Hiss edirdi, anlayırdı ki, Mədəd də xəstədir. O dəhşətli sənədin, o sual-

ların pəncəsində boğulub üzülür. Əgər indi, məhz bu dəqiqələrdə sualların heç olmasa bir qisminə cavab almasa, əmisinə az-çox inanmasa, o ət torbasını elə heybətli nifrətlə ağaca döyəcləməyindən də betər işlər törədəcək və tamam sınıb, sözün əsl mənasında boğulub, babası Şeyx Məhəmməd Əmirdən qalan bu irsi xəstəliyinin qurbanı olacaq... Bir əli Çürüyün, o biri əli Abının çiynindən üzüldüyü, yıxıldığı anda da Səməd "Yaxın gəl, yaxın gəl" deyirdi.

Abının "dirilik suyu" – YemSən ömrünün sonunda Sultan Əmirliyə kömək eləmədiyi kimi, Səmədə də kömək eləmədi: qocalar suyu zorla içirdəndən sonra da "Yaxın gəl" sözləri dillə dişin arasından çıxmadı.

Yıxılanda Səməd boynunun ocaq istiliyində kiminsə soyuq, çirişli əlinin təmasını hiss etdi, qulağının dibində Xəlvətin qışqırtısını eşitdi:

– Nə qaxılıbsan o tabretkıya, heyvan oğlu heyvan! Mən yox, bu cavab verməlidi o suallara. Ölsə, bunnan qəbirə gedəcək sualların cavabları. O qədər ittihamın altından necə çıxacaqsan?! Qanırsan?! Bir kəlmə də demiyəcəm mən sənə. Ömrün boyu qaynıya-qaynıya qalacaqsan öz içində. Üzü qaralır, qan almalıyıq bundan. Qalx! Bura gəl! Sizin dərdinizi də yaxşı bilirəm mən, dərməninizi də. Al bu bıçağı, mənim qanıma qarışdır əmiyin qanını. Xalıq deyil Mədəd Əmirlinin qatili, Sultan Əmirlidi! Öz dilinnən deyəcək bu. Eşidirsən?! Öz doğmaca qardaşı öldürüb Mədədi! Bu Erməni əhvalatı o vaxtdan qaynayırdı, Sultan katalikosların Türk əleyhinə məktublarını gizlədib "Qardaşıma göndərmişəm" deməsəydi, kimin nə işi olardı Mədədnən?! Sultanı da bax bu öldürüb! Öz dilinnən dedi, genə deyəcək! Al bu bıçağı, əmgəyini cız! Qatılaşıb qanı. Qan almasaq dirilmiyəcək! Qanırsanmı, a heyvan?!

Zülmət içində taqqıltı, gurultu başlandı.

Əcaib vəziyyət əmələ gəlmişdi. Cəmaat geridən Xəlvəti təpikləyən Mədədi sürüyüb aralamağa çalışırdı. Xəlvət isə döşəmədə Səmədin başını qucağına alıb, əmgəyini bıçaqla cıza-cıza, dərini sıxa-sıxa damcı-damcı qan çıxarırdı.

Səməd gözlərini açanda Xəlvət həmin yerdə, qaz "peç"inin yanında həmin qara dəri kresloda oturmuşdu.

Gülənoğlu ortalığa düşüb, qat-qarışıq stolları, stulları düzəldə-düzəldə, çaxnaşan cəmaatı sakitləşdirirdi:

– Oturun, ay ağsaqqallar, ay qarasaqqallar! Görmürsünüzmü, dünya uçub, altında qalmışıq! Eşitmək lazımdı, baş açmaq lazımdı! Xarici, əcnəbi deyilənlər Erməni – Türk davası qızışdırır genə. Bakıdakı Ermənilər, deyirlər, köçüb gediblər. Mən bilirəm, burda kökü Erməni Gülən-

uşağının başında çatdıyacaq hər şey. Aman verin özünə gəlsin, danışsın, məlum olsun hər şey!.. Oturun, oturun!

“Dnevnoy” işıqda yağlı, qara üzü işıldayan bu nəhəng qoca – Gülənoğlu da Xəlvətin “əsir”lərindən – “agentura”dandı.

Gülənoğlunun ətrafında eynilə “Qudalı gədələri” kimi, yoğun-yoğun, Gülənli cavanları fırlanırdılar. Nuru müəllim – Çoban Nuru ilə birlikdə çöllərdə ocaq qaladıqları, “külləmə” kababla çaxır içdikləri günlərdə azdan-çoxdan Elm öyrəndiklərinə baxmayaraq bu cavanlar da Xəlvətin “əsir”lərindəndi.

Çürüklə Abının, Şöşünün sağ-solunda qəlyan dolduran, “trubka” tüstülədən ahıllar – Qonaqlının, Qurbanlının, Tahirlinin “Qəlyanlı qocaları” da Xəlvətin “əsir”ləri idilər, burda – Şüşəlidə “əldən-ayaqdan töküləni yığışdıra-yığışdıra”, rayondan Şüşəliyə gəlib-gedən rəhbər işçilərə üçpara kənd barədə “ağsaqqal məsləhətləri” verə-verə, yəni xəbərlər çatdıra-çatdıra, milis, prokuratura ilə Xəlvətin arasında fəaliyyət göstərməyə məcbur edilmişdilər.

Bütün bunları taqqıltı-gurultu içində Səmədin “qulağına oxuyandan” sonra qaz “peç”inin yanındakı qara dəri kresloda Xəlvət yox, hökmdar əyləşmişdi.

– İndi danış... Danış! – deyirdi.

Qudalı Gizlinləri ilə Gülənli cavanları Mədədi çəkib aralarında oturtdular.

– Burdan qalxmıyacaqsan daha! Bilirik, dal otaqda Səminin barmağı tətikdədi. Pyanıska dostun da silahlıdı, nolsun? Atışma düşsə, bu qədər adama neyniyəcəklər onlar?! Bizim səbrimizdən sui-istifadə eləmə! İş görmək lazım gələndə özümüz deyəcəyik qalx işini gör.

Qudalı Gizlinlərindən hiddət içində gülüşənlər də vardı:

– Bizim şefin zülmkarlığı özümüzü də cana doydurub, Mədəd. Öldür onu, ömrümüzün axırınacan kef verək sənə Sudüşən məhləsində! Moskvadan elə şeylər gətirərik ki, sənin Mariyan heç nədi onların yanında!.. Öldür, Mədəd, vallah, zarafat eləmirik!

Xəlvət ayağını döşəməyə döydü.

Pavilyona yenidən sükut çökdü.

Hamı gözünü Səmədə dikmişdi.

Səməd isə, bayaq başı Xəlvətin əlində, çayxana küncünün çirkli döşəməsində necə uzanmışdısa, eləcə qalıb, Çürüyün dizinə dirsəklənib, Abının termosdan tökdüyü YemSən suyundan qurtum-qurtum içə-içə, gah hökmdara, gah cəmaata, gah da Gizlinlərə – “ət torba-

larına" qoşulub "Badamlı" içən yeganə ümidinə – "Bircə balasına", "Tədqiqatçısına" baxırdı; "qatil", "oynaş" Səmədə nifrət, ikrah nə dərəcədə idisə, Qudalılar alim Səmədin döşəmədən qalxmağını da gözləməyib, bu vəziyyətdə danışmağını tələb edirdilər; yeganə ümidinin "pyanska şairlərə" qoşulub yenidən içkiyə qurşanmağı da bunu tələb edirdi, camaatın baxışı, sükutu da, hökmdarın tüstüyə, dumana hopub təkrar olunan "Danış, danış"ı da.

Səməd Şüşəliyə baxır, fikri uzaqları gəzirdi:

– Danışacam, cənab Qorbaçov, həzrət Xomeyni, cənab Varpet... Alihəzrət İlan! Danışacam.. Yaxa qurtarmaq mümkün deyil bu Şüşəlidə cəmləşən "Milli birlik"dən... "Səməd Əmirli bu axşam gəlməlidi". Gəldim... Rayonnan Qonaqlının arasında, meşədə yolumu kəsdilər. Maşınımı maşınların arasında sıxışdırıb əzdilər. Ətraflıca söhbət elədilər. Yaxşı-yaxşı "dostluq, qardaşlıq, birlik" məsləhətləri verdilər. Çoxdan bəri davam edən antitürk kampaniyasıdı bu, terrordu. Laçından üzü bu yana meşədə bölük-bölük gizlənib "qamas-qamas"[89] qırırlar. Lap bu yaxınlarda açıq müharibəyə çevriləcək. Nizami ordudu o bölüklər.

Ordudu! Vətəndən tərik düşüb "Türk" adlanan ulu OdƏrlərə qarşı təcavüz planı hazırlanıb Bağday ərazisinin sərvətlərinə həmişəlik sahib olmaq ehtirasilə çaxnaşan təhrif bəşəriyyət dövlətliləri sənə böyük kapital vəd eləyiblər, Xəlvət Rəhim. İndidən kapitalist sayırsan özünü, cənab Kapital! Heç kəs, heç nə döndərəmməz səni bu ehtiras, ölüm yolundan. Qudalı deyilsən sən, Qıdasan. Sənədlərdə farssan, Xəlvətdə erməni. Guya Ulu baban Qıda, Pyotr Velikiy adlanan iblisə vurulub, özünü "Ərəb" qələmə verən Abşeronlu İbrahimnən[90] bir yerdə Peterburqa gedib, İbrahim Puşkarın toplarına fitil düzəldən olub, kaftarlaşan vaxtında da Türkə nifrəti soyumayıb, min yeddi yüz doxsan yeddinci ildə Birinci Aleksandrın polislərdən ibarət ordusuynan Muğana gəlib, mənim ulu babam Musa ağanın gizlin iqamətgahı Şəhriyarın yerini göstərib, topa tutdurub. Sonra bir dəstə polisnən Gəncəyə gedib, Gəncə polisinin tez-tez qaçaqlarımızın arasına göndərdiyi Qıda kişi, polis arasında isə Kıdalinskiy familiyasıynan məşhurlaşıb.

Avqustda, böyüklərinizin tapşırığıynan sən məni bura çağırtdıranda AdıPünhanımız kabinetinə çağırdı məni. Stolunun üstündə surğuclu konvert vardı. Dedi: "Al, aç, oxu. Sənə göndərilib." Açdım, əvvəlcə imzaya baxdım: "Xalıq Qudalov!" Birbaş nazirinin üstünə göndərmişdi ki, açıb oxusun, yenidən surğuclayıb mənə ötürsün... Qısası, nə yazmışdı Çax-çux Xalıq? Deyirəm, eşit: "Səməd! Atan Mədəd kimi,

əmin Sultan kimi, səni də ölüm gözləyir, əmioğlun Mədədi də, dostu "pyanska Şöşü"nü də! Çünki səndən, Mədəddən başqa bədbəxt şairləriniz Xəlil Rza ilə Şövkət Tahir də SafAğa qurşanıb yazırlar. Bunlardan başqa, "gizlin şair" adlandırdığınız Pünhanınızla ona maddi, mənəvi köməklik göstərən qohum-əqrəbası da ölümə məhkum ediliblər. Sənə xəbərdarlıq edirəm, əgər burada adları çəkilən bədbəxtlərinizin salamət qalmağını istəyirsənsə, bu məktubu Məhərrəm Abbasoviçdən alıb oxuduğun dəqiqələrdə, ləngimədən əyləş maşınına, sür Qonaqlıya, orada Rəhim Qudalının səndən tələblərinə sözsüz-söhbətsiz əməl et! Respublikamıza az-çox xeyir verdiyinə görə salamət saxladığımız Məhərrəm Abbasoviçlə şəxsən danışmışam, əgər atan Mədəd kimi mərdliklə, igidliklə könüllü hərəkət etməsən, hətta, yuxarıda adları çəkilənlərdən əlavə, üçpara kəndlərinizdə dəli elədiyin adamların hamısını Mədədin, Sultanın taleləri gözləyir..." Budu məktub. Sual olunur: avqustda niyə gəlmədim mən?

AdıPünhanın köməyiynən Gəncəni Yelizavetpol adlandıranların arxivlərini araşdırdım ki, məni ölümə çağıran qatilin zatını öyrənim. Qudalı deyilsən sən. Qıdasan. Bütün nəslin Qızılbaşlarnan bir yerdə Muğları – Bağları qırıb, sonra Abşeronda məskunlaşıb, Dəvə karvanlarıynan tuluqlarda Qızılbaşlara neft göndərən tacirlərə dönüblər.

Mildə, Muğanda, Naxçıvanda, Cənub Muğanında, Ərdəbildə, Mazandaranda, Gilanda, Xorasanda, Təbrizdə, Türkiyədə gizlənən Bağlar haqqında donos yazıb, Sankt Peterburqda böyük mülk alıb, oğullarını, nəvələrini, yəni üçüncü nəsil Kıdalinskiləri Rus polisiyasına, casusluğa verib. Casusluq, qatillik irsiyyətindədi sənin! Keşiş Vissariondan dərs alıb atan Kıdalinskiy, Stalinnən, Beriyaynan, Serqoynan, Mir Cəfər Mirqəzəbnən oturub-durub! "İnternasionalnıy otryad" adında qatillərin nökəri olub, o tayda hamamlarda qulluq göstərirmiş böyüklərinə! Ədəbsiz adam deyildim mən, sən homoseksualist törəməsi belə ədəbsiz danışmağa vadar elədin! Gör insanlıqdan nə qədər çıxmısan ki, iç üzüyün açılmağına da at kimi mırıldaya-mırıldaya gülürsən!

Beynəlxalq miqyaslı casus Yağır Məmmədəli qardaşın deyil sənin, o da köhnə Kudalinskilər qolundandı. Moskva – Tehran arasında işləyən, vətəni, milləti olmayan professional qatildi! Xalıq Qudalov – "Çaxçux" da, Qonaqlıya gəlib-gedib bu "Milli birliyi" təşkil edən "Xudiyev" – Dudiyev də Rim – Moskva ilanıdı! Təlimatı da, kapitalı da onlardan alırsan sən, cənab Kapital! Milli tarixə, milli şüura düşmənsən sən! Hansı

millətə məxsusdu o "Milli birlik?!" Heç bir nəfəri də Türk olmuya-olmuya "Türkçülük ideologiyası" yayırlar! "Biz Türklüyümüzü dərk eləmişik" deyirlər! Necə dərk eləmisən ki, bu Türkün qanını içirsən!

Bəli, burda hamı sənin əsirindi! Hamı, yəni mən də.

Bir vaxt daş əzələlərim varıydı. Hökmdarımız Mir Cəfər Abbasoviç Mirqəzəbin "şəxsi cəlladı" adlanan Xalıq Qudalovun əynindən sinəsi qoşa qızıl ulduzlu kiteli cırıb çıxartdım, ulduzunu, paqonlarını ayaq altına atdım.

"Xaş nəçənnik" adlanan Zorri Gülənovun, "məhlə milisənerləri" adlanan Qudalı, Gülənli cavanların əl-ayağını yığdım.

Qudalı ağsaqqalı Rəhim kişinin cibindən möhürü zorla çıxardıb özüm kolxoz sədri seçildim.

"Qudalı kassiri" adlanan Piyli Qayımın əlindən pul kisəsini zorla alıb, avans payladım, çörəyə möhtac qalıb vağzallarda alça satan kəndimə çörək verdim.

Dərk eləmirdim ki, KPSS, SSRİ adlanan Bezobraziyeynən döyüşürəm. Belə heyvanıydım o vaxt, əlli dördüncü ildə.

Murdarlığımı da deyəcəm, cənab Kapital, qatilliyimi də!

İndiki kimi, sən onda da "əsirlərini" yığdın, Xaş nəçənnik Gülənovnan, prokuror Sayılovnan, İcraiyyə komitəsinin sədri RİK Atamalı ilə yanaşı, Sultan Əmirlidən üz döndərən ikinci katib Əziz Mayılovu, hətta o sakit, mülayim maarif müdiri Mir Bağır müəllimi də işə qoşub, bütün rayonu ayağa qaldırdın. Ələsgər müəllimin, Nuru müəllimin, Qara Zalın, Sarı Zalın, Xızr Abıdan başqa hamının ağzına tıxac basıb, Xəzinəmizin – Elmin üstündə qıvrıldın, cənab ilan, hamının gözünün odunu alıb kişi oldun, Rəhim kişi. Görürsənmi, təhqiri yığışdırdım, "kişi" deyirəm. Özümü "qorxudan xali SafAğ" sayaram. Əmma səndən qorxmamaq, mümkün deyil. Əsirlərindən qorxuram. Bu dörd ayda məni Bakıda, Mədədi burda əsir saxlayan "Birlik" adında gizlin "Boz qurd"dan qorxuram. Əmma müvəqqətidi bu qorxu. Balamı xilas eləmək üçün ilanı insan eliyəcəm, Rəhim kişi. Nə qədər təəccüblü olsa da, hətta məsələ bu dərəcəyə çatandan sonra da ümidimi kəsmirəm ki, doğrudan da "kişi" deyəcəm sənə.

Dəli Səməd ölüb, Rəhim kişi. Yoxdu "Dəli" – OdƏl – həqiqət Əli çoxdan ölüb. Çünki sözü keçmir.

Bayaq dediyim sözləri başqa şəkildə təkrar eləyirəm. Dinlə.

Qırx altıncı ildə zil qara saçlı Mədəd Əmirlini öldürdünüz.

Əlli dördüncü ildə ağ saçlı Sultan Əmirlini öldürdünüz.

Əlli beşinci ildə Torksin Əmirli adlı mələyə qəsd elədiniz.

Bu il ağ saçlı Səməd Əmirlini də öldürəcəksiniz, zil qara saçlı Mədəd Əmirlini də. İlanlar "Birliy"inin qərarı belədi.

De görüm, Rəhim kişi... Arazın o tayı ilə birləşsək, bu Şüşəli pavilyonda belə bir məclis qurulsa, "həmşəri" adlandırdığın Muğannalarla birlikdə Elm öyrənib vahid kökümüzü dərk edən "fars"lar da gəlib Qudalıları sənnən bir yerdə bağırlarına basıb, "qardaşım, bəradərim – BirOdƏrim desələr, nə cavab verərsən?! Ermənin də OdƏr – Türk kökündən olduğunu sübut eləməyə ehtiyac yoxdu, ey zatıqırıq, ilan! O tay-bu tay Azərbaycan miqyasında, dünya miqyasında ifşa olunsan, ölməzsənmi, ey qatil törəməsi qatil!.. Mən heç, balam da heç. Başları xurcunda gətirilən Ağ Əmirlə Boz Əmirin dərsini alanlar Tehrandan, Təbrizdən yığışıb gəlib bu İlan "Birliy"inin üzvlərini məhkəməyə çəksələr nə cavab verərsən, ey beyinsiz, cəhalət mücəssəməsi?!. Olacaq axı bu dediyim. Birləşəcəyik Cənubla! Muğannalar bütün planetə səpələniblər, siz qatillərin ucbatından. OdAğÜzdən deyilib bu həqiqət! Qandın?!

Kitelin içində "bir torba ət" doğrudan da ətə dönüb kresloya yapıxdı.

Səməd ayağa qalxdı. Gözləri dolmuşdu. Tez-tez əlini boğazına aparırdı.

– Nə oldu, cənab millətsiz, vətənsiz?! Cənub deyilən kimi niyə sındı belin?! Qırıq zatın ordandı axı! İnandın ki, məhz bağırlarına basacaqlar səni, məhz qardaş – GurOdƏs, bəradər – BirOdƏr deyəcəklər?! Bilirsən axı, Elmimizdə cinayət məcəlləsi yoxdu. Məcburi tədrisdi Elmimizin cəzası! Öz murdar bətnini görə-görə Cəhənnəm əzabı çəkməkdi!..

Xəlvət dillənmirdi. Mədədin ətrafında farsistlərlə, ərəbistlərlə birlikdə, Gizlinlər – silahlılar da başlarını endirmişdilər.

Səməd əlini boğazından çəkib qəddini düzəltdi.

– Vətənpərvərlikləri də varmış bu "Birlik" rəzillərinin! Yəni doğrudanmı vətəndaş sayırsınız siz özünüzü?! Doğrudanmı vətənpərvərliyiniz də var?! "Dərk eləmişəm" deyə-deyə idraksız qalan beyinsizdən vətənpərvər olar?!

Avqustda "İrəvan, Yerevan" dediyiniz Ər EvÜn də getmişdim mən. Ordakı gizlin arxivdə sizdən bir Qnel Qudalyan var, AdıPünhanın kəşfiyyatçısıdı. Zorri Balayan "Velikaya Armeniya" barədə yazanda onun məxəzlərinin fotosurətlərini göndərirdi bizə. Gülürdü Balayana: "ƏrEy "Ariy" yazır, ƏrMəni "Armen", "Armeniya" yazır! – deyirdi. İndi demir daha. Heç nə vermədi mənə. Dandı, dedi: "Kudalinskilar barada heç

na yoxdi manda...” Ayrılanda İrəvandan bir az bəridə “Ocaq” restoranına apardı məni, “Bu adam Bakuda bizım xeyrimıza işlayir, buna bir quzu kasin”, – dedi, quzu kababına qonaq elədi məni, içdi, içdi, köyrəldi: “Ara, Samed, yaxşıca dolanırdıx, noldi bırdan bu Balayan çarmandi çıxdı ortalığa! İndi da na? – Müharibа! Vay! Vay!..” Mən də köyrəldim, Rəhim kişi, dedim: “Qnel, sənin adın Güneldi axı!” “Sus, sus!” – dedi. “Mani xətya səlma”. Dedim: “Müharibə başlansa, sən də bir güllə atarsanmı?” Dedi: “Atmasam, neja olar o? Albatta, atajam, a Samed!” Soruşdum ki, “niyə axı?” Dedi: “Orasını bilmeram. Deyasan bu Zorri Balayan kopayoğli yavaş-yavaş mani da “Ariyes” elayir axi!” – dedi güldü. Budu bax, Ermənin in əksəriyyəti belədi. Təbrizdəkilər Qacarilərnən evləniblər, Rza Şahın qohumlarıynan evləniblər, OdƏrnən də qan qarışığı olublar, Farsnan da. Milyonerdi hamısı. Əmma indi onlar da silah alıb İrəvana göndərirlər bu müharibə üçün, açıq terror üçün! “Armeniya” nədi?! Vətənpərvərlik yoxdu Ermənidə! Çünki bətnində hamısı bilir ki, əslində nə “Armeniya” olub, nə də “velikaya”sı!

Bu həqiqətləri deməyə gəldim mən bu gün, Rəhim kişi, sənin çağırışına yox! Uca hiss yoxdu sizdə. Torba-torba ətdən ibarətsiniz hamınız. Səlahiyyətinizdən sui-istifadə eləyib magistral yollarda Kalaşnikovnan brilyant yığırsınız və inanırsınız ki, özünüz üçün yığırsınız! “Birlik” ayırıb sizi millətdən, ay bədbəxtlər! Gizlin, açıq məclislərdə min-milyon dəfə deyilib sizə ki, kökümüzü baltalayır düşmən: “Yer”də OdƏrdi hamı. EvƏrEy OdƏrlərinə “Yevrey” deyirlər indi, EvƏrƏs OdƏrlərinə “Pers”, “Fars” deyirlər, ƏrEv OdƏrlərinə “Ərəb” deyirlər. Əsrlərlə bax beləcə ayıra-ayıra xüsusi təlim-tərbiyə ilə yetirdikləri, zatı qırıqlardan “Misli barlak” yaradıb doldurublar içərimizə ki, “qamas-qamas” yox daha, küll halında qırsınlar! Aldanmayın ciblərinizə doldurulan “Dollar”a, vaxtı çatanda soyacaqlar hamınızı! Adicə banditizm, mafiyaçılıq üsulu ilə əlinizdən alacaqlar hamısını! Katolik kilsəsinin saman altından axıtdığı ayaqyolu zibilidir bu, bütün bəşəriyyətimizi murdarlayıb! İndi budur, sənin əlinlə məni murdarlayır, cənab müvəqqəti kapitalist! Səksən səkkizinci ilin bu sazaqlı qış gecəsi, belə möhkəm “Birlik”lə, neçə meyid uzadacaqsınız bu çirkli döşəmədə?! Meyidlər yan-yana düzüləndə məndən də betər skeletlərə dönəcəksiniz, ay bədbəxtlər! Mənə məlumdu bu bədbəxtlik! Ayılın! “Dollar” möhtəşəm insan adıdı. Əmma o kişi özü də aldanıb, dünya malına çox pis uyub, öz xalqını da bədbəxti elə-

yib! Biri-birindən rəhmsiz biznesmenlərdən ibarətdi cənab Dolların varisləri! Qan damcılayır "Dollar"dan!

Sənə də deyirəm, ay Dollarsız Bala! Kimi öldürürsən?! Get güzgüyə bax. Hanı zil qara saçın?! Bu dörd ayda özün özünü öldürəndəmi ağarıb saçın, bayaq əmiyin başı düşmənin qucağında olandamı, indicə mənə düşmən gözüynən baxandamı?!

Çıxart cibindən o kağızı, bir də oxu: "Məni Varisim öldürdü". Məhkəmə, şahid-sübut nəyə lazımdı?! Götür Xəlvətin o bıçağını, vur! Başa düşmədinmi ki, qan almağa vermirdi sənə bıçağı, can almağa verirdi!

Niyələngidirsən?! Necə qulaq asacaqsan o cür sualların cavablarına?! "Qatil! Bu da cavab!

Atan da qatildi, ata əvəzi əmin də! Budu cavab!

İndi şərhinə qulaq as.

Başımıza nələr gəlib? O kağız niyə yazılıb? Niyə bu kökə düşmüşük? Hamısını danışacam. Qıyma-qıyma...

Azdan-çoxdan adamlığınız qalıbsa, bir tikə çörək verin mənə. "Badamlı"nızdan da verin... Vaxt vardı, içməmiş dəm gəzərdim. "Pəh-pəh" mahnısı oxuyardım. "Pəh-pəh, nə gözəl, nə qəşəng, səfalı illər! İnsan uzun zaman belə yaşamaq istər..." Stalinin, Mirqəzəbin kütləvi qırğınlar partiyasının çiçəkləndiyi Bezobraziye illərində lap ürəkdən oxuyurdum mən bu "Pəh-pəhi!" Çünki doğrudan da heyvanıydım. Təmizürəkli, hər şeyə inanan başı boş heyvan!.. Hissə qapılanda çirmənib camaatın tualetini təmizləmək istəyirdim. Sonra ayıldım gördüm tualetlərin murdarlığı adamların özlərinin murdarlığındandı!

Mən də içəcəm bu gecə. Çünki mən də sizin tayınızam. Öz heyvanlığımnan, murdarlığımnan, qatilliyimnən bərabər, sizin heyvanlığınızı, murdarlığınızı, qatilliyinizi də açıb tökəcəm ortalığa, müqayisə eləyin görək cahillikdə siz ağır gələrsiniz, ya tək mən! Cəmi Muğannalarla birlikdə mən də sözün əsil mənasında cahiləm ki, cəhalət mücəssəmələrinə Elm verməyə həsr eləmişəm ömrümü. Günü bu gün hərənizin bir qatilliyini açım, əvəzində çox yox, mincə "Dollar" alım, gedim o dal otaqda prokuror Sayılovnan da alver eləyim, kənardan baxın mənə, özünüzü görün!

Bir azacıq düşünün, o Kalaşnikovları niyə veriblər sizə, o güllələrin tökdüyü qan kimin qanıdı?! O yaşda dümağ saçlı adam, gör nə demisən o Sudüşəndə: "Mədəd xadımdı, Mariya – Məryəm ana da o biri Məryəm ana təki işıqnan hamilə olub, ha-ha-ha!" Tfu sənin ağ

saçına, Rəhim kişi! “Əxlaqsız” damğası vurmadığınız Əmirli qalmayıb! Bir də tfu sizin üzünüzə!

Pavilyonda stullar taraqqa-taraq saldı – çaxnaşma oldu.

Bu dəfə zalın aşağı küncündən, torbaların arasından kiminsə xırıltılı səsi Səmədin hələ də beynindən getməyib aramsız “Danış, danış” deyən səsə qarışdı:

– Cahilliyimiz də aydındı, qatilliyimiz də! Qəhbəliyimiz də! Başqa cür danışılmalıdı burda! Sən pis danışırsan!

Mədəd idi.

Dik atıldı.

– Danışmıyacaqsan!.. Bunlara ayrı söz lazımdı. Mən deyərəm o sözü! – dedi.

* * *

“Dnevnoy” işıqların cərgəsi altında qaynayan tüstü-duman içində qaz “peç”inə yaxınlaşdı, pencəyinin döş cibindən kağızı çıxarıb, aşağıdan – “truba”nın dibindən alova atdı. Dikəlib, zalın yuxarısına – çayxana küncünə baxdı.

– Niyə yandırdım?.. Səbəbini sonra biləcəksən, əmi.. Atamı nə vaxt, necə, hansı şəraitdə öldürdüyünü mənim dilimdən eşidəndə... Mən anamın bətnindəydim onda. Əmma o şəraiti bütün incəliklərinə qədər görürəm. Bu dəqiqə səni, bu neon lampalarını, bu tüstünü necə görürəm, o şəraiti də elə görürəm indi. Deyilib bu bədbəxt Varisə... İndiki kimi o vaxt da başın dumanlı olub sənin. Boş yox, dumanlı. Çox şeydən xəbərin yoxdu, ey adı SafAğ Alim olan, ən yetkin vaxtında birdən-birə Ünsiz qalan yazıq. Daha heç nə deyilmir sənə. Ürəyində, beynində, ruhunda necə təbəddülatlar var, hamısını görürəm. Başqasının ürəyini, beynini göstərməkdə məqsədi nədi OdAğÜzün? Çox təəssüf ki, təzyiq yoxdu qanunlarında. Yoxsa atamı öldürdüyün dəqiqələrdə öldürərdilər səni, otuz dörd ilin işgəncəsindən xilas olardın. Mən isə dünyaya gəlməzdim... Atam da, sən də çalışmısınız ki, ana bətnində ikən məhv olmayım mən. Halbuki, hər ikimiz üçün, hətta anam üçün də xoşbəxtlik olardı dünyaya gəlməsəydim.

Abı deyir bu iki mininci il ərəfəsində bircə nəfər Bağın da Yerdə, xalq arasında yaşaması saysız-hesabsız insanın kamilləşməsi, OdƏrləş-

---

[91] “*Zarıncı*”, əslində, “bayat”(ı) növü, BağOdudur, el arasında deyildiyi kimi, “daşı da ağladır”.

məsi, əbədi həyat qazanması deməkdi. Başqa sözlə, nə sənin ölüb işgəncələrdən xilas olmağını istəyir Abı, nə də mənim. Çox iş görürsünüz, deyir, bəxtəvərsiniz deyir!

Danışım, görək necə "bəxtəvər"lərik!

Əvvəlcə kağız barədə.

Bu kağızı mən bir dəfə on il bundan əvvəl – yetmiş səkkizinci ilin yayında, sənin Bakıda qayım-qayım oturub, məni veteranlar cəmiyyətində Qılınc Qurbanın arxivindən zorla çıxartdırıb, universitetə qəbula çağırdığın vaxtlar oxumuşam. Qatlayıb qoymuşam öz yerinə, atamın sovxasının cibinə. Hələ o vaxt sənin qanını içməyə hazırıydım, əmi.

İkinci dəfə kağızı dörd ay bundan qabaq oxudum, "doxsan illik-filan, hamısı düşmən qurğusudu" dediyin gün. Anamın yanına gedirdim o gün, babamın xarabasına gedirdim.

Bir adam çıxdı ordan.

Kitel əlində, həyətdə dayandı, mənə baxdı, kiteli kəndirdən asdı, dedi:

– Sultan Əmirlinin sovxasıdı bu. Yetmiş səkkizinci ilin yayında Gülənoğlu Molla Gülən gətirib bu həyətdə sənə göstərib, sonra anana verib ki, anan hər il bu vədə arvadları yığsın, sovxanı ortalığa qoyub ağlaşma qursun. Ağlamaq istəməyib anam:

– Sultan Əmirli ölməyib – deyib, kiteli boxçaya büküb sandığa qoyub. Əmma o adam deyib:

– Sandığa basılası sovxalardan deyil bu. Mənə də dedi bunu:

– Göz qabağında olmalıdı bu sovxa, qadası. Çünki o kişinin ölümünün əsl səbəbini açmaqdan ötrü əşyayi-dəlildi, cibində sənəd var. İyirmi beş il türmədə, doqquz il də müxtəlif şəhərlərdə, düz otuz dörd il Azərbaycandan uzaqlarda mən həmişə bu sənəd barədə fikirləşmişəm, qadası. Çünki uzaqgörən adamdı bu Çax-çux Xalıq, bugünkü günü görürdü. Get öz köhnə saz-söz ustadların Çürük Aşıqnan Xızr Abını çağır. Gəlsinlər əvvəlcə onlar oxusunlar bu sənədi. Çünki belə lazımdı, qadası. Sənədi oxutdurandan sonra xahiş elə, köhnə bir bayatı oxusunlar.

Burdan bir atlı getdi,
Atın oynatdı getdi,
Gün kimi şəfəq saçdı,
Ay kimi batdı getdi.

Deyirdi, gülürdü Çax-çux. O vaxtacan görməmişdim onu. Əmma "çax-çux" deyildiyini də bilirdim, təhər-tövrünü də. Qara, uzun adamıydı. Qəsdən soruşdum:

– Kimsən, niyə belə danışırsan mənnən?

Dedi:

– Çax-çux Xalıq deyərlər mənə, qadası. İndi "çik-çik deyirlər. Tapançaya güllə qoymusanmı heç ömründə? Qoyub üstdən basırsan barmağınnan, "çik" eləyir! Elə ki, yolumu kəsən oldu, onda ayrı cür çıxır səsi. Hələlik "çik-çik" eləmişəm burda. Hə..."

Bayatısını bir də dedi, rədd oldu getdi. Mən qayıtdım, xarabalıqda yenidən "Əmirli mülkü" adlandırılan evdən Abıynan Çürüyü çağırdım. Apardım ora – babam Əlləzoğlunun xarabasına. Bayatı-zad oxutdurmadım, əlbəttə. Dərhal başa düşmüşdüm ki, atamdı "Ay kimi batıb gedən". Xalıq Qudalov bayatını da intiqam niyyətiynən oxuyur. Yol kəsir, maşın əzdirir, adam döydürür, "yaxşı-yaxşı məsləhətlər verir". Əmma sən onun adını çəkmirsən burda. Bu "Milli birliy"ə də "çik-çik" deyir o!

Sən, yoldaş çekist günü bu gün tutdura bilərsən bunların hamısını. Çünki hələ dövlət var Bakıda. Sən də sayılırsan orda. Əmma onu da bilirsən ki, ordakı dövlət burda yoxdu daha.

Budumu "birliy"in əlində əsir olmağımızın səbəbi? Yox, bilmirsən, əmi. Ün göndərən gizlədir səbəbi səndən, çünki sadəcə, xəstələnmisən, mühitimizin təsirindən əlavə təsirə – Ünə dözmür beynin. Özünü anama oxşadıb cığa buran Gülbənizin yetirdiyi oğlunu, "a Səmsəmi" çağırdığımız ikinci Səməd Əmirliyə zəng vurmuşam rayona, başa salmışam iş nə yerdədi. Gülənov eşidib mənim zəngimi, sənə deyib "qorxma, Səmini işə qoşmarıq. Sənin ölümün lazımdı bizə, vəssəlam!"

Meşədə pis döyüblər səni. O dəqiqədən də Bağ bəxtəvərliyindən məhrum olmusan!

Arada beynin açılacaq, aydın Ün eşidəcəksən. Onda söz verəcəm sənə.

İç o "Badamlı"nı, qulaq as.

Kağızı çıxartdım kitelin cibindən, verdim Çürük oxudu. Aldım Abıya verdim, Abı da oxudu. Kağız düşdü əlindən.

İkisi də yasa batmışdı.

Kağızı götürdüm yerdən, qatladım qoydum bura, öz pencəyimin döş cibinə. Dedim:

– Bakıya ayağım dəymiyəcək daha. Aspiranturaya da tüpürdüm, "Vərəsə" kitabxanamıza da, Tədqiqatçısına da!

Niyə belə dedim?

Veteranlar cəmiyyətində, Qılınc Qurbanın arxivində atamın dəstxəttini birinci mən seçirdim Qurban əminin xəttindən. Abı gülürdü ki,

“Ay bala, anayın qarnındamı görübsən rəhmətlik Sultanın dəst-xəttini?..” Bilirdi, əlbəttə ki, xətti tanıtdıran var. Həmin arxivdə, həmin yetmiş səkkizinci ildə bir vərəq kağız götürdüm, həmin bu kəlmələri yazdım, qoydum Çürüknən Abının qabağına, dedim, baxın, atamın xəttinə oxşayırmı?

İkisi də mütəəssir oldu. Dedilər: – Kopyadı! Kopyadı!

Dedim:

– Bəs sözlərə niyə fikir vermirsiniz? Atamın Vəsiyyətinin sözlərini yazmışam bura. Necə yəni “məni Varisim öldürdü?!” “Necə yəni Varisimi də Varisi öldürəcək?!” Necə yəni “Baş açmıram, bu nə sirdi?!” OdAğÜz niyə açmıyıb sirri?

Dillənmədilər. Abı “batin oldu”. Çürüyü tər basdı.

Cırdım atdım o kağızı. Vəsiyyətin əslini də, gördün, indicə yandırdım.

Niyə?

Çünki bu yandırılan sənəddə Səməd Əmirli öz əmisi Sultan Əmirlinin qatilidi. Buna heç kəsin, o cümlədən Sultan Əmirlinin oğlu Mədəd Əmirlinin də heç bir şəkk-şübhəsi yoxdu.

Əslində, mən bayaq mənə göstərilən bıçağı götürüb atamın qatilini vurmalı idim, Gülənov məni həbs eləyib günü sabah güllələnmə kəsdirməli idi, bunnan da bu tərəflərdə Yer Bağları nəslinə son qoyulmalı idi.

Bıçağın dəstəyi ovcumda, niyə vurmadım? Onu deyim indi... Bu dal otaqdakı qatillər meşə yolunda səni çəkmənin altına salanda, hələ o dəhşətli dəqiqələrdə OdAğÜz o dəhşəti göstərirdi mənə, bu alaqaranlıq küncdə Ün eşidirdim: “Səmini, Şöşünü də özünlə aparıb qırmaq istəyirsən o qatilləri. Unutma, Mədəd, belə kin-küdurətli qatilliklə sən əbədiyyətini itirərsən!..” Yazılıb: “Varisimi də Varisi öldürəcək”. Otur orda, gözlə, Səməd özü gələcək sənin yanına”... Xəlvət bıçağı ovcuma basanda yenə Ün gəldi: “Bıçaqla yox, sözlə öldürəcəksən. Sözlə! Orda – pavilyonunuzda çox ciddi hadisələr baş verəcək. Çalış ehtirasa qapılma. Bizi dinlə! Bizi dinlə! Və bizim dediyimizi elə...”

Bil ki, indi neyləyəcəmsə, heç biri mənim iradəmdən asılı deyil, əmi. Qatili cəzasına çatdırıb məsələni qurtarmaq əvəzinə sənin atamı nə vaxt, necə, hansı şəraitdə öldürdüyünü danışmaq niyyətindəyəm indi.

“Mənəvi qatil” adlandırırsan özünü.

Niyə?

Səbəb məlumdu? Xeyr, səbəb bir deyil, həm də məlum deyil.

---

[92] “*Beyt*” – BağOd, ərəbcə “ev”, “məkkə” mənasında; burada həm də şerin “yarpağı” mənasındadır.

Mən birinci və əsas səbəbi deməliyəm indi burda.

* * *

Bu üçpara kənddə, rayonda, sənin öz yoldaşlarından, professor Məhərrəmovun yetirmələrindən və bu “Milli birliy”in başçısı deyib ki, Sultan Əmirli şərəfsiz adam olub. Qardaşı Mədəd Əmirlini öldürtdürüb. Qardaşı oğlu Səməd Əmirlinin istəklisini zorlayıb. Səməd Əmirlinin də başına hava gəlib, o hadisədən sonra gedib əmisiynən qabaq-qabağa oturub çaxır içib, sonra yenə havalanıb, xəstə əmisini mənəvi, psixoloji sarsıntılara salıb öldürüb. Sənəd də var bu barədə. Foto-kopiyası çıxarılıb. Sabah, dekabrın iyirmi üçündə Mədəd Əmirlinin illiyində foto-kopiya həmin Çik-Çikin əli ilə həmin sovxa-kitelin cibindən çıxardılıb nümayiş etdiriləcək. Millətin qeyrətini çəkən “Milli birlik” rəisi, Qudalı məhləsinin ağsaqqalı Rəhim kişi yenə nitq irad eləyəcək. Dövlət nümayəndələrinin, milisin, prokuraturanın iştirakı ilə, Bakıdan xüsusi gətirilən məsul işçiləri şahid kimi dindirəcəklər. Məqsəd nədi? Tutqu?

Xeyr.

“Vərəsə”mizin məğzi – sənin yazdığın o dissertasiyasayağı tarixi xronika, bilirsən, o tayda da yayılıb. “Birlik” Bakıdan guya “Muğanna” şəcərəsindən olan bir nəfərə xaricə getmək üçün pasport düzəldib: “Aydın Muğanlı”. Aydın gedib Ərdəbildə, Zəncanda nə qədər Muğanna var, yığıb hamısını. Sonra Çik-çik təcrübəsiynən siyahı yazıb gətirib verib KQB-yə, nəticədə nə olub? Necə qırıblar Ərdəbil, Zəncan vilayətlərindəki ümidlərimizi?! Sənin üzünə duracaqlar ki, “Sənsən Aydın Muğanlı”. Və bu hərəkətin ruhi xəstəlikdən başqa bir şey olmadığı son dəfə sübuta yetiriləcək.

Plandı bu. AntiTürklərin qızılına satılmış həmvətənlərimizin planı.

Qırmağına qıracaqlar Ərdəbil, Zəncan Muğlarını. Əmma sənin üzünə dura bilmiyəcəklər. Çünki o planlı terrora qədər bu pavilyonda başqa hadisələr baş verəcək.

Bayaq sənin başın qarı düşmənin qucağında olanda yox, mənim saçım çoxdan ağarıb, əmi, görməmisən. Aralı gəzmişəm həmişə səndən. AdıPünhanın mənzilində də, Demokrat Muğannaların evlərində də çalışmışam görmüyəsən. Sarsıntılarımı gizlətmişəm ki, əsəblərini pozan, xəstəliyini şiddətləndirən danışıqlara qapılmıyasan, “Vərəsə”mizin bəşəri həqiqətini şərh eləyib, məhz Alim kimi qalib gələsən İlana. Əmma İlan üstələdi. Sən Hələbdə olanda orda başqa birisi – çox təcrübəli kəş-

fiyyatçı da eşələnirmiş, on ikinci əsrdə Bağdadda çap olunan "İxvan əs-Səfa almanaxlarının məzmununu dəyişdirib, on ikinci əsrin əlyazmaları şəklində çap elətdirirmiş. Yəni sənin zəhmətin hədər gedirdi. OdAğÜzdən deyirdilər: "Sənin bu işin nəticə verməyəcək". Sən ehtirasa qapılıb, Ünün əksinə çalışırdın, mən Leninqradda ağlayırdım. Bax onda dən düşdü saçıma. Sənin Ün əksinə getməyin, əsəb pozğunluğun və belə tez qocalmağın isə otuz dörd il bundan əvvəl olub. Rayondan qovulduğun gündən, "Birliyin" şərqşünas inkarçıları çoxaldıqca, Nizami, Nəsimi həqiqətləri, milli tarix tapdandıqca sənin xəstəliyin şiddətlənib. Kainat sakinləri səni Yer mühitindən Yer informasiyalarından təcrid eləyib, Məhərrəm Abbasoviçin mənzil şəraitində ev dustağı kimi saxlayıblar ki, dissertasiyanı populyar ədəbiyyat şəklinə salıb Elmin qavranmasını asanlaşdırasan, eyni zamanda özün də yenidən dərk edəsən hər şeyi. Bu il – səksən səkkizinci ilin axırında yenidən Yer mühitində İlan informasiyaları məngənəsində sıxılandan sonra yenidən dumana düşmüsən. Alimsən. Əmma SafAğ Alimi demək olmaz daha sənə. Heyrətlənmə! Sakitcə dinlə. Qıyma-qıyma danışacam hər şeyi. Başa düşəcəksən ki, nə qədər böyük Alim olsan da, SafAğ Alimi deyilsən! Evimiz onda yıxılıb ki, o daş əzələli, qəzəbli, saf, sadə, Səməd də ölüb, Dəli – OdƏl Səməd, – SimOd da!

ƏsÜndən xəbərsiz "sion" zəhəri, EvƏrEy OdƏrindən xəbərsiz "Yevrey" "obşinası", Oddan xəbərsiz "Tat", GurOddan xəbərsiz "Kürd" "Birliyi" yaratmaq yolu ilə millətin bir qismini o biri qisminə qarşı qoyan KPSS-in üzvlüyündən niyə çıxmırsan, əmi?! Qorbaçovun ikiüzlülüyünü niyə bağışlayırsan?!

Evimiz onda yıxılıb ki, bu otuz dörd ildə rayonları gəzə-gəzə köhnə partiya məktəbi müdavimlərinin köməyi ilə camaata ədalət verən... çörək yox, ədalət verən maksimalist Dəli Səməd qorxudan xali SafAğ İnsanların – gizlin Muğannaların Elm mühitində çox az qalıb, qorxudan xali Bağ ikən "KPSS"in siyasət dumanı içində beyni dumanlı siyasətçiyə çevrilib. Axı, SafAğ sevmir siyasəti, ay əmi! Məkri sevmir! İlanın özünə, Erməni katalikoslarına əlin çatmır, bu qara dəri kresloda oturan torbanı "alihəzrət İlan" adlandırırsan "Kapital" adlandırırsan, həm də "kişi" demək ümidindəsən. Məndə dəqiq məlumat var. Bu dövlətin ərazisində on yeddi milyarder var bu saat. Mərkəzi bank pulu dövriyyəyə buraxandan sonra təzə yüzlüklər, əlliliklər dördcə ayda yox olur, əvəzində yenə köhnə yüzlüklər, əlliliklər çıxır ortalığa. "KPSS"in hətta

ideyalı-məsləkli sayılan liderləri də "Ulduzlar müharibəsi"ni uduzduqlarını başa düşüb, dövlət kapitalını mənimsəməkdən başqa işləri olmuyan Çax-çuxlara, Xəlvətlərə çevriliblər. Çax-çuxlar, Xəlvətlər isə gündən-günə çoxalan, Atomdan, Kimyadan da qorxunc zəhər bəşəriyyəti törədirlər. Sestranın xəstəxanəsindən narkotikanı Ermənilərə, ordan da xaricə axıdıb xəlvəti gəlirlə "Rus məhləsi" yaranıb, Xəlvətə səcdə eləyir! Yəni kimə? Yəni "Alihəzrət İlana" yox, ilancığaza! Belələri nə qədər olar indi respublikada, bilirsən? Sənin Lerikdən Qazağa qədər məsləkdaşlarıyın da bircə "idealı" var, o da rüşvətdi – qızıl-brilyantdı, ay bədbəxt əmim! Atamın "çesuyçalılar" dediyindəndi indi dostlarıyın hamısı!

Diqqət yetir, cənab kapital necə sakit qulaq asır! Sənin açmadığın sirləri açıram, niyə susur? Çünki cəzasız cinayətkarlar ölkəsinin kadrlarından, KPSS-in çürüməyindən danışa-danışa, əslində bu cəzasız Kapitala bəraət verirəm mən. Dünyamızda ən çox kapitalisti olan Kapital ölkəsi SSRİ-di indi. Kamil insan nəyinə gərəkdi bu çürümüşün?!

İşini görüb qurtarıb bu ilancığaz: "Vərəsə" adında dənizdən qidalanan Səməd Əmirli qanı zəhərə dönüb!

Bayaq məni çağırırdın. "Yaxın gəl, yaxın gəl" deyirdin. Getmədim. Çünki sən məni xilas edəmməzsən, əmi.

"Varisi Varisi öldürəcək". Belə yazılıb, belə də olacaq.

Yuxarı baxma! Mən sözümü qurtarana qədər heç nə eşitmiyəcəksən OdAğÜzdən.

Başlayıram danışmağa...

Şüşəli sükuta batmışdı. Heç kəs tərpənmirdi, heç kəs dillənmirdi. Cərgə-cərgə "neon" lampalarının, bulud kimi lay-lay tüstülərin altında, ət torbalarının əllərində, damaqlarında "marlbora"lar qızarırdı.

Mədəd çayxana küncünə cumub, Çürüklə Abının qaraltılarının arxasından Çürüyün divara söykəli cürəsini götürüb, ordan – yuxarı başdan zala baxdı.

– Çalacam, oxuyacam və danışacam... Dediyim kimi, tələb olunduğu kimi, "qıyma-qıyma"... Murdarlığınızı sübut eliyəcəm! Etiraz varmı?

"Marlbora"lar qızarırdı. Tüstü laylarının aralarına tüstülər millənirdi. Nə baş verdiyini heç kəs, o cümlədən hətta hələ Səməd də, Abı ilə Çürük də başa düşmürdü.

* * *

Mədəd cürəni köklədi. Kresloda, bir əlində "Badamlı" ilə dolu "xrustal" qədəh, o biri əlində siqaret, quruyub qalmış əmisinin başının üstündən Çürüklə Abıya və sərxoşluqdan mürgüləyən Şöşünün tərdən islanıb göyümtül çalan seyrək saçlarına baxıb köksünü ötürdü.

– Zilini zil elədim... bəmini bəm elədim... zil qara saçlı Mədəd Əmirliynən dümağ saçlı Mədəd Əmirlinin saz-söz ustadı Çürük aşığın min doqquz yüz onuncu ildə, Səttar xanla Bağır xanın zülmə qarşı üsyanının süqutundan bir il əvvəl Ərdəbildə düzəltdirdiyi bu qaraca cürəni "Zarıncı"[91] üstə köklədim.

Çalaq, oxuyaq, görək sağ-zarıncılar niyə və necə zarıyırlar.

Cürə inildədi. Gər, cod, güclü səs sıxılıb cürədən betər inildədi:

Təhriflər içində içim yanmaqdan
Özü SafAğ, bəxti qaraya döndüm.
Ağrıları ürəyimə salmaqdan
İçimdə qövr edən yaraya döndüm.

Səməd başını qaldırıb, altdan dik, Varisə – Tədqiqatçıya baxdı, sal ağsümük yanaqlarına iri damlalar süzüldü.

Mədəd gözləri yumulu oxuyurdu:

Aşkar olammadım, bətnimdə qaldım,
Bətnimdə qocaldım, bətnimdə öldüm,
O gündən də "vəhy" – EvEydən Ün aldım,
"Mən yoxam" qışqıran haraya döndüm!

Mədəd gözlərini açıb, əmisinin göz yaşlarını görüb qəhərləndi:

– Dəli Səməd də ağlıyarmış!..

Mənim şerim deyil bu oxuduğum. "Yoxa çıxan" mən deyiləm, başqa bir bədbəxtdi – Gizlin şair Muğannadı. Əbədilyini bilə-bilə ağlayır! Niyə, əmi?

Qulaq as!

Əmirli mülkündən kənarda, sənin təzə-təzə istəklin olanda öldürülmüş o mələk Torksindən yadigar oğlundan başqa hələ bilən yoxdu ki, toylarda nə veriblərsə, son qəpiyinə qədər qızıla, brilyanta çevirib o mülkün bir də yalnız OdAğÜzə məlum yerində saxlayıram ki, sənin ölümündən sonra oğlun Səminin olsun. Səndən ayrılmıyacam, OdAğÜzə sənnən bir yerdə gedəcəm. Əmma mən də ağlayıram!

İçi yanan, bətnində qocalan, bətnində ölən tək o Gizlindimi, əbədimiz Ulu Bağ ƏsƏlMən BağSar AğEy – "Musa ağa" ilə Şeyx Məhəmməd Əmir, Şeyx Əli ilə, Ələskərdimi, Ağ Əmirlə Boz Əmirdimi?! Mədəd Əmirlidimi, Sultan Əmirlidimi, Xızr Abıdımı, Çürük Aşıqdımı?! "Pyanıska şair" damğalı Şövkət Tahir – Şöşüdümü?!. Saysız-hesabsız, biri-birindən bədbəxt "Muğ"lar, "Muğanna"lar da bətndə qocalıb, bətndə ölürlərsə, axırı əbədiyyət olan bu "ölüm" – ölümsüzlük niyə ağladır bizi?!

Bu sualın cavabında dəstan başlayıram. Elə bir dəstan ki, bu tüstülü-dumanlı, "Badamlı"lı, "Marlbora"lı dünyamızın dumanını dağıdacaq, bir nəfərdən – Xəlvətdən başqa hamını Dəli eləyəcək.

Sən hələ tanımırsan məni, əmi. Ağlım, şüurum, dərrakəm açılıb töküləcək ovcuyun içinə, o əlindəki zəhər kimi yox, o termosdakı "dirilik suyu" kimi yox, sözün həqiqi mənasında dirilik suyu kimi, İskəndər Ruminin tapa bilmədiyi "su" – Elm kimi içəcəksən mənim ağlımı, şüurumu, dərrakəmi... Nəinki sən, yetmiş səkkizinci ilin yayında dəhşətli sənədi oxuduğum gündən bu vaxta qədər hər gün sazıma, sözümə-özümə qulaq asan anam Gülgəz də tanımır məni... Sağ divarında xalça ilə üç sazdan, döşəmədə bir zilidən, üç dəst yorğan-döşəkdən və kitab tərəcələrindən savayı heç bir avadanlığı olmayan mülkümüzdə mənlə oturub-duran sakinləri Çürüklə Xızr Abı da tanımırlar məni.

Dəstanın adı "Sultan və Səməd"di.

Dinlə, əmi!

Adını daşıdığım əmim Mədəd Əmirli də iştirak eliyəcək bu dəstanda, atam Sultan Əmirli ilə birlikdə bədbəxt, əzabkeş arvadı Gülgəz də, Gülgəzin Mədəd adında çağası da. Sənin mələk Torksininlə özün kimi cəngavər oğlunu qatmıram bura. Oğlun Səminin "dəstan"ı ayrıdı. "Gizlin şair" danışacaq Səminin qəm dəstanını. Cavanlığınızda sənə vurğun Gülbəniz Çax-çux qızı bu ağbirçək vaxtında sənlə bərabər sənin oğluna da vurğundu. Onu unutmaq olmaz.

Nə oldu? Niyə diksindin, əmi? İnsan insana vurular, heyvana yox! Gülgəzin istəkli rəfiqəsi – bacılığı Gülbəniz də insan deyilmi? Niyə gizlədim?! "Sultan və Səməd" dəstanında lap iynənin ucu qədər də gizlin şey qalmamalıdı! Tam mənada açıq, çılpaq həqiqət zərbələrilə öldürəcəm səni! Bəs necə?!

Başlayıram.

Burda, Yerdə mən səndən ayrılmışam, əmi. Yetmiş səkkizinci ilin yayında o dəhşətli sənədi oxuduğum gün yox, İskəndər Rumi adlanan

vəhşinin basqınları zamanı, BağOdEy, Bağday ikən "Maday", "Midiya" adlandırılan vətənimiz parçalananda ayrılmışam mən səndən... Bir şey başa düşdünmü bu dediyimdən?.. Sən necə, ey millətindən xəbərsiz "Milli Birlik", bir şey başa düşdünmü? Səndən də o vəhşinin basqınları zamanı, Bağdayımız parçalananda ayrılmışam. Nə deyirəm bu sözlərlə, ey "Birlik?" Bəlkə OdƏl – həqiqət Əli-filan deyiləm, doğrudan da Dəli Mədədəm? Əlbəttə, belə çıxır. Əmma bir həqiqət də var ki, bu Dəlinin bu qatil əmini bütün varlığı ilə sevən ürəyi var! Və çox qəribədir ki, bu ürək, bu torpağın sakinləri olan insanabənzər torbalar yığını "Birlik" üzvlərini də sevir!

Gah təhrif "Qrek"lə qucaqlaşırsan, gah təhrif "Ərəb"lə, gah təhrif Farsla, gah təhrif "Rus"la! Mənə – özünə qılınc çəkirsən! Əmma yenə sevirəm səni, ey "Birlik"! Niyə? Biləcəksən...

"Marlbora"lar qızarırdı, tüstü laylarının aralarına üfürülən tüstülər millənirdi. Səməddən başqa, çayxana küncündə indi Çürüklə Abı da, Qəlyanlı qocalar da, Şöşü ilə "Pyanıska şairlər" də ağlayırdılar. Xəlvətin kreslosunun arxasında, Sudüşənli ruslar da, Dam direktor da, Nuru müəllim – Çoban Nuru ilə şagirdləri də, qaz "peç"indən sağda, qapının ağzında, divar dibində Qonaqlılar, Tahirlilər, Qurbanlılar da köyrəlmiş, dolmuşdular. Hətta, qaz peçinin dalında papağı bozaran Əlləzoğlu – Göbələk Məmiş də pişik asqırtısı kimi "pi, pi" eləyə-eləyə ağlayırdı.

Cürə inildədi. Mədəd cürədən betər inildədi:

– Kimsən sən, ey "Birlik?!" OdƏrinə niyə "dəri" dedin?! BağOdƏrinə niyə "Məğdur", "madər", "pədər" dedin?! Birinci Aleksandrın zamanından indiyə qədər minbir yerə sürülə-sürülə nəhayət gəlib Ağdaş rayonunda məskunlaşanlarımız hətta "Padar" – dağıdan deyirlər. BağOdƏr bəndələri ikən özlərini də "Padar" – dağıdan sayırlar. Bəli, Ağlıqlarını – SafAğlıqlılarını bilə-bilə, dünya nemətlərindən savayı hər şeyə tüpürən "Padar!.." OdƏrini öldürüb, kimlə birləşdin, ey "Padar" "Birlik?!" Bağlarını çarmıxa çəkə-çəkə, EvÜnə "fani" deyə-deyə özün də fani olmursanmı, yoxa çıxmırsanmı, ey "Birlik?!"

BağOdƏr hara, "Padar" hara, ey Təhrif?!

Üçüncü beyti dinlə:

Bu yoxluqda varlıq Ündür, ey Təhrif,
Ünlə gələn Od sənindir, ey Təhrif,
Yan bu Oda, yox ol qurtar, ey Təhrif,
Bəlkə onda "haray" ƏrEyə döndü!

ƏrEy, bilirsiniz, GurOdumuz – vilayətimizdir, Uca İşıqdır, Fatehlərin təhrif dillərində “Rey”ə, “Ray”a döndərildiyi zamandan bu günə qədər “haray” təpir, qışqırır: “EvƏrEy OdƏriyəm mən!” OdƏr ikən “KiƏr”ə – “kir”ə, “kor”a, “kar”a döndərilənimiz nə “haray”ı eşidir, nə də EvƏrEyi görür, odur ki, “sən məndənsən” deyən “Din”lə qucaqlaşır, “mən sənin böyük qardaşınam” deyən “Rus”u bağrına basır. Bu qucaqlaşmanı görən BağMən isə “məğmun” – “mağmın” Gizlin şair olub görün necə inildəyir.

“Dü beyti” üstə.[92]

Rusla Farsın arasında
Parça-parça vətənim var.
Kimə deyim, necə deyim
İçəridən satanım var?!

“İçəridən satanım” kimdir, cənab “Padar?!” kimə satırsan vətəni?!

Aşağı başdakı qara kresloda yapıxmış ət torbasından, şivyot kitelin boş qolu altından yuxarıya ələm ağacı kimi ağ qol, ağ əl qalxdı.

– Bura bax ey! Nə çərənnəyirsən?! Sən özünüzdən danışmalısan!

Mədəd, başını yana əyib şerin dəvamını gözləyən əmisinə gözucu baxıb, üzünü Xəlvətə çevirdi.

Nə ölən kimi ölürəm,
Nə qalan kimi qalıram,
Üzüləndə Saz çalıram,
Belə hoya çatanım var.
SimÜndən Ün alan Sazım,
Ünə sadiq qalan Sazım,
A laylay de, laylay, Sazım,
Millət adlı yatanım var!

“Ələm ağacı” yenidən ağardı:

– Harda qaldı “Sultan və Səməd” dəstanı?!

Mədəd toxtaqlı idi:

– Mən “Divani” oxuyuram, qanmalısan ki, hələ təzə başlanır dəstanım. Diqqətli ol, – dedi.

Sonra gözlənilməz sözlər dedi:

– Bir-iki il var ki, təzə söz eşitmisiniz: “Diskoteka”. Al-yaşıl işıqlar içində cavan-cavan oğlanlar, qızlar, dolan, boşalan bokallar, çılpaq bədənlərdə gəzən əllər. Kim gətirib bunu xaricdən? Nə üçün gətirib, ey “Birlik?” Bu sözləri yadda saxlayın. Keçirəm dəstana:

“Çax-çux Xalıqın daxmasının qabağında palıd kötüyünün üstündə daş-tərəzi görünər-görünməz, bütün kənd ora axışırdı və bu vaxt Əmirli nəslinin əziz-ərköyün yetirməsi Səməd də, əmisi Sultanın, yəni rayon partiya komitəsinin birinci katibi Sultan Əmirlinin dövlət “payokun”dan hər cür nemət dadıb özünü kişmiş acı saymadığına baxmayaraq, dərhal o yığnağa tələsirdi ki, yığnağın içində qarışıqlıqda Çax-çuxun qızı Gülbənizə göz vursun, Gülbəniz də öz bacılığı Gülgəzə göz vursun, sonra daxmanın xəlvət bir küncündə çöməlib, önlüyünün ətəyini açıb, “atasından çırpışdırdığı” kişmişi Səmədlə Gülgəzin qabağına tutsun ki, Səmədlə Gülgəz onun – Gülbənizin ətəyindən kişmiş yeyə-yeyə, doyunca bir-birinin üzlərinə tamaşa eləsinlər”

Yəni Əmirli yeniyetməsi həm gələcək bibisilə sevişirdi, həm də gələcək dostu Məsimin gələcək arvadı ilə!

Səmədin nəfəsi qaraldı.

– Mədəd!.. Sən neynirsən?!

Mədəd, cürənin kökünü dəyişə-dəyişə, iri, soyuq gözlərlə əmisinə baxdı. Dodaqları əsirdi.

– Bilirsənmi kimə himayədarlıq eləmisən bu otuz dörd ildə? Qatil yetirmisən, ey qatil! Min dəfə deyəcəm: “tələsirdi ki, Gülbənizə göz vursun!” Sənin sabiq instruktor yoldaşın, indiki sədaqətli çekist yoldaşın, raykom katibi Məsim Qonaqlı Çax-çuxun qızı Gülbənizin göbəkkəsmə nişanlısı deyildimi? Niyə göz vururdun o pak, o gül bənizli Gülbənizə?! Hiss eləmirdinmi, qəşəngcə başa düşmürdünmü ki, səndən ötrü ölürdü o bədbəxt?! Gülgəzi bacılıq tutmuşdu ki, sənə yaxın olsun, Gülgəzlə sən “bir-birinizin üzünüzə tamaşa eliyəndə o da sənə tamaşa eləsin!” Başa düşmürdünmü ki, Məsimə ərə gedəndə ürəyi sənin yanında qalacaq, Məsimi qucaqlayanda səni qucaqlayacaq?! Göz vura-vura xəstələndirdiyin o bədbəxt zənənə də dərs demisən, “Vərəsə” vermisən ki, bətni dəyişsin, saflaşsın, cismani ehtirası SafAğ İnsan məhəbbətinə dönsün. Gözəl niyyətdi! Əlbəttə, uca məqsəddi! Əmma... Gözəl niyyətin, uca məqsədin də düşüncəsizlikdən deyilmi?! Əməli də bətni kimi qəhbə zənən necə saflaşa bilər, əmi?!

Zalda taraqqa-taraq düşdü.

Bütün Qudalılar, Gülənlilər ayağa qalxıb hiddətlə çaxnaşırdılar.

– Bu nə dəstandı?
– Kim ixtiyar verib sənə camaatı təhqir eləyəsən?
– Alnına güllə istəyirsən?!

Qudalılarla Gülənlilərin ardınca Qonaqlılar, Tahirlilər, Qurbanlılar da ayağa qalxdılar. Zalın o başında, qara dəri kresloda Xəlvət, zalın bu başında, qara dəri kresloda Səməd nə halda idilərsə, indi Mədəd özü də demək olar ki, o halda idi: nəfəsini çiynindən alırdı.

– "Qəhbə" dedim, pis dedim. "Təhrif insan" deyərdim əvvəllər, yəni Elmi terminlə danışardım, etika, pərdə gözləyərdim. Siz də razı qalardınız, ustadlarım da... Təkrar eləyirəm, yoxdu daha o OdƏl – həqiqət Əli Mədəd. Yoxdu!.. Sazla, sözlə deyək fikrimizi, bəlkə müvəqqəti də olsa dirildək Od Əlini.

Cürə inildədi.

– Gizlin şairin bayaqkı sözlərini bir də eşidin. "Zarıncı" üstə:

Təhriflər içində içim yanmaqdan
Özü SafAğ, bəxti qaraya döndüm.
Ağrıları ürəyimə salmaqdan
İçimdə qövr edən yaraya döndüm.
Aşkar olammadım, bətnimdə qaldım,
Bətnimdə qocaldım, bətnimdə öldüm,
O gündən də "vəhy" – EvEydən Ün aldım,
"Mən yoxam" qışqıran haraya döndüm.

Bu yoxluqda varlıq Ündür, ey Təhrif,
Ünlə gələn Od sənindir, ey Təhrif,
Yan bu Oda, yox ol qurtar, ey Təhrif,
Bəlkə onda "haray" ƏrEyə döndü!

Lap azacıq şərh dinləyin.

– OdÜnsüz "Din"in "vəhy"ə döndərdiyi EvEy təhrif dildə "Allah"ımızın – ƏlAğımız EySarın Uca Evidi. OdAğÜzdən Ün göndərənlərimiz EvEyin adından, EySarımızın adından göndərirlər. Kiminin bətni bir başa Ünlə dəyişir, saflaşır, Əbədilər dünyasına – Kainata layiq olur. Bətnən – daxilən, irsən qəhbə insan isə, əməlində də qəhbə olduğuna görə, nə qədər məlumat alsa da, iztirab içində boğulub, yalnız fikrən nisbi saflaşıb, cismində – bədənində titrəşən, ehtiraslı hüceyrələrin əsirliyində, ehtiras əsirliyində qalır. "Ruh"dan – ƏrAğdan – SafAğ İşıq-

dan məhrum olur və bildiyiniz kimi, OdƏrBağdan yox, “torpaq”dan, yəni təhrif sözdən – təhrif şüurdan yarandığına görə “torpaq”a gedir...

Hoppanışmayın daha!

Oturun! Heç kəsnən yumruqlaşmıyacam. Kalaşnikovlar da susmalıdır! Mən qorxmuram ölümümdən. Siz – qorxanlar ehtiras xəstələrisiniz.

Susun!

Nə Məsim Qonaqlının düşməniyəm mən, nə Səməd Əmirlinin, nə də sizin. Eyni zamanda Məsim Qonaqlının da düşməniyəm, Səməd Əmirlinin də, bütün Qudalıların, Gülənlilərin də. Yumruqla yox, Kalaşnikovla yox, həqiqətimlə öldürəcəm sizi. Bu pavilyondan heç kəs salamət çıxmıyacaq. Ata əvəzi əmim, himayədarım, Alimim, Tədqiqatçım, fəxrimlə birgə hamınızı öldürəcəm!.. Müharibə illərindən bu vaxta qədər üçpara kəndin xidmətində olan, müqəddəs saydığınız, istəkli şəfqət bacınız Sestrayla əri Dam direktor da daxil olmaqla, bütün Rus məhləsinin, bütün Qonaqlıların, Tahirlilərin, Qurbanlıların paxırını açıb tökəcəm.

Adam öldürməyə, qırğın salmağa yığmamısanmı sən bizi bura, Xəlvət?! Arzunu yerinə yetirəcəm. “Qıyma-qıyma” öldürəcəm hamını! Lap axırda növbə sənə çatacaq. Səlamət qalmaq istəyirsənsə, dur çıx get.

Hamıya deyirəm: getmək istəyən varsa, getsin...

Heç kəs tərpənmədi. Heç kəs dillənmədi.

Mədəd tərli, soyuq əllərini yaylıqla silib, stəkana “Badamlı” töküb başına çəkdi. Sonra “xrustal” qədəhi əmisinin tərli əlindən alıb içdi. Tələsmədən, cürənin kökünü dəyişə-dəyişə, çayxanaküncünü zaldan ayıran “pomost”un – taxta səhnəciyin qırağına doğru yeridi:

– Mən də daxil olmaqla, hamımızı soyuq tər basıb. Nəfəsimiz çatmır. Burulğana düşəndə, sarsıntıdan, stresdən boğulanda belə olur adam...

Dəstanı davam etdirirəm:

“O üç nəfər – iki qız və bir oğlan bu fikirdə idi ki, Çax-çux Xalıqın kişmişi təkcə onların ağzını şirin eləmişdi. Çünki Gülbəniz Səmədi sevirdi, Səməd Gülgəzi sevirdi, Gülgəz isə hər ikisini sevirdi, buna görə də hər üçünün könlü şaddı, ağızları da şirin.

Səmədin gur qara, deyilənə görə, mərhum anası Suranın saçlarına oxşayan, dalğalı saçları Gülbənizin ətəyinə doğru sallananda, o biri tərəfdən Gülgəzin qara cığaları sallanırdı. Bu vaxt Gülbəniz qısqanclığını gülüşlə, zarafatla gizlədirdi:

– Ey, ey, saçlarınız görüşdü! – deyib bir əlilə Gülgəzin, o biri əlilə Səmədin başını dala itələyirdi.

Gülgəzin əli bir yandan Gülbənizin önlüyünün ətəyinə uzananda, Səmədin əli də o biri yandan uzanırdı. Bu vaxt Gülbəniz yenə hər şeyi zarafatla gizlədirdi:

– Ey, ey, əlləriniz görüşdü! – deyib bir əlilə Gülgəzin, o biri əlilə Səmədin əlini dala itələyirdi. Sonra saçların, əllərin görüşü təkrar olunub, "dizlərin görüşü", "ayaqların görüşü" də bunun üstə gəlib, hər üçünün arasında sehrli uşaq oyununa çevrilirdi və kişmiş qurtarana qədər bu oyun davam edirdi".

Nədi bu?! Nə oyundu bu?!

On yeddicə yaş Əmirli nəslinin əziz-ərköyün balası Səmədimin. On yeddicə yaş Qudalılar nəslinin əziz-ərköyün balası Gülbənizin, Məmiş Əlləzoğlunun – Göbələk Məmişin zərifcə, balaca "Qaraçı qızı" – cığalı Gülgəz hələ lap körpəcə qıza oxşayırdı. Və bu kişmiş oyununu o qədər də anlamırdı.

Görün, xəlvətə çəkilib kişmiş yeyə-yeyə necə şirin-şirin oynayırdılar! Görün nə qəşəngdilər, nə gözəldilər! Necə saf mələkdilər! Çax-çuxum da, Çax-çuxumdan kişmiş almaqdan ötrü növbəyə duran Qonaqlılarım da, hamılıqla göz yumurlar, özlərini görməzliyə vururlar ki, mələk balalarım kişmiş yeyə-yeyə, əl-ələ, saç-saça, diz-dizə verib oynaşsınlar!

Niyə dillənmirsiniz, ay əclaflar?! Niyə hücum çəkmirsiniz, niyə öldürmürsünüz məni?! Qudalı məhləsinə o qədər alverçi Rus qızı hardan, necə, nə üçün dolub, cənab Kapital?! Çax-çux – Çik-çikinizin bir ayağı xaricdədi. Kişmiş daşımır daha! "İmportnı tovar"dan-zaddan da əl çəkib. Kaset daşıyır: "Avropa mədəniyyəti!" kino kasetxanaları açıb Bakının küçə "perexod"larının künc-bucağında! Öpüş! Mini yubka! Anaşa! Nədən ötrüdü bu, cənab Kapital?! Yalnız Dollar yığmaq üçün? Yoxsa, bu bədbəxt, nadan xalqı tamam qəhbələşdirmək üçün?! Cavab ver: o miniyubka oyunu oynayan cavanlar güllə qabağına, vətən qorumağa gedərlərmi?! Budur bax Çax-çux – Çik-çik – casus oyunu! Özü üçün çax-çux eləyir, millət üçün çik-çik!

Kişmişlə başlayan o qəşəng oyun hara gəldi çıxdı?!

Oturun, köpəyuşağı! Yumruq davaları qurtarıb. Sözə qulaq asın.

"Əllərin görüşünə", "Dizlərin görüşünə", "Ayaqların görüşünə", "Saçların görüşünə" göz yumanları çoxdan tanıyırlar fatehlər! Astaca-astaca, "diskoteka"dan-zaddan başladılar, cavanlarınızın beyninə əl uzadıblar! İndi, odur Laçının meşələrin yolublar!

Soruşa bilərsiniz, neyniyək indi, qəfəsəmi salaq balalarımızı?! Oğlanlı-qızlı, saqqala, çadrayamı bürüyək, Xomeyni kimi? İnsan neyləməlidi, hara cəhənnəm olmalıdı ki, göz gözə baxmasın, əl ələ, diz dizə, ayaq ayağa toxunmasın?! Mümkündümü?

Deyəcəksiniz mümkün deyil, "diskoteka"da olmalıdı, o birisi də. Oxumuşlarınızın cavabı daha güclüdü: "Fizioloji ehtiyacın qarşısını almaq olmaz!"

Bəs bu nə söhbətdi mən başlamışam? Əmirlilərin, Qudalıların, Əlləzoğlunun əziz-ərköyün balalarını, sizi, əmimi, anamı, özümü niyə təhqir edirəm?!

Cavabım sadədir.

Qalxın bircəciyiniz başa salın məni görüm insan insana niyə əl verir?..

Sükut oldu. Sonra orda-burda pıqqıldaşdılar:

– Bay! Bu nə deyir, ə?!

– Necə yəni "niyə əl verir?!"

Mədəd təzənəni simlərə çəkdi:

– Səlam, privet, zdrastvuy! Bu, deyək aydındı. Bəs, qızın, gəlinin əlini öpmək nədi, ey Rus? Qəhbəliyə pillə deyilmi qadının əlini ələ almaq?! İsticə, ılıqca, yumşaqca əl! Sonra?! Sən babayın əlini öpərdin, gözüyün üstünə qoyardın, ay Qonaqlı, Tahirli, Qurbanlı. İndi niyə belə dadanmısınız bu Nadyalı, Katyalı Şüşəliyə? İncə bilək, zərif əl öpmək nə böyük qəbahət imiş! Qəbahət deyilsə bəs niyə gizlədiyiniz arvad uşaqlarınızdan?! Həmişə, hər yerdə, hər saat, hər dəqiqə gizlətdiyiniz nədi bu? Zibilə dönən ürəkləriniz deyilmi?!

Hardandı sizdə bu?! Nə vaxtdandı bu dərəcədə aydın ikiüzlülük?! Qədim şeydi? Xeyr! İndi ayrı cür deyirəm: o vaxtdandı ki, "Assuriya" – "Suriya" adlandırılan, qanla qidalanan Təhriflər ölkəsinin ÜnEv ikən "Ninevi"ya"ya çevrilmiş paytaxtından Bağday ərazisinə vəhşilər doluşub sizi Elminizdən, Oddan – həqiqətdən ayırıb özlərinin şüurdan ayrılmış ehtiras vərdişlərinə alışdırdılar, məhz o vaxt ayrıldım mən siz "ins"lərdən. Əbədi ÜnƏs, SafAğ İnsan, Bağ, OdƏr adından danışıram! Dərk eləyirsinizmi ayrılıq bədbəxtliyinizi?! Məndən yox, BağÜndən – "beyin"dən ayrılmısınız, ey BağÜnsüz bədbəxtlər! Odur ki, heç kəsin tanımadığı EyƏr – "Yer" Bağı haray təpir:

"Yan bu Oda, yox ol qurtar, ey Təhrif,
Bəlkə onda "haray" ƏrEyə döndü!"

“Haray”sınız hamınız, ey Təhriflər. Öz haqqınızda həqiqəti bilə-bilə, duya-duya, düz yaşamadığınızı əməlli-başlı dərk edib bətninizdə haray təpirsiniz; zənən budunun tərpənişindəncə titrəşir xəstələndirilmiş hüceyrələriniz, haray təpirlər ki, “neyniyək, nə təhər olaq ki, belə abırsızlıqla fırlanıb zənənin dalına baxmıyaq?!” Bizə niy bu qədər ləyaqətsizik?! Yaxşıca dərk edə-edə ki, belə olmaz, niyə ailələrə soxuluruq, insanın məhəbbət adlanan uca hissini tapdalaya-tapdalaya, evimizə murdar heyvan təki qayıdırıq?! Müqəddəs OdƏr – Həqiqət İşığı irsiyyətini beləcə dərk edə-edə, hələ ana bətnində balalarımızın qanını it qanına çeviririk.

Tərpənişməyin! Çaxnaşmayın! İş-işdən keçib, ay bədbəxtlər!

Fateh gəlir, səninkiləri murdarlayır! Sən də üstəlik murdarlayırsan!

Neyləsin indi, hara cəhənnəm olsun Bağından, Elmindən, şüurundan ayrılan bədbəxt?!

İndiki halda, hələlik “ürək” adlı cəhənnəminizə vasil olmalısınız! Çiyinləri Kalaşnikovlu, cibləri Dollarlı, əlləri əllərdə, dizləri dizlərdə olan bədbəxtlərinizin ehtiraslarını boğmalısınız!

Bəli, şüurlu hasar çəkilməlidir fatehliyə, qəhbəliyə! Çax-çux Xalıqın fateh əskəri olduğunu vaxtında dərk eləyib, qabağına hasar çəkməlisiniz! Bayaq çinarın gövdəsinə döyəclədiyim cənab Kapital da fateh əsgəridir! Bəli! Yəni heç ağlınıza gəlmirmi düşmən niyə bu qədər səxavətli olub, sizi niyə belə varlandırır, cismani mədəniyyətlərinə, əxlaqi səxavətlərinə görə Şimalın o qarlı-çovğunlu Maqadan şəhərinə sürülən “mələkələri” niyə sizin qucağınıza atır?!

Mən məcburam təhqiramiz danışım. Əmma, əslində, ağır təhqirlə yox, özümüz özümüzə sakitcə deməliyik: saçım Gülgəzin saçına toxunanda başa düşdüm ki, Gülgəzi sevirəm, Gülbənizi yox. Buna görə də Çax-çuxun qızına göz vurmamalıyam, Məsimin nişanlısının ətəyindən kişmiş yeməməliyəm... Əlimin, ayağımın, dodağımın, dizimin və sairəmin mənə dediyi sözü qanmıramsa, eşşəklə mənim fərqim nədir?!

Diksinmə, əmi!

---

[93] “İran-Rus” müqaviləsi nəticəsində parçalanmış Azərbaycanı birləşdirmək məqsədilə Nərimanov, “Hümmət” partiyasının adını dəyişdirib, bütöv “Kommunist” partiyası yaratmaq niyyətində idi.”

[94] Ənzəlidəki qurultayda Rusların iştirakı birləşməyə mane olduğuna görə Nərimanovun ölümündən sonra məsləkdaşları o tayda gizlin yığıncaqlar keçirirdilər.

Atam sənə söz öyrətməli imiş. Sən saz – ƏsAğÜz sehrindən uzaq olmusan, dərk etməmisən ki, insan Eşqdən yaranır! Murdarlıq olan yerdə Eşq ölür, deməktir insan da yaşaya-yaşaya, ayaq üstəcə ölür!

Nə Alim Səməd Əmirli var burda, nə də ağsaqqal Qudalı Rəhim. Necə yaşadığını, nə üçün yaşadığını, kimi, necə öldürdüyünü bilmiyən on yeddi yaşlı Bircə bala – Səməd bala var! Kapitalı nə üçün yığdığını, millətinin içinə terrorçu dəstələr doldurub, səni, məni nə üçün öldürdüyünü bilmiyən bir torba ət var! Bir torba ətin qız nəvələrinin altmışca nəfər yoğun-yoğun, kırbıd-kırbıd kürəkən balalar – bəlalar, var ki, "göy" (uca) əvəzinə "kür əkən" – "OdƏr əkən" deyib hırıldaşmaqdan həzz alırlar: "Moskvaya nəyə gedirsən?" "Kür əkməyə!.."

Murdarlıq şəhərində OdƏr əkilmir, ey murdar "əkinçilər!" "Göy" – OdEy sözündəndi, Uca Həqiqət deməkdir. OdEylikdən düşüb, murdarlıq bataqlığında batmısınız, ey "kür", "torun" – "torum" bədbəxtlər!

Mədəd təzənəni simlərə çəkdi və özü də bilmədən, lap ağır yüklü, dərd-ələmli "Baş divaniyə" qayıtdı:

Təhrifin ehtirası şiri-nər pəncəsidir,
Parçalayar-dağıdar, bir kimsəyə rəhm eləməz!

Xəzinəni gizlin saxla, yoxsa qamarlayar udar,
Sənə qismət qalırmı, belə şeyi fəhm eləməz!

Qəzəbin Od vulkanı oyanıb püskürəndə
Tezcə yazıqlaşar Təhrif, burda da səhv eləməz.

Ey yazıq Saf Gizlinim, bəs deyilmi Saf, Saf dedin,
Demirlərmi Yerdə Saflıq heç bir kəsə nəf eləməz!

* * *

Dəstanı dinləyin.

Əmirli yeniyetməsi Səmədin ömrünün ən xoşbəxt günləri idi. Ekspeditor Xalıqın rəsmi "faktura" ilə mal payladığı və qeyri-rəsmi "çaxçux" – alver elədiyi üç-para kənddə, o cümlədən Qonaqlıda heç kəs

---

[95] Avropa-Amerika-İngiltərədə və sair antisovet koalisiya məhz Xruşşov hakimiyyətə gələndən sonra Moskvada, Leninqradda "Leypsaq" və s. şəhər adları ilə adlanan mağazalar açmaq üsulu ilə SSRİ-nin daxilinə yol açırdılar; Xalıq, Xəlvət kəşfiyyatçılarını həmin mağazalarla bağlamışdılar.

bilmirdi ki, Arazın bu tayı ilə o tayının, Sovet Azərbaycanı ilə Cənubi Azərbaycanın arasında sərhəddin açıldığı gündən, beş il ərzində bu adamın o taya ayaq döyməyi heç də alver üçün deyil, bu get-gəl agent get-gəlidi, vaxtilə öldürülmüş Bağlarla – Ağ Əmir, Boz Əmir Muğannalarla əlaqədardır. Məlum olan ancaq bu idi ki, palıd kötüyünün üstünə tərəzi daşları düzüləndən sonra Çax-çux yenə “Əmirlilərin şeyx qardaşları Ağ Əmirlə Boz Əmir”dən, ya da onlardan qalan oğul-uşaqdan, mülklərdən, var-dövlətdən danışacaq və camaatı asta-asta başa salacaq ki, bu qara, uzunhoqqar Çax-çux, bu daş-tərəzi adamı Mirqəzəbin adamıdı, vaxtı çatanda bu taydakı Əmirliləri də qətlə çatdıracaq.

Kişmiş almağa yığışanlar bax bu söhbəti eşitməyə yığışırdılar, əmi.

Səməd bala isə öz aləmində idi. Hətta o günlərin ən ciddi hadisələri – o tayda Azərbaycan Demokrat firqəsinin məğlubiyyəti, “Şahın bizimkiləri topa tutması” və Azərbaycan Milli Hökumətinin yıxılması da o gur saçlı, möhkəm bədənli, “əziz-ərköyün sədr oğlunun” gur hissiyatla dolu “torum”una mane olmurdu.

Üz-gözünü turşutma, ey əxlaq mücəssəməsi əmi!

On yeddi yaş heç də az yaş deyil. Səni kişmiş oyununa bağlayan mühitdə az-çox ayıq olsaydın, görərdin ki, gecələr çarpayında şirin röyalar içində eşələndiyin vaxtlar oraya – Əmirli mülkünə işıqları söndürülmüş “Emadin” maşınları gəlirdi. Məhərrəm Məhərrəmov, Saşa Babayev, Mir Cəfər Pişəvəri, Sultan Əmirli, Mədəd Əmirli, Xızr Abı, Çürük Aşıq, Ələskər müəllimin və sair bədbəxtlər, onluq lampanın piltəsini aşağı çəkib, samovarın dövrəsində baş-başa verib, planet miqyasında baş verən böyük gizlin bədbəxtliklər barədə danışırdılar: prezident Ruzvelt heç də öz əcəli ilə ölməyib; Amerika, Böyük Britaniya, Sovetlər İttifaqı adlarında bir-birinə düşmən “müttəfiqlər”in Tehran müşavirəsində, Stalinin iqamətgahında zəhər verilib Ruzveltə ki, o tay-bu tay Azərbaycanın birləşdirilməsi – “Midiya”nın bərpası baş tutmasın. Bəli, EvƏrEy OdƏri idi. O nur Ruzvelt və Bağdayı – qədim ana yurdunu təzə yurdu Amerika qədər sevirdi və bilirdi ki, Bağdayın bərpası yalnız EvƏrEyi OdƏrlərin yox, bütün OdƏrlərin – bəşəriyyətin birləşməsi demək idi; Stalin, Tehrandakı Sovet iqamətgahında məhz bu sehrli Bağday tarixini danışa-danışa, Ruzveltin qəhvəsini özü qarışdırıb, sonra qaşığı ofisiant zabitin salfetinin arasına qoyurdu, çünki Vissarion yetirməsinin “dolqodeystvuyuşşaya makstura” adlandırdığı zəhər məhz o balaca qaşığın “mikrodeşik”lərində idi. İlanın hökmü ilə Vatikandan, Moskvadan qızıl seli axıdılıb Cənubumuzun Farsa, Şimalımızın Erməniyə, Qərbi-

mizin Gürcüyə verilməsi üçün hazırlıq görülsün; Bağday adını, Bağ adını, OdƏr adını bütün planet miqyasında həmişəlik məhv etmək üçün "Türk", "Tat", "Kürd", "Yəhudi" adlananların OdƏr – "Dəri" kökünə aid nə qalıbsa, hamısı məhv edilsin, Vatikanla SSRİ Elmlər Akademiyası arasında sıx əlaqə, birgə əməkdaşlıq yolu ilə institutlar yaradıb, adları çəkilən xalqların mütəşəkkil terrorla bir-birini qırması üçün nifaq təbliğatı aparılsın. Diqqət yetir, ey bədbəxt "Milli Birlik"; gör nə vaxtdan səpilirmiş bu nifaq toxumu! "Türk oğlusan, köpəy-oğlusan!" – ilk dəfə hansı casus monaxın dilindən çıxıb, necə yayılıb, ey "Birlik", bilirsənmi?!

Kişmiş oyunundan başın açılsaydı, o günlərdə sən SafAğ Elmindən də xəbər tutardın, Stalinin Cənubda Milli Hökumət kadrlarını topun altına verdiyindən də xəbər tutardın və bu il, min doqquz yüz səksən səkkizinci ilin axırında kütləvi terror planının həyata keçirilməsi üçün topların lülələrinin Azərbaycana yönəldiyini bilərdin, Şüşəliyə "könüllü ölməyə gəlmək" əvəzinə, bir vətəndaş və çekist kimi, bu silahları qabaqcadan sındırmaqla məşğul olardın.

Qısası, bugünkü ölümüyün səbəbi məhz o kişmiş oyunudu, əmi!

Təsəvvürünə gətir ki, İlan hələ o vaxtlar xəbərdardı sənin Varisliyindən, hələ o vaxt "başını otun arasından qaldırıb deyirdi: "Ye, dadlıdı!" Çax-çux Xalıq özü düzəltmişdi o kişmiş oyununu. Ətrafında səni oyundan ayırası insan yoxuydu. Nə əmin Sultan Əmirli insanıydı, nə də atan Mədəd Əmirli! Gözün kəllənə çıxmasın. Çox ağırdı dəstanın bu parçası!

"Gözünü açıb dünyaya baxanda Səməd özünü kandarında çəmən-otu və qazayağı bitən, tavanında qaranquşlar uçuşan nəhəng bir otaqda, səhərdən gecə yarıya qədər bu otağa dəstə-dəstə gəlib gedən camaat arasında "əziz-ərköyün sədr oğlu" kimi, "şəxsən Sultan Əmirlinin dizinin dibində oturan Əmirli yetirməsi kimi", "ordenli bolşevik Qılınc Qurbanın atının tərkində gəzən və yetdiyinə yetib, yetmədiyinə bir daş atan dəliqanlı" kimi görmüşdü. Nəsillikcə alverçi olan və var-dövlətlərini qorumaq üçün həyət-bacalarında çoxlu it saxlayan Qudalı məhləsinin itlərini döyərdi; Əmirlilərə açıq-açığına "düşmənlərim" deyən Xəlvət Rəhimin atının quyruğunun altına tikan qoyub soncuqladardı; Gülgəzin atası Məmiş Əlləzoğluna "Göbələk Məmiş" deyib qaçışan Qudalı cavanlarını "deşiklərinəcən qovardı", əlinə keçənlərin ağız-burunlarının qanını bir-birinə qatardı; Qudalı cavanlarının atamanı Qeybalı, Qonaqlının partkomu Cəfər əminin – Lüt Cəfərin özündən iyirmi yaş kiçik arvadı Ayna bacının "ora-burasına baxanda" Qeybalını "Dantes

köpəyoğlu" adlandırıb "duelə" çağırardı və dueldə sapandına daş əvəzinə mal peyini yığıb, Dantes Qeybalının üz-gözünü, üst-başını batırardı. Belə dəliqanlılığına görə Qudalı cavanları ona "Dəli Səməd" deyirdilər və yəqin ki, elə haqlı deyirdilər. Daim dingildəyib hökmən nə isə eləmək, hətta gecələr çarpayıda da kişmiş oyunu oynaya-oynaya qaynayıb yorğan-döşəyi, balıncı əzişdirib bir-birinə qatışdırmaq heç də adi, normal adam vəziyyəti deyildi axı, ay əmi!

Mən OdAğÜzdə Bağlarımıza, ƏlAğ EySarının özünə də üsyana qalxmışam: necə yəni "beyinə təsir olar, təzyiq olmaz?!" Bu əbədi qanuna atan Mədəd də qul idi, əmin Sultan da, Xızr Abı da, Çürük Aşıq da. Təzyiq beyinə zərərdir?! İnsan özü öz murdarlığını dərk edə-edə saflaşmalıdır?! Bəs əksinə olanda necə?!

Qısası, adam deyildin, əmi. Ətrafında da heç kəs yoxuydu. İndi görəcəksən.

Dəstan davam edir:

"Bezobraziye Mədəd Əmirlini öldürməyə hazırlaşanda – qırx altıncı ilin dekabrın iyirmi üçündə dünyadan xəbərsiz Dəli hələ də Gülbənizin önlüyündən kişmiş yeyə-yeyə Gülgəzə tamaşa eləyirdi. Ancaq o günü Çax-çuxun o taydakı şeyx qardaşlar barədə camaata danışdığı xəbəri qulağı alanda Səməd, nəhayət, əlini Gülbənizin önlüyündən çəkib, idarəyə – atasının kabinetinə yüyürdü və o gün də birinci dəfə eşitdi ki, demə, Sultan əmidən başqa Ağ Əmir, Boz Əmir adlarında şeyx əmiləri də varmış".

Atan Mədəd Əmirlidən nə eşitdin o günü, yadındadımı, əmi? Xeyr, bütün həyatınla birlikdə sədr Mədədin o günü ölüm ayağında danışdığı "ƏlifLam" sirri də dumana bürünüb. Soruş bu camaatdan:" "Əlif" nədi? Nuru müəllim – Çoban Nurunun çobanlarından başlamış, başları norka papaqlı, damaqları "Marlbora"lı əhlikeyf ət torbalarından, şərqşünaslara, farsistlərə, ərəbistlərə qədər, hamısı bir ağızdan cavab verər ki, Kainat Elminin açarıdı "Əlif" – ƏlEv, ƏlAğdı, təhrifi "Allah"dı, "İdeal"dı – OdƏldi. "Allah"ı – ƏlAğ EySarı tanımıyan adam yoxdu burda. Əmma hamısı "Birliy"in əsiridi. Niyə? Çünki sadəcə, biliklərinin özülü yoxdu; "Ye, dadlıdı". Budur özül! Bunu deyənin göstərdiyi kişmişə bağlıdılar bunlar, ƏlAğın göstərdiyi Kainata yox!

Qırx altıncı, əlli dördüncü illərdə sən necə idinsə, bu "Marlbora" sümürənlər də indi eləcədilər, əmi...

Xəlvətin alnı, sifəti, boyun-boğazı çalın-çarpaz "lekoplastr"la dolmuşdu. Əllərini dodaqlarının qıraqlarındakı qanlı "leykoplastr"ların üstünə qoyub:

– Çərənlə, çərənlə, – dedi, – Səhər saat onacan nə qədər çərənləyirsən çərənlə. Gedən gedəcək, yatan yatacaq, qalanlar sən dəlinin o dəlini nə təhər öldürdüyünü görəcəklər, inşallah! Xızrınız, Çürüyünüz, Səminiz, Şöşünüz-filanınız da maşına basılıb rədd olacaqlar burdan. Rus məhləsiynən bizim "Birliy"in tələbləriynən razılaşıb dillərini dinməzlərinə qoymasalar, Dam direktorunuznan o birilər də rəsmi sürüləcəklər burdan! Ermənіyə veriləcək bu torpaqlar! Saz çalanlardan, göylərnən bağlı Bağlardan əsər-əlamət də qalmayacaq! Di danış!

Danış! Sağ-sola sapma! Qəhbəliyinizdən, heyvanlığınızdan danış! Sultanınıznan bir yerdə Qılıncınızın qatilliyindən də danışmalısan!

Doktor Nərimanovu, Lenini, qan çanağı bolşevizmi də ifşa etməlisən!.. Bunu, məncə, böyügün daha yerli-yataqlı danışar. Niyə qoymursan onu danışmağa?!

Mədədin səsində yenə də qəhər hiss olundu:

– Sadəcə, xəstədi. Ağır xəstədi o, ey daş, ey qaya! Demədimmi o hələ otuz dörd il bundan əvvəl, kənddən qovulduğu gündən sarsılıb, pozulub. "Vərəsə" adında dənizdə üzüb, min səhifəlik dissertasiya üstə eşələnib, Elm yayıb EySarın Ününü eşidib. Lakin bədbəxtdi, indi, ey bədbəxt!..

Avqustda sən təkidlə onu çağıranda mən Şövkət Tahiri onun üstünə göndərdim. Şöşünün "Jiquli"si rayondan çıxanda poçta girdim, zəng vurdun, dedim: "Əmi, həbsxanadan qayıdandan sonra Şövkət Tahir içkiyə qurşanıb, özünü məhv eləyir. Mən ona dərs demişəm, sən onu "Vərəsə"yə bağla, tədqiqatla məşğul olsun, maariflənsin, içkini tərgitsin". Əmim Şöşünü qarşılayıb, cibinə pul qoyub, evin açarını verib, çıxıb gedib İrəvana, səpin haqqında məlumat toplamağa. Qayıdanda görüb Şövkət Tahir kitab şkaflarından tək birindən tək bir cild götürüb. "Sirli dastanlar" cildini. Vərəqləyib, görüb "Dədə Qorqud" dəstanı bizim deyilmiş. Vatikanda yazılıb, izi azdırmaqdan ötrü Drezdenə göndərilib. Almaniyaya. Ordan da buraya, Qoloma – Orta Asiyaya göndərilib, nə qədər mümkündü yayılıb ki, həqiqi tariximizi – Bağdayımızı, Bağlarımızı unudaq... Oturub, tədqiqi materialın şərhi əvəzində bir şeir yazıb Şöşü: "Qorqud Dədəmdən dərs aldım, bir sərbəst şeir yazdım..." – və sairə. Əmim İrəvandan qayıdanda görüb mənzil boş araq, pivə şüşələrilə, boş konserv qutularıyla doludu. "tədqiqatçı" isə çırtıq çala-çala, oynaya-

oynaya axmaqlayır: “Bir de görüm, ay Səməd, Azərbaycan kimindi, sənindi, ya bu mənindi? A ninnini, ninnini! A ninnini!” Neyləyib mənim Alim əmim? Bu altmış yaşlı mötəbər şair Şövkət Tahir ikən “pyanska Şöşüyə”, “Ninnini Şöşüyə” dönən axmağıma qoşulub, gedib iki zəmbil dolusu “Skumbriya” konservi, noxud, pivə, araq alıb, gətirib, bütün sentyabr, oktyabr, noyabr aylarını içib, yatıb, qalxıb yenə içib yatıb! Düzdümü, Şöşü?

Şöşü ağır-ağır başını tərpədib xırıldadı:

– Düzdü, a ninnini!

Mədəd üzünü Xəlvətə tutub səsini qaldırdı:

– “Ninnini”, yəni mənasız!.. İnandınmı ki, ağır xəstədi bu?! Döyülməyi, əzilməyi öz yerində. Ruhən, əqlən də xəstədi indi əmim! Ninninidi! Yoxdu!

Xəlvət qəribə suallar verdi:

– Niyə? Niyə ninninidi axı, onu niyə danışmırsan? “Skumbriya”sı, noxudu, pivəsi nəyimizə lazımdı bizim, a qoduq? Səndən tələb olunanı niyə danışmırsan?!

Mədədin səsi batqınlaşdı:

– Sözüm çatmır sənə, ey daş, ey qaya! Deyirəm Elmdən, Həqiqətdən ayrılıb, əmim, daş-qaya mühitinin rəhmsizliyindən kütləşib. Daşlara, qayalara tay olub. Qandın?! Öz yetirməsinin adını da bilmir! Öz adını da bilmir indi! Babası Şeyx Məhəmmədin, atası Mədədin, əmiləri Sultanın, Ağ Əmirin, Boz Əmirin adlarını – Odlarını – rütbələrini – “Əmir” – EvƏrEyliklərini də unudub! İçir! Çalışır dərdlərini unutsun! Mənim öldürməyimə ehtiyac varmı, ay qansız?!

Zal çaxnaşdı, uğuldadı. – Rəhim kişi! Belə rəhmsizlik olmaz! Kişi can üstədi!

– Əl çək bu işdən!..

Xəlvət, barmaqları dodaqlarının qıraqlarındakı qanlı “lekoplastr”ların üstündə, qaz “peç”inin üstündən qapıya doğru baxdı:

– Soyuq kəsdi bizi! İçəri gəlin, qapını örtün!

Mədəd başını cürənin üstünə endirib, təzənəni simlərə çəkib xırıldadı:

Əzizim, su dayandı,
Arx gəldi, su dayandı...

Xəlvət bərk qəzəblənmişdi:

– “Elə bir ah çəkdim ki, alışdı su yandı!” Mənim yanan ürəyimi daşa döndəribsiniz siz! Bayatı istəmirik! Dəstanını danış!

Ət torbaları da qışqırışdılar:

– Dəstanı de! Bəsdi sağa-sola çəkdiyin! Düz cığırnan apar kotanı!

– Dəstanı danış! Yoxsa kəlləni partdadarıq!

– Anqır! Yaxşı anqırırsan!

Mədəd gözlərini silirdi.

– Danışıram... Deyirəm bir ah çəkdim, alışdı su da yandı, siz yanmadınız!

Danışıram. Qırx altıncı ilin dekabrının iyirmi üçündə, ölümündən bir az əvvəl sədr Mədəd oğlu Səmədə deyirdi:

– “Əmilərin Ağ Əmirnən Boz Əmirin yaxşı oğulları qalıb. Təbrizdə, Əmir bazarının yanındakı mədrəsəmizdə bir yerdə oxumuşuq... Bir dəfə iyirminci ildə, Ənzəlidə, İran Kommunist firqəsinin[93] qurultayında görüşdük. Bir dəfə də iyirmi səkkizinci ildə Tehranda, o vaxtkı Azərbaycan Kommunist firqəsinin[94] gizli yığıncağında. Şeyx əmilərin kimi oğulları da etiqadlıdılar. Gümrahdılar. Çünki biz varıq bu tayda. Bizim başımıza bir iş gəlsə, sınmıyacaqlarmı? Partiyanın proqramından dönmüyəcəklərmi?!”

Sədr Mədəd bu sözləri deyəndə əziz-ərköyün balasının gözü “atası – rəhbəri Stalinin” portretində idi, fikri Gülgəzlə Gülbənizin yanında! Dünyadan xəbərsizin xəbəri yoxdu ki, Çax-çux “kişmiş oyunu” ilə “Qızını Muğannaların gəlininə çevirib, özünü də bu ailəyə soxmaq niyyətinin baş tutmuyacağını başa düşüb, bacanağı Məhərrəm Abbasoviçə ismarıc göndərmişdi ki, “bu qohumluğa kömək eləsin”, Məhərrəm Abbasoviç isə sədr Mədədə çatdırmışdı ki, Mədəd onun – Məhərrəmin səhvini təkrar eləməsin.

Atan bu sirri də açdı sənə o kabinetdə. Sən eşitmədin. Bu faciə bax onda başlanıb, əmi. Əlin Gülgəzin əlində, dizin Gülbənizin dizlərində olmasaydı, aydınca eşidərdin ki, sədr Mədəd sənə təpinirdi: “kişmiş deyil, zəhərdi o!” – deyirdi.

Bəsdimi bu barədə?

Yox!..

---

[96] Qorxudan azad əvəzinə “qorxudan xali” ifadəsi xalqın dilində ən qədim Saf-Ağlardan qalıb.

[97] Dövlətə vergini məhsulun özündən ödəmədən, kolxozçuya əməkhaqqı vermək qeyri-rəsmi qadağan idi.

Sədr Mədəd oğluna deyirdi: – iyirminci ildə Ənzəlidə niyə birləşmədik? Danışsam da başa düşməzsən. Çünki nə kommunizm barədə təsəvvürün var sənin, oğul, nə də özlərini kommunist adlandıranlar barədə. Mir Cəfər Bağırov Mirqəzəb, Nərimanovun “Lenin və Şərq” kitabını yığışdırıb gizlədib. Çünki Şərqin oyanmağını təhlükə sayır. Biz deyirik Şərqə gedək, elmimiz o taydadı. O deyir Şərq geridi, bizim şüarlarımızı qanmaz. Tara nifrət eləyir Mirqəzəb. Sazı qadağan eləyib. Çünki dünyamızın eşqi Sazdan havalanıb uçur. Ən uca mənanın kökü Sazdandı. Bütün yer üzü bağlıdı Saza. Düşmən dəridən çıxır ki, açılmasın bu gizlədilmiş həqiqət! Ortalığa bir Avak çıxardıb Mirqəzəb. Gör nə oxuyur erməni aşığı: “Rəhbərin başına bax, Kaqanoviç yoldaşına bax!..”

Mədəd təzənini simlərə çəkdi.

– Bəhməni çalıram indi, Rəhim kişi, “BağMən”lə bağlıdı sözüm.

Məni yox, Bağını öldürürsən sən! Xızr Abını yox, Kainatı sürgünə göndərirsən, vəhşilər dünyasında qalırsan, ey vəhşi!

Məndə dəqiq məlumat var. Yetmiş səkkizinci ildə Bakıya qayıdanda Çax-çux ilk növbədə Mərdəkanda Kişvər adında köhnə agentini tapıb, ondan öyrənib ki, Xudiyev başda olmaqla, RİK Atamalı ilə prokuror Sayılov, Xaş nəçənniklə məhlə milisionerləri, qısası, Mirqəzəbin, general Persin cinayətləri ilə bağlı adamların hamısı Xruşşovun vaxtında amnistiyaya düşüblər.

Səndən soruşuram indi, sürgündə çürüyənlərimizin övladları bəraət verərlərmi onlara?!

Xəlvət kresloda silkələnib:

– Dayan! – dedi. – Çox baş-ayaq vurma! Sən əmiyin Bircə balası olduğun kimi Xalıq da mənim qardaşımın bircə balasıdı. Türmədən qayıdanda yüz min qoydum ovcuna. Leypsix mağazasını[95] doldurdu vaqona, gətirdi bu üçpara kənddə satdı, getdi əlli min “Xudiyev”in – Dudiyevin ovcuna qoydu, əlli min Atamalının, əlli min Sayılovun, əlli min də Gülənovun. Köhnə “Xudiyev dəstəsi” oldu Çax-çux dəstəsi! Burda hakim-mütləq təşkilatımız “Milli Birlik”də Xalıqın təşkilatıdı. Zəmanəmiz belə gətirib, qadası! Pulnan, zornan həll olunur hər şey. Sizin o “Əlhəm övladları” küncdə-bucaqda nə qədər “ƏlEy, ƏlEy”, “EySar, EySar!” – desələr də, xalq onları yox, imam Əli övladlarını tanıyır! İranlı, Turanlı Şiə dünyası var bu “Birliy”in arxasında, qadası. Fundamental İslam dünyası var! Onun arxasında isə, yaxşı bilirsən ki, rusnan “Qlavnıy Yevrey” dayanıb, EvƏrEy OdƏrinin adını “Türk”,

“müsəlman” eləyib guya qırğından-terrordan gizlədib “öz millətini”. Müsəlmanlığ bir yekə hörümçək toru olub, “türk o torun içində gizlənə-gizələnə əslini yaddan çıxardıb. ƏsOd OdƏri dediyiniz “Cud” – “Cuhud”, bu “ƏrMən” – “Erməni”, Xəlvət Rəhim isə EvƏrEy OdƏrini qəşəngcə təpikləyib özündən ayırıb, Ermənİynən birləşib, bir tərəfdən Rusdan Kalaşnikov alıb, sənə deyir: “Mı perestrelyayem vas vsex!” Yəni mən Xəlvət Rəhim aşkar olub, Erməni qardaşımnan çiyin-çiyinədi! Qandın?! Xalıq burda olsaydı, belə cavab verərdi sənin “bəraət” söhbətinə.

Əmisi arvadının oynaşına bəraət ver sən! Danış, küçük! Mənim canıma elə od doldurubsunuz ki, odunuzu söndürüb, ocağınızın külünü göyə sovurana qədər soyumuyacaq canım! Dizi, dodağı, əli, ayağı da de, “gül bənizli Gülbənizimi” də yanaşı qoy qəhbəniznən! Məsimi də biabır elə, Xalıqımı da, “Kapital”ın qız nəvələrini, “altmışca nəfərimi” də. Sestramıznan Rus məhləsini də qoş, heyvan elə, murdar elə. Neyləyirsən elə, hamısına dözəcəm. Danış! O kağızın necə yazıldığını danış, qoduq!

– Danışıram... “Əmisi arvadının oynaşı” ölməlidi, əlbəttə. “Vərəsə” ifşa olunmalıdı! Siz olan dünyada boğuluruq biz. İkimiz də öləcəyik burda, sənin gözləriyin qabağında. Əmma tələsmə. Özün proqram vermisən: qıyma-qıyma danış, qıyma-qıyma kəs, işgəncə ilə öldür! Proqrama iki yüz faiz əməl eliyəcəm. Oynaş Səmədi öldürəcəm, Alim Səmədi dirildəcəm. Qəhbə oğlu Mədədi öldürəcəm, Alim Mədədi dirildəcəm.

Daş gözlərdə istehzalı işartı əmələ gəldi.

– Dirildəmməzsən! “Vərəsə” yoxdu.

Mədəd diksindi.

Bu an Ün gəldi: “Nədən, kimdən qorxdun, Mədəd?!.”

– Bir də de görüm... nə dedin?!

Daş gözlərdə işartı parıltıya çevrilmişdi.

– Dedim “Vərəsə” yoxdu! Dissertasiyanız “sion”un təhrifliyini açır, ƏsÜnü təsdiq eləyir. EyOdƏr Babanızdan EySarınıza qədər! Bütün dinləri tapdalayan Bağlarınızı təbliğ eləyib, açıq-açığına antisionist xətt-hərəkət yeridir. Katolik kilsəsi qoyarmı onu çıxsın ortalığa?! Dörd aydı burda ölüb qalmısan. Get evində o tərəcələrə bax, boşdu hamısı!

Dissertasiya yandırılıb, a bədbəxt! Məhərrəmin evindəki cildlər də ki parça-parça, cırıq-cırıq şeylərdi! Mən yandırmışam o Xəzinənizi, içərimdə quraşdırdığınız Alimi də o Xəzinəynən bərabər yandırmışam! Sən özün ölü, Səmədin ölü!.. Nəynən dirildəcəksən Alimləri?!

Yenə Ün gəldi: “Özünü itirmə! Biz deyirik sənə. De!”

Mədəd nəfəsini dərib dedi.

– Səməd də diriləcək, Mədəd də, ay bədbəxt!
– Nəynən?!
– “Vərəsə”ynən, ey daş!
Daş gözlər ciddiləşdi.
– Yəni başqa “Vərəsə” də var?!
– Var, ay yazıq.
– Ola bilməz. Hardadı?
– Deyəcəm... Məclisi nəzərə al. Saz məclisidi!

– Yaxşı, oxu. Əmma Bağırova, Avaka-zada sataşma. Nəzərə al ki, Ermənini özündən ayırmayan “Birlik” oturub bu məclisdə! Bir də... Pünhanınızın o qəzəl çərən-pərənini qatma bura! Çürük səndən yaxşı oxuyur: “Mənmi çürümüşəm, ya zəmanəmi?!” Öz dəliliyindən oxu sən də! Gizlin şairinizi də yaxşı tanıyırıq. Onun yazdıqları da qadağan olunacaq!

Mədədin səsi sərtləşdi:

– Gizlinin açıqlığı da var, ey EyOd ikən “Yəhud”a, ƏsOd ikən “Cud”a ƏrMən ikən “Erməni”yə, EvƏrƏs ikən “Farsa”, dönən “Milli birliyi”ni vahid OdƏrdən ayıran casusun – sənin əmrinlə yox, Ün əmrilə çalıb oxuyuram mən. Əmma sən Təhrifin qəddarlığı qarşısında Ün göndərən ƏlAğımızın özü ilə birlikdə bütün Əllər acizdilər! Çünki silah işlətmir OdƏr Bəşəriyyəti, hətta erməni kimi quduran övladına da əl qaldırmır. Siz isə gecə-gündüz Kalaşnikovla oynayırsınız! Budur bu “Yer” üzünün bədbəxtliyi! Qulaq as, gör Əlləri necə “ölü”lərə dönrərirsən, ey Ölü!

Cürə “təcnis”lə ağladı, Mədəd cürədən betər ağladı:

Hamı Dəli, Dəli deyir sənə, bir OdƏl deyənin yoxdur,
Pünhanın nə çarə qılsın, ey Odsuz yanan Əli?!

OdƏlsiz-dilsizlər hey “dad bidad” qışqırırlar,
“Dad”ı dildən necə qovsun Axirətdə qalan Əli?!
Əlimi tək görən cəllad girib Elmimin Evinə,
Necə Əlim desin Elmə Elmi talan olan Əli?!

Elm-Əlim, Alim-Əlim, Aləm-Əlim, Əl də Əlim,
Əl Muğanna ölü olub, ey ƏlBizsiz qalan Əli?!

Xəlvət farsistlərinə, ərəbistlərinə göz gəzdirib, mütəəssir gözlər görüb qışqırdı:

– İmam Əliyə dəxli yoxdu bunun! Əli qənim olsun “ƏlAğ”, “ƏlEy” deyəninizə! Uzatma! Konkret de görüm hardadı o birisi “Vərəsə?!”

– OdAğÜz planetindən gələn Ün əbədi “Vərəsə”di, ey bədbəxt!

– Nağıl adamı deyiləm mən! Nağdıdan danış, hardadı?!

– Beynimdədi, ey yazıq... Xızr Abının, Çürük Aşığın beyinlərindədi. Bütün Dəli – OdƏllərin beyinlərindədi...

– Dayan görüm... Sən bilirsən, mən ayıq adamam... Siz Dəli – OdƏllərin barəsində məlumatım səninkindən az deyil. Böyük hərfnən yazdığınız Elm Alimi Xəlvət Rəhimdi indi, siz deyilsiniz! Bu qədər əzab-əziyyətimiz isə, özün deyirsən, ondan ötrüdü ki, “Vərəsə”niznən bir yerdə cəhənnəmə vasil olasınız, ya da bütün həmşərilərinizən bir yerdə süpürülüb gedəsiniz o tayınıza. Gedib orda danışasınız bu OdƏr – modərinizi. Rusiyadı bura! Amerikadan üzü bəri, Feerqe-filan, bütün xaric dolub mühacir azərbaycanlıynan, “Xəzər” radiosu bar-bar bağırır ki, ruslaşdırırlar Azərbaycanı, Qazağıstanı, Özbəkistanı, Turkmənistanı, Tatarıstanı. Nə olsun?! Faydası nədi?! Oturubsan o pyanska şairlərnən, Abıynan, Çürüknən, bu tüstünün içində, bu daş, dəmir Xəlvəti yumşaltmaq istəyirsən. Keç o dal otağa, televizoru aç, KPSS-in plenumunun xəbərlərinə qulaq as, gör bir dəfəyə neçə katib çıxardıblar təsərrüfatı dağıtdıqlarına görə! Katiblərin milyonlarını dəmir borulardan, divarlardan çıxartdıran Heydəriniz yox hesabındadı! Biznes zəmanəsi gəlib, ay əbləh, siz elə Elm deyirsiniz! Sən mənə de görüm, Dəlilərin beyni torpağa qarışandan sonra kim eşidəcək “Vərəsə”ni?! Erməni gəlir ey! “Velikaya Armeniya” yaradılır, ay nadan! Bağday nədi, Azərbaycan adı da silinir yer üzündən! Muğ – Bağ nədi, OdƏr nədi, Tərik – Türk adı da qalmıyacaq!.. Danış qurtar! Öldür onu, puldan-paradan götür nə qədər istəyirsən, rədd ol buralardan!

Mədəd son beyti bir də oxudu:

> Elm-Əlim, Alim-Əlim, Aləm-Əlim, Əl də Əlim,
> Əl Muğanna ölü olub, ey ƏlBizsiz qalan Əli?!

“Məlumatlı” adlandırma, “Alim” adlandırma özünü ey beyni dolu ikən beyni boş cahil! SafAğ Elminin astanasında da deyilsən. On səkkiz min “Qalaktika” – QalAğda, cəmi OdƏr bəşəriyyətində on səkkiz mindən də dəfələrlə çox ƏlAğ olduğunu dərk edə-edə, yenə də “Bir olan Allah” deyən, üstəlik, “Allahın şəriki yoxdu” oxuya-oxuya, yenə “Əliallah”lıq eliyənlərin dövranı qurtarmalıdı. “Allah”ın “şəriki yoxdu”sa imam Əlini niyə şərik çıxarırsan, ey “Əliallaha” qansız?! “Cuhud”,

“cud”, “Hud” – “Yəhud” da deyilsən sən, dilini – OdƏlini itirmiş “Pers” – “Fars” da deyilsən! Xomeyni nə deməkdi, ey HəmEyini itirmiş dilsiz, vətənsiz, millətsiz “alim?!” EvƏrEyÜnlərin – “faraon”ların zamanında cahillərə yazı göndərdilər OdAğÜzdən; oxumusunuz sevimli “Bibliya”nızda: “Na bojyem yazıke napisali”, “Səni TəkƏl aparsın”. Yaradan Bağ kəlmələrilə yanaşı işlənən dildi bu dil, ey “alim”, “cahil!” “Dəri” deyil, ey “Fars” – mənasız ey diri ikən ölü!..

Mədəd “pomost”dan düşdü. Pencəyini çıxarıb çirkli taxta döşəməyə tulladı. Cürəni pencəyin üstünə atdı. Skelet su içində idi. Qollarında, döşlərində daş əzələlər qabarmışdı.

– Səsini çıxartma daha! Nə Dəli Səməd ölüb, nə də OdƏl Səməd. İkisi də mənəm. Xızrın, Çürüyün, Səminin, insana, dünyaya “Ninnini” deyən bədbəxtimin beyinləri də məndədi, bütün Dəlilərin də! Fikrimi o yan-bu yana çəksən, o plastrları qopardıb yumrulayıb boğazına təpəcəm, nəfəsini dalından alacaqsan. İyili quyu!

İyini yığışdır! Əbədiyyətimi qurban vermək bahasına öldürrəm səni!..

Xəlvətin çinara necə çırpıldığını xatırladan bu dönüş sükut yaratdı. Mədəd bir xeyli ağır-ağır nəfəs alıb, özünə gəlib, pencəyini geyinib, cürənin qayışını çiyninə keçirdi.

* * *

– Sözüm Qonaqlı camaatınadı indi.

Dəstanım davam eləyir.

“...Kənddən aralanıb meşə yoluna burulanda, dümdüz yerdəcə maşın aşmışdı. Camaat uzun, arası kəsilmiyən siqnal eşidib hadisə yerinə töküləndə kişinin hələ nəfəsi üstündə imiş, siqnalı basan da özü imiş. Camaatı görüb əlini siqnaldan çəkəndə nə isə demək istəyib. Əmma dili yoxmuş daha. Sultan Əmirli xəbər tutub gələndə isə meyid soyuyubumuş.

Sultan sarğını açıb, qardaşının gicgahında yaraya baxıb. Ağlamaq əvəzinə elə hey köksünü ötürürmüş. “Yaran nə dərindi, dadaş”, – deyirmiş, ondan-bundan soruşurmuş ki, niyə dillənmirsiniz, niyə danışmırsınız, belə dümdüz yerdə maşın niyə çevrilib? Necə olub ki, bədənin heç yeri zədələnməyib, təkcə gicgahı bu cür partlayıb-dağılıb?! Bəlkə qəsd işidi?!. Sultan Əmirliyə heç kəs heç nə deyə bilməyib. Ancaq NKVD Gülənovun “zaklyuçeniye”sindən sonra aydın olub ki, “Su-

düşən çəməni ilə meşənin arasındakı nəmişlikdə Mədəd Əmirli rulu kəskin şəkildə sola – yola doğru burduğuna görə maşın aşıb və aşarkən sağ qapının yuxarı küncü Mədəd Əmirlinin sağ gicgahına batıb, çoxlu qan axmasına və qanaxma nəticəsində ölüm hadisəsinin baş verməsinə səbəb olub".

Bütün bunları Səməd hamıdan sonra bildi. "Cəfər əmi" dediyi Lüt Cəfər onu kabinetdə, dəmir "peç"in yanındakı nazik taxtda üzünü əmilərinin qəbirləri, başdaşları şəkillərinə söykəyib yatan yerdə tapıb oyadıb.

– Qalx, oğlum... Bədbəxtlik olub... Atan avariyaya düşüb, – deyib.

Sonra qoluna girib, "uzun, arası kəsilməyən siqnal"dan "zaklyuçeniye"yə qədər hər şeyi yerli-yataqlı danışa-danışa və nədənsə tez-tez "qəsd işi yoxdu, qəsd işi yoxdu" deyə-deyə onu hadisə yerinə aparıb. Bu vaxt nə maşın orda imiş, nə meyid, nə də camaat.

Qan tökülən yeri torpaqlayıb, dövrəsinə qaratikan yığıbmışlar ki, ayaq dəyməsin oraya. Qaratikan yığınının yanında bir saqqız ağacının döşünü balta ilə çapıb hamarlayıb, qızmar dəmirlə iri-iri qara hərflər basıbmışlar: "Mədəd Əmirli burda həlak oldu. 23 dekabr 1946-cı il".

Kim yazmışdı bu "həlak oldu"nu?

Siz, ey Qonaqlı camaatı!

Bilirdinizmi sədrinizi öldürüblər?

Bilirdiniz.

Bəs niyə elə yazdınız?! Niyə ört-basdır elədiniz qəsd işini?!.

Mənim yaddaşımın sizinkindən fərqi bundadı ki, EyOdƏsdi – Uca Yaradan həqiqətdi "yaddaş"ım. Yəni Ündü. Sizin yaddaşınızdan fərqli olaraq, min-min illər əvvəllərin və hətta gələcəyin hadisələri həkk olunur beynimdə. Göstərilir və həkk olunur. Məsələn, mən hələ indidən açıq-aydın görürəm ki, iki-üç ildən sonra sizin bu "Milli Birliyi"niz "Boz qurd" adı ilə məşhurlaşacaq. Və özünü "Xalq Cəbhəsi"nin əskərləri adlandıranların dəhşətli bandit yığınından da dəhşətli vəhşiləri Qarabağda Xocalı şəhərinin əhalisini qıracaqlar, hırıldaşa-hırıldaşa, oğulun gözünün qabağında qoca atasının meyidini zorlayacaqlar! Adını da qoyacaqlar ki, "Ermənilər qırdılar, Ermənilər zorladılar". Niyə belə? Çünki İlana Erməni ilə Türk arasında əbədi düşmənçilik lazımdı. Ermənilərlə yanaşı sizi də terrorun icraçılarına çevirib ölkəmizin daxilində bundan da betər milli ayrılıqlar, şiə, sünnü bədbəxtlikləri yaradacaqlar. Əmma həqiqət gizlin qalmayacaq. Çünki, təkrar edirəm dünyamızda Bağ rütbəsində gələcəyi, keçmişi görən insanlar var!

Dünya miqyasında yüzlərlə qəsd işindən xəbərdaram mən. Uzaq keçmişi görən əbədilərimizin bu "fantastika"sını lap adi, sadə sözlərlə

çatdırıram sizə. Açıq-aydın qəsd işini "həlak oldu" kəlmələri ilə örtbasdır eləməyinizin sirri bundadı ki, "Allah" – ƏlAğı tanıyan, Kainatın sirlərini, o cümlədən öz ölümsüzlüyünü bilib hər cür qorxudan xali[96] olan SafAğların əksinə, siz hamıdan, hər şeydən qorxa-qorxa, həmişə, hər yerdə iradənizin əleyhinə gedirsiniz. Çax-çuxun çəki daşını tərəzinin üstündən qapıb maşının böyrüylə yüyürdüyünü bugünkü kimi görürəm mən. O vaxt siz də görürdünüz. Çax-çuxun "Villis"in qapısını açıb içəri atıldığını da görmüşdünüz. Həmişə qoşa gəzən Qara Zalla Sarı Zalın qışqırtılarını, "Öldürəcək! Sədri öldürəcək köpəyoğlu!" – dediklərini də eşitmişdiniz. Orda, saqqızın yanında Dam Direktor bu Xəlvətin üstünə yeriyib: "Öldürdü! O nalnan öldürdü!" – deyəndə, Təftiş Abbasın SafAğ oğlu Qara Zal Xaş nəçənniyin üstünə yeriyib "həbs eləyin onu! Xalıqı həbs eləyin!" – deyəndə hamınız qınınıza çəkildiniz. Hamınız, ey Qonaqlılar!.. Sədr Mədəd məhz qorxudan xali olduğuna görə kolxoz nizamnaməsinin formal ədalətini həqiqi ədalətə çevirib çörək verirdi sizə; "naturplata"[97] adlanan dövlət vergisini saxlayıb, əvvəlcə sizin əməkgünlərinizə taxıl, qarğıdalı, yağ, pendir paylatdırırdı.

Siz isə, hamılıqla qorxu əsiri olduğunuza görə Dam Direktorun, Qara Zalın səslərini batırdınız!

Sonra? Sonra nə baş verdi? Gizlin ürək ağrıları, vicdan qışqırtıları: "Belə yaşamaq olmaz! Belə yaşamaq olmaz!" İçərinizdəcə boğuldu qaldı bu üsyan, ey yazıq, bədbəxt millət!

Qulaq asın:

"Nə qədər ki, yaxınlaşıb yazını oxumamışdı, Səməd elə bil hələ də yuxulu idi, ayaqlarını yerə basdığını da hiss eləmirdi və hətta Cəfər əmi – Lüt Cəfərin qəribə pıçıltı ilə danışdığı təfsilata da bir növ laqeyd idi. Saqqız ağacının üç addımlığında dayanıb o yazını oxuyanda isə birdən-birə boğulmağa başladı".

Kim "boğulmağa başladı?"

Boş-boşuna vermirəm bu sualı. Kim "boğulmağa başladı?"

Həmin bu altmış yaşlı, beyninə qan sızan skelet Alim, o vaxtkı on yeddi yaşlı, əziz-ərköyün Bircə bala.

O vaxta qədər boğulman-zad vardımı, əmi?

Yoxuydu.

Niyə məhz orda boğulmağa başladın?

Bilmirsən.

Sən necə, Xəlvət? Hamınızdan soruşuram: Niyə məhz orda, o cür faciə içində tək qalanda, ömründə ilk dəfə boğulmağa başladı bu skelet Alim?

Bilmirsiniz.

Dəhşət bundadı ki, mənim bu ilk nəzərdə qeyri-adi danışığımın, təkrar elədiyim bu "bilmirsiniz, bilmirsiniz" sözlərimin altındakı məna çox adidi.

O boğulan da, bu boğulan da saf, uca bir insandı. Xalqına məhəbbəti, hissiyatı, vəcdi necə ucaymışsa, hətta bədbəxt Yetimlər məhləsinin qapı-bacalarını murdarlayan ət torbalarının o tualetə çevirdikləri yerləri təmizləmək istəyirmiş!.. O saf, gözəl gənci, sədr Mədədin yeganə varisini gözləmək, təsəlli, ürək-dirək vermək əvəzinə niyə elə gecə dağılmışsınız? Məhkəmə zalında, Xalıqın gözü qabağında şahidlik eləməkdən qorxmusunuz?!

Bəli!

Bu bir ovuc Qudalıların "Birliyi" – birlikdir. Siz isə özünüzdən başqa heç kəsin taleyini düşünməyən tək-tək qorxaqlar yığınısınız! Sizi biri-birinizdən ayırmaqdan, torpaqlarınıza soxulmaqdan asan nə var?!

Saqqızın yanında o gənc ömründə ilk dəfə, sizin yadlığınızı hiss eləyib!

"Vərəsə"mizi iy basıb! Bu şüşə divarların arasında çala-çala, oxuya-oxuya dönə-dönə danışmışam sizə ki, "Qrek" – "Latın" – "Fars" fatehlərinin, sonra bu dəhşətli üçlüyə qoşulan "Ərəb" fatehlərinin, sonra Səlib-Xaç fatehlərinin, sonra İlan Vatikanın gizlin "poslaniye"ləri əsasında Romanovlar fatehlərinin qan-qırğınları sındırıb sizi.

Vaxtilə "Pro Metey" – EvƏrOdBağdaylar zəncirlənmişdi. İndi hər bir Tərik – "Türk" OdƏr zəncirlənib! Agentlər mühasirəsində yaşayırsınız. "Əsir" kəlməsi minilliklərlə gəlib indi Xəlvətin dilində təntənə ilə səslənir!

Mən sizi, İlan əlində silah olan əbləhlərimizi "cahad"a çağırmıram. Cəhalət zorakılığına qarşı zorakılıqdan – ölümdən, torpağa çevrilməkdən dəhşətli bir şey olmadığını dönə-dönə təkrar eləyib, sadəcə, öz bətninizə, "ürək" adlanan cəhənnəminizə diqqətlə baxmağa çağırıram. ƏrOd – həqiqət işığı ikən "ƏrKi"yə – "ürək"ə döndərilən təhrifi saflaşdırmaq üçün bilik verən, idrak verən Elmimiz özü əsir düşüb, işgəncə içində inildəyir, təhrif olunur. Gizlin qışqırma, ey "ürək"!..

Mənim "Ninnini" deyənim deyir: "Xalq elə bilir sən onu "ürək" əvəzinə "ƏrOd" deməyə məcbur eləmək istəyirsən, ay əbləh. Elə ona, görə millətiyin akademikləri də əyri baxırlar sənə! Yazıçıları, şairləri ağız büzürlər ki, "dil islahatımı aparaq indi?!" "Əl çək Elmdən, a Ninnini!" – deyir. Mən isə əl çəkmirəm və son nəfəsimə qədər deyəcəm: "Tarixi bil, ey "ürək!" "Dilinizlə birgə "ürəg"inizin də təhrif olduğunu bilin, ey

“ürək” Qonaqlılar, “ürək” Tahirlilər, “ürək” Qurbanlılar! Səsinizi səsimə qatın, açıq qışqırın ki, belə yaşamaq olmaz! Belə yaşamaq olmaz!..

Ürəyinizə diqqətlə, fəhmlə baxın, görün niyə bu qədər “yazıqlar”, “bədbəxtlər” deyirəm?! Niyə hamınız bədbəxtsiniz?!

Sadəcə olaraq, həqiqətdən uzaq düşüb, hamınız, hamınız yalanla yaşayırsınız!

Deyirəm, Qarabağın o Cənnəti cəhənnəmə döndəriləcək. İçərinizdə “Vay! Vay!” – deyirsiniz. Əmma biriniz də mənim səsimə səs vermirsiniz! Bundan böyük bədbəxtlik olarmı?! Bakıda, “hökumət evi” deyilən binanın yanındakı o böyük meydanda mitinq keçirirlər. Rusiyadan, KPSS-dən azadlıq tələb eləyəcəklər. Kimlər? Millətimiz? Xeyr, ey sınıqlar, susqunlar, qorxaqlar yığını! Sabah-birisi gün ətraflı eşidəcəksiniz o mitinqlər, tələblər barədə, sevinəcəksiniz. Biz Ün eşidən bədbəxtlərdən başqa heç kəs bilmiyəcək ki, tələdi o mitinqlər. Bu “Ulduzlar müharibəsi”ndə bütün Türk respublikaları, o cümlədən Azərbaycan KPSS-in əlindən çıxır. Buna görə də KPSS özü təşkil eləyib o azadlıq uğrunda qışqırtıları. Bakıya ordu yeridəcək, sonra ordusunu çıxarıb aparacaq, siz də yenə sevinəcəksiniz ki, ah, axır ki, canımız qurtardı Rusun əlindən, neftimiz, pambığımız özümüzə qaldı... Bəs əslində nə olacaq? Əslində, KPSS-in bu respublikada ciblərdə olan partiya biletləri eləcə qalacaq. Yəni “podpolye”də qalacaq Sovet əjdahası, bax bu “Birlik”lərdən ibarət “Xalq cəbhəsi” adında yalan milli dövlət yaranacaq, və o dövlət xəlvəti gözləyəcək ki, Sovetlər İttifaqı adlanan “sverxderjovo” dünyanı atom altında qoyub Amerikanı, Avropanı batırandan sonra yenidən meydana çıxsın Azərbaycanda. Nə olar o vaxt, bilirsənmi, ey bədbəxt millət? Yenə Erməni iş başında, “Türk” – OdƏr zülm altında?

Bəli!

Tanıdınızmı bu “Birliyi”, ey bədbəxtlərim?! Heydərinizi niyə zəhərləyib iflic eləyiblər?! Çünki, sadəcə, Heydərdən başqa bir sahibiniz yoxdur, ey bədbəxtlər! Səməd Əmirli cırıb atıb o “partiya bileti” deyiləni, əmma budur, yenə boğulur. Niyə? Çünki sən laqeydsən onun taleyinə, ey “millət” adlanan, bir-birinə laqeyd əsirlər yığnağı!

– Bəsdi! Bəsdi, köpəyoğlu!.. – “hökmdar”ın bağırtısı idi.

– “Millət” dərdi çəkənimə bax! Qəhbə oğlu qəhbə!

Mədəd xeyli susub, gözlərini sildi.

---

[98] “*Ab yaşıl*” – araq.

– Gəl dayanaq, Rəhim kişi... Zərərin yarısından qayıdaq. Otuzuncu ildən bu vaxta qədər xəlvəti yediyin başların sayını artırmıyaq. “Vərəsə” batan şey deyil. Sən də, biz də, camaat da gedək dincələk, sabah – dekabrın iyirmi dördündə yığışaq o “kandarında çəmənotu, qazayağı bitən, tavanında qaranquşlar uçuşan” mülkün yerində tikilən mülkə. Mən çalım oxuyum, “Vərəsə” adlanan möcüzənin sirlərini açım. Mənə çoxdan məlumdur ki, KPSS adlanan İlan Vatikan adlanan İlanın təhriki ilə nə qədər tədbirlər töksə də, canı çıxacaq, “kolxoz”, “sovxoz” adlanan əsarət zənciri dağılacaq, məktəblərdə, institutlarda “SSRİ tarixi” əvəzində min bir “xalqa” döndərilmiş OdƏr xalqı, OdƏr bəşəriyyəti haqqında həqiqətlər tarixi tədris olunacaq. Balalarınızı da indidən yığaq o Əmirli mülkünə, Abı, Çürük, mən, bəlkə elə Şöşü özü də, Elmin lap əlifbasından başlıyaq: Od nədi, OdƏr nədi, OdÜn nədi? Ünü niyə eşitmirsiniz? Niyə ancaq “Yer” səslərini eşidirsiniz? Yaddaşınız nə vaxt, necə, hansı şəraitlərdə itib?

Hamısını danışaq. Tamamilə real, doğma OdAğÜz BağOdƏr planetimizi göstərim sizə. Bəli, bəli! Doğma planetimizi!.. Əcdadlarınızı, ata-analarınızı, “o dünya” adlandırdığınızı göstərərəm! Bundan artıq nə istəyirsən, Rəhim kişi?! Bu dərəcədə qeyri-adi xoşbəxtlik verirəm sənə!.. “Birlik” nədi?! Milyon, milyard nədi, ay evin yıxılsın?! Razılaş! Belə xoşbəxtliyi özgə kim verə bilər sənə? Mən təkəm burda! Nə Abının taqəti var daha, nə Çürüyün, nə də Şöşünün. Təkəm! Əmimi öldürsəm, özüm də öləcəm, Marina dərs keçib, bilir ki, mən olmuyacam, tək-tənha qalacaq. Mariya ilə birlikdə, hamınız yetimləşəcəksiniz! Sonra Mariyanın özünə də qəsd eləyəcəksiniz. Bəs sizin özünüzün taleyiniz necə olacaq?

Xəlvətin əlləri dodaqlarının qıraqlarına qalxdı.

– Bəsdi, dedim!.. Bizim taleyimiz çoxdan məlumdu. Mənim maşınlarımın sayını düz demirlər. Üç “Qaz iyirmi dörd” Xalıqın üç oğluna bağışlamışam Xalıq türmədə olanda. Birini də bax o skeletə qulluq eləyən o qara kişiyə bağışlamışam – Gülənoğlu Molla Gülənə. Xalıqa oxşadığına görə... Altmış beş maşındı cəmisi. Hamısı da mal daşıyır Moskvaynan respublikaların aralarında!.. OdAğÜz nədi?! Küçük! Dedim nağıl adamı deyiləm mən. Rədd elə planeti-filanı. “Vərəsə”nizin də işi qurtarıb. Xalıq birbaşa bura uçacaq sabah “Yak sorok”nan. Sizin vayınıza gələcək. Tabutunuzun altına girəcək özü. Danış! Əlli dördüncü ilin avqustunda Bakıdan Səmədnən bir yerdə rayona qayıdanda vaqonda Xalıq necə xəbər verdi Sultan Əmirlinin evləndiyini? Sonra Səməd nə gördü, nə eşitdi, başına nələr gəldi? Danış!.. Nəzərə al ki, meşədə maşını

sıxıb əzənlər uzaqda deyillər. Bax o dal otaqdaca qulaq asırlar sənə, dilindən nə çıxır, hamısını yazırlar. Bu "Alimi"in Səmisi də əsirdi orda. Eşit, özüm tapşırıq vermişəm o otaqdakılara ki, mənə lap pis xətər yetirsələr də, yerinizdən tərpənməyin. Ölsəm də tərpənməyin, demişəm, "zaklyuçeniye" yazın, qol çəkin, basın ağzıbirə bu qudurmuşları, Dəli-məliləri!..

Görürsənmi, Xəlvət Rəhim sizi məhv eləməkdən ötrü Əli yolunda özünü qurban verməyə də hazırdı! Bütün Qudalıların şəhid olmağına razı olaram mən, xaraba Bağdayınız qayıtmasın! Belə "Pars", "Pers", "Fars" – mənasızam mən! Danış, "mağmun", "meymun" oğlu meymun!.. Məni bu cür qana qəltan eləməyin də bəsdi ki, günü sabah güllələnmə kəsilsin sənə! Danış!

Səməd qoşa ovcunda stəkanın üstündən başını qaldırmadan, bir kəlmə: – Qurtar! – dedi.

Mədəd təzənəni simlərə çəkdi.

– Sənin gözlərin bir nöqtəyə dikilib, beynin bir nöqtədə ilişib, xarab plastinka kimi, bir fikrin üstündə fırlanır: "Dözəmmirəm. Dözəmmirəm. Qurtar! Qurtar!"

Mən deyirəm "döz", sən deyirsən "dözəmmirəm". Bağ şəxsiyyətinin ucalığını, Elmi xilas eləyəcəm mən burda, səni yox!

Bakıda müsibətlə tapdığım qiymətli bir dərmənin qutusu oğurlanıb. Abının YemSən torbası boşdu. Üstəlik başın da boşdu, əmi: sözüm çatmır sənə. Dərk eləmirsən ki, bizi şəhvət düşgünləri, psixi xəstələr yığını kimi qələmə verə-verə tək Əmirliləri yox, bütün Bağları ifşa eləyir bu casuslar "Birliyi". Dal otaqda səsimi yazırlar mənim Erməni Gülənovlar! Sabah, birisigün aparıb qulaq asacaqlar Bakıda, Moskvada, İrəvanda. Özün bilirsən, həqiqi Çekistlər də var onların arasında. Bezobraziye mühitinin murdarlıqlarıyla bərabər məhv olmağımızın başqa səbəblərini də açmalıyam mən bu hakimsiz, prokurorsuz, vəkilsiz məhkəmədə! Xüsusi təşkil olunub axı bu "yubiley", "illik-filan", ay əmi! OdAğÜz təziq eləmir. Biz özümüz həll eləməliyik hər şeyi. Daha doğrusu, mən! Tək mən! Dəli Səmədi öldürüb Alim Səmədi diriltməliyəm! Döz!

Zalın o başından səs gəldi:

– Sən oynaşı öldür qurtar əvvəlcə!

Səməd, soyuq tər içində, gözləri yumulu, hey başını bulayırdı.

Mədəd doluxsunmuşdu.

– Özünü ələ al! İradəni topla! Yalvarıram, əmi!

Zalın o başından qəhqəhə eşidildi.

Mədəd "pomost"dan düşdü. Cürəsi çiynində yellənə-yellənə, başı əsə-əsə, ağır-ağır gedib Xəlvətin qabağında dayandı.

– Sənə də yalvarıram... dərməni ver.

Xəlvət özünü yığışdırdı.

– Hardan bildin dərmən məndədi?!

– "Birliy"in sədri sənsən. Sənə veriblər... Mən sənin cibini görürəm!

– Nə?!

– Biz "Muğ" bədbəxtlər siz Təhrif bədbəxtlərin nəinki ciblərini, hətta yorğanlarının altını da görürük, ey murdar! Rus məhləsindən həftədə neçə "massajistka" "sestra" gəlir sənin Xəlvət kabinetinə?! "Massaj" eliyə-eliyə məlumat verirlər ki, "İr"dən, yəni "İr an" adlanandan Rusiyaya xüsusi yüklü təyyarələr gedib, sarını "Moskva – Bakı" reys təyyarələrinə ötürüblər, gəlir "Kobra"nın – Çax-çuxun mənzilinə yığılacaq. Bir həftədən sonra, səksən doqquzuncu ilin ilk günlərindən başlayaraq, o yük həmin bu Xəlvətin kabinetinə, burdan da Erməni sərhəddinə daşınıb, xaricdən göndərilən "platnı nayomnik"lərə paylanacaq ki, Azərbaycana doluşub əsgəryaşlı gəncləri qırsınlar! Sənin "Birliy"in gizlədəcək o banditləri, ey qatil! Ruslar da bu yanda, Qarabağdan Abşerona köçürülən cavanları qırıb, meyidləri dənizə tökəcəklər! Stavropoldan bizim öz EvƏrEy OdƏrliklərini unudanlardan ibarət "kazak polkları" göndərib Ermənin içərimizə hərəkətini sürətləndirəcəklər ki, qırğınların üstü açılmasın. Sultan Əmirliyə hələ əllinci illərdə xəbər verilmişdi bu külli qırğın planı, mənə isə bu dörd ayda, bu Şüşəlidə hər gün deyilib, bax belə ağ sümüyə döndərib sifətimi! Budu bax o dal otaqda maqnitafona yazılan, Moskva, İrəvan üçün hazırlanan informasiya. Qoy bilsinlər kimdilər "Muğ"lar! Bilsinlər necə qaytarılacan tariximiz! Sən özün də çox şey biləcəksən bu gecə. İnan!

Ver dərməni, ey külli qırğın qatili!.. İkinci dəfə əlim dəysə, salamət qalmıyacaqsan. İmkan ver, heç olmasa, səhərə qədər yaşasın o! Bayaq niyə qan aldın? İstəmirdinmi bir az yaşasın, danışsın, özü özünü boğsun öldürsün? İndi mən danışıram, mən öldürürəm onu! Nə fərqi var?!.

Xəlvət titrəyə-titrəyə, boğazını çayla yaşlayıb, altdan dik, diqqətlə Mədədə baxırdı.

– Sultanın Gülgəzi maşına basıb aparmağının əvəzində külli qırğın-filan danışırsan!

– Belə lazımdı! Bu bir. İkincisi, Sultan Əmirlinin maşına basıb apardığı Gülgəz deyildi.

– Nə?!

– Deyirəm Gülgəz deyildi.

Xəlvət üşürgələndi.

– Yuxu görürəm mən, nədi, ay camaat?! Bu nə danışır?! Min doqquz yüz əlli dördüncü ilin mayında Sultan Əmirlinin bu kənddən maşına basıb apardığı zənən bunun anası Cığalı Gülgəz deyildimi, onun istəklisi deyildimi?!

Bütün pavilyon tüstü içində, dəhşət içində susurdu.

Mədəd siqareti külqabına basıb, gah Səmədin yumulu gözlərinə, gah "dərmən" tələbindən xoflanmış Xəlvətə baxa-baxa gərginləşdi.

Şişmiş zəli dodaqlar titrədi:

– Əlim çatmır. Çıxart... özün.

Mədəd "ampula"ları kitelin qoyun cibindən çıxarıb Sestraya verdi. Sestra, quruyub codlaşmış əlləri titrəyə-titrəyə, "ampula"lardan ikisini dalbadal sındırıb "şpris"ə doldurdu, yüyürüb Səmədin qolunu çirməyib, "vena"ya – şah damara yeritdi.

Mədəd o yan-bu yana gəzinirdi.

– İndi sakit otur, əmi... Gülgəzlə görüşünü də eşitməlisən. Atamın o bədbəxt zənəni necə zorladığını da... Dal otaqda oturanların tələbidi bu, həm də mənim özümün qərarımdı! Danışacam. Dözməlisən! Əvvəlcə Çax-çuxun çənəsini çaqqıldadacam. Görüşə, zorlamaya dəxli olmuyan çərən-pərən şeylər deyəcək Çax-çux. Sonra görəcəksiniz bir kəlmə də çərən-pərən yoxdu.

Mədəd təzənəni simlərə çəkdi.

– Məclis darıxmasın. Yorulanlar getsinlər. Qalanlar peşiman olmuyacaqlar. Yağır Məmmədəlinin, bu qatillə Çax-çux – çik-çik qatilin o tayda, bu tayda öldürdükləri Elmi necə adi, sadə söz möcüzələri ilə diriltdiyimi eşitmək istəyənlər qalsınlar. Hökmən qalın, ey Qonaqlılar, Tahirlilər, Qurbanlılar, dünyanızı göstərəcəm sizə!

"...Kupedə Çax-çux Səmədə deyirdi:

– Bu günü gözləyirdim mən, qadası. Avqustun iyirmi ikisidi bu gün. Yadında saxla: iyirmi iki avqust, min doqquz yüz əlli dördüncü il, axşam. Stansiyada dayanhadayanda, altıncı vaqonun kupesində Çax-çux Xalıq sənə deyir: "Gözün elə şeylər görəcək ki, bu gün, ömründə görməyibsən. Qulağın elə sözlər eşidəcək ki, ömründə eşitməyibsən." Falçı sözü deyil bu. Əsasım var mənim. Çətin gündü bu gün səndən ötrü, qadası. Ata gözündə gördüyün əmin düşəcək gözündən, adamlıqdan çıxacaq, murdar heyvana dönəcək nəzərində. Dözümlü olmalısan bu gün. Çox dözümlü!.. Bir dəfə sınıbsan. Qırx altıncı ilin dekabrının iyirmi üçündə – avariya günü. Bir də sınsan düzəlməzsən. Odu ki, unutma məsləhətimi: qabaqca Məsimgilə getməlisən. Gülbəniznən görüşməlisən hökmən. Sonra da, deməli, məni görməlisən. Gözlüyəcəm ha!.."

Trubkanın qətran iyi, qatı tüstü ilə birgə, kupeyə anlaşılmaz, dəhşətli xof dolub, Səmədin sinəsini tutub nəfəsini daraltmışdı: illərlə səndən gizlənən, şəksiz-şübhəsiz qatil, belə birdən-birə, belə sərbəstcə üzə çıxıb, atanın müsibətindən sonra ata əvəzi əmini də böyük müsibətlər gözlədiyini xəbər verib, "gözün elə şeylər görəcək ki, bu gün, ömründə görməyibsən" deyirdisə, "falçı sözü deyil bu, əsasım var mənim" deyirdisə və sən bu adamın nəyəsə əsaslandığını duyurdunsa, bundan necə xoflanmıyasan?!

Çax-çuxu kupedə qoyub düşməyə tələsəndə Səmədə aydın olan bircə bu idi ki, səkkiz il bundan əvvəlki, qəbristandakı üzü palçıqlı adam, o cinayətkar – qatil yoxa çıxmışdı, yaşıl şlyapanın altında qara məxmər üzünün qətiyyəti ilə, dəyirmi fənər gözlərinin cəsarəti ilə tamam başqa hisslər oyadan, "sinəsi sirlə dolu", çoxbilən bir adam peyda olmuşdu və bu adam, bildiyinin yüzdə birini də açmayıb, hər şeyi nədənsə sonrakı görüşə – Badsəbanın daxmasına saxlayıb, ancaq bunu demişdi ki, Səməd öz doğma, əziz əmisini, ata əvəzi himayədarını heç də yaxşı tanımırdı, əmisinin ətrafında baş verən hadisələrdən xəbərsizdi və bilmirdi ki, "Stalin ölən günü əmisi də ölüb, stolun dalında qaraltısı qalıb", üstəlik, dörd ay bundan əvvəl – may ayında başına nə gəlibsə, necə sarsılıbsa, "Sultan Əmirli deyiləm mən daha, arşınmalçıyam, gedək bir Gülçöhrə tapaq", – deyib, əmma "uğuru xeyir olmayıb", "Gülçöhrə" əvəzinə kiminsə – "başqasının istəklisini" gətirib!.. Qətran iyi ilə, tüstü ilə birgə sinəsini tutub Səmədin nəfəsini daraldan da, əslində, elə bu əcaib evlənmə xəbəri idi ki, onu tamam çaşdırmışdı. Sultan əmini Sultan Əmirli eləyən bu deyildimi ki, özünü fədai sayıb, ailə oğul-uşaq istəməyib, həm gözəllikdə, həm də ağılda-kamalda tayıbərabəri olmayan Qıymatı da ailə səadətindən məhrum eləyib, məhz fədai kimi yaşamışdı! Bu barədə atasından eşitdiyindən əlavə, Səməd özü də yaxşı bilmirdimi ki, əmisinin ailə ilə bərabər şəxsi ev-eşikdən də imtina eləyib, "İnventar RKP" içində qalmağının böyük, ciddi səbəbi vardı: bütün həyatını Kainat Elminə, Bağdaya vermişdi! İndi nə olub, nə baş verib?! Saç-saqqalının ağaran vaxtında birdən-birə bu dərəcədə metamorfozaya uğraması mümkündümü?! Əgər metamorfoza yoxdusa, bəs Sultan Əmirlini "Sultan Əmirli deyiləm mən daha" deməyə vadar edən nədir? Bəlkə heç deməyib? Səməd nəyə görə inanmalıdır ki, Sultan əminin dilinə, təfəkkürünə bu qədər yad-yabançı "arşınmalçı" məhz onun öz dilindən çıxıb?! Bu kəlmə ilə birgə bu evlənmə əhvalatının özündən də anekdot iyi gəlmirmi? Və elə anekdot iyindən məlum deyilmi ki, Çax-çuxun dili ilə düşmən danışır?! Belə çıxmırmı ki, Xudiyev

rədd olub rayondan getsə də, Xudiyev – Dudiyev dəstəsindəkilərin hərəsinə bir töhmət yapışdırılsa da, Bezobraziye heç də fəaliyyətindən qalmayıb, vaxtilə Əmir məzarıstanından qəbirlərin, başdaşların şəkilləri vasitəsilə "əsasla ittihamnamə" düzəltdiyi kimi, indi də başqa cür bir vasitə ilə – qadın-filanla, "başqasının sevgilisi" ilə ittihamnamə düzəldib?!.."

Diqqət yetir, çalış düşün, dərk elə, gör insana, həyata münasibətin necədi, ey Təhrif! Düşün gör Qudalılar, Gülənovlar da Sultan Əmirli kimi, sədr Mədəd, Qılınc Qurban kimi yaşasaydılar, Mirqəzəb, Pers, Yağır, Çax-çux mühitində necə bir həqiqi birlik yarana bilərdi!

– Saxla... Dayan... – Xəlvət stəkan-nəlbəkini qaz "peç"inin üstünə qoydu. – Sən kimi ifşa eləyirsən?!

Mədəd yorğun-yorğun, başını yana əydi.

– Hələ ki bizi vurursan! Gizlin işləri danışmalısan sən. Görüşü gözləyirik biz!

– Fəallaşma, Rəhim kişi. Gözlənilməz şeylər olacaq. Sakit otur... Görüş bir deyil. Elqızımız Gülgəzlə görüş var. Qəhbə Gülgəzlə görüş var! Qəhbə Sultanla görüş var! Bu nitqimin, sazımın, sözümün lent yazısını hər yerdə yaymaq, Bezobraziye murdarlarına dərs demək, Elm vermək ümidiynən çalıb-çağırıram.

Xəlvət əlini yelləyirdi. – Ay hay! Ay hay! – deyirdi.

Sonra ucadan:

– Mənim Möcüz adında bir nəvəm var. Qarmon çalır, şeir yazır... – Üzünü sağ tərəfə çevirdi: – Ordan belə çıx, a bala, o şeri oxu, eşitsin bu əbləh.

On yeddi – on səkkiz yaşlarında, qara, gombul bir oğlan pinqvin kimi sağına, soluna basa-basa, farsistlərin, ərəbistlərin arasından çıxıb, Mədədə baxıb, ciddiyyətlə:

– Bir "Gəraylı" çal, – dedi.

Mədəd burda xeyirli bir şey olmayacağını bilsə də, Möcüzə boyun əyib: – Baş üstə, – dedi.

Möcüz oynaq "Gəraylı" ilə o qədər də tutuşmayan, asta, qalınaraq, qəmli səslə, birnəfəsə oxudu:

BağOdƏrə "mehtər" dedi,
"Mehtər"ini kor eylədi,
Kor oğluna qılınc verdi,
At yalına yatan millət.

Qılınc qana bata-bata
Sultanından qisas aldı,

Zənn eylədi xilas oldu,
Gözünü qan tutan millət!

Biləninə sən sus dedi,
Bilməzinə qurdsan dedi,
Dönüb öz-özünü yedi,
Diləyinə çatan millət!

Xəlvət əl çaldı.

– Qurtar! Ye özünü! – dedi.

Şüşəlinin sağ tərəfində də şarappa-şarap əl çaldılar. Möcüz dönüb yerinə getdi.

Mədəd isə "Gəraylı"nın arasını kəsmədən:

– Möcüz ala qarğa kimidi siz quzğun yığnağının içində! – dedi. – Özünün deyil oxuduğu şeir, mənim bu "ab yaşıl"[98] düşgünü dostumundu. Axırını oxumadı. Qulaq as, oxuyuram.

Bir gün gəldi, geri baxdı,
Gözlərindən sellər axdı,
Şöşünü yandırıb yaxdı,
Al qanına batan millət!

– Bu heç... O Pinqvin Möcüz səndən qat-qat müdrikdi, ey qatil! Mənə yox, öz babasına cavab verdi o!.. Bu heç. Səbr elə... Gülgəzi Sultan Əmirlinin çarpayısında görəcəksən. O Gülgəzi ki, Səmədin ürəyinin parçası idi.

– Sən neynirsən?! – Səməd qışqırıb yumruğunu stola vurdu. – Mədəd! Neynirsən?!

Mədəd təzənəni simlərə çəkdi.

– Döz!.. Əclaf!.. Bax belə əclafam mən, özümdən iyirmi yeddi yaş böyük əmimə əclaf deyirəm. Əmim deyilsən, ata əvəzi deyilsən, doğma atamsan sən mənim. Get güzgüdə özünə bax, sonra gəl mənə bax, gör bir zərrə qədər fərqimiz varmı üz-gözümüzdə, boy-buxunumuzda, yerişimizdə, oturuşumuzda-duruşumuzda! Söz-söhbətimiz, beynimiz, təfəkkürümüz, məhəbbətimiz, nifrətimiz!.. Ha çalışıram kiməsə baxanda başımı yana əyməyim, mümkün olmur. Baxışımız da eynidi! Yığışdır indi xəlvət dilləri, görüm necə yığışdırırsan! Bütün rayon deyir Səməd Əmirlinin oğludu Mədəd, Sultan Əmirlinin yox! Məmiş Əlləzoğlunun

---

[99] 1980-ci illərdə SafAğ Elmi ilə bağlı ziyalılardan yalnız bir qisminin adı çəkilir (*müəllif*).

qızı Səməd Əmirlinin altında olub, Sultan Əmirlinin yox! Bu ad-sannan, bu şan-şöhrətnən yaşamaq olmaz, əmi! Bu gecə çox şey eləməliyəm mən! Dünya uçub, altında qalmışam. Aylı, ulduzlu dünya yox, bu Xəlvətli, "Badamlı"lı, "Marlbora"lı, ximikatlı, kombinkormlu dünya, çörəyinin dadını da itirmiş, kanalizasiyası suyuna qarışmış murdar dünya bütün çirkabıynan, zir-zibiliynən uçub tökülüb üstümə!.. Döz! Döz! Döz! Öldürəcəm, dirildəcəm! Mən də dözəmmirəm. Başa düşürsən?! Dözəmmirəm! Ya dağıtmalıyam bu dünyanı, özüm də ölməliyəm, ya da düzəltməliyəm bu dünyanı, özüm də dirilməliyəm! Kiməm, nəyəm, doğrudan da qabiləmmi bu dünyanı dağıdıb yenidən qurmağa? Heç kəs bilmir. Sən də bilmirsən! Bu gecə biləcəksən!

Küncdən, tüstü içindən göy vilyur şlyapalı, göy qalstuklu, ərəbist, farsist kürəkənlər qismindən birisi əlini qaldırdı.

– Bura bax, Mədəd! Necə yəni dünyanı dağıdıb yenidən quracaqsan?! Bu nə safistikadı, axı?! Özünü Hamletə oxşatma! "Sultan", "Gülgəz"-filan deyilir burda! Onlardan danış! Bir azda çal, oxu də! Dodağımıza dəyib bu zəhrimardan, mahnı istəyirik!

Xəlvət də bu yandan bağırdı:

– Dəstan! Dəstan!..

Mədəd də səsini qaldırdı:

– Kür əkənin dəmlənib. Sən isə can ağrısına dözəmmirsən.

Yumruğunu təp ağzına, qulaq as, öl mənnən bir yerdə!

"...Ürəyinin parçası idi. Elə ürək parçası ki, o qaranlıqda nəinki boy-buxunundan, hətta qıymaçanın altından sallanan cığalarından da tanıya bilərdi və tanımışdı. Əmma gözünün gördüyünü beyni görmürdü, ağlı kəsmirdi.

Öz səsi əvəzində elə bil kənardan xırıltı eşitdi:

– Sən kimsən?! Niyə üzümə baxmırsan?!

Bu xırıltı insan səsinə bənzəmirdi.

Elqızı bu xırıltıdan diksinib titrəməyə başladı və elə titrəyə-titrəyə ayağa qalxdı. Alovun işığında dəhşətdən böyümüş gözləri parıldadı.

Səməd çamadanı əlindən saldı. Bir kəlmə:

– Gülgəz! – dedi.

Daha heç nə deyə bilmədi..."

Mədəd susdu.

Zala da sükut çökdü.

Xəlvət barmaqlarını dodaqlarına sürtürdü, səsində əzab vardı:

---

[100] Heydər Əliyev

– Bu tərəfi təsdiq olundu. Anan Gülgəz əvvəl Səmədin altındaymış. İndi keç o zorlama gecəsinə, qurtaraq.

Mədəd başını yana əyib, Alim skeletin birdən-birə kəhrəba rənginə düşüb əzabdan gözəlləşmiş sifətinə tamaşa edirdi.

– Kəhrəba üzlü oldun, gözəlləşdin, gözəl əmim! Körpəliyimdə tez-tez yalvarardın mənə: "Qurbanın olum! Qurbanın olum..." Doğrudan da qurban verirsən özünü mənə. Niyə gəldin bugünün "Birliyin"in, sabahın Boz Qurdunun çağırışına?! Bilmirdinmi ki, bizim hamımızı bir-birimizdən ayırıb yemək üçündü bu təşkilat?!

Mədəd ağır-ağır dönüb Xəlvətə baxdı.

– Əgər səndən dönər olsam, nəsibim ah-zar olsun, Rəhim kişi! Əgər səni adam eləməsəm, düşmənimi dosta çevirməsəm, anam Gülgəzin südü mənə haram olsun, Rəhim kişi! "Mehtər" rəmzi altında BağOdƏr deyib, "kor" rəmzi altında OdƏr deyib dəstan yazanımızı qanmamısan, Kalaşnikova sarılmısan. Bax budur havayı olan, mənim səyim deyil. İnan, elə möcüzə yaradacam ki, o xınc-mınc canınla, dörd əl-ayağın üstündə iməkləyə-iməkləyə gəlib üzünü ayağıma sürtəcəksən, əllərimdən öpəcəksən... İndicə danışdığım görüş o "dəhşətli gecə"dən min dəfə dəhşətlidi, ey heyvan! Nədi "təsdiq olunan?" Oynaşlıqdımı, ey heyvan?! Məhəbbət deyilmi təsdiq olunan, ey heyvan?! Anamı indi də sevir bu Alim skelet. Əmisi Sultan Əmirlinin arvadını! Bunu təsdiq elədim mən! İnsan sevgisini!..

Səmədin üzünün kəhrəbasında göyərti əmələ gəldi:

– Mədəd! Mədəd! Düz danışmırsan! Ucalarını alçaltma, oğul!

Mədəd mizrabı simlərə çəkdi.

– Alçaldan alçaldıb! Mən sənin haqqında yaranmış təsəvvürü təsdiq eləyirəm burda. Öldürürəm səni, əmi! Öldürməliyəm! Diqqətli ol!

Sən də dinlə ey kür əkən! Kor əkən! Hamlet deyiləm mən, yaralı aslanam. Əmma sənin qaynatanı dişimlə yox, təkrar edirəm, sözlə öldürəcəm və sözlə dirildəcəm. Ölü diriltmək Hamletlik deyil, Allahlıqdır!

Davam eləyirəm:

"...Bir vaxt vardı, çöldən evinə qayıdanda Əlləzoğlu hər axşam çiynində bir yaba qaratikan gətirib, il boyu çəpərini qalınlaşdırmağa çalışırdı, odur ki, həyət-bacasına həmişə tikan səpələnərdi. Günün nə vaxtı o tərəfə getsəydin, görərdin bapbalaca, ayaqyalın, başıaçıq "Qaraçı gözəli" Cığalı Gülgəz quru yerdə oturub, ayaqlarına dolan tikanları dırnaqları ilə tərpədə-tərpədə ağlayır. Elə o yaşda, o balacalıqda, başı qızıl əsgər papaqlı, ayaqları "Sultan əminin çəkməsi kimi" qara xrom çəkməli sədr oğlu da quru yerdə oturub, "Qaraçı gözəli" Cığalı Gülgəzin ayağını

dizinin üstünə qoyardı, "Mənim dişim siçan dişidi" deyib, ağzını o qarayanıq, toz-torpaqlı ayağa söykəyib, tikanları dilinin ucu ilə yaşlaya-yaşlaya, bircə-bircə çıxarıb tüpürərdi. "Bu bir... bu iki... bu üç..."

– Lənət sənə kor şeytan!.. Xəlvət heyrətlə çiyinlərini qısıb, o yan-bu yana baxdı. – Tikan nədi, zad nədi?! Bu nə danışır, ay camaat!

Mədəd növbəti "Prima"nı Çürüyün qəlyanından yandırıb, "pomost"dan enib, yenə Xəlvətin üstünə yeridi.

– Canına azar danışıram! Boğazına boğma danışıram! Səməd Əmirlinin faciəsini danışıram ki, Xəlvət adında buz dağı ərisin. "Zorlama gecəsi" dediyiniz o dəhşətli gecə o balaca "Qaraçı gözəli"nin ayaqlarına dolan tikanlardan başlanır. Səbr elə, qanacaqsan. Cavanlıqda "qardaşın" Yağır Məmmədəlinin eşşəklərinin dalınca yorta-yorta Arazın o tayına gedib-gələndə altı cırıq çarıqlarıyın dabanlarına tikan dolmayıbmı? Yolun ortasında çöküb göz yaşı tökə-tökə "yeriyəmmirəm, ay lələ" deyəndə, o vaxtkı nişanlın, indiki mehmanxana müdiri, Erməni haxçığı Marqo sənin dabanlarını yalaya-yalaya dişlərilə tikanları çıxartmayıbmı! "Bu bir, bu iki, ay musurman. Bu beş, bu on, ay musurman", – deyə-deyə o gün-güzərana sənlə bərabər ağlamıyıbmı? Bu dörd ayda bu Qəlyanlılara neçə dəfə danışmısan bu əhvalatı, neçə dəfə demisən: "Adama oxşuyan vaxtlarımız varıydı. Marqo "ay musurman", deyə-deyə ağlayanda köyrəlirdim!" İndi niyə köyrəlmirsən, niyə daşa dönmüsən?!

Çünki sadəcə, həyətyanı sahəsində beş-on qoyundan, keçidən başqa bir şeyi olmuyan Göbələk Məmiş o çəpəri necə şüursuzcasına qalınlaşdırırdısa, sən də o maşınların sayını eləcə artırırsan, ey şüursuz!

Fəlakət bundadı ki, mən bu şüursuza şüur vermək niyyətindəyəm.

İndi, nəhayət, Bezobraziyenin əmri ilə, "zorlama gecəsi" adlandırılan o dəhşətli gecənin müsibətləri barədə danışa bilərəm.

Müsibət ondan başlandı ki, "Stalinin şəxsiyyətinə pərəstişin ifşası"ndan sonra "şüşənin altındakı teleqramla katalikosların məktubları" Bezobraziyenin əlində silaha çevriləndə, SSRİ prokuroru Rudenko və general Məhərrəmov kimi güclü dayaqları olduğuna baxmayaraq, Sultan Əmirli inzibati üsullarla mübarizədən əl çəkib Bezobraziye murdarlarına Elm vermək niyyəti ilə Qudalı məhləsinə ayaq açdı. Nə dedi, nə danışdı Xaş nəçənniyə, prokuror Sayılova, RİK Atamalıya, Çax-çuxa? Bilirsən, Rəhim kişi. Bilmədiyin budu ki, atam öz səhvini hiss elədikcə, yəni söz-söhbətlərinin havayılığını hiss elədikcə, "vodka"ya əl atırdı. Bundan sui-istifadə elədiniz, o yazığı nəki var içirtdiniz, Rəhim kişi. Göbələk Məmiş oralarda hərlənib-fırlanırdı, arvadına, qızına təpinirdi ki, "niyə gəlib əl-ayaq vermirsiniz?!" Guya Göbələyin özü istəyirdi ki, qızı gəlsin

“Kişiyə qulluq eləsin”. Əslində isə Əlləzoğluna deyilmişdi bu! “Sultan Əmirli insafa gəlib, qardaşı oğluna icazə verib ki, Göbələyin qızını alsın”. Məhləyə çağırılanda bədbəxt Cığalı hoppana-hoppana yüyürdü, it xılının içindən gül üzlü Gülbəniz bacısını da çağırıb, samovara od saldı, Qıllı Qeybalının, Piyli Qayımın içəridən daşıdıqları qab-qacağı su kranının altına töküb yudu, quruladı.

Dəhşətli gecəyə şəxsən özün “ağsaqqallıq” eləyirdin, Rəhim kişi.

Gecə yarıda atamın möhkəm keyfləndiyinə arxayın olanda “Bircə bala”nın Cığalısının əlinə “podnos” verdin. Dedin:

– Qayınatana çay apar.

Cığalı çayı aparanda bədbəxt atamı dümsüklədilər, dedilər:

– Bax gör kimdi çay verən?

Katib baxdı, tanımadı. Dedi:

– Kimdi?

Dedilər:

– Gülçöhrədi! Axtardığın Gülçöhrə!

Yazıq Cığalı elə bildi gözəlliyini tərif eləyirlər. Qızardı, çayı qoydu, eşiyə qaçdı. Bezobraziye məclisini şaqqıltılı gülüş götürdü:

– Gülçöhrədi, Arşınmalçı! Gülçöhrədi!..

Susursan, ey şüursuz qatil! Gərginsən. Qorxma. Hər şey sənin istəyinə uyğun olacaq... Yazıq Cığalı xoşbəxtliyindən ölürdü. Bilmirdi ki, bədbəxt “qaynata”nın fədai ürəyi ölmüşdü, içərisində bu vəhşi Xəlvətdən də vəhşi, yırtıcı bir canavar peyda olmuşdu. Bilmirdi ki, o canavar ayağa qalxanda Çax-çux adında ikinci bir canavar qızın cığalarından yapışıb, başını dala qanırıb bircə şüşə konyakı son damlasına qədər boğazına tökəcək, leşini maşına atıb, katibin leşini də üstünə atacaq!..

Səməd dik atıldı. Sonra əlini ürəyinin üstünə sıxıb, ağır-ağır əyilib, ikiqat olub, kresloya çökdü. Mədəd əmisinə yanakı baxdı.

– Atılıb-düşmə!

O bir şüşə konyakdan sonra ağ daş evdə, Sultan Əmirlinin həmin yataq otağına doluşub, hırıldaya-hırıldaya çıxdınız. Çax-çux həmişə keyfi saz vaxtlarındakı kimi, ruscaya keçmişdi: “Vsyo! S Sultanom Amirli pokonçeno!” Həmin bu sözlərini həmin gecə Mirqəzəbə teleqramında yazdı.

Bədbəxt atam dəhşətli sərxoşluqdan ayılanda anamla bir müddət bir-birinin üzünə baxa-baxa qalıblar. Heç nə başa düşəmmirmişlər. Xəlvətlərin oyunlarından sarsılmış üçüncü bir bədbəxt də yataq otağı ilə zalın arasında quruyub qalıbmış: Qılınc Qurban. Qılıncını sıyırıb düşüb atamın üstünə ki, “Bircə balayın istəklisini özünə arvad eləyibsən, çal qurumsaq!”

Qılınc düz dörd ay asıb-kəsib atamı: “Qaytar qancığı, qaytar!..” Düz dörd ay anam evdə – “cəhənnəmdə”, atam aşağıda, tut ağacının altında – “cəhənnəmdə” yatıb. Düz dörd ay bu birisi çarıqlı Göbələk bədbəxt axşamlar Sultan Əmirlinin işdən qayıtdığı vaxtlar gedib həyətdə ocaq qalayıb, manqal tüstülədib ki, guya raykom katibinin qayınatasıdı kişi. Düz dörd ay gecələr səhərə qədər o tutun dövrəsində gəzinə-gəzinə gözləyib ki, bəlkə möcüzə baş verə, şan-şöhrətli katib evə qalxıb yorğanın qulağını qaldıra. Belə dəhşəti, belə faciəni, belə müsibəti mən sizə bağışlaya bilərəmmi, Rəhim kişi?! İyirmi səkkiz aprel küçəsi ilə Kirov prospektinin kəsişdiyi yerdə, Nizami kino-teatrının dalındakı evin ikinci mərtəbəsində, “Çekistlər çekisti” “AdıPünhan” adlanan əzabkeş generalın mənzilində, Azərbaycanın demək olar ki, bütün rayonlarında, mühacir Muğannaların ailələrində, “Prometey”lər – EvƏrOdBağdaylar arasında pərvəriş tapan çekist oğlu çekist Dəli Səmədin yetirməsi, Bircə Balası, Tədqiqatçısı Dəli Mədəd, Xəlvətləri rahat buraxarmı?! O dal otaqda oturub mənim səsimi yazan paqonlu Qudalıların arasında yalnız “familiya”ları sizdən olanları tanıyırsanmı, ey şüursuz qatil! Mən yetirmişəm o gizlin OdƏrləri! Onların əlilə diriləcək Alim Səməd! Bütün Bağday ərazisi miqyasında “Muğanna” adlananlarla yanaşı o dal otaqdakı “Qudalılar” ömürləri boyu bu əzabkeş Alimi xatırlayacaqlar! Bəs necə?!

Sakit otur! “Oynaş” öləcək!

Qulaq as!

O konyaklı gecə bədbəxt, sərxoş Cığalı elə bilib toysuz-filansız evlənir Səməd. Nağıl, fantastika aləmində, gözləri yumulu təslim olub sərxoş canavara. Gözünü açanda görüb Səməd-zad yoxdu, başqa adamdı, ölü kimi şeydi, döşənib üstünə. Vahimə içində çapalayıb, çıxıb ölünün altından, ayaqyalın, başıaçıq, atılıb qaçıb. Qılınc Qurbanın oraya, qapısı taybatay açıq ağ evə getməyindən bir az əvvəl olub bu, qaçıb anam, darvazada yaxalamısınız bədbəxti. Çax-çux, Qıllı, Piyli, Xaş nəçənnik, Zaks müdiri. Bir də sən, Xəlvət! Bezobraziye heyvanatı! Saçından yapışıb aparıb atmısınız çarpayıya. Zalda əyləşib, səbrlə gözləmisiniz, şüşəsinin altı teleqramlı “Yarımallah” özünə gələr-gəlməz, başının üstünü kəsdirmisiniz ki, “bu sənin Gülçöhrən, bu da zaks müdiri. Kəbinini kəsdir, sonra əyləş biznən bu stolun dalında, yoldaşlıq, qardaşlıq məsləhətlərimizə qulaq as”. Bax onda başlanıb mənim fəaliyyətim, Rəhim kişi. Anamın bətnində. Anam o canavarı, o meyidi görüb dəhşətə gələndə o dəhşət mənim canıma-qanıma hopub. Anam o yatağından bir daha qaçmağa çalışıb, sizin aranızda çapalayanda mən də çapalamışam. Anam Çax-çuxa, sənə qarğış yağdıranda mən də yağdırmışam. Nağıl deyil,

elmdi bu, Rəhim kişi. Atamın qara qanında axan qara qanı idim onda mən, axıb anamın qara qanına qarışırdım. Sultan Əmirli yox idi daha, Rəhim kişi. Cismən sağ olsa da, yox idi. Sən yox eləmişdin mənim uca insan – Bağ atamı!

Qorxma məndən. Heç kəsə şikayət yazmaram. Prokuror, hakim pul kisələri sən pul kisəsini məsuliyyətə almazlar. Mən səni sadəcə, öldürüb dirildəcəm. Hələlik bu bədbəxt skeleti öldürməklə məşğulam.

Kitelin cibindən çıxan kağızı yada salın: "Məni Varisim öldürdü. Varisimi də Varisi öldürəcək..."

Atam nə vaxt, hansı şəraitdə, necə yazıb bu sözləri? Məlum olacaq. Hələlik bu SafAğ Varisinə baxın, alim çekistinizə baxın, camaat.

Yumruqlarına baxın!

Tüpürüm sənin yumruqlarına, ay əmi... Əlli dördüncü ilin avqustunda sən "qardaş qatili" Sultan Əmirlini tabutda görə-görə Qonaqlının bu səmtlərində vurnuxanda Bakıdan zəng vurdular, Sultan Əmirli getdi. Düşmən sənin karlığından, korluğundan istifadə eləyib, əzabkeş generalın bu rayona göndərdiyi yeganə kadrı – "iki tərəfə işləyən Əfəl Məsimi" bağlı qapı dalına basdı. "Əfəlin arvadı Gülbənizin əl-qolunu bağlayıb daxmaya tulladı. Əlləzoğlunu zirzəmiyə saldı. Səhər saat altıda, yəni "Yarımallah" rayondan gedəndə Əlləzoğlunun bir əlinə neft qabı, o biri əlinə kibrit verdi, sənin gözüyün qabağında Əmirli mülkünə od vurdu. Dəlilərin Bezobraziyedən gizlətdiyi "Vərəsə"ni traktorun təkərlərinin altına verdi. Sənin əsəblərinlə oynayıb əminlə mübarizəyə sövq etdi, döyüş meydanı verdi. Daş əzələlərini, daş yumruqlarını işə saldın. İki dəfə Sovet İttifaqı qəhrəmanı Xalıq Qudalını xınc-mınc elədin. "Sultan Əmirlinin xançalı Çax-çuxun qanına bulanıb "həbs üçün" əşyayi-dəlil oldu.

Xızr Abı mülkün xərabəliyində dizin-dizin sürünəndə, "Vərəsə"nin səhifələrini toz-torpağın içindən çıxardıb üfürə-üfürə, sığallaya-sığallaya köynəyinin üstünə yığanda heç nə anlamırdın sən, xəyali xoşbəxtlik əsiri olmuşdun ki, necə eləyib Gülgəzi başa salım, əmimin arvadı olsun, Mədəd doğsun, Sura doğsun, ailə səadəti yaratsın.

Tüpürüm sənin ailə səadətinə, ey mələk əmi! Mələksənmi, ey çirkab içində boğulan "oynaş" SafAğ İnsan?!

Mədəd xırıltı eşidib əmisinə baxdı.

Bütün zal Səmədə baxırdı.

---

[101] Alver əhalinin əlinə keçdiyinə görə, Sovet dövləti "importnıy tovar" – xarici mal almaq üçün xüsusi "çek" satırdı.

Səmədin başı çiyninə əyilmişdi. Qolları stolun üstündən düşüb sallana qalmışdı. Gülənoğlunun təzə doldurduğu samovar əvvəlki kimi guruldasa da, ölüm qabağı xırıltı aydınca eşidilirdi.

"Qaz peçi"nin dalından boz motalpapaq çıxdı; axşamdan bəri orda – "peçin" dalında büzüşüb özünü göstərməyən, qocalıb meymunsayağı bir şeyə dönmüş Göbələk əllərini başına döyə-döyə, çırpına-çırpına Səmədə doğru cumdu.

– Evimi yıxdın, ay gözümün nuru! Ocağımı qaraltdın! Çəpərimi dağıtdın...

Mədəd babasının boynundan yapışıb geri itələdi.

– Farağat otur, tülkü!.. Ölməlidi... Heyvanat içində yaşayammaz o daha! Getməlidi bu dünyadan!..

Atam buna bel bağlamışdı. Təkcə buna!.. Varisiydi... Yeganə Varisi... Nifrətim var mənim bu Varisə. Heç kəsi bu qədər sevmirəm. Heç kəsə bu qədər nifrət eləmirəm. Səbəbini bilmirsiniz hələ. Danışmamışam.

Nifrətimin səbəbini indi danışacam. Məhz indi.

Ağlını itirdi. "Vərəsə"ni şərh eləmək əvəzinə, təhrif insan səviyyəsinə enib, yas yerlərində, restoranlarda, institutlarda "o tay-bu tay" deyə-deyə, yeddi yüz əlli cildin məzmununu sakit kütləvi tədris proqramından ayırıb üsyançı ruhla bağladı. Bu Yer adlanan xarabada hələ heç kəsin, heç kəsin tanımadığı Ulu Bağ ƏsƏlMən nəslindən bir Pünhanın ehtiyat tədris proqramına saldırdığı bir SafAğ kitabını bu igidimiz bayrağa döndərib milləti sevən cavanları dəli-divanə "sverxçelovek" səviyyəsinə endirdi. Stalin, Mirqəzəb, Pers toxumlarının içərilərini kinküdurətlə doldurub, cahil düşməni daha da cahilləşdirdi, Xəlvətləri torbalarına dərs deyən cahil farsistləri, ərəbistləri Muğannaların əleyhinə qaldırdı. Gizlin, dərin alimlərdən kim vardı, hamısının canına titrətmə saldı. Məmməd Cəfər imzasıynan yazan məşhur Akademik "Əxi" – AğEy haqqında Türkiyədən aldığı dəqiq tarixi materialları yandırdı, sarsılıb xəstələndi. Akademik Məmməd Cəfərin yetirmələri, Nizami, Nəimi, Nəsimi mövzusunda məqalələrini gizlətdilər. Farsistlərin, ərəbistlərin, "İslam"çıların birgə səyilə Füzulini qatı müsəlman elədilər, "şaxsey-vaxsey" casuslarından təxribatçı dəstələr düzəldi. "Bağday", "Bağ" deyən cavanları sıxma-boğmaya saldılar. Məşhur şair Xəlil Rza Ulutürkü[99] ölümlə hədələyib "OdƏr yurdu" şerini qadağan elədilər. Dəlilərimiz təxribatçılarla danışmaq, həqiqətimizin, OdƏr dili həqiqətlərinin müasir bəşəriyyətə hava, su, çörək kimi lazım olduğunu çatdırmaq əvəzinə qınlarına çəkildilər. Bu mələk bacımız Sestra isə, bizim Dam di-

rektorla yaxınlığımızı danıb, mənim adımı, sonra da Pünhanlarımızın adlarını çiyinləri Kalaşnikovlulara və hətta Moskvaya ötürdü. Şəxsən Qorbaçova məktub yazıb, EvƏrEydən xəbərsiz "yevrey"ə "Təhlükəli Türk millətçiləri" haqqında məlumat verdi, mənə də "millətçi" damğası vurdu. Bu Şüşəlidə, o dal otağa gələn "dövlət nümayəndəliyi"nin qabağında ilan dili çıxartdı bu sakit, ağbirçək Sestramız, "Dövlət nümayəndələri" isə, Xəlvətin dediyi kimi, "qıyma-qıyma" yedilər bizi – Səməd Əmirlinin Yetirmələrini. Son dörd ayda hamı dağıldı ətrafımdan. Məlum oldu ki, SafAğ Elmi, OdƏr bəşəriyyəti haqqında restoran söhbətləri Bezobraziyeni ayıq salmaqdan başqa bir şeyi deyil. Özümüz özümüzün qatili olduq...

Mədəd əmisinin əlini əlinə alıb, nəbzini tutdu. Əyilib, diqqətlə üzünə baxdı.

– Eşidirsənmi?

Xırıltıya inilti qarışdı:

– Danış... Qurbanın olum, Mədədim... Çalış ki, Heydərə[100] də çatsın hər şey.

Mədəd başını endirdi. Astadan:

– Dirilirsən, – dedi. Sonra qara dəri kreslonun yanında stula çökdü.

– Heç kəs yaxın gəlməsin. Sən də, "mələk" Sestramız! Dərmən can verənin əzab müddətini artırır. Yığışdır şprisini, keç yerində otur. Bu qatillə qurtarmışam. İndi siz qatillərlədi işim!

* * *

"Sultan və Səməd" dəstanı davam eləyir.

Diqqətlə qulaq asın.

Təbrizdə, Əmir bazarının yanında babam Şeyx Məhəmməd Əmirin xüsusi bir mülkü varmış. Şeyx əmilərim Ağ Əmirlə Boz Əmir orda fədailərin uşaqlarını oxudarmışlar, mülkün özünə də "Fədai yurdu" deyərmişlər. Bilirsiniz ki, "Vərəsə" kitabxana həmin Fədai yurdundan gətirilib. Təbrizdən... Mədəd, bir əli əmisinin nəbzində, o biri əlini stola çırpdı. – Hoppanma, cənab hökmdar! Bəli, ölür! Mən öldürürəm, sən yox. Bayaq dedim qorxma. Mənim imkanım var güllələdim səni.

---

[102] *"Ko nun(q)"* – OdÜndən, Həqiqət Ünü eşidən insan mənasında şüurlu uzaqlaşdırılmış, düzəlmə sözdür.

[103] "Qard" və "qorod" – GurOdun, "arika" – ƏrAğın təhrifidir. Öz GurOdlarından (vilayətlərindən) qovulduqca OdƏrlər Şimalda yeni-yeni GurOdlarda məskunlaşırdılar. "Rus" (ƏrÜz) – ƏrƏsEy – "Rusiya", GurOd ƏrAğ da sonradan yaranıb təkrarən itirilmiş ərazilərdəndir.

Güllələtmiyəcəm. Qatilsən. Əmma güllələtmiyəcəm. İnsansan!.. Hər şeyi dərk edə-edə heç nəyi dərk etməyən qeyri-adi idraksız insan! Heyvansan, murdarsan, həm də insansan. Kar, kor insan! EySar ÜnEvi ("İsay"ı) çarmıxa çəkən insan! ƏlAğ EySarı "Allah"ını çarmıxa çəkən insan! Otur və qulaq as. Bu qatil xırıldayacaq, mən danışacam! Belə lazımdı. Alim Səmədi dirildəcəm indi. Alimliyi qayıdır. Çünki belə əzab içində tədriclə Ün eşitməyə başlayır indi. Bir az sonra OdAğÜzü görəcək. Ulu babası Ulu Bağ ƏsƏlMən BağSar SarOdƏs SağSan BağSar AğEyi – "Musa ağa"nı. Geri sananan ikinci əlliminillik tarix boyunca və Yeni tarixin min doqquz yüz səksən səkkiz ili müddətində, Təhrif bəşəriyyət mühitində Odları – adları – rütbələri anlaşılmadığına görə hər rütbəsi bir insana döndərilən, ƏsƏlMən ikən "Solomon"a, BağSar ikən "Musa"ya, SarOdƏs ikən "SarOddaş"a, "Zərdüştə", SağSan – Sağ ƏsÜn ikən "Sasan"a, "Sion"a, BağSar AğEy ikən "Musa ağa"ya çevrilib, səksən səkkiz il bundan əvvəl "Qazax" qəzasında, İncə dərəsinin girəcəyində "SimƏrAğ" İşıq gəmisinə minib OdAğÜzə qayıdan o əbədi İnsanı görəcək. Bəstəboy, ağbəniz, ağsaqqal bir qocadır "Musa ağa" – Ulu Bağ.

1797-ci illə 1899-cu illər arasında "Qazağ"ın "Padişahlıq" kəndində "Musa ağa" adı altında, kiçik oğlu "Hüseyn ağa"nın himayəsində, nəvəsi "Ömər ağa"nın evində qaldığı müddətdə "Muğan" düzündən, hər ailəsi bir guşəyə sürülmüş "Muğ"lardan təcrid olunduğuna görə lap düşgünləşibmiş. Bununla belə, daimi nəzarət altında saxlana-saxlana, gah Təbrizə – böyük oğlu Şeyx Məhəmmədin – ƏsAğ BağHəmOdun seçdiyi yerdə batin olurmuş, gah da Göyçədə, böyük oğlu sayılan "Alı"nın himayəsində, "Süleyman" adı altında qala-qala Elminin daha da batinləşdiyini görə-görə daha da düşgünləşirmiş. 1899-cu ilin axırında Bağ Ata kədərli Ün göndərir Oğluna ki, İlanla Romanovlar birliyi "Yer" Bağlarının hamısını məhv edəcək, sənin orda qalmağın tamam faydasız olacaq... Buna görə də Bağ Ata İşıq gəmisi göndərib, əzabkeş Oğlunu, "Şam Ağa" (Şam AğEy) nənəmizlə birgə aparıb.

Bu "Səməd" bədbəxt "Musa" bədbəxtin kötükcəsidi, ey Təhriflər!

Təhrif İnsan Qorbaçov necə inansın ki, bu torpaqda Solomonun, "Moisey"in, "Zoroastra"nın, "Sasan"ın kötükcəsi dəfn olunacaq sabah! Heç olmazsa, az-çox hiss elə, ey Qorbaçov casusu ikən Xomeyni casusu Xəlvət. Heç olmazsa, az-maz hiss elə ki, bu ağsümük sifətli insanın "Ruh" – ƏrAğ uçuş saatlarında Kainatın "element"lərindən – ƏlMənlərindən təkrar yaranıb əbədi həyat qazanacaq.

---

[104] Y.Bertelsin ifadəsidir.

Vaxtilə Sultan Əmirlinin dilindən eşitmisən “əbədiyyət” – EvOd EyOd həqiqətini. Sonra Xızr Abıdan, sonra məndən eşitmisən. Əmma sən elə bədbəxtsən ki, “maqnit”, “sarı kərpic” adlandırdığın metalı Sudüşənə daşıtdıranda beynindən əsər-əlamət də qalmır.

SafAğı unudub “sufi”yə bağlanmış şərqşünas kürəkənləriyin “Xomeyni maqniti”ndən lap tezliklə məhrum olacaqsan, ey yazıq! Farsistlərin, ərəbistlərin səndən üz döndərəcəklər. Çünki bütün aydınlığı ilə dərk edəcəklər ki, nə “Fars” varmış, nə “Pers!”, EvƏrƏs varmış ki, o da EvƏrEy Bağlarının ordusu imiş, indiki “Fars körfəzi” uzununda məskunlaşıb, BağOdEvÜn – “Paxtavan”, “Pəhləvan” “Pəhləvi” sərkərdələrin əli altında, Bağdayı Qreklərdən, Suriyalılardan qoruyurmuşlar. “Şərqşünas”ların dərk edəcəklər ki, nə Əbülqasim Firdovsi adında şair var, nə də Firdovsinin “Şahnamə” adında dəstanı.

“Qasim”in əsli – OdƏrcəsi AğSimdir: Uca SafAğ İnsan. “Fird ovsi”nin əsli – OdƏrcəsi EvƏr EvƏsdir: Yaradan Evin İşıq Evi (beyni).

EvƏr EvƏs o bədbəxt şairin Odu – rütbəsidir.

“Şahnamə” yoxdu, “ƏsAğ ÜnMən” var. Yaradan SafAğ İnsanın Ünü.

Bəs niyə “fars” olub o bədbəxt?

“Qıyma-qıyma” danışacam, ey “maqnit” vurğunu!

Şərti olaraq “Firdovsi”, “Şahnamə” deyək ki, başınız şişməsin.

Bir dəfə Firdovsinin ölümündən yüz il sonra Hindistanda “fars atəşpərəst”ləri “düzəldiblər” “Şahnamə”ni. OdƏrlər yox, məhz “atəşpərəst”lər. Yəni OdƏsi – Yaradan Həqiqətə “Atəş” deyən təhrif dillilər. “Ölümündən yüz il sonra” dedim, yəni on birinci əsrdə. Bağday Sarlarına, ƏsAğlara aid olan yerləri pozub, “atəşpərəst” “Şah”ları vəsf edən parçalar yazıblar. Çünki Hindistan “Fars”larının təsəvvüründə hətta “Sasani” – Sağ ƏsÜn sülaləsi də OdƏs (Yaradan həqiqət) deyil, “atəş”pərəst”dir. Buna görə də dəstanın harasında OdƏrcə “ƏsAğ” kəlməsinə rast gəliblərsə, hamısını “Şah” yazıblar. “Şahların adlarını da OdƏrcə yox, “dəri”sayağı “farsca yazıblar.

Niyə?

Çünki, sadəcə, Qreklərin əli ilə Hindistanı dəfələrlə fəth edən İlanın buyruğu ilə, eyni kökdən olan EvƏrEy OdƏrləri ilə EvƏrƏs OdƏrləri arasında nifaq salmaq, OdƏslə “Atəş”i salışdırmaq, minlərlə təhrif dilli

---

[105] SimÜn BağOdƏr “ikona”larda “Pyotr” adlandırılıb.

[106] Qreklərin təziqi altında Ulu Bağ ƏsƏlMənin məclisinin hökmü ilə OdƏl (“Atilla”) Bağdayın sonuncu – beşinci vilayətini tərk edib öz ƏrSarları (“rısar”ları) və OdƏrlərin böyük bir qismi ilə birlikdə ilk dəfə “Sibir”də məskunlaşmışdı.

[107] Türkiyənin məşhur dövlət xadimi.

casusların fəaliyyəti nəticəsində EvEyi “vay”a, ƏsEvÜnü “Şivən”ə – “Şivaya” (Allaha) döndərmək lazımmış. İlanın bu heyrətli əməli bu gün də davam etdirilir Hindistanda, çünki bədbəxt Təriklər – “Türk”lər məkanıdı Hindistan, ey bədbəxtlər! “Şahnamə” məhz buna görə təhrif edilib!

İkinci dəfə Teymurləng “düzəltdirib” “Şahnamə”ni, “Atəşpərəst”lərin yazdıqlarını pozdurub, OdƏr Sarlarını vəsf edən fəsillər yazdırıb.

Niyə?

Çünki o qaniçən fateh, Nəsiminin cahillər arasında əzab-işgəncə çəkə-çəkə dərs deməyi nəticəsində, ömrünün axırına yaxın dərk eləyibmiş EvƏrEy OdƏrliyini – Tərikliyini – “Türk”lüyünü. Təbrizdən alimlər, şairlər aparıb Səmərqəndə, “Atəşpərəst”lərin “Şahnamə”yə doldurduqları iyirmi min misra əvəzinə qırxca min əlavə elətdirib! Tarixdir bu, ey “Farsist”lər! Rus arxivlərində gizlədilən tarix!

Teymurdan dörd yüz il sonra, on səkkizinci əsrdə ingilislər “Midiya”dan – Bağdaydan tərik düşənlərimizi yaxşı tanısalar da, sırf fateh münasibətilə, Teymurun “Türk”lərinin yazdıqlarını axtara-axtara qırx min sətir pozdurublar, bir o qədər əlavə yazdırıblar. Kimə? Atası ingilis, anası, əcdadı ingilis, EvƏrEyOdluğundan, BirOdluğundan xəbərsiz “Brit” şərqşünaslara! Yazdırıblar ki, “Şahnamə” “Türk”ün yox, “Fars”ın olsun: cənab Funtsterlinq “Fars”a “mədəniyyət” versin, əvəzində neft aparsın!

Gedib arxivlərdə oxuya bilərsiniz!

Siyasət danışmıram, ey məni “millətçi” adlandıran Sestramız, siyasətçilərin yaratdıqları “sivilizasion”un bəşəriyyəti necə məhv etdiyindən danışıram.

“Qrek”ə, “Latın”a yoldaş olub Oda “Ki” deyəndən sonra “İngilis” qardaşınız ÜnOd ƏlƏsə “İnqliş” deyib, Sara “ser” deyib, “ser”inin qarnını doldurmaq naminə Farsa verib “Şahnamə”ni! ÜnOd ƏlƏsə “İngilis”, ÜnOdƏl OdƏrə “İngiltər”ə deyən “gözəl dilli” təhrif qardaşın Fars isə “Şahnamə”ni aparıb Berlində “Doyliç” – OdƏlƏs qardaşımıza “düzəltdirib”. ƏrEyliklərindən, ƏlMənliklərindən, GurMənliklərindən xəbərsiz “German” “alimlərinə!” “Doyliç” qardaşımızdan sonra, nəhayət, “atamız, rəhbərimiz” Stalin, “sovet mədəniyyəti” yaratmaq naminə, yüz min misralıq “əlavə” “Şahnamə”lər içərisindən iyirmi min sətrlik “Şaxname” çıxartdırıb, müdrik şərqşünasımız Yevgeniy Bertelsin xalqlara mədəniyyət paylayan səxavətli əli ilə “Şax-name”ni Tehrana, “Şax-in-şax”a hədiyyə göndərib. Hərbi gimnaziya təhsilli “Şahənşah” isə, Stalinin hədiyyəsi əsasında “Şahnamə”ni yenidən “düzəltdirib”, BağOd EvÜndən xəbərsiz “Paxtavan” – “Pəhləvan” – “Pəhləvi” şücaəti ilə “Şahna-

mə”sini bayraq kimi qaldırıb, dünyaya car çəkib ki, mən “Fird ou si” varisiyəm, dünyada ən qədim mədəniyyət banisiyəm, mənə səcdə edin!

Görürsünüzmü nə qədər gülüncdür bu “Yer” mədəniyyəti?! “Təhsil” illəriniz havayı gedib, ey “Farsist”lər?!

Dərk eləyirsənmi, düşünürsənmi yetirdiyin “şərqşünas”lar kimə, nəyə xidmət eləyirlər, ey şüursuz “hökmdar!”

Həqiqətdən – Oddan ayrılan ÜnƏs necə “ins”an olubsa, eləcə də “nas” – “natsiy” olub, EvƏrƏs – “Pers” OdƏrim məndən ayrılıb dilinə “dəri” deyəndən sonra, ƏrÜzüm məndən ayrılıb özünə “Rus” deyəndən bəri Ər Üzü – İşıq mənası çatmır sizə!

İndi de görüm, ey şüursuz, Firdovsi kim oldu? EvƏr EvƏs? Xeyr! EvƏr EvƏs nə “Fird ov si”, “Fird ousi” adında şair var bu “Yer” adında təhrifxanədə, qəhbəxanədə, tüstüxanədə, nə “Firdousi”nin “Şahnaməsi!”

SafAğ Elmini bax belə yeyirsiniz, ağ günlərə çıxırsınız, ey özləri özlərini yeyən qurdlar – canavarlar!

Nəhəng, kor-kobud bədənli, mələk sifətli, alagöz Mariya – “Məryəm ana” hiss olunmadan dal otaqdan çıxıb, qonaqlarına təmiz nimçə paylaya-paylaya gedib, qayıdanda Sestranın biləyini öz güclü pəncəsində sıxıb gətirib, Mədəddən gizlin, Səmədə yeni “ukol” vurdurmuşdu. Mədəd öz sürəkli nitqindən o vaxt ayıldı ki, xırıltı kəsilmişdi, Səməd hətta, qollarını stolun üstünə qaldırıb, yanağını sol əlinin üstünə söykəyib, gözlərini açıb, bir növ sakit nəfəs alırdı. Mədəd xeyli təəccüblənib, duruxub, əmisinə doğru əyildi.

– Elə bil yaxşılaşdın!..

Səmədin üzündə təbəssümə bənzər işartı əmələ gəldi.

– Çıraq sönməzdən əvvəl işıq saçar, əzizim, dedi. – Sən danış, danış!.. Çalmağı, oxumağı da unutma. Eşidim son dəfə...

Mədəd dikəldi.

– “Fird ou si” əhvalatını bildiniz. Belədi bizim dünyamız!.. Firdovsidən sonrakı ən görkəmli SafAğ Alimi “Nizami”nin “Xəmsə”sində rəmzləri necə anlaşılmaz şəklə salıblarsa, “Nizami”dən sonrakı ən görkəmli SafAğ Alimi “Nəimi”nin “Cavidnamə”sində, “Nəimi”dən sonrakı ən görkəmli SafAğ Alimi “Nəsimi”nin “Divan”larında OdƏr sözlərini, Bağ, Sar Odlarını – adlarını – rütbələrini də eləcə dəyişdiriblər: “dəri”sini – OdƏr sözlərini büsbütün çıxarıblar! Cəhalət mücəssəməsi “Fars”ın ƏsEvÜn əvəzində işlənən “zəban”ında “dəri soymaq” OdƏr Dilini pozmaq mənasında işlənir. Cəhalətin dəhşətinə baxın ki, “Hüruf”i adı

altında gizlənən SafAğ Elmi on beşinci əsrin ilk illərində Səmərqənd-dən Misrə qədər zülməti – cəhaləti qovduğu halda, Misir sultanının Nəsimi haqqında hökmündəki "dərisi çıxarılsın" sözləri həm də həqiqi mənada dəri soymaq kimi başa düşülüb, ey "Fars" mənasız!

"Fars" "maqnit"i nə üçün göndərilir, qandınmı?! Heç olmasa hiss elədinmi ki, "Yer" adlanan bu qəhbəxanənin, tüstüxanənin ehtiraslarına bağlanmaq məhz fanilikdi, çürümək, torpağa qarışmaqdı, ey OdƏrBağa yad "torpaq!"

"Əbədiyyət" – EvOd EyOd bu SimOd Alimin sabahında, OdAğ-Üzdədi! "Firdovsi" – EvƏr EvƏs də OdAğÜzdədi. Məhz EvƏr EvƏs adında şair əyləşib orda, Alim şairlərin arasında, öz evində, "Yer"də yazdığı iyirmi min misrasının iyirmi mini də, əzbər bildiyi təhrif dilli "Şahnamə"si də beynində.

"Söhrab" adında hökmdarı – Sarı da var o "Şahnamə"nin, "Rüstəm Zal"ı da. Rüstəm Zalın böyüdüb tərbiyə elədiyi "Səyavuş" kimdi, "Şah-namə"də tez-tez "at"a, "it"ə, "siçan"a çevrilən adamlar kimdilər və nədilər?!

Bilirsinizmi, ay ət torbaları?! Casus şərqşünas alimləriniz açıblarmı sizə "Şahnamə" rəmzlərini? Xeyr, açmazlar!

Dəlimiz Dam direktor Ələskər müəllimdən, bu SimOd bədbəxtdən, Xızrnan Çürükdən, qismən də Səmi ilə Şöşüdən başqa bir köpəyoğlu bil-mir hələ mən nə üçün danışıram bu İlan "möcüzə"lərini və nə deyirəm.

Mən deyirəm: nə alimlər qanırlar "Şahnamə" nə olan şeydi, nə tər-cüməçilər, nə də oxucular. Yəni siz, ey bədbəxtlər! Nə də "Azərbay-canın ən gözəl guşələrində hərəsinə bir "villa" tikdirdiyiniz "farsist", "ərəbist" professorlarınız bilmirlər! Səhərdən axşama, axşamdan səhərə qədər Sudüşən çəmənində manqal tüstülədə-tüstülədə Firdovsinin "dəri" dilindən sitat qışqırırsınız o "alim"lərinizin hüzurunda! Moskva-nın "Leypsix" mağazasında satıcı "sestra"larınıza "Şax-name" bağışlayıb "Drevnyaya Persiya" qışqırırsınız! Əlinizdə "koptorq çeki"[101] cibinizdə bazar milyonu, dilinizdə "dəri" dili, "dəstan Firdovsi!"

Bütün başqa dəstanlarımız kimi, "Fars şedevri" adlanan o əsərin əsli də başdan-ayağa rəmzlərdən ibarətdi.

İndi açacam o "at"a, "it"ə, "siçan"a çevrilən adamların sirrini.

---

[108] "Görmür gözlərim" olmalıdır. "Aşıq Alı"nın Ündən aldığı qoşmada Koroğlu məhz "kor"dur: dəyişmiş zəmanəni görmür.

İlanın məkri ilə “Qrek” – “Latın” – “Fars” birliyinin “parçala, hökmran ol” hökmü ilə “İr+an”, “Tur+an” adlandırılan “Türk” ərazisində sərhəddən-sərhədə keçəndə “əskər” – əski Ər “at”a dönüb çapır, “it”ə dönüb izə düşür, “siçan”a dönüb yerin yarığına girir ki, “Söhrab”dan “Rüstəm Zal”a xəbər çatdırsın.

Söhrab şahdan?

Yox, ey “zəban” Təhriflər!

“Şah” yoxdu, ƏsAğ var, Yaradan SafAğ İnsan.

“Söhrab” yoxdu, Sağ ƏrEv var.

“Söhrab şah” – Sağ ƏrEv ƏsAğdı.

“Rüstəm Zal” – ƏrƏsOdMən ƏsƏldi. Yaradan Əlin Yaradan İşıq Həqiqəti! Əski Ərlər “at”a, “it”ə, “siçan”a dönə-dönə Sağ ƏrEv ƏsAğdan ƏrƏsOd ƏsƏlə – “Rüstəm Zal”a xəbər aparırlar ki, “Səyavuş”u – ƏsEy EvƏsi – Yaradan Evin Uca Yaradanını, yəni SafAğ Elmini hələ Sağ ƏrEvə – İşıq Evinə qaytar. Yəni onuncu əsrdə Din pəncəsində məhvə gedən Sağ ƏsÜn “Sasan” dövlətini bərpa elə. Budur “Şahnamə” həqiqəti: bütün dəstan bu fikrin üstündə qurulub.

Tarixdə nə “Söhrab” adında “şah” olub, nə də “Rüstəm Zal” adında “pəhləvan”, ey bədbəxt “farsist”lər! “Zal” – ƏsƏl – Yaradan Əl, (diqqət yetirin) Bağ Atanın Əli – Oğlu EySardı! “Qalaktika”mızın – QalAğımızın ƏlAğı – “Allah”ıdı! “Səyavuşu” – ƏsEy EvƏsi əsirlikdən yalnız “Zal” – ƏsƏl – Yaradan Əl – EySar qaytara bilər. EySar! “Səyavuş”u – ƏsEy EvƏsi – Yaradan Evin Uca həqiqətini yalnız “Zal” – ƏsƏl – EySar bərpa edə bilər. “İr+an”la – Ərlərlə “Tur+an” – OdƏrlər arasında hərb – zor – silah yox, “Zal” – ƏsƏl – Yaradan Əl – ƏlAğ EySar – “Allah” işləməlidir!

Budur “Şahnamə” həqiqəti! Ayrılmışları birləşdirmək cəhdi! Bəs sizin “Birliyi”niz nəyə xidmət eləyir, ay “Şiə” – ayrı bədbəxtlər?!

Yalnız SafAğ Elmini öyrənənlərə məlumdur ki, “Firdovsi” niyə deyir: “Rüstəm Zal Simurğun yuvasında böyüyüb”. Naşı oxucu çiynini çəkir: “Bu nə əfsanədi belə?! Necə yəni Simurğun yuvasında böyüyüb?!” Rəmzlərə bələd oxucu isə əvvəlcədən bilir ki, “Simurğ” – SimƏrAğ gəmisinin yuvası Kainatdı!

Cibində KPSS bileti gəzdirən Təftiş Abbas oğluna ƏlAğının rəmzi adını qoyub, ey kar-korlar: “Zal” – ƏsƏl!

“Zal”ımız – ƏsƏlimiz – Yaradan Əlimiz – ƏlAğımız – “Allah”ımız otuz dörd yaşına qədər bu “Yer” – EyƏrdə olub” deyən şagirdlərimizə deyirik: “Yer” – EyƏr Kainatda deyilmi, ey Kainatı “bu dünya”ya, “o dünya”ya bölən “ins”an?! Bildinmi ƏlAğdan nə üçün ayırıblar səni, niyə Şiə – ayrı eləyiblər?! Halbuki, “şiə” də ƏsEyin – Uca Yaradanın təhrifidir.

Mədəd köksündə zərbli döyüntülər hiss edirdi; birdən duruxub, yenə xırıltı eşidib, qəhərdən boğula-boğula əmisinin şüurunun üstündə olub-olmadığını bilməyə çalışanda Sestranın səsini eşitdi:

– Necə qəddarsan sən, Mədəd! Palaç tı! İzverq!

Bu səs, bu sözlər bir neçə dəfə təkrar olunandan sonra birdən çılğın qışqırtıya çevrildi:

– Ubiytsa! Svoloç! On je otets tvoy! “Oynaş!, ne oynaş”, vse je rodnoy otets! Vsem izvestno, çto on tvoy otets!

Şüşəli çaxnaşdı. Zərif üzlü, ala gözlü, ağbirçək Sestranın bu qədər ağır zərbə vuracağını nə Şüşəli gözləyirdi, nə də Mədəd özü. Gözlərini Sestra ilə Xəlvətin arasında sürətlə gəzdirib, zərbənin, əslində Xəlvətdən gəldiyini başa düşüb, dəhşətli təhqirdən ürəyində döyüntülərin əməlli-başlı tappıltılara döndüyünə fikir vermədən, lap asta, yorğun səslə, gözlənilməz sözlər dedi:

– Necə dəyişdirim mən səni, ey müqəddəsimə “oynaş” damğası vuran! “Ata”m deyil axı, ay qancıq!

Sestra diksinib dala çəkildi.

Mədəd ağlayırdı:

– Qulaq as!

“...Qədim Rus dövlətinin tarixi”ni kim yazıb?

İkicə nəfər, EvƏrEydən xəbərsiz, russkoyazıçnıy “Yevrey” yazıb! Bütün “SSRİ xalqları”, başda KPSS-in Siyasi Bürosu olmaqla, o ikicə nəfər kar-kor “Yevrey”ə inanıb deyirlər “axır ki, tariximiz yazıldı!”

Dinlə, ey “Rus” məhləsi! Diqqətlə dinlə:

Gör nə yazıblar: “Şimal ölkələrində geniş xalq kütlələrinin Rus dövləti haqqında təsəvvürlərini düzgün əks etdirən Skandinaviya eposunda Rus dövlətini “Qard arika”, yəni möhtəşəm binaları, hədsiz sərvətləri, çoxlu malları olan şəhərlər ölkəsi adlandırılır və deyilir ki, “Rus knyaz-

[109] “*Vay*” və “*Bay*” sözləri xalq içində eyni mənada işlənir.

larına – konunqlara[102] xidmət göstərməklə şan-şöhrət və dövlət qazanmaq olar".

Nədi bu? Soruşuram, əgər "Skandinaviya" əhalisi qədim "Rus" dövlətini "möhtəşəm binaları, hədsiz sərvətləri, çoxlu malları" olan şəhərlər ölkəsi "Qard arika" – GurOd ƏrAğ[103] addandırırsa və "Şimal ölkələrində geniş xalq kütlələri"nin təsəvvürü də belədisə, siz buna niyə etiraz eləyirsiniz, ey ikicə nəfərdən ibarət "Rus Dövləti tarixi" yaradanlar? Niyə fəxr eləmirsiniz bu tarixlə?!. Təhrif "Skandinaviya" "dil"ləri GurOd ƏrAğıma "Qard arika" deyib, bu öz yerində, bəs siz mənim "Möhtəşəm binaları olan şəhərlər ölkəmin" qədimdən də qədim tarixini niyə "Kiyev"dən başlayırsınız?! "Kiyev" – OdEv və "Nov qorod" – ÜnEv GurOd nəhəng dövlət tərkibində iki balaca şəhər olubsa, hansı mötəbər məxəz əsasında iddia edirsiniz ki, bu şəhərlər "Rusun iki mühüm mərkəzi olub?!" Əgər yazdığınız kimi, "eramızın ilk əsrlərində əhali əsası "Rus" kökündən olan "Ros" (ƏrÜz) "Rosoman" (ƏrÜzMən) adları daşıyırdılarsa, "Rus dövləti" yalnız doqquzuncu əsrdə Kiyevlə Novqorod şəhərlərinin birləşməsindən sonra yarandı?! Bağdayla müharibənin ardınca "Rus" ərazisində şəhərləri xarabazara döndərən "Alenksandr Makedonski"ni, İlanın fəxri fatehini niyə gizlədirsiniz? Sizin hansı mənəvi birliyiniz var o İlanla?! "Rosomon" – "RusMən" – ƏrÜzMən sözündən, öz ana dilinizdən niyə, niyə titrətməyə düşürsünüz?! "Roks Alan" – ƏrOdƏs ƏlÜn sözlərinin şərhini niyə gizlədirsiniz, ey SafAğ məxəzlərinə, öz əcdadlarına göz yuman təhriflər?!

Dünyaya yaymısınız ki, "Aleksandr Makedonskiy ne bıl v Barde. Makedonskiy ne voeval s Rossiyey".[104]

"Nizami – anaxronizm!" Büs-bütün tarixdən ibarət olan "Xəmsə"nin "İsgəndərnamə" qisminin tarixiliyini gizlətməklə, "Bərdə" – Birodu gizlətməklə, "Əxi" – AğEy məskənini, AğÜz vilayətini gizlətməklə nə qazanırsınız? Bu sualın cavabında da "qızıl" sözü gəlir!

Təkrar, təkrar, təkrar eləyin, ey bədbəxt cavanlar! Təkrar eləyin, Nizaminin sözlərini: "yeddi vilayətdən yeddi yüz min ordu ilə" İskəndərin qabağına çıxan Ki(n)tal – OdƏl – əbədi Bağ "Atilla" əbədi "Dəri" – OdƏr qoruyan ƏrÜz – "Rus" dövləti "anaxronizm"dir?! Skandinaviya eposunda "möhtəşəm binaları, hədsiz sərvətləri olan Rus dövlət"i "yalan"dır, "Kiyev"lə "Nov qorod" şəhərlərinin birləşməsindən sonra

---

[110] El arasında "rufani", "ruhani" adlanır. "Aşıq" – ƏsAğ Kamandar "həqiqət" deyirdi.

"yaranan" Rus dövləti doğru?! Planetin bütün tarixçiləri bağırırlar ki, "Rus tarixi"ni Kiyevdən yox, dünyanın başlanğıcından başlamaq lazımdır. Arxivlər doludur bu sözlərlə! Bu da yalan?! EvƏrimdən xəbərsiz ikicə "Avram"ın yaratdığı tarix doğru?!

OdƏl – "İtaliya" imiş! ƏrƏl ƏrimƏl – "Rom ul", "Roma", "Rim" imiş! ÜnƏs OdƏr "Nestor" imiş! BağOdƏr ƏrAğ "Patriarx" imiş! "Rim" də Bağdayı təmsil edən BağBağÜn – "Papaqan", "Papaq", "Babək" imiş! Təhrifin miqyasına bax, ey "Rus" məhləsi! "Nestorun" möhtəşəm şəhərlər ölkəsində yaydığı Ər ƏlAğ – (ƏlAğ İşığı) "Religiya" imiş! ÜnEv GurOd "Novqorod" imiş! OdEv "Kiyev" imiş! ÜnEv GurOdla OdEvin ƏskiƏrləri ilə quldar "Vizantiya"nın üstünə gedən OdEyƏs ƏlAğ "knyaz Oleq" imiş!.. Öz əlilə öz xalqını təhrif edib İlanın quluna çevirib əvəzində qızıl yığan "Avram"ın İlan məxəzləri əsasında quraşdırdığı "qədim Rus dövləti tarixi" tarix deyil, ey "Rus!" OdEyƏs ƏlAğ – "knyaz Oleq" "Vizantiya"da məğlub olub. Məcburən yürüşə gedibmiş ki, bəlkə Bağday OdƏrlərinin köhnə məkanlarından heç olmasa bir qismini qaytarsın, Şimalla Cənub arasında əlaqə üzülməsin. Bəli, məğlub olub. Yüz min monax "Bibl"lə silahlanıb düşüb GurOdun – "Qorod"un canına. "Türk" dilində nə varsa, hamısını yandırıb, "Bibl" soxublar ƏrÜzün, EvƏrEyin onsuz da təhrif dilli ağzına!

Eşidirsənmi, ey "Rus" məhləsi? Məndən niyə ayırıblar səni qanırsanmı?!

"İzverq" demə mənə, "Sestra"! Evindəki "ikona"da birinci sırada duran, EySarı Qrek KeSarına satan, EySarın BağOdƏr təyin elədiyi[105]

SimÜnün – "Simon"un gözlərini ovduran "Patriarx" "Pavel"inizdi izverq! EyOd OdƏrlərini "İudey"lərə döndərən, özlərini "Yevrey" qələmə verib EvƏrEy OdƏrlərini bütün planetdə Vatikana xidmətə məcbur edən "Papa"nızdı izverq! Dönə-dönə təkrar edin, ey cavanlar! Ərim – "Rim"dən başlamış Od – "Ki" – "Kin" – "Çin" ərazisinin ucqarlarına qədər, BağSar – "Misr"dən, ƏrAğ "İraq"dan başlamış SarUcAğ – "Səlcuq" ərazilərinin "UcRum", "Sibir" (ƏsEvƏrEy) – Subir[106] ucqarlarına qədər yeridilən "dil" siyasəti nəticəsində Tərik – "Türk" olan xalqın əksəriyyəti əslindən-kökündən ayrılıb. "Tarix"imizdə "Xanlıqlar dövrü" deyilən bir ifadə yaranıb. "İzverq"in fəaliyyətinin bəhrəsinə baxın: Bakı xanlığında "Türk", "Ərəb", "Fars" dilləri qarışığında, Quba xanlığında ƏrimEy (OdƏr), Fars dilləri qarışığında danışıblar! Şəki xanlığında bir cür qarışıq dildə danışıblar! Xalq o qədər avamlaşıb ki, mən "Bakı"nın əsli – BağOddu, "Quba"nın əsli OdBağdı, "Şəki"nin əsli ƏsOddu de-

yəndə, hətta həqiqətimizə az-çox bələd olanlar da üz-gözlərini turşudurlar: "Nə olsun ey?! OdBağ olmasın "Quba" olsun, nə mənası var?!

Məna budu ki, adı ƏrOdƏl olan "Osmanlı" qardaşım özünə "Ərdal" deyəndə bu Alim SimOd boğula-boğula qışqırıb: "Necə yəni "Ərdal", ey ÜnÖnü[107] qardaşım?! Necə dözürsən bu təhrifə – təhqirə?! Adını – Odunu – Həqiqətini itirən Tərikdən nə qalır?!

Bayaq Möcüz mənim miskin dostum Şövkət Tahirin şerini dedi, "Koroğlu" dəstanı haqqında həqiqət öldü.

Sənin üzündə rişxəndli təbəssüm vardı onda, farsistlərin, ərəbistlərin də için-için hırıldaşırdılar.

Mədəd – BağOd o hırıltını qulaqardına verəmmir. Qulaq asın!

EySarımız "Türk"ün öz Od – həqiqət kökünə qayıtmasını tələb edir. Odur ki, "Yer"ə vaxtaşırı yeni-yeni "dəstan"lar – OdƏs OdÜnlər göndərir. Yaradan Həqiqətin Həqiqət Ünü – OdƏs OdÜn deyir: "Yer"də Od yoxdu, "at" saxlayan, "Alı" var. BağOdƏr yoxdu, "mehtər" var. OdƏr yoxdu, "Kiər" – "Kor" var. OdƏr AğƏli yoxdu, "Kor oğlu" var. ÜnOdƏr AğÜn yoxdu, "Nigar xanım"var. EyEvƏs yoxdu, "Eyvaz" var. ƏsAğ OdÜn yoxdu, "Aşıq Cünun" var. Aşıq Cünun sazını çalsın, qoşmalarımı oxusun, kor oğullarıma şərh eləsin ki, "Yer"də Gur Od yoxdu, "Qır at" var, OdƏr Odu yoxdu, "Dür at" var. OdƏl yoxdu, "Dəli" var. OdƏsƏl yoxdu, "KiƏsƏl" – "Keçəl" var. HəmƏs yoxdu, "Həmzə" var. AğƏl ÜnƏs yoxdu, "qılınc" var. "Allah"ımın – ƏlAğımın – EySarımın Ünü eşidilmir. "Cünun"um – OdÜn Əli – "Alı" "dəstan" deyir, dərk edən yoxdu.

"Dəstanımın elə məqamı çatıb ki, indi daha diqqətli olmağa çağırıram bu "Badamlı" məclisini.

Vaxtı çatıb, hamı bilməlidi ki, Ermənilərin çuğulluğu nəticəsində Peterburqdan "Türk", "Fars", "Ərəb" dillərini, "Quran"ı, SafAğ rəmzlərini bilən xüsusi adamlar göndərirmişlər ki, "Naxçıvan" – "İrəvan", Göyçə, "Qazax-Borçalı", AğBabalı aralarında gizlin tədrislə məşğul olan Şeyx Əlini tapıb öldürsünlər. Ün eşidən SafAğ Alimi Şeyx Əli isə təhlükəni əvvəlcədən bildiyinə görə, gecənin birində evi tərk eləyib, öz tədris sahələrində axırıncı dəfə gəzə-gəzə "Koroğlu" dəstanının bütün qollarını son dəfə öz şagirdlərinə qələmə aldırıb BağOdƏr Əlini "Mehtər Alı" OdEyÜnƏs Odu (Günəş Həqiqəti) əvəzində "dəniz atı" deyib. Altı qitəli "Yer"in sahibi Ulu Bağ ƏsƏlMənin – "Süleyman padşah"ın Odunu – adını "altı ayaqlı dəniz atı" rəmzində gizlədib. "Dəniz atı"

“dəniz”dən çıxıb, “mehtər Alı”nın otardığı ilxıda bir madyanı sürüb. O madyandan iki qulun olub və sairə. “Koroğlu” “dəstanı”nın başlanğıcı, dediyim rəmzlər “Aşıq Alı”nın ömrünün son aylarından yadigardı. O yadigarları mən öz ömrümün son günündən yadigar kimi danışacam indi...

Əmimə baxma, Rəhim kişi.

Mənə bax: “Koroğlu bayatısı” oxuyuram:

Koroğlunun çən qalası,
Ərşə dayanıb naləsi,
Düşmənimnən qəvisi,
Heç o da yalqız olmasın.

“Koroğlunun bərk qalası” deməyib “Aşıq Alı” – ƏsAğ Əli, “çən qalası” deyib. Çünki şəhərləri, kəndləri tərk etməyə məcbur olan xalqımız dağlarda çəndə-dumanda gizlənirdi. “Aşıq Alı”nın öz taleyi də “Koroğlu” – OdƏr AğƏl taleyi idi.

“Düşmənimin ən qəvisi, heç o da yalqız olmasın” deyib, sizin Farspərəst, ruspərəst “folklorçu”larınız gör necə dəyişdiriblər o mələk İnsanın sözlərini: “Ördək ilən qaz balası, heç o da yalqız olmasın”. Nədir bu?! Niyə belə gülünc hala salıblar o ali sözləri?! Səbəbi kindir, Rəhim kişi! Əsrlərlə aşılanmış kindir ki, indi səni mənə “düşmənimin ən qəvisi” eləyib. Əmma mən sən qəviyə də yalqızlıq diləmərəm, “Koroğlu” dəstanın ən savaysı, ən loru “aşıq” dilindən yazıb, vicdansızcasına təhrif eləyib çapa verən Mirqəzəb kadrına – “folklorçu professor” Təhmasiblə onun adını təmiz saxlamağa çalışan “folklorçu” yetirmələrinə də yalqızlıq diləmərəm! Yalqızlıq xiffətdi, fərəhsizlik, ruhsuzluq, ümidsizlikdi!

Diqqətli ol. Tanı Koroğlunu!

Tarixçilərimiz Koroğlunu on yeddinci əsr Cəlalilər üsyanının başçısı eləyiblər. Deyirlər Cənubi Azərbaycanlıdı Koroğlu. Şəkil çəkiblər, başına keçə papaq qoyublar, ayağına çarıq geyindiriblər Koroğlunun. Yəni xalqın rəmzini – özünü “Alı kişinin oğlu” təki zırpı, kobud bir insana çeviriblər: “Plov yeyəndən sonra bığını silkələyəndə bığından tökülən düyüdən toyuq-cücə yeyib doyarmış!..” Guya xalqa xoş gəlmək üçündü bu. Bəs əslində nədi? Od Ərliyindən uzaq, avam Türkü kökündən uzaqlaşdırıb, “korun oğlu”na çevirmək cəhdidir. İkinci qism kinlilər deyirlər Kürddü Koroğlu. “Əslin kürddü, haramzadə!” – oxuya-oxuya GurOd OdƏrlərilə “Tərik” – “Türk” dillilərin arasında nifaq salırlar. Guya məhz “Kürd”lüyünə görə Koroğlu Paşaları, Xanları qırıb çatır. Üçüncülər de-

yirlər "təkə türkmən"di. Yəni qoyun sürüsünün qabağınca gedən keçidi, Osmanlılar isə bir dağ aşırımını Çənli bel adlandırıblar. Deyirlər Koroğlu bütün "Türk xalqlarının qılınc qəhrəmanıdı!"

Tanımırlar özlərini Tərik OdƏrlər: "Beş qurddan yaranmışıq biz", "Türk" güclü deməkdi; "Türk" qılıncı ilə tanınır", "Türk fatehdi". Məsəl var: "Öz adımı qoyum sənə, qalasan yana-yana!.."

Sestranın bu dəfəki qışqırtısını Xəlvət öz dilində təkrar etdi:

– Ölür!.. Ölür, ay qatil!

Mədəd isə, birdən-birə ağır-ağır çalmağa, oxumağa başladı:

Titrəyir əllərim, tor görür gözüm,[108]
Mənmi qocalmışam, ya zəmanəmi?!.

Cürə elə gözlənilmədən də susdu və sükut içində bu dəfə Mədədin heybətli qışqırtısı şüşələri cingildətdi:

– Çiyinləri Kalaşnikovlu "qılınc qəhrəmanları"sınız hamınız. Elminizi, zəmanənizi, özünüzü görməyən, korlar millətisiniz! Əsil mənada Təriksiniz, mənası olmayan "Türk"sünüz! Öldünüzmü?! Bir şey qana bildiniz – dirildinizmi?! Təkrar edirəm: "Türk" fateh olmayıb heç zaman. Böyük əksəriyyəti öz vətənindən kənarda təhrif olan bədbəxtdir! "Atilla" fəth etməyib "Avropa"nı – EvƏrEy Bağını, Qrek-Latın ordularından, qan tökməkdən, əbədiyyətini itirmək təhlükəsindən qaça-qaça gedib məskunlaşıb öz qədim Təriklərinin məskunlaşdıqları torpaqlarda. Bəli! Təkrar, təkrar, təkrar edirəm: Koroğlu qılınc qəhrəmanı deyil, ey Təriklər! Şerlərini oxuduğun o yanan Pünhanımız xüsusi ƏsƏr yazıb, tarixi faktlarla sübut eləyib ki, hətta o qaniçən Teymurləngimiz də qarşısıalınmaz hadisələr nəticəsində yürüşlər eləyib öz torpaqlarımıza! Hətta İldırım Bəyazid də fateh deyil, əksinə, Xaç yürüşlərinin qarşısını alan müdafiəçidir! Hətta "Konstantinopol"u fəth edən məşhur Fatehimiz də fateh deyil, əksinə, qədim Bağdayının torpaqlarını Qrek-Latınlardan azad edən xilaskardır!

"Çin səddi"nin "Türk"lərə müqavimət üçün çəkilməyi fatehlərin uydurmasıdır! Əslində Qreklərə qarşıdır o sədd!

Qayıdıram "Koroğluya".

Min dəfə demişəm, min birinci dəfə deyirəm: SafAğ Elminin bütün "dəstan"ları – OdƏs OdÜnlərin başdan-ayağa rəmzdi.

Koroğlu qocalıb, əldən-ayaqdan düşüb. Dəlilərindən, Nigarından ayrılıb. Yolun ağına düşüb gedir. Haraya, niyə getdiyini özü də bilmir. Bir kişiyə rast gəlir, xəbər alır ki, o çiynindəki nədi? Məlum olur ki, "tüfəng"di, təzə çıxıb, qılıncsız-filansız, uzaqdan-uzağa öldürür adamı. Koroğlu inanmır buna, deyir vur o öküzü öldür qıraqdan. Kişi öldürür öküzü. Koroğlu başa düşür ki, zəmanəsi qurtarıb. Sazını köynəkdən çıxarıb başlayır haray təpməyə ki, "tüfəng çıxdı, mərdlik getdi, ay haray".

Nədi bu?

Adi, sadə hekayə?

Bəs bu adi, sadə hekayənin altında nə var?

Dəhşətli bəşəri faciə var, Rəhim kişi.

"Yer"də zamanın, mühitin zorakılığı, cahilliyi əbədi insan OdƏr AğƏli qocaldıb ölümlü insana çevirib. "Kor"oğlu "kor"un "Öküz"ü – "KiƏsi" – OdƏsi – Yaradan həqiqəti öldürən "zəmanə"dən – ƏsMəndən başı çıxmır. Qanmır ki, ƏsMən – Yaradan Bağ yox, "kor"oğludu qocalan, ölümə məhkum olan!

EySar öz "Dəlilər"ini – OdƏllərini yenidən "Çənli bel"ə – gözə görünməyə – batinliyə, "Koroğlu"nu – OdƏr AğƏlin SafAğ həqiqətinə çağırır. Yəni OdƏr OdƏrliyində qalır.

Budur "dəstan"ın mənası.

Bədbəxtliyimizin bircə səbəbi var, ey Qonaqlılar, Tahirlilər, Qurbanlılar: OdAğÜzdən ayrılmısınız! Odur ki, özünüzü OdƏrliyinizi görməyən kor oğullarsınız! "Aşıq Alı" EySarın Ününü eşidə-eşidə yazıb, "Koroğlu"nu "aşıq"larımıza ƏsAğlarımıza verib ki, danışsınlar, şərh eləsinlər, savadsız qalan xalq içində elmimiz bərpa olunub insanı "Heydər"ə – EyOdƏr babamızla övladlarına bağlasın, siz isə şəkk-şübhə ilə baxırsınız üzümə ki, "Alı hara, Ün hara?!." Təkrar edirəm, əbədi Ulu Bağ ƏsƏlMənin, "Comərd", "Süleyman", "Musa ağa" adları altında gizlənməyə vadar edilmiş BağSarımızın bu taydakı Oğludu Şeyx Əli – "Aşıq Alı". Bağ Oğlu Bağdı. Sizdən fərqi nə idi? Gizlin beyni – Bağ Ünü vardı. "Səməd" – SimOdun yazdığı həqiqəti tamam sərfnəzər eləyənlər, Nəiminin, Nəsiminin haqqında uydurmaların müəllifləri deyirlər:

"Hürufilər insanı Allah səviyyəsinə qaldırırdılar".

"Nəim" (i) – Ünüm ikən, "Nəsim"(i) – ÜnƏsim ikən, yəni hər ikisi insan və Bağ ikən, hər ikisinin şagirdləri – OdƏrlər də insan və ƏlAğ ikən "bir olan "Allah" – mif səviyyəsinəmi qalxırdılar, ey "şərqşünas-

lar?!” ƏlAğı, öz irsini dərk edə bilmiyən alimi-biəməllər “Aşıq Alı”nın Elmini də dərk edəmmirlər!

Məşhur “Ustadnamə”sindən bircə sətrə qulaq asın:

“A”, “B” dedim, “iki” saydım, “B” oxudum.

“A” – “Əlif” – ƏlEvdi. “B” – Bağdı (“A”, “B” dedim, yəni ƏlEv, Bağ Atanın Evinin Əli Bağdı dedim). “İki” – “EyKi” (saydım), yəni EyOd – Uca Həqiqət dedim, B – Bağ oxudum”.

Aydın deyilmi ki, “Aşıq Alı” adı ilə tanıdığınız o “adi” “aşıq” da “hürufi”di, SafAğdı! Firdovsinin, Nizaminin, Nəiminin, Nəsiminin davamçısıdı! Yəni SafAğ Silsiləsi Alimlərinin ən batinlərindəndi!

Alının yetirməsi Ələskərin – AdıPünhan ƏsAğ ƏlƏsOdƏrin sətrinə qulaq asın:

“ƏlƏsTü”dən “B” “Əli” dedim, nə xoş kəlamdı yüküm”.

ƏlƏs – Yaradan Əldi. Bağ Atanın yaradan Əli – EySar. “T” – Oddu. ƏlƏsOd – Yaradan Əlin həqiqətidi. “B” – Bağdı. “B Əli” – Bağ Əlidi, yəni EySar. Ələskər deyir: “ƏlƏsTüdən – Yaradan Əlin həqiqətindən danışıb “Bağ Əli” dedim, yəni “EySar” dedim, görün “yüküm” – Elmim necə xoş kəlamdı”.

Bildinizmi ki, “Aşıq Ələskər” adı ilə tanıdığınız o “adi” “aşıq” da “hürufi”di – SafAğ Alimidi?! Firdovsinin, Nizaminin, Nəiminin, Nəsiminin davamçısıdı! Yəni “Ələskər” – ƏlƏsOdƏr də Silsilə Alimidi!

Görürsünüzmü, İlan “Din”, “Religiya”, döşü “xaç”lı “patriarx”, başı əmmaməli “imam” zülməti əsrlərində Elm necə “podpolya”ya gedir, necə “çekist” olur! “Mandatam poşadı net”, cənab Sestra!” Qeyri-bərabərlik, zülm düşməni Mayakovskiy Nizaminin “Xəmsə”sindən dərs almışdı, ey Rus məhləsi: Rus dili imkan vermədi ki, o bədbəxt də “Dəli” – OdƏl – Dil həqiqəti ucalığına qalxsın, bu bədbəxt “Səməd” – SimOd kimi, o da üsyan istədi və məhv oldu!

Sizin bu “Birliy”inizin, sabahkı açıq “Boz qurd” canavarlarının dilində Bağday – “Az ər bay[109] (vay) can” ərazisinə dəhşətli bir bəla gəlir. Adını hamınız eşitdiyiniz, “şərqşünaslıq”da büs-bütün təhrif edilmiş “Şeyx Səfi”ni, “Heydər”i, “Şah İsmayıl”ı yada salın. Əzabkeş ƏsAğ “Səfa” – SafAğ ikən “Şeyx Səfi”nin şair nəvəsi “İsmayıl”ı kim “Qızılbaşa” – “Şiə”yə döndərdi?! “Türk” adlandırılan qardaşlarının üstünə müharibəyə kim qaldırdı onu?! Həmincə İlanın Kərbəlayı, Hacı rütbələri altında gizlənmiş Vatikan casusları on beş yaşlı beyni qan “İsmayıl”ın ƏsEvƏlliyini gizlədib hər gün, hər gün “Sən Şiəsən! Sən Şiəsən!”,

“Sən Türk deyilsən, “müsəlman Türk” sənin düşmənindi” deyə-deyə törətmədilərmi Çaldıran müharibəsi qırğınını, ey kar-kor “şərqşünas”lar?! Aranızda bircə nəfər düşünən varmı ki, SafAğ “Divan”ı müəllifi “Şah İsmayıl” ismi Pünhan ƏsAğ ƏsEvƏl ikən niyə “Səfi” – “Səfəvi” adlanan təhrif dövlət yaratdı və o “Səfəvi” adlananlar nə səbəbdən o tay-bu tay “Muğan”a – Bağlara hücum çəkib dörd yüz min “Muğ” – Bağ qırdılar?!

Xəlvət Astaradan bir bizburun molla gətirib. Bu ötən dörd ayda gecələr burda mənlə, Şöşüylə qabaq-qənşər oturub araq vura-vura azı beş min dəfə deyib: “Sultan Səlim əlli min Şiə qırıb!” Şöşü gülür: “Ninninisən, a Ninnini!” Mən susurdum. Çünki o bizburunun bu təbliğatının nəticəsini görürdüm. Tək bir dəfə dedim: “Bəs o dördcə yüz min Muğu niyə demirsən, ey casus belə-filan?!” Bir dəfə də özümü saxlıyammayıb stuldan itələdim, başı taxtaya çırpıldı, çoxlu qan axdı. Qanını görəndə özünü itirdi, tir-tir əsdi bizburun: “Dəymə mənə!” – dedi, yalvardı. “Şah İsmayılın özünü də elə o Kərbəlayı, Həci casuslar öldürüblər, özlərinə Səfəvi deyiblər”, – dedi.

Budur sizin sifətiniz! Bağdayın ən qədim dövrlərdən bu son əsrlərə qədər nə qədər şan-şöhrətli, müdrik şahları, sultanları olub! Bizburun mollanın niyə məhz o bədbəxt təhrif İsmayılı, məhz o casuslar hakimiyyətini təbliğ eləyirsə və siz bunu sabah-birisigün dilinizin əzbərinə çevirib, bütün tariximizi danacaqsınızsa, axırımız nə olacaq, ey Təhriflər?!.

Mədəd nəfəsini dərib, ağır təmkinlə “hürufani”[110] çalmağa başladı.

– İndi vidalaşaq, ey Təhriflər.

Gözləri əmisinin ağsümük üzündə göyümtül çalan gözlərinin dərinliyindəki yaşıllığa dirəndi. Cürənin qara sinəsinə iri-iri damlalar töküldü.

Xəlvət kresloda titrəyib ayağa qalxdı:

– Ölüb axı!.. Çalma daha!.. Sən nə təhər əmioğlusan əşi!..

Mədəd gözlərini sildi.

– Kəs səsini! Bircə saat bundan əvvəl “oynaş” oğlu idim! Dilini dəyişdirdim, Rəhim kişi. Hələlik bununla kifayətlənək... Dəstanım qurtardı.

Dal otağın qapısı açıldı. Qara geyimli, boz sifətli, çiyni “Kalaşnikov” avtomatlı, ucaboy, zəhmli bir oğlan yaxınlaşıb “pomost”da ayaq saxladı. Səmi idi: Səmədin Torksindən olan yeganə oğlu.

Səminin səsi də zəhmli, qorxunc idi:

– Qalxın, rədd olun burdan!

Mədəddən də heybətli qışqırtı qopdu:

– Qırılmalısınız! Əmma Xəlvətin səsində insan səsi eşitdim. Sükutunuzda peşimançılığa oxşar bir şey görünür. Səmi, əlini çək tətikdən. Sən yaşamalısan, Kalaşnikovla yox, sözlə öldürüb, sözlə diriltməlisən cəhaləti!

"Pomost"dan endi, stollardakı "Badamlı"ları bircə-bircə götürüb divarlara çırpa-çırpa, pavilyonun bütün şüşələrini sındırıb tökdü. Sonra qayıdıb, əmisini qucağına götürdü, ağsümük üzünü meyidin ağsümük üzünə sıxıb, şüşə parçalarını xınca-xınca çıxıb, kəndə doğru uzaqlaşdı.

Şüşəlinin dəmir skeletinin ətrafında, çinarın çılpaq budaqlarının altında heç kəs tərpənmirdi, heç kəs dillənmirdi. Heç kəsin xəbəri yoxdu ki, ağsümük üzünü meyidin ağsümük üzünə sıxıb, səhərin alatoranında yol-iz seçmədən səndələyə-səndələyə gedən Mədəd özü də indi meyid kimi, ağlını, hissini, duyğusunu itirmiş ölü kimi bir şeydi. Bərkiyib daşa dönmüş beynində yalnız bir fikrə, hissə bənzəyər bir qığılcım göz açıb, Sultan Əmirlinin, Mədəd Əmirlinin, Sura, Torksin Əmirlilərin qəbirlərinin sırasında, təzə qəbirdə özünü – əmisinin Bircə balasını, Varisini, Tədqiqatçısını da əmisi ilə yanaşı görürdü; üç para kəndin camaatından hələ heç kəsin xəbəri yoxdu ki, qucağında meyid aparanın özü də meyid idi. Üç para kəndin camaatı ilə birlikdə, bütün "Yer"də hələ heç kəsin xəbəri yoxdu ki, həmin bu vaxt, sazaqlı dekabr səhərinin alatoranında EyƏrin BağOddan azmış "Baki", "Bakı", "Baku" adlanan "kor" millət şəhərində, "Hüsü Hacıyev" küçəsi ilə "Həzi Aslanov" küçəsinin kəsişdiyi yerdəki binanın mənzillərindən birində heç kəsin anlamadığı bir bədbəxt OdƏl oturmuşdu, gecələr saat on ikidən səhər saat yeddiyə qədər OdAğÜz BağOdƏr planetindən ən əziz, ən doğma insanın – EySarının səsini dinləyə-dinləyə yazdığı bu ƏsƏri ilə "Yer" bəşəriyyətinə lənət oxuya-oxuya deyirdi: "İsa", "İisus" adlandırdığın EySarla, BağSar AğEyin – "Musa ağa"nın nəslindən "Muğanna" arasında rabitə yaranıb, ey ÜnƏs – "ins"an"! Oxu bu Əsəri, dəhşətə gəl, ay qatil! Ayıl və anla ki, "Əbədiyyət" əfsanə deyil, EvOd EyOddur – Həqiqət Evinin Uca həqiqətidir, ey EvOda "Əbəd", EyOda "iyyət" deyən bədbəxt! Oxu bu ƏsƏri – Yaradan İşığı, Odu dərk et, təhrif "beynin"lə, çürük bədəninlə döyüş, saflaş, əbədi ol. Öz EvOdÜnündə – öz "bədən"ində, EyƏrində əbədi! Sənin ana dilində "na bojyem yazıke" deyirəm: insan əbədi yaşaya bilər. Odu dərk etsən, əbədi yaşayacaqsan, ey cahil, "SimƏrAğ", "GurOd" adlarında Kainat gəmilərini, Ulu Bağ ƏsƏlMəni, EySar ÜnEvi, EvƏrimi, EySarı, Bağlarını, Bağ Atanı görəcəksən. Uca

Odlarınla – əcdadlarınla birgə OdAğÜz BağOdƏrə OdAğÜzdən EyƏrə uçacaqsan. Bütün Kainatın əbədi sakini olacaqsan. Bundan böyük xoşbəxtlik olarmı, ey Odsuz – həqiqətsiz bədbəxt “kor” – OdƏr?!

*Əlavə xəbər:*
*İşıq gəmilərinin “Yer”ə enməyinə lap az qalıb.*

## MÜNDƏRİCAT


*Ön söz* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 4

Süleyman padşahın xəzinəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 6

Xəzinə üstündə yatan ilan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 196

Kainat sakinləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 340

Ölüm-dirim . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 444

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Ələkbər Kərimov* |

Yığılmağa verilmişdir 14.09.2004. Çapa imzalanmışdır 01.03.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 33,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 40.

Kitab “PROMAT” mətbəəsində çap olunmuşdur.